AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL PROBLEMLƏRİ İNSTİTUTU

**MÜDAFİƏ MAHMUDOV**

# DÜNYADA
# TƏHSİL SİSTEMLƏRİ



**Bakı – Mütərcim – 2014**

28534

Elm və Təhsil Mərkəzi
„T... Universiteti
Kitabxana

*ARTPİ-nin Elmi şurasının 31 may 2013-cü il tarixli iclasının (protokol №5) qərarı ilə çap olunur.*

**Elmi redaktor:** **Abdulla Mehrabov,**
*Rusiya Dövlət Təhsil Akademiyasının xarici üzvü, texnika üzrə elmlər doktoru, professor*

**Rəyçilər:** **Fərahim Sadıqov,**
*pedaqogika üzrə elmlər doktoru, professor*

**Akif Abbasov,**
*pedaqogika üzrə elmlər doktoru, professor*

**Oruc Həsənli,**
*pedaqogika üzrə elmlər doktoru, professor*

**Şahin Tağıyev,**
*pedaqogika üzrə elmlər doktoru, professor*

**Ramiz Əliyev,**
*psixologiya üzrə elmlər doktoru, professor*

**Müdafiə Cəmil oğlu Mahmudov. Dünyada təhsil sistemləri.** *Monoqrafiya.* – Bakı: Mütərcim, 2014. – 480 səh.

Kitabda inkişaf etmiş dünya ölkələrinin təhsil sistemi ilə bağlı müxtəlif istiqamətlərdə aparılmış araşdırmalar əksini tapmışdır.

Bu araşdırmalar qabaqcıl və qonşu ölkələrin təhsilinin tarixi, onun məzmunu, strukturu, idarə olunması, qəbul qaydaları, qiymətləndirmə modelləri və s. haqqında zəngin materialları əks etdirir. Kitab sırf təhsil sahəsində çalışan mütəxəssislər və əməkdaşlar üçün deyil, həm də geniş ictimaiyyət üçün yazılmışdır.

Kitab 2003-cü ildən başlayaraq dünya ölkələrinin təhsil sferasındakı bütün məlumatlar toplanıldıqdan, araşdırıldıqdan və tam təhlil edildikdən sonra hazırlanmışdır.

ISBN: 978-9952-28-166-8

©M.Mahmudov, 2014

# MÜNDƏRİCAT

Ön söz (*Qulu Novruzov*) ........................................ 4

Amerika Birləşmiş Ştatlarında təhsil ........................................ 7
Böyük Britaniyada təhsil ........................................ 74
İtaliyada təhsil ........................................ 114
Almaniyada təhsil ........................................ 124
Fransada təhsil ........................................ 150
Niderlandda təhsil ........................................ 171
Belçikada təhsil ........................................ 185
İsveçdə təhsil ........................................ 195
İsveçrədə təhsil ........................................ 215
Yaponiyada təhsil ........................................ 229
Cənubi Koreyada ali təhsil ........................................ 259
Çin, Tayvan və Sinqapurda təhsil ........................................ 276
Avstraliyada təhsil ........................................ 301
Yeni Zellandiyada təhsil ........................................ 331
Danimarkada təhsil ........................................ 340
Hindistanda təhsil ........................................ 354
İranda təhsil ........................................ 366
Türkiyədə təhsil ........................................ 376
Ukrayna və Rusiyada təhsil ........................................ 393
Azərbaycanda təhsil ........................................ 434

İstifadə olunmuş ədəbiyyat və mənbələr ........................................ 476

# ÖN SÖZ

Dünyanın bütün ölkələrində gənc nəslin təhsil və tərbiyəsi indiki dövrdə böyük aktuallıq kəsb edir. ABŞ, Qərbi Avropa, Yaponiya, Rusiya və s. tanınmış nüfuzlu ölkələrdə böyüyən nəslin təhsil və tərbiyəsi ilə bağlı əldə olunmuş nailiyyətlər, töhfələr bütün dünya ölkələrinə öz təsirini göstərmişdir. Eyni zamanda Azərbaycanda da dünya ölkələrinin təhsil sistemi geniş müzkirə mövzularından biri olmuşdur. Bu baxımdan bir çox ölkələr Ümumavropa təhsil məkanına inteqrasiya olunmaqla, hər bir ölkənin təhsilinin öz spesifikasına uyğun müəyyənləşməsi əsas çıxış yolu olmuşdur.

Dünya hazırda vahid deyil, məhz buna görə də təhsilin hər hansı bir vahid modeli də mövcud ola bilməz. Buna baxmayaraq biz ölkələri az və çox inkişaf etmiş ölkələrə bölürük, bunlar içərisində elələrini seçirik ki, özümüzü onlara oxşatmaq böyük əhəmiyyət kəsb etsin və nəticə etibarı ilə müasir inkişaf etmiş cəmiyyətin insanının hər hansı bir modeli təsvir oluna bilsin.

Kitab hazırlanarkən mövcud dünya təhsil sisteminə aid bir çox məlumatlara istinad edilmiş, onların faydalı cəhətləri nəzərə alınmışdır. Kitabda dünyada tanınmış nüfuzlu ölkələrin təhsil sisteminin yaranma tarixi, inkişafı və bu günə kimi əldə olunan nailiyyətləri nəzərdən keçirilir. Dünyada təhsil sistemlərinin mahiyyəti sxematik şəkildə belədir: ilk dəfə olaraq məktəbin yaranması, inkişafı tarixi, indiki dövrdə müasir elm və təhsilin əldə etdiyi nailiyyətlər və töhfələr, ölkə təhsil və elminin zirvəsinə qalxmış şəxslərin nailiyyətləri və onların qiymətləndirilməsi, hər bir ölkə ictimaiyyətinin bu prosesin inkişafında göstərdiyi səciyyəvi cəhətlər özünü əks etmişdir. Kitabda real həyatda ölkələrin təhsil sistemlərinin bir-birinə inteqrasiyası geniş və açıq şəkildə şərh olunmuşdur.

Qabaqcıl ölkələrin təhsil sisteminin tarixini öyrənməklə bu irəliləyişin, bu tərəqqinin mahiyyətini anlamaq mümkündür. İndiki dövrdə elm və texnikanın sürətlə inkişafı dünyanın bütün ölkələrinin təhsil məkanında uyğun islahatların aparılmasına, "yenilik", "yeniləşmə", "modernləşdirilmə" terminləri adı altında nəzəriyyə və praktikanın zənginləşməsinə münbit zəmin yaratdı.

Təhsil sisteminin keçmişini araşdırmaq bu günü və gələcəyi dərindən dərk etməyə imkan verir. Məlumdur ki, dünyada ilk universitetlər X–XI əsrlərdə Qərbi Avropada yaranmış və bu günə qədər öz əhəmiyyətini itirməyən böyük inkişaf yolu keçmişdir. Mövcud təhsil sistemlərinin öyrənilməsi insanlar, xalqlar arasında yaranmış neqativ halların aradan qaldırılmasında, problemlərin həllində perspektiv meyillərin öyrənilməsinin araşdırılmasında, islahatların prioritetlərinin müəyyən olunmasında mühüm yer tutur.

Kitabın yazılmasının əsas məqsədlərindən biri tanınmış ölkələrin təhsil sisteminin inkişaf tendensiyalarının öyrənilməsidir. Bu isə gənc nəslin təlim və tərbiyəsində siyasi və tərbiyəvi əhəmiyyət kəsb edir. Kitabda həm də dünya ölkələrinin təhsil sisteminin kökləri, təhsil sferasında indiki nəslin tərbiyəsinin milli xüsusiyyətləri, milli ənənələri, onların iqtisadi, sosial-siyasi problemləri nəzərdən keçirilmişdir. Kitabda ABŞ, Qərbi Avropa, Yaponiya, Türkiyə və s. ölkələrdə gənc nəslin təlim-tərbiyəsinin təkmilləşməsinə təkan verən hərəkətverici qüvvələrin roluna xüsusi diqqət yetirilmişdir. Bu ölkələrin müxtəlif təhsil sistemləri vardır. Onların öyrənilməsi Azərbaycanda milli və regional xüsusiyyətləri özündə əks etdirən müstəqil təhsil konsepsiyasının hazırlanması üçün böyük əhəmiyyət kəsb etmişdir.

Kitab hazırlanarkən ölkələrin təhsil sisteminə aid yazılmış kitablardan, internet məlumatlarından, jurnallardan, qəzetlərdən, müxtəlif ensiklopediyalardan, radio və televiziya verlişlərindən və s. istifadə olunmuşdur, həm də təhsil sferasında çalışan müəllimlərin və müxtəlif şəxslərin fikirləri nəzərə alınmışdır.

Toplanan bütün materiallar ümumləşdirilmiş, bir-birinindən fərqlənən müddəalar müqayisə edilmiş, oxuculara kifayət qədər məlumatlar verilməsinə çalışıbmış və qismən də olsa Azərbaycan təhsili ilə dünya ölkələri təhsilində fərqli mübahisəli müddəalar araşdırılmışdır. Kitabda ulu öndərimiz Heydər Əliyevin ölkəmizdə təhsilin inkişafındakı ideyalarına sadiq qalan möhtərəm Prezidentimiz cənab İlham Əliyevin bu istiqamətlərdəki fəaliyyətindən məlumatlar şərh olunmuşdur.

Kitabda dünyanın nüfuzlu tanınmış ölkələrinin təhsil sisteminin formalaşdırılması, tarixi, öz xalqının tarixinə, mənəviyyatına, ənənələrinə uyğun quruluşu, inkişafı, nailiyyətləri və s. göstərilmiş və ölkələri bir-birinin təhsil sisteminə inteqrasiya yolunda mühüm addım atdıqları faktlarla yanaşı araşdırılaraq açıqlanmışdır. Dünyada elm və texnikanın sürətlə inkişafının bütün yeniliklərini bilmək, onları qavramaq, qabaqcıl ali məktəblərlə əlaqə yaratmaq təhsil prosesinin inkişafında mühüm rol oynayır.

Dünya ali məktəblərinin ən mühüm inkişaf meyillərindən biri təhsilin qloballaşması məsələsidir. Bir çox ölkələrin təhsil sistemləri vahid təhsil məkanı və təhsil standartlarının yaradılması istiqamətində fəaliyyət göstərir. Üçüncü minilliyin birinci onilliyində Azərbaycan təhsilində böyük dəyişiklik və yeniliklər olmuş, siyasi, iqtisadi və s. sahələrdə müəyyən nailiyyətlər əldə olunmuşdur.

Azərbaycanda təhsilin dünya təhsil sisteminə, xüsusən ali təhsil müəssisələrinin Avropa təhsil məkanına inteqrasiya prosesi, Bolonya Bəyannaməsini tələblərinin yerinə yetirilməsi sahəsində işləri sürətləndirmək üçün, Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikasının Pre-

zidenti İlham Əliyev tərəfindən imzalanmış 31 yanvar 2008-ci il tarixli sərəncam bu sahədə zəruri tədbirlərin həyata keçirilməsini istiqamətləndirən mühüm sənəddir.

Amerika və Qərbi Avropa ölkələrinə yaxınlaşmaq istəyiriksə, onda necə yanaşmanın yolları haqqında fikirləşməliyik və ya bu ölkələrdə təhsilin quruluşunu və inkişafını dərindən öyrənmək lazımdır.

Dünyada ali məktəblərin ən mühüm inkişaf meyillərindən biri təhsilin qloballaşması məsələsidir. Bir çox ölkələrin təhsil sistemləri vahid təhsil məkanı və təhsil standartlarının yaradılması istiqamətində fəaliyyət göstərir. Bu prosesin başlıca faktoru Azərbaycanın da 2005-ci ildə qoşulduğu Bolonya prosesidir. Son zamanlar Azərbaycan təhsilində böyük dəyişiklik və yeniliklər olmuş, siyasi, sosial, iqtisadi və s. sahələrdə müəyyən nailiyyətlər əldə olunmuşdur.

Ölkəmizdə kurikulum islahatı həyata keçirilir və cəmiyyətimizin bütün sahələrində olduğu kimi həm də təhsil sahəsində yeni təlim standartları tətbiq olunub. Buna görədə kitabdan dünya ölkələrinin ümumitəhsil və müxtəlif ali məktəblərində kurikulumla bağlı geniş sayda məlumatlar almaq olar, digər tərəfdən kitabda müasir təhsil texnologiyalarından biri olan qiymətləndirmə sahəsində yeni yanaşmalar öz əksini tapır.

Kitab müasir dünya ali məktəbləri haqqında qiymətli və əvəzolunmaz biliklər verir. Kitab şagirdlərə, tələbələrə, magistrlərə, müəllimlərə, pedaqogika tarixçilərinə, təhsil sferasının bütün sahələrindəki işçilərə, təhsillə maraqlanan insanlara və s. ünvanlanmışdır.

**Qulu Novruzov,**
*Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitunun direktoru, hüquq üzrə fəlsəfə doktoru*

# AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINDA TƏHSİL

Amerika Birləşmiş Ştatları dünyanın çoxsaylı demokratik ölkələrindən biridir. ABŞ-da 220 milyondan çox əhali vardır və bu ölkədə ilk məktəblərin açılışı koloniyaların yaranmasının başlanğıc dövrünə (XVI–XVII əsr) təsadüf edir. XVII–XVIII əsrlərdə Şimali Amerikada məktəb təhsili Avropa təhsil sisteminin təsiri altında inkişaf edirdi. Şimali Amerikada ilk ibtidai təhsil müəssisələri XVII əsrdə puritan icmalarında yaranmağa başladı. Belə məktəblərin fəaliyyətini tənzimləmək üçün 1647-ci ildə Massaçusets ştatında ibtidai məktəb sisteminin əsasını qoyan ilk qanun qəbul edilmişdir. İlk şəhər məktəbi 1635-ci ildə Bostonda açılmışdı. XVIII əsrin 70-ci illərində Şimali Amerikanın koloniyalarında yeni tipli ümumtəhsil məktəbləri yaradıldı və bunlar akademiya adlanırdı.

Milli maarif sistemi istiqlaliyyət uğrundakı müharibədən sonra təşəkkül tapmışdır. 1852-ci ildə Massaçusets ştatında ibtidai məktəb sisteminin əsasını qoyan ilk qanun qəbul edilmişdir. Ştatların çoxunda təhsil 6 yaşından 16 yaşınadək icbaridir. 1974-cü ildə ümumtəhsil məktəblərin nəzdində birillik hazırlıq şöbələri yaranmışdır. 1974-cü ildə ümumtəhsil məktəblərində 50 milyon, peşə məktəblərində isə 12 milyondan çox şagird oxuyurdu. 1970-ci illərin əvvəlində 159 universitet və 2506 kollec fəaliyyət göstərirdi. Ali məktəb və kolleclərin çoxu, 1469-u xösusi (özəl) olsa da, onlarda yalnız 2 milyon tələbə təhsil alırdı. Xüsusi məktəblərdə təhsil haqqı dövlət ali məktəblərindəkindən xeyli yüksəkdir.

Milli maarif sistemi istiqlaliyyət uğrundakı müharibədən (1775–1783) sonra təşəkkül tapmışdır. 1779-cu ildə T.Cefferson tərəfindən hazırlanan və məktəbə pulsuz, ümumicbari status verən təhsil layihəsi dərc olundu. Onun təşəbbüsü ilə üçpilləli ümumtəhsil məktəb modeli hazırlandı. Bu model o dövrdə Amerika məktəblərində kök salmış Avropa təhsil sistemindən uzaqlaşmaq istiqamətində ilk cəhd idi. 1789-cu ildə ABŞ Konstitusiyasında və 1791-ci ildən isə hər bir Ştatda Təhsil komitələrinin yaradılması qəbul olunmuşdur. XIX əsrdə ABŞ-da milli təhsil sisteminin formalaşması prosesi həyata keçirildi. 1852-ci ildə Massaçusets ştatında, 1918-ci ilə qədər isə bütün ştatlarda ümumi icbari ibtidai təhsil haqqında qanun qəbul olunmuşdur.

Virciniya ştatında dövlət məktəbləri 1870-ci ildən fəaliyyət göstərirdi və 5–17 yaşlarında təhsil məcburi idi. Bu ştatda 6,5 milyon nəfər əhalidən 1,3 milyonu (5 nəfərdən biri) təhsil alırdı və 77 min müəllim (hər 5–6 şagirdə bir müəllim düşürdü) fəaliyyət göstərirdi. Məktəb 5 günlük idi və təhsil müddəti ildə 180 gün idi. Hər gün tədris saatına 5 saatdan çox vaxt ayrılırdı. Aydındır ki, tədris prosesi

nəyə, kimə, necə, nə vaxt suallarından doğan dinamik fəaliyyətdə yaranırdı. Onun nəticələri isə bilik, bacarıq və vərdişlərin davamlılığı ilə ölçülürdü. Şagirdlərin səviyyəsini müəyyənləşdirmək üçün yoxlamalar aparılırdı. Bu zaman şagirdlərin topladığı ballara yox, onların bilik, bacarıq və vərdişlərinin səviyyəsinə diqqət yetirilirdi. Nəticə ictimaiyyətə açıqlanır və ilk növbədə valideynlərə çatdırılırdı. Təhsil möəssisələrinə dövlətin mühüm sahəsi kimi baxılırdı. Amerika təhsil sistemi tədricən ibtidai və ümumtəhsil modeli istiqamətində təkamül etmişdir.

XIX əsrdə təhsil sistemində çoxvariantlılıq yaranmışdı. ABŞ-da məktəb sistemi qeyri-mərkəzləşmiş prinsip əsasında qurulmuşdu. XIX əsrin ortalarında ABŞ-da formalaşan xalq təhsili özündə üçpilləli sistemi birləşdirmişdi: 1) ibtidai məktəb (6–14 yaşlılar); 2) orta məktəb (14–18 yaşlılar); 3) ali məktəb.

XX əsrin əvvəlbərində ABŞ-da 16 yaşa qədər (bəzi ştatlarda 18 yaşa qədər) pulsuz təhsil sistemi mövcud idi. Ümumtəhsil məktəblərin strukturunda müstəqillik var idi. Bəzi ümumtəhsil məktəbləri 8+4 (8 illik ibtidai və 4 illik orta məktəb), bəziləri isə 6+3+3 (6 illik ibtidai, 3 illik natamam orta və 3 illik tam orta məktəb) quruluşuna malik idi. ABŞ-da dövlət ümumtəhsil məktəbləri ilə yanaşı, xüsusi (özəl) və elitar (akademiya) məktəblər də fəaliyyət göstərirdi. XX əsrin birinci yarısında ABŞ-da təhsil praqmatizmi (yunanca, praqma-«iş», «hərəkət») üstünlük təşkil edirdi. İbtidai və natamam orta təhsildən sonra şagirdlər üç əsas təhsil qrupuna ayrıldı, yəni:

–ümumtəhsil məktəblər (burada şagirdlərə nəzəri bilik verilir və universitetlərə istiqamətləndirilirdi);

–orta məktəb (burada şagirdlər texniki universitetlərdə təhsil almağa hazırlanırdı);

–ixtisaslaşdırılmış tədris müəssisələri.

Xüsusi məktəblər spesifik xüsusiyyətə malik idi. Bu məktəblər əsasən ödənişli idi, bəziləri isə olduqca baha və imtiyazlı idi.

ABŞ-da XX əsrin sonunda olduqca mürəkkəb və çoxpilləli, bir neçə hissədən ibarət yüksək səviyyədə inkişaf etmiş təhsil sistemi formalaşmışdı. XX əsrin ikinci yarısında ABŞ-da pulsuz icbari təhsilin müddəti artırıldı, ibtidai və orta məktəblər arasında aralıq mərhələ yarandı.

Müxtəlif ixtisas dərəcələrinə uyğun kadr hazırlığı ali və orta məktəblərdə, dövlət peşə təhsili müssisələrində, xüsusi şirkətlərin təhsil müəssisələrinin kurslarında və bilavasitə iş yerlərində hazırlanırdı. Digər tərəfdən işçi qüvvəsi hazırlanmaqla yanaşı, təhsil sistemi getdikcə daha yüksək dərəcədə mühüm sosial funksiyanı (vəzifəni) yerinə yetirirdi. Bir çox hallarda isə vətəndaşları gələcək və ya hazırkı peşə fəaliyyətinə hazırlamaq və inkişaf etdirmək məqsədi qarşıya qoyulmuşdu.

ABŞ-da yaradılmış çoxpilləli təhsil sistemi yeni ali təhsilin quruluşuna görə dünyada etalon olaraq ən yaxşı, mükəmməl sistem kimi qəbul olunmuşdu. Halbuki bu sistemi ilk dəfə Qərbi Avropa ölkələri və Yaponiya qəbul etmişdi.

1987-ci ildə Amerika məktəblərinin müəllim heyətinin təhlili aparılmışdır. Onların üçdə bir hissəsi riyaziyyat və təbiət fənləri üzrə səriştəsiz müəllimlər idilər. Hər il milyon nəfərə yaxın şagird təhsilini bitirir, lakin bunlar içərisində narkomaniyaya qurşanma və cinayət törətmə halları gündən-günə artırdı. Amerikada təhsil sisteminə külli miqdarda kapital qoyulur: özəl informasiya bazası, kompyuterlərlə əla təminat və s. Amerika yeganə ölkədir ki, orada kadrla bağlı heç bir çətinlik yoxdur. Bu isə müasir dünyanın ən ciddi problemlərindən biridir. Hazırda ən başlıca problem dünyada təhsilin Qərb ölkələrinin standartlarına yaxınlaşması məsələsidir. 1997-ci ildə bütün işçi qüvvəsinin təxminən 29%-i ali təhsilli, 28%-i isə natamam ali təhsilli idi. Orta təhsilli şəxslər 33%, orta təhsili olmayanlar isə 11% təşkil edirdi. XX əsrin sonunda Amerikanın işçi qüvvəsinin təxminən 60%-nin ali və natamam ali təhsili var idi. Bu isə dünyada ən yüksək göstəricilərdən biridir.

ABŞ-da peşə təhsilinin ən mühüm mənbələrindən biri işçi qüvvəsinin iş yerlərində hazırlanmasıdır. Amerika işçi qüvvəsinin 30%-ə yaxını təhsil almışdır. Peşə hazırlığının əsas mənbəyi özəl şirkətlər və iri korporasiyaların təhsil mərkəzləridir. Hesablamalara görə, ABŞ-da işçi qüvvəsinin 10%-dən çoxu bu cür təhsil mərkəzlərində hazırlanır. Peşəkar fəhlələr, texniklər, idarəetmə kadrları arasında həmin göstərici 12-17% təşkil edir.

İşçilərin təxminən 2%-i silahlı qüvvələrdə qulluq edən zaman peşəyə yiyələnirlər. Ayrı-ayrı peşələr üzrə orduda hazırlanmış mütəxəssislərin faizi olduqca yüksəkdir. Amerika Aviasiya texniklərinin 45%-i informasiya avadanlığının təmiri müəssisələrində, texniklərin 20%-i isə peşə hazırlığını orduda alırlar. Təhsilə (dövlət və özəl məktəblərə) ayrılan xərclər («yaşlıların təhsilinə» – əsasən istehsalatdan ayrılmadan peşə hazırlığına olan xərclərdən başqa) 1980-90-cı illərdə 66%-dən çox artmış və 1997-ci ildə 564 milyard dollar təşkil etmişdir. Bu isə ABŞ-ın hərbi məqsədlərə sərf olunan illik xərclərindən (270 milyard dollar) xeyli yüksəkdir. Bundan başqa, müxtəlif məlumatlara görə, yaşlıların təhsilinə ayrılan xərclər 150 milyard dollara qədərdir və bu çərçivədə, məsələn, 1994-1995-ci tədris ilində müxtəlif tədris müəssisələrində 76,3 milyon nəfər və ya ölkənin yaşlı əhalisinin 40%-i (80 -ci illərin ortalarında yalnız 13,3%-i) iştirak etmişdir. Bütün dövlət və özəl müəssisələr nəzərə alınmaqla ABŞ-da təhsil sisteminə qoyulan ümumi xərc ildə 800 milyard dollara çatır.

1997-ci ildə məktəbəqədər təhsil müəssisəsindən ali təhsil müəssisəsinə qədər ayrılan xərclər 456 milyard dollar və ya bütün büdcənin təxminən 80%-ni təşkil edirdi. Təhsil sistemi çoxsaylı və yüksək səviyyədə hazırlanmış pedaqoji kadrlara malikdir. 1996-cı ildə ABŞ-da 3 milyon özəl məktəb müəllimi, dövlət məktəblərində isə 2,6 milyondan çox müəllim var idi. Həmin ildə ali məktəblərdə təxminən 900 minə yaxın müəllim var idi ki, bunlardan 630 mini dövlət ali məktəblərində, 260 min nəfəri isə özəl ali məktəblərdə çalışırdı. Hesablamalara görə, bir milyondan artıq işçi qüvvəsinin təhsil müəssisələrində, sənaye şir-

kətlərində, hərbi sahədə, muzeylərdə, kitabxanalarda və s. təhsillə əlaqəli işi vardır. Təhsil sistemində işləyən inzibati heyətin sayı da olduqca çoxdur, yəni 1,2 milyon nəfərdən artıqdır.

Amerika təhsil sisteminin əsas pilləsi orta məktəb təhsil sistemidir. O həm xüsusi peşə biliklərinin əsas sahəsini təşkil edir, həm də uşaqların və yeniyetmələrin ümumi inkişafına istiqamətləndirilmiş humanitar xarakterli ümumi bilikləri vermək üçündür. 1997-ci ildə ABŞ-da 108 minə yaxın orta və ibtidai məktəb var idi və bu məktəblərdə 51 milyondan artıq məktəbli təhsil alırdı. Orta təhsilin əsasını 87 mindən artıq dövlət məktəbləri təşkil edirdi. ABŞ-da ibtidai və orta təhsilə ayrılmış vəsaitin ümumi həcmi 1997-ci ildə təxminən 340 milyard dollar idi. Qeyd edək ki, özəl məktəblər dövlət məktəblərindən daha keyfiyyətli təhsil verirlər.

Amerika orta məktəbini səciyyələndirərkən nəzərə almaq lazımdır ki, bir sıra parametrlər üzrə əksər xarici, o cümlədən keçmiş SSRİ-i dövlətlərinin orta təhsil sistemindən xeyli fərqlənir. Yəni ABŞ-da ölkənin müxtəlif regionlarında və məktəblərində, tədris proqramlarında, tələbələrdə və təlim metodlarında fərqlər olduqca nəzərə çarpandır. Burada vahid tədris proqramları, dövlət təhsil standartları və vahid maliyyələşdirmə mənbələri yoxdur. Konstitusiyaya əsasən ölkədə formal olaraq orta təhsilin əsas səlahiyyətləri və məsuliyyəti ştatlara həvalə edilmişdir. Ənənəvi olaraq yerli səviyyədə müəllim və valideynlərin ictimai təşkilatları şagirdlərə nəyi öyrətmək və necə öyrətmək barədə əsas qərarları qəbul edirlər. ABŞ-da məktəblərin fəaliyyəti üzərində yerli hakimiyyətin və ictimaiyyətin yüksək dərəcədə nəzarəti dövlət məktəb təhsil sisteminin səciyyəvi xüsusiyyətidir. Məktəb işinin təşkilinin əsasında da həmin prinsip qoyulmuşdur. Ştat səviyyəsində təhsil məsələləri ilə ştatın təhsil şöbəsi məşğul olur, onun üzvlərini qubernator təyin edir və ya əhali seçir. Ştatın təhsil komitə rəhbəri isə təhsil şöbəsi, qubernator və ya əhali tərəfindən seçilir.

XX əsrin 90-cı illərinin ikinci yarısında ABŞ-da 3681 ali təhsil müəssisəsi var idi ki, onlardan 1594-ü dövlət, 2087-si isə özəl idi. Bu onu göstərir ki, ABŞ böyük və geniş ali təhsil sisteminə malikdir. Amerika ali məktəbləri yalnız 1995-ci ildə müxtəlif ixtisaslarda (istiqamətlərdə) təxminən 1,2 milyon bakalavr (ölkənin tələbə yaşlı əhalisinin 5%-i), 400 minə yaxın magistr (1,7%) və 44 mindən çox elmlər doktoru (0,2%) hazırlamışdır. Amerika təhsil sisteminin mühüm tərkib hissələrindən biri özəl şirkətlərdə kadrların hazırlanmasıdır. Bəzi hesablamalara əsasən, həmin məqsədlərə çəkilən xərclər hər il 100 milyard dollardan çox olur. Amerika təhsilinin yüksək səviyyədə inkişafı heç də hər hansı problemin olmaması demək deyil. 1983-cü ildə ABŞ-da bir qrup ekspertin adından səslənən «Millət təhlükədədir» məruzəsi çap edilmişdi. Amerika təhsil sisteminin ciddi problemlərinə həsr edilmiş və onun inkişafının geridə qalmasını etiraf edən həmin məruzə həm ictimaiyyətin, həm də hökumətin diqqətini cəlb etdi. Məruzəçilər bu sahədə vəziyyətin yaxşılaşması üçün cəmiyyətin və dövlətin daha geniş fəaliyyət göstərməsinin katalizatoru oldu. Orta təhsilə və onun keyfiyyətinə xüsusi diqqət

yetirildi. Məsələn, ekspertlərin qiymətləndirməsinə əsasən Yaponiya məktəblərinin məzunları biliklərinə görə amerikalı həmyaşıdları ilə müqayisə edildikdə çox-çox üstündürlər. Bir çox məzunlar olduqca zəif hazırlıq səviyyəsinə malikdir, belə ki, sorğu keçirilən şagirdlərin 28%-i oxu mətninin məzmununu söyləyə bilmir və 10%-i yüksək səviyyəli yazı yazmaq qabiliyyətinə qadir deyil. Təbiət elmləri və riyaziyyatdan şagirdlərin bilik səviyyəsi xüsusilə aşağıdır.

XX əsrin 80-ci illər ilə möqayisədə 90-cı illər ABŞ-ın təhsil sistemi tərəqqiyə nail oldu. Bu onunla bağlı idi ki, orta məktəbdə riyaziyyat və təbiət fənlərinin tədrisinə olduqca böyük diqqət verildi. 1994/95-ci illərdə keçirilmiş Üçüncü Beynəlxalq Olimpiadanın nəticələrinə görə amerikalı səkkizinci sinif şagirdləri təbiət elmləri üzrə 17-ci, riyaziyyat üzrə isə 34-cü yeri, rusiyalılar isə 13-cü yeri tutdular. Hər iki ixtisas üzrə Sinqapur, Cənubi Koreya və Yaponiyanın nümayəndələri olimpiadanın lideri olmuşdur.

1990-cı ilin oktyabr ayında ABŞ prezidenti C.Buş təhsillə bağlı memorandum imzalamışdır. Birləşmiş Ştatlar həmişə federal və ştat hökumətləri ilə təhsilin vahid dövlət formasında inkişafı ilə bağlı danışıqlar aparmışdır. 1990-cı illərdə təhsil sistemində islahatın əsas istiqaməti təhsilin keyfiyyətinin yaxşılaşdırılmasından ibarət idi. Əsas problemlərdən biri müasir informasiya texnologiyalarına və başlıca olaraq kompyuterlər əsasında məktəblərin texniki təchizatının yüksəldilməsinə yer verilməsi idi. 1997-ci ildə ölkənin bütün dövlət məktəblərinin 78%-i internetə çıxışla təmin olunmuşdur.

ABŞ-da 1983-cü ildə "Millət təhlükədədir" məruzəsi çap edildikdən sonra məktəb təhsili sistemində köklü dəyişikliklər baş verdi. 1994-cü ildə qəbul edilmiş "2000-ci ilin məqsədləri Amerika təhsilidir" qanunu bu inkişafa başlıca səbəb oldu. 1995-ci ildə bu məqsədlər üçün 345 milyon dollar sərf edilmişdir.

Yüzilliyin sərhədində təhsilin yaxşılaşdırılmasına dövlət xeyli səy göstərmişdir. Gündəlikdə duran əsas vəzifələrdən biri də təhsilin keyfiyyətinin yüksəldilməsinin müəyyən edilməsi idi. 2000-ci ildə ilk dəfə 48 ştatın məzunlarına yekun testləşmə tətbiq edilmişdir. 36 ştatın məktəblərində şagirdlərin müvəffəqiyyətləri barədə xüsusi hesabatlar nəşr edilmişdi.

Məktəblərin kompyuterlərlə təchiz edilməsi proqramı 2000-ci ildə büdcəsi 425 milyon dollar olan xüsusi yaradılmış fond vasitəsilə həyata keçirildi. Artıq 1998/99-cu tədris ilində hər 10 məktəbliyə bir kompyuter düşürdü. Telekommunikasiyalar haqqında 1996-cı ildəki qanuna uyğun olaraq məktəblərin internet sisteminə qoşulmasına ciddi səylər göstərilirdi və yalnız 1998/99-cu illərdən sonra həmin məqsədlərə 3,6 milyard dollar xərclənmişdir. 1994-cü ildə tədris siniflərinin yalnız 3%-nin internetə çıxışı var idi və bu rəqəm 1998-ci ildə 51%-ə qədər artdı.

Müəllimlərin yeni texnologiyalardan istifadə etməyə hazırlanması dövlətin daha bir mühüm vəzifəsi idi. 1999-cu ildə müəllimlərin kompyuter hazırlığına 75 milyon dollar, 2000-ci ildə isə müəllimlərin ixtisas artırılmasına 98 milyon dollar ayrılmışdır. İspandilli əhalinin təhsilinin təkmilləşdirilməsi çərçivəsində 2000-ci

ilin büdcəsində məktəblilərin iki dildə öyrədilməsi üçün müəllimlərin hazırlanmasına 100 milyon dollar nəzərdə tutulmuşdu. Bu isə həmin məqsədlərə 2000-ci ildə xərclənəndən 28,5 milyon dollar artıqdır. 2000-ci ildə məktəblilərin yay tədris proqramlarına buraxılan vəsaitin məbləği iki dəfədən çox artaraq 453 milyon dollara çatdı və bu, 675 min məktəbliyə əlavə xidmət göstərməyə imkan yaratdı. Bu zaman 2001-ci ildə həmin məqsədlərə bir milyard dollar xərclənməsi nəzərdə tutulmuşdu.

ABŞ-ın ali məktəblərində bir sıra texniki fənlər üzrə müəllimlərin çatışmaması problem olaraq qalırdı. Bu isə universiletlərə xaricdən yüksək ixtisaslı kadrlar cəlb edilməsinə gətirib çıxardı. Son məlumatlara görə, 1993-cü ildə mühəndis-texnik ixtisaslları üzrə xarici kadrların sayı müəllimlər arasında 37%, riyaziyyat, kompyuter ixtisası üzrə 27% təşkil edirdi. Onlar Asiya və Avropa ölkələrindən, xüsusən də Hindistan, Çin, Böyük Britaniya, Tayvan, Kanada, Cənubi Koreyadan olan alimlər idi.

Federal büdcə 2000-ci maliyyə büdcəsindən ildə Pella qrantına (tələbələrin ali təhsil almasına verilirdi və onlar işə düzəldikdən sonra 10-15 il müddətində qaytarırlar) 7,6 milyard dollar ayırmışdı və bu qrantlar birbaşa maliyyə yardımı şəklində verilirdi. Həmin qrantların miqdarı 1993-cü ildən 2000-ci ilə kimi 2,3 min dollardan 3,3 min dollara qədər artmışdı. Daha bir mühüm təşəbbüs 1997-ci ildə qəbul edilmiş təhsil məqsədləri üçün kreditə görə vergi güzəştləri haqqında qanun idi. O, həm ixtisasın artırılması niyyəti ilə yaşlılara, həm də tələbələrə aid edilirdi. Həmin qanuna görə, 2002-ci ilə qədər hər bir ailənin təhsilinə 5 min dollar, sonrakı dövrdə isə 10 min dollar verilirdi və 20%-lik vergi güzəştləri edilirdi. On il müddətində təhsil sisteminə 29,8 milyard dollar miqdarında vergi güzəştləri nəzərdə tutulmuşdu. 2001-ci ilin büdcəsində təhsilin əsas məqsədlərinə 28%-lik vergi güzəştləri şəklində ali təhsilə əlavə investisiyalar nəzərdə tutulmuşdu. Bu cür vergi kreditini hər il 10 min dollara qədər götürmək olar.

**Kanadanın təhsil sistemi.** Şimali Amerikada yerləşən Kanadanın təhsil sistemi dünyada mövcud olan ən mükəmməl təhsil sistemlərindən biri hesab edilir. Digər ölkələrlə müqayisədə Kanada təhsilin inkişafına daha çox maliyyə vəsaiti ayırır.

Ölkədə dövlət məktəbləri ilə yanaşı, özəl məktəblər də fəaliyyət göstərir. Təhsil müəssisələrinin böyük əksəriyyəti dövlət tərəfindən maliyyələşdirilir. Tədris proqramlarının məzmunu müxtəlif regionlarda fərqli olsa da, ümumilikdə ölkə konstitusiyasının müvafiq tələblərinə uyğun hazırlanır. Bütün əyalətlərdə təhsilin məzmununa və keyfiyyətinə ciddi dövlət nəzarəti vardır. Ölkədə hər bir əyalətin ayrıca Təhsil Nazirliyi olsa da, federal Təhsil Nazirliyi və rəsmi akkreditasiya sistemi mövcud deyil.

Uşaqlar bir və ya iki il könüllü olaraq məktəbəqədər təhsil müəssisələrinə cəlb olunur. Altı yaşı olmuş uşaqlar isə birinci sinfə qəbul edilir. Dərs ili sentyabr ayında başlayır, iyun ayında başa çatır. Müəyyən hallarda isə uşaqların məktəbə qəbuluna yanvar ayında başlanılır. Ölkənin əyalətlərindən asılı olaraq, orta

məktəb təhsili 11 və ya 12 il davam edir. Abituriyentlər universitet, kollec və ya 3 illik peşə təhsili müəssisələrinə qəbul ola bilərlər.

Ölkədə yüksək nailiyyətləri ilə seçilən kifayət qədər çoxsaylı təhsil müəssisəsi fəaliyyət göstərir. Şagirdlərin oxu, təbiət elmləri və riyaziyyat fənləri üzrə beynəlxalq testlərdə yüksək nəticələr göstərməsi Kanada məktəblərindəki keyfiyyətli təhsilin əyani təzahürüdür.

Tədris proqramlarının təcrübə ilə sıx əlaqələndirilməsi Kanada təhsil modelinin üstün cəhətlərindəndir. Tədris planları işəgötürən müəssisələrin tövsiyələri nəzərə alınmaqla tərtib olunur.

Kanadada yüksək texnologiyalar, aerokosmik sənaye, mikroelektronika, biotexnologiya və digər sahələrin inkişafı yalnız tədrisin keyfiyyəti sayəsində mümkün olub. Bütün bunlarla yanaşı, mühəndislik, biznes və təbiət elmləri sahəsində də ciddi nəticələr əldə edilib.

Kanada universitetlərinin diplomları bütün dünyada tanınır. Ali məktəb tələbələri ingilis və ya fransız dilində təhsil ala bilərlər. Bəzi universitetlərdə təhsilin iki dildə olmasına baxmayaraq, tələbələrin hər iki dili yüksək səviyyədə bilməsi vacib deyil.

Kanadada məktəbəqədər təhsil 5 yaşdan başlayaraq icbari təhsil dövrünə qədər olan mərhələni əhatə edir. Bəzi əyalətlərdə uşaqların məktəbəqədər təhsil müəssisələrinə qəbul yaşı fərqlidir. Məktəbəqədər təhsil pulsuzdur. Kifayət qədər çox olan məktəbəqədər təhsil müəssisələrində uşaqların hərtərəfli formalaşması və məktəbə hazırlanması üçün hər cür şərait yaradılıb.

Valideynlər övladları üçün hansı məktəbəqədər tərbiyə müəssisəsini seçmək baxımından tam sərbəstdirlər. Məktəbəqədər təhsil müəssisələrinin işi, bir qayda olaraq, sentyabr ayında başlayır və iyul ayında başa çatır. Günüuzadılmış uşaq bağçaları isə, demək olar ki, il ərzində fasiləsiz fəaliyyət göstərirlər.

Kanadada orta təhsil ingilis və ya fransız dillərində aparılır. Ölkədə dövlət, özəl, böyük, kiçik, sərbəst, pansion və ali təhsil müəssisələrinin nəzdində məktəblər fəaliyyət göstərir. İctimaiyyət tərəfindən maliyyələşən məktəblərə də tələbat duyulur.

Məktəblərdə təhsilin keyfiyyətinə əsasən iki assosiasiya: Sakit Okean Ölkələrin İngilis Dilli Assosiasiyaları və Peşə məktəblərin İngilis Dilli Kanada Assosiasiyası nəzarət edir. Şagirdlər üçün intensiv ingilis dili, inteqrasiya edilmiş akademik və ya ingilis dili proqramları mövcuddur. İngilis dilindən bacarıqları yüksək olan şagirdlərə və akademik proqramlar üzrə təhsil almış məzunlara müvafiq fərqləndirici diplom verilir.

Özəl orta məktəblər Kanadanın hər bir əyalətində mövcuddur. Özəl məktəblərə daxil olmaq üçün bəzən TOEFL imtahanının nəticələri də tələb olunur. Yuxarı siniflərə daxil olmaq istəyən şagirdlər isə testlə imtahan verməlidirlər.

Kanadanın biznes və siyasət sahəsində aparıcı mövqe tutan simalarının əksəriyyəti özəl məktəblərin məzunlarıdır. Özəl məktəblər yerləşdikləri əyalətlər

üzrə Təhsil Nazirliyində qeydiyyatdan keçməli, vahid kurikulum və digər standartlara cavab verməlidirlər. Valideynlər övladları üçün yalnız oğlanların və ya qızların, o cümlədən də qızlarla oğlanların birgə oxuduğu təhsil müəssisələrini seçə bilərlər. Bəzi özəl məktəblər dini etiqad məsələlərinə sadiq qalaraq daha çox mənəviyyat elmlərinin tədrisinə üstünlük verir, həmçinin ciddi elmi standartları tətbiq edirlər. Dini və dünyəvi təhsil verən orta məktəblərin təhsil proqramları əyalətlərə görə fərqlənir.

Orta məktəblərdə əcnəbilər də oxuya bilər və belə məktəblər seçilmiş məktəb şuraları tərəfindən idarə olunur. Bütün ictimai məktəblər yalnız gündüz şöbəsində təhsil proqramları təklif edir. Məktəblərdə əcnəbilər üçün qəbul şərtləri və təhsil haqları fərqli ola bilər.

Xüsusi dil məktəblərində standart (ümumi ingilis dili, biznes ingilis dili, peşəkar proqramlar) və şagirdlərin tələblərinə uyğun ixtisaslaşmış kurslar təklif edilir. Demək olar ki, bütün məktəblərdə əcnəbi şagirdlər üçün nəzərdə tutulmuş "Akademik məqsədlər üçün ingilis dili" kimi uzunmüddətli kurslar təşkil olunur. Əcnəbi şagirdlər üçün fransız dilini xarici dil kimi tədris edən mərkəzlər də vardır.

Altı yaşında birinci sinfə daxil olan uşaqlar məktəbdən, eləcə də əyalətdən asılı olaraq, 11 və ya 12 il təhsil alır, yalnız bundan sonra universitetlərə daxil olmaq istəyən abituriyentlər kolleclərdə 2 illik hazırlıq bölməsində oxuyurlar. Məktəblərdə uşaqlara əsas (riyaziyyat, qrammatika, ədəbiyyat və düzgün yazılış, Kanadanın siyasi strukturunun əsaslarından ibarət fənlər) və təbiət elmlərinə dair (fizika, biologiya və s.) fənlər qrupu tədris olunur. Qeyd edilən fənlərlə yanaşı, məktəblərdə kompyuter vərdişləri, xarici dil, musiqi kimi fənlər də keçirilir. Yuxarı siniflərdə isə qeyd edilən fənlər üzrə biliklərin möhkəmləndirilməsi davam etdirilir.

Eyni zamanda ölkə üzrə geniş yayılmış xüsusi pansion məktəblər də fəaliyyət göstərir. Əcnəbilərin təhsil aldığı belə tədris ocaqları, əsasən, katolik məktəblər hesab olunur.

Kanadada təxminən 170 dövlət və xüsusi kollec fəaliyyət göstərir. Bunlar regional kolleclərə, texniki institutlara və teniki peşə kolleclər sisteminə bölünür.

Regional kolleclərin əksəriyyəti uyğun assosiasiyalara (Kanada Kolleclər Birliyi Assosiasiyasına) daxildir. Kanada kolleclərinin əsas vəzifəsi sənaye və biznes sahəsi üzrə peşəkar kadrlar hazırlamaqdan ibarətdir. Bu kolleclərdə təhsil alan tələbələr qısa müddət ərzində müəyyən peşəyə yiyələnə bilir. Kolleclərdə tədris olunan birillik proqramların sonunda dinləyicilərə müvafiq sertifikat təqdim olunur. Bundan əlavə, kolleclərdə ikiillik proqramlar da tədris olunur ki, bu proqramların sonunda məzunlara diplom verilir.

Üçillik bakalavr proqramları mövcud olan kolleclər hər hansı bir ali təhsil müəssisəsi ilə əməkdaşlıq edir. Son illərə qədər üçillik kollecləri bitirmiş məzunlara xüsusi bakalavr dərəcəsi verilirdi.

Kolleclərdə, əsasən, informasiya, texnologiya, dizayn, mühasibatlıq, biznesin idarə olunması, mehmanxana və turizm idarəetməsi ixtisasları üzrə mü-

təxəssislər hazırlanır. Nəzəri biliklər ixtisas üzrə təcrübə məşğələləri ilə vəhdət təşkil edir.

Kanadanın ali təhsil sistemi öz nüfuzuna görə dünyada ən üstün yerlərdən birini tutur. Kanada universitetlərində 1,5 milyondan çox tələbə təhsil alır. Onların 1,2 milyonu dərəcə proqramlarında, 275800-ü gündüz şöbəsində oxuyur. Ali məktəblərdə tam ştatlı 42000 professor və müəllim çalışır.

Ölkə üzrə aparılan tədqiqat işlərinin 30 faizi universitetlər tərəfindən həyata keçirilir. Ali təhsil müəssisələrində dünya miqyasında tanınan elmi tədqiqatlara imkan yaradan yüksək keyfiyyətli infrastruktur və unikal laboratoriya avadanlıqları mövcuddur. Onu da qeyd edək ki, ölkədə həyat tərzinin yüksək olması məhz "insan kapitalının" inkişafı ilə əlaqədardır.

Ali təhsil müəssisələri tədris proqramlarının dərinliyi baxımından fərqlənir. Universitetlər də daxil olmaqla, əyalət və ərazilər üzrə müvafiq dövlət orqanları təhsilin bütün sahələrinə cavabdehdir.

Kanadada təxminən 100 universitet və onların nəzdində fəaliyyət göstərən universitet kolleci fəaliyyət göstərir. Digər ingilisdilli ölkələrlə müqayisədə, açıq immiqrasiya siyasətinin mövcudluğu ali məktəbləri bitirən əcnəbilərin Kanadada qalıb işləməsi üçün geniş üfüqlər açır. Təsadüfi deyil ki, hər il 125 min əcnəbi tələbə Kanada ali məktəblərini seçir və gələcək həyatlarını bu ölkə ilə bağlayırlar.

Digər Qərb ölkələrində olduğu kimi, Kanada ali təhsil sistemi də üç pillədir. Üçillik ilk ali təhsil proqramında bakalavr dərəcəsi verilir. Bir və ya ikiillik magistr proqramından sonra doktoranturaya qəbul olanlar fəlsəfə doktoru dərəcəsi almaq üçün daha 4 il elmlə məşğul olmalıdırlar.

Bundan əlavə, universitetlər ixtisaslaşmış diplom və sertifikatların verilməsi ilə bağlı bir sıra proqramlar da təklif edir. Kanada ali məktəbləri tədris proqramlarına görə üç qrupa bölünür. Bakalavr təhsili verən ali məktəblər birinci, bakalavr və magistr proqramları tədris edilən universitetlər ikinci qrupa daxildir. Üçüncü qrupa isə doktor proqramları və tibb fakültələri olan ən nüfuzlu universitetlər aid edilir.

Universitetlərə sənəd qəbulu tədris ilindən bir il əvvəl başlayır. Qəbul üçün orta təhsil haqqında attestat, TOEFL imtahanının nəticələri və fransız dili üzrə universitetin xüsusi testindən keçmək tələb olunur. Magistraturaya daxil olmaq üçün testlə imtahan verməK lazımdır.

Əcnəbi tələbələrin universitetlərə daxil olmaları üçün akademik proqramlar əsasında kurslar təşkil olunur. Əcnəbilərin qarşısında qoyulan tələblər onların seçdiyi ixtisaslardan asılı olaraq dəyişir. Bir qayda olaraq, onlar orta təhsil haqqında attestatı təqdim etməli və TOEFL imtahanı verməlidirlər.

Kanadada təhsil almaq istəyən əcnəbi tələbəyə il ərzində 15-20 min Kanada dolları həcmində maliyyə vəsaiti lazımdır. Yaşayış və təhsil xərclərini ödəmək məqsədilə əcnəbi tələbələrə həftədə 20 saat və tətil günlərində isə tam ştatda işləmək imkanı yaradılır.

Kanadada 3 aylıq dil kursları üçün tələbə vizası almaq tələb olunmur. Lakin ölkədə uzunmüddətli təhsil almaq üçün tələbə vizası və təhsil üçün icazə sənədini almaq əsas şərtlərdən biridir. Birillik tibbi sığortaya isə 700 Kanada dolları ödənilir.

Bütün bunlarla yanaşı, tələbələrə təqaüd almaq üçün ərizə ilə dövlətə müraciət etmək imkanı verilir. Kanadanın Xarici İşlər və Beynəlxalq Ticarət Nazirliyi tərəfindən reallaşdırılan üç dövlət təqaüdü yüksək tədris uğurları olan tələbələrə şamil edilir. Bu sıraya Kanada Hökumətinin Təqaüd Proqramı, Ali Məktəblərdə Elmi-Tədqiqat Proqramı və Ali Məktəblərin Təkmilləşdirilməsi Proqramı daxildir.

Kanadanın ali məktəblərinin dünya elminin inkişafına verdiyi xüsusi töhfələrdə Toronto Universiteti mühüm yer tutur. Bu təhsil ocağında ilk elektron kardiostimulyator, süni qırtlaq, kimya lazeri hazırlanıb, mədəaltı vəzinin transplantasiyası əməliyyatı, bir çox digər mürəkkəb xəstəliklərin müalicəsi həyata keçirilib. 5000 aparıcı tədqiqatçı universitetdə hər il bir milyard dollar dəyərində tibbi tədqiqatlar aparır. Tibb elmi tarixində önəmli hadisələrdən olan insulinin kəşfi 1921-ci ildə bu ali məktəbdə yerinə yetirilib. 1963-cü ildə beyin sümüyünün köçürülməsi əməliyyatının əsasını qoyarkən gövdə hüceyrələri aşkarlanıb. 1972-ci ildə tədqiqatlar nəticəsində atmosferdə qara dəliklərin olması sübuta yetirilib. Universitetin astronomları Uran planetinin peykləri olan Kaliban və Sikoraksanı, Andromeda I, II, III qalaktikalarını aşkar ediblər. Dünyada ilk operativ kompyuterlərdən biri olan UTEC və ilk kommersiya kompyuteri Toronto Universitetində hazırlanıb. Ali məktəbdə elmi-tədqiqat sahələri günbəgün genişləndirilir və bu istiqamətdə dünya liderliyini qazanmaq üçün səylər artırılır.

Kanadada texniki peşə təhsilinin tarixi XVII əsrin ikinci yarısına gedib çıxır. Texniki peşə təhsilinin əsası 1668-ci ildə Kvebek şəhərində Roma Katolik Kilsəsi tərəfindən yaradılmış sənət məktəblərinin fəaliyyətə başlaması ilə qoyulub. Bu məktəblərdə xarrat, çilingər, çəkməçi, dərzi, heykəltəraş, rəssam, bənna və digər peşələr öyrədilirdi.

XVIII əsrdə ilk peşə-ixtisas təhsili sahəsində təcrübə daha da genişləndi, məktəbdə tədris olunan nəzəri və praktik fənlər arasında əlaqələr möhkəmləndi. Dövrün tələblərinə uyğun peşələrə maraq artdı, peşə təhsili müəssisələrinin şəbəkəsi formalaşdı.

Peşə təhsili ümumi orta təhsil və yaxud da orta məktəbdən sonrakı peşə hazırlığı çərçivəsində həyata keçirilir. Müasir dövrdə Kanadada peşə təhsili həmçinin orta məktəb təhsili çərçivəsində şagirdlərin ümumi biliklərinin zənginləşdirilməsini və çoxsaylı praktik vərdişləri əhatə edir. Ölkə vətəndaşları ilə yanaşı, əcnəbilər də ödənişli şərtlərlə texniki peşə təhsili ala bilərlər.

Kanada universitetlərində aparılan elmi tədqiqatlar ölkə tarixində, eləcə də bütün dünyada biznesin inkişafı, dövlət siyasətinin düzgün müəyyənləşdirilməsi, bəşəriyyətin tədqiqi, mədəniyyət və incəsənətin tərəqqisinə imkan yaratmaqla həyat səviyyəsinin yüksəldilməsini təmin edir.

Ölkədə mühüm elmi kəşfləri və ixtiraları, innovasiyaları həyata keçirən Kanada İnnovasiya Mərkəzi müstəqil korporasiya kimi fəaliyyət göstərir. Bu qurum elmi tədqiqat infrastrukturunu maliyyələşdirmək məqsədilə təsis edilib. Mərkəzin başlıca məqsədi universitetlərin, kolleclərin və tədqiqat laboratoriyalarının fəaliyyətini stimullaşdırmaqdır. Bütün bunlar müsbət nəticə verərək, səhiyyə, təbii resurslar, informasiya-kommunikasiya texnologiyaları, enerji və ətraf mühit kimi sahələrin sürətli inkişafını təmin edib.

Universitetlər elmi tədqiqatları həyata keçirən ən böyük mərkəzlər hesab olunur. Universitetlərin həyata keçirdiyi elmi tədqiqatların 55-60 faizi hökumət tərəfindən maliyyələşdirilir.

Tədqiqat istiqamətində qrant agentliklərindən maliyyələşən Kanadanın Sosial Elmlər və Bəşəriyyətin Tədqiqi Şurası və Kanada Səhiyyəsinin Tədqiqi İnstitutları bakalavr və magistr təqaüdlərini ödəməklə yanaşı, tələbələrə tədqiqat işlərində köməklik göstərilməsini də maliyyələşdirir.

Elmi tədqiqatlar sahəsində şöhrət qazanmış Kanada ali məktəbləri bir sıra elmi kəşflərə və innovasiyalara imza atıb. Məsələn, 1999-cu ildə dünyada ilk dəfə MakGil Universitetində klonlaşdırılmış keçilər yetişdirilib. Daha sonra Monsters Universitetində üç klon buzov yaradılıb.

Digər sahələrdə də Kanadanın payına düşən elmi ixtiraları sadalamaq olar. Bütün bunlar isə dünya elminin və bəşəriyyətin inkişafına Kanadanın verdiyi töhfələrin aydın mənzərəsini yaradır.

Kanada təhsil sahəsində beynəlxalq əməkdaşlığın inkişafına xüsusi yer verir. Ölkə üzrə tələbələrin 10 faizini əcnəbilər təşkil edir. Kanadanın beynəlxalq təhsil bazarındakı mövqeyini daha da möhkəmləndirmək üçün Xarici İşlər və Beynəlxalq Ticarət üzrə Federal Departament əyalətlər və təhsil müəssisələri ilə birgə müvafiq işlər aparır.

2011-ci ildə ikiillik yeni Beynəlxalq Təhsil Strategiyasının işlənilib hazırlanması üçün büdcədən təxminən 10 milyon dollar həcmində vəsait ayrılıb. Bu strategiyada ən istedadlı əcnəbi tələbələrin Kanada universitetlərinə cəlb edilməsi məsələsi də öz əksini tapıb. Həmin sənəddə də həmçinin tədqiqatçı tələbələrə, tədqiqatçı alimlərə əlverişli imkanların yaradılması və ölkə hüdudlarından kənarda yerli mütəxəssislərin fəaliyyətinə təkan verilməsi nəzərdə tutulub.

Kanada Universitetlər və Kolleclər Assosiasiyası universitet prezidentlərindən ibarət nümayəndə heyyətlərini həmişə dünyanın müxtəlif ölkələrinə göndərir, əcnəbi tələbələrin təhsil və karyera sahəsində seçim zamanı Kanadaya üstünlük verməlri üçün təbliğat kampaniyaları təşkil edir. Məhz bunun nəticəsidir ki, Kanada universitetlərində ilbəil sayları artan əcnəbi tələbələr təhsillərini başa vurduqdan sonra bu ölkədə qalmağa çalışırlar.

Kanadanın universitetləri artıq əsrlər boyunca zəngin təcrübə qazanmış ali məktəblərdən hesab olunur. Odur ki, bütün dünyada biznes, hökumət, həmçinin

28534

Elm və təhsil Mərkəzi
„T... Universiteti
Kitabxana

akademik dairələrdə Kanadada verilmiş dərəcə, diplom və sertifikatlar yüksək səviyyədə qəbul edilir.

Hazırda ABŞ və Kanadada təhsil sistemi aşağıdakı pillələrdən ibarətdir:

İkiillik proqrama uyğun kollec assosiativ bakalavr dərəcəsi verir ki, bu dərəcə keçmiş SSRİ dövlətlərinin texnikum təhsilinə müvafiqdir (ekvivalentdir). Ali məktəblərə qəbul imtahanı tam orta təhsil bazasındandır.

Dördillik proqramla kollec (institut, universitet) bakalavr dərəcəsi verir və bu dərəcə ali təhsilin birinci pilləsinə (natamam ali təhsil) müvafiqdir. Ali məktəbə qəbul həm orta məktəb bazasından, həm də assosiativ bakalavr bazasındandır.

Bir və ya ikiillik proqramla institut və universitetlərdə magistr (tam ali təhsil) dərəcəsi verilir və bu, keçmiş SSRİ dövlətlərinin aspiranturasına müvafiqdir. Qəbul bakalavr bazasındandır.

Universitetlər iki-üçillik proqramla doktor dərəcəsi verir. Burada elmi-tədqiqat işləri və dissertasiya müdafiəsi nəzərdə tutulur. Bu isə Rusiyanın elmlər namizədi elmi dərəcəsinə müvafiqdir və magistraturadan sonra olur. Ən geniş yayılmış dərəcə fəlsəfə doktorudur.

Amerika ali təhsili statusuna görə son on il müddətində dünyada şöhrət qazanmışdır. Dünya ölkələrinin ən nüfuzlu universitetləri ilə müqayisə etdikdə Amerika universitetləri yüksək mövqe qazanmalarına görə birinci yeri tutur. Amerika universitetlərinin bu qədər güclü mövqelərini aşağıdakı obyektiv cəhətlərlə izah etmək olar:

– Dövlət dəstəyi, əhəmiyyətli dərəcədə maliyyələşdirmə, güclü maddi-texniki baza.

– Dünyanın ən görkəmli alimlərini və müəllimlərini dəvət etmək imkanı.

– Lider adı uğrunda universitetlərin öz aralarında rəqabətli mübarizəsi.

– Çevik təhsil sistemi. Tədris prosesində universitetləri və fakültələri sərbəst dəyişmək imkanı.

Amerika universitetlərində hər il yarım milyondan artıq əcnəbi təhsil alır. Onların əksəriyyəti Asiya ölkələrinin vətəndaşlarıdır.

ABŞ və Kanada universitetlərinə tələbə qəbulu qaydası aşağıdakı kimidir:

- sənədlərin birbaşa universitetə (və ya bir neçə universitetə) verilməsi;
- kollec və peşə texniki məktəblərini qurtardıqdan sonra vaxt itirmədən təhsili universitetdə davam etdirmək;
- xüsusiləşdirilimiş ingilis dili kurslarında təhsil almaq məqsədilə "Ümumi sınaq" proqramı üzrə qəbul olunmaq.

Bilik səviyyəsindən asılı olaraq hazırlıq proqramının müddəti bir aydan doqquz aya qədərdir. Birinci əsas şərt seçilmiş təhsil müəssisəsi tərəfindən sizin orta təhsil haqqında attestatınızın qəbul edilməsi və ingilis dilini bilməyinizin təsdiq edilməsidir. İkinci və üçüncü halda orta təhsil və ingilis dilindən yüksək səviyyədə bilik olmalıdır, çünki həmin proqramlar dillə əlavə məşğul olmağı və lazımi səviyyəyə qədər hazırlaşmağı tələb edir. Amerika universitetlərinin bir

çoxu (20-yə qədər ən nüfuzlu universitetlər) Rusiya orta təhsil attestatını qəbul etməyə hazırdır. Qəbul kampaniyası, adətən, aşağıdakı mərhələləri nəzərdə tutur:

- sizi maraqlandıran tədris müəssisəsinin seçilməsi və qiymətləndirilməsi (ixtisasların reytinqi, qəbulun mürəkkəbliyi (çətinliyi), ərazi, qiymət və s.);
- seçilmiş universitetlərə əcnəbilərin qəbulunun şərtləri barədə sorğu verilməsi, ərizə formalarının alınması;
- sənədlər paketinin hazırlanması (ərizə formalarının doldurulması, rəylər və digər zəruri sənədlər);
- sənədlərin universitetlərə göndərilməsi, onlara baxılması prosesinə nəzarət edilməsi, cavablar və ya qəbul olunma haqqında bildirişin alınması;
- getmə sənədlərinin hazırlanması (viza, sığorta, yaşayış yerinin seçilməsi, aviabiletlər).

Bütün mərhələlərin yerinə yetirilməsi bir il beş aydan iki ilə qədər vaxt tələb edir.

Bir çox şirkətlərin ABŞ və Kanadanın 30-dan artıq kollec və universitetləri ilə əməkdaşlığı, rəsmi müqavilələri vardır. Buna görə də şirkətlər universitetlərə qəbul olunmağı yüngülləşdirir və sürətləndirir. Onlar 1,5-2 ay müddətinə gedişatı aparmağa və qəbul olunmağa zəmanət verilməsinə hazırdır.

**Şirkətlərin əməkdaşlıq etdiyi universitetlər bunlardır:**

| | |
|---|---|
| **Fultow-Montgomery Community College** | Constaun, Nyu-York ABŞ. Nyu-York Dövlət Universiteti ilə birgə proqramlar, sonradan həmin universitetə qəbul olunmaqla. İllik ödəniş qiyməti (yalnız təhsil) -5000 dollardır. Bir neçə yaşayış variantı (tədris ili ərzində ödəniş 3500-5500 dollara qədərdir). |
| **Green River Community College** | Obern, Vaşinqton Ştatı (ABŞ). Cornell University, Uc Berkeley və Seattle universiteti ilə əməkdaşlıq edir. İllik ödəniş qiyməti (təhsil və yaşayış) -13500 dollardır. |
| **Edmonds Community College** | Linvud, Vaşinqton Ştatı, ABŞ. Mərkəzi Vaşinqton Universiteti ilə əməkdaşlıq edir. İllik ödəniş qiyməti 7500 dollardır (yalnız təhsil), ailələrdə yaşamaq və qidalanma (orta hesabla ildə 5000 dollardır). Mənzilləri seçim imkanı vardır. |
| **Malaspina University College** | Vankuver, Kanada. Bakalavr proqramları (20-dən artıq ixtisaslar), Kanada universitetlərinə qəbul olunmaqla illik ödənişin qiyməti 18000 dollardır. Buraya təhsil, kollecin korpusunda yaşamaq və qidalanma daxildir. |
| **Avila College** | Kanzas Siti, Missuri ştatı, Bakalavr və magistr proqramları. Təhsil, kollecin korpusunda yaşamaq və qidalanma daxil olmaqla illik ödəniş 17500 dollardır. Əlaçı tələbələrə kollec təqaüd verir (ildə 2000 dollara qədər). |

| | |
|---|---|
| **İnternational School of Management** | San Diyeqo, Kaliforniya (ABŞ). Biznes və menecment sahəsində bakalavr, magistr proqramları. |
| **Devry İnstitute of Technology** | Nyu-Yorkdan Kaliforniyaya qədər ABŞ-ın müxtəlif ştatlarında 13 şöbəsi, Kanadada – Kalqaridə və Torontoda 2 şöbəsi vardır. ABŞ-ın 20 tanınmış institutunu əhatə edir. Biznes və texniki fənlər sahəsində bakalavr və magistr proqramları. İllik ödəniş (yalnız təhsil)–ixtisasdan asılı olaraq 8000-12000 dollara qədərdir. |
| **University of New Haven** | Vest Haven, Konnektikut ştatı (ABŞ). Bakalavr və magistr proqramları, 60-dan artıq ixtisası vardır. Təhsil, kollecin korpusunda yaşamaq və qidalanma da daxil olmaqla illik ödəniş 18500 dollardır. |
| **Fairleigh Dic Kinson University** | Medison, Nyu-Cersi ştatı (ABŞ). Bakalavr və magistr proqramları, 50-dən artıq ixtisası vardır. Təhsil, kollecin korpusunda yaşamaq və qidalanma daxil olmaqla illik ödənişin qiyməti 20000 dollardır. |
| **Shiller İnternational University** | Tampa, Florida ştatı (ABŞ) (habelə İngiltərədə, Almaniyada, İspaniyda, Fransada, İsveçrədə filialları var). Bakalavr və magistr proqramları, əsas etibarı ilə biznes istiqamətli 15 ixtisas var. İllik ödəniş qiyməti (yalnız təhsil) – ixtisasdan və ölkədən asılı olaraq 10 000-15000 dollara qədərdir. Universitetin korpuslarında yaşamaq və qidalanma imkanı var. |
| **American İnter Continental University** | İki şöbəsi – Atlanta, Corciya ştatı və Los-Anceles, Kaliforniya ştatı (ABŞ) (Böyük Britaniyada, Londonda da filialı var). İxtisaslar biznes, kompyuterlər, dizayn və s. İllik ödənişin qiyməti (yalnız təhsil) 12000 dollardan başlayır. |

Ümumi sınaq xüsusi proqram vasitəsilə Amerika universitetlərinə qəbul olunma prosesini həyata keçirir. Bu zaman tələbələrə əvvəlcə ingilis dili üzrə hazırlıq kursu keçmək, zəruri imtahanları və testləri vermək təklif edilir. Sonra şirkət əməkdaşları ilə birlikdə xaricdə universitet seçmək və yerində sənəd verməyə kömək edir. Proqramın müddəti tələbənin ilkin səviyyəsindən və arzularından asılı olaraq bir aydan doqquz aya qədər ola bilər. Təhsil, yaşayış və qidalanma daxil olmaqla proqramların qiyməti orta hesabla ayda 1500 dollardan 2000 dollara qədər olur. ABŞ və Kanadada minimum sınaq proqramı üzrə şirkətin əməkdaşları ABŞ-ın 75 kollecinə və universitetinə qəbul olunmağa kömək edir.

ABŞ-ın istənilən ştatında şagirdlər proqramları istədikləri kimi seçə bilər. Məsələn, aşağıdakı kolleclərin və universitetlərin bazasında altıaylıq hazırlıq proqramları vardır (sonra qəbul olunmaqla):

| | |
|---|---|
| **Lock Haven University** | Pensilvaniya ştatı, təhsil, dərsliklər, kollecin yataqxanasında yaşamaq və 2 dəfə qidalanma daxil olmaqla proqramın (6 aylıq) qiyməti 10 000 dollardır. |
| **Dixil State College** | Yuta ştatı, təhsil, dərsliklər, kollecin yataqxanasında yaşamaq və 2 dəfə qidalanma daxil olmaqla proqramın (6 aylıq) qiyməti 9100 dollardır. |
| **Northern Michigan University** | Miçiqan ştatı, təhsil, dərsliklər, kollecin yataqxanasında yaşamaq və 2 dəfə qidalanma daxil olmaqla proqramın (6 aylıq) qiyməti 10200 dollardır. |
| **Dowling College** | Nyu-York, təhsil, dərsliklər, kollecin yataqxanasında yaşamaq daxil olmaqla proqramın (6 aylıq) qiyməti 10500 dollardır. |
| **Newlury College** | Boston, təhsil, dərsliklər, kollecin yataqxanasında yaşamaq daxil olmaqla proqramın (6 aylıq) qiyməti 11500 dollardır. |

Araşdırmalar göstərir ki, ABŞ təhsil sistemi Avropa təhsil sistemindən xeyli sonra yaranmışdır (ilkin olaraq Harvard universiteti 1636-cı ildə fəaliyyətə başlamışdır). ABŞ universitetləri Avropa təhsil sistemini təqlid etməklə (məsələn, Oksford və Kembric universitetlərini) formalaşmağa başlamışdır. Amerika ali məktəbləri üç yüz il ərzində dünyada ən yüksək səviyyəyə çatmışdır və hətta Avropaya təsir göstərməyə başlayır. Bir çox universitetlər elmi mərkəzlərə çevrilmişdir və orada bütün fənlər üzrə dünya şöhrətli mütəxəssislər dərs deyir. Harvard Universitetinin professoru Henri Rosovski vəziyyəti belə şərh edir: «Mən cəsarətlə deyə bilərəm ki, dünyanın ən yaxşı universitetlərinin üçdə ikisi, dörddə üçü Birləşmiş Ştatlarda yerləşir (Mən o fakta da toxunuram ki, dünyanın ən pis kolleclərinin və universitetlərinin xeyli hissəsi bizdə yerləşir). Bizim iqtisadiyyatımızın və ya ictimai həyatımızın hər hansı sahəsi barədə eyni sözləri demək olar. Heç kim deyə bilməz ki, bu gün ən yaxşı poladtökmə və ya avtomobil zavodlarının, kompyuterlərin və s. istehsalı üzrə müəssisələrin, bankların və ya hökumət dairələrinin üçdə ikisi Amerikada yerləşir. Ali təhsilin keyfiyyət şkalasının yuxarı hissəsində bizim yerimiz olduqca qeyri-adidir. Ola bilsin ki, bu, bizim xüsusi milli sərvətimizdir». Dinamika və düzgün praqmatizm, yəni Amerika həyat tərzinin bu iki əsas tərkib hissəsi təhsil sistemini formalaşdırmışdır. Amerikalılar eksperiment aparmaqdan qorxmur və rəqabəti üstün tutur. Bu cür şəraitdə bilikli, bacarıqlı və ya ən fərasətli şəxs yaxşı, normal yaşayır. Bunlar ona gətirib çıxarır ki, dünyanın bütün ölkələrindən olan gənclər məhz ABŞ-da təhsil almağa çalışır.

Beynəlxalq Təhsil İnstitutunun məlumatına görə 2000-ci ildə ABŞ-da 453787 əcnəbi tələbə təhsil alırdı və bu, tələbələrin ümumi sayının yalnız 3%-ni təşkil edir. Bu gün Amerika kollecləri və universitetləri ən iri milli xidmətlər

(ixracedicilәri) arasında beşinci yeri tutur; hәr il әcnәbi tәlәbәlәr tәrәfindәn ABŞ-a tәxminәn 7 milyard dollar ödәnilir.

Amerika ali mәktәblәrinin tәlәbәlәri kimlәrdir? Gәnclәrin әn çoxu Asiyadan (57%), әsas etibarilә Yaponiya, Çin, Koreya, Tayvan vә Honkonqdan gәlir. Sәbәblәr müxtәlifdir. Bәzi ölkәlәrdә müәyyәn ixtisaslar üzrә ali tәhsil yox dәrәcәsindәdir, mәsәlәn, iqtisadiyyat, din vә s. Bu sәbәbdәn dә Amerika hökumәti Asiya ölkәlәrindәn әn istedadlı gәnclәrin tәhsilini davam etdirmәk üçün xeyriyyәçi mübadilә proqramları hәyata keçirdir. Avropalılar Amerika ilә müqayisәdә ikinci yeri tutur (15%). Son zamanlar Şәrqi Avropadan vә Rusiyadan tәlәbә axını hesabına onların sayı bir daha çoxalmışdır. Әvvәllәr ABŞ-da hәmin regionlardan yalnız 4780 nәfәr tәhsil alırdı, 1995-1996-cı illәrdә isә bu rәqәm 18032-yә qәdәr artdı. Әn çox gәlәn gәnclәrin sayı Rusiyadan idi (5589 nәfәr), bu isә Fransadan tәxminәn gәlәnlәrlә eyni vә İsveçdәn gәlәnlәrdәn tәxminәn 2000 nәfәr çox idi. Hazırda Qәrbi Avropa ölkәlәrindәn, xüsusәn dә Almaniya, İngiltәrә vә Fransadan az gәnc gәlir.

**ABŞ-ın tәhsil müәssisәlәrindә tәhsil alan әcnәbi tәlәbәlәrin sayı:**

| **Regionlar** | **1994-1995 -ci il** | **1995-1996-cı il** | **Fәrq** |
|---|---|---|---|
| Afrika | 20724 | 20844 | 0,6 |
| Asiya | 261789 | 259893 | -0,7 |
| Avropa | 64811 | 67358 | 3,9 |
| Latın Amerikası | 47239 | 47253 | 0.0 |
| Yaxın Şәrq | 30246 | 30563 | 1.0 |
| Şimali Amerika | 23394 | 23644 | 1,1 |
| Okeaniya | 4327 | 4202 | -2,9 |
| **Cәmi:** | **452635** | **453787** | |

Maraqlıdır, amerikalılar övladlarına xaricdә tәhsil vermәk qәrarını qәbul etdikdә onları hara göndәrirlәr? Bu suala cavab Avropanın bir çox tәhsil müәssisәlәrinin nüfuzunun Amerika tәhsil müәssisәlәrinin nüfuzundan az olmadığını sübut edir. Qeyd edәk ki, övladını xarici ölkәyә tәhsil almağa göndәrmәk üçün ancaq varlı valideynlәrin imkanı ola bilәr, orta tәbәqәli ailәnin buna gücü çatmır (әgәr uşağın gәlәcәyi xatirinә ailәnin bütün üzvlәri, o cümlәdәn babalar, nәnәlәr vә qayğıkeş xalalar, bibilәr kömәklik edәrsә, onda xarici ölkәyә tәhsil almağa göndәrilir). İstedadlı gәnclәr, xüsusilә onların gәlәcәk peşә karyerası Avropa ilә әlaqәlidirsә (mәsәlәn, politoloqlar va ya sәnәtşünaslar), onda onlar xeyriyyәçilik fondundan vә ya universitetdәn xüsusi tәqaüd ala bilәr.

Xarici ölkәdә tәhsil almaq rusiyalılar üçün asan mәsәlә deyil, bütün gәnclәr rәsmi olaraq eyni problemlәri hәll etmәli olur. Adәtәn, seçim Qәrbi Avropaya yönәlir, İngiltәrә isә әnәnәvi olaraq digәr ölkәlәrlә müqayisәdә liderlik edir, sonra isә Fransa vә İspaniyadır. Avropada tәhsil alan amerikalılar

əsasən ictimai və humanitar elmlərin 37%, biznesin 14%, xarici dillərin 10%, bədii və ya tətbiqi incəsənət növlərinin 9%-ni seçir. Sual olunur: Onda nə üçün məhz təhsil almağa ABŞ-a gedirlər? Amerika ali məktəblərinin məşhur müəllimləri, yüksək səviyyədə maddi-texniki bazası və kitabxanaları onların rəqabət qabiliyyətini bir-birindən fərqləndirir. Bazar iqtisadiyyatında ən çox tələb olunan bəzi istiqamətləri və nadir (unikal) Amerika təcrübəsi əsas fənlərin yüksək səviyyədə tədrisində özünü göstərir. 1994-95-ci tədris ilinin məlumatlarına görə əcnəbi tələbələrin nəyə həvəs göstərib öyrənmək istədikləri öz əksini aşağıdakı kimi tapmışdır:

| **İstiqamətlər** | **Tələbələrin sayı** | **%** |
|---|---|---|
| Biznes və idarəetmə | 92632 | 20,4 |
| Mühəndislik elmləri | 72410 | 16,0 |
| Digərləri (əsas sahələr, kommunikasiya, hüquq kimi sahələr) | 42130 | 9,3 |
| İctimai elmlər | 38242 | 8,4 |
| Fizika və təbiət elmləri | 37226 | 8,2 |
| Riyaziyyat və kompyuter elmləri | 35940 | 7,9 |
| İncəsənət | 26749 | 5,9 |
| Səhiyyə | 20674 | 4,6 |
| Humanitar elmlər | 16161 | 3,6 |
| Təhsil | 13200 | 2,9 |
| Kənd təsərrüfatı | 8293 | 1,8 |

Biznes və mühəndis-texnik istiqamətləri üzrə ixtisaslar uzun müddətdir ki, siyahıda birinci yeri tutur. Qeyri-ənənəvi sahələrə isə əcnəbi tələbələr tərəfindən az maraq var. Lakin mütəxəssislər məmuniyyətlə qeyd edirlər ki, incəsənətin öyrənilməsinə maraq artmışdır. 1950-ci illərdən başlayaraq Kaliforniya universitetində təhsil alan əcnəbilər öz sayına görə birinci yeri tutur. Digər böyük mərkəz Nyu-Yorkdur. Təsadüfi deyil ki, bütün dünya onu tələbə paytaxtı hesab edir. Bu şəhərin beş ərazi müəssisəsində 25 min nəfərdən artıq gənc təhsil alır. Coğrafi nöqteyi-nəzərdən isə əcnəbi tələbələr ən iri maliyyə, informasiya, texnologiya mərkəzləri yerləşən şəhərlərdə: Nyu-York, Suffolk, District of Columbia, Cook, Middlesek, Filadelfiya və Dade qraflıqlarında təhsil almağa üstünlük verirlər.

**Əcnəbi tələbələrin ştatlar üzrə paylanması**

| | |
|---|---|
| Kaliforniya | 55799 |
| Nyu York | 47987 |
| Texas | 27883 |
| Massaçusets | 25739 |
| İllinoys | 19408 |
| Florida | 18982 |

Pensilvaniya 17897
Miçiqan 16284
Ohayo 16161

Əcnəbi tələbələrin ən çox təhsil aldığı 25 ən iri kollec və universitetlər aşağıdakılardır:

| **Təhsil müəssisəsi** | **Əcnəbilərin sayı** | **Tədris ili üçün ödəniş** | **Tələbələrə olan tələblərin səviyyəsi** |
|---|---|---|---|
| Boston Universiteti | 4532 | 17650+6480$ | Daxil olmaq çox çətin deyil |
| Nyu-York Universitet | 4242 | 16650+6780$ | Çox çətindir |
| Soutmen Californiya Universiteti | 4048 | 16020+6037$ | Çox çətin deyil |
| Wisconsin-Madison Universitet | 3935 | 7841+3300$ | Çox çətin deyil |
| Ohio State U. Main Campus | 3818 | 8292+8292$ | Çox çətin deyil |
| School of General Studies | | 14444+6223$ | Son dərəcə çətindir |
| U. of Texas at Austin | 3587 | 5512+3400$ | Çox çətindir |
| U. of Pennsylvania | 3183 | 16838+6330 \ 3110 $ | Son dərəcə çətindir |
| Harvard Universiteti | 3137 | 7674+5840 \ 3075$ | Çox çətindir |
| U. of Michigan-Ann Arbor | 3043 | 14069+4285$ | Çox çətindir |
| U. of İllinois Urbana Champ | 3038 | 7580+4058$ | Çox çətindir |
| Comell Universiteti | 2609 | 17264+5678$ | Son dərəcə çətindir |
| Stanford Universiteti | 2587 | 17775+6535$ | Son dərəcə çətindir |
| Purdue U. Main Campus | 2584 | 8190+3650$ | Zox çətin deyil |
| Texas A & MU | 2572 | 5606+3738 \ 2004$ | Çox çətin deyil |
| U. of Minnesota-Twin Cities | 2548 | 8563+33$ | Çox çətin deyil |
| George Washington U. | 2545 | 16080+6290$ | Çox çətin deyil |

| | | | |
|---|---|---|---|
| Michigan State U. | 2521 | 9677+3568$ | Çox çətin deyil |
| Arizona State U. | 2498 | 6996+4680$ | Çox çətin deyil |
| Northeastern U. | 2416 | 11489+6780 \ 3480$ | Çox çətin deyil |
| İowa State U. | 2413 | 7386+3044$ | Çox çətin deyil |
| Brigham Young U. | 2357 | 2120+3160 \ 1243$ | Çox çətin deyil |
| Rutgers U. | 2325 | 7241+8112 \ 4200$ | Çox çətin deyil |

ABŞ təhsil sisteminin nüfuzu, tanınması nə ilə bağlıdır? Universitetlərin və kolleclərin güclü inkişafı ikinci dünya müharibəsindən sonra başlandı. O zaman faşizmdən xilas olmuş Avropadan çox böyük miqdarda istedadlı insanlar Amerikaya gəlmişdi. Ümumi iqtisadi vəziyyət isə əlverişli idi, dövlət və vətəndaşların özləri təhsilin inkişafını dəstəkləməyi, ona pul vəsaiti ayırmağı milli borcları hesab edirdilər. Kimliyindən asılı olmayaraq tanınmış riyaziyyatçı və ya istedadlı rəssam, kompyuteri yüksək səviyyədə bilib ali məktəb diplomu olmayan və ya dəbdə olan yazıçı, təqaüdçü qadın, Asiyadan, Afrikadan, Rusiyadan gəlmiş adamların hamısı üçün eyni imkanlar yaradılırdı. Təhsil almaq heç zaman gec deyil! Siz öz seçiminizdə azadsınız və biz sizə maksimum imkanlar təqdim edirik! Amerika təhsil lövhəsində təxminən belə şüarlar yazılırdı. Bu yanaşma Amerikanı Avropadan, Yaponiyadan fərqləndirir və Amerika gəncləri hələ orta məktəbdən öz gələcək peşəsini seçirlər.

Bu gün Birləşmiş Ştatlarda ali təhsil böyük biznesdir, daha doğrusu, 100 milyardlıq biznesdir, yəni ümumi milli gəlirin 2,7%-dir. Başqa heç bir ölkə təhsil sisteminə bu miqdarda xərc ayırmır və tədris müəssisələri ilə öyünə bilməz. ABŞ-da 156 universitet, 1953 dördillik, 1378 ikiillik təhsil verən kollec və texniki məktəblər var. Onların arasında yaşlılar (20 min nəfərə qədər yaşlı tələbə təhsil alır) və kiçik yaşlılar (min nəfərə qədər) vardır. Bu tədris müəssisələrinin yarıdan çoxu özəldir. Ali məktəblər böyük şəhərlərdə və rayonlarda yerləşir. Bu ölkədə tədqiqat universitetləri, ştatların təhsil müəssisələri, özəl humanitar kollecləri, dini təhsil müəssisələri və hərbi akademiyalar vardır. Səciyyəvi cəhətlərdən biri də odur ki, bütün kollec və universitetlərdə ümumi və bir-birindən fərqli cəhətlər özünü güstərir.

ABŞ-da məktəblərin və ali təhsil müəssisələrinin fəaliyyətini müəyyən edən və idarə edən ümumdövlət strukturu yoxdur. Hər ştatın öz xüsusi qanunları, vergi sistemi və təhsil müəssisələri var. Universitet və kolleclər bazar iqtisadiyyatında öz fəaliyyətlərinin qiymətləndirilməsində sərbəstdir və inkişaf strategiyasını müstəqil seçir. Ştatın və yerli ənənələrin xüsusiyyətləri ali məktəbin öz qarşısında hansı məqsədlər qoymasına, hansı tədris proqram və kurslarının daha böyük nüfuz qazanmasına, tələbələrin hansı ixtisaslar üzrə hazırlanmalarına, tələbələrin və müəllim heyətinin seçim meyarlarına təsir

etməkdə mühüm rol oynayır. Ali məktəblər həmin seçim azadlığını nə qədər müvəffəqiyyətlə həyata keçirirsə, onun reytinqidə bir o qədər əksini tapır. Bunlardan əksəriyyətinin nüfuzu çox yüksəkdir, bəziləri isə "diplomlar fabriki" kimi ad qazanmışdır.

"Sarmaşıq cəmiyyəti" adlanan (qeyri-rəsmi addır, həmin ali məktəblərin qədim divarları sarmaşıq yarpaqları ilə örtülü olduğu üçün belə deyilir) ali məktəb müəssisələrinə daxil olan dünyada tanınmış universitetlər bunlardır: İtakada Kornel universiteti (orada Vladimir Nabokov Qərbi Avropa ədəbiyyatından dərs demişdir), Providensdə Braun universiteti, Nyu-Yorkda Kolumbiya Universiteti, Hannoverdə Dartmund kolleci, Kembricdə Harvard universiteti, Prinstonda Prinston universiteti, Filadelfiyada Pensilvaniya universiteti, Nyu-Hayvendə Yel universiteti. Birləşmiş Ştatlarda tələbənin hansı təhsil müəssisəsini bitirməsi heç də əhəmiyyətsiz deyil. Adətən, iş yeri seçərkən (həmişə yox) nüfuzlu təhsil müəssisələrinin diplomu açıq-aşkar üstünlüyə səbəb olur. Təhsil müəssisəsinin nüfuzu bir çox irəliləyişə səbəb olur. Nüfuzlu təhsil müəssisələri əksər hallarda insanların peşəkarlığında, müəllim heyətinin elmi səviyyəsində, abituriyentlərin səriştəliliyi və sayında və s. özünü əks etdirir. Məsələn, Hyustonda Pays Universiteti (Texas) böyük müvəffəqiyyətlər əldə etmiş və orta məktəblərin 5%-nin istedadlı məzunlarından tələbə toplamağa nail olmuşdur.

"US New And Word Report" jurnalı hər il Amerikanın ən yaxşı tədris müəssisələrinin siyahısını nəşr edir. Reytinq amerikalıların, ümumiyyətlə, sevimli oyunudur və bu məsələni onlar tamamilə ciddi qəbul edirlər. Həmin nəşrdə 1992-ci ilin tədqiqatının nəticələrinə görə tədris müəssisələri aşağıdakı ardıcıllıqla göstərilmişdir:

**Universitetlər:**

1.Harvard Universiteti (Massaçusets)
2.Priston Universiteti (Nyu-Cersi)
3.Yel Universiteti (Konnektikut)
4.Stanford Universiteti (Kaliforniya)
5.Kaliforniya Texnologiya İnstitutu
6.Massaçusets Texnologiya İnstitutu
7.Darmut kolleci (Nyu-Hempşir)
8.Dyuk Universiteti (Şimali Karolina)
9.Çikaqo Universiteti
10.Kolumbiya Universiteti (Nyu-York)
11.Korneli Universiteti
12.Rays Universiteti
13.Şimal-Qərb Universiteti (İllinoys)
14.Pensilvaniya Universiteti
15.Cons Hopkins Universiteti (Merilend)
16.Berklidə Kaliforniya Universiteti

17.Corctaun Universiteti (Vaşinqton, Kolumbiya mahalı)
18.Braun Universiteti (Rod-Aylend)
19.Karneqi-Mellon Universiteti (Pensilvaniya)
20.Vaşinqton Universiteti (Missuri)
21.Emori Universiteti (Corciya)
22.Virciniya Universiteti.
23.Los-Ancelesdə Kaliforniya Universiteti
24.Miçiqan Universiteti
25.Vanderbilt Universiteti (Tennesi)

**Kolleclər:**

1. Uilyonns kolleci (Massaçusets)
2. Amherst kolleci (Massaçusets)
3. Suortmor kolleci (Pensilvaniya)
4. Uellsli kolleci (Massaçusets)
5. Pomona kolleci (Kaliforniya)
6. Bouden kolleci (Men)
7. Universitet Ueslian (Konnektikut)
8. Middlberi kolleci (Vermont)
9. Haverford kolleci (Pensilvaniya)
10. Smit kolleci (Massaçusets)
11. Brin-Mour kolleci (Pensilvaniya)
12. Karlton kolleci (Minnesota)
13. Vassar kolleci (Nyu-York)
14. Qrinnell kolleci (Ayova)
15. Kolbi kolleci (Men)
16. Klermont Makken kolleci (Kaliforniya)
17. Kolqeyd Universiteti kolleci (Nyu-York)
18. Deyvidson kolleci (Şimali Karolina)
19. Maun-Holiok kolleci (Massaçusets)
20. Oberlin kolleci (Ohayo)
21. Hamilton kolleci (Nyu-York)
22. Vaşinqton və Lİ universiteti (Virciniya)
23. Beyts kolleci (Men)
24. Triniti kolleci (Konnektikut)
25. Zafayet kolleci (Pensilvaniya)

Amerikada təhsilin müvəffəqiyyətlərinin səbəbini təhlil edərkən, onun Avropa təhsil sistemi arasında bir neçə fərqli xüsusiyyətlərə malik olduğu meydana çıxır. Bu xüsusiyyətlər universitet və kolleclərin daxili qaydalarını bir-birinə oxşar edir. İnkişafın əsas hərəkətverici qüvvəsi rəqabətdir. Müqayisə edilən tədris müəssisələrinin hamısında məşhur professor və müəllimlər elmi tədqiqatlar üçün pul vəsaitləri uğrunda mübarizə aparırlar. Avropa universitetlərində tələbələrin tərkibi yalnız qəbul imtahanlarının nəticələri ilə

müəyyən edilir. Ali məktəblərin rəhbərliyi abituriyentlərin seçiminə təsir edə bilmir. Amerika ali məktəblərinin əsas məqsədi ən yaxşı tələbələrin təhsilə cəlb edilməsinə çalışmaqdır. Bunun üçün müxtəlif metodlardan istifadə edilir. Məsələn, universitetlərin və kolleclərin rəhbərliyi qəbul imtahanlarının nəticələrinə görə ən yüksək yerləri tutan tələbələri öz təhsil müəssisələrinə oxumağa dəvət edir. Öz təkliflərini hiss olunan dərəcədə cəlbedici etmək üçün təhsil haqqının ödənməsindən tam azad edilməsinə qədər müxtəlif güzəştlər təklif edir. Dünya ölkələrinin əksəriyyətində olduğu kimi Amerikada bir universitetin başqa universitetin professorunu öz tərəfinə çəkməyə çalışması, məşhur elmi ad qazanmış və ya misilsiz natiqlik keyfiyyətinə malik müəllimin olması uğurlu marketinq üsuludur. Bütün universitetlərdə haqlı olaraq qeyd edirlər ki, professor-müəllim heyətinin səviyyəsi təhsil müəssisəsinin şöhrətini lazımi səviyyədə saxlamağa kömək edən əsas amillərdən biridir. Əlbəttə, universitetlər arasında rəqabətin mənfi cəhətləri də var. Ən yaxşı mütəxəssislər şəxsi məqsədləri naminə işlədikləri təhsil müəssisəsindəki ənənəyə məhəl qoymadan çox tez-tez bir universitetdən digərinə keçirlər. Rəqabət Amerika təhsil sisteminin inkişafına xeyli təsir göstərmişdir. Amerika universitetlərinin idarə edilməsi sistemi Avropadakından fərqlənir. Mülkiyyət formasından asılı olmayaraq universitetə bir nəfər – prezident rəhbərlik edir. Qəyyumlar Şurası vardır, prezident və müdiriyyət ona hesabat verir. Bir qayda olaraq tədris prosesi, abituriyentlərin qəbulu, elmi dərəcələrin verilməsi, tədqiqatların istiqamətlərinin seçilməsi ilə əlaqədar olan bütün məsələlər tədris müəssisələrinin alim və müəllimləri tərəfindən həll edilir. Lakin universitetin və ya kollecin fəaliyyətinə, inkişafına aid olan hər şey prezidentin və onun icra aparatının səlahiyyətindədir. Dekanlar, prorektorlar, orta və yüksək dərəcəli başqa rəhbərlər isə seçki (Amerika demokratiyasının təəccüblü paradoksudur, qəribəliyidir) qaydası ilə yox, adi qaydada təyin edilir. Güclü, populyar olmayan qərarlar qəbul etmək kollektivin rəyinə əsaslanır. Lakin Avropa universitetləri tamamilə Təhsil Nazirliyindən və digər hökumət orqanından asılıdır. Nəticədə rəqabət asanlıqla qarşılıqlı xidmətlərlə əvəzlənir, rəhbərliyin seçim sistemi isə onun zəifliyinə səbəb olur.

Amerika ali məktəbləri tədris prosesinə əhəmiyyətli dərəcədə diqqət yetirir. Bu isə Avropada ənənəvi olaraq əsasən orta məktəbə aiddir. Avropalı, o cümlədən keçmiş SSRİ dövlətlərinin birinci kurs tələbələri bəzən təəccüblənirlər ki, onların öz vətənlərində orta məktəbdə öyrəndikləri fənləri yenidən öyrənmək lazım gəlir. Amerikalılar isə hesab edirlər ki, bu proses özünün ancaq müsbət cəhətini əks etdirir. Onlar çox gözəl anlayırlar ki, məhz bu cür tədris proqramının zəruriliyi orta məktəbdə qismən tədrisin zəifliyi ilə bağlıdır. Bəzi kolleclər isə orta məktəbdəki buraxılış imtahanlarını bir kurs təhsil almış kimi hesaba alırlar. Gənclər bu zaman bir daha yeni müəllimlərlə tanış olmaq, yeni tədris bazasına baxmaq və düzgün seçim etmək imkanı qazanır. İstisnasız olaraq bütün universitetlər və kolleclərin tələbələri

korpuslarda baş vermiş maraqlı hadisələr haqqında danışmağı sevirlər. Gələcək peşəsindən fərqli olaraq tələbə istənilən sahə ilə (idman, musiqi, qəzet nəşri və s.) məşğul ola bilər. Tələbə ali məktəbdəki dostlarla(onlar müxtəlif ölkələrdəndir) əyləncə axşamlarında və müxtəlif tədbirlərdə ünsiyyət dairəsini son dərəcə genişləndirir. Odur ki, ali məktəbə qəbul olan zaman anketlərdə öz həvəs və xobbilərini göstərmək abituriyentlər üçün əhəmiyyətlidir. Amerika ali məktəbləri üçün tələbələrin qeyri-formallığı onların gələcək taleyini xarakterizə edən cəhətdir. Müəllimlərlə açıq münasibət və qeyri-rəsmilik təəccüb doğurmur. Onların bəziləri arasında əsl dostluq yaranır, bir–birinə qonaq gedir, şəxsi problemlərini özləri müzakirə edirlər. Amerika təhsilinin milli xüsusiyyəti sayəsində bəzən müəllimlər özlərinin elmi işlərindən daha çox tələbələrin şəxsi problemləri ilə məşğul olurlar.

**ABŞ-da təhsilin strukturu.** ABŞ-da təhsil müəssisələri əsasən dörd kateqoriyadan ibarətdir, yəni: bakalavr dərəcəsi (4 il) almaq istəyən tələbələr üçün müxtəlif kolleclər, magistr və elmlər doktoru dərəcəsi almaq istəyənlər üçün universitetlər; universitetlərin tərkibinə daxil olan dördillik kolleclər; texniki təhsil müəssisələri, yarım ildən dördillik müddətə qədər müəyyənləşmişdir, onları bitirdikdən sonra tələbələr peşə qazanır və təhsil haqqında diplom, yaxud sertifikat alır; ikiillik bələdiyyə kollecləri, şagirdlər onu bitirdikdən sonra ya işə və ya dördillik kollecə qəbul oluna bilərlər.

Təhsilin keyfiyyətinin yüksəlməsinin əsas göstəricisi həmin təhsil müəssisəsinin akkreditasiyasıdır. Amerika Təhsil Şurasının "Akkreditasiya edilmiş ali və orta ixtisas təhsili müəssisələri" adlı xəbərlərində hər il ABŞ-ın akkreditasiya edilmiş bütün təhsil müəssisələrinin tam siyahısı verilir.

**Yerli və ibtidai təhsil kollecləri.** Bu kolleclər müxtəlif olur, məsələn, ibtidai kolleclər, müstəqil peşə kollecləri və s. Burada təklif olunan tədris proqramları keçmiş SSRİ-nin texnikumlarının və ya universitetlərinin birinci kursunun proqramları ilə müqayisə edilə bilər. Onlarin vəzifəsi kolleci arzu edənlərə təhsil verməkdir. Təhsilin illik ödənişi nisbətən aşağı olmaqla, tələbələrə müxtəlif fənlərin geniş seçimi təklif edilir. Qəbul olunanların qarşısında qoyulan tələblər ən ümumi xarakter daşıyır. Gəncləri yalnız təhsil haqqının az olması, gələcək peşə üzrə dar çərçivədə xüsusi bilik və peşə almaları deyil həm də müəllimlərin onların hər birinə qarşı çox diqqətli olmaları özünə cəlb edir. Bütün kolleclərdə əlavə təhsil xidmətləri tətbiq edilmir. Əcnəbi tələbələrə yüksək səviyyədə dil öyrədilməsi kursları təklif olunur. Doğrudur, belə kolleclərin yataqxanaları olmur. Ona görə tələbələr harada yaşamaq problemini özləri həll etməlidir.

Özəl ibtidai təhsil kollecləri müəyyən fənn üzrə xüsusi biliklər vermir, şagirdlərin dördillik kolleclər qəbul olunması üçün hazırlaşdırılmasına xüsusi diqqət yetirilir. Yerli kolleclər ikiillik təhsil proqramını bitirənlərə diplom, qısa müddətli kursları bitirənlərə isə şəhadətnamə verir.

Dördillik kollec və universitetlərin heç də hamısı yerli kolleclərin diplomlarını qəbul etmir. Dövlət kollec və universitetlərin yerli kolleclərlə müqavilələri olur və bu kolleclərin diplomları universitetlər tərəfindən tanınır. Lakin özəl təhsil müəssisələri üçün bu qaydalar qəbul olunmur.

**Dördillik kolleclər və universitetlər.** Kollec və universitet anlayışları müxtəlif məfhumlardır. Ali məktəblərin nüfuzuna görə tələbəyə qarşı sərt meyarlardan istifadə etmək düzgün deyil. Onların bir çoxu yeni tədris proqramlarının meydana gəlməsindən və s. asılı olaraq, ali məktəbi özləri seçir və ya dəyişir. Bu tip özəl və dövlət ali məktəbləri tədqiqat işləri apara bilən mütəxəssislər hazırlayır. Həm də yüksək keyfiyyətli təhsil verən tədris müəssisələrinin məzunlarına hər iki tip ali məktəbdə rast gəlmək olur. Onlar arasında yeganə fərq maliyyə ilə bağlıdır. Dövlət təhsil müəssisələri və ştatın hökuməti tərəfindən həmin ştatdan olan tələbələrə bəzi üstünlüklər verilir. Tələbələrin illik ödənişi özləri tərəfindən həyata keçirilir. Bir qayda olaraq dövlət universitet və kolleclərinin əksəriyyətində təhsilin qiyməti özəl məktəblərdən aşağıdır.

Dövlət universitetləri "len-qrant" və "si-qrant" tipli universitetlərə bölünür. 1862-ci ildə ayrı-ayrı ştatlar universitetlər yaratmaq üçün torpaq sahələri (land grant) ayırmışlar. Həmin təhsil müəssisələri əsas etibarilə kənd təsərrüfatı, texnologiya və maşınqayırmaya üstünlük verir. Onların digər adları isə "Kənd təsərrüfatı və avtomatlaşdırma universiteti", "Texnoloji universitet" və "Ştat universiteti" və sairdir. Dəniz tədqiqatları sahəsində ixtisaslaşan universitetlər "si-qrant" (sea grant) adlanır.

**Qısamüddətli proqramlar.** Elmi dərəcə almamaq şərtilə təhsil almaq niyyətində olan gənclər qısamüddətli kursları bitirə bilər. Onların müddəti bir neçə həftədən bir neçə aya qədər fərqlənir. Yay proqramları adlanan kurslar geniş yayılmışdır. Qısamüddətli proqramları bitirdikdə tələbələr sertifikat alırlar.

Texniki peşə təhsilli müəssisələrdə bir neçə həftədən bir və ya bir neçə ilə qədər təhsil almaq olar. Peşə kolleclərin məqsədi çətinlik çəkmədən işlə təmin olmaq üçün gənclər hazırlamaqdır (çox zaman belə müəssisələri sənət məktəbləri adlandırırlar). Odur ki, tədrisin xüsusiyyətinə və qəbul olunan tələbələrə görə onlar bir-birindən çox fərqlənir.

Kolleclərin bir çox siniflərində şərait qısa müddətli şagirdin işləyəcəyi istehsalatda olduğu kimidir. Əgər seçilmiş peşə üzrə iş vaxtı saat $7^{30}$-da başlayırsa, onda məşğələlər də həmin vaxtda başlayır. Kolleclərin əksəriyyətində gündəlik davamiyyətə ciddi yanaşılır, məşğələlərin buraxılmasına və gecikmələrə yol verilmir. Ən çox yayılmış fənlər tikinti, avtomobil işi, rəsmxət və katiblik işidir. Texniki təhsil ancaq praktik yox, həm də nəzəri hazırlığı nəzərdə tutur. Ən çox yayılmış fənlər isə informatika, mühəndislik işi, rabitə, əlaqəli tibb fənləri, orta tibb istiqamətində peşələr, mühasibat uçotu, kommersiya müəssisələrinin idarə edilməsi, yanğından mühafizə işi, aqrobiznes, bağçılıq və s. bağlıdır.

Ümumiyyətlə, texniki kolleclərdə əlavə kurslar, məsələn, xarici dilin öyrədilməsi kursu olmur. Əcnəbi tələbələrə, adətən, yaşamaq üçün mənzillə və amerikalılara edilən bəzi güzəştlərlə təmin edilmir. Həmin təhsil müəssisələrinin məzunlarına şəhadətnamələr və diplomlar verilir, lakin onlar yerli kolleclərin, yaxud universitetlərin elmi dərəcələrinə bərabər tutulmur. Odur ki, yalnız nüfuzlu universitetlərə qəbul olunmaq (əgər belə ideya yaranarsa) və ya nüfuzlu firmalarda işə düzəlmək üçün həmin sənədlərin qüvvəsi onların tələb etdiyi səviyyəyə uyğun gəlmir.

**Amerika ali məktəblərini gələcəkdə nə gözləyir?** C.Smolou Vaşinqtonda Amerika universitetinin sabiq prezidenti Cozef Daffinin olduqca kədərli fikirlərini belə ifadə edir: "Amerika ali təhsili 2000-ci il üçün özünün dünyada aparıcı rolunu itirəcəkdir. Bizim təhsilə olan inamımız və onu maliyyələşdirmək qabiliyyətimiz tükənir". Ölkənin aparıcı ali məktəbləri üçün vəziyyət bir o qədər də dramatik deyil. Orta və aşağı səviyyəli universitetlərin və kolleclərin böyük hissəsi gələcəkdə heç bir müsbət nailiyyət gözləmir. Qazanılmış uğurların itirilməməsi üçün təcili düzəlişlər lazımdır. C.Elson ABŞ təhsil bazarında indiki vəziyyəti və ənənələri təhlil edərək aşağıdakı nəticələrə gəlmişdir: son vaxtlar həm federal hökumət, həm də ştat hökumətləri tərəfindən təhsilin maliyyələşdirilməsi durmadan azalır. Xüsusi fondların qrantları uğrunda rəqabət son dərəcə artmışdır. Hətta kifayət qədər öz fondları olan universitetlər (məsələn, Harvard, Yel, Prinston universitetləri bir milyard dollardan artıq fonda malikdir) qənaət strategiyası barədə düşünmək və yaranmış vəziyyyətdən səmərəli çıxış yolları axtarmaq məcburiyyətində qalmışdır.

Əlbəttə, yuxarıda göstərilən tanınmış universitetlər və bu kimi təhsil müəssisələri fəlakətdən qorxmaya bilər, onlar dünya bazarında aparıcı rolunu itirməyəcəkdir. Amma digər universitetləri çətin sınaqlar gözləyir. Onların bəziləri ayrı-ayrı ixtisasları və ya fakültələri bağlamaq qərarına gəlir və korpusların yenidən təşkilini dayandırırlar. Ali məktəbə qəbul olunan tələbələrin sayına görə müqayisə olunduqda müəllimlərin sayı kifayət deyil.

Təhsil sahəsində çalışan mütəxəssislər belə fikirləşirlər ki, ən yaxın vaxtlarda dəyişiklik baş verməlidir.

Nüfuzu yerləşdiyi yerdən kənara çıxmayan kiçik, kasıb humanitar kolleclər ya bağlanacaq, ya da sərbəst maliyyələşməsi olan daha iri ali məktəblərlə birləşəcək. Eyni zamanda yeniləri də meydana çıxa bilər. Lakin onlar daha çox tətbiqi xarakterli (məsələn, xidmət sahəsi üçün mütəxəssislər hazırlayacaq) və ya yeniliklərin öyrədilməsinə istiqamətlənəcək. Məsələn, Cənubi Florida Universitetinin yeni kolleci və Vaşinqton ştatının Everqrin kolleci bu tip kolleclərdir. Qonşuluqda yerləşən universitetlər və kolleclər coğrafi yaxınlıqdan istifadə edərək qarşılıqlı faydalı əməkdaşlıq üsulları tapmağa çalışır. Məsələn, texniki bazaları birləşdirərək bəzi sinif və ya laboratoriyalardan kollektiv surətdə istifadə edir və ali məktəblərin dərs cədvəlində kurs və fənlərin təkrarını ləğv etməyə çalışırlar.

Bir çox universitetlər və kolleclər artıq indi cəmiyyətin əməli sifarişlərinə (tələblərinə) istiqamətlənməyə və buna müvafiq olaraq, tədris plan və proqramlarını uyğunlaşdırmağa məcburdurlar. Mütəxəssislərin rəyinə görə, gələcəkdə tədris fənləri geniş nəzəri xarakterli yox, əsasən tətbiqi xarakterli olacaqdır. Tələbələr iki xarici dil öyrənməli olacaq, bu zaman çin, yapon və rus dillərinə daha çox diqqət yetiriləcək. Ueslian Universitetinin demokratik institutlar və sosial qurum fakültəsinin professoru Robert Vud hesab edir ki, dəyişikliklər ənənəvi fənlərə də aid olmalıdır. Bununla əlaqədar o demişdir: "Biz iqtisadiyyatı hər tələbəyə tədris etməliyik. O, istənilən humanitar elmin öyrənilməsi zamanı zəruri olan təfəkkür və hesablama bacarığı formalaşdırır. Dərs cədvəllərinə mütləq kommunikasiya vasitələrinin, xüsusilə vizual əlaqənin daxil olunmasını tələb etmək lazımdır. Üçüncüsü, humanitar sahədə tələbələrə təbiət elmləri fənlərinin ciddi tədrisini təmin etməliyik. Hələ də müəllimlər (təbiət fənləri üzrə) vərdiş etdikləri kimi öyrətməkdə davam edirlər (dəyişilmə və yeniləşmə özündə əks olunmur). Humanitar ixtisaslarında tədris orada oxuyan tələbələrə ya üzərək sudan çıxmaq, ya da suda batmaq kimi özünü əks etdirir."

Harvard və Miçiqan universitetləri kimi iri elmi tədqiqat işlərinə istiqamətlənmiş universitetlər dünya səviyyəsində tanınmasında öz nüfuzunu saxlayır. Digər universitetlər isə tədrisin səviyyəsi və keyfiyyətinin yüksəlməsinə çalışır, tələbələrə, xüsusilə birinci və ikinci kurs tələbələrinə daha çox diqqət yetirməyi professorlardan tələb edirlər.

Distant təhsilinin (məsafədən təhsilin) sürətli inkişafı müasir tələblərə daha çox uyğun gəlir. Mütəxəssislər hesab edirlər ki, universitetlərə hazırda daha çox yaşlı şəxslər, əsasən, istehsalatdan ayrılmayanlar və ailəli şəxslər qəbul olunur. Odur ki, hətta işə və ali məktəbə getmək də vaxt əhəmiyyətli dərəcədə özünü əks etdirir.

Universitetlər bizneslə əlaqələri inkişaf etdirməli olur ki, bu, çox da asan məsələ deyil. Bəzi tədqiqatlar aparmaq lazım gəlir ki, bu da əlavə maliyyə imkanı yaradır.

Necə hərəkət etməli? Bu gün ABŞ-da təhsillə maraqlananlar üçün informasiya qıtlığı yoxdur. Amerikada ingilis və xarici ölkələrin dilində, xüsusi ilə rus dilində məlumat kitabçaları, mühazirələr, vəsaitlər kifayət qədərdir. Həmin vəsaitlərdə Amerika universitetinə qəbul olunmaq üçün istənilən vaxt müəyyənləşmiş cədvəllərlə məlumat almaq, çoxlu sayda məsləhət və tövsiyələr tapmaq olar. Məlumat kitabçasında aydın və əhəmiyyətli olan qısa informasiyalar verilir.

Amerika ali məktəblərinə qəbul olunmaq üçün ümumi alqoritm aşağıdakı kimidir: informasiya toplanması, konsultantlarla (məsləhətçilərlə iş, mühazirələr dinlənilməsi) ədəbiyyatdan istifadə; universitet və kolleclərin xüsusiyyətlərini və ali məktəblər tərəfindən əcnəbi tələbələr qarşısında qoyulan tələbləri nəzərə alaraq ən əlverişli təhsil variantının seçilməsi; həm ailənin

şəxsi maliyyə imkanlarının, həm də təqaüd və qrantlar almaq variantlarının qiymətləndirilməsi; seçilmiş ali məktəblərə qəbul olmaq istəyirsinizsə, test və digər imtahanların verilməsi; 10-15 variant seçilməsi; xahiş əsasında məktublar, ərizə blankları və məlumat kitabçalarının sifariş olunması; universitetlərdən, kolleclərdən cavablar almaq və bütün zəruri sənədləri əlavə etməklə sifariş blanklarını doldurmaq (ali məktəbin tələbə qarşısında qoyduğu tələblərdən asılı olaraq sənədlərin siyahısı dəyişilə bilər, əsasən təhsil haqqında diplom və arayışlardan, təhsilin məqsədlərinin şərh edilməsindən, zəmanət məktublarından ibarət olur); maliyyə yardımı üçün fondlara və digər təşkilatlara müraciət edilməsi; kollec və universitetlərdən cavabları gözləmək, əgər əlavə material və sənədlər tələb edilərsə, onları toplamaq və göndərmək lazımdır; əgər bir neçə dəvət alınmışdırsa, onlardan birinin seçilməsi. Qəbul olduğunuz ali məktəbə oxumaq haqqında məlumat göndərmək lazımdır. Cavab olaraq sizin seçdiyiniz kollec və ya universitet viza almaq üçün blank göndərəcək.

Mənzil məsələsinin həlli: Siz korpusda yaşamağa hazırsınızmı? (bu halda sizdən ilk məbləğin tam və ya qismən ödənilməsi tələb edilə bilər). Əgər siz özünüz mənzil kirayə götürmək istəyirsinizsə, lazımi variantlarla axtarışa başlayın; viza alınması üçün sənədlərin verilməsi və Amerika səfirliyində müsahibədən keçilməsi bura aiddir.

**Testlər.** Rusiya və MDB ölkələrinin də ali məktəbə qəbul qaydasını ABŞ-ın ali məktəblərinə qəbul qaydası ilə müqayisə etdikdə onlar arasında əhəmiyyətli dərəcədə fərq olduğu aydın olur. Rusiya və MDB ölkələrində abituriyentin ali məktəbə qəbul olunması yalnız onun qəbul imtahanını necə verməsindən asılıdır, və har zaman orta təhsil haqqında kamal attestatı üzrə orta bal da nəzərə alınır (bu yanaşma həm də tam Qərbi Avropa üslubundadır). Amerika ali məktəblərində testlər yalnız abituriyentin perspektivliyini və təhsilini davam etdirmək üçün bir vasitədən ibarətdir.

TOEFL (Test of English as a Foreign Language)-əgər imtahan verən üçün ingilis dili xarici dildirsə, bu dilin mənimsənilməsi səviyyəsini qiymətləndirmək imkanı verən xüsusi imtahanlar sistemidir. Test üç hissədən ibarətdir. Birinci hissədə imtahan verən müxtəlif vaxt ərzində maqnitofonda dialoqları dinləyir və ona verilmiş blankda suallara cavabların variantlarını qeyd edir. İkinci hissədə müxtəlif tapşırıqları yerinə yetirməlidir; məsələn, cümləni bitirməli, buraxılmış sözləri və ifadələri yerinə yazmalı, seçilib ayrılmış sözləri elə dəyişdirməlidir ki, cümlənin mənası alınsın. Üçüncü hissədə mətn oxunmalı və ona aid qoyulmuş suallara cavab verilməlidir. Tapşırıqların hər birini yerinə yetirərkən imtahan blankında göstərilən cavab variantlarından birini seçmək lazımdır. TOEFL üzrə 650 baldan az (köhnə sistemə əsasən) qiymətlər aldıqda nüfuzlu ali məktəbə qəbul olmaq barədə düşünmək olmaz. Bəzən daha çox xüsusi testlər vermək tələb olunur. Bir qayda olaraq imtahan TOEFL-in verdiyi günlərdən birində keçirilir: TWE (Test of Written

English)[1]-də qısa inşa yazılması üçün 30 dəqiqə vaxt verilir (mövzu imtahan biletlərində göstərilir). TSE (Test of Spoken English)[2] –20 dəqiqə ərzində müsahibə alanın (plyonkaya yazılmış səsə) suallarına cavab verməlisiniz. Sizin cavablarınız hər sual üçün ayrılmış intervallarda plyonkaya yazılır (cavab vaxtı sizə məlum olacaq).

SAT (Scholastic Aptitude Test)-abituriyentin ümumi təhsil səviyyəsini yoxlamağa imkan verən iki testdir. I SAT (Reasoning test)[3] iki hissədən ibarət məntiqdən sınaqdır. Birinci hissədə oxunmuş mətn üzrə suallara cavab vermək və onu təhlil etmək, həmçinin təklif olunan tapşırıqları yerinə yetirmək (digər mətnlər üzrə 40 suala; analogiyalardan istifadə etməklə 20 suala cavab vermək; 20-25 cümləni tamamlamaq) lazımdır. Bunların hamısına 75-80 dəqiqə vaxt ayrılır. İkinci hissədə ədədlərlə əməliyyat aparmaqla sadə, lakin mürəkkəb olmayan proqram üzrə təhsil alan keçmiş SSRİ məktəblilərinin vərdiş etdikləri bir sıra məsələləri həll etmək qabiliyyəti yoxlanılır.

II SAT (Subcect Tests )[4] – müxtəlif testlərdir, bunların gedişatında ingilis dilinin mənimsənilməsini və müəyyən fənni, məsələn, The Writing Subcect Testi bilməyi nümayiş etdirmək lazımdır və buna 60 dəqiqə vaxt ayrılır. Bu vaxt ərzində dilin kifayət qədər mənimsənilməsi və onun hiss edilməsi nümayiş etdirilməlidir. 40 dəqiqə ərzində səhv tətbiq edilmiş sözləri, cümlələrin səhv qurulmasını və s. bilməklə, həm də 60 suala cavab vermək lazımdır. Son 20 dəqiqə ərzində kiçik inşa yazmaq lazımdır.

The Literary Subcect Test: ədəbiyyatdan mövzu testidir. Həm şifahi, həm də yazılı ədəbi əsərlərdən hissələrin təhlili ilə əlaqədar 60 suala cavab vermək lazımdır.

Amerika tarixini və ictimaiyyətin ənənələrini öyrənən mövzu testi də vardır və Amerika tarixindən 90–95 sual verilir. 12 illik Amerika məktəbinin proqramına daxil olan bütün fənlərə aid ümumdünya tarixi, riyaziyyat, biologiya, kimya və s. üzrə analoji testlər verilir. Bəzi təhsil müəssisələri müəyyən fənlər üzrə II SAT tələb edir, başqaları isə tələbəyə fənni özü seçməyi təklif edir.

ACT (American College Test)[5] – tələbənin özü barədə, həm də ingilis dilini, riyaziyyatı, təbiət elmlərini və s. bilməsini yoxlayan suallardan ibarətdir. Doktaranturaya qəbul olunmaq üçün zəruri testlər: GRE (Graduate Record Examinations)[6] – biznes və menecmentlə əlaqədar olmayan fənlər üzrə doktaranturaya qəbul imtahanı verirlər. Test iki hissədən ibarətdir. Ümumi test: dil üzrə (sinonimlərin seçilməsi, cümlələrin tamamlanması və s.), riyaziyyat

[1] Yazılı ingilis dili sınağı
[2] Şifahi ingilis dili sınağı
[3] Məntiqi sınaq
[4] Mövzu sınağı
[5] Amerika kollecinin sınağı
[6] Məzunun yekun imtahanı

(hesab, cəbr, həndəsə, və s.) üzrə analitik məsələlərin həllinə aiddir. Xüsusi test: imtahan verənin seçimi ilə müəyyən fənn üzrə bilikləri yoxlanılır. GMAT (Graduate Management Admisson Test)[1] – biznes, menecment və s. üzrə doktaranturada təhsil almaq istəyənlər imtahan verirlər. Həmin testin gedişində doktorantların birinci kursunda təhsil almaq üçün zəruri olan dil, riyaziyyat üzrə ən ümumi vərdişlər (bacarıqlar) yoxlanılır; bu isə ilin yanvar, mart, iyun, oktyabr aylarında keçirilir.

**Vizalar.** Fl – ABŞ-a akademik və dil proqramları üzrə təhsil almağa gedən tələbələrə verilir. Həmin vizanın sahibinə müyyən şərtlərlə işləməyə icazə verilir.

Universiteti və ya kolleci bitirdikdən sonra təcrübə keçirilməsi üçün viza daha bir il müddətinə uzadıla bilər. Fl vizasının sahibləri Cl vizası alanlardan fərqli olaraq, öz statusunu sonralar dəyişdirə bilər və digər qeyri-immiqrasiya və ya immiqrasiya (mühacirət) vizası ala bilər. F2, F1 vizası ailə ilə gedənlərə verilir. Bu tipli vizaları olan şəxslərə işləməyə icazə verilmir. Cl ABŞ-a Amerika hökuməti və ya digər təşkilatlar tərəfindən maliyyələşən hər hansı təhsil və ya başqa proqramda iştirak etmək üçün mübadilə üzrə gedən şəxslərə (tələbələrə, müəllimlərə, professorlara, mütəxəssislərə) verilir. Vizanın sahibi proqram başa çatdıqda öz vətəninə qayıtmalıdır. Viza həmin şəxsin ancaq proqramda iştirak etdiyi müddətə, ABŞ-a qısamüddətli istirahət, turizm, dostlarının və ya qohumlarının yanına, müalicə üçün və s. getdikdə verilir.

B2 vizası işlə əlaqədar olmayan işgüzar səfərlər üçün verilir.

**Təhsil haqqı.** Bütün Amerika səfirlikləri gələcək tələbələrə təkidlə tövsiyə edirlər ki, Amerikada təhsil üçün işləyib qazanmaq, yaxud digər maliyyə mənbələri tapmaq ümidində olmasınlar.

Beynəlxalq Təhsil İnstitutunun tədqiqatlarına əsasən, əcnəbi tələbələrin 68%-i təhsil haqqını öz xüsusi pullarından və ya ailəsinin topladığı pullardan ödəyir, 3/4 (dörddə üç) hissəsindən çoxu ABŞ-dan kənarda yerləşən mənbələrdən maliyyə dəstəyi alır. Bəzi tədris illərində Amerika universitet və kollecləri bütün tələbələrin yalnız 16%-nin təhsilinə qrantlar təqdim etmiş, dövlət fondları tərəfindən isə əcnəbi tələbələrin yalnız 1%-nə maliyyə dəstəyi göstərilmişdir.

Statistik məlumatlara görə, 2000-ci ildə nüfuzlu universitet və kolleclərdə illik təhsil haqqı 40 min dollara qədər artmışdır.

**Sifarişin qiyməti.** Qəbul imtahanı üçün bir imtahana görə ödəniş 20-75 dollardır. Əlavə xərclər də (nəqliyyat, hesabatların tərtib edilməsi və s.) ola bilər.

**Təhsil haqqı.** Akademik il (9 ay) üçün təhsil haqqı 3000-22000 dollardır. Universitetin təqdim etdiyi xidmətlərdən istifadəyə görə ödəniş bir ildə 100-550 dollardır, xüsusi materiallardan və laboratoriyalardan istifadə (tex-

[1] Məzunun menecment sahəsi özrə qəbul imtahanı

nologiya, incəsənət və s. öyrənənlər üçün) əlavə ödənilir. Kitab və tədris ləvazimatlarından istifadə bir ildə 500 dollardır, bəzi ixtisaslar isə çox bahadır.

**Nəqliyyat xərcləri.** ABŞ-a uçuşu aviasiya şirkətindən öyrənmək lazımdır. Əgər bilet qabaqcadan alınırsa, onda güzəşt edilir və ya tələbə güzəştindən istifadə olunur. Yaşayış yerindən universitetə getmək və geriyə qayıtmaq üçün ümumi nəqliyyat xərcləri 1300 dollara qədərdir. Əgər universitet gəldiyiniz yerin yanında yerləşirsə, onda xərc az olur. Havada səyahət rahat və maraqlıdır, lakin bahadır. Gündəlik nəqliyyat xərcləri tez-tez artaraq dəyişir.

**Akademik il ərzində yaşayışla bağlı çəkilən xərclər.** Otaq və qida xərcləri bir il üçün 2200-5500 dollardır. Həmin məbləğ əvvəlcədən razılaşdırılmalıdır. Əgər müqavilədə gün ərzində neçə dəfə qida veriləcəyi göstərilmişdirsə, onda 100-200 dollar da əlavə olunur. Məişət əşyaları üçün xərclər bir ildə 100-150 dollardır. Buraya elektrik işığı, dəsmallar, yataq ağları və s. daxildir. Tətillər ildə 1000-1500 dollar həcmində xərc tələb edir. Bir çox yataqxanalar tətil zamanı bağlanır. Tətil zamanı evlərinə qayıtmayan tələbələr özləri üçün mənzil tapmalıdır. Bu əlavə xərc müqavilədə göstərilmir, başqa ətraflı məlumatları universitetin mənzil şöbəsindən öyrənmək olur. Ailəvi mənzil bir ildə 200-600 dollardır. Bəzi korpuslarda ailəli tələbələr üçün otaqlar var, lakin istəyənlərin sayı çox olduğundan sifarişi oraya getməzdən 10 ay əvvəl vermək lazımdır.

**Korpusdan kənarda mənzil.** Mehmanxana gündə 25-100 dollardır. Əgər siz ABŞ-a gəlməmişdən əvvəl özünüzə mənzil tapmamışsınızsa, müəyyən vaxt bu xərci də çəkməli olacaqsınız. Mebelli otaq ayda 100-350 dollardır. Kənd yerlərində otaqlar ucuzdur. Biryataqlı mənzil ayda 200-600 dollardır ki, iri şəhərlərdə bu rəqəm daha böyükdür. Böyük sahəli mənzil çox bahadır. Mebelsiz mənzil ayda 150-500 dollar, iri şəhərlərdə daha da bahadır. Mebelsiz mənzillər ucuzdur, lakin mebel alınarsa, kirayə haqqı ildə 500-1500 dollar ola bilər. Xidmətlərin ödənilməsi ayda 500 dollardan da yuxarı ola bilər. Qeyd: telefon haqqı, adətən, mənzilin qiymətinə daxil edilmir, telefon quraşdırılması ən azı 100 dollardır, qaytarılan depozit payı isə quraşdırma xərci ödəndikdən sonra verilir və telefondan istifadə hər ay ödəniş edildikdən sonra olur.

**Qidalanma.** Restoranlarda qidalanma ildə 1000-3000 dollara qədər olur. Korpusdan kənarda yaşayan tələbələr 1000-1800 dollar miqdarında qidalanma talonu ala bilər, çünki universitetlərin əksəriyyətində yemək hazırlanmasına icazə verilmir. Əgər mətbəx varsa, yemək orada hazırlansa, daha sərfəlidir və supermarketdən ərzaq almaq bir nəfərə ayda 150-250 dollara başa gəlir. Geyim haqqı 500 dollar və daha çox tutur. İsti geyim almaq lazım olduqda, ən azı 600 dollar əlavə olunur.

Tibb xidmətinə çəkilən xərc təxminən ildə 100-300 dollar olur. Ali məktəblərin əksəriyyəti tibb xidmətləri ilə təmin olunur, lakin bu xroniki və ciddi xəstəliklərin müalicəsinə aid deyil. Bunun üçün əlavə tibbi sığorta lazımdır. Tələbələr üçün isə daha tibbi sığorta 200-500 dollar, ailə üzvləri üçün yüksəkdir. Bir çox ali məktəblərdə tələbələr üçün tibbi sığorta tələb olunur.

Nağd xərclər ildə təxminən 1500–2500 dollar olur: poçt, camaşırxana və s.

**Əlavə xərclər.** ABŞ-da ingilis dilinin öyrənilməsi, cari xərclər də daxil olmaqla ayda 1000 dollar və daha yüksəkdir. İngilis dilinin mənimsənilməsi, onun səviyyəsinin yüksəldilməsi üçün lazım olan müddət iki aydan bir ilə qədər ola bilər. Bu müddətdə təhsil xərci (istəyinizə görə) illik ümumi xərclərin təxminən yarısını təşkil edir. Yay dövründə təhsil xərci az da ola bilər, çünki bu halda nəqliyyat xərclərinə qənaət edilir, eyni zamanda təhsil daha tez tamamlanır.

**Qeyd**: Bir çox əcnəbi tələbələr hesab edirlər ki, yay dövründə asanlıqla iş tapa bilər. Lakin ABŞ-da əcnəbi tələbələr üçün yayda işə düzəlmək o qədər də asan deyil. Onların bunun üçün xüsusi icazəsi olmalıdır. Bu isə birinci tədris ilini müvəffəqiyyətlə bitirənədək verilmir. Ailə ilə birlikdə olmaq sizin istəyinizlədir.

ABŞ-da ali təhsil sistemi quruluşuna görə müxtəlif xüsusiyyətlərə malikdir. Bununla bağlı aşağıdakı məlumatları qeyd etmək istərdik. ABŞ-da "ali məktəb" anlayışının dəqiq tərifi yoxdur. Prinsipcə, orta məktəbi bitirəndən sonra növbəti hazırlığı həyata keçirən "postsecondary school" adlanan istənilən məktəb "kollec", "institut" və ya "universitet" və s. ali məktəb adlanır.

ABŞ-ın təhsil sistemində universitetlərin və kolleclərin 3 əsas növü vardır:

1-ci növ – ən yüksək reytinqli ilk 25 universitet aiddir, ərizələrin geri qaytarılma faizinə görə 75–90% təşkil edir. Bu qrupa aşağıdakı ali məktəblər də daxildir: Harvard, Stanford, Duke, Massachusetts İnstitute of Technology, Yale, Georgia of İnstitute Technology.

2-ci növ – reytinqinə görə 50–70 universitet daxildir. Ola bilsin ki, bu universitetlər Yel və Harvard kimi beynəlxalq səviyyədə tanınmasınlar, lakin həmin universitetlər kimi yüksək təhsil səviyyəsinə malikdirlər. Bu kateqoriyadan olan universitetlər sənədlərin baxılması zamanı yüksək tələblər irəli sürürlər. Bu qrupa aşağıdakı ali məktəblər də daxildir: University of Pensilvaniya, University of Maryland, Virginia Tech, University of Southern California.

3-ci növ – reytinqinə görə 50 universitet əhatə edir. Həmçinin əla təhsil səviyyəsi təqdim edən, çox da böyük olmayan və dövlət universitetlərinin də daxil olduğu əsas qrup. Bu qrupa aşağıdakı ali məktəblər də daxildir: American University, Montana State University, Rochester İnstitute of Technology, State University of Ne York at Binghamton.

ABŞ-ın ali təhsil sistemi öz strukturuna görə üç pillədən ibarətdir. Undergraduate Level Bachelor's Degree, Bachelor's Degree – bakalavr dərəcəsini almaqdan ibarətdir. Onu institut, universitet, ixtisaslaşdırılmış məktəb və dördillik kolleclərdə alırlar. Təhsil müddəti 4 ildir, ancaq daha intensiv çalışmaqla onu azaltmaq və ya qiyabi şöbəyə daxil olmaqla uzatmaq

mümkündür. Müvəffəqiyyətlə bitirdikdə humanitar və ya təbiət elmləri üzrə bakalavr dərəcəsi verilir.

Bakalavr pilləsində tədris proqramları aşağıdakı şəkildə bölünür:

- Freshman Year 1-ci tədris ili;
- Sophomore Year 2-ci tədris ili;
- Junior Year 3-ci tədris ili;
-Senior Year 4-cü tədris ili.

Tələbələr bütün imtahanların vaxtını, inşaların verilmə müddətini, planlaşdırılmış tədbirləri və sairəni özündə birləşdirən xüsusi hazırlanmış tədris planı (curriculum) üzrə çalışırlar. Bu plana əsasən, tələbə məcburi sürətdə öz ixtisası üzrə müəyyən olunmuş miqdarda fənlər keçməlidir. Məcburi fənlərdən başqa, tələbə öz seçiminə görə başqa fənləri öyrənmək imkanına malikdir. Bir qayda olaraq, ABŞ-ın ali məktəblərində tələbə təhsilinin ilk iki ilində ümumi tədris fənləri keçilir. ABŞ-ın universitetlərində yoxlama işlərinin müxtəlif növləri vardır.

Ali məktəblərin hər bir tələbəsinə "faculty advisor" və ya academic advisor təhkim olunur. Tələbə bu şəxsə tədrislə bağlı məsləhət üçün onu narahat edən, maraqlandıran istənilən sualla müraciət edə bilər. Xarici tələbələrə yeni şəraitə uyğunlaşmaq, lazımi sənədləri qanuniləşdirmək üçün, həmçinin qəyyum kimi (nəzarət edən kimi) təyin olunmuş, "İnternational Student Advisor" kömək edir.

Graduate Level Master's Degree, PhD. – Master's Degree – magistr dərəcəsi. Bu dərəcəni birillik və ya ikiillik kursu bitirəndən sonra alırlar. Təhsil müddəti ixtisasdan, tələbənin hazırlıq səviyyəsindən, tədris proqramının strukturundan asılı olaraq dəyişir.

Magistr dərəcəsi universitetlər, kolleclər və bəzi ixtisaslaşdırılmış məktəblər tərəfindən verilir. Magistraturada bəzi vacib fənlərin tədrisi tələb olunur. Bu proqram dissertasiya (tədqiqat istiqamətində) yazmağı, konkret layihə üzərində işləməyi, müəyyən və ya digər tələbləri birləşdirən sahələrdə imtahan verməyi tələb edə bilər.

– Fəlsəfə doktoru – (PhD–Philosophy Doctor) və ya (Advanced Professional Degree) – Amerika doktoranturasının diplomları (Doctoral Level) adlanır. Doktoranturanın proqramı seçilmiş ixtisas üzrə dərin biliyi, həmçinin müstəqil tədqiqatkeçmə qabiliyyətinin olmasını tələb edir. Doktorantura proqramına qəbul olma bakalavr (4-5 il təhsil) və magistratura (2-3 il təhsil) bazasında ola bilər.

Doktorantura proqramı özündə aşağıdakı tələbləri birləşdirir:

namizədlik və ya layihə dissertasiyasının hazırlığı və müdafiəsi; xüsusi yaradılmış komissiya qarşısında şifahi və yazılı imtahanların verilməsi.

-Postgraduate (Postdoctoral) Level – postdoktorantura dərəcəsi. Bu kurslara doktorluq dissertasiyası üzərində çalışan və müstəqil tədqiqat apara bilən elmlər namizədləri daxil ola bilər. İlk iki il müddətində onların dərsi,

əsasən, fərdi plan üzrə az miqdarda seminarlardan ibarət olur. Bir ilə yaxın tələbələr öz tədqiqatlarını aparır və dissertasiya hazırlığı üzərində çalışırlar. Doktor dərəcəsi almaq üçün elmi əsərlərin ABŞ ali məktəblərində çap olması tələb edilir.

ABŞ ali məktəblərinə daxil olmaq üçün ümumi tələblər. TOEFL ABŞ ali məktəblərinə qəbul üçün ingilis dilindən bilik səviyyəsini üzə çıxarmaq üçün aşağıdakı standart imtahanın verilməsi qəbul olunmuşdur. Yəni bu imtahanların bəzilərinin verilməsindən azad olmaq üçün ingilisdilli ölkələrin birində bakalavr proqramı üzrə imtahan verilməsi kifayət edir.

a) texniki və mühəndis ixtisaslarını çıxmaqla bütün ixtisaslar üzrə bakalavr və magistratura proqramı üzrə TOEFL balına minimal tələblər:

1 tier (1-ci növ) 620
2 tier (2-ci növ) 600
3 tier (3-cü növ) 550

b) ABŞ-ın ali məktəblərinə mühəndis və texniki ixtisaslar üzrə orta keçid balı:

Bal TOEFL: 1 tier (1-ci növ) 600-650
2 tier (2-ci növ) 550-630
3 tier (3-cü növ) 550-600
Bal GRE 1tier (1-ci növ) 770
2 tier (2-ci növ) 760
3 tier (3-cü növ) 720

SAT I. Bu imtahan bakalavr proqram üzrə birinci kursa daxil olmaq üçün xarici abituriyentlər üçün vahid qəbul imtahanıdır.

SAT II. – Texniki yönümlü universitetlərə və ya reytinq üzrə yüksək olan ali məktəblərə (nadir hallarda universitetin tələblərinə görə verilir) qəbul olarkən bu imtahanın verilməsi nəzərdə tutulur.

GRE magistratura və doktoranturaya qəbul olmaqa sənəd verən xarici abituriyentlər üçün GRE-nin bal üzrə tələbləri 720-dən 770 bala kimi dəyişilir.

ABŞ universitetlərinə ərizələrin verilmə müddətləri. ABŞ-ın universitetlərində tədris ili (dərslər) adətən avqust-sentyabr aylarında başlayır və may-iyuna kimi davam edir. Bir qayda olaraq, akademik il iki müddətə – iki semestrə bölünür. Bəzi məktəblərdə akademik il "trisemester" sistem kimi tanınmış üç dövrdən ibarətdir. Dörd dövrə bölünmə rüblük-sistem/quarter sistem (seçimə görə yay semestri) də mövcuddur.

ABŞ-ın universitetlərinə ərizələrin verilmə müddətləri seçilmiş universitetdən asılıdır. Sənədlərin tam qəbul qrafiki aşağıdakı kimidir:

Bakalavr: – qış semestri noyabrdan fevrala/marta kimi; payız semestri sentyabr-noyabra kimi.

Magistratura: qış semestri, dekabrdan yanvara/fevrala kimi; payız semestri, sentyabr–noyabra kimi.

Qeyd etmək lazımdır ki, daha dəqiq və tam məlumat almaq üçün universitetlərin veb-saytlarına müraciət etmək lazımdır.

İndi isə ABŞ-ın ən məşhur olan bir neçə dövlət universitetləri haqqında bəzi məlumatları verək.

Kanadada 157 dövlət universiteti və elmi dərəcə verən təhsil müəssisəsi vardır və 175-dən artıq tanınmış dövlət kolleci fəaliyyət göstərir. Kanadanın ən böyük ali təhsil müəssisələrindən biri Toronto universitetidir. 60 000-ə yaxın tələbə əyani şöbədə təhsil alır, 10 000-dən çox bakalavr, magistr və doktor kimi elmi dərəcələri verən təhsil proqramları, habelə ixtisas dərəcisi, proqramları və sertifikatları təklif olunur. Bəzi təhsil müəssisələrində ingilis dili və həm də fransız dillərindən istifadə olunur.

Kanada universitetlərində pedaqoji kadr hazırlığı üzrə bir çox tələblərə diqqət yetirilir: Pedaqoji kadr hazırlığı üzrə tədris kursunun inteqrativ məzmununun yaradılması, məsələn, Migel Universitetinin təhsil fakültəsində dörd şöbənin (inteqrativ fənlər; təhsil psixologiyası, qnesologiya və fiziki tərbiyə, informatika) olması; pedaqoji kadr hazırlığında ikili ixtisaslılığa yer verilməsi; peşəkarlığın yüksək olması önəmli sayılır.

Bu universitetin tələbələrindən oxuduğu müddətdə120 kredit toplamaq tələb olunur. Bu kreditlərin 54-ü akademik fənlərə, 20-si praktikaya, 40-ı isə pedaqoji –psixoloji fənlərə aiddir.

1852-ci ildən yaradılmış olan Laval Universiteti Kvebek əyalətinin böyük tədris müəssisələrindən biridir. Bu universitetdə təhsil alan 40 minə yaxın tələbə təxminən 352 istiqamət (proqram) üzrə çalışır.

**Harvard Universiteti (Harvard University).**Harvard Universiteti Massaçusets ştatının Kembric şəhərində yerləşir, ABŞ-ın ən qədim ali təhsil ocağıdır və malik olduğu ərazi 154 hektardır. Universitetin tarixi Massaçusets vilayəti Ali Məhkəməsinin qərarı ilə 8 sentyabr 1636-cı ildə Harvard kollecinin yaradılmasından başlayır.

Kollecin ilk himayəçisi gənc nazir Con Harvard olub və kollec buna görə də onun adını daşıyır. 1638-ci ildə o, ölümündən əvvəl öz mülkünün yarısının və kitabxanasının yeni yaranmış təhsil müəssisəsinə verilməsini vəsiyyət edib. 1643-cü ildə Harvard Universitetinin məqsədi belə açıqlanıb: "Bilik axtarışı və onların gələcək nəslə ötürülməsi naminə! Bu yoldan qorxub çəkinənlər isə qoy cahilcəsinə kilsənin möcüzələrinə ümid bağlasınlar".

XIX əsrin birinci onilliyində kollec faktik olaraq universitetə çevrilmişdir. Lakin bu zamana qədər İncil, müxtəlif dillər və riyaziyyat öyrədilirdi. Kollecin universitet statusu tibb (1810) və hüquq (1817) elmlərinin tədris edilməsi ilə bağlı idi. Harvardın ilk buraxılışı 9 nəfər olub.

Universitetin kitabxanası dünyanın ən böyük kitabxanalarından biridir. Bu kiabxanalarda mərkəzi kitab toplusundan başqa, nadir kitablar və əlyazmalar, tibb, çin-yapon və s. kitablar yerləşir.

Universitetdə 9 fakültə fəaliyyət göstərir:

İncəsənət və elmlər fakültəsi, Harvard kolleci, İncəsənət və elmlər doktoranturası, Tibb Məktəbi, Harvard İlahiyyət İnstitutu, Harvard Hüquq Elmləri İnstitutu, Harvard Biznes İnstitutu, Dizayn Doktoranturası, Pedaqoji Elmlər Doktoranturası, Tibb İnstitutu, Conn F. Kennedi adına Dövlət İdarəetmə İnstitutu.

Harvard Universitetində bakalavr pilləsində təhsil alan tələbələr magistrant və doktorantlarla müqayisədə çoxluq təşkil edir. Universitetdə 2300 müəllim fəaliyyət göstərir. Bunlardan 43-ü Nobel mükafatı alıbdır. Dünyada ən çox Nobel mükafatı alan müəssisə Harvard Universitetidir. Bir illik təhsil haqqı orta hesabla 42000 ABŞ dollarıdır. Tələbələrin üçdə iki hissəsi təqaüd alır, bu, xarici tələbələrə də aiddir.

Amerika kampusları başqa ölkələrin ali məktəblərindən fərqlidir. Burada yerli (şəhər) və şəhərkənarı kampuslar mövcuddur, tələbələrin çoxu şəhərkənarı kampuslarda yerləşir. Tipik amerikalı tələbə üçün universitet təkcə auditoriya, laboratoriya, kitabxana deyil, o, burada idmanla məşğul olur, əylənir, mədəni səviyyəsini artırır, ictimai həyatda fəal iştirak edir. Kampus böyük bir əmək bazarıdır, tələbələr boş vaxtlarında kafe və restoranlarda, mağazalarda, yanacaqdoldurma məntəqələrində və başqa kiçik biznes müəssisələrində işləyərək pul qazanırlar. Hətta ən varlı amerikalı ailələr belə övladlarının yalnız təhsil haqqını ödəyirlər. Valideynlər hesab edirlər ki, bu, ictimai adaptasiya üçün ən yaxşı məktəbdir. Universitetin qəbul qaydaları çox sərtdir, sənədlərini təqdim edənlərin yalnız 20%-ə qədəri Harvard tələbəsi adına yiyələnmək şansı qazanır. Qəbul imtahanları 2 mərhələdə aparılır: test və müsahibə.

Prezident Ceyms Brayant Konantın (1933-1953) universitetə rəhbərlik etdiyi dövrdən başlayaraq burada əlavə ümumi təhsil proqramı qəbul olunub: hər bir məzun əsas ixtisas fənlərindən başqa, fakültətiv fənlərdən də imtahan verməlidir. Hesab olunur ki, Harvardın məzunu eyni zamanda bir neçə karyera qurmaq və hər yerdə özünü yüksək ixtisaslı mütəxəssis kimi təqdim etmək imkanına malikdir. Harvard Universitetini çoxlu sayda dünya şöhrətli şəxslər bitirib.

Hər il aparılan araşdırmalara əsasən, 2008-ci ildə 12 illik fasilədən sonra Harvard Universiteti özünün "Amerikanın ən yaxşı ali məktəbi" titulunu geri qaytarıb və əsas rəqibi olan, 8 il dalbadal birinci pillədə yerləşən Priston Universitetini keçib. Harvard Universiteti Amerikanın elit universitetləri qrupuna daxildir.

**Miçiqan Universiteti (University of Michiqan).** Miçiqan Universiteti 1817-ci ildə yaranmışdır və ABŞ-ın Miçiqan ştatının Enn Arbor şəhərində yerləşir. İllik gəliri 4,1 milyard ABŞ dollarıdır. İşçi akademik heyəti 6238, inzibati heyəti isə 38000 nəfərdir. Universitetin tələbələrinin ümumi sayı 56000 nəfərdir. 2009-cu ildə aparılan dünya universitetlərinin reytinqinə əsasən, Miçiqan Universiteti 100 ən yaxşı ali məktəb arasında 19-cu yerdə sıra-

lanıb. Bu ali təhsil müəssisəsi Amerika Universitetləri Assosiasiyasının ilk üzvlərindən biridir. Miçiqan Universiteti Amerikanın ən nüfuzlu və tanınmış dövlət ali məktəblərindən biridir.

Miçiqan universiteti 1817-ci ildə Detroyt şəhərində Miçiqan ştatının qubernatoru və hakimləri tərəfindən yaradılıb. 1837-ci ildə Miçiqan ştatının I qubernatoru Stivens Mason universitetin Enn Arbor şəhərinə köçürülməsinə nail olur və universitetə 16 hektar ərazi ayrılır. Universitetin ilk dərsləri bu şəhərdə 1841-ci ildə fəaliyyətə başlayır və 1871-1909-cu illərdə universitetdə stomatologiya, memarlıq, mühəndislik, idarəetmə və tibb fakültələri yaradılır. Miçiqan Universiteti seminar məşğələsini tətbiq etmiş ilk Amerika universitetidir. 1900-1920-ci illərdə stomatologiya və əczaçılıq, kimya, təbiət elmləri üçün binalar, Hill auditoriyası, böyük xəstəxana və kitabxana kompleksləri, iki yataqxana tikilir.

1959-cu ildə "Ford Motor" kampaniyası Miçiqan ştatının cənub-şərq hissəsində universitetə təxminən 50 hektar ərazi bağışlayır. Həmin ərazidə universitetin Derborn kampusu salınır. Soyuq müharibə və kosmik rəqabət dövründə strateji tədqiqatlar məqsədilə Miçiqan Universiteti əsas dövlət subsidiyası alan tədqiqat mərkəzinə çevrilir və nüvə enerjisinin istifadəsində dövlətə köməklik göstərir.

Universitetə ilk dəfə 1871-ci ildə qızlar qəbul olunur. 1980-1990-cı illərdə Miçiqan universitetində xəstəxana kompleksi və inzibati binalar tikilir, kompyuter informasiya texnologiyaları sürətlə inkişaf edir. 2000-ci ilin əvvəllərində universitetə dövlət tərəfindən edilən yardımların məbləği xeyli aşağı düşür, bu da universitet administrasiyası və həmkarlar ittifaqları arasında qarşıdurmaya gətirib çıxarır. 2009-cu ildə universitet daha 30 böyük bina və kosmik laboratoriya istifadəyə verir. Hazırda universitetdə 2,5 milyard dollar dəyərində olan tikinti layihəsi həyata keçirilir.

Hazırda Miçiqan Universitetinin illik gəlirləri 4 milyard 104 milyon 608 min ABŞ dolları təşkil edir. Universitetin büdcəsi əsasən qrantlar, donorların ödəniş və yardımları sayəsində formalaşır. Ötən il tələbə və müdavimlərin təhsil haqlarından gələn gəlirlər 791 milyon 221 min, Federal Hökümət tərəfindən verilmiş qrantlar 712 milyon 963 min, Yerli Ştatın verdiyi qrantlar 9 milyon 649 min ABŞ dolları təşkil edib. İanə (yardım) fondu isə 7 milyard 570 milyona çatıb. Universitetin ianə fondu ABŞ-ın yeddinci, ABŞ dövlət universitetləri arasında isə üçüncü ən böyük fonddur, lakin universitetin xərcləri də az olmayır.

Universitet tələbələrə bir çox güzəştlər edir, maliyyə yardımları, qrantlar, iş yerləri, kreditlər və s.

Miçiqan Universiteti üç tələbə şəhərciyindən ibarətdir. Enn Arbor, Derborn və Flint. Universitetin bu ərazilərdə 524-dən çox inzibati binası var. Enn Arbor şəhərində Miçiqan Universitetinin 4 kampusu yerləşir, Şimali, Mərkəzi, Tibbi və Cənubi kampuslar. Plimut Yolu adlanan ərazidə universitetin

Tibb şəhərciyi salınıb. Burada tibbi məktəblər, ambulator qayğı və diaqnostika mərkəzləri, bir neçə cərrahiyyə binaları və s. mövcuddur. Universitet ilk dəfə 1837-ci ildə Mərkəzi kampusda yerləşib. Kampusun binaları çox qədimdir və klassik üslubda inşa edilib. Şimali kampus 1952-ci ildə istifadəyə verilib.

Miçiqan Universiteti yataqxana sisteminin böyüklüyünə görə ABŞ-da altıncı yerdə durur. Universitetin yataqxana sisteminə eyni zamanda Henderson Haus Hüquqşünaslar Klubu da daxildir. Elmi mərkəzlər Miçiqan Universitetinin yataqxanalarında da mövcuddur. Moşer-İordaniya Holl rezidensiyasında elmi-tədqiqat cəmiyyəti, Rezidensiya Kollecində ədəbiyyat, elm və incəsənət, şərqşünaslıq bölmələri fəaliyyət göstərir. 2006-cı ildə universitet Mərkəzi kampusun şimal hissəsində yeni yataqxana kompleksinin tikilməsinə başlayır və hazırda bu iş davam etdirilir.

Miçiqan Universitetinin kitabxana sisteminə 8 milyondan çox kitab daxildir. Bu rəqəm hər il 177000 ədəd artır. Universitetdə 19 kitabxana vardır. Kitabxanalar həmçinin təhsil müəssisəsi kimi fəaliyyət göstərərək tələbə, müəllim və tədqiqatçılara kurslar, proqramlar təklif edir. Miçiqan Universitetinin muzeyləri Enn Arbor şəhərciyində yerləşir. Mərkəzi kampusda Təbiət tarixi (eləcə də Paleontologiya), Kelsi arxeologiya və Təsviri incəsənət muzeyləri, Şimali kampusda isə Uorren Robbins və Slasser qalereyaları yerləşir.

2002-ci ildə Miçiqan Universitetinə ixtisasca həkim olan Meri Syu Koulman rəhbərlik edir. O, universitetin sayca 13-cü prezidentidir. M.S.Koulmanın ofisi Enn Arbor şəhərciyində qədim binada yerləşir. Ümumilikdə, universitetdə 6200-dən çox akademik heyət, 38000 inzibati işçi çalışır və onların bir çoxu ABŞ Milli Akademiyasının üzvləri, Nobel, Pulitser mükafatları laureatlarıdır. Hazırda Miçiqan Universitetində 56000 tələbə təhsil alır və onların 65%-i ədəbiyyat, elm və mədəniyyət, 20%-i Mühəndislik məktəblərində təhsil alır. Magistrlərin əksəriyyəti biznes, doktorantların çoxu isə ədəbiyyat, elm və mədəniyyət məktəblərində təhsil alır.

**Yel Universiteti (Yale University).** Yel Universiteti ABŞ-ın tanınmış məşhur universitetlərindən biridir və qədim şəhərlərindən biri olan Nyu-Heyvendə yerləşir. Nyu-Heyven 125 min əhalisi olan liman şəhəridir, Nyu-Yorkdan 120 kilometr şimal-şərqdə və Bostondan 200 kilometr cənub- qərbdədir. Yel Universiteti 1701-ci ildə yaradılıb, bura 12 bölmə daxildir: dörd illik bakalavr dərəcəsi verən Yel Kolleci; dəqiq (fundamental), təbiət və humanitar elmlər, eləcə də hüquqşünaslıq, tibb, biznes, ətraf mühitin mühafizəsi, ilahiyyat, memarlıq, musiqişünaslıq, rəssamlıq, aktyorluq və s. ixtisaslar üzrə doktorantura. Universitetin təməli olan Yel Kolleci öz proqramı ilə həmişə fərqlənir və bu universitetdə 65 kafedra vardır ki, ildə 2000-dən çox mühazirə kursu oxunur.

Universitetin yaradıcıları olan keşişlər tərəfindən sonralar ABŞ-ın ali təhsilinin inkişafında böyük rol oynayan kollegiallıq prinsipi əsas götürüldü.

Yel universitetinin yaradıcıları tələbələrin bir yerdə qalaraq bir-birlərindən öyrənməsi üçün kollec-yataqxana yaratmaq istəyirdilər. Bu ideyanı ingilislər Oksford və Kembric kolleclərində tətbiq etmişlər. Tələbələr müəllimləri ilə bir yerdə qalır, öyrənir və kilsəyə gedirdilər. Bu cür təhsil sistemində müəyyən bir ixtisasa yiyələnməklə bərabər, həm də tələbə geniş təcrübəyə malik olur.

1717-ci ildə Yel Universitetinin yaradıcıları o vaxtlar 1000 nəfər əhalisi olan Nyu-Heyven adlı balaca şəhərdə torpaq sahəsi alırlar və 1718-ci ildə burada kollecin binasını ucaldırlar. Elə həmin il universitetə kral I Georqun portretini bağışlayan Uels taciri Eliaxu Yelin şərəfinə Yel Kolleci adı verilir. Tezliklə bu ərazidə Yelin ən qədim binalarından hesab edilən kollegial kilsə və Konnektikut Holl tikildi. Bu dövrdə hər kursda 25-30 nəfər oxuyurdu, kollecdə cəmi 100-ə yaxın tələbə təhsil alırdı. Ancaq oğlanların təhsil almaq hüququ var idi, qəbul şifahi imtahan yolu ilə aparılırdı və imtahanı kollecin prezidentinin özü götürürdü. Latın və yunan dilləri, məntiq, ritorika və hesabdan biliklər xüsusi yoxlanılırdı. Həm də bütün dərslər latın dilində keçilirdi, tələbələr dərsdən sonra da bir-birləri ilə bu dildə ünsiyyət qurmalı idilər. Kollecin qaydalarına görə ingilis dilindən istifadə qadağan olunmuşdu. Bu tələb uzun müddət qüvvədə qaldı. 1920-ci ildə müəllimlər bundan imtina etməyi təklif etdilər, ancaq Yel Universitetinin məzunu və Yel korporasiyasının üzvü olan ABŞ-ın 27-ci prezidenti Uilyam Harvard Taft əsrlərlə qoyulan ənənədən əl çəkməyə imkan vermədi. Müəllimlər bu dəyişikliyə yalnız 1931-ci ildə nail oldular.

Yel və Harvard universitetində tədris olunan fənlər Kembric, Oksford, eləcə də antik akademiyaların: yeddi liberal incəsənət, klassik ədəbiyyat, üç fəlsəfə, təbiətşünaslıq fəlsəfəsi, etika və metafizika proqramlarına əsaslanırdı. Puritanlar bu proqramı Amerikada xaçpərəstlik ideallarının möhkəmlənməsi üçün bünövrə hesab edirdilər.

1776–1781-ci ildə Amerikanın azadlığı uğrunda aparılan müharibə Yel universitetinə toxunmadı. XIX-XX əsrlərdə doktorantura və peşə fakültələri, institutlar yaradıldı, bu da Yel Universitetini əsl universitetə çevirdi. 1810-cu ildə burada rəsmən tibb, 1822-ci ildə ilahiyyət, 1824-cü ildə isə hüquq fakültələri təsis edildi. 1847-ci ildən dəqiq, təbiət və humanitar elmlər üzrə doktorantura fəaliyyətə başladı, 1861-ci ildə ABŞ-da ilk dəfə olaraq, Yel Universitetində elmlər doktoru dərəcəsinin həyata keçməsi təklif edildi. 1869-cu ildə incəsənət, 1894-cü ildə musiqişünaslıq, 1890-cı ildə meşə təsərrüfatı və ətraf mühitin mühafizəsi, 1923-cü ildə orta tibbi personalın hazırlığı,1955-ci ildə teatr, 1972-ci ildə memarlıq, 1974-cü ildə idarəetmə fakültələri yaradılıb. 1879-cu ildən Yel Universitetinin doktoranturasında qadınlar təhsil alır, 1969-cu ildən isə qızlar 4-illik bakalavr pilləsinə qəbul olunurlar.

Hazırda Yel Universiteti dünyanın ən qabaqcıl universitetlərindən birinə çevrilib. 2000 nəfərdən çox olan professor-müəllim heyəti yüksək səviyyədə ixtisaslaşmaları ilə seçilir.

Universitetdə 50-dən çox dil öyrədilir, beynəlxalq münasibətlərə aid 600-dən artıq kurs keçilir. Qırx il ərzində bu istiqamət üzrə liderliyini saxlayan Yel Universitetinin beynəlxalq tədqiqatlar mərkəzi hazırda bakalavr dərəcəsində altı, magistr dərəcəsində isə dörd ixtisas üzrə fəaliyyət göstərir. Tətbiqi linqvistik tədqiqatlar, mərkəzi qloballaşma problemlərinin tədqiqatı və beynəlxalq maliyyə mərkəzləri beynəlxalq proqramlara artan marağı inkişaf etdirir və Yel Universitetinin ixtisaslaşmış fakültələrinin fəaliyyətini zənginləşdirir.

Yel Universitetinin ildən-ilə xarici tələbələrinin artımına görə nüfuzu artır və universitet tələbələrinin 16%-dən çoxu xarici tələbələrdir. Hər tədris ili bütün dünyada öz ölkələrinin inkişafı üçün mühüm nailiyyətlər verə biləcək görkəmli elm xadimləri Yel Universitetinə cəlb olunur və dünyanın 100-dən çox ölkəsindən minlərlə alim işləmək və yaşamaq üçün bura gəlir.

Yel Universitetinin çoxsaylı uğurlu və məşhur məzunları var. 1989-cu ildən başlayaraq ABŞ-ın bütün prezidentləri Yel Universitetinin məzunları olub. Corc Herbert Uoker Buş (ata – Buş), Bill Klinton, eləcə də onun həyat yoldaşı, ABŞ-ın sabiq Dövlət katibi Hillari Klinton, Corc Uolker Buş (oğul – Buş), onun qızı Barbara Buş, Amerikanın keçmiş vitse-prezidenti Riçard Dik Çeyni də Yelin məzunlarındandır.

Yel Universiteti Amerikanın elit universitetləri qrupuna daxildir.

**Massaçusets Texnologiya İnstitutu (Massachusetts Institute of Technology – MIT).** Bu institut ABŞ-ın Massaçusets ştatında, Kembric şəhərində yerləşir. Kompyuter texnologiyalarının mərkəzi adlandırılan universitet elm və texnologiya, robot texnikası və süni intellekt sahələri üzrə dünyada böyük nüfuz qazanmışdır. Həm də institut menecment, iqtisadiyyat, linqvistika, siyasi elmlər, fəlsəfə və s. sahələr üzrə də məşhurdur. İnstitutun ən tanınmış bölmələri Linkoln, İnformatika və Süni İntellekt laboratoriyaları, İdarəçilik Məktəbidir. 2009-cu ildə Massaçusets Texnologiya İnstitutu 100 ən yaxşı universitetin arasında doqquzuncu yerdə sıralanıb.

1861-ci ildə Massaçusets Birliyi Uilyam Berton Rocersin "Massaçusets Texnologiya İnstitutu və Boston Təbiət Elmləri Cəmiyyəti"nin yaradılması haqqında xartiyasını təsdiqlədi. Berton Rocers XIX əsrdə sürətlə inkişaf edən elmin tələblərinə cavab verə biləcək ali təhsilin yeni formasını yaratmaq istəyirdi. Berton Rocers təhsil proqramı hazırlayaraq həm ştat rəhbərliyinin diqqətini cəlb edir, həm də planlarını həyata keçirmək üçün özəl sponsorlar tapırdı. Onun fəlsəfəsi belə səslənirdi: "Elmlərin təkcə praktikada istifadə oluna bilən manipulyasiya və adi detalların tədrisi yolu ilə deyil, bütün əsas elmi prinsiplərin izahı ilə öyrənilməsi və başa düşülməsi önəmlidir". İnstitutun fəaliyyətinin ilk illərindən bu ali təhsil müəssisəsinin məzunları özlərini yüksək ixtisaslaşmış elmi-texniki mühəndislər kimi təqdim edirdilər. Müəssisələrin əksəriyyəti onları həvəslə işə götürür ki, bu da yeni yaranmış təhsil ocağına tələbələrin axınına səbəb olurdu.

10 aprel 1861-ci il qanunvericilik aktına əsasən Massaçusets Texnologiya İnstitutu üç bölmədən: İncəsənət Cəmiyyəti, Sənaye İncəsənəti Muzeyi və Sənaye Elmləri Məktəbi bölmələrindən ibarət idi.

XIX-XX əsrlərdə institut maliyyə problemi ilə üzləşir. Bu problem, əsasən, yaxınlıqda yerləşən Harvard Universitetilə rəqabət nəticəsində yaranır. 1900-cü ildə Massaçusets Texnologiya İnstitutunun Harvard Univer-sitetilə birləşdirilməsi ideyası irəli sürülür, lakin bu ali təhsil müəssisəsinin nüfuzlu məzunları həmin ideyaya qarşı çıxır. Bütün ehtirazlara baxmayaraq, 1914-cü ildə birləşdirilmə planı təsdiqlənir, Massaçusets Texnologiya İnstitutunun Harvardın Tətbiqi Elmlər bölməsi kimi Kembricə köçürülməsi qərara alınır və bu məqsədlə Kembricdə kompleks binalar tikilir. Həmin andan kampusda ən müasir məşhur memarlar tərəfindən yeni üslubda binalar tikilir. Daş və dəmirdən inşa edilmiş tikililər özünəməxsusluğu ilə seçilir və bir növ, Praqa şəhərində yerləşən məşhur rəqs edən evi xatırladır. Vaxtilə Massaçusets Texnologiya İnstitutunun məzunu olan Uilyam Bosuort tərəfindən inşa edilmiş binalar bu gün universitetin əsas kampusuna çevrilib. 1916-cı ildə bu təhsil ocağı Kembricdəki yeni kampusuna köçür, bu dövrdə Harvardla birləşmək planı öz aktuallığını itirir, Birinci Dünya müharibəsi və bundan irəli gələn ABŞ-ın sənaye potensialının gücləndirilməsi ixtisaslaşmış elmi-texniki kadrlara tələbatı artır. Bununla da Massaçusets Texnologiya İnstitutu birinci dərəcəli texniki ali məktəbə çevrilir və 1917-ci ildə Harvard Universitetilə birləşdirmə məsələsi ləğv edilir.

Müharibədən sonrakı illər institut sürətlə inkişaf edir, yeni fakültələr və tədqiqat mərkəzləri yaradılır. Lakin İkinci Dünya müharibəsinə qədər institut ikinci dərəcəli ali məktəb hesab olunur və ABŞ-dan kənarda tanınmır. İkinci Dünya müharibəsi dövründə institutun mütəxəssisləri, xüsusilə Radiasiya laboratoriyasının əməkdaşları radar qurğuları, nüvə reaktoru sahələrində və digər hərbi məqsədlər üzrə yüksək nailiyyətlər əldə edirlər. Massaçusets Texnologiya İnstitutu subsidiyaların ən çox alındığı ali təhsil müəssisəsindən olur və tezliklə dünyanın ən nüfuzlu elmi-tədqiqat mərkəzinə çevrilir. XX əsrin 1950-1960-cı illərində bu ali təhsil müəssisəsi elmi-texniki inqilab edir. Məhz bu dövrdə institutun Linkoln və Çarlz Stark Draper laboratoriyaları öz kəşflərilə məşhurlaşır. 1970-1980-ci illərdə institut elmi-texniki tərəqqiyə səbəb olan kompyuter dövrünün pionerinə çevrilir. İnstitutun divarları arasında öz dili, etika və mənəviyyatı olan kompyuter mədəniyyəti yaranıb.

Massaçusets Texnologiya İnstitutunun kampusu Kembric şəhərində Çarlz çayının sahilində 68 hektar ərazidə yerləşir. Massaçusets Texnologiya İnstitutunun kampusu ərazisi iki hissəyə bölünür – qərbdə tələbə yataqxanaları, şərqdə isə akademik binalar yerləşir. Akademik binalar, ofislər və yataqxanalarla yanaşı, onlara müxtəlif adlar verilib. Binalar yerüstü və yeraltı tunellərlə birləşdirilib. ABŞ-da ən böyük nüvə reaktoru Massaçusets Texnologiya İnstitutunun kampusunda, əhalinin sıx məskunlaşdığı ərazidə yerləşir.

Burada nüvə reaktorunun ətraf mühitə vurduğu ziyana görə institut rəhbərliyi ilə yerli əhali arasında tez-tez mübahisələr yaranır. İnstitut isə onun təhlükəsizliyinə zəmanət verir. Kampusun ərazisində yerləşən digər maraqlı obyektlərdən yüksəktəzyiqli aerodinamik tuneli, gəmilərin təlimi və okeanın quruluşunu öyrənmək üçün yedək çənini qeyd etmək olar. 2001-ci ildə ətraf Mühitin Mühafizəsi Agentliyi hava və suyu tullantılarla çirkləndirdiyi üçün təhsil müəssisəsini məhkəməyə verir. Nəticədə institut 155000 dollar dəyərində cərimə ödəyir və bundan sonra üç ekologiya layihəsi tətbiq edir. İnstitut eyni zamanda havanın çirklənməsinin qarşısını almaq məqsədilə alternativ yanacaq işlədən nəqliyyat vasitələri buraxır.

İnstitutda təhsil alan tələbələr üçün lazımi şərait yaradılıb. Hər bir yataqxananın öz komendantı var. Komendant tələbələrə, onların sağlamlığına və psixoloji durumlarına nəzarət edir. Kampusa köçməmişdən qabaq tələbələr istədikləri yataqxanada və mərtəbədə yer seçə bilər. Burada yaşayan tələbələr arasında müxtəlif cəmiyyətlər yaranır. Yuxarı kurs tələbələri Çarlz çayının o biri sahilində Bək Bey rayonunda yerləşən 36 yataqxanadan birində qalmağa üstünlük verirlər. Burada, adətən, heç kimin maneçilik etməməsi üçün yaradıcı tələbələr qalır və doktorantlar üçün 8 yataqxana mövcuddur.

Massaçusets Texnologiya İnstitutu çoxsaylı elmi kəşflərin yarandığı məkandır. Massaçusets Texnologiya İnstitutunun müəllim və tələbələri həmişə sərbəst, azadfikirli, bir qədər qalmaqallı olmaları ilə fərqləniblər.

Bu gün Massaçusets Texnologiya İnstitutunda 4232 tələbə təhsil alır, onların 45%-ni qızlar, 46%-ni əcnəbi tələbələr təşkil edir. Dünyanın ən yaxşı ali məktəblərindən olan bu institut qəbul qaydalarının mürəkkəbliyi ilə seçilir, instituta sənəd verən 20 abituriyentdən yalnız biri qəbul olunur. İnstitutda kəmiyyətə deyil, keyfiyyətə üstünlük verilir. Texniki sferada institutu əvəz edən digər ali təhsil müəssisəsi yoxdur. Buraya qəbul olunmaq, oxumaq və qurtarmaq çox çətindir. Lakin bütün bu çətinliklərə qatlanmağa dəyər, çünki Massaçusets Texnologiya İnstitutu kompyuter texnologiyalarının əsas məkanıdır.

Massaçusets Texnologiya İnstitutunun çoxlu sayda məşhur məzunları var, onlardan 75 nəfəri Nobel mükafatına layiq görülüb. İnstitutun tanınmış məzunlarından Azərbaycan əsilli alim, süni intellekt sahəsində qeyri-səlis məntiq nəzəriyyəsinin banisi, hazırda Kaliforniyanın Berkli Universitetinin professoru Lütfi Rəhim oğlu Ələsgərzadəni (Lütfi Zadə) xüsusi qeyd etmək olar. Lütfi Zadə Tehran Universitetinin elektrotexnika fakültəsinin bakalavr pilləsini bitirib. O, 1944-cü ildə ABŞ-a köçüb və təhsilini davam etdirmək məqsədilə bu instituta ərizə verib və 1946-cı ildə həmin institutun elektrotexnika ixtisası üzrə magistraturasını bitirib.

**Braun Universiteti (Brown University).** Braun Universiteti ABŞ-ın Rod Aylend Ştatının paytaxtı Providens şəhərində yerləşən qədim ali təhsil ocağıdır. 2009-cu ildə aparılan dünya universitetlərinin reytinqinə görə,

Braun Universiteti 100 ən yaxşı ali məktəb arasında 31-ci yerdədir. 2010-cu il üzrə reytinqə görə, bu ali təhsil müəssisəsi ölkə universitetləri arasında 16-cı yerə layiq görülüb. Universitet ABŞ-ın səkkiz ən nüfuzlu ali məktəblərini birləşdirən Sarmaşıq Liqasına daxildir.

1763-cü ildə Nyu-Cersi Kollecinin məzunu olmuş keşiş Ceyms Menninq Baptist (xristian məzhəblərindən biri) Kilsələri Assosiasiyası tərəfindən Rod Aylend Ştatına kollec axtarmağa göndərilir. Kollec Korporasiyası Cəmiyyətinin ilk toplantısı Rod Aylend Ştatında Nyuportda yerləşən Qədim Ev adlanan binada baş tutur. 3 mart 1764-cü ildə Böyük Britaniya kralı III Georq Rod Aylend Ştatında yeni kollec yaradılması haqqında xartiya imzalayır. Ali məktəbə Rod Aylend Kolleci adı verilir. Xartiyanı kraldan başqa, 60-dan çox şəxs imzalayır, bunların arasında kollecin təşkilatçılıq, maliyyələşmə və idarəolunmasında böyük xidmətləri olan Braun ailəsinin üzvləri (Con, Nikolas və Mozes qardaşları) də olur. Universitetin adını daşıdığı (1804-cü ildən) Nikolas Braun kollecə böyük miqdarda yardımlar edir.

1765-ci ildə Ceyms Menninq yeni yaradılmış kollecin prezidenti təyin edilir və 1791-ci ilədək bu vəzifədə qalır. Tələbələr Kollecə dini mənsubiyyətindən asılı olmayaraq qəbul edilir. 1770-ci ildə universitetin hazırda Providens şəhərində Üst-Saydda yerləşən əsas binası tikilir. 1891-ci ildən Braun Universitetinin nəzdində Qızlar Kolleci yaradılır və ali məktəbə qızlar qəbul olunur.

1850-ci ildə Braun Universitetində elmi dərəcələr verilməyə başlasa da, 1857-ci ildə dayandırılır. 1887-ci ildə universitet tələbələrinə magistr və doktorluq dərəcələri vermək hüququnu bərpa edir. Burada ilk magistr dərəcəsi 1888-ci ildə, ilk doktorluq dərəcəsi isə 1889-cu ildə verilib.

Braun Universitetində ilk tibb proqramı 1811-ci ildə həyata keçirilib. Tibb üzrə elmi dərəcələr ali təhsil müəssisəsində 1975-ci ildən verilir. 1984-1985-ci illərdə Braun Korporasiyası 8 illik Liberal Tibbi Təhsil Proqramı qəbul edir. Hazırda Braun Universiteti Tibb Məktəbinin tələbələrini ildə 90-a yaxın tibbi dərəcə ilə təltif edir.

1904-cü ildə universitetdə Con Karter Braun, 1908-ci ildə isə Riçard Rammell kitabxanaları açılır.

Braun Universiteti 1969-cu ildə qeyri-adi tədris proqramı qəbul edir. Bu proqrama əsasən, universitetdə heç bir fənn məcburi tədris edilmir. Tələbələr müstəqil olaraq istədikləri fənləri seçir və istədikləri zaman qiymət əvəzinə "məqbul" və ya "qeyri-məqbul" ala bilir. Hələ 1850-ci ildə universitetin prezidenti Frensis Ueylend yazırdı: "Müxtəlif kurslar elə təşkil olunmalıdır ki, hər tələbə seçdiyi fənlərin hamısını və yalnız seçdiyini öyrənə bilsin".

2009-cu ildə Braun Universitetinin illik gəlirləri 623887000 ABŞ dolları təşkil edib. Bu vəsaitin 302018000 ABŞ dolları təhsil haqqından, 133847000 ABŞ dolları qrant və sazişlərdən, 49905000 ABŞ dolları yardımlardan, 133030000 ABŞ dolları ianə fondunun gəlirlərindən, 80682000 ABŞ dolları

satış və göstərilən xidmətlərdən, 24586000 ABŞ dolları isə digər gəlirlərdən əldə olunub.

Həmin il Braun Universitetinin illik xərcləri isə ümumilikdə 636547000 ABŞ dolları dəyərində olub. Bu məbləğin 301192000 ABŞ dollarını əmək-haqqı, 83639000 ABŞ dollarını işçilərə verilən mükafatlar, 48447000 ABŞ dollarını universitetə göstərilən xidmətlər, 77787000 ABŞ dollarını təchizat, 21495000 ABŞ dollarını kommunal, qalanlarını isə digər xərclər təşkil edib.

2009-cu ilin yekunları üçün Braun Universitetinin illik dövriyyəsini 2724816 ABŞ dolları təşkil edib.

Braun Universitetində tələbələrin təhsil haqqı onların oxuduğu məktəb, fakültə və proqramdan asılı olaraq dəyişir. 2009-2010-cu tədris ilində tələbələrin təhsil haqqı ümumilikdə 38048 ABŞ dolları təşkil edib. Tələbələrin qidalanması və digər xərcləri isə 11080 ABŞ dolları dəyərində olub. Təhsil haqqı da daxil olmaqla, həmin tədris ilində tələbəyə təxminən 49128 ABŞ dolları dəyərində məbləğ lazım olub.

Universitet bütün tələbələrə 100%-lik yardım (təqaüd) təklif edir. Ali təhsil müəssisəsinin tələbələrinin 41%-i maliyyə yardımı alır. Təqaüdün məbləği burada orta hesabla 33290 ABŞ dollarıdır.

Braun Universitetində müəllimlərin əmək haqqı onların elmi dərəcələrindən asılı olaraq dəyişir. Burada professor orta hesabla ildə 134500 ABŞ dolları, elmlər doktoru 87276 ABŞ dolları, dosent 75768 ABŞ dolları, müəllimlər (mühazirəçi) 59858 ABŞ dolları, stajlı müəllimlər isə 71983 ABŞ dolları dəyərində maaş alır. Əməkhaqqının məbləği universitetin məktəb və fakültəsindən asılı olaraq, az da olsa, fərqlənir.

Braun Universiteti Providens şəhərində ən böyük əraziyə malik ali təhsil müəssisəsidir. Universitet əsas; Pembrok, Şərq kampuslarından və bir sıra digər ərazilərdən ibarətdir. Əsas kampus İst-Saydda Providens çayından başlayaraq şəhərin mərkəzinə doğru 0,58 $km^2$ ərazini əhatə edir. Yaşıllıqlarla əhatə olunan bu şəhərcikdə əksəriyyəti viktorian üslubunda inşa edilmiş 235 bina yerləşir. Akademik binaların çoxu əsas kampusdadır.

Pembrok kampusunda Pembrok Qadınlar üçün Tədris və Tədqiqat, Koqut Humanitar Elmlər mərkəzləri, tələbə yataqxanaları, yeməkxanalar, əyləncə mərkəzləri yerləşir.

40000 $m^2$ ərazidən ibarət olan Şərq kampusu Braun Universiteti tərəfindən 1969-cu ildə 5 milyon ABŞ dollarına əldə olunub, 1971-ci ildən isə rəsmən Braun Universitetinin kampusu elan edilib.

Bu kampuslardan əlavə, Braun Universitetinə əsas şəhərcikdən bir mil Şimal-Şərqdə yerləşən və 1925-ci ildə tikilmiş Braun stadionu, Ceverli rayonunda 5 inzibati bina, Providens şəhərindən kənarda, Bristol şəhərində 1,52 $km^2$ ərazi aiddir.

Braun Universitetində fəaliyyət göstərən kolleclər bunlardır: Bakalavr, Ali (magistr və doktorantlar üçün) kollecləri və Alpert Tibb Məktəbi.

Bakalavr Kolleci universitetin əsasını təşkil edir və ali məktəbin yarandığı andan fəaliyyət göstərir. Hazırda kollecin tələbələrinin sayı 6013 nəfərə bərabərdir.

Kollec iki müxtəlif bakalavr dərəcəsi təklif edir: incəsənət və elmlər bakalavrı. Bu dərəcələrin ikisini də almaq üçün tələbələr beş il təhsil almalıdır. Əgər bölmələrin arasında tələbənin arzuladığı proqram yoxdursa, o, şəxsi proqram hazırlamaq və müstəqil tədqiqat aparmaq hüququna malikdir.

Alpert Tibb Məktəbi, universitetdə tibb proqramı 1811-ci ildən yaradılıb. 1991-ci ildən məktəb Braun Tibb Məktəbi adlandırılır. 2007-ci ildə iş adamı Uorren Alpert məktəbə 100 milyon dollar vəsait yardım edib. Bunun qarşılığında məktəbin adı dəyişdirilərək Uorren Alpert Tibb Məktəbi olur. Hazırda bu məktəb Amerikanın ən rəqabətli məktəblərindən biridir. Məktəbə qəbul olmaq istəyənlərin yalnız 2%-dən aşağısı müsabiqədən uğurla keçir. Məktəbdə hüceyrə biologiyası, fiziologiya, biokimya, qidalanma, immunologiya və genetika, mikroskopik anatomiya, ümumi patologiya, neyrobiologiya, patofiziologiya, neyrofarmokologiya, mikrobiologiya, epidemiologiya, endokrin patofiziologiya, kardiologiya, nefrologiya, pulmonologiya, gematologiya, qastroenterologiya və s. elmlər öyrədilir. Məktəbdə 4 il təhsil aldıqdan sonra tələbələr bakalavr diplomu alır və avtomatik olaraq təhsilini MD (latın dilindən "Medicinae Doctor" - tibb doktoru) dərəcəsi almaq üçün davam etdirir.

Alpert Tibb Məktəbinin nəzdində Rod Aylend, Miriam, Memorial, Batler, Emma Pendlton Bradli, Qadın və Uşaq xəstəxanaları və Providens Tibb Mərkəzi fəaliyyət göstərir.

Pembrok Qadınlar üçün Tədris və Tədqiqat Mərkəzi 1981-ci ildə yaradılıb və gender məsələləri üzrə elmi-tədqiqatla məşğuldur. Mərkəz qızlar üçün fəaliyyət göstərən Pembrok Kollecinin şərəfinə adlandırılıb. Burada qadınların tarixi nailiyyətlərinin tanınması üzrə bir sıra proqramlar həyata keçirilir, hər il seminarlar təşkil olunur.

Braun Universitetinin kitabxana sisteminə 6,8 milyon cild kitab, dövri nəşr, xəritə, əlyazma, musiqi əsərləri və s. daxildir. Bu resursların üzərinə hər il 70000 nəşr əlavə olunur. Kitabxanadakı materiallar internet vasitəsilə geniş spektrdə oxucuların istifadəsinə verilib. Universitetdə aşağıdakı kitabxanalar fəaliyyət göstərir: humanitar və ictimai elmlər haqqında kitablar; toplanmış Kiçik Con Rokfeller adına dəqiq elmlər, tibb və kütləvi informasiya vasitələrinə aid kitab və dövri nəşrlərin saxlandığı Elmlər (burada tələbələrin ən çox toplaşdığı Syuzen P. və Riçard A. Fridman adına Tədris Mərkəzi yerləşir); xüsusi kolleksiyaların, nadir kitablar, əlyazmalar və arxivlərin yerləşdiyi Con Hey; dünya üzrə məşhur Amerikanın Şimal və Cənubuna aid kolleksiyaların toplandığı Con Karter Braun; Valter Neymanın 46 səsyazması və 24000-dən çox musiqi əsərlərinin saxlandığı Virciniya Orviq adına Musiqi; təsviri

incəsənət, memarlıq, arxeologiya materiallarının qorunduğu İncəsənət Slayd kitabxanaları.

Braun Universitetinin ən böyük muzeyi Braun Haffenreffer Antropologiya Muzeyidir. Burada Şimali və Cənubi Amerika, Afrika, Asiya və Sakit okean mədəniyyətinə aid 100000-dən çox eksponat qorunur. Annmary Braun Memorial muzeyində Avropa və Amerikanın bədii rəsm əsərləri, eksponatlar, Britaniyanın Mazanski qılınc kolleksiyaları, Braun nəslinin cəvahiratları nümayiş olunur. Bell Qalereyasında müasir rəssamların sənət əsərləri yerləşir.

Universitetdə ümumilikdə 4629-a yaxın işçi qeydə alınıb. Bunların 1187 nəfəri professor-müəllim heyəti, 773 nəfəri idarəetmə, qalanları isə inzibati işçilərdir.

Braun Universitetində ABŞ-ın 50 Ştatından və dünyanın 107 ölkəsindən 8261 tələbə təhsil alır. Onların 6013 nəfərini bakalavrlar, 1832 nəfərini magistr və doktorantlar, 416 nəfərini isə Tibb Məktəbində təhsil alan tələbələr təşkil edir. Universitetdə 4016 oğlan, 4245 qız tələbə oxuyur. 2009-2010-cu tədris ilində universitetə qəbul üçün 24988 ərizə daxil olub, onlardan yalnız 2790-ı qəbul olunub.

Braun Universitetində tələbə həyatı çox yüksək səviyyədə təşkil olunub, burada gənclər üçün istənilən şərait yaradılıb. Universitetin kampuslarında internet, kabel televiziyası, telefon, istilik sistemi və digər xidmətlərlə təmin edilmiş bir, iki və daha çoxotaqlı 60-a qədər yataqxana var. Universitetdə tələbələrə tibbi, hüquqi, psixoloji xidmətlər də göstərilir.

Braun Universitetində 300-dən çox tələbə təşkilatı qeydə alınıb. Bütün Amerika universitetlərində olduğu kimi, bu ali təhsil müəssisəsində də idmana xüsusi diqqət yetirilir və bu sahədə böyük uğurlar əldə olunub.

Braun Universiteti özünü belə xarakterizə edir: "Universitetimizin tələbə və müəllimləri çox yaradıcı və zəngin intellektual bacarıqlara malik şəxslərdir. Eləcə də onlar hər zaman apardıqları tədqiqatlara görə narahatdırlar. Onlar işin adi gedişindən qane olmur, problemin yeni həll yollarını axtarır və eksperimentlər həyata keçirirlər. Bizim məqsədimiz dünyaya yeni-yeni töhfələr verə biləcək kosmopolit vətəndaşlar yetişdirməkdir".

**Çikaqo Universiteti (University of Chicago).** Çikaqo Universiteti ABŞ-ın Çikaqo şəhərində, İllinoys ştatında yerləşən elmi-tədqiqat axtarış mərkəzidir. Bu universitet ABŞ-da Amerika fənlərarası humanitar elmlər kollecini və alman tədqiqat universitetlərini birləşdirən ilk ali təhsil ocağıdır. Ali məktəb özünün fərqli tədris planı və 1930-cu ildə universitetin prezidenti Robert Maynard Hatçins tərəfindən əsası qoyulmuş təhsil islahatları ilə seçilir. ABŞ-da ən böyük universitet nəşriyyatı bu təhsil ocağında yerləşir. Universitetin nəzdində ölkədə ilk olaraq müstəqil Sosiologiya Məktəbi yaradılıb. Aparılan dünya universitetlərinin reytinqinə əsasən, 2009-cu ildə Çikaqo Universiteti 7-ci yerdə qərarlaşmışdır.

Çikaqo Universiteti 1890-cı ildə neft maqnatı və xeyriyyəçi Con Rokfeller tərəfindən yaradılıb. 1891-ci ildə Uilyam Reyni Harper universitetin rəhbəri təyin edilib və burada ilk dərslər 1892-ci il oktyabrın 1-dən başlayıb.

1898-ci ildə universitetin nəzdində Biznes, 1902-ci ildə isə Hüquq məktəbi yaradılıb. 1906-cı ildə R.Harper vəfat edir və 1923-cü ilədək burada üç prezident dəyişir. Bu dövr ərzində universitetin nəzdində Şərq İnstitutu yaradılır. 1929-cu ildə Robert Hatçins Çikaqo Universitetinə prezident təyin olunur. Prezidentliyi 24 il sürən Hatçins bir çox dəyişiklik edir, o, alimləri universitetə cəlb edərək "Ortaq Nüvə" tədqiqat mərkəzini yaradır və tədris planını həyata keçirir. Onun rəhbərliyi altında Çikaqo Universiteti Xəstəxanaları (Çikaqo Universiteti Tibb Mərkəzi), İctimai Düşüncə Komitəsi yaradılır, tibb fakültəsi açılır. II Dünya müharibəsi dövründə universitet Manhetten layihəsinə önəmli əlavələr edir. 1942-ci ildə Enriko Fermi burada müstəqil nüvə reaksiyaları aparır, plutoniumun izolyasiyası üzrə iş həyata keçirilir.

1962-cı ildə universitetin prezidenti Bidlin kampus torpaqlarını icarəyə verdiyi üçün tələbə hərəkatı baş verir. 1969-cu ildə universitetin 400 tələbəsi məşhur müəllimləri Marle Diksonun işdən çıxarılmasına etiraz əlaməti olaraq, bu təhsil ocağının inzibati binasını ələ keçirir və 2 həftə müddətində binanı tərk etmirlər.

1999-cu ildə universitetin prezidenti Huqo Sonnensçeyn əsas fənlərin sayını 21-dən 15-ə endirərək məşhur nüvə tədris planını zəiflədir. Bütün mətbuat bu məsələni müzakirə edir, universitetdə bu mövzu cəmiyyətdə aparılan müzakirələrin mərkəz nöqtəsinə çevrilir, nəticədə prezident Huqo Sonnensçeyn 2000-ci ildə istefa verməli olur.

Son on ildə Çikaqo Universiteti milyonlarla dollar dəyərində genişlənmə layihələrinə başlayıb. 2008-ci ildən universitetdə Milton Friedman İnstitutu yaradılır.

2008-ci ildə investor Devid But Çikaqo Universitetinin Biznes Ali Məktəbinə 300 milyon dollar hədiyyə edib; bu isə universitetin tarixində hədiyyə olunmuş ən böyük məbləğdir. 2009-cu ildə 100 milyon dollar dəyərində yeni tədqiqat mərkəzləri və s. layihələr həyata keçirilib.

Çikaqo Universitetinin kampusu Çikaqo şəhərinin mərkəzində – Haydparkda, Miçiqan gölünün yaxınlığında 85 hektarlıq ərazidə yerləşir. Kampusun ərazisində ümumilikdə 243 bina yerləşir. Binalar Oksford Universitetinin binalarına oxşar qotik (orta əsrlərdə Avropada yayılmış memarlıq üslubu) tərzdə inşa edilib. Çikaqo Universitetinin Mitçel qülləsi eynilə Oksford Universitetinin Maqdalena qülləsinə, Hatçinson salonu isə Krist kilsəsinə oxşayır. Kampusun "Ana Dördbucaq" adlanan əsas hissəsinin binaları memar Henri İves Kobb tərəfindən inşa edilib: altı dördbucaq bina bir böyük dördbucaq meydan əmələ gətirir. 1940-cı illərdən başlayaraq, qotik üslubunu müasir tərzdə inşa edilmiş tikililər əvəz edir.

2001-ci ildə meksikalı məşhur arxiterktur Rikardo Lıqorettanın layihəsi əsasında Maks Palevski ümumi Yataqxanası tikilib başa çatıb. Çikaqo Universitetində ana şəhərcikdən kənarda da tikinti işləri aparılır. Sinqapur, London və Parisdə universitetin filialları fəaliyyət göstərir.

Çikaqo Universitetində təhsil alan tələbələrin 60%-i kampusun ərazisində yaşayır. Burada 38 tələbə yataqxanası var. Doktorant və magistrlərin qalmaları üçün kampusun yaxınlığında 28 bina ayrılıb. Kampusun ərazisində Reynold Klubu adlanan tələbə mərkəzi, muzeylər, teatrlar, restoranlar, ticarət və əyləncə mərkəzləri, idman kompieksləri, bağlar, parklar və s. yerləşir.

Çikaqo Universitetinin kitabxana sistemi altı arxivdən ibarətdir və ümumilikdə 7,9 milyon cild kitaba malikdir. Universitetin ən zəngin kitabxanası Regensteyn adlanır.

Universitet şəhərciyində 12 elmi-tədqiqat institutu və 113 axtarış mərkəzi yerləşir.

Universitetin nəzdində ABŞ-ın ən böyük universitet mətbuatı – Çikaqo Universitetinin Mətbuatı fəaliyyət göstərir.

Universitetin alimləri beş bölmədə cəmləşib: biologiya, fizika, ictimaiyyət, bəşəriyyət elmləri və yeni bölmə. Çikaqo Universiteti bir çox əhəmiyyətli təcrübələr və kəşflərin yarandığı məkandır: iqtisadiyyat sahəsi üzrə sərbəst bazar haqqında irəli sürülmüş fikirlər buradan qaynaqlanıb.

Çikaqo Universiteti İdarə Heyəti tərəfindən koordinasiya edilir. Heyət universitetin prezidenti daxil olmaqla 50 nəfərdən ibarətdir, universitet inkişaf planına və edilən yardımlara nəzarət edir. Çikaqo Universitetində 2168 professor-müəllim heyəti, yüksək səviyyədə ixtisaslaşmış mütəxəssis və s. fəaliyyət göstərir. Qeyd edək ki, ABŞ-ın indiki prezidenti Barak Obama da bir müddət Çikaqo Universitetində müəllim kimi fəaliyyət göstərib. O, 1991-ci ildən 2004-cü ilədək bu ali təhsil müəssisəsinin Hüquq Məktəbində Konstitusiya hüququ fənnindən dərs keçib. Barak Obamanın həyat yoldaşı Mişel Obama isə Çikaqo Universitetinin Tibb Mərkəzində işləyib.

Universitet bütün il boyu fəaliyyət göstərir. Dərslər sentyabrın əvvəllərində başlayır və iyunun ortalarında sona çatır. Yay aylarında isə burada müxtəlif yay məktəbləri fəaliyyət göstərir. Çikaqo Universitetində 14000-dən çox tələbə təhsil alır, onlardan 5000-i bakalavr, qalanları isə magistr və doktorantlardır. Burada təhsil alan tələbələrin 18%-ni əcnəbilər, 23%-ni yerli etnik azlıqlar, 45%-ni isə qadınlar təşkil edir.

Çikaqo Universitetinin dünya şöhrətli məzunlarından 85-i Nobel mükafatına layiq görülüb. Bu gün Çikaqo Universiteti sürətlə inkişaf edən beynəlxalq elmi-tədqiqat mərkəzinə çevrilib. Xüsusilə universitetin fizik, iqtisadçı, kimyaçı, hüquqşünasları dünyada məşhurdur və elmin inkişafında bu təhsil ocağının müstəsna xidmətləri var.

**Şimal-Qərb Universiteti (Northwestern University).** Şimal-Qərb Universiteti ABŞ-ın İllinoys Ştatının Çikaqo şəhərindən Şimalda Evanston adlanan

şəhərətrafı qəsəbədə yerləşir. 2009-cu ildə aparılan dünya universitetlərinin reytinqinə əsasən, Şimal–Qərb Universiteti 100 ən yaxışı ali məktəb arasında 32-ci yerə layiq görülüb. Universitet 1917-ci ildən Amerika Universitetləri Assosiasiyasının üzvüdür. Şimal-Qərb Universiteti ABŞ-da texnologiya və kommunikasiya sahələrinin sürətli inkişafına görə tanınır.

31 may 1850-ci il Çikaqo şəhərinin doqquz biznesmeni Uest-Leyk küçəsində yerləşən vəkillik kontoruna toplaşaraq yeni ali təhsil müəssisəsi yaradılmasını müzakirə edir. Universitetin yaradılmasında Çikaqo ticarət birjasının yaradıcısı Orrinqton Lant və dəmiryol maqnatı Con Evansın da müstəsna xidmətləri olub.

28 yanvar 1851-ci ildə C.Evans və O.Lantın birgə səyi nəticəsində İllinoys Ştatının Baş Assambleyası Şimal-Qərb Universitetinin yaradılması haqqında qanun qəbul edir və Şimal-Qərb Universiteti İllinoys Ştatında təsdiq edilən ilk ali təhsil müəssisəsi olur. 1853-cü ildə C.Evans universitet üçün Miçiqan gölünün yaxınlığında 25000 dollara geniş ərazi alır. Universitetin ilk prezidenti Klark Hinman bu ərazidə universitetin binalarının tikintisinə başlayır. Şimal-Qərb Universitetinin rəsmi açılışı 5 noyabr 1855-ci ildə baş tutur, bu zaman ali məktəbin ilk binası – Qədim Kollec istifadəyə verilir və Uilyam Cons tərəfindən Şimal-Qərb Universitetinin Qızlar Kolleci yaradılır. 1873-cü ildə Evanston Qızlar Kolleci Şimal-Qərb Universitetinin Qızlar Kolleci ilə birləşdirilir. 1870-80-ci illərdə Şimal-Qərb Universitetində Hüquq, Tibb və Stomatologiya məktəbləri yaradılır. 1890-cı ildə universitetdə təhsil alan tələbələrin sayı xeyli artır. 1917-ci ildə Amerika Universitetləri Assosiyasi Şimal-Qərb Universitetini öz üzvlüyünə qəbul edir. 1920-1939-cu illərdə Dayz stadionu və Dirinq kitabxanası daxil olmaqla, təhsil ocağının geniş kampusu tikilir. 1933-cü ildə Şimal-Qərb Universitetinin Çikaqo Universiteti ilə birləşdirilməsi təklifi hər iki ali məktəb tərəfindən rədd edilir.

II Dünya müharibəsi dövründə, Amerikanın digər ali təhsil ocaqları kimi, Şimal-Qərb Universiteti də dəyişikliyə məruz qalır. 1939-1949-cu illərdə 50000-dən çox əsgər Evanston və Çikaqo kampuslarında təlimlər keçir. 1948-ci ildə tanınmış antropoloq Melvill Herskovits Şimal-Qərb Universitetində Amerika universitetləri arasında birinci olaraq Afrika Tədqiqatları bölməsini yaradır. 1949-1970-ci illərdə universitet sürətlə inkişaf edir, müəllim və tələbələrin sayı artır, yeni-yeni tədris proqramları qəbul edilir, fakültələr yaradılır, kampuslar genişlənir.

1970-1980-ci illərdə ABŞ dövləti universitetlərə edilən yardımların məbləğini xeyli azaldır. Buna baxmayaraq, Şimal-Qərb Universitetinin prezidenti Arnold Veber rəhbərlik etdiyi təhsil ocağının maliyyə işlərinə nəzarət edir və stabil qalmasına nail olur. Hazırda Şimal-Qərb Universiteti ABŞ-ın sürətlə inkişaf edən özəl ali məktəblərindən birinə çevrilib. 2009-2010-cu il tarixində Şimal-Qərb Universitetinin illik gəlirləri ümumilikdə 1605752000 ABŞ dollarına bərabər olub. Həmin məbləğin 690817000 ABŞ dolları təhsil haqqı,

421324000 ABŞ dolları qrant və sazişlər, 69625000 ABŞ dolları göstərilən xidmətlər, 30964000 ABŞ dolları yardımlar, 354858000 ABŞ dolları müxtəlif əməliyyatlar, qalanları isə digər vasitələr hesabına əldə olunan gəlirlərdir. 2009-cu ildə Şimal-Qərb Universitetinin ianə fondunun malik olduğu vəsait ümumilikdə 4398200000 ABŞ dollarına bərabər olub. 2009-2010-cu tədris ilində Şimal-Qərb Universitetində oxuyan tələbələrin təhsil haqqı orta hesabla 38088 ABŞ dolları təşkil edib (bakalavr və magistrantlar üçün). Hüquq Məktəbində təhsil haqqı 47202 ABŞ dolları, Kelloq İdarəetmə Məktəbində 49074 ABŞ dolları, Feynberq Tibb Məktəbində 42974 ABŞ dolları, Bienen Musiqi Məktəbində 38088 ABŞ dolları, Medill Jurnalistika Məktəbində 33492 ABŞ dolları, Kommunikasiya Məktəbində isə 31830 ABŞ dolları məbləğində olub.

Dünyanın digər məşhur universitetlərində olduğu kimi, Şimal-Qərb Universitetində də tələbələrə müxtəlif məbləğdə çoxlu sayda kredit və təqaüdlər verilir. Həmin təqaüd və kreditlərin verilməsi üçün tələbələrin qarşısında bir sıra şərtlər qoyulur (çətin maliyyə durumu, xüsusi istedada malik olan, əlaçı, seçilən, tələbələrə verilir, xüsusilə də tələbənin ailə büdcəsinə diqqət verilir). 2009-2010-cu tədris ilində Şimal-Qərb Universitetinin tələbələrə verdiyi təqaüdün məbləği orta hesabla 14750 ABŞ dolları olub.

Şimal-Qərb Universiteti Evanston və Çikaqo kampuslarından ibarətdir. Universitetin Qətərin Doha şəhərində də filialı yerləşir.

Çikaqo kampusu Çikaqo şəhərinin Sritervill ərazisində alti hektarlıq sahədə yerləşir. Burada xəstəxanalar, Tibb, Hüquq, Biznes, Təhsilin davam etdirilməsi məktəbləri fəaliyyət göstərir.

Şimal-Qərb Universitetinin Qətərin Doha şəhərində yerləşən filialı 2008-ci ildə yaradılıb. Medill Jurnalistika və Kommunikasiya məktəbləri burada tələbələrə bakalavr dərəcəsi üzrə təhsil təklif edir. Qətər Təhsil, Elm və İctimai İnkişaf Fondu filialın inkişafı üçün maliyyə yardımı göstərir.

Şimal-Qərb Universitetinin nəzdində Veynberq İncəsənət və Elmlər, Kommunikasiya, Təhsil və İctimai Siyasət, Makkosmik Mühəndislik və Tətbiqi Elmlər, Medill Jurnalistika, Hüquq, Geolloq İdarəetmə, Tibb, Musiqi, Fasiləsiz Təhsil, Ali (magistr və doktorantlar üçün) məktəbləri, eləcə də Qarret-Yevangelist İlahiyyət Seminariyası fəaliyyət göstərir.

Ali (magistr və doktorantlar üçün) Məktəb 1910-cu ildə yaradılıb və Evanston kampusunda yerləşir. Qarret-Yevangelist İlahiyyət Seminariyası Evanston kampusunda yerləşir və 1853-cü ildə yaradılıb. Şimal–Qərb Universitetində dünya elminə yeni-yeni nailiyyətlər bəxş edən Kompleks Sistemlər İnstitutu, Nanoölçülü Elmlər və Texnika, Materiallar Tədqiqatı, Günəş Enerjisi, Müqayisəli Tədqiqatlar mərkəzləri, Siyasi Tədqiqatlar, Beynəlxalq Nanotexnologiyalar institutları fəaliyyət göstərir.

Şimal-Qərb Universitetinin kitabxanasına 4,9 milyon cild kitab, 4,6 milyon mikroforma, 98000 dövri nəşr, eləcə də 700 verilənlər bazası və 6000 elektron jurnal daxildir. Universitetin Evanston kampusunda, əsas kitabxana da-

xil olmaqla dörd, Çikaqo kampusunda Qarret-Yevangelist və Seaburi-Vestern seminariyaları ilə əlaqəli iki kitabxana mövcuddur.

Şimal-Qərb Universitetinin Meri və Li Blok İncəsənət Muzeyi Çikaqonun əsas incəsənət mərkəzlərindən biridir. Burada 4000-dən çox sənət nümunələri qorunur və bu rəqəmlər mütəmadi artmaqdadır.

31 avqust 2009-cu ildən Şimal-Qərb Universitetinin prezidenti Morton Şapirodur. Daniyel Linzer isə 2007-ci ildən Şimal-Qərb Universitetinin rektorudur. Prezidentin 21 vitse-prezident köməkçisi var. İndiyədək uni-versitetdə 16 prezident fəaliyyət göstərib. Universitet 70 üzvdən ibarət Qəyyumlar Şurası tərəfindən idarə olunur. Şuranın sədri Patrik Rayandır. Universitetdə 7000-ə yaxın işçi heyət çalışır. İşçilərin 2500 nəfərini professor-müəllim, qalanlarını isə inzibati heyət təşkil edir. Müəllimlərin arasında çoxlu sayda mükafatlandırılanlar, laureatlar, fəxri professorlar var.

Hazırda Şimal-Qərb Universitetində ümumilikdə ABŞ-ın 50 Ştatından və dünyanın 50-dən çox ölkəsindən olan 16337 tələbə təhsil alır. Onların 8497 nəfəri bakalavr, 7880 nəfəri isə magistr və doktorantdır. Tələbələrin 51,6 faizini qızlar təşkil edir.

Şimal-Qərb Universitetində idmana böyük diqqət verilir.

Şimal-Qərb Universiteti innovativ tədris və novator tədqiqatlarını özündə cəmləşdirərək tələbə və müəllimlərin şəxsi, intellektual və peşəkar yüksəlişi üçün müstəsna imkanlar yaradır.

**Prinston Universiteti (Princeton University).** Prinston Universiteti ABŞ-ın ən qədim və tanınmış universitetlərindən biridir. Prinston şəhərində, Nyu-Cersi ştatında yerləşən və məşhur Sarmaşıq liqasının səkkiz ali məktəbindən biri olan bu universitet 2001-2008-ci illərdə aparılan araşdırmalara əsasən ABŞ-ın ən qabaqcıl universitetlərindən biri seçilib. Prinston Universitetinin tələbəsi olmaq dünyanın müxtəlif ölkə gənclərinin ən böyük arzusudur.

Prinston Universitetinin tarixi 22 oktyabr 1746-cı ildə Britaniya müstəmləkəsinin Qanunverici Şurası tərəfindən kral II Heorqun adından bir qrup pastora (protestant keşişi) kollec yaratmaları üçün icazə kağızı verilməsi ilə başlayıb. Nyu-Cersi Kolleci adı ilə fəaliyyətə başlayan təhsil ocağı Harvarddan, William və Marry, Yel kolleclərindən sonra şimali Amerikada yaranmış dördüncü kollecdir. Kollec protestantlar tərəfindən yaradılmasına baxmayaraq, burada bütün dinlərin nümayəndələri təhsil ala bilirdilər. Həmin dövrdəki təhsil ocaqları üçün bu cür dinə dözümlülük fenomenal hal hesab olunurdu. Lakin burada dini istiqamət daha güclü idi. Bu, kollecin şüarında da öz əksini tapırdı: "Allahın izni ilə çiçəklənir".

İlk vaxtlar kollec Elizabet şəhərində Conatan Dikkinsonun evində yerləşirdi və burada cəmi doqquz tələbə təhsil alırdı. 1756-cı ildə təhsil müəssisəsi Prinston şəhərinə köçürülməsinə nail oldu. Böyük Britaniyadan yığılan ianə hesabına tələbə və müəllimlər üçün xüsusi bina tikildi, binaya Nossau-Holl adı verildi.

Prinston Amerika inqilabında böyük rol oynayıb. Konstitusiya konventi iştirakçılarının əksəriyyəti Prinstonun məzunları olub və onlar 1799-cu ildə yekdilliklə ABŞ-ın yeni Konstitusiyasının qəbul olunmasına səs veriblər. 1783-cü ildə Prinstonda tələbələrin təntənəli qəbulu mərasimində Corc Vaşinqton daxil olmaqla, bütün konqres üzvləri iştirak edib. Konqres üzvlərinin çoxu bu universitetin məzunları olub.

İdman Amerika tələbələrinin həyatında böyük rol oynadığından Prinstonda da həmin ənənə davam edir.

XIX əsrin 70-ci illərində Prinstonun hərtərəfli uğurları onu Harvard və Yel Universitetləri ilə bir səviyyəyə qaldırdı. 1877-ci ildə burada magistratura yaradıldı, 1896-cı ildə isə Prinstona universitet statusu verildi.

1874-cü ildə Prinstonun məzunu olmuş və ABŞ-ın gələcək prezidenti Tomas Vudro Vilson 1902-ci ildə universitetə rektor seçildi. Vilson, eyni zamanda tədris proqramlarını ümumi təhsil (ilk 2 il ərzində) və ixti-saslaşdırılmış (əlavə 2 il) hissələrə bölərək təkmilləşdirdi. Onun rəhbərliyi zamanı (1902-1910-cu illər) magistrantların hazırlığı üçün yeni kollec tikildi, fakültələrin sayı artırıldı, humanitar istiqamətli kafedralar yaradıldı və əlavə yataqxanalar tikildi. Lakin Vilson doktorantların təhsilini axıra qədər təşkil edə bilmədi, bu işi onun yerinə başqaları həyata keçirdi. Rektor əvvəlcə ştatın qubernatoru, sonradan isə ölkənin prezidenti seçkilərində öz namizədliyini irəli sürmək üçün universitetdən uzaqlaşdı. 1969-cu ildə ilk dəfə olaraq universitetə qızlar qəbul olundular.

Yarım əsr bir binada fəaliyyət göstərdikdən sonra Prinston Universitetində sürətlə tikinti işləri aparılaraq ərazisi genişlənməyə başlayıb. Hazırda universitetin kampusunda və oradan kənarda 160-dan çox müxtəlif tikililər, tədris korpusları, elmi-tədqiqat laboratoriyaları, kitabxanalar, çoxsaylı yataqxanalar, muzeylər, idman zalları, stadionlar, kilsə və s. mövcuddur. Universitetin tikililəri Bencamin Latrob, Ralf Adams Kram, Mckim, Med və Uayt, Robert Venturi və Nik Yeger kimi məşhur memarlar tərəfindən hazırlanıb.

Universitetin kitabxanalarında 6 milyon ədəddən çox kitab var. Ən böyük kitabxana 4 milyondan çox kitabı olan Firestone kitabxanasıdır. 2007-ci ilin fevralından Prinston Universiteti Google beynəlxalq axtarış şəbəkə sisteminə qoşulub. O, həmçinin super kompyuter sisteminə malikdir.

Prinston Universitetinin pedaqoji heyəti yüksək səviyyədə ixtisaslaşıb. Bütün müəllimlər tədqiqat işi ilə məşğuldur və bura çoxsaylı tələbə cəlb edilir.

Hazırda Prinston Universitetinin kapitalı 3 milyard dollar təşkil edir və o, ABŞ-da Harvard və Texas Universitetlərindən sonra 3-cü yerdə yerləşir.

Prinstona qəbul çox çətindir, abituriyentdən yüksək bilik tələb olunur. Universitet üçün ideal namizəd dərin baza hazırlığına, yüksək nəticələr əldə etmək məqsədilə marağa, bacarığa və s. keyfiyyətlərə malik olmalı, ən azı bir xarici dil bilməlidir. Universitetdə dərslər sentyabrda başlayır və iyunda qurtarır. Təhsil müddəti 4 ildir, 8 semestrdən ibarətdir. Təhsil müddətində tələbə

bir semestr ərzində keçilən 30 fənni mənimsəməlidir. Təhsilin 1-ci və 2-ci illərində tələbələr baza bilikləri əldə edir, 3-cü və 4-cü illərində isə ixtisas proqramlarını öyrənirlər. Tədris planı hər bir tələbənin maraq və həvəsini, universitetin tələblərini nəzərə alaraq fərdi formada təşkil olunur. Tədris prosesi universitetdə fərdi fənn planları və elmi-tədqiqat işləri ilə bərabər təşkil olunub.

Hazırlığın keyfiyyəti test və şifahi imtahanların (və ya müsahibələrin) köməyi ilə yoxlanılır. Maraqlıdır ki, Prinston Universitetində bütün yazılı imtahanlar "vicdan sistemi" ilə aparılır: tələbələr vicdanla imtahan verməyi söz verirlər, bunun üçün də müəllim imtahanın gedişinə nəzarət etmir. O, sadəcə imtahan vərəqlərini paylayır, suallara cavablar verir və auditoriyanı tərk edir, sonda isə vərəqləri toplamaq üçün qayıdır. Hər bir tələbə işini imzalayarkən yazır: "Vicdanıma and içirəm ki, imtahan zamanı vicdan kodeksini pozmamışam".

Bakalavr dərəcəsini aldıqdan sonra məzun müəyyən departamentdə doktoranturada qala bilər. 4-5 illik təhsildən sonra fəlsəfə doktoru dərəcəsi verilir. İlk iki ildə bakalavrlar diplomdan sonra 3-4 kurs təhsil alır və ümumi imtahan verirlər, sonda onlar magistr dərəcəsi alır. Əlavə 2-3 il dissertasiya hazırlığına həsr olunur. Bunun üçün xüsusi komitənin razılığı olmalıdır, yalnız belə olan halda namizəd fəlsəfə doktoru dərəcəsi almaq üçün müdafiəyə buraxılır.

Mübağiləsiz demək olar ki, Prinston Universiteti Amerikanın milli fəxridir. Cek Qourmanın "Milli təhsil standartları" adlı müstəqil reytinqinə əsasən, Prinston Universiteti mühəndislik fizikası, riyaziyyat, fəlsəfə və s. istiqamətləri üzrə ABŞ-ın ən yaxşı universiteti olub. Bu universitetin məzunları arasında Amerikanın bir neçə prezidenti və 30 Nobel mükafatı lauratı var: fizika üzrə Nobel mükafatçısı Albert Eynşteyn burada işləyib və mühazirələr oxuyub. ABŞ-ın iki prezidenti – Ceyms Medison (1771) və Vudro Vilson (1874), hazırkı prezident Barak Obamanın həyat yoldaşı, ABŞ-ın birinci xanımı Mişel Obama, keçmiş dövlət katibləri Corc Şuls və Ceyms Beyker, sabiq müdafiə naziri Donald Ramsfeld, yüzdən artıq senator, konqresmen, 44 qubernator, Fildsov mükafatı laureatı olmuş Amerika riyaziyyatçısı Con Milnor, iqtisadiyyat üzrə Nobel mükafatçısı Con Neş, diaqramın yaranması, elementar hissəciklərin çevrilməsinin təsvirinə görə fizika üzrə Nobel mükafatı laureatı Riçard Feynman, Hollun kəsr kvant effektinin ixtirasına görə fizika üzrə Nobel mükafatçısı Daniel Sui və başqalarının adları bu təhsil ocağı ilə bağlıdır.

XX əsrin ikinci yarısından Prinston Universitetinin Vilson tərəfindən tərtib edilmiş qeyri-rəsmi şüarı dəyişdirilərək belə səslənir: "Öz xalqımıza və bütün xalqlara xidmət üçün!". Prinston Universiteti bu sözləri öz fəaliyyəti ilə təsdiqləyərək bütün dünyanın ən böyük və nüfuzlu beynəlxalq tədris mərkəzlərindən birinə çevrilib.

**Stenford Universiteti (Stanford University).** Stenford Universiteti Palo-Alto şəhəri yaxınlığında, Silikon vadisinin mərkəzində, Kaliforniya ştatında yerləşir. Bu universiteti Silikon vadisinin sərvəti adlandırırlar. Universitet ABŞ-ın və bütün dünyanın ən nüfuzlu ali təhsil müəssisələrindən biridir.

Universitetin tərkibində Stenford neyroiqtisadiyyat yay məktəbi yaradılıb. Amerika alimləri, elm və texnikanın ən qabaqcıl sahələri üzrə, biomühəndislikdən başlayaraq ən yeni kompyuter texnologiyaları və kosmik tədqiqatlara, genetika və antropologiyaya qədər kəşflərinin əksəriyyəti bu universitetin institut və laboratoriyalarında həyata keçiriblər.

1884-cü ildə Stenford ailəsinin Avropaya səyahəti zamanı onların azyaşlı oğlu Leyland yatalaq xəstəliyinə yoluxaraq Florensiyada vəfat edir. Dərdqəm içində olan həyat yoldaşına Ceyn deyir: "Leyland, artıq Kaliforniyanın bütün uşaqları bizim övladlarımız olacaqlar!" Beləliklə gənc ailə doğma ştatlarında savadlılığın inkişafına kömək etmək qərarına gəlir. Onlar Amerikanın bir neçə ali təhsil ocaqlarını: Yel, Kornel, Harvard, Massaçusets universitetlərini gəzərək üç layihədən hansını həyata keçirmək haqqında düşünürdülər: Palo-Altoda universitet, San-Fransiskoda təhsil kompleksi və muzey, yoxsa texniki məktəb yaratmaq. Harvard Universitetinin prezidenti çarlz Eliot universitet yaratmağı məsləhət görür. O, bu məqsəd üçün nə qədər vəsait lazım olması ilə maraqlananda, Eliot həmin dövr üçün çox böyük bir məbləğ olan 5 milyon dolların lazımı olduğunu qeyd edir. Leylandın "Bacararıqmı" sualına Ceyn başı ilə "Hə" cavabı verir.

Stenfordlar başqa ali təhsil müəssisələrindən fərqli olaraq, birgə təhsil almaq imkanı verən (o vaxtlar universitetlərdə təkcə kişilər oxuyurdular), dünyəvi (başqalarının müxtəlif dini cərəyanlarla bağlılığı vardı) universitet yaratmaq niyyətində idilər. Universitetin məqsədini mədəni və faydalı vətəndaşlar hazırlamaqda görən Stenford 1885-ci ilin noyabrında öz ideyalarını "Təsis yardımı" adlanan sənədə həkk edir və bununla da universitetin nizamnaməsinin əsasını qoyur. Leyland universitetə belə bir şüar fikirləşir: "Qoy azadlıq yeli əssin!"

Hazırlıq işlərinə, tikintiyə və işçi heyətinin toplanmasına 6 il vaxt sərf olunur. Bu işlərdə Stenforda İndiana Universitetinin gənc professoru Devid Cordan fəal kömək edir. Məhz buna görə də Leyland onu 1 oktyabr 1891-ci ildə açılmış Kiçik Leyland Stenford adına universitetə prezident təyin edir. İlk vaxtlarda burada 559 tələbə (qızlı-oğlanlı) və 15 müəllim var idi. Alman modelinə uyğun tikilmiş universitet həm bakalavr, həm də magistr hazırlayır, tədris tədqiqatlarla birləşdirilirdi. 1893-cü ildə senator Stenford vəfat edir. Devid Cordan da bacardığı qədər universitetin inkişafına çalışır. Tanınmış professorlar təzə yaranan əyalət universitetində işləmək istəmirdilər. Cordan cavan, təcrübəsiz, lakin istedadlı və qabaqcıl müəllimləri bu ali təhsil ocağına cəlb edir. Universitetin əsas binasını, kimya laboratoriyasını, möhtəşəm me-

morial kilsəsini tikdirir. Prezident vəsaiti paylaşdıraraq, demək olar ki, Stenfordların bütün arzularını həyata keçirir.

18 aprel 1906-ci ildə güclü zəlzələ universitetin binalarının yarısını uçurur və külli miqdarda ziyan vurur. Cordan cəhdlə bərpa işlərinə başlayır və buna müvəffəq olur. Amerikanın qərbində, eləcə də bütün ölkədə Stenford Universitetinin nüfuzu yüksəlmişdi, məzunlar öz doğma universitetlərini ABŞ-da yetərincə məşhurlaşdırmışdılar. Bu da dağılmış korpusların bərpasına həm dövlət, həm də qeyri-dövlət yardımlarının alınmasına imkan verirdi. 1913-cü ildə Cordan təqaüdə çıxır, bu zaman Stenford Universiteti artıq yerində möhkəm qərarlaşmışdı.

Rey Uilburun prezidentliyi dövründə universitet sürətlə inkişaf edir. II Dünya müharibəsindən sonra burada yeni laboratoriyalar, tədqiqat kompleksləri tikilir. Müharibə illərində isə, demək olar ki, universitet öz elmi-texniki tərəqqi dövrünü yaşayır.

1934-cü ildə məzunlardan ibarət Stenford Assosiasiyası yaradılır. Onun məqsədi təhsil müəssisəsi və elmi proqramların həyata keçirilməsi üçün vəsait toplamaqdan ibarət olur. Beləcə, Stenford öz gəlir mənbələrini genişləndirir. Stenford Universitetinin çox böyük ərazisi var. Maliyyə böhranı ilə üzləşərkən universitet torpaqlarını sata bilməzdi, çünki Leyland Stenford öz vəsiyyətnaməsində bunu qadağan etmişdi. Torpaqların icarəyə verilməsi haqda vəsiyyətnamədə heç nə yazılmamışdı. Rəhbərlik bundan istifadə edərək torpaqları yüksək texnologiyalara malik şirkətlərə uzunmüddətli icarəyə verir və Silikon vadisi adlanan Stenford sənaye parkı yaradılır. 1951-ci ildə "Varian Associates" kampaniyası universitetlə müqavilə imzalayır və 1953-cü ildə parkda ilk binada məskunlaşır. Onun ardınca bir çox şirkətlər də Stenford sənaye parkına köçür. Bu dahiyanə ideya nəticəsində universitet külli miqdarda gəlir əldə edir.

1940-1960-cı illərdə Uolles Sterlinqin prezidentliyi dövründə Stenford ABŞ-ın ən nüfuzlu ali məktəblərindən birinə çevrilir və onu artıq heç kim əyalət universiteti adlandırmır. Soyuq müharibə dövründə ali məktəb əsaslı surətdə hərbi istehsala cəlb edilir, ona külli miqdarda federal subsidiyalar verilir. Stenfordun elektronika sahəsi üzrə nüfuzu danılmazdır. 1960-cı illərin əvvəllərində universitet "Ford Fondation"dan 100 milyon dəyərində qrant alır, buna qədər hələ heç bir Amerika ali məktəbi belə ambisiyalı layihəyə qol qoymamışdı.

1990-cı illərin ortalarında Stenfordda kiçik qruplarda tədrisə, tələbə və müəllimlərin sıx təmasını nəzərdə tutan Stenfordun İlkin Tədqiqatlar Proqramı qəbul olunub. Həmçinin bakalavr hazırlayan üç məktəb fakültədə: Yer elmləri, Mühəndislik, Bəşəriyyət və Təbiət elmləri məktəblərində cavan müəllim heyəti üçün xüsusi tədqiqat qrantları sistemi tətbiq olunub.

Stenford Universitetinin kampusu 3310 hektarlıq ərazidə, kiçik təpələrin arasında yerləşən düzənlikdə salınıb. Kampusun landşaftını Nyu-York mər-

kəzi parkının yaradıcısı dizayner Frederik Lo Olmsted tərtib edib. Kampusun ərazisində 7 məktəb, 8 milyon cilddən çox kitaba malik olan 20 kitabxana, tələbə yataqxanaları, idman kompleksləri, parklar və s. yerləşir.

ABŞ-ın digər ali məktəbləri kimi Stenford Universiteti də yüksək səviyyəli, hərtərəfli hazırlıqlı şəxsiyyətlər yetişdirir. Amerika mütəxəssislərinin fikrincə, bu cür yanaşma seçilmiş sahələrin daha yaxşı mənimsənilməsinə və tələbənin bütün həyatı boyu təhsilini artırmasına, karyerasında əldə etdikləri bilikləri daha effektli istifadəsinə imkan yaradır.

Hər tələbə öz şəxsi maraq və məqsədinə uyğun fərdi tədris planı hazırlayır. Tələbə həmçinin universitet və fakültənin tələblərini, ingilis dilində lazımi sənədləşmə qaydalarını düzgün şərhetmə və xarici dil bilmə tələblərini nəzərə almalıdır. Ümumi tələblər 9 tədris kursundan ibarətdir: mədəniyyət, ideyalar, insani dəyərlər (3 kurs); təbii elmlər, tətbiqi elmlər və texnika (3 kurs); humanitar və ictimai elmlər (2 kurs); dünya mədəniyyəti, Amerika mədəniyyəti (1-3 kurs). Hər bir tələbə seçdiyi ixtisas fənlərindən əlavə, mütləq bu kursları keçməlidir.

Bu gün Stenford Universiteti sürətlə inkişaf edən beynəlxalq təhsil mərkəzinə çevrilib. Burada 15 000-dən çox tələbə təhsil alır, onların 6 812-ni bakalavrlar, 8328-ni doktorantlar, 51%-ni qadın, 55%-ni əcnəbi tələbələr təşkil edir. Əcnəbilər üçün Stenford, ilk növbədə, sanballı biznes təhsili verən ali təhsil ocağıdır. Stenford dünyaya 17 Nobel mükafatçısı bəxş edib. Stenford, sözün əsl mənasında, Silikon Vadisinin tükənməz sərvətidir.

**Pensilvaniya Universiteti (Pennsylvania State University).** Pensilvaniya Universiteti ABŞ-ın ən qədim universitetlərindən biridir və Pensilvaniya ştatında, Filadelfiya şəhərində yerləşir. Universitet ABŞ-ın səkkiz ən nüfuzlu ali məktəbini birləşdirən Sarmaşıq Liqasına daxildir. Ali təhsil ocağı özəl universitet kimi fəaliyyət göstərir, lakin onu bəzən Filadelfiya Universiteti ilə səhv salırlar. Pensilvaniya Universiteti humanitar və texniki elmlər üzrə geniş spektrdə elmi-tədqiqat işləri aparır. Dünya universitetlərinin reytinqinə görə, 2009-cu ildə Pensilvaniya Universiteti 12-ci yerdədir.

Pensilvaniya Universiteti 1740-cı ildə alim, jurnalist, diplomat Bencamin Franklin tərəfindən yaradılıb. İlk vaxtlar xeyriyyə məktəbi kimi fəaliyyət göstərən təhsil müəssisəsi 1755-ci ildə kolleca çevrilir və B.Franklin Pensilvaniya kollecinin prezidenti olur. Franklin ictimai qulluq və ticarət üçün yararlı, klassikaya əsaslanan təhsil proqramını təbliğ edirdi.

1779-cu ildə kolleca universitet statusu verilir. Pensilvaniya Universiteti ABŞ-da ilk universitet statusu almış ali məktəbdir. 1765-ci ildə burada tibb məktəbi (Şimali Amerikada ilk tibb məktəbi), 1874-cü ildə universitetin ilk baza xəstəxanası, 1881-ci ildə ilk biznes məktəbi (dünyada məşhur və nüfuzlu Uorton Biznes Məktəbi), 1896-cı ildə dünyada ilk psixoloji yardım klinikası, ilk Amerika tələbə təşkilatının binası Hyuston Holl, 1946-ci ildə ABŞ-da

ikinci baytarlıq tibb məktəbi açılıb. 1946-ci ildə universitetdə bütöv bir elektron kompyuter, kütləvi elektron hesablama maşınları istehsal edilib.

Pensilvaniya Universitetinin kampusu Filadelfiyanın qərbində 109 $km^2$ ərazidə yerləşir. Universitetin bütün məktəbləri, tədqiqat institutları, yataqxanaları və s. kampusun ərazisində yerləşir. Kampusun ərazisində bakalavr hazırlayan 4 məktəb və magistr hazırlayan 12 təhsil müəssisəsi fəaliyyət göstərir.

Universitetin kitabxanası 1750-ci ildə kartoqraf Lui Evansın təhsil ocağına külli miqdarda kitab bağışlaması nəticəsində yaranıb. Hazırda burada məktəblərlə əlaqəli 15 kitabxana (həmçinin elektron) fəaliyyət göstərir. Kitabxanada ümumilikdə 5,7 milyon kitab vardır.

Pensilvaniya Universitetində tələbələrin qalmaları üçün hər şərait yaradılıb. Vaxtlarını səmərəli keçirmələri üçün tələbələrin istifadəsinə parklar, restoranlar, idman, oxu zalları, kinoteatrlar və s. verilib.

Təhsil və tədqiqat proseslərinin bölünməməsi Pensilvaniya Universitetinin əsas xüsusiyyətidir. Universitet tələbələri ikinci kursdan başlayaraq, laboratoriya və institutlarda işləyə bilərlər. Bu təhsil müəssisəsinə dünyanın texniki universitetlərindən daha çox tələbə qəbul edilir.

Universitetin nəzdində bakalavr təhsil pilləsində oxuyan tələbələrə ali məktəbin elmi həyatında fəal iştirak etmələri üçün Tələbə Təşkilatı Mərkəzi fəaliyyət göstərir. Bu mərkəzlə əməkdaşlıq Pensilvaniya Universitetində magistraturada oxumaq və təqaüd almaq istəyənlər üçün əlavə şans yaradır. Universitet rəhbərliyi abituriyentlərin bilik səviyyəsinə çox ciddi yanaşır. Ən yüksək müsabiqə incəsənət, sosiologiya və hüquq fakültələrində qeydə alınır.

Amerika universitetlərinə qəbul olmaq üçün abituriyent aşağıdakı sənədləri əldə etməlidir:

- ali məktəbdən verilmiş anketin doldurulması və sənədlərin baxılması üçün məbləğ;

- hər bir universitetin öz qəbul qaydaları, formaları var. Bu formaları universitetin saytından əldə etmək mümkündür. Həmin formaya mütləq çek əlavə olunur, məbləğ isə təhsil müəssisəsindən asılıdır;

- transkript (son üç ildə fənlərdən alınan qiymətlər), attestat və ya diplomun surəti;

- transkript, adətən cədvəl formasında olur, həmçinin attestat və diplom ingilis dilinə tərcümə olunmalıdır;

-öz zəmanət məktubu (abituriyentin müəllimlərindən və ya elmi rəhbərlərindən), məktub transkript kimi ingilis dilinə tərcümə edilməli, notariusda təsdiq olunmalıdır;

-Bir və ya iki səhifədən ibarət olan, tərcümeyi-halı xatırladan məlumat (esse). Müvafiq sənəddə aşağıdakı suallara cavablar vermək lazımdır: "Bu universitetdən mən nələr gözləyirəm?", "Nə üçün xaricdə oxumaq istəyirəm?". Həmçinin abituriyent ali məktəbin onu nə ilə cəlb etdiyini, universitetin məşhur professorlarının adlarını, tanınmış laboratoriyalarını qeyd etməlidir;

- imtahanın nəticələri – məktəb məzunları TOEFL və SAT-dən, ali məktəb məzunları isə TOEFL, GRE və ya GMAT-dan imtahan verməlidirlər. Test imtahanları ödənişli olur və qiymətlər 60-250 dollar arasında dəyişir.

Əsas imtahanlar təhsil müəssisəsinin tələblərinə uyğun aparılır. Qaydaya görə, ali məktəbdən verilmiş anketdə gələcək tələbə hər təhsil ili nə qədər məbləğ ödəyə biləcəyi haqqında məlumat verməlidir. Abituriyentin maliyyə durumu onların bank hesabında təsdiqlənməlidir. Bir çox ali məktəblər xarici tələbələrə maliyyə dəstəyi göstərir. Burada əsas rol abituriyentin akademik bacarığından, onun elmi və yaradıcı fəallığından asılıdır. Bundan başqa, xarici tələbələr üçün ABŞ hökuməti tərəfindən və müxtəlif fondlar tərəfindən maliyyələşən təqaüd proqramları və qrantlar mövcuddur.

Bütün sahələr üzrə geniş elmi-tədqiqat işləri aparan Pensilvaniya Universiteti dünyanın ən nüfuzlu universitetlərindən biridir. Pensilvaniya Universitetinin tələbəsi olmaq dünyanın çox gənclərinin ən böyük arzusudur.

**Kornell Universiteti (Cornell University).** Kornell Universiteti ABŞ-ın nüfuzlu və ən böyük ali məktəblərindən biridir. Universitet Nyu-York ştatının İtaka şəhərində yerləşir. Kornell Universiteti ABŞ-ın səkkiz nüfuzlu ali məktəbini birləşdirən Sarmaşıq Liqasına daxildir və bu qurumun ən gənc üzvüdür. Kornell Universitetinin İtakada yerləşən əsas kampusdan əlavə, Nyu-York şəhərində və Qətər dövlətində də kampusları vardır. Dünya universitetlərinin reytinqinə əsasən, 2009-cu ildə Kornell Universiteti 100 ən yaxşı ali məktəb arasında 15-ci yeri tutmuşdur.

Kornell Universitetinin yaranmasında biznesmen, teleqraf sənayesinin əsasını qoymuş Ezra Kornellin və tanınmış alim, siyasətçi Endryu Uaytın böyük rolu olub. Hələ XIX əsrin 50-ci illərində Kornell və Uayt bir-birindən xəbərsiz ümummilli, ən qabaqcıl tədris metoduna malik, elmi-texniki tərəqqinin tələblərinə cavab verə biləcək bir ali təhsil müəssisəsi yaratmaq fikrinə düşürlər. E.Kornell teleqraf biznesindən əldə etdiyi gəlirlərin yarısını xeyriyyə məqsədlərinə sərf etmək qərarına gəlir. Kornell və Uayt universitet yaratmaq məqsədilə ABŞ prezidenti A. Linkolna müraciət edir, lakin onların planlarının həyata keçməsinə həmin dövrdə baş verən vətəndaş müharibəsi mane olur.

Kornell və Uayt 1862-ci ildə Nyu-York ştatında senat üzvü olarkən tanış olurlar və hər ikisi xüsusi səylə yeni universitet yaratmaq layihəsi üzərində işləyir. Onlar milliyyətindən, cinsindən, təbəqəsindən və dinindən asılı olmayaraq, hər kəsin istənilən ixtisas üzrə təhsil ala biləcəyi ali təhsil ocağı yaratmağı planlaşdırırlar. Kornellin "Mən elə bir təhsil müəssisəsi yaratmaq istəyirəm ki, orada hər kəs istədiyi fənni öyrənə bilsin" ifadəsindən sonralar universitetin devizi yaranır: "İstənilən şəxs, istənilən elm".

Kornell şəxsi büdcəsi hesabına İtaka şəhərində 1,2 hektar ərazi alır. 27 aprel 1865-ci ildə Nyu-York ştatının qubernatoru Royben Fenton universitetin yaradılması haqqındakı sənədi imzalayır və bu tarixi hadisə Kornell

Universitetinin yarandığı gün kimi qeyd olunur. Endryu Uayt yeni yaranmış universitetə prezident təyin olunur. Uayt universitetə rəhbər təyin edilən gündən təhsil müəssisəsinin idarəetmə prinsipini, tədris proqramlarını hazırlayır, qabaqcıl müəllimləri bu ali məktəbə cəlb edir. Sonra o, Avropa universitetlərinin təcrübəsi ilə tanış olmaq, tədris və metodik vəsaitlər əldə etmək məqsədilə dünya ölkələrinə səfər edir, Kornell isə universitet binalarının tikintisi ilə məşğul olur. Universitetin rəsmi açılışı 7 oktyabr 1868-ci il tarixinə təsadüf edir. Bu tarixdən bir gün əvvəl qəbul imtahanı keçirilir və 412 abituriyent uğurla imtahan verərək Kornell Universitetinin ilk tələbələri olurlar. Qeyd edək ki, həmin vaxta qədər heç bir yeni yaranmış Amerika universiteti bu qədər tələbə qəbul etməmişdi.

Yarandığı gündən Kornell Universitetinə oğlanlarla yanaşı, qızlar da qəbul olunur. Lakin qız tələbələr üçün yataqxananın olmaması onların sayının daha da artmasına ciddi maneçilik edir. Universitetdə qızlar üçün ilk yataqxana 1875-ci ildə tikilir. Bu ali təhsil müəssisəsinin bakalvr pilləsini 1873-cü ildə bitirmiş ilk qız məzun Emma İstmen, ilk doktorluq dərəcəsini 1880-ci ildə almış qadın isə Mey Preston olub.

1868-ci ildə Kornell Universitetinin tələbələri müstəqil və sərbəst surətdə fənn seçmək, öz tədris proqramlarını hazırlamaq hüququ qazanırlar. Bu addım, sözün əsl mənasında, inqilab kimi dəyərləndirilir və tələbələrin hazırladıqları həmin proqram onilliklər keçdikdən sonra ABŞ-ın adi tədris proqramına çevrilir. 1892-ci ildə universitetin 3-cü prezidenti inauqurasiyası zamanı çıxışında Nyu-York ştatının rəhbərliyinə müraciət edərək, onlardan universitet üçün ərazi və onun inkişafına kömək istəyir. Rəhbərlik həmin müraciətə cavab olaraq, Kornell Universitetinin nəzdində Baytarlıq Kollecinin yaradılması üçün subsidiya ayırır, eləcə də hər il kollecə maliyyə yardımı göstərir. Beləliklə, Kornell Universiteti ABŞ-da dövlət tərəfindən yardım alan ilk özəl ali məktəb kimi tanınır və bundan sonra Kornell Universitetində təhsil alan nyu-yorklu tələbələrə təhsil haqqının ödənilməsində güzəştlər edilir.

XX əsrdə universitet sürətlə inkişaf etməyə başlayır, həmin əsrin ortalarına qədər orada məktəb və kolleclərin sayı 10-dan çox olur. Bütün kollec və məktəblər muxtariyyət hüququna malik olur, öz akademik proqramlarını yaradır və qiymət sistemini tətbiq edir. Məsələn, bakalavr dərəcəsi almaq üçün ümumi universitet imtahanına üzgüçülük və idmanın başqa növü üzrə imtahanlar daxil edilir. Eyni zamanda hər bir tələbə oxuduğu fakültədən asılı olmayaraq, istənilən başqa fakültənin proqramını öyrənə bilir. Universitetdə mütəmadi olaraq fakültələrarası proqramlar və kurslar təşkil edilir.

Kornell Universitetinin nəşriyyatı 1889-cu ildə yaradılıb. İncəsənət Kollecində fəaliyyət göstərən ilk nəşriyyat sonradan Mühəndislik Məktəbinə köçür. Nəşriyyatın burada fəaliyyət göstərməsindən irəli gələrək, müəllim və tələbələr çap işini və s. bilirdilər. Burada dərslik, elmi nəşrlər, həftəlik tələbə jurnalları, rəsmi universitet sənədləri çap olunurdu. İl ərzində antropologiya,

ədəbiyyat, tarix, fəlsəfə, siyasət, beynəlxalq münasibətlər, psixologiya, psixiatriya və s. sahələr üzrə 150-dən çox nəşr dərc olunurdu.

Kornell Universiteti beynəlxalq təhsil və elmi əməkdaşlıq sahələri üzrə hər zaman fəal mövqe tutmağı ilə seçilib. Son zamanlar onun fəaliyyətində məhz bu sahə daha sürətlə inkişaf edir. Qətərdə yerləşən Veyl Tibb Kolleci, Çin, Hindistan, Sinqapur və s. ölkələrin universitetləri ilə bağlanmış əməkdaşlıq müqavilələri Kornell Universitetinin "dünyanın ilk transmilli universiteti" adlandırılmasına səbəb olur.

Kornell Universitetinin əsas kampusu Nyu-York ştatının İtaka şəhərində yerləşir. Universitet yarandığı vaxtlar 1,2 hektar ərazidə yerləşirdisə, hazırda onun İtakada ərazisi 3 hektara yaxındır. Bu ərazidə yerləşən 260 bina Mərkəzi və Şimali kampuslar arasında bölünüb.

Kornell Universitetinin Nyu-Yorkda da kampusu vardır. Burada universitetin bakalavrlar üçün Veyl Tibb Kolleci və doktorantlar üçün Veyl Ali Tibb Kolleci yerləşir. Bu kolleclər 1927-ci ildən Nyu-Presbiterian hospitalı ilə birgə fəaliyyət göstərir. Universitetin Nyu-Yorkda Kornell xidmət proqramı da mövcuddur. Proqram tələbələrə Nyu-Yorkdakı kasıb uşaq, ailə və icmalara köməklik edilməsini təklif edir. Buradakı İnsan Ekologiyası, Kənd Təsərrüfatı və Həyat Elmi kollecləri, Sənaye və Əmək Əlaqələri Məktəbi də həmin məqsədlərə xidmət edir. Mühüm maliyyə rayonu olan Manhettendəki Mühəndislik Kolleci, biznes – tədqiqatların optimallaşması, sənayenin, ictimai əməkdaşlığın gücləndirilməsi və digər bu kimi işlər görür.

Kornell Universitetinin Qətərdəki təhsil şəhərciyində 2004-cü ilin sentyabrında açılan Veyl Tibb Kolleci fəaliyyət göstərir. Bu kollec ABŞ-ın hüdudlarından kənarda açılmış ilk tibb məktəbidir. Qətər dövləti ilə Kornell Universitetinin məlum birgə layihəsi bu ölkədə akademik proqramların və tibbi xidmətlərin yüksəldilməsi üçün həyata keçirilib. Kollec Qətər dövləti tərəfindən maliyyələşir və Qətər fondu məktəbin tikintisinə 750 milyon dollar vəsait ayırıb. Buradakı Veyl Tibb Kolleci memar Arat İsodzaki tərəfindən inşa edilən ikimərtəbəli böyük binada yerləşir. 2004-cü ildən Qətər fondu Veyl Tibb Kollecinin yerləşdiyi ərazidə xəstəxana tikintisinə başlayıb və hazırda tikinti davam etməkdədir.

Kornell Universitetinin nəzdində bakalavr, magistr və doktorlar üçün kolleclər fəaliyyət göstərir.

Kornell Universiteti geniş beynəlxalq əlaqə layihələrini həyata keçirir. Burada tələbələrə Afrika, fransız, alman, yəhudi, latın, Yaxın Şərq, Uzaq Şərq, rus, roma dilləri, ədəbiyyatı və mədəniyyəti üzrə proqramlar təklif edir. Universitetin Asiya ölkələri üzrə tədqiqatlar proqramı mövcuddur. Bu məqsədlə Kornell Universitetinin Mühəndislik Kolleci Pekinin Sinxua, Sinqapurun Nanyanq Texnologiya, Kənd Təsərrüfatı və Həyat Elmi Kolleci, Filippinin Los-Banyos universitetləri və Yaponiya Milli Aqrobiologiya Elmləri

İnstitutu ilə müqavilələr imzalamışlar. Kornell Universiteti Kanadanın Kraliza (Queen) Universiteti ilə birgə MBA proqramı həyata keçirir.

Kornell Universitetinin kitabxanası böyüklüyünə görə ABŞ-da 11-ci yerdə durur. Kitabxana sisteminə 7,5 milyondan çox kitab, 8,2 milyon mikrofilm, 440 min xəritə, kino, səsyazma, kompyuter faylları, arxivlər və rəqəmsal resurs aiddir. Bu kitabxana, internet şəbəkəsinə qoşulan ilk ABŞ kitabxanalarındandır. Kitabxanaların çoxu İtakada yerləşən kampusda cəmləşib. Nyu-York və Qətərdə də universitetin kitabxanaları mövcuddur. Universitetin kitabxana sisteminə Adelson (Ornitologiya laboratoriyası), Entomologiya, təsviri incəsənət, Cenevrə təcrübə stansiyası, hüquq, idarəetmə, riyaziyyat, tibb, musiqi, fizika elmləri, baytarlıq və s. kitabxanaları daxildir.

Dünyanın başqa universitetlərində olduğu kimi, Kornell Universitetinin tələbələri də təhsil aldıqları məktəbin ərazisində məskunlaşırlar. Tələbə yataqxanaları, əsasən, Şimal və Qərb kampuslarında yerləşir. Şimal kampusda birinci kurs tələbələri qalırlar, lakin burada yuxarı kurs tələbələri üçün də bir neçə yataqxana: Yalnız musiqi, Ekologiya evi, Hollandiya beynəlxalq yaşayış mərkəzi, Latino yaşayış mərkəzi, Akvekon və Ucamaa rezidensiyaları mövcuddur. Latino yaşayış mərkəzi, Akvekon və Ucamaa yataqxanalarında tez-tez irqi və etnik qarşıdurmalar baş verir. Kornell Universitetinin tələbələri üçün ildən-ilə yeni, daha yüksək şəraitə malik yataqxanalar tikilir: 2004-ci ildə Alisa Kuk, 2005-ci ildə Karl Beker, 2007-ci ildə Hans Beth, 2008-ci ildə Uilyam Kiton, Flora Rouz və s. göstərmək olar.

Universitetin 2009–2010-cu tədris ili üçün gəlirlərinin 2,94 milyard ABŞ dolları olacağı planlaşdırılır. 2006-2007-ci tədris ilində bu rəqəm 2,92 milyard, 2007–2008-ci tədris ilində isə 2,81 milyard olub. Kornell Universitetinin builki büdcəsinin 726,4 milyon dolları təhsil haqqından, 241 milyon dolları isə ianə və yardımlardan daxil olan vəsaitlərdir. Universitetin ianələr hesabına formalaşmış fondundakı vəsaitlərin həcmi hazırda 4,5 milyard ABŞ dollarıdır. Universitetdə illik təhsil haqqı tələbələrin seçdiyi ixtisasa, oxuduğu kursa uyğun olaraq, 19-52 min ABŞ dolları arasında dəyişir. Digər Amerika universitetlərində olduğu kimi, bu ali məktəbdə də universitetin yerləşdiyi ştatdan olan tələbələrə təhsil xərclərində xüsusi güzəştlər tətbiq olunur.

1962-ci ildən başlayaraq Kornell Universitetinin tədqiqatçıları Mars planetinə pilotsuz uçuşu və XXI əsrdə "Mars Araşdırma Səyahə"ti missiyasını həyata keçirib. 2004-cü ildə "səyyahlar" elmi nailiyyətlərinə görə "İlin uğuru" mükafatına layiq görülüblər. Onlar Marsda apardıqları tədqiqatlardan əlavə, Uran planetinin ətrafında mövcud olan halqaları müəyyən ediblər. Aresibodada (Puerto-Riko adasında ərazi) Kornell Universitetinin dünyada ən böyük və həssas radioteleskopu yerləşir.

1952-ci ildə Kornell Aviasiya Elmi–Tədqiqat Laboratoriyasının əməkdaşı Con Mur "Avtomobildə qəza travmalarının aradan qaldırılması üzrə araşdırma" layihəsini həyata keçirir. O, təcrübələrini canlıların deyil,

meyitlərin üzərində aparır və belə nəticəyə gəlir ki, sükan çarxının enerjisini mənimsəyən qapının qıfılının genişləndirilməsi, yumşaq panel və təhlükəsizlik kəməri zədələrin faiz nisbətini xeyli azaldır. Layihənin nəticəsi olaraq, 1956-cı ildə "Kornell təhlükəsizlik avtomobil"i nümayiş edilir, bu isə avtomobil istehsalçılarında müsbət dönüş yaradır və onlar həmin yenilikləri tətbiq etməyə başlayırlar.

1984-cü ildə universitetin Milli elm fondu 5 yeni superkompyuter istehsalı mərkəzi yaradır. 1985-ci ildə fond ARPANET-ə qoşula biləcək NSFNET, TCP/IP-şəbəkə kompyuterləri istehsal edir. NSFNET İnternetin sürətli inkişafı üçün dönüş nöqtəsi olur və ümümdünya hörümçək torunun inkişafına gətirib çıxarır.

Kornell Universitetinin alimləri 70 ildən çoxdur ki, elementar hissəciklərin tədqiqatı ilə məşğuldur. Universitetin fizikləri, xüsusilə Hans Bete nüvə fizikasının inkişafına nail olur. Onlar həmçinin Manhetten layihə-sinin iştirakçılarıdır. 1930-cu ildə Kornell Universitetində (ABŞ-da ikinci dəfə olaraq) siklotron quraşdırılıb, 1950-ci ildə ilk dəfə burada sinxron şüalanma öyrənilib. 1990-cı ildə universitetdə dünyada birinci olaraq ən yüksək işıqlanma qabiliyyətinə malik elektron-pozitron kollayder yaradılır.

Hazırda universitet Beynəlxalq xətt kollayderinin tikintisini sona çatdırmışdır. Kollayderin quraşdırılması 2010-cu ildə tamamlanmışdır. Beynəlxalq xətt kollayderi Böyük Adron kollayderini tamamlamışdır. Bu isə materiyanın eyniliyi və əlavə ölçülərin mövcudluğu kimi suallara aydınlıq gətirir.

ABŞ-ın başqa universitetləri kimi, Kornell Universiteti də təbiətin mühafizəsi üzrə müxtəlif proqramlar həyata keçirir. 2007-ci ildə burada Sabit gələcək mərkəzi yaradılıb. Universitetdə xüsusi zavodlar mövcuddur ki, onlar öz tullantılarını emal edərək təhsil müəssisəsini 100% enerji və istiliklə təmin edir.

Hazırda Kornell Universitetinin İtakada yerləşən kampusunda 1594, Nyu-Yorkdakı təhsil müəssisələrində 1005, Qətərdəki kollecdə isə 34 professor-müəllim heyəti fəaliyyət göstərir. 2008 və 2009-cu illərdə ABŞ-ın "Ali təhsil xronikası" jurnalı Kornell Universitetini "Böyük robot kolleci" adlandırıb. Bu ad universitetə rəhbərlik işinin yüksək səviyyədə qurulması, əməkdaşların işləməkdən zövq alması, onlara təqaüdə çıxdıqdan sonra yüksək məbləğdə təqaüd və kompensasiya ödənilməsi, tələbələrin, eləcə də digər əməkdaşların burada oxuyub fəaliyyət göstərdikləri üçün verilib. Kornell Universitetinin müəllim və məzunlarından 41 nəfər Nobel mükafatına layiq görülüb.

**Dyuk Universiteti (Duke University).** Dyuk Universiteti özəl tədqiqatlar universitetidir və ABŞ-ın Şimali Karolina ştatının Darem şəhərində yerləşir. Tarixi 1838-ci ildən başlayan bu ali məktəb 1924-cü ildə tütün maqnatı Vaşinqton Dyukun şərəfinə Dyuk Universiteti adlandırılıb. 2009-cu ildə "Amerikanın ən yaxşı məktəbi" nominasiyasında Dyuk Universitetinin Tibb Məktəbi tədqiqatlar sahəsində 6-cı, Hüquq Məktəbi isə 10-cu yeri tutub.

Universitetin siyasi elmlər, sosiologiya, tarix, iqtisadiyyat və mədəni antropologiya departamentləri də ABŞ universitetləri arasında tez-tez əsas 20-likdə yer alır. 2009-cu ildə Dyuk Universiteti 100 ən yaxşı ali məktəb arasında 14-cü sırada yerləşmişdir.

Dyuk Universitetinin tarixi Şimali Karolina ştatının Randolf qraflığında (hazırkı Triniti şəhəri) yerləşən Braun Məktəb Evinin təsis olunduğu (1838-ci ildən) ildən başlayır. Bu məktəbin adı Dyuk Universiteti adlandırılana qədər dörd dəfə dəyişib.

1841-ci ildə Şimali Karolinada Birləşmiş Cəmiyyət İnstitutu və müqəddəs ata Brantli Yorkun rəhbərlik etdiyi bir qrup metodist və kvakerlər (İngiltərə və ABŞ-da kilsə mərasimlərini inkar edən xristian dini təriqətin üzvləri) tərəfindən təşkil olunan Braun Məktəb Evinin, Birləşmiş İnstitut Akademiyası adlandırılması ilə bağlı xartiya imzalanır. Şimali Karolina Ştatının Qanunvericilik Məclisi 1851-ci ildə akademiyanın Normal Kollec adlandırılması, 1853-cü ildə isə ona dərəcə verilməsi haqqında qərar qəbul edir. 1859-cu ildə məktəbin adı dəyişdirilərək Triniti Kollec adlandırılır, devizi isə "Bilik və Din" kimi qəbul olunur.

1892-ci ildə Vaşinqton Dyuk və Julian Karın köməyilə Triniti Kollec Darem şəhərinə köçür. J.Kar hazırda Qərb Kampusunun yerləşdiyi ərazini kollecə hədiyyə edir. V.Dyuk isə qadınların kişilərlə bərabər şəkildə yerləşdirilməsi şərti ilə qızı Mariyanın şərəfinə adlandırılacaq qızlar yataqxanasının inşasına və fond yaradılmasına 100000 dollar ayırmağı təklif edir.

1894-cü ildə Con Kilqo kollecin prezidenti seçilir. Onun rəhbərliyi dövründə Dyuk ailəsinin Trinitiyə verəcəyi məbləğ xeyli artır. 1924-cü il dekabrın 11-də Vaşinqton Dyukun oğlu Ceyms Dyuk 40 milyon dollar məbləğində Etimad Fondunu təsis edir. Fondun illik gəlirindən Karolinada xəstəxanalar, uşaq evləri, metodik kilsə, üç kollec və Triniti Kolleci ətrafında universitet tikintisi nəzərdə tutulur. Triniti Kollecinin prezidenti Con Kilqo kollecin adını dəyişərək Vaşinqton Dyuk və onun ailəsinin şərəfinə Dyuk Universiteti adlandırılmasını bəyan edir. Beləliklə, 1924-cü ildə kollec Dyuk Universiteti adlandırılır.

Universitet sürətlə inkişaf edir. Dyukun əvvəlki kampusu (hazırkı Şərqi Kampus) 1925-1927-ci illərdə bərpa olunur, 1926-cı ildə dini və ali məktəblər açılır. 1930-cu ilədək kampusun ərazisindəki binaların əksəriyyətinin tikintisi başa çatır. Bu binalar Triniti Kollecinin kişi tələbələri üçün nəzərdə tutulmuşdu. 1930-cu ildə Şərqi Kampus üzrə Qadınlar Kolleci açılır. 1931-ci ildə Tibb Bacıları Məktəbi təsis olunur, 1935-ci ildə isə Dyuk kilsəsinin tikintisi başa çatır, 1938-ci ildən başlayaraq Meşə məktəbi (sonradan Ekoloji məktəb) fəaliyyət göstərir. Həmin il Dyuk Universiteti Amerika Universitetləri Assosiasiyasının 34-cü üzvü olur.

1971-ci ildə burada Siyasi Elmlər və İctimaiyyətlə Əlaqələr İnstitutu təsis edilir, bir il sonra qadınlar üçün fəaliyyət göstərən kollec, kişi və qadınlar

üçün Liberal İncəsənət Kolleci adı altında Triniti ilə birləşdirilir. 1974-cü ildə universitetdə Meri Lu Uilyams adına Zənci Mədəniyyət Mərkəzi açılır. 1980-ci ildə Dyuk Universitetinin tibb, cərrahiyyə, pediatriya, mamalıq və ginekologiya şöbələrindən ibarət xəstəxanalarının tikintisi başa çatır.

Son illər ərzində Dyuk Universitetinin elmi-tədqiqat mərkəzi kimi nüfuzu artıb. 1993-cü ildə Dyukun 3 üzvü nüfuzlu Uilyam Louell Patnem riyaziyyat yarışmasında birinci yer tutaraq Birləşmiş ştatlar və Kanadanın riyaziyyat üzrə ən yaxşı tələbə adına layiq görülüb. Universitet bu uğuru 1996 və 2000-ci illərdə də təkrarlayıb. Son on ilin doqquzunda Dyuk komandası Harvarddan sonra ilk üçlükdə yer tutan yeganə məktəbdir. 1992-ci ildən Dyukun beş tələbəsi Patnem təqaüdçüsü elan edilib. 1990-cı illərdə kampusun ərazisindəki tikinti işləri davam etdirilib. 1994-cü ildə universitetdəki Terri Sanford İctimai Siyasi İnstitutu yeni bina və yataqxanaya köçürülür. 1995-ci ildə Piter Nikolas adlı xeyriyyəçi Ətraf Mühitin Mühafizəsi Məktəbinə 20 milyon dollar yardım edir. Ceyms Dyukun qızı Doris Dyuk isə tədqiqatların aparılması məqsədilə universitetə 10 milyon dollar vəsait ayırır. 1996-cı ildə Robert Kolman fizika üzrə Nobel mükafatına layiq görülür.

1998-ci ildə Dyuk prezidenti Nan Keoheyn universitetin kapital yığımına dəstək üçün beşillik kampaniyaya başlayır. Dyuk uğrunda kampaniya 2003-cü ildə 2,36 milyard dollar vəsaitin toplanması ilə başa çatır. Bu kampaniya Amerikanın ali təhsil tarixində keçirilən kampaniyalar arasında miqyasına görə beşinci olur. 2004-cü ildə universitetin elmi tədqiqatlara sərf etdiyi xərclər 490 milyon dolları ötür, bu isə bir sıra mühüm irəliləyişlərə səbəb olur.

Dyuk Qlobal Səhiyyə Araşdırmaları Laboratoriyası ABŞ-ın infeksion xəstəliklərlə mübarizə üçün yeni vaksinlər, dərman preparatları və testlər hazırlayan dörd laboratoriyasından biridir. 2005-ci ildə universitetin üç tələbəsi Rods təqaüdçüsü adını alaraq, Dyuku ən çox təqaüdçüləri olan ikinci universitet edib. Dyuk tarixində 40 tələbə bu təqaüdə layiq görülüb.

35 km$^2$ ərazidə yerləşən Dyuk Universiteti 220 binaya malikdir. Onun sahəsi 29 km$^2$ meşəlikdən ibarətdir. Universitetin ərazisi dörd əsas sahəyə: Qərb, Şərq, Mərkəzi kampuslara və Tibb Mərkəzinə ayrılıb. Bütün kampuslar bir-birilə avtobus xidməti vasitəsilə birləşir. Atlantik okeanının Bofort sahilində Dyukun 61000 m$^2$ sahəsi var. Dyuk kampusundakı əsas ictimai əyləncə yerlərindən biri 1930-cu ildə yaradılmış 220000 m$^2$ sahəyə malik Sara Dyuk bağıdır. 2005-ci il noyabrın 1-də olan məlumata görə, Dyuk 2001-ci ilin fevralından 34 tikinti layihəsinə 835 milyon dollar sərf edib. Həmin vaxt Dyuk "Kamillik qurğusu" adlı beşillik strateji plan hazırlayıb. 2002-ci ildə başa çatdırılmış layihələrə biznes, hüquq, tibbi xidmət, ibadət məktəbi, yeni kitabxana, incəsənət muzeyi, futbol məşqləri üçün obyektlər, iki yaşayış binası, mühəndislik qurğuları, Göz İnstitutu, iki Genetik Araşdırmalar İnstitutu, Elmi Mərkəz və iki yeni Tibbi Araşdırmalar Mərkəzi daxildir.

Dyuk tələbəlik illərinin ilk üç ilini kampusda keçirməyi tələb edir. Tələbələrin 85%-i kampusda yaşayır. Birinci kurs tələbələrinin hamısı Şərqi Kampusdakı 14 evdən birinə yerləşdirilir. 1892-ci ildə tikilmiş bu binalar 190 sakin üçün nəzərdə tutulub. İkinci kurs tələbələrinin bir çoxu Qərb Kampusunda yaşayır, lakin onlar yaşayış yeri kimi Mərkəzi Kampusu da seçə bilərlər. Mərkəzi Kampus 1050 tələbəni yaşayışla təmin edir. Qərb Kampusu 1930-cu illərdə tikilib, sonralar ona iki yeni bina əlavə edilib. Bu kampus Qərb Sağlamlaşdırma Kampusu, Azad Maddələr Bölməsi və Boldvin Təqaüd Proqramına daxil olan əməkdaşlar üçün nəzərdə tutulub. Dyuk Universitetinin yaşlı tələbələrinin təxminən yarısı kampusdan kənarda yaşamağa üstünlük verir.

Dyuk Universitetinin kitabxana sistemi 5,5 milyon kitabdan ibarət olmaqla ABŞ-ın ən iri özəl universitet kitabxanaları sistemindən biridir. Bu kitabxana Amerikanın bütün kitabxanaları arasında 29-cu yeri tutur.

2005-ci ilin payızında açılan Naşer İncəsənət Muzeyi Dyuk Universitetinin Təsviri Sənət Muzeyini əvəz edib. Rafael Vinoli tərəfindən layihələndirilən Naşer İncəsənət Muzeyi Dyukun sənət əsərləri kolleksiyaçısı Raymond Naşerin şərəfinə adlandırılıb. Muzeydə Endi Varhol, Henri de Tuluz, Lotrek və Pablo Pikassonun sənət əsərləri daxil olmaqla 13 000-dən çox incəsənət nümunəsi qorunur.

Dyuk Universiteti tələbələrə 36 humanitar və dəqiq elmlər təklif edir. Buraya iki Proqramla əlavə edilmiş 46 ixtisas da daxildir. Tələbələr 3-ə qədər ixtisas seçə bilər. Bu ali təhsil müəssisəsinə daxil olan tələbələrin 80%-i incəsənət və dəqiq elmləri, qalanları isə Pratt Mühəndislik Məktəbini seçirlər. Dyuk Universitetinin tədris metodu "Kurikulum-2000" proqramının yenidən baxılmış versiyasına əsasən fəaliyyət göstərir. Bu, tələbələrin müxtəlif elm sahələri və tədqiqat üsulları ilə tanış olmalarına zəmanət verir.

Dyuk Universitetinin məzunları 2005-2006-cı illərdə ABŞ-ın milli universitetləri məzunları arasında üçüncü yeri tutub. ABŞ-ın keçmiş prezidenti Riçard Nikson, Zilinin sabiq prezidenti Rikardo Laqos, ABŞ prezidenti Barak Obamanın şəxsi köməkçisi Reci Lav, eks-prezident Corc Buşun şəxsi köməkçisi Cared Vaynşteyn, Nazirlər Kabinetinin keçmiş üzvü və senator Elizabet Doul, eləcə də "Morqan Stanley və Pfizer" Şirkətinin direktorları universitetin məşhur məzunlarıdır. Bundan əlavə, süni ürək implantasiyası əməliyyatını həyata keçirən ilk həkim Uilyam Devraysın adı da məzunlar siyahısındadır. Universitetin tanınmış şəxsləri siyahısına 2003-cü ildə kimya üzrə Nobel mükafatına layiq görülmüş Piter Aqr da daxildir. Həm də birləşmiş ştatların keçmiş ədliyyə naziri, baş prokurorun müavini və Bill Klintonun prezidentlik illərində Hüquq Məsləhətxanası İdarəsinin rəhbəri vəzifəsində çalışmış III Uolter Dellincer, 1992-ci ildə Lourens Olivye mükafatına layiq görülmüş yazıçı-dramaturq Ariyel Dorfman, Klinton və Corc Buş dövründə Milli Təhlükəsizlik Şurasının üzvü Piter Fiver də daxildir. Universitetin məzunu Devid Gergen prezidentlər Riçard Nikson, Cerald

Ford, Ronald Reyqan və Bill Klintonun müşaviri olub. Bill Klintonun prezidentliyi dövründə Azadlıq Medalı ilə təltif edilən Con Hop da Dyuk Universitetinin məzunudur. Nobel mükafatının 19 laureatının universitetlə bilavasitə əlaqələri vardır.

Hazırda Dyuk Universitetində 6340 tələbə və 7117 doktorant təhsil alır. Onların 40%-ni ABŞ-ın 50 ştatından və dünyanın 106 ölkəsindəki etnik azlıqlardan olan tələbələr təşkil edir. Universitetdə 2877-yə yaxın professor-müəllim heyəti çalışır. ABŞ-ın digər universitetləri kimi, bu qədim ali təhsil ocağı da öz elmi nailiyyətləri ilə dünyada seçilir. Dyuk Universiteti müasir elm mərkəzi olmaqla yanaşı, qotik üslubunda inşa edilmiş binaları ilə turistləri cəlb edən və dövlət tərəfindən qorunan tarixi abidədir.

**Con Hopkins Universiteti (Johus Hopkins University).** Con Hopkins Universiteti ABŞ-ın Merilend ştatında, Baltimor şəhərində yerləşən özəl elmi-tədqiqat mərkəzidir. Universitetin Merilend ştatında salınan şəhərciklərindən əlavə, Vaşinqtonda, Kolumbiyada, İtaliyada, Çində və Sinqapurda kampusları mövcuddur. Con Hopkins Universiteti Amerika Universitetləri Assosiasiyasının 14 üzvündən biridir. 2009-cu ildə Con Hopkins Universiteti 100 ən yaxşı ali məktəb arasında 13-cü sırada yerləşmişdir. Universitetin 33 məzunu Nobel mükafatına layiq görülüb.

1873-cü ildə xeyriyyəçi Con Hopkins varisi olmadığından öz var-dövlətini universitet və xəstəxana tikintisinə sərf etməyə qərar verir və bu məqsədlə vəsiyyətnaməsində 7 milyon dollar ayrılmasını qeyd edir. ABŞ tarixində bu ən böyük məbləğdə xeyriyyə vəsiyyətnaməsi olur. Beləliklə, 22 fevral (Corc Vaşinqtonun anadan olduğu gün) 1876-cı ildə yaradılan ali təhsil ocağına Con Hopkins Universiteti adı verilir. Universitetin ilk prezidenti Daniel Koyt Gilman olub. Yarandığı gündən təhsil ocağının məqsədi elmi tədqiqatların rəğbətləndirilməsi, elmin inkişafında müstəsna xidmətləri olan alimlərin maddi vəziyyətlərinin yüksəldilməsidir.

Con Hopkins Universiteti Vilhelm fon Humbolt, Fridrix Ernest Şleyermaxer tərəfindən hazırlanmış alman modelini birinci tətbiq edən ABŞ ali məktəbidir. İlk dəfə bu universitetdə mühazirələrlə birgə seminarlar keçirilib.

1889-cu ildə Con Hopkins xəstəxanasının tikintisi başa çatır, 1893-cü ildə isə Tibb Məktəbi yaradılır və məktəb qızlarla oğlanların birgə təhsil aldığı ilk tibb məktəbi kimi tarixə düşür.

1909-cu ildə universitetdə təhsilin davam etdirilməsi proqramı qəbul edilib, 1916-cı ildə isə ölkədə ilk İctimai Səhiyyə Məktəbi açılıb. 1950-ci ildə Vaşinqtonda universitetin Nitsşe Beynəlxalq Tədqiqatlar və 1977-ci ildə Baltimorda Pibodi İnstitutu yaradılıb.

Con Hopkins Universitetinin əsas kampusu Homvud adlanır. Kampusun Şərqi Baltimorda yerləşdiyi 140 hektarlıq ərazi 1900-cü ildə əldə olunub. Kampusdakı bütün tikililər qırmızı kərpic və ağ mərmərdən inşa edilib, onlar gözoxşayan görünüşə malikdirlər. Hazırda bu binalar tarixi abidə hesab

olunur və dövlət tərəfindən qorunur. Kampusun yaxınlığında Baltimor İncəsənət Muzeyi yerləşir. Homvudun ərazisində məşhur Deker bağı vardır. Əvvəllər Botanika bağı adlanan və biologiya kafedrasının əməkdaşları tərəfindən istifadə olunan bu bağ hazırda estetik məqsədlərə xidmət edir. Homvudda yerləşən Kosmik Teleskop Elmi İnstitutu universitetin ən böyük rəsədxanalarındandır. Bu institut Habbl teleskopu vasitəsilə məlumatlar toplayır, onları analiz və idarə edir.

Con Hopkins Universitetinin əsas xüsusiyyətlərindən biri burada təhsil alan tələbələrin önəmli tədqiqatlarda fəal iştirak etməsidir. Tələbələrin 80%-i oxuduqları 4 il ərzində öz sahələri üzrə müstəqil tədqiqatlar aparır. Ümumiyyətlə, bu ali təhsil ocağı ABŞ-da tədqiqatlara ən çox sərmayə qoyan universitetlərdən biridir. 1999-2009-cu illər ərzində Con Hopkins Universiteti dünyada ən çox məqalələri çap olunan tədqiqat mərkəzləri siyahısındadır (Harvard Universiteti və Maks Plank Cəmiyyətindən sonra üçüncü yerdə).

Con Hopkins Universitetinin kitabxana sistemi 3,6 milyon cilddən çox kitaba malikdir. Universitetin əsas kitabxanaları Homvud kampusunda yerləşən Şeridan və Milton Eyzenhauer kitabxanalarıdır. Milton Eyzenhauer kitabxanası 2,6 milyon cilddən çox kitaba, 20 min jurnala malikdir. Kitabxanaya ABŞ-ın sabiq prezidenti Duayt Eyzenhauerin qardaşı, universitetin prezidenti olmuş Milton Eyzenhauerin adı verilib.

Dünyanın başqa universitetlərində olduğu kimi, Con Hopkins Universitetinin tələbələri buradakı yataqxanalarda yaşayaraq təhsil alır. Lakin bu təhsil ocağında yataqxanalarla tam təminat əsasən I-II kurs tələbələri üçün nəzərdə tutulub.

Con Hopkins Universitetində hazırda 19000-dən çox tələbə təhsil alır. Onların 4744-nü bakalavr, 14275-ni doktorant və magistrlər təşkil edir. Universitetdə 15000-dən çox professor-müəllim heyəti çalışır. Con Hopkins Universitetinin missiyası tələbələrə elm öyrətməklə yanaşı, onlara həyat dərsi keçmək, müstəqil tədqiqatlara sövq etmək, eləcə də elmə dəyərli töhfələr verməkdir. Bu qədim ali təhsil ocağının dünya elminin inkişafında əldə etdiyi mühüm və əlamətdar yeniliklər danılmazdır.

2013-cü il üzrə Amerikanın ən nüfuzlu ali məktəblərinin siyahısı açıqlanmışdır:

1.**Cənubi Kaliforniya Universiteti**. Bu ali məktəb dünyanın ən aparıcı tədqiqat mərkəzlərindən biridir. Burada daha çox xarici ölkə vətəndaşları təhsil alır.

2.**Kolumbiya Universiteti.** Bu ali məktəb, Amerikanın ən qədim universitetlər sırasında 5-ci yerdə yerləşir.

3.**Nyu-York Universiteti**. Bu təhsil müəssisəsinin dünyanın 25-dən çox ölkəsində filialları və kollecləri vardır. Bu universitet xarici tələbələr arasında daha çox məhşurlaşmışdır.

4.**Urbana və Şampeyndə İllinoys ştat Universiteti**. Bu məktəbin kampusu əllilər və məhdud qabiliyyətli tələbələr üçün daha geniş imkanlara malikdir.

5.**Miçiqan Universiteti.** Bu universitet xarici tələbələri ən çox cəlb edən kommersiya müəssisələrinin idarə olunması proqramı ilə bağlıdır.

"Forbes" jurnalı isə ölkənin 10 ən nüfuzlu universitetinin siyahısını açıqlamışdır:

1.Stenford Universiteti, Kaliforniya
2.Pomona Kolleci, Kaliforniya
3.Prinston Universiteti, Nyu-Cersi
4.Yel Universiteti, Konnektikut
5.Kolumbiya Universiteti,Nyu-York
6.Suortmor Kolleci, Pensilvaniya
7.ABŞ Hərbi Akademiyası, Nyu-York
8.Harvard Universiteti, Massaçusets
9.Uilyam Kolleci, Massaçusets
10. Massaçusets Texnologiya İnstitutu.

# BÖYÜK BRİTANİYADA TƏHSİL

**İngiltərədə təhsil.** VIII əsrdə İngiltərədə kilsə məktəbləri fəaliyyət göstərirdi. Sonrakı dövrdə bəzi kilsə məktəbləri böyük və nüfuzlu tədris müəssisələrinə çevrildi. IX əsrdə İngiltərədə monastr məktəbləri xüsusi ilə seçilirdi. Daha sonra isə həmin məktəblər yeni tip məktəblərlə əvəz olunmağa başladı. Bu tip məktəblər şəhər məktəbləri və universitetlər idi. İlk şəhər məktəbləri Londonda və başqa şəhərlərdə yaradıldı. Britaniya universitet sisteminin qədim tarixi var. 1168-ci ildə Oksford, 1231-ci ildə Kembric universitetləri meydana gəldi. Oksford və Kembric universitetlərinin hər biri bir neçə kollecdən ibarət idi. XIX əsrə qədər onlar ölkədə yeganə universitetlər olaraq qalırdı. O zamanlar qadınlara universitetlərdə oxumağa icazə verilmirdi. XV-XVI əsrlərdə Şotlandiyada Sent-Endzyus (1411), Qlazqo (1451), Aberdin (1494) və Edinburq (1583) universitetləri yaranmışdı.

XI əsrin sonu XII əsrin əvvəllərində ayrı-ayrı kafedral və monastr məktəbləri iri tədris mərkəzlərinə çevrildi. Kembric universiteti ali təhsil sistemində islahatların mərkəzi oldu. Universitetdə U.Tindel və X.Latimer tərəfindən əsaslı dəyişikliklər aparıldı. İngiltərədə Oksford universiteti humanitar və demokratik təhsil ocağı idi. Bu universitetdə hüququn tədrisinə xüsusi üstünlük verilirdi. İngilis qrammatika məktəbləri, onların bir növü olan kütləvi məktəblər şəhər məktəb və gimnaziyaların mənsub olduğu eyni tip tədris müəssisələrinə daxil idi. İlk kütləvi məktəblər XIV əsrin sonu XVI əsrin birinci yarısında Vançestrdə və İtonda yaradılmışdı. XVII-XVIII əsrlərdə İngiltərədə olan klassik tipli tədris müəssisələri qrammatika məktəbləri idi. İngiltərə qrammatika məktəbləri arasında 9 böyük açıq məktəb (Vançestr, Vestminster, İton, London və b.) fərqlənirdi. Böyük açıq məktəblərdə şagirdlərin sayı 3000 nəfərdən çox olmurdu.

1870-ci ildə dövlət təhsil sisteminin əsasını qoyan ilk qanun qəbul olunmuşdur. Qanuna müvafiq olaraq ibtidai məktəblərdə 5-12 yaşlı uşaqlar üçün ibtidai təhsil məcburi sayılırdı. İngiltərədə ilk ibtidai təhsil sistemi Almaniyadan 100 il sonra yaradılmışdır. 1860-cı ildə İngiltərədə məktəbyaşlı uşaqların 50%-i (yarısı) məktəbə gedirdi. Ölkədə təhsil sisteminin inkişafı XX əsrin əvvəllərinə qədər geri qalmaqda davam edirdi. 1902-ci ildə yerli orqanlarda dövlət qrammatika məktəblərinin yaradılması haqqında qanun qəbul edilmişdi. 1918-ci ildə məcburi ibtidai təhsil almaq üçün yaş həddi 14 yaş və 1944-cü il qanununda isə yaş həddi 15 yaş qəbul olundu. Bu qanun müasir dövrdə fəaliyyətdə olan xalq təhsilinin təşkilinin əsasını qoydu. Müasir təhsil sistemi

üç pillədən – ibitidai, orta və növbəti təhsildən ibarət idi. Məktəbəqədər tərbiyə isə məktəbəqədər siniflərdə aparılırdı. İbtidai təhsil 5 yaşından 11 yaşına qədər dövrü əhatə edirdi. 5 yaşından balaca uşaqlar 2 illik məktəbə, 7 yaşından isə ibtidai məktəbə gedirdilər. İbtidai məktəbi qurtardıqdan sonra şagirdlər test üsulu ilə orta məktəbin üç müxtəlif növü arasında bölünürdü. Şagirdlərin 20%-i qrammatika məktəblərinə, 70%-ə qədəri isə 4 illik və bəzən 5 illik müasir məktəblərə, 5%-ə qədəri isə 5 illik peşə məktəblərinə gedirdi. 1950-ci ilin əvvəllərində bu üç növ orta məktəblərin proqramını vahid şəkildə əhatə edən yeni tip orta məktəblər yarandı (bu məktəblərdə təhsil müddəti 4, 5 və 7 il oldu). Bütün mövcud tip məktəblər bir-birindən tədris plan və proqramları ilə yanaşı, həm də buraxılış sinif şagirdlərinə verilmiş hüquqlara görə fərqlənirdi.

Qrammatika məktəbləri əsas etibarilə şagirdləri ali təhsil məktəblərinə qəbul olunmaq üçün hazırlayır və yuxarı siniflərdə isə fənn kurslarının diferensiasiyası aparılırdı. İngiltərənin müasir məktəblərində praktik hazırlığa böyük diqqət yetirilirdi. Orta məktəb şagirdlərinin təxminən yarısını təşkil edən qızlar və oğlanlar üçün ayrılıqda dərs keçilirdi. Dövlət məktəbləri (90%-dən çox) ilə yanaşı, daha nüfuzlu özəl məktəblər mövcud idi. İngiltərə təhsil sistemi bu günə qədər özünün elit və klassik yönümlülüyünü saxlamışdır.

XIX əsrdə İngiltərədə orta məktəb təhsilinin pulsuz olması haqqında qanun qəbul olundu. London məktəbləri xüsusi statusa malik idi. Orta məktəblərin strukturunda vahidlik yox idi. Hər bir tədris müəssisəsi öz nizamnaməsinə uyğun fəaliyyət göstərirdi. Ölkədə eyni zamanda özəl məktəblər də fəaliyyət göstərirdi. İngiltərədə aşağı sinif ibtidai məktəb (natamam), yuxarı sinif ibtidai məktəb (tam), orta və ali məktəblər var idi. XIX əsrin sonunda İngiltərədə universitet təhsili almaq üçün böyük miqdarda pul və azad vaxt tələb olunurdu və bu zaman ölkədə ali təhsil verən yeni tədris müəssisələri yarandı. Bu tədris müəssisələri Oksford və Kembric ənənələrini davam etdirməklə yanaşı, yerli ənənələri də nəzərə almağa çalışırdı. XIX əsrdə bütün Böyük Britaniyanı əhatə etmiş sənaye inqılabı ixtisaslı idarəçilik və inzibatçılara ehtiyac olduğunu göstərdi. Bir çox sənaye şəhərlərində yeni universitetlər meydana gəldi. 1851-ci ildə Mançester, 1893-cü ildə Uels, 1900-cı ildə Birminhem, 1903-cü ildə Liverpul, 1909-cu ildə Bristol və 1926-cı ildə Redinq, 1936-cı ildə London universitetləri yaradıldı. Bu universitetlər "qırmızı kərpiclilər" kimi məşhur idilər, çünki onlar, adətən, qırmızı kərpicdən tikilirdi, Oksford və Kembric universitetlərinin qədim divarları isə daşdan tikilmişdi.

XX əsrin əvvəllərində İngiltərədə iki tip məktəb, ibtidai və orta məktəb mövcud idi. 11 yaşa qədər uşaqların oxuduqları bütün məktəblər ibtidai məktəb hesab olunurdu. 11–17 yaşlı yeniyetmələrin təhsil aldıqları məktəblər orta təhsil müəssisələri adlanırdı. 14 yaşa qədər uşaqlar ödənişsiz oxuyurdular. Orta təhsil müəssisələrinə qrammatika, müasir (natamam orta məktəblər) və mərkəzi məktəblər daxil idi. Bununla yanaşı, özəl və ümumi elit məktəblər

fəaliyyət göstərirdi. Qrammatika və ümumi məktəblərin məzunları universitet tipli ali təhsil müəssisələrinə qəbul olunmaq hüququna malik idi. Britaniya cəmiyyətinin orta təbəqəsinin artımına görə həmin məktəblər xüsusi rol oynayırdı. XX əsrin ikinci yarısında İngiltərədə yaşlı uşaqlar üçün bütün məktəblərdə təhsil sistemi pulsuz idi. Bələdiyyə və xüsusi məktəblər var idi. İcbari təhsil sistemini 5–16 yaşlı uşaq və yeniyetmələr əhatə edirdi. Dərs həftəsi 5 gün idi. İcbari təhsil, əsasən, 4 əsas dövrə bölünmüşdü: 1) 5–7 yaş; 2) 7–11 yaş; 3) 11–14 yaş; 4) 14–16 yaş.

XX əsr yüksək texnologiyalar əsri olaraq öz xalqının ixtiraçılığı və inkişafı ilə fəxr edəcək ölkə qarşısında yeni tələblər qoydu. 1945-ci ildən sonra ölkədə daha bir neçə yeni universitet yarandı. 1948-ci ildə Nottinhem, 1949-cu ildə Kil, 1955-ci ildə Ekseter və 1960-cı illərdə Sassek, Varvin, Kent, Şərqi İngiltərə universitetləri açılmışdı. Bu universitetlər son zamanlara qədər yenilər və ya şüşəli kimi tanınırdı, çünki tikilən müasir binaların çox hissəsində şüşədən istifadə olunmuşdur. Lakin tez bir zamanda həmin yeni universitetlərin ardınca çoxlu sayda əlavə universitetlər də yarandı. 1992-ci ildə 33 politexnik institut "Çarter universitetləri" elan edildi. Bu institutlarda hələ qədimdən peşəkarlıq və texniki fənlər tədris edilir, məzunlara alimlik dərəcələri və yüksək texniki-peşə ixtisasları verilirdi. Köhnə və yeni universitetlər arasındakı fərqlərin götürülməsinə baxmayaraq, bəzi cəhətlər hələ də gözə çarpırdı. Yeni universitetlər iqtisadiyyat və sənaye ilə sıx əlaqəli olduğu üçün tədris proqramları sahibkarların maraqlarını müəyyən dərəcədə nəzərə almaqla tərtib edilirdi. Qədim universitetlər isə geri qalmamaq üçün yerli və milli kommersiya dairələri ilə öz əlaqələrini möhkəmləndirir, bununla belə qədim universitetlər öz tədris proqramlarını fəlsəfə, ədəbiyyat və təbiət elmləri kimi xalis nəzəri fənlər istiqamətində tərtib edirdi.

İbtidai təhsil birinci iki 5–6 yaş dövrünü əhatə edir. Orta təhsil 11(12)–15 yaşlı uşaqların təhsil aldıqları natamam orta məktəblər və 15–17 (18) yaşlı yeniyetmələrin təhsillərini davam etdirdikləri tam orta məktəbi (qrammatika məktəbləri) əhatə edir. Ümumtəhsil məktəblərində təhsil müddəti on bir ildir və yüksək təhsil sertifikatını yalnız on üç ildən sonra almaq olar. Peşə istiqamətində isə peşə kollecləri mühüm yer tuturdu.

Böyük Britaniyada müasir təhsil sistemi dörd pillədən ibarətdir: ibtidai, orta, natamam ali (orta məktəbdən sonrakı) və ali. İbtidai təhsil 5-6 yaşdan 11-12 yaşa qədər olur. 11-12 yaşdan sonra orta təhsil mərhələsi başlanır. Müasir məktəb orta təhsil verir. Bu məktəbin dərs proqramının əsas hissəsini praktik məşğələlər təşkil edir və məzunlar peşəkar kimi fəaliyyətə başlayır. Məzunlar eyni zamanda qəbul imtahanı verərək öz təhsillərini davam etdirə bilər. Böyük Britaniyada ixtisasından asılı olaraq müxtəlif bakalavr dərəcələri var: incəsənət, elmi tədqiqat və hüquq sahəsində bakalavr. Həmçinin tibb və stomatologiya sahəsində də bakalavr dərəcəsi vardır.

Bakalavr dərəcəsi ixtisaslaşmış proqram əsasında universitet və kolleclərin şöbələrində üç və ya dördillik təhsildən sonra verilir. Bu dərəcə bütün dünyada tanınmışdır. Magistr və doktor dərəcələrini almaq üçün bakalavr dərəcəsi zəruridir. Magistr dərəcəsini almaq üçün iki növ proqram vardır, yəni ixtisasa uyğun tədris proqramı və tədqiqat istiqamətli proqramlar. Tədris proqramı elə təşkil olunmuşdur ki, bakalavr 8-9 aylıq mühazirə və seminarlardan sonra imtahan verir, 3-4 ay müddətində isə buraxılış işi hazırlayır. İmtahan və buraxılış işinin müdafiəsindən sonra magistr dərəcəsi verilir. Böyük Britaniyanın ali təhsil sisteminə əsasən universitetlər daxildir. Mühəndis kadrlar universitetlərin tərkibinə daxil olan kolleclərdə, texniki fakültələrdə, müstəqil institut və kolleclərdə hazırlanır. Bu məktəblərdə qaydalar isə, məsələn, MBA[1] əsas fənlər; fakultativ fənlər; dissertasiya və ya tədris layihəsi; tədris (dərs demək) metodikası; attestasiya; xüsusi MBA proqramları; təhsilin qiyməti daxildir. GMAT[2], MBA[3], Böyük Britaniyada təhsil sistemi: ingilis pansion məktəbi; Britaniyanın orta məktəblərində əcnəbilərin təhsil alması üçün imkanlar; peşə təhsili; ali təhsil; doktorantura kursları; Böyük Britaniyanın ali məktəbləri; universitetlər; ali təhsil kollecləri; Böyük Britaniyada təhsil xərcləri; universitetlərə, institutlara və kolleclərə qəbul olunma proseduraları (qaydaları); Böyük Britaniyada ingilis dili kursları; sizə hansı ingilis dili kursları lazımdır; ingilis dilinin ümumi kursu; imtahanların və ya testlərin verilməsinə hazırlaşmaq üçün kurslar; ixtisaslaşdırılmış ingilis dili kursları; ingilis dili kursları və xüsusi fənlərlə məşğələlər; tətil zamanı ingilis dili; tələbə yataqxanasında yaşamaq; ingilis ailəsində yaşamaq; əlahiddə mənzillər; Böyük Britaniyada yaşayış sahəsi muzdu üzrə bir neçə məsləhətlər; viza alınması.

**Böyük Britaniyada biznes idarəçilik magistrı.** Biznes idarəçilik magistrı menecment üzrə magistrdir, bakalavr dərəcəsindən sonrakı (keçmiş SSRİdəki aspirantura) proqramdır, sonrakı intellektual təfəkkür (əqli) və ya əməli fəaliyyəti nəzərdə tutur. Böyük Britaniyada həmin dərəcənin alınması üçün 100-dən artıq müxtəlif tədris kursları mövcuddur.

MBA proqramları öz növlərinə, müddətinə, tədris formalarına görə müxtəlifdir və distant təhsil də həyata keçirilir. Böyük Britaniyada tam məşğulluğa (əyani təhsil forması) hesablanmış intensiv illik proqramı çox geniş yayılmışdır.

Bakalavr dərəcəsi verilmiş eyni ixtisas üzrə magistr dərəcəsi alınmasına aparan digər tədris proqramları əvvəlki təhsil proqramları ilə müqayisədə fərqli də ola bilər. MBA proqramı qəbul edilərkən, adətən, məcburi tələb olunan bakalavr dərəcəsi istənilən digər ixtisas üzrə alına bilər. MBA kursu

[1] Master of bizness Administration-biznes idarəçilik magistrı
[2] Graduate Managment Admission Test-məzunun idarəediciliyə qəbul imtahanı
[3] Association of MBA-MBA-nın assosiasiyası

yeni və tanış olmayan fənlərin geniş dairəsini əhatə edir və tələbədən böyük iş həcmi (həftədə 70 saata qədər məşğulluq) tələb edir.

Ümumi menecment üzrə standart MBA proqramı ümumi məcburi kursdan ibarətdir ki, bundan əvvəl giriş kursu və fakultətiv fənlər keçilir. Məsələn, əgər tələbənin statistika üzrə baza bilikləri çatmırsa və ya kompyuterə kifayət qədər yiyələnməmişdirsə, onda elə MBA proqramı seçilməlidir ki, statistika, mühasibat və s. fənlərin təlimində kompyuterlərlə fakultətiv kurslar keçirilsin.

Giriş kursu və ya istiqamətlənmə fənləri, adətən, tədris ilinin başlanğıcında həyata keçirilir. Həmin proqram tələbəyə MBA proqramının xüsusiyyətləri, mövzuları ilə tanış olmaq, gələcək kurs yoldaşları və fakültənin ştatı ilə tanış olmaq imkanı verir. O, birinci semestrin əvvəlində bir həftə ərzində keçilir və məcburi hesab edilmir, adətən, onu keçməyi təkidlə tövsiyə edirlər.

**Əsas fənlər.** Giriş kursu qurtardıqdan sonra əsas (baza) kursu gəlir və tələbələri səkkiz əsas fənnin öyrənilməsi üçün zəruri olan prinsip, ümumi anlayış və nəzəriyyələrlə tanış edir. O, ilk on həftəni təşkil edir və ikinci 10 həftəlik semestrdə də davam etdirilir. Əsas fənlərin tədrisində iştirak etmək məcburidir və məktəblərdən bəziləri tələbənin hazır olduğu fəndən azad olunmasına imkan verir.

Əsas MBA kursları aşağıdakı fənlərdən ibarət olmalıdır: maliyyə hesabatı, iqtisadiyyat, informasiyanın idarə edilməsi, təşkilatların (kollektivlərin) davranışı, qərarlar qəbul edilməsi, marketinq, müəssisənin idarə edilməsi. Müxtəlif məktəblərdə kursların adları bir-birindən fərqlənə bilər.

Əsas kursu qurtardıqdan sonra tələbələr əsas fənləri daha yüksək səviyyədə öyrənirlər ki, bu da alınmış fundamental bilikləri dərinləşdirir. Bu mərhələ ikinci semestrdə başlanır, üçüncü semestrdə isə davam etdirilir.

MBA proqramları, ümumiyyətlə, humanitar elmlərin gündən-günə artan əhəmiyyətini nəzərə alır. Tələbələr mühazirə və seminarlarda vahid komanda yaratmaq, danışıqlar aparmaq, səmərəli təqdimat keçirilməsi məharəti, rəhbər olmaq məharəti, motivasiya texnikasını və öz fikirlərini müdafiə etmək bacarığını öyrənirlər.

**Fakultativ fənlər.** Əsas kursların ardınca fakultətiv fənlər gəlir (bəzi hallarda onlar paralel keçilir), tələbə onları maraqlandığı sahədə ixtisaslaşma üçün seçir. Adətən, bütün məktəblər fakultətiv fənlər təklif edir, lakin onların miqdarı və seçimi tələbatdan və ştatda olan mütəxəssis müəllimlərdən asılı olaraq hər il dəyişilə bilər. Ümumiyyətlə, məktəb nə qədər kiçik olursa, onda daha az fakultətiv fənlərin seçimi təklif edilir. Adətən, tələbələr kursun strukturundan asılı olaraq 10-40 sayda təklif olunan fakultətiv fənlərdən 3-8-ə qədərini seçir. Məsələn, fakultətiv fənlər aşağıdakılar ola bilər: beynəlxalq hüquq, qlobal strategiya, sənaye bazarının təhlili, ehtimal nəzəriyyəsi, beynəlxalq maliyyə və kiçik biznesin aparılması.

**Tədris layihəsi və ya dissertasiya.** Üçüncü semestrdə tələbələr, adətən, tədris təcrübəsinə və ya menecment üzrə layihəyə başlayır. Bu təcrübə və ya layihə 2-4 ay davam edir. 400 saat miqdarında dərs hər hansı şirkətdə az miqdarda əmək haqqı ödənilən məsləhətçi işləməkdən və profil fənnini, məsələn, kabel televiziyası bazarını, beynəlxalq banklarda riskin idarə edilməsini və internetdə reklam strategiyasını öyrənməkdən ibarət olur. Təcrübə qurtardıqdan sonra tələbə 10000-15000 söz həcmində dissertasiya yazmalıdır. Beləliklə, mühazirə və seminarlarda öyrəndiklərini işdə tətbiq etmək qabiliyyətinə malik olur.

Dissertasiya üzərində müstəqil işləmək və ya məktəbin müəllimlərindən birinin rəhbərliyi ilə 2-4 nəfərdən ibarət qrupda işləmək olar. Qrupda işləmək fərdi işdən üstün ola bilər, çünki komandada işləmək zəruri vərdişləri inkişaf etdirir.

**Tədris hissəsi və metodlar.** MBA kurslarında tədrisin əsas metodları hamı tərəfindən qəbul edilmiş mühazirələr, qrupda iş, konkret vəziyyətin təhlili və dissertasiya layihəsi olan işdən ibarətdir. Təqdimat (saytlarla, qrafiklərlə və s. açıq çıxışlar), müxtəlif uyğun oyun və kompyuter modelləşməsinin tədrisinin gedişində tətbiq edilə bilər. İnternet, video-konfranslardan və s. istifadə edilməsi gündən-günə daha da genişlənir. Mühazirələr həftədə 16 saat təşkil edir. Bəzi MBA proqramları fənləri birləşdirir, müxtəlif fənlərin öz aralarında əlaqəsini və biznes aləmində qarşılıqlı əlaqəsini özündə təcəssüm etdirir.

Proqrama rəhbərlik edən şəxs məşğələlərin əvvəlində layihələr üzərində birgə işləmək, təqdimatları hazırlamaq və s. kimi məsələləri həll edir. Tələbələri sərbəst işləmək üçün kiçik (3 nəfərdən 10 nəfərə qədər) qruplara bölmək olar. Bəzən tələbələr özləri qruplara bölünür, lakin məktəblərin əksəriyyəti müxtəlif ixtisas və peşə üzrə təcrübə, müxtəlif mədəniyyət və millətlərdən olan tələbələri qarışdırmağa üstünlük verirlər, bu isə tələbənin birinin digərindən öyrənə bilməsinə imkan yaradır. Real həyatda olduğu kimi, tələbənin sərbəst işləməsi yalnız gələcək üçün dünyagörüşlü insanların yetişməsi demək deyil. Tələbə qrupunun vahid komanda kimi nə qədər müvəffəqiyyətlə işləyəcəyi onların özlərindən asılıdır.

Praktikada şirkətin qarşılaşdığı konkret vəziyyət olduqda, o, problemi təhlil etmək, onun həllini bütün qrup qarşısında göstərmək və açıq müzakirədə (diskussiyada) öz məqsədini müdafiə etməyi bacara bilir.

Qrupda uzun müddət ərzində işləməklə yanaşı, tələbələr həm də mütaliə, kollektiv və fərdi tapşırıqları yerinə yetirmək üçün vaxt sərf etməyə məcburdur. Məsələn, bir konkret problemin təhlili və araşdırılması 30 səhifəyə qədər yer tutur və bu, hər gün üçün ev tapşırığının yalnız bir hissəsi ola bilər.

**Attestasiya.** Tələbənin müvəffəqiyyət göstəricisinin qiymətləndirilməsi üçün məktəblərin əksəriyyəti həm ənənəvi imtahanlardan, həm də kurs zaçotlarından istifadə edir. Lakin bəzi məktəblər, ümumiyyətlə, heç bir sınaq

imtahanı keçirmir. Əsas kursun hər bir fənni bir neçə bölmədən ibarətdir, onlar inşa və məruzələr vasitəsilə yekun imtahanda öz əksini tapır. Bir qayda olaraq, imtahanlar birinci semestrin sonunda və ya MBA proqramının birinci mərhələsi qurtaranda keçirilir və hər bölmə üzrə 70% qiymətləndirmə tələb olunur.

Tələbələr fakultətiv fənn üzrə imtahan verə bilər və bu imtahanlar qrup üzrə də keçirilə bilər. Qrupun yerinə yetirdiyi istənilən iş üçün hər tələbənin qiyməti qrupun digər tələbələrinin qiymətlərindən fərqli olur.

Məktəbdən asılı olaraq imtahanlar "açıq dərs" prinsipi üzrə keçirilə bilər, yəni tələbə imtahana fənn üzrə müəyyən tədris materialını özü ilə götürüb biletə cavab hazırladıqdan sonra o sualları kompyuterdə yaddaşa verərək cavab verməyə də bilər.

**Xüsusi MBA proqramları.** MBA proqramlarının əksəriyyəti ümumi xarakter daşıyır və bəzi ixtisaslaşmanı nəzərdə tutan fakultətiv fənləri seçməyi təklif edir. Lakin elə beynəlxalq MBA proqramları var ki, onlar konkret regionun, məsələn, Şimal-Qərbi Asiyanın, Avropanın və ya Yaponiyanın proqramlarının öyrənilməsinə istiqamətlənir: tibb, aqrobiznes və s. kimi sahələrdə ixtisaslaşır. Eyni zamanda əsas fənlərin proqramları ümumi proqramlara oxşardır, lakin onların məzmunu daha çox ixtisas istiqamətində öz əksini tapır.

**Təhsil ödənişi.** MBA kursunun ödənişi məktəbdən və tədris proqramından asılı olaraq 10000-25000 funt sterlinq (1funt-sterlinq 1,6 ABŞ dollarına bərabərdir) təşkil edir. Bundan başqa qidalanma, mənzil haqqının ödənilməsi, biletlər və sair xərclər üçün daha 5000 funt sterlinq tələb olunur.

**GMAT** (Graduate Management Admission Test) MBA kursuna qəbul olmamışdan əvvəl tələbənin analitik qabiliyyətini, ünsiyyət bacarığını və ingilis dilini bilməsini yoxlamaq üçün xüsusi proqram üzrə imtahan verməsi tələb oluna bilər.

MBA ixtisası üzrə tədris proqramlarının daha ətraflı informasiyasını MBA Assosiasiyasından (Association of MBA) almaq olar.

Məktəbəqədər tərbiyə məktəb-körpələr evlərində və məktəbəqədər siniflərdə həyata keçirilir. İbtidai təhsil 5 yaşından 11-12 yaşa qədər olan uşaqları əhatə edir. Uşaqlar 5 yaşından ikiillik məktəblərə, 7 yaşından 11 yaşa kimi ibtidai məktəblərə gedirlər. 11-12 yaşından sonra uşaqlar üçün orta təhsil mərhələsi başlanır.

Böyük Britaniyada XX əsrin ortalarından dövlət orta təhsil sisteminin yenidən təşkili başlanmışdır və indiyə qədər davam edir. Ölkədə tədris proqramları və təhsilin məqsədləri bir-birindən fərqlənən bir neçə tip orta məktəb mövcuddur. Məktəblərin bütün tipləri üçün vahid təhsil verilməsi qanunvericiliklə təsbit edilmişdir. Qanunvericiliklə ödənişsiz məcburi orta təhsil tətbiq edilir və 16 yaşında yekunlaşır. Məktəblərin məzunları buraxılış imtahanları

verir və orta təhsil haqqında sertifikat GCSE[1] alırlar. Həmin sertifikatla müstəqil əmək fəaliyyətinə başlamaq olar, lakin ali təhsil müəssisələrinə qəbul olunmaq hüququ verilmir.

Bəzi rayon və kənd yerlərində köhnə məktəb sistemi saxlanılmışdır. Burada şagirdlər ibtidai məktəbi bitirdikdən sonra test imtahanları verərək üç müxtəlif tip orta məktəblərə bölünürlər: ən istedadlı şagirdlər (20%-ə yaxın) təhsil müddəti 5-7 il olan qrammatika məktəblərinə qəbul olunur, az qabiliyyətli şagirdlər (5%-ə yaxın) təhsil müddəti 5 il, az hallarda 7 il olan texniki peşə məktəblərə paylaşdırılır, qalanları isə (70%-ə yaxın) müasir məktəbdə təhsillərini davam etdirir və 4 il, bəzən 5 il təhsil alırlar. "Müasir məktəb" adı ona görə deyilir ki, orada qədim dillər, latın və qədim yunan dilləri tədris edilir. Yuxarı siniflərdə şagirdlər iki əsas qrupa bölünür, sonra iki müxtəlif proqram üzrə təhsil alırlar: humanitar; riyaziyyat və təbiət elmləri. Orta peşə texniki məktəblərdə ümumtəhsil, ümumtexniki və ibtidai peşə hazırlığı verilir.

Müasir məktəb adi orta təhsil verir. Həmin məktəb proqramının bir çox hissəsi məşğələlərdən ibarətdir. Onun məzunlarının əksəriyyəti tez bir zamanda peşəkarlıq fəaliyyətinə başlayır. Müasir məktəbin istedadlı məzunlarına xüsusi imtahanlar vermək və təhsillərini davam etmək hüququ verilir.

Orta məktəblərin yenidən təşkili, iri şəhərlərdə 11 yaşından 18 yaşa qədər bütün şagirdlər üçün ümumi proqram üzrə təhsil almaq eyni tip vahid məktəblərin açılmasına zəmin yaratdı. Bir çox rayonlarda hamı üçün vahid məktəb ideyası 11-14 yaşlı uşaqlar üçün ibtidai məktəblər, 14-18 yaşlı şagirdlər üçün isə orta məktəblərin yaranmasına səbəb oldu. Bəzi yerlərdə ibtidai və orta məktəblər üç ardıcıl mərhələyə (pilləyə) parçalandı. Burada 8-12 yaşlı və ya 9-13 yaşlı uşaqlar üçün aralıq məktəb tətbiq edilmişdir. Məktəblərin bu cür mərhələliyinin yaranmasının əsas səbəbi aparılan islahatlarda mərkəzləşmiş maliyyələşmənin kifayət qədər olmamasıdır. Orta məktəb məzunlarının biliklərinin səviyyəsini müəyyən edən imtahanların ümummilli sisteminin yaranması məktəblərin tipləri, adları, proqramları və tədrisinin yeniləşməsi üçün çıxış yolu oldu.

**İngilis pansion məktəbi.** Gündüz və axşam orta məktəbləri ilə yanaşı, Böyük Britaniyada pansion məktəb sistemləri də geniş yayılmışdır. Belə məktəblərdə uşaqlar bütün il boyu yaşayır, təhsil alır və evlərinə yalnız tətil vaxtı qayıdırlar. İşləri tez-tez səfərlərlə əlaqədar olan ingilislər: hərbçilər, diplomatlar, iş adamları, ticarət agentləri və bir çox digər şəxslər bu və ya digər səbəblərdən öz uşaqlarına kifayət qədər vaxt ayıra bilmir və uşaqlarını məmuniyyətlə xüsusi pansion məktəblərinə qoyurlar. Öz uşağı üçün mürəbbiyə və müəllim tutmaq imkanı olan valideynlər də imtiyazlı pansionların xidmətlərindən istifadə etməyə üstünlük verir. Pansionların geniş şəbəkəsi uzun müddətdir ki, fəaliyyətdədir və adi məktəblər şəbəkəsi kimi ənənəvidir.

---

[1] General Certificate of Secondary Education - əsas orta təhsil şəhadətnaməsi

İngilis pansionlarının əsas məqsədi hərtərəfli dünyagörüşlü şəxsiyyət yetişdirməkdir. Məktəbin əsas fənləri olan idman, incəsənət, riyaziyyat və təbiət elmləri tədris planında üzvi surətdə birləşmişlər. Bu plan on illər ərzində formalaşmış, uzun müddət sınaqdan çıxmış və fasiləsiz təkmilləşərək davam edir.

Böyük Britaniyada pansionların iki tipi – özəl və dövlət pansionları mövcuddur. Ümumiyyətlə, 5 yaşından 11 yaşa qədər uşaqların tərbiyə və təhsili ilə özəl pansion məktəbləri məşğul olur, dövlət pansion məktəbləri isə çox azdır. 11 yaşdan yuxarı yeniyetmələr üçün həm özəl, həm də dövlət pansionları geniş yayılmışdır. Dövlət pansion məktəblərinə ümumi rəhbərliyi STABIS xidməti həyata keçirir. Bu məktəblərə yalnız müsabiqə yolu ilə və ya təqdimatla düşmək olar. Lakin pansionların əksəriyyəti ümumi tiplidir və praktik olaraq istənilən şəxs qəbul oluna bilər. Xüsusi tibbi yardıma ehtiyacı olan uşaqlar üçün ixtisaslaşdırılmış pansion məktəblər də var. Həm özəl, həm də dövlət pansionları arasında oğlan və qız məktəbləri, eyni zamanda qarışıq məktəblər geniş yayılmışdır. Müxtəlif ailələrdə uşaqların tərbiyəsinə və təhsilinə müxtəlif cür yanaşılır. Bəzi valideyinlər oğlan və qızların fərdi təhsil almasını, bəziləri isə qarışıq məktəbdə təhsil almasını üstün tutur.

Dövlət pansionlarında Böyük Britaniya vətəndaşları üçün təhsil ödənişsizdir, yaşamaq və qidalanmaq xərclərinin bir hissəsini dövlət öz üzərinə götürür. Odur ki, dövlət pansionlarında müxtəlif sosial təbəqələrdən olan uşaqlar təhsil alır. İngilislərin bir çoxu buna üstünlük verir. Burada uşaqlar geniş dairədə dostlar tapırlar ki, bu da onların sonrakı müstəqil həyatında heç də faydasız olmur. Tədris proqramları hökumət tərəfindən təsdiq edilir və istənilən özəl və ya dövlət pansionu üçün məcburidir.

Dövlət pansionlarının bir hissəsi də qapalı tipli məktəblərdir, yəni orada yalnız pansionda yaşayan uşaqlar təhsil alırlar. Burada pansionlar üçün səciyyəvi olan təhsilin və tərbiyənin bütün üstünlükləri tam şəkildə təzahür olunur. Digər dövlət pansionları açıq tipli məktəblərdir, yalnız pansionda daimi yaşayan uşaqlar deyil, həm də hər gün evlərinə qayıdan uşaqlar da təhsil alır. Bu təhsil müəssisələrində pansionun üstünlükləri sistemin açıqlığı və həmyaşıdlarla daha geniş ünsiyyət imkanları ilə tamamlanır. Özəl pansionlar (az istisna ilə) qapalı tipli məktəblərdir. Müxtəlif tipli pansionların olması, valideyinlərə uşaqları evdən uzaqda təhsil alması üçün ən əlverişli variantı seçmək imkanı verir.

Qeyd edildiyi kimi, bir çox özəl pansionlar uşaqları 5 yaşından başlayaraq qəbul edirlər. Dövlət pansionlarının çoxu yeniyetmələri 11 yaşından sonra, bəziləri isə 13 və 14 yaşından qəbul edir. Son on il ərzində 16 yaşından yuxarı gənclər üçün pansion kollecləri geniş yayılmışdır. İngilislər hesab edirlər ki, həmin yaşda ailədən kənarda yaşamaq, təhsil almaq gənc oğlan və qızların evdən kənarda müstəqil universitet həyatına və ya işləməyə hazırlaşmasına kömək edir. Burada gənclər mürəbbiyələrin nəzarəti altında orta təhsilini bitirir, universitetə hazırlaşır, yaxud peşəkarlıq vərdişləri alır, eyni zamanda

özünə inam, məqsədə çatmaq üçün çalışmaq və kollektivdə fəaliyyət qabiliyyəti kimi peşə karyerası üçün əsas olan keyfiyyətlər əldə edir.

Məktəblərin öz kitabxanaları, kompyuter otaqları, idman zalları, oyun meydançaları, emalatxanalar, laboratoriyalar, müstəqil məşğul olmaq və istirahət üçün otaqları var. Şagirdlər asudə vaxtlarda maraqları üzrə müxtəlif idman seksiyalarında və klublarda birləşirlər. Təcrübəli müəllimlər onların fəaliyyətlərinə diqqət verərək ümumməktəb tədbirlərinə və idman yarışlarına hazırlaşmaqda bu imkanlardan istifadə edirlər. Pansion məktəblərində bütün gün ərzində işləyən peşəkar tibb bacıları olan tibb kabinələri var. Adətən, məktəblərin yerli həkimlərlə müqavilələri olur. Onlar uşaqları müntəzəm olaraq tibbi müayinədən keçirirlər. Günün istənilən vaxtı həkimlər çağırışa gəlir və uşaqlara zəruri tibbi yardım göstərirlər.

11-12 yaşından böyük uşaqlar üçün pansion məktəblərin məqsədi orta təhsil verməkdən və məzunları bizim natamam orta təhsil haqqında attestatımıza uyğun sertifikat almağa hazırlamaqdan ibarətdir. On iki yaşından böyük uşaqlar orta məktəbdə təhsilini beş il davam etdirir və ya uşaqlar orta məktəbin altıncı sinfinə qəbul olunaraq 18 yaşında təhsillərini sona çatdırır. Məhz həmin yaşdan başlayaraq Britaniya universitetlərinə qəbul olunmaq mümkündur. Altıncı sinfin məqsədi şagirdlərə əlavə olaraq ümumtəhsil fənlər üzrə biliklər vermək və onları kollec və ya universitetlərdə təhsil almağa hazırlaşdırmaqdan ibarətdir. Pansion məktəblərin məzunları altıncı sinfi bitirdikdə GCE/A Level səviyyəsinə uyğun imtahan verirlər. GCE/A Level sertifikatı bakalavr dərəcəsi almaq və təhsillərini davam etdirmək üçün zəruri şərtdir.

**Britaniyanın orta məktəblərində əcnəbilərin təhsil alması üçün imkanlar.** Dövlət məktəbləri ödənişsizdir, Böyük Britaniyada daimi yaşamaq hüququ olan 8 yaşından 18 yaşa qədər ingilis uşaqlarının, habelə valideynlərinin təhsil almasına icazə verilir.

Beynəlxalq kolleclər yalnız 14 yaşından 18 yaşa qədər əcnəbi şagirdləri qəbul edən orta təhsil məktəbləridir və şagirdlərə kolleclərin yataqxanalarında (məktəbin ərazisində) və ya ailələrdə yaşamaq təklif olunur. Akademik illik ödəniş 18000 dollardan başlayır. Beynəlxalq kolleclərdə təhsil ingilis orta məktəbi proqramı üzrə aparılır. Bu fənlər riyaziyyat, fizika, kimya, biologiya, geofizika, insan anatomiyası, sosiologiya, politologiya, qanunvericiliyin əsasları, statistika, tarix, musiqi, təsviri incəsənət, kompyuter və proqramlaşdırma, ingilis dili, ingilis dili və ədəbiyyat, dinin əsasları, bir və ya bir neçə xarici dil (fransız, alman, ispan və s.) tədris edilir. Əsas fənlərlə yanaşı, hər məktəbdə əlavə fənlər keçilir, məsələn, latın dili, mühasibat işi, biznesin əsasları, iqtisadiyyat və s.

Beynəlxalq kolleclərin bir çoxunda universitetlərə qəbul olmaq üçün birikiillik hazırlıq kursları da vardır. Məzunlar kursları müvəffəqiyyətlə bitirdikdən sonra həmin kursların statusunu qəbul edən, aralarında razılaşma olan universitetlərə daxil olurlar. Böyük Britaniyada ali təhsil almaq istəyən

əcnəbilər üçün bu çox əlverişli imkandır. Tədris proqramlarının (və ya kursların) bir xüsusiyyəti də ingilis dilinin məcburi fənn olmasıdır.

İngilis dilini yüksək səviyyədə bilmək haqqında sertifikat olmadıqda heç bir universitet və ya institut təhsil almaq üçün əcnəbiləri qəbul etmir. Universitetlərə qəbul olmaq üçün baza kurslarında ingilis dilində birillik təhsil almaq böyük təcrübə və hazırlıqdır, yəni dil üzrə zəruri imtahana hazırlaşmaq və imtahan vermək üçün əlverişli imkandır.

Özəl məktəblərə 8 yaşından 18 yaşa qədər uşaqlar götürülür. Bu məktəblərdə ingilis uşaqları üçün 85% yer ayrılır. Bu məktəblər əcnəbi tələbələr üçün daha nüfuzlu təhsil formasıdır. Nüfuzlu özəl məktəblərin müstəqil tədris kompleksi var. Onların mülkiyyətində 100-150 hektar sahə olur, burada tədris korpusları, idman ləvazimatları, üzgüçülük hovuzları və yaşayış malikanələri yerləşir. Tələbələr əsas etibarilə yataqxanalarda yaşayır, lakin bəzi məktəblər isə yerli ailələrdə yaşamağı təklif edirlər. İllik ödənişin qiyməti 23000 dollardan başlayır.

Dövlət və özəl pansionlar arasında çox yüksək səviyyədə şöhrət qazanan qədim tarixə və ənənələrə malik xeyli məktəblər var.

**Peşə təhsili.** Böyük Britaniyada müxtəlif cür məktəblərlə yanaşı, peşə məktəbləri də var və onlar A Level proqramları üzrə təhsilə alternativdir. Peşə təhsili, bir qayda olaraq, sonrakı peşə fəaliyyətini nəzərdə tutur və universitetə qəbul olunmaq üçün hər yerdə tanınmış və daha universal olan A Level proqramlarından fərqlənir. Təhsil proqramları daim dəyişilir. Həmin proqramları öyrənib qurtardıqda verilən ixtisaslar da dəyişilir. Ən çox rast gəlinən peşə ixtisasları aşağıdakılardır:

NVQ[1]. Bu ixtisas tam əməli iş üçün yararlıdır. Alınan ixtisas təsdiq edir ki, sizin bu və ya digər biznes və ya istehsal sahəsində müəyyən işi yerinə yetirmək qabiliyyətiniz var. NVQ standartları iş verənlərin real tələblərinə əsaslanır və onların əməli ehtiyaclarını əks etdirir. Hazırda NVQ ixtisasına istehsal və kommersiya sahiblərinin əksəriyyətinin ehtiyacı var. NVQ 5 mərhələdən ibarətdir, (NVQ1)-dən başlayır və professional (NVQ5)-də qurtarır. Bu ixtisası almaq üçün müəyyən edilmiş standartlara uyğun işçi praktikada öz bacarığını göstərməlidir. Tədris bilavasitə iş yerində keçilir. Əməli iş təcrübəsini və onu müvafiq səviyyədə yerinə yetirmək bacarığını sübut etməklə ixtisas almaq imkanı olur. Tədris proqramı ayrı-ayrı modullardan ibarətdir və onları sərbəst mənimsəmək olar. Proqramın yerinə yetirilməsi üçün təhsil müddəti müəyyən edilməmişdir.

GNVQ. A Level-dən fərqli olaraq akademik deyil, əməli fəaliyyətlə məşğul olmağa meyilli olanlar üçün yararlıdır. GNVQ də NVQ kimi çox tanınmış və nüfuzlu ixtisasdır, seçilmiş ixtisasda biliklərin əsasını verir, yəni şagird kollecdə öz təhsilini davam etdirmək, universitetə qəbul olunmaq və ya

[1] National Vocational Qualification-Milli peşəkarlıq səviyyəsi

işlə təmin edilmək üçün istifadə edə bilər. GNVQ Advanced səviyyəsində bilik əldə etmək üçün iki il təhsil almaq lazımdır.

**ND**[1]. Bu ixtisas GNVQ Advanced ixtisasları ilə oxşardır. Çoxsaylı təhsil kollecləri sonrakı təhsil proqramını keçməyə imkan verir və buraxılış imtahanlarından sonra ali milli diplom verilməsi ilə yekunlaşır. Bu isə əslində istənilən akademik və ya peşə ixtisası üzrə ikiillik təhsildən sonra alına bilər.

Peşə təhsili müəssisələrində üç əsas təhsildən birinin verdiyi diplomlar: CGLİ (City and Guild of London İnstitute) diplomu, RSA (Royal Society of Arts) diplomu, BTEC (Business and Technical Education Council) diplomu yüksək səviyyədə qazandığı nüfuza görə tanınır. Bir çox kolleclərin göstərdiyimiz təhsil müəssisələrinin adından diplom vermək səlahiyyəti var. Bakalavr dərəcəsini davam etdirməyənlər, yəni peşə fəaliyyətini davam etdirməyi qərarlaşdıran şəxslər üçün HND diplomu böyük əhəmiyyət kəsb edir. Belə diplomu olan məzunun peşə səviyyəsi böyük texnik və ya kiçik menecerdir. Peşəkarın diplomunun nüfuzu firmanın və ya hər hansı bir müəssisənin rəhbər heyəti səviyyəsində pillələr üzrə yüksəlmək imkanına malikdir.

HND diplomu bakalavr dərəcəsi səviyyəsində olan universitetə qəbul olunmaq və iki il ərzində bu dərəcəni almaq imkanını verir.

Ümumiyyətlə, HND proqramlarını mənimsəmək üçün GCE/A Level və ya GNVQ Advanced və ya "National Diploma" kimi nüfuzlu orta təhsil sertifikatı olmalıdır.

Böyük Britaniyada sonrakı təhsilin davam etdirilməsinə dərəcə və ya ona ekvivalent olan proqramlar üzrə GCE/A Level (və ya GNVQ) sertifikatı aldıqdan sonra icazə verilir. Bir qayda olaraq, bu peşə təhsilidir. Böyük Britaniyada ali təhsilin məqsədi uyğun proqramlarla dərəcələrin verilməsidir: bakalavr, magistr və fəlsəfə doktoru dərəcəsi.

**Ali təhsil.** Böyük Britaniyanın ali təhsil müəssisələri əcnəbilərin təhsil almasına görə uzunmüddətli tarixə və qədim ənənələrə malik ölkədir. Bu gün İngiltərə, Şotlandiya, Uels və Şimali İrlandiyanın iki yüz ali təhsil müəssisələrində 65 mindən artıq əcnəbi tələbə təhsil alır. Sual olunur, nə üçün çox sayda əcnəbi tələbə təhsil almaq üçün Böyük Britaniyanı seçir? Britaniya təhsili beynəlxalq səviyyəli ixtisas verir və fənlər üzrə geniş dairədə ən yüksək keyfiyyətə malikdir. Tədris səviyyəsi çox yüksəkdir və tələbələrin 90%-dən çoxu universitet və institutları müvəffəqiyyətlə bitirir.Əsas üstünlüklərdən biri də əldə olunan təhsillə paralel olaraq ingilis dilini bilmək səviyyəsini təkmilləşdirməkdir. Böyük Britaniyada ingilis dilini və tədris olunan fənləri bilməklə yanaşı, təfəkkürün (əqli) inkişafı və biznesə yanaşma məharətinin dərindən dərk edilməsi təmin edilir.

Bakalavr dərəcəsi almaq üçün İngiltərədə və Uelsdə üç il, Şotlandiyada dörd il təhsil almaq tələb olunur. İstənilən dərəcəni almaq üçün təhsillə

[1] National Diploma-Milli diplom

yanaşı, həm də istehsalat təcrübəsi tələb olunur, bu halda ümumi müddət müvafiq surətdə artırılır. Bəzi universitet və kolleclərdə isə xüsusi tələblər var, məsələn, incəsənət və dizayn kimi sahələrdə elmi dərəcə alma nəzərdə tutan tələbədən əvvəlcə əsas kursu keçmək, sonra bu sahədə üç il işləmək tələb olunur.

Tibb, stomatologiya və memarlıq kimi sahələrdə bakalavr dərəcəsi verilməsi ilə yekunlaşan təhsil kursu çox uzun müddətə, yəni yeddi ilə qədər davam edə bilər.

**Bakalavr dərəcəsi.** Böyük Britaniyada verilən bakalavr dərəcəsinin bir neçə tipi vardır, onların adları təhsilin istiqamətlərindən asılıdır. Dörd əsas dərəcə mövcuddur: incəsənət, elm, mühəndislik və hüquq sahələrində bakalavr. Bakalavr dərəcəsi universitetin və ya kollecin gündüz şöbəsində ixtisaslaşdırılmış proqramlar üzrə üç və ya dördillik təhsil aldıqdan sonra verilir. Bu dərəcə özəl və ya dövlət şirkətlərində, sənaye müəssisəsində orta mühəndis-texnik, orta rəhbər mövqe tutmaq və ya özəl işə (hüquqşunas, həkim və s.) başlamaq imkanı verir. Bakalavr dərəcəsi olduqda müəyyən vaxtdan sonra xidməti sahədə xeyli irəliləməyə ümid etmək olar. Bu dərəcə dünyada tanınır, bu isə istənilən ölkədə müvəffəqiyyətli peşə karyerası üçün yüksək şanslar verir. Bakalavr dərəcəsi həmçinin növbəti dərəcənin, yəni sonrakı magistr və doktor dərəcəsi almaq üçün təhsilin davam etdirilməsinin zəruri şərtidir. Bakalavr dərəcəsi ali təhsilin birinci mərhələsidir (pilləsidir). Ümumiyyətlə, həmin təhsil səviyyəsinə qəbul olunmaq üçün təkmilləşdirilmiş yüksək səviyyəli orta təhsil sertifikatına və ya ixtisas dərəcəsinə malik olmaq lazımdır.

Magistr və doktor dərəcələri bakalavr dərəcəsi aldıqdan sonra başlanır.

**Magistr dərəcəsi.** Magistr dərəcəsi almaq üçün tədris proqramının iki böyük istiqaməti var: bunlardan biri tədqiqat işinə istiqamətlənmiş proqram, ikincisi isə, bir ixtisas üzrə peşəkarlıq səviyyəsinin yüksəldilməsinə istiqamətlənmiş proqramdır. Magistr tədris proqramları aşağıdakı kimi təşkil edilmişdir: 8–9 aylıq mühazirə və seminarlardan sonra imtahanlar verilir, sonra isə 3–4 ay ərzində diplom layihəsi hazırlanır. İmtahan və diplom işinin müdafiəsinin nəticələri əsasında magistr dərəcəsi verilir.

Magistr dərəcəsini çox zaman fəlsəfə magistrı adlandırırlar. Bu dərəcəni almaq üçün 1-2 il ərzində yüksək səviyyəli professor-müəllim heyətinin rəhbərliyi altında elmi-tədqiqat işi hazırlanır. Həmin tədqiqatın nəticələrinə görə magistr dərəcəsi verilir. Bir qayda olaraq, tələbə təhsilini yekunlaşdırmır, doktor dərəcəsi almaq məqsədi ilə öz tədqiqat işini davam etdirir.

**Doktor dərəcəsi.** Böyük Britaniyada doktor dərəcəsi almaq üçün proqramların əksəriyyəti sırf elmi-tədqiqat layihələridir. Bu pillədə heç bir mühazirə və seminar aparılmır. Elmi rəhbər doktorant üçün öz laboratoriya və ya kafedrasında doktorluq mövzusunu müəyyən edir və tədqiqat üçün lazımi imkanları (iş yerini, ləvazimatları və materialları) təmin edir. Adətən, elmi-tədqiqat proqramlarının yekunlaşmasına 2-3 il vaxt sərf edilir. Həmin dövrün

sonunda doktorant aldığı nəticələri rəsmi hesabatlarda, elmi jurnallarda çap etdirməli və çap olunmuş materiallar üzrə dissertasiya yazmalıdır. Doktor dərəcəsi dissertasiya müvəffəqiyyətlə müdafiə edildikdən sonra verilir.

**Böyük Britaniyanın ali təhsil müəssisələri.** Böyük Britaniyanın universitetləri və kollecləri ali təhsil proqramına geniş yer verir. Britaniya universitetlərində məşğələlər əsasən mühazirələr, seminarlar və tyutorlar (nəzərdə tutulan 2-10 tələbə ilə fərdi-qrup şəklində tyutorla həftədə bir dəfə keçirilən təhsil metodu) formasındadır. Əsas diqqət ancaq seçilmiş sənəd (peşə) çərçivəsində deyil, həm də sərbəst tədqiqat işinə və müstəqil çalışmaların tərtib edilməsinə verilir.

Böyük Britaniyada dərs ili oktyabrda başlayır və iyunda sona çatır. Böyük Britaniyada ali təhsil sistemi mərhələlərinə görə üç pilləlidir və özündə aşağıdakı dərəcələri birləşdirir:

Birinci ali təhsil bakalavr pilləsidir və təhsil müddəti üç ildir. Bu pilləni müvəffəqiyyətlə bitirdikdən sonra məzunlar humanitar və ya təbiət elmləri üzrə bakalavr dərəcəsi alırlar.

İkinci ali təhsil pilləsi magistratura pilləsidir, daha dar ixtisaslaşdırılmış bu pilləyə bakalavr dərəcəsi olan universitet və kollec məzunları daxil olur. Təhsil müddəti bir-iki ildir. Bu pilləni bitirdikdən sonra müəyyən olunmuş sahədə magistr dərəcəsi verilir.

Magistr proqramı əsasən iki növdən ibarətdir:

Magistratura Taught program:

Hümanitar elmləri magistri

Dəqiq elmləri magistri

Hüquq elmləri magistri

Təhsil magistri

Magistratura Research program:

Fəlsəfə elmiləri magistri

Tədqiqat üzrə hümanitar elmləri magistri. Dəqiq elmlər magistri.

Tədqiqat magistri.

Təhsilin üçüncü pilləsi doktoranturadır, fəlsəfə doktoru. Doktoranturaya magistraturanı bitirənlər daxil olurlar və bu uzun müddətlidir. Universitetdə təhsil müddəti 3-4 ildir.Doktor dərəcəsi almaq üçün ciddi tədqiqat işləri aparmaqla dissertasiya işi hazırlanmalıdır.

Bakalavriata daxil olmaq üçün aşağıdakılar vacibdir:

1. Ölkə ali məktəblərində müvafiq ixtisas üzrə iki kurs bitirmək və Böyük Britaniyada Foundation və ya A-Level proqramı üzrə təhsil almaq;

2. İELTS 6.0 – 6.5 nəticəsinə malik olmaq, İELTS səviyyəli 6.5-dən az olan bütün namizədlər şərti qəbul olunur və ya qəbul olmurlar. Qanun, linqvistika kimi magistratura proqramları, yüksək rəqabəti olan universitetlərə daxil olarkən, məsələn Uorvika universitetində "İqtisadiyyat" üzrə adətən İELTS 7.0 və daha yüksək nəticə tələb edir;

3. Ümumiyyətlə, minimum bir il iş təcrübəsi tələb olunur;
4. İqtisadiyyat və maliyyə sahəsində ixtisaslara daxil olmaq üçün bəzən GRE/GMAT verilməsi tələb olunur;
5. Essenin və zəmanət məktublarının yazılma keyfiyyətinə böyük əhəmiyyət verilir.

Böyük Britaniyanın hər bir ali məktəbi sənədlərin verilməsi üçün öz müddətlərini göstərirlər. Son sənəd vermə müddəti seçilmiş məktəbdən və dəqiq ixtisasdan asılıdır, bununla belə nüfuzlu (yüksək rəqabətli) ixtisaslara sənədlərin verilməsi daha uzun müddətlidir. Oktyabrda başlanan dərs üçün sənədlərin verilməsinin orta müddəti mart ayına (bəzən yanvara) kimidir.

Ali təhsili universitetlərdə və ya ali təhsil kolleclərində almaq olar. Bu təhsil müəssisələrinin hər biri ya öz adından və ya nəzdində olduğu tanınmış milli müəssisənin adından dərəcələr və diplomlar vermək hüququna malikdir.

Britaniya universitetlərinə qəbul olunan MDB tələbələri üçün çoxlu imkanlar var. Onlar Britaniyanın ümumtəhsil məktəblərindən birinə qəbul olunmaq və yuxarıda göstərilmiş sertifikatlardan birini almaq imkanına malikdir. Nüfuzuna görə və müəyyən ənənələrdən asılı olaraq universitetlər sertifikat vermək üçün imtahanlara müxtəlif tələblər qoyur. İkinci imkan beynəlxalq standartlara malik proqramlardır.

Başqa bir imkan isə Şotlandiya universitetlərində təhsil almaqdır. Şotlandiya universitetlərinin bir çoxu MDB ölkələri attestatını öz sertifikatı ilə bərabər qəbul edir. Buna görə də bu universitetlərə qəbul olunmaq üçün orta məktəbi bitirdikdən sonra orta məktəb təhsilinin tələb olunan səviyyəsini və ingilis dilini zəruri səviyyədə bilmək kifayətdir.

MDB tələbələri üçün Böyük Britaniyanın ali məktəblərinə qəbulun başqa bir yolu da var. Bir çox beynəlxalq kolleclər Britaniya universitetləri ilə birlikdə əcnəbilər üçün xüsusi hazırlıq proqramları təklif edir. Belə hazırlıq proqramlarının müddəti altı aydan bir ilə qədər ola bilər. Bu proqramlar bir il müddətində müvəffəqiyyət qazanmağa imkan verir. Həmin proqramlar bəzi universitetlərlə əlaqəli olur və onlara zəmanət verir.

**Universitetlər.** Bütün universitetlər üçün səciyyəvi olan bir sıra mühüm ümumi xüsusiyyətlər var. Onların hamısı öz xüsusi dərəcələrini verir, məsələn, Şeffild Universitetinin fəlsəfə doktoru və ya London Universitetinin tibb bakalavrı. Onlarda tədris prosesi həm təhsil, həm də elmi-tədqiqat proqramları üzrə həyata keçirilir, sonra isə elmi dərəcələr verilir. Universitetlərdə bakalavr dərəcəsi aldıqdan sonra magistr və doktor dərəcəsi proqramları üzrə təhsili davam etdirmək olar. London Universiteti kimi böyük universitetlər öz daxilində kolleclərə bölünür. Bu kolleclər universitetlərin bir hissəsi olaraq müəyyən ixtisaslar üzrə təhsil verir.Universitetlərin tərkibində abituriyentlərin proqram üzrə hazırlanması, tələbələrin ixtisas səviyyəsinin yüksəldilməsi, əcnəbilər üçün ingilis dilinin tədrisində ixtisaslaşan kolleclər seçilib ayrılır. Universitetlər fakültələrə bölünür, hazırlıq şöbələri və dil kursları isə kollec adlanır.

**Ali təhsil kollecləri.** Ali təhsil kollecləri həm əsas fənlər üzrə (elm və mühəndis ixtisasları, biznes), həm də peşə fənləri üzrə (məsələn, yeməkxana işi, geodeziya və s.) tanınmış milli dərəcə və diplom verir. Kolleclərdə, adətən, ali milli diplom (peşəkarlıq ixtisası) verilir. Proqramlar üzrə təhsil bakalavr dərəcəsi üçün almaq imkanı verir. Kollecləri müvəffəqiyyətlə bitirmiş məzunlara diplom verməklə bir və ya bir neçə ixtisaslaşdırılmış kurslara əsaslanaraq, bilikləri təsdiq edən rəsmi sertifikat verilir. Kollecləri qurtaran bakalavrlara az hallarda magistratura təklif edilir və adətən heç vaxt doktorantura təklif olunmur. Kolleclərin bir çoxunun xüsusi hazırlıq kursları var. Hazırlıq kursunu müvəffəqiyyətlə bitirdikdən sonra bakalavr dərəcəsi almaq üçün məzunlar imtahan vermədən universitetlərə daxil olurlar.

**Böyük Britaniyada təhsil xərcləri.** Böyük Britaniyada əcnəbi tələbələr üçün təhsil xərcləri aşağıdakı kimidir: təhsilin özünün qiyməti, kitabların, dərslik və dərs vəsaitlərinin qiyməti, yaşayış və qidalanma üçün xərclər, geyim, nəqliyyat, kommunal xidmətləri və əyləncələr üçün xərclər.

Təhsil müəssisəsindən və seçilmiş ixtisasdan asılı olaraq təhsilin qiyməti çox fərqlidir. Məşğələləri auditoriyada aparmağa imkan verən proqram üzrə təhsil xərci ildə 5000-7000 funt sterlinqdir. Praktik məşğələlər aparılan ixtisaslar üçün birillik təhsil 7000-9000 funt sterlinqə başa gəlir. Tibb ixtisasları üzrə təhsil xərci bahadır, yəni ildə 14000-16000 funt sterlinqdir.

Yaşayış və qidalanmaya ayda orta hesabla 300 funt sterlinqdən artıq xərclənir, tədris ili (9 təqvim ayı) ərzində təxminən 2700 funt sterlinq təşkil edir. Digər xərclər ildə təxminən 1100 funt sterlinq təşkil edir, kitablar və tədris vəsaiti 300 funt sterlinqdən artıq qiymətlənir. Nəticədə universitetlərdə bir təhsil ilində xərc (aviabilet xərci daxil olmadıqda) ən azı 8-10 min funt sterlinqə başa gəlir.

Maraqlı cəhətlərdən biri magistr və doktor dərəcəsi alarkən elmi rəhbərlərin köməyi ilə, adətən, təqaüd (stipendiya) və təhsil, yaşayış və qidalanma üçün minimal xərcləri ödəyən kiçik qrant tapmaq mümkün olur. Doktorluq proqramı üzrə tədqiqatlar aparan əcnəbi tələbələrin yaşadıqları bütün müddət ərzində Böyük Britaniyada işləmək üçün rəsmi icazəsi olur.

**Universitetlərə, institutlara və kolleclərə qəbul olunma qaydaları.** Böyük Britaniyanın istənilən təhsil müəssisəsinə qəbul olunma qaydası eynidir. Qəbul qaydaları universitetlərin, institutların və kolleclərin qəbul komissiyalarına göndərilən məktublardan başlanır. Məktubda nə maraqlandırırsa, ətraflı şərh etmək və özünüzün təhsil səviyyəsinin qısa xarakteristikasını vermək lazımdır. Qəbul komissiyasından sizə anket və ərizə blankları, sizi maraqlandıran proqramlar üzrə tam informasiyaya malik bukletlər göndəriləcək. Əgər akademik il və ya semestr müddətində proqramlardan biri üzrə natamam təhsil kursu keçmək, hər hansı ixtisas üzrə bir və ya bir neçə kursu dinləmək istəyirsinizsə, onda qəbul olunmanız haqqında qərarı təhsil müəssi-

səsinin müdiriyyəti həll edir. Buna görə də doldurulmuş ərizə blankları və bütün digər zəruri sənədlər bilavasitə təhsil müəssisəsinə göndərilir.

Maraqlandığınız təhsil kursunu seçdikdə, təhsil müəssisəsi tərəfindən onun səmərəli öyrənilməsi üçün hansı imkanları təklif etməsinə diqqət yetirmək lazımdır. Bu halda əsas xərc avadanlıq və universitetin kitabxanasından istifadə olunan kitablara sərf olunacaq.

Hansı təhsil pilləsinə qəbul olunmaq, diplom və ya bakalavr dərəcəsi almaq (yəni seçdiyiniz ixtisas üzrə tam təhsil proqramını bitirmək) istəyirsinizsə, əvvəlcə sizi maraqlandıran bir neçə təhsil müəssisəsinə müraciət etmək lazımdır ki, tədris proqramını, qəbul qaydalarını və əcnəbi tələbələr qarşısında qoyulan tələbləri ətraflı təsvir edən kitabçalar əldə edəsiniz. Sizi maraqlandıran tədris müəssisələrini (6-dan çox olmamaqla) seçdikdən sonra universitet və kolleclərin qəbul xidmətləri ünvanına anketlərlə sifariş göndərmək lazımdır. Bu xidmət ölkə miqyasında tədris yerlərinin paylaşdırılmasını bir-biri ilə bağlayır. Anketləri doldurmaq üçün universitet və kolleclərin qəbul xidmətləri kitabçası lazım olur, orada anketlərin doldurulması qaydaları ətraflı izah edilir. Onu anketlərlə birlikdə sifariş etmək olar.

Doldurulmuş anketlər, özünüz barədə məlumatlar, 12 funt sterlinq ödənilməsinin təsdiqi universitet və kolleclərin qəbul xidmətlərinə göndərilir. Universitet və kolleclərin qəbul xidmətləri sifarişləri sentyabrın birindən başlayaraq sənədləşdirir. Anketləri mümkün qədər tez göndərmək lazımdır. Anket qəbulunun sonuncu günü dekabrın 15-dir.

Universitet və kolleclərin qəbul xidmətlərinə göndərilən birinci məktubla birlikdə, həm də seçdiyiniz tədris müəssisəsinin anketi doldurulur və ali təhsil müəssisəsinə göndərilir. Anketin təhlili əsasında ali təhsil müəssisəsinin rəhbərliyi birinci kursa qəbul olunmaq üçün hansı imtahanların verilməsi haqda lazım olan məlumatları verir. Ali məktəbdən və proqramdan asılı olaraq imtahanlara tələbatlar fərqlənə bilər. Bir qayda olaraq ingilis dilini hansı səviyyədə bilmək və təhsil səviyyəsinin qiymətləndirilməsi ilə bağlı imtahan vermək lazımdır. Hansı imtahanların verilməsi konkret olaraq ali məktəbin qəbul komissiyası tərəfindən həll olunur. Bir çox hallarda ingilis dilinin hansı səviyyədə yoxlanılması imtahanını müvəffəqiyyətlə vermək kifayət edir. İngilis dilinin yoxlanılması imtahanı Böyük Britaniyanın beynəlxalq imtahan xidmətləri tərəfindən işlənib hazırlanmışdır. Bu imtahan sertifikat tələb olunan əcnəbi tələbələrin ingilis dilini mənimsəməsini müəyyənləşdirir. İmtahanın nəticələrinə əsasən, abituriyentin Böyük Britaniyanın, Avstraliyanın və ya ingilis dilində tədris olunan digər təhsil müəssisələrində seçdiyi ixtisas üzrə qabiliyyət imtahanı barədə rəy verilir.

Britaniya universitetlərində magistr və ya doktor dərəcəsi almaq istədikdə ixtisas üzrə mütəxəssislər hazırlayan konkret kafedra (şöbə) ilə də sənədləşmə aparmaq lazımdır. Magistr və doktor dərəcəsi proqramları əsas etibarilə tələbələrin müstəqil tədqiqat fəaliyyətinə istiqamətlənir. Odur ki, burada

professorların həvəslə konkret tədqiqatlar aparması üçün yeni tələbələrin maraqlı olması rol oynayır. Bir çox hallarda isə ali təhsil diplomu təqdim olunur və ingilis dilindən biliyi qiymətləndirən testlərdən birini vermək lazımdır.

Universitetlərə qəbul haqda qərar çıxdıqdan sonra universitet (kollec) tələbəyə rəsmi məktub göndərir. Böyük Britaniyaya uzunmüddətli viza almaq mümkün deyil, məktubu alana qədər gediş sənədlərini, sığortanı rəsmiləşdirmək, biletləri qabaqcadan almaq və s. üçün hər hansı addımları atmaq məsləhət görülmür. Universitet haqda informasiya almaq üçün mümkün qədər tez, yəni qəbuldan bir-iki il əvvəl müraciət etmək lazımdır. Əgər orta məktəbi hətta bir il sonra bitirəcəksinizsə və attestatınızda alacaq qiymətlər hələ bilinməsə də, istədiyiniz ixtisasla bağlı informasiya almaq üçün müraciət etməyiniz məsləhət görülür. Vaxtdan səmərəli istifadə etmək, çoxsaylı variantlar arasında düzgün istiqamət seçmək, dil üzrə imtahanlara hazırlaşmaq və hər bir tələb olunan sorğunu vaxtında yerinə yetirmək lazımdır.

**Böyük Britaniyada ingilis dili kursları.** 250-dən çox Britaniya dil məktəbləri Britaniya Şurası tərəfindən yoxlanılmış və tədrisin səviyyəsinə, tədris prosesinin maddi təminatına, rəhbər və müəllim heyətinin ixtisasına, əcnəbi tələbələrin qəbuluna və yerləşməsinə qoyulan bütün tələblərin yüksək səviyyədə olması təsdiq edilmişdir. Məktəblərin hər biri müxtəlif ingilis dili kursları təklif edir, öz müştərilərinin müxtəlif tələblərini maksimum yerinə yetirməyə çalışırlar. İngilis dilinin öyrənilməsi üçün hansı məqsəd qarşıya qoyulursa, ona uyğun səviyyədə cavab verən kurs tapmaq olar.

Böyük Britaniyada ingilis dili kurslarında oxuyanlar aldığı biliklərdən məişətdə gündəlik ünsiyyətdə, ekskursiyalarda, idman zalı və oyun meydançalarında, ingilis həmkarları ilə görüşən zaman, yeni işgüzar əlaqələr yaratmaq istədikdə istifadə edirlər. Eyni zamanda məktəb və kolleclərdə bir neçə işlə məşğul olmaq olur: dili öyrəndikdə normal istirahət edilir, biznes davam etdirilir və görüş dairəsi genişlənir. İstənilən müddətli intensiv kurs üçün əlverişli vaxtlar seçmək mümkündür.

Müəllimlər tərəfindən aparılan kurslar və ingilis dilinin tədrisi xüsusilə əcnəbilərin öyrədilməsi üçün işlənib hazırlanmış proqramlarla həyata keçirilir. Birinci gün müsahibə və testləşdirmə keçirilir, bu zaman hazırlığın səviyyəsini dəqiqliklə müəyyən etmək və optimal tədris proqramı seçmək mümkün olur. Tədris kursu ərzində müntəzəm surətdə aralıq testləri keçilir, onların məqsədi dilin öyrənilməsi səviyyəsini yoxlamaq, çatışmazlıqları aşkar etmək və kompensasiya verməkdir. Kursu qurtardıqda yekun test, imtahan, müsahibə aparılır, nəticədə diplom və ya sertifikat verilir.

**Sizə hansı ingilis dili kursları lazımdır?** Mümkün proqramlardan birini seçərkən kursların müddətinə, intensivliyinə, həftədə tədris yükünün həcminə diqqət vermək lazımdır. Dilin öyrənilməsinin səmərəliliyi ingilislərlə küçələrdə, mağazalarda, restoranlarda, yeni tanışlarla ev şəraitində və istirahətdə fəal ünsiyyətlə möhkəmlənir. Bəzən isə vaxtın məhdudluğuna görə ən qısa vaxt

ərzində maksimum öyrənilməsi yollarının əldə olunmasına çalışılır. Bir çox kurslarda məşğələlərin başlanması müddətini seçmək üçün bir və ya iki həftə vaxt lazım gəlir.

**Ümumi ingilis dili kursu.** Bu kurs müxtəlif hazırlıq səviyyəsi olan, yeni öyrənməyə başlayan, öz biliklərini təkmilləşdirən şəxslər üçün ənənəvi ingilis dili kurslarıdır. Kurslara qəbul, adətən, hər həftə müddətində həyata keçirilir. Kursların müddəti iki həftədən az olmayaraq təşkil olunur, həm də arzu və imkanlarla müəyyən edilir. Bir həftədə təhsil və yaşayışın orta qiyməti 200-450 funt sterlinqdir. Bu qiymətə yaşayış, qidalanma, ingilis dili məşğələləri, mədəni və əyləncəli proqramlar daxildir. Məşğələlər fərdi və ya qrup halında keçilir. Bəzi məktəblər üç nəfərdən on beş nəfərə qədər olan qruplarda məşğul olmağı təklif edir. Şəxsin məqsədindən asılı olaraq, müxtəlif səviyyədə olan kursları seçmək olar.

**Standart kurs.** Məşğələ saatlarının vaxt miqdarı həftədə 15-20 dərsdir. Adətən, bu cür halı o şəxslər seçir ki, onlar uzunmüddətli (üç ay və daha çox) proqramların öyrənilməsini istəyir. Bəzən də onların gəlmələri tətil və ya məzuniyyət dövrünə düşür.

**İntensiv kurs.** Məşğələ saatları həftədə 25-30 dərsdir. Kursların müddəti iki həftə və ya daha çoxdur. Bu proqram yüksək səviyyəli hazırlığa malik insanlar üçündür. Kursun hər səviyyə üçün öz proqramı vardır. Kurs qısa vaxt ərzində dili öyrənmək üçün, həqiqətən, müvəffəqiyyətə nail olmaq istəyən və bunun üçün maksimum səy göstərməyə hazır olan ciddi abituriyentlər üçün nəzərdə tutulmuşdur. Məşğələlərdə qrammatika üzrə biliklər təkmilləşdirilir, həm yazılı, həm də şifahi nitq üçün lüğət ehtiyatı genişlənir. Düzgün tələffüz təkmilləşir. Şifahi nitqin yüksək səviyyədə olması üçün və dilin təkmilləşdirilmə inkişafından ötrü xüsusi dərslər və çalışmalar, danışıq təcrübəsi, qiraət və yazı işləri həyata keçirilir. Bu məşğələlərdə məqsəd ingilis dilindən istifadə etmək, utancaqlığı aradan qaldırmaq və inam aşılamaqdan ibarətdir.

İngilis dilindən müxtəlif istiqamətli mətnlərin oxunması və təhlilini inkişaf etdirən xüsusi çalışmalar lüğət ehtiyatının genişlənməsinə və yüksək səviyyədə istifadə edilməsinə yönəlmişdir.

Müəllimlərlə keçirilən məşğələlər, müstəqil çalışmalar xüsusi siniflərdə linqafon və video materiallarından istifadə etməklə möhkəmlənir. Dil öyrədən məktəblərin bir çoxu öz tələbələrinə kitabxana və kompyuterlərdən istifadə olunmasına sərbəst yol açır. Özünü yoxlamaq üçün yazılı və kompyuter testləri, kompyuter tədris proqramları işlənib hazırlanır.

**Çox intensiv kurs.** Bu kurs orta və yüksək səviyyədə dil bilən tələbələr üçündür. Bu ən qısa vaxt ərzində ən yaxşı nəticələrə nail olmaq istəyənlər üçün kursdur. Adətən, həmin kurs kiçik qruplarda (üç-altı nəfər) həftədə qırx dərs miqdarında keçilir, iki və ya maksimum dörd həftə davam edir.

**İmtahan və ya testlə hazırlaşmaq üçün kurs.** İstənilən ingilis dili kurslarının nəticələri imtahan və ya testlərlə yekunlaşır. Kursları bitirdikdən sonra

tələbələrə diplom verilir, verilmiş imtahanların və testlərin adları, əldə olunmuş bilik səviyyəsi (qiymətlər) göstərilir. Dil öyrədən məktəblərin buraxılış imtahanlarından başqa, əsas və onlara bərabər tutulan fənn imtahanları da vardır. Bu imtahanların nəticələri Böyük Britaniyada, həm də bütün dünyada istənilən təşkilatlar tərəfindən qəbul edilir. Kollec və universitetləri bitirdikdən sonra xarici firmada işə qəbul olunduqda çox zaman əsas fənn imtahanlarının nəticələri tələb edilir. Testlərlə imtahanlara hazırlaşmaq üçün ingilis dili kursları çox yüksək səviyyədə işlənib hazırlanmışdır. Proqram ilk növbədə lüğət ehtiyatının zənginləşməsinə, qrammatikanın öyrənilməsinə istiqamətlənir və testin verilməsi qaydaları üzrə xüsusi dərslərlə tamamlanır. Keçmiş imtahanlardakı tapşırıqlar və çalışmalar ətraflı araşdırılır, tələbələr əvvəlki illərin imtahan proqramlarından istifadə edərək testlə özlərini yoxlayırlar. Tədris kursunun sonunda tələb olunan testin müvəffəqiyyətlə verilməsi üçün dil vərdişlərinin, biliklərin və inamın kifayət qədər yüksək səviyyəsi əldə olunur. Əgər ingilis dili üzrə bilik orta səviyyədən aşağı deyilsə, bu kurslar ən yaxşı səmərə verir. Belə kursların müddəti həftədə 30 məşğələ miqdarında 4-16 həftədir.

**İxtisaslaşdırılmış ingilis dili kursları.** İxtisaslaşdırılmış kurslar fəaliyyət növünə görə ingilis dilini dərindən bilən peşəkar işçilərin müxtəlif kateqoriyaları üçün işlənib hazırlanmışdır. Belə kursların ödənişi ümumi ingilis dili kurslarına nisbətən yüksəkdir, tədris adətən fərdidir, məşğələlərin proqramları isə daha ciddi və çətindir. Qrupda məşğul olanların sayı 6 nəfərə qədərdir. İngilis dilinə ayrılan tədris saatı həftədə 15–40 saatdır. Kursların müddəti 2 həftədən az olmur. İxtisaslaşdırılmış kurslardan ən çox yayılanı işgüzar ingilis dili kursudur. Biznes sahəsində işgüzar ingilis dili kursu yalnız lüğət ehtiyatını tam mənimsəmək, şifahi və yazılı ingilis dilini inkişaf etdirmək deyil, həm də o, elə məşğələdir ki, tələbələr auditoriya qarşısında çıxış etmək vərdişlərinə yiyələnir, faydalı görüşlər və telefonla danışıqlar aparır, təqdimat strukturlarını öyrənirlər, müvafiq xüsusi mühazirəni mənimsəyirlər. Biznes kursunun proqramına başqa mövzulardan aşağıdakı elementlər daxil edilmişdir: biznesin təşkili və strukturu, marketinq, biznesin riskləri və problemləri, şəxsi heyətlə işgüzarlıq sənədləri və tərəfdaşlarla yazılı ünsiyyət. Həmin kurslarda təhsil almaq üçün ingilis dilindən bilik səviyyəsi orta səviyyədən yüksək olmalıdır.

**Digər ixtisaslaşdırılmış kurslar.** Böyük Britaniyada işgüzar ingilis dili ilə yanaşı, aşağıdakı proqramlar üzrə ixtisaslaşdırılmış ingilis dilini də öyrənmək olar: bank və maliyyə işində ingilis dili, menecment üçün ingilis dili, yeməkxana və mehmanxana işində ingilis dili, marketinq və ticarət, hüquq, katiblik, turizm və səyahət sahələri üçün ingilis dili, tibb, kompyuter texnikası, mühəndis texniklər, mühəndis və aviasiya üçün ingilis dili. Bu kurslarda təhsil almaq üçün ingilis dilini ən azı orta səviyyədə bilmək lazımdır. Məşğələlər qrup halında və ya fərdi keçilir.

**İngilis dili kursları və ixtisas fənləri ilə məşğulluq.** Belə kurslar universitetlərin ərazisində yerləşən və ya onların bir hissəsi olan dilçilik mərkəzləri tərəfindən keçilir. Burada ancaq ingilis dili öyrənilir, həm də sizi maraqlandıran bir və ya bir neçə fənlər üzrə ixtisas almaq mümkündir. Məsələn, ümumi biznes, beynəlxalq marketinq, kompyuter, jurnalistika, turizm (biznes növü kimi), Britaniya mədəniyyəti kursu. Kursu bitirdikdə onun keçilməsi haqqında şəhadətnamə verilir.

**Tətil vaxtı ingilis dili.** İlk anlayışlardan başlayaraq yüksək səviyyədə uşaq kursları və yeniyetmələr üçün 10 yaşından 20 yaşa qədər gənc oğlan və qızlara hazırlıq kursları keçilir. Uşaqları və yeniyetmələri qəbul edən dilçilik məktəblərində bir neçə yaş qrupları vardır. Bu uşaqlar öz yaşıdları arasında təhsil alır, həm sinifdə, həm də mədəni tədbirlər zamanı özünün rahatlıq imkanını yaradır. Qruplar abituriyentlərin hazırlıq səviyyəsindən asılı olaraq formalaşdırılır. Hər səviyyə üçün ayrılıqda proqram vardır. Tətil zamanı ekskursiya, mədəni və əyləncə proqramları ilə dilin ciddi öyrənilməsini istəyən gənc tələbələr üçün nəzərdə tutulmuşdur. Uşaqlar diqqət mərkəzində olur, onlara istənilən zəruri kömək göstərilir. Təcrübəli müəllimlər bütün gün ərzində uşaqların sağlamlığı və təhlükəsizliyinin qayğısına qalır. Bu zaman uşaqlar xüsusi uşaq malikanələrində, yay düşərgələrində və ya ingilis ailələrində (seçimlərinə görə) yaşayırlar. Ümumi xərc həftədə 200-395 funt sterlinqdir. Bu qiymətə yaşayış, qidalanma, ingilis dili dərsləri, ekskursiya və əyləncə proqramları daxildir. Kursların müddəti azı iki həftədir. Tədris yükü isə həftədə 15-30 saat miqdarındadır. Sinifdə dərs zamanı uşaqların sayı müxtəlif ola bilər və adətən, 8 nəfərdən 15 nəfərə qədər təşkil edir. Bir çox dilçilik məktəbləri uşaq tətil proqramlarını məktəb və tələbə tətilləri zamanı həyata keçirir və dünyanın müxtəlif yerlərindən şagirdləri həm qrupla, həm də fərdi qəbul edir. Böyük Britaniyada yeniyetmələr üçün ən azı iki həftə kurs keçilir və bütün il boyu keçirilən kurslarda məşğələləri ilin istənilən vaxtı başlamaq olar.

**Yaşama.** Hər təhsil müəssisəsinə gələn tələbələrin orada yerləşdirilməsi üçün imkan var. Böyük Britaniyanın təhsil müəssisələri öz tələbələrinə üç ən geniş yayılmış yaşama variantından birini təklif edir: tələbə yataqxanasında, ingilis ailəsində və əlahiddə mənzillərdə yaşamaq.

**Tələbə yataqxanasında yaşamaq.** Yataqxanada yaşamaq üçün əlahiddə otaq və ya iki otaq təklif olunur. Bu biryerli və ya ikiyerli, tualet, əlüzyuyan, hamamı olan mənzil ola bilər. Çox zaman duş otaqları bütün mənzillər üçün ümumi olur. Qısa müddətli ingilis dili kurslarında təhsil alan tələbələr üçün ayrıca mətbəxin olmaması o qədər də narahatçılıq doğurmur. Kollec və universitetlər bütün il boyu təhsil alan tələbələr üçün həmin çatışmazlığa görə nisbətən ucuz ödənilmə ilə kompensasiya edilir. Zəngin kolleclərdə otaq, vanna və duş da daxil olmaqla rahatlıq üçün bütün lazımi avadanlıqlarla təchiz edilir.

Yataqxanalarda otaqlar mebellə təmin olunur. Bir nəfər üçün standart mebel dəsti: çarpayı, iş üçün masa (stol), bir-iki kürsü (stul), paltar üçün şkaf, istirahət üçün kreslo, torşer və ya bradan ibarətdir. Əlavə rahatlıq üçün kompyuter, televizor, əlahiddə yataqxana xidmətçiləri, soyuducu, əlavə mebel əşyaları ayrıca ödənişlə təqdim olunur. Zəngin kolleclərdə əlavə rahatlıq üçün əşyalar çox zaman ödənişə daxil edilmiş olur. Yataq ağları dəyişilir və yataq əşyalarını tələbə yataqxanasının xidmətçiləri təqdim edir. Yataq ağları bir və ya iki həftədə bir dəfə dəyişilir. Otaqların yığışdırılması, öz zövqünə uyğun olaraq tərtibatı, paltarların yuyulması tələbələrin üzərinə düşür. Hər tələbə yataqxanasında paltaryuyan və quruducu maşınlar, ütüləmə avadanlığı vardır. Əlavə ödənişlə yataq ağlarını və dəsmalları hər gün dəyişdirmək olar. Zəngin (bahalı) kolleclərdə otaqların gündəlik yığışdırılması və yataq ağlarının dəyişdirilməsi yaşama qiymətinə daxildir. Uşaqlar üçün kolleclərdə və pansion məktəblərdə ağları dəyişmək və yumaq yataqxana xidmətçiləri tərəfindən həyata keçirilir.

Yaşama qidalanmasız və qidalanma ilə təqdim edilə bilər. Birinci halda tələbələr özləri yemək hazırlayır və ya nağd hesabla kollecdə və ya yataqxanada olan bufetdə, yeməkxanada, yerli restoranlarda və qəlyanaltı dükanlarda qidalanırlar. İkinci halda qidalanma yaşama qiymətinə daxil olur. Tələbə malikanəsinin yeməkxanasında onlara nağd pulla hər gün səhər və şam yeməkləri verilir, qidalanma burada nisbətən bir qədər ucuz başa gəlir, həm də valideyn arxayın olur ki, uşaqlar normal qidalanır.

Tələbə yataqxanalarında mütləq ümumi xollar, istirahət və məşğələ otaqları, kiçik kitabxana, kompyuter zalı, bufet və ya yeməkxana, idman zalı və oyun meydançaları olur. Bəzən kitabxanadan, idman qurğularından istifadə olunması üçün kiçik abonoment haqqı alınır.

Tələbə yataqxanalarında bir nəfərlik otaqda yaşamaq həftədə 40 funt sterlinq, gündəlik qidalanma ilə həftədə təxminən 70 funt sterlinqdir. İki adamlıq otaqda yaşamaq təxminən 10% ucuz olur. Elektrik enerjisi, isti və soyuq su təchizatı ödənişə daxildir. Ucuz yataqxanalarda vannalı otaq vannasızdan bir az bahadır. Vannalı ikiotaq qidalanma ilə birlikdə bəzi universitetlərdə həftədə 60–65 funt sterlinqə başa gəlir. Özəl kollec və universitetlərin tələbə yataqxanalarında hətta qidalanmasız bir otağın qiyməti həftədə 70 funt sterlinqə çata bilər. Oksford, Kembric və London universitetləri kimi tanınmış universitetlərin yataqxanalarında yaşayış nisbətən bahadır.

Tələbə yataqxanalarında yerlərin sayı məhduddur. Odur ki, bir çox tələbələr xüsusi sektorda otaq və ya mənzil kirayə etməli olurlar. Bir qayda olaraq, əcnəbi tələbələr tələbə yataqxanaları ilə təmin olunur, bir şərtlə ki, onlar kollec və ya universitetin müvafiq xidmətinə qabaqcadan sifariş vermiş olsunlar. Tədris ili ərzində tələbələr uyğunlaşır, öyrəşir və hansı yataqxanalarda yaşamaq, xüsusi sektorda otaq kirayə etmək və ya daha əlverişli olanları həll etməyə vaxt tapırlar.

**İngilis ailəsində yaşamaq.** İngilis ailələrinin qonaqpərvərliyi və müxtəlif kirayənişinlərə uyğunlaşmaq qabiliyyəti artıq vaxtın sınağından çıxmışdır. Belə ailədə yaşamaq özünü rahat ev şəraitində hiss etmək və əlavə dil öyrənmə təcrübəsi qazanmaq üçün ideal üsuldur.

Kollec tələbələri ilə ailə pansionu sahiblərinin bağladığı müqavilənin tipindən asılı olaraq kirayə qidalanma ilə və ya onsuz olur. 14 yaşına qədər uşaqlarla kirayə qiymətinə çox zaman qidalanma daxil edilir. Adətən, ailə pansionuna yüngül səhər və şam yeməyi, istirahət günləri isə üç dəfə qidalanma daxil olur. Ailə pansionları elə seçilir ki, onlar kollecə (universitetə) yaxın yerdə və ya ictimai nəqliyyatdan istifadəyə uyğun olsun. Özünün özəl yataqxanası olmayan kiçik kolleclər üçün bu cür yaşayış yeganə variantdır.

Bir çox tələbələr haqlı olaraq hesab edirlər ki, Britaniya ailəsində yaşamaq onlara ingilis dilini öyrənməkdə kömək edir və həm də onların həyat təcrübəsini zənginləşdirir. Gənc tələbələr ev şəraitində özlərini yataqxanadakından daha yaxşı hiss edirlər. Bir çox Britaniya ailələri yalnız onlara əlavə qazanc gətirdiyinə görə deyil, həm də ailələrinə digər ölkənin nümayəndəsinin qoşulmasını həqiqətən xoşladıqları üçün əcnəbi tələbələri qəbul etməyi xoşlayır. Qəbul edən ailədə çox zaman öz uşaqları ilə məşğul olmaq vaxta görə həddindən artıq çətinliklər yaranır, tələbələrlə ünsiyyətdə olmağa imkan tapmırlar. Dul qadın və ya övladları universitetin yuxarı kursunda oxuyan, kifayət qədər asudə vaxtı olan valideynlər tələbələr üçün əla ev sahibləridir. Tələbələr yaşadıqları ev sahiblərinin ailə qaydalarına riayət etməyə çalışmalıdır. Əgər bəzi cüzi problemlər və anlaşmazlıqlar baş verirsə (hər iki tərəfdən), onda, bir qayda olaraq, yumor hissi və xoş niyyətin köməkliyi ilə tezliklə həll olunur.

**Sizin otağınız.** Yəqin ki, sizə evin açarlarını verəcəklər. Sizin otağınız, çox ehtimal ki, açarla bağlanmayacaqdır, çünki xüsusi evlərdə, adətən yataq otaqları bağlanmır. Sizin rahat çarpayınız, masanız, yataqda oxumaq üçün lampanız və ya partanız, paltarlarınızı yerləşdirmək üçün kifayət qədər yer olmalıdır. Ev sahibləri sizin otağınızın təmiz saxlanılmasına cavabdehdir, siz isə otağı səliqəli saxlamalısınız ki, yığışdırılıb təmizlənməsini yüngülləşdirəsiniz. Əgər siz otağınızda mebelin yerini dəyişmək, yaxud divardan fotoşəkillər və ya plakatlar asmaq istəyirsinizsə, onda ev sahibindən icazə almalısınız. Knopka, yapışqan və yapışqanlı lent boyalarından istifadə etdikdə divarlar korlanır, ona görə də bunların hamısı nəzərə alınmalıdır. Öz evinizdə olduğu kimi yanan siqaretlərlə, saç və dırnaqlar üçün lak və s. xüsusilə ehtiyatlı davranmaq lazımdır. Əgər siz nəyisə sındırsanız və ya korlasanız, onda ev sahibinə bu barədə mümkün qədər tez məlumat verməlisiniz. Öz elektrik cihazlarınızdan istifadə etməzdən əvvəl icazə alın. Böyük Britaniyada, demək olar ki, hər yerdə 240 v gərginlikdir.

**İsidilmə və işıqlandırma.** Bütün evlərdə yataq otaqları qızdırılır. Əgər otağınız başqa otaqlara nisbətən soyuq olarsa, onda əlavə yorğan verilməsini və ya otağınızı əlavə qızdırılmasını xahiş edin.

**Qidalanma.** Siz adətən ailənin digər üzvlərilə birlikdə onların cədvəlinə uyğun qidalanacaqsınız. Əgər pəhriz, dini və ya digər səbəblərdən bu və ya başqa ərzağı yemirsinizsə, onda bu barədə deməlisiniz. Nahar, şam yeməyinə dəqiq vaxtında gəlmək lazımdır. Əgər siz vaxtında gələ bilmirsinizsə, onda bu barədə ev sahiblərini xəbərdar edin. Evdən kənar nahar, şam yeməyi qəbul edəcəksinizsə, onda bu barədə də xəbərdarlıq etmək lazımdır.

**Təsərrüfat məsələləri.** Yorğan-döşəyinizi özünüz salmalısınız. Sizin tərəfinizdən ev işlərinə kömək etmək, məsələn, yeməkdən sonra stolun üstünü yığışdırmaq daha yaxşı olar və icazəsiz mətbəxdən istifadə etməməlisiniz, özünüzlə ərzaq və içki götürməyə icazə verilmir.

Tələbələrin qaldığı ailələrin əksəriyyətində bir vanna otağı olur. Vanna və ya duş qəbul etmək üçün əlverişli vaxt barədə razılaşmaq lazımdır. Əgər vanna otağından necə istifadə etməyi bilmirsinizsə, onda ev sahibləri bunu sizə izah edər. Söz yox ki, vannadan, duşdan, əlüzyuyandan istifadə etdikdən sonra onları təmizləməyi yaddan çıxarmamalısınız.

Yataq ağlarını və dəsmalları ev sahibləri verir. Əgər çarhovuzda çimməyə gedirsinizsə, öz xüsusi dəsmalınızı aparmalısınız. Öz paltarınıza, ayaqqabınıza özünüz nəzarət etməlisiniz. Paltaryuyan avadanlıqdan istifadə edilməsinə icazə verilir və ev sahibləri sizin paltarınızı öz paltarları ilə birlikdə yumağı təklif edə bilər. Onlar bunu etmirlərsə, onda paltarlarınızı nə vaxt, harda yumaq və yaş paltarların harada qurudulmasını soruşun.

**Qonaqlar.** Əgər ev sahibləri öz dostlarını qonaq dəvət edirlərsə, həmin şəxslərlə ünsiyyət saxlamaq istəyirsinizsə, onda çalışıb ev sahibinin fikrini bilmək lazımdır və sizi onlarla görüşməyə dəvət etməsələr, inciməyin. Dostlarınızı qonaq dəvət etmək istəyirsinizsə, ev sahibindən icazə almağı unutmayın. Onları hansı otağa gətirmək, habelə qonaqların hansı vaxta gəlməsi və getməsinin daha münasib olması barədə soruşun. Çalışın ki, qonaqlarınız həddindən artıq səs-küy salmasınlar, xüsusilə gecə keçəndən sonra ailənin başqa üzvlərinə mane olmasınlar. Sizi digər ailəyə qonaq dəvət edəndə özünüzü necə aparmağı ev sahibi izah edəcək.

**Evdə olmamaq.** Gecə evə gəlmək istəmədikdə və ya evə vaxtından gec gəlmək barədə ev sahibini xəbərdar etməlisiniz. Əgər siz xəbərdarlıq etmədən evdə olmasanız, ev sahibləri məktəbə və ya polisə zəng edə bilər.

**Əlahiddə mənzillər.** Bir-iki aydan az olmayan müddətdə yaşamaq üçün kollecin inzibati xidmətçilərinin köməyi ilə bir, iki və ya üç otaqlı mənzil kirayə etmək olar. Anketləri və ərizələri doldurduqda kirayə mənzil istədiyinizi göstərmək lazımdır. Bəzən kollecə gələndən sonra da kirayə mənzil tutmaq olar. Kollecin əməkdaşları tələbələrin yaşaması üçün xüsusi sahibkarlardan və ya agentlikdən bütöv çoxmərtəbəli evləri kirayə götürürlər. Bu

cür evlərdəki mənzillər vərdiş etdiyiniz mənzillərin tam analoqudur. Kollecin əməkdaşları həmin mənzillərdə mətbəxi və otaqları minimum mebel dəsti ilə təchiz edir və yataq əşyaları (yastıqlar, yorğanlar, döşək) ilə təmin edirlər. Mətbəxdə mütləq pilitə (qaz və ya elektrik) və soyuducu olur. Yataq ağları, mətbəx və yemək qabları verilmir. Belə yaşayış variantı seçərkən bütün məsələləri əvvəlcədən aydınlaşdırmaq lazımdır. Belə mənzillər bir, iki, bəzi hallarda üç tələbənin yaşaması üçün verilir. Mənzillər bir neçə aylığa kirayə götürüldükdə telefonla təchiz edilmir. Uzun müddət yaşadıqda telefonu ayrılıqda ödəniş əsasında kollecin inzibati xidmətçiləri sifariş əsasında qoydurur. Onun qoyulma müddəti ərizə veriləndən üç, dörd həftədən çox olmur. Əgər Böyük Britaniyada uzun müddətə qalmağı planlaşdırırsınızsa, oraya ailənizlə və ya yaxın dostlarınızla getmək istəyirsinizsə və səhər, günorta, axşam yeməklərini özünüz hazırlamaq istəyirsinizsə, onda ən qənaətli variant kirayə mənzil götürməkdir.

**Böyük Britaniyada yaşayış sahəsinin kirayələnməsi ilə bağlı bir neçə məsləhət.** Kirayə yaşayış sahəsi bəzən münaqişəli vəziyyətlərə və ya kiçik maliyyə və məişət mürəkkəbliyinə səbəb olan aşağıdakı hallara gətirib çıxarır. Kirayə barədə müqaviləni imzalamazdan əvvəl mənzil haqqına nələrin daxil edildiyini öyrənmək lazımdır. Bəzən elektrik enerjisi, istilik və su təchizatı üçün ödəmə yaşayış sahəsinin qiymətinə daxil edilmiş olur, bəzən isə aylıq ödənişdən əlavə, kommunal hesablarını da ödəmək lazım gəlir. İcarə müqaviləsində yaşama müddətinizi dəqiq razılaşdırmaq və onu müqaviləyə daxil etmək lazımdır. Bir çox agentliklər (o cümlədən universitetlərin də) yaşayış sahəsini cari ayın əvvəlindən kirayə verirlər. Buna görə də ayın ortasında gəlib-getdikdə bütün ay üçün haqq ödənilir. Uzun müddət yaşadıqda isə mənzil agentliyi icarə müqaviləsinin şətlərinə görə kirayəçinin müqaviləsini ləğv etmək istədikdə ən azı bir ay əvvəl xəbərdarlıq edir. Bir çox mənzil agentlikləri və tələbələrin yerləşdirilməsi xidmətləri müqavilə bağladıqda bir-iki aylıq icarə haqqını əvvəldən (depozit) götürürlər. Səfər üçün lazım olan nağd pul məbləğini hesabladıqda göstərilənləri nəzərə almaq lazımdır. İcarə qurtaranda həmin depozit aşağıdakı şərtlərlə qaytarılır. Mənzil (otaq) tam səliqəli vəziyyətdə açarlarla birlikdə agentliyin nümayəndəsinə təhvil verilir. Kirayəçi əvvəlcə agentliklə görüş gününü və vaxtını təyin etməyi razılaşmalıdır. Əgər mənzilin vəziyyəti qənaətbəxşdirsə və agentliyin əmlakının hamısı (mebel əşyaları, yataq ləvazimatı və s.) yerindədirsə, onda girov tamamilə qaytarılır. Əgər mənzildə (otaqda) əşyalar zədələnmişsə və ya çatışmırsa, onda qaytarılan girovun məbləği mütənasib olaraq azaldılır. Depozit ya nağd pulla, ya da göstərdiyiniz hesaba köçürməklə qaytarılır: İngiltərədə, həm də bütün Avropada soyuq və isti su sərfini ölçən sayğaclar qoyulmuşdur. Sudan və elektrik enerjisindən istifadə haqqı hər ay (əgər müddət bir aydan az olarsa) yaşayış müddətinin sonunda ödənilir. İsti suyun qiyməti soyuq suya nisbətən bir neçə dəfə artıqdır. Mənzilə (otağa) ilk dəfə gələndə və oradan gedəndə say-

ğacların göstəricilərini yoxlamaq lazımdır ki, anlaşılmazlıqlara yol verilməsin. Avropada və Böyük Britaniyada su qənaətlə sərf edilir. Buna görə də sərf olunmuş suya görə həddindən artıq hesablar ödənilməsinə yol verməmək üçün diqqətli olmaq lazımdır.

**Viza alınması.** Böyük Britaniya səfirliyinə tələbə kimi gəlməyə razılıq üçün müraciət edərkən nəzərə almaq lazımdır ki, vizanızın uzadılma hüququ var və bütün ərizələrə mühacirlər kimi baxılır. Ona görə də viza zabitini inandırmaq lazımdır ki, gəlməyinizin məqsədi ancaq təhsil almaqdır.

Əvvəlcə anketi diqqətlə doldurmaq lazımdır (anketi konsul şöbəsindən ödənişsiz almaq olar). Anketi çap hərflərlə qara qələmlə doldurmaq lazımdır. Anketin üz tərəfində xarici pasport formatında iki fotoşəkil yapışdırılır.

Tələbə vizası almaq üçün əsas təhsil müəssisəsindən dəvətnamə olmalıdır ki, bu dəvətnamə onun tələbə olduğunun təsdiqidir. Bəzi ingilisdilli təhsil müəssisələri isə dəvətnamə şəklində ancaq qəbul olunma haqqında bildiriş göndərir. Səfirlikdən dəvətnamənin və faksın surətini götürmək olar.

Xarici pasport, dəvətnamə, doldurulmuş anket, maliyyə mənbəyi haqqında arayış (iş yerindən, yaxud valideynlərin iş yerindən arayış, zəmanət məktubu və ya valyuta hesabından çıxarış) və konsul rüsumu (65 dollar) həmin şöbəyə verilir. Sonra gözləmə zalında qalırsınız. Viza zabiti lazım olan pəncərənin nömrəsini deyəcəkdir.

Nəzərə almaq lazımdır ki, əgər maliyyə mənbəyi ilə bağlı sənəd şəklində iş yerindən (valideyinlərin iş yerindən) arayış əlavə olunursa, onda arayışda göstərilən məlumatlar səfirlikdən zəng etməklə yoxlanılacaq. Əgər səfirliyin əməkdaşları blankda göstərilən telefonla əlaqə yarada bilməsələr, onda bu şirkətin mövcud olması ciddi şübhə yaradacaq. Arayışda mütləq vəzifəniz və sponsorun vəzifəsi göstərilir.

Müsahibə zamanı viza zabiti, ümumiyyətlə, eyni standart suallar verir. Əgər suallara cavab verdikdə inamsızlıq göstərilərsə, onda viza zabitində şübhə yarana bilər və bu hal rədd cavabına səbəb ola bilər. Verilən suallara, (hətta əgər onlar təvazökarlıqdan kənar görünsə belə məsələn, sizin əmək haqqınız, gəlir mənbəyiniz, adaxlınızın olub-olmaması və s. barədə) dəqiq, inamla, sakit halda, əsəbiləşmədən cavab verməyə çalışmaq lazımdır. Əks halda, təkrar müsahibə yarana bilər və müvəffəqiyyət şansı azalar. Əgər təkrar müsahibəyə dəvət etsələr, nəzərə almaq lazımdır ki, cavablarınız qeyd edilmişdir və onları dəyişmək mümkün deyil. Britaniya səfirliyindən əvvəllər rədd cavabı olmuşdursa, heç bir halda onu gizlətmək lazım deyil. Əgər rədd cavabı aldıqdan sonra sənədlər verilirsə, onda xüsusi forma doldurmaq lazımdır.

İngilis dilində cavab verməyə çalışmaq lazımdır, çünki dili zəif bilmək də heç olmasa gedişin məqsədini bir daha təsdiq edir.

Müsahibə üçün aşağdakı sənədlər lazım olur:

–əgər tələbə və ya şagird dərs vaxtı ingilis dili kursuna getməyə hazırlaşırsa, kursa ehtiyac olduğunu göstərməklə sənəd təqdim etməlidir. Tələbə

hansı təhsil müəssisəsinin tələbəsi olduğu haqda oxuduğu təhsil ocağı tərəfindən təsdiq olunmuş sənəd təqdim etməlidir ki, göstərilən müddətdə oranı qurtarmaq üçün heç kim etiraz etməsin;

–kamal attestatı və ya diplom, oxuduğu ingilis dili kursları haqqında arayış;

–evlənmə haqqında şəhadətnamə, uşaqların anadan olması haqqında şəhadətnamə;

–tələbə və ya sponsorun işlədiyi müəssisənin məhsullarının reklamının nümunələri (bukletlər, vizitkalar, təqvimlər və s.) yaxşı təəssürat bağışlayır;

–akademik təhsil almaq (bir illik və daha çox müddətə) istədikdə, sponsorun (müəssisənin) illik maliyyə hesabatları, təsisat sənədlərinin surətləri (əgər sponsor təsisçidirsə), gəlirlər barədə vergi müfəttişliyindən arayış tələb olunacaqdır. Etibarlı maliyyə mənbəyinin olduğunu göstərmək lazımdır.

Nəzərə almaq lazımdır ki, viza zabitləri kifayət qədər incə psixoloqdurlar. Odur ki, yalnız gözəl blanklarda diqqətlə hazırlanmış kağızlar bəzən müvəffəqiyyətin zamini olmur. Yadda saxlamaq lazımdır ki, ifadələrin (deyilənlərin) hamısının həqiqət olması işlərinizin qaydada olmasından heç də az əhəmiyyətli deyil.

**Lids Universiteti (University of Leeds).** Lids Universiteti İngiltərənin Qərbi Yorkşir vilayətinin Lids şəhərində yerləşir və Böyük Britaniyanın ən nüfuzlu təhsil ocaqlarından biridir. Universitet tələbə sayının çoxluğuna görə ölkənin ikinci ən böyük ali məktəbidir.

Böyük Britaniyanın "Times Higher Education Supplement–QS World Universities Rankings" jurnalının 2009-cu ildə apardığı dünya universitetlərinin reytinqinə əsasən, Lids Universiteti 100 ən yaxşı ali məktəb arasında 99-cu yerdə olub. "Times Higher Education World University Rankings"in 2010-cu il üzrə dünyanın ən nüfuzlu universitetləri arasında apardığı araşdırmaya əsasən, Lids Universiteti 168-ci, "QS World University Rankings"in açıqlamasına görə isə 85-ci yerdə yerləşmişdir. "QS World University Rankings"in 2011-2012-ci tədris ili üçün açıqladığı reytinq cədvəlində Lids Universiteti 93-cü, "Times Higher Education World University Rankings"in cədvəlində isə 133-cü yerdə dayanır.

Lids Universiteti Rassell, Avropa Universitetləri, Birlik Ölkələri Universitetləri assosiasiyalarının, Beynəlxalq Universitetlər, Santander Şəbəkələrinin, Ağ Qızılgül Universitet Konsorsiumunun üzvüdür.

1831-ci ildə Lids şəhərində fəaliyyət göstərən 5 tibb müəssisəsinin ehtiyaclarını ödəmək məqsədilə şəhərdə Lids Tibb Məktəbi yaradılır. Bu məktəbdən başqa, həmin dövrdə Yorkşir Dəqiq Elmlər Kolleci də fəaliyyət göstərirdi. 1851-ci ildən başlayaraq Yorkşir Dəqiq Elmlər Kolleci Mançester şəhərində yerləşən Ouens Kolleci modelinə uyğun olaraq dünyəvi təhsilə üstünlük verir. Bu kollec Almaniyanın texniki kolleclərinə müraciət edir, onların elmi nailiyyətlərindən proqressiv və praqmatik nümunə kimi istifadə edir. Yorkşir

Dəqiq Elmlər Kollecində eksperimental fizika, riyaziyyat, geologiya, daşmədən sənayesi, kimya və biologiya, mühəndislik və toxuculuq texnologiyası sahələri tədris edilirdi. Kollecdə klassika, müasir ədəbiyyat və tarix ixtisasları tədris edildikdən sonra təhsil müəssisəsinin adı dəyişdirilərək Yorkşir Kolleci olur. 1874-cü ildə Yorkşir Kolleci və Lids Tibb Məktəbi birləşdirilir, burada orta təbəqənin və ticarətçilərin övladları təhsil alırdı. 1887-ci ildə Yorkşir Kolleci Lids Tibb Məktəbi ilə birgə Viktoriya Universitetinin tərkibinə daxil olur. Həmin dövrdə Viktoriya Universitetinin tələbələri London Universiteti tərəfindən elmi dərəcələrlə təltif olunurdu.

Yorkşir Kolleci və Lids Tibb Məktəbində qızların təhsil almasına heç vaxt qadağa qoyulmayıb. Kollecə qəbul edilən ilk qız tələbə, müasir ədəbiyyat və pedaqogika fakültəsində təhsil alan Lilias Enni Klark olur. 1903-cü ildə əldə olunmuş Kral Nizamnaməsinə əsasən, ilk olaraq Liverpul Universiteti Viktoriya Universitetinin tərkibindən çıxaraq müstəqil fəaliyyət göstərməyə başlayır. Bir il sonra kral VII Edvardın imzaladığı Nizamnamə ilə Lids Kolleci də Viktoriya Universitetinin tərkibində deyil, müstəqil Lids Universiteti kimi fəaliyyət göstərir. 2004-cü ilədək Viktoriya Universiteti Viktoriya Mançester Universiteti kimi tanınır. 2004-cü il oktyabrın 22-də Böyük Britaniya şahzadəsi II Yelizavetanın fərmanına əsasən Viktoriya Mançester Universiteti və Mançester Elm və Texnologiya İnstitutu rəsmən birləşdirilərək Mançester Universiteti adı altında fəaliyyətlərini davam etdirir.

2009-2010-cu tədris ilində Lids Universitetinin tədqiqat gəlirləri 119 milyon funt-sterlinq olub. 2011-2012-ci tədris ilində Lids Universitetində bakalavr səviyyəsində təhsil haqqı 10500-25000, magistratura səviyyəsində 11000-15000, doktorantura səviyyəsində isə 11500-20000 funt-sterlinq təşkil edir.

Lids Universitetində bir tədris ilində tələbəyə təhsil haqqını çıxmaq şərti ilə 10000 funt-sterlinqə qədər vəsait lazım gəlir. Bu məbləğə yataqxana, qidalanma, daxili nəqliyyat, kitab, dəftərxana ləvazimatları, avadanlıq və digər lazımi əşyalar daxildir. Tələbənin seçdiyi həyat tərzindən asılı olaraq, sərf olunan vəsait dəyişə də bilər.

Lids Universiteti Lids şəhərində ümumilikdə 498 hektar ərazini əhatə edir. Universitetin əsas kampusu Lids şəhərinin mərkəzindən 1,6 km şimalda yerləşir və 40 hektar ərazidən ibarətdir. Kampus əsasən qotik, art deko, brutalist və postmodern üslublarda inşa edilmiş binalardan ibarətdir. Kampusun əsas girişi Parkinson binasının yaxınlığındakı Vudhaus Leyndir. Kampusda yerləşən möhtəşəm binalardan universitetin Parkinson, Biznes Məktəbi, Qret Holl, Rocer Stivens və s. tikililərini güstərmək olar, Lids Universitetinin kampusu müxtəlif üslublarda inşa edilmiş binalarla yanaşı, yaşıllığı ilə də diqqəti cəlb edir. Yaşıl parklar, təbii ot örtüyü universitetə gələnlərin gözünü oxşayır və tələbələrin istirahət etdiyi əsas yerlərdəndir.

Lids Universitetində dekanlar tərəfindən idarə olunan 560 bakalavr, 300 magistr və doktorluq kursları təklif edən 9 fakültə fəaliyyət göstərir.

İncəsənət fakültəsinə İngilis Dili, Tarix, Humanitar Elmlər, Müasir Dillər və Mədəniyyət məktəbləri, Müstəmləkə və Müstəmləkədən Sonrakı Tədqiqatlar, Lids Humanitar Tədqiqatlar və Orta Əsrlər Tədqiqatları institutları daxildir.

Biologiya fakültəsi bakalavrlar üçün ayrı, magistr və doktorantlar üçün isə başqa Biologiya Elmləri məktəblərindən, Membran və Sistem Biologiyası, Molekulyar və Hüceyrə Biologiyası, İnteqrativ və Korporativ Biologiya institutlarından ibarətdir.

Biznes fakültəsində Mühasibat və Maliyyə, İqtisadiyyat, Beynəlxalq Biznes, Menecment, Marketinq, Fəaliyyət və İşgüzar Əlaqələr məktəbləri fəaliyyət göstərir.

Təhsil, sosial elmlər və hüquq fakültəsinə Pedaqogika, Hüquq, Siyasi və Beynəlxalq Tədqiqatlar, Sosiologiya və Sosial Siyasət məktəbləri aiddir.

Mühəndislik fakültəsinə Vətəndaş Quruculuğu, Hesablama, Elektronika və Elektrik Mühəndisliyi, Maşınqayırma, Ekoloji və Material Mühəndisliyi məktəbləri daxildir.

Ətraf mühit fakültəsi nəzdində Yer və Ətraf Mühit, Coğrafiya məktəbləri, Nəqliyyat Tədqiqatları İnstitutu fəaliyyət göstərir.

Riyaziyyat və fizika elmləri fakültəsində Kimya, Qida Elmləri və Düzgün Qidalanma, Riyaziyyat, Fizika, Astronomiya məktəbləri fəaliyyət göstərir.

Tibb və sağlamlıq elmləri fakültəsi Tibb məktəblərindən Stomatologiya, Genetika, Sağlamlıq və Terapiya, Sağlamlıq Elmləri, Tibbi Təhsil, Molekulyar Tibb, Psixologiya Elmləri institutlarından ibarətdir. Universitetin Tibb Məktəbi Avropanın ən nüfuzlu təhsil ocaqlarından biridir. 2010-2011-ci illərdə bu məktəb "The Guardian" dərgisi tərəfindən ölkənin 11 ən yaxşı tibb məktəbindən biri kimi dəyərləndirilib.

İfaçılıq, təsviri incəsənət və kommunikasiya fakültəsi Kommunikasiya Tədqiqatları, Dizayn, İncəsənət, İncəsənətin Tarixi və Mədəniyyətşünaslıq, Musiqi, İfaçılıq və Mədəniyyət məktəblərinə bölünüb.

Lids Universitetinin kitabxanası 3 milyona yaxın kitab, 26000-dən çox çap olunmuş və elektron jurnal, 850 verilənlər bazası, 6000 elektron kitab və digər materiallara sahiblik edərək ölkənin ən böyük kitabxanaları sırasındadır. Universitetin Brazerton kitabxanasında incəsənət, sosial elmlər və hüquq sahələrini əhatə edən kitablar toplanıb. Tibb, stomatologiya və səhiyyə sahələrinə aid kitablar Uorsli binasında yerləşən Sağlamlıq Elmləri kitabxanasında, dəqiq elmlər, mühəndislik sahələrinə aid kitablar isə Edvard Boyl kitabxanasında saxlanılır. Eyni zamanda universitet kitabxanası XV əsrdən XX əsrədək tarixi əhatə edən xüsusi kolleksiyaya, Amadeus Motsartın və Lüdviq van Bethovenin musiqi əsərlərinə, Şekspirin 1623-cü ildə nəşr edilmiş əsərlərinə və digər kolleksiyalara sahiblik edir.

Lids Universitetində Universitet Məhkəməsi, Şurası və Senatı fəaliyyət göstərir. 7645 nəfər əməkdaşı olan Lids Universiteti ölkənin ən çox işçi qüvvəsinə malik ali məktəblərindən biridir. Universitetdə çalışanlar arasında 97 millətin nümayəndəsi vardır.

Lids Universitetində ümumilikdə 33002 nəfər tələbə təhsil alır. Onların 25000 nəfəri bakalavr, 8000 nəfəri isə magistr və doktorantlardır. Tələbələrin 29015 nəfəri əyani, 3987 nəfəri isə qiyabi təhsil alır. Universitetdə dünyanın 142 ölkəsindən minlərlə əcnəbi tələbə oxuyur.

Lids Universitetinin Tələbə Təşkilatı ölkənin ən böyük tələbə birliyindən biridir. 3000-dən çox klub, cəmiyyət və birlikdən ibarət olan universitetin Tələbə Təşkilatı tələbələrin asudə vaxtlarının təşkili, onların yataqxana və işlə təmin olunması məsələlərinə nəzarət edir.

Universitetdə yerli, əcnəbi tələbələri, tədqiqatçıları, əməkdaşları yerləşdirə biləcək yataqxanalar fəaliyyət göstərir. Yataqxanaların 4-ü (Moris Holl, Henri Prays, Ellersli Holl və Liddon Holl) kampus daxilində, digər yataqxanalar isə kampusdan kənarda fəaliyyət göstərir. Bu yataqxanalar Karr Mils, Klarens Dok, Ceyms Beyli Park, Leodis, Lupton, Montaqu Barton, Nort Hill Kart, Opal, Oksli, Sentinel, Tenneri, Şimmin və Sent Marksdır. Lids Universitetinə qəbul olunan bütün birinci kurs tələbələrinə yataqxanada otaqla təmin olunmaları haqqında zəmanət verilir. Yataqxanada otaqla təmin oluna bilməyən tələbələr özəl şirkətlərin təklif etdiyi yataqxanalardan da yararlana bilər.

Lids Universiteti təlim və tədqiqat sahəsində qazandığı nailiyyətləri bölüşmək üçün dünyanın bir sıra ali təhsil müəssisələri ilə əməkdaşlıq edir. Avropanın bir çox ali məktəbi kimi, Lids Universiteti də Erasmus Mundus proqramında iştirak edir, tələbə mübadiləsi proqramını həyata keçirir və qlobal tədqiqatlar aparmaqla dünyanın diqqətini özünə cəlb edir.

**Edinburq Universiteti (University Edinburgh).** Edinburq Universiteti 1582-ci ildə yaranmışdır və Avropanın tanınmış dövlət ali məktəblərindən biridir. Universitetin illik dövriyyəsi 592 milyon funt-sterlinqdir. Universitetin işçi heyəti 6983 və tələbələrinin ümumi sayı isə 26138 nəfərdir. Edinburq Universiteti Şotlandiyanın paytaxtı olan Edinburq şəhərində yerləşir. Universitet Şotlandiyada yaradılan dördüncü universitetdir və Britaniyanın tədqiqat universitetlərini birləşdirən "Russell Qrupu"na, eləcə də, "21 universitet" adlı beynəlxalq elmi-tədqiqat assosiyasiyasına daxildir. 2009-cu ildə aparılan dünya universitetlərinin reytinqinə əsasən, o, 100 ən yaxşı ali məktəb arasında 21-ci yerdə sıralanıb.

Universitetin yaranması şotlandiyalı yepiskop Robert Reydin adı ilə bağlıdır və o, vəsiyyətnaməsində universitet yaratmaq məqsədilə fond təchiz edilməsini göstərmişdir. Yepiskop Robert Reydin bütün var-dövlətini fonda bağışlayır. 1582-ci ildə kral VI Ceyms Universitet yaradılması haqqında hazırlanmış xartiyanı imzalayır. O dövrdə İngiltərədə cəmi iki universitet

olduğu halda, Edinburq Universiteti Şotlandiyada yaradılan dördüncü ali məktəb idi. 1708-ci ilədək burada bir rəhbər və dörd müəllim çalışırdı. XVIII əsrdə Edinburq Universiteti Avropa maarifçiliyinin mərkəzinə çevrilir.

Universitetin ən qədim binalarından biri hazırda Hüquq məktəbinin yerləşdiyi Old (qədim) Kollecidir. XIX əsrin sonlarında Old Kollecində təhsil alan tələbələrin çoxluğunu nəzərə alaraq, 1875-ci ildə yeni tibb məktəblərinin tikintisinə başlanır. 1840-cı ildə burada Müstəqil Kilsə Kolleci inşa edilir və 1920-ci ildən universitetin İlahiyyat Məktəbi kimi fəaliyyət göstərən bu təhsil müəssisəsi hazırda Yeni Kollec adı ilə tanınır. 1884-cü ildə Robert Bell Edinburq Universitetində Tələbə Assosiyasiyası yaradır. 2002-ci ildən universitet 3 kollec və 22 məktəbə bölünür. 12 avqust 2002-ci ildə Edinburq hersoqu Şahzadə Filipp ən müasir xəstəxana, baytarlıq klinikaları, elmi-tədqiqat institutları açmaq üçün universitetə 40 milyon funt vəsait ayırır. Bu ərazidə xəstəxanalar, məktəb, fakültə və institutlar, tədqiqat mərkəzlərindən ibarət olan və Kiçik Fransa adlanan Edinburq Kral Xəstəxana kompleksi yaradılır.

Hazırda Edinburq Universitetinin illik dövriyəsi 592 milyon funt-sterlinq təşkil edir. 2009-cu ildə universitetə edilən yardımların məbləği 249 milyon funt-sterlinq olub. 2009-2010-cu tədris ilində Edinburq Universitetində əyani təhsil almaq üçün təhsil haqqı orta hesabla 3225 funt-sterlinq idi. Bu məbləğ, ümumiyyətlə, tələbənin oxuduğu kollecdən, məktəbdən, seçdiyi ixtisasdan asılı olaraq dəyişir və təhsil haqqını ödəmək üçün tələbəyə kredit təklif olunur. Kreditin məbləği tələbənin ailə büdcəsindən asılıdır. Tələbə kredit borclarını universitetdə təhsil alarkən tədricən ödəyir. Tələbəyə kredit verildiyi gündən hər sentyabr ayı borcun üzərinə faiz əlavə olunur. Deməli, tələbə borcunu nə qədər tez qaytararsa, o qədər ona sərfəlidir. Təhsil haqqının yarsının ödənilməsi tələbənin oxuduğu kollec və məktəbdən asılıdır.

Universitetin bugünki kampusu yeddi hissədən ibarətdir: Mərkəzi rayon, Kral binaları, Kiçik Fransa, Əsas Qərbi, Pasxa Buş, Summerhall, Kral Mili Kampusun ən qədim hissəsi Mərkəzi rayondur. Bu ərazidə Corctaun meydanı, 2008-ci ildə yaradılmış İnformatika Forumu (İnistitutu), Duqald Stüart binası, Old Kollec, Humanitar və sosial elmlər kolleci, İnformatika və Hüquq məktəbləri, kitabxana və s. yerləşir. Summerhal adlanan ərazidə Royal Dik baytarlıq tədqiqatları məktəbi və məktəbə aid geniş təsərrüfat sahəsi mövcuddur. Kral Mili yaxınlığında 1998-ci ildə universitetə birləşdirilən Mori Təhsil Evi yerləşir.

Edinburq şəhəri yaşamaq və oxumaq üçün təhlükəsiz şəhərdir. Burada təhsil alan tələbələr üçün bütün şərait yaradılıb və tələbə, magistrant, doktorantlar, yataqxana, yeməkxanalar, idman, müxtəlif əyləncə mərkəzləri, media, oxu zalları, rahat nəqliyyat, hətta iş yerləri ilə də təmin olunurlar.

Universitetin akademik strukturuna 22 məktəbdən ibarət olan 3 kollec daxildir: Humanitar və sosial elmlər kolleci; tibb və baytarlıq kolleci; elmlər və mühəndislik kolleci.

Edinburq Universiteti müxtəlif proqramlar üzrə distant təhsillə çıxış edir. Edinburq Universitetinin kitabxanası hələ universitet yaradılmamışdan əvvəl ayrıca kitabxana kimi fəaliyyət göstərib və hazırda Şotlandiyanın ən böyük universitet kitabxanası hesab olunur. Onun təməli 1580-cı ildə qoyulub və hazırda Əsas Kitabxana adlanır. Burada 2 milyondan çox kitab, əlyazma, dissertasiya işi, mikroforma və s. mövcuddur. Onların əksəriyyəti Corctaun meydanında səkkiz mərtəbəli binada yerləşən Əsas Kitabxanada – Avropanın ən böyük akademik kitabxanasında toplanıb. Artıq XVII əsrdə universitet kitabxanasının ehtiyatı 2400 cild kitaba bərabər idi. Hazırda kitabxanada 1200-dən çox əlyazma, XVII və XVIII əsrlərə aid 35000, XIX əsrə aid 60000 çap edilmiş kitab saxlanılır.

Edinburq Universitetinin muzeyində 200000-dən çox incəsənət əsəri, qədim tapıntılar, modellər, musiqi alətləri, elmi-texniki avadanlıq və s. mövcuddur. 1953-cü ildən universitetin kansleri Edinburq hersoqu Əlahəzrət Şahzadə Filipdir. Onun təşəbbüsü ilə 2002-ci ildə universitetin Tibb korpusu tikilib.

2009–2010-cu tədris ilində universitetə qəbul üçün 37791 müraciət daxil olub. Edinburq Universitetində "Erasmus" proqramı çərçivəsində Avropa ölkələrilə tələbə mübadiləsi üçün 350, Şimali, Cənubi Amerika, Asiya, Avstraliya ölkələri universitetləri üçün isə 170 yer ayrılıb.

**Mançester Universiteti (The University of Manchester).** İngiltərənin şimal-qərb bölgəsinin ən böyük universitetidir və universitet Böyük Britaniyanın nəhəng elmi-tədqiqat universitetləri qurumu olan "Russell Qrupu"nun və elmi-tədqiqat lahiyələri üzrə "N8 Qrupu"nun üzvüdür. 2009-cu il üzrə reytinqdə isə Mançester Universiteti dünyada 26-cı, Avropada 8-ci, Böyük Britaniyada 7-ci yerdə sıralanıb. Mançester Universiteti dünya elminə verdiyi töhfələri ilə tanınmışdır.

Mançester tarix boyu tanınmış sənaye şəhəri olub. 1824-cü ildə şəhərin iş adamları və sənayeçiləri tabeliklərində olan işçilərin əsas elm sahələrini, xüsusən mexanika və kimyanı daha yaxşı mənimsəmələri üçün müştərək Mexanika İnstitutunu (sonradan Mançester Elm və Texnologiya İnstitutu) açmaq qərarını verirlər. Eyni məqsədlə 1851-ci ildə toxuculuq taciri Con Ouensin təşəbbüsü ilə Kollec təsis olunur. Kollec 1880-ci ildə Kraliça fərmanı ilə təltif olunur və İngiltərənin birinci mülki təhsil müəssisəsi kimi fəaliyyət göstərməyə başlayır. 1903-cü ildə bu kollec Viktoriya Universiteti adlandırılır. 1905-ci ilədək hər iki kollec bölgənin ən böyük və fəal təhsil müəssisələrinə çevrilir. Mançester Universiteti ənənəvi olaraq güclü elmi ilə seçilib. Dünyanın iki kiçik təcrübə proqramı və atomun nüvə təbiəti Rezerford tərəfindən məhz burada kəşf edilib.

Böyük Britaniya kraliçası II Yelizavetanın fərmanına əsasən, 22 oktyabr 2004-cü ildə Mançester Viktoriya Universiteti ilə Mançester Elm və Texnologiya İnstitutu rəsmən birləşərək, Mançester Universiteti adı altında fəaliyyət

göstərir. Universitetin açılışında Kraliça II Yelizaveta şəxsən iştirak edir. Bu hadisə həmin ali təhsil ocağının böyük nüfuz qazanmasına səbəb olur.

2009-cu ilin nəticələrinə əsasən, Mançester Universitetinin illik gəliri 684 milyon funt-sterlinqdən çox olub. Bu məbləğin çox hissəsi dövlət tərəfindən ayrılan qrantlardan, elmi-tədqiqat və təhsil haqlarından əldə olunur. 2008-ci ildə universitetin tədqilatları nəticəsində gəlirinin məbləği 253 milyon funt-sterinq olub. 2009-2010-cu tədris ilində Mançester Universitetində təhsil haqqı yerli tələbələr üçün təxminən 3200 funt-sterlinq, əcnəbi tələbələr üçün 10000-15000 funt-sterlinq təşkil edib.

Mançester Universitetində hər bir məktəbin tələbələri üçün müxtəlif təqaüdlər mövcuddur. Həmin təqaüdlərə üzv olmaq məqsədilə tələbələr qəbul ərzilərini göndərərkən universiteti bu barədə məlumatlandırmalıdırlar. Universitetdən əlavə tələbələrin faydalanacağı “Britaniya Şurası” və s. Qurumların da təqaüd proqramları var.

Mançester Universiteti dünyanın bəzi universitetləri kimi geniş kampusa malik deyil. Buna səbəb universitetin özünün xüsusi ərazisinin olmamasıdır. Universitetin nəzdində 1,21 $km^2$ sahəni əhatə edən 341 bina var. Həmin binalar Mançester şəhərinin cənub bölgəsində bir-birinə yaxın yerləşib. Mançester Universitetinin kampusu iki hissədən ibarətdir: Sekvil Stritdə (Sackville Street) və Oksford Raudda (Oxford Road) mərkəzləşmiş Şimal və Cənub kampuslar. Universitetə aid bəzi tikililər şəhərdən kənarda yerləşir. Məsələn, Jodrel Radio-astroloji Rəsədxanası (Jodrell Bank Observatory) və Van Sentral Park (One Central Park) binası Keşiş qraflığına yaxın yerdədir. Mançester Universitetinin nəzdində 22 akademik məktəb və dünya əhəmiyyətli müxtəlif sahələrin tədrisi və tədqiqatı ilə məşğul olan yüzlərlə tədqiqat institutları vardır. Burada dörd fakültə mövcuddur: Tibb və ictimai elmlər, Mühəndislik və fizika, Humanitar elmlər və Həyat elmləri.

Universitetdə 200-ə yaxın müxtəlif adda proqramlar tədris olunur. Yayda isə 800 nəfərlik xüsusi məktəblər fəaliyyət göstərir. Mançester Universitetinin nəzdində Aerokosmik Tədqiqatlar, Biotibbi Vizualizasiya, Yoxsulluqla Mübarizə, Dalton Nüvə Tədqiqatları, Sağlamlıq Haqqında Elmlər, Etika və İnnovasiya Elmləri, Neyroelmlər və s. institutlar mövcuddur.

Universitetin Cənub kampusunda yerləşən Con Raylend kitabxanası Böyük Britaniyanın ən böyük elektron kolleksiyalı, Oksford və Kembricdən sonra ölkənin üçüncü ən böyük akademik kitabxanasıdır. Əsası 1851-ci ildə qoyulmuş on iki binadan ibarət kitabxanada 4 milyondan çox kitab və əlyazma, 40000-dən çox jurnal və 500000 elektron kitab var. Mançester Universitetinə aid Mançester Muzeyi Böyük Britaniyanın ən böyük muzeylərindən biridir. 1821-ci ildə yaranmış muzey dünyanın hər tərəfindən gətirilmiş 4 milyondan çox eksponata sahiblik edir.

Mançester Universitetinin nəzdində universitetin nəşriyyatı fəaliyyət göstərir. Nəşriyyat kitab, jurnal, qəzet, monoqrafiya və s. dərc edir. Oksford

və Kembric universitetlərinin nəşriyyatından sonra Mançester Universiteti nəşriyyatı ölkədə üçüncü yerdədir.

Mançester Universitetində, ümumilikdə, 15500 nəfər işlə təmin olunub. Onların 5800 nəfərini akademik heyəti təşkil edir. Universitetin kansleri cənab Tom Blokshem, vitse-prezidenti professor Alan Hilbertdir.

Universitetdə cari ildə təhsil alan 35441 tələbənin 74 faizi bakalavr (26160 nəfər), qalanı isə magistratura və doktorantura pilləsi üzrə oxuyurlar. 2008-ci ildə bakalavr pilləsində təhsil almaq üçün 53300 nəfər universitetə ərizə ilə müraciət edib. Bu göstəriciyə görə, Mançester Universiteti Böyük Britaniyada birincidir. Universitetin 180 ölkədən olan əcnəbi tələbələrinin sayı 6305 nəfərdir.

Universitetin tələbə və məzunlarının işlə təmin olunması üçün Karyera Xidməti mövcuddur. AGR/Barkers Media Audit şirkətinin 2002-2007-ci illərdəki araşdırmasına əsasən, bu təşkilat Böyük Britaniyanın ən yaxşı işədüzəltmə xidmətidir. Mançester Universitetinin işədüzəltmə göstəricisi də yüksəkdir, onların 94%-i işlə təmin olunur.

Mançester Universitetində 23 Nobel mükafatçısı var idi. Mançester Universitetinin tanınmış şəxslərindən atom nəzəriyəsinin banisi Con Daltonu, atomun nüvə təbiətini kəşf etmiş Ernest Rezernfordu, iqtisadçı Riçard Nelsonu və s. qeyd etmək olar.

**Oksford Universiteti (University of Oxford).** Oksford Universiteti 1117-ci ildə yaradılmışdır və ən qədim ingilisdilli ali məktəbdir. Oksfordda beynəlxalq hazırlığın əsası, ilk xarici tələbə İslandiyadan gəlmiş Emonun adı ilə bağlıdır. Oksfordun köhnə kollecləri 1249-cu (Balliol) və 1264-cü illərdə (Merton) yaradılıb. Universitetə ilk qadın qəbulu 1878-ci ildə olmuşdur. İlk qadın müəllimlər isə 1920-ci ildən dərs deməyə başlayıb. 1974-cü ildən etibarən Oksfordun bütün 39 kolleci (birindən başqa) öz nizamnaməsini qadın və kişilərin birgə təhsil alması üçün dəyişdi. Hazırki dövrdə yalnız qadınlar üçün yeganə olan kollec St. Hilda kollecidir. Müharibədən sonrakı illərdə (1939-1945) Oksfordun humanitar fakültələrinə tibb də daxil olmaqla təbiət və tətbiqi elmlər əlavə olundu ki, bu da dünya üçün əhəmiyyətli rolu olan tədqiqat mərkəzi kimi universitetin şöhrətini artırdı.

Universitetdə verilən təhsilin əsas istiqaməti tələbələrin informasiyanı tapıb düzgün istifadə etmək və sərbəst fikir söyləməkdir. Universitetdə 11015 tələbə təhsil alır və bunlardan 4626 doktorantlardır. Universitetdə nizam-intizamla bağlı qaydalar və üsullar çox ciddidir. Nizamnamə, siyasət və kodekslərə aşağıdakılar daxildir: tələbə kodeksi; davranış kodeksi; universitet imtahanlarının aparılması; bərabər imkanlar siyasəti; nitq azadlığı; İT vasitələrindən istifadə bacarıqları; OULS (Oksford Universitet Kitabxana xidmətləri) şəbəkəsindən istifadə kodeksi; tədqiqatda akademik inteqrallıq və plagiatlıqdan yayınma; cəmiyyət və klubların yaradılması.

Digər qabaqcıl universitetlərdə olduğu kimi, burada da yerli və şəhərkənarı kampuslar mövcuddur və tələbələr bu tələbə şəhərciklərində cəmləşirlər. Oksford tələbələri burada yalnız biliklərini, elmi tədqiqat, zəngin intellektual bacarıqlarını artırmaqla yanaşı, idmanla məşğul olur, klub və cəmiyyətlərdə birləşir, ictimai həyatda fəal iştirak edir və tələbəlik illərinin ilk kurslarından real həyata hazırlaşmış olurlar.

Hazırda universitetdə 20000 tələbə və 8101 doktorant təhsil alır. Hər il 15000 nəfər Fasiləsiz Təhsil Departamentinin təklif etdiyi kurslarda iştirak edir və göstərilən bu xidmət Universitetin Birləşmiş Krallığını fasiləsiz təhsili təmin edən ən geniş təchizatçısına çevirir. Oksford Universiteti 38 kollec və 6 daimi özəl zallara malikdir. Universitet hazırda tədqiqat istiqamətli Britaniya universitetləri, Kolumbiya Qrupu, Avropa Tədqiqat Universitetləri Liqasının Russel Qrupu və eyni zamanda Avropa universitetlərinin ən əsas üzvlərindən biridir. Aparılan reytinq cədvəlinə əsasən, Oksford dünyanın 10 aparıcı universitetləri siyahısındadır.

Universitetin ən görkəmli məzun və akademikləri sırasında Britaniyanın beş baş nazirinin adını çəkmək olar. Digər universitetlərdə olduğu kimi, burada da akademik geyim ənənələri mövcuddur və bu ənənə qədim dövrlərdən qorunur. Semestr dövründə Universitetə gələn hər bir şəxs universitetin müəllim və professor heyətini akademik geyimdə görə bilər.

24 iyul 2009-cu ildə universitetin rəsmi saytında Ali Təhsil Statistikası Agentliyindən verilən məlumata əsasən, Birləşmiş Krallıqda olan digər universitetlərlə müqayisədə Universitetdə 2007-2008-ci ildə xarici tədqiqatdan gələn gəlir (tədqiqat qrantları və müqavilələrindən) daha çox olmuşdur. Oksford Universitetinin maliyyələşdirilməsinin ən böyük mənbəyi universitetin tədqiqat qrantları və gəlirləridir.

Təhsildə tələbələrin qiymətləndirilməsinin tədqiqi üçün Yeni Oksford mərkəzi yaradılmışdır (New Oxford Centre). Oksford Universitet Mərkəzi rəsmi şəkildə təhsilin Qiymətləndirməsi üçün bu sahədə elmi tədqiqatların aparılmasını nəzərdə tutur. Universitetdə həm də başqa universitetlərlə əməkdaşlıq edən 5 Tədqiqat Mərkəzi fəaliyyət göstərir və bu mərkəz seminarlar təşkil edir.

Universitetin vitse-kansleri Doktor Con Hud univer-sitetin uğurundan məmnunluq duyaraq bildirir: "Bu bənzərsiz tədqiqatdan gələn gəlirlər onu göstərir ki, dünya Oksfordun dünyəvi elmi tədqiqatlarına inanır və onun apardığı tədqiqatları dəstəkləyir".

**Şotlandiyada təhsil.** Şotlandiyada təhsil sisteminin quruluşu Təhsil Qanunları – Aktları çərçivəsində Şotlandiya üçün spesifik xüsusiyyətə malikdir və bu qanunlar nizamnamələr vasitəsilə tənzimlənir. Şotlandiya Təhsil Qanunlarının məzmununa təhsilin təşkili və idarəolunması daxildir. Nizamnamələr və məlumat kitabçaları məsələləri daha ətraflı açıqlayır. Şotlandiyada tədris proqramları (kurikulum), dini və mənəvi təhsil istisna olmaqla, qanun-

vericilik tərəfindən idarə olunur. Şotlandiyada təhsil və təlim siyasətini həyata keçirən orqanlar aşağıdakılardır: Şotlandiya Ali Təhsil Şöbəsi; Şotlandiya İcra Orqanı; Nəqliyyat və Fasiləsiz Təlim Departamenti.

Şotlandiya Ali Təhsil Şöbəsi Şotlandiya məktəblərində 2000-ci ildən verilən qanunlardan sonra bir sıra təşəbbüs və təkliflər irəli sürüb ki, bu da Şotlandiya təhsilində real yeniliklərin yaranmasına təkan vermişdir. 1996-cı ildən yerli hakimiyyət orqanları 32 ayrı-ayrı təhsil müəssisələrinin məsuliyyətini öz üzərinə götürmüşdür və onların bir sıra xidmətlərinin həyata keçirilməsi üçün məsuliyyət daşıyır. 1988-ci ildə qəbul olunmuş qanuna əsasən, hər bir orta məktəbə yerli cəmiyyətlərin üzvlərindən, təhsil işçilərindən və valideynlərdən seçilmiş Məktəb Şurası yaratmaq hüququ verilir. Hazırda ibtidai məktəblərin təqribən 88 faizi, orta məktəblərin 97 faizi, özəl məktəblərin 78 faizinin Məktəb Şurası vardır.

İbtidai məktəb 1-7-ci sinifləri (5-11 yaşlı uşaqlar) əhatə edir. Siniflər oğlan və qızlardan ibarətdir. Hər bir sinfin bütün tədris proqramını həyata keçirən bir müəllimi olur və ona bu işdə peşəkar müəllimlər kömək edir. Şotlandiyada nizamnamə şəkildə tədris planı yoxdur, amma Şotlandiya İcra Orqanı 5-14 yaşlı şagirdlər üçün geniş sahələrə bölünən tədris proqramı vardır. Tövsiyə olunan bu proqramda tarazlıq aşağıdakı kimidir: dil 20 faiz; riyaziyyat 15 faiz; ətraf mühitlə bağlı fənlər, cəmiyyət, elm və texnologiya 15 faiz; ifadəli incəsənət və bədən tərbiyyəsi 15 faiz; dini və mənəvi təhsil 15 faiz (sağlamlıq dərsi; şəxsi və sosial inkişaf); seçmə fənlərə ayrılan vaxt 20 faiz.

Şotlandiyada orta məktəb 12-18 yaşlı uşaqlardan təşkil olunur. 16 yaşınadək təhsil icbari hesab olunur. Natamam orta təhsil (12-16 yaş) iki mərhələyə bölünür. İlk iki ildə, yəni 5-14 yaşda uşaqlar ümumi təhsil proqra-mına malikdir. Sonrakı iki ildə daha peşəyönümlü imkanlar açılır. Tam orta təhsil (16-18 yaş) orta məktəbin son iki ilini əhatə edir və şagirdlərə təcrübə qazanmağa, peşə əldə etməyə, sonrakı təhsilini davam etdirməyə yaxından kömək edir. Tam orta təhsilin sonunda şagirdlər, adətən, standart dərəcə almaq üçün və ya yerli cəmiyyətin tələbatlarına uyğun milli komponentlərə aid ixtisaslardan imtahan verirlər.

Milli komponentlərə aid ixtisaslar tam orta məktəbin axırıncı pilləsində tədris olunur. Qeyd edilən ixtisaslarla yanaşı, peşəyönümlü akademik fənlər də tədris olunur və əsas vərdişlər aşılanır, bu da sonrakı bacarıq, vərdişlərin formalaşmasına, inkişafına stimul yaradır. Şotlandiya orta məktəblərinin əksəriyyətində şagirdlərin sayı 400-1200 nəfər olur.

Şotlandiyada fasiləsiz təhsil əsas rol oynayır və 43 kollec bu işdə hamı üçün geniş imkanlar yaradır. Bu kolleclər müraciət edənlərlə münasibət yaradaraq innovativ proqramlar əsasında onları öyrədir və təcrübə keçmək üçün xidmətlər göstərir. Fərdi şəxslərə və birliklərə tam potensialı ilə inkişaf etməsi üçün şərait yaradılır. Sonrakı təhsil müxtəlif tələbatlara cavab vermək məqsədilə həyati vərdişlərin aşılanmasından başlayaraq öyrənmə zamanı meydana

çıxan çətinliklərin aradan qaldırılması, dərəcələrin alınması, ali təhsildən sonrakı mərhələnin problemləri ilə də məşğul olur. Bu da dərəcə almaq üçün və məzunların işində ortaya çıxan problemlərin həlli üçün imkan verir.

Bu kurslar əsasən peşəyönümlü olub, həm nəzəri, həm də praktik sahələri əhatə edir. Kurslar xüsusi peşə sektorları üçün və tələbələrin şəxsi ehtiyaclarına uyğun olaraq sifariş şəklində təşkil olunur. Şotlandiyada peşəyönümlü üzrə sonrakı təhsil üçün əsas qiymətləndirmə şurası Şotlandiya İxtisaslaşma İdarəsidir. Bu idarə texniki və biznes bölmələri üzrə çoxsaylı kurslarda istənilən aşağı və yuxarı səviyyələrdə təltiflər verir. Aşağı səviyyədə verilən sertifikatlar milli ixtisas kimi tanınır. Milli ixtisaslar milli kurslar və qrup mükafatları şəklində ola bilər, məsələn, Milli İnkişaf Mükafatı və ya Milli Sertifikat verilə bilər. Yüksək səviyyədə mükafatlar Ali Milli Sertifikat, Ali Milli Diplom və Professional mükafatlar hesab olunur. Əlavə təhsil üçün kurslar aşağıdakılardır: peşəyönümlü və ümumi təhsil; məktəb şagirdləri üçün peşəyönümlü kurslar; ilkin peşə treninqi; işçilər üçün treninq; iş yerində kurslar; peşə və qeyri-peşəyönümlü axşam kursları; uzaq məsafədən öyrənmə; ictimai təhsil; keçid kursları; ingilis dili xarici dil kimi.

Şotlandiyada 21 ali təhsil müəssisəsi fəaliyyət göstərir. Bura 14 universitet (Açıq universitet) və 7 digər təhsil müəssisəsi aiddir. Ali məktəbə qəbul qaydaları hər bir ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir. Bu təhsil müəssisələri insanlara ali təhsil almaq üçün geniş imkanlar verir. Buraya daxil olmaq üçün ənənəvi yol Şotlandiyada İxtisaslaşma Orqanı tərəfindən aparılan dövlət imtahanlarından keçən qruplardan asılıdır. Bəzi hallarda imtahanın nəticəsinə əsasən abuturiyentlər II və ya III kursa qəbul olunurlar. Hazırlıq kursları və iş təcrübəsi instituta daxil olmaq üçün xüsusi əhəmiyyət kəsb edir. Xarici tələbələrin ərizələri hər zaman qəbul olunur. Şotlandiyada ali təhsil müəssisələrində 2004-2005-ci ildə 29091 nəfər xarici tələbə təhsil almışdır.

Ali təhsil müəssisələri natamam kurslar, birinci dərəcəli kurslar, müəllimlər üçün təhsil və treninq kursları, magistr və doktorantura pillələrində olan məzunlar üçün xüsusi kurslar, peşəkarların ixtisaslaşması üçün isə ali səviyyədə kurslar formasında təşkil olunur.

Şotlandiyada məzunlar birinci dərəcə, orta dərəcə, (ümumi) və 4 illik təhsildən sonra fərqlənmə (ixtisaslaşmış) dərəcəsi alır. Bəzi fakültələrdə, məsələn, tibb və hüquq fakültələrində kurslar ənənəvi olaraq daha uzunmüddətli olur və bu, yüksək səviyyəli peşəkar mütəxəssis kimi iş təcrübəsi ələb edir. Şotlandiyada Keyfiyyətə Təminat Agentliyi bu institularla işləyərək yüksək keyfiyyət standartları əldə olunmasına təminat verir. Ali təhsil müəssisələri bir sıra sahələrdə – incəsənət və humanitar elmlər, sosial elmlər, tibb, hüquq, texnologiya və mühəndislik sahələrində geniş çeşidli kurslar təklif edir. Böyük institutların əksəriyyəti bu spektr üzrə geniş təminatlar verir və eləcə də peşə ixtisasları təklif edir. Daha kiçik institutlar isə səhiyyə qayğısı, incəsənət və dizayn, musiqi və dram, toxuculuq texnologiyası, kənd təsərrüfatı və müəllim

hazırlığı kimi xüsusi sahələr üzrə ixtisaslaşmaya meyil edir. Müxtəlif təhsil imkanları, yüksək keyfiyyətli təminatlar Şotlandiya ali təhsil sisteminin xarakterik əlaməti kimi göstərilir. Şotlandiyada mükafatlanan dərəcələr və ali təhsil ixtisasları həm milli, həm də beynəlxalq aləmdə tanınmışdır.

Şotlandiyada bütün 3-4 yaşlı uşaqlar ödənişsiz keyfiyyətli məktəbəqədər təhsil almaq hüququna malikdir. Məktəbəqədər keyfiyyətli təhsil: uşaqları oyunlar əsasında öyrətməyə kömək edir; evdə olan öyrənməyə əsaslanır; sonrakı həyatda istifadə olunacaq vacib vərdişləri inkişaf etdirir; uşaqları ibtidai məktəbə hazırlayır; milli tədris planı məktəbəqədər mərkəzlərin fəaliyyət planına kömək edir ki, bu da aşağıdakı sahələrdə uşaqların inkişaf və öyrənməsinə şərait yaradır: emosional, şəxsi və sosial inkişaf; ünsiyyət və dil; bilik və dünyanı dərketmə; ifadəli nitq və estetik inkişaf; fiziki inkişaf və hərəkət.

Təhsil proqramının mənimsənilməsi üçün qiymətləndirmə proqramının məqsədi təlim-tərbiyədə müsbət dəyişikliklər etməklə uşaqların həyat vərdişlərini inkişaf etdirməkdir. 1998-ci ildə aparılmış tədqiqat göstərmişdir ki, müddətli qiymətləndirmə daha yüksək nəticələr və böyük nailiyyətlər əldə edilməsinə xidmət edir. Bu tədqiqat göstərdi ki, şagirdlər o zaman yaxşı öyrənir ki: onların yerinə yetirdikləri işin nəticələri geniş təhlil edilsin və onlar bu işi daha da yaxşı icra etmək üçün nələr tələb olunduğunu bilsinlər; bu işin daha da təkmilləşdirilməsi üçün onlara məsləhət verilsin; ehtiyacların öyrənilməsində özləri iştirak etsinlər və daha çox kimdən kömək almaq lazım olduğunu bilsinlər.

Qiymətləndirmə effektiv öyrənmə və öyrətmə prosesinin ayrılmaz tərkib hissəsidir. Qiymətləndirmə elə bir məqsədyönlü və idarə olunan prosesdir ki, burada şagirdlərə tədris kursunun bütün sahələrində öz potensial imkanlarından istifadə etmək üçün şərait yaradılır. Yüksək keyfiyyətli işin qiymətləndirilməsi bütün mərkəzlər və tədris ocaqları üçün keyfiyyətə zəmanəti təmin etmək, nailiyyətləri yüksəltmək, inkişaf və irəliləyişlərə kömək etməkdə zəruridir. Qiymətləndirmənin məktəblərdə istifadə olunan iki tipi – summativ və formativ tipləri məlumdur.

Summativ qiymətləndirmə, adətən, test formalarında və səviyyəni müəyyən edən konkret tapşırıqlar şəklində aparılır. Formativ qiymətləndirmə isə uşağın təlim prosesində müxtəlif tipli fəaliyyət növlərinin iştirakı ilə şərtlənir.

Şotlandiya icra hakimiyyəti təhsili, birgə öyrənməni və inkişafı maliyyə yardımı ilə dəstəkləyir və bununla bağlı hər il yeni orqanlar qrantla ödənilir. Yerli orqanlar tərəfindən təhsilə qoyulan sərmayənin miqdarı onların öz ixtiyarındadır. Gündəlik xərclərin 90 faizi birbaşa məktəbin baş müəllimlərinin səlahiyyətinə verilir. Sonrakı ali təhsil Şotlandiya Maliyyə Şurası ilə Şotlandiya icra hakimiyyəti tərəfindən maliyyələşir. Şotlandiya Maliyyə Şurası Şotlandiyada kollec və universitetlərdə öyrətmə, tədqiqat və digər sahələrin maliyyələşdirilməsinə 1,5 milyard məbləğində pul ayırır.

Niderlandda məcburi təhsil 5 yaşdan başlayır, ancaq bütün uşaqlar məktəbə 4 yaşından gedir. Məcburi təhsil 16 yaşda başa çatır, qanuna görə isə məktəb məzunları 18 yaşlarına qədər ən azı natamam təhsil almalıdır. Ümumtəhsil sisteminin strukturu iki pilləlidir: məktəbəqədər, ibtidai (baza, 4–5, 12 yaş) və natamam orta, tam orta (12–16, 17, yaxud 18 yaş). Orta təhsildə (12-dən yuxarı) 3 istiqamətdə imkan mövcuddur: 4 illik – peşəyəqədər, 5 illik – ümumi orta və ya 6 illik – akademik, ali məktəbəqədər.

Orta texniki peşə təhsilinin strukturu 12 yaşdan başlayır. Bunun üçün 4 illik orta, peşəyəqədər təhsil mövcuddur. İmtahan və ya başqa bir pilləyə keçid baza təhsilinin sonunda aparılır. Niderlandda üç texniki və bir kənd təsərrüfatı istiqamətli olmaqla 13 universitet fəaliyyət göstərir. Həmçinin burada ali peşə təhsili verən 56 kollec var. Təhsilin idarə olunmasının dörd pilləsi vardır: mərkəzi, əyalət, bələdiyyə hakimiyyətli orqanlar, habelə məktəb şuraları. Bütün dövlət və özəl məktəblər dövlətin nəzarəti altındadır. Tədris proqram və planları, təhsil hazırlığının məqsədləri təhsil proqramları hazır-layan Milli İnstitut tərəfindən müəyyən olunur. Təhsildə Milli Ölçmələr İnstitutu bütün təhsil sistemindəki qiymətləndirmənin həyata keçirilməsinə nəzarət edir.

İbtidai məktəb səviyyəsində təhsil hazırlığının məqsədlərinə hər beş ildən bir yenidən baxılır. Təhsil hazırlığı məqsədlərinin iki tipi mövcuddur: fənlərarası və konkret fənlər üzrə. Onlar şagirdlərin 8 illik baza təhsilinin sonuna qədər əldə edəcək minimum bilik, bacarıq və vərdişləri təyin edir. Qiymətləndirmə məktəb bazasında və müəllimlər səviyyəsində mütəmadi olaraq aparılır. Lakin bir çox müəllimlər öz fərdi testlərindən əlavə, Təhsildə Milli Ölçmələr İnstitutu tərəfindən hazırlanmış testlərdən də istifadə edir. Məktəblərin 80%-ə yaxını ibtidai məktəbin başa çatması üzrə könüllü olaraq Təhsildə Milli Ölçmələr İnstitutu tərəfindən işlənib hazırlanmış ümummilli buraxılış imtahanlarından istifadə edir. Təhsildə Milli Ölçmələr İnstitutu həmçinin ayrı-ayrı şagirdlərin uğurlarını yoxlamaq üçün testlər hazırlanır. Ümummilli qeydiyyatdan keçmə sistemi hər bir şagirdə ayrıca kod təqdim edir, bu da onun tətbiqindən bütün təlim dövrü boyu uzun müddət saxlanılaraq fərdi uğurların monitorinqini həyata keçirməyə imkan yaradır. Bundan əlavə, seçmə yollar və yoxlama hər iki ildən bir eyni şagird qrupunun ikinci, dördüncü, altıncı siniflərində irəliləyişi izləmək üçün aparılır.

Orta təhsil iki dövrədən ibarətdir. Birincisi, 2 il müddətli (12-14 yaşlar) baza dövrüdür. Bu mərhələdən sonra məktəblər şagirdlərin baza fənləri üzrə təhsil hazırlığı məqsədlərinə necə nail olduğunu yoxlayır. Şagirdlər hər bir fənn üzrə bir dəfədən az olmayaraq Təhsildə Milli Ölçmələr İnstitutu tərəfindən hazırlanmış ümummilli yekun test imtahanı verirlər. Bu testlər müxtəlif variantlarda olur və məktəb öz təlim istiqamətindən və şagirdin qabiliyyətindən asılı olaraq onları seçə bilər. Test imtahanlarının nə zaman keçiriləcəyi barədə məktəb özü qərar verir. Testlər təhsil hazırlığı məqsədlərinə nail olub-

olmamasını qiymətləndirmək imkanı verir. Şagirdlər baza təhsili haqqında şəhadətnamə alır. Öz baza nəticələrinə uyğun olaraq, şagirdlər və onların valideynləri hansı tip yuxarı orta məktəbə getmək istədiklərini seçə bilir. Məktəb və səlahiyyətli orqanlar öz tövsiyələrini verə bilər, lakin son qərar valideynlərindir. Natamam orta məktəbə daxil olmaq üçün qəbul imtahanları verilmir. Şagirdlər bir natamam orta məktəbdən digərinə keçə bilər, bəzən bunun üçün körpücük adlanan, öz yaşıdlarına çatmağa kömək etmək üçün məşğələlər də keçmək lazım gəlir.

İkinci mərhələ zamanı (14 yaşdan 18 yaşa qədər) şagirdləri onların müəllimləri və məktəb mütəmadi olaraq qiymətləndirir. Onlar hər il fənlərin çoxundan məqbul (10 baldan 6) qiymət ala bilərlərsə, növbəti sinfə keçirilir. Məktəblər öz xüsusi buraxılış imtahanlarını keçirir, layihələr reallaşdırır və s. Ümummilli yazılı buraxılış imtahanları Təhsildə Milli Ölçmələr İnstitutu tərəfindən və dövlətin nəzarəti altında keçirilir. Orta məktəbi bitirərkən şagird qarşısında açılan imkanlar alınmış ixtisas dərəcəsindən asılı olur. Məktəb imtahanlarında alınan qiymətləri ümummilli buraxılış imtahanlarının qiymətləri ilə birləşdirdikdə ümumi nəticə götürülür. Akademik orta məktəb məzunlarının təxminən 61%-i universitetlərə, 27%-i qeyri ali məktəblərə qəbul olur. Hazırda orta təhsil sistemində iki böyük islahat aparılır. 1999-cu ildən bütün beşillik və altıillik məktəblər şagirdlərə bilik və bacarıqlara müstəqil yiyələnməyə imkan yaradan fənlərin təsbit edilmiş konsepsiyasını qəbul edib. Həm də 1999-cu ildən əmək tələblərinə cavab verən texniki peşə və ali texniki təhsilə olan tələbatı təmin etmək məqsədilə texniki peşə təhsilinin dördillik qarışıq forması qəbul edilmişdir.

2004-cü ildə yeni baza orta təhsil proqramı hazırlanmış və qəbul edilmişdir. Məqsəd şagirdlərə fənlərin geniş spektrinə yiyələnmək imkanı verməkdir. Həm də məktəblərdən bütün əsas kursları keçmək tələb olunmur və onlar çevikliyi ilə şagirdlərə müəyyən qrup növlərinə görə fənlərdən və modullardan azad olmaq imkanı verir.

# İTALİYADA TƏHSİL

İtaliyada təhsilin pillələri aşağıdakı kimidir:

məktəbəqədər təhsil;

ibtidai təhsil;

ümumi orta təhsil;

ali təhsil.

İtalyada uşaqlar üç yaşından uşaq bağçalarına gedirlər və orada onları məktəbə hazırlayırlar. Uşaqlar 15-30 nəfər olan qruplarda təhsil alır və uşaq bağçasından sonra ibtidai məktəbə gedirlər. İbtidai təhsil 6 yaşından 11 yaşına kimidir.

İbtidai təhsil iki pillədən ibarətdir. Hər iki pillədə təhsil hamı üçün icbaridir. İbtidai təhsil sona çatdıqdan sonra şagirdlər şifahi və yazılı imtahan verirlər. Onların nəticələrinə görə ibtidai məktəbin bitirilməsi haqqında diplom verilir. Bu pillədə oxu, yazı, rəsm, musiqi fənləri tədris olunur və bu fənlər məcburidir. Yalnız dinə aid tədrisin seçimi sərbəstdir, şagirdlərin özlərindən asılıdır. Tədris planlarına həm də bir xarici dilin öyrənilməsi daxil edilir.

Natamam orta təhsil 11 yaşından 15 yaşına kimidir. Bu pillədə italyan dili, tarix, coğrafiya, riyaziyyat və təbiət elmləri, xarici dil, incəsənət və musiqi tədris olunur.

Tam orta təhsil 18-19 yaşına kimidir. Bu pillədə şagirdlər adi proqram özrə təhsil alaraq, ali məktəblərə daxil olmaq üçün hazırlaşır və ya öz təhsillərini seçdikləri peşə özrə davam etmək haqqında qərar qəbul edirlər.

Şagirdlər öz təhsillərini adi proqram özrə davam etdirmək qərarına gəldikdə, onların əsas məqsədi universitetə daxil olmaq üçün liseylərdə təhsil almaqdır. Liseylər növlərinə görə aşağıdakılardan ibarətdir:

klassik liseylər;

texniki liseylər;

humanitar liseylər;

linqvistik liseylər;

incəsənət liseyləri.

Şagirdlər peşə seçərkən faktiki olaraq öz gələcək peşəsi, sənəti haqqında qərar qəbul edir və lisey məzunlarının əksəriyyəti ali məktəblərə daxil olur.

İkinci halda isə şagirdlər məktəb təhsilindən başqa, hər hansı istənilən peşəyə sahib olurlar. Bu növ təhsilə kolleclərdə, liseylərdə və orta məktəblərdə yiyələnmək olar. Şagirdlər orta məktəbi bitirdikdən sonra orta təhsil haqqında diplom və peşə istiqamətləri özrə ixtisaslaşma haqqında şəhadətnamə alırlar.

Ali təhsil 18-19 yaşlarından sonra başlayır. İtaliyanın ali təhsil sistemi universitet, texniki universitet, universitet kollecləri, akademiyalardan ibarətdir və təhsilin müddəti üç ildir. Ali təhsilin ikinci pilləsi ixtisasdan asılı olaraq 4 ildən 5 ilə qədər davam edir. Tibb ali məktəblərində təhsilin müddəti 6 ildir.

Ali təhsilin üçüncü pilləsi doktor tədqiqat proqramları, diplomdan sonrakı təhsil və ya peşə istiqaməti üzrə kurslardan ibarətdir. Bunlar isə universitetlərdə, həm də xüsusiləşdirilmiş təhsil müəssisələrində keçilir. Bu pilləni sona çatdırdıqdan sonra mütəxəssis və ya doktor diplomu verilir.

Xaricdən gələn şagirdlər üçün İtaliyada tam orta ümumi təhsil aşağıdakı əsas pillələrdən ibarətdir:

müddəti 5 il olan ibtidai təhsil;

müddəti 3 il olan orta təhsilin birinci pilləsi;

müddəti 5 il olan orta təhsilin ikinci pilləsi.

Xaricdən gələn şagirdlər İtaliyada dövlət məktəblərində və ya qeyri-dövlət (özəl) məktəblərinin birində orta təhsil ala bilər. Orada uşaqlar altı yaşında ibtidai məktəbə daxil olur. İtaliyada məktəbin ilk iki pilləsi hamı üçün icbaridir və orada təhsilin bu pilləsində bütün fənlər: oxu, yazı, rəsm, riyaziyyat, musiqi və s. məcburidir. Fənnin seçimi şagirdlərin istəyindən asılıdır. Bu müddətdə isə xarici şagirdlər İtaliyada italyan dilini öyrənə bilirlər. İtaliya məktəblərinin tədris proqramlarında, adətən, bir xarici dilin öyrənilməsi daxil edilir. Dərs həftədə 5 gün davam edir və 30 saata yaxın olur. Hər pillənin sonunda test imtahanları aparılır. Qiymətləndirmə sözlərlə aparılır və qiymət sistemi ("əla", "yaxşı" və s.) tətbiq olunur.

İtaliyanın dövlət məktəblərində siniflərin sahəsi çox böyükdür. Məktəblərin ümumi sayının təxminən 50 %-ni təşkil edən özəl məktəblərdə şagirdlərin sayı azlıq təşkil edir. Özəl məktəblərdə tədris proqramı dövlət tədris proqramı ilə eynidir, lakin bu növ məktəblərə attestat verilmir, çünki onların şagirdləri müvafiq sertifikat əldə etmək üçün dövlət imtahanları verirlər.

İtaliya məktəblərində ilk beşillik təhsil bitdikdən sonra yazılı və şifahi imtahanlar verilir. Onların nəticələrinə görə ibtidai məktəbin attestatı verilir və şagirdlər orta məktəbə daxil olub, 14 yaşına kimi oxuyurlar. İtaliyada təhsilin bu pilləsində şagirdlər italyan dili, tarix, coğrafiya, riyaziyyat, təbiət elmləri, xarici dil, incəsənət və musiqini öyrənirlər. Hər tədris ilinin sonunda "verildi-verilmədi" sistemi üzrə imtahanlar keçirilir. Bu pillə sona çatdıqda buraxılış imtahanları olur: italyan dili, riyaziyyat və xarici dil fənlərindən yazılı, qalan fənlərdən isə şifahi imtahan verilir.

İtaliyanın orta məktəb məzunları orada orta ixisas məktəblərinə və ali texniki məktəblərə daxil olur.

Məzunlar peşə təhsil müəssisələrində (texniki məktəblər, peşə məktəbləri, incəsənət məktəbləri) 14 yaşından 19 yaşına kimi təhsil alırlar. İtaliyanın universitetlərinə daxil olmaq üçün liseylərdə hazırlıq kursları vardır. Onların üç növü vardır: klassik, texniki və təbiət elmləri liseyi. Bütün liseylərin təhsil proqramında

italyan ədəbiyyatı, riyaziyyat, fizika, təbiət elmləri, fəlsəfə, tarix fənləri daxil edilir. Məzunlar imtahan verərək attestat alır və bu attestatlarla onlar universitetlərə daxil ola bilər.

Klassik liseylərdə humanitar elmlər üzrə 5 illik tədris proqramları reallaşdırılır, lakin təbət elmləri fənləri İtaliyada tədrisin ikinci dövründə keçilir. Linqvistik liseylər dil hazırlığını, ədəbiyyat və mədəniyyətin sivilizasiyanın öyrənilməsini həyata keçirir. İtaliyada texniki təhsil texniki institutlarda tədris olunur və tədris 5 il müddətinə nəzərdə tutulur. Başqa fənlər üzrə, o cümlədən incəsənət üzrə peşə hazırlığı peşə institutlarında, aktyorluq liseylərində və incəsənət institutlarında həyata keçirilir.

İtaliyada bütün təhsil proqramları müxtəlif növ buraxılış diplomlarının alınması ilə nəticələnir: klassik, linqvistik, texniki, idarəetmə, iqtisad və s. Bu diplomların hər biri İtalyanın ali təhsil məktəblərinə qapı açır. 1998-1999-cu ildən bu məktəblərdə məzunların ixtisaslaşması (hazırlığın istiqaməti) başladı. İtaliyada ali təhsilin üstünlükləri nədən ibarətdir: İtaliyada dövlət universitetlərində illik təhsil haqqı 500 avroya yaxındır. Özəl ali məktəblərində isə illik təhsil haqqı 8500-25000 avrodur. İtaliya dizayn və moda (dəb) üzrə diplom verilməsi sahəsində dünyada birinci ölkədir. İtaliyanın özəl ali təhsil müəssisələrində təhsil italyan və ingilis dilində tədris olunur. Bu ölkə dünyanın ən gözəl ölkələrindən biridir. İtalyan dilinin İtaliyada öyrənilməsi bir o qədər çətin deyil. Orada ali təhsil, universitetlərdən, incəsənət akademiyalarından, konservatoriyalardan, idman institutlarından və.s ibarətdir.

Bu ölkənin təhsil sistemi şüşə, keramika, rəssamlıq və s. ixtisasları üzrə çox məşhurdur. Orada həmçinin dizaynerlərin hazırlandığı, naşir və reklamçı peşələrinin tədris olunduğu sənət institutları vardır. Heykəltəraşlıq, rəssamlıq, aktyorluq və s. ixtisasları incəsənət akademiyalarında tədris olunur.

İtaliyanın universitetlərinə necə daxil olmaq olar? İtaliyanın nəfis sənət akademiyyası kimi ali təhsil müəssisələrinə abituriyentlər ilk sınaqların nəticələrinə əsaslanaraq imtahansız qəbul olunur. İtaliyanın ali təhsil müəssisələrində tədris ili oktyabr-noyabr aylarında başlayır və yaya kimi qurtarır. Bu dövr ərzində tələbələr üç sesiyanı müvəffəqiyyətlə verməlidir. Fakültədən asılı olaraq bir neçə imtahanın verilməsi məcburidir, qalanları isə tələbələrin seçimindən asılıdır. Bundan başqa, imtahanların verilmə qrafikləri fərdi tədris planına müvafiq olaraq tələbələrin özləri tərəfindən tərtib olunur. İtaliya universitetlərində dərslərdə iştirak etmək məcburidir və imtahanlarda müvəffəqiyyət qazanmaq ancaq müstəqil hazırlıqdan asılıdır: imtahanlar yazılı və şifahi olur. Qeyd etmək lazımdır ki, İtalya ali təhsil müəssisələrində imtahan biletləri olmur.

İtaliya universitetlərində tədris müddəti 4 ildən 9 ilə qədər davam edir. Bakalavr dərəcəsinə müvafiq olan birinci diplomu tələbələr dərslərin başlanmasından 4-6 il keçdikdən sonra seçilmiş ixtisasdan asılı olaraq əldə edirlər. Bakalavrdan sonrakı pillə magistr pilləsidir. Magistr pilləsində tədris müddəti 3 ildir .

"Qlobal Dialoq" tədris-tövsiyə mərkəzi İtalyada ali təhsil almaq məqsədilə səfərlərin təşkilini, həmçinin universitet və inisititlara daxil olmaq üçün vasitəçilik və dəstək xidmətlərini göstərir.

**Bolonya Universiteti (Universita di Bologna).** İtaliyanın başqa şəhərlərində olduğu kimi, Bolonya şəhərində də qədim zamanlardan Roma hüququnun öyrənilməsi, həyata keçirilir. Universitetin təməlinin qoyulmasının dəqiq tarixi məlum deyil. Lakin Bolonyada X və XI əsrlərdə xüsusi şöhrət qazanmış ritorika kursunda şagirdlərə əlavə olaraq Roma hüququnun öyrənilməsi daxil edilmişdir. Hüququn dərindən öyrənilməsi əsasını XI əsrin sonunda İrneriy qoymuşdur. İrneriy incəsənət məktəbində müəllim işləmişdir. O, Yustinianın (Bolonya universitetində yaradılan hüquqşünaslar məktəbinin banisi) hüquq üzrə əldə etdiyi elmi nəzəriyyələri müəllimsiz müstəqil şəkildə öyrənərək, legislatura (ölkənin qanunverici orqanının adı) şöhrətini qazanmışdır. Ondan əvvəl fəaliyyət göstərmiş professorlar haqqında tarixi məlumatları XIII əsrin Bolonya hüquqşunası Odfru vermişdir. Toskanın və Lombardiyanın bir hissəsinin sabiq sahibkarı qrafinya Matildanın xahişi ilə xüsusi hüquq məktəbi açılmışdır. Bu şahzadə Roma papasının tərəfdarı olmuşdur, papa taxtına düşmənçiliyi ilə seçilən Ravenna buna görə məhkəməyə çağrılmışdır.

İrneriy öz kütləvi mühazirələrinə 1088-ci ildə başlamışdı və bu il onun institutunun təməlinin qoyulduğu il hesab olunur. O vəfat edənə qədər orada kafedraya rəhbərlik etmişdir (1125-1137). İrneriyinin bir çox şagirdləri var idi, onlardan ən məşhur dörd nəfəri hüquq elmləri doktoru idi: Bulqar Martin, Qozia, Quq və Jan de la Porte Revennante. XII əsrin əvvəllərində Bolonyada hüquq məktəbi artıq məşhur Rovenna məktəbi hesab edilirdi. Lakin hələ bu əsrin ortalarında İtaliyanın sərhədlərindən kənarda incəsənət məktəbi böyük şöhrətə malik idi. Artıq XII əsrin axırlarında Bolonyanın hüquq üzrə professorları Bolonyanın digər alimləri ilə müqayisədə böyük üstünlük əldə etdilər və onlar Avropa səviyyəsində məşhur oldular. Bu isə ilk anda təlim metodunun elmi üstünlükləri və Lombardiya kralı olan, taxta təcavüz hallarında dəstək ala biləcəyi Roma hüququnun nüfuzunun dəstəklənmsində maraqlı olan Almaniya imperatoru I Fridrixin himayəsi altında baş vermişdir. 1158-ci ildə Ronkalyedə olan Fridrix öz üzərinə Bolonyada Roma hüququnu öyrənən bütün tələbələrə aşağıdakı imtiyazları vermək öhdəliyini götürdü: birinci, ölkələrdə müstəqil, azad şəkildə səyahət etmək (bu adətən əcnəbilərin yaşadıqları bir çox narahatçılıqların qarşısının alınmasına imkan verirdi), ikinci, şəhərdə yalnız yepiskopun məhkəməsinə tabe olmaq imkanı.

Ölkənin gözəl iqlimi və inkişafı onun xüsusi şöhrətinə səbəb olmuşdur. Yalnız cavan oğlanlar deyil, yaşlı, ailəli adamlar da oxumağa gəlirdilər. Onların arasında Kuza, Kopernik, Ulrix fon Qutten, Oloander kimi şəxsləri qeyd etmək olar. Kral ailəsinin üzvləri öz uşaqlarını hüquq və incəsənətin öyrənilməsi üçün Bolonyaya göndərirdilər. Universitetin o dövrdə təəcüblü xüsusiyyətlərdən biri ancaq oraya öz nüfuzu və şöhrəti ilə daxil olmağın mümkünsüzlüyü (fəhlə oğlundan və

həm də kral oğlundan bərabər dərəcədə bilik tələb olunurdu) və həmçinin orada qadınların həm tələbə kimi, həm müəllim kimi iştirak etməsi idi.

Avropanın bütün ölkələrindən gələn tələbələr öz adət və ənənələri çərçivəsində sənət və incəsənət sexləri üzrə korporasiyalar yaratmağa başladılar.

Yarandığı tarixdən və şəraitdən asılı olaraq iki xüsusiyyətə malik idi. Birinci, professorların mühazirələrinə gələn tələbələr onların bütünlüklə də tabe olduğu assosiasiyaya yox, professorların tabe olduğu və rəhbərləri özü seçən tələbələr assosiasiyasına tabe idi. Bolonya tələbələri iki əsas hissəyə bölünürdü: ultramontan və sitramontan. Bu hissələrin hər biri hər il rektoru və onunla birlikdə universitetə rəhbərlik edən müxtəlif millətdən olan işçilərin şurasını seçirdi. Professorlar tələbələr tərəfindən müəyyən müddətə seçilir, buna haqq (qonorar) alır və Bolonyadan başqa heç bir yerdə dərs demək öhdəliyi üzərinə götürmür. Beləliklə, universitetdən asılı vəziyyətdə olan və yalnız tələbələrin dərslərinə, məşğələlərinə müstəqil rəhbərlik edən professorlar ancaq öz şəxsi keyfiyyətləri ilə tələbələrin arasında nüfuz qazanırdılar.

Bolonya universitetinin ikinci xüsusiyyəti ondan ibarət idi ki, o ilk andan ancaq ilahiyyət daxil olunan Paris universiteti ilə ziddiyyət təşkil edirdi. Səbəb isə özünün hüquq üzrə istiqamətinin olması idi. Universitetin əsasını qoyan Roma hüququnun və XII əsrdən universitetin proqramına daxil edilən kanonik (kilsə tərəfindən rəsmən qəbul edilən) hüququnun öyrənilməsi müstəsna fənn kimi qalmışdır. Tibb və incəsənət elmləri XII əsrdə məşhur professorlar tərəfindən tədris olunurdu. XIV əsrdə onlarla yanaşı, başqa iki universitet də yaranmışdır:1) tibb və fəlsəfə universiteti; 2) ilahiyyət universiteti. Bolonya universitetinin ən gözəl nəticələrindən biri, onun Paris universiteti kimi papaların baş idarəsinə tabe olmaması idi. 1253-cü ildə onun statuslarını təsdiq edən papalar öz növbəsində universitet üzərində mənəvi hökmranlığa malik oldular. Bolonya universitetində şəffaflığın təmin olunması üçün onlar imtahanlarda və diplomların verilməsi prosesində nəzarətçi kimi iştirak etmələrinə nail oldular.

Bolonya hüquq məktəbinin ən parlaq dövrü İrneriyin mühazirələrini və Akkusiy tərəfindən qlossatorluğun (hüquq şuralar məktəbi) tədrisini əhatə edən, XII əsrin əvvəli ilə XIII əsrin ikinci yarısı arasında olan dövrdür. Bu dövrdə qlossatorların yeni təlim metodu həm şifahi şərhdə, həm də inşalarda ən geniş şəkildə tətbiq olunurdu. Bu uzun dövr ərzində yuxarıda göstərilən dörd doktordan başqa, ən məşhur qlossatorlar kimi aşağıdakıları göstərmək olar: Yustinianın məcəlləsi üzərində işləyən və Monpelyedə hüquq məktəbinin banisi olan, orada da 1192-ci ildə vəfat edən Plasentin; Yunan dilini bilən və pandektlərin yunan mətnlərinin tərcüməçisi olan nadir qlossatorlardan biri olan Burqundio; yüksək nüfuza malik olan Rojer, Jan Bassien, Pillius, Azo; Azo Jak Balduininin işlərini davam etdirən Quqolen; Roffrua və bir çox özündən əvvəlki alimlərin işlərinin xülasəsini verən məşhur qlossator Akkursiy (1182-1258).

Akkursiy hüquqşünaslığa olan məhəbbətini uşaqlarında da yaratmışdır. Onun qızı Dota D`akkirso universitet tərəfindən hüquq doktoru dərəcəsinə layiq

görülmüş, dərs aparmasına icazə verilmiş və universitetin əlyazmalarında qeyd olunan ilk qadın idi. Ondan sonra başqa qadın hüquqşünasların adlarına da rast gəlinirdi. Roma hüququ ilə eyni zamanda Bolonya universitetində öz mühazirələrində və əsərlərində birbaşa İrneriyin metoduna riayət edən professorlarla kanonik hüququn tədrisi müvəffəqiyyətlə keçirdi. XII əsrin ikinci yarısından başlayaraq, Bolonya Universitetinə aid aktlarda kanonik hüquq professorlarının adlarına rast gəlmək olar. 1148-ci ilə yaxın Bolonyada rahib, məşhur dekretalilərin müəllifi Qrasian yaşayırdı. Ondan sonra onun tələbələri Pokapaliya, Rufin, Roland Bandinelli (sonradan Aleksandr III adı ilə Papa olmuş), Ququçço, XIII əsrdə isə İngiltərəli Riçard, Damas, Tankred, Parmlı Bernard, Penyafordan Raymon, Bolonyada kanonik hüquq universitetində tədrisin baş təmsilçiləri oldular. Bir müddət roma hüququnun professorları və kanonistlər ayrı-ayrı sinif təşkil edirdilər: lakin sonralar kanonistlər roma hüququna öz fənninin tərkib hissəsi kimi baxmağa başladılar və əksinə, kononistlər öz işlərində, əsərlərində kilsə qanunlarına istinadlar gətirməli idilər; eyni alimlər bir çox hallarda hər iki hüququn professorları idi və bir-birinə sıx şəkildə bağlı olan hüququn hər iki sahəsi üzrə müəllimlik edirdilər.

Bolonya universitetində hüquq məktəbinin geniş inkişaf etdiyi dövrdə hüquqla yanaşı digər elmlər də inkişaf etməyə başladı: fəlsəfə, latın-yunan filologiyası və tibb elmi. Fəlsəfə üzrə professorlardan XII əsrdə Alberiqonu, eyni zamanda fəlsəfə ilə fizikanı tədris edən florensiyalı Lotu, rahib Monetini misal gətirmək olar. Universitetin filoloqları arasında ingilis Gaufrido di Vinisauf və latın dilini yüksək səviyyədə mənimsəmiş Bonkompanyo xüsusilə seçilirdilər. Yunan dilinin öyrənilməsi ilk dəfə İtaliya universitetləri arasında XV əsrdə həyata keçirildi. Fəlsəfəçilərin arasında Erazm Rotterdamskiy kimi alimin olması ilə fəxr edən Bolonya universiteti daha da möhkəmləndi. Lyusin di Lutsinin yeritdiyi insan və heyvan bədənlərinin anatomiyasının meyitlər üzərində öyrənilməsi metoduna əsaslanaraq tibb elmi də Bolonya universitetində sürətlə inkişaf etməyə başladı. Tibb, sonra isə təbiət elmləri sahəsində Bolonya universitetinin qadın professorları xüsusi olaraq fərqlənirdilər. Onların arasında atası Jiovanni Bukkidən sonra praktiki tibb elmi və mənəvi fəlsəfə kafedrasına rəhbərlik etmiş Doroteya Bukki (XVI-XV əsr), eksperimental fizika və fəlsəfə kafedrasına rəhbərlik edən Laura Bassi, analitik həndəsəni tədris edən Qaetana Aqnezi, anatomiya üzrə əsərləri ilə tanınmış Anna Morandı, I Napolyonun hörmətini qazanmış Mariya di Donne kimi dahilərə rast gəlmək olar.

Bolonya məktəbinin professorlarının malik olduqları mənəvi nüfuz təkcə onların mühazirələrinin və əsərlərinin müvəffəqiyyətində deyil, həm də onların Bolonyada, ondan kənarda tutduqları yüksək mövqedə özünü göstərməsi idi. Onlar vergilərdən və hərbi xidmətdən azad idi və hətta bu şəhərdə anadan olmasalar da bu şəhərin vətəndaşlarının bütün hüquqlarına malik olurdular. Onlara incəsənət məktəbinin professorlarının daşıdıqları magistr rütbəsindən fərqli olaraq,

dominus rütbəsi verilirdi, və onlar cəngavər sayılırdılar. Əksəriyyəti ictimai həyatda hakimlər, şəhərin hökmdarları idi və bəzirləri isə öz şöhrətini universitetin hesabına qazandığını yaddan çıxarırdı. XII və XIII əsrlərdə universitetin hüquq və imtiyazlarını ləğv etmək təhlükəsini yaradan, dərs və məşğələləri pozan bəzi ciddi mübahisələr meydana çıxırdı. İtaliyanı iki düşmən hissəyə bölmüş Qvelf və Qibbelinlərin mübarizəsi Bolonyada baş verirdi, və universitet ona laqeyd qala bilməzdi. Lakin bu mübahisələrə, fikir ayrılıqlarına baxmayaraq, Bolonya məktəbi inkişaf edirdi. XII əsrin ortalarının onun ən parlaq dövrü kimi xarakterizə edilməsi heç də təsadüfi deyil. Bəzən Roma hüququnun ilkin mənbələrinin mətnlərindən istifadə etmək əvəzinə, məktəbdə və həm də məhkəmələrdə özündən əvvəl olan qlassatorların şərhlərinə üstünlük verirdilər.

Müxtəlif hadisələr Bolonya professorlarının malik olduğu nüfuzun azalmasına təsir göstərirdi. İctimai işlərdə iştirak edərək, onlar istər-istəməz partiya mübahisələrinə qoşulur və bu səbədən də öz nüfuzlarını aşağı salırdılar. XIII əsrin axırlarında şəhər kütləvi mühazirələr üçün bir neçə kafedra yaratmış, və bu kafedraları tutmuş professorlara, tələbələrin ödədikləri pula görə müəyyən əmək haqqı verilirdi. Bu dövrdə professorların əksəriyyəri təhsilin tənzimlənməsi iddiasında olan dövlət bələdiyyəsindən asılı vəziyyətə düşdülər. Növbəti əsrdə isə Bolonya məktəbinə daha bir dəhşətli zərbə endirildi: şəhərdə tədricən hakimiyyəti ələ alan siyasi partiya, dərs demək hüququnu yalnız Bolonya vətəndaşlarına və az sayda olan ailələrin üzvlərinə vermək iddiasını irəli sürdülər. Beləliklə də, Bolonya universiteti tədricən Roma hüququnun tədris olunmasında üstünlüyü itirirdi, çünki o dövrün ən məşhur leqistləri, bir-biri ilə elmdə rəqabət aparan Piza və Peruza Paduya və Paviyaya dərs deməyə getdilər.

Bolonya məktəbinin tənəzzülü XIV əsrdə Bartolun şəxsində şərhçi məktəbinin yaranmasına səbəb oldu, bu məktəb XIV və XX əsrlərdə artıq hökmranlıq edirdi. Lakin XVI əsrdə bu tarixi məktəb, tarix və filologiya üzrə qlossatorların işini genişlədirib başa çatdıraraq öz əvvəlki şəklinə düşdü.

Yarandığı dövr müddətində Bolonya məktəbi yalnız İtaliyaya deyil, həmçinin bütün Qərbi Avropaya böyük təsir göstərimişdi. Professorların nüfuzuna görə Bolonya Roma hüququnun diqqət mərkəzində olduğu təhsil ocağı kimi tanınırdı, yəni ümumi fikrə görə, burada yalnız Roma hüququnun və kilsə qaydalarının dərin biliklərinə rast olunurdu. Bu səbəbdən də professorların özlərindən hüquq elmini öyrənmək üçün Avropanın bütün yerlərindən gənclər buraya axışırdı. Bolonya universitetinin dinləyiciləri geri, vətənə qayıtdıqdan sonra qlossatorların metodlarını və doktorinasını təbliğ edirdilər. Ölkələrdə hüquq fakültələrinin əksəriyyəti Bolonya məktəbinin professorları tərəfindən yaradılmışdır: İtaliyada – Padua (1222), Viçens (1203), Araqoniyada (1343) və.s. Fransada – Monpelyedə Plasentin tərəfindən XII əsrin sonunda yaradılmış universitetləri göstərmək olar. Bu universitetlərdə əsas məqsəd Bolonya məktəbi tərəfindən qoyulmuş kanonik hüququn öyrənilməsi idi.

Bolonya məktəbində XII əsrdə Roma hüququnun öyrənilməsi, onun təlim metodları və doktorinasının əhəmiyyətli dərəcədə yeniləşməsi Avropa cəmiyyətinin ideyalarına son dövrə qədər təsir göstərirdi. Bu səbəbdən də Bolonyada universitetin 800 illik yubileyinin (1088-1888) qeyd edilməsi zamanı Avropanın bütün elm sferasının dəstəklədiyi bayramın beynəlxalq xarakteri nəzərə çarpırdı. Başlanğıcı papanın güclü təsirindən azad olub, yenidən kübar xarakterini əldə etdiyi 1859-cu ilə aid edilə bilən müasir durumlu köhnə universiteti çox az xatırladırdı. Onun nəzdində 4 fakültə və mühəndis məktəbi, müəllimlər seminariyası, hüquq fakültəsi və bir sıra universitetlər var idi. Rektor 1888-ci ildə sayı 200-ə çatan professorların sırasından təyin olunurdu. Onların sırasında İtalyan ədəbiyyatı kafedrasına rəhbərlik edən və bu kursa paralel olaraq xalq ədəbiyyatlarının müqayisəli tarixindən mühazirə oxuyan məşhur İtalyan şairi Karduççi, qadın-mühazirəçiləri, slavyan dilləri üzrə professorlar – Cuzeppina Kattani və Malvina Oqonovskaya kimi alimləri göstərmək olar.

Universitetin zəngin kitabxanasında 200 000-dən artıq kitab var idi. Bolonya universiteti dünyanın zəngin tarixi olan qədim universitetlərdən biridir. Bu təhsil müəssisəsinin yaranma tarixini dəqiq təyin etmək mümkün deyil, lakin tarixçilərin əksəriyyəti 1088-ci ili yaranma tarixi kimi əsas götürür. Onun yaranma tarixinin məqsədi Roma hüququnun öyrənilməsi olmuşdur, lakin bu gün onun tərkibinə 23 fakültə, həmçinin İtaliyanın şimalında yerləşən düşərgələr və Buenos-Ayresdə yerləşən düşərgə (filial) daxildir Bolonya Universitetinin hüquq fakültəsi dünyada ən yüksək təhsil ocaqlarından biri sayılır. 2010-cu il reytinqinə görə, Bolonya universitetinin hüquq fakültəsi 32-ci yeri tutmuşdur. Xarici tələbələr üçün Bolonya Universitetində həm italyan, həm də ingilis dilində proqramlar vardır. Ümumilikdə, İtaliya universitetlərində və xüsusilə Bolonya Universitetində təhsil haqqı hər il yenidən təyin olunur. 2011-2012-ci tədris ilində illik təhsil haqqı bakalavriatda 600 avro və magistraturada 910 avro təşkil edir. Doktoranturada birillik təhsil haqqı ixtisaslaşma, tədqiqatların aparılması kimi müxtəlif amillərdən asılıdır. Təhsil haqqı aparılan tədqiqatlara görə qrant hesabına pulsuz ola bilər. Bakalavriatda təhsil 3 il, magistraturada isə 2 ildir. Doktorantura orta hesabla 2-3 il müddətində olur, amma bəzən daha da çox vaxt tələb edilə bilər. Burada təhsil müddəti aparılan tədqiqatların spesifikası və dissertasiyanın hazırlanması ilə bağlıdır.

Bir çox məktəblər bir-birindən fərqli şəkildə formalaşaraq fəaliyyət göstərirdilər, sonra isə bir universitetdə vahid şəkildə birləşdilər. Bolonya Universitetində tələbə və müəllimlər Şurası yaratdılar və beləliklə də, Universitetin ərazisində tərəflərin (müəlim və tələbələrin) bir-birinə nəzarət etdikləri təşkilat meydana çıxdı. 1154-cü ildə universitet rəsmi olaraq tanınmışdır və ona Müqəddəs Roma imperiyasının inperatoru Fridrix Barbarossadan xartiya verilmişdir. Sonra Bolonya şəhərinin bələdiyyəsi şəhərin kənarlarından belə məşhurlaşmış təhsil müəssisəsinin bölmələrinin yaranmasında əhəmiyyətli rol oynamaq qərarına gəldi. Tələbələrin hüquqları azaldıldı, müəllimlərin əmək haqqı isə dövlət tərəfindən ödənildi.

Bolonya universitetində oxuyanların sırasında şairlər Françesko Petrarka və Dante Aliqyeri, astronom Nikolay Kopernik, Roma papası VI Aleksandr, həkim və okkultist Parasels, həmçinin yazıçı Umberto Eko və İtaliyanın 1996-1998-ci və 2006-2008-ci illərdə baş naziri Romano Prado kimi məşhur insanlara rast gəlmək olar.

Hazırda Bolonya universitetində 23 fakültə vardır, tələbələrin ümumi sayı isə 100 000 təşkil edir. İlk dəfə Roma hüququnun tədris olunduğu hüquqşünaslıq fakültəsi xüsusi ilə tanınmışdır. Dünyanın ən qədim olan Bolonya Universiteti dünyanın 200 ən yaxşı ali təhsil müəssisələrinin siyahısına daxildir və orada təhsil almaq 900 il əvvəl olduğu kimi şərəfli və nüfuzludur.

Bolonya universiteti böyüklüyünə görə İtaliyanın ikinci universitetidir. Bolonya universitetinin tarixi, böyük mütəfəkkirlərin və alimlərin tarixinin bir hissəsidir, bu isə Avropa mədəniyyətinə nəzər salınan zaman universitetin adının çəkilməsini, xatırlanmasını zəruri edir. Nikolay Kopernikin sözlərinə görə, Yer kürəsinin fırlanması haqqında fikir ilk dəfə 1497-ci ildə, onun Bolonya Universitetində təhsil aldığı zaman ağlına gəlmiş və bütün sonrakı illər ərzində o öz fikrini təsdiq etmək üçün sınaq aparırdı. 1888-ci ildə universitetin yaranmasının səkkizinci yüzilliyi böyük təmtəraqla qeyd edildi. Bütün dünya universitetlərinin təmsilçiləri "unievrsitetlərin anasına" layiqli hörmət göstərmək üçün və onların ümumi tərəqqi və dözümlülük, tolerantlıq köklərini, mənşələrini qeyd etmək Bolonyaya toplaşmışdılar. Bolonya universiteti orta əsr Avropasının ən demokratik müəssisələrindən biri idi.

1605-ci ildə Bolonya Universitetinin professoru Aldrovandi tərəfindən yaradılmış kitabxana onun parlaq nailiyyəti sayılırdı. O, dünyada ən qədim kitabxana olmaqla həm də ən qiymətli kitabxanalardan biri kimi hesab olunurdu. Orada təxminən 250 min kitab və 1350 dövrü nəşr saxlanılır.

Bu təhsil müəssisəsinin Recio-Emiliyada, İmolada, Ravennada, Forlidə, Çezendə və Rimində regional mərkəzləri və xaricdə Argentinanın paytaxtı Buenos-Ayresdə bir filialı vardır.

Hazırda universitet 128 ixtisasda bakalavr dərəcəsi verir. Universitetin nəzdində həm də müxtəlif ixtisas məktəbləri, elmi mərkəzlər və doktoranturalar fəaliyyət göstərir. Burada təxminən yüz min tələbə təhsil alır. Universitet aşağıdakı fakültələrdən ibarətdir:

Tərcüməçilər üçün Müasir dillər məktəbi
Kənd təsərrüfatı fakültəsi
Aldo Rossi Memarlıq fakültəsi
İqtisadiyyat fakültəsi
İqtisadiyyat fakültəsi-Forli
İqtisadiyyat fakültəsi-Rimini
Pedaqoji elmlər fakültəsi
Mühəndislik fakültəsi
İkinci Mühəndislik fakültəsi-Çezena

İdman və Bədən tərbiyəsi fakültəsi
Xarici dil və ədəbiyyatı fakültəsi
Sənaye kimyası fakültəsi
Hüquq fakültəsi
Fəlsəfə fakültəsi
Riyaziyyat, fizika və təbiət elmləri fakültəsi
Tibb fakültəsi
Əzcaçılıq fakültəsi
Siyasi elmlər fakültəsi
Roberto Ruffillinin Siyasi Elmlər fakültəsi
Mədəni irsin saxlanması fakültəsi
Psixologiya fakültəsi
Statistik elmlər fakültəsi
Baytarlıq fakültəsi

# ALMANİYADA TƏHSİL

Avropa təhsil sistemində benediktlərin xüsusi yeri var idi. Onlar latın dilindən Avropada həm elm, həm də danışıq dili kimi istifadə edirdilər. Monastr məktəbləri təhsil müəssisələri içərisində daha üstün nüfuza malik idi. Belə məktəblərdən Almaniyada Roqensburq, Tyurlinqen və Qessendo xüsusi şöhrət qazanmışdır. İlk şəhər məktəbləri XII əsrin ikinci yarısı, XIII əsrin əvvəllərində Hamburqda yaradılmışdır.

IX əsrdə Almaniyada 3 tip məktəb var idi: məhəllə, monastr və sabor (kafedral). Almaniyada kafedral məktəblər Reyxendə və Fulda idi.

XI əsrin axırları və XII əsrin əvvəllərində ayrı-ayrı kafedral və monastr məktəbləri iri tədris mərkəzlərinə, sonra isə universitetlərə çevrildilər. Almaniyanın bəzi yerlərində XVI əsrdən ibtidai təhsil mövcud idi. XV-XVI əsrlərdə katolik və protestant ölkə məktəbləri tərəfindən, həm də ayrı-ayrı icmalar tərəfindən təsis edilən şəhər ibtidai məktəblərinin sayı artırıldı. Almaniyada açılan künc məktəbləri bu tip tədris müəssisələrinə aid edilirdi. Burada dini ayinlər şifahi oxunurdu. Məktəblər ayrı-ayrı uyğunlaşdırılmış binalarda yerləşirdi. XVII əsrin birinci yarısında məktəblərdə siniflər yarandı. 1527-ci ildə Eyslebendə ibtidai və orta latın məktəbləri yarandı. 20 ildən sonra Almaniyada daha 60 protestant məktəbi meydana gəldi. İlk gimnaziya Almaniyada meydana gəlmişdi. XVI əsrin 20-ci illərində alman şəhər məktəblərinin bir çoxu gimnaziyalara çevrildi. 1578-ci ildə Strasburq gimnaziyasında üç minə yaxın şagird oxuyurdu. Orta əsrlərdə Almaniyada Strasburq, Frayburq, Vyütemburq məktəbləri humanitar elmlər üzrə təhsil ocağı idi. Orada görkəmli humanist pedaqoqlar və filosoflar işləyirdi. XVII-XVIII əsrlərdə ölkədə tam ümumi təhsil köklü dəyişikliklərə məruz qaldı. Belə təhsilin tipik nümunələri klassik tipli tədris müəssisələri olan şəhər latın məktəbi və gimnaziya idi. 1700-cü ilin sonunda ancaq Prussiyada 380-dək şəhər məktəbi və gimnaziya var idi. İlk zamanlar tədris saatlarının əsas hissəsi antik dillərin və ədəbiyyatın öyrənilməsinə ayrılırdı. Müasir təhsil verən şəhər məktəbləri və gimnaziyalar isə başqa istiqamətdə fəalliyyət göstərirdi.

Prussiyada ilk dəfə 1763-cü ildə II Böyük Fridrix tərəfindən icbari ibtidai təhsil yaradılmışdır. Prussiya Konstitusiyasında (1850) başlıca olaraq məktəb təhsilinin inkişafına ayrılıqda yer verilmişdir. Dərs demək azadlığı və məktəblərdə pulsuz oxumaq elan olundu. Dövlət məktəblərin inkişafı üçün tələb olunan vəsaitin ayrılmasına zəmanət verdi. Eyni zamanda özəl məktəb-

lərin yaradılmasına və bu məktəblərdə qabiliyyətli şəxslərin rəhbər olması öz əksini tapdı. Bununla yanaşı, Konstitusiya əsasında məktəblərdə hər hansı özbaşınalıq hallarının qarşısını almaq üçün ciddi dövlət nəzarəti tətbiq edilirdi. Orta məktəblərdə müəllimlərin statusu dövlət məmurlarına bərabər tutulurdu. Təhsil sahəsində dövlətin siyasəti dövlət aparatına savadlı məmur ordusunun yaradılmasına yönəlmişdi. Prussiyada 1860-cı ildə məktəbyaşlı uşaqların məktəbə getməsi 97,5% təşkil edirdi. Almaniyada məktəb təhsil sistemi bütün Avropaya yayılmışdı. Almanlar təhsili mühüm amil qəbul edərək texniki təhsil sistemini yaratmış və peşə məktəbi ilə ibtidai məktəbi birləşdirmişdi. Alman fəhlələri yüksək səviyyədə orta və peşə hazırlığına malik olduğundan heç bir çətinlik çəkmədən mürəkkəb dəzgahlarda işləyir və kefiyyətcə ciddi nəzarət həyata keçirdi.

XIX əsrdə Prussiyada təhsil başlıca olaraq dünyəvi xarakter daşıyırdı. 1810, 1816, 1817-ci il qanunları Prussiyada təhsilin dünyəviliyini və dini azadlığını təsbit etmişdi. Dövlət orta məktəbləri kilsədən ayıraraq onların fəaliyyət göstərməsinə nəzarət edirdi. XIX əsrin 70-ci illərində dini məktəblər yenidən gücləndi. Almaniyada ibtidai və orta məktəblər fəaliyyət göstərirdi. İbtidai məktəblərdə dinin təsiri güclü idi. Lüteran və katolik məktəbləri var idi. Orta məktəblərə şəhər realnı məktəbləri və gimnaziyalar daxil idi. Realnı məktəblər müasir təhsil verirdi. 1859-cu ildə ölkədə 3 tip orta tədris müəssisələri fəaliyyət göstərirdi: l) yeni klassik gimnaziya; 2) realnı məktəb; 3) qarışıq məktəblər.

Almaniya Prussiyada Qərbi Avropa ölkələri arasında qadınlar üçün orta təhsil müəssisəsi açan ilk dövlətlərdən biridir. Universitetə daxil olmaq hüququ verən orta məktəblər varlılar üçün nəzərdə tutulmuşdu. Almaniyada sənaye məktəbləri də var idi. 1810-cu ildə yaradılmış Berlin Universiteti pedaqoji və elmi-tədqiqat istiqamətində fəalliyət göstərirdi. Ölkədə 1930-cu ilin əvvəllərindən pulsuz ibtidai təhsil və ödənişli orta təhsil sistemi mövcud idi. Bu sistemdə başlıca olaraq 6-10 yaşlı uşaqlar üçün icbari dördillik ibtidai təhsilin ilk mərhələsi fəalliyyət göstərirdi. Ona paralel olaraq 3 tip təhsil müəssisəsi var idi: 1) 10-14 yaşlı uşaqlar üçün ibtidai məktəb; 2) 10-16 yaşlılar üçün xalq məktəbi; 3) doqquzillik orta məktəb. İbtidai təhsil müəssisəsi hesab olunan birinci və ikinci tip məktəblər peşə yonümlü idi. Orta məktəbləri bitirənlər universitetə qəbul olmaq hüququna malik idilər. Bu məktəblərin 3 tipi var idi: 1) gimnaziya; 2) realnı peşə məktəbi; 3) ali alman texniki məktəbi.

XX əsrin ikinci yarısında Almaniyada 9 illik pulsuz icbari təhsil həyata keçirildi. İbtidai təhsildən sonrakı təhsil sistemi 3 mərhələdən ibarət idi: əsas məktəb, realnı peşə məktəbi, gimnaziya. Gimnaziya tam orta təhsil verməklə universitet tipli məktəblərə qəbul olunmaq hüququ verirdi. Almaniyada ümumtəhsilin tipləri mövcud idi. Bu tip məktəblərdən başqa Almaniyada "nizami", "orta" və "2-ci pillə" məktəblər də var idi.

Almaniyada 324 ali məktəb var. Yüksək beynəlxalq nüfuza malik universitetlərdə təhsil vahid elm və tədris fəaliyyəti prinsipinə görə qurulmuşdur.

Ali məktəbləri seçərkən aşağıdakı məktəblər arasından seçmək olar:

–pedaqoji və digər ali məktəblərlə birləşən, texniki, texniki universitetləri özündə birləşdirən və 1,3 milyondan çox tələbəsi olan 118 universitet;

–52 ali incəsənət (rəssamlıq), musiqi məktəbi və ali kinomatoqrafiya məktəbi (30 minə yaxın tələbə);

–154 (400 mindən çox tələbə).

Alman ali məktəblərində tədris alman dilindədir, lakin ali məktəblərdə magistratura proqramı üzrə təhsil alman dili və həm də ingilis dilində aparılır.

Ali məktəblərdə tədris ili iki semestrə bölünür: qış və yay. Almaniyanın ali məktəblərində dərsə istənilən semestrdən başlamaq olar (qış – sentyabr – oktyabrdan, yay – mart – apreldən), sənəd qəbulu iki dövrdə olur və qış semestri üçün sənəd qəbulu 15 iyula kimi, yay semestri üçün isə 15 yanvara kimidir.

Almaniyanın istənilən ali məktəbində tədris əsas və peşəkar kursa bölünür və hər birinin müddəti minimum 4 semestrdir. Birinci semestr aralıq və ya diplomqabağı imtahanların verilməsi ilə bitir. Bu müddətdə əsas fənlər və seminarlar üzrə dərs planı həftədə 20 və daha çox məşğələ saatlarını (fakültədən asılı olaraq əsas fənlərin saatlarınn miqdarı dəyişilə bilər) əhatə edir. Təhsilin həlledici mərhələsində seçimə görə çoxlu fənlər yaranır.

Ali məktəblərdə təhsilin müddəti 8–13 semestrdir. İxtisasdan və ali məktəbin növündən asılı olaraq sonda tələbələr diplom işi hazırlayır, magistr dərəcəsi almaqdan ötrü dövlət imtahanı verir. Almaniyada ali təhsil haqqında diplomun verilməsi qəbul olunub. Bu diplomları əsasən riyaziyyat, təbiət, iqtisadiyyat və sosial elmlər fakültələrinin məzunları əldə edirlər. Ali məktəblərə daxil olarkən ümumi tələblər aşağıdakılardır;

- Təhsil almaq üçün alman dilini bilmək əsas şərtlərədən biridir.
- Alman ali məktəblərinə qəbul olmaq üçün sənədlərin verilməsindən başqa, alman dilində də imtahan vemək lazımdır. Alman dili üzrə müxtəlif imtahanlar mövcuddur ki, bunlardan biri də alman ali məktəblərinə daxil olmaq hüququ verən sertifikatıdır. Alman ali məktəblərinə daxil olan hər bir şəxs məlum olan standart üzrə imtahan verməlidir. Sənədlərin verilmə müddətlərini nəzərə alaraq bütün sənədləri (attestat, müvəffəqiyyət kitabçası və s.) və dil üzrə verilən imtahan sertifikatını ali məktəblərə əvvəlcədən vermək lazımdır.
- Almaniyada doktor dərəcəsini (elmlər namizədinə uyğun) almaq istədikdə, onda doktoranturaya qəbul olmaq üçün alman universitetlərinin təqdim etdiyi diplomla müqayisə edilə bilən ali təhsil haqqında universitet diplomu olmalıdır. Müqayisə oluna bilən diplomlar haqqında suallar hər bir universitet tərəfindən müstəqil həll olunur. Çətinliklər olduqda, təhsil və torpaq mədəniyyəti nazirliklərinin mərkəzi xarici təhsil bürosuna müraciət etmək olar.

Diplomdan sonra təhsili davam etdirməyi planlaşdırarkən nəzərə almaq lazımdır ki, ali təhsil haqqında diplom tələb olunur.

Almaniyada ali təhsil müəssisələrinə universitetlər, institutlar (ali və natamam ali təhsil məktəbləri) daxildir. Əgər əvvəllər tələbələr eyni kursda iki dəfə imtahan vermək hüququna malik idisə, indi onların dörd dəfə kurs imtahanı vermək hüququ vardır.

Hazırda Almaniyada təhsil sisteminin mərhələləri ibtidai, orta və ali məktəblərdən ibarət olan üç pilləli strukturdan ibarətdir. Həmin strukturun hər bir pilləsində həm dövlət, həm də özəl təhsil müəssisələri var. Almaniya dövləti bütün vətəndaşlara məcburi orta təhsil verir, buna görə də dövlət ibtidai və orta məktəblərində təhsil ödənişsizdir. Bir çox dövlət universitetlərində də təhsil ödənişsizdir. Təhsil sisteminin rəhbər orqanları təhsil və mədəniyyət nazirlərinin daimi konfransından və Almaniya təhsil müəssisələri rektorları konfransından ibarətdir. Torpaqlar (ərazilər) səviyyəsində təhsil prosesinə rəhbərliyi torpaqlar (ərazilər) üzrə nazirliklər həyata keçirir, onlar, məsələn, həmin torpağın (ərazinin) məktəblərindən istifadə olunmaq üçün dərsliklər təsdiq edirlər. Hər torpaqda (ərazidə) federal "çərçivə" qanunu fəaliyyət göstərir.

Almaniyada müasir təhsil sisteminin əsas xüsusiyyətləri Veymar Respublikası (1920-ci illər) dövründən formalaşmışdır, o vaxt orta məktəbin tam xalq məktəbinə və gimnaziyaya bölünməsi baş vermişdi. 1950-ci illərin əvvəllərinə qədər realnı məktəbdə və gimnaziyada təhsil ödənişli idi.

Almaniyada məktəbəqədər uşaq müəssisələri şəbəkəsi zəif inkişaf etmişdir. Uşaq bağçaları əsas etibarilə şəxsi (xüsusi) mülkiyyətdədir, oraya üç yaşından beş yaşına qədər uşaqlar gedir.

Almaniyada ibtidai məktəbdə təhsil altı yaşdan başlanır və dörd-altı il ərzində davam edir. İlk iki sinifdə fənlərin standart quruluşu olmur, riyaziyyat, alman dili, ölkəşünaslıq, musiqi və din üzrə baza bilikləri kompleks şəkildə, yəni təlim-tərbiyə kursu çərçivəsində tədris edilir.

Bir qayda olaraq, ibtidai siniflər orta məktəb strukturu çərçivəsində olur, burada ibtidai təhsil almış şagirdlər məhz orta məktəbdə (10-12 yaşından 16 yaşa qədər) və orta peşə məktəbində (16 yaşından 19 yaşa qədər) tədris kursunu davam etdirir. Orta peşə məktəbi orta təhsilin tam kursuna ekvivalentdir, eyni zamanda universitetə hazırlıq mərhələsidir. Almaniyada həmçinin tam peşə təhsili almaq və ixtisası üzrə işə düzəlmək imkanı verən peşə məktəbləri də vardır. Ölkədə orta təhsilin tam kursunun ümumi müddəti (ibtidai və peşə məktəbləri daxil olmaqla) 13 ildir və orta məktəb mərhələsindən başlayaraq təhsilin çoxvariantlığı tətbiq edilir: Şagirdlər baza fənlərini öyrənməklə yanaşı, əlavə təhsil fənlərini könüllü seçmək hüququna malikdir.

Almaniyada orta məktəblər beş əsas tipə bölünür: gimnaziya, realnı məktəb, natamam orta məktəb (əsas) məktəb, peşə məktəbi və ümumi məktəb. Orta məktəbin ən nüfuzlu tipi gimnaziyadır. Onun diplomu universitet

fakültələrinin əksəriyyətinə qəbul imtahanı vermədən daxil olmaq imkanı verir. Bir qayda olaraq gimnaziyalar humanitar təhsil üzrə ixtisaslaşır. Realnı məktəblər də kifayət qədər yüksək statusa malikdir, o xidmət, ticarət və dövlət qulluğu sahələrində peşə təhsili verir. Realnı müəssisədə təhsilin nəticələrinə görə alınmış yüksək bal gimnaziyanın yuxarı sinfinə, sonra isə universitetə qəbul olunmaq imkanı verir. Natamam orta məktəb (əsas) məktəb birinci növbədə öz təhsilini universitetdə davam etdirməyi nəzərdə tutmayan şagirdlər üçündür. Peşə məktəbi də əsas etibarilə bu və ya digər peşəyə yiyələnmək istəyən ali təhsil almağı planlaşdırmayan şagirdlərə aiddir. Ümumi məktəb gimnaziya və realnı məktəblərin müxtəlif xüsusiyyətlərini birləşdirir, eyni zamanda humanitar və texniki təhsil almaq imkanı yaradır. Ümumi məktəblərdə gimnaziya proqramı üzrə imtahan vermiş şagirdlər universitetə daxil olmaq imkanı əldə edir. Almaniyanın belə tip orta məktəblərinin hər birində həm gündüz məktəbləri, həm də internat məktəbləri təmsil olunur. İnternat məktəblərində şagirdlər bütün günü və ya bütün həftə qala bilər. AFR-in son illərində bəzi tip orta təhsil müəssisələrinin şagirdlərinin sayının azalması hesabına, gimnaziya və realnı məktəblərinin şagirdləri sayının artma meyli müşahidə olunurdu.

Ölkədə ali məktəblərə qəbul olunmaq üçün ümumi standart qaydalar müəyyən edilmişdir. Universitetə daxil olmaq üçün icazə rolunu Abitur diplomu oynayır, o gimnaziyada və ya gimnaziya proqramı üzrə ümumi məktəbdə təhsilin nəticələrinə görə verilirdi. Həmin diplomu almaq üçün məktəblərin məzunları dörd əsas fəndən imtahan verməli idi. Abitur diplomu almış şagird universitetə imtahansız qəbul olunmaq imkanına malik idi. Eyni zamanda bir neçə il bundan əvvəl həmin qaydaya istisna olunaraq, bir sıra fakültələrə (xüsusilə tibb fakültəsinə) qəbul olunarkən abituriyent ancaq qəbul imtahanları verməli və müsabiqədə iştirak etməlidir. Almaniyada 1991-ci ildə ölkənin birləşməsi və onunla əlaqədar təhsil sistemlərinin eyniləşdirilməsi zərurətinə əsaslanan ali təhsildə aparılan islahatlara görə orta təhsilin keyfiyyətinə zəmanət kimi baxılması dayandırıldı. Abituriyentlər arasında müsabiqə yolu ilə seçim sistemini tətbiq edən ali məktəblərin sayının daha da artması proqnozlaşdırıldı.

Almaniyada ali təhsilin əsas prinsipi müstəqil olmaqdır, bu isə istənilən tələbənin diplomuna yazılan fənlərin siyahısını sərbəst müəyyən etmək imkanı yaradır. AFR-də ali təhsil sisteminin elmi tədqiqatlarla birləşdirilməsi məsələsi qarşıya qoyulmuşdu. Həmin xüsusiyyətlər universitetlərdə tədris prosesinin qrafikini müəyyən edir: semestrlər mühazirələrdən (14–20 həftə) və mühazirə olmayan dövrlərdən ibarətdir. Sonuncu dövrdə isə tələbə sərbəst elmi işlə məşğul olurdu.

AFR ali təhsil sistemində 326 təhsil müəssisəsi birləşmiş idi. Onların bir çoxu dövlət təhsil müəssisələri idi (qeyri-dövlət ali məktəblərinin fəaliyyəti üçün dövlət lisenziyası olmalıdır). Universitet və onlara bərabər tutulan ali

məktəblər (ümumi sayı – 78): klassik universitetlər (tibb, humanitar və təbiət elmləri, geologiya, sosiologiya, iqtisadiyyat, kənd və meşə təsərrüfatı, mühəndislik fakültələri), texniki universitetlər, ümumi universitetlər (xüsusi peşə təhsili və elmi tədqiqatlar), pedaqoji institutlar, tibb kollecləri, fəlsəfə, geologiya və kilsə kollecləri, idman kollecləri sistemin əsasını təşkil edir. Qeyri-dövlət tipli ali məktəblərə ali peşə məktəbləri (biznes, iqlisadiyyat, servis, kənd təsərrüfatı və tətbiqi incəsənət), incəsənət kollecləri aid edilir.

Almaniya ideyalar ölkəsidir. Burada təhsilə, elmə və elmi tədqiqatlara hər zaman xüsusi diqqət ayrılıb. Ölkədə 50 mindən çox orta məktəb, 3000 mindən artıq gimnaziya vardır. Bu tədris müəssisələrində 12 milyondan çox şagird təhsil alır. 370 ali təhsil müəssisəsi, o cümlədən fəlsəfə doktoru hazırlayan 140 universitet və təxminən 200 ixtisaslaşmış ali təhsil ocağı fəaliyyət göstərir. Ölkədə 63 özəl universitet və 40-dan zox dini təmayüllü ali məktəb var. Ölkənin demək olar ki, hər bir iri şəhərində ali təhsil müəssisəsi vardır. Təhsil sistemi mərkəzləşmiş qaydada idarə olunmur. Ərazilərin hər birinin müvafiq idarəetmə strukturları fəaliyyət göstərir. Bu səbəbdən ölkənin müxtəlif əyalətlərində təhsilalma şərtləri və təhsil proqramları arasında fərqlər vardır.

**Məktəbəqədər təhsil.** Almaniyada uşaqların məktəbəqədər təhsili icbari təhsil sisteminə daxil olmadığından məcburi deyil. Yalnız zəif inkişaf etmiş azyaşlı uşaqların təhsili istisnadır. Belə ki, məktəbə yeni gedən uşaq hər hansı səbəbə görə öz yaşıdlarından geri qalırsa, o zaman xüsusi məktəbəqədər siniflərdə və ya məktəbdaxili uşaq bağçalarında birinci sinfə hazırlıq kursu keçir. Uşaq bağçalarının təqribən 20 faizi dövlətin, qalan 80 faizi isə kilsənin, xeyriyyə cəmiyyətlərinin və yerli hakimiyyət orqanlarının (bələdiyyələrin) himayəsindədir. Həm də uşaq bağçaları müəssisə və təşkilatlar tərəfindən də yaradıla bilər.

Bağçalara 3 yaşından 6 yaşadək uşaqlar qəbul edilir. Uşaqların bağçalarda saxlanılması xərcləri yerli hakimiyyət orqanları, məktəbəqədər təhsil müəssisəsi və valideynlər tərəfindən ödənilir. Valideynlərin xərcləri ailənin gəlirindən, ailə üzvlərinin və ya ailədəki uşaqların sayından asılıdır.

**Orta təhsil.** Almaniyada bütün uşaqlar altı yaşından etibarən 9 il müddətində icbari qaydada məktəbə getməlidir. Dövlət məktəblərində təhsil pulsuzdur. Adətən, uşaqlar 4 il ibtidai məktəbdə oxuyurlar. Sonra onlar müxtəlif növ məktəblərə: əsas məktəbə, realnı məktəbə və gimnaziyaya daxil olurlar. Ölkədə birləşmiş məktəblər vardır və bütün növ məktəblərin şagirdləri paralel şəkildə təhsil alır, bir məktəbdən digərinə keçə bilirlər. Əsas məktəbdə beşinci sinifdən onuncu sinfə qədər təhsil icbari, onuncu sinifdə isə könüllüdür. Realnı məktəbdə şagirdlər beşinci sinifdən onuncu sinfə qədər (onuncu sinif daxil olmaqla) oxuyur və sonda kamal attestatı alırlar. Gimnaziyada federal torpaqdan asılı olaraq tədris 12-13-cü siniflərə qədər aparılır və kamal attestatının alınması ilə başa çatır. Bu attestat ali təhsil müəssisəsinə daxil olmaq hüququ verir.

Məktəblərin çoxunda dərslər günün birinci yarısında keçilir. Məktəb təhsili torpaqların səlahiyyətinə daxildir. Məktəb siyasəti isə təhsil və mədəniyyət nazirliklərinin Daimi Şurası tərəfindən idarə olunur.

**Peşə təhsili.** Almaniyada peşə təhsili sahəsində dual sistem geniş yayılıb. Bu sistemin təməlində nəzəriyyə ilə təcrübənin qarşılıqlı əlaqəsi prinsipi dayanır. Burada tərəflərdən biri peşə məktəbi, digəri isə təlim müəssisəsidir.

Gənclərin təxminən yarısı məktəbdən sonra dual sistem çərçivəsində dövlət tərəfindən tanınmış 350 rəsmi peşədən birinə yiyələnir. Peşə təhsili orta məktəblərdə tədris olunan təhsildən fərqlənir. Peşə təhsilinə yiyələnənlərə həftədə 3-4 gün müəssisələrdə təcrübə keçilir və bir-iki gün isə peşə məktəbində nəzəri biliklər verilir. Təhsil müddəti 2 ildən 3,5 ilə qədərdir.

Texniki peşə təhsili bu məktəblərdə təhsil xərclərini öz üzərinə götürən dövlət və müvafiq müəssisələr tərəfindən şagirdlərə ayrılan pul mükafatları hesabına maliyyələşdirilir. Hazırda 500 mindən çox müəssisə və dövlət xidməti sistemi gənclərin peşə təhsilinə yiyələnmələri ilə məşğuldur. Şagird yerlərinin 80 faizdən çoxunu kiçik və orta şirkətlər təqdim edir. Bu ölkədə 15-19 yaşındakı gənclər arasında göstərici cəmi 4,2 faiz təşkil edir. Nəzəriyyə ilə təcrübənin əlaqələndirilməsi peşəkarların və fəhlələrin yüksək ixtisasa yiyələnmələrini təmin edir. Peşə təhsili usta olmaq imkanı verən karyeranın başlanğıcı hesab edilir. Peşə təhsilinin sonrakı pillələrinin həyata keçməsi universitetlərdə magistr dərəcəsi almaq imkanı yaradır.

**Ali təhsil.** Qloballaşma Almaniyanın elmi və ali təhsili qarşısında yeni tələblər qoyur. Müvafiq islahatlar nəticəsində universitetlər ali təhsil sistemini yeni beynəlxalq tələblərə uyğunlaşdırmağa başlayıb. Buraya çoxpilləli təhsil sistemi (bakalavr və magistratura), ali təhsilin ödənişli olması, qəbul testləri, universitetlər və qeyri-universitet müəssisələri ilə strateji tərəfdaşlığın gücləndirilməsi aid edilə bilər. Bütün bunlara görə ali təhsil böyük dəyişikliklərə məruz qalıb.

Almaniyada verilən elmi dərəcələr başqa Avropa ölkələrindən müəyyən qədər fərqlidir. Ali məktəblərin riyaziyyat, təbiət elmləri, iqtisadiyyat və sosiologiya fakültələrinin məzunları ali təhsil haqqında dövlət diplomu alırlar. Humanitar fakültənin tələbələrinə təhsillərini bitirdikdən sonra, adətən, magistr dərəcəsi verilir. Eyni zamanda doktoranturaya daxil olaraq doktorluq dərəcəsi almaq mümkündür. 2010-cu ildən Almaniya universitetlərinin fakültələri bakalavr və magistr dərəcələri almaq imkanı verən təhsil sisteminə keçməyə başlayıb. Bu, Avropa dövlətlərinin qoşulduqları Boloniya prosesinə uyğundur.

Almaniyada ali təhsil müəssisələrinə qəbulun ümumi standartları müəyyən edilib. Belə ki, universitetə daxil olarkən gimnaziyada və ya gimnaziya proqramı üzrə əsas və ya realnı məktəbdə təhsilin nəticələrinə uyğun verilən sənəd əsas götürülür. Abitur diplomu universitetə imtahansız qəbul olmaq imkanı verir.

Almaniya ali təhsilinin əsas prinsipi "akademik sərbəstlik" sistemidir. Bu sistem hər bir tələbəyə öyrənmək istədiyi fənlərin siyahısını müəyyənləşdirmək imkanı yaradır. Almaniyanın ali təhsili təlim prosesi ilə elmi tədqiqatların birləşdirilməsini də nəzərdə tutur. Belə ki, universitetlərdə hər semestr mühazirə (14-20 həftə) və qeyri-mühazirə dövrlərindən ibarətdir. Qeyri-mühazirə dövründə tələbələr müstəqil elmi işlə məşğul olurlar.

Ali təhsilin ilk pilləsi baza dövrüdür. Bu pillədə təhsil adətən dörd semestrdir (iki tədris ili) və aralıq imtahanlarının verilməsi ilə başa çatır. Bu imtahanları uğurla verən tələbələr ikinci pillədə təhsilini davam etdirmək hüququ qazanır. Bu pillədə təhsil daha beş semestr davam edir və ixtisasın daha dərindən öyrənilməsini nəzərdə tutur. O, adətən, buraxılış imtahanı ilə başa çatır. Bir sıra ixtisasların (pedaqogika, tibb, hüquq) məzunları buraxılış imtahanı qismində dövlət imtahanı verirlər.

İkinci pillənin yekunlarına əsasən universitetlər daha çox bakalavr dərəcəsi verir. Bunun üçün universitetdə 3-4 il ərzində təhsil almaq lazımdır. Sonra isə məzunlar, adətən, peşə fəaliyyətinə başlayırlar. Magistr dərəcəsi məzunun verdiyi magistr imtahanları əsasında təyin olunur. Tədris kursu iki əsas ixtisası və ya bir əsas və iki əlavə ixtisası əhatə edir. Universitetlərin bir çoxunda magistr dərəcəsi yeni tətbiq olunmağa başlayıb. Gələcəkdə magistraturanı bitirənlərə verilən sənədin, diplomu tamamilə əvəz edəcəyi nəzərdə tutulur.

Ali təhsilin üçüncü pilləsi doktoranturadır. Doktorluq dərəcəsi almaq məqsədilə dissertasiya hazırlığı yalnız universitetlər tərəfindən həyata keçirilir. Elmi tədqiqatın aparılması ilə əlaqədar dissertasiyanın hazırlanması magistr dərəcəsi alandan sonra 2-4 il ərzində davam edir. Dissertasiyanın yazılmasının və şifahi imtahanın uğurla verilməsinin nəticələrinə görə doktorluq dərəcəsi verilir.

Almaniyada təhsilin ödənişli olması haqqında uzun müddət davam edən müzakirələr nəticəsində təhsil qismən ödənişli olub. 2005-ci ildə Federal Konstitusiya Məhkəməsinin qərarı ilə təhsilə görə ödənişə qoyulan qadağa aradan götürülüb.

Son illərə qədər Almaniyada ali təhsil yalnız dövlət tərəfindən maliyyələşdirilirdi. 2007-ci ildən etibarən Baden-Vürtemberq, Bavariya, Hamburq, Aşağı Saksoniya və Şimali Reyn-Vestfaliyada universitetlərdə ödənişli təhsil tətbiq etməyə başlayıblar. Ödəniş əsasən bir semestr üçün 500 avro təşkil edir. Təhsilin maliyyələşdirilməsi məqsədilə bu universitetlər dövlət zəmanəti ilə kredit də verir. Berlin, Branderburq, Meklenburq-Ön Pomeraniya və Şlezviq-Qolşteyndə isə bütün ödənişlər 50-60 avro və ya sosial semestr ödənişləri 40 avrodan 180 avroyadək məhdudlaşdırılır. Burada əlavə təhsil, yəni 5 ildən artıq alınan təhsil, həm də könüllü dinləyicilər (məsələn, təhsil almaq istəyən təqaüdçülər) və ikinci təhsil alanlar (əsasən iqtisadiyyat ixtisasları) üçün

ödənişlər geniş yayılıb. Bütün bu təhsil ödənişləri isə semestr üçün 800 avro təşkil edir.

Bundan başqa, dərsliklərə çəkilən xərclər bir semestr ərzində təqribən 200 avro və tibbi sığorta haqqı isə bir semestr üçün 280 avro miqdarında (qiymətlər tədris ilinə görə dəyişə bilər) müəyyən edilib.

Ölkənin özəl təhsil müəssisələri uzun müddətdir ödənişli təhsili həyata keçirirlər. Məsələn, ingilis dilində magistr proqramları il ərzində 4-15 min avroya və daha artıq miqdara başa gəlir.

**Universitetlər.** Hazırda Almaniyada 370 ali təhsil müəssisəsi, o cümlədən fəlsəfə doktoru hazırlayan 140 universitet və təxminən 200 ixtisaslaşdırılmış ali təhsil ocağı fəaliyyət göstərir. Bundan başqa, ölkədə 63 özəl universitet və 40-dan artıq dini təmayüllü ali məktəb var. Universitetlərin böyük hissəsi dövlətə məxsusdur və vətəndaşlığından, eləcə də milli mənsubiyyətindən asılı olmayaraq bütün tələbələr üçün açıqdır.

Almaniya universitetləri 12500-dən artıq müxtəlif ixtisas üzrə təhsil təklif edirlər. Təkliflərin əksəriyyəti əcnəbi tələbələr üçün nəzərdə tutulub. Bundan başqa, çoxlu sayda strukturlaşdırılmış və əcnəbi tələbələr üçün ideal şərtlərə malik doktorant proqramları yaradılıb.

Almaniyanın ən qədim universiteti 1386-cı ildə yaradılmış Karl Ruprext adına Heydelberq Universitetidir. Tələbələrinin sayına görə ölkənin ən böyük universiteti Lüdviq-Maksimilian adına Münhen Universitetidir ki, burada 44400 tələbə təhsil alır. Ən güclü elmi-tədqiqat potensialına malik universitet isə Axen şəhərində yerləşən Reyn-Vestfal Ali Texniki Məktəbidir.

Almaniya universitetləri ("vahid elmi tədqiqatlar və tədris" prinsipinə əsasən) yalnız ali təhsil müəssisəsi deyil, həmçinin qabaqcıl elmi tədqiqatlar mərkəzidir. Ölkə daxilində və xaricində alimlərlə elmi tədqiqat müəssisələri arasındakı sıx əməkdaşlıq bunun üçün geniş imkanlar yaradır. Ali təhsil məktəbləri dövlətdən, fondlardan və üçüncü şəxslərdən (elmi tədqiqatların sifarişçilərindən) maliyyə vəsaitləri alır. Universitetlərin fakültə və kafedraları əsasən aşağıdakı ixtisaslar üzrə ixtisaslaşıblar: tibb, təbiət və texniki elmlər, incəsənət və humanitar elmlər, hüquqşünaslıq, ilahiyyət, iqtisadiyyat, sosial elmlər, kənd təsərrüfatı və meşəçilik.

Klassik universitetlər qədim dünya tarixindən başlayaraq bütün növ ixtisaslar təklif etdiyi halda, texniki universitetlər daha çox mühəndislik və təbiət elmlərinin öyrənilməsinə diqqət ayırır. Texniki universitetlər alman mühəndislik sənətinin əsas mərkəzi kimi böyük nüfuza malikdir. Bu universitetlərə daha çox əcnəbi tələbələr maraq göstərir.

1960-cı illərin sonundan ölkədə ixtisaslaşdırılmış universitetlər inkişaf etməyə başlayıb. Almaniyadakı bütün tələbələrin yüzdə biri peşə akademiyası adlanan və müəssisələrlə sıx əməkdaşlıq edən bu cür universitetlərdə təhsil alır. Sənətə qısa zamanda yiyələnmək imkanı yaradan ixtisaslaşdırılmış universitetlərdə təhsil müddəti 3 ildir. Ciddi şəkildə təşkil edilmiş təlim kursları

və aralıq imtahanlar təhsilin orta müddətini qısaltmaq imkanı yaradır. Lakin bu, elmi fəaliyyətdən imtina edilməsi kimi başa düşülməməlidir. Ölkənin təqribən 200 ixtisaslaşdırılmış universitetində elmi tədqiqatlar aparılır. Onlar əsasən sənayenin ehtiyaclarını ödəmək üçün nəzərdə tutulduğundan tətbiqi xarakter daşıyır.

Almaniyanın 167 tətbiqi istiqamətdə universiteti tələbələrə peşə təhsili verir. Bu universitetlərdə tədris kursunun müddəti qısadır və elmi-tədqiqat universitetlərindən fərqli olaraq daha çox praktik yönümlüdür. Həmin universitetlərdə doktorantura yoxdur.

Almaniyanın 57 ali incəsənət və musiqi təhsili müəssisəsi yaradıcılıq peşələri (rəssamlıq, qrafika, dizayn, heykəltəraşlıq, bədii tərtibat, fotoqrafiya, kino, musiqi) üzrə təhsil verir. Bu universitetlərdəki təhsil peşəkar rəssam və musiqiçilər, həm də bədii-estetika fənləri üzrə müəllim yetişdirməyə istiqamətlənib.

Son vaxtlar hər bir universitetdə təhsilin keyfiyyətinin obyektiv qiymətləndirilməsi tendensiyası geniş yayılıb. "Die Zeit" qəzeti ilə Ali məktəbin inkişaf mərkəzinin birgə hazırladıqları reytinq buna misal ola bilər. Ənənəvi olaraq bu reytinqdə ən yaxşı mövqeləri Baden-Vyurtemberq, Bavariya, Meklenburq-Şərqi Pomeraniya, Turinqiya və Saksoniya universitetləri tutur.

1970-ci illərdən dövlət və dini universitetlərlə yanaşı, dövlət tərəfindən tanınmış bir sıra özəl universitetlər də fəaliyyətə başladı. Hazırda Almaniyada 130 özəl ali təhsil müəssisəsi, o cümlədən 10 özəl universitet fəaliyyət göstərir. Bunlardan Oestrix-Vinkeldə yerləşən Avropa Biznes Məktəbini, Vitten-Herdekke Özəl Universitetini, həm də 12 dini universiteti göstərmək olar. Lakin bir çox başqa ölkələrdən fərqli olaraq, Almaniyada özəl universitetlər böyük nüfuza malik deyil. Tələbələrin 90 faizdən çoxu dövlət universitetlərində təhsil alır. Buna səbəb dövlət universitetlərinin dövlətin nəzarəti altında fəaliyyət göstərməsi və fəaliyyətlərinin dövlət tərəfindən qiymətləndirilməsidir. Bundan başqa, dövlət universitetləri ali məktəbə daxil olmaq hüququ verən kamal attestatına (və ya orta təhsil haqqında şəhadətnaməyə bərabər tutulan hər hansı bir sənədə) malik hər bir şəxs üçün açıqdır.

Almaniyada 39 doktorant məktəbi fəaliyyət göstərir. Onlar "Əla keyfiyyət təşəbbüsü" çərçivəsində dövlət tərəfindən dəstəklənir. Bu məktəblər üç illik doktorant proqramları təklif edir. Doktorant məktəbləri ilə yanaşı, ölkədə ali təhsilli şəxslər üçün 226 təhsil müəssisəsi fəaliyyət göstərir. Bu universitetlərdən 59-u başqa ölkədə ali təhsil almış şəxslər üçün nəzərdə tutulub. Bu isə ölkələrin bir və bir neçə universitetinin alman universitetlərindən biri ilə əməkdaşlıq etməsi deməkdir.

Son zamanlar ölkə üzrə universitetlərə daxil olmaq istəyənlər sayca artmışdır, sayın çoxluğu bir neçə ixtisas üzrə qəbula say məhdudiyyəti qoymaq zərurəti yaratmışdır. 2005-ci ildən etibarən bəzi ixtisaslar üçün "20-20-60" qaydası qüvvədədir. Qaydaya əsasən, yerlərin 20 faizi ən yüksək bal toplayan və öz istədikləri universiteti seçmək hüququ qazanan abituriyentlərə verilir.

Yerlərin qalan 20 faizi gözləmə müddətinə müvafiq olaraq təyin edilir. Universitetlərdəki yerlərin 60 faizi isə ali məktəblər tərəfindən abituriyentin attestatdakı orta balına və universitetin meyarlarına əsasən bölüşdürülə bilər.

Almaniya ali təhsil almaq istəyən istənilən gənc üçün cəlbedici ölkədir. O, ABŞ və Böyük Britaniyadan sonra əcnəbi tələbələrin ən çox axın etdiyi üçüncü dövlətdir. Bu gün alman universitetlərində 240 min əcnəbi tələbə təhsil alır. Bu, 1995-ci ilin göstəricisi ilə müqayisədə 70 faiz çoxdur. Onların hər dörd nəfərindən biri Almaniyada müvafiq kamal attestatı alıb. Əcnəbilər üçün universitetlərdə əcnəbi tələbələrlə iş üzrə xüsusi şöbələr yaradılıb. Bundan başqa, təxminən 25 min əcnəbi alim Almaniya universitetlərinin əməkdaşıdır.

Digər tərəfdən, 85 min alman xarici ölkələrin universitetlərində təhsil alır. Almanlar Niderland, Böyük Britaniya, Avstriya və İsveçrə ali məktəblərinə daha çox maraq göstərirlər. Dünyada təxminən 3 milyon tələbə xaricdə təhsil alır. Onların 12,2 faizi Almaniyanın payına düşür. Ümumiyyətlə, bu gün Almaniya universitetlərində təxminən 2 milyon gənc təhsil alır.

Almaniyada ali təhsilini yarımçıq qoyanların sayı isə tələbələrin təxminən 23 faizini təşkil edir. Bu, dünyada mövcud olan ən yaxşı göstəricilərdən biridir.

**Elmi tədqiqatlar.** Almaniyada qabaqcıl elmi tədqiqatlar, əsasən, elmi tədqiqat institutlarında aparılır. Onlara Helmholts adına Alman Elmi-Tədqiqat Mərkəzləri Cəmiyyəti, Fraunqofer adına Cəmiyyət və ya Qotfrid Vilhelm Leybnis adına Elmi Cəmiyyət kimi təşkilatlar daxildir. Məhz universitetdənkənar elmi tədqiqat müəssisələrində aparıcı alimlər dünyada çox az institutların təklif edə biləcəyi optimal iş şəraiti tapa bilir. Burada ən məhsuldar alman tədqiqatçıları çalışır, maraqlı elmi nəşrlər işıq üzü görür. Bu xüsusilə Maks Plank adına Cəmiyyətin 77 institutuna aiddir. Cəmiyyət 1948-ci il fevralın 26-da yaradılmışdır. Marsda su axtarışı, insan genomu layihəsi, insan davranışlarının öyrənilməsi kimi məsələlərin araşdırılmasında Maks Plank adına Cəmiyyətin institutları yaxından iştirak edir. Yarandığı 1948-ci ildən bu günə qədər cəmiyyətin əməkdaşları 17 Nobel mükafatına və çoxlu sayda digər nüfuzlu beynəlxalq mükafatlara layiq görülüb.

2007-ci ildə kimya üzrə Nobel mükafatına Maks Plank adına Cəmiyyətin institutlarından birinin direktoru Gerhard Ertl layiq görülüb.

Maks Plank adına Cəmiyyətin cəlbediciliyi onun elmi tədqiqatlara yanaşması ilə əlaqədardır. Onun tərkibinə daxil olan institutlar bütün mövzuları özləri müəyyən edir. İş üçün optimal şərait yaratmaqda və əməkdaş seçimində də bu institutlar sərbəstdir. Cəmiyyətin institutlarından birinə rəhbərlik etmək alimlər üçün karyeranın ən uca zirvəsi hesab olunur.

Helmholts adına Cəmiyyətin 16 elmi tədqiqat mərkəzi var. Bunların arasında Ağır İonların Öyrənilməsi Cəmiyyəti, Alman Onkologiya Mərkəzi, Alman Elektron Sinxron və ya Alfred Vegener adına Qütb və Dəniz Tədqi-

qatı institutlarının adlarını çəkmək olar. Bu cəmiyyət Almaniyanın ən iri elmi təşkilatıdır. İllik büdcəsi təxminən 2,8 milyard avro olan cəmiyyətdə 28 min əməkdaş çalışır. Cəmiyyətin institutları energetika, torpaq haqqında elmlər, ekologiya, səhiyyə, əsas texnologiyalar, maddənin strukturu, eləcə də nəqliyyat və kosmos sahələri ilə məşğuldur. Hər il minlərlə əcnəbi alim fiziki və tibbi sınaqlar aparmaq, dünyada ən nadir qurğulardan istifadə etmək məqsədilə Helmholts adına Cəmiyyətin institutlarına gəlirlər.

Fraunqofer adına Cəmiyyətin institutları isə sənaye ilə sıx əməkdaşlığa üstünlük verir. Cəmiyyətin 80-dən çox elmi tədqiqat müəssisəsi əsasən mühəndislik elmləri ilə məşğuldur. Cəmiyyətin mütəxəssisləri sifarişləri əsasən kiçik və orta müəssisələrdən aldıqları üçün laboratoriyalarla yanaşı, zavod sexlərində də çalışırlar. Cəmiyyətdəki elmi tədqiqat işlərinin illik həcminin dəyəri 1,5 milyard avro təşkil edir. Fraunqofer adına Cəmiyyətin Avropa ölkələrində, ABŞ, Asiya və Yaxın Şərqdə filialları var.

Leybnis adına Elmi Cəmiyyətin 86 institutu yalnız həyat və təbiət elmləri sahəsində deyil, həmçinin humanitar, ictimai və iqtisadi elmlər sahəsində də ixtisaslaşıb. Cəmiyyətin institutlarında 14 min nəfər çalışır. İllik büdcəsi bir milyard avrodan çoxdur.

Elmi tədqiqatlar innovasiyalar üçün mühüm açardır. İnnovasiyalar isə iqtisadi artımın təkanverici gücüdür. Bunu nəzərə alan federal hökumət məqsədyönlü yardım ilə elmi və elmi tədqiqatları daha ardıcıl aparmaq istəyir. Odur ki, 2010-2013-cü illər ərzində təhsil və elmi tədqiqatlar sahəsinə xərclərin ümumilikdə, 12 milyard avro artırılması əsas məqsəd kimi qarşıya qoyulub. Bu istiqamətdə əsas hədəf 2015-ci ildən gec olmayaraq ümumidaxili məhsulun 10 faizinin bu sahəyə yönəldilməsinə nail olmaqdır.

**Beynəlxalq elmi əməkdaşlıq.** Almaniyada elmin beynəlmiləlləşdirilməsi sahəsində əldə edilmiş uğur universitetlərin, elmi-tədqiqat müəssisələrinin və siyasətçilərin birgə səylərinin məhsuludur. Dəstək məqsədyönlü layihələrin, təqaüdlərin və həvəsləndirici mükafatların yardımı ilə beynəlxalq tələbə, doktorant və alim mübadiləsinə göstərilir. Bu tədbirlər təhsildə nailiyyətlərin artırılması və əcnəbi tələbələrin sosial inteqrasiyası üzrə proqramlarla daha da möhkəmləndirilir. Almaniya universitetləri böyük uğurla dünyanın hər yerindən tələbə və gənc alimləri cəlb edirlər. Bu işdə alman məktəbi sistemi xarici ölkələrin ali məktəbləri ilə əməkdaşlığı mühüm rol oynayır. Bu məqsəddə olan təşəbbüslərin reallaşmasında dünya üzrə tələbə və alim mübadiləsinə dəstək olan Alman Akademik Mübadilə Xidmətinin fəaliyyəti də danılmazdır. Bu mübadilə xidmətinin 100-dən çox ölkədə nümayəndəliyi fəaliyyət göstərir. Bu qurum həmçinin alman universitetlərində yüzlərlə xarici dil (əsasən ingilis) kurslarının açılmasında iştirak edir.

Aleksandr Humbolt adına Fond beynəlxalq elmi əməkdaşlığa yardım göstərən əsas təşkilatlardan biridir. 2009-cu ildən başlanılan "xarici elmi siyasət sahəsində təşəbbüs" sayəsində Xarici İşlər Nazirliyi elmi mübadilə üzrə

mövcud vasitələri möhkəmləndirir və yeni tədbirlər hesabına onları genişləndirir. Xaricdə yaradılmış Almaniya Elm və İnnovasiya Evləri isə alman elminin inkişafına daha əlverişli şərait yaradır.

Almaniya universitetlərinin dəstəyi ilə xaricdə tərəfdaş müəssisələrlə birlikdə nümunəvi elmi tədqiqatlar və tədris mərkəzləri yaradılır. Bundan başqa, əcnəbi tələbələrə təqaüdlərin verilməsi üzrə təkliflər artır və dünyada alman dilinin öyrənilməsi üçün yaxşı şərait yaradılır.

**Almaniyanın Nobel mükafatı laureatları.** Almaniyanın 80 Nobel mükafatı laureatından 68-i bu mükafatı təbiət elmləri və tibb sahəsindəki xidmətlərinə görə alıb. Fizika sahəsində ilk Nobel mükafatına Konrad Rentgen "Şüalanmanın yeni növünə görə" layiq görülüb. Növbəti laureatlar Robert Kox, Maks Plank, Albert Eynşteyn və Verner Heyzenberq olublar. Bu ən yüksək elmi mükafatı alan sonuncu alman alimləri isə Kristiane Nüssleyn - Volhard, Harald zur Hausen (tibb sahəsi üzrə), Horst Ştörmer, Herbert Kremer, Volfqanq Ketterle, Teodor Henş, Peter Grünberq (fizika sahəsi üzrə) və Gerhard Ertldir (kimya sahəsi üzrə).

**Təqaüd proqramları.** Almaniyada təqaüd alman və ingilis dillərini yaxşı bilən istedadlı tələbələrə, doktorantlara və müəllimlərə təqdim olunur. Təqaüdlər əsasən, Alman Akademik Mübadilə Xidməti, həmçinin siyasi partiyalar, kilsə, iri şirkətlər və ayrı-ayrı universitetlər tərəfindən maliyyələşən müxtəlif ictimai fondların xətti ilə verilir.

Mübadilə xidməti Almaniyanın 230 universitetini və 126 tələbə təşkilatını birləşdirir. Bu qurum Almaniyanın xarici mədəniyyət, ali təhsil və elm üzrə siyasətinin təşkilində bir vasitəçidir. Xidmətin xarici dövlətlərdə 14 nümayəndəliyi və dünya üzrə 48 məlumat mərkəzi fəaliyyət göstərir. Alman Akademik mübadilə xidməti ildə 55 mindən чox təqaüd ayırır. Bu mübadilə xidməti ilə Azərbaycan Republikası Təhsil Nazirliyi arasında imzalanmış Azərbaycan tələbələrininə Almaniyada təqaüd verilməsi ilə bağlı sazişə əsasən son illər azərbaycanlı tələbə, magistr və doktorantların Almaniyada təhsil alması üçün geniş imkanlar yaranıb. Bu proqram çərçivəsində namizədin akademik səviyyəsindən asılı olaraq, onlar alman universitetlərindən bakalavr, magistr və ya fəsəfə doktoru dərəcəsi alır. Proqramda mühəndislik, tibb və səhiyyə, təbiət elmləri, sosial və humanitar elmlər, biznes və iqtisadiyyat, kompyuter və informasiya elmləri, hüquq, incəsənət və musiqi, kənd təsərrüfatı, ekologiya və turizm sahələrinin tələbələri iştirak edə bilər.

Avropa Bərpa Proqramının illik təqaüdləri isə iqtisadiyyatçı tələbələr üçün nəzərdə tutulub. Bu təqaüdlərin hesabına iqtisadiyyat və müəssisə idarəçiliyi sahələri üzrə üçüncü kurs tələbələri iki semestr (10 ay) ərzində Almaniyanın dövlət universitetlərində təhsil almaq imkanı əldə edirlər. Almaniyada müəssisələrin birində təcrübənin keçirilməsi proqramın mühüm hissəsini təşkil edir. Daxilolma şərtlərinə görə şəxsin yaş həddi 32-dən yuxarı olmamalı və o, alman dilini yaxşı bilməlidir.

Almaniyanın müxtəlif siyasi partiyalarına yaxın fondların təqaüd proqramları da kifayət qədərdir. Əsasən, Adenauer adına Fond magistraturaya və Almaniyada elmi tədqiqatların aparılması istiqamətində təqaüdlər ayırır.

1860-cı ildə təsis olunmuş Aleksandr Humbolt adına fond əcnəbi və yerli alimlər arasında elmi əməkdaşlığın yaradılmasına yardım edir. O, hər il 1900-dən çox əcnəbi alimin elmi məqsədlərlə Almaniyaya gəlməsinə şərait yaradır və keçmiş 23 minlik təqaüdçülərin dünya şəbəkəsini dəstəkləyir. Onların arasında 130 ölkədən 43 Nobel mükafatı laureatı da var.

Daha bir nüfuzlu yardım proqramını Beynəlxalq Maks Plank Tədqiqat Məktəbi təqdim edir. Onlar savadlı alman və əcnəbi tələbələr üçün nəzərdə tutulub. Bu tədqiqat məktəbi strukturlaşdırılmış təhsil və tədqiqatlar üçün gözəl şərait yaradır və bu çərçivədə elmi tədqiqatlarla təxminən 2100 doktorant məşğul olur. Onların əksəriyyətini xarici ölkələrdən gələnlər təşkil edir. Bu proqramın təqaüdçüləri doktorluq dissertasiyasını Almaniya universitetlərindən birində və ya öz ölkəsindəki universitetdə müdafiə edə bilər.

İstənilən təqaüdün alınması üçün, adətən, standart sənədlər paketi tələb olunur. Buraya müraciət anketi, qısa tərcümeyi-hal, diplomun və ya orta təhsil haqqında attestatın surəti, iki və daha artıq xasiyyətnamə və dil kurslarından alman dilinin öyrənilməsi barədə arayış daxildir. Bəzi hallarda sağlamlıq haqqında arayış, doktorantlar üçün elmi nəşrlərin siyahısı, alman professorun elmi rəhbər olmasına doktorantın razılığı, Almaniyada təhsilin zəruriliyinin ətraflı əks olunduğu əlavə məktub və konkret təlim proqramının seçilməsi də tələb edilə bilər.

**Azərbaycanlı tələbələrin Almaniyada təhsili.** Sevindirici haldır ki, dünyanın bütün ölkələrindən böyük axın olan Almaniya ali məktəblərində təhsil alan azərbaycanlıların sayı son illər durmadan artmaqdadır. Azərbaycanla Almaniya arasında inkişaf edən təhsil əlaqələrinin nəticəsidir ki, 1998-2010-cu illərdə Alman Akademik Mübadilə Xidmətinin xətti ilə 800-dən çox həmvətənimiz bu ölkənin ali məktəblərinə göndərilib. Qeyd edək ki, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində isə 120-yə yaxın azərbaycanlı Almaniyanın ən nüfuzlu universitetlərində təhsil almaq imkanı qazanıb. Artıq onların bir çoxu ali təhsillərini başa vurmuş və yüksək ixtisaslı mütəxəssis kimi Azərbaycanda çalışır, ölkə həyatının ayrı-ayrı sahələrinin inkişafına layiqli töhfələr verir.

Almaniyanın ən məşhur və nüfuzlu ali təhsil müəssisəsi Heydelberq Universitetidir (1386-cı ildə Parisin Sorbonna Universitetinin nümunəsi olaraq yaradılmışdır). O, Frankfurt-Mayndan 60 kilometr məsafədə kiçik Heydelberq şəhərində yerləşmişdir. XIX əsrdən sonra Heydelberq universiteti Avropada ən görkəmli hüquqşünas məktəbi kimi böyük nüfuza malik olmuşdur. Həmin universitetin müəllimləri arasında filosoflar Hegel və Yaspers, kimyaçı Heymhols və s. səkkiz nəfər Nobel mükafatı laureatı olmuşdur. Heydelberq universitetinin 15 fakültəsi-biologiya, kimya və biokimya, tibb, hüquq,

fəlsəfə, Şərq dilləri, müasir dillər, siyasi elmlər, idman və bədən tərbiyəsi və s. fakültələri vardır. Universitetin nəzdində bir sıra ixtisaslaşdırılmış tədqiqat mərkəzləri var, məsələn, Cənubi Asiya İnstitutu və Maks Plank adına Heydelberq Nüvə Fizikası İnstitutu açılmışdır. Əcnəbi tələbələr Heydelberq Universitetinin tələbələrinin ümumi sayının (25 min) 12 faizini təşkil edir.

Almaniyada universitetlər içərisində reytinqə görə Münhendə yerləşən Lüdviq-Maksimillian Universiteti ikinci yeri tutur (XV əsrdə yaradılmışdır). Bu ali məktəb Avropada ən böyük tibb fakültəsi ilə məşhurdur. Universitet 19 fakültədən ibarətdir. Münhen universitetinin tələbələrinin ümumi sayı 44 min nəfərdir.

AFR-in ali məktəblərində təhsil müddəti beş il idi, orada dörd və ya altıillik kursları olan ali məktəblər də var idi. Almaniyada ali təhsil kursunun maksimum müddəti on ildir. AFR ali məktəblərinə qəbul ildə iki dəfə keçirilirdi: yayda, yay semestri ərəfəsində və payızda, qış semestri ərəfəsində. Müsabiqə əsasında toplanmış tələbə müəyyən edilmiş ali məktəblərə qəbuldan əvvəl ödənişli hazırlıq kurslarında dərs keçməlidir. Semestr ərzində təhsilin yekunları zaçot balları ilə ifadə olunurdu. Universitet kursu iki mərhələyə bölünmüşdür: baza mərhələsi (3-4 semestr), onun yekunları əsasında lisensiat dərəcəsi verilir və əsas mərhələ (4-6 semestr), onun yekunları əsasında magistr dərəcəsi verilirdi (texniki ixtisaslar üzrə tələbələr dərəcə əvəzinə mütəxəssis diplomu alırlar). Məzun universitetin əsas kursunu bitirdikdən sonra, diplom işi müdafiə etməlidir. Almaniya universitetlərinin və onlara bərabər olan ali təhsil müəssisələrinin verdiyi dövlət diplomu ali təhsil tələb edən peşələr üzrə işləmək hüququ verirdi. Almaniya ali məktəblərinin məzunları dövlət diplomu və magistr dərəcəsi aldıqdan sonra fəlsəfə doktoru dərəcəsi almaq üçün dissertasiya müdafiə edirdi. Bu dərəcəni yalnız müəllimlik təcrübəsi olan və əvvəlcədən ixtisas imtahanları vermiş magistrlər alırdı.

AFR-də əcnəbi tələbələr Almaniya vətəndaşları ilə bərabər təhsil alırdılar, yəni dövlət ali məktəblərində tədris onlar üçün ödənişsiz idi. Almaniyanın bir sıra fond və cəmiyyətləri (məsələn, Aleksandr fon Humboldt Fondu, Konrad Adenauer adına Fond, Fridrix Ebert adına Fond, Maks Plank Cəmiyyəti, Almaniya Elmi-Tədqiqat Cəmiyyəti) ölkənin tələbələrinə və əcnəbi tələbələrə, alimlərə, elmi tədqiqatlar aparanlara, müəllimlərə ixtisası artırmaya görə xüsusi təqaüdlər təqdim edilirdi. Almaniya abituriyentlərindən fərqli olaraq, əcnəbilər AFR ali məktəbinə qəbul olunan zaman alman dilindən mütləq imtahan verməli idi.

**Münhen Texniki Universiteti (Technical University of München).** Münhen Texniki Universiteti Almaniya Federativ Respublikasında, Bavariya vilayətinin Münhen şəhərində yerləşirdi. Avropanın tanınmış mərkəzlərindən biridir və bu universitet dəqiq və texniki elmlər üzrə məşhurlaşmışdır. Universitetin məzunlarından 16 nəfəri Nobel mükafatına layiq görülüb.

Münhen Texniki Universiteti 2009-cu ildə aparılan dünya universitetlərinin reytinqinə əsasən, 100 ən yaxşı ali məktəb arasında 55-ci yerdə olub. 2010-cu ildə dünyanın ən nüfuzlu universitetləri arasında 101-ci, "QS World University Rankings"in açıqlamasına əsasən isə 58-ci yerdədir. Universitet Avropa və Asiya universitetlərini birləşdirən LAOTSE tələbə və müəllimlərin beynəlxalq təşkilatının, Avropanın Top Sənaye Müəssisələri şəbəkəsinin üzvüdür.

1868-ci ildə Bavariya kralı II Lüdviq politexnik məktəbi yaradılması haqqında sənəd imzalayır. 1877-ci ildə bu təhsil müəssisəsi rəsmi olaraq Bavariya Kral Texniki Ali Məktəbi adlandırılır. 1901-ci ildə universitetdə dissertasiya şurası fəaliyyətə başlayır və elmi dərəcələr verilməyə başlanır. 1930-cu ildə Kənd Təsərrüfatı Ali Məktəbi və "Veyenştefan" pivə zavodu məktəbə birləşdirilir. 1937-ci ildə Maksim Şmidt Nimfenburqda universitetin binasını yaratmaq layihəsini hazırlayır, lakin II Dünya müharibəsi başlandığına görə onun planları tamamlanmır. Müharibə zamanı ali məktəb fəaliyyətini dayandırır, məktəbin 80%-i dağıntıya məruz qalır. Dərslər 1946-cı ildən başlayır və yeni binalar, kitabxanalar tikilir. 1957-ci ildə Qarxinq şəhərində universitet şəhərciyi tikilir və 1967-ci ildə universitetin tibb fakültəsi açılır. İzar çayının sağ sahilində isə klinika istifadəyə verilir.

1970-ci ildə ali məktəbə Texniki Universitet adı verilir və 1995-ci ildə kimyaçı professor Volfqan German Münhen Texniki Universitetinin prezidenti təyin edilir. Volfqan Germanın rəhbərliyi altında universitet sürətlə inkişaf edir. 2000-ci ildə Universitetdə Veyenştefan Həyat və Qida Elmləri, Torpaq istifadəsi və ətraf mühit Mərkəzi yaradılır. İki il sonra Sinqapurda universitetin Alman Elm və Texnologiya İnstitutu fəaliyyətə başlayır. 2004-cü il martın 2-də Hans Mayer-Leybnits adına Forschungsreaktor Münhen II aparıcı neytron mənbəyi olan tədqiqat mərkəzi 2009-cu ildə Münhen Texniki Universitetinin Təhsil Məktəbi yaradılır. Universitet Karlsrue, Lüdviq və Maksimilian Elit universitetləri ilə birgə 2006-cı ilin noyabrından başlayaraq açılan "Gələcək konsepsiyası" proqramının iştirakçısıdır. Bu konsepsiyaya əsasən, universitet 2011-ci ilədək hər il 30 milyon avro məbləğində dövlət yardımı almalı idi.

2006-cı il mayın 18-də Bavariyada "Ali təhsil haqqında" qanunda dəyişikliklər edilib və 2007-ci ildən başlayaraq təhsil ödənişli olub. 2009-2011-ci illərdə universitetdə tələbələrin təhsil haqqı bir semestr ərzində 500 avro təşkil edir və qeydiyyatdan keçmək üçün isə tələbə 42 avro ödəməlidir. 2009-cu ilədək burada tələbələrdən 50 avro dəyərində inzibati ödəniş tələb olunurdu, lakin həmin il aprelin 1-dən bu ödəniş ləğv edilib. Universitetdə tələbələrə müxtəlif təqaüd təklif edilir. Təqaüdün məbləği orta hesabla bakalavrlar üçün 580 avro, magistrant və doktorantlar üçün isə 1050 avrodur.

Münhendə yaşayış yeri tapmaq tələbələr üçün xüsusilə oktyabr və noyabr aylarında çətindir. Tələbələr, əsasən, xüsusi evlərdə kirayədə qalırlar. Tələbə xidməti idarələri gənclərə bir sıra yataqxanalar təklif edir. Burada

otaqların aylıq qiyməti 300-600 avro arasında dəyişir. Münhen füsunkar gözəlliyə malik sakit və təhlükəsiz şəhərdir. Demək olar ki, şəhərin gecə həyatı mövcud deyil. Bir çox alman universitetləri kimi bu universitetin də kampusu yoxdur. Lakin Qarxinq şəhərində yerləşən universitetin ərazisi gündən-günə böyüyür və kampusu xatırladır. Universitetin əsas binası Münhen şəhərinin mərkəzində yerləşir.

Münhen Texniki Universitetində 133 proqram təklif edən 13 fakültə vardır. Bunlar riyaziyyat, fizika, kimya, iqtisadiyyat, inşaat və geodeziya, memarlıq, maşınqayırma, elektrotexnika və hesablama texnikası, kompyuter elmləri, tibb, idman, təhsil fakültələridir. Münhen Texniki Universiteti 140-dan çox ölkənin ali məktəbləri ilə əməkdaşlıq edir, tələbə və müəllim mübadiləsi aparır. Sinqapur Milli Universiteti, Nanyanq Texnologiya Universiteti ilə əməkdaşlıq çərçivəsində universitetin Almaniya Elm və Texnologiya İnstitutu fəaliyyət göstərir. Universitet Danimarka, Vyana, Corciya, Dehli, Sisindorn Beynəlxalq texniki universitetləri, Stenford, İllinoys, Kornell, Tsinxua, Tokio, Melburn və dünyanın digər nüfuzlu universitetləri ilə beynəlxalq əlaqələr qurur, birgə layihələr həyata keçirir.

Münhen Texniki Universitetinin idarə olunması İcra Şurası, Dekanlar Departamenti, Mərkəzi Elmi Müəssisələr İdarəsi tərəfindən həyata keçirilir. Ali məktəbdə 460 nəfər professor, 4160 nəfər akademik heyət, 2801 nəfər inzibati heyət çalışır. Universitetin ümumilikdə 25000 nəfər tələbəsi var. Onların 4000-ə yaxını dünyanın müxtəlif ölkələrindən gəlmiş əcnəbi tələbələrdir. Universitetdə dünyanın digər ali məktəblərində olduğu kimi, müxtəlif tələbə təşkilatları, birliklər, idman komandaları fəaliyyət göstərir, gənclərin dərsdən sonrakı asudə vaxtlarını səmərəli keçirmələri üçün tədbirlər təşkil olunur. Almaniya təhsil sistemi həmişə dünyəviliyi, yüksək səviyyədə təşkil olunması ilə seçilib və digər ölkələr üçün nümunə olub. Müxtəlif dövlətlərdə yeni yaradılan dövlət və özəl ali məktəblər alman prinsiplərini üstün tutaraq ona əməl etməyə çalışıb. Universitet alman təhsil sisteminin ən yaxşı cəhətlərini özündə birləşdirən elmi-tədqiqat mərkəzidir.

**Ruprext Karl Heydelberq Universiteti (Ruprecht-Karls-Universitat Heidelberg).** Bu universitet Almaniya Federativ Respublikasının beşinci ən böyük şəhəri olan Heydelberq şəhərində yerləşir və ali təhsil müəssisəsi Müqəddəs Roma imperiyasında yaranmış dördüncü, Almaniyada isə ən qədim universitetdir. 2009-cu ildə aparılan dünya universitetlərinin reytinqinə əsasən, universitet 100 ən yaxşı ali məktəb arasında 57-ci yerdə olmuşdur. 2010-cu ildə dünyanın ən nüfuzlu universitetləri arasında Heydelberq Universiteti 83-cü yerdə, "QS World University Rankings"in açıqlamasına görə isə 51-ci yerdə yerləşib. Universitet Avropa Tədqiqat Universitetləri Liqasının, Avropa Universitetləri Assosiasiyasının, Koimbra qrupunun (Avropanın 39 universitet şəbəkəsinin) üzvüdür.

1378-ci ildə xristianlığın iki qolu arasında baş verən parçalanmadan və papa XI Qriqorinin ölümündən sonra iki papa seçilir və onlardan biri Avinyonda (fransızlar tərəfindən seçilmiş), digəri isə Romada (italyanlar tərəfindən seçilmiş) fəaliyyət göstərir. Almanlar Romada fəaliyyət göstərən papa VI Urbanı dəstəkləyir və Kurfürst (feodal Almaniyada imperator seçmək hüququna malik olan nüfuzlu knyaz) I Ruprext papa VI Urbanın yaxın adamları ilə danışıqlar apararaq universitet fondunun yaradılması haqqında papa bullası (papa tərəfindən möhürlənmiş sənəd) almağa nail olur. 1385-ci il oktyabrın 23-də papa VI Urban məktəb yaradılmasına icazə verir, 1386-cı il iyunun 26-da isə I Ruprext universitet yaradılması haqqında əmr imzalayır. Papanın nizamnaməsində göstərildiyi kimi, yeni universitet Paris Universitetinə uyğun yaradılır və dörd fakültədən (fəlsəfə, ilahiyyət, hüquq və tibb) ibarət olur. 1386-cı il oktyabrın 18-də Papanın nəzarəti altında Heydelberq şəhərində Almaniyanın ilk universitetinin açılışı baş tutur. Universitet sürətlə inkişaf etməyə başlayır və artıq 1390-cı ildə burada 185 tələbə təhsil alırdı.

XV əsrin sonunda universitetin rektoru yepiskop İohann fon Dalberqin təşəbbüsü ilə burada humanizm mədəniyyəti tədris edilir. Universitetdə Alman humanizm məktəbinin yaradıcılarından Rudolf Aqrikola, Konrad Setls, Yakob Uimpfelinq, İohann Reyxlinin adlarını qeyd etmək olar. 1482-ci ildə papa IV Sikst ruhani olmayan və evli şəxslərin papanın razılığı ilə universitetdə adi tibb professoru vəzifəsinə təyin olunmasına, 1553-cü ildə isə papa III Yulius kilsə gəlirindən ruhani olmayan professorlara vəsait ayrılmasına icazə verir.

Martin Lüterin disputları 1518-ci ilin aprelində universitetdə böyük əks-səda doğurur, onun müəllim və alimlər arasından olan tərəfdaşları tezliklə Almaniyanın cənub-qərbində İslahat hərəkatının aparıcı quvvələrinə çevrilir. 1563-cü ildə Universitetin İlahiyyət məktəbinin əməkdaşları Heydelberq katexiçisi (xristianların sual-cavab şəklində olan şəriət kitabı) hazırlayır. XVI əsrdə humanizmlə yanaşı, universitetdə Kalvinizm cərəyanı da tədris olunur. Bu dövrdə universitet ölkənin mühüm mədəni və akademik mərkəzinə çevrilir, ali məktəbə çoxlu sayda alim cəlb edilir. Lakin 1618-ci ildə başlamış otuz İllik müharibə universitetin inkişafını dayandırır. 1622-ci ildə dünya üzrə tanınmış Palatina kitabxanası universitetin kilsəsindən oğurlanaraq Romaya gətirilir. 1693-cü ildə isə XIV Lüdovikin qoşunları, demək olar ki, Heydelberq Universitetinin binalarını tamamilə dağıdır. Sonuncu Katolik islahatının nəticəsi olaraq Heydelberq Universiteti protestant xarakterini itirərək yezuitlər tərəfə keçir. 1735-ci ildə həmin dövrdə Domus Vilhelmina adlanan Universitet meydanında qədim universitet binası tikilir. Yezuitlərin səyləri nəticəsində burada hazırlıq seminariyası açılır. 1773-cü ildə universitetdə məktəblərin əksəriyyəti Fransız Lazaritlər Konqresiyasının əlinə keçir. 1803-cü ildə Universitet Baden hersoqu Karl Fridrix tərəfindən bərpa edilir və dövlət müəssisəsinə çevrilir. Bu dövrdən başlayaraq universitet I Ruprext ilə yanaşı,

Karl Fridrixin də adını daşıyır. Karl Fridrix özünü universitetin rektoru elan edir və ali məktəbi beş fakültəyə bölür.

1933-cü ildə Üçüncü Reyxin yaranmasından sonra Universitet Almaniyanın digər ali təhsil müəssisələri kimi nasistləri dəstəkləyir və bir çox dissidentlər ölkəni tərk etmək məcburiyyətində qalır. Almaniyada qalan yəhudi və kommunist professorlar isə deportasiya edilir və ya nasist terrorunun qurbanına çevrilir. 1933-cü il mayın 17-də Universitetin müəllim və tələbələri universitet meydanında kitab yandırılması mərasimində iştirak edir və həmin dövrdən universitet faşist ali məktəbi kimi tanınır. II Dünya müharibəsindən sonra Universitetdə geniş denasifikasiya (müharibədən sonra alman və Avstriya cəmiyyətinin bütün sahələrinin nasist ideologiyasından təmizlənməsi) işləri aparılır. Universitet müharibə zamanı dağıntıya məruz qalmadığı üçün burada bərpa prosesi sürətlə gedir. 1960-1970-ci illərdə universitet sürətlə inkişaf edir, şəhər kənarında Nyunheymer Feld ərazisində ali məktəbin nəhəng tibb və dəqiq elmlər kampusu açılır. 2007-ci ildə universitet Almaniya Federal Təhsil və Elmi Tədqiqatlar Nazirliyi və Almaniya Tədqiqat Fondu tərəfindən alman universitetlərinin beynəlxalq təsirinin gücləndirilməsi, universitetlərdə təhsil alan gənc alimlərə gözəl şərait yaradılması məqsədilə təsis olunan maliyyə proqramına qoşulur. 2009-2010-cu tədris ilində Universitetin illik büdcəsi 603,8 milyon avro idi. Ali məktəbin illik gəlirləri həmin il 187,1 milyon avro, xərcləri isə 180,5 milyon avro olub. Universitetdə təhsil haqqı hər semestr 500 avro təşkil edir və qeydiyyatdan keçmək üçün tələbə 104 avro ödəməlidir. Qeydiyyat xərcləri ilə birgə təhsil haqqının məbləği hər semestr 604 avrodur. Universitet tələbələrdən tibbi sığortadan keçməyi tələb edir. Tibbi sığortanın məbləği 6 ay üçün 296,55 avrodur. Avropa Birliyini təmsil edən tələbələr öz vətənlərində tibbi sığortadan keçmələri haqqında sənəd təqdim etdikdə tibbi sığortadan azad olunurlar.

Heydelberq Universitetinə qəbul olan tələbələr əvvəlcədən özlərinə yer axtarmalıdır. Hazırda kampus ərazisində otaqların aylıq qiyməti 200-500 avro arasında dəyişir. Hər semestrin əvvəlində tələbə 120 avro ödəyərək semestr bileti əldə edir, bu da semestr ərzində ona şəhər ərazisində bütün növ ictimai nəqliyyatdan pulsuz istifadə etməyə imkan yaradır. Universitetdə tələbələrə bir neçə təqaüd təklif edilir. Təqaüdlərin əksəriyyətinin, DAAD təqaüdü (400 avro) istisna olmaqla, məbləği ayda 660 avrodur.

Almaniyanın beşinci ən böyük şəhəri olan Heydelberq ölkənin cənubqərbində Nekkar çayının sahilində yerləşir. Romantizmin beşiyi hesab edilən şəhərin 145000 nəfər sakini var. Şəhərin ən məşhur və turistlər tərəfindən ziyarət olunan yeri Qədim şəhər qalasıdır. Universitet üç kampusdan (Qədim şəhər, Yeni, Berqheym) ibarətdir. Yeni universitet adlanan ərazi Qədim şəhər kampusunun mərkəzi hesab edilir. Bu ərazi universitet meydanında universitet kitabxanası ilə əsas inzibati binaların yaxınlığında yerləşir. Yeni Universitetin rəsmi açılışı 1931-ci ildə olub. Onun yaradılması Qoldman Saks,

Morgan Kraysler və Ford kimi zəngin Amerika ailələrinin maliyyə dəstəyi, Heydelberq Universitetinin məzunu və ABŞ-ın Almaniyada səfiri olmuş Yakob Qould Şurmanın xeyriyyə kampaniyasına ayırdığı vəsaitlər hesabına maliyyələşib. Qədim şəhər kampusunda humanitar və sosial elmlər üzrə fakültə və institutlar yerləşir. Fakültələr zəngin kitabxanalara və tədqiqatçı tələbələr üçün nəzərdə tutulmuş laboratoriyalara malikdir. Yeni kampus şəhərin kənarında Nyunheymer Feld ərazisində yerləşir. Bu kampus universitetin geniş ərazisini əhatə edir və Almaniyada təbiət elmləri və biologiya elmi üzrə mövcud olan ən iri kampusdur. Demək olar ki, bütün təbiət elmləri fakültələri və institutları, Tibb məktəbi, xəstəxanası, Universitet kitabxanasının elm bölməsi burada yerləşir. Nyunheymer Feld kampusunda professor-müəllim heyəti və tələbələri, ziyarətçiləri üçün nəqliyyat vasitələri vardır. Fizika və Astronomiya fakültəsi adı çəkilən kampusların heç birində yerləşmir. Fakültə Qədim şəhər kampusundan Nekkar çayı vasitəsilə ayrılır, Yeni kampusdan isə 2 km-lik məsafədə yerləşir. Universitetin üç büyğk xəstəxanası daxil olmaqla, təbiət elmləri fakültələri və Tibb məktəbi Yeni kampusun ərazisindədir.

Berqheym kampusu keçmiş Ludolf Krehl klinikası ərazisində yerləşir. 2009-cu ilin martından etibarən burada İqtisadiyyat, Politologiya və Sosiologiya institutları fəaliyyət göstərir. Berqheym kampusunda bir mühazirə zalı, bir neçə seminar otağı, ən müasir universitet kitabxanaları və bir kafe var.

2003-cü ildə Heydelberq Universitetində həyata keçirilən struktur dəyişikliklərindən sonra burada 12 fakültə fəaliyyət göstərir. Fakültələr bir neçə departament və institutlara bölünüb. Onların əksəriyyəti yeni Avropa standartlarına cavab vermək məqsədilə bakalavr, magistratura və doktorantura dərəcələri üzrə tədris proqramı təklif edir. Universitetin on iki fakültəsindən biri Biologiya fakültəsidir. Buraya Zoologiya, Bitkiçilik, Neyrobiologiya, Əczaçılıq və Molekulyar Biotexnologiya institutları daxildir. Fakültədə təqribən 2000 tələbə təhsil alır, 70 professor, 40 məruzəçi və 300 elmi işçi çalışır. Empirik Tədqiqatlar Fakültəsinə Psixologiya, Sosial və Mədəni Antropologiya institutları, Təhsil departamenti, İdman və İdman Elmləri İnstitutu və Gerontologiya İnstitutu daxildir. Hüquq fakültəsi universitetin əsas fakültələrindən hesab olunur. Məktəb 1386-cı ildə I Ruprext tərəfindən təsis olunub və Almaniyanın ən qədim hüquq məktəbidir. Kimya və Yer haqqında elmlər fakültəsinə Qeyri-üzvi kimya, Üzvi kimya, Fiziki kimya, Coğrafiya, Geologiya və Paleontologiya institutları, Mineralogiya və Geokimya institutları daxildir. Kimya fakültəsi 1817-ci ildə ayrıca bir institut kimi təsis olunub. Coğrafiya İnstitutunun yaranma tarixi isə 1895-ci ildən hesablanır. Tibb fakültəsi 1386-cı ildə təsis olunan dörd fakültədən biridir. Heydelberq Tibb Məktəbi Almaniyanın ən qədim və güclü tibb məktəbidir. Onun tibb dərəcəsi üzrə təhsil proqramı (tələbələr üçün iki il və dörd il doktorantura) 2001-ci ildə əsaslı dəyişikliyə uğrayıb. Həmin ildən fakültənin

bütün tələbələri təhsillərini 6 il müddətində davam etdirir. Bu gün 22 institutu fəaliyyət göstərən fakültə Heydelberq Universiteti xəstəxanası ilə sıx əməkdaşlıq edir. Manheym Tibb fakültəsi 1964-cü ildə yaradılıb və Manheym şəhərində yerləşir. Fakültə 11 institutdan ibarətdir, Əsasən, tibbi texnologiyalar sahəsində araşdırmalarla məşğul olur və Manheym Tətbiqi Elmlər Universiteti ilə sıx əməkdaşlıq edir. Burada, əsasən, optik ölçü texnikasının inkişaf etdirilməsi, proqram təminatının işlənib hazırlanması və s. həyata keçirilir. Riyaziyyat və Kompyuter elmləri fakültəsinə Riyaziyyat, Tətbiqi Riyaziyyat və Kompyuter Elmləri institutları daxildir. Müasir dillər fakültəsi alman dili, ingilis dili, alman dili əcnəbi dil kimi, tərcüməçilik, kompyuter linqvistikası, Roma dilləri, Orta əsrlər və Neo-Latın filologiyası və Slavyan dilləri üzrə kursları əhatə edir. Fəlsəfə və Tarix fakültəsi 23 institut və departamentdən ibarətdir. Fakültə 2002-ci ildə keçmiş Tarix və Fəlsəfə fakültələri ilə şərqşünaslıq və Klassik Tədqiqatlar fakültələrinin birləşməsi nəticəsində yaranıb. Fizika və Astronomiya fakültəsinə Kirxhof adına Fizika İnstitutu, Fizika, Nəzəri Fizika və Nəzəri Astrofizika institutları daxildir. Teologiya (İlahiyyət) fakültəsi universitetin 1386-cı ildə təsis olunan ən qədim fakültələrindən biridir. İqtisadiyyat və Sosial Emlər fakültəsi Politologiya, Sosiologiya, Alfred Veber adına İqtisadiyyat institutlarını əhatə edir.

Fakültələrlə yanaşı, Heydelberq Universiteti Fundamental Fizika, Heydelberq Riyaziyyat və Hesablama Metodları Elmləri, Harmut Hoffman-Berlinq Molekulyar və Hüceyrə Biologiyası ali məktəbləri, Asiya və Avropa Qlobal Kontekstdə elmi-tədqiqat mərkəzlərindən ibarətdir.

Universitetin kitabxanası Almaniyanın ən zəngin kitabxanalarından biridir. İstifadəçilərinin sayına görə kitabxana ölkədə birinci yeri tutur. Kitabxana sistemi fakültə və institutların kitabxanaları daxil olmaqla, ümumilikdə, 7 milyona yaxın kitab və digər materiallara malikdir. Universitetin əsas kitabxanasında 3,2 milyon cild kitab, 50000 mikrofilm və videokaset, 10732 dövri nəşr, 6600 əlyazma, 110500 avtoqraf, qədim xəritə və şəkillər vardır. Əsas kitabxanadan əlavə universitetin 83 fakültə və institut kitabxanalarında 3,5 milyondan çox kitab var.

Universitetdə 12399 nəfər işçi çalışır, onlardan 4824 nəfər akademik, qalanları isə inzibati heyətdən ibarət əməkdaşlardır. Universitetdə, ümumilikdə, 28266 nəfər təhsil alır. Onların 16264 (57,5%) nəfərini qızlar, 5225 nəfərini əcnəbilər, 3271 nəfərini magistrantlar, 1133 nəfərini doktorantlar təşkil edir.

Heydelberq Universiteti dünyaya çoxlu sayda filosof, hüquqşünas, ilahiyyətçı, şair və yazıçı, alim bəxş edib. Universitetin məzunları arasında 30 Nobel, 18 Leybnits, 2 Oskar mükafatları laureatları var. Almaniyanın bir neçə federal və baş nazirləri ilə yanaşı, ölkənin beş kansleri də bu universitetdə təhsil alıblar. Onlardan sonuncusu adı Almaniyanı birləşdirən kansler kimi tarixə düşmüş Helmut Kol olub. Bundan başqa, Belçika, Bolqarıstan, Yunanıstan, Nikaraqua, Serbiya, Taylandın dövlət və hökümət

rəhbərləri, Britaniya taxtının vəliəhdi, NATO-nun Baş katibi və Beynəlxalq Sülh Bürosunun direktoru Heydelberq Universitetində təhsil alıb. Rusiyanın görkəmli kimyaçı alimi, elementlərin dövri cədvəlinin yaradıcısı Dmitri Mendeleyev dövrünün məşhur professoru Robert Vilhelm Bunzenin universitetdə fəaliyyət göstərən laboratoriyasında işləyib.

Hazırda universitetin professor heyətinin tərkibində tibb elmi üzrə Nobel mükafatı laureatları Bert Zakman (1991) və Harald zur Hauzen (2008), yeddi Leybnits laureatı, Almaniya Federal Konstitusiya Məhkəməsinin keçmiş hakimi Paul Kirxhof və Dəniz Hüququ üzrə Beynəlxalq Tribunalın sabiq prezidenti Rüdiger Volfrum da var.

**Münhen Lüdviq-Maksimilian Universiteti (Ludwig-Maximilans-Universitat München).** Münhen Lüdviq-Maksimilian Universiteti Almaniyanın Münhen şəhərində yerləşir. 500 ildən artıq tarixə malik bu universitet tələbələrinin sayına görə ölkənin ən böyük ikinci ali təhsil ocağı hesab edilir.

Münhen Lüdviq-Maksimilian Universiteti dünya universitetləri arasında özünəməxsus yer tutur. Böyük Britaniyanın "Times Higher Education Supplement - QS World Universities Rankings" jurnalının 2009-cu ildə apardığı dünya universitetlərinin reytinqinə əasən, Münhen Lüdviq-Maksimilian Universiteti 100 ən yaxşı ali məktəb arasında 98-ci yerdə olub. "Times Higher Education World University Rankings"in 2010-2011-ci illər üzrə dünyanın ən nüfuzlu universitetləri arasında apardığı araşdırmaya əsasən, Münhen Lüdviq-Maksimilian Universiteti 61-ci, "QS World University Rankings"in açıqlamasına görə isə 66-cı yerdə yerləşib. "Times Higher Education World University Rankings"in 2011-2012-ci tədris ili üzrə açıqladığı reytinq cədvəlinə əsasən universitet 45-ci, "QS World University Rankings"in reytinqində isə 62-ci sirada olmuşdur.

Münhen Lüdviq-Maksimilian Universiteti Avropa Tədqiqat Universitetləri Liqasının, Vyana Beynəlxalq Universitetinin, Almaniya Akademik Mübadilə Xidmətinin (DAAD) və Bavariya Beynəlxalq Akademik Mərkəzinin təsisçi üzvüdür. Universitet həmçinin Avropa Birliyinin maliyyələşdirdiyi Erasmus Mundus proqramında fəal iştirak edir.

Münhen Lüdviq-Maksimilian Universiteti 1472-ci ildə İnqolştat şəhərində Roma Papasının dəstəyi ilə bavariyalı Hersoq Lüdviq tərəfindən təsis edilib. İlk olaraq təhsil ocağının tərkibində dörd fakültə: İncəsənət (hazırkı Fəlsəfə fakültəsi), Tibb, Hüquq və İlahiyyət fakültələri fəaliyyət göstərib. Universitet islahatlar dövründə Martin Lüter və onun tərəfdarlarına qarşı mübarizədə böyük rol oynayıb. Sonralar universitet 200 ildən çox Yezuitlərin təsiri altında olub.

1800-cü ildə Kral I Maksimilianın qərarı ilə ali məktəb Almaniyanın Landshut şəhərinə köçürülüb. Universitetin köçürülməsində əsas məqsəd ali məktəbi yezuitlərin təsirindən azad etmək və yezuitlərə meyilli müəllim heyətini digərləri ilə əvəzləmək olub. 1802-ci ildən universitet bavariyalı

Hersoq Lüdviq və Kral I Maksimilianın şərəfinə Lüdviq-Maksimilian Universiteti kimi tanınıb. 1825-1826-cı illərdə universitetin tələbələrinin sayı artaraq təxminən min nəfərə çatmışdır.

1826-cı ildə Kral I Lüdviqin əmri ilə bu ali təhsil müəssisəsi Münhen şəhərinə köçürülüb. XIX əsrin ikinci yarısında ali məktəbin həyatında dəyişikliklər baş verir. Universitetdə keçirilən məşğələlərin sayı artırılır və buraya yüksək ixtisaslı müəllimlər cəlb edilir. 1840-cı ildə universitet hazırda yerləşdiyi binaya köçürülür.

1900-cü ildə Şotlandiyalı Mariya Qordon və Aqnes Kelli Münhen Lüdviq-Maksimilian Universitetinin doktorluq dərəcəsini alan ilk qadın alimləri olublar. Münhen Lüdviq-Maksimilian Universitetinin doktorant adını almış ilk alman qadını isə Adel Hartman olub.

2010-2011-ci tədris ilində Münhen Lüdviq-Maksimilian Universitetinin illik büdcəsi 482,4 milyon avro olub. Ali məktəbin gəlirlərinin 303,2 milyonu dövlət yardımlarının, 117,6 milyonu isə xarici maliyyə mənbələrinin payına düşüb. Universitetin xərclərinin 27,2 milyonunu təhsil haqqı, 21,1 milyonunu əməliyyat xərcləri, 12,3 milyonunu təmir və tikinti, qalan 1 milyonunu isə başqa xərclər təşkil edir.

Münhen Lüdviq-Maksimilian Universiteti XX əsrdə əsaslı şəkildə genişlənməyə başlayır. Universitetin ərazisində yeni fakültələr (baytarlıq, pedaqoji və s.) yaradılır. Universitetdə Avropa ərazisində yeganə olan Biotexnologiya Mərkəzi, astronomiya və aqrofizika elmi-tədqiqat institutları və aynalı teleskopu olan rəsədxana fəaliyyət göstərir.

Münhen Lüdviq-Maksimilian Universitetinin institutları və tədqiqat mərkəzləri Münhendə və ona yaxın qəsəbələrdə yerləşir. Universitetin əsas binaları Qeşvister-Şol-Plaz ərazisində yerləşir. Digər binalar isə Hay-Tek Kampusu, Pedaqogika və Psixologiya fakültəsinin yerləşdiyi Şvaynxenbau binası, universitetin klinikaları, kimya və biotexnologiya kampusları və s. Qrosxarden rayonu ərazisində fəaliyyət göstərir.

Hazırda universitetdə 18 fakültə və 41 tədqiqat mərkəzi fəaliyyət göstərir.

Katolik İlahiyyət fakültəsi universitetin ilk fakültələrindəndir. Fakültənin tərkibinə Martin Qrabman adına Orta əsrlər İlahiyyəti və Fəlsəfəsi üzrə Elmi-Tədqiqat, Ekumenik Tədqiqatlar (əsasən müxtəlif xristian kilsələri arasında dialoqun təşkili məsələləri ilə məşğul olur) və Münhen Pravoslav institutları daxildir.

Protestant İlahiyyət fakültəsi 1968-ci ildə təsis edilib. Yarandığı gündən fakültə almandilli ölkələr arasında ilahiyyət elminin tədqiqi ilə məşğul olan ən güclü elmi tədqiqat fakültələrindən birinə çevrilib.

Hüquq fakültəsində xüsusi sahələr üzrə çoxlu sayda kurslar təklif edilir, həmçinin ilk dövlət imtahanını verənlərə beynəlxalq və Avropa biznes hüququ sahəsində təhsilini davam etdirmək imkanı yaradılır. Bundan əlavə, elmi dərəcəsi olan əcnəbi tələbələr alman hüququ üzrə dərəcə də ala bilər.

Biznesin İdarə olunması fakültəsi Münhen İdarəetmə Məktəbi kimi də tanınır. Fakültə Almaniyanın ən yaxşı biznes məktəblərindən biri hesab edilir. Fakültədə xeyli sayda milli və beynəlxalq idarəçilik (master) proqramları vardır.

İqtisadiyyat fakültəsi 2010-2011-ci tədris ilindən başlayaraq öz tələbələrinə ingilis dilində ikiillik magistr proqramları təqdim edir. Bu proqramlar əsasən universitetin İqtisadi Tədqiqatlar Mərkəzinə dəvət edilmiş beynəlxalq tədqiqatçılar tərəfindən tədris edilir.

Tibb Fakültəsi tibb üzrə Almaniyanın cənub ərazisində mövcud olan ən böyük təhsil müəssisəsidir. Onun tərkibinə Münhen Hospital Universiteti daxildir.

Baytarlıq Tibb fakültəsi də Almaniyanın cənubunda yerləşir. Fakültə bu ərazidə mövcud olan yeganə baytarlıq təlimi və tədqiqatı mərkəzidir. Fakültənin tədris proqramında qida gigiyenası və baytarlıq səhiyyəsi ilə yanaşı, kliniki və parakliniki təlimlərin keçirilməsi də nəzərdə tutulur.

Tarix və Sənətşünaslıq fakültəsi cənubi Almaniya ərazisində incəsənət elmlərinin tədrisi üzrə təxminən 25 proqram təqdim edən yeganə təhsil ocağıdır. Onun tərkibinə İncəsənət Tarixi, İncəsənət Pedaqogikası, Musiqi Pedaqogikası, Musiqişünaslıq institutları və Münhen Teatr Akademiyası daxildir.

Fəlsəfə, Elm Nəzəriyyəsi və Dinşünaslıq fakültəsində təhsil, əsasən, fəlsəfə ixtisası üzrə dərəcə proqramları istiqamətində aparılır. Burada həmçinin dini proqramların da tədrisi həyata keçirilir.

Psixologiya və Pedaqogika fakültəsi üç institutdan ibarətdir. Fakültədə pedaqogika, Təhsil və Sosiallaşma, Məktəb və Təlim üzrə Tədqiqat, Profilaktika, Reabilitasiya və İnteqrasiya üzrə Tədqiqat institutları fəaliyyət göstərir.

Mədəniyyətşünaslıq fakültəsində Cənubi, Cənub-Şərqi Avropa və Asiya ölkələrinin mədəniyyətlərini öyrənmək üçün filoloji, arxeoloji, antropoloji və sosioloji vasitələri tətbiq edən fənlər tədris olunur.

Dilçilik və ədəbiyyatşünaslıq fakültəsi tələbələrin sayına görə universitetin ən böyük fakültələrindəndir. Fakültə müxtəlif institutları və əlavə departamentləri özündə birləşdirən üç şöbədən ibarətdir.

Birinci şöbə Alman Filologiyası, Müqayisəli ədəbiyyat, Nordik Filologiyası və Alman Dili institutlarını əhatə edir. İkinci şöbə yunan və latın filologiyası, roman dilləri filologiyası, italyan filologiyası, slavyan filologiyası, dil və kommunikasiya və Albanologiya proqramlarını təqdim edir. Üçüncü şöbəyə İngilis filologiyası və Amerika institutları daxildir.

İctimai Elmlər fakültəsi tələbələrinin sayına görə üçüncü yerdə yerləşir. Fakültədə sosiologiya, politologiya, jurnalistika və kommunikasiya sahələri üzrə 10 əsas və ikinci dərəcəli proqramlar əsasında tədris aparılır.

Riyaziyyat, İnformatika və Statistika fakültəsi bakalavr, magistr dərəcələri və diplom verilməsi üzrə proqramlar təklif edir. Fakültə riyaziyyat, informatika və statistika şöbələrindən ibarətdir.

Fizika fakültəsi universitetin nüfuz qazanmasında xüsusi rol oynayan fakültələrdəndir. 2010-cu ildə "Times Higher Education World University Rankings"in reytinq cədvəlinə əsasın universitet fizika sahəsi üzrə Almaniyanın ən yaxşı ali təhsil müəssisəsi hesab edilib. Almaniya Tədqiqat Fondundan maliyyə dəstəyi alan fakültənin xeyli sayda tədqiqat mərkəzləri var.

Kimya və Əczaçılıq fakültəsinə Biokimya və Əczaçılıq şöbələri daxildir. Fakültə Hay-Tek kampusunda yerləşir.

Biologiya fakültəsi iki şöbədən ibarətdir. Şöbələrdən birində botanika elmi üzrə kurslar təklif edilir. Burada biologiya elminin prinsipləri, genetika, mikrobiologiya, sistematik zoologiya, həmçinin sistematik botanika və mikrologiya elmləri tədris olunur. Digər şöbə isə antropologiya, insan genetikası və zoologiya elmləri ilə məşğul olur.

Yer və Ətraf Mühit Elmi fakültəsi coğrafiya, yer və ətraf mühit elmləri bölmələrindən ibarətdir. Fakültənin devizi "Qlobal, regional və lokal dəyişikliklərin tədqiqi, anlaşılması və planlaşdırılması"dır.

Ali məktəbin tədqiqat mərkəzlərindən olan Reyzel Karson adına Ətraf Mühit və Cəmiyyət Mərkəzi Münhen Universiteti ilə Alman Muzeyinin birgə təşəbbüsü əsasında yaradılıb. Mərkəz Almaniyanın Tədqiqat və Təhsil Nazirliyi tərəfindən dəstəklənir. Mərkəzin məqsədi ətraf mühitin qorunması üzrə aparılan siyasi və elmi yığıncaqlarda bəşəriyyətin rolunu gücləndirmək məqsədilə tədqiqat və müzakirələrin aparılmasıdır.

Digər əsas mərkəz kimi Tətbiqi Siyasi Tədqiqatlar Mərkəzinin adını çəkmək olar. 1995-ci ildə yaradılan mərkəz Almaniyada Avropa və beynəlxalq məsələlər üzrə fəaliyyət göstərən siyasi tədqiqatlar institutlarındandır.

Universitetdə həmçinin Yaponiya, Beynəlxalq Səhiyyə, Nanoelmlər, Neyroelm-Beyin və İdrak mərkəzləri və s. fəaliyyət göstərir.

Münhen Lüdviq-Maksimilian Universitetində mükəmməl kitabxana sistemi vardır. Məktəbin kitabxana sistemi əsas və 130-a qədər kiçik kitabxanaya bölünür. Burada ümumilikdə təxminən 6,5 milyon cild kitab vardır. Universitetin əsas kitabxanasında 2,4 milyon cild kitab, 3 mindən çox qədim əlyazma və 1900-cü ilə məxsus 4 minə yaxın qədim şəkillər saxlanılır. Kitabların böyük əksəriyyətinin elektron versiyası yaradılıb. Bundan əlavə, ali məktəbin müəllim və tələbələri Bavariya Dövlət Kitabxanasından, Münhen Texniki Universitetinin kitabxanasından, həmçinin digər yerli və dövlət kitabxanalarından istifadə etmək imkanına malikdir.

Universitetdə ümumilikdə 14 minə yaxın əməkdaş çalışır. Onların 714 nəfərini professor-müəllim heyəti təşkil edir.

Münhen Lüdviq-Maksimilian Universitetinin müəllimləri arasında 1918-ci ildə fizika üzrə Nobel mükafatına layiq görülən kvant nəzəriyyəsinin banisi Maks Plankın adını çəkmək olar. Ümumilikdə universitetin fizika, tibb və kimya sahələri üzrə 13 Nobel mükafatı laureatı var.

2011-2012-ci tədris ili üzrə Münhen Lüdviq-Maksimilian Universitetində 48857 tələbə təhsil alır. Onlardan 6615 nəfəri əcnəbi tələbələrdir. Hər il təxminən 5 min gənc mütəxəssis Münhen Lüdviq-Maksimilian Universitetinin məzunu olur. Universitetdə təhsil almaq istəyən əcnəbi tələbələr üçün irəli sürülən ilk və əsas şərtlərdən biri alman dilini mükəmməl bilməkdir. Bu məqsədlə universitetin tərkibində əcnəbilər üçün alman dili kursu təşkil edilir. Məşğələlər əsas hazırlıqla paralel, həmçinin tətil vaxtları keçirilir. Alman dili kursu 6 mərhələyə bölünür. İlk pillələrdə dərs yükü həftədə 13-20 saat, sonuncu pillələrdə isə 4-20 saat təşkil edir.

Təhsil ocağında tədris ili iki semestrə bölünür. Fakültələr üzrə qəbul müxtəlif vaxtlarda həyata keçirilir. Qış semestri oktyabrın ortalarında başlayır və fevralda başa çatır. Yay semestri apreldən iyul ayına qədər davam edir. Qış semestrində təhsil üçün ərizələr oktyabrın, yay semestrində isə aprelin əvvəlinə qədər qəbul edilir.

Münhen Lüdviq-Maksimilian Universitetində 1400 alim doktorluq dərəcəsi almaq və təxminən 100 nəfər isə universitetdə çalışmaq hüququ əldə etmək üçün dissertasiya müdafiə edib. Ali məktəbdə dərslər 150 istiqamət üzrə aparılır. Burada, demək olar ki, bütün humanitar fənlər, o cümlədən riyaziyyat və təbiət elmləri tədris olunur. Universitet hüquq, iqtisadiyyat, ilahiyyət, tibb, psixologiya, pedaqogika, sosiologiya, tarix və filologiya elmləri sahəsində mütəxəssis hazırlığı ilə məşğul olur. Eyni zamanda ali məktəbdə Albaniya və Misir tarixi, mədəniyyəti, Cənub-Şərqi və Şərqi Avropa ölkələrinin iqtisadiyyatı kimi nadir ixtisaslara da yer verilib. Bununla yanaşı, universitetdə tibb üzrə elmi-tədqiqat işlərini həyata keçirən klinika fəaliyyət göstərir.

Münhen şəhərində 42 tələbə yataqxanası var. Bu yataqxanalar 9 min tələbə üçün nəzərdə tutulub. Lakin şəhərdə 9 universitetin fəaliyyət göstərdiyini, ümumilikdə həmin universitetlərin 100 min tələbəsinin olduğunu nəzərə alsaq (bunun 48 mini Münhen Lüdviq-Maksimilian Universitetinin payına düşür), yataqxanaların kifayət sayda olmadığı aydın görünür. Məhz buna görə də tələbələrin əksəriyyəti kirayə ilə mənzil tuturlar.

Münhen Lüdviq-Maksimilian Universiteti Almaniyanın ən tanınmış elmi tədqiqat mərkəzlərindən biridir. Universitet öz fəaliyyətində şəffaflıq, yaradıcı yanaşma və novatorluq prinsiplərinə üstünlük verir. Ali məktəb apardığı elmi tədqiqat işləri ilə nəinki Almaniyada, eləcə də bütün Avropada böyük nüfuz qazanıb və yüksək nailiyyətlərlə məşhurlaşıb.

2013-cü il üzrə Almaniyanın ən yaxşı universitetlərinin reytinq cədvəli açıqlanmışıdır. Tələbələr "şəhər və mədəniyyət ", "müəllim tərkibi " və " xərclər və yaşayış səviyyəsi " kimi kriteriyalar üzrə Köln Universitetinə 1-10 şkala həddində ən yüksək-9.7 bal vermişlər. İkinci yerdə Bamberq şəhərindəki Otto Fridrix adına Universitet, üçüncü yerdə isə, Mayints şəhərindəki İohann Quttenberq Universitet qərarlaşmışdır.

# FRANSADA TƏHSİL

Fransa ərazisində ilk məktəb hegemonluq dövründə Qalliyada Roma nümunəsi kimi yaradılmışdır. VI-VII əsrlərdə xristianlığın genişlənməsi nəticəsində monastr və kilsə məktəbləri yaradılır. Sonrakı təhsilin inkişafı VIII-IX əsrlərdə krallığın dirçəliş mərhələsinə aiddir.

XII əsrdə şəhərlərdə şagirdlərdən yığılan pul hesabına qeyri-kilsə məktəbləri meydana gəldi. XII əsrin əvvəllərində Parisdəki ilahiyyət məktəbində üç min tələbə oxuyurdu. XIV-XV əsrlərdə Fransada yaranan kolleclər yüksək səviyyəli təhsil müəssisələrindən biri sayılırdı. İlk kolleclər (fransızca "college" sözündəndir) XV əsrin ortalarında Fransada Sarbon və Navar universitetlərinin nəzdində yaranmışdı. Universitetlərə qəbul olmaq üçün kolleci qurtaranlara icazə verilirdi. XVI əsrdə kolleclər ödənişli, pansion və eksternatlar isə ödənişsiz idi. Sonrakı illərdə kolleclər tədricən yüksək səviyyədə təhsil verən müstəqil tədris müəssisələrinə çevrildilər. 1627-ci ildə Fransanın şimalında (Paris, Tuluza, Şampan) fəalliyyət göstərən kolleclərdə 25 minə yaxın şagird təhsil alırdı. XVIII əsrin ortalarında Fransada böyük şagird kontingenti olan müqəddəs Loyala kollecində ildə 14 minə yaxın şagird oxuyurdu. Fransadakı La Şleş məktəbi xüsusilə bütün Avropada məşhur idi. Ölkədə ali təhsil məzmununun yeni istiqamətdə inkişafına görə Paris universiteti xüsusi rol oynayırdı. Burada ilahiyyət və fəlsəfənin tədrisinə xüsusi yer verilirdi. 1672-ci ildə Parisdə 160-dan çox bələdiyyə məktəbi və ibtidai təhsil verən yalnız 40 məhəllə məktəbi var idi. XVII əsrin sonunda Fransada yeganə olan müqəddəs Şarl seminariyasını hər il 20-30 məzun bitirirdi. Fransada XVII-XVIII əsrlərdə ümumtəhsil məktəblərinin əsas tipi kollec idi. 1700-cü ilin sonunda ölkədə 73 min şagirdi əhatə edən 562 kollec var idi. O dövrdə Porroyal məktəbləri daha çox pedaqoji təcrübəyə malik idi. Porroyal məktəbləri ibtidai, orta və ali təhsil müəssisələri idi. Həmin məktəblər sonrakı dövrlərdə milli təhsil sisteminin formalaşmasında mühüm rol oynamışdır. XIX əsrdə Qərbi Avropa ölkələrinin hamısında olduğu kimi, Fransada da dövlətin nəzarəti altında xüsusi orta məktəblər fəaliyyət göstərirdi. Bu dövrdə 12 yaşlı və yuxarı yaşlı uşaqlar üçün peşə məktəbləri açıldı. 16 iyun 1881-ci ildən Fransada ümumicbari təhsil həyata keçməyə başladı. Orta təhsil sistemində lisey və kolleclər əsas rol oynayırdı. Dövlət maarif sistemi mərkəzləşdirilmişdi. Maarif sisteminin quruluşu və funksiyaları, tədris proqramları Maarif Nazirliyinin təlimatına görə müəyyənləşdirilir. Fransa ərazisi hər birinə bir neçə departament daxil olan 23 akademiyaya (tədris dairəsinə) bölünür: akademiyaya rektor, departamentə akademiyanın müfəttişi başçılıq edir. Onillik icbari təhsil altı

təhsillərini ümumi peşə məktəblərində davam etdirirdi. Fransada yüksək ixtisaslı kadrlar universitetlərdə və müxtəlif sahə ali məktəblərində hazırlanırdı.

1893-1896-cı illərdə ayrı-ayrı fakültələr əsasında universitetlər yaradıldı. Bu dövrdə 16 universitet fəaliyyət göstərirdi. 1852-ci ildə lisey və kolleclərin strukturunda və proqramında köklü dəyişiklik edildi. Təhsil kursu üç yerə bölündü: ibtidai, qrammatika və ali. XX əsrdə Fransada faktiki olaraq ibtidai təhsilin iki tipi var idi: 1) 6-13 yaşlı uşaqların ümumtəhsilini həyata keçirən məktəblər. 2) orta təhsil müəssisələri hesab olunan məktəblər isə lisey, kollec və özəl məktəblər idi. Bu tip təhsil müəssisələrinin məzunlarının universitetə qəbul olunmaq hüquqi var idi. XIX əsrin ikinci yarısında ölkədə bələdiyyə və özəl məktəblər fəaliyyət göstərirdi. Fransada 10-illik icbari təhsilə böyük əhəmiyyət verilirdi. Özəl məktəblərdə təhsil ödənişli idi. İbtidai təhsil 5-illik idi, növbəti təhsil pilləsi kollec idi. Burada təhsil 4-il davam edirdi. Kolleclər natamam orta məktəblər hesab olunurdu. Tam orta təhsil 3 növ məktəbdə: ümumtəhsil, texnoloji və peşə liseylərində verilirdi. Sonrakı təhsil ikiillik kütləvi peşə liseylərində davam etdirilirdi.

1871-ci ildə Paris Kommunası məktəblərində köklü yenidənqurma məsələsi qoyulmuş və ümumicbari təhsillə bağlı tədbirlər görülmüşdü.

Fransada təhsil pulsuzdur. Ölkənin müasir təhsil sisteminin əsası 1880-1890-cı illərdə qoyulub və 6 yaşından 16 yaşınadək uşaqlar üçün icbari idi. Dövlət və qeyri-dövlət (özəl) təhsil müəssisələrində məktəblilərin təxminən 20 faizi özəl orta təhsil müəssisələrində oxuyurdu.

Həm dövlət, həm də özəl təhsil müəssisələri üçün bütün məktəb proqramlarını dövlət təsdiq edirdi. Həmçinin müsabiqə və imtahanların keçirilməsi də dövlət tərəfindən təmin olunurdu, Bakalavr dərəcəsi səviyyəsinədək diplomların verilməsi hüququ yalnız dövlətə məxsus idi.

1959-cu ildən sonra özəl təhsilə dövlət tərəfindən yardım edilirdi. Ölkədə hər 9 özəl məktəbdən 8-i bu yardımdan yararlanırdı. Özəl sektorunda çalışan müəllimlərin əməkhaqqı və təhsil xərclərini də dövlət ödəyirdi.

Fransanın təhsil sistemi aşağıdakı struktura malikdir:

* məktəbəqədər təhsil (6 yaşınadək);

* ibtidai təhsil (6-11 yaş);

* orta təhsil (11-18 yaş) (orta təhsilin sonunda bakalavr diplomu verilir. Bu diplom imtahansız universitetə qəbul olmaq hüququ verir);

* ali təhsil.

Müxtəlif pillələrdə təhsilin təşkili və məzmunu, 30 ildən artıqdır ki, həyata keçirilən islahatlarla müşayiət olunur. Aparılan islahatlar təhsilin demokratikləşdirilməsini və onun inkişaf etməkdə olan cəmiyyətin ehtiyaclarına yönəldilməsini təmin edir. Fransada son illərin təhsil islahatları əsasən aşağıdakılardan ibarətdir:

* 3 yaşından 5 yaşınadək uşaqlar üçün məktəbəqədər uşaq müəssisələri şəbəkəsinin inkişafı;

* ibtidai məktəblərdən kolleclərə keçid imtahanlarının ləğv edilməsi, təhsildən geri qalan şagirdlər üçün adaptasiya siniflərinin yaradılması;

* xüsusiləşdirilmiş və ibtidai məktəbdən kollecə qədər qruplara bölünmə olmadan həyata keçirilməsi;

* təhsilin ödənişsiz olması (şagirdlərin təhsil müddəti ərzində lazımi vəsaitlərlə təmin olunması, məktəbə gediş haqlarının ödənilməsi);

* yeni fənlərin tədris proqramına daxil edilməsi: informatika, ictimaiyyətin əsasları və s.

Məktəbəqədər uşaq müəssisələri - "ana məktəbləri" 3 yaşından (boş yer olduqda 2 yaşından) 6 yaşınadək uşaqları qəbul edir. Fransada məktəbəqədər təhsil icbari olmasa da, faktiki olaraq 3-6 yaşında olan bütün uşaqlar (99,5 faiz) uşaq müəssisələrinə gedirlər.

"Ana məktəbləri"ni çox vaxt fransız təhsil sisteminin ən böyük uğuru hesab edirlər. Məktəbəqədər təhsil müəssisələrində siniflər, tədris prosesi yaxşı təşkil edilir, uşaqların hərtərəfli inkişafı üçün lazım olan bütün amillər nəzərə alınır. Uşaqlar müvafiq tədris materialları əsasında öyrədilir, bir çox faydalı bilikləri mənimsəyir və ünsiyyət vərdişlərinə yiyələnirlər.

Bu məktəblərdə uşaqlar üç yaş qrupuna bölünür. Birincisi, 3 yaşından (bəzən 2 yaşından) 4 yaşınadək uşaqların oynadıqları və danışmaq vərdişlərinə yiyələndikləri qrupdur. İkincisi, 4 yaşından 5 yaşınadək uşaqların yazma, rəsm və digər praktik vərdişlər, həm də şifahi ünsiyyət vərdişlərinə yiyələndikləri qrupdur. Üçüncü böyük qrup isə 5 yaşından 6 yaşınadək uşaqları əhatə edir. Burada uşaqlar oxu, yazı və hesablama vərdişlərinə yiyələnirlər.

Fransada qəbul edilmiş orta təhsil sistemi özlüyündə üç qrupa bölünür:

* ibtidai məktəb (5 illik təhsil);
* kollec (4 il);
* lisey (3 il).

Adətən, bu təhsil müəssisələri bir-birindən ayrı yerləşir. İbtidai məktəb və kollec məcburi xarakter daşıyır.

İbtidai məktəb 6 yaşdan 11 yaşadək (əgər uşağın təhsillə bağlı problemi yoxdursa) davam edir və aşağıdakı pillələrə bölünür:

* hazırlıq kursu;
* ibtidai kurs 1-ci il;
* ibtidai kurs 2-ci il;
* orta kurs 1-ci il;
* orta kurs 2-ci il.

İbtidai məktəbdə dərslər (saat 9-dan 12-dək və saat 14-dən 17-dək) həftədə dörd gün (27 saat) davam edir. Çərşənbə günü, şənbə günü nahardan sonra və bazar günü uşaqlar istirahət edir. Bu günlər ərzində uşaqlar maraqlarına uyğun olaraq müxtəlif idman və bədii dərnəklərdə məşğul ola bilər.

Fransada ibtidai məktəbdə oxuyan şagirdlərə evə tapşırıq verilmir. İbtidai təhsil dövründə sinifdə bütün fənləri bir müəllim tədris edir.

İbtidai təhsil almış bütün şagirdlər kolleclərdə oxuya bilərlər. Kollecdə təhsil, hər biri 2 il olmaqla iki dövrə bölünür:

* müşahidə dövrü;
* istiqamətləndirici dövr.

Müşahidə dövrünə VI və V siniflər daxildir. (Fransada siniflərin sıralanması əks istiqamətdə aparılır-VI, V, IV, III). Bu dövrdə tədris prosesi orta təhsilin baza elementlərini təqdim etməklə, ibtidai təhsili tamamlayır. Bütün uşaqlar kollecə daxil olur, bərabər tədris proqramı üzrə dərs keçir və müəyyən olunmuş xarici dillərdən birini öyrənirlər.

İstiqamətləndirici dövrə ümumi təhsilin IV və III sinifləri, eləcə də texniki təmayüllü kolleclərin IV və III sinifləri daxildir. Bu mərhələdə uşaqlar ikinci xarici dili öyrənməyə başlayır və əlavə olaraq latın, yunan və ya digər dilləri seçə bilir. III sinfin sonunda şagirdlər imtahan verir və kolleci bitirmələri haqda şəhadətnamə alırlar.

Bir sıra kolleclərdə xüsusi dərs rejimi vardır. Kollecdə təhsil aldıqları müddət ərzində idman və ya incəsənətin bir növü ilə intensiv şəkildə məşğul olmaq istəyən şagirdlər üçün uyğunlaşdırılmış dərs cədvəli üzrə siniflər təşkil edilir (təmayüllü kolleclər kimi). Xarici dilin dərindən öyrənildiyi bir neçə fənnin xarici dildə tədris edildiyi beynəlxalq kolleclər və ya Avropa kollecləri də fəaliyyət göstərir.

Kollecin III sinfindən sonra şagirdlər təhsillərini ya peşə (2 illik), ya da ümumtəhsil liseylərində (3 illik) davam etdirə bilərlər.

Ümumtəhsil liseyi 3 il ərzində bakalavr diplomu almaq üçün buraxılış imtahanına hazırlayır. Liseydəki siniflər "ikinci", "birinci" sinif və "Terminal" adlanır. Birinci sinif bakalavr dərəcəsinin müxtəlif növlərinə aparan çoxlu sayda istiqamətlərə – liseylərə malikdir. Birinci sinifdən sonra şagirdlər fransız dilindən verdikləri sınaq imtahanında əldə etdikləri qiymətlər bakalavr dərəcəsi imtahanında nəzərə alınır. "Terminal", və ya liseyin sonuncu sinif imtahanlarının verilməsi ilə başa çatır.

Fransızların qısaca "Bak" adlandırdıqları orta təhsil haqqında bu diplom böyük əhəmiyyətə malikdir (Azərbaycanda verilən ali təhsilin bakalavr diplomundan fərqlənir).

Qeyd etdiyimiz kimi, kolleci bitirdikdən sonra şagirdlər təhsillərini 2-illik peşə liseylərində də davam etdirə bilərlər.

Peşə liseyləri (Azərbaycandakı texniki peşə məktəblərinə oxşar tədris ocaqları) 2 il ərzində şagirdləri peşəkar diploma hazırlayır.

Müəyyən peşəyə yiyələnmiş şagirdlərə şəhadətnamə verilir. Mehmanxana təsərrüfatı, nəqliyyat və digər bu kimi sahələr üzrə ixtisaslara yiyələnmiş şagirdlər isə ümumi peşə təhsili şəhadətnaməsi alırlar.

Fransanın ali təhsil sistemi olduqca çevik və rəngarəngdir. Təhsil müəssisələri bir-birindən əhəmiyyətli dərəcədə fərqlənirlər. Dövlət tərəfindən qəbul edil-

miş müvafiq sənədlərə baxmayaraq, hər bir universitetin və ali məktəbin bir çox özünəməxsus xüsusiyyəti var.

Fransada təxminən 85 dövlət universiteti və ya Universitet Mərkəzi (buraya universitetlərlə yanaşı, institutlar, yəni bir istiqamət üzrə ali təhsil verən təhsil müəssisələri də daxildir), çoxsaylı ali məktəblər (çoxfənli peşə hazırlığı üçün), elmi-tədqiqat laboratoriyaları və tədqiqat mərkəzləri vardır.

Dövlət universitetləri nüfuzuna görə daha yüksək qiymətləndirilir və hər hansı özəl ali təhsil ocaqları ilə müqayisədə bir sıra üstünlüklərə malikdir. Birincisi, universitetin tədris planları milli təhsil nazirliyi tərəfindən tənzimlənir və standartlaşdırılır. İkincisi, dövlət universitetlərində dərs deməyə yalnız dissertasiya müdafiə etmiş və çoxmərhələli müsabiqəni keçmiş müəllimlər buraxılır. Təhsili başa çatdırdıqdan sonra universitetlər dövlət diplomları, ya da özlərinin daxili diplomlarını verirlər.

Universitetlərin nəzdində müxtəlif növ institutlar fəaliyyət göstərir. Bu sıraya müxtəlif profilli orta texniki peşə hazırlayan və təxminən bizim texnikumlara uyğun gələn qısamüddətli texnoloji institutlar, müəyyən dar çərçivəli ixtisas üzrə magistr səviyyəsində mütəxəssislər hazırlayan Universitet, Peşə İnstitutları daxildir. Fransada orta və ali təhsil arasında kəskin hədd mövcud deyil. Belə ki, orta texniki təhsil ali təhsil üçün pillə rolunu oynayır.

Hazırda Fransada "Üçüncü Minilliyin Universiteti" adlanan yeni ali təhsilin inkişafı planı tətbiq edilir. Bu plan ali təhsil üçün prioritetləri müəyyən edir və inkişafın əsas istiqamətlərini göstərir. Bu istiqamətdə qarşıya qoyulmuş əsas hədəflər:

* ali təhsil müəssisələri arasında əməkdaşlığın şəbəkə sistemində təşkili;
* ali təhsil müəssisələrinin əməkdaşlığa açıqlığının və beynəlxalq mobilliyin dəstəklənməsi;
* yeni informasiya və kommunikasiya texnologiyalarının inkişafı;
* elmi tədqiqatların səmərəliliyinin artırılması.

Fransada universitetlər fakültələrə, tədris-tədqiqat şöbələrinə və filiallara, yəni ixtisas istiqamətlərinə bölünür. Avropanın hər yerində olduğu kimi, hazırda Fransa universitetlərində də üç pilləli təhsil sistemidir: lisans, magistr, doktorluq tətbiq edilir. Lisans Azərbaycandakı bakalavr dərəcəsinə uyğundur və 3-illik təhsilin yekununda verilir.

Təhsilin ilk üçillik pilləsi lisans diplomunun alınması ilə başa çatır. Lisansın müxtəlif növləri mövcuddur: mono və ya plüri fənlər üzrə, ümumi, tətbiqi və peşəkar lisans. Lisans pilləsi 180 kreditlə (hər biri 30 kredit olmaqla 6 semestr) qiymətləndirilir. Kreditlər tələbənin biliyinin Avropa qiymətini təmin edir. Bütün Avropa ölkələrinin universitet diplomları kimi, Fransa universitetlərinin diplomları da Avropa kreditləri sistemində hər birinin öz dəyəri olan fənlər blokundan ibarətdir.

Lisansın müxtəlif istiqamətləri vardır:

* iqtisadi və sosial idarəetmə;
* hüquq və siyasi elmlər;

* bədii və mədəniyyət sektoru;
* filologiya və dillər;
* humanitar və sosial elmlər;
* təbii və dəqiq elmlər, texnologiyalar;
* idman və fiziki fəaliyyət texnikası;
* mühəndislik texnologiyaları;
* ilahiyyət.

Lisans diplomları arasında professional və ya peşəkar diplomunu xüsusi qeyd etmək lazımdır. Birillik lisans peşəkar təhsili alan tələbələr həm nəzəri, praktik məşğələlər, həm də müəssisədə 12 həftədən 16 həftəyədək davam edən iş təcrübəsini keçir. Bu peşəkar diplom bank sektoru, mühəndis-tikinti, sənaye, elektronika, turizm, mehmanxana işi və kənd təsərrüfatı sektoruna qədər 1000-dən çox müxtəlif ixtisas təklif edir. Adətən, lisans diplomuna verilən məhdud yerlər üçün müsabiqə böyük olur.

Lisans diplomu hazırlığında əcnəbi tələbələr üçün də yerlər nəzərdə tutulur. Yəni fransız dilini mükəmməl bilən və müxtəlif ali təhsil ocaqlarında təhsil alan, yaxud da ali məktəbi bitirmiş əcnəbi tələbələr öz sənədlərini birbaşa lisans pilləsinin 3-cü kursuna təqdim edə bilər. lisans diplomunu aldıqdan sonra əcnəbilər magistr səviyyəsində də təhsillərini davam etdirə bilər.

Qeyd edək ki, sığorta, maliyyə, bank işi, metal və taxta konstruksiyaların inşası, mexanika, elektrik enerjisi, elektronika sektoru, mülki tikinti, avtomobillərin təmiri istiqamətlərində Lisans diplomu almaq istəyənlər daha çoxdur.

İkiillik magistr pilləsi dövründə məzuna iki müstəqil diplom verilir: Master 1 (M1) və Master 2 (M2). Burada da seçim etmək imkanı vardır. Elmlə məşğul olmaq istəyənlər elmi tədqiqatlar üzrə master diplomu, istehsalatda çalışmaq arzusunda olanlar isə peşəkar master diplomu alırlar. Master səviyyəsi 120 kreditlə (hər biri 30 kredit olmaqla 4 semestr) qiymətləndirilir. Ümumilikdə, beşillik "Lisans" və "Master" pillələri 300 kreditlə qiymətləndirilir.

Sonucu üçillik pillə, doktorluq dissertasiyasının müdafiəsi ilə başa çatır. Doktorant pilləsində təhsil alan namizədlər əvvəlki təhsil sənədləri və gələcək elmi işin mövzusu təklif olunan məktub əsasında müsahibə yolu ilə seçilir.

Bu pillə seçilmiş ixtisasın dərindən öyrənilməsini tələb edir. Mövzunu proqrama daxil etməzdən əvvəl namizədlərdən müstəqil elmi iş aparılması tələb olunur. Bu mərhələni uğurla bitirənlərə doktorant diplomu verilir.

Əcnəbi tələbələr də təhsil pillələrindən asılı olaraq birbaşa Lisans 3 və ya Lisans 2, Lisans 1, Master 1, Master 2 üçün sənədlərini təqdim edə bilər. Fransanın dövlət universitetləri müvafiq komissiyalar vasitəsilə ali təhsilin bu pillələrində oxumaq istəyənlərin sənədlərinə baxaraq müstəqil qərar verirlər. Bu baxımdan vahid meyar mövcud deyil.

Fransa ali təhsilində ən çətin mərhələ birinci iki il – L1 və L2 hesab olunur. Belə ki, ilk iki ildə, əsasən, nəzəri fənlərə üstünlük verilir. Bu zaman fənn

biliklərini qiymətləndirməklə yanaşı, həm də dilə, onun metodologiyasına yiyələnməyi tələb edən yazılı və şifahi imtahanlar keçirilir.

Əcnəbi tələbələrin Fransa universitetlərinə qəbulu üç əsas prinsipə əsaslanır:

* əcnəbi və fransız tələbələrin hüquqlarının bərabərliyi;
* əcnəbi abituriyentlər arasında bərabərlik;
* tələbələrin qəbulu üzrə son sözü demək hüququnu özündə saxlayan universitetlərin və ali məktəblərin tələblərinə riayət edilməsi.

Fransada bir sıra universitetlər müxtəlif səviyyələrdə ingilis dilində də təhsil proqramları təklif edir.

Fransada tibb ixtisasları üzrə ali təhsil almaq özünəməxsus müxtəlifliyi ilə seçilir. Digər ixtisaslara nisbətən, tibb ixtisasları üzrə təhsil daha uzun müddət davam edir. 6 ildən 8 ilədək olan tibb təhsilində tələbələr qarşısında daha mürəkkəb tələblər qoyulur. Məsələn, olduqca ciddi seçim imtahanından keçməyən tələbələr ikinci kursda təhsil ala bilmir, müəyyən qədər yaxşı qiymət toplamayanlar müsabiqədən keçmir və ya imtahandan kəsilənlərə yalnız bir dəfə birinci kursda təkrar təhsil almaq imkanı verilir.

Həkim-terapevt diplomunu tələbələr 8 illik (bunun bir ili təcrübəyə sərf olunur), stomatoloq və əczaçı diplomunu isə 6 illik təhsildən sonra alırlar. Tibbin hər hansı sahəsi üzrə ixtisaslaşmaq üçün ordinaturaya daha 4-5 il sərf etmək lazımdır.

Səhiyyənin Dövlət Məktəbində əcnəbilər üçün də açıq olan müxtəlif təhsil proqramları vardır.

Fransada universitetlərlə yanaşı, müxtəlif profilli ali məktəblər də vardır. Bu məktəblərə xüsusiləşdirilmiş hazırlıq kursları (ikiillik təhsil) keçdikdən sonra, yaxud olduqca çətin müsabiqələr nəticəsində qəbul olmaq mümkündür. Bu ali məktəblər özünəməxsusluğu ilə fərqlənir və yüksək səviyyəli idarəetmə kadrlarının hazırlanmasında onlar əhəmiyyətli nailiyyətlərə malikdirlər.

Bu təhsil ocaqlarında yüksək səviyyəli mütəxəssislər tərəfindən tədris proqramları hazırlanır və dərs keçilir. Burada təhsil alan fransız tələbələr imtahanlara buraxılmazdan əvvəl müəyyən illər ərzində dövlət qulluğunda və dövlət müəssisələrində çalışacaqlarına razılıq haqda iltizam imzalamalıdır. Ali məktəbdə təhsil aldıqları dövrdə tələbələr əməkhaqqı alır və əməkdaş təcrübəçi kimi çalışırlar. Əcnəbi tələbələr də Fransada işləmək və əməkhaqqı almaq hüququ olmadan, könüllü dinləyicilər qismində müsabiqədən keçməklə bu məktəblərə qəbul ola bilərlər. Təbii ki, söhbət ixtisasları ali məktəblərin profilinə uyğun gələn yüksək hazırlıqlı əcnəbi tələbələrdən gedir.

Fransanın nüfuzlu ali məktəbləri arasında Dövlət İdarəetmə Məktəbi, Ali Kommersiya Məktəbi (özəl), Ali Pedaqoji Məktəb (müxtəlif profilli ən yüksək səviyyəli pedaqoji və elmi kadrlar yetişdirir), Ali Politexnik Məktəb (dövlət qulluğunda texniki vəzifələr tutmaq üçün yüksək səviyyəli hərbi kadrlar və mühəndislər hazırlayır) və Ali Magistrlər Məktəbi (dövlət qulluğunda çalışmaq üçün hüquq və ədliyyə sahəsi üzrə yüksək səviyyəli kadrlar yetişdirir) daha məşhurdur. Ölkə üzrə təxminən 200 Ali xüsusiləşdirilmiş Mühəndislik Məktəbi mühəndis

diplomu vermək hüququna malikdir. Adətən, bu məktəblərdə təhsil müddəti 5 il davam edir və əksəriyyəti ümumi mühəndislik diplomunun (Lisans+Master) alınması ilə başa çatır. İmtahan zamanı tələbələrdən riyaziyyat və fizika üzrə olduqca mükəmməl biliklər tələb olunur. Təhsilə iri sənaye müəssisələrində təxminən 12 ay və ya xaricdə iş təcrübəsi də daxildir. Mühəndislik məktəblərinə xüsusiləşdirilmiş hazırlıq kurslarını keçdikdən sonra və yaxud müsabiqələr yolu ilə (müsabiqə böyükdür) qəbul olmaq mümkündür. Fransada ali ixtisas məktəbləri adətən, müvafiq nazirliklərin nəzdində yerləşir və müxtəlif sahələr üzrə ixtisaslı kadrlar hazırlayır.

Universitetlərə daxil olmaq üçün fransız tələbələrin "Baccalaureat" diplomuna, yaxud universitetdə təhsili davam etdirmək imkanı verən və orta təhsil məktəbini, liseyi bitirdiklərini təsdiq edən "BAK" diplomuna malik olmaları (Fransada lisey şagirdlərinin orta hesabla 70 faizi "BAK" diplomu ala bilir) əsas şərtdir. Fransa universitetlərində təhsil almaq istəyən əcnəbi tələbələr isə fransız dilinə tərcümə edilmiş və notarial qaydada təsdiq edilmiş aşağıdakı sənədləri təqdim etməlidir:

* orta təhsil haqqında attestatın surəti;

* universitetə daxil olmaq üçün test imtahanlarının nəticələri haqqında çıxarışın surəti (xarici ölkələrdə alınmış orta təhsil haqqında attestat imtahansız universitetə qəbul olmaq hüququ vermir);

* doğum haqqında şəhadətnamənin surəti;

* zaçot kitabçasının surəti (yaxud universitetdə keçilmiş fənləri göstərən akademik arayış);

* məktub-əsaslandırma;

* 3 zərf (namizədin ünvanı göstərilməklə ikisi kiçik formatda və biri böyük formatda) və 2 beynəlxalq kupon-cavab;

* fransız dili üzrə test imtahanının cavabları.

Fransız dili üzrə test əsas (şifahi danışığın başa düşülməsi, dilin quruluşu haqda bilgi və yazılı mətnlərin başa düşülməsi) və iki əlavə imtahandan (yazılı vərdişlər və şifahi vərdişlər) ibarətdir. Fransız dili üzrə test imtahanının verilməsinin ən əlverişli vaxtı yanvarın sonunda keçirilən sessiya hesab olunur. Bu zaman imtahanlara qatılanlar nəticələri martın əvvəlində alırlar, bu da onlara sənədlərini hazırlamaq və seçdikləri universitetlərə göndərmək üçün əlavə vaxt qazanmaq imkanı verir.

Onu da qeyd edək ki, əcnəbi tələbələr onların fransız dili üzrə biliklərini təsdiq edən imtahanda ən azı 350 bal toplamalıdırlar ki, universitetlərə sənəd verə bilsinlər. İmtahan üzrə nə qədər yüksək bal toplanarsa, onların sənədlərinin universitet tərəfindən qəbul edilməsi şansı da bir o qədər artmış olur. Əcnəbi tələbələr Fransanın nüfuzlu ali təhsil müəssisələrinə qəbul olmaq, eləcə də dövlət təqaüdü almaq istəyirlərsə, əsas imtahan üzrə dördüncü və ya beşinci səviyyəyə (400-500 baldan yuxarı) və əlavə sınaqlar üzrə yaxşı qiymətlərə malik olmalıdırlar.

Birinci və ikinci kurslara daxil olmaq üçün (L1,L2) əcnəbi tələbələr sadəcə fransız dili üzrə test imtahanını deyil, eləcə də əlavə imtahanını verməlidirlər. Əlavə imtahan əsas imtahandan sonra, müvafiq cədvəlin yazılı qaydada şərh edilməsi və verilən mövzu üzrə inşa işindən ibarət olan yazılı imtahandır.

Bu gün Fransada təxminən 300000 əcnəbi tələbə təhsil alır. Fransa dünyanın əcnəbi tələbələrini ən çox qəbul edən üçüncü ölkədir. Bu cür uğurun səbəbi, söz-süz ki, ali təhsilin keyfiyyəti və ali məktəblərdə təşəkkül tapmış sağlam mühitlə bağlıdır.

Fransanın dövlət universitetlərində ali təhsil pulsuzdur, yəni burada təhsilə görə ödəniş edilmir. Lakin hər təhsil ilinin əvvəlində universitetə qeydiyyat haqqına görə ödəniş etmək (pillədən və ixtisasdan asılı olaraq ödənişin miqdarı 150-900 avro arasında dəyişə bilər), eləcə də məcburi illik tələbə sığortasına üzv olmaq lazımdır.

Fransanın dövlət universitetlərində təhsil almaq istəyən əcnəbilərin illik xərci 6000-10000 avro (yataqxana, yemək, yol, dərs vəsaitləri üçün xərc) arasında dəyişə bilər.

Özəl universitetlərdə isə illik təhsil haqqı 3000-7000 avro miqdarındadır. Təhsil müəssisəsindən asılı olaraq, bəzən bu məbləğ daha da arta bilər.

Fransada 6 yaşdan 16 yaşadək təhsil icbaridir. Fransız təhsilinin başlıca prinsipləri: tədris azadlığı (dövlət və özəl müəssisələr), pulsuz təhsil, təhsilin neytrallığı.

Təhsil bir neçə pillədən ibarətdir:

İbtidai təhsil 3-4 il uşaq bağçasında və 5 il ibtidai məktəbdə.

Orta təhsil 4 il kollecdə və 3 il litseydə.

Ali təhsil, orta təhsilin bitirilməsi haqqında bakalavr diplomu aldıqdan sonra mümkündür.

Hər il təhsilə ÜDM-nin 6,1%-ə qədəri xərclənir. 2009-cu ilin rəqəmlərinə görə, ibtidai və orta təhsil məktəblərində 12016484 uşaq oxuyurdu. İbtidai və orta məktəbdə özəl təhsilin payı tələbələrin 16,9%, ali məktəbdə 14%-ni əhatə edir.

İbtidai təhsil iki pillədən ibarətdir: uşaq bağçası və ibtidai məktəb. Uşaq bağçasına getmək icbari deyil, lakin 3 yaşdan 5 yaşadək uşaqların adətən 100%-i uşaq bağçasına gedir.

Bu müəssisə 2 yaşdan 5 yaşadək uşaqlara hesablanmışdır. Uşaq bağçalarında 3 yaşdan 5 yaşadək uşaqları 100% götürsək, 2 yaşında olan uşaqların sayı onun 20,9%-ni təşkil edir. Uşaqlar uşaq bağçasında 3, bəzən 4 qrupa bölünürlər: TSP (fr. tres petite section), PS (fr. Petite section), MS (fr. moyenne section), GS (fr. grande section). PS və MS qrupları 1-ci təhsil tsiklinə daxildir, GS qrupu 2-ci təhsil tsiklinə daxildir, bu özündə ibtidai məktəbin iki sinfini birləşdirir.

Uşaq bağçasının vəzifələri:

- dili inkişaf etdirmək və yazıya hazırlıq;
- məktəbə və şagirdin gələcək statusuna hazırlaşdırmaq;

- özünü ifadə;
- dünyanı özü üçün kəşf etmək;
- qavramaq, duymaq, təxəyyüldə canlandırmaq, yaratmaq.

İbtidai məktəbdə təhsil altıyaşlı uşaqlar üçün hazırlıq kursundan başlanır və beş pillədən ibarətdir: (birinci il, 6 yaş), (ikinci il, 7 yaş), (üçüncü il, 8 yaş), (dördüncü il, 9 yaş), (beşinci il, 10 yaş).

Əsas Təhsil tsikli uşaq bağçasının yuxarı yaş qrupundan başlanır, bu həmin dövrdür ki, nitq, oxu və yazı kimi baza ibtidai biliklər, sonrakı uğurlu təhsil üçün bünövrə formalaşır. Şagird tədricən müstəqilliyi mənimsəyir.

Müxtəlif fənlər üzrə Fransa Təhsil Nazirliyi tərəfindən müəyyən edilmiş Cədvəl təhsilin 7 əsas istiqamətinin hər biri üçün müddəti təmin edir.

- nitqə və fransız dilinə yiyələnmək;
- birlikdə yaşamaq;
- riyaziyyat;
- həyat bilgisi;
- bədii təhsil.

Orta təhsil iki pilləyə bölünür (kollec və litsey) və yeddi il davam edir.

Kollecdə oxumaq icbaridir, dörd il davam edir və üç tsiklə bölünür:

Adaptasiya tsikli – Altıncı sinif. Bu sinfə ibtidai məktəbin bütün məzunları imtahansız götürülür. Kollecdə birinci il təhsilində məqsəd ibtidai məktəbdə mənimsənilmiş bilikləri möhkəmləndirmək, bir yerə cəmləşdirmək və şagirdləri müstəqil təhsilə hazırlamaqdır. Bu sinifdə şagirdlər birinci xarici dili seçirlər. Mərkəzi tsikli – Beşinci sinif və dördüncü sinif. Bu tsiklin məqsədi mənimsənilmiş bilik və bacarıqların dərinləşdirilməsidır. Müvəffəqlik dərəcəsinə və liseydə peşə yönümünün seçilməsinə xüsusi diqqət yetirilir. Beşinci sinifdə kimya və fizika başlanır, eləcə də fakultativ olaraq latın dili seçilə bilər, dördüncü sinifdə isə ikinci xarici dil seçilir.

Peşə yönümü tsikli - Üçüncü sinif üç istiqamətdən: ümumi təhsil, texniki və ya peşə təhsilindən birini seçməyə hazırlaşdırır. Üçüncü sinifdə qədim yunan dilini öyrənmək imkanı yaranır, həm də şagirdlər 3-6 saatlıq "peşə həyatına giriş" modulunu seçə bilər. Üçüncü sinfin sonunda şagirdlər milli imtahan verir və diplom alırlar. Bu imtahanın nəticələri növbəti sinfə keçilməsində heç bir təsir göstərmir.

Üçüncü sinfin sonunda şagirdlər ümumi və ya texnoloji liseyin ikinci sinfinə və ya peşə liseyinə daxil ola bilərlər.

Liseylər üç tipə bölünür: ümumi, texnoloji və peşə. İlk iki liseydə təhsil müddəti 3 ildir. Ümumi tipli liseylərdə imtahanların yekunlarına əsasən ali məktəbə daxil olmaq hüququ verən ümumi bakalavriat verilir. Texnoloji liseyi bitirdikdə texnoloji bakalavr adı verilir və öz ixtisası üzrə universitetdə oxumaq üçün imtahan verir. Peşə liseylərində təhsil 2 ildir, onu bitirdikdə ali təhsilə çıxış

imkanı verməyən peşə təhsili haqqında şəhadətnamə və peşə yararlılığı haqqında sertifikat verilir. Liseydə üç il oxuduqdan sonra peşə üzrə bakalavr adı almaq olar.

Ali təhsilə yalnız bakalavr olduqda çıxış imkanı verilir. Fransada ali təhsil sistemi ali məktəblərin və təklif edilən fənlərin çox geniş seçimi ilə fərqlənir.

Ali təhsil müəssisələrinin bir çoxu dövlətə aiddir və tarixən Təhsil Nazirliyinə tabe olmuşdur, bu ölkədə ali təhsil bəzi vaxtlarda nazirliyin tərkibində dövlət katibliyinə tabe idi.

Ali təhsil iki-üç il davam edir, bundan sonra məzunlar diplom alır. Ali təhsilin bu növü əsas etibarilə sənaye sferasında və ya xidmət sferasında mütəxəssislər hazırlayır.

Uzun müddətli ali təhsil. Universitetərdə və ali məktəblərdə verilir.

Sxematik olaraq Bolonya prosesinədək ali təhsil sistemini bu şəkildə təqdim etmək olar:

18 yaş – Birinci tsikl. 2 il, ümumi universitet təhsili haqqında diplom.

21 yaş – İkinci tsikl. Licence (MDB ali təhsilində dördüncü kursa müvafiq gəlir)

22 yaş – Üçüncü tsikl. 1 il, ikinci tsikildən sonra hansı istiqamətdə təhsili davam etdirmək qərara alınır.

23 yaş – Üçüncü tsikl. 1 il, dərinləşdirilmiş öyrənmə diplomu, tədqiqat işində öyrənmə və ya ali ixtisaslaşdırılmış təhsil diplomu, peşə diplomu sayılır.

24 yaş – Doktorant 3-4 il. 2002-481 saylı "Bəyannamə" ilə (2002-ci il) dərəcələrin yeni sistemi tətbiq edilmişdir: bakalavr – lisensiat (3 il) – magistr (2 il) – doktor (3-4 il). Milli magistr diplomu: magistr-tədqiqatçı və peşə magistri. Tələbə praktik olaraq hər il hansısa universitet diplomuna müvafiq gələn milli diplom alır ki, bu da təhsil haqqında fransız diplomlarının anlaşılmasında əlavə mürəkkəbliklər yaradır.

Ali məktəblər fransız ali təhsil sisteminin özəlliklərindən birini təmsil edir. Onlar faktik olaraq Fransada dövlət ali universitet təhsili sisteminə qarşı qoyulub və beynəlxalq səviyyədə müqayisəli təsnifata böyük çətinliklə uyğunlaşır. Fransada ali məktəblərdə oxumaq universitetlərdə oxumaqdan daha nüfuzlu sayılır. (onlar özündə ikinci növ sistemin müəyyən izlərini qoruyub saxlayır, çünki daxilolma zamanı heç bir seçimi nəzərdə tutmur, işini sərbəst daxilolma və pulsuz təhsil prinsipi üzrə qurur).

Ümumi ali təhsil büdcəsinin 30 faizə yaxını dövlət ali məktəblərinə ayrılır. Orta hesabla bir ildə universitetlərdə bir tələbənin təhsilinə xərc 2005-ci ildə 7.470 avro təşkil edirdi, lakin təkcə ali məktəblərə qəbul olunmaq üçün olan hazırlıq fakültələrində bu xərc - 13.880 avrodur, demək olar, ikiqat çox təşkil edir. Digər rəqəmlərə görə bu fərq daha böyükdür: orta hesabla ildə bir universitet tələbəsinə 6.800 avrodan 24 min avroya qədərdir. Fransa universitet təhsili sistemində bir tələbəyə xərclərin orta göstəricisi 2005-ci ildə 9.280 dollar idi, hansı ki, sonrakı illərdə bu rəqəm 15.715 dollara bərabər idi, ABŞ-da isə 20.525 dollara çatırdı.

Universitetlərdən fərqli olaraq, ali məktəblərə abituriyentlər üçün böyük müsabiqədən keçmək problemi qarşıda durur. Ali məktəbə daxil olmaq xeyli mürəkkəbdir; məktəbi bitirdikdən sonra peşə üzrə iş müqayisə olunmaz dərəcədə yaxşıdır. Məzunların nəinki tam məşğulluğuna zəmanət verilir, həm də çox vaxt dövlət və özəl sektorda ən nüfuzlu və gəlirli iş yerlərinə qəbul olunurlar.

Fransa Baş Naziri yanında Milli İdarəetmə Məktəbi bütün təhsil və ixtisasartırma müəssisələri arasında xüsusi yer tutur. Fransa həyatda uğurlar qazanmaq istiqamətində hər bir gəncin qarşısında açılan perspektivlər baxımından yeganə ölkədir.

Avropa Bioinformatika İnstitutunda (ABİ) oxumaq dinləyicilər üçün pulsuzdur və xərclərin bütün ağırlığı Fransa dövlət büdcəsinin üzərinə düşür (ABİ büdcəsi vasitəsilə). Bir dinləyicinin təhsilinə dövlət xərcləri, 2005-2006-cı illərdə təqribən 10 faiz azalmış olsa da, 2006-cı ildə bütün 27 aylıq müddətə görə 56.303 avro və ya ildə təqribən 25 min avro ilə qiymətləndirilirdi ki, bu hətta ABŞ universitetlərində bir tələbənin təhsilinə orta xərcin göstəricisindən yuxarıdır.

ABİ-nın fransız məzunlarının böyük əksəriyyəti (1945-ci ildən sonra altı minə yaxın) dövlətdə aparıcı siyasətçilər, fransız qurumlarının başçıları, parlamentarilər, yüksək mənsəbli məmurlar, diplomatlar və beynəlxalq təşkilatların üzvləri, ali instansiya hakimləri, Dövlət Şurasının vəkilləri, yüksək mənsəbli inzibati və maliyyə nəzarətçiləri, çox böyük dövlət və beynəlxalq firma və bankların, kütləvi informasiya və kommunikasiya vasitələrinin baş menecerləridir. ABİ Fransaya iki prezident, yeddi baş nazir, çoxlu sayda nazir, senator və Milli Məclisin deputatını yetişdirmişdir.

Ali məktəblərin proqramında, adətən, iki tsikl olur. İlk ikiillik hazırlıq tsiklini həm ali məktəbin özünün bazasında, həm də bəzi nüfuzlu liseylərin bazasında keçmək olar. İkinci tsikl bitdikdə tələbə ali məktəb diplomu alır. Təhsil bitdikdə məzunlar 6-10 il ərzində dövlət xidmətində işləməli, bununla da dövlətin onun təhsilinə sərf etdiyi xərclərin yerini doldurmalıdır. Bundan başqa, idarə tabeliyində çoxlu sayda xüsusi məktəblər vardır.

Fransa Bolonya prosesi ideyalarının həyata keçirilməsinə tez başladı. Artıq 1999-cu ildə "mastaire" (2002-ci ildə "master"ə dəyişdirildi) dərəcəsi meydana çıxdı, bu dərəcə avtomatik olaraq univesritet və qeyri-universitet sektorunun beşillik dilomunun sahiblərinə verilirdi. Səciyyəvi haldır ki, Fransada LMD islahatlarında doktorant adını almış şəxsin sənədi qanunvericilikdə dəyişiklik olmadan tanınır, hökumətin dekretləri və nazirliyin qərarları ilə həyata keçirilir. 1999-cu ilin noyabrında – Avropa əmək bazarında birinci tsikl dərəcəsinə olan tələblər haqqında Bolonya bəyannaməsinin tələblərindən irəli gələn peşə lisensiatı dərəcəsi (klassik lisensiat indiyədək bu tələbə cavab vermir) tətbiq edildi. LMD (Licence, Master, Doktorat) islahatlarına universitetlərin bir çoxu qoşuldu. Bu, əsasən onların maddi asılılığından irəli gəlirdi: yenidən təşkilatlanmadan imtina edildiyi halda, ali məktəbə dövlət maliyyəsi kəskin şəkildə ixtisar edilir. Hökumət

tərəfindən ali məktəblərin muxtariyyatı elan edilmiş və dəyişikliklər yetərincə mərkəzləşdirilmiş qaydada keçsə də, hər halda fərqli halda keçir. Bəzi ali məktəblər bütün yenilikləri eyni vaxtda, bəziləri xüsusi layihələrin təşkili yolu ilə tədricən tətbiq edir. Universitetlərin qarşılaşdığı başlıca problem lisensiat statusunun qeyri-müəyyənliyidir, aydın deyil ki, bu müstəqil təhsil sənədi gücündədir və ya növbəti tsiklə bir pillədir?

**Paris-Dofin Universiteti (Universite Paris Dauphine).** Paris-Dofin Universiteti Fransanın ən böyük və ən şöhrətli ali məktəblərindən biridir. Universitet 1968-ci ildə Paris Universitetində aparılan islahatın gedişində yaradılmışdır. Parisin qərb hissəsində, NATO qərargahının keçmiş binasında yerləşir.

Paris-Dofin iqtisadiyyat və idarəetmə sferasında altmış istiqamət üzrə ali təhsil təklif edən ən yaxşı müəssisələrdən biridir. Burada 7,5 mindən çox tələbə oxuyur və 365 müəllim işləyir.

Paris-Dofin Universitetinin tərkibinə iqtisadiyyat, maliyyə, məlumatların təhlili, idarəetmə nəzəriyyəsi sahəsində tədqiqat və tədrislə məşğul olan Maliyyə İnstitutu və qərarların qəbulu sahəsində Riyazi Araşdırmalar Mərkəzi daxildir. Ali məktəbdə tətbiqi riyaziyyat, informatika və idarəetmə elmlərində araşdırmaların inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir.

Universitetin Fransanın özəl və dövlət sektoru şirkətləri ilə sıx əlaqələri, müəssisənin maliyyəsini idarəetmə, maliyyə menecmenti, dövlət və bələdiyyə maliyyəsi kimi kursların yüksək səviyyədə tədrisinə imkan verir. Bu fənləri tədris edənlər universitetin 23 araşdırma mərkəzində fəal şəkildə tədqiqatlar aparır.

Maliyyə, bankçılıq və sığorta üzrə magistr proqramları daha məşhurdur. Proqram həm baza iqtisad fənlərini (makro və mikro iqtisadiyyat, analizin kəmiyyət metodu), həm də xüsusi fənləri (maliyyə analizi, bank texnologiyası və məhsullar, maliyyə idarəetməsi, beynəlxalq maliyyə və s.) ehtiva edir.

XIX əsrin sonu, XX əsrin əvvəllərində qəbul olunmuş qanunlara görə, 6 yaşından 13 yaşa qədər uşaqlara pulsuz icbari təhsil nəzərdə tutulurdu. 1930-cu ilin əvvəllərində dövlət orta məktəblərində pulsuz təhsil tətbiq edilmiş, 1936-cı ildə icbari təhsilin müddəti 14 yaşa çatdırılmışdır. 1950-ci ilin axırlarında hakimiyyət təhsil sistemində çoxlu islahatlar aparmışdır.

Məktəbəqədər tərbiyə orta məktəb və ibtidai məktəblərin yanında körpələr üçün ayrılmış siniflərdə həyata keçirilirdi.

İbtidai təhsil 1967-ci ildən altı yaşından başlayaraq on il davam edir. Birinci beş il bütün uşaqlar üçün adi təhsil dövrüdür. Sonra isə dördillik orta təhsilin birinci dövrü (6-9 illik təhsil) və orta təhsilin ikinci dövrü gəlir. İkinci dövrün iki istiqaməti: qısa (tam olmayan) və uzun (tam orta təhsil) müddətli istiqaməti var. Qısa istiqamət ikiillik kolleclərdə (peşə texniki məktəblərdə) orta ixtisaslı fəhlə hazırlayan peşə təhsilini əhatə edir. Uzun istiqamətli ümumi təhsilə liseylərin (10-12-illik təhsil) yuxarı sinifləri daxildir. 1802-ci ildən yaradılmış lisey əhalinin imtiyazlı təbəqələri üçün klassik elit məktəblər idi. Liseyi bitirənlər müvəffəqiyyətlə imtahan verdikdən sonra bakalavr dərəcəsi alırdılar.

Əcnəbi tələbələr Fransa universitetlərinə asanlıqla qəbul olunur. Bu universitetlərə (birinci dövrəyə) qəbul olunmaq üçün heç bir qəbul imtahanı nəzərdə tutulmu, yalnız dili bilmək səviyyəsi yoxlanılır. Hər universitet sərbəst testlər keçirir.

Fransa universitetlərində həm ölkə vətəndaşları, həm də əcnəbilər üçün təhsil ödənişsizdir. Sığorta, dərsliklə təminolunma və mənzilə çəkilən xərclərlə birlikdə əcnəbi tələbənin bir ayda yaşayış xərci 380-540 dollara başa gəlir.

İş tapmaq üçün bu işlə məşğul olan təşkilata müraciət olunur. Bu təşkilat Fransız və əcnəbi tələbələrin həyat şəraitini yaxşılaşdırmaq üçün ali məktəbdə təhsil alan müddətdə müvəqqəti iş tampaqda onlara köməklik edir. Tədris müddəti həftədə 20 saata qədərdir. İşləyən tələbələrin əmək haqqı saatda 4-8 dollara qədərdir.

Tələbə sənədlərinin formalaşması (tərtib edilməsi), vizaların, tibbi sığorta, gəlmə-qayıtma və tələbənin Fransada sənədlərinin formalaşması üzrə müşayiət edilməsi işlərinin tam kompleksi Tələbə Komitəsi tərəfindən həll edilir. İşlərin tam dəyəri 7840 frank qədər təşkil edir. Qəbulolunma proseduraası altı aydan bir ilə qədər davam edir, zərurət olduqda, fransız dili üzrə yüksək ixtisaslı müəllim tövsiyə edilir.

"Qolfştrim" firması Fransada yeni Ali Təhsil proqramı ilə fəaliyyət göstərir. Fransada istənilən universitetdə təhsil ölkənin istənilən özəl tədris müəssisəsindəki təhsildən ucuz başa gəlir. Təəcüblü deyil ki, ölkədə tələbələrin 12-15%-i əcnəbilərdir. Asanlıqla, hətta Sorbonnaya və ya Klerraont-Ferrandeyə qəbul olmaq olar. Fransa gözəlliyi sözlə deyilə bilməyən ölkələrdəndir, məsələn, qədim zamanlardan Fransanı görmək rusların arzusu olmuşdur, indi isə çox asandır. Parisdə satıcı və ofisiantlar rus dilində danışırlar. Turizm idarəsi rus dilində reklam vərəqələri buraxır, qırmızı pencək geymiş rus həmvətənlərini fransız həmkarlarından seçmək olmur. Bəs qəhvəxanalar, bulvarlar... Tarix təkrar olunur!

Dövlət ali məktəblərində, demək olar ki, ödənişsiz təhsil, istənilən qəbul imtahanının və əcnəbi tələbələrin qəbuluna məhdudiyyətlərin olmaması, yüksək həyat səviyyəsi və çox gözəl məişət şəraiti həmişə alqışlanır və əksinə, yəni xüsusilə birinci dövrdə təhsilin aşağı səviyyəsi diqqəti çəkir. Xüsusi biznes və kommersiya məktəblərinin vəziyyəti: onlar çox bahadır; universitet yataqxanaya zəmanət vermir, ümumiyyətlə, çox zaman yaşayış yeri axtarılmasında yaxından kömək etmir.

Hazırda Fransada 71 dövlət universiteti var (özəl universitetlər də var). Onların tərkibinə 800 fakültə, bölmələr daxildir. Onlar öz növbəsində institutlarda, laboratoriyalarda (elmi tədqiqatlar aparılması üçün) və s. birləşir. Universitetlər bütün ölkədə tanınan milli diplomlar verə bilir və buna görə də universitetin konkret nüfuzundan asılı olmayaraq qəbul eyni cürdür, özlərinin daxili diplomlarını da verə bilir, hansı ki, onlar Fransadan başqa xarici ölkələrdə istifadə etmək niyyətində olanlar üçün kifayət qədər üstün tutulmur. Bəzi daxili diplomlar milli

diplomlara bərabər (ekvivalent) və hətta üstün qəbul olunur (ancaq Fransanın daxilində həmin diplomlara üstünlük verilir, hətta onları verən ali məktəblərin məşhurluğu və nüfuzluluğuna baxmayaraq, dünyanın digər ölkələrində qəbul edilməsinə zəmanət verilmir). Magistr diplomu magistraturanın üçillik kursunu bitirəndə verilir və işə qəbul edənlər tərəfindən çox yüksək qiymətləndirilir.

Fransa universitetində təhsil "dövrlərə" ("tsikllərə") bölünür, onların hər biri milli diplom almaqla yekunlaşır. Lakin diplom tələbəyə növbəti ildə təhsilini davam etdirməyə zəmanət vermir, hər şey konkret illik göstəricilərdən asılıdır.

Birinci dövr tələbəyə baza (əsas) təhsil hazırlığı verir. Birinci dövrə orta məktəb məzunları, yəni bakalavrlar qəbul oluna bilər.

Fransa bakalavrını heç vaxt bakalavr dərəcəsi ilə qarışdırmaq olmaz. Məlum olduğu kimi, bakalavr dərəcəsi 3-4 tədris ili olan ali təhsil deməkdir. Fransada bakalavr diplomu orta təhsil haqqında şəhadətnamədir (baccalaruat). Bakalavrlar universitetlərə imtahansız qəbul olunurlar. Orta təhsili olmayan fransızlar üçün xüsusi prosedura vardır, onlar qiyabi və ya universitetlərdəki hazırlıq kurslarında oxuyurlar.

Fransa ali məktəblərində təhsilini bitirməmiş şəxslər hüquqşünaslığı öyrənmək arzusunda olduqda onlara xüsusi imtahan təyin olunur.

Birinci dövr iki il davam edir və milli diplom almaqla yekunlaşır.

İkinci dövr universitetdə ilk iki il təhsil zamanı alınmış biliklərin genişlənməsi və dərinləşməsi ilə bağlıdır. Birinci pillədə lisensiat diplomu, ikincidə magistr diplomu və üçüncü pillədə mühəndis diplomu verilir. Hər üçü milli səviyyədə qəbul edilən diplomlardır. Bəzi ali məktəblərin milli miqyasda qəbul edilməyən magistr diplomunu alanlara ikinci dövrənin üçillik kursunu təklif edirlər.

Sonrakı təhsil ikinci və üçüncü universitet dövrləri, başqa ali məktəblərdə bu dövrlərə ekvivalent olan təhsil isə doktorantura adlana bilər. Fransızlar Rusiyanın ali təhsil diplomlarını özlərinə ekvivalent qəbul edirlər, yəni MDB-də universitet və ya institut bitirmiş şəxslər Fransa universitetlərinin ikinci pilləsinə qəbul oluna bilər.

Tələbələrin ikinci dövrə qəbul olunması müsabiqə yolu ilə boş yerlərin sayından asılı olaraq imtahan testlərinin nəticələri ilə həyata keçirilir. İkinci dövrənin bütün mərhələlərini, yəni; lisensiat-magistr mühəndis mərhələlərini keçib birbaşa ikiillik və üçillik kurslara qəbul olunmaq olar (bu, daha sadədir). Məsələn, birinci dövrü qurtardıqdan sonra magistr kursunu seçmək və iki ildən sonra diplom almaq olar.

Birinci dövrdən sonra üçillik mühəndis kursuna da qəbul olunmaq mümkündür. Universitetin ikinci və üçüncü dövrünə qəbul olunmaq üçün təyin olunmuş tədris müəssisəsinə müraciət etmək lazımdır. Bunlar həm də ali mühəndislik məktəblərinə, universitetin mühəndislik məktəblərinə və başqalarına aiddir. Qabaqcadan sifariş vermək lazım deyil.

Tələbələr həm birinci, həm də ikinci dövrdə müəssisələrdə bir və ya bir neçə dəfə praktikada (stajirovkada) olur, bu isə Fransa ali təhsil sisteminin böyük

üstünlüklərindən biridir. Praktikada olmaq hamı üçün məcburidir və onların nəticələri bilik müvəffəqiyyətləri qiymətləndiriləndə nəzərə alınır. Onların əldə etdikləri nailliyyətlər MDB ölkələrindəki kimi formal deyil. Tələbələr özləri praktikada olmaq üçün müəssisə və firmalar axtarır, sərbəst surətdə onlarla əlaqə yaradılır və rəhbərliklə razılaşdırılır. Bu məqsədlə praktikada olmaq üçün yeri necə tapmaq və xaricdə praktikada olmaq və s. tipli çoxlu sayda informasiya növü vardır.

Xarici ölkələrdə, məsələn, İngiltərə, Almaniya, İspaniyada praktikada olmaq universitetlər tərəfindən müəyyənləşdirilir. MDB-dən olan tələbələr üçün də bu mümkündür, çoxşaxəli Fransa tələbə vizası Avropanın istənilən ölkəsində problemsiz yaşamaq və təhsil almaq imkanı verir. Başqa ölkələrlə, məsələn, İngiltərə və ya ABŞ-la müqayisədə Fransaya viza almaq son dərəcədə çətindir.

Fransada orta təhsil müəssisələrini bitirmiş şəxslərə təhsilini davam etdirmək imkanı verən bakalavr diplomu verilir. 1998-ci ildə ali məktəblərə 95 milyard frank (15,8 milyard dollar) ayrılmışdı, son 25 ildə tələbələrin sayının kəskin surətdə artdığına görə təchizatların məbləği 2,5 dəfə artmışdır. 1946-cı ildə tələbələrin sayı 123 min, 1970-ci ildə 850 min, 1980-cı ildə 1,2 milyon, 1998-ci ildə isə 2,1 milyon nəfər olmuşdur. Bəzi universitetlərdə 130 minə yaxın müəllim və işçi vardır.

Fransada artıq bəzi liseylərdə də ali təhsil alırlar. Onlara bakalavr diplomu verilir və təhsil müddəti iki ildir. Tarixi və texniki xarakterli səbəblərdən liseylərin əksəriyyəti orta təhsil sisteminə daxil edilmişdir. Hal-hazırda bu liseylərdə yüksək ixtisaslı texnik şəhadətnaməsi almaq üçün hazırlıq görülür. Liseylərdə oxuyanların təxminən 80 min nəfəri ixtisaslaşdırılmış ali məktəblərə qəbul olunmaq üçün hazırlaşırlar. Beləliklə, olduqca ciddi müsabiqə seçimi keçəndən sonra onlara yol açılması mümkün olan ixtisaslaşdırılmış ali təhsil müəssisələri tərəfindən bakalavr diplomu verilir və onların hamısı üçün yolu açıq olan universitetlər vasitəsilə ali təhsil almaq imkanı yaradılır.

Fransada ali məktəblər (ixtisaslaşdırılmış ali təhsil müəssisələri) XVIII əsrdə universitetlərin böhranlı dövründə dövlət hakimiyyətinin təşəbbüsü ilə inzibati sahədə vəzifələrin müsabiqə yolu ilə tutulması üçün kadrlar hazırlanması məqsədilə meydana gəlmişdir. Bu cür təhsil müəssisələri sahibkarların təşəbbüsü ilə yaradıldı ki, müəssisələrin sərəncamında onların inkişafı üçün mütəxəssislər olsun. Hazırda ali məktəblər müxtəlif nazirliklərin sərəncamındadır və bu məktəblərdə 200 mindən artıq tələbə təhsil alır. Həmin məktəblərdə yüksək səviyyədə bilik əldə etmək, dünyagörüşlü həqiqi şəxs yetişdirmək üçün bütün sahələrə aid, yəni fundamental elmlərdən incəsənətə qədər, humanitar və mühəndislik fənlərindən ədəbiyyata qədər, hüquqa, idarəetmə ixtisaslarına aid fənlər tədris edilir. Bu təhsil müəssisələrinin bir çoxu dövlət strukturları üçün ən yüksək ixtisaslı kadrlar hazırlamaqdan ötrü ayrılmış nüfuzlu universitetlərdir. Ali pedaqoji məktəblər pedaqoji kadrlar, politexnik məktəb və Sen-Sir məktəbi ordu üçün mütəxəssislər

hazırlayır, milli idarəetmə məktəbi dövlət idarəçiliyinin mərkəzi aparatı üçün ixtisaslı kadrlar yetişdirir. Bu tədris müəssisələrinin əksəriyyəti mütəxəssis hazırlamaq diapazonunu genişləndirmiş və məzunlarını sərbəst şəkildə təyinatla təmin edir. Ali məktəblərlə yanaşı, "Ali kommersiya məktəbi", "Ali iqtisad və kommersiya məktəbi", "Ali milli mühəndislik məktəbləri" və "Kommersiya və idarəetmə" kimi məktəblər də var. Bunlar günü-gündən daha çox sayda abituriyentləri cəlb edir, çünki müəssisələrin belə ixtisaslı kadrlara tələbatı daha kəskin surətdə artır.

Tələbələrin sayı təxminən 1,5 milyona yaxındır, onlardan 10%-i əcnəbilərdir, bunların isə bir çoxunu Afrika sakinləri təşkil edir. Nüfuzlu texnoloji institutlara qəbul olunmaq isə (bunlar 2 il ərzində universitet səviyyəli texniki təhsil verən diplomla təmin olunurlar, tələbələrin sayı isə təxminən 110 min nəfər təşkil edir) sənədlərin seçimi yolu ilə həyata keçirilir. Tədris olunan fənlər aşağıdakı kimi bölüşdürülür: humanitar elmlər - 35%; hüquq elmləri - 24%; təbiət elmləri - 20%; tibb, farmakologiya və stomatologiya 14%. Qalanları isə universitet səviyyəli texnoloji institutların və ya "Bədən tərbiyəsi və idman institutu"nun tələbələridir. Məşğələlər üç dövr üzrə təşkil edilir: birinci ikiillik dövr əsas etibarilə ümumi universitet təhsilli diplom almaq üçündür; ikinci iki illik dövr əvvəlcə bakalavr, sonra isə magistr diplomu almağı qarşısına məqsəd qoyur; üçüncü dövrə yalnız ciddi seçimdən sonra yol açılır və doktorluq dərəcəsi adına nail olmaq üçün təhsilini davam etdirmək imkanı verir. Tələbələrin təxminən 60%-i universitet diplomu alaraq müxtəlif müddətlərdə, yəni 28%-i iki il ərzində, 32%-i isə üç və daha çox il ərzində ikiillik dövrə daxil olurlar.

Universitetlərin təşkilat strukturu 1896-ci ildən üçüncü respublika dövrünədək (tamamilə yenidən təşkili), 1968-ci ildə islahatların tələblərinə cavab verən "Edqar For" qanunu (bu, tələbə ixtişaşları zamanı aşkar edilmişdir və universitetlərə inzibati təhsil və maliyyə muxtariyyəti verən qanun idi), 1984-cü ildə "Savari" qanunu qəbul edilənə qədər sabit qalmışdı. Fakültələr iki yeni strukturla: bir tərəfdən, pedaqoji fəaliyyətin əlaqələndirilməsini təmin etməli olan direktorun başçılıq etdiyi tədris-tədqiqat birlikləri ilə, ikinci tərəfdən isə, tədris-tədqiqat birliklərinin ümumi xidmətlərinin (kitabxanaların, informasiya və istiqamətləndirmə xidmətlərinin, fasiləsiz təhsil xidmətinin və s.) fəaliyyətini birləşdirən, lazım olduqda universitetlərə verilən institut və məktəbləri idarə edən universitetlə əvəz edilirdi.

1980-1990-cı illərdə bir-birinin ardınca keçirilən islahatlar universitetlərin maliyyəsinə, ictimaiyyətin dəyişilmiş tələblərinə, həmçinin tələbələrin sayının artmasına və onların daha da müxtəlifliyinə uyğunlaşdırmaq məqsədləri daşıyırdı. 1997-ci ildə aparılan islahatlara görə universitetdə tədris ili semestlərə bölünür, bu bölgü əvvəlkinə nisbətən yenidən istiqamətlənməni tez həyata keçirmək imkanı yaradır; ödənişli təhsil genişlənmiş, peşəkarlıq təcrübəsinin ümumiləşdirilməsi üzrə bölmə təsis edilmiş və müəllimin hər tələbənin fərdi işinə rəhbərliyi təcrübəsi tətbiq olunmuşdur. İndi təhsilin daha da desentralizasiyası və müasir tələblərə uyğun islahatların davam etdirilməsi məsələsi qarşıda durur. Təhsil müəssisələri

(universitetlər) struklarına görə heç də eyni deyil və onların coğrafi cəhətdən yerləşdirilməsi bir-birindən olduqca fərqlidir. Yalnız Parisdə ölkə şagirdlərinin təxminən altıda biri təhsil alır. Əgər qonşu Versal və Kretey (akademiyalarının) universitetlərini də əlavə etsək, onda Paris məkanına şagirdlərin artıq dörddə biri düşür. Kiçik universitetlər üçün, adətən, fənlərin çox müxtəlifliyi və birinci dövr təhsili olan tələbələrin çox saylı olması səciyyəvi olaraq özünü əks etdirir. İri əyalət şəhərlərinin hər birində isə adətən olduqca ixtisaslaşdırılmış, ikinci və üçüncü dövr təhsili alan və böyük sayda tələbələri olan bir neçə universitet vardır, məsələn, Lill, Tuluz, Lion, Eks-an-Provans, Bordo, Qrenobl, Monpelye, Nansi və s.. Tələbələrin sayının daim artması və həmin axının öhdəsindən gəlmək üçün tədris müəssisələrinin maliyyələşdirilməsində ərazi kollektivlərinin iştirakının artırılması zəruriliyi bir çox tanınmış şəhərlərdə universitetlərin şöbələrinin yaradılmasını müəyyənləşdirdi. 1990-cı ilin yazında başlanmış “Universitet-2000” planı əsasında həmin yeni tələbatların ödənilməsi üçün 32 milyard frank (5,3 milyard dollar) ayrılması nəzərdə tutulur, həm də maliyyələşmənin yarısı dövlət tərəfindən təmin edilir, digər yarısı isə ərazi kollektivlərinin üzərinə düşür. 1997-ci ilin noyabr ayında baş nazir Lionel Cospen “U-3000” planını elan etdi, onun məqsədi növbəti minilliyin tələbələrinin tələblərinin ödənilməsindən ibarət idi. Desentralizasiya təcrübəsi regional inkişaf və əyalətlərdə yeni fəaliyyət növlərinin genişləndirilməsi üçün mühüm vasitə oldu. İslahatlar həm də Fransada ali təhsilin demokratikləşdirilməsinə yardım edir. Bu cəhətdən maddi təminatı olmayan tələbələr üçün təqaüdlər şəklində yardım verilir və həm də universitet yeməkxanaları, mənzil və s. ilə təmin olunur.

Fransa universitetlərinin beynəlxalq və ilk zamanda Avropa səviyyəli məktəb kimi tanınması onların muxtariyyət alınmasında rol oynayır. Universitetlər güclü beynəlxalq mübadilə siyasəti aparır və nüfuzlu mərkəzlərə çevrilirlər. Yalnız tərəfdaş universitetlərlə yox, həm də müəssisələrdəki universitetlərlə əməkdaşlıq edir. Məsələn, Qrenobl, Tuluz, Lill və Renna-Nantanın universitetlərində belə təcrübə var, çünki müəssisələrin yüksək ixtisaslı kadrlara tələbatı getdikcə daha da kəskinləşir.

**Paris Ali Normal Məktəbi (Ecole Normale Superieure de Lyon).** Bu məktəb Fransa Respublikasının paytaxtı Paris şəhərində yerləşir və Fransanın dövlət universitetləri çərçivəsində fəaliyyət göstərən nüfuzlu ali məktəblərdən biridir. Ali Normal Məktəb Fransa inqilabı dövründə yaradılıb və həmin vaxtdan bugünədək mühüm nüfuzlu institut kimi fəaliyyət göstərir. Məktəbin tələbələri hökumət və akademik dairələrdə yüksək səviyyədə vəzifə əldə etmək üçün hazırlanır. Fransa elitasının əksər nümayəndələri bu məktəbin məzunlarıdır. Böyük Britaniyanın "Times Higher Education Supplement – QS World Universities Rankings" jurnalının dünya universitetlərinin 2009-cu il üzrə apardığı reytinqinə görə, Paris Ali Normal Məktəbi 28-ci yerdə qərarlaşıb. Paris Ali Normal Məktəbi Parisin 6 ali məktəbindən ibarət olan "Paris universitetləri" qrupunun üzvüdür. Ali

məktəb Avropanın aparıcı universitetlərini birləşdirən "Atom Mədəniyyəti" cəmiyyəti ilə əməkdaşlıq edir.

Paris Ali Normal Məktəbi 30 noyabr 1794-cü ildə Fransa inqilabı dövründə Paris şəhərində Milli Konvent (Fransa inqilabı dövründə vəkillər şurası) tərəfindən yaradılıb. Məktəbdə ilk mühazirə 1795-ci ildə yanvarın 20-də Verniquet amfiteatrında oxunub. Məktəbin yaradılmasında məqsəd vətəndaşlara hərtərəfli dünyagörüşə malik alim və professorlar tərəfindən müəllimlik sənəti öyrətmək idi. Bunun üçün Monc, Vandermond, Dyubenton, Bertolle, Bernardin de Sen Pyer, Volney kimi dahilər məktəbə dəvət olunur. Məktəb tez bir müddətdə mühüm tədqiqat mərkəzinə çevrilir. 1808-ci ildə Paris Ali Normal Məktəbinin ilk binası tikilir.

1903-cü ildə Paris Ali Normal Məktəbi Paris Universitetinin tərkibinə qatılır. Məktəb yalnız 1954-cü ildə müstəqillik əldə edir. 1962-ci ildə Paris Ali Normal Məktəbi vaxtilə ali təhsil ocağının məzunu olmuş Baş nazir Corc Pompidu tərəfindən yüksək qiymətləndirilir.

1985-ci ildə Sevrdə yerləşən qızlar üçün Ali Normal Məktəbi Paris Ali Normal Məktəbinə birləşdirilir. Buna baxmayaraq həmin məktəblər birləşməzdən əvvəl də qızlar Paris Ali Normal Məktəbində keçirilən müsabiqələrdə iştirak etmək hüququna malik idilər. Məsələn, tanınmış filosof Simona Veyl Paris Ali Normal Məktəbinə 1928-ci ildə, akademik Caklin de Romilli isə 1933-cü ildə qəbul olublar.

26 avqust 1987-ci ildə Paris Ali Normal Məktəbində dekret qəbul olunur. Dekretdə deyilir: "Yüksək səviyyəli mədəniyyət və təhsilə malik olan Ali Normal Məktəbi fundamental və tətbiqi elmi-tədqiqat işləri aparan, ali və orta məktəblərdə dərs verə bilən, ümumilikdə, dövlət, inzibati, kütləvi müəssisələrdə və şirkətlərdə fəaliyyət göstərəcək mütəxəssislər hazırlayır". 2001-ci ildə Paris Ali Normal Məktəbinin İnternet portalı yaradılır. Burada 2000-dən çox mühazirə və seminarlar yerləşdirilir.

Paris Ali Normal Məktəbinin kampusları haqqında məlumat verərkən onların yerləşdiyi əsrarəngiz və kosmopolit şəhəri xatırlatmamaq qeyri-mümkündür. Parisin mükəmməl elmi, intellektual və mədəni irsi şəhəri canlı auditoriyaya çevirir. Kölgəli ağaclarla örtülmüş bağlar və parklar, Böyük Tələbə Bağı, Belvilldə hay-küylü bazar dükanları, Montmartrenin çay daşından salınmış dolanbac yolları, ümumiyyətlə, hər bir küçə şəhərin unikal irsindən xəbər verir. Paris həmçinin incəsənət və elmlər şəhəridir. Şəhərdə sonsuz sayda muzeylər, eksperimental və avanqard teatrlar, klassik və müasir musiqi zalları, kinoteatrlar, kafelər, qəlyanaltı yerləri və yeməkxanalar var. Bütün bunların hamısı tələbələrə yeni əsərlər yaratmaq və kəşflər etmək üçün geniş imkanlar açır. Paris Ali Normal Məktəbinin mülkiyyəti 110000 $km^2$ ərazidə - Sent-Cenevyev dağında, Curdan parkında, Monruc və Fontenbloda yerləşir. Məktəbin kampusu əsl tələbə şəhərciyidir və əlverişliliyi ilə digər ali məktəblərin kampuslarından daha səmərəlidir. Buranın sakinləri departamentlər və laboratoriyaların yaxınlığında yerləşdiyindən xeyir əldə etmir, həmçinin intellektual cəmiyyət yaradır və onlarla dostluq qurur. Məktəbin əsas kampusu

Parisin Latın kvartalının mərkəzində yerləşir. İkinci kampus Montsouris parkının yanında Curdan ərazisində, üçüncü kampus isə Monruc ərazisində və ona yaxın şəhərətrafı qəsəbələrdə yerləşir. Latın kvartalındakı Rue kampusunda əsasən humanitar elmlər departamentlərinin qədim binaları, Grande Salle tarixi kitabxanası yerləşir. Kampusun mərkəzindəki böyük dördbucaq meydan tələbə və müəllimlərin qeyri-rəsmi görüş, söhbət yeridir. Monruc kampusunda tədqiqat mərkəzləri yerləşir. Dünyanın bir çox ölkələrindən gələn tədqiqatçılar bu kampusda məskunlaşır. Hər kampusun özünün ayrıca tələbə yataqxanası, bir neçə yeməkxanası, kafeləri, kinoteatrları, musiqi və rəqs studiyaları, tennis kortları, idman kompleksləri var.

Paris Ali Normal Məktəbinin nəzdində 14 humanitar və dəqiq elmlər departamentləri, 40 tədqiqat mərkəzi və 100-dən çox tədqiqat institutu və laboratoriyaları fəaliyyət göstərir. Dəqiq elmlər departamentlərinə riyaziyyat, tətbiqi riyaziyyat, fizika, informatika, biologiya, kimya, yer haqqında elmlər, koqnitiv tədqiqatlar kafedraları, humanitar elmlər departamentlərinə isə fəlsəfə, ədəbiyyat və dillər, tarix və Avropa İnstitutu, antik elmlər, sosial elmlər və Paris İqtisadiyyat Məktəbi, coğrafiya, tarix və incəsənət nəzəriyyəsi kafedraları daxildir. Bu departamentlərə əlavə olaraq məktəbdə dünya ölkələri dilləri və mədəniyyəti, tarix və fəlsəfə elmləri bölmələri, ətraf mühit və cəmiyyət arasında qarşılıqlı əlaqə fənlərarası mərkəzi, sağlamlıq imkanları məhdud tələbələr üçün linqafon kabinetləri mövcuddur. Paris Ali Normal Məktəbi Parisin digər universitetləri ilə birgə 60 magistr və 23 doktorluq proqramı təklif edir. Məktəbdə yapon, isveç, polyak, hind, türk, fars dilləri daxil olmaqla 15 müasir dil öyrədilir. Paris Ali Normal Məktəbində Tibb Mərkəzi fəaliyyət göstərir. Mərkəz bir qrup insanlara profilaktika və müalicə məsələlərini tədris edir, tələbələrin rastlaşdığı psixoloji problemlərin aradan qaldırılması məqsədilə konfranslar təşkil edir.

Paris Ali Normal Məktəbi çox zəngin kitabxana sisteminə malikdir. Burada antik elmlərdən başlayaraq müasir dəqiq, ictimai, humanitar elmlərə aid materiallar, alman fəlsəfəsi, Kastler, Dorival arxivləri mövcuddur. Məktəbin əsas kitabxanasının açılışı 1847-ci ildə baş tutub və açılış mərasimində dahi yazıçı Viktor Hüqo iştirak edib. XIX əsrin sonlarında universitetin üç şəhərciyində yeni kitabxanalar yaradılıb. 12 kitabxanadan ibarət olan sistemə ümumilikdə 800000-dən çox kitab, milyonlarla sənəd və s., kitabxananın İnternet şəbəkəsinə yüz minlərlə elektron kitab, lüğətlər, 2800 dövri nəşr, elektron resurs, 25 biblioqrafik məlumatlar bazası daxildir. Bütün bu resursların sayı mütəmadi olaraq çoxalmaqdadır. Təkcə 2006-cı ildə eksperimental elmlər, riyaziyyat və informatika üzrə tədqiqatçılar tərəfindən 1000-dən çox nəşr dərc edilib. 2008-ci tədris ilindən Paris Ali Normal Məktəbinin kitabxanası Sorbon Universiteti ilə əməkdaşlıq edir. Qeyd edək ki, Paris Ali Normal Məktəbinin direktorunu ölkə prezidenti təyin edir. Paris Ali Normal Məktəbi bir çox universitet və tədqiqat mərkəzləri ilə əməkdaşlıq edir. Məktəbdə həmin mərkəzlər tərəfindən yüksək qiymətləndirilən, dünyada böyük nüfuza malik alim və tədqiqatçılar fəaliyyət göstərir. Məktəbdə çalışan 800 pro-

fessor-müəllim (onların 200-ə yaxını əcnəbilərdir) təhsil müəssisəsinin parlaq elmi və akademik həyatına öz töhfəsini verir. Bir çox tədqiqatçı alim və akademiklər məktəbdə dərs deməklə yanaşı, başqa təşkilatlarda da (hakim qüvvələrdə və dövlət orqanlarında) çalışırlar. Hər il dünyanın bir çox universitetlərindən yüzlərlə alim və tədqiqatçı bu məktəbdə mühazirələr oxuyur və seminarlar təşkil edir. Paris Ali Normal Məktəbində çalışan inzibati və texniki işçilərin sayı 350 nəfərdir. Onlar, əsasən, məktəbin şöbələrində, laboratoriyalarda, kitabxanalarda və digər xidmət mərkəzlərində çalışırlar.

Məktəbin fəxri doktorlarından İtaliyanın 10-cu prezidenti Karlo Adzelio Çampini, Nobel mükafatı laureatları Toni Morrisonu (ədəbiyyat), Çen Nin Yanı (fizika), Əhməd Zevaili (kimya), məşhur riyaziyyatçı Luis Kafarellini, kinorejissor Abbas Kiarostamini və s. qeyd etmək olar. Paris Ali Normal Məktəbində hazırda 23000-dən çox tələbə, 650 doktorant təhsil alır. Məktəbdə dünyanın 46 ölkəsindən olan 300 əcnəbi tələbə qeydə alınıb. Onların əksəriyyəti magistratura və doktorantura pilləsində oxuyan, Avropa ölkələrindən, ABŞ-dan və Çin Respublikasından olan gənclərdir. Məktəbin məzunları 11304 nəfərdən ibarət şəbəkə yaradıb və bu rəqəm ilbəil artır. Paris Ali Normal Məktəbinə qəbul zamanı əcnəbi abituriyentlərdən fransız dilini xüsusi bilmək tələb olunmur, lakin məktəbin tələbəsi olduqdan sonra fransız dili kurslarına yazılmaq vacibdir. Məktəbə qəbul olunan tələbələr 4 il təhsil almaq imkanı qazanır və 1250 avro dəyərində təqaüd alır. Dünyanın ali məktəblərindən seçilmiş əcnəbi tələbələr məktəbdə üç il təhsil alır. Onlar təxminən 1000 avro təqaüd alır. Burada Erasmus proqramı çərçivəsində də tələbələr oxuyur.

Paris Ali Normal Məktəbinin Tələbə Təşkilatı bu təhsil müəssisəsinə yeni qəbul olunmuş tələbələrə köməklik edir. Burada himayə sistemi mövcuddur, hər il yuxarı kurs tələbələri yeni qəbul olunmuş gəncləri bir neçə həftə ərzində məktəblə tanış edir, ona fərdi tədris proqramı hazırlamaqda və digər işlərdə yardım göstərir.

Paris Ali Normal Məktəbində hər 4 ildən bir tələbələr tərəfindən seçilən Baş Nümayəndə fəaliyyət göstərir. Baş Nümayəndə tələbələrin gündəlik həyatına, onların sosial təminatına, tələbə təşkilatlarına və s. nəzarət edir. Tələbələr məktəbin ictimai həyatında fəal iştirak edir, inzibati işlərdə yardım edirlər. Məktəbdə fəaliyyət göstərən Tədris Komissiyası müəllimlər və inzibati işçilərlə tələbələr arasında səmərəli dialoqlar təşkil edir. Universitet həyatına aid bütün məsələlər, kurs işləri və s. bu komissiya çərçivəsində müzakirə edilir. Paris Ali Normal Məktəbi yarandığı gündən məşhur əməkdaşları, tədqiqatçıları və məzunları ilə diqqəti cəlb edir. Onların arasında 12 Nobel, 9 Filds Medalı (beynəlxalq mükafat, hər 4 ildən bir 40-dan çox yaşı olmayan gənc riyaziyyatçı alimlərə verilir) laureatları, eləcə də digər mükafatlara layiq görülmüş şəxslər var.

Paris Ali Normal Məktəbinin direktoru xanım Monika Kanto-Sperber işlədiyi təhsil müəssisəsini belə xarakterizə edir: "Paris Ali Normal Məktəbi zəngin tarixə malikdir. Fransanın intellektual həyatında məktəbin müstəsna xidmətləri var. Məktəb qətiyyətlə gələcəyə addımlayır".

# NİDERLANDDA TƏHSİL

Ölkənin rəsmi adı Niderlanddır və Niderland əvəzinə ölkəni Hollandiya da adlandırırlar. Hollandiyada təhsil müəssisələrinin 70 faizi özəl, 30 faizi dövlətə məxsusdur.

Hollandiya ingilis dilində təhsil təklif edən ilk qeyri-ingilisdilli ölkədir. Bu ölkənin ali təhsil müəssisələri ingilis dilində təxminən 1150 tədris proqramı təklif edir. Onların bir çoxu bakalavr və magistr proqramları, qalanları isə qısamüddətli kurslar və ixtisasartırma proqramlarından ibarətdir. Ölkənin ilk ali təhsil müəssisəsi olan Leyden Universiteti 1575-ci ildə yaradılıb. Hollandiyanın 14 dövlət universitetinin 10-u dünyanın ən nüfuzlu 200 universiteti arasında yerləşmişdir. Kiçik ölkə olmasına baxmayaraq, Hollandiyanın kimya, fizika, tibb, iqtisadiyyat və sülh sahələri üzrə 18 Nobel mükafatçısı var.

**Məktəbəqədər təhsil.** Hollandiyada 4 yaşdan aşağı uşaqlar üçün məktəbəqədər təhsil nəzərdə tutulmayıb. Onlar üçün xüsusi uşaq qayğı mərkəzləri fəaliyyət göstərir. Ölkədə təxminən 300 min uşaq (2004-cü ilin statistikasına görə) qayğı mərkəzinə gedir. Bu mərkəzlər hökumət və valideynlər tərəfindən maliyyələşdirilir. Qayğı mərkəzləri 6 aydan 3 yaşadək uşaqlar üçün nəzərdə tutulub.

**İbtidai təhsil.** Hollandiyada ibtidai təhsil 4 yaşdan 12 yaşadək davam edir. İbtidai məktəblər özəl və ya dövlətə məxsus təhsil ocaqlarına bölünür. Bu iki məktəb arasında yeganə fərq ondan ibarətdir ki, özəl məktəblər uşaqları qəbul edərkən seçim apara bildikləri halda, dövlət məktəbləri bu imkandan məhrumdur. Dövlət təhsil ocaqlarında təhsil pulsuzdur. Valideynlər yalnız məktəbin saxlanılmasına və əlavə tədbirlər üçün müəyyən məbləğdə vəsait verir. Bu məktəblərdə uşaqlar dərsliklərlə pulsuz təmin olunurlar. Hollandiyada tədris proqramları mürəkkəbliyi ilə fərqlənir. Məsələn, ana dili, riyaziyyat, fizika, kimya, biologiya kimi əsas fənlərlə yanaşı, başqa ölkələrdə, adətən, universitetlərdə tədris metodikası, tibbin əsasları, iqtisadiyyat, mühasibat uçotu kimi fənlər də Hollandiya məktəblərində tədris olunur. Məktəb proqramlarına ingilis, alman və fransiz dilləri ilə yanaşı, latın və yunan dilləri də daxil edilib.

**Orta təhsil.** Hollandiyada təxminən 700 orta məktəb fəaliyyət göstərir. Orta məktəblərə şagirdlər 12 yaşından sonra qəbul edilir. Uşaqların məktəbə getməsi icbaridir. Səkkizillik ibtidai təhsildən sonra şagirdlər test imtahanları verirlər. İmtahanlar iki gün davam edir. Test imtahanının nəticəsi və müəllimin zəmanəti uşağın hansı istiqamət üzrə təhsil alacağını müəyyənləşdirir. Şagirdlər orta məktəbdə təhsillərini, əsasən, 4 istiqamət üzrə davam etdirirlər:

1. Birinci istiqamət üzrə təhsil alan şagirdlər universitetlərə hazırlanır. Burada təhsil 6 il davam edir.

2. İkinci istiqamət üzrə təhsil alan şagirdlər ali peşə məktəblərinə hazırlanır. Burada təhsil 5 il davam edir.

3. Üçüncü istiqamət üzrə isə şagirdlərə 4 illik peşə təhsili təklif olunur.

4. Dördüncü istiqamətə 6 illik təhsili nəzərdə tutan praktiki təhsil daxildir. Üçüncü istiqamət üzrə təhsil alan şagirdlər nailiyyət qazana bilmədikdə, onda onlar əmək bazarına daxil olmaq üçün hazırlanan praktik təhsilə yiyələnə bilər.

Orta məktəbi birinci istiqamət üzrə bitirən şagirdlər universitetlərə daxil ola bilər. İkinci və üçüncü istiqamətlər üzrə oxuyan şagirdlər isə keçid proqramları vasitəsilə universitetlərə daxil olmaq imkanı əldə edir. Ümumi orta təhsilli gimnaziyalarda və realnı orta məktəblərdə də (təhsil müddəti 6 ildir) almaq mümkündür. Bu məktəblərin məzunları da universitetlərə daxil olmaq hüququ qazanır. Hollandiyada fiziki və əqli cəhətdən zəif uşaqlar üçün xüsusi məktəblər fəaliyyət göstərir. Bu tədris ocaqlarının şagirdləri sadə tədris planı üzrə təhsil alırlar. İlk təhsilini digər ölkədə başlamış uşaqlar üçün Hollandiyada beynəlxalq məktəblər fəaliyyət göstərir. Bu məktəblərdə bütün fənlərin tədrisi ingilis, fransız və alman dillərində aparılır. Hollandiya orta təhsil sistemində fənlər və tədrisin məqsədləri müvafiq qanunla tənzimlənir. Bu, hökumətə ölkə üzrə vahid təhsil standartlarını saxlamaq imkanı verir.

**Texniki peşə təhsili.** Hollandiyada 40 regional peşə təhsili mərkəzi fəaliyyət göstərir. Onlar mühəndislik və texnologiya, iqtisadiyyat, səhiyyə və sosial müdafiə sahələri üzrə peşə təhsili təklif edir. Kənd təsərrüfatı, ekologiya və qida sənayesi sahəsində peşə təhsili kənd təsərrüfatı üzrə təhsil mərkəzləri tərəfindən verilir. Bu mərkəzlər ölkənin Kənd Təsərrüfatı Nazirliyi tərəfindən maliyyələşdirilir. Həmin mərkəzlərin nəzdində 700-dən artıq peşə təhsili kursları fəaliyyət göstərir. Bu kurslara 16 yaşdan yuxarı şəxslər qəbul edilir.

Hollandiyada sosial sahələr üzrə 200-dən artıq tədris proqramı təklif edən 43 kollec vardır.

**Ali təhsil.** Hollandiyada ali təhsil sistemi üçpilləlidir. Birinci pillədə üçillik və dördillik bakalavr proqramları təklif edilir. Təhsilin sonunda humanitar və ya təbiət elmləri bakalavr dərəcəsi verilir. Dərəcənin alınması üçün üçillik təhsildə 180 və ya dördillik təhsildə 240 kredit (Avropa Kredit Transfer Sisteminə əsasən) almaq lazımdır.

İkinci pillədə magistr proqramları təklif olunur. Burada təhsil 1 və ya 2 il davam edir. Magistr dərəcəsinin alınması üçün müvafiq olaraq 60 və ya 120 kredit qazanmaq lazımdır. Təbiət elmləri və texnologiyalar sahəsi üzrə ikiillik proqramlar nəzərdə tutulub.

Ali təhsilin üçüncü pilləsinə doktorluq (Dr., PhD-nin analoqu) proqramı daxildir. Bu pillədə təhsil almaq istəyənlərin magistr dərəcəsinin olması zəruridir. Doktorluq dərəcəsi yalnız universitetlər tərəfindən təklif olunur. Bu pillədə təhsil

ən azı dörd il davam edir. Doktorluq dərəcəsinin alınması üçün təhsilin sonunda dissertasiya işi müdafiə olunmalıdır.

**Ali təhsil müəssisələri.** Hollandiyada ali təhsil sisteminə universitetlər, Beynəlxalq Təhsil İnstitutları və peşə texniki təhsili universitetləri fəaliyyət göstərir. Klassik universitetlər əsasən humanitar elmlərin tədrisi və elmi-tədqiqatların aparılması ilə məşğul olur.

Hollandiyada fəaliyyət göstərən 11 Beynəlxalq Təhsil İnstitutu digər ali təhsil müəssisələrindən fərqli olaraq, yalnız bakalavr proqramları təklif edir. Hər il bu institutlara təxminən 13 min əcnəbi tələbə daxil olur. Bu təhsil ocaqlarında təhsil müddəti 18 ay davam edir. Ali peşə təhsili universitetləri isə tələbələri konkret peşə sahələri üzrə hazırlayır. Ölkədə dövlət tərəfindən tanınmış 14 klassik universitet fəaliyyət göstərir. Bu universitetlərdən üçü texniki ali təhsil müəssisəsidir. Həm də ölkə ərazisində 42 ali peşə təhsili universiteti vardır. Universitetlər, əsasən, tələbələrin (6 mindən 30 minədək) sayına görə fərqlənir. Hollandiya ali təhsil müəssisələrinə ildə təxminən 185 min tələbə qəbul olunur. Başqa ölkələrdən fərqli olaraq, Hollandiyada nüfuzlu universitet anlayışı yoxdur. Ölkənin bütün universitetlərinin diplomu eyni qüvvəyə malikdir və başqa ölkələr tərəfindən qəbul edilir. Buna görə də universitetlər məşhurluğuna görə deyil, tələbənin yiyələnmək istədiyi ixtisasa uyğun olaraq seçilir. Ölkədə 2002-ci ildə qəbul olunmuş ali təhsil haqqında Qanuna əsasən, universitetlər tərəfindən təklif edilən bütün tədris proqramları akkreditasiyadan keçirilir. Akkreditasiyanın əsas məqsədi universitetlər tərəfindən təklif olunan proqramların yüksək standartlara uyğunluğunu təmin etməkdir.

**Əcnəbi tələbələr.** Bir il ərzində Hollandiya universitetlərinə təxminən 59 min tələbə daxil olur. Onlardan təxminən 42 mini əcnəbi tələbələrdir. Bu tələbələrin arasında Almaniya, Belçika, Çin, İndoneziya və Vyetnamdan olanlar üstünlük təşkil edir. Əcnəbi tələbələr əsasən biznes və idarəçilik, sosial elmlər, səhiyyə, mühəndislik, incəsənət sahələrinə üstünlük verir. Hollandiya hökuməti hər il əcnəbi tələbələr üçün təxminən 5 milyon avrodan artıq təqaüd üçün vəsait ayırır. Hollandiya universitetlərinə daxil olmaq istəyən əcnəbi tələbələr ilk növbədə müvafiq təhsil proqramını seçməlidirlər. Bu ölkədə oxumaq istəyənlər orta təhsil haqqında attestatı, TOEFL (500-550 bal) və ya IELTS (6 baldan yuxarı) imtahanları və ya müvafiq kurslar üzrə alınmış qiymətlərə dair sənədləri (ingilis dilində oxumaq istəyənlər) ali məktəblərə təqdim etməlidir. Bütün bu sənədlər ingilis dilinə tərcümə olunmalı və notariat qaydasında təsdiqlənməlidir.

Hollandiyada təhsil xərclərinin miqdarı inkişaf etmiş digər ölkələrlə müqayisədə azdır. İllik təhsil haqqı Avropa İttifaqına üzv olan ölkələrin vətəndaşları üçün təxminən 1500 avro təşkil edir. Avropa İttifaqına üzv olmayan ölkələrdən gələn tələbələr üçün isə illik təhsil haqqı nisbətən yüksəkdir. Holland dilində ali təhsilin haqqı ildə orta hesabla 1,5-5 min avro təşkil edir. İngilisdilli proqramlara əsaslanan təhsil nisbətən bahadır. Məsələn, Amsterdam Universitetində Avropa

İttifaqına üzv olmayan dövlətlərin vətəndaşları üçün bakalavr təhsilində illik xərc orta hesabla 7 min avro, magistr təhsili isə 9 min avro təşkil edir. Bir tələbə üçün dərslik və tədris materiallarının illik xərci isə 800-1000 avro miqdarında dəyişir.

2006-cı il may ayının 1-dən ölkədə Davranış Kodeksi qüvvəyə minib. Kodeks Hollandiyanın ali təhsil müəssisələrində əcnəbi tələbələrlə işin mahiyyətini müəyyən edir. Bu kodeksi imzalayan ali təhsil ocaqları əcnəbi tələbələrə yüksək keyfiyyətli tədris proqramları təklif etdiklərinə zəmanət verir. Yalnız Davranış Kodeksinə qoşulan universitetlər Avropa İttifaqına üzv olmayan ölkələrdən tələbə qəbul edə bilər. Bu Kodeksin tələblərinə əsasən, ali təhsil müəssisəsi əcnəbi tələbələrə öz tədris proqramları haqqında ətraflı məlumat verməlidir. Buraya təhsil müəssisəsinin akkreditasiya statusu, tədris prosesinin keyfiyyətinin qəbul şərtləri, eləcə də əcnəbi tələbələr üçün maraqlı və vacib olan digər qaydalar haqqında məlumatlar daxildir. Əcnəbi tələbələr üçün nəzərdə tutulmuş məlumat ingilis dilində və ya əcnəbi tələbənin ana dilində olmalıdır. Təhsil müəssisəsi əcnəbi tələbəyə hansı xidmətləri (məsələn, vizanın alınması, yaşayış yeri ilə təmin edilməsi və s.) etmələri haqda ətraflı məlumat verməlidir. Avropa İttifaqına üzv olmayan ölkələrdən gələn tələbələrə Davranış Kodeksini qəbul etməyən ali məktəblərdə təhsil almaq üçün viza verilmir.

Ölkədə təhsil almaq istəyənlər holland dilində tədris olunan milli və ya ingilis dilində tədris edilən beynəlxalq proqramı seçə bilər. Hər il təxminən 12 min hollandiyalı tələbə xarici ölkələrdə təhsil alır. Onların 6 mindən çoxu dövlətdən və ya Avropa İttifaqının həyata keçirdiyi proqramlar çərçivəsində təqaüd alır. Hollandiya hökuməti xaricdə təhsil alan tələbələrə ildə təxminən 2 milyon avro (2004-2005-ci illərin statistikasına əsasən) vəsait ayırır.

**Təqaüdlərin alınması.** Hollandiyada təhsil almağın ən asan yolu tələbə mübadiləsi proqramlarıdır. Ölkə universitetlərinin əksəriyyəti dünyanın bir çox ölkələrinin ali təhsil müəssisələri ilə tələbə mübadiləsi üzrə əməkdaşlıq sazişi imzalayıb. Hügens adına təqaüd bakalavr və ya magistr pillələrinin sonuncu kursunda təhsil alan tələbələrə verilir. Bu proqram çərçivəsində doktorluq dərəcəsi üzrə təqaüd ayrılmır və ölkənin ali təhsil sahəsi üzrə beynəlxalq əməkdaşlıq təşkilatı tərəfindən reallaşdırılır. Proqram Hollandiyanın Təhsil, Mədəniyyət və Elm Nazirliyi tərəfindən maliyyələşdirilir. Nazirlik təqaüd çərçivəsində əcnəbi tələbələrə hər il dörd milyon avro məbləğində vəsait ayırır. Bu məbləğin bir hissəsi holland dilini öyrənən tələbələr üçün nəzərdə tutulur. Təqaüd 6 və ya 24 ay müddətinə təqdim olunur. Proqrama əsasən, bir tələbəyə 900 avro məbləğində aylıq təqaüd (tibbi sığorta daxil olmaqla), təhsil haqqı, viza alınması üçün rüsum və təyyarə biletinin dəyərinin kompensasiyası verilir.

Hügens adına təqaüd çərçivəsində təhsil almaq istəyənlərdən bakalavr diplomu, Hollandiya universitetindən proqramı qazanması haqqında arayışın alınması və yaş həddinin 35-i keçməməsi tələb olunur. Namizəd təhsilin aparılacağı dili (ingilis və ya holland) bilmə səviyyəsini təsdiqləyən sənədi də təqdim etməlidir. Əcnəbi tələbə və doktorantlar üçün ən tanınmış təqaüd proqramlarından biri də

MTEC-dir (Matra Training for European Cooperation). MTEC proqramı CROSS Bürosu (Hollandiya ilə Mərkəzi və Şərqi Avropa ölkələri arasında təhsil sahəsində əməkdaşlıq üzrə agentlik) tərəfindən 1994-cü ildən həyata keçirilir. MTEC proqramı çərçivəsində bir il müddətinə magistr təhsili üçün təqaüdlər təklif edilir. MTEC təqaüdləri bakalavr dərəcəsi almış, müvafiq sahələrdə çalışan məzun və mütəxəssislərə verilir. Magistratura bir neçə alt proqrama bölünür. Bu sıraya Amsterdam Universitetinin hüquq fakültəsində Beynəlxalq və Avropa hüququ magistrı, Tvent Universitetində Dövlət idarəçiliyi magistri, Maastrixt Universitetinin tibb fakültəsində ictimai səhiyyə magistri, mədəniyyət və incəsənət fakültəsində Avropa tədqiqatları magistri proqramları daxildir. Həm də Hollandiyada TEMPUS (Trans-European Mobility Programme for University Studies) proqramı çərçivəsində təhsil almaq mümkündür. TEMPUS Avropa İttifaqının ali təhsil müəssisələri, müstəqil dövlətlər (keçmiş sovet müttəfiq respublikaları), Qərbi Balkan, Avropa İttifaqına üzv olmayan Şərqi Avropa və Aralıq dənizi hövzəsi dövlətləri ilə həyata keçirdiyi əməkdaşlıq proqramıdır. Proqramın məqsədi keçmiş sosialist düşərgəsinə daxil olmuş ölkələrdə universitetlərin modernləşdirilməsi və ali təhsil sahəsində islahatlara yardım göstərməkdir.

Avropa Komissiyasının həyata keçirdiyi Erasmus Mundus proqramının məqsədi Avropa ali təhsilinin keyfiyyətinin artırılması və Avropa İttifaqına üzv olmayan ölkələrlə əməkdaşlığı inkişaf etdirməkdir. Bu proqram 2008-ci ilin 21 oktyabr tarixində Avropa Parlamenti tərəfindən qəbul olunub. Avropa İttifaqına üzv olan və olmayan ölkələrin tələbələri bu proqramın təqaüdü hesabına Hollandiyada da təhsil ala bilər.

Hollandiya çiçəklənən, inkişaf etmiş sənaye ölkəsidir. Onun təhsil sistemi başqa dövlətlərdən götürülməmişdir. Hollandiyanın təhsil sistemi özündə yaranmış, inkişaf etmiş və ölkənin bütün adət-ənənələri ilə sıx bağlıdır. 15,5 milyon əhalisinin təxminən 450 min nəfəri müxtəlif formada ali təhsil almışdır. Hollandiyada paralel fəaliyyət göstərən üç cür ali təhsil vardır. Tədris ili sentyabr ayından iyun ayına qədər olan dövrdür.

**Ali təhsil sistemi.** Hollandiyada ali təhsil ocaqlarının iki növü vardır: universitetlər və ali texniki məktəblər. Ali texniki təhsili politexnik təhsil müəssisələrində və kolleclərdə almaq olar. Universitet tələbələri ancaq elmi istiqamətdə hazırlanır. Kolleclər, adətən, təcrübəyə istiqamətlənir və onlar tələbələri peşəkarlıq fəaliyyətinə hazırlayır. Ali təhsil sistemində bir ixtisasdan başqasına keçmək mümkündür. Artıq 50 ildir ki, Hollandiyada əcnəbi tələbələr də təhsil alır. 1950-ci ildə bu məqsədlə ölkədə xüsusi (özəl) ali məktəblər yaradılmışdı. Onlar tələbələrdən yüksək hazırlıq səviyyəsi tələb edir, inkişaf etməkdə olan ölkələrdən gələn tələbələrə xüsusi diqqət yetirilirdi.

Ölkədə hal-hazırda 14 institut, təxminən 150 ixtisaslaşdırılmış kurs vardır. Bunlar ilk növbədə öz nüfuzunu saxlayaraq hər kəsin arzularına və tələblərinə cavab verir. Kurslar tələbələri yeni metod və texnologiyalarla təmin edir. Tələbələr

vətənlərinə qayıdan zaman onların biliklərini təcrübədə tətbiq edə biləcəklərini yoxlayırlar. 14 ali texniki institut və 70 universitetə müsahibə yolu ilə gəlmiş əcnəbi tələbələrə eyni zamanda ingilis dilində bir neçə kurs təklif edirlər. Həmin kurslar dərəcə almaq üçün proqramın bir hissəsini və ixtisaslaşdırılmış kursları əhatə edir. Bu kurslarda təhsil alan tələbələr imtahan verdikdən sonra bakalavr və magistrə ekvivalent dərəcələr ala bilər. Bütün tədris prosesi dörd və ya beş il davam edir. Əcnəbi tələbələr, adətən, Hollandiyada fənlər üzrə imtahan qiymətlərini öz ölkələrinə köçürür və orada təhsillərini başa çatdırırlar. Hollandiyanın universitet, kollec, ixtisaslaşdırılmış institutları başqa ölkələrin ali məktəbləri ilə əməkdaşlıq edir və ikitərəfli razılaşmalar həyata keçirirlər. Ali təhsil dövlət və hökümət qanunları ilə idarə olunur. Təhsil başa çatdıqdan sonra tələbəyə şəhadətnamə, diplom, bakalavr və ya magistr dərəcəsi verilir. Sertifikat almaq üçün bir neçə həftə, diplom üçün bir neçə ay və dərəcə almaq üçün bir ilə qədər və ya daha çox vaxt lazım olur. Qəbul zamanı tələbələr bir çox proqramları kifayət qədər qısa müddətdə həyata keçirir və həmin proqramların zamini olan bakalavr dərəcəsi və ya ona bərabər nüfuzlu orta təhsil müəssisəsinin diplom verilir.

Hollandiyada cəmi 214 universitet və Açıq Universitetlər fəaliyyət göstərir. Həmin təhsil müəssisələrinin əsas məqsədi tələbələrə gələcəkdə elmi işçi (tədqiqatçı) olmaq üçün təhsil verməkdir, eyni zamanda bir çox tədris proqramları üzrə peşə təhsilini davam etdirir. Universitetlər sahəsinə və təhsil alan tələbələrin sayına görə (6 mindən 30 minə qədər) fərqlənir. Hazırda universitetlərdə 150 minə yaxın tələbə təhsil alır. Britaniya və Afrika təhsil sistemindən fərqli olaraq, Hollandiya təhsil sistemində diplomlar iki cür dərəcəyə malikdir. Hər bir tələbə doktorant diplomu alır. Diplomlar bəzi ixtisaslar üzrə 4 il, əyani təhsildən sonra, bəzisində isə mühəndislik işi, təbiət elmləri, kənd təsərrüfatı və.s. sahəsində 5 ildən sonra verilir. Tələbənin tədris prosesində akademik borcu olduqda ali təhsil tamamlanmamış hesab olunur.

Ölkədə akademik proqram tələbəyə veriləcək diploma uyğun əsas tədqiqatlar sahəsi üzərində cəmləşir. Hətta birinci tədris ilində tələbələr ümumi fənləri öyrənmirlər. Ona görə ki, abituriyentlər iki il universitetə qəbul olmaq üçün hazırlaşdıqda belə fənlər həmin proqrama daxil olunur. Universitet proqramlarının əsas hissəsini müstəqil tədqiqatlar təşkil edir. Əsas tələb diplom işidir. Diplom işi tələbənin apardığı müstəqil tədqiqat işi əsasında tərtib edilmiş elmi işdir. Ən yaxşı işlər elmi jurnallarda məqalə şəklində çap edilir. Tədqiqatlar universitetin professorunun elmi rəhbərliyi altında aparılır. Növbəti elmi dərəcənin (doktor dərəcəsinin) alınması üçün tələbə dissertasiya yazır. Doktorant diplomu anqlosaks ali təhsil sistemində magistr diplomuna bərabər tutulur.

Texniki universitetlərin bütün təhsil proqramları peşə fəaliyyətinə istiqamətlənmişdir. Ölkədə bu tipli 50-dən artıq ali məktəb vardır. Belə universitetlərdə tələbələrin sayı ən çox 20-25 min nəfər, bəzi tədris müəssisələrində isə azdır. Hollandiyada bu tipli ali təhsil müəssisələrində 280 mindən artıq tələbə təhsil alır. Texniki universitetlərin akademik proqramı iki pilləlidir və anqlosaks sistemindən

fərqlənir. Ona ancaq 4 illik təhsildən sonra diplom verilir. Şirkətlərdə, yaxud başqa cür təşkilatlarda təcrübə keçmə iş proqramının mühüm elementidir, yəni bu proqram tələbələrin peşə vərdişlərinə diqqəti cəlb edir. Universitetlərdən fərqli olaraq, peşə təhsilində tədqiqat işləri aparılmır və sonrakı elmi dərəcə almaq üçün təhsilin davam etdirilməsi təklif olunmur. Texniki universitetləri bitirənlərin hamısı bakalavriata ekvivalent olan diplom alır və gələcəkdə təhsillərini doktoranturada davam etdirə bilər. Texniki universitetlərin bəzilərində isə tələbələrə magistr təhsil pilləsində təhsillərinin davam etdirilməsi təklif olunur. Adətən, tədris prosesi ingilis dilində aparılır, bu hal əsasən əcnəbi tələbələrə şamil edilir. Təhsil bir-iki il davam edir. Bu universitetlərin magistraturasına daxil olmaq üçün yalnız ali təhsil haqqında diplom, əcnəbi tələbələrdən isə bakalavr və ya ona ekvivalent diplom tələb olunur. Ölkənin 15 beynəlxalq ali texniki məktəbində elmin müxtəlif sahələrində məzunlar sonrakı təhsillərini davam etdirə bilir. Təhsil ingilis dilində aparılır və bu məktəblər əcnəbi tələbələr üçün təşkil olunmuşdur. Bu cür təhsil müəssisələrinə qəbul olunmaq üçün ali təhsil haqqında diplom və bir neçə il iş təcrübəsi tələb olunur. Beynəlxalq institutlarda üç-dörd min tələbə təhsil alır. Başqa universitetlərdə də texniki universitetlər kimi ingilis dilində kurslar təklif olunur.

Beynəlxalq texniki təhsil müəssisələrində akademik proqram üzrə "Beynəlxalq təhsil" kateqoriyasına aid edilən proqramlar əsasında bütün kurslar ingilis dilində keçilir. Onlar bir və ya iki il müddətinə qədər ola bilər. Bir çox hallarda əcnəbi tələbələrdən öz ölkələrində bakalavr diplomu və ya ona ekvivalent diplom almaq tələb olunur, sonra isə uzunmüddətli proqramlar üzrə magistr diplomu almaq üçün iş aparılır. Tələbələr magistraturanı bitirdikdən sonra doktorluq dərəcəsi almaq üçün təhsilini davam edə bilər.

Ölkədə ali təhsil bütün dünyada öz keyfiyyəti ilə tanınır, buna isə xüsusi hazırlanmış nəzarət və keyfiyyət sistemi vasitəsilə nail olunur. Hollandiyanın Təhsil Nazirliyi ali təhsil sistemində dövlət standartlarına uyğun yüksək keyfiyyətə nail olunmasına zəmanət verir. Beləliklə, abituriyentlər ali məktəbi seçərkən təhsilin keyfiyyəti barədə narahat olmur, onlar ancaq maraqlı olduqları ixtisasın istiqaməti haqda düşünürlər. Ölkədə hər bir universitet ayrılıqda özünəməxsus struktur və daxili qaydaya malikdir. Təhsil müəssisələri ancaq keyfiyyət parametrləri ilə fərqlənir. İşə götürən rəhbərlik tərəfindən məzunlardan ilk növbədə diplom tələb olunur və onun hansı universitetə məxsus olması əhəmiyyətli deyil.

Avropa İttifaqı və Avropa iqtisadi məkanı ölkələrindən (Avstraliya, Belçika, Danimarka, Finlandiya, Fransa, Almaniya, Yunanıstan, İslandiya, İrlandiya, İtaliya, Lixtenşteyn, Lüksemburq, Monako, Norveç, Portuqaliya, İspaniya, İsveçrə və Böyük Britaniya) olan tələbələrin öz ölkəsinin vətəndaşının qüvvədə olan şəxsiyyət vərəqəsi olmalıdır. Bütün başqa ölkələrdən olan tələbələrin isə gəlmə vizaları olmalıdır (bir çox hallarda qəbul olunmaq üçün istədikləri institutlar həmin mərhələni keçərkən kömək edirlər). Onlar öz vətənində olarkən viza və yaşayış üçün

müraciət etməlidir. Viza yalnız tədris ili müddətinə verilir. Bu cür icazə alan tələbələrin Hollandiyada işləmək hüququ yoxdur. Onlara tibbi sığorta da lazımdır. Daha ətraflı məlumat üçün öz ölkənizdə fəaliyyət göstərən Hollandiyanın səfirliyi və ya onun diplomatik nümayəndəliyi ilə əlaqə saxlamaq məqsədə uyğundur.

Dərəcə almaq üçün tədris prosesi adi proqramlarla Holland dilində həyata keçirilir. Universitetlərə və ya kolleclərə daxil olmazdan əvvəl holland dilində imtahan verilməsi tələb olunur. Bir çox universitetlər holland dili kursları təşkil edir. Əcnəbilər üçün dil öyrədilməsini təşkil edən məktəblər və digər təhsil müəssisələri vardır. Beynəlxalq təhsil almaq üçün ingilis dilini yaxşı səviyyədə bilmək zəruridir. Bir çox ali məktəblərə daxil olmaq üçün TOEFL imtahanında ən azı 550 bal toplamaq lazımdır, bəzi hallarda isə başqa dildə təhsil almaq mümkündür. Tədris ili üçün xərc 14000 florinə yaxındır. Beynəlxalq təhsil üçün ödəniş isə 200 florindən 30 000 florin arasındadır. 7-15 yaşlı uşaqların 8 illik təhsili icbari və puluzdur. Təhsil müddəti ibtidai məktəblərdə, tam orta ümumi təhsil verən gimnaziyalarada və realnı orta məktəblərdə 6 ildir. Təhsil müddəti 3-4 il olan orta məktəblər də var, lakin bunları bitirənlərin ali məktəblərə daxil olmaq hüququ yoxdur. Peşə təhsilini verən ixtisas məktəblərində təhsil müddəti bir neçə aydan 5 ilə kimidir. Ölkədə 15 ali məktəb, o cümlədən 6 universitet var (1980). Böyük kitabxanaları: Amsterdam və Leyden universitetlərinin kitabxanaları, Haaqada Kral Kitabxanası. Muzeyləri: Amsterdamda Dövlət muzeyi, Van Qoq Milli muzeyi, Rembrandtın ev muzeyi, Haaqada Bələdiyyə muzeyi, Poçt muzeyi, Leydende Milli etnoqrafiya muzeyi və s.

**Elm və elmi idarələr.** Niderlandda təbiyyət və texniki elmləri sahəsində daha çox müvəffəqiyyət əldə edilmişdir. Mexanik, fizik və riyaziyyatçı X.Huygens (17-ci əsr) ehtimal nəzəriyyəsi sahəsində ilk tədqiqatçılardan olmuşdur. Təbiətçi A. Levenhuk (18-ci əsr) elmi mikroskopiyanın, fizik L. Lorents (19-20-ci əsrlər) elektron nəzəriyyəsinin əsaslarını qoymuşlar. Hazırda təbiyyət və texnika elmləri üzrə tədqiqatlar dövlət idarələri ilə yanaşı, xüsusi idarələrdə də aparılır. Dövlət universitetləri yanındakı institutlar, Tətbiqi Tədqiqatlar üzrə Mərkəzi Təşkilat, Niderland Kral Elmlər Akademiyasının institutları dövlət idarələrinə, xüsusi firma və universitetlərin institutları isə xüsusi idarələrə aiddir. Dövlət institutlarında elmi tədqiqatların aparılmasına cavabdeh olan əsas təşkilat Maarif nazirliyidir. İctimai elmlər sahəsində tədqiqatlar universitetlərdə, bir sıra elmi tədqiqat institutlarında, ali məktəblərdə və elmi cəmiyyətlərdə aparılır. Niderlandda fəhlə hərəkatı tarixinin problemləri ilə məşğul olan Beynəlxalq Tarix İnstitutu fəaliyyət göstərir. 1967-ci ildə SSRİ EA ilə Niderland Kral EA arasnda əməkdaşlıq haqqında saziş imzalanmışdır.

**Amsterdam Universiteti (University of Amsterdam).** Bu universitet Niderland Krallığında, Amsterdam şəhərinin mərkəzində yerləşir və Avropanın ən böyük universitetlərindən biridir. Amsterdam Universiteti beynəlmilləşmiş ali məktəbdir və burada dərslər ingilis və holland dillərində keçilir. 2006-cı ildən Amsterdam Universiteti Avropa Tədqiqat Universitetləri Liqasının üzvüdür.

2009-cu ildə aparılan dünya universitetlərinin reytinqinə əsasən, Amsterdam Universiteti 100 ən yaxşı ali məktəb arasında Tsinxua Universiteti ilə birgə 49-cu yerdə yerləşmişdir. 2010-cu ildə dünyanın ən nüfuzlu universitetləri arasında 56-cı yerdə olmuşdur.

Amsterdam Universitetinin sələfi XIV əsrdən fəaliyyət göstərən Athenaeum Illustre (latın dilindən tərcümədə "şöhrətləndirilmiş", "ali Ateney") məktəbi olub. 1632-ci ildən Amsterdam şəhərində həmin məktəbdə tarix və fəlsəfə, sonradan isə hüquq, ilahiyyət və təbabət elmləri öyrədilir. Kaspar Barlaeus və Cerard Vossius kimi dahi alimlər ilk mühazirələrini bu təhsil ocağında oxuyublar. Həmin dövrün ən məşhur məzunlarından hollandiyalı ilahiyyətçı və alim Kornelis Petrus Tielini göstərmək olar.

XIX əsrə qədər Ateney çox da böyük olmayan bir təhsil müəssisəsi kimi fəaliyyət göstərirdi. 1915-ci ildə rəsmi olaraq bu müəssisəyə ali məktəb statusu verilir, 1977-ci ildən başlayaraq isə Amsterdam Bələdiyyə Universitetinə çevrilir və elmi dərəcə vermək hüququ qazanır. Universitet həmin dövrdə siyasi cəhətdən proqressiv siyasi orqan olan Amsterdam şəhər şurasına tabe idi. 1961-ci ildən universitet dövlət himayəsinə keçir (Universiteit van Amsterdam). 1960-1970-ci illərdə universitetdə muxtariyyət almaq uçün tələbə nümayişləri keçirilmişdir.

Amsterdam Universitetində 2010-2011-ci tədris ilində yerli və Avropa İttifaqına daxil olan ölkələri təmsil edən tələbələrin təhsil haqqı 1672 avro, Avropa İttifaqına daxil olmayan ölkələri təmsil edən tələbələrin təhsil haqqı isə humanitar sahələr üzrə bakalavr pilləsində 9000, magistratura pilləsində isə 10500 avro, sosial elmlər, hüquq, iqtisadiyyat, pedaqoji sahələri üzrə bakalavr pilləsində 9000, magistratura pilləsində isə 12000 avro, tibb sahəsi üzrə bakalavr və magistratura pillələrində 20000 avro, stomatologiya sahəsi üzrə isə bakalavr və magistratura pillələrində 25000 avro təşkil edir. Təhsil haqqından əlavə, tələbə kitab və digər dərs ləvazimatları üçün ildə 200-800 avro xərcləyir. Amsterdamda bir ay qalmaq isə tələbəyə 850-1300 avroya başa gəlir. Yataqxanaların bir aylıq qiyməti 375-550 avro təşkil edir. Amsterdam Universitetində yataqxanada yer tapmaq çətin başa gəlir. Adətən, yataqxanalarda bir çox nömrələr tələbələrə icarəyə verilir. İctimai nəqliyyat üçün tələbəyə ayda 70-100 avro lazımdır. Amsterdamda ən ucuz və asan hərəkət vasitəsi velosiped hesab olunur və tələbələr bu nəqliyyat növünə daha çox üstünlük verir.

Amsterdam Universitetində tələbələrə müxtəlif miqdarda təqaüd növləri təklif olunur. Bunlar Hollandiya Təhsil, Mədəniyyət və Elm Nazirliyi, Avropa, Milli, həm də ölkələr üzrə təklif olunan təqaüdlərdir. 2009-2010-cu tədris ilində Amsterdam Universitetinin illik büdcəsi 600 milyon avro təşkil edib.

Amsterdam şəhəri Qərbi Avropanın mühüm mədəni və intellektual mərkəzlərindən biridir. Burada elmi-tədqiqatlar aparmaq üçün ideal şərait var. Amsterdam əcnəbilər üçün təhlükəsiz və qonaqpərvər şəhərdir. 735000 əhalisi olan şəhərin sakinləri çox mehriban və sülhsevərdir. Bu şəhər dünya üzrə məşhur musiqi,

opera, teatr və rəqs kollektivinin, rəssamların vətənidir. Amsterdam zəngin memarlıq abidələrinə, 150-dən çox su kanalına, qədim qotik küçələrə malik olan Avropa şəhəridir.

Niderland dövlət universitetlərində təhsil özəl universitetlərə nisbətən çox ucuzdur. Buna baxmayaraq, dövlət universitetlərində təhsil almaq daha şöhrətli və dəbdədir. Niderlandın dörd klassik ali təhsil ocaqlarından biri olan Amsterdam Universiteti Amsterdam şəhərinin mərkəzində yerləşir. Universitetin binaları qədim və müasir tikililərdən ibarətdir. Amsterdam Universiteti dünyanın bir çox ali məktəbləri ilə əməkdaşlıq edir və tələbə mübadiləsi aparır. Avropanın 200-ə qədər təhsil müəssisəsi ilə Socrates Erasmus mübadilə sazişləri həyata keçirir. Beynəlxalq proqramların əksəriyyəti magistratura səviyyəsində təşkil olunub. Ümumilikdə universitetdə 7 fakültə fəaliyyət göstərir və bu fakültələr çərçivəsində 59 bakalavr, 133 magistr, 10 doktorluq proqramı təklif olunur. Universitet dekanlar tərəfindən idarə olunur. Tədris və tədqiqatlar fakültənin müxtəlif müəssisə və institutlarında aparılır. Hər fakültənin operativ idarə olunması üçün mərkəzi xidmətlər şöbəsi mövcuddur. İqtisadiyyat və biznes fakültəsi 1922-ci ildə yaradılıb. Fakültə Amsterdam İqtisadiyyat və Amsterdam Biznes məktəblərindən, Biznes tədqiqatları, İqtisadiyyat və maliyyə, Kəmiyyət iqtisadiyyatı departamentlərindən, Amsterdam Biznes, İqtisadiyyat və Ekonometrika, Beynəlxalq İnkişaf, Tinbergen institutlarından ibarətdir.

Stomatologiya fakültəsi 1984-cü ildə Amsterdam Universiteti və Vrice Universitetinin stomatologiya fakültələrinin birləşdirilməsi nəticəsində yaradılıb. Bu məktəb stomatologiya sahəsi sferasında təhsil və tədris proqramlarına görə dünyada ön sıralardadır. Tibb fakültəsində tələbələr 6 il təhsil alırlar: 4 il əsas (baza), 2 il isə universitetdə və kənarda təcrübə dövrü. Fakültədə 50-yə yaxın departament (kardiologiya, ginekologiya, ortopediya, pediatriya, psixiatriya, plastik cərrahiyyə, radiologiya, şüa terapiyası, əczaçılıq və s.) fəaliyyət göstərir.

Amsterdam Universitetinin kitabxanası əsas və 70 köməkçi kitabxanadan ibarətdir. Hər fakültənin özünəməxsus kitabxanası fəaliyyət göstərir. Əsas kitabxana Amsterdam şəhərinin mərkəzində yerləşir və burada 4 milyon cild kitab, 70000 əlyazma, 500000 sənəd, 125000 xəritə və s. ibarətdir.

Amsterdam Universiteti muzeyində universitetin yarandığı andan bu günədək universitetə aid olan bütün əşyalar (professorların materialları, universitet binalarının şəkilləri, plakatlar, medalyonlar, avadanlıqlar, yazılar və s.) saxlanılır. Muzeyin kolleksiyası 50000 əşya, 25000 şəkildən ibarətdir.

Həmçinin universitetdə müxtəlif incəsənət əsərləri saxlanılan İncəsənət, Qədim Misir, Yaxın Şərq, Kipr, yunan, Etrus və Roma imperiyası mədəniyyətlərinə aid artefaktların qorunduğu Allard Pirson, XIX əsrdə yaradılmış və anadangəlmə inkişaf qüsurları nümunələri olan sümüklər, embrionlar saxlanılan Vrolik, eramızdan 3000 əvvələ aid yazı formaları, Misir və Mesopotaniya ieroqlifləri, papirus yazıları, mixi xətli mətnlər, daş lövhələr, yunan, latın mətnləri, runa yazıları, orta əsrlərə və humanizm dövrünə aid əlyazmalar, Efiopiya, Suriya, Ərəb, Fars,

Hind, Çin kalliqrafiya nümunələri və s., müxtəlif dövrlərdə hazırlanmış elektron hesablama maşınlarının nümayiş olunduğu kompyuter, təkhüceyrəli orqanizmlərdən başlayaraq həşərat, quş, balıq, heyvan və digər canlıların, təkamül nəticəsində növdəyişmə nümunələri və s. qorunduğu zoologiya muzeyləri vardır. Universitetdə 6126 nəfər işçi çalışır, onların 2796 nəfərini professor-müəllim, qalan hissəsini isə inzibati heyət təşkil edir. Professor-müəllim heyətinin 39%-i qadınlardır. Amsterdam Universitetinin tələbələrinin ümumi sayı 30825 nəfərdir.

Amsterdam Universiteti tələbə və müəllimlərə informasiya və mədəniyyət, idman və s. sahələr üzrə geniş imkanlar yaradır. Ali məktəbin ilhamverici beynəlxalq mühiti müəllim və tələbələrə optimal rejimdə öz qabiliyyətlərini inkişaf etdirmələri üçün hərtərəfli şərait yaradır. Yaradıcı və beynəlxalq atmosferə malik universitet şəhər mühiti, sosial aləmlə sıx təmasdadır və şəhərin ayrılmaz bir hissəsidir. Qədim Avropa mədəniyyəti və müasir dünya texnologiyalarını özündə cəmləşdirən Amsterdam Universiteti tələbələrə zəngin təcrübə bəxş etmək, bəşəriyyətə rifah və fayda gətirmək məqsədi ilə səylə fəaliyyət göstərir.

**Leyden Universiteti (Leiden University).** Bu universitet Niderlandın Leyden şəhərində yerləşir və ölkənin ən qədim ali təhsil ocaqlarından biridir.

Böyük Britaniyanın 2009-cu ildə apardığı dünya universitetlərinin reytinqinə əsasən, Leyden Universiteti 100 ən yaxşı ali məktəb arasında 60-cı yerdə olmuşdur. 2010-cu il üzrə dünyanın ən nüfuzlu universitetləri arasında Leyden Universiteti 124-cü, "QS World University Rankings"in açıqlamasına görə isə 82-ci yeri tutub. 1575-ci ilə qədər Hollandiyanın Şimalında universitet yox idi. Burada yeganə universitet Leuven şəhərində yerləşirdi, lakin onu ispanlar ələ keçirmişdi. Elmi Renessans dövründə ispanların hücumlarına qarşı müdafiəyə görə Leyden şəhərinə Şahzadə Villiam tərəfindən mükafat verilir. Həmin mükafat ilk holland universitetinin bu şəhərdə yaradılması olur. Bu zaman Leyden vətəndaşlarına universitet yaratmaq və müəyyən vergilərdən azad olunması haqda qərar qəbul olunur. Əvvəllər Müqəddəs Barbara kilsəsində yerləşən universitet 1581-ci ildə Ağ Rahibələr kilsəsinə köçürülür. 1616-cı ildə universitetin əvvəlki binasının dağıdılmasına baxmayaraq, bu ali məktəb hazırda həmin ərazidəki yeni binada yerləşir.

Yarım əsr ərzində universitetin filoloq və humanist Yustus Lipsius, ilahiyyətçilar Josef Skaliger, Fransiskus Gomarus və Yacobus Arminius, hüquqşünas Hugo Qrotius, filoloqlar Daniel Heinsius və Gerhard Yohann Vossius kimi alimləri olub. Filoloq, klassik Yacobus Gronovius, botanik və həkim Herman Burhaave, tənqidçi, filoloq Tiberius Hemsterhuis və filoloq, klassik David Ruhnkenin nüfuzu və təlimi sayəsində Leyden Universitetinin adı Avropanın nüfuzlu universitetləri arasında çəkilməyə başlanır və bu hal XVIII əsrin sonunadək davam edir.

XIX əsrin sonlarında Leyden Universiteti yenidən Avropanın aparıcı universitetlərindən biri olur. Dünyada ilk dəfə universitetin professoru Hayke Kamerlinq Onnes aşağı laboratoriya temperaturunda tam sıfırdan yalnız bir dərəcə

yuxarı temperatur - 273 dərəcə Selsi əldə edir. 1913-cü ildə Kamerlinq Onnes Nobel mükafatına layiq görülür. Sonradan Nobel mükafatı laureatları arasında universitetin professorları, fiziklər Hendrik Antoon Lourens, Piter Zeeman, Albert Eynşteyn, Paul Erenfest, həkim və fizioloq Villem Eynthoven, ərəbşünas və İslam dini üzrə ekspert Xristian Snuk Hurqronye və digərləri olmuşlar. 2005-ci ildə Leyden Universitetinin kitabxanalarının birində A.Eynşteynin təkatomlu ideal qazın kvant nəzəriyyəsinə aid əlyazması aşkar edilib.

2009-2010-cu tədris ilində Leyden Universitetinin illik gəlirləri 477800000 avro, illik xərcləri isə 462800000 avro idi. 2010-2011-ci tədris ilində Leyden Universitetində bakalavr pilləsində tələbələrin təhsil haqqı Niderland, İsveç, Surinam və Avropa Birliyi ölkələrini təmsil edən tələbələr üçün 1672 avro, Arxeologiya, Humanitar, İctimai elmlər fakültələrində 5120 avro, universitetin Haaqa Kollecində 9300 avro, digər əcnəbi tələbələrin təhsil haqqı isə 2300 avro, Dəqiq elmlər və Tibb fakültələrində 9300-9600 avro, Arxeologiya, Humanitar, İctimai elmlər fakültələrində 5120-5280 avrodur. Leyden Universitetinin Haaqa Kollecində tələbələr təhsil haqqından başqa, 1830 avro əlavə məbləğ ödəməlidir. Həmin tədris ilində magistratura pilləsində Niderland, İsveç, Surinam və Avropa Birliyi ölkələrini təmsil edən tələbələr üçün təhsil haqqı 1742 avro təşkil edir, əcnəbi tələbələr üçün isə fakültə və proqramdan asılı olaraq bu məbləğ 14200 (Arxeologiya, Humanitar, İctimai elmlər) - 19100 (Tibb) avro arasında dəyişir. Leyden Universitetində oxuyan tələbələrə Niderland dövləti və universitet tərəfindən müxtəlif məbləğdə təqaüdlər təklif olunur. Təqaüd almaq istəyən tələbələr ərizə ilə universitetə müraciət etməlidir. Leyden Qədim Reyn çayının sahilində, Haaqa şəhərindən 20 km cənubda və Amsterdam şəhərindən 40 km şimalda yerləşən qədim və gözəl şəhərdir. Şəhərin şimal-şərqində Kaaq gölləri vardır. 329000 nəfər sakini olan Leyden şəhərinin insanları çox mehriban və qonaqpərvərdir. Qədim şəhərin saysız hesabsız tarixi abidələri, muzey və qalereyaları (Morsport şəhər qapıları, Rapenbürx kanalı, Milli Etnologiya muzeyi, çoxmərtəbəli külək dəyirmanı, Molen De Valk muzeyi, "Hortus Botanicus" botanika bağı, qədim kilsələr və s.) buraya çoxlu sayda turist cəlb edir. Həmçinin Leyden elm və təhsil şəhəri kimi tanınır. Bu şəhərdə rəssam Rembrandt, hüquqşünas Huqo Qrotius, riyaziyyatçı Rene Dekart, kondensatoru kəşf etmiş fizik Piter van Müshenbruk, məşhur professor Kamerlinq-Onnes, dahi Eynşteyn yaşayıb və yaradıblar. Leyden şəhəri işığın sönməsi, elektrik kondensator, termodinamikanın molekulyar əsası, elektron nəzəriyyə, yüksək keçiricilik, Qalaktikanın strukturu və kometaların mənşəyi, elektrokardioqrafiya və s. kəşflərin vətənidir.

Bu şəhərdə Leyden universitetinin xüsusi kampusu yoxdur. Ali məktəbin binaları şəhərin müxtəlif hissələrindədir. Binaların əksəriyyəti çox qədimdir və müxtəlif memarlıq üslublarına aiddir, bəziləri isə müasir tikililərdir. Universitetdə 50-dən çox bakalavr və 100-dən çox magistr və doktorluq proqramları təklif edən 6 fakültə fəaliyyət göstərir. Universitetin Arxeologiya fakültəsi Niderlandda bu sahəyə aid yeganə fakültədir. Fakültə insanın yaranması, insan sümüyü tədqiqat-

ları, ekoloji, mədəni tədqiqatlar, arxeoloji irsin idarəolunması, tarixi arxeologiya, Şimal-Qərbi Avropa, Aralıq dənizi, Yaxın Şərq arxeologiyası, Mesoamerika və And mədəniyyəti, Karib dənizi və Amazoniya üzrə tədqiqatlar həyata keçirir.

Leyden Universitetinin kitabxana sisteminə müxtəlif binalarda yerləşən yeddi kitabxana daxildir. Universitet kitabxanlarının kolleksiyasına ümumilikdə 3 milyondan çox kitab, 16000 elektron jurnal, elektron kitabça, rəqəmsal mətn və qrafik material, əlyazma, qədim qravüra, şəkil, xəritə və s. daxildir. Kitabxananın Qərbi Əlyazma kolleksiyasına 2500 orta əsrlərə aid, 25000 müasir əlyazma, 300000 məktub və sənəd, Qərbi çap kolleksiyaya isə 1801-ci ilədək çap edilmiş, həmçinin 700 inkunabula (kitab çapı icadının ilk dövründə yığma hərflərlə çap olunmuş ilk kitab) və 1801-ci ildən sonrakı illərə təsadüf edən nadir kitablar aiddir. Bu kolleksiya 4 əsr müddətində alim və imkanlı şəxslərin universitetə vəsiyyət etdikləri materiallar (mülk) əsasında toplanıb.

Universitetin kitabxanasının Şərq kolleksiyası "Leqatum Varnerianum" ("Varnerin mirası") adlanır və 30000 əlyazmadan, arxeologiya, zərdüştlük və digər dövrlərə aid, ərəb, zulu (Cənubi Afrikada xalq) və s. dillərdə 200000 çap edilmiş kitabdan ibarətdir. Levinus Varner Hollandiyanın Konstantinopoldakı İstanbul səfiri olub və 100-dən çox Şərq əlyazmasını universitetə hədiyyə edib. Leyden Universiteti kitabxanasının yaranma tarixi 1575-ci ildə şahzadə Vilhelm Oranskinin universitetə Poliqlot İncilin nüsxəsini bağışladığı vaxta təsadüf edir. Universitetin idarəetmə orqanlarına İdarəçilər Şurası və İcraedici Şura aiddir. Hər bir fakültənin ayrılıqda dekanının sədrliyi ilə şurası mövcuddur. Universitetdə ümumilikdə 3926 nəfər işçi çalışır. Onların 1121 nəfərini professor-möəllimlər, 1093 nəfərini idarəetmə, qalanlarını isə inzibati heyət təşkil edir. Universitetdə ümumilikdə 18778 nəfər təhsil alır. Onların 12588 nəfərini bakalavr, 6190 nəfərini isə magistrant və doktorantlar təşkil edir.

Universitetdə tələbələrin yataqxanalarla təmin olunması məsələsi ilə universitetin mənzil idarəsi məşğul olur. İdarə yalnız bakalavriatda oxuyan tələbələrin deyil, magistrant və doktorantların da mənzillərdə yerləşdirilməsinə təminat verir. Mənzillərin ən yuxarı kirayə müddəti bir ildir. Bir ildən sonra tələbə qaldığı yeri yeni qəbul olunmuş tələbə üçün azad etməli və özünə yeni mənzil axtarmalıdır. Magistrantlar üçün bu müddət iki ilədək uzadıla bilər. Hər bir fakültədə ayrılıqda tələbələrə yaşayış yeri təklif edir. Mənzillərin daha ucuz başa gəlməsi üçün tələbələr növbəyə yazılmalıdır. Mənzil idarəsində əvvəlcədən növbəyə yazılmaq üçün 100 avro ödəmək lazımdır. Gözləmək üçün minimal müddət 2 ildir. Universitetin təklif etdiyi tək və bir neçə nəfərlik otaqlardan ibarət yataqxanalar Leyden şəhərinin mərkəzində yerləşən Herenqraxt 33-35 və Kaarsenmakersstraat 7-121, Oegstgeest rayonundakı Orancelaan 2, şəhər mərkəzi və Oegstgeest rayonu arasında yerləşən Ricnfront, əcnəbi tələbələrin məskunlaşdığı Huqo de Grootstrat 32, Horizon evidir. Bu yataqxanalarda otaqların qiyməti 300-700 avro arasında dəyişir. Həmçinin universitet tələbələrə mənzillərdən ibarət

Hooigracht Kloosterpoort, Smaragdlaan, Huqo de Grootstrat 32, Horizon Evi yataqxanaları təklif edir. Bu yataqxanalarda ayrıca mətbəxi, vanna otağı, balkonu olan birotaqlı mənzillər vardır. Belə mənzillərin qiyməti 530-820 avro təşkil edir. Tələbələr müstəqil surətdə də özlərinə mənzil tapa bilər. Xüsusi evlərdə qiymətlər otağın şəraitindən asılı olaraq 250-1000 avro arasında dəyişir. Leyden Universitetində hər bir tələbəyə ayrılıqda və şəxsi həyatında xüsusi diqqət ayrılır, onlara məsləhət, informasiya, tibb, idman, mədəni xidmətlər göstərilir. Leyden Universiteti Avropanın qədim ali təhsil ocağı olaraq hazırda da dünyaya yeni kəşflər və nailiyyətlər verir.

## BELÇİKADA TƏHSİL

Belçikada dövlət dünyəvi məktəb sistemi XIX əsrdə yaranmışdır. Burada dövlət məktəbləri ilə yanaşı, xüsusi (özəl) məktəblər də vardır. Onların bir çoxu katolik kilsəsinə məxsusdur. Katolik kilsəsi təhsil sahəsində hakim mövqe tutmaq uğrunda mübarizədə əhalinin etnik tərkibindəki fərqlərdən istifadə edir. Bu mübarizə bəzən kəskin siyasi xarakterli məktəb müharibəsi şəkli alır. 1914-cü ildə 6-14 yaşında uşaqların ümumi icbari təhsili haqqında qanun qəbul edilmişdir. 1969-cu ildə məktəbəqədər tərbiyə müəssisələrində 460 min uşaq var idi. 1971/72 dərs ilində dövlət ibtidai məktəblərində 1.023.670, dövlət orta məktəblərində 341.668, peşə məktəblərində və texniki məktəblərdə 429.094, pedaqoji məktəblərdə 24.605 şagird oxuyurdu, 21 ali məktəbdə (o cümlədən 5 universitet) 81.024 tələbə təhsil alırdı. Əsas kitabxanaları: Belçika milli kitabxanası, Brüssel, Gent, Lyej universitetlərinin kitabxanaları və s. Qədim incəsənət muzeyi, müasir insəsənət muzeyi, Mərkəzi Afrika kral muzeyi (Brüsseldə), Bələdiyyə rəssamlıq qalereyası və s. muzeylər var.

Belçika müstəqil dövlət olana qədər (1830) təhsil və elm uzun müddət məhdud miqyasda inkişaf etmişdi. Bu dövrdə birinci növbədə epidemiyalara qarşı mübarizə üçün tibbi tədqiqatlar aparılırdı. 1425-ci ildə Löven universitetinin əsası qoyuldu. 16-cı əsrdə elm və mədəniyyətin yüksəlişi Belçika ərazisində kapitalist münasibətlərinin yaranması ilə əlaqədar olmuşdur. 16 və 17-ci əsrin birinci yarısında A.Vezali anatomiyada yeni dövr açdı. 1830-cu ildə müstəqil Belçika dövləti yarandıqdan sonra və kapitalist istehsalının tələbatının təsiri ilə Belçikada elm surətli inkişaf yoluna qədəm qoydu. 1836-cı ildə Monsda Mədən İnstitutu təşkil edildi. 1849-cu ildə A.Dümon Belçikanın geoloji xəritəsini yaratmaq sahəsində işi başa çatdırdı. Metallurgiya müəssisələrinin genişləndirilməsi, sonralar isə Belçika müstəmləkəsi Konqonun təbii sərvətlərinin istismarı geologiyanın və mədən işlərinin inkişafına güclü təsir göstərirdi.

19-cu əsrin Belçika kimyaçılarından J.Stas bir sıra elementlərin atom kütlələrini müəyyənləşdirdi. Biologiyada sitoloji və embrioloji istiqamətlərin əsası qoyuldu. İmmunologiya sahəsində J.Borde (1919), tənəffüsün tənzimi prosesləri sahəsində K.Heymans (1938) Nobel mükafatına layiq görülüblər. Ş. de La Vale Pussen sadə ədədlərin paylanmasını tədqiq edərək ədədlər nəzəriyyəsində mühüm nəticə aldı (1896). İlk Belçika astrofiziki Ş.Fyeve Belçikada birinci dəfə astronomiyaya aid tədqiqatlarda spektroskopiyadan istifadə etdi. 1871-ci ildə elektrotexnik Z. Qramm əsrin ixtiralarından sayılan

ilk dinamomaşını düzəltdi. 20-ci əsrin 30-cu illərində O. Pikar stratostad vasitəsilə ilk dəfə stratosferi tədqiq etdi. 1952-ci ildə Mol şəhərində nüvə enerjisini tətbiq edən mərkəz, 50-ci illərin sonunda isə elm sferasında nazirlik və digər dövlət orqanları təşkil edildi.

Belçikada elmi-tədqiqat müəssisələrinə rəhbərlik edən fondlar, sənayedə və kənd təsərrüfatında elmi tədqiqatlra yardım edən institut və s. fəaliyyət göstərir.

Brüssel Universitetinin təsis tarixi Belçikanın özünün tarixi ilə sıx bağlıdır. 1830-cu ildə doqquz əyalət Niderland Krallığından ayrılır və Belçika dövləti yaranır. Bu zaman ölkədə üç universitet: Ghent, Iiege, Leuven universitetləri var idi. Həm də Brüsselin Belçikanın paytaxtı elan edilməsinə baxmayaraq, orada heç bir universitet yox idi. 1831-ci ildə bir qrup adam (rəssamlar, alimlər və sadəcə təhsilli şəxslər) universitet təsis etmək qərarına gəlir. Bununla da 1834-cü ildə Brüssel Universitetinin tikintisinə başlanır.

Universitetin ilkin fəaliyyatində tədris ancaq fransız dilində aparılırdı. 1934-cü ildə universitetdə niderland dilində tədris başlanmışdır. 1970-ci ildə niderlanddilli fakültə müstəqil universitetə çevrilir və hər iki universitet əməkdaşlıq proqramını həyata keçirir.

Bu gün bu tədris ocağı nüfuzlu və dövlət hakimiyyət orqanları tərəfindən subsidiyalaşdırılan özəl universitetdir. Burada 21.000-dən çox tələbə təhsil alır. Universitetdə yeddi fakültə, ixtisaslaşdırılmış institutlar, bakalavriatdan doktoranturayadək elmi dərəcələrin artırılması üzrə proqramlar var. Brüsseldə – Avropa Birliyinin paytaxt şəhərində yerləşməklə universitet öz fəaliyyətini ölkənin cənub istiqamətində genişləndirməyi davam edir. Artıq bir neçə park, tibb institutunun bazasında klinika və ən müasir avadanlıqla təchiz edilmiş kitabxana vardır.

Universitetdə təhsil çoxpilləlidir, elmi dərəcə almaq üçün universitet təhsilinin hər dövrü və ya tsikli rol oynayır.

Universitet təhsilinin ilk iki kursunda ümumhumanitar hazırlıq və ya ümumtexniki hazırlıq proqramı tədris olunur. Bundan sonra tələbələr doktorluq diplomu (başqa sistemdə bakalavr diplomuna müvafiqdir) alırlar. Növbəti üç kurs universitet proqramlarından biri üzrə ixtisaslaşmaya həsr edilir və "lisenziat" - Licenciate (başqa sistemdə - magistr) diplomu verilməsi ilə başa çatır.

Belçikada təhsilə fransız, flamand və alman icmaları cavabdehlik daşıyır. Təhsil 6 yaşdan 16 yaşadək bütün uşaqlar üçün və axşam məktəblərində 18 yaşadək icbari və pulsuzdur. Savadsızlıq praktik olaraq ləğv edilmişdir. Belçika uşaqlarının yarısı özəl məktəblərə gedir, onların böyük hissəsi katolik kilsəsinə mənsubdur. Özəl məktəblərin hamısı dövlətdən subsidiya alır.

Məktəb təliminin ilk pilləsi altıillik ibtidai məktəbdir. İlk dörd ili icbari, orta təhsil isə bir çox hallarda hər biri iki il olmaqla üç pilləyə bölünür. Birinci və ikinci pillədə şagirdlərin yarıya qədəri ümum pedaqoji və bədii təhsil alır

və yaxud texniki və ya sənət hazırlığı keçirlər, qalanları isə ümumi tədris kursu keçir. Sonuncu qrupdan şagirdlərin yarıya qədəri orta məktəbin yuxarı pilləsində davam edir və bu pilləni qurtaranlara universitetə daxil olmaq imkanı verilir. Belçikada 8 universitet vardır və ali təhsil köhnə ənənələrə malikdir. İlk ali təhsil ocağı olan Luven Katolik Universiteti 1425-ci ildə Papa V Martinin təşəbbüsü və Brabant hersoqu IV Janın göstərişi ilə yaradılmışdır. 1517-ci ildə Rotterdamlı Erazm Luven şəhərində üç dil (ivrit, latın, yunan) məktəbini təsis edir və bunun əsasında Parisdə fransız kolleci yaradılmışdır.

Qədim dövlət universitetləri – Lyej və Mons universitetlərində tədris fransız dilində, Gent və Antverpen universitetlərində niderland dilində aparılır. Belçikada ən qədim və ən nüfuzlu Luven Katolik Universiteti və özəl təminatlı Belçika Azad Universiteti 1970-ci ilə qədər ikidilli idi, lakin tələbələr arasında tez-tez münaqişələr baş verdiyindən onların hər biri müstəqil niderlanddilli və fransızdilli şöbələrə bölündülər. Luven universitetinin fransız şöbəsi sərhəddə yerləşən Ottinyi şəhəri yaxınlığındakı yeni universitet şəhərciyinə köçdü. 1990-cı illərdə ölkə kollec və universitetlərində 120 minə yaxın tələbə oxuyurdu.

Ölkə ali məktəbləri dövlət və qeyri-dövlət müəssisələrindən ibarətdir. Dövlət təhsil ocaqları hökumət büdcələrindən maliyyələşir. Ayrı-ayrı şəxslər və təşkilatlar tərəfindən təsis edilir və onlardan bir çoxunun təşkilində və maliyyələşməsində rol oynayan Roma Katolik Kilsəsinin himayəsi altında yaradılmışdır. Bəzi müstəqil tədris müəssisələri və özəl katolik universitetləri icma hökumətlərinin maliyyə dəstəyindən faydalanır.

Universitetin təhsil müddəti aşağısı dörd il davam edir, bəzi ixtisaslara yiyələnmək üçün universitetdə təhsil müddəti 10-12 il davam edir. Universitetlərdə təhsil sistemi çoxpilləlidir, elmi dərəcə almaq üçün universitet təhsilinin hər bir tsikli bu dərəcələrin alınması ilə başa çatır:

- "fəlsəfə doktoru" dərəcəsi – iki-üç illik baza təhsilindən sonra olur ki, bu birinci tsikl adlandırılır;
- "lisenziat" dərəcəsi, bakalavr dərəcəsinə müvafiqdir, onu ixtisas üzrə iki və üç il əlavə təhsildən və elmi iş yazdıqdan sonra almaq olar. Bu dərəcə bəzi fənlər üzrə uzun sürən təhsildən sonra alına bilər: üç il - mühəndis, farmasept, hüquq sahəsində mütəxəssis və ya dörd ildən sonra - təbabət, cərrah və akuşer doktor,
- "lisenziat" dərəcəsi aldıqdan sonra bir ildən tez olmayaraq, eləcə də dissertasiya yazdıqdan və müdafiə etdikdən sonra "doktor" dərəcəsi almaq olar, bu isə magistr dərəcəsinə müvafiqdir;
- bunlardan sonra ali dərəcə də var, hansı ki, bu dərəcə doktor dərəcəsindən iki il keçəndən sonra verilir.

Belçika ali məktəblərində böyük sayda əcnəbi təhsil alır, lakin onların sayı ali məktəbə əvvəlki il daxil olmuş belçikalı tələbələrin sayının 2 faizindən çox olmamalıdır. Bu ali məktəbdə təhsil almaq istəyən, lakin yuxarıda

göstərilən 2 faizə düşməyən əcnəbilər, əgər əlavə qeydiyyat haqqı (təhsilin rəsmi dəyərinin azı 50 faizə qədərini) ödəyərsə, məktəbə qəbul oluna bilərlər. Əcnəbi abituriyentlərə bu universitetlərə qəbul üçün vaxtından 10 ay əvvəl sorğu vermək tövsiyə olunur.

Belçika ali məktəblərinə qəbul olunmaq üçün əcnəbilər sənədlər paketi hazırlamalıdır, buraya daxildir: pasport; tələbə qismində Belçika ali məktəblərindən birinə qeydiyyat icazəsi; maddi təminatın təsdiqi; bu və digər təqaüdün ayrıldığı barədə sertifikat və ya başqa ölkədə Belçika səfirliyi və ya konsulluğu tərəfindən imza və möhürlə təsdiqlənmiş sənəd, yəni Belçikada yaşayışın və təhsilin xərci tələbənin valideynləri və ya sponsorları tərəfindən ödəniləcək; tələbənin Belçikaya gəldiyi ölkənin polis orqanı tərəfindən verilmiş "ləyaqətli davranış" haqqında şəhadətnamə; müvafiq ölkədəki Belçika səfirliyi və ya konsulluğu tərəfindən təsdiqlənmiş tibbi şəhadətnamə.

Əcnəbi tələbələr Belçikada həm öz hesablarına, həm də müxtəlif beynəlxalq təşkilatların (YUNESKO, NATO, Avropa Birliyi, Avropa Kosmik Araşdırmalar Təşkilatı, BMT Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı) verdikləri təqaüdlər hesabına oxuya bilər. Həm də müvafiq dövlət və Belçikanın fransız və ya flamand icması hökuməti arasında mədəniyyət, təhsil və elm sahəsində əməkdaşlıq haqqında saziş və ya proqram çərçivəsində təhsil almaq mümkündür.

Belçikada ibtidai təhsil müddəti 6 ildir. Erkən yaşlardan uşaqlarda səliqəlilik, ətraf mühitə hörmət, öz hərəkətlərinə görə cavabdehlik, kollektivdə işləmək kimi keyfiyyətlər inkişaf etdirilir. İbtidai məktəbdə müəllim hər bir uşağa fərdi yanaşma tapır. Lap balaca şagirdlər üçün kompyuter sinifləri, idman zalları, hovuzlar və xüsusi olaraq təchiz edilmiş oyun zalları var. Hər bir məktəbdə icbari olaraq psixoloqlar qrupu işləyir. Uşaqlarda yaradıcı qabiliyyətin və istedadın inkişaf etdirilməsinə böyük diqqət yetirilir, bunun üçün məktəblərdə aktyor sənətkarlığından tutmuş biçmə və əl işlərinədək çoxlu dərnəklər vardır.

Orta təhsil 4 ildən 6 ilə qədərdir, hər biri 2 il olmaqla üç pilləni birləşdirir, ilk dörd il icbaridir. Birinci və ikinci pillənin şagirdləri ümumi tədris kursunu və ya ixtisaslaşdırılmış proqramı (bədii təhsil, peşələr, musiqi, rəqslər, texniki hazırlıq) öyrənə bilər. Yalnız orta məktəbin yuxarı pilləsini bitirən şagirdlər universitetə qəbul olunmaq hüququ əldə etmiş olur.

Belçikada ali təhsil özünün yüksək keyfiyyətli tədrisi ilə tanınır. Ali təhsil məsələləri Flamand və ya Fransız icması Təhsil Nazirliyi tərəfindən idarə olunur. Tədris prosesi və müasir elmi inkişafın mühüm istiqamətləri üzrə fundamental və tətbiqi araşdırmaların aparılması arasında bağlılıq Belçika ali təhsil sistemi üçün ənənəvidir. Universitet büdcəsinin 40 faizə qədəri elmi tədqiqatlara ayrılır.

Belçika universitetləri və ali təhsil müəssisələri 2004-2005-ci ildən sonra unifikasiya edilmiş tədris sistemini tətbiq edir, bu sistem beynəlxalq bakalavr-

magistr sisteminə uyğundur. Belçika ali təhsil sistemi iki tipə: universitet və qeyri-universitet tipinə ayrılır. Belçikanın özünün yeddi universiteti var. Bunlar Lyec Dövlət Universiteti, Monse-Eko universiteti, Gent Dövlət universiteti, Brüssel Azad (fransızdilli və əlahiddə olaraq flamanddilli) universiteti, Luven Katolik (fransızdilli və əlahiddə olaraq flamanddilli) Universitetidir. Eləcə də bir neçə bəzi xarici universitetlərin filialları (Brüssel və Antverpendə) və Belçikanın universitetlərinə bərabər olan bir neçə ali məktəbi vardır. Krallıq Hərbi Məktəbi də universitet təhsil müəssisəsinə aid edilir.

Dövlət ali məktəblərin maliyyələşdirilməsi flamand və ya fransız icmasının hökumətləri tərəfindən həyata keçirilir. Ayrı-ayrı şəxslər və ya təşkilatlar tərəfindən təsis edilmiş ali məktəblər (qeyri-dövlət məktəbləri) "müstəqil", "azad" və ya "özəl" adlar daşıyırlar. Onların bir çoxu Belçikada bütün səviyyələrdə təhsilin təşkilində və maliyyələşdirilməsində sanballı rol oynamış olan Roma Katolik Kilsəsi tərəfindən yaradılmışdır.

Dövlət universitetləri ali humanitar və təbiətşünaslıq üzrə təhsili təmsil edir. Özəl universitetlər spesifik peşə istiqamətinə və dini istiqamətlərə (katolik universitetləri) malikdir.

Müəyyən dövlət vəzifələrində işləmək və ictimai məna daşıyan ixtisaslar üzrə işləmək (vəkil, həkim və s.) üçün mövcud qanunvericiliyə uyğun universitet diplomunun olması zəruridir. Universitetlərdə tədris proqramı özündə aşağıdakı pillələri birləşdirir:

- baza, "Kandidat" Candidature (bakalavr diplomuna müvafiqdir), təhsil müddəti 2 ildir. Tələbələr humanitar elmləri öyrənir və ümumtexniki hazırlıq keçirlər;

- əsas, "lisenziat" – Licenziate (magistr diplomuna müvafiqdir). Bu dərəcəni iki və ya üç il əlavə ixtisas təhsilindən və elmi iş yazdıqdan sonra almaq olar. Bəzi fənlər üzrə bu dərəcə daha uzun sürən təhsildən sonra alına bilər;

- göstərilənlərdən sonra, "doktor" – Docteur (mütəxəssis). Bu dərəcə "lisenziat" dərəcəsi aldıqdan sonra, bir ildən tez olmayaraq verilə bilər, həm də dissertasiya yazılması və müdafiə edilməsi tələb olunur;

- ali təhsil dərəcəsi, doktor dərəcəsi alındıqdan iki il sonra keçdikdə verilə bilər.

Universitetdə minimal tədris müddəti 4 ildir, bəzi ixtisasları almaq üçün tədris ili 10-12 il davam edir. Ali təhsilin qeyri-universitet sektoru "uzun" və ya "qısa" tədris tsikli ilə peşə təhsili verən müəssisələr şəbəkəsindən ibarətdir.

Qısa tipli ali təhsil 3-4 il davam edən bir təhsil tsiklindən ibarətdir. Nəzəriyyənin tətbiqi və praktiki məşğələlər laboratoriyalarda, emalatxanalarda aparılır və bir çox hallarda artıq birinci ildən mühasib, tibb bacısı, məktəb müəllimi, katib, mexanik, kitabxanaçı, fotoqraf kimi ixtisaslar üzrə tədris təşkil olunur.

Hazırlığın uzun tədris tsikli universitet istiqamətli kursların və ixtisaslaşma qismində peşə hazırlığı kurslarının uzlaşdırılmasını nəzərdə tutur. Belə

bir tsikl beş il davam edir, burada iki il ərzində ümumi kurslar öyrənilir və sonrasında ali təhsilli mütəxəssis hazırlanmış olur. Birinci pillə başa vurulduqdan sonra Gradue diplomu verilir. İkinci pillə başa vurulduqdan sonra Licencie diplomu verilir. Üçüncü pillə institut və universitetlərin ikinci pillə məzunları üçün eynidir, mühəndis dərəcəsi diplomu (Ingeneur diplome) verilir.

Tədris ili sentyabrdan iyunadək davam edir. Universitetlərdə akademik il iki semestrdən sentyabr/yanvar və fevral/iyun semestrlərindən ibarətdir.

Belçikanın universitet və ali məktəblərində qəbula məhdudiyyət yoxdur, yalnız zəruri sənədləri təqdim etmək lazımdır. Lakin daha sanballı ali məktəblərə qəbul olmaq üçün ya müsabiqəli qəbul imtahanları vermək, ya da testdən keçmək lazımdır.

İxtisasdan və təhsilin pilləsindən asılı olaraq, ali məktəb tərəfindən bir tələbə üçün bir tədris ilində tələb olunan xərc 150-dən 200 min Belçika frankına qədərdir (təqribən 4-5,5 min dollar). Bu vəsaitləri ali məktəblər dil icmal hökumətlərindən, kilsədən, ayrı-ayrı şəxslərdən və təşkilatlardan subsidiya qismində alır. Ali məktəbdə təhsil almağa yazılarkən abituriyent yalnız "qeydiyyat haqqını" ödəməlidir, bu isə bir akademik il üçün 15600-26300 Belçika frankı (420-720 dollar) edir. Yazılma hər tədris ili üçün ayrılıqda aparılır. Bəzi ixtisaslardan olan tələbələr laboratoriya işlərinin də haqqını ödəyir. Hər il hər bir tələbə dərsliklər əldə etməyə azı 14 min Belçika frankı (400 dollar) sərf edir.

**Löven Katolik Universiteti (Catholique Universite de Louvain).**Löven Katolik Universiteti Belçikanın Flandriya siyasi-coğrafi regionunda, Löven şəhərində yerləşir. Universitet ölkənin ən böyük və qədim ali məktəbidir. Kortreyk şəhərində də ali məktəbin kampusu vardır. 2009-cu ildə aparılan dünya universitetlərinin reytinqinə əsasən, Löven Katolik Universiteti 100 ən yaxşı ali məktəb arasında 65-ci yerdə olub. 2010-cu ildə dünyanın ən nüfuzlu universitetləri arasında aparılan araşdırmaya görə 119-cu və 86-cı yerdə olub. Universitetin tarixi üç mərhələyə bölünür: Qədim universitet (1425-1797), Dövlət universiteti (1816-1835), Katolik universiteti (1835-1968). Qədim universitet: XV əsrdə Löven şəhərinin mülki rəhbərliyi Brabanta hersoqu IV İoannın dəstəyi ilə universitet yaradılması haqqında Roma katolik kilsəsində Müqəddəs Prestola müraciət edir. 1445-ci il dekabrın 9-da Papa V Martin universitet yaradılması haqqında qərar verir və yeni yaradılacaq universitet yerli dini iyerarxiyalardan ayrı olmalı idi. Yarandığı gündən ləğv edilənədək universitetdə dərslər latın dilində tədris edilirdi. Ali məktəb ilk dövrlərdə Paris, Köln və Vyana universitetlərinə oxşar olaraq fəaliyyət göstərir və bir çox nüfuzlu alimlərin səyi nəticəsində XVI əsrdə sürətlə inkişaf edirdi.

1797-ci il oktyabrın 25-də Dil Departamentinin (Belçikada mövcud olan Birinci Fransız imperiyasının departementi olub, departamentin ərazisindən axan çayın şərəfinə Dil adlandırılıb) fərmanına uyğun olaraq Universitetin fəaliyyəti dayandırılır. Universitetin kitabları və digər əşyaları müsadirə

ediləırək, Brüsseldəki Mərkəzi Məktəbə köçürülür. Həmin dövrdə qüvvədə olan qanun əsasında bu məktəb qədim Löven Universitetinin rəsmi varisi təyin edilir, lakin məktəb 1802-ci ildə bağlanır.

Dövlət universitetiləri 1817-ci ildə Birləşmiş Niderland Krallığının kralı I Vilhelm tərəfindən yaradılıb. 1830-cu ildə Belçika Niderland Krallığından ayrılaraq müstəqillik əldə edir. 1834-cü ildə Belçikanın Mexlin (fransızca Malin) şəhərində Mexlin Katolik Universiteti yaradılır. Bir il sonra, dekabrın 1-də bu Universitet Löven şəhərinə köçürülür və Mexlin Katolik Universiteti isə Löven Katolik Universiteti adlandırılır. Löven Katolik Universiteti 1835-ci ildən fəaliyyət göstərir.

Universitet yarandığı gündən dərslər fransız dilində keçilir və Belçika, holland və digər rəsmi dillərdə mühazirələrə 1930-cu ildən icazə verilib. 1962-ci ildə konstitusiya islahatlarına görə, universitetin fransız və holland dilli bölmələri muxtariyyat qazanır. Millətçilər universitetin bölünməsini tələb edir, hollandlılar fransız dilli müəllimlərə edilən güzəşt və imtiyazlara etiraz edirlər. Fransız dilli sosial-coğrafiyaçının televiziya çıxışında Löven şəhərinin inzibati statusunun dəyişdirilməsi təklifi gərginliyi daha da artırır. Siyasətçilər və tələbələr etiraz aksiyaları keçirir, nümayişlər 60-cı illərdən davam edir və yalnız 1968-ci ildə Belçika hökuməti tərəfindən dayandırılır. 1968-ci ildə universitetin bölünməsi mübahisəyə son qoyur. Universitetin holland dilli hissəsi Löven şəhərində qalır və Löven Katolik Universiteti kimi fəaliyyət göstərir, fransız dilli hissəsi isə Brüsseldən 20 km cənub-şərqdə yerləşən Lövendən Nev bələdiyyə şəhərində Qrinfild kampusuna köçürülür və de Löven Katolik Universiteti adlandırılır.

1972-ci ildə Löven şəhərindəki Löven Katolik Universiteti "Löven tədqiqatları və inkişafı" adlı layihə həyata keçirir. Bu layihə nəticəsində universitetin tədqiqatları üçün bir sıra şirkətlər milyonlarla avro vəsait ayırır. 1999-cu ildə Avropanın 29 ölkəsinin iştirakı ilə Bolonya deklarasiyası imzalanır. Deklarasiya nəticəsində Avropada ali təhsil islahatları aparılır, beynəlxalq əməkdaşlıq gücləndirilir, Löven Katolik Universitetində təhsil bakalavr və magistratura pillərinə bölünür. Bu iki universitetlər arasında hal-hazırda sıx əməkdaşlıq və tələbə mübadiləsi aparılır, geniş əlaqələr qurulur. Universitetin illik büdcəsi 646 milyon avro təşkil edir. Həmin məbləğin 272 milyonu dövlət vəsaiti, 259 milyonu elmi tədqiqatlar, 108 milyonu şəxsi, 7 milyonu isə digər vəsaitlər hesabına əldə olunmuş gəlirlərdir. Universitet xəstəxanasının illik büdcəsi isə cəmi 650 milyon avrodur.

Universitetin bakalavr pilləsində yerli və Avropa İqtisadi Məkanına (1993-cü ildə yaradılmış 19 ölkədən ibarət Qərbi Avropada geniş iqtisadi birlik) daxil olan ölkələrin tələbələri üçün təhsil haqqı 567 avrodur. Magistratura pilləsində təhsil haqqı 1400-8750 avro arasında dəyişir. Bir çox ixtisaslar üzrə əcnəbi tələbələrin təhsil haqqı bakalavr və magistratura pilləsində 5600 avrodur. Erasmus Mundus proqramı çərçivəsində Avropa İqtisadi Məkanına daxil

olan ölkələrin tələbələri üçün magistratura pilləsində təhsil haqqı 1000, daxil olmayan ölkələrin tələbələri üçün isə 7000 avrodur. Nanoelmlər və nanotexnologiya üzrə Erasmus Mundus proqramı çərçivəsində Avropa İqtisadi Məkanı ölkələri üçün magistratura pilləsində təhsil haqqı 4000, əcnəbilər üçün isə 8000 avrodur. Mühəndislik, kimya texnologiyaları üzrə isə Erasmus Mundus proqramı çərçivəsində Avropa İqtisadi Məkanı ölkələri üçün 3200, əcnəbilər üçün isə 8000 avrodur. Tələbə təhsil haqqından əlavə, qeydiyyat, nəqliyyat, yataqxana, qidalanma, tibbi sığorta və s. xərcləri də nəzərə almalıdır.

Löven şəhəri 5 bələdiyyə vilayətindən (Löven, Heverli, Kassel-Lo, Vilsel və Uicqmaal) ibarət aqlomerasiyadır və Brüsseldən 30 km şərqdə yerləşir. Şəhərdə 90000 nəfərdən çox əhali yaşayır. "Tələbə şəhəri" adlandırılan Lövenin əhalisinin 46000-ni tələbələr təşkil edir. Şəhərin mərkəzində tələbə abidəsi qoyulub. Heykəl bir əlində kitab tutub, digər əli ilə qədəhdən başına elm tökür. Löven şəhərində Löven Katolik Universitetinin 421 binası vardır. Məşhur qotik üslubuna aid Citi Hollun yanında yerləşən orta əsrlərə aid Klos Holl tikilisi universitetin əsas inzibati binasıdır. Həmçinin Belçikanın Kortreyk şəhərinin cənubunda, Hoog Kortreyk kvartalında universitetin kampusu yerləşir.

Löven Katolik Universitetində aşağıdakı kafedra, fakültə və institutlar fəaliyyət göstərir: Humanitar və ictimai elmlər qrupu: İlahiyyət, Kilsə hüququ, Hüquq, Biznes və iqtisadiyyat, İctimai elmlər, İncəsənət. Psixologiya və pedaqogika elmləri fakültələrindən: Din, Mədəniyyət və Cəmiyyət Sənədləşməsi, Fəlsəfə və Löven Xarici Dillər institutlarından ibarətdir.

Dəqiq elmlər: mühəndislik və texnologiya, Mühəndislik, Bioelmlər mühəndisliyi, Memarlıq şəhərsalma və regional planlaşdırma, Biologiya, Biosistemlər, Mülki tikinti, Kimya, Kimya texnologiyası, Kompyuter elmləri, Yer və ətraf mühit haqqında elmlər, Elektrotexnika, Metallurgiya və materialşünaslıq, Mikro və molekulyar sistemlər, Fizika və astronomiya, Riyaziyyat, Maşınqayırma fakültələrindən, Texnologiya və Etika Mərkəzindən ibarətdir.

Biotibbi elmlər: Tibb Əczaçılıq, Kineziologiya və reabilitasiya elmləri fakültələrindən, Kəskin tibbi elmlər, Biotibbi kineziologiya, Eksperimental tibb, Ürək-damar xəstəlikləri, Cərrahiyyə, İnsan kineziologiyası, Səhiyyə, Tibbi diaqnostika elmləri, İnsan genetikası, Mikrobiologiya və immunologiya, Molekulyar və hüceyrə biologiyası, Əzələ-sümük, Neyroelmlər, Onkologiya, Patofiziologiya, Reabilitasiya elmləri, Stomatologiya, Patalogiya və çənə-üz cərrahiyyəsi, Qadın və uşaq departamentlərindən, Gövdə Hüceyrəsi İnstitutundan: İnfeksion xəstəliklər, Fiziki fəallıq və Sağlamlıq mərkəzlərindən ibarətdir. Universitetdə həmçinin Avropa Etika, Statistika, Aqrar Tarix, Qayğı Tədqiqatları və Məsləhətləşmə mərkəzləri, Əmək və Cəmiyyət Elmi-Tədqiqat və Energetika institutları vardır.

Universitet özəl olmasına baxmayaraq, onun tədris proqramları və diplomları bütövlükdə Flandriya dövləti tərəfindən akkreditasiya olunub.

Universitetə TEMPUS və Erasmus Mundus tələbə mübadiləsi proqramları çərçivəsində əcnəbi tələbələr qəbul olunur. Ali məktəbdə dərslər holland dilində keçilməsinə baxmayaraq, ingilis dilində də proqramlar təklif olunur. Bakalavr pilləsində təhsil 3 ildir və bu mərhələdə dərslər, əsasən, holland dilində keçilir. Yalnız Fəlsəfə İnstitutunun və İlahiyyət fakültəsinin bakalavr pilləsində ancaq ingilis dilində proqramlar vardır. Diplomdan sonrakı təhsildə isə əcnəbilər üçün geniş imkanlar yaradılıb və tədris holland dili ilə yanaşı, ingilis dilində aparılır.

Diplomdan sonrakı təhsil, bir çox ölkələrdə olduğu kimi, iki pillədən ibarətdir - magistratura (1 və ya 2 il) və doktorantura (PhD). Hər iki pilləni bitirərkən dissertasiya müdafiə edilir. Bu ali məktəbdə ingilis dilində 70-dən çox beynəlxalq proqram (ixtisas) təklif olunur. Universitetdə tələbələrin müstəqil işinə, tədqiqatlarına xüsusi diqqət verilir. Tədris metodikası iki variantda təqdim edilir: klassik mühazirə-monoloq və dərsliklərlə iş. Universitetin doktorantları üçün 3 məktəb vardır: Dəqiq Elmlər, Mühəndislik və Texnologiya, Biotibbi Elmlər, Humanitar Elmlər və İncəsənət. Məktəbin vəzifəsi milli və beynəlxalq səviyyədə fəlsəfə doktorlarının təhsilini, onların bütün sahələrdə akademik karyera əldə etmələrini təmin etməkdir.

Universitetin hazırkı kitabxanasının yaranma tarixi 1834-cü ilə təsadüf edilir. Naamsestraat binasındakı kolleksiya XVII əsrdən toplanmağa başlanıb. Qədim universitetə məxsus arxivlər hazırda Belçika Milli Arxivinin əsas hissələrindən biridir. 1914-cü ildə I Dünya müharibəsi dövründə alman ordusu tərəfindən Löven şəhərinin zox hissəsi və universitet yandırılıb. Universitet kitabxanasından 300 000 kitabdan çoxu yoxa çıxır. Kitabxana dağıldıqdan sonra 1921-1928-ci illərdə Ladeuzepleində amerikalı memar Uitni Uorren tərəfindən yeni kitabxana binası tikilir. Həmin bina hazırda universitetin ən böyük tikililərindən biridir. Dünyanın bir zox ölkələrindən olan insanlar universitetin kitabxanasına edilən vandalizm aktından bərk hiddətlənirlər və onların verdiyi ianələr nəticəsində kitabxana kolleksiyası bərpa olunur. Lakin 1940-cı ildə alman ordusunun Löven şəhərinə hücumu nəticəsində kitabxana binası yandırılır, 900000 əlyazma və kitab məhv edilir. Müharibədən sonra isə bina Uorrenin dizaynına uyğun olaraq bərpa edilir və 1968-ci ildə kitabxana 4 milyondan çox kitaba malik olur. Həmin il universitetin holland və fransız dilli hissələrə ayrılmasından sonra kitabxana kolleksiyası da iki yerə bölünür. Ümumilikdə kitabxana kolleksiyasına 4,3 milyon cild kitab, 14500 jurnal, 7492 tam mətinli elektron jurnal daxildir. Təkcə Mərkəzi kitabxananın kolleksiyası 1300000-dən çox materialdan ibarətdir, İlahiyyət kitabxanası isə bu sahə üzrə Avropanın ən zəngin kitabxanalarından biridir.

Universitetin müəllim və tələbələri vəzifələrinin icrasında akademik sərbəstliyi, eyni zamanda məsuliyyətliliyi ilə seçilir. Universitetin müəllimləri arasında gənc kadrlara geniş yer ayrılıb. Ali məktəbin əməkdaşlarının ümumi sayı 9560 nəfərdir. Onların 1463 nəfəri böyük akademik, 5136 nəfəri kiçik akade-

mik, 3098 nəfəri isə inzibati heyətdir. Universitet xəstəxanasında 8500-dən çox işçi çalışır. Universitetdə ümumilikdə 36923 tələbə təhsil alır, onlardan 5078 nəfəri əcnəbi tələbələrdir. Tələbələrin 2518 nəfəri Avropa İttifaqı birliyinə daxil olan ölkələrdən, 2560 nəfəri isə dünyanın digər ölkələrindən olan gənclərdir.

Löven şəhərində tələbələrə uyğun qiymətə geniş spektrdə universitet və özəl yataqxanalar təklif olunur. Mənzil idarəsi tələbələrin otaqlarla təmin olunmasında yardım edir. Tələbələrin Löven şəhərinə gəlməmişdən öncə yataqxana ilə bağlı universitetə müraciət etmələri daha məqsədəuyğundur. Yaşayış yeri tapmaq üçün ən çətin vaxt sentyabr ayıdır. Universitet yataqxanaları 20-dən başlayaraq 400-ə qədər otağa malikdir. Mətbəx və hamam otaqları ümumidir. Universitet Erasmus Mundus proqramı çərçivəsində təhsil alan əcnəbi tələbələrin məskunlaşmaları üçün 1200 yataqxana otağının 200-nü ehtiyat kimi ayırıb. Mübadilə proqramı çərçivəsində təhsil alan tələbələr universitet yataqxanalarında qala bilməzlər, onlar özəl mənzillərdə məskunlaşdırılır. Universitet yataqxanalarında ailəli tələbələr üçün də otaqlar vardır. Yataqxanalarda mebel, avadanlıqlarla təchiz edilmiş ümumi mətbəx və vanna otağından ibarət bir otağın (başqa tələbələrlə bir yerdə qalmaq şərti ilə) aylıq qiyməti 260-300 avrodur.

Adətən, tələbələr boş vaxtlarını dostları ilə birlikdə Löven şəhərini gəzməklə, şəhərin kafelərində söhbət etməklə keçirir. Tələbələrin toplaşdıqları ən məşhur məkan Qədim Bazar Meydanıdır. Tələbələr kinoteatrda vaxtlarını keçirməyi də çox sevirlər. Şəhərin böyük kinoteatrı 8 kino zalından ibarətdir və burada ən yeni filmlər nümayiş olunur. Şəhərdə video-studiyalar da fəaliyyət göstərir. İyul-avqust aylarında Löven şəhəri konsert meydanına çevrilir. Latın-Amerikası klassik musiqi festivalları təşkil edilir. Tələbələr ekskursiyalara getməyi, səyahət etməyi də çox sevirlər. Paris, Amsterdam və Avropanın başqa şəhərləri Lövendən çox da uzaqda deyil, gənclər bu şəhərlərə asanlıqla gedə bilər. Universitet İsa peyğəmbərin anası Müqəddəs Mariyanın şərəfinə fəaliyyət göstərir və bu, onun emblemində də təsvir edilib. Ali məktəbin devizi isə "Müdriklik taxtı" sözləridir. Hər il fevralın 2-də universitetdə Müqəddəs Mariyaya həsr olunmuş təntənəli mərasim keçirilir. Həmin gün universitet fəxri doktor mükafatı təqdim edir. Bu ali məktəb katolik universitet olduğu üçün elm və din arasındakı əlaqələrlə məşğul olur, kilsə dünya arasında dialoq yaratmağa çalışır, eləcə də bəşəriyyətin elmi və mədəni inkişafında fəal iştirak edir.

# İSVEÇDƏ TƏHSİL

Ərazisi 449964 kv km, şimaldan cənuba 1600 km uzanan İsveç böyüklüyünə görə Avropanın dördüncü ölkəsidir. Ərazi baxımından ölkə 25 əyalətə, 24 inzibati rayona, eləcə də 286 məktəb rayonuna bölünmüşdür. Ölkənin tikinti ilə olan ərazisi cəmi 7% təşkil edir. Ölkə əhalisi 8819400 nəfərdir, əhali sıxlığı 1 kv km-ə 25 nəfər düşür. Paytaxt Stokholmda 703600 nəfər yaşayır. İsveç, monarxiya quruluşuna, parlamentə və son dərəcə inkişaf etmiş özünü idarəyə malik demokratik hüquqi dövlətdir.

İlk məktəblər 13-cu əsrdə yaranmışdır. XIX əsrin ortalarınadək məktəb kilsəyə tabe idi. 1936-cı ildə icbari 7 illik, 1962-ci ildə icbari 9 illik məktəbi bitirənlər orta təhsilini gimnaziyalarda davam etdirə bilərdi (təhsil müddəti ali məktəbə daxil olmaq istəyənlər üçün 3-4 il, texniki peşə hazırlığı üzrə 2 ildir). Ali məktəblərdə 101,8 min tələbə oxuyurdu (1976/77). Böyük ali məktəbləri: Stokholm (1877), Umeo (1963), Lincyopinq (1970) universitetləri, Stokholmda Ali Texniki Məktəb, Hxteborqda Politexnik İnstitut və s. Böyük kitabxanaları: Stokholmda Kral kitabxanası (1 milyon kitab; V. İ. Lenin bu kitabxananın oxucusu olmuşdur), Upsala Universitetinin kitabxanası (2 milyondan çox kitab), Stokholm şəhər kitabxanası (1,4 milyondan çox kitab) və s. Muzeyləri: Stokholmda Milli Muzey, Muasir İncəsənət Muzeyi, Etnoqrafiya Muzeyi, Tarix Muzeyi və s., açıq səma altında qədim Kənd Tikililəri və Əşyaları Muzeyi, Höteborqda Rəssamlıq Muzeyi və s. İsveçdə təbiətşünaslığın inkişafı Upsalada və Lundda universitetlərin və astronomiya rəsədxanalarının yaradılması ilə bağlıdır. 18-ci əsrdə İsveçdə elm Fransa və Böyük Britaniyanın maarifçilik ideyalarının təsiri altında idi. Upsalada Kral Elmi Cəmiyyəti (1710) və Stokholmda Kral Elmlər Akademiyası təsis olundu (1739). İsveç Elmlər Akademiyasının banilərindən biri M.Trivald Skandinaviyada ilk buxar maşınını quraşdırdı, mədən işinə dair əsər yazdı. P.V.Varcentin (Peterburq Elmlər Akademiyasının xarici fəxri üzvü, 1760) Stokholm rəsədxanasının əsasını qoydu (1753); A.Selsi yüzdərəcəlik temperatur şkalasını təklif etdi, P.Artedi balıqların stematikasını işləyib hazırladı, E.Axarnus texnologiyanın əsaslarını yaratdı, T.U.Berqman vəsfi analizi təkmilləşdirdi, K.Şeyele manqan, xlor, qliserin, kalium permanqanat, bir sıra turşu və müxtəlif birləşmə aldı. 17-18-ci əsrlərdə metallurgiya və metal emalı sənayesinin texnologiyası, hərbi gəmiqayırma, soyuq və odlu silahların hazırlanması sahəsində də mühüm işlər görüldü. 19-cu əsrdə elmi işlər əsasən ali məktəblərdə aparılırdı. Kimya və mineralogiya İsveç elmində xüsusi yer tuturdu. Y.Y.Bertselius və

onun şagirdləri nadir torpaq elementləri erbium, terbium, ittrium və lantani, L.F.Nilson skandiumu, İ.A.Arfvedson litiumu kəşf etdi. A.Nobel dinamiti (1867) ixtira etdi və Nobel mükafatını təsis etdi. S.A.Arrenius elektrolit dissosiasiyası nəzəriyyəsini irəli sürdü. A.C.Anqstrem Günəş spektrindəki dalğaların uzunluğunu ölçdü. C.R.Rilberq fizikada universal sabiti (Ribberq sabitini) elmə daxil etdi. C.Holmqren diferensial tənliklər sahəsində mühüm nəticələr aldi. M.Q.Mittaq-Leffler (SSRİ Elmlər Akademiyasının xarici fəxri üzvü, 1926) kompleks dəyişənli funksiyalar nəzəriyyəsinin əsasını qoydu (20-ci əsrdə həmin tədqiqatlar daha da genişləndirildi). İ.A.Gyulden (Peterburq Elmlər Akademiyasının xarici müxbür üzvü, 1882) kometlərin və kiçik planetlərin həyəcanlanması nəzəriyyəsini inkişaf etdirdi və onun riyazi modelini işləyib hazırladı. Q.Kildebrandson (Peterburq Elmlər Akademiyasının xarici müxbür üzvü, 1907) atmosferin ümumi dövranını öyrəndi, N.A.E.Nordenşeldin (Peterburq Elmlər Akademiyasının xarici müxbür üzvü, 1879) tədqiqatları Antraktidanın öyrənilməsində mühüm rol oynadı.

XIX əsrdə biologiya elmində alqoloqların əsərləri xüsusi yer tuturdu: K.A.Aqard yosunların sistematikasını verdi, E.M.Fris (Peterburq Elmlər Akademiyasının xarici müxbür üzvü, 1850) mikrologiyanın əsasını qoydu, K.Y.Hartman Skandivaniyanın florasına dair kitab yazdı, S.Loven (Peterburq Elmlər Akademiyasının xarici müxbür üzvü, 1860) İsveç göllərinin, Baltik dənizinin heyvanlar aləmini təsvir etdi. F.Xolmqren İsveçdə ilk fiziologiya laboratoriyasının əsasını qoydu, daltonizmi aşkar etmək üçün üsul işləyib hazırladı. A.Qulstrand (Nobel mükafatı, 1911) gözdə işığın sınması nəzəriyyəsini yenidən nəzərdən keçirdi. Q.Sander mexanoterapiyanın əsasını yaratdı. 19-cu əsrin I yarısında Hetakanal İsveçin nəhəng hidrotexniki qurğusu sayılırdı. İ.Erikson gəmi və dönmə konstruktoru kimi tanınmışdı.

XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərində sənayenin bir çox sahələrində dünya şöhrətli mühüm ixtiralar edildi. Q.E.Paş təhlükəsiz kibriti kəşf etdi (1844), Y.E.Lundsterm kibritin texnologiyasını işləyib hazırladı, K.D.Ekman yüksək keyfiyyətli sulfit sellulozunun istehsal üsulunu yaratdı. L.M.Erikson ilk telefon firmasının əsasını qoydu. Y.A.Brinell metalların bərkliyini təyin etmək üçün üsul verdi, N.Q.Dalen (Nobel mükafatı, 1912) asetilin mayaklarını avtomatik yandırmaq və söndürmək üçün sistem yaratdı. 1910-cu ildə o dövrün ən nəhəng SES-i Trolhettan işə salındı. 20-ci əsrdə ehtimal nəzəriyyəsi və riyazi statistika, diferensial operatorlar nəzəriyyəsi, ulduz astronomiyası, fiziki kimya (T.Svedberq, Nobel mükafatı, 1926); A.Tiselius (Nobel mükafatı, 1948), fermentlərin və vitaminlərin biokimyəvi tədqiqi (X.K.Eyler-Helpin, Nobel mükafatı, 1929 və X.Teorell, Nobel mükafatı, 1942), plazma fizikası və astrofizika (H. Alfven, Nobel mükafatı, 1970), bərk cisim fizikası (Q.İzinq), geofizika (A.K.Anqstrem), okeanologiya, geologiya, zoologiya, sitologiya, embriologiya, paleontologiya və botanikaya dair mühüm işlər görüldü. Tibb və fiziologiyaya aid tədqiqatlar Stokholmdakı

Karolina İnstitutunda aparılırdı. Y.Forsell xərçəngin rentgenodiaqnostikası və rentgenoterapiyasını, R.Qranit (Nobel mükafatı, 1967) görmənin neyrofizioloji proseslərini, U.Eyler (Nobel mükafatı, 1970) sinir impuslarının ötürülməsində noradrenalinin rolunu tədqiq etdi. Kənd təssərrüfatı sahəsində də mühüm nəticələr alındı.

20-ci əsrdə elmi-tədqiqat və təcrübə-konstruktorluq işləri sürətlə inkişaf etdi. Elektrotexnikaya dair nəzəri və tətbiqi tədqiqatlar aparıldı, teleqraf və telefon texnikasının prinsipləri işlənib hazırlandı. İkinci dünya müharibəsindən sonra aviasiya, kosmik tədqiqatlar və gəmiqayırma sahəsində işlər genişləndi. Metalşünaslıq və metallurgiya sahəsində də mühüm işlər görüldü. 1975-ci ildə SSRİ Elmlər Akademiyası ilə İsveç Kral Elmlər Akademiyası və Mühəndislik Elmlər Akademiyası arasında elmi əməkdaşlıq haqqında növbəti saziş bağlanmışdır.

İsveç MDB ölkələri vətəndaşlarının daha çox və tez-tez oxumağa yollandıqları ölkələr sırasına daxil deyil. Ona görə ki, İsveç dili ingilis və alman dili qədər geniş yayılmayıb. Lakin bunlar isveçlilərin ləyaqətlərini azaltmır: onlarda təhsil pulsuzdur, yaşayış haqqını da dövlət ödəyə bilir, bundan başqa tələbələr və sair vətəndaşlar bir çox güzəştlərdən faydalana bilir. Kapitalist sosializmi və ya sosialist kapitalizmi adlandırılan bu ölkə yaxşı ölkədir. Onu təhsil məkanları ölkələrinin siyahısına daxil etməyə dəyər.

Əlbəttə, öz vətəndaşlarının rifahı qayğısına qalan ölkə hər hansı başqa bir ölkə kimi, hamını ucdantutma və elə-belə özünə yaxın buraxmır. Əgər siz bu ölkədə, universitetdə, doktoranturada, kurslarda və ya daha başqa bir müəssisədə təhsil almaq qərarına gəlmişsinizsə, sizə bir neçə şərti yerinə yetirmək və bütün bürokratik əngəlləri aşmağa, bütöv bir ili sənədləri hazırlamağa sərf etmək lazım gələcəkdir. Lakin əvvəlcə harada oxumaq və hansı ixtisasa yiyələnməyi seçmək lazımdır.

İsveçlilərin əksəriyyəti ingilis dilini bilir. İngilis dilini məktəblərdə isveç dili ilə bərabər öyrənirlər. Həm də yaxşı öyrənirlər, çünki dünya səyahətinə yollanan və ya xarici tərəfdaşlarla işləyən isveçli onsuz ötüşə bilməz.

Odur ki, əcnəbi üçün İsveçdə ingilis dili bəs edir və əksər İsveç kolleclərində, universitetlərində ingilis dili kursları vardır (əsasən qısamüddətli, bir həftədən semestrədək). İsveç İnstitutuna (İsveç və xaricdə İsveç təhsili haqqında informasiya yayan qurum) və ya İnternetə sorğu verməklə onların yerini öyrənmək olar.

Əgər siz İsveçdə bir neçə ay, il və daha uzun müddətə qalmaq fikrindəsinizsə, sizin planlarınızda İsveç diplomu almaqdırsa, orada qalmaq və yaşamaq fikriniz varsa, onda İsveç dilini öyrənmək lazımdır.

Altı İsveç universitetində (Göteborg, Linköping, Lund, Stockholm, Umem, Uppsala) əcnəbi tələbələr illik hazırlıq kurslarında İsveç dilini öyrənmək üçün pulsuz oxuya bilər. Bundan sonra tələbə test imtahanı verir və universitetin özünə daxil olur. İsveç dili üzrə testi (əgər siz onu artıq bilirsinizsə) evdə

və ya İsveç səfirliyində də verə bilərsiniz. Qeyd edək ki, İsveç İnstitutu İsveç dilinin yay kurslarında oxumaq üçün Rusiyadan və Baltikyanı ölkələrdən gələn tələbələrə təqaüd verir. Həm də sadəcə olaraq, İsveç dili və mədəniyyətini sevənlər də həvəsləndirilir. Ərizələr hər il martın 30-dək qəbul olunur. Beləliklə, hansı dildə oxumağı və harada oxumağı seçmək sizin qərarınızdan asılıdır.

İsveçdə yeddi universitet, iqtisad, təbabət, texnologiyalar üzrə təhsil təklif edən bir neçə ixtisaslaşmış institut var. Bundan başqa, rəssamlıq, təbabət, pedaqoji, idman və s. yönümlü universitet kollecləri bütün ölkə boyu səpələnmişdir. İnstitutlar da var, məsələn, Stokholmda Musiqi Təhsili Universitet Kolleci, Yohanelund İlahiyyət İnstitutu və s. Çox böyük Stokholm İqtisad Məktəbi hökumətin dəstəyi ilə özəl tədris müəssisəsi kimi işləyir.

Tədris ili iki semestrdən ibarətdir: payız (avqustun sonundan yanvarın ortasınadək) və yaz (yanvarın ortalarından iyunun əvvəlinədək). Hər semestrin sonunda tələbələr zaçot verirlər. İl ərzində 40 zaçot vermək lazımdır. Kursun davamiyyəti ixtisasdan və sizin məqsədlərinizdən asılıdır. Müxtəlif kurslar üzrə peşə kursları seçmək olar. Onları universitet kollecləri təklif edir. Bu kurslara iş təcrübəsi olanları qəbul edirlər. Proqram üç semestr vaxt aparır: iki semestr oxumaq və bir semestr praktika. Bu kurslar oxumağa çoxlu vaxt sərf etmək istəməyən, lakin eyni zamanda yüksək ixtisas dərəcəsində iş almağa ümid edənlər üçündür. Yox, əgər sizin məqsədiniz ali təhsil diplomu və ya alimlik dərəcəsi almaqdırsa, daha çox oxumaq lazımdır. Diplom almaq üçün azı 2 il oxumaq və 80 zaçot vermək lazımdır.

Bakalavr dərəcəsi üç il oxuduqdan (120 zaçot), magistr dərəcəsi daha dörd il oxuduqdan (imtahanlara görə 160 zaçot və dissertasiya) sonra verilir. Bəzi ixtisaslar, məsələn, təbabət, hüquq, pedaqogika, incəsənət və s. üzrə peşə diplomlarının verilməsi ilə başa çatır. Kurs bir ildən beş il yarımadək davam edə bilər.

İsveçin bütün universitetlərində və bəzi institutlarında diplomdan sonrakı kurslar var (bizdəki doktorantura). İsveç doktoranturasına daxil olmaq üçün, bizdəki qaydada, ali təhsil diplomuna malik olmaq və öz elmi rəhbərindən və ya daxil olduğunuz fakültənin professorundan zəmanət almaq lazımdır. Bundan başqa, qəbul komissiyasını əmin etmək lazımdır ki, siz elmi fəaliyyətlə məşğul olmaq niyyətindəsiniz, buna meyil, həvəs və qabiliyyətiniz var.

Doktor dərəcəsində təhsil dörd il çəkir. Fakültələrin əksəriyyəti yenidən lisenziat dərəcəsini tətbiq etmişdir. Bu dərəcə doktor dərəcəsinin alternatividir, lakin doktor dərəcəsi ilə müqayisədə xeyli az zəhmət tələb olunur.

1995-ci ilə qədər İsveç ali məktəblərinə qəbul olunmaq əcnəbilər üçün ümumi idi. İndi hər bir universitetin öz qaydaları və tələbləri var. Ona görə də görülməli olan ilk iş ali məktəbi seçmək və oraya məktub-sorğu göndərməkdir (bunu yaşadığın ölkədə İsveç səfirliyi vasitəsilə də etmək olar). Cavab məktubu ilə sizə anket göndəriləcək, onu doldurmaq lazımdır, eləcə də İsveç ali məktəbinə qəbul edilməyiniz üçün zəruri olan sənədlər siyahısı göndərilə-

cəkdir. Yəni orta təhsil haqqında attestatın surəti, sizin ali məktəbdən akademik arayış və ya diplomun surəti (diplomdan sonrakı kurslara daxil olanlar üçün), ödəniş qabiliyyətinizin təsdiqi (bankdan kağız və ya təqaüdün ayrıldığı barədə arayış) olur. İsveçdə təhsil pulsuz olsa da, bu ölkədə yaşayış üçün ayda orta hesabla 6.000 kron (1.000 dollar) tələb olunur.

İsveç orta təhsil sistemi Azərbaycan təhsil sistemindən fərqlidir, isveçlilər məktəbdə 20 ilə qədər oxuyurlar. Ona görə də İsveç universitetinə qəbul olunmaq qərarına gəlmiş azərbaycanlı, ali məktəbin minimum iki kursunu bitirməlidir və ya iki il iş stajı olmalıdır (hər bir universitetdə qəbul qaydasının öz konkret tələbləri ola bilər).

Artıq yuxarıda deyildiyi kimi, əcnəbi abituriyentdən ingilis dilini yaxşı bilmək tələb olunur. Qeyd edək ki, İsveçdə universitet kursları kombinə edilmişdir və bəzi fənlər ingiliscə tədris olunur. Bundan başqa, tələbələrə tez-tez ingilis dilində dərsliklər tövsiyə edilir. Tələbələri bir neçə meyar: məktəb (ali məktəb) qiymətləri, qabiliyyət testlərinin nəticələri (qəbul zamanı bütün abituriyentlər bu testdən keçir, əcnəbilər ondan azad oluna bilər), zəmanətlər, iş təcrübəsi və s. əsasında seçirlər.

İdeal variant, İsveçdə sizin hər hansı bir tanış professor və ya akademik çevrələrdən tanışımızın olmasıdır. O, birincisi, qayğıların bir qismini öz üzərinə götürməklə, qəbul prosedurunu xeyli asanlaşdıra bilər, bundan başqa, sizə təqaüd ayrılmasına vəsatət verə bilər.

Təqaüdü İsveç İnstitutu verir. Təqaüd üçün ərizələr dekabrın 1-dək qəbul olunur. Bu təqaüdlər ilk öncə dilçi tələbələr, doktorantlar və tədqiqatçılar üçün nəzərdə tutulmuşdur. Lakin bütün arzu edənlər ərizə verə bilər. Təqaüd bir qayda olaraq, bir illiyə verilir.

Tələbələrə qrantları və təqaüdləri özünün ali təhsil agentliyi vasitəsilə İsveç hökuməti də ayıra bilər.

Əgər siz ali məktəbdən müsbət cavab almısınızsa və İsveçdə yaşamağa pul tapmısınızsa, viza üçün müraciət edə bilərsiniz. Vizadan başqa, əlavə olaraq ölkədə yaşamağa icazə almağınız da lazımdır. Bu icazə bütün təhsil müddətinə verilir. Yaşamağa icazəniz yoxdursa, sizi, sadəcə, ölkəyə buraxmaya bilərlər.

İcazə almaq üçün sənədlər səfirliyə təqdim edilməlidir:

- İsveç ali məktəbinə qəbul olunduğunuz haqda məktub;
- ödəniş qabiliyyətinizin təsdiqi və ya təqaüd ayrılması haqqında sənəd.

Yaşamağa icazə haqqında əlavə informasiyanı İsveç İmmiqrasiya Bürosundan almaq mümkündür.

Bütün universitetlərin tələbə yataqxanası var. Onlar tələbə birliklərinə məxsusdur. Onların əksəriyyəti universitetlərin yanında və ya yaxınlıqdakı şəhərətrafı qəsəbədə yerləşir. Yataqxanada yaşayış haqqı ayda təqribən 2.000 İsveç kronu təşkil edir və təhsil aldığınız yerdən asılıdır. Otaq və ya mənzil kirayələməkdən ötrü siz təsdiq etməlisiniz ki, artıq universitetdə oxuyursunuz və ya qəbul edilmisiniz. Bu halda ucuz mənzil tapmağa ümid etmək olar.

Tələbələr yalnız yayda hansısa bir yerdə işləyib, çalışıb pul qazana bilər. Lakin universitetdə, tədqiqat laboratoriyalarında həmişə iş tapmaq olur.

1842-ci ilin məktəb islahatı uşaqların bir çoxuna məktəbdə ibtidai təhsil almaq imkanı vermişdir və şagirdlərə məktəbdə minimal bilik əldə etmək imkanı yaratmışdır. Bu ilk öncə yoxsulluq səbəbindən uzun müddət oxuya bilməyən, həm də təhsil sisteminin təklif etdiyi tam həcmdə bilikləri əldə etməyə yetərsiz qabiliyyəti olan uşaqlara aid idi. İxtisar edilmiş plan şagirdləri başqa siniflərdə yerləşdirməyi nəzərdə tutmurdu. İlk zamandan İsveç məktəbində öyrənmə çətinliyi olan şagirdlərə aşağı bilikli tələb irəli sürülməsindən başqa hər hansı digər dəstək yox idi. “Bu həm istedadlı uşaqlara, həm də sinifdəki digərlərinə yardım edə bilərdi” arqumentindən istifadə etməklə, zəif və istedadlı uşaqları ayrı- ayrı siniflərə yığmaq zərurəti doğurmuşdu.

1887-ci ilin ibtidai təhsil haqqında qanununda yoxsul və əqli zəif şagirdlər arasında fərq qoyulurdu, 1990-cı ilin tədris planından “minimal plan” xaric edildi. Beləliklə, qeyri-istedadlı uşaqların problemlərinə diqqət verilirdi. Böyük şəhərlərdə ictimaiyyətin təşəbbüsü ilə köməkçi siniflər meydana çıxdı: “Əqli cəhətdən zəif olmayan, lakin psixi inkşafının ləngiməsi üzündən adi məktəb proqramını mənimsəyə bilməyən uşaqlar üçün köməkçi siniflərdə münasib təlim təşkil edilməlidir...”. Köməkçi siniflərin təşkili məsələsi məktəb rayonları tərəfindən həll edilir, yerli məktəb hakimiyyətləri isə tədris planını müəyyən edirdilər. Yalnız 1942-ci ildə köməkçi siniflər haqqında qərar çıxdı. Davranış pozuntuları olan şagirdlər üçün xüsusi siniflər mövcud idi, bu siniflər adi məktəb qaydalarını pozan və maneçilik törədən şagirdlərdən ibarət idi. İlk xüsusi sinif 1930-cu ildə Upsalada yaradılmışdı.

Məktəbdə diferensiallaşma 1950-ci illərdə inkişaf etməyə başladı. Şagirdlər təkcə ibtidai və orta məktəblərdə deyil, həm də ibtidai məktəblər daxilində bölüşdürülürdü. İbtidai məktəblər üçün 1955-ci ilin dövlət tədris planında ilk dəfə xüsusi təhsil qanunlaşdırıldı. Tədris planında təkcə köməkçi siniflərdən deyil, həm də oxu çətinlikləri olan şagirdlər üçün siniflər, xüsusi siniflər, zəif eşidən uşaqlar üçün siniflər, hərəkət aktivliyi pozulmuş uşaqlar üçün siniflər və s. təşkil edilirdi. Xüsusi təhsildə maksimum homogen qruplardan ibarət xüsusi siniflərin yaradılmasına aydın tendensiya müəyyən edilirdi. Əqli inkişafdan geri qalan uşaqlar üçün 1944-cü ildə icbari məktəb təliminin tətbiq edilməsi ona gətirib çıxardı ki, köməkçi siniflər xüsusi məktəblərə çevrildilər.

O dövrdə xüsusi pedaqogika təlimlərində məqsəd həm şagirdi, həm də ümumtəhsil sistemini yuxarıda sözügedən ünsürlərdən ayırmaq, yəni şagirdin ümumtəhsil məktəbində digər şagirdlərlə normal oxumasına imkan yaratmaqdan ötrü düzgün müəyyənləşdirilməsi idi. Bu məqsədlə təsnifat və seçim metodları işlənib hazırlanmışdı. Yetərincə inkişaf etmiş xüsusi təhsil meydana gəldi. Xüsusilə iri şəhərlərdə xüsusi siniflərin sayı sürətlə çoxaldı. Bəzi yerlərdə onların sayı adi siniflərin sayının 15%-nə çatırdı. Lakin bu fəaliyyətin düzgünlüyünə ehtimadsızlıq da artmağa başladı. Tənqidçilər hesab edirdilər

ki, məktəb şagirdlər arasında fərqlərin qorunub saxlanmasına və ya hətta güclənməsinə rəvac verir.

Əsas məktəbin ayrılması və 1962-ci ildə onun ilk tədris planının təsdiqlənməsi ilə bağlı olaraq xüsusi təhsilə münasibət dəyişdi. Onun həm xüsusi siniflərdə, həm də əlahiddə xüsusi təlim yolu ilə həyata keçirilməsinə icazə verildi. Bu kimi xüsusi təlimin ən geniş yayılmış forması "klinik təlim" deyilən forma oldu. Bu forma siniflərdə adi təlimlə yanaşı, çətinliyi olan şagirdlərə sərbəst proqramlar üzrə "klinik müəllimlərlə" işləmək imkanı verirdi. Proqramlar çox vaxt müxtəlif məktəb fənləri ilə bağlı olurdu. Nitq pozuntuları, oxu, yazı çətinliyi, sosial və emosional pozuntuları və s. olan şagirdlər üçün kliniki bölmə xüsusi məktəblərin nəzdində yaradılırdı. Xüsusi təhsildə məqsəd şagirdlər arasında fərqləri azaltmaq idi. Bu məqsədə nail olmaq üçün vasitə normallaşdırma (elə etmək lazımdır ki, əlil uşaq "normal" mühitdən mümkün qədər az fərqlənən məktəb mühitində oxusun) və kompensasiya (klinikada və sinifdə sistematik təlim) deyilən metod idi. Kompensator yanaşma diqqəti qabiliyyətlərin diaqnostikası üzərinə keçirdi, eyni zamanda həm diaqnostik materiala, həm də funksiyaların məşqi üçün materiallara yüksək tələbat yarandı. Lakin kompensator yanaşmaya qarşı tənqid genişləndi. Bu yanaşma təcrid edilmiş funksiyalara yönəlmiş yanaşma kimi qiymətləndirilirdi. 1960-cı illərin ortalarında ağır sosial və emosional pozuntuları olan şagirdlər üçün günü uzadılmış məktəblər tətbiq edildi, çünki adi məktəb bu şagirdlərə kömək üçün müvafiq vasitələrə malik deyildi. Bu iş forması ibtidai və orta təhsil pillələrinin şagirdləri üçün nəzərdə tutulmuşdu. Günü uzadılmış məktəbə yerləşdirilmiş şagirdlər, bir qayda olaraq, adi məktəb təliminin öhdəsindən gələ bilmirdilər. Günü uzadılmış məktəb ciddi emosional pozuntuları olan şagirdləri üçün əvvəlki kimi aktual olaraq qalır, lakin belə bir məktəbə "davamiyyət müvəqqətidir" deyə qiymətləndirilir. 1969-cu ildə əsas məktəb yeni tədris planı əldə etdi. 1962-ci ilin tədris planı ilə müqayisədə yeni tədris planında şagirdə xüsusi diqqət yetirilməsinin zəruriliyi xeyli gücləndirildi. Şagirdin ehtiyaclarından çıxış edərək pedaqoji işi yeniləşdirməyə və ya inkişaf etdirməyə canlanma qeyd olunurdu. Çətinliyi olan şagirdlərin təliminin başlıca prinsipi ondan ibarətdir ki, onlar imkan daxilində məktəblərdə oxusunlar. Fərdi köməyə tələbat şagirdin vaxtının çox hissəsini oxuduğu sinfin fəaliyyəti ilə əlaqələndirilmiş əlavə və dəstəkləyici təlimlə təmin edir. Əlahiddə xüsusi təlim adi siniflərin pedaqoqlarının və xüsusi pedaqoqların işlərinin razılaşdırılmasının zəruriliyini vurğulamaqdan ötrü xüsusi təlim adlandırılmağa başladı. Məktəb bütün uşaqlara siniflərdə oxumaq imkanı verməli idi. Beləliklə, inteqrasiya edilmiş məktəb prinsipi təsbit olundu. Normallaşdırma inteqrasiya və variativlik prinsiplərindən isitifadə etməklə məktəb emosional və təhsil aspektlərini də birləşdirməklə uşağın şəxsiyyətinin hərtərəfli inkişaf etdirilməsi məqsədinə nail olmağa can atmalıdır. 1969-cu ilin tədris planına uyğun olaraq xüsusi siniflərə az önəm verilirdi. Xüsusi təlim adi qruplarda

həyata keçirilməli idi, çətinlikləri və funksional pozuntuları olan şagirdlər adi şagirdlərlə inteqrasiya edilirdi.

1950-ci illərin ortalarından və 60-cı illərdəki dövrdə xüsusi təlim sürətlə inkişaf edirdi, çünki ona dövlət tərəfindən maliyyələşdirilmə öz həllini tapırdı. Lakin xüsusi təlimin qiymətləndirilməsi gözlənilən nəticələri vermədi. Qurulmuş xüsusi təhsil sistemi tənqidə məruz qoyuldu. Çünki bu təhsil böyük məsrəflərə baxmayaraq, inkişaf problemləri olan şagirdlər üçün yetərli dərəcədə qənaətbəxş mühit yarada bilməmişdi. Xüsusi çətinlikləri olan uşaqlar üçün görülən tədbirlər və təlim də daxil olmaqla bu məsələlərlə bağlı işlərin təhlili üçün "Məktəbdə daxili iş" tədqiqatının aparılması qərara alındı. Tədqiqat 1970-1974-cü illərdə aparıldı. Tədqiqat xüsusi təlimdə dəyişikliklər aparmağı tövsiyə etdi. Sosial-ekoloji yanaşma 1962-ci ilin tədris planı ilə müəyyənləşdirilmiş şəxsiyyətə istiqamətlənən texnoloji yanaşmanı əvəz etməli idi. Nəzərdə tutulurdu ki, 1960-cı illərdə şagirdə, eyni zamanda məktəbə və ictimai sistemə diqqət olmadığı üçün tədris açıq-aşkar yetərsiz olmuşdur. Tədqiqatda qeyd olunurdu ki, "məktəbdə çətinliyi olan uşaqlar" anlayışı hansısa dərəcədə "təlimdə çətinlikləri olan uşaqlar" anlayışı ilə əvəz edilə bilər. Bir çox məsələlərlə yanaşı, bir işçi komandası tərəfindən başçılıq edilən tədris bölməsinin yaradılması (bir neçə sinifdən ibarət) təklif olunurdu. Beləliklə, şagirdə aid problemlərin əksəriyyəti tədris bölməsində həll edilməli idi. Çox çətin uşaqların kiçik qrupu üçün tədris bölməsindən kənarda daimi qruplar yaratmaq imkanı verilirdi.

Stokholmda 1909-cu ildə Per Aron Boqr əsasən karların təlimi ilə məşğul olan Manilla məktəbini və ya karlar və korlar üçün institut təsis etdi. 1979-cu ildə İsveçdə korlar üçün ilk məktəb açıldı. Hazırda görmə qabiliyyətini itirmiş olan şagirdlər məsləhətçilərdən yardım almaqla adi məktəblərdə oxuyurlar.

Mövcud vəziyyətin yaxşılaşdırılması üzrə digər tədbirlər arasında 1989-cu ildə qanunvericiliyə daxil edilmiş şəxslər qrupunun genişləndirilməsi haqqında məsələnin həlli üçün pozuntuları olan şəxslər üzrə komitənin yaradılmasını qeyd etmək lazımdır. Komitənin işinin nəticələri funksional pozuntuları olan şəxslərə yardım və dəstək 1993-cü il qanununa əsaslanır. Qanun əqli geriliyi, yaşlı vəziyyətdə beynin zədələnməsindən sonra xəstəlikləri olan şəxslər və yol verilən yaş çərçivəsindən kənara çıxan digər fiziki və psixi pozuntuları olan şəxslərin xüsusi dəstək görməyə və onlara xüsusi xidmətlərin göstərilməsi haqqında müddəaları ehtiva edir. Bu qanunun tətbiqi insana normal həyat şəraitini təmin edir. Təklif edilən tədbirlər uzunmüddətli, əlaqələndirilmiş və xüsusi problemləri olan şəxslərin fərdi tələbatlarına uyğun olmalıdır. Qanun şəxsə fərdi yardım göstərilməsi hüququ verir, bununla yanaşı, fərdin özünün onun həyatına dair qərar qəbul etmək hüququnu qarşıya qoyur.

Hazırda İsveçdə aşağıdakı məktəb tipləri mövcuddur.

* Əsas məktəb (icbari)

* Gimnaziya (orta məktəb)
* İntellekt pozuntuları olan uşaqlar üçün xüsusi məktəb (icbari – yüngül dərəcəli əqli geriliyi olan uşaqlar üçün və hazırlıq – dərin əqli geriliyi olan uşaqlar üçün)
* Yaşlıların xüsusi təlimi
* Karlar üçün, patologiya ilə uzlaşdırılmaqla görmə pozuntuları olan şəxslər üçün, nitq pozuntuları və psixi inkişafı ləngiyən uşaqlar üçün xüsusi məktəblər.

İcbari xüsusi məktəb yüngül və ya orta dərəcəli intellektual pozuntuları olan şagirdlər üçün nəzərdə tutulmuşdur. Onda əsas fənlər nitq, oxu, yazı, hesab dərsləridir.

Bu məktəb kütləvi ümumtəhsil məktəbə maksimum yaxınlaşdırılmış vəzifələri qarşıya qoyur. Xüsusi hazırlıq məktəbi xeyli ciddi intellektual pozuntuları olan şagirdlər üçün nəzərdə tutulmuşdur. Eyni zamanda bir çox şagirdlər mürəkkəb kompleks xüsusiyyətlərə malikdir. Təlim sosial məişət adaptasiyasına xüsusi önəm verir. Təlimin ən mühüm elementləri ünsiyyətin və qarşılıqlı fəaliyyətin inkişaf etdirilməsidir. Görmə, eşitmə və nitq pozuntuları olan uşaqların və gənclərin təlimi üçün xüsusi məktəblər dövlətin nəzarətindədir. Xüsusi məktəbdə sinfin tərkibini təqribən 5 şagird təşkil edir. Xüsusi məktəblərin şagirdləri əlavə təlim vasitələrinə malikdir ki, bu da, şübhəsiz, təlim prosesinin keyfiyyətini artırır.

Hazırda İsveç şagirdlərin kütləvi təhsil sisteminə inteqrasiyasının yüksək səviyyəsinə malik ölkə sayılır. Xüsusi təlim intellekt pozuntuları olan uşaqlara köməyin üstün formasıdır. 1989/90-cı tədris ilindən 1993/94-cü tədris ilinə qədərki dövrdə əqli geriliyi olan şagirdlərin sayı 10500 nəfərdən 12400 nəfərədək, yəni 8,5% artmışdır. Bu sayın daha da artacağı güman edilir.

Təhsil haqqında indiki qanuna uyğun olaraq Xüsusi Təhsil Şöbəsi belə bir qərar qəbul edə bilər ki, şagird hətta valideynin iradəsinin əleyhinə olaraq xüsusi məktəbə göndərilməlidir. Xüsusi məktəbə göndərilmə haqqında qərara uşağı tanıyan şəxslər tərəfindən Apeliasiya Komissiyasına şikayət verilə bilər. Xüsusi məktəbə göndərilmə haqqında qərar pedaqoji, psixoloji və tibbi araşdırmalara əsaslanır.

Hazırda İsveçdə psixososial yanaşmanı tətbiq etməyə cəhd göstərilir. Bu yanaşma adamı sosial nöqteyi-nəzərdən və həyatda perspektiv planda tanıma baxışını özündə birləşdirir. Başqa sözlə, adamlar arasındakı fərqlərə hörmətin inkişaf etdirilməsinə cəhd göstərilir.

İsveç təhsil sistemi 1950-ci ildən bir neçə dəfə dəyişilmişdir. Nəzəri təhsili peşə hazırlığı ilə birləşdirən ümumi icbari orta təhsil tətbiq edilmiş, yaşlılar üçün təhsil sistemi genişləndirilmişdir. 1977-ci ildə praktik olaraq bütün ali təhsil müəssisələri, peşə məktəbləri də daxil olmaqla, bir strukturda birləşdirilmişdi. İsveç təhsil sistemində ümummilli planlaşdırma və idarəetmə elementi əsas olaraq özünü əks etdirir. Təhsilin davamiyyəti, bir çox təhsil

müəssisələrinin maliyyələşdirilməsi Parlament tərəfindən müəyyn edilir. 1989-cu ilə qədər ümumtəhsil proqramlarının işlənib hazırlanmasında ölkə hökuməti də iştirak edirdi.

1991-ci ildə təhsil sisteminin ayrı-ayrı tədris müəssisələrinə böyük müstəqillik vermək, həm də tələbələrin imkanlarını genişləndirməyə istiqamətlənmiş böyük miqyaslı təhsil islahatı aparıldı. Yeni qaydalara uyğun olaraq müxtəlif ixtisasların tədrisi yerli tələbələrin və ali məktəblərin özlərinin tələbatları ilə müəyyən edildi. Təlim prosesinin təşkili və fənlər toplusu yerli səviyyədə müəyyən edilirdi.

İsveçdə məktəb təhsilinin təşkilinə görə əsas məsuliyyəti hökumət daşıyır. Məktəbin ümumi məqsədləri və iş istiqamətləri dövlət səviyyəsində həll edilir, bələdiyyə hakimiyyəti bu işin praktikada həyata keçməsinə görə məsuliyyət daşıyır.

Ümummilli səviyyədə praktik olaraq bütün təhsil sistemi Təhsil Nazirliyinin tabeliyində idi. Onlar hökumətin təlimatlarına uyğun olaraq işləyir, təhsilin idarə edilməsi və vəzifələrini müəyyən edirdi.

Təhsil şöbəsinin vəzifəsinə məktəbin işinin qiymətləndirilməsi, təhsil prosesinə nəzarətin həyata keçirilməsi, eləcə də məktəbin daha da inkişaf etdirilməsi üçün təkliflərin hazırlanması və bu inkişafa yardım göstərilməsi aid edilir. Təhsil şöbəsi məktəb direktorlarının hazırlanmasını, müəllimlərin və məktəb personalının ixtisaslarının artırılmasını təşkil edir və ixtisasların artırılması üçün müəllimlərə ayrılan təqaüdləri paylayır.

Dövlət məktəbləri və təhsil şöbəsinin strukturu on bir regional şöbədən ibarətdir.

Doqquz illik icbari məktəblərdə bələdiyyə hakimiyyəti sifarişçi rolunda çıxış edir, bu da məktəb personalının işinə və onların ixtisaslarının artırılmasına görə işə götürən qismində onların məsuliyyətini nəzərdə tutur. 1991-ci ildə işə götürmə, iş şəraiti, müəllimlərin və məktəb müdirinin seçilməsi və s. məsələlər dövlət müəssisələrindən yerli hakimiyyət müəssisələrinə verilmişdir və onlar məktəblərin işinə görə tam məsuliyyət daşıyırlar.

Bütün bələdiyyə dairələrində məktəblər üçün bələdiyyə məclisi tərəfindən həmin dairədə məktəb təhsilinin nə şəkildə inkişaf edəcəyini göstərən iş və inkişaf planları qəbul edilmişdir. Onda başlıca diqqət hökumət tərəfindən qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün bələdiyyə hakimiyyətinin planlaşdırdığı tədbirlərə istiqamətləndirilir.

Tədris ili 40 həftəni əhatə edir və iki yarım ilə bölünür, onları İsveçdə payız və yaz yarımilliyi adlandırmaq qəbul olunmuşdur. Bir saatlıq məşğələ tədris planına uyğun olaraq şagirdlərə uyğunlaşmaqla qurmaq zərurəti olduqda yol verilir. Belə bir təlim prosesi adaptasiya olunmuş adlanır. Tədris həftəsi bazar ertəsindən cümə gününədək beş günü əhatə edir. Tədris gününün davamiyyəti haqqında qərarı məktəblər müstəqil olaraq qəbul edir.

Dövlət maliyyələşdirməsi, təşkilata ictimai servislərin və xidmətlərin göstərilməsi icbari olaraq transfertlər formasında icra edilir. Dövlət subsidiyaları bələdiyyə dairələrinin vergi yığımlarından gəlirlərini tamamlayır və ayrı-ayrı bələdiyyə dairələri arasındakı mövcud fərqlərin aradan qaldırılmasını həll edir.

Hökumət, yerli hakimiyyət orqanları məktəb haqqında qanun və digər normativ sənədlərdə təsbit edilmiş vəzifələri yerinə yetirmədikdə onların işinə müdaxilə etmək hüququna malikdir. Dövlət tərəfindən elmi tədqiqatlara, müəllimlərin ixtisaslarının artırılmasına, əqli inkişafda geriliyi olan şagirdlərə, xüsusi yardımın təşkilinə və bələdiyyə sisteminə daxil olmayan bir sıra gimnaziyalara məqsədli subsidiyalar ayrılır.

Qanun bələdiyyə məktəblərində təlimə görə ödəniş alınmasını qadağan edir. Bu qeyri-bələdiyyə məktəblərinə də aiddir, o vaxtdan onların hamısının xərcləri dairə bələdiyyələri hesabına ödənilir. Dərsliklər və digər məktəb ləvazimatları bələdiyyə məktəblərinin şagirdlərinə pulsuz verilir. Məktəbdə nahar və məktəb nəqliyyatı da bələdiyyə məktəblərində pulsuzdur. Bələdiyyə gimnaziyalarının əksəriyyəti öz şagirdlərini pulsuz nahar və dərsliklə təmin edir.

Yaşlılar üçün bələdiyyə məktəblərinin şagirdləri bir çox hallarda tədris müddəti başa çatdıqdan sonra istifadələrində olan dərslik və başqa dərs vəsaitlərinin haqqını ödəyir.

Bələdiyyə məktəblərini və ali xalq məktəbi adlandırılan məktəblərin orta təhsilini başa vuran 16 yaşdan 20 yaşadək bütün şagirdlərə maliyyə yardımı göstərilir. Belə bir köməkliyi bələdiyyə alternativ məktəblərin, gimnaziyaların mərkəzi təhsil orqanlarının tabeliyindəki şagirdlərə göstərir. Onlara 16 yaş həddinə çatana qədər ödənilən əsas məbləğ və ehtiyacı olanlara tədris dövründə və gündəlik gəzintilərdə çəkilən təxmini xərclər həcmində yardım edilir.

Orta təhsilini davam etdirmək və ya başa vurmaq üçün məktəb partasına qayıtmış yaşlılar da müxtəlif davamiyyətli tədris dövründə zəruri maliyyə yardımı almaq imkanına malikdir.

İsveçdə 55 ali təhsil müəssisəsi var, onlardan 11-i universitetdir. Onların əksəriyyəti dövlətə və ya regional bələdiyyələrə məxsusdur, yalnız bəziləri özəldir. Universitetlərdə 300 min tələbə oxuyur. İsveç təhsil sistemində ali təhsil ən sürətlə inkişaf edən sektordur. Altı dövlət universitetində ən müxtəlif fənlər üzrə kursların və akademik proqramların geniş seçimi təklif edilir. İsveçin ilk universiteti 1477-ci ildə Upsala şəhərində yaranmışdır. Bu gün üçün ən gənc universitetlər 1999-cu ildə açılmış Karlstad, Vekşe və Erebru universitetləridir. Universitet kollecləri həcmlərinə və təklif etdikləri təhsil proqramlarına görə fərqlənir. Bəziləri ancaq advanced səviyyəsinədək təlim proqramları təklif edir, başqaları isə elmi tədqiqatlar aparmaq imkanına malikdir. Bir qayda olaraq, universitet proqramlarının ixtisaslaşması və təhsil profili onların hansı yerli müəssisələrlə əməkdaşlıq etməsindən və işgüzar təmasları saxlamalarından asılıdır. Bəzi kolleclər təklif edilən proqramların seçimində

məhduddur; məsələn pedaqogika, mühəndislik və biznes-idarəetmə və s. göstərmək olar.

1993-cü ildən bütün diploma qədər müddətdə təlim kurslar formasında aparılır və bu proqram üçün tələbələr öz təlim proqramlarına bir neçə kursları birləşdirə bilər. Bütün kurslar və akademik proqramlar hər bir universitet və universitet kolleci tərəfindən hazırlanan tədris planına uyğun olmalıdır.

Birinci halda iki tip diplom mövcuddur: ümumi diplom və peşə üzrə diplom. Ümumi diplomlar üç növdə olur:

* Diplom və ya sertifikat iki il fasiləsiz təlimdən sonra azı 80 bal topladıqda verilir.

* Bakalavr diplomu təhsil bitdikdə, azı 120 bal yığdıqda (minimum 3 il fasiləsiz təlim) verilir, bunlardan azı 60 bal ixtisas üzrə olur, onlardan 10 bal diplom işinə verilir.

* Magistr diplomu təhsilin bitməsi ilə 4 illik fasiləsiz təlimdən sonra minimum 160 bal topladıqda verilir, bunlardan azı 80 bal - ixtisas üzrə, 20-si bir diplom işi və ya hər biri 10 baldan iki diplom işinə verilir.

Akademik proqramları əhatə edən təhsil dairəsi ballarla ölçülür: 1 bal 1 həftədə fasiləsiz təlimə bərabərdir. Beləliklə, 1 akademik il, adətən, 40 bal edir və iki semestrə bölünür.

İmtahan və hesabat prosesi də bütövlükdə təhsil müəssisələri tərəfindən müstəqil olaraq müəyyən edilir. Adətən məqbul, qeyri-məqbul, imtahan fərqlənmə ilə verildi şkalasından istifadə edilir. Lakin universitetlərdən asılı olaraq, başqa qiymətləndirmə şkalasından da istifadə edilə bilər. Təhsilin sonunda tələbə diplom alır. Diplomda alınmış dərəcə və öyrənilmiş kursların və proqramların spesifikası göstərilir. Universitet təhsili pulsuzdur, lakin Tələbə Birliyinə semestrdə 1500 kron icbari üzvlük haqqı ödənilir.

İsveç təhsil sisteminin başlıca prinsipi ondan ibarətdir ki, təhsil almaq üçün maliyyə yardımına ehtiyac duyan hər hansı tələbə onu mərkəzi hökumətdən almalıdır. Tələbələrə maliyyə yardımı qrantlar və kreditlər formasında mövcuddur. Belə bir yardımı almaqdan ötrü tələbə müəyyən tələblərə cavab verməlidir. Məsələn, əgər tələbənin daimi gəliri artıq kifayət qədər böyükdürsə, maliyyə yardımının həcmi azaldıla bilər. Maliyyə yardımının həcmi müəyyən edilərkən tələbənin valideynlərinin və ya həyat yoldaşının maliyyə vəziyyəti hesaba alınmır. 45 yaşdan yuxarı olan tələbə belə bir yardım ala bilməz. Adətən, tələbə təhsilə maliyyə yardımını 12 semestr (6 il) ərzində almaq imkanına malikdir, lakin istisnalar ola bilər. Maliyyə yardımını almağa davam etməkdən ötrü tələbə təlim prosesində yaxşı müvəffəqiyyətlik göstərməlidir. Diplomdan sonrakı təhsil hər təhsil müəssisəsinin qərarına uyğun olaraq maliyyələşdirilir. Diplomdan sonrakı təhsili bütün İsveç ali məktəblərində almaq mümkün deyil (onların siyahısı İsveç İnsitutunun www.si.se saytında yerləşir). Diplomdan sonrakı təhsili davam etdirmək üçün üçillik proqram üzrə təhsili bitirmək haqda diploma malik olmaq lazımdır. Bəzi əlavə

tələblər mövcuddur: ixtisas üzrə minimum 60 bala malik olmaq lazımdır. Bundan başqa, müvafiq fakültələr tələbənin araşdırma qabiliyyətinə verilmiş qiyməti təqdim etməlidir. İsveç universitetləri və kolleclərində dissertasiya yazmaq son dərəcə mötəbər iş sayılır. Məzun müəyyən sayda akademik kursları keçməli və doktorluq dissertasiyası yazmalıdır.

Adətən, diplomdan sonrakı təhsil 4 il vaxt aparır. Hər tələbəyə fərdi elmi rəhbər təyin edilir. Dissertasiya proqramın ən mühüm hissəsidir. Onu auditoriya qarşısında açıq şəkildə müdafiə edirlər və məqbul, qeyri-məqbul prinsipi üzrə qiymətləndirilir. Dissertasiya monoqrafiya şəklində və ya dissertasiya toplusunun tərkibində (ona müəyyən mövzuda bir neçə məqalə, icmallar, tədqiqatlar və qısa məzmun daxil olunur) dərc edilə bilər. Əgər tələbə bütün tələb edilən kursları uğurla bitirir və dissertasiya müdafiə edirsə, doktor diplomu alır. Bir çox universitetlər diplomdan sonrakı təhsilin daha qısa kursunun bitirilməsini (2-2,5 il) tətbiq edir. Sonra diplom sahibi dissertasiyanı seminarda müdafiə edir.

İsveçdə təhsil sisteminin idarəedilməsi Dövlət Təhsil Nazirliyinə, onun yaratdığı, ayrı-ayrı təhsil proqramlarını işləyib hazırlayan və ayrı-ayrı təhsil pillələrində islahatlar hazırlayan komissiyalara həvalə edilir.

Orta və ali məktəbin bütün pillələrində təhsil pulsuzdur. Öz statusuna görə təhsil müəssisələri dövlət sektoru tərkibindədir. İsveç təhsil sisteminin başlıca xarakteristikası onun kütləviliyi və demokratikliyidir. Dövlət planları üzrə orta təhsil yüz faiz təşkil edir və ali təhsil müəssisələrinə qəbul məhdudiyyətlərini minimuma endirməyi nəzərdə tutur (məhdudiyyətlər yalnız ərizələrin verilmə tarixləri və qeydiyyat tarixləri ilə müəyyən edilir). Beləliklə, orta təhsilə nail olunmuş universallaşdırma və kütləvilik üçüncü pilləyə, yəni məktəbdən sonrakı təhsilə istiqamətlənir.

Orta məktəb pilləsində təhsil yeddi yaşdan başlanır (məktəbəqədər təhsil ocaqları üç yaşdan etibarən bütün uşaqları əhatə edir). Ümumi orta məktəb təhsili üç mərhələdə - ibtidai, orta (natamam orta) və yuxarı (tam orta) mərhələlərdə davam edir. Ümumi orta təhsil başa çatdıqda ya təlimi inteqrasiyalaşdırılmış yuxarı pilləli orta məktəbdə davam etdirmək, ya da əmək fəaliyyətinə başlamaq və sonrakı təhsili işlə uzlaşdırmaq imkanı vardır. Faktik olaraq hazırda İsveç məktəblilərinin demək olar 100%-i məktəb təhsilini yuxarı pilləli məktəbdə davam etdirir. İnteqrasiyalaşdırılmış yuxarı pilləli orta məktəb üç başlıca istiqamətdə proqram seçiminin 26-ya yaxın variantını: birillik peşə yönümlü proqramları, ikiillik texniki proqramları və üçillik akademik proqramları nəzərdə tutur. Proqramların bütün tipləri bir-biri ilə əlaqəlidir və şagirdlər bir proqramdan digərinə keçidin praktik olaraq qeyri-məhdud imkanlarına malikdir. Bundan başqa, yaşlı nəsil həm orta, həm də ali təhsili müxtəlif tədris ocaqlarında (açıq universitetlərdə) ala bilir.

Məktəblərdə buraxılış imtahanları yoxdur və doqquzillik məktəbdən sonra təhsilin davam etdirilməsi üçün müxtəlif qruplaşdırmalara bölünmələr

müvəffəqiyyət dərəcəsindən asılılıqda deyil, şagirdlərin meyillərinə və valideynlərin istəklərinə uyğun olaraq baş verir.

Ali təhsil sistemində sektorlaşdırma təhsil müəssisəsinin statusu ilə bağlı deyil, çünki bütün tədris ocaqları dövlətindir və öz xidmətlərini pulsuz olaraq göstərir. Ali təhsil həm rezidentlərdən, həm də qeyri-rezidentlərdən yalnız yaşayışla bağlı xərcləri və tədris materialları ilə təminatı, tələbə assosiasiyasına üzvlük haqlarını və s. tələb edir. Ümumilikdə, İsveçin ali təhsil ocaqları da təhsil xidmətlərini tarazlaşdırmağa və universallaşdırmağa çalışır. Bu isə öz növbəsində təkcə idarəetmə və akkreditasiya sistemini sadələşdirmir, həm də tədris ocaqları və onların proqramları arasında əlaqələrin qurulması, tələbələrin və müəllimlərin bir ali məktəbdən başqasına keçməsinə gətirib çıxarır. Digər tərəfdən, tədris plan və proqramlarının universallaşdırılması eyni zamanda ali məktəbin ümumi tədris planları çərçivəsində hər tələbənin tədris proqramlarını fərdiləşdirməyə imkan verir. Ali təhsildə sektorlar qismində aşağıdakı tiplər ayrılır:

- universitetlər və universitet kollecləri;
- ali peşə təhsilinin qeyri-universitet sektoru.

Ali təhsil müəssisələrinə daxil olmaq üçün tələbə orta təhsil haqqında İsveç və ya başqa ölkənin uyuşan diplomunu əldə etməlidir. Hər hansı ali təhsil müəssisəsinə qəbul olmaq üçün akademik və ya texniki istiqamətli inteqrasiyalaşdırılmış məktəbdə oxuduqdan sonra mümkündür. Belə bir sertifikatı açıq universitet kurslarını bitirməklə də almaq mümkündür.

Birinci diplomu (bakalavr dərəcəsinə ekvivalent) almağa qədərki təlim dövrü orta hesabla 3-3,5 il təşkil edir. Universitetlərdə iki il oxuduqdan sonra tələbələr birinci diplomu almaq üçün imtahan verir, sonra universitetlərdə təhsillərini davam etdirmək, peşə təhsili müəssisəsinə keçmək və peşə dərəcəsini almaq imkanı verilir.

Universitet sektorunda oxumağın sonrakı trayektoriyası magistraturaya keçiddir, iki il ərzində oxumağı və magistraturaya imtahan verməyi nəzərdə tutur. Daha sonra doktorluq dissertasiyasının yazılması və müdafiəsi mümkündür. Peşə sektoru üçün ilk üç ili oxuduqdan sonra lisensiatda daha dörd il oxumaq lazımdır. Eyni və fərqli sektorların ali məktəbləri arasında keçidlər mümkündür. Ali məktəbi bitirdikdə verilən dərəcələr və diplomlar ümumi və peşə dərəcələrinə, diplomlarına bölünür. Qeyri universitet kollecləri yalnız peşə diplomları verir. Qeyri rezidentlər üçün İsveç ali təhsili və İsveç ali məktəblərinin beynəlxalq əlaqələri həm dövlət, həm də institusional səviyyələrdə ERASMUS, TEMPUS, COMETT kimi beynəlxalq təhsil layihələrində iştirak edir.

İsveç ali məktəbləri tərəfdaşların seçimində və öz beynəlxalq siyasətinin müəyyən edilməsində kifayət qədər böyük müstəqilliyə malikdir. İsveçdə beynəlxalq təmaslar məsələsi ilə məşğul olan ümummilli koordinasiyaedici və informasiya mərkəzi, İsveç İnstitutunun olmasına baxmayaraq, İsveçdə təhsi-

lini davam etdirmək istəyənlərin əvvəlcə seçdikləri tədris müəssisəsinə müraciət etmələri və nəzərdə tutulan elmi rəhbərin razılığını almaq (doktorantlar və stajkeçən tədqiqatçılar üçün) lazımdır. Alınmış razılığın əsasında maliyyə yardımı üçün instituta müraciət etmək olar, bununla bağlı həm də seçilmiş tədris müəssisəsi də vəsatət verir. Qeyri-rezident üçün ali təhsil müəssisəsinin birinci pilləsinə daxil olmaq praktik olaraq qeyri-mümkündür, çünki bunun üçün İsveç dilini bilmək və İsveç nümunəli attestatına ekvivalent olmaqla yanaşı, İsveçdə ali məktəbə daxil olmaq istəyi üçün ciddi əsaslar təqdim etməyi və bütün tədris müddəti üçün maliyyə zamanəti lazımdır. Xüsusi təlim proqramında qeydiyyatdan keçmək çox asandır. Yerlərin olub-olmadığı haqda məlumatları İsveç İnstitutundan öyrənmək olar.

İsveçin bir çox ali məktəblərində xüsusi beynəlxalq proqramlar var, bunlarda tədris ingilis dilindədir.

İsveç ali təhsil sistemində tədris ili 2 semestrdən ibarətdir. Payız semestri avqustun sonlarından başlayır və dekabrın sonundan yanvarın ortalarınadək davam edir. Yaz sessiyası yanvarın ortalarından iyunun əvvəlinədək olur. Əyani təhsil formasında həftədə 40 saatadək dərs nəzərdə tutulur. Bir qayda olaraq tələbələr birdəfəyə bir kurs keçir. Texniki fənlər istisna olmaqla eyni vaxtda bir neçə kurs keçmək olar. Kursun strukturu öyrənmə üzrə asılılıqda fərqlənir. Adətən texniki fənlərə ayrılan tədris saatlarının həcmi boyük olur. Sosial və humanitar elmlər üzrə kurslar həftədə 12-15 saat nəzərdə tutulur, lakin fənn materiallarının sərbəst vaxtlarda öyrənilməsi tələb oluna bilər. Tədris saatları kursda iştirak edən tələbələr üçün mühazirələri və tələbədən diskussiyalarda fəal iştirak etmək üçün seminarları özündə birləşdirir. Auditoriyalar, 20-30 tələbədən ibarət qruplar (bəzən daha az sayda) – şəklində yaradılır. Məqsəd natiqlik qabiliyyətinin və təfəkkürün inkişaf etdirilməsinə kömək göstərməkdir. Çox vaxt müəllimlər öz mühazirələrini konspekt şəklində hazırlayır və tələbələrə paylayır. Dəqiq və təbiət elmlər üzrə kurslar laboratoriya işini özündə birləşdirir. Praktik tapşırıqlar bir çox tədris proqramlarının xarakterik cizgisidir. Bir çox proqramlar başa vurulduqda tələbələr dissertasiya və ya layihə işi yazır. İmtahanlar yazılı və ya şifahi testlər formasında keçilir. Laboratoriya işi, qrup işi və ya xüsusi layihələr yazılı və şifahi məruzə üçün mövzu ola bilər. Nəzərdə tutulur ki, tələbələr kompyuterlərdən, məlum proqramlardan, elektron poçtdan və internetdən istifadə etməyi bacarır. Universitetlər və kolleclər kompyuter kabinetlərinə və İnternetə çıxış icazəsi verir.

Universitetlərdə və İsveç Universiteti yanında kolleclərdə müəllimlər və tələbələr arasında qeyri-formal münasibətlər qərarlaşmışdır. Bunlar təlim üçün əlverişli şərait yaradır, belə bir şəraitdə tələbələr öz təfəkkürlərini inkişaf etdirir və tətbiq edirlər. Tələbələrə nisbətən geniş hərəkət sərbəstliyi verilir və onlardan zəruri iş həcmini yerinə yetirməkdə şəxsi təşəbbüskarlıq gözləyirlər.

Tələbələrdən universitetin daxili qaydalarına riayət olunmasına yüksək səviyyədə tələb vardır. Əks halda tələbəyə müxtəlif cəzalar tətbiq edilə bilər.

**Lund Universiteti (Lund University).** Bu universitet İsveç Krallığının Skaniya Əyalətində, Lund şəhərində yerləşir və Şimali Avropanın ən nüfuzlu ali təhsil ocaqlarından biridir.

Böyük Britaniyanın 2009-cu ildə apardıgı dünya universitetlərinin reytinqinə əsasən, Lund Universiteti London İqtisadiyyat və Siyasi Elmlər Məktəbi ilə birgə 100 ən yaxşı ali məktəb arasında 67-ci yerdə qərarlaşmışdır. 2010-cu il üzrə dünyanın ən nüfuzlu universitetləri arasında apardığı araşdırmaya əsasən, bu ali təhsil müəssisəsi 89-cu və 72-ci yerdə sıralanmışdır.

Lund tarixən təhsil və dini şəhər olub. Burada yerləşən qədim kilsə məktəbi 1085-ci ildə yaradılıb və hazırda İsveçin və Skandinaviyanın ən qədim ali təhsil ocaqlarındandır. Orta əsrlərdə fəaliyyət göstərən universitetlər Studium Generale adlandırılırdı. Belə universitelərdən biri də 1425-ci ildə Lund şəhərində yaradılır, 1536-cı ildə aparılan islahatlar nəticəsində həmin ali məktəb fəaltyyətə başlayır.

1658-ci il Danimarka-Norveç və İsveç Krallığı arasında başlanmış Roskill müqaviləsindən sonra Skaniya torpaqları Danimarkanın tərkibindən çıxaraq İsveçin mülkiyyətinə keçir. Tezliklə 1666-cı ildə İsveç Krallığı Lund şəhərində universitet yaradır. Bu universitet İsveç Krallığının rəhbərliyi altında olan beşinci universitet idi (Uppsala Universiteti - 1477, Tartu Universiteti-1632, Abo Universiteti-1640, Qraysvald-1456). Yeni yaradılmış universitet İsveç kralı X Karl Qustavın şərəfinə Karolina Akademiyası adlandırılır. Universitetdə 4 fakültə - hüquq, ilahiyyət, tibb və fəlsəfə fakültələri fəaliyyətə başlayır. Bu sistem ali məktəbdə 200 il davam edir. Fəaliyyətinin ilk vaxtlarında universitetdə 100-ə yaxın tələbə oxuyur, burada Samuil Pufendorf, Kanutus Han və Kristian Papk kimi dahi filosoflar çalışır. 1676-1682-ci illəri əhatə edən Skaniya müharibəsi ali məktəbdə dərslərin dayandırılmasına səbəb olur. Karolina Akademiyası müharibədən sonra fəaliyyətə başlasa da, o qədər də böyük statusa malik olmur, mühazirələr zəif olur, müəllimlərin əməkhaqqı ödənilmir və s.

1713-cü ildə İsveç kralı XII Karl Lund şəhərinə daxil olur və buranı özünün daimi iqamətgahı seçir. O, müharibə ekspedisiyaları zamanı bu şəhərdə üç il qalır. Məhz bu səbəbdən həmin dövrlərdə Lund şəhəri diqqət mərkəzində olur. Universitetin nüfuzunun artmasının digər bir səbəbi də dahi alim Andreas Rideliusun bu akademiyada çalışması idi. 1718-ci ildə XII Karlın ölümündən sonra, nəhayət, sülh bərqərar olur və XVIII əsrdə universitetin inkişafı üçün vəsait toplanır. Tezliklə tələbələrin sayı 500 nəfərədək çoxalır. 1760-cı ildə universitet qazandığı nüfuzunu itirir, tələbələrin sayı xeyli azalır. Universitet 1780-ci ildə filologiya sahəsi üzrə çalışan müəllimlərin, xüsusilə məşhur İsveç yazıçısı, yunan dili üzrə professor İsayya Teqnerin səyi nəticəsində yenidən əvvəlki nüfuzunu bərpa edir. O, bir çox şəxslərin universitetə

cəlb olunmasına səbəb olur. Onlardan biri qədim dilləri öyrənən və sonradan yunan dili üzrə professor olan gənc seminariya tələbəsi Brunius olur. Brunius sonradan memarlıqla məşğul olur və Lund şəhərində bir neçə bina, əyalətlərdə isə kilsə tikir. XIX əsrdən Karolina Akademiyası Lund Universiteti adlandırılır. Bu ali məktəbə qəbul olunan ilk qız tələbə 1880-ci ildə tibb fakültəsinə daxil olmuş Hedda Anderssondur.

2009-2010-cu tədris ilində Lund Universitetinin illik gəlirləri 6191573000 İsveç kronu olub. Həmin məbləğin 3540840000 kronu təchizatlar, 1997354000 kronu müxtəlif qrantlar, 629142000 kronu təhsil haqqı, qalanları isə digər gəlirlər hesabına əldə olunub. Universitetin xərcləri isə həmin ildə 5744245000 İsveç kronu olub. Bu vəsaitin 3403869500-ni əməkdaşların əməkhaqqı, 1274058000-ni əməliyyat, 827287000-ni tikinti və təmir xərcləri, qalanlarını isə başqa xərclər təşkil edib. Lund Universitetində yerli və Avropa Birliyi, həm də Avropa iqtisadi məkanı ölkələrini təmsil edən tələbələr ödənişsiz təhsil alır. Əcnəbi tələbələr isə təhsil haqqı ödəməlidir. Bakalavr pilləsində onların təhsil haqqı ildə 90000 İsveç kronu (9500 avro) təşkil edir. Təhsil haqqı İsveç kronu ilə ödənilməlidir. Tələbə qeydiyyatdan keçmək üçün 900 İsveç kronu (100 avro) verir. Universitetin magistratura və doktorantura pillələrində təhsil haqqı tələbənin seçdiyi proqrama görə fərqlənir.

Lund Universitetinin təqaüd proqramı Avropa Birliyi və Avropa iqtisadi məkanından kənar ölkələri təmsil edən tələbələr üçün nəzərdə tutulub və təhsil haqqının 25-100%-ə qədəri müəyyənləşib. Erasmus Mundus proqramı çərçivəsində təhsil alanlar üçün xüsusi təqaüdlər vardır.

İsveçdə yaşamaq insanlara baha başa gəlir, lakin aylıq büdcəsi 7800 İsveç kronu (təxminən 1140 dollar və ya 866 avro) təşkil edən tələbə bu ölkədə yaşaya bilər. Göstərilən məbləğin 2300 kronu tələbənin aylıq qidalanması, 2500-3300 kronu yataqxana, 400-1000 kronu kitab ləvazimatları, 1500 kronu şəxsi xərclərə və s. sərf olunur. Lund İsveçin cənubunda, Skandinaviyanın Skaniya (və ya Skone) bölgəsində yerləşir və ölkənin ən təhlükəsiz, sağlam, zəngin, əksəriyyəti gənc əhalidən ibarət olan şəhərdir. Lund Universitetinin tələbələri şəhər əhalisinin böyük hissəsini təşkil edir. Avropanın qədim şəhərlərindən biri olan Lund tarixi abidələri, memarlıq nümunələri, muzeyləri, kilsələri, eləcə də müasir binaları, parkları, kafe və restoranları, mağazaları ilə diqqəti cəlb edir. Şəhərin ən məşhur hissəsi Lundun mərkəzindəki qədim Lund kilsəsidir. Burada tez-tez mədəni və əyləncəli tədbirlər, festivallar təşkil olunur. Şəhərdə ictimai nəqliyyat çox rahat və əlverişlidir, lakin əhali nəqliyyat vasitəsi kimi daha çox velosipedə üstünlük verir. Lund və Malma şəhərlərini, eləcə də digər əraziləri birləşdirən dəmiryolu stansiyası şəhərin mərkəzində yerləşir. Qədim ənənələrin müasir və fəal tələbə həyatı ilə birləşməsi bu şəhərin həyatını daha da rəngarəng edir. Lund Universitetinin binaları şəhərin müxtəlif rayonlarında yerləşir. Ali məktəbin əsas inzibati

hissəsi Lundun mərkəzindədir. Ali məktəbin inzibati binası 1882-ci ildə memar Helgo Zettervall tərəfindən inşa edilib.

Helsinqborq, Malma və Ljunqbihed şəhərlərində də universitetin kampusları mövcuddur. Helsinqborq şəhəri Lunddan qatarla 40 dəqiqəlik məsafədə, Eresunn boğazı sahilində yerləşir. Malma İsveçin üçüncü böyük şəhəridir və onu Lund şəhərindən 15 dəqiqəlik qatar yolu ayırır. Malmada Lund Universitetinin təsviri incəsənət və ifaçılıq sənəti fakültəsi, İsveçin ən nüfuzlu xəstəxanalarından olan Skone Universitet yataqxanasında yerləşir, burada ali məktəbin çoxlu sayda əməkdaşı və tələbələri yaşayır. Ljunqbihed şəhəri Lunddan Şimalda bir saat qatar yolu məsafəsindədir və burada universitetin Lund Aviasiya Məktəbi fəaliyyət göstərir. Lund Universiteti 275 təhsil proqramı, 2000-dən çox xüsusi fənn kursları, ingilis dilində 80 magistr proqramı, 500 xüsusi fənn kursu təklif edən 7 fakültə və 2 məktəbdən ibarətdir. Eyni zamanda ali təhsil müəssisəsinin çoxlu sayda institut və elmi-tədqiqat mərkəzləri vardır.

Lund Universitetinin əsas tədris və tədqiqat mərkəzlərindən biri də Helsinqborq kampusudur. Kampusda tələbə, müəllim, tədqiqatçı və təşkilatlar üçün geniş imkanlar yaradan iclas və tədbirlərin təşkili ənənəsi mövcuddur. Helsinqborq kampusunda təkcə İsveçdə deyil, bütün Avropada unikal olan tədris proqramları və müstəqil kurslar təklif edilir, regional inkişaf layihələri həyata keçirilir.

Lund Universitetinin kitabxanası 1666-cı ildən fəaliyyət göstərir və İsveçin ən qədim, eləcə də böyük tədqiqat kitabxanalarından biridir. İldə 620000-dən çox istifadəçiyə xidmət edən kitabxana informasiya resurslarının qorunması və saxlanmasında böyük qüvvəyə malikdir. Burada 2000-dən çox tarixi olan, müxtəlif dillərdə çap edilmiş, bütün sahələri əhatə edən materiallar qorunur. Ali məktəbin kitabxana sisteminə Lund, Helsinqborq, Malma və Ljunqbihed şəhərlərində yerləşən 33 sahə kitabxanası vardır. Universitetin kitabxana sisteminin elektron resurslarına 15000 elektron jurnal, minlərlə elektron kitab, lüğət, ensiklopediya, 500 məlumat bazası və s. daxildir. Elektron resurslar Lund Universiteti kitabxanasının Baş Ofisi tərəfindən idarə edilir. Kitabxana elmi informasiya resurslarına azad və ödənişsiz onlayn girişi təmin edir, tələbə dissertasiyalarının elektron nəşri üçün müxtəlif xidmətlər təklif edir. Ali məktəbdə ümumilikdə 6000-ə yaxın əməkdaş çalışır. İşçilərin 1360 nəfərini professor müəllim, qalanlarını isə inzibati heyət təşkil edir. Ali məktəbin tələbələrinin ümumi sayı 46000-ə qədərdir. Tələbələrin 28000-i əyani, qalanları isə qiyabi təhsil alır. Universitetdə 2800-dən çox doktorant tədqiqat aparır. Lund Universiteti dünyanın 50 ölkəsində yerləşən 680 ali təhsil müəssisəsi ilə əməkdaşlıq edir. Universitetdə 3000-dən çox əcnəbi və tələbə mübadiləsi proqramı çərçivəsində isə 2000 tələbə oxuyur.

Lund kiçik tələbə şəhəridir və burada yataqxanaların sayı məhduddur. Bu səbəbdən tələbələrə Lund şəhərinə gəlməzdən əvvəl qalmaq üçün yer

axtarmaları tövsiyə olunur. Bunun üçün tələbələr Lund Universitetinin Beynəlxalq Mənzil Ofisinə və ya universitetin Mənzil Agentliyinə müraciət edə bilər. Universitetə qəbul edildikdən sonra tələbələr yataqxanalarda yerləşmə hüquqları olduqları haqqında elektron məktub alır. Həmin məktubda Beynəlxalq Mənzil Ofisində qeydiyyatdan keçmək üçün müvafiq qaydalar göstərilir. Beynəlxalq Mənzil Ofisi "Gamla Kirurgen" binasında fəaliyyət göstərir. Lund şəhərinin şimalında yerləşən Delfi yaşayış ərazisi universitetin ən böyük yataqxana kompleksidir. Beynəlxalq Mənzil Ofisinin təklif etdiyi otaqların qiyməti yataqxananın yerləşdiyi rayondan və otaqdan asılı olaraq dəyişir. Hazırda qiymətlər bir semestr ərzində 13000-22000 İsveç kronu arasında dəyişir. Bu məbləğə elektrik, su, istilik, mətbəxdən və camaşırxanadan istifadə qiymətləri də daxildir. Ödəniş semestrin əvvəlində edilməlidir, əks halda, otaq tələbədən geri alınır. Tələbələr çox hallarda xüsusi evlərdə, mənzillərdə kirayə qalır. Lund Universiteti yüz illərdir ki, Avropa ənənələrini qoruyan və dinamik inkişaf edən qədim ali təhsil ocağıdır. Ali məktəb İsveçin və Skandinaviyanın ən güclü elmi-tədqiqat universitetlərindən biridir. Universitet yüksək səviyyəli ixtisaslaşmış müəllimlərdən, təhsilin əhəmiyyətini anlayan, məntiqli düşünmə və yaradıcılıq qabiliyyəti olan tələbələrdən ibarətdir. Bu gün Lund Universiteti belə bir saf mühitdə fəaliyyət göstərir və inamla sabaha addımlayır.

**Stokholm universiteti (Stockholm University).** İsveçdə təhsil xarici tələbələr arasında nüfuzlu və populyardır. İsveçdə təhsil alan tələbələrin 7,5%-i xaricilərdir. Ölkənin ən məşhur və ən böyük ali təhsil müəssisəsi 1878-ci ildə yaradılan (1960-ci ildən bəri universitet statusunu almış) Stokholm universitetidir. Universitetdə 50 mindən artıq tələbə və 2 minə yaxın doktorant təhsil alır. Burada universitetin 5 min əməkdaşı işləyir. Stokholm universiteti Stokholmun mərkəzindən Şimalda Freskati rayonunda (Universitetet metrosu) yerləşir. Bu ali təhsil müəssisəsi dövlət təhsil müəssisəsidir və həmin səbəbdən də burada təhsil pulsuzdur. Stokholm universitetində elmi dərəcəni əldə edərək, Avropa Birliyinin istənilən ölkəsində işləmək mümkündür. Stokholm universitetinə daxil olmaq üçün abituriyent orta təhsil müəssisəsini bitirməsi haqqında attestata malik olmalı, ingilis və İsveç dillərini bilməlidir, çünki təhsil prosesi həm milli, həm də ingilis dilində keçirilir. İsveç dili imtahanını ölkəyə gələn kimi vermək olar: test imtahanı Stokholm universitetində ildə iki dəfə, apreldə və oktyabrda keçirilir. Universitet tələbələrin və heyətin beynəlxalq mübadiləsi üzrə müxtəlif proqramları dəstəkləyir, daha dəqiq məlumatın əldə edilməsi üçün öz ali təhsil müəssisənizə müraciət edin. İsveçdə təhsil demək olar ki, hamıya əlverişlidir. Stokholm universiteti 4 fakültədən ibarətdir: təbiət elmləri fakültəsi, humanitar elmləri fakültəsi, sosial elmlər fakültəsi və hüquq fakültəsi. Təhsil prosesi müxtəlifliyi ilə seçilir: hər il tələbələrə 900 müxtəlif kurs və 40 ixtisas təklif olunur.

İngilis dilli ölkələrdən olan tələbələr üçün institut, beynəlxalq doktorantura, hazırlıq kursları, İsveç dili kursları vardır. Universitetdə 700-dən artıq müəllim, təqribən 180 professor işləyir. Müəyyən sahələrə aid olan kitabxanalar sırasından (o cümlədən 1903-cü ildə yaranmış ictimai elmlər kitabxanasından) ibarət olan Stokholm universitetinin kitabxanasında 700 minə yaxın kitab vardır.

# İSVEÇRƏDƏ TƏHSİL

İsveçrədə təhsil bütün dünya ölkələrində böyük nüfuza malikdir. İsveçrədə təhsili yüksək rəqabətqabiliyyətli etmiş özəl faktor həm də bir neçə xarici dili öyrənmək, bu dillərə ölkə hüdudundan xaricə çıxmadan onların bilavasitə daşıyıcıları olan almanlar, franızlar, ingilislər, italyanlarla ünsiyyətdə olmaqla əldə etmək mümkündür. İsveçrədə xarici dilləri öyrənmək perspektivi bu cür izah edilir: ölkədə başlıca Avropa dillərində danışan dörd köklü xalq yaşayır, onların mədəniyyəti və mentaliteti ilə yaxından tanışlıq, çox dəqiq tələffüz vərdişi və dili dərindən anlamaq imkanı yaradır.

İsveçrə təhsil sistemi elə bir şəkildə qurulub ki, istənilən dil məktəbində ingilis, fransız, alman, italyan, ispan dilləri tədris olunur. İsveçrədə oxumaq kombinə edilmiş kurslara daxil olmaq və eyni vaxtda bir neçə dildə oxumağa imkan verir. Bundan başqa, təhsil sistemini ancaq yüksək keyfiyyətli standartlar deyil, həm də akademik proqramların rəngarəngliyi fərqləndirir.

İsveçrədə oxumaqla yanaşı qış idman növləri: dağ xizəkçiliyi, snoubord və s. ilə də məşqul olmağa şərait var. Ona görə də burada qış tətili zamanı dil öyrənmənin çoxsaylı proqramları fəaliyyət göstərir.

İsveçrədə orta təhsili bitirənlər təhsillərini Avropa və Amerika universitetlərində davam etdirmək üçün ən yaxşı variantdır. Məhz bu səbəbdən, statistikaya görə, bu gün orta hesabla dünyanın 100-dən çox ölkəsindən gəlmiş uşaq orta təhsilini bu ölkədə alır.

İsveçrədə orta təhsilin əsas məqsədi dünyanın başqa ölkəlrnin təhsil sisteminə uyğun standartlarla təhsilinin olmasıdır. Bir çox məktəblər eyni vaxtda bir neçə sistemi özündə birləşdirir, çünki arzu edən hər bir şəxs İsveçrədə öz istəyinə uyğun təhsil ala bilsin və onun aldığı təhsil sonrakı davam etdirəcəyi ölkənin təhsilinə müvafiq olsun.

İsveçrə məktəblərində təhsilin üstünlükləri dedikdə, sinifdə fənlərin çox sayda olmaması, yüksək ixtisaslı pedaqoji heyət, idmana xüsusi diqqət, dünya universitetləri tərəfindən tanınan attestatı və s. göstərmək lazımdır.

İsveçrədə mehmanxana və turizm biznesi etalon sayılır, bu istiqamətlərdə təhsil İsveçrə turizm sənayesinin çox qiymətli təcrübəsinə əsaslanır. İsveçrədə mehmanxana və turizm menecmenti təhsili informasiya texnologiyalarını, beynəlxalq maliyyə sistemlərini, mühasibat uçotunu, bir neçə xarici dili və bir çox başqa məsələləri öyrənməyi birləşdirir. Praktik məşğələlər bilavasitə İsveçrə dağ kurortlarının çoxsaylı otellərində keçirilir.

Şirkətlər bu proqramları təklif edir:

- İsveçrədə orta təhsil və ali məktəbə hazırlaşmaq;
- İsveçrə universitetləri və kolleclərində ali təhsil;
- 16 yaşdan yuxarı gənclər və yaşlılar üçün dil kursları;
- Uşaqlar və yeniyetmələr üçün dil kursları.

Yaşılaçalan mavi dağ silsilələri, göz qamaşdıran bəyaz qarla örtülü zirvələr, gurultu ilə dərələrə tökülən şəlalələr, sakit dağ göllərinin zümrüd suları. Əbəs yerə dünyada ən gözəl dağ yerlərinin adı İsveçrə ilə bağlanmır, məsələn: Podmoskovye İsveçrəsi, Saksoniya İsveçrəsi, Qafqaz İsveçrəsi.

Rusiya elitası üçün uşağı İsveçrə məktəbinə göndərmək dəbdir və nüfuzlu sayılır. Ali məktəblər dünyaya onlarca Nobel mükafatı laureatı bəxş etmişdir.

İsveçrədə həm ölkə vətəndaşları, həm də əcnəbilərin ali təhsil almaq imkanları eynidir. Doğrudur, müəyyən şərtlər də var, məsələn: əcnəbinin Alp respublikasında tibb fakültəsinə daxil olması mümkünsüzdür: həkim peşəsi o dərəcədə populyardır ki, universitetlərə qəbul ölkənin öz vətəndaşlarına kifayət etmir. Stomatologiya və baytarlıq fakültələri əcnəbilər üçün bağlıdır. "Farmakologiya" və "Fiziologiya" ixtisaslarına əcnəbiləri məhdud sayda qəbul edirlər.

Universitetlərdə xarici tələbələrin sayının faizi çox yüksəkdir, orta hesabla 18 faizə yaxındır. Cenevrə Universitetində bu rəqəm 33 faizə qədər təşkil edir.

Son illər ölkə ali məktəblərinə qəbul olanların ümumi sayı xeyli artmışdır, İsveçrə ali təhsilinin nüfuzu həm ölkədə, həm də dünyada yüksəlir. Bununla bərabər, təhsil haqqı nisbətən azdır, xarici tələbələr üçün semestrdə 500-dən 750 franka qədər təşkil edir (məsələn, Luqanoda təhsil haqqı semestrdə 4.000 frankdır). Bir aylıq yaşayış xərci 1850-2000 franka başa gəlir. Avropa ölkələrinin ali məktəblərinə qəbul edilən rəsmi məhdudiyyət İsveçrədə tətbiq edilməmişdir. Bu ölkədə universitetlərin tələbə qəbulu problemini başqa üsulla həll edirlər, birinci tədris ilindən sonra xüsusi imtahan keçirilir və tələbələri sayca azaldırlar.

Rusiyadan olan abituriyentlərə daxilolma tələblərini ölkənin almandilli universitetləri irəli sürür. Birinci kursa daxil olmaq üçün Rusiya ali məktəbinin minimum iki kursunu bitirmiş tələbə Friburqda xüsusi qəbul komissiyasında əcnəbilər üçün vahid imtahanı verməlidir.

Tədrisin fransız dilində aparıldığı Lozanna, Cenevrə və Nevşateli universitetlərinə daxil olmaq üçün kamal attestatı yaxşı qiymətlərlə olan Rusiya məzunları vahid imtahan verməlidir. Universiteti seçərkən onun nüfuzunu və ekspertlərin rəyini nəzərə almaq lazımdır, isveçrəlilər hesab edirlər ki, iqtisad elmini Sankt-Qallendə, hüququ Friburqda, Lozannada, Nevşatelidə, tarixi Nevşatalidə, filologiyanı Cenevrədə öyrənmək lazımdır. Riyaziyyat, dəqiq elmləri, mühəndis işi və memarlığı İsveçrənin universitet statusuna malik iki

politexnik məktəbində öyrənmək lazımdır. Hər iki politexnik məktəb, başqa universitetlərdən fərqli olaraq, öz qəbul imtahanlarını keçirir.

Əcnəbilər üçün vahid imtahan hər il sentyabr-oktyabr aylarında Friburqda keçirilir və beş imtahan verilir. Abituriyent dil, riyaziyyat və dünya tarixindən hansı fakültəyə daxil olmasından asılı olmayaraq imtahan verməlidir. Əlavə iki fənn isə abituriyentin öz seçiminə buraxılır (coğrafiya, fizika, kimya, biologiya, ikinci xarici dil).

Zərurət olduqda imtahanlara Friburqda hazırlaşmaq olar, hazırlıq kursları sentyabrdan başlayır və 4.500 franka yaxın ödəniş verilir. Dil fənnindən zəiflərə alman və fransız dili kursları təklif edilir. Oktyabrdan iyun ayınadək və ya yayda, iyuldan sentyabra qədər oxumaq olar. Əgər dil müvəffəqiyyətlə öyrənilibsə, vahid imtahan verilib, attestat alınır, sonda sənədlər universitetə verilir. Sənədlər paketinə daxildir:

- ərizə,
- geniş tərcümeyi-hal,
- xasiyyətnamə,
- kamal attestatının surəti və akademik arayış, yəni saatların sayını, zaçot və imtahan qiymətlərini göstərməklə keçilmiş ali məktəb kurslarının siyahısı.

Sənədləri may ayından gec olmayaraq göndərmək lazımdır, universitetlə yazışma iki-üç ay vaxt aparır. Tədris ili başlanana, yəni oktyabra qədər, əgər birinci universitet imtina edərsə, sənədləri ehtiyatdakı universitetə göndərmək lazımdır.

Əgər bütün sənədlər qaydasında olsa onda, belə bir hal baş verə bilər. İsveçrə universitetləri tələbələrə hansı həcmdə və nəyi tədris etməyi özləri həll edir. Ona görə də abituriyentin İsveçrədə ali təhsil alması üçün yetərincə hazırlaşıb-hazırlaşmadığının müəyyənləşməsi də universitet tərəfindən öz əksini tapır.

Qeyd edək ki, dili təkcə Friburqda öyrənmirlər. Həm tanınmış beynəlxalq linqvistik şəbəkələrə, həm də az tanınmış olan İsveçrə şəbəkələrinə daxil olan yaxşı məktəblərdə, Sürixdə, Lozannada, Montredə və ölkənin bir çox digər şəhərlərində öyrənmək olar.

Dil məktəblərinin ayrılıqda əcnəbilər üçün yaradıldığı Böyük Britaniya və başqa ölkələrin bir çoxundan fərqli olaraq, İsveçrə dil məktəblərində həm əcnəbilər, həm də ölkənin dövlət dillərini öyrənmələrinin fayda verəcəyini düşünən isveçrəlilər oxuyur.

İsveçrədə fransız, alman, italyan və ingilis dillərini əla öyrədən məktəblər var və kursların qiymətləri Avropa məktəbləri ilə müqayisə edilə bilir.

Böyük Britaniyada, Almaniyada, Fransada dil məktəblərinin tələbələri əsasən yerli ailələrdə qalırlar, mənzil baha deyil və bu dil vərdişlərinin inkişaf etməsi üçün də faydalıdır. İsveçrəlilər isə tələbələri kirayə götürməyə meylli deyillər. Otellər və apartamentlər isə burada bahadır.

Yay dil kursları var və bir sıra kommersiya linqvistik mərkəzlərinin bu kursları kollec və universitet kampuslarına yol açır. Bundan başqa, bütün

İsveçrə universitetləri öz yay dil kurslarını təşkil edir. Bir qayda olaraq, yayda istənilən dil öyrənən tələbə yataqxanalarda yer ala bilir.

**İsveçrədə təhsil.** Ölkədə vahid xalq maarifi sistemi yoxdur. 6-7 yaşından 15-16 yaşınadək bütün uşaqların təhsili icbaridir. Əsas (ibtidai) məktəb qəbul olunma sistemindən asılı olaraq 7-9 illikdir və 2 mərhələlidir. (4+3, 4+4 və ya 4+5). 1972-73-cü dərs ilində ibtidai məktəblərdə 526 mindən çox, orta məktəblərdə isə 344 mindən çox şagird oxuyurdu. Ali məktəblərdə (o cümlədən 7 universitetdə) təhsil müddəti 3-5 il, bəzi fakültələrdə 6 ildir. Böyük kitabxanaları: Bazel universitetinin kütləvi kitabxanası (2 milyondan çox kitab: 1977); Berndə Milli kitabxana (1.5 milyon kitab). Muzeyləri: Berndə tarix, rəssamlq, Bazeldə etnoqrafiya, Cenevrədə incəsənət və tarix muzeyləri və s.

IX-XI əsrlərdə təbiətşünaslığa aid kitablar orta əsrin ən iri mədəniyyət mərkəzi olan Sankt-Qallen kitabxanasında cəmləşmişdi. 1465-ci ildə İsveçrədə ali mətbəə işə salındı. 15-16-cı əsrlərdə Bazel, Lozanna və Cenevrədə ilk universitetlər yaradıldı. Biologiya, tibb, riyaziyyat və mexanikanın inkişafına 16-cı əsrdə İsveçrəyə mühacirat etmiş hukenotların təsiri oldu. 17-ci əsrin əvvəllərində C.Byurki C.Neperdən xəbərsiz loqarifmi ixtira etdi. P.Gülden fırlanma cisimlərinin həcmi və səthlərinin təyini haqqında teoremlər verdi. 18-ci əsrin I yarısında Jakob və İohani Bernulli qardaşlarının, L.Eylerin və Q.Kramerin əsərləri dünya şöhrəti qazandı. C.Malle-Favr Cenevrə universiteti nəzdində astronomiya kafedrasının və rəsədxanının əsasını qoydu. İsveçrədə bir sıra elm sahələrinin inkişafı Alp dağlarının öyrənilməsi ilə bağlıdır. İsveçrə federativ dövlətə çevrildikdən sonra (1848) Lozannada və Surixdə Ali Politexnik məktəblər, Friburda, Nevşateldə yeni universitetlər, Sankt-Qallendə Kollec, Cenevrədə Milli İnsititut yaradıldı. A.Eynişteynin, V.Paulinin və s. fundamental işləri fizika elminin inkişafına güclü təsir göstərdi.

T.Koxerin (Nobel mükafatı, 1909) qalxanabənzər vəzi xəstəliklərinin öyrənilməsinə və müalicəsinə dair əsərləri tibb elminin inkişafına təkan verdi. 1952-ci ildə elmi tədqiqatların milli fondu, 1960-cı illərdə həmin fond əsasında Milli Tədqiqatlar Şurası, 1969-cu ildə daxili işlər departamenti nəzdində elm bölməsi yaradıldı. 20-ci əsrin II yarısında riyaziyyat, geologiya, coğrafiya, biologiya, fiziologiya və tibb xüsusilə inkişaf etdi. V.R.Hess (1949) sinir sisteminin fiziologiyası, T.Reyxşteyn (1950) isə endokrinologiya sahəsindəki tədqiqatlara görə Nobel mükafatı aldılar.

**İsveçrə Federal Texnologiya İnstitutu (ETH-Zurich-Swiss Federal Institute of Technology).** Bu universitet Avropanın ən nüfuzlu, yüksək tədqiqat göstəricilərinə malik elm və texnologiyalar mərkəzidir. Bu dövlət institutu 1855-ci ildə yaranmış, illik büdcəsi 1 milyard 263,8 milyon CHF İsveçrə frankıdır (1CHF 0,979 ABŞ dollarına bərabərdir). İnstitut İsveçrənin böyük şəhəri Sürixdə, Avropanın mərkəzində yerləşir. Böyük Britaniyanın 2009-cu ildə apardığı dünya universitetlərinin reytinqinə əsasən, İsveçrə Federal Texnologiya İnstitutu 100 ən yaxşı ali məktəb arasında 20-ci yerdə sıralanıb.

7 fevral 1854-cü ildə İsveçrə dövlətinin Federal parlamenti "Dəqiq, siyasi və humanitar elmlər məktəbi ilə birlikdə Federal politexnik məktəbinin yaradılması haqqında" qanun qəbul edir. Federal politexnik məktəb 16 oktyabr 1855-ci ildən fəaliyyətə başlayır və Sürix şəhərindəki müxtəlif binalarda ilk dərslər keçirilir. Məktəbin əsas məqsədi milli infrastrukturun gələcəyini qurmaq, bütün sahələr üzrə ölkədə peşəkarlıq səviyyəsini və milli elitanın karyerasını inkişaf etdirməkdir. Məktəb yeni binaya köçmək üçün memarlar arasında müsabiqə təşkil edir və nəticədə 1858-1864-cü illərdə onun layihəsi əsasında ali məktəbin binaları tikilir. 1911-ci ildən Politexnik Məktəbi Federal Texnologiya İnstitutu adlanır. İnstitut rəhbərliyi Sürix şəhərində böyük tikinti layihələri həyata keçirir. 1908-ci ildə Federal Texnologiya İnstitutu tələbələrinə doktorluq dərəcəsi vermək hüququ qazanır. Bu dərəcə bir il sonra ilk dəfə olaraq altı kimyaçı tələbəyə verilir.

I Dünya müharibəsindən sonra Federal Texnologiya İnstitutu fəaliyyətini daha da genişləndirir. 1929-cu ildə institutun nəzdində Hidravlik laboratoriya və İqtisadi Biznes İnstitutu, 1933-cu ildə Texniki Fizika İnstitutu, 1937-ci ildə Yüngül Sənaye Tədqiqatları Departamenti açılır. 1936-cı ildə institutun prezidenti Artur Ron "İnnovativ fəaliyyət siyasəti" proqramını hazırlayır, nəticədə 1942-ci ildə İsveçrə Milli Elm Fondu yaradılır. 1965-ci ildə Federal Texnologiya İnstitutu ərazisinin genişləndirilməsi, yeni korpusların, fakültələrin açılması və s. istiqamətlərdə layihələr həyata keçirir. İnstitut bunun üçün dövlətdən 444 milyon frank məbləğində kredit alır. XX əsrin sonlarında tarixə kompyuter dövrü kimi düşən hər bir universitet müxtəlif layihələr həyata keçirməyə başlayır. Federal Texnologiya İnstitutu da baş verən yenilikləri, gedən prosesləri nəzərə alaraq, 1981-ci ildə İnformatika və materialşünaslıq, 1987-ci ildə isə Ekologiya elmləri departamentləri yaradır. 1989-cu ildə institut müxtəlif departament və müəssisələrə bölünür.

1990-cı illərin sonlarından başlayaraq institut Bolonya islahatları çərçivəsində iş aparır. 1993-cü illərdə Federal Texnologiya İnstitutunun departamentləri tədricən büdcə müstəqilliyi əldə edir. İnstitut qlobal şəbəkəyə qoşulur, informasiya texnologiyalarını modernləşdirir və elmi-texniki bazasını genişləndirir. Hazırda Federal Texnologiya İnstitutu dünyanın ən sürətlə inkişaf edən təhsil mərkəzlərindən biridir və institut bura gələnləri aşağıdakı sözlərlə qarşılayır: "Sabahın dünyasına xoş gəlmisiniz!"

İsveçrə Federal Texnologiya İnstitutu iki kampusdan ibarətdir. Əsas kampus 1860-cı ildə Sürix şəhərinin mərkəzində yaradılıb. Memar Qotfrid Zemper tərəfindən inşa edilmiş bu kampusun binaları neoklassik üslubda tikilib. Yeni kampus isə 1964-1976-cı illərdə şəhərin kənarındakı Hönqerberq ərazisində yaradılıb. Kampusun ərazisinin sonuncu dəfə genişləndirilməsi 2003-cü ildə olub və burada Materialşünaslıq, Memarlıq, İnşaat, Fizika, Biologiya və Kimya departamentləri yaradılıb. Hönqerberq kampusunu "Elm şəhəri" də adlandırırlar. İsveçrə Federal Texnologiya İnstitutunun nəzdində

aşağıdakı departamentlər fəaliyyət göstərir: Memarlıq və inşaat elmləri; Mühəndislik; Təbiət elmləri; Sistemli istiqamətləndirilmiş elmlər; Menecment və sosial elmlər. Federal Texnologiya İnstitutu göstərilən ixtisaslar üzrə bakalavr və magistr hazırlayır. Tədris Bolonya prosesinə, akademik nailiyyətlər isə kredit sisteminə əsasən aparılır. İnstitut dünyanın bir sıra universitetləri ilə sıx əməkdaşlıq edir. Bu ali məktəbin tələbələri təhsillərini dünyanın müxtəlif universitetlərində davam etdirmək imkanına malikdir. İnstitut tələbələrə, əlavə olaraq, 15 magistr proqramı, maliyyə sahəsi, kompyuter elmləri, mikro və nanosistem və s. sahələr üzrə 130 tədris kursu təklif edir. Eyni zamanda müəllimlər, başqa əməkdaşlar üçün kurs və proqramlar həyata keçirir. Həmin proqramlar, əsasən, pedaqogika, yeni texnologiyalardan istifadə, informatika, xarici dillər və tədris sahələrinin öyrənilməsini əhatə edir.

İsveçrənin ən böyük kitabxana sistemi Federal Texnologiya İnstitutunun kitabxanasıdır. Kitabxanaya 6,9 milyon kitab, əlyazma, jurnal, xəritə və s. daxildir. Sistem İnternet şəbəkəsinə qoşulub, oxucular "Sourcing" adlanan kataloq üzrə elmi ədəbiyyat toplusu ilə tanış olmaq imkanına malikdir. İnstitutun əsas kitabxanası olan Tökmə kitabxanada memarlıq, inşaat texnikası, sənaye, mexanika, elektronika, kompyuter elmləri, kənd təsərrüfatı, maşınqayırma, kənd və meşə təsərrüfatı, yerşünaslıq, biologiya, kimya, əczaçılıq, fizika, riyaziyyat, bədən tərbiyyəsi və idman, nəqliyyat, materialşünaslıq və başqa sahələrə aid kitablar vardır. Federal Texnologiya İnstitutunun nəzdində əsas kitabxanadan başqa, çoxlu sayda kitabxanalar fəaliyyət göstərir.

İnstitut İsveçrənin bölgələrindən, xarici ölkələrdən olan tələbələri, doktorantarı, müəllimləri və s. əməkdaşları yaşayış yeri ilə təmin edir. Bunun üçün 8 gün əvvəlcə 1864-cü ildən fəaliyyət göstərən mənzil xidməti idarəsinə müraciət etməli, İsveçrə Federal Texnologiya İnstitutunda təhsil almağı və ya işləməyi təsdiq edən sənəd təqdim olunmalıdır. Mənzil xidməti idarəsi isə onlara tələbə yataqxanaları, çoxmənzilli binalar və ayrıca evlər təklif edir, müraciət edən şəxslər isə istədiyi mənzili seçmək hüququna malik olur. Bu mənzillərdə 6 aylıq yaşayış haqqı 8,00 CHF (İsveçrə frankı) təşkil edir. Şəhərin ictimai nəqliyyatı olduqca rahat və sürətlidir, sərnişinlərə yüksək səviyyədə xidmət göstərir. İnstitutda bakalavr və magistr pilləsində təhsil haqqı 580 CHF, bir semestr təhsil haqqı isə 30 CHF təşkil edir.1867-ci ildə İsveç kimyaçısı, mühəndis Alfred Nobel dinamiti kəşf edir. Bu kəşf dünyada böyük səs-küyə səbəb olur. 1888-ci ildə mətbuatda A.Nobelin vəfatı ilə bağlı nekroloq nəşr edilir. Onun ölümü barədə qeyri-dəqiq məlumatların yayılmasından sonra 27 noyabr 1895-ci ildə Nobel Parisdə yerləşən İsveç-Norveç klubunda vəsiyyətnamə hazırlayır.O, vəsiyyətnaməsində var-dövlətinin yarısını hər il fizika, kimya, tibb, ədəbiyyat və sülh üzrə əldə edilmiş mühüm nailiyyətlərə, inqilabi ixtiraya və cəmiyyətin, mədəniyyətin inkişafına böyük töhfə vermiş şəxslərə (milliyyətindən asılı olmayaraq), mükafat təqdim olunmasını qeyd edir. 1900-cü ildə ilkin olaraq 31 milyon İsveç kronu məbləğində vəsaitə

malik Nobel Fondu yaradılır. 2007-ci ildə bu fondun kapitalı təxminən 560 milyon ABŞ dolları təşkil edib.

Nobel mükafatının ilk təqdimetmə mərasimi 10 dekabr 1901-ci ildə baş tutur. 1969-cu ildən başlayaraq iqtisadiyyat sahəsi üzrə də mükafat təqdim edilib. Laureat mükafatlandırma zamanı "Nobel memorial mühazirəsi" ilə çıxış etməlidir və həmin çıxış sonradan xüsusi kitabda nəşr edilir. 1901-ci ildən bu günə qədər Federal Texnologiya İnstitutu dünyaya 21 Nobel mükafatı laureatı bəxş edib. Onlar universitetin məzunları və burada çalışan professorlar olub. Fizika sahəsində dünyanın tanınmış alimləri Albert Eynşteyn və Vilhelm Rentgen bu institutun ən məşhur məzunlarından biri olubdur.

İnstitutda 372 professor, 9049 inzibati işçi çalışır. İnstitutun tələbələrinin ümumi sayı 15093 nəfərdir. Onların 30%-ni əcnəbi, 30,5%-ni isə qız tələbələr təşkil edir. İnstitutda 3171 nəfər magistr və doktorant təhsil alır. İnstitut İsveçrənin digər universitetləri kimi isveçrəli tələbələri qəbul imtahanı keçirmədən qəbul edir. Bu institutun tələbəsi olmaq üçün matura (Avstriya, Albaniya, Bosniya və Hersoqovina, Bolqarıstan, Xorvatiya, Çexiya, Macarıstan, İtaliya, Lixtenşteyn, Makedoniya, Polşa, Serbiya, Slovakiya, Ukrayna və İsveçrə orta məktəblərində buraxılış imtahanları) nəticələrini təqdim etmək lazımdır. Əcnəbi tələbələr ümumi imtahan verdikdən sonra instituta qəbul olunur. İnstitutda abituriyentin riyazi biliklərinə diqqət yetirilir və tədris ərzində də bu fənn ciddi öyrədilir. Bakalavr pilləsi 6, magistr pilləsi 3 semestrdən ibarətdir. Sonuncu semestr dissertasiyanın yazılmasına sərf edilir. Bir tədris ili 2 semestrə bölünür. Birinci kursun ikinci semestrinin sonunda tələbələr imtahan verirlər. İmtahandan kəsilən tələbələr onun çətinliyini nəzərə alaraq, ikinci dəfə bu sınaqdan keçməkdən imtina edirlər. İnstitutda dərslər alman və ingilis dillərində keçilir.

İsveçrə Federal Texnologiya İnstitutu tətbiqi elmlər sahəsində fundamental tədqiqatlara malikdir. İnstitut tələbələrə elmin davamlı inkişafını ancaq milli zəmində deyil, dünyəvi şəkildə təmin edir. İsveçrə Federal Texnologiya İnstitutunun tələbələri gələcəyin yüksək səviyyəli işçiləri olan mütəxəssislərinə çevrilir.

**Lozanna Federal Politexnik Məktəbi (Ecole Polytechnique Federale de Lausanne).** Bu universitet İsveçrənin Vaud kantonunun (bəzi ölkələrdə inzibati ərazi bölgüsü) Lozanna şəhərinin ətraf qəsəbəsi olan Ekublensdə yerləşir. Böyük Britaniyanın 2009-cu ildə apardığı dünya universitetlərinin reytinqinə əsasən, Lozanna Federal Politexnik Məktəbi 100 ən yaxşı ali məktəb arasında 42-ci, Avropa ali təhsil ocaqları arasında isə 12-ci yerdə yerləşmişdir. Lozanna Federal Politexnik Məktəbi İsveçrənin fransızdilli hissəsində yerləşir. Ölkənin almandilli vətəndaşları üçün Sürixdə İsveçrə Federal Texnologiya İnstitutu fəaliyyət göstərir. 1853-cü ildə yaradılan özəl Lozanna peşə ixtisas Məktəbi 1869-cu ildə Lozanna Dövlət Akademiyasının texniki şöbəsinə çevrilir. 1890-cı ildə Lozanna Akademiyası universitet statusu qazanır və Lozanna Univer-

siteti adlandırılır, texniki şöbəyə isə Lozanna Universitetinin Mühəndislik Məktəbi adı verilir. 1946-cı ildən məktəbin adı dəyişdirilərək Lozanna Universitetinin Politexnik Məktəbi olur.

1969-cu ildə Lozanna Universitetinin Politexnik Məktəbi Lozanna Universitetinin tərkibindən çıxır və İsveçrə Federal hökumətinin nəzarəti altında fəaliyyət göstərməyə başlayır. Məktəb Lozanna Federal Politexnik Məktəbi adlandırılır. Məktəbin missiyası mühəndis və alimlər hazırlamaq, elm və texnologiyalar sahəsi üzrə ölkədə nüfuzunu saxlamaq, sənaye müəssisələri ilə əməkdaşlıq qurmaqdan ibarətdir.

1943-cü ildən Lozanna Federal Politexnik Məktəbi Lozanna şəhərində Avenyu Kortda qədim Hotel Savoy binasında yerləşirdi. 1971-ci ildə Ekublens şəhərətrafı qəsəbəsində ali məktəbin yeni binasının tikintisinə başlanılır. Binanın rəsmi açılışı 1978-ci ildə baş tutur. Məktəbin bütün bölmə və məktəbləri bu kampusa köçürülür. Ən sonuncu buraya köçən müəssisə 2002-ci ildə Memarlıq departamenti olur.

2010-cu ildə Lozanna Federal Politexnik Məktəbinin illik büdcəsi 753000000 İsveçrə frankı miqdarında olub. Lozanna Federal Politexnik Məktəbində bakalavr və magistr pillələrində təhsil alan tələbələrin 1 semestrlik təhsil haqqı 633 İsveçrə frankı təşkil edir. Bundan əlavə, semestrin başlanğıcında isveçrəli tələbələr 50, əcnəbi tələbələr isə 110 İsveçrə frankı məbləğində vergi ödəməlidir. Doktorantura pilləsində təhsil almaq məktəbdə pulsuzdur. Doktorantlardan sadəcə 1200 İsveçrə frankı məbləğində vergi alınır. Təhsilin davam etdirilməsi pilləsində uzunmüddətli proqramlar üçün 1160, qısamüddətli proqramlar üçün isə 580 İsveçrə frankı ödəmək lazımdır. Lozanna Federal Politexnik Məktəbinin tələbələrə ayırdığı təqaüdün miqdarı ildə 5000-16000, İsveçrə hökumətinin əcnəbi tələbələrə ayırdığı təqaüdün məbləği isə ildə 16000-19200 İsveçrə frankı arasında dəyişir. Bundan əlavə, müxtəlif özəl fondlar tərəfindən də tələbələrə təqaüd və qrantlar təklif olunur.

Lozanna Federal Politexnik Məktəbinin kampusu Ekublens şəhərətrafı qəsəbəsində, Cenevrə gölünün sahilində 55 hektar ərazidə yerləşir. Tələbə şəhərciyi təxminən 65 binadan ibarətdir. Burada 1970-1980-ci illərə aid Fundamental Elmlər və Memarlıq, Vətəndaş və Ekologiya Mühəndisliyi, Maşınqayırma və Elektrotexnika məktəblərinin binaları, 1990-cı illərə aid Mühəndislik Elmləri və Texnologiya, Kompyuter və Kommunikasiya Elmləri Məktəbləri institutlarının binası, Elmi Park, 2002-2004-cü illərdə dəb üslubunda tikilmiş Mikrotexnika, Kommunikasiya və Memarlıq institutları, Dəqiq Elmlər Məktəbi və Texnologiyanın İdarəolunması Kollecinin binaları vardır. Ali məktəbin kampusunda 250-dən çox laboratoriya və tədqiqat qrupu var. Məktəbin unikal quruluşu fənlərarası tədqiqatların aparılması və müxtəlif müəssisə və təşkilatlarla əməkdaşlıq əlaqələrinin yaradılmasına imkan yaradır.

Lozanna Federal Politexnik Məktəbinin nəzdində aşağıdakı akademik müəssisələr fəaliyyət göstərir: Fundamental Elmlər Məktəbi; Mühəndislik

Məktəbi; Memarlıq, İnşaat və Ekologiya Mühəndisliyi Məktəbi; Kompyuter və Kommunikasiya Elmləri Məktəbi; Həyat Elmləri Məktəbi; Sosial və Humanitar Elmlər Məktəbi; Texnologiyanın İdarəolunması Kolleci.

Lozanna Federal Politexnik Məktəbində oxumaq üçün abituriyentlər qəbul imtahanı vermir, tam orta təhsil haqqında attestatın (İsveçrədə matura, Almaniyada abitur) olması kifayətdir. Məktəbdə maşınqayırma, əsas elmlər, kompyuter və kommunikasiya, vətəndaş cəmiyyəti quruculuğu, həyat haqqında, ətraf mühit və memarlıq sahələri üzrə bakalavr və magistr səviyyəsində 13 tam tədris proqramı təklif olunur. Həmin proqramlar Bolonya prosesinin tələblərinə cavab verir və bunun nəticəsi olaraq tələbələr mübadilə proqramlarında iştirak etmək imkanı qazanır, onların dərəcələri beynəlxalq səviyyədə tanınır. Məktəb ERASMUS tələbə mübadiləsi proqramında iştirak edir. Məktəbin doktorantları tədqiqatlar aparmaqla yanaşı, həm də bir-birlərinə qarşılıqlı kömək edir, yüksək səviyyədə ixtisaslaşdırılmış kurslarla təhsillərini bitirirlər. Doktorantlar burada zəngin elmi təcrübə və infrastruktur əldə edir.

Bilik və bacarıqlarını möhkəmləndirmək və təkmilləşdirmək arzusunda olan şəxslər üçün bu ali təhsil ocağında Təhsilin Davam Etdirilməsi Məktəbi fəaliyyət göstərir. Məktəbdə geniş spektrdə mühazirə və seminar kursları vardır. Bu modul proqramlar tək fərdi şəxslər üçün deyil, müxtəlif şirkətlər üçün də nəzərdə tutulur. Lozanna Federal Politexnik Məktəbi İsveçrənin NEBIS kitabxanalar şəbəkəsinin üzvüdür. NEBIS kitabxana sisteminə 3 milyondan çox kitab, eyni zamanda nəşr, jurnal, qəzet, Çin nadir kitablar kolleksiyaları, lüğət və ensiklopediyalar, dərsliklər, elmi nəşrlər, məlumatlar bazası, CD və DVD disklər və s. daxildir.

Məktəbdə 4000 nəfər işçi çalışır və 7000-dən çox tələbə təhsil alır. Onların 3700 nəfərini bakalavr, 1600 nəfərini magistrantlar, 1700 nəfərini isə doktorantlar təşkil edir. Son beş ildə qız tələbələrin sayı məktəbdə 30% artıb, müəllim və tələbələrin 50%-ni əcnəbilər təşkil edir. Universitetdə 107-dən çox millətin nümayəndələrinə rast gəlmək olar və bu universitet dünyanın ən kosmopolit universitetlərindən biridir.

İsveçrə dünyanın ən bahalı ölkələrindən biridir və burada yaşamaq insanlara çox baha başa gəlir. Lozanna Federal Politexnik Məktəbində tələbələrin yataqxana ilə təmin olunması məsələsi çətindir, daha doğrusu, burada tələbə yataqxanaları yoxdur. Tələbələr özləri Lozanna şəhərində kirayə mənzil və otaqlar tapmalıdır. Burada bir otaqda bir il qalmaq tələbəyə 7000 İsveçrə frankına başa gəlir.Əlil tələbələr üçün kampusda, eləcə də Vaud kantorunda xüsusi şəraitli yataqxanalar, tədris kabinetləri var və məktəb belə tələbələrə lazımi dəstək göstərir.

Məktəbin kampusunda tələbələrin qidalanması üçün tanınmış restoran və çoxlu sayda kafeləri var. Universitetin yeməkxanalarında qidalanmaq üçün tələbələr ayda 600 İsveçrə frankı xərcləməli olur. Kitab, kompyuter, kalkulyator və s. dərs ləvazimatları üçün tələbə, orta hesabla 1200, geyim və şəxsi

əşyalar üçün ildə 2000, nəqliyyat, sığorta və digər xərclər üçün isə ildə 3500 İsveçrə frankı xərcləyir. Ümumiyyətlə təhsil haqqı və bütün digər xərclər daxil olmaqla tələbəyə bir ilə 22000 İsveçrə frankı lazımdır.

Lozanna Federal Politexnik Məktəbi tələbələrə geniş şəkildə mədəni və idman tədbirləri təklif edir. Bu məqsədlə burada çoxlu sayda qrup və assosiasiyalar yaradılıb. Məktəbdə tələbələrə yüksək səviyyəli tibbi xidmət təklif olunur. Kampusun ərazisində siqaret çəkmək qadağan edilib.

Lozanna Federal Politexnik Məktəbinin məqsədi bütün dünyadan ən bilikli tələbələri cəlb etmək, məzunlarının əmək bazarına çıxışını asanlaşdırmaqdır. Məktəbin məzunları arasında çoxlu sayda dünya şöhrətli alim və iş adamlarına rast gəlmək olar. Lozanna Federal Politexnik Məktəbi dünyada ən aparıcı texnologiya institutlarına çevrilmək üçün səylə çalışır.

**Sürix Universiteti (University of Zurich).** Sürix Universiteti İsveçrənin Sürix şəhərinin mərkəzində yerləşir və ölkənin ən böyük ali məktəbidir.

Böyük Britaniyanın "Times Higher Education Supplement – QS World Universities Rankings" jurnalının 2009-cu ildə apardığı dünya universitetlərinin reytinqinə əsasən, Sürix Universiteti 100 ən yaxşı ali mıktıb arasında Naqoya Universiteti ilə birlikdə 92-ci yerdə sıralanıb. Sürix Universiteti 2010-cu ildə dünyanın ən nüfuzlu universitetləri arasında "Times Higher Education World University Rankings"in açıqlamasına görə 90-cı yerdə, "QS World University Rankings"in reytinq cədvəlində isə 101-ci yerdə sıralanıb. Bu ali məktəb "QS World University Rankings"in 2011-2012-ci tədris ili üzrə tərtib etdiyi reytinq cədvəlində 106-cı yerdə yerləşib.

1833-cü il aprelin 29-da Sürix şəhərində fəaliyyət göstərən İlahiyyət, Hüquq və Tibb kollecləri yeni yaradılmış Fəlsəfə fakültəsi ilə birləşdirilir. Bu birləşmə nəticəsində Sürix Universiteti yaradılır. Yeni açılmış bu universitet Avropada kral və ya kilsə tərəfindən deyil, dövlət tərfindən yaradılmış ilk ali məktəb olur. Fəaliyyətinin ilk ilində universitetə 161 tələbə, 55 müəllim qəbul olunur. 1847-ci ildən universitetdə qız tələbələrə fəlsəfə mühazirələrində iştirak etmək icazəsi verilir və 1866-cı ildə isə ilk qız doktorant qəbul edilir. 1859-cu ildə fakültələr humanitar və dəqiq elmlər sahələrinə bölünür. 1901-ci ildə universitetin bu sahə üzrə ən qədim fakültəsi olan Baytarlıq fakültəsi yaradılır. 1905-ci ildə universitetin tələbələrinin sayı sürətlə artaraq 1000 nəfəri keçir. 1909-cu ildən başlayaraq Albert Eynşteyn Sürix Universitetində iki il nəzəri fizikanı öyrənir və fəlsəfə doktoru dərəcəsi alır.

1912-ci ildə Sürix Universitetinin adı rəsmi olaraq təsdiqini tapır. Bir il sonra universitetin professoru Alfred Verner kimya üzrə Nobel mükafatına layiq görülür. 1914-cü ildə Sürix Universiteti memar Karl Mozer tərəfindən inşa edilmiş yeni binaya köçürülür. Həmin bina əsrarəngiz incəsənət nümunələrindən hesab olunur. 1923-cü ildə universitetin ilk nəşri "Sürix tələbəsi" dərc edilməyə başlanır. 1933-cü ildə Sürix Universiteti yaranmasının 100 illiyini keçirir.

İkinci Dünya müharibəsində Sürix Universiteti çətin vəziyyət yaşasa da, tez bir zamanda öz inkişaf mərhələsinə qədəm qoyur. Bu inkişafın nəticəsi olaraq 1949-cu ildə universitetin professoru Valter Rudolf Hess tibb və fiziologiya üzrə Nobel mükafatına layiq görülür. Universitetin tələbələrinin sayı tədricən artır, maddi-texniki bazası möhkəmləndirilir, yeni tədris proqramları qəbul olunur. 1975-ci ildə universitetin Toksikologiya İnstitutu açılır. 1985-ci ildə universitetdə İnformatika fakültəsinin tələbələrinin sürətlə artması müşahidə olunur. İki il sonra universitetin professoru Aleks Müller fizika üzrə Nobel mükafatına layiq görülür. Artıq 1988-ci ildə ali məktəbin tələbələrinin sayı 20000-i keçir. Onların zox hissəsi Biznes və iqtisadiyyat, Psixologiya və Pedaqogika fakültələrinin tələbələri təşkil edir. 1992-ci ildə universitetdə Hüquq, İqtisadi tədqiqatlar və Politologiya fakültələri fəaliyyət göstərir. Universitet Şərqi Avropa ali məktəbləri ilə əməkdaşlığa başlayır.

1996-cı ildə Sürix Universitetində bir sıra islahatlar həyata keçirilir, müəllimlərin əməkhaqqı və tələbələrə təklif olunan kreditlərin məbləği artırılır. İki il sonra ali məktəbdə Nevrologiya, Dəqiq Elmlər və Beynəlxalq Tədqiqatlar mərkəzləri yaradılır. 2001-ci ildə Sürix Universiteti və İsveçrə Federal Texnologiya İnstitutu əməkdaşlıq haqqında rəsmi sənəd imzalayır. Bir il sonra hər iki ali məktəb "Expo 02" milli sərgisində iştirak edir və nəhəng ada "intellektual məkan" layihəsini həyata keçirir. 2006-cı ildə Sürix Universiteti nüfuzlu Avropa Tədqiqat Universitetləri Liqasına üzv seçilir. 2008-ci ildə Avropanın ən böyük elmi-tədqiqat mərkəzlərindən biri olan Sürix Universiteti yaranmasının 175 illiyini qeyd edir.

2010-2011-ci tədris ilində Universitetin gəlirləri ümumilikdə 1182700000 İsveçrə frankı olub. Həmin vəsaitin 562500000-ni Sürix kantorunun (İsveçrədə inzibati ərazi bölgüsü) ayırdığı yardım, 245300000-ni digər federal kantorların yardımları, 225600000-ni İsveçrə Milli Elm Fondunun ayırdığı, 103200000-ni universitetin göstərdiyi xidmətlər, 24700000-ni təhsil haqqı, qalanları isə digər vasitələr hesabına əldə olunan gəlirlər təşkil edib.

Ali məktəbin xərcləri isə 2009-2010-cu tədris ilində 1166400000 İsveçrə frankına bərabər olub. Bu məbləğin 711100000-ni əməkdaşlar üçün, 452100000-ni müxtəlif kommersiya və təmir-tikinti işləri üçün ayrılan vəsait, qalanları isə başqa xərclər olub.

2011-2012-ci tədris ilində Sürix Universitetində tələbələrin təhsil haqqı bakalavr və magistratura pillələrində 640-690, doktorantura pilləsində isə 140 İsveçrə frankı təşkil edir. Əcnəbi tələbələr göstərilən təhsil haqqından başqa, əlavə olaraq 100 İsveçrə frankı ödəyir. Eyni zamanda təhsil haqqından əlavə, bütün tələbələr semestr ərzində universitetə 49 İsveçrə frankı ödəməlidir. Bu məbləğin 6,50 İsveçrə frankını universitetin Təqaüd Fondu, 15 İsveçrə frankını kitabxana, 25 İsveçrə frankını İdman Təşkilatı, 2,50 İsveçrə frankını isə Tələbə Təşkilatı üzvlüyü üçün yığılan vəsait təşkil edir. Universitetdə bir ay təhsil almaq üçün tələbəyə təxminən 1700-2000 İsveçrə frankı lazımdır.

Həmin vəsaitə otaq (istilik sistemi daxil olmaqla 550 İsveçrə frankı), telefon və internet (200 İsveçrə frankı), dərs vəsaitləri (50-150 İsveçrə frankı), qidalanma (400 İsveçrə frankı), tibbi sığorta (250 İsveçrə frankı), nəqliyyat (80 İsveçrə frankı), eləcə də şəxsi xərclər (220-250 İsveçrə frankı) daxildir.

Sürix Universitetində ailə büdcəsi ildə 86000-300000 İsveçrə frankına bərabərdir və bu həcmdən az olan halda tələbələr təqaüd almaq hüququna malikdir. Sürix Universitetinin əcnəbi tələbələr üçün Həmrəylik Fondu maliyyə durumu çətin olan tələbələr üçün və yüksək təhsil nəticələri göstərən əcnəbi tələbələrə ayda 650 İsveçrə frankı dəyərində subsidiya ayırır. İsveçrə dövləti tərəfindən əcnəbi tələbələrə İsveçrə Federal təqaüdü təklif olunur. İsveçrə Federal təqaüdü magistrant və doktorantlar üçün nəzərdə tutulur. Bu təqaüdün həcmi tələbənin semestr ərzində göstərdiyi nəticələrdən asılı olaraq artırılır.

Sürix şəhəri İsveçrə Konfederasiyasının ən böyük şəhəridir və ölkənin şimal-qərbində Sürix gölünün ətrafında yerləşir. Limmat çayı şəhəri iki yerə ayırır, şəhər rütubətli kontinental iqlimə malikdir. İki milyona yaxın əhalisi olan şəhər dünyanın ən iri maliyyə mərkəzlərindən hesab olunur. Burada çoxlu sayda iqtisad institutları, nəhəng banklar, eləcə də elmi-tədqiqat mərkəzləri yerləşir. Sürix dünyanın ən keyfiyyətli həyat tərzinə malik və ən varlı şəhərlərindən biridir. Şəhərin görməli yerlərindən Sürix gölünü, Sürix İsveçrə milli muzeylərini, Rietberq, Tram, Guild muzeylərini, Qrossmünster, Fraumünster, Müqəddəs Pyotr kilsələrini, Zoologiya, Botanika, Çin, Uotilberq bağlarını, eləcə də çoxlu sayda gözəl memarlıq nümunələrini qeyd etmək olar. Sürix mədəniyyət, opera, balet, teatr şəhəridir. Universitetin binaları Sürix şəhərinin bütün yerlərində yerləşir. Tibb Tarixi İnstitutu və Muzeyi universitetin bir hissəsidir. Universitetdə 6 fakültə və bir məktəb fəaliyyət göstərir: İlahiyyət fakültəsi islahatçı ilahiyyətçilər hazırlayır. Fakültə ilahiyyət və dinşünaslıq üzrə tədqiqatlar həyata keçirir. Fakültədə "əhdi-ətiq", "əhdi-cədid" (İncilin və başqa xristian dini kitablarının adı), Kilsənin tarixi, Dini etika, Praktiki ilahiyyət, Dinşünaslıq, Yaxın Şərqin dini tarixi, Qədim xaçpərəstlik, Qədim yəhudi dini, İncilin öyrənilməsi, Yəhudi dili və ədəbiyyatı, Hermenevtika, Dini təhsil, Dini fəlsəfə, Dinşünaslıq, Sistematik və praktiki ilahiyyət, Etika proqramları öyrədilir.

Hüquq fakültəsi universitetin nüfuzlu fakültələrindən biridir. Burada elmi iş və qanun məsələləri üzrə tədqiqatlar aparılır, hüquq ixtisası üçün lazımlı hesab edilən baza biliklər əldə olunur. Məktəbdə bakalavr, magistratara, doktorantura pillələri təklif olunur.

İqtisadiyyat fakültəsi iqtisadiyyat üzrə yeni elmi nəzəriyyə və metodların işlənməsi, onların öyrənilməsi məqsədini özündə əks edir. Eyni zamanda məktəb iqtisadiyyat, siyasət və digər elmi sahələr üzrə idarəetmə ixtisasları təklif edir. Bakalavr, magistratura və doktorantura pillələri üzrə məktəbdə İqtisadiyyat, Menecment, Bank işi və maliyyə, İnformatika proqramları təklif

olunur. Fakültənin nəzdində İqtisadiyyat, Menecment, Bank işi və maliyyə, İnformatika institutları fəaliyyət göstərir.

Riyaziyyat və dəqiq elmlər fakültəsinin Qeyri-üzvi kimya, Fizika, Təkamül biologiyası və təbiətdən istifadə, Coğrafiya, Riyaziyyat, Molekulyar biologiya, Bitkilərin biologiyası, Sistematik botanika, Üzvi kimya, Fiziki kimya, Nəzəri fizika, Paleontologiya bölmələri, Antropologiya Muzeyi daxildir. Universitetin Tibb Məktəbi ilə Riyaziyyat və dəqiq elmlər fakültəsi, Biokimya, Molekulyar Onkologiya, Fiziologiya institutları, Texnologiya İnstitutu ilə birlikdə Neyro-İnformatika İnstitutları fəaliyyət göstərir.

İncəsənət fakültəsi 1833-cü ildə yaradılıb. Həmin dövrdə fakültədə fəlsəfə, klassika (yunan və latın dilləri və mədəniyyətləri), tarix kimi humanitar sahələr əhatə olunur. Sonradan fakültəyə filologiya, sosiologiya, incəsənət, musiqi və digər elmlər əlavə olunur, filologiya və tarix fənlərinin istiqamətləri genişlənir. Hazırda bu fakültə universitetin sürətlə inkişaf edən fakültələrindən biridir. Fakültənin Ümumi dilçilik, Ümumi və müqayisəli ədəbiyyatşünaslıq, Slavistika, Alman, İngilis, Hind-Avropa, Hindologiya, Şərqi Asiya (Yaponiya və Çin), Fəlsəfə, Psixologiya, Pedaqogika, Tarix, Klassika, Filologiya, Şərqşünaslıq, Musiqi, Sosial antropologiya, Film tədqiqatları departamentləri, Arxeologiya və Arxeoloji Kolleksiyalar, Kompyuter Linqvistikası, Orta və Peşə Təhsili, Xüsusi Təhsil, Bədii Tarix, Siyasi Elmlər, Kommunikasiya və KİV, Sosiologiya institutları, Fonetik laboratoriyaları fəaliyyət göstərir.

Vetsuisse fakültəsi 3 departament, 11 institut və Sürix Baytarlıq xəstəxanasından ibarətdir. Bunlar kiçik heyvanlar departamentləri, Baytarlıq, Baytarlıq Biokimyası və Molekulyar Biologiya, Baytarlıq Fiziologiyası, Heyvanların Qidalanması, Baytarlıq Bakteriologiyası, Parazitologiya, Virusologiya, Baytarlıq Epidemiologiyası, Baytarlıq Patalogiyası, Farmakologiya və Toksikologiya, Qida Məhsullarının Təhlükəsizliyi və Gigiyena, Heyvandarlıq Laborator Elmlər institutlarıdır. Fakültədə təkcə heyvanların xəstəlikləri deyil, insan sağlamlığı, ətraf mühitin patogen mikroorqanizmlərdən mühafizəsi, heyvan və insanların xəstəliklərinin biotibbi tədqiqatları öyrənilir. Tibb Məktəbi bu sahə üzrə İsveçrənin ən böyük məktəbidir. Məktəbə Anatomiya, Angiologiya, Oftalmologiya, Biokimya, Dermatologiya, Endokrinologiya, diabet və kliniki qidalanma, Qastroenterologiya və hepatologiya, Kliniki mamalıq, Ginekologiya, Gematologiya, Ailə tibbi, Ürək-damar cərrahiyyəsi, İmmunologiya, İnfeksion xəstəliklər və epidemiologiya, Kardiologiya, Çənə-üz cərrahiyyəsi, Kliniki Əczaçılıq və toksikologiya, Neonatologiya, Nefrologiya, Neyrocərrahiyyə, Nevrologiya, Nüvə tibbi, Qulaq, burun, boğaz və boyun cərrahiyyəsi, Onkologiya, Farmakologiya və Toksikologiya, Fiziologiya, Plastik cərrahiyyə, Pulmonologiya, Psixiatriya və psixoterapiya, Radioonkologiya, Döş, zədə cərrahiyyəsi, Urologiya, Transplantasiya, Stomatologiya, Pediatriya departamentləri, Anesteziologiya, Biotibbi Etika, Biotibbi Mühəndislik, Diaqnostik və Müdaxilə Radiologiyası, Eksperimental İmmu-

nologiya, Kliniki Kimya, Kliniki Patalogiya, Tibbi Genetika, Tibbi Mikrobiologiya, Tibbi Molekulyar Genetika, Virusologiya, Molekulyar Onkologiya, Nevropatalogiya, Tibbi Məhkəmə, Reproduktiv Endokrinologiya, Revmatologiya və Fiziki Tibb, İctimai və Profilaktik Tibb institutları, Sürix Uşaq, Psixiatriya xəstəxanaları daxildir.

Universitetdə bakalavr pilləsində dərslər, əsasən, alman dilində keçilir. Lakin son zamanlar ingilis dilində tədris olunan proqramların sayı artır. Dəqiq elmlər və biznes sahələri üzrə ingilisdilli proqramlar çoxluq təşkil edir.

Universitetin kitabxanası əsas, mərkəzi və bir neçə köməkçi kitabxanalara bölünüb. Əsas kitabxanada dəqiq elmlər, riyaziyyat və tibb sahələrini əhatə edən kitablar toplanıb. Mərkəzi kitabxana geniş kütlə üçün nəzərdə tutulub. Kitabxanadan təkcə universitetin tələbələri deyil, şəhər sakinləri və digər ali məktəblərin tələbələri də istifadə edə bilər. Kitabxanada bütün sahələrə aid kitablar var və ümumilikdə kitabxanalarda 5 milyon cilddən çox kitab vardır. Universitetdə fakültələrin, Tibb Məktəbinin və institutlarının da kitabxanaları fəaliyyət göstərir.

Sürix Universitetinin struktur məsələləri ilə ali məktəbin rektoru, akademik məsələlər, elmi tədqiqatlar, tədris, fakültə, Tibb Məktəbinə aid olan işlər və başqa məsələlərlə üç vitse-rektor məşğul olur. Universitetin maliyyə, insan resursları və infrastruktur məsələlərinə inzibati işlər üzrə direktor nəzarət edir. Universitetin əməkdaşlarının ümumi sayı 5382 nəfərdir. Əməkdaşların 507 nəfəri professor, 2897 nəfəri elmi-pedaqoji, 1977 nəfəri isə inzibati-texniki işçilərdir. Sürix Universitetinin 15-dən çox professoru Nobel mükafatına layiq görülüb.

Sürix Universitetində ümumilikdə 26168 nəfər tələbə təhsil alır. Tələbələrin 14754 nəfərini qızlar təşkil edir. Ən çox tələbə İncəsənət fakültəsində qeydə alınıb (12482). Tələbələrinin sayına görə ikinci yerdə Hüquq (3720), üçüncü yerdə isə (3228) Riyaziyyat və dəqiq elmlər fakültəsi durur.

Universitetin yataqxanaları yoxdur. Tələbələrin məskunlaşması məsələsi ilə digər müxtəlif müəssisələr məşğul olur. Yaşayış yerlərinə tələbat çox olduğundan tələbələr əvvəlcədən axtarışa başlamalıdır. Sürix Universitetinin tələbələri ilk anda İsveçrə Federal Texnologiya İnstitutunun yataqxanalarından istifadə edə bilər. Tələbələrə xidmətlər təklif edən müxtəlif agentliklər yataqxana bülletenləri çap edir. Burada agentliklərin təklif etdiyi mənzil və evlər, onların qiymətləri, qoyulan şərtlər haqqında məlumatlar öz əksini tapır.

Sürix Universiteti bəşəriyyətin mədəni, sosial, iqtisadi inkişafında ən mühüm xüsusiyyətə malik elmi-tədqiqat mərkəzinə çevrilmək, Avropa və dünya kontekstində bu sahədə aparıcı yer tutmaq məqsədini daşıyır.

## YAPONİYADA TƏHSİL

1947-ci ildə qəbul edilmiş "Təhsil haqqında əsas qanun"a görə 9 illik təhsil ümumi, pulsuz və icbari olmalıdır. Lakin ölkədə pullu xüsusi məktəblərin olması, orta məktəblərin yuxarı siniflərində və ali məktəblərdə pullu təhsil haqqında qanunvericilikdə demokratik prinsiplərin ardıcıl olmadığını göstərir. 1975-ci ildə Yaponiyanın 13,1 min uşaq bağçasında 2,2 milyon uşaq tərbiyə olunurdu. 1975/76-cı dərs ilində 22,7 min ibtidai məktəbdə (təhsil müddəti 6 il), 14,5 min orta məktəbdə (təhsil müddəti 6 il), 7952 texniki peşə məktəbi və kursunda 1,2 milyon şagird oxuyurdu. Ali təhsili universitetlər və kolleclər verir. 1975/76-cı dərs ilində 420 universitetdə 1,7 milyondan çox tələbə təhsil alırdı. 578 kollecdə təqribən 402 min tələbə oxuyurdu. Böyük kitabxanaları: Milli Parlament Kitabxanası (1948; 6,5 milyondan çox kitab), Tokio Universiteti Kitabxanası (1887; 4 milyondan çox kitab), Kioto Universiteti kitabxanası (1899; 3,4 milyondan çox kitab) və s. Böyük muzeyləri: Tokioda Milli muzey (1871), Okyra Syukokan muzeyi (1917), Milli elmi muzey (1877), Milli müasir incəsənət muzeyi (1952), Kiotoda Milli muzey (1889), Müasir incəsənət qalereyası (1963) və s.

Yaponiyada elmi fikirlərin inkişafı qədim dövrlərdən başlanmışdır. Bu, kənd təsərüfatı, təbabət və sənətkarlığın inkişafı, həmçinin Çin və Koreya mədəniyyətinin təsiri ilə əlaqədar idi. 7-ci əsrin ikinci yarısında neft, sürmə və qalay yataqları kəşf edildi, metallurgiya və kağız istehsalı inkişaf etməyə başladı. 675-ci ildə Asugedə rəsədxana tikildi, 8-ci əsrdə isə Yaponiya hesabı – tikusaku yaradıldı. Təqribən 840-cı ildə kitab nəşrinə başlanıldı. 10-cu əsrin əvvəlində S.Fukas Yaponiyanın heyvan və bitki aləminə dair 18 cild kitab yazdı. X əsrin ortalarında Yaponiya əyalətlərinin coğrafi təsviri başa çatdırıldı. 14-cü əsrin əvvəlində "Tibb haqqında qeydlər" (50-ci ildə) nəşr edildi. 16-cı əsrdə Yaponiyada çini istehsalına başlanıldı. 17-ci əsr – 18-ci əsrin əvvəllərində Yaponiyada Milli elmi məktəblər təsis edildi. 1744-cü ildə Edoda da rəsədxana yaradıldı. Riyaziyyat, astronomiyası, geodeziya, botanika, fizika, kimya, tibb sahəsində mühüm işlər görüldü. 19-cu əsrdə Yaponiyada dövlət universitetlərinin (Sapporoda, Tokioda və s.) və xüsusi (Rikkyo, Qakusyuin, Dosisya və s.) universitetlərinin əsası qoyuldu. Bu dövrdə mərkəzi meteoroloji rəsədxana, hərbi topoqrafiya şöbəsi, elektrotexnika laboratoriyası və s. yaradıldı. Tətbiqi elmi-tədqiqat işlərinin təşkilində Texnika Nazirliyi (1870-1985) mühüm rol oynadı. Astronomiya, geomaqnetizm və geologiya sahəsində sistematik tədqiqatlar aparıldı. Yaponiya alimlərinin mikrobiologiyaya

və infeksion xəstəliklərə dair işləri dünya şöhrəti qazandı. 20-ci əsrin birinci yarısında Sendayda (1907), Fukuokada (1911), Osakada (1931) və s. yeni universitetlər təsis edildi. 1920-ci ildə Yaponiya Elmi – Tədqiqat Şurası, 1932-ci ildə Elmi Naliyyətləri Mükafatlandırma Cəmiyyəti yaradıldı. Riyaziyyat, fizika, kimya, biologiya, tibb, zoologiya, geologiya və coğrafiya sahəsində mühüm nailiyyətlər əldə edildi. H.Yukava mezon nəzəriyyəsini işləyib hazırladı, X.Naqaoka (SSRİ EA xarici fəxri üzvü, 1930) və S.Kaya Naqaoka (SSRİ EA xarici fəxri üzvü, 1958) maqnetizmə dair mühüm nəticələr aldılar. Tətbiqi elmi tədqiqat işləri xüsusi kompaniyaların tədqiqat və konstruktor bölmələrində və universitetlərin elmi-tədqiqat institutlarında aparıldı. 1928-ci ildə Yaponiyada ilk eksperimental televizor quraşdırıldı. Müzakirələr dövründə elmi mərkəzlərin fəaliyyəti hərbi sənayenin və ordunun tələbatını ödəməyə istiqamətlənmişdir.

1945-ci ildən sonra isə elmi-tədqiqat işlərinin istiqaməti dəyişdi. Yaponiyada elmi Şura (1949), Elm-Texnika İdarəsi (1956), Elm və texnika şurası (1959) təşkil edildi. Atom fizikası, molekulyar fizika, sahənin kvant nəzəriyyəsi (Sinyitiro Tomonagi, Nobel mükafatı, 1965), yarımkeçiricilər elektronikası (Esaki Leo, Nobel mükafatı, 1973) sahəsindəki tədqiqatlar geniş inkişaf etməyə başladı. Kimya, xüsusilə radiokimya, biokimya, polimerlər kimyası, biologiya və tibb sahəsindəki işlər dünya şöhrəti qazandı. Yaponiya geologiya – coğrafiya elmləri üzrə elm mərkəzlərindən biridir. Yaponiyada vulkanologiya, seysmologiya, tayfun və sunamilərin öyrənilməsi sahəsində mühüm işlər görülür. 1971-ci ildə "Vityaz" (SSRİ) və "Hokuho – Maru" elmi-tədqiqat gəmiləri birgə sualtı seysmik təcrübələr həyata keçirmişdir. 1977-ci ildə Yaponiya, keçmiş SSRİ və ABŞ alimləri Dünya okeanının ən dərin yerlərindən birində – Yapon çökəkliyində qazma işlərinə başlamışlar. Yaponiya alimləri Arktika və Antarktikada kompleks tədqiqat işləri aparmışdır. 1950-ci illərin ortalarında Yaponiyada kosmik proqramlar işlənib hazırlanır. Tokioda Aeronavtika və Kosmik Fəzanın Tədqiq İnistitutu (1964) təsis edilmiş, Yerin ilk Yaponiya süni peyki buraxılmışdır (1970). 1960-cı illərdən Yaponiyada sənayenin bir sıra sahələri (radioelektronika, hesablama texnikası, atom energetikası, gəmiqayırma, maşınqayırma, dəzgahqayırma, dəqiq sihazqayırma, neft kimyası və s.) üzrə tədqiqat işləri aparılır.

Müasir yapon məktəbinin tarixi XIX əsrin ikinci yarısından başlayır. Onun fəlsəfi əsasları əsrin dərinliklərinə gedir.

Yaponlar həmişə təhsilə maraqları və baxışları ilə fərqlənmişlər. Onlar yapon təhsilini yaratmaq üçün İngiltərə, Fransa, Prussiya (müharibəyə qədər), Amerika (müharibədən sonra) nümunəsini tətbiq etmişlər. Yaponlar İngiltərənin elitar təhsil sistemini yox, ABŞ-ın ümumi təhsil sistemi modelini qəbul etdilər. Yapon orta təhsili strukturası Amerika məktəblərinə oxşasa da, mahiyyətinə və keyfiyyətinə görə təkraredilməzdir.

1872-ci ildə ölkədə ilk dəfə ibtidai, orta və ali məktəbləri birləşdirən vahid təhsil sistemi yaradılmışdır. 1900-cu ildə Yaponiyada dördillik ibtidai məktəb üçün təhsil haqqı ləğv edildi. Əvvəl 4 illik icbari təhsil, 1907-ci ildə isə 6-illik icbari təhsil tətbiq edildi. XX əsrin birinci onilliyində uşaqların 99%-i 6-illik məktəblərdə təhsil alırdı.

Yaponiyada ümumi təhsilin başqa strukturu da vardır. Şagirdlər ibtidai məktəbdə birinci pillədə altıillik təhsil alır, ikinci pillədə isə üçillik orta məktəbi bitirirlər. 1877-ci ildə Yaponiyada ilk ali tədris müəssisəsi kimi Tokioda Universitet açıldı. 1886-cı ildə o, İmperiya Universitetinə çevrildi. 1897-ci ildə ikinci imperator Kyota universitetini açdı. Həm də dövlət universitetlərindən başqa, özəl universitetlər də yaradıldı. 1995-ci ildə Yaponiyanın 499 universitetində 2 milyona yaxın tələbə təhsil alırdı.

Yaponiyada orta təhsil 6 yaşından başlayaraq 3 mərhələdə aparılır. 18 yaşında məktəbi bitirdikdən sonra məzunlar universitetlərə (4 illik təhsil) və ya kolleclərə (2 illik təhsil) daxil olmağa səy göstərirlər. Məktəblilərin bir hissəsi orta məktəbin birinci pilləsini (15 yaşında) bitirdikdən sonra beşillik texniki kollecə daxil olur. 3 yaşından 6 yaşınadək uşaqlar uşaq bağçasında tərbiyə alırlar. 1970-ci ildə 56,7% yaponiyalı birinci pillə orta məktəbi, 34,1%-i ikinci pillə orta məktəbi bitirmiş və 8,9%-i ali təhsil almışdır. 1982-ci ildə 94,2% şagird ikinci pillə ali məktəbə, 37,4%-i isə universitet və kolleclərə daxil olmuşdur.

Yapon məktəblərində, xüsusən ibtidai məktəblərdə valideynlərə, yaşlılara hörmət və dostluğa inam tərbiyə edilir. Bu cür tərbiyə yaponların psixikasında böyük izlər qoyur. Yaponiyanın keçmiş baş naziri Tanaka yazır ki, yaşa dolmağıma baxmayaraq, həmişə ibtidai məktəbdə məndə həkk olunmuş düşüncələrə uyğun necə yaşamağı fikirləşirəm.

Viktor Muxanov: Yaponiya nədir? Şərq təkbətək döyüşünün vətənidir (dünya üzrə həyəcanlı döyüş kinofilmlərinin çoxsaylı tamaşaçıları belə deyərdi). Ştatlardan sonra, bir sıra göstəricilər üzrə artıq keçmiş qalibləri ötüb keçmiş (xüsusən dünya bazarına çıxarılan ucuz və keyfiyyətli avtomobillər və elektronika sahəsində) ikinci tanınmış nüfuzlu dövlətdir. Masuo Basyo və Sey Syonaqon, Kendzaburo Oe və Yasunari Kavabata, Kobo Abe və Yukio Misima, habelə neske və bonsay, ikebana və oriqami, xayku və tanka sənətləri dünyada ilk dəfə Yaponiyada yaranmışdır. Bu (yalnız naşılar üçün deyil) şərq ölkəsinin mahiyyətini müəyyən etmək sirli cəhdi yalnız zamandan törəyən bəzi fikirlərdir. Doğan günəş ölkəsilə artıq doğmalaşmış, milli mentalitetin və xüsusiyyətin kənar şəxslər üçün hiss edilməz mahiyyətini, mücərrəd "dil daşıyıcısı"nın deyil, insanlar arasında gündəlik həyatın qamaşdırıcı ətrini canına çəkmiş insanın sübutları, yəqin ki, bizim üçün daha qiymətli olar.

SİTA-nın Yaponiyada uzun müddət müxbiri işləmiş, həmin ölkə barədə bir çox maraqlı kitablar nəşr etdirmiş Konstantin Georgiyeviç Preobrajenski ilə bəzi fikir mübadiləsi aparmaq çox maraqlıdır.

Ondan Yaponiya ilə necə tanış olduğu barədə soruşanda deyib:

– Mən Asiya və Afrika institutunun Yaponiya şöbəsini bitirmişəm (1970-ci ildə qəbul olmuşam). Ümumiyyətlə, yapon dilini məhəbbətsiz öyrənmək olmaz. Tokay universitetində 1975-1976-cı illərdə aldığım təhsil mənim Yaponiyaya məhəbbətimi daha da gücləndirdi və həmin ölkəni daxildən görmək imkanı yaratdı. Mən SİTA-nın Yaponiyada müxbiri oldum və bu sənət yaponların ən müxtəlif təbəqələrilə ünsiyyət üçün mənə yol açdı. Mən Yaponiyanın qabaqcıl ölkə olmasının səbəbini anlamağa çalışırdım. Yəqin ki, ən əsas məsələ təhsil sistemi idi və buna görə də bu istiqamətdə yol açdım. Məktəblilərlə ünsiyyət saxladım, anketləşdirmə apardım, onların nəticələrinə əsaslanaraq "Necə yaponiyalı olmalı" kitabını yazdım və bu kitab Yapon təhsil sistemi haqda SSRİ-də ilk kitab oldu. Mənim birinci kitabım "Bambuk qılınc" ("Sərhədçi", 1982) adlanırdı. İkincisinin "İdman kimonosu", 1985 (O, yapon idmanı, adi idman yox, onun dini, fəlsəfi, tarixi aspektləri barədə söhbət gedirdi), daha sonra "Necə yapon olmalı" ("Molodaya qvardiya", 1989), "Naməlum Yaponiya" (1993), "Yaponiyanı sevmiş casus" (bu kitab orada 1994-cü ildə nəşr edilmişdir) adları altında nəşr olundu. Nəhayət, bu yaxınlarda altıncı kitabım Moskvada çapdan çıxdı. O, "DTK Yaponiyada" adlanır.

Konstantin Georgiyeviç "Şəxsi təcrübənizə əsaslanaraq keçmiş SSRİ-i və indiki Rusiya təhsil sistemlərini Yaponiya təhsil sistemi ilə müqayisə edə bilərsinizmi?" sualına belə cavab verib:

– İndiki Rusiya və keçmiş SSRİ-nin təhsil sistemləri hər halda bir-birindən fərqlənir. Rusiya sistemi azacıq da olsa yaxşıdır, fərqə gəldikdə isə, Sovet məktəblərində təhsil alanlar və sovet vaxtı yaşayanlar yəqin ki, mətbuat səhifələrində gedən sxolastik mübahisəni xatırlayırlar: "Uşaq üçün kim daha əhəmiyyətlidir: ailə və ya məktəb? Kim tərbiyə etməlidir: ailə və ya məktəb?" Bu təsadüfi sual deyildi. O, Sovet cəmiyyətində ailə böhranını əks etdirirdi. Çox saylı repressiyalar, müharibələr olmuşdu və bir çox insanlar ailəsiz tərbiyə almışdır; geniş uşaq evləri sistemi mövcud idi. Bolşeviklər hakimiyyətə gələn zaman məktəblilərin ailəvi deyil, ümumdövlət təhsil sistemini planlaşdırmışdır, ona görə də gizlində (örtülü şəkildə) hesab edilirdi ki, ən əsas – dövlətdir. Ailə isə zavod və fabriklərdə işləyərkən yalnız kommunizm quruculuğu üçün maddi nemətlər yaradılması ilə məşğul olmalıdır. Bütün digər Rusiya mübahisələri kimi, o, həll edilmədi – ya ailə, ya məktəb, ya da dövlət öz payını (uşağın tərbiyyəsinə – V.M.) vermədi. Dövlət uşaqların tərbiyəsini ailənin, ailə isə dövlətin üzərinə itələyirdi. Siz bildiyiniz kimi, bizim ölkədə çox miqdarda natamam və alkoqolik ailələr vardır. Yaponiyada bunların heç biri yoxdur. Yaponiyada ailə pərəstişi mövcuddur. Dövlət pərəstişi də vardır, lakin ailə daha əhəmiyyətli hesab edilir. Dövlətin konsepsiyası belədir: bütün dövlət – ailədir, imperator – millətin atasıdır, orada hamısı – ailədir (bizim ölkədə isə belə idi: yalnız kommunist partiyası ailədir, hətta o da tamam yox, iyerarxiya strukturu üzrə). Odur ki, Yaponiyada ailə və məktəb tərbiyəsi bir – birindən az fərqlənir. Ailə tərbiyəsi məktəb tərbiyəsi ilə həmahəngdir. Belə-

liklə, fərq ondan ibarətdir ki, Yaponiyada ailə ən əsas hesab edilir, Sovet İttifaqında isə ən əsas kommunist (soveti) dövləti hesab edilirdi.

Sual: – Yapon təhsil sistemində hansısa istiqamətlər, axınlar mövcuddurmu?

Konstantin Georgiyeviç bildirir ki, yapon təhsil sistemində heç bir axın yoxdur. O, inifikasiya edilmişdir (vaxtilə Sovet sistemi inifikasiya edildiyi kimi). Orada özəl və dövlət məktəbləri var, lakin dövlət məktəbləri daha yaxşı və nüfuzlu hesab edilir. Bu onunla əlaqəlidir ki, orada tədrisin ümumi şəraiti uşağın imtahanlara hazırlaşmasına xidmət edir. Bizim Rusiyada rütbələr üçün imtahan sistemi olduğu kimi (Çexovun hekayələrində bu yaxşı görünür), Yaponiyada o, indi də bütün rütbələr üzrə saxlanmışdır. Yaponiyada protensionizm (himayəçilik) anlayışı yoxdur, Sovet İttifaqında isə bu anlayış daha çox yayılmışdı. Hətta indiki Rusiyada da yayılmış və düzgünlüyə doğru aparmır, ona görə ki, himayəçilik kadrları ən zəif kadrlardır. Orada isə hər kəs özü çalışmalıdır. Aydındır ki, onların heç birində məişət çətinlikləri yoxdur, bizim Sovet dövlətində isə çalışmaq, məişət çətinliklərini aradan qaldırmaq əsas məsələlərdən biri idi. Onlarda yalnız təhsilin çətinlikləri mövcuddur, ona görə də hər kəs ona görə təhsil alır ki, imtahanı müvəffəqiyyətlə versin və onun birinci, ikinci və ya üçüncü dərəcəyə (sıraya) qəbul olunması aydın olur. Sonra nüfuzlu və ya az nüfuzlu instituta qəbul olunur. Bu onun bütün gələcək həyatını müəyyən edəcəkdir. Əgər o, yaxşı təhsil alarsa, onda Tokio Dövlət Universitetinə (keçmiş imperator universitetinə) qəbul olunacaqdır. Universiteti bitirdikdən sonra onu nüfuzlu dövlət xidməti gözləyir. Bu onlarda karyeranın zirvəsi hesab edilir. Əgər nisbətən zəif təhsil alarsa, onda özəl universitetə qəbul olunur, burada təhsil çox bahadır, lakin əvəzində tələb azdır. Belə diplomun nüfuzu müəssisələrdə aşağıdır, onu nüfuzlu işə qəbul etməyəcəklər. Əgər o, instituta qəbul olunmasa, onda qulluqçu və ya fəhlə olaraq qalacaq, ancaq ona münasibət də müvafiq surətdə olacaqdır. Bütün cəmiyyət uşaqlıqda imtahanı necə verməsindən asılı prinsip üzrə parçalanır. Odur ki, hələ uşaq bağçasından güclü rəqabət başlanır (yeri gəlmişkən, bizim ölkədə də belə sistem yaranır). Bütün məktəblilər repetitorlarla məşğul olurlar. Yaponiyada repetitorluqla məşğul olan özəl məktəblər mövcuddur. Məktəblilərin hamısı dərs günü qurtardıqdan sonra oraya gedirlər. Bax, bu da xüsusiyyətlərin hamısıdır. Yaponiyada (Amerikadakı kimi) korrupsiyanın yolverilməzliyi prinsipi müqəddəs hesab edilir. Valideynlər bu işə heç cür qarışmır və uşağı instituta düzəltmirlər. Ona görə ki, bu rüsvayçılıq hesab edilir. Odur ki, yapon məktəblisinin həyatı çox ağırdır (yeniyetmə yaşından başlayaraq). Eyni zamanda elə özəl məktəblər var ki, orada səni avtomatik olaraq imtahansız qəbul edəcəklər, lakin müvafiq surətdə siz artıq gələcəkdə yüksək mövqe tutmayacaq və maddi cəhətdən də əziyyət çəkməyəcəksiniz.

Sual: – Doğrudur ki, sinto, dzen, busido kimi anlayışlar yapon təhsilinin əsasını təşkil edir?

Konstantin Georgiyeviç: Yox, yox, yox,... nə o, nə də üçüncüsü (gülür). Onlarda hər şey Avropadan, ilk növbədə Almaniyadan Meydzi burjua inqilabından sonra mənimsənilmişdir. Dzen xalis dini cərəyandır və məktəbə qətiyyən heç bir təsir göstərmir. Busido müəyyən dərəcədə təsir göstərir, ona görə ki, busido zadəganın – samurayın şərəf məcəlləsidir. Busidonun məktəbə təsiri dedikdə, şagird çətinliklərdən çəkinməməli, şikayətlənməməli, yəni burada yaponun mənəvi mətanəti tərbiyə edilir. Sintonu isə din kimi bizim xristianlıqdan əvvəlki slavyan bütpərəstilik dini ilə müqayisə etmək olar. O, müəyyən dərəcədə imperatora hörmət pərəstişi tərbiyələndirir.

Sual:-Yaponiyada ingilis dilinə necə qiymət verilir?

Konstantin Georgiyeviç: - Təəssüf ki, yaponlar xarici dilləri çox pis mənimsəyir, yalnız indiki nəsil (indi yaşı 30 olanlar) bir qədər bu barədə seçilir. Mən tələbə olduğum zaman rus dilini bilən məşhur yapon professorlarını görmüşdüm, onlar "Anna Kareninanı", "Hərb və sülh"ü yapon dilinə tərcümə etmişlər. Şifahi nitq onlarda çox pis idi, rus dilində heç bir söz bilmir, ancaq bu dildə yazı yazmaqla kifayətlənirlər. Çünki, dörd yüz il ərzində yaponların başqa ölkələrlə heç bir əlaqəsi və xarici dillərin tədrisi olmamışdır. İndi orada ingilis dili yayılmışdır, çünki Amerika vaxtilə Yaponiyanı işğal etmişdi. Yalnız müharibədən sonra oraya Avropa və Amerikanın ənənələrinin elementlərini gətirmişlər. İndi yaponlar ingilis dilinin təzyiqinə qarşı mübarizə aparır ki, öz dillərində deyilə bilən sözləri ingiliscə tələffüz etməsinlər.

Sual:-Həqiqətən Yaponiyada ictimai kollektivdə mənafelər üstünlük təşkil edir, şəxsiyyət isə hər cür boğulur?

Konstantin Georgiyeviç: — Bəli, məhz belədir. Lakin bizim Rusiyada da şəxsiyyət, mənafelər həmişə boğulurdu. Bizim Rusiya Yaponiyaya çox oxşardır. Yaponiya Asiya ölkəsidir, Avropa sivilizasiyası yoluna məcburi keçmişdir. Yaponiyada da, Rusiya kimi şəxsiyyətə lazimi dərəcədə üstünlük verilmir. Bəli, orada hər şey qəbilə (klan) məqsədlərinə tabe edilmişdir. İnsan hər hansı firmaya (o, ailə adlanır) işə girdikdə ona tam tabe olmalıdır. Təbii ki, orada da mafioz ailələr var. Təsadüfü deyil ki, bizim Rusiyada da "Ailə" sözü meydana gəlmişdir (doğrudur, Sovet İttifaqında da "Ailə" sözü var idi, o, Brejnevin çox böyük şaxələnmiş ailəsinə aid edilirdi).

Sual:-Fəhlə və qulluqçunun təhsil peşəkarlığı və əməyin yüksək səmərəliliyi arasında əlaqə barədə danışmaq olarmı?

Konstantin Georgiyeviç: – Əlbəttə, olar. Onlarda fəhlə elə çox incə prosedurlar edə bilir ki, onları bizimkilər edə bilməz. Başqa sözlə, yapon texnikasının öz milli xüsusiyyəti vardır. Mən uzun müddət elmi-texniki kəşfiyyatda işləyərkən yəqin edə bildim ki, kəşfiyyatçılarımız tərəfindən oğurlanmış yapon texnikası və texnologiyaları bizim şəraitə uyğun gəlmir. Ona görə ki, onlar çox zərifdir və yalnız yapon fəhlələri, yapon mühəndisləri üçün hesablanmışdır.

Sual:-Doğrudur ki, yaponun təhsil alması, demək olar ki, onun bütün həyatını əhatə edir və heç vaxt dayanmır?

Konstantin Georgiyeviç: – Bəli, məhz elədir. Orada hətta insanın bütün həyatı boyu təhsil alması haqqında dövlət konsepsiyası işlənib hazırlanmış və parlament tərəfindən qəbul edilmişdir. Bu ölkədə hamı təhsil alır və bu, onlara böyük bir zövq verir. Ümumi təhsil, ümumi bilik qazanmaq Meydzi burjua inqilabından sonra, yəni lap yaxın vaxtda, yüz ildən bir az əvvəl götürülmüşdür. Lakin onlar hansı müvəffəqiyyətlərə nail olmuşlar! Bizim ölkəmizdə isə bu xeyli əvvəl başlamışdı, amma belə böyük müvəffəqiyyətlər hələlik yoxdur.

Sual: -Yapon təhsilində siz nəyi bəyənir, nəyi isə bəyənmirsiniz?

Konstantin Georgiyeviç: – Hamısını bəyənirəm, ona görə ki, məktəblərin təşkili, müəllimlərin şagirdlərə münasibəti çox gözəldir, amma təfəkkür müstəqilliyinin olmamasını isə bəyənmirəm. Təəssüf ki, indi Rusiya məktəbi də bu yola düşmüşdür. Əgər sizin yadınızdadırsa, əvvəllər müəllimlərlə fəlsəfi məsələlər barədə mübahisə etmək olardı, deyirlər, indi bu təhlükəlidir, xaric edə bilərlər. Lakin bütün nöqsanlara baxmayaraq, bizim məktəblərdə hər kəsin öz mülahizəsi var (ya var və ya prinsipcə olmalıdır), onu müdafiə etmək, o barədə mübahisə etmək olar. Yaponlarda isə, nədənsə, bu qəbul edilməmişdir. Onlarda ümumi rəyə tabe olmaq lazımdır. Yəni orada digərlərindən fərqlənən, intellektinə görə daha müstəqil olan şagird sinifin nifrət obyekti olur, onu incidir, bəzən isə döyürlər. Müəllimlər bütün bunlara rəğbətlə yanaşır. Yaponiyada şəxsiyyətin və cəmiyyətin belə problemi geniş müzakirə edilir.

Sual: -Hazırda Rusiya və Yaponiya təhsil müəssisələri arasında hər – hansı əlaqələr mövcuddurmu və onlar necə inkişaf edir?

Konstantin Georgiyeviç: – Məktəb səviyyəsində əlaqələr, demək olar ki, yoxdur (yalnız Uzaq Şərqdə epizodik əlaqələr olur). Moskvanın bir çox ali məktəbləri Yaponiya ilə əlaqə saxlayır və tələbə mübadiləsi aparırlar. Demək olar ki, əlaqələr inkişaf edir, bütün məsələ isə yalnız puldadır. Əgər yaponlar maliyyələşməni öz üzərlərinə götürürlərsə, onda hər şey normal olur. Əgər biz üzərimizə götürürüksə, onda çətinliklər yaranır, çünki bizdə pul yoxdur. Ümumiyyətlə, yaponlar öz ölkələrinə müsbət imic qazanılmasında maraqlıdır və onlar əcnəbi tələbələri təcrübə keçməyə məmnuniyyətlə qəbul edirlər.

"Necə yaponiyalı olmalı" kitabından: məktəb təhsili 12 ildən ibarətdir, son dərəcə mürəkkəbliyi və çətinliyi ilə izah edilir. Məsələn, şagirdlər Maarif Nazirliyinin müəyyən etdiyi minimum həddində, 1850 ieroqlifi mənimsəməlidir. Həqiqətdə isə kitabları və qəzetləri oxumaq üçün daha çox, üç minə qədər ieroqlif tələb olunur. Rəsmi iyeroqliflərin ən azı yarısını aşağı siniflərdə mənimsətmək lazımdır. Eyni zamanda hər ieroqlifin bir neçə, minimum iki və daha çox çin oxunuşu, az miqdarda yapon oxunuşunun tələffüz variantı vardır. Birincisi, çin dilindən gəlmiş həmin iyeroqlif ifadə etdiyi (Yaponiyaya ieroqlif yazısı Çindən gəlmişdir) sözün tələffüsü ilə səslənir və daha yüksək tərzdə oxunur. İkincisi, mənşəyinə görə millidir və çin ilə ümumi heç nəyi yoxdur. İeroqlifin çin sözü və ya yapon sözü kimi necə oxunması konkret halda qrammatika qaydaları ilə müəyyən edilir. Yapon dilində ieroqliflərlə yanaşı,

hər biri qırx səkkiz işarədən ibarət olan iki hərfli heca əlifbası və latın əlifbası işlədilir. Öz ölkələrinin tarixinin öyrənilməsi də çox vaxt tələb olunur. Çünki Yaponiyada bu günə qədər rəsmi tarix Avropa təqvimi ilə deyil, imperatorun hakimiyyəti illəri üzrə hesablanır. Tarixi dövrlərin şərti adları da çox zaman qədim ieroqliflərlə işarə edilir ki, onları da əzbərləmək lazımdır.

Hazırda Yaponiyada orta təhsil ali təhsilə tamamilə qurban verilir, uşaq bağçasını universitetlə birləşdirən laxlayan körpüyə çevrilir, yeniyetməlik illəri isə yaponiyalının həyatında ən çətin dövr olur. O illər sonsuz əzbərləmələrdən, ailədə və məktəbdə qızışdırılan gələcək haqqında düşüncələrdən ibarət olur. Yaponiya məktəbində nizam-intizam günü-gündən yüksəlir. Yeri gəlmişkən, bu yalnız oğlanlara aiddir. Qızlar üçün on ikiillik məktəb ili, həqiqətən, xoşbəxtlik illərinə çevrilir. Burada hesab edirlər ki, qızın əsas qisməti qulluq deyil, analıqdır. Şübhəsiz, qız bir neçə il kollektivdə işləməlidir, ərə gedənə qədər həyatı öyrənməlidir.

Yaponiyada altıillik ibtidai təhsil və məktəbin birinci pilləsi (3 il) məcburidir, ödənişsizdir və demək olar ki, uşaqların 100%-ni əhatə edir. Hər növbəti təhsil pilləsinə keçid yalnız bütün siniflə birlikdə həyata keçirilir. Odur ki, istedadlı uşaqların sinifdən sinfə keçməsi, zəif oxuyan uşaqların məktəbdən çıxması və ya sinifdə saxlanması kimi hallar yoxdur. Orta təhsilin ikinci pilləsi - 3 ildir, məcburi deyil, lakin buna baxmayaraq, müvafiq yaş qrupunun 97%-ə qədərini əhatə edir. Ümumi təhsil, humanitar-təbiət və peşə təhsili istiqamətlərinə bölünməklə uyğun şöbələrdən ibarətdir. Gənclərin 36%-i təhsilini universitetlərdə və kolleclərdə davam etdirir, 12%-i isə özəl təhsil müəssisələrində ali təhsil alırlar. Beləliklə, müvafiq yaş qrupunun təxminən yarısı müxtəlif ali məktəblərə qəbul olunur və praktik olaraq, hamısı ali məktəbi bitirir. Yaponiyada 4600 min şagirdi olan 5 min orta məktəb, 400 min nəfər təhsil alan 500 kollec və 180000 min tələbəsi olan 460 universitet vardır. Rəsmi təhsil gənc yaponiyalıya zəruri biliklərin və vərdişlərin yalnız yarısını verir. İkinci yarısını isə peşə hazırlığı təşkil edir. Onu hər şəxs müstəqil və ya işlədiyi müəssisədə keçməlidir.

Yaponiyada ilk məktəblər VI əsrdə, o zaman sosial və mədəni mərkəzlər rolu oynayan buddist monastırlarında yaranmışdır. VIII əsrin əvvəlində təhsil haqqında ilk qanunvericilik aktı qəbul edilmiş, ona uyğun olaraq paytaxtda və əyalətlərdə dövlət məktəbləri sistemi yaradılmağa başlanmışdı. Bu məktəblərdə yuxarı təbəqədən olan gənclər Çin klassikasını, fəlsəfəni, tarixi, riyaziyyatı və s. öyrənirdilər. XIII əsrdən etibarən məktəblərdə samurayların uşaqlarına da təhsil verməyə başladılar. Ticarət və sənətkarlığın inkişafı XVII əsrdə terakoyun, kustarların, yoxsul samurayların və dövlətli kəndlilərin uşaqları üçün məktəblərin yaradılmasına gətirib çıxartdı ki, burada isə hesab, əl əməyi öyrədirdilər. Orta-texniki kadrların hazırlanması 5-illik texniki kolleclərdə aparılır, orada 20-dən çox texniki profilli ixtisaslar tədris edilir. Yüksək müsabiqə yolu ilə daxil olan və işlə təmin edilməsinə zəmanət verilən ödənişli

müəssisələr də vardır. 1976-cı ildən gələcək kadrlar hazırlanması üçün iri firmalar və korporasiyalar tərəfindən yaradılmış az nüfuzlu orta məktəb bazasında bir-dördillik və tam orta məktəb bazasında bir-ikiillik xüsusi hazırlıq məktəbləri meydana çıxdı.

Orta məktəb məzunlarının təhsili ali təhsil institutlarında və universitetlərdə həyata keçirilir. Təhsil orta məktəbin yuxarı sinifləri bazasında 4 il (tibb fakültələrində 6-il) müddətində davam edir. Ən iri dövlət universitetləri – Tokio (1877-ci ildə yaradılmışdır, 18 min tələbə, 11 fakültə var), Kioto (1897-ci ildə yaradılmışdır, 15 min tələbə, 10 fakültə vardır), Osaka (1931-ci ildə yaradılmışdır, 12 min tələbə, 10 fakültə), Xokkaydo (1872-ci ildə yaradılmışdır, 11 min tələbə, 11 fakültə vardır) universitetləridir. Tokiodakı: Nixon (1889-cu ildə yaradılmışdır, 94 min tələbə, 13 fakültə), Vaseda (1882-ci ildə yaradılmışdır, 41 min tələbə, 7 fakültə), Tyuo (1885-ci ildə yaradılmışdır, 35 min tələbə, 5 fakültə), Meydzi (1923-cü ildə yaradılmışdır, 3 min tələbə, 8 fakültə), Tokay (1946-cı ildə yaradılmışdır, 27 min tələbə, 9 fakültə), Osakadakı Kansay Universiteti (1886-cı ildə yaradılmışdır, 23 min tələbəsi, 6 fakültəsi var) ən məşhur universitetlərdən biridir. 1950-ci ildən təhsil sistemində orta məktəb bazasında iki-üç il ərzində təhsil verən kiçik kolleclər fəaliyyət göstərir və bunlar hüquqi cəhətdən ali təhsil məktəblərinə aiddir. Lakin onlarda tədrisin müddətinin az olması ali məktəb səviyyəsinə uyğun gəlmir. Belə təhsil müəssisələrinin böyük hissəsi özəldir, tələbələrin isə əksəriyyəti (90%) qızlardır. Əsas öyrədilən istiqamətlər: evdarlıq, ümumi mədəniyyət, uşaqlara qulluq edilməsi, uşaq bağçaları tərbiyəçiləri və ibtidai məktəb müəllimləri hazırlamaqdır. Yaponiyada kiçik kolleclər qadın ali təhsilinin xüsusi növü hesab edilir.

Ölkə dörd iri (Honsü, Küsü, Hokkaydo, Sikoku) və çoxlu sayda kiçik adalardan ibarətdir. Yoponiya 47 hissəyə bölünmüşdür. Sahəsi 377,907 kv.km-dir. Qədim paytaxtı Kyoto, 1868-ci ildən isə Tokio şəhəridir. Əhalinin sayı 2009-cu ilin məlumatına görə, 127 milyondan artıqdır.

Yaponiyanın dövlət quruluşu konstitusiyalı monarxiyadır. Konstitusiyanın tarixi 1889-cu ildən başlayır. Hazırki Konstitusiya 1947-ci ildə qəbul olunmuşdur.

Dövlət dili yapon dilidir. Xarici dil kimi ingilis dilinə üstünlük verilir. Din – buddizm (maxayana) və sintoizmdir.

Ölkənin bayrağında ağ fonun üzərində günəş rəmzi olan qırmızı dairə təsvir edilib və Hinomaru (qırmızı dairə) adlanır.

Yaponiyada sevilən idman növləri sumo, beysbol, boks və qolfdur. Ölkənin şimal hissəsində qış idman növlərinə maraq böyükdür.

Yaponiya çox yüksək inkişaf etmiş sənaye ölkəsidir və iqtisadi inkişafına görə dünyada ABŞ-dan sonra 2-ci yeri tutur. Ölkə iqtisadiyyatının əsasını texnika, maşınqayırma, gəmi tikintisi, balıqçılıq təşkil edir. Pul vahidi Yendir. Bir Amerika dolları 83-85 yen arasında dəyişir.

Yaponların ənənvi yeməyi düyü, balıq, və dəniz məhsullarıdır. Düyü yaponlar üçün əvəzolunmaz məhsuldur. Ondan məşhur yapon sakisi hazırlanır. Maliyyə Nazirliyinin adı da düyü anlayışı ilə bağlıdır.

Əsas bayramları Qızlar bayramı, Oğlanlar bayramı, Yeni il bayramıdır. Yaponlar İmperator gününü də çox böyük təmtaraqla qeyd edirlər. Dünyada Yeni ili birinci qarşılayan Yaponiya əhalisidir və onu ailəvi bayram kimi qeyd edirlər.

Qızlar bayramında zəngin həyat və ailə təcrübəsinə malik olan qadınlar yeniyetmə qızlara ailə və məişətlə bağlı tövsiyələr verirlər. Oğlanlar bayramı da eyni mahiyyət kəsb edir.

Yaponiyalıları dünyanın digər xalqlarından fərqləndirən bir sıra səciyyəvi cəhətlər vardır. Onlar əl ilə görüşmür, bunun əvəzinə baş əyirlər, ünsiyyətdə çox nəzakətlidirlər, xahişi yerinə yetirmək mümkün olmadığı halda belə, birbaşa imtina etmirlər, üzərində daim təbəssüm saxlamağı xoşlayır, nə isə şikayətlənməyi qəbul etmirlər, təmizliyə ciddi əməl edirlər, çox işgüzardırlar.

Yaponiya Konstitusiyasının "İnsanların hüquq və vəzifələri" adlı bölməsində hamının təhsil almaq hüququ qanunla təsbit edilir. Konstitusiyaya görə icbari təhsil pulsuzdur. İbtidai və natamam orta məktəb təhsili icbaridir və I-IX sinifləri əhatə edir.

Məktəbəqədər təhsil icbari deyil və bu müəssisələrə 3-5 yaşlı uşaqlar cəlb edilir.

İbtidai məktəbə qəbul 6 yaşından başlayır və dərs ili aprel ayında başlanıb mart ayında bitir.

İbtidai təhsil 6 il, natamam orta və tam orta məktəblərin hər birində təhsil 3 il davam edir. Natamam orta məktəbi bitirənlərin 92,97 faizi tam orta məktəblərdə təhsilini davam etdirir.

2008-ci il mayın 1-nə olan məlumata görə, Yaponiyada 13626 uşaq bağçası, 22476 ibtidai məktəb, 10915 natamam orta məktəb, 5242 tam orta məktəb, 1026 xüsusi qayğıya ehtiyacı olanlar üçün məktəb, 64 texniki kollec, 417 yeniyetmələr üçün kollec, 765 universitet, 4986 peşə ixtisas kollecləri fəaliyyət göstərir.

Bu təhsil müəssisələrinin hər birində müvafiq olaraq 11228, 419312, 249509, 241213, 68675, 4432, 10524, 169912, 51557 nəfər müəllim fəaliyyət göstərir.

Yaponiya təhsili federal hökumət və regional (prefektura və bələdiyyə) idarəetmə strukturları tərəfindən idarə olunur. Federal hökumətin təhsil sisteminin inkişafı ilə bağlı fəaliyyətinə təhsil sisteminin idarə edilməsi, milli standartların yaradılması, müəllimlərə lisenziyaların verilməsi, təhsilin maliyyələşdirilməsi, dərsliklərin pulsuz paylanması aiddir.

Regional strukturlar dedikdə, prefektura və bələdiyyələr nəzərdə tutulur. Prefekturalardakı təhsili idarəetmə orqanları müəllimlərin məktəblərə təyinatı, tam orta məktəblərin yaradılması və idarə olunması, xüsusi məktəblərin açılması üçün icazənin verilməsini həyata keçirir.

Dövlət məktəblərin yaradılması və idarəolunması işi birbaşa bələdiyyələrin üzərinə düşür.

Təhsilə ayrılan xərclər də bu üç orqan arasında bölüşdürülür. Təhsilə qoyulan xərclərin 2 hissəsi Federal hökumətinin, 5 hissəsi prefekturanın, 3 hissəsi bələdiyyələrin payına düşür.

Yaponiya Təhsil, Mədəniyyət, İdman, Elm, Texnologiya Nazirliyi təhsil sistemini idarə etmək üçün Təhsil Şurasını yaradıb. Bu qurum ölkənin təhsil siyasətini müəyyənləşdirir, yerli təhsil orqanlarının nümayəndələrini istiqamətləndirir və göstərişlər verir. Hər prefekturadan bir nəfər Təhsil Şurasının üzvlüyünə təyin olunur, rəhbər isə üzvlər arasından təyin edilir.

Yerli təhsil idarəetmə orqanları Təhsil Komitəsi adı altında fəaliyyət göstərir. O, idarəetmə və koordinasiya, ümumtəhsil, fasiləsiz təhsil, mədəniyyət, idman bölmələrindən ibarətdir.

Yaponiyada təhsil islahatı Dünya Bankının maliyyə dəstəyi ilə 2006-cı ilin dekabrından başlanmışdır və əsas məqsədi ülkəsini demokratik, fiziki və əqli cəhətdən yüksək inkişaf etmiş vətəndaşlarla təmin etməkdir.

Yaponiyada kurikulum müəyyən tarixə malikdir və dövri olaraq qiymətləndirilərək məzmununda zəruri dəyişikliklər edilmişdir. Bu baxımdan kurikulumun dəyişdirilməsini məqsəd və tarixinə görə aşağıdakı kimi qrupplaşdırmaq mümkündür:

Kurikulumun inkişafı

| | |
|---|---|
| **1958-60** | **İbtidai: 1961, Natamam orta məktəblər: 1962, Tam orta məktəblər: 1963** |

Təhsilin məzmunun inkişafı

| | |
|---|---|
| **1968-70** | **İbtidai: 1971, Natamam orta məktəblər: 1972, Tam orta məktəblər: 1973** |

Tədris yükünün azadılması

| | |
|---|---|
| **1977-78** | **İbtidai: 1980, Natamam orta məktəblər: 1981, Tam orta məktəblər: 1982** |

Şəxsiyyətyönümlü təhsil

| | |
|---|---|
| **1988** | **İbtidai: 1992, Natamam orta məktəblər: 1993, Tam orta məktəblər: 1994** |

Tənqidi təfəkkür bacarıqlarının
kurikuluma daxil edilməsi

| | |
|---|---|
| **1998-99** | **İbtidai: 2002, Natamam orta məktəblər: 2002, Tam orta məktəblər: 2003** |

Kurikulumların həyatı bacarıqlara
əsaslandırılması

| | |
|---|---|
| **2008-09** | **İbtidai: 2011, Natamam orta məktəblər: 2012, Tam orta məktəblər: 2013** |

Müasir kurikulumda əsas məqsəd və tələb tənqidi təfəkkür bacarıqlarına geniş yer ayırmaq, təhsilalanların mənəviyyatını zənginləşdirməkdir. Bu məqsədlə ibtidai və natamam orta məktəblərdə yapon dili, ictimai fənlər, riyaziyyat, təbiət elmləri və fiziki tərbiyə dərslərinin tədrisinə ayrılan saatların təxminən 10% artırılması, tam orta məktəblərin kurikulumunda yapon dili, riyaziyyat və xarici dilin tədrisinin icbariliyi nəzərdə tutulmuşdur.

Son iki ildə kurikulumlar həyati bacarıqlara əsaslanmaqla daha da təkmilləşdirilmiş, yapon dilində dəqiq və düzgün oxu, yazı bacarıqlarının inkişafı ön plana çəkilmişdir. Tarixin, dini və mədəni irsin tədrisinə xüsusi yer ayrılır, şagirdlər yapon musiqi alətləri, milli geyimlərlə tanış olur və məktəblilərə milli musiqi alətləri və geyimlərinin hazırlanması texnologiyasını öyrədirlər.

Yaponiya təhsil sistemi barədə nəzəri məlumatları Tokioda əldə etdikdən sonra praktik məsələləri yerində görmək üçün Fukui prefekturasına yollanaq.

Fukuinin ərazisi 4189,54 kv.km, əhalisinin sayı 816694 nəfərdir. Təhsilin səviyyəsinə görə Yaponiyada ikinci olan Fukui prefekturası əhalisinin sayına görə 47 prefektura arasında 43-cü yerdədir.

Hələ 2002-ci ildə təhsilin yüksək inkişafını təmin etmək məqsədilə Fukui prefekturasında xüsusi proqram qəbul olunmuşdur. Onun məqsədi məktəblə ailənin qarşılıqlı əlaqəsini gücləndirmək və təhsilin daha yüksək inkişafını təmin etməkdir. Bunun üçün aşağıdakı tədbirlər müəyyənləşdirilmişdir:

1. Siniflərdə şagirdlərin sayını minimuma endirmək;
2. Həyati bacarıqları inkişaf etdirmək;
3. Təbiət elmləri və riyaziyyatın tədrisini təkmilləşdirmək;
4. Məktəbin idarəedilməsinin səviyyəsini yüksəltmək;
5. Şagirdlərin keyfiyyətli qidalanmasını təşkil etmək.

Fukui prefekturasında təhsilin uğur qazanmasının əsas səbəbi müəllimlərin bacarıqlı, şagirdlərin çalışqan, ailələrin məktəblə sıx əlaqə saxlayaraq onu mənəvi, fiziki və maddi dəstəklənməsidir.

Fukui prefekturasında ibtidai məktəblərin hər sinfində şagirdlərlə 2 müəllim məşğul olur. Hər sinif üzrə bir qrup və qrupdakı şagirdlərin sayı 21-35 nəfər arasında olur. Uşaqların ibtidai məktəbə məktəbəqədər müəssisələrdən gəlməsi məcburi deyil. İbtidai məktəbə şagirdlər həm məktəbəqədər müəssisələrdən, həm də ailələrdən qəbul edilir. Fukuidə ibtidai məktəblər məktəbəqədər müəssisələrlə sıx əməkdaşlıq edir, çox zaman hər iki müəssisə qonşu binalarda yerləşir. İbtidai məktəblərdə tədris ili 11 ay və 3 semestrdən ibarətdir.

130 şagirdin təhsil aldığı bu məktəbdə 16 əməkdaş, o cümlədən 10 müəllim çalışır.

Dərslər səhər saat 8-də başlanır və dərsdən əvvəl 5 dəqiqə ərzində şagirdlər açıq havada idman edir. Şagirdlər hər gün 4 dərs keçir, məktəbdə nahar etdikdən sonra evə qayıdırlar.

Dərslər səsli-küylü, müzakirə və oyunlar şəklində keçirilir və uşaqlar daha çox tətbiqi bacarıqlara yiyələnirlər.

İbtidai məktəbdə bir tədris ilinin hər semestrində orta hesabla minimum iki kiçik summativ, bir böyük summativ qiymətləndirmə aparılır. Qiymətləndirmə vasitəsi kimi daha çox testlərdən istifadə olunur. Əvvəllər şagirdlərin nailiyyətləri 5 ballıq sistemdə rəqəmlə qiymətləndirilirdi, hazırda isə təsviri qiymətləndirmədən istifadə edilir:

- 00 – yaxşı
- 0 – orta
- Δ - pis

Şagird proqramı minimum səviyyədə mənimsəmədikdə dərs vaxtı müəllim ona xüsusi vaxt ayırır. Bu üsul da kömək etmədikdə həmin şagirdlə müəllimi dərsdən əlavə xüsusi məşğul olur. Belə fərdi yanaşmadan sonra da şagirddə heç bir irəliləyiş olmadıqda o, məktəbdən kənarlaşdırılır.

Yaponiyada, o cümlədən Fukui məktəblərində ailə – məktəb əlaqələri yüksək səviyyədə qurulub. İldə bir dəfə valideynlərlə böyük iclas keçirilir.

Digər iclasları isə il ərzində valideyn komitəsinin nəzdindəki komissiyada keçirirlər. Məktəbli formasını valideynlər alır və hər fəslə uyğun xüsusi məktəbli geyimi vardır. Məktəbli geyim dəstinə eyni ayaqqabı, corab və çanta da daxildir.

Şagirdlərin məktəbdə nahar pulunu valideynlər ödəyir. Gündəlik naharın dəyəri hər şagird üçün 250 yen təşkil edir. Bu və ya digər səbəblərə görə valideynlər pul ödəmədikdə şagird naharı evdən gətirir.

Fukui məktəblərində xadimə ştatı yoxdur və məktəblər şagirdlər tərəfindən yığışdırılır, nəticədə bunun üçün məktəb ayrıca vəsait sərf etmir.

Şagirdlər ibtidai məktəbdə təhsilini bitirdikdən sonra 3 sinfi əhatə edən (VII, VIII, IX) natamam orta məktəblərə gedirlər. Nümayəndə heyəti belə məktəblərdən birində, Eşitzen şəhərində yerləşən Nan-Elsu natamam orta məktəbində oldu. Məktəb 1950-ci ildə təsis edilib. Məktəbdə 441 şagird təhsil alır, 45 nəfər müəllim çalışır.

Yeni tədris qaydalarına uyğun olaraq məktəbdə ünsiyyət bacarıqlarına xüsusi diqqət verilir.

Riyaziyyat, təbiət elmləri, yapon və ingilis dillərinin tədrisinə daha çox vaxt ayrılır. Bu məktəbdə dərsdən sonra mədəniyyət idman dərnəkləri fəaliyyət göstərir.

Qeyd edək ki, Yaponiyada hər məktəbin öz devizi var. Həmin devizlər daha çox fiziki tərbiyə və əxlaqla bağlıdır.

**Nan-Elsu natamam orta məktəbinin illik fəaliyyəti**

| | |
|---|---|
| **Aprel** | Məktəbin açılışı |
| **May** | Rüb arası imtahanlar |
| **İyun** | Məktəb konserti, rüb imtahanları |
| **İyul** | Rübün bitməsi, yay atletika yarışları, valideyn iclası |
| **Avqust** | Yay tətili, idman oyunları |
| **Sentyabr** | Açılış mərasimi, məktəb festivalı, idman günü |
| **Oktyabr** | Rübarası imtahanlar, payız atletika yarışları |
| **Noyabr** | Rüb imtahanları |
| **Dekabr** | Rübün bitməsi |
| **Yanvar** | Məktəbin açılışı |
| **Fevral** | Rüb imtahanları |
| **Mart** | Məzun günü. Məktəbin bağlanması yığıncağı |

**Nan-Elsu natamam orta məktəbinin illik fəaliyyəti**

| Fənlər / Siniflər | Yapon dili | İctimai fənlər | Riyaziyyat | Təbiət elmləri | Musiqi | İncəsənət | Fiziki tərbiyə | Seçilmiş fənlər | İntqerativ fənlər | Əxlaqi təhsil |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| I | 140 | 105 | 140 | 105 | 45 | 70 | 105 | | 65 | 35 |
| II | 105 | 105 | 105 | 105 | 35 | 70 | 105 | 50 | 105 | 35 |
| III | 105 | 85 | 105 | 105 | 35 | 70 | 105 | 110 | 105 | 35 |

Tam orta məktəbdə təhsil icbari deyil, ancaq buna baxmayaraq, natamam orta məktəbi bitirən şagirdlərin 93%-i tam orta məktəbə daxil olur. Nümayəndə heyəti Takefu Higaşi tam orta məktəbində oldu. Takefu Higaşi tam orta məktəbində böyük dəstək verilən beynəlxalq şöbə fəaliyyət göstərir. Bu şöbə gənclərin beynəlxalq aləmə yaxınlaşmasında böyük rol oynayır.

Beynəlxalq şöbədə dünyanın digər inkişaf etmiş ölkələrindən dəvət olunan müəllimlər şagirdlərə ingilis dilində mühazirələr oxuyur, eyni zamanda həmin məktəbin müəllim və şagirdləri Tailand, Filippin, ərəb ölkələri, ABŞ, Yeni Zelandiya, Avropa ölkələrində tədris səfərlərində olurlar.

Şöbənin yaradılmasında əsas məqsəd ingilis dilini mükəmməl bilən məzunlar vasitəsilə yapon dili və mədəniyyətini dünyaya tanıtmaqdır. Tam orta məktəblərin beynəlxalq şöbəsini bitirən şagirdlərin bir qismi digər ölkələrin təhsil sahəsində, beynəlxalq tədbirlərdə əlaqələr yaratmaq qismində çalışır.

Tam orta məktəbdə ingilis və yapon dilləri, riyaziyyat dərsləri yüksək səviyyədə tədris olunur. Həmin məktəblərdə kollec və universitetlərə daxil ol-

maq üçün hazırlıq sinifləri fəaliyyət göstərir. Şagirdlər kompyuter texnologiyasının ən müasir tələblərinə cavab verən bacarıqlara yiyələnməklə yanaşı, natiqlik sənətini də öyrənirlər. Yeni standartlarda təbiət elmləri beynəlxalq səviyyəyə uyğunlaşdırılır, tədris prosesində müşahidəyə, təkrarlamağa, nəticəyönümlülüyə geniş yer verilir, həm ana dilinin və həm də başqa dillərin tədrisində şagirdlərə nitq vərdişləri aşılanır. Xarici dilin tədrisində nəzərdə tutulan 900-1200 sözdən 300-nün, 1300-1800 sözdən 500-nün öyrənilməsi ən aşağı norma sayılır.

**Takefu Higaşi tam orta məktəbin beynəlxalq şöbəsinin kurikulumu.**

| 1-ci fəsil | 2-ci fəsil | 3-cü fəsil |
|---|---|---|
| Ümumi yapon dili | Müasir yapon dili | Müasir yapon dili |
| Müasir cəmiyyət | Yapon klassikləri | Yapon klassikləri |
| Riyaziyyat | Riyaziyyat | Riyaziyyat |
| İngilis ədəbi dilinin bədii üslubu | Dünya tarixi | Fiziki tərbiyə |
| Ümumi təbiət elmləri | Biologiya | Yaponiya tarixi |
| Fiziki tərbiyə | Fiziki tərbiyə | Dünya tarixi |
| Təbabət | Ümumi ingilis dili | Müasir ingilis dili |
| İncəsənət musiqi | İngilis ədəbi dilinin bədii üslubu | İKT leksikologiyası |
| Ailə iqtisadiyyatı | Müasir ingilis dili | |
| Kulturologiya | İKT leksikologiyası | |

Tam orta məktəblərin hər birində nümunəvi davranış qaydaları haqqında sənəd qəbul edilir.

Takefu Higaşi tam orta məktəbinin daxili qaydalarına görə dərsdə üzürsüz səbəbdən iştirak etməmək və gecikmək qadağandar. Dərsə iştirak etməmənin üzürlü səbəbini göstərən sənədin olması vacibdir.

Fukui prefekturasında əqli və fiziki cəhətdən qüsurlu uşaqlar üçün 11 xüsusi məktəb var. Əvvəllər belə uşaqlar müxtəlif məktəblərdə oxuyurdular. Bu məktəblər tibbi müəssisələrlə birgə işləyir və digər məktəblərin uşaqları ilə əlaqə saxlayırlar. Məktəbə şagirdlər bir-birinə yaxın olan 3 şəhərdən məktəb avtobusu ilə gətirilir. Məktəbdəki 104 şagirdlə 90 müəllim məşğul olur, burada idman, rəsm, musiqi dərnəkləri fəaliyyət göstərir. Fiziki qüsuru olan şagirdlər belə müəllimin köməyi ilə özünə uyğun idman növü ilə məşğul olur. Burada təhsil alan şagirdlərin bir qismi məktəblərdəki emalatxanalarda müxtəlif məişət əşyaları, o cümlədən stol, stul, kiçik şkaflar düzəldir, onları satışa çıxarırlar. Şagirdlərin digər hissəsi həyətyanı sahədə təsərrüfat işləri ilə, bir qismi isə mətbəx işləri ilə məşğul olurlar.

Bu məktəblərdə təhsil alan şagirdləri fiziki çətinliklərə baxmayaraq, ardıcıl olaraq ekskursiyalara aparırlar.

Yaponiyada qüsuru o qədər də ciddi olmayan şagirdlər digər məktəblərdə də təhsil ala bilər. Lakin tam orta məktəbə yalnız bu tipli məktəblərdən daxil olmaq mümkündür. Qeyd edək ki, xüsusi qayğıya ehtiyacı olanlar üçün nəzərdə tutulan məktəblərin yuxarı siniflərində ciddi qüsuru olanların 2%-i , az qüsuru olanların 6%-i oxuyur.

Yaponiyada dərsliklər dövlət tərəfindən pulsuz paylanır. Dərsliklərin yazılması üçün Təhsil Şurası yerli təhsili idarəetmə orqanlarına standartları göndərir və hər bir prefekturada müvafiq struktur bölmələri fənn proqramlarını tərtib edir. Həmin proqramlar əsasında dərsliklər yazılır. Bu dərsliklər Təhsil Nazirliyi tərəfindən təsdiq edildikdən sonra məktəblərə paylanılır.

Ciddi nəzarət edilməklə yanaşı, məktəblərdə alternativ dərsliklərdən istifadəyə də icazə verilir.

Eyni zamanda fənn müəllimi də yardımçı dərslik, dərs vəsaiti yarada bilər. Ancaq bu vəsait təhsili idarəedən orqanlar tərəfindən təsdiq edilməlidir.

Yaponiyada müəllim hazırlığı və işə qəbulu məsələsinə çox ciddi yanaşılır. Müəllimlər işə tələbləri kifayət qədər ciddi və sərf olan imtahan verdikdən sonra qəbul edilir. Orta hesabla işə qəbul edilmək üçün sənəd verən min nəfər müəllimin yüzü bu imtahanlardan keçməyə müvəffəq olur. Müəllimlərin böyük əksəriyyəti könüllü şəkildə axşam saat 9-a qədər şagirdlərlə fərdi məşğul olmaqla məktəbdə işlərini davam etdirirlər. Müəllimlər maddi vəziyyətinə görə cəmiyyətin orta səviyyədə yaşayan nümayəndələri sayılır. Yaponiyada müəllimlərin ixtisasartırması üç pilləli şəkildə fəaliyyət göstərir:

1. Məktəbdaxili, müəllimlər məktəbin qabaqcıl müəllimlərinin "açıq dərs"lərində iştirak edir.
2. Prefekturadaxili, prefekturada fəaliyyət göstərən xüsusi kurslarda təcrübə qazanırlar.
3. Ölkə miqyasında və xarici ölkələrə tədris səfərlərinə gedirlər.

Yaponiyanın orta məktəblərində bir müəllim eyni bir məktəbdə 6 ildən çox dərs deyə bilməz. Bu müddət bitdikdən sonra digər prefekturadakı məktəblərdə işlə təmin edilir. İş yerini dəyişən müəllimin evlə təmin edilməsi təhsili idarəedən orqanlar tərəfindən həyata keçirilir.

Müəllimlərin fəaliyyəti məktəb direktorları tərəfindən 5 ballıq sistemlə (A, B, C, D, E) qiymətləndirilir və Prefektura Təhsil Komitəsinə göndərilir. Məktəb direktoru müəllimə yazdığı qiymət barədə onlara məlumat vermir.

Ali məktəblərin bakalavr pilləsində təhsil 4 ildir. Magistratura və doktorantura pillələrinin hər birində isə 2 ildir.

Yaponiyada dövlət və özəl universitetlər fəaliyyət göstərir:

| Universitetlər | Universitetlərin sayı | Tələbələrin sayı | Fakültlərin sayı |
|---|---|---|---|
| Ümumi | 773 | 2,845965 | 172026 |
| Dövlət universitetləri | 178 (23,03%) | 758702 (26,7%) | 73,647 (42,8%) |
| Özəl universitetlər | 595 (76,67%) | 2087203 (73,3) | 98378 (57,2) |

Ali məktəblərə qəbul olanların sayı 1980-cı ildən bu günə qədər yüksələn xətt üzrə inkişaf edir. Eyni hal tam orta məktəbə və kolleclərə daxil olanların sayında da özünü göstərir.

Yaponiyanın ali məktəblərində təhsil alan xarici tələbələrin sayı ilbəil artır. Hazırda Yaponiyanın müxtəlif universitetlərində 123829 gənc təhsil alır. Onlardan 72766 nəfər Çin Xalq Respublikasından, 18862 nəfər Cənubi Koreyadan, 5082 nəfər Tayvandan, 2873 nəfər Vyetnamdan, 2271 nəfər Malayziyadan, 2203 nəfər Zelandiyadan, 2024 nəfər ABŞ-dan, 1791 nəfər İndoneziyadan, 1985 nəfər Banqladeşdən, 1476 nəfər Nepaldan və 12795 nəfər isə digər ölkələrdəndir. Eyni zamanda 80023 nəfər yaponiyalı gənc xarici ölkələrdə təhsil alır.

Əlbəttə ki, qədim tarixə, zəngin mədəniyyətə, adət-ənənəyə, gözəl təbiətə və ən başlıcası, yüksək səviyyəli təhsil sisteminə malik olan Yaponiyanı 15 günlük tədris səfəri çərçivəsində təfərrüatına qədər öyrənmək və bu barədə söz demək çətindir. Ancaq bir şey bəllidir ki, hər hansı bir ölkənin təhsil sistemi barədə ümumi informasiya almaqla həmin ölkənin mədəniyyəti, iqtisadiyyatı, inkişafı və digər dəyərləri barədə müəyyən məlumata malik olmaq mümkündür.

**Tokio Universiteti (University of Tokyo).** Bu universitet dünyanın ən nüfuzlu elmi-tədqiqat mərkəzlərindən biridir və Yaponiyanın paytaxtı Tokio şəhərində yerləşir. Universitet 1877-ci ildə yaradılmışdır və illik büdcəsi 4770845309 yapon yenidir (90 yapon yeni, təxminən 1 ABŞ dollarına bərabərdir). Universitetin işçi heyəti 5779, tələbələrin ümumi sayı isə 30000 nəfərdir. 2009-cu ildə aparılan dünya universitetlərinin reytinqinə əsasən, Tokio Universiteti 100 ən yaxşı ali məktəb arasında 22-ci yerdə yerləşmişdir. Tokio Universiteti Asiya qitəsinin ən nüfuzlu universitetidir.

1877-ci ildə Meydzi hakimiyyəti hüquq, elm, ədəbiyyat və tibb departamentlərindən ibarət olan universitet yaradır və bu ali təhsil ocağına Tokio Daigaku, qısa olaraq, Todai adı verilir. 1886-ci ildə ali məktəbin adı dəyişdirilərək İmperator, 1897-ci ildə isə Tokio Universiteti olur. 1890-cı ildə universitetin nəzdində Kənd Təsərrüfatı və Dendrologiya kolleci, 1916-cı ildə Added İnfeksion Xəstəliklər İnstitutu istifadəyə verilir. 1919-cu ildə imperatorun sərəncamı ilə təhsil müəssisəsində iqtisadiyyat fakültəsi açılır. 1921-ci ildə burada Aviasiya Elmi-Tədqiqat İnstitutu və Astronomiya rəsədxanası, 1942-ci

ildə mühəndislik fakültəsi, 1946-cı ildə universitet xəstəxanaları, dəniz bioloji stansiyası, botanika bağı, universitet meşəsi, kənd təsərrüfatı mərkəzi, Balıqçılıq mühəndisliyi tədqiqatları laboratoriyası, İctimai Elmlər İnstitutu yaradılır.

1947-ci ildə Yaponiyanın II Dünya müharibəsində məğlubiyyətindən sonra universitetin ilkin adı özünə qaytarılır. 1949-cu ildə burada pedaqogika fakültəsinin nəzdində filologiya fakültəsi, Zəlzələ Elmi-Tədqiqat, Şərqşünaslıq Mədəniyyəti, Sənaye, Jurnalistika institutları açılır. 1953-cü ildə Tokio Universitetində kosmik Rey tətbiqi mikrobiologiya laboratoriyası, 1955-ci ildə Nüvə Tədqiqatları, 1957-ci ildə Bərk Cisimlər Fizikası, 1962-ci ildə Okean Tədqiqatları, 1966-cı ildə kompyuter və tibb mərkəzləri, 1967-ci ildə Kriogen Mərkəzi yaradılır. İnfeksion Xəstəliklər İnstitutunun adı dəyişdirilərək Tibb Elmləri İnstitutu olur.

1970-ci ildə Tokio Universitetində radiozotop, 1975-ci ildə Ətraf Mühit Elmləri mərkəzləri, 1981-ci ildə Kosmik Tədqiqatlar və Aeronavtika, Fənlərarası Tədqiqatlar institutları, 1983-cü ildə molekulyar genetika laboratoriyası yaradılır. Kitabxana və İnformasiya Elmi-Tədqiqat Mərkəzinin adı Biblioqrafik İnformasiya Mərkəzi adı ilə əvəzlənir. 1985-ci ildə əcnəbi tələbələr üçün yapon Dil Mrkəzi fəaliyyətə başlayır və bu qurum 1990-cı ildən Beynəlxalq Mərkəz adlandırılır. 1991-ci ildə universitetin nəzdində İqlimin Tədqiqatı Mərkəzi açılır, 1992-ci ildə isə riyaziyyat elmləri bölməsi müstəqil fəaliyyət göstərməyə başlayır, həmçinin Artefaktların Öyrənilməsi Mərkəzi yaradılır. 1993-cü ildə Tətbiqi Mikrobiologiya İnstitutunun adı dəyişdirilərək Molekulyar və Hüceyrə Bioelmlər İnstitutu olur, daha sonra Biotexnologiya Tədqiqat Mərkəzi fəaliyyətə başlayır. 1994-cü ildə elementar Hissəciklər Fizikası Beynəlxalq Mərkəzi, 1996-cı ildə Tədqiqatlar və Ali Təhsilin İnkişafı Mərkəzi, 1998-cü ildə Qabaqcıl Texnologiya Ali Məktəbi, Komaba Açıq laboratoriyası, Geinformasiya Elmi Mərkəzi, 1999-cu ildə İqtisadi Mühəndislik, Yüksək Plazma Temperaturu mərkəzləri açılır, Kompyuter Mərkəzinin adı İnformasiya Texnologiyaları adı ilə əvəz edilir.

2000-ci ildə Universitetdə tibbi təhsil sahəsi üzrə Beynəlxalq Tədqiqat Mərkəzi, Kasiva kampusunda Kosmik Şüa Tədqiqatı İnstitutu yaradılır. 2001-ci ildə Sənaye Elmləri İnstitutu Komaba kampusuna köçürülür. 2004-cü ildə Yaponiyanın bütün dövlət universitetləri "Milli Universitetlər Korporasiyası" adı altında birləşdirilir. Tokio Universiteti də bu korporasiyaya daxil edilir. Həmin il Ali Dövlət Siyasəti Məktəbi yaradılır. 2005-ci ildə Pekin şəhərində Universitetin filialı açılır.

Son illər Tokio Universitetinin illik büdcəsi 4770845309 yen olub. Bu məbləğin 66%-ni dövlət tərfindən ayrılan vəsaitlər təşkil edib. Daxili imkanlar hesabına (əsasən, tələbələrin təhsil haqqından) universitetin əldə etdiyi gəlirlər 1357736000 yen olub. 2004-cü il büdcə vəsaitinin böyük hissəsi, təxminən 60%-i universitetin elmi potensialının artırılmasına və elmi-tədqiqatların apa-

rılmasına sərf edilib. İşçilərin əmək haqqına ayrılan vəsaitin məbləği isə 863188180 yen olub. Tokio Universitetində təhsil haqqı tələbənin oxuduğu məktəbdən, seçdiyi ixtisasdan asılı olaraq təxminən 500000-800000 yen arasında dəyişir.

Xarici dövlətlərin universitetlərində təqaüd anlayışı ölkəmizdə qəbul olunmuş təqaüdlərdən fərqlidir. Dünyanın bir zox universitetlərində təhsil ödənişli olduğundan tələbəyə təqaüd verilmir. Təqaüd istedadlı, əlaçı, gələcəkdə tədqiqatlarını davam etdirmək arzusunda olan, əcnəbi, eləcə də maddi durumu çətin olan tələbələrə universitet tərəfindən olunan yardım mənasında başa düşülür. Bu təqaüd tələbəyə borc kimi verilir və tələbə gələcəkdə işləyəndən sonra borcunu tədricən qaytarır.

Yaponiya Tələbə Xidməti Təşkilatı Yaponiya Universitetlərində təhsil alan əcnəbi tələbələrə təqaüdlər təklif edir. 2009-2010-cu tədris ilində Universitetdə bakalavrlar üçün ayrılan təqaüdün məbləği ayda 48000 yen, magistr və doktorantlar üçün isə 65000 yen təşkil edir. Universitetlər iyun ayının əvvəllərində Yaponiya Tələbə Xidməti Təşkilatına müraciət edir. Yaponiya Tələbə Xidməti Təşkilatının komissiyası tərəfindən seçim turu aparılır və müsabiqədən müvəffəqiyyətlə keçmiş tələbələr haqqında məlumat universitetlərə iyul ayının əvvəllərində verilir. Tokio Universiteti Fondu da tələbələrə təqaüd ayırır. Fondun verdiyi təqaüdün məbləği ayda 50000 yendir.

Hazırda Tokio Universitetinin nəzdində aşağıdakı departamentlər fəaliyyət göstərir:

**Fakültələr:** hüquq, tibb, mühəndislik, filologiya, dəqiq elmlər, kənd təsərrüfatı, iqtisdiyyat, incəsənət və elmlər, pedaqogika, əczaçılıq.

**Bir çox ali məktəblər və institutlar vardır.**

Universitetin kitabxana sistemi əsas, Kaşiva, Komaba, eləcə də 34 bölmə və institut kitabxanalarından ibarətdir. Hər fakültənin, institutun, mərkəzin nəzdində öz sahəsi üzrə kitabxanası vardır. Üç müxtəlif şəhərcikdə – Hanqo, Kaşiva, Komaba kampuslarında və kampusdan kənarda yerləşən bu kitabxanalar yeganə bir sistem çərçivəsində geniş spektirdə xidmət təklif edir. Kitabxana sistemində, ümumilikdə, 8,8 milyon cild kitab, jurnal, dissertasiya və s. vardır. Bu rəqəmin üzərinə hər il 170 min kitab, 152 min dövri nəşr artırılır. Universitetin həmçinin ümumi onlayn kataloq səhifəsi vardır. Tokio Universitetinin kitabxana sisteminin əksər kolleksiyaları bu kataloqda dərc edilib.

Universitetin muzeyi 1966-cı ildə yaradılıb və Yaponiyanın ən aparıcı muzeylərindəndir. Muzeydə təbii, mədəni və tarixi materiallar toplanıb, sistemləşdirilib və hamı üçün açıqdır. Universitet 6400000 tədqiqat obyektinə malikdir, onlardan 2430000-i universitetin muzeyində yerləşir. Muzeyin kolleksiyası yerli və xarici mənbələr hesabına mütəmadi olaraq yenilənir. Hazırda muzey 8,8 hektar ərazidə yerləşir. Muzey, yerinin darlığından kolleksiyalarının yerləşdirilməsi və qorunmasında çətinlik çəkir, hətta bəzən kolleksiyalarını azaltmaq və ya başqa yerə köçürmək məcburiyyətində olur. Tokio

Universitetinin muzeyi bir neçə bölmədən ibarətdir: Yer elmləri; Mədəniyyət tarixi; Radiokarbon laboratoriyası. Kurator tədqiqatları departamentində elmi-tədqiqat materialları toplanıb. Muzeyin Texnologiya departamenti 2002-ci ildə yaradılıb və "beyin mərkəzi" korperativi kimi nəzərdə tutulub. Media elmləri və informasiya departamenti muzeydə toplanan elmi informasiyanı ictimaiyyətə çatdırmaqla məşğuldur. Kolşikava adlanan muzeyin əlavə binası universitetin Botanika bağının yanında yerləşir.

Tokio Universitetinin Honqo, Komaba, Kasiva, Şirokene və Nekano adlanan beş kampusu vardır. Universitetin əsas kampusu Honqo adlanır və Maeda mülkədar ailəsinin malikanəsində yerləşir. Bu, Yaponiyanın ən qədim malikanələrindən biridir, xüsusilə burada yerləşən Akamon (Qırmızı qapı) ölkənin tarixi abidəsidir. Honqonun mərkəzi 1615-ci ilə aiddir. Həmçinin bura Yaponiyanın ən gözəl yerlərindən biri hesab edilir. Komaba kampusu universitetin tələbələrinin məskunlaşdığı ən sıx şəhərcikdir. Bütün başqa universitetlərdə olduğu kimi, Tokio Universitetində də tələbələr yataqxanalarla təmin olunur. Əcnəbi tələbələrin məskunlaşması üçün Midaka, Toşima, Lodge, Komaba, Şirokanedal adlı beynəlxalq yataqxanalar vardır. Bu yataqxanalarda birnəfərlik yerin illik qiyməti 4700-5900 yen təşkil edir. Qızlar yataqxanası köhnə və yaşamaq üçün əlverişsiz olduğundan 2007-ci ildə Toşima Beynəlxalq yataqxanasında qızlar üçün yeni mənzillər təmir olunub. 2009-cu ilin oktyabrında Lodge və Kaşiva II Beynəlxalq yataqxana kampusu istifadəyə verilirb. 2010-cu ildə universitet Beynəlxalq Oiveyk rezidensiyası tikməyi planlaşdırır. Tələbələr universitetə yataqxanalara məskunlaşmaları haqqında ərizə ilə ildə iki dəfə müraciət edə bilər, birinci dəfə yanvarda, ikinci dəfə isə iyulda. Ərizəni tələbə oxuduğu fakültə və ya məktəb vasitəsilə göndərməlidir. Universitetdə, əsasən, oğlanlar yataqxanalarla daha yaxşı təmin edilir, qızlar və uşaqlı ailələr isə bu cəhətdən bir qədər əziyyət çəkirlər. Burada tələbələrin istifadəsinə kirayə mənzillər verilir, kənarda olan əməkdaşlar da mənzilərlə təmin edilirlər. Universitetdə milliyyətindən asılı olmayaraq istedadlı tələbələrə əlverişli şərait yaradılır, maddi yardım göstərilir. Müxtəlif fondlar əcnəbilər üçün təqaüdlər ayırır, hazırda universitetdə 30000-dən çox tələbə təhsil alır. Burada dünyanın 100 ölkəsindən 2500-dən çox tələbə var. Əcnəbi tələbələr universitetdə ingilis dilində təhsil alır, bunula yanaşı, onlara yapon dili də öyrədilir.

Yaponiya dünyanın ən inkişaf etmiş ölkələrindən biridir. "Gündoğan ölkə" adlandırılan Yaponiyanın qədim tarixə, zəngin mədəniyyətə malik olması, yapon texnologiyasının keyfiyyəti, Yaponiya elminin sürətli inkişafı hər kəsə məlumdur. Bu baxımdan, Yaponiyanın ali təhsil müəssisələrində, xüsusilə dünya universitetləri reytinqində yer alan Tokio Universitetində təhsil almaq, bu qədim ölkənin əvəzolunmaz təcrübəsindən bəhrələnmək böyük əhəmiyyətə malikdir.

**Kyoto Universiteti (Kyoto University).** Bu universitet Yaponiyanın Honşu adasının mərkəzindəki Kyoto şəhərində yerləşir. Asiyanın ən nüfuzlu universitetlərindən hesab olunan bu təhsil müəssisəsi Yaponiyanın ikinci ən qədim universitetidir. 2009-cu ildə aparılan dünya universitetlərinin reytinqinə əsasən, Kyoto Universiteti 100 ən yaxşı ali məktəb arasında 25-ci yerdədir.

18 iyun 1897-ci ildə Yaponiya imperatoru ölkədə ikinci ali məktəbin, Kyoto İmperator Universitetinin yaradılması haqqında sərəncam imzalayır. 1899-cu ildə universitetdə hüquq və tibb fakültələri, yataqxanalar, 1906-cı ildə filologiya, elm və texnika fakültələri yaradılır. 1914-cü ildə elm və texnika fakültəsi mühəndislik və elm fakültələrinə bölünür. 1919-cu ildə burada iqtisadiyyat fakültəsi açılır.

1923-cü ildə universitetdə kənd təsərrüfatı fakültəsi yaradılır və tələbələrin sayı xeyli artır. II Dünya müharibəsinə qədər və müharibə illərində Kyoto İmperator Universiteti durğunluq dövrünü yaşayır.

Müharibədən sonra universitetdə liberal atmosfer bərpa olunur. 1947-ci ildə Yaponiyada orta məktəb təhsili haqqında qanun qəbul olunur. Nəticədə, ümumilikdə bütün təhsil sistemində geniş islahatlar aparılır. 1947-ci ilin oktyabrında Kyoto İmperator Universitetinin adı dəyişdirilir və Kyoto Universiteti olur. Həmin ilin mayında universitetdə 3-illik təhsil 4 illə əvəz edilir. 1894-cü ildən Yaponiyada liberal incəsənət təhsili verən və Ali Məktəb adı ilə fəaliyyət göstərən təhsil ocağı yarım əsr sonra (1949-cu il) Kyoto Universitetinə birləşdirilir. 1953-cü ilin aprelində yeni tədrisin nizamlanması məqsədilə burada ali məktəbdən sonrakı təhsil çərçivəsində ədəbiyyat, elm, hüquq, iqtisadiyyat, əczaçılıq, maşınqayırma, kənd təsərrüfatı və s. ixtisaslar öyrədilir.

1954-cü ildə universitetdə Azad İncəsənət və Elm İnstitutu, 1955-ci ildə Təhsil haqqında qanuna əlavələr nəticəsində Tibb Məktəbi yaradılır. 1960-cı ildə Tibb Məktəbi iki instituta, Tibb və Əczaçılıq institutlarına bölünür. 1992-ci ilin oktyabrında Azad İncəsənət İnstitutunun adı İnsanın Kompleks Tədqiqatı fakültəsi olur. Burada tədricən Hüquq və Ekologiya, Energetika, Asiya və Afrika Regional Tədqiqatlar, İnformatika, Bioelmlər və Qlobal Ekologiya Tədqiqatları ali məktəbləri yaradılır.

2004-cü ildə Molekulyar Biologiya və Genetika Mərkəzi, Beynəlxalq İnnovasiyalar Cəmiyyəti, İnformasiyaların İdarəolunması İnstitutu açılır. 2005-ci ildə universitetin kitabxanası internet şəbəkəsinə qoşulur, 2006-cı ildə Menecment Ali Məktəbi, Nano-Tibb Təhsilinin Birləşməsi Qrupu, Qadın Tədqiqatçılar Mərkəzi açılır. 2007-ci ildə həkimlərin təkmilləşdirilməsi üçün Mühəndislik Tədqiqat Qrupu, Təbiətin Öyrənilməsi Mərkəzi, 2008-ci ildə isə Kosmosun Sinergetik Tədqiqat Qrupu yaradılır.

Universitetin illik gəlirləri ümumilikdə 140688 milyon yapon yeni təşkil edir. Bu məbləğin 60874 milyonu universitet rəhbərliyinin qrantlarına, 24680 milyonu xəstəxana gəlirlərinə, 22872 milyonu xarici mənbələrdən daxil olan gəlirlərə, 12975 milyonu təhsil haqqına, 12845 milyonu subsidiya xidmət-

lərindən daxil olan, 6442 milyon yeni isə ümumi gəlirlərə aiddir. Universitetin illik xərcləri 138915 milyon yenə bərabərdir. Xərclərin 63009 milyonunu tədris və tədqiqat xərcləri, 24846 milyonunu xəstəxana xərcləri, 6470 milyonunu idarəetmə xərcləri, 12845 milyonunu texniki xidmətlər, 23903 milyonunu sənaye müəssisələrinə olan xərclər, 4803 milyonunu müxtəlif borcların ödənişi, 3039 milyon yenini isə ümumi xərclər təşkil edir. Universitetdə birillik təhsil haqqı tələbənin təhsil aldığı fakültədən asılı olaraq, orta hesabla 535800-804000 yen arasında dəyişir. Təhsil haqqının daha çox tələb olunduğu fakültə isə hüquqdur. Bir semestr təhsil almaq tələbəyə fakültədən asılı olaraq, təxminən, 267900-402000 yenə başa gəlir. Qəbul imtahanında iştirak etmək üçün bakalavr üzrə 17000, magistratura və doktorantura üzrə isə 30000 yen ödənilməsi tələb olunur. Qəbul üçün məbləğ universitetə ərizə ilə müraciət edilərkən ödənilir. Birinci semestr üzrə təhsil haqqı, adətən, apreldə, ikinci semestr üzrə isə oktyabrda ödənilir. Ödəniş bank köçürməsi ilə də mümkündür. Yüksək balla qəbul olunan, dərslərə mütəmadi gələn, əlaçı, maliyyə çətinlikləri ilə üzləşən tələbələr təhsil haqqından bütünlüklə və ya yarısından azad oluna bilər. Bununla bağlı istənilən tələbə universitetə müraciət edə bilər, lakin yerlər məhdud olduğu üçün tələbələr seçim turundan keçməlidir. Universitetdə yuxarıda sadalanan keyfiyyətlərə malik olan tələbələrə təqaüdlər verilir. Bakalavrda oxuyan tələbələr hər ay 125000, magistrantlar 154000, doktorantlar isə 155000 yen təqaüd alır. Universitetin bir sıra regionlarında yerləşən müəssisələrində təhsil alan tələbələrə hər ay 2000, 3000 yen məbləğində vəsait verilir.

Yaponiya Tələbə Xidməti Təşkilatı (YTXT) Yaponiya universitetlərində təhsil alan əcnəbi tələbələrə təqaüdlər təklif edir. 2009-2010-cu tədris ilində YTXT-nın Universitetdə bakalavrlar üçün ayırdığı təqaüdün məbləği ayda 48000, magistr və doktorantlar üçün isə 65000 yen təşkil edir. Universitetlər iyunun əvvəlində JASSO-ya müraciət edir. JASSO komissiyası tərəfindən seçim turu aparılır və müsabiqədən müvəffəqiyyətlə keçmiş tələbələr haqqında məlumat universitetlərə iyul ayının əvvəlində verilir. Həmçinin bu təşkilat tələbə mübadiləsi çərçivəsində Yaponiya universitetlərinə qısa müddətdə tədqiqat üçün gələn tələbələrə təqaüd ayırır. 2009-2010-cu tədris ilində həmin vəsaitin məbləği 80000 yendir.

Universitetdə təhsil alan xarici tələbələr öz dövlətləri tərəfindən təqaüdlər alır. Dünyanın bir çox universitetlərində olduğu kimi, burada da müxtəlif təqaüdlər vardır. Tələbənin biraylıq xərcləri, qidalanması, yataqxana xərcləri, istirahəti və s. daxil olmaqla onun necə yaşamasından asılı olaraq, təxminən, 134000 yen təşkil edir.

Universitetin əsas kampusu Kyoto şəhərinin mərkəzində yerləşən Yoşidadır. Kampus Əsas, Cənub, Şimal, Qərb, Tibb, Əczaçılıq, Universitet Xəstəxanaları hissələrindən ibarətdir. Bu kampusda yerləşən binalar çox qədimdir və müxtəlif üslublarda inşa edilib. Binalar, əsasən, qırmızı kərpicdən tikilib.

Universitetin simvolu olan Yüzilliyin Zalı adlı saat qülləsi məhz bu kampusda yerləşir. Udzi kampusu əsas kampusdan 20 kilometr cənubdadır. Əvvələr imperator ordusuna məxsus olan bu ərazi 1949-cu ildə universitetə verilib. Kampus Qokaşo və Udzi hissələrindən ibarətdir. Burada təbiət elmləri və energetika fakültəlri, elmi-tədqiqat institutları və mərkəzləri yerləşir. Katsura kampusu əsas kampusdan 7 kilometr qərbdədir və 2003-cü ilin oktyabrında yaradılıb. Yerləşdiyi rayonun adı verilən bu kampusda texnologiya elmlərinə aid korpuslar yerləşir. Əvvəllər Yoşida kampusunda fəaliyyət göstərən Mühəndislik və İnformatika ali məktəbləri sonradan Katsura kampusuna köçürülüb.

Hazırda Universitetdə bakalavr üçün 10, magistr və doktoranitlar üçün 20 məktəb, 13 elmi-tədqiqat institutu, 30 təhsil mərkəzi fəaliyyət göstərir.

İnsanın kompleks tədqiqatı, Filologiya, Pedaqogika, Hüquq, İqtisadiyyat, Təbiət elmləri, Tibb, Əczaçılıq, Mühəndislik, Kənd təsərrüfatı ixtisasları üçün bakalavr məktəbləri vardır.

Bu universitetdə Filologiya, Pedaqogika, Hüquq, İqtisadiyyat, Elm, Tibb, Əczaçılıq, Mühəndislik, Kənd təsərrüfatı, İnsan və Ekologiya Elmləri, Energetika, Asiya və Afrika Regional Tədqiqatları, İnformatika, Bioelmlər, Qlobal Ekologiya Tədqiqatları, Dövlətin İdarə olunması, Menecment, Hüquqşünaslıq, İctimai Səhiyyə və Tibbi Texnologiya Kolleci, elmi-tədqiqat institutları və təhsil mərkəzləri vardır.

Kyoto Universitetinin kitabxanası 1899-cu ildə yaradılıb. Universitetin ayrılıqda 85 kitabxanası vardır. Udzi, Jinkan, Yukava, Oboda, Kurri və s. əsas kitabxanalardır. Demək olar ki, bütün ixtisaslara aid ayrıca kitabxana var. Ümumilikdə kitabxana sisteminə 6256000 kitab, 89000 jurnal daxildir. Kitabxana internet şəbəkəsinə qoşulub. Universitetin muzeyi ali məktəbin yarandığı gündən fəaliyyət göstərir. Bu vaxtadək muzey Yaponiya tarixinə, mədəniyyətinə, elminə, texnologiyasına və s. aid 2,5 milyondan çox əşya toplayıb. İstənilən şəxsə həmin nümunələrlə tanış olmaq imkanı yaradılıb. Universitetdə Səhiyyə Xidməti fəaliyyət göstərir. Bu xidmət hər il bütün tələbələri və universitetin əməkdaşlarını müayinə edir, onlara sağlamlıqları haqqında sertifikat verir, xəstə tələbələri müalicə edir.

Hazırda Kyoto Universitetinin işçi heyətinin ümumi sayı 5400 nəfərdir. Onların 2900-ü müəllim, 2500-ü inzibati işçidir. Universitet tələbələrinin ümumi sayı 22700 nəfərə bərabərdir. Tələbələrin 13400-nü bakalavr, 9300-nü isə magistrant və doktorantlar təşkil edir. Universitetdə təhsil alan əcnəbi tələbələrin sayı 1353 nəfərdir. Burada bütün qitələrdən olan tələbələr təhsil alır. Yerli tələbələrin yaşamaları üçün əsas kampusda dörd yataqxana var. Bunlar Yoşida-Re, Kumano-Re, qızlar üçün Coşi-Re, magistr və doktorantlar üçün Muromati-Re yataqxanalarıdır. Əcnəbi tələbələrin və tədqiqatçıların yaşaması üçün Kyoto Universitetində üç beynəlxalq yataqxana vardır: Şuqakuin, Udzi, Ohbaku. Burada qalmaq istəyənlər aprel və oktyabr ayla-

rında müraciət edə bilər. Kirayə haqqı otağın ölçüsündən və şəraitindən asılıdır. Mətbəxi, İnternetə çıxışı olan birnəfərlik mənzilin bir aylıq qiyməti 11700 yendir. İki nəfərlik yerin qiyməti 18900, ailə üçün nəzərdə tutulmuş mənzilin qiyməti isə 28400 yen təşkil edir. Burada həmçinin tələbələrin yaşaması üçün özəl mənzillər vardır, qiymətlər isə 25000-45000 yen arasında dəyişir. Özəl mənzillərdə qalanlar əlavə olaraq bir sıra vergilər, depozitlər ödəməlidir.

Kyoto Universiteti dünyanın qədim və ən nüfuzlu elmi-tədqiqat mərkəzlərindən biridir. Bu ali təhsil ocağının tələbəsi olmaq dünyanın bir çox gənclərinin ən böyük arzusudur.

**Tokio Texnologiya İnstitutu (Tokyo Institute of Technology).** Bu universitet dünyanın ən nüfuzlu elmi tədqiqat mərkəzlərindən biridir və Yaponiyanın paytaxtı Tokio şəhərində yerləşir. 2009-cu ildə aparılan dünya universitetlərinin reytinqinə görə, Tokio Texnologiya İnstitutu Münhen Texniki Universiteti ilə birgə 100 ən yaxşı ali məktəb arasında 55-ci yerdə olubdur. 2010-cu ildə Tokio Texnologiya İnstitutu dünyanın ən nüfuzlu universitetləri arasında 112-ci yerdə və 60-cı yerdə yerləşibdir.

Tokio Texnologiya İnstitutu Avropa və Asiyanın aparıcı universitetləri arasında tələbə və alim mübadiləsi həyata keçirən LAOTSE beynəlxalq şəbəkəsinin üzvüdür.

1881-ci il mayın 26-da, Meydzi hakimiyyəti bərpa edildikdən 14 il sonra Tokio şəhərində Tokio Texniki Peşə Məktəbi yaradılır. 1890-cı ildə məktəb Tokio Texnikumu, 1901-ci ildə isə Tokio Ali Texniki Məktəbi adlandırılır. Meydzi hökuməti dövlətin inkişaf səviyyəsi üzrə Qərbi ötüb keçmək üçün, ilk növbədə, ölkədə modernləşmiş mühəndis və sənətkar hazırlığına diqqət ayırır. İlk vaxtlar məktəb Tokio şəhərinin şərqində Kuramae ərazisində yerləşir. Lakin 1923-cü ildə baş vermiş Böyük Kanto zəlzələsi zamanı məktəbin binaları dağıntıya məruz qalır. 1929-cu ildə məktəb Tokionun cənubundakı Ookayama ərazisinə köçürülür və Milli Universitet statusu qazanır.

II Dünya müharibəsindən sonra, 1949-cu ildə Yaponiyada yeni təhsil sistemi qəbul edilir. Ali məktəbin Tokio Milli Universiteti adı Tokio Texnologiya İnstitutu ilə əvəz olunur. Müharibədən sonrakı bərpa və yenidənqurma dövründə institut sürətlə inkişaf etməyə başlayır, yüksək səviyyədə ixtisaslaşmış mühəndis, alim, iş adamları yetişdirir. İnstitutun nəzdində yeni məktəblər, elmi-tədqiqat laboratoriyaları açılır. 1971-ci ildə institutun Səhiyyə Xidməti, 1975-ci ildə Fənlərarası Elm və Texnika Məktəbi, 1976-ci ildə Hesablama Mərkəzi, 1988-ci ildə Kusatsu-Şirane Vulkan Tədqiqatları Rəsədxanası və xarici tələbələr üçün Təhsil Mərkəzi, 1990-cı ildə Biologiya Elmləri və Biotexnologiya Məktəbi, 1994-cü ildə İnformatika və Texnika Məktəbi, 1997-ci ildə Radioizotop Tədqiqat Mərkəzi, 1999-cu ildə Qabaqcıl Maliyyə Texnologiyaları Tədqiqatları Mərkəzi və başqa müəssisələr yaradılır.

İnstitut 2011-ci il mayın 26-da yaranmasının 130 illiyini qeyd etmişdir.

2009-2010-cu tədris ilində Tokio Texnologiya İnstitutunun illik gəlir və xərcləri 47983000000 yen olub. Gəlirlərin 45%-ni əməliyyat qrantları, 30%-ni sponsorların yardımları, 13,1%-ni təhsil haqqı və s. yığımlar, qalanlarını isə digər vəsaitlər, xərclərin isə 34,2%-ni əməkdaşların əməkhaqqı və digər xidmətlər, 30,3%-ni yardımlar, 13,4%-ni təhsil və tədqiqat, qalanlarını isə başqa xərclər təşkil edib.

2010-2011-ci tədris ilində Tokio Texnologiya İnstitutunda təhsil haqqı bakalavriat, magistratura və ya doktorantura pillələrində oxumalarından asılı olmayaraq 535800 yendir. Buraya tədqiqat aparmaq üçün gələnlər ildə 356400 yen ödəyir.

Tokio Texnologiya İnstitutu tələbələrə 50-dən çox proqram (təqaüdlə) təklif edir. Təqaüd almaq üçün tələbə ərizə ilə instituta müraciət etməlidir. Əsas təqaüd Yaponiya hökumətinin təqdim etdiyi 7 kateqoriyadan ibarət MEXT təqaüd proqramıdır. Bu təqaüdə əsasən, bakalavr pilləsində təhsil alanlar ayda 128000, magistratura pilləsində 157000, doktorantura pilləsində isə 158000 yen alır. İnstitut üç kampusdan ibarətdir. Bunlar Ookayama, Suzukakeday və Tamaçi tələbə şəhərcikləridir. İnstitutun nəzdində 3 bakalavr məktəbi, 6 ali məktəb (magistr, doktorantlar və tədqiqatçılar üçün), 3 institut, 5 elmi-tədqiqat laboratoriyası, çoxlu sayda mərkəz fəaliyyət göstərir.

Tokio Texnologiya İnstitutunun kitabxana sistemi Yaponiyada ən zəngin elmi və texniki nəşrlərə malik olan kitabxanadır. 1977-ci ildə kitabxana Yaponiya Təhsil Nazirliyi tərəfindən texnologiya sahəsi üzrə Xarici Periodik Nəşrlər Milli Mərkəzi təşkil olunub, həmin ildən etibarən mühüm beynəlxalq elmi konfrans və tədbirlər səviyyəsində minlərlə elmi iş və digər nəşrlər çap edir. 1998-ci ildə kitabxananın elektron xidməti yaradılıb. Bu xidmət institutun müxtəlif kampuslarında fəaliyyət göstərən beş kitabxananı birləşdirərək istifadəçilərin akademik resursları əldə etmələrini asanlaşdırır, onlara geniş imkanlar yaradır. Hazırda kitabxana sisteminə dəqiq elmlər və texnologiya sahəsinə aid 1 milyona yaxın kitab, 20 minə yaxın jurnal və s. daxildir.

İnstitutun əməkdaşlarının ümumi sayı 1710 nəfərdir. Onların 1150 nəfərini akademik heyət, qalan hissəsini isə inzibati heyət təşkil edir. 2009-2010-cu tədris ilində İnstitutda ümumilikdə 9986 nəfər təhsilalan qeydə alınıb. Onların 4860 nəfərini bakalavr, 3484 nəfərini magistratura, 1524 nəfərini doktorantura pillələrində təhsil alan, 118 nəfərini isə instituta tədqiqat aparmaq üçün gələnlər təşkil edib. İnstitutda dünyanın 100-ə yaxın ölkəsindən 1149 nəfər xarici tələbə təhsil alıb. Əcnəbi tələbələrin əksər hissəsi Çin, Koreya, Vyetnam, İndoneziyadan olan gənclərdir. Dünya üzrə institutun 90000-dən çox məzunu var.

Tokio Texnologiya İnstitutu çətinlik çəkmədən tələbə yerləşdirə biləcək rahat və yüksək şəraitlə təchiz edilmiş yataqxanalara malikdir. Bunlardan Şofu Qakuşa, Senzokuike, Şofu, Umeqaoka, Komaba Beynəlxalq yataqxanalarını, Tokio Beynəlxalq Mübadilə Mərkəzini qeyd etmək olar. Şofu Qakuşa

yataqxanası oğlanlar üçün nəzərdə tutulub. Yataqxananın binaları Ookayama və Suzukakeday kampuslarında yerləşir. Senzokuike yataqxanası Ookayama kampusunun yaxınlığındadır, qızlar, həm də xarici tələbə və tədqiqatçılar üçün nəzərdə tutulub. Xarici tələbələr üçün Şofu yataqxanasında 46, Umeqaoka yataqxanasında 50, Komaba yataqxanasında 70, Tokio Beynəlxalq Mübadilə Mərkəzində 22 birnəfərlik otaq vardır. İnstitutda xarici tələbələrin sayı 1000-dən zox olduğundan tələbə yalnız bir il yataqxanada qala bilər. Təkcə Komaba yataqxanasında və Tokio Beynəlxalq Mübadilə Mərkəzində iki il eyni otaqda qalmağa icazə verilir. Hər il yeni qəbul olunan tələbələr həmin otaqlarda yerləşdirilir, yuxarı kurs tələbələri isə onlara təklif olunan özəl mənzillərdə otaq tuturlar. Ookayama kampusu yaxınlığındakı özəl mənzillərdə otaqların aylıq qiyməti 60000-70000 yen, Suzukakeday kampusu yaxınlığında isə 50000-60000 yen təşkil edir. Ookayama kampusunda yerləşən Beynəlxalq Ev yalnız tədqiqatçılar üçün nəzərdə tutulub.

İnstitutda 80 klub və gənclər təşkilatı, eləcə də mədəni və idman birlikləri vardır. Bu təşkilatlar həftənin üçüncü gününü çıxmaqla ödənişli fəaliyyət göstərir. Təşkilatlar yeni üzvləri aprel ayında qəbul edir, köhnə üzvlər üçün isə hər zaman açıq olur. Gənclərin dərsdən sonrakı həyatının səmərəli keçməsi üçün institutda bir çox tədbirlər görülür. İnstitut yüksək intellektə malik gənc kadrlar hazırlayan elm və texnologiya mərkəzidir. Burada saysız-hesabsız elmi tədqiqatlar həyata keçirilir, dünyanın müxtəlif aparıcı universitetləri ilə layihələr hazırlanır. İnstitutun daha sürətli inkişafını təmin etmək məqsədi ilə bu təhsil ocağında ümumi təhsili genişləndirmək, tələbələri ən yeni texnologiyalarla təchiz etmək, gənclərdə yüksək etik hisslər aşılamaq, problemləri tez aşkarlamaq və həll etmək bacarıqlarını, müstəqil yaradıcılıqla məşğul olmaq və tədqiqatlar aparmaq keyfiyyətlərini gücləndirmək və s. üzrə yeni-yeni proqramlar qəbul edilir. İnstitutun missiyası qlobal insan potensialının inkişafına yönəldilib.

Tokio Texnologiya İnstitutunun prezidenti Keniçi İqa 2010-2011-ci tədris ilinin açılışında çıxış edərkən rəhbərlik etdiyi elm ocağı haqqında deyib: "Tokio Texnologiya İnstitutu Yaponiyanın ən böyük milli elm və texnologiya universitetidir. Universitetdə məqsəd hər zaman cəmiyyətin inkişafına fayda vermək, yeni dəyərlər yaratmaqdan ibarət olub. Universitet əməkdaşları azadlıq və sərbəstliyə hörmət edir, haqq-ədalətin tərəfində durur, dünyanın inamını qazanmağa çalışır. Dünya dəyişir və insan həyatının keyfiyyətini yüksəldən daha yeni texnologiyalara tələbat yaranır. Bu isə İnstitutun dünyada yerini daha da möhkəmləndirir. Cəmiyyətin rifahı yolunda birgə səylə çalışmaq və bəşəriyyətə fərqli və yüksək səviyyəli elmi nailiyyətlər bəxş etmək universitetin əsas ideyalarından biridir".

**Osaka Universiteti (Osaka University).** Osaka Universiteti Yaponiyanın Honsyu adasının Osaka şəhərində yerləşir. Asiyanın ən nüfuzlu universitetlərindən hesab olunan bu təhsil müəssisəsi Yaponiyanın altıncı ən qədim uni-

versitetidir. 2009-cu ildə aparılan dünya universitetlərinin reytinqinə əsasən, Osaka Universiteti 100 ən yaxşı ali məktəb arasında 43-cü, Yaponiya universitetləri arasında isə 3-cü yeri tutmuşdur.

Osaka Universiteti fundamental elmlər, texnika və tibb sahələrinin yüksək səviyyədə öyrənilməsinə görə dünyada tanınır.

Osaka Universiteti 1931-ci ildə yaradılsa da, onun tarixi kökləri Yaponiyanın Edo dövrünə təsadüf edir. 1724-cü ildə Osaka şəhərində tacirlər üçün Kaitokudo məktəbi - "qakumonco" ("oxumaq üçün yer") açılır. Məktəbin verdiyi mükəmməl təhsil həmin dövrün sakinlərinin qürur mənbəyi olur. Daha sonra həkim və alim Oqata Koan burada Tekicuku məktəbi, Omura Masuciro Yaponiyanın ilk hərbi məktəbini yaradır. Edo dövründə Yaponiyada öyrədilən yeganə xarici dil holland dili olur.

1869-cu ildə Osaka şəhərinin mərkəzində Osaka Tibb Məktəbi açılır və 1919-cu ildə həmin məktəb imperatorun sərəncamına əsasən universitet statusu qazanmış Ali Tibb Kollecinə çevrilir. 1931-ci ildə yeni açılmış Elm Kolleci Ali Tibb Kolleci ilə birləşdirilərək altıncı imperator ali məktəbi olan Osaka İmperator Universiteti yaradılır. 1933-cü ildə Osaka Texniki Universiteti Osaka Universitetinə birləşdirilir və universitetdə Mühəndislik Məktəbi fəaliyyətə başlayır. Osaka İmperator Universitetinin adı 1947-ci ildə Osaka Universiteti ilə əvəz olunur. 5 departamentdən (Elm, Tibb, Mühəndislik, Filologiya, Hüquq) ibarət olan universitet 1949-cu ildə yeni təhsil islahatları qəbul edir. Həmin il burada Humanitar Elmlər Departamenti yaradılır.

1951-ci ildə stomatologiya, 1955-ci ildə isə əczaçılıq fakültələri universitetin Tibb Məktəbindən ayrılaraq ayrıca məktəb kimi fəaliyyət göstərməyə başlayır. 1972-ci ildə psixologiya, sosiologiya və pedaqogika fakültələri filologiya departamendən çıxarılaraq Humanitar Elmlər Məktəbinə birləşdirilir. 1989-cu ildə universitetdə magistr və doktorantlar üçün Dil və Mədəniyyət Ali Məktəbi yaradılır. 1993-cü ildə Osaka Universitet Xəstəxanası Nakasima kampusundan Suita kampusuna köçürülür və bununla da səpələnmiş universitet binalarının bir kampusda cəmlənməsi prosesi başa çatır. 1994-cü ildə universitetdə Osaka Beynəlxalq Dövlət Siyasəti Məktəbi açılır. 2002-ci ildə universitetdə İnformasiya və Texnologiya Ali Məktəbi yaradılır, 2007-ci ildə isə Osaka Xarici Dillər Universiteti Osaka Universitetinə birləşdirilir və Osaka Universiteti ölkənin ən böyük ali təhsil ocaqlarından birinə çevrilir.

2009-2010-cu tədris ilində Osaka Universitetinin gəlir və xərcləri ümumilikdə 128119000000 yen təşkil edir. Universitetdə bakalavr, magistratura və doktorantura pilləsində oxuyan tələbələrin təhsil haqqı 535800 yen, Hüquq Ali Məktəbində isə 804000 yendir. Maliyyə durumu çətin olan və yaxşı nəticələr göstərən tələbələr təhsil haqqının hamısından və ya yarısından azad ola bilər. Universitetdə tələbələrə 3 növ təqaüd təklif olunur: Yaponiya Tələbə Təşkilatı, özəl təşkilatlar və bələdiyyələr, Universitetin ümumtəhsil tədris təqaüdləri. Yaponiya Tələbə Təşkilatının, özəl təşkilatlar və bələdiyyələrin

ayırdığı təqaüdlər təhsil haqqını ödəməyə imkanları olmayan sağlam, yaxşı oxuyan tələbələrə borc kimi verilir. Tələbə universiteti bitirdikdən sonra işlədikcə tədricən borcunu qaytarır. Universitetin ümumtəhsil tədris təqaüdü universitetin ikinci kursundan başlayaraq əla nəticələr göstərən tələbələrə təklif olunur. Universitetin bakalavr pilləsində təhsil alan tələbələr 30000-51000 yen, magistratura və doktorantura pilləsində oxuyan tələbələr isə 50000-88000, 80000-122000 yen təqaüd alırlar.

Osaka Universiteti 3 kampusdan ibarətdir: Suita, Toyonaka, Minoh. Ali məktəbin əsas kampusu olan Suita kampusu Suita və İbaraki şəhərləri boyu uzanır. Kampus 996659 $m^2$ ərazini əhatə edir. Bu kampusda Administrasiya Bürosu, humanitar elmlər, tibb, stomatologiya, farmakologiya və mühəndislik fakültələri, Milli Birləşdirilmiş Kibermedia, Nüvə Fizikası Problemləri Elmi-Tədqiqat mərkəzləri, müxtəlif avtomobil, motosikl, velosiped dayanacaqları, idman kompleksləri, tennis portları yerləşir. Toyonaka kampusu 445851 $m^2$ ərazini əhatə edir və burada universitet kitabxanası, ədəbiyyat, hüquq, iqtisadiyyat, elm və texniki elmlər fakültələri yerləşir. Bundan əlavə, Beynəlxalq Dövlət Siyasəti, Dil və ədəbiyyat, İnformatika məktəbləri, Hüquqi və Siyasi Təcrübə Mərkəzi vardır. Minoh kampusu 2007-ci ildə Osaka Xarici Dillər Universitetinin Osaka Universitetinə birləşdirilməsindən sonra yaranıb. 145125 $m^2$ ərazini əhatə edən kampusda Xarici Dillər, Dünya Dilləri, Yapon Dili və Mədəniyyəti məktəbləri yerləşir.

Bu üç kampusa əlavə olaraq Osaka şəhərinin mərkəzində universitetin keçmiş kampusu Nakasima yerləşir. 1000 $km^2$ ərazisi olan şəhərciyin binaları 1993-cü ildə Suita kampusuna köçürüldükdən sonra 2004-cü ildən başlayaraq Nakasima Mərkəzi adlanır. Mərkəzdə informasiya mübadiləsi, yaşlı insanların təhsili, müxtəlif tədbirlər həyata keçirilir. Universitetin nəzdində 11 məktəb, 3 filialı olan əsas kitabxana və s. institut və mərkəzlər fəaliyyət göstərir.

Filologiya və Humanitar Elmlər məktəblərinin tərkibində Humanitar elmlər departamentləri, Elm Məktəbinin tərkibində Riyaziyyat, Fizika, Kimya, Biologiya bölmələri, Xarici Dillər Məktəbində Çin, Koreya, Monqolustan, İndoneziya, Filippin, Vyetnam, Birma, hindu, urdu, ərəb, fars, türk, rus, macar, Danimarka, İsveç, alman, ingilis, fransız, italyan, ispan, portuqal dilləri departamentləri, Hüquq Məktəbində Hüquq və Beynəlxalq Siyasət departamentləri, İqtisadiyyat Məktəbində İqtisadiyyat və Menecment departamenti, Tibb Məktəbində Tibb və Qarışıq Tibb Elmləri departamentləri, Stomatologiya Məktəbində Stomatologiya departamenti, Farmakologiya Məktəbində Farmakologiya və Əczaçılıq Elmləri departamentləri, Maşınqayırma Məktəbində Tətbiqi elmlər, Mexanika, material və istehsal elmləri, Elektron və informasiya texnikası, Sabit energetika və ekologiya mühəndisliyi, Qlobal Arxitektura departamentləri, Mühəndislik Məktəbində Elektronika və materiallar fizikası, Kimya elmi və Layihələşdirmə, Sistemlər elmi, İnformatika və

Kompyuter elmləri departamentləri vardır. Universitetin ali məktəblərinin də hər biri bir neçə departmentdən ibarətdir.

Universitetin kitabxana sisteminə əsas, Həyat Elmləri, Elmi-Texniki, Beynəlxalq kitabxanaları daxildir və burada ümumilikdə 4 milyondan çox kitab var. Əsas kitabxananın yeni binası 2000-ci ildə istifadəyə verilib. Kitabxanada bütün sahələri əhatə edən materiallara rast gəlmək olar. Əsas kitabxanada 2250000 cild kitab və jurnal, 8700 dövri nəşr, eləcə də nadir kitablar, audio və video materiallar, mikroformalar, verilənlər bazası, kompakt disklər və s. vardır. Həyat elmləri kitabxanası 1922-ci ildə açılıb və Suita kampusunda yerləşir. Burada, əsasən, tibb, stomatologiya, əczaçılıq elmlərinə aid kitablar vardır. Elmi-texniki kitabxana 1970-ci ildən fəaliyyət göstərir. Kitabxana Suita kampusunda yerləşir və burada texniki və dəqiq fənlərə aid olan kitablar saxlanılır. Beynəlxalq kitabxana universitetin ən yeni kitabxanasıdır və 2007-ci ildə Osaka Xarici Dillər Universiteti Osaka Universitetinə birləşdikdən sonra yaradılıb və Minoh kampusunda yerləşir. Kitabxanada 600000-dən çox kitab vardır və bu, ölkənin beynəlxalq tədqiqatlar və linqvistika sahəsinə aid ən əsas kitabxanalarından biridir. Kitabxanalarda oxucuların istifadəsinə fərdi elmi işlə məşğul olmaq üçün kabinetlər, qrupla oxumaq üçün auditoriyalar, video materiallarla tanış olmaq üçün kabinetlər, multimediaterminallar, kibermedia-mərkəz terminalları, simsiz LAN şəbəkəsi, OPAC terminalı, məlumatlar bazası ilə işləmək üçün kompyuterlər, noutbuklar verilib.

Ali məktəbin Administrasiya Bürosu, 8 departament, 22 bölmə, 7 ofisdən ibarətdir. Ümumilikdə, universitetdə 5466 işçi çalışır. Professor-müəllim heyətinin sayı 2953, inzibati heyətin sayı isə 2513 nəfərə bərabərdir. Universitetin alimləri arasında 18 nəfər Mədəniyyətə Xidmət Ordeni, 15 nəfər Yaponiya İmperatorluğu Akademiyası, 41 nəfər Yaponiya Akademiyası mükafatçıları var.

2009-2010-cu tədris ilində universitetin tələbələrinin ümumi sayı 15937 nəfər olub. Onların 3250 nəfərini bakalavr, 1673 nəfərini magistratura, 939 nəfərini isə doktorantura pilləsində təhsil alan gənclər təşkil edib. Əcnəbi tələbələrin sayı 1455 nəfər olub. Universitetin Hüquq Məktəbində 7856 nəfər tələbə oxuyurdu.

Universitetdə tələbələr üçün 5 yataqxana vardır. Bunlar Toneyama, Seimei, Nina, Koyo və Momici yataqxanalarıdır. Yataqxanada ümumi və birnəfərlik otaqlar vardır. Otaqlar İnternet şəbəkəsinə qoşulub, otaqda yazı stolu, kitab şkafı, stol və stullar olur. Toneyama, Nina, Koyo və Momici yataqxanalarında qalmaq tələbəyə ayda 4300 yenə, Seimei yataqxanasında isə 4700 yenə başa gəlir. Bu məbləğə kommunal xərclər daxil deyil.

Ali məktəbdə "Osaka Universiteti idman təşkilatı" fəaliyyət göstərir. Hazırda təşkilatın 9000 üzvü var. Onların 1812 nəfəri 2009-cu ildə 58-dən çox idman növü üzrə universiteti layiqincə təmsil edib. "Osaka Universiteti mədəniyyət təşkilatı" universitetin mədəni əlaqələrinin inkişafı və zənginləşdiril-

məsi məqsədi ilə yaradılıb. Təşkilata 68 klub daxildir və onların 2888-dən çox üzvü var.

Osaka Universitetinin prezidenti Uoşida Kiyokazu rəhbərlik etdiyi ali təhsil müəssisəsi haqqında deyir: "Osaka Universiteti cəmiyyətin tam inamını qazana biləcək mütəxəssis və tədqiqatçılar yetişdirir. Başqa sözlə, əsl müdrik, nəcib və yüksək səviyyədə ünsiyyət qurmağa malik insanlar bu ali məktəbin məzunlarına çevrilir. Universitetin hər bir işçisi, tələbəsi, tədqiqatçısı bütün qüvvələrini birləşdirərək çalışır ki, cəmiyyət onların haqqında desin: "Osaka Universitetini bitirən şəxslər başqa universitetləri bitirən şəxslərdən bir addım qabaqdadırlar". Ali məktəbin şüarı belə səslənir: "Lokal yaşa, qlobal böyü".

# CƏNUBİ KOREYADA ALİ TƏHSİL

Yaxşı təhsil almaq Cənubi Koreyada hər bir koreyalının uğurlu karyerasının qərarlaşması üçün həlledici önəm daşıyır, ona görə də nüfuzlu təhsil müəssisələrinə daxil olmaq vəzifəsinə ən yüksək prioritet verilir. Koreya dövlətinin inzibati orqanları uşağın erkən yaşlarından başlayaraq onun ali təhsil müəssisəsindəki son ilinə qədər bütün təhsil prosesini səlis bir şəkildə qurur və onu nəzarətdə saxlayır. Riyaziyyata, koreya və ingilis dillərinə, dəqiq elmlərə və ictimaiyyət elmlərinə daha çox üstünlük verilir. Bədən tərbiyəsinə buna bənzər diqqət yetirilmir, çünki bu təhsil fənni sayılmır, nəticə etibarilə bir çox məktəblərdə lazımi idman avadanlıqları yoxdur. Cənubi Koreya ibtidai məktəblərdən tutmuş ali məktəblərə qədər bütün təhsil müəssisələrində İnternetə yüksək sürətli çıxışı təmin edən ilk ölkə olmuşdur.

Tədris ili iki semestrə bölünür. Birinci semestr avqustun sonlarında başlanır və fevralın ortalarında bitir. İkinci semestr martda başlanır və iyulun ortalarında qurtarır. Yay tətili iyulun sonundan avqustun sonunadək, qış tətili dekabrın sonundan fevralın əvvəlinədək davam edir, bundan başqa isə, fevralın ortalarından sonunadək qısa dincəlmə dövrü də vardır. Tədris proqramı sərt bir şəkildə sistemləşdirilməyib və bir tədris müəssisəsi digəri ilə müqayisədə variasiyalara malikdir.

Təhsil sisteminin ümumi strukturu:

| Pillə | Tədrisin davamiyyəti | İcbaridir |
|---|---|---|
| İbtidai məktəb | 6 il | Bəli |
| Orta məktəb | 3 il | Bəli |
| Ali məktəb | 3 il | Xeyr |
| Kollec | 2 il | Xeyr |
| Universitet | 4 il | Xeyr |

Təhsil və Personalı İdarəetmə Nazirliyi.

Cənubi Koreyada təhsil məsələlərinə Təhsil və Personalı İdarəetmə Nazirliyi baxır, bu qurumun əvvəlki adı sadəcə Təhsil Nazirliyi idi. 2001-ci ildə Kim De Çjun administrasiyası vətəndaşların keyfiyyətli təhsil almasını və bütövlükdə, insan inkişafını yüksək prioritet elan etdi, nəticədə əvvəlki nazirliyin səlahiyyəti genişləndirildi və bu qurum insan inkişafının bütün məsələləri ilə məşğul olmağa başladı, təhsil naziri isə baş nazirin müavini səviyyəsinə yüksəldildi. Bütün digər nazirlər kimi, təhsil və orta ixtisası idarəetmə naziri də ölkə prezidenti tərəfindən bu və digər dərəcədə təhsil sferası ilə bağlı olan namizədlər sırasından yetərincə qısa müddətə təyin edilir.

Koreyanın uşaq bağçaları ümumi inzibati təhsil proqramının bir hissəsi deyil, valideynlər öz uşaqlarını özəl müəssisələrə verir. Onların bir çoxunda tədris koreya dilində aparılır, lakin bir çoxunda ingilis dili sinifləri var, bəzilərində isə ingilis dili, ümumiyyətlə, əsas dildir.

Uşaq bağçalarına uşaqlar üç yaşdan beş yaşadək həddə verilir. Uşaqların bir çoxu məktəbəqədər hazırlıq proqramını keçməyə, sadəcə başqa uşaqlarla uşaq bağçasına gedə bilər, yaş fərqi üç yaşadək ola bilər. Altı yaşa çatdıqda uşaqlar, adətən, ibtidai məktəbə gedirlər.

1980-ci illərdə uşaq bağçalarına və məktəbəqədər müəssisələrə qeydəalma səviyyəsində sıçrayış baş verdi: 1980-ci illərdə 901 belə bir müəssisəyə 66 433 uşaq yazıldı, 1987-ci ildə isə 7 792 müəssisəyə 397 020 uşaq yazılmışdı. Həmin dövrdə məktəbəqədər təhsil tərbiyəçiləri və müəllimlərinin sayı 3 339-dan 11 920-dək artdı, onların çox böyük hissəsi, 92 faizi qadınlar idi. Bu bir sıra səbəblərlə izah edilir:

Təhsil və Personalı İdarəetmə Nazirliyi tərəfindən həvəsləndirmə və yardım;

Əmək bazarına çıxan qadınların sayında artım;

Ailələrin sayı artıq olduqda yaşlı valideynlər olmadığı üçün uşaqlara dayəlik edən olmurdu.

Belə bir düşüncə vardı ki, uşaq bağçaları sonrakı təhsili asanlaşdıra bilər.

Böyük təəssürat yaradan məzun tədbirləri, eləcə də uşaq bağçasını başa vurmaq haqqında diplomlar və fəxri fərmanlar da mühüm faktorlar idi, müəyyən bir dərəcədə valideynlərdə öz övladlarının uğurlarına görə qürur hissi oyadırdı.

Uşaqlar ibtidai məktəbdə 8 yaşdan 14 yaşadək (Qərbdə müvafiq olaraq 6 və 12 yaş) oxuyur, davamiyyət 6 il təşkil edir. Öyrənilən fənlərin siyahısına daxildir (lakin bu siyahını tam əhatə etmir):

- koreya dili;
- riyaziyyat;
- dəqiq elmlər;
- ictimaiyyət;
- dillər;
- təsviri incəsənət.

Adətən, bütün fənlərin hamısını bir sinif rəhbəri aparır, lakin ixtisaslaşdırılmış bəzi başqa fənləri (riyaziyyat, bədən tərbiyəsi və xarici dillər) başqa müəllimlər də apara bilər.

İbtidai məktəbdən ali məktəbə qədər təhsil sisteminin pillələri ilə irəliləyiş müxtəlif imtahanların nəticələri ilə deyil, yalnız və yalnız şagirdin yaşı ilə müəyyən edilir.

XX əsrin 80-ci illərinin sonlarınadək ingilis dili, adətən, orta məktəbdən tədris olunmağa başlanırdı, lakin hazırda onu ibtidai məktəbin üçüncü sinfindən öyrənməyə başlayırlar. Koreya dili ingilis dilindən kəskin şəkildə fərq-

lənir, ona görə də ingilis dilinin mənimsənilməsi böyük çətinliklərlə, həm də nisbətən kiçik uğurlarla gedir, belə bir fakt valideynlər üçün çox vaxt fikirləşmə mövzusuna çevrilir. Nəticədə onların bir çoxu öz uşaqlarını əlavə tədris üçün "haqvon" adlandırılan özəl təhsil müəssisələrinə göndərməli olurlar. Ölkədə getdikcə daha çox ingilis dili məktəbi əcnəbiləri cəlb etməyə başlayır.

İbtidai məktəblərlə yanaşı, Koreyada bir sıra özəl məktəblər də vardır. Bu kimi məktəblərin tədris proqramı müəyyən dərəcədə dövlət proqramına müvafiqdir, lakin bu daha yüksək səviyyədə həyata keçirilir: az sayda şagirdə daha çox sayda müəllim təklif edilir, tədrisə əlavə fənlər daxil edilir və ümumilikdə, daha yüksək təhsil standartları müəyyən edilir. Bir çox valideynlər öz uşaqlarını məhz bu kimi məktəblərə qoyur, lakin bu məktəblərdə təhsil ödənişi nisbətən yüksəkdir.

İbtidai məktəblər koreya dilində "çxodın hakkyö" adlanır. Əvvəlki adı "qukmin hakkyö" (tərcümədə "mülki məktəb") olub, Cənubi Koreya hökuməti bu adı 1996-cı ildə dəyişdirib. Bu ilk əvvəl milli qüruru bərpa etmə jesti olmuşdur. "Qukkin" - "xvanquksinminıy hakkyö" söz birləşməsinin ("imperiya fənləri məktəbi") qısaldılmış ifadəsi olmaqla, Koreya yapon imperializminin nəzarəti altında olduğu zamanlardan qalmışdı.

Koreya məktəb təhsili orta və ali təhsilə bölünür.

Statistikaya görə, 1987-ci ildə orta və ali məktəblərdə təqribən 4 895 354 şagird və 150 873 müəllim vardı. Müəllimlərdən təqribən 69%-i kişilər idi, məktəb təhsili ümumi tendensiyasının dəyişdiyini əks etdirirdi, 1979-cu ildə 3 959 975 şagird təhsil almışdı. 1987-ci ildə, ali təhsil almağın əhəmiyyətini nəzərə almaqla, şagirdlərin əksəriyyəti ali təhsil almağa çalışırdı: peşə məktəblərinə daxil olan 840 265 şagirdlə müqayisədə, 1 397 359 şagird (ümumi sayın 60%-i) ali məktəblərə daxil olmuşdu. Peşə məktəblərinə daxil olanlar bir neçə sahədə ixtisaslaşa bilər:

- əkinçilik və bağçılıq təsərrüfatı;
- balıq ovu;
- kommersiya;
- ticarət;
- gəmiçilik;
- mühəndis işi;
- incəsənətin müxtəlif növləri.

Orta məktəbə qəbul imtahanları 1968-ci ildə ləğv edilmişdir. 1980-cı illərin sonlarından isə şagirdlər qəbul imtahanları verir (lakin digər rəqiblərlə rəqabət aparmadan) və qəbulun nəticələri ya təsadüfi şəkildə, ya da bu və digər təhsil müəssisəsinə münasibətdə yaşayış yeri üzrə müəyyən edilirdi. Dərəcəsi əvvəllər şagirdlərin səviyyəsinə görə müəyyən edilən məktəblər dövlət dəstəyinin alınmasında və yoxsul şagirdlərin paylaşdırılmasında bərabərləşdirildi. Seulda qəbul imtahanlarını yaxşı verən şagirdlər rayona bağlanma-

dan daha nüfuzlu məktəblərə qəbula buraxılırdı və yerdə qalanlar isə öz rayonunda məktəbə daxil olurdu. İslahatlar dövlət və özəl məktəblərə eyni şəkildə tətbiq edilməklə, onlara qəbul Təhsil Nazirliyi tərəfindən ciddi nəzarət olunurdu.

İbtidai, orta və ali məktəbə qəbul zamanı sinfin nömrəsi, adətən, tədricən artan xətlə, yəni (1-dən 12-dək artma kimi deyil) ABŞ-dan fərqli olaraq, sinfin nömrəsi hər dəfə 1-dən hesablanmaqla başlayır. Onların arasındakı fərqləri görməkdən ötrü sinfin nömrəsi, adətən, təhsil pilləsinin səviyyəsi ilə birlikdə göstərilir. Misal üçün, orta məktəbin birinci sinfi ABŞ-ın yeddinci sinfinə ekvivalentdir.

Koreya orta məktəbi üç siniflidir. Şagirdlərin zox hissəsi 12 yaşında daxil olur və müvafiq olaraq 15 yaşında (Qərb ölçülərinə uyğun) bitirirlər.Üç il Şimali Amerika təhsil sisteminin 7-9-cu siniflərinə və Britaniya təhsil sisteminin 2-4 sinfinə uyğun gəlir.

İbtidai siniflə müqayisədə Cənubi Koreya orta məktəbi öz şagirdlərinə daha yüksək tələblər irəli sürür. Tələbə həyatının bir çox digər aspektləri kimi geyim və saç forması həmişə çox ciddi şəkildə tənzimlənir. İbtidai sinifdə olduğu kimi, məktəblilər günün çox hissəsini öz sinif yoldaşları ilə bir sinifdə keçirir; lakin hər bir fənn öz müəllimi tərəfindən tədris olunur. Müəllimlər sinifdən sinfə yerlərini dəyişir, yalnız ixtisas fənlərini tədris edənlərdən bəziləri istisna hal olaraq öz auditoriyalarına malikdir, bu auditoriyaya şagirdlər özləri gedirlər. Sinif rəhbərləri şagirdlərin həyatında çox önəmli rol oynayır və onlar amerikalı həmkarları ilə müqayisədə xeyli böyük nüfuza malikdir.

Ali məktəbdən fərqli olaraq, orta məktəblər arasında tədris planının ciddi fərqləri yoxdur. Tədris planının əsası (bazası) bu fənlrədən təşkil edilir:

- riyaziyyat;
- Koreya və ingilis dilləri;
- bir sıra dəqiq elmlər;
- müxtəlif incə sənətlər;
- bədən tərbiyəsi;
- tarix;
- xançça (Çin ieroqlifikası);
- etika;
- ev təsərrüfatçılığı;
- kompyuter dərsləri.

Şagirdlərin hansı fənləri və hansı həcmdə öyrənmələri ildən-ilə təkmilləşir.

Tədris məşğələlərinin davamiyyəti 45 dəqiqə həcmindədir. Birinci dərs başlananadək şagirdlərin sərəncamında 30 dəqiqə olur, bu müddətdə onların arzuları ilə öz biliyini artırmağa, ayrıca kanal ilə yayımlanan təhsil proqramlarına baxış, şəxsi və ya sinif işlərinin görülməsinə istifadə edilə bilər. 2008-ci

ildə məktəblilər bazar ertəsindən cümə gününədək tam günü, eləcə də ayın hər birinci, üçüncü və beşinci şənbələrini məşğələlərə gedirlər. Şənbə günü şagirdlər istədiyi dərnəklərdə əlavə fəaliyyətlə məşğul olurlar.

İbtidai məktəbdə olduğu kimi, şagirdlər onların müvəffəqiyyət dərəcəsindən asılı olmayaraq, bir sinifdən digərinə keçir, bunun nəticəsində eyni bir fənn eyni bir sinifdə tamamilə fərqli hazırlıq səviyyəsinə malik şagirdlər tərəfindən öyrənilə bilər. Son illərdə orta məktəblərdə qiymətlər çox önəmli rol oynamağa başlayır, çünki qiymətlər şagirdin bu və digər ali məktəbə qəbul olunmasına, peşə-texniki deyil, ilk növbədə elmi dərəcə niyyətində olanlara təsir göstərir. Qalan hallarda isə qiymətlər, sadəcə, onun üçün lazımdır ki, valideynlərini və ya müəllimlərini sevindirsin (yaxud onların haqlı hiddətindən yayına bilsin). Müəyyən fənlər üçün bir neçə standart forma mövcuddur, fundamental fənlərin müəllimlərinin tövsiyə edilmiş dərs vəsaitlərinə əməl etmələri icbaridir, lakin, adətən orta məktəb müəllimləri ali məktəb müəllimləri ilə müqayisədə tədris proqramına və tədris metoduna dair böyük səlahiyyətlərə malikdir.

Orta məktəblərin bir çox şagirdləri məşğələlərdən sonra əlavə kurslara, və ya özəl repetitorların yanına hazırlığa gedirlər. İngilis dili və riyaziyyata xüsusi diqqət yetirilir. Sağlam şagirdlər əlbəyaxa döyüş dərnəklərinə və musiqi məktəblərinə də gedirlər.

Ali məktəbin birinci kursuna 17 yaşda qəbul olunur və üçüncü kursdan sonra 19 yaşında məzun olurlar. Məktəblər bu və digər tələbənin maraqlarına müvafiq olaraq və onların karyera yolları ilə üst-üstə düşməklə ixtisaslaşdırılmış şöbələrə bölünə bilər. Misal üçün, ali məktəblər, xarici dillərin öyrənildiyi məktəblər və sənətşünaslıq məktəbləri vardır. Onların hamısı qəbul olunmaq üçün yetərincə mürəkkəb imtahanlar verilməsini tələb edir.

Orta məktəblər dövlət və özəl məktəblərə ayrılır. Bu kimi məktəblər hər hansı ixtisas vermir, sadəcə, öz şagirdlərini kollecə qəbul üçün hazırlayırlar. Hər hansı bir səbəb üzündən kollec təhsili almaq istəməyən tələbələr üçün peşə məktəbləri mövcuddur, onlar texnologiyalar, aqrar sahə və ya maliyyə sahələri üzrə ixtisaslaşır, şagirdlər bu müəssisələrə məktəbdən sonra məzun olduqda dərhal daxil ola bilər.

Ali məktəblərin dərs cədvəllərinə gəldikdə, tələbənin intensiv olaraq fərdi bilikartırma kursundan sonra evə gecəyarıdan keçmiş qayıtması normal sayılır. Bir qayda olaraq, on bir fəndən ibarət tədris proqramı çox vaxt həddən artıq ağır olur, ona görə də bəzi tələbələr özəl akademiyalara daxil olmağa üstünlük verirlər ki, öz akademik biliklərini zənginləşdirsinlər.

Əsas fənlər siyahısına koreya və ingilis dilləri, riyaziyyat, eləcə də müxtəlif humanitar və təbiət elmləri daxildir. Konkret fənlər və onların tədrisi müəssisələrin ixtisaslaşma səviyyəsindən asılı olaraq fərqli ola bilər.

Orta məktəbdən fərqli olaraq, ali məktəbdə təhsil almaq icbari deyil. Buna baxmayaraq, 2005-ci ildə gənc koreyalıların 97 %-i ali məktəb bitirmişdi. Aydın görünür ki, bu rəqəm bütün ölkələr arasında ən yüksək faizdir.

Tələbələr, adətən, "sunın" adlanan standart testə cavab verməlidir. Qeyd etmək lazımdır ki, bir çox məktəblərin tədris proqramı qəbul imtahanlarının məzmunu nəzərə alınaraq qurulmuşdur. Sunın Amerika testinin analoqudur və üç başlıca bölmədən: koreya dili, riyaziyyat və ingilis dilindən ibarətdir. Onlarla yanaşı, humanitar və təbiət elmləri sırasından öz seçimi üzrə bir sıra fənlərdə də vardır. Lakin amerika testindən fərqli olaraq, belə bir test yalnız ildə bir dəfə cavablandırıla bilər və intensiv hazırlıq tələb edir, həm də bəzi gələcək tələbələr ona hələ uşaq yaşlarından hazırlaşır. Bu testin nəticələrindən narazı qalanlar və kolleca daxil olmağı bir illiyə təxirə salmaq qərarına gəlmiş tələbələr "çesusen"lər adlanır.

1980-ci illərin sonlarından universitetə qəbul olunmaq gənc koreyalıların həyatında ən başlıca hadisəyə çevrildi, onlardan ən nüfuzlusuna daxil olmaq isə, həqiqətən, güclü qüvvə və fədakarlıq tələb edir. Ən mötəbər ali məktəblər Seul Milli Universiteti, Pusan Milli Universiteti, eləcə də bir sıra özəl universitetlərini: Koreya Universitetini, Yonsei Universitetini, Sogang Universitetini, Hanyang Universitetini güstərmək olar.

Ali təhsil alan tələbələrin sayı 1960-cı ildə 100 000-dən 1987-ci ilə kimi 1,3 milyona çatmışdı, belə bir nəticə ABŞ-dan sonra ikinci idi. Ali təhsil müəssisələrinə dördillik kolleclər və universitetlər, ikiillik peşə kollecləri, həm də doktorantlar aiddir. Belə bir vəziyyətin başlıca çatışmazlığı ondan ibarətdir ki, ali məktəb məzunları onları bu və digər halda sosium liderinə çevirən zirvəyə qaldırmaq istəyirdilər. Bu qədər arzusunda olanlara yer tapılmırdı və bir çoxlarının istəyindən zox olduğundan aşağı nüfuza malik yerləri qəbul etməyə məcbur edirdilər. Bu isə ambisiyalı qadınlara xas idi və onların bir çox cəhətlərlə yanaşı, qarşısını ənənəvi gender diskriminasiyası kəsirdi.

Ali məktəbdə hər semestrdə iki dəfə keçirilən testlərə görə tələbələrin tədris prosesinin ağırlığından dincəlməyə vaxtları qalmır. Hesab edilir ki, bu kimi dövri xarakterli testləri uğurla cavablandırmaq üçün tələbənin 60-100 səhifəlik faktları yadda saxlaması lazımdır. Ona görə də axşamdan xeyli keçmiş dərsdən evə dönən tələbələrlə rastlaşmaq təəccüblü deyil. İmtahanlar ilin olduqca önəmli vaxtıdır, çünki bu imtahanlar cəmiyyətin strukturunu ciddi şəkildə dəyişdirir. İmtahan müddətində qəzetlər qızlara imtahanlarda kəskin qoxulu ətriyyatdan istifadə etməməyə və ya hündürdaban ayaqqabı geyməməyi dərc edirlər, çünki bu hallar diqqəti işdən yayındıra bilər. Öz uşaqlarına imtahanlara hazırlaşmaqda gecədən keçənədək kömək edən valideynlərə yardım məqsədilə tennis klubları, əyləncə mərkəzləri vaxtından əvvəl bağlanır.

Belə bir imtahan cəhənnəminin fəaliyyəti əksəriyyət üçün, hətta bütün gənc koreyalılar üçün təkcə itirilmiş gənclik deyil, həm də bitib-tükənməyən testlərin fasiləsiz təzyiqlərindən doğan real intihar aktlarına səbəb ola bilər.

İntiharların ən geniş yayılmış faktı, imtahanlarda arzuedilməz bədbəxt hadisələrdir. Bununla yanaşı, əvvəlcədən müəyyən edilmiş cavab variantları ilə birlikdə ali məktəbdə dövri imtahanlarının və ali məktəbə qəbul imtahanlarının formatı tələbələrə öz yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmələri üçün az vaxt qoyur. Qüvvənin testlərə sərf edilməsini yaxın gələcəkdə, çətin ki, dəyişdirmək mümkün olsun. Bu yanaşmanın müsbət tərəfi onun obyektivliyidir. Hətta onun müəyyən sərtliyinə baxmayaraq, sistem ilk öncə ədalətli və soyuqqanlı yanaşma hesab edilir. Esse yazılması, şəxsi tövsiyələr və ya müəllimlərin tövsiyələri, dərsdənkənar işlərdə uğurlar və s. qeyri-obyektiv meyarlardan istifadə korrupsiya növləri üçün qapıları taybatay açır. Koreya kimi sosial münasibətlərin olduqca önəmli olduğu cəmiyyətdə şəxsi qabiliyyətlər deyil, məhz universitetə daxil olmanın taleyini həll edə bilər. Hökumətdə və biznesdə məsul vəzifələrdə mövqe tutan məzunlardan ən uğurluları legitim üstünlük ambisiyalarını sübut etmiş olurlar.

Fərdlərin şəxsi üstünlüklərinin, məzunu olduğu nailiyyətlərinin başlıca müəyyənedici faktor olduğu ölkələrdən fərqli olaraq, Cənubi Koreyada belə bir faktor bitirilmiş universitetin nüfuzluğudur. Çox vaxt belə bir ali məktəbin diplomu uğurlu karyera və maliyyə rifahıdır. Bu və digər səbəbdən universitetə daxil olmayan yaşlı qalan gənclərin isə qarşısında bir neçə seçim vardır:

1. İntihar etmək.
2. İşsiz və evsiz olmaq.
3. Hərbçi olmaq.
4. Bir qarın çörəyi təmin etməkdən ötrü az maaşlı iş tapmağa çalışmaq.

Bəzi koreyalılar hətta ali təhsilləri olmasa da, müəyyən uğurlara çata bilir.

Yeniyetmələr arasında intihar ölümün səbəbi olaraq avtomobil qəzalarından sonra ikinci yerdə durur.

XIX əsrin sonları, XX əsrin əvvəllərində koreyalıların özləri və xristian missionerləri tərəfindən özəl məktəblər təsis edilməyə başlamışdı. Onlar qadınların təhsil almasını təbliğ edir və Qərbin sosial, siyasi ideyalarını yayırdılar. 1910-cu ildən sonrakı yapon təhsil siyasəti Koreyanın müstəmləkəyə çevrilməsinə yönəlmişdi, burada əsas etibarilə texniki vərdişləri inkişaf etdirən fənlər tədris olunurdu. Tokio İmperiya Universiteti nəzdində dövlət universiteti Seulda 1923-cü ildə açılmışdır. Koreyalı və yapon tələbələrinin müvəffəqiyyəti 40 və 60 faizə bərabər olan fərq nisbəti ilə əvvəlcədən müəyyənləşdirilmişdi.

Koreyanın güney hissəsinin 1945-ci ildə ABŞ qoşunları tərəfindən işğal edildiyi zamanlarda təhsil sistemi Amerika təhsil sisteminə oxşar qaydada müəyyən edildi: altı il ibtidai məktəb, altı il tam orta məktəb və dörd il ali məktəb. Doqquz illik təhsil icbari idi. Li Sın Man rejimi zamanında 1948-ci ildən sonra resurs çatışmazlığı üzündən islahatlardan bir çoxu ləğv edildi: birgə tədris yalnız ibtidai məktəblərdə saxlandı, ancaq 6 illik təhsil icbari

oldu. 1990-cı il islahatları əsas etibarilə Amerika işğalı zamanında müəyyən edilmiş qaydaları ləğv etdı.

Li və Pak Çon Hi idarəçiliyi zamanında təhsilə nəzarət məktəblərin əlindən alınaraq dövlətin Təhsil Nazirliyinin ixtiyarına verildi. 1980-ci ilin sonlarından nazirlik məktəblərin inzibati idarəetməsinə, resursların ayrılmasına, daxilolma üçün kvotaların müəyyənləşdirilməsinə, məktəblərin və müəllimlərin sertifikasiyalaşdırılmasına, tədris planlarının işlənib hazırlanmasına və sairə görə cavabdeh idi.

Əksəriyyət bu fikirdə idi ki, Cənubi Koreyanın iqtisadiyyatında və texnikada uğurları insan resurslarına qoyulan investisiyaların nəticəsidir. İnsanın təhsilinə qorunub saxlanmış ənənəvi ictimai hörmət bu günə qədər gəlib çatıb və bu gün ondan alimlər və müxtəlif texniki peşə işçiləri də istifadə edir. İqtisadi inkişafdakı sıçrayışı 1960-cı illərdən dövlətin idarə edilməsinə buraxılmış yüksək təhsilli texnoloq və iqtisadçılar bütövlükdə öz adlarına yaza bilər. 1980-ci illərdən sonra elmi-tədqiqat sahələri Cənubi Koreyada daha nüfuzlu sayılır.

Cənubi Koreya milli təhsil proqramının uğurları statistik göstəricilərə görə öz əksini tapır. 1945-ci ildə vətəndaşların 22 faizi savadlı idi; 1970-ci ildə bu rəqəm - 87,6, faiz, 1980-ci illərin sonlarında isə - 93 faiz təşkil edirdi. Cənubi Koreya tələbələri dəqiq elmlər üzrə beynəlxalq yarışlarda yaxşı göstəriciləri ilə fərqlənmişlər. Yalnız ibtidai təhsilin (6 illik) icbari olmasına baxmayaraq, təhsilin yuxarı pillələrində oxuyanların faizi, Yaponiya da daxil olmaqla, inkişaf etmiş ölkələrdəki göstəricilərlə müqayisə edilə bilərdi. 1985-ci ildə təqribən 4,8 milyon şagird ibtidai məktəblərə daxil olmuşdu. O illərdə orta məktəbdə qeyri-icbari təhsili davam etdirənlərin faizi 99 faizi keçmişdi. Şagirdlərin təqribən 34 faizi ali məktəblərə imtahan verə bilirdi, bu da Yaponiyanın (30 faiz) göstəriciləri ilə müqayisə oluna bilərdi, Britaniyanın reytinqindən (20 faiz) isə yuxarı idi.

Dövlətin təhsilin ehtiyaclarına qoyulan xərcləri isə heyrət doğuran rəqəmlərlə ifadə olunur. 1975-ci ildə bu xərclər 220 milyard von idi, bu da ÜDM-nin 2,2 faizi və ya bütün büdcənin 13,9 faizinə müvafiq idi. 1986-cı ildə isə bu rəqəm artıq 3,76 trilyon von və ya ÜDM-nin 4,5 faizi və büdcənin 27,3 faizi idi.

Koreya əhalisi tələbələrin sayının nisbətinə görə dünyada başlanğıc yerlərdən birində durur. Təhsil qanununa əsasən, bütün dövlət və özəl ali məktəblər Təhsil Nazirliyi və Əmək Resurslarının İnkişafı Təşkilatı tərəfindən idarə olunur. Digər məsələlərdə universitetlər Koreyanın Universitet Təhsili Şurasının prinsiplərini əsas götürür. Koreyada aşağıda göstərilən məktəb növləri vardır: kolleclər və universitetlər (milli, dövlət və özəl); sənaye universitetləri; müəllimlər institutu (milli).

Cənubi Koreyada ali təhsil aşağıdakı təhsil pillələri üzrə fəaliyyət göstərir:

**Bakalavr.** Təhsil müddəti 4 ildir. Tələbələr təhsili 140 və 150 kredit toplamaqla bitirməlidir. Tibb ixtisası üzrə təhsil 6 il davam edir və tələbələr

180 kredit toplamalıdır. Sonda bakalavr dərəcəsi diplomu verilir. Tipik böyük Koreya universitetinin tərkibində, adətən, amerikan obrazında kolleclər adlandırılan 10-20 fakültə var. Koreyada dərs prosesində informasiya texnologiyalarının tətbiq edilməsinə xüsusi diqqət verilir. Nəticədə öz məktəblərini kompyuterlərlə və internetə giriş ilə tam təmin edən Cənubi Koreya Sinqapurdan sonra dünyada ikinci yerdədir.

**Magistratura.** Təhsil müddəti 2-3 ildir. Tələbələr dissertasiya yazmalıdır. Tibb məktəbində bütün tələbləri yerinə yetirən tibb ixtisasının tələbələri milli imtahan verməlidir. Təhsili sona çatdırdıqda magistr dərəcəsi diplomu verilir.

**Doktorantura.** Təhsil müddəti 3-4 ildir. Doktor dərəcəsi magistr dərəcəsini alandan sonra verilir. Namizədlər doktorluq dissertasiyasını yazmalı, şifahi və ya müvafiq imtahandan keçməlidir. Təhsilini tamamladıqda doktor dərəcəsi diplomu verilir.

**Cənubi Koreyanın ali məktəblərinə daxil olarkən ümumi tələblər.**

1. Koreya və ingilis dillərini bilmə sertifikatı.
2. Təhsil alacağı dilə əsaslanan ərizə.
3. Təhsil alacağı dildə və ya ingilis dilində xülasə.
4. 3 zəmanət məktubu və onların təhsil alacağı dilə və ya ingilis dilinə tərcüməsi.
5. Doğum haqqında şəhadətnamənin və pasportun surəti.
6. Koreya dilindən başqa, bəzi universitetlərdə təhsil ingilis dilində keçirilə bilər. Təhsilin keçirilməsi üçün kifayət qədər ingilis dilini bilmək lazımdır.
7. Xarici tələbələr magistraturaya və doktoranturaya daxil olmaq üçün orta məktəbdə əyani təhsilin sertifikatına uyğun ixtisasa və ya ona ekvivalent olan ixtisasa sahib olmalıdır.

Yuxarıda göstərilən sənədlərdən başqa, aşağıdakı sənədlərin verilməsi də tələb olunur:

**Bakalavr.**

1. İngilis dilinə tərcümə edilmiş, notarius tərəfindən təsdiq olunmuş attestatın surəti.
2. İngilis dilinə tərcümə ilə notarius tərəfindən təsdiq olunmuş Vahid Milli Testləşdirmə sertifikatının surəti.

**Magistratura.**

1. Notarius tərəfindən təsdiq olunmuş bakalavr diplomunun surəti və onun notarius təminatlı təhsil alacağı dilə tərcüməsi.

**Doktorantura.**

1. Təhsil alacağı dildə və ya ingilis dilində tədqiqatın planı.
2. Elanların (bildirişlərin) siyahısı, təhsil alacağı dildə nəticə (xülasə).
3. Notarius tərəfindən təsdiq olunmuş magistr diplomunun surəti və onun notarius təminatı, alacağı dilə və ya ingilis dilinə tərcüməsi.

**Cənubi Koreyanın ali məktəblərinə ərizələrin verilmə müddətləri:**
Birinci dövr: – sentyabr - mayın sonu.
İkinci dövr:– mart - noyabrın sonu
Ərizələrin verilmə müddətinə aid daha dəqiq məlumat almaq üçün universitetin veb-saytına müraciət etmək lazımdır.

**Seul Milli Universiteti (Seul National University).** Bu universitet Cənubi Koreyanın paytaxtı Seul şəhərinin Kvanakku rayonunda yerləşir və ölkədə yaradılmış ilk milli universitetdir. 2009-cu ildə aparılan dünya universitetlərinin reytinqinə əsasən, Seul Milli Universiteti 100 ən yaxşı ali məktəb arasında 47-ci xanada yerləşib. Beləliklə, 2010-cu ildə dünyanın ən nüfuzlu universitetləri arasında 109-cu yerdə, bəzi universitetlər üzrə araşdırmalarda isə 50-ci yerdədir. Cənubi Koreyanın dövlət xadimlərinin, alim, siyasətçi və iş adamlarının əksəriyyəti Seul Milli Universitetini bitirib. 1946-cı il avqustun 22-də Seulda 10 ali məktəbin (Kenson Universiteti, Kenson Hüquq Kolleci, Sənaye Mühəndisliyi, Daş-mədən, Tibb, Stomatologiya, İqtisadiyyat məktəbləri, Suvin Kənd Təsərrüfatı Kolleci, Normal Məktəb, Normal Qızlar Məktəbi) birləşdirilməsi nəticəsində Seul Milli Universiteti yaradılır. 1950-1953-cü illərdə Koreya müharibəsi dövründə universitet Punsan şəhərində yerləşən digər ali məktəblərlə birləşdirilir. İlk vaxtlar universitetin kampusu Daehanqno və Conqno rayonlarında yerləşməsinə baxmayaraq, 1975-1979-cu illər arasında kampus Kvanakku rayonuna köçürülür. Conqno rayonunda hazırda Tibb, Stomatologiya və Tibb bacısı kollecləri fəaliyyət göstərir və onların yerləşdiyi ərazi Yeongeon kampusu adlanır.

2010-2011-ci tədris ilində bakalavr pilləsində tələbələrin illik təhsil haqqı məktəb və fakültədən asılı olaraq birinci kursda 2780000-5384000 Cənubi Koreya vonu, ikinci və üçüncü kursda 2611000-4964000 Cənubi Koreya vonu, dördüncü kursda isə 2537000-4816000 Cənubi Koreya vonu arasında dəyişir. Magistratura və doktorantura pillələrində illik təhsil haqqı 3325000-8779000, 38789000 Cənubi Koreya vonu təşkil edir. Seul Milli Universitetində tələbələrə müxtəlif təqaüdlər təklif olunur. Koreya dövlətinin bakalavr pilləsində təhsil alan tələbələrə verdiyi təqaüdün məbləği ayda 800000 Cənubi Koreya vonu, magistratura və doktorantura pillələrində 900000 Cənubi Koreya vonu təşkil edir. Koreya Təqaüd Fondunun ayırdığı təqaüdün miqdarı ildə 4000000 Cənubi Koreya vonu, Devunq təqaüdü ildə 2000000 Cənubi Koreya vonu, Koreya-Yaponiya Mədəniyyəti Assosiasiyası təqaüdü ildə 3500000 Cənubi Koreya vonu olur. 2009-2010-cu ildə Seul Milli Universitetinin ümumi büdcəsi 559 milyon ABŞ dolları, ianə fondunun gəlirləri isə 134,2 milyard Cənubi Koreya vonu (145,6 milyon ABŞ dolları) təşkil edib.

Seul Milli Universitetinin Kvanak və Yeongeon kampusları vardır. Universitetin əsas kampusu olan Kvanak 1975-ci ildə tikilib və Kvanakku Sillim-donq rayonu ərazisində yerləşir. Kampusda 200-dən çox bina var və onların zox hissəsi1990-cı ildən sonra inşa edilib. Kvanak kampusundan 1,5

km məsafədə Seul Milli Universiteti adına metro stansiyası (Seul metrosundan 2-ci xətt) yerləşir. Həmin stansiyadan şəhərciyə avtobuslar işləyir. Kampusda Kvanaksa adlanan yataqxana kompleksi vardır. Bu kompleks 1975-ci ildə yaradılıb.

Tibb, Stomatologiya məktəbləri və universitet xəstəxanaları Han çayından şimalda salınmış Yeongeon kampusundadır. 2003-cü ildə Kənd təsərrüfatı, Biologiya elmləri və Baytarlıq məktəbləri Yeongeon kampusundan Kvanak şəhərciyinə köçürülüb. Yeongeon kampusunun yaxınlığında Hiehva metro stansiyası (Seul metrosundan 4-cü xətt) yerləşir. Bu kampusda da tələbə və müəllimlərin daşınmasını təmin etmək üçün çoxlu avtobuslar var. Yeongeon kampusunda Yeongeonsa yataqxana kompleksi salınıb. Kompleksdə ailəli tələbələr üçün 17 yataqxana, 533 yerlik binalar (bakalavrlar üçün) vardır.

Seul Milli Universitetində 14 kollec, bir ali məktəb və 9 peşə məktəbi fəaliyyət göstərir.

Humanitar Elmlər Kolleci Koreya, çin, ingilis, fransiz, alman, rus, ispan dilləri və ədəbiyyatları, Linqvistika, Fəlsəfə, Estetika, Dini tədqiqatlar, Arxeologiya və incəsənət tarixi, Koreya, Asiya, Qərb tarixləri bölmələrindən, Humanitar, Koqnitiv elmlər, Koreya, Amerika elmləri, Fəlsəfə, Tarixi tədqiqatlar institutlarından ibarətdir.

İctimai Elmlər Kolleci və Siyasi elmlər, Beynəlxalq Əlaqələr, İqtisadiyyat, Sosiologiya, Antropologiya, Psixologiya, Coğrafiya, Sosial təminat, Kommunikasiya bölmələrindən, Sosial Elmlər İnformasiya Mərkəzindən və s. tədqiqat mərkəzlərindən ibarətdir.

Dəqiq Elmlər Kollecində riyaziyyat, statistika, fizika və astronomiya, kimya, biologiya, yer və ekologiya, tibb və baytarlıq elmləri bölmələri, eləcə də tarix və fəlsəfə, genetika mühəndisliyi, beyin elmləri, nano elmlər və texnologiya, bioinformatika, hesablama riyaziyyatı və texnologiyası, fənlərarası proqramlar, tədqiqat institutları fəaliyyət göstərir.

Kənd Təsərrüfatı və Həyat Elmləri Kolleci bitki, meşə, qida və heyvan biotexnologiyası, tətbiqi biologiya və kimya, landşaft arxitekturası və kənd mühəndislik sistemi, biomateriallar elmi və mühəndisliyi, kənd təsərrüfatı iqtisadiyyatı və kənd inkişafı bölmələrindən, Kənd təsərrüfatı biotexnologiyası, fənlərarası proqramlar, Kənd təsərrüfatı və Həyat elmləri, Kənd təsərrüfatı Biomaterialları, Bitki Molekulyar Genetikası və Becərmə Tədqiqatları, Funksional Məhsul Genomikası institutlarından ibarətdir.

Təhsil Kolleci 9 əsas (humanitar və ictimai elmlər, dəqiq elmlər, təsviri incəsənət, musiqi, tibb, təbabət, pre-veterinar tibbi, baytarlıq, tibb bacısı) və 4 kiçik (humanitar və ictimai elmlər, dəqiq elmlər, təsviri incəsənət, musiqi) bölməsindən ibarətdir.

Mühəndislik Kollecində vətəndaş və ətraf mühit, mexanika və aerokosmik, Material elmlər, Elektrik, kimya və biologiya, arxitektura, sənaye, enerji

resursları, nüvə, dəniz arxitekturası və okean, vətəndaş, şəhər və geosistem mühəndisliyi, kompyuter elmləri və texnologiya bölmələri vardır.

Təsviri İncəsənət Kolleci Şərq-Qərb rəssamlığı, heykəltəraşlıq, sənətkarlıq və dizayn bölmələrindən, Vizual İncəsənət İnstitutundan ibarətdir. Musiqi Kollecində Vokal, İnstrumental musiqi, Kompozisiya, Koreya milli musiqisi departamentləri, Asiya, Qərb, Opera musiqisi tədqiqatı institutları, kompyuter musiqisi laboratoriyası fəaliyyət göstərir.

İnsan Ekologiyası Kollecində istehlakçı, ailə tədqiqatları və uşaq inkişafı, qida və ərzaq, paltar və tekstil bölmələri və eyniadlı tədqiqat mərkəzləri vardır.

Hüquq Kolleci əvvəllər iki departamentdən, kütləvi və Özəl hüquq bölmələrindən ibarət idi, 1997-ci ildən isə bir fakültə altında birləşdirilib. Kollecdə Hüquq Tədqiqatları İnstitutu, Yüzillik Zal adlı hakimlər hazırlanan institut, Kuksan hüquq kitabxanası fəaliyyət göstərir.

Tibb Kolleci əsas tibb elmləri, anatomiya, fiziologiya, biokimya və molekulyar biologiya, patologiya, farmakologiya, mikrobiologiya və immunologiya, profilaktik tibb, parazitologiya və tropik tibb, tibbin tarixi, tibbi-məhkəmə ekspertizası, səhiyyə siyasəti və idarəetməsi, biotibbi mühəndislik, daxili tibb, cərrahiyyə, mamalıq və ginekologiya, pediatriya, neyropsixiatriya, nevrologiya, dermatologiya, ortopedik, plastik cərrahiyyə, urologiya, oftalmologiya, radiasiya onkologiyası və s. bölmələrdən, eləcə də 20-yə yaxın tədqiqat institutundan, xəstəxana və tibb mərkəzlərindən ibarətdir.

Tibb Bacısı Kolleci xəstəyə qulluq sahəsi üzrə bakalavr, magistr və doktorluq proqramları təklif edir. Kollec Tibb Bacısı Elmləri İnstitutu, Tibb Bacısı Mərkəzi və Beynəlxalq Mübadilə Mərkəzindən ibarətdir.

Əczaçılıq Kolleci 1915-ci ildə Çosun əczaçılıq məktəbi adı altında yaradılıb və Koreyada bu sahə üzrə ilk ali məktəb olub. 1950-ci ildə məktəb Seul Milli Universitetinə birləşdirilib və Əczaçılıq Kolleci kimi fəaliyyət göstərib. Kollecdə Əczaçılıq Elmləri, Təbii Məhsul tədqiqatları institutları, Tibbi bitkilər Bağı, Əczaçılıq Təhsilinin Davametdirilməsi Mərkəzi, Heyvanlar Üzərində Təcrübə Mərkəzi, Tətbiqi Əczaçılıq bölməsi və s. vardır.

Baytarlıq Kolleci əsas tibbi elmlər (veterinar anatomiya, histologiya və embrionologiya, biokimya, psixologiya, farmakologiya, toksikologiya, neyroelmlər laboratoriyaları), tibbi profilaktika (Veterinar immunelogiya, mikrobiologiya, patologiya, parazitologiya və s. laboratoriyalar) bölmələrindən, Klinikalar (Veterinar daxili tibb, cərrahiyyə, radiologiya, infeksion xəstəliklər, quş xəstəlikləri, kliniki patologiya və s. laboratoriyalar), Seul Milli Universiteti Baytarlıq Xəstəxanası, Baytarlıq Elmləri Tədqiqat İnstitutu, Heyvanların Klonlaşdırılması və Gövdə Hüceyrələrinin Tədqiqatı institutlarından ibarətdir.

Ali Məktəb 98 bölmədən ibarətdir. Məktəb çoxlu sayda magistr və doktorluq proqramları təklif edir. Diplomdan sonrakı təhsilin məqsədi əldə

edilmiş bilik və təhsili genişləndirmək, akademik bacarıqları inkişaf etdirmək, müstəqil tədqiqat işi aparmaq qabiliyyətini möhkəmləndirməkdir.

Seul Milli Universitetində fəaliyyət göstərən 9 peşə məktəbi bunlardır: səhiyyə, siyasi idarəetmə, ekoloji tədqiqatlar, stomatologiya, menecment, tibb, hüquq, beynəlxalq tədqiqatlar, konvergensiya texnologiyası elmi.

Seul Milli Universitetinin kitabxana sistemi ölkədə ən zəngin kitabxanalardan biridir. Kitabxana sisteminə 3814458 cild kitab, 276761 kitabça və digər resurslar, 6943 qəzet və jurnal, 199032 dövri nəşr, qədim mətnlər və s. daxildir. Kitabxananın əsas binası Kvanak kampusunda yerləşir və Mərkəzi kitabxana adlanır. Seul Milli Universiteti Muzeyi Kvanak kampusunda yerləşir və 1946-cı ildə universitetlə birgə yaradılıb. Əvvəllər ikimərtəbəli Donsundon binasında yerləşən muzey 1993-cü ildə yeni binaya köçürülüb. 1995-ci ildə universitetin İncəsənət muzeyi yaradılıb. 2003-cü ildə inşa edilən muzeyin yeni binası qeyri-adi forması ilə diqqəti cəlb edir. Binaya baxanda elə təsəvvür yaranır ki, onun bir hissəsi havada dayanıb.

Seul Milli Universitetində 26030 nəfər tələbə təhsil alır. Bunların 15976 nəfəri bakalavr, 10054 nəfəri isə magistr və doktorantdır. Universitetdə oxuyan tələbələrin 2961 nəfərini əcnəbi gənclər təşkil edir. Bütün dünya üzrə universitetin məzunlarının sayı 330000 nəfərə bərabərdir.Seul Milli Universiteti öz missiyasını alim və tələbələri birləşdirərək parlaq intellektual cəmiyyət, işıqlı gələcək qurmaqda görür.

**Koreya Qabaqcıl Elmlər və Texnologiyalar İnstitutu (Korea Advanced Institute of Science and Technology - KAIST).** Bu institut Cənubi Koreyanın Dəceon şəhərinin Yuseonq rayonundakı Daedeok elmi şəhərciyində yerləşir. Hazırda bu institut Cənubi Koreyada dəqiq elmlər və texnologiyalar üzrə yüksək səviyyədə ixtisaslaşmış kadrlar hazırlayan birinci ali məktəbdir. Koreya Qabaqcıl Elmlər və Texnologiyalar İnstitutu bir çox beynəlxalq proqramlarda iştirak edir, Avropa və Asiyanın beynəlxalq universitetlər şəbəkəsi olan LAOTSE-nin üzvüdür. Böyük Britaniyanın 2009-cu ildə apardığı dünya universitetlərinin reytinqinə əsasən, Koreya Qabaqcıl Elmlər və Texnologiyalar İnstitutu 100 ən yaxşı ali məktəb arasında 69-cu yerdə və 2010-cu il üzrə dünyanın ən nüfuzlu universitetləri arasında apardıqları araşdırmalara əsasən, bu ali təhsil müəssisəsi 79-cu yerdə qərarlaşıb.

1971-ci il fevralın 16-da Koreyada qəbul edilmiş xüsusi qanuna əsasən, elm və texnika üzrə mütəxəssislər hazırlayan Koreya Qabaqcıl Elmlər İnstitutu yaradılır. Tələbələr bu ali məktəbə xüsusi müsabiqə yolu ilə qəbul edilirlər. Buraya qəbul olunan tələbələr hərbi xidmətdən azad olunur, lakin məzunların qarışsında institutu bitirdikdən sonra 5 il Koreyanı tərk etməmək qadağası qoyulur. Bu, ölkədən beyin axınının qarşısını almaq məqsədi ilə edilir. 1973-cü ildən institutda ilk dəfə olaraq magistr pilləsi üzrə tələbələr qəbul edilmiş, iki ildən sonra avqustun 20-də isə ilk magistr diplomu verilmişdir.

Həmin il sentyabrın 12-də doktorantura pilləsinə ilk qəbul aparılmışdır, 1978-ci il avqustun 19-da isə ilk doktorluq diplomları təqdim olunmuşdur.

1980-ci illərdə İnstitutun fəaliyyətində bir sıra böyük dəyişikliklər baş verir. Əsas hadisələrdən biri 1989-cu ildə institutun Seuldan 140 km cənubda Dəceon şəhərində yerləşən kampusuna köçməsi olur. 1980-ci illərin sonunda institutda xüsusi istedadlar üçün bakalavr, magistr və doktorluq proqramları üzrə təhsil tədqiqat sistemi yaradılır. İnstitutun məzunları tərəfindən təşkil olunan "Qnix", "Madison", "Turbotech" və s. şirkətləri fəaliyyətə başlayır. 2002-ci ildə institutun Milli Nano laboratoriyası yaradılır. 2008-ci ildən bu ali məktəb Koreya Qabaqcıl Elmlər və Texnologiyalar İnstitutu adlandırılır.

Koreya Qabaqcıl Elmlər və Texnologiyalar İnstitutunun kampusları Seul və Dəceon şəhərlərində yerləşir. Ali məktəbin əsas kampusu Dəceon şəhərindəki Daedeok elmi-tədqiqat kompleksində, Daedeok Elmi Parkındadır. Burada 50-dən çox dövlət və özəl elmi-tədqiqat institutu, universitet və yüksək texnologiyalı şirkətlər vardır. İnstitutun yerləşdiyi Daedeok Elmi Parkı Daedeok vadisində yerləşən dəqiq elmlər və texnologiyalar üzrə ixtisaslaşmış institut və elmi-tədqiqat mərkəzlərindən ibarət klasterdir. Klaster Koreya Qabaqcıl Elmlər və Texnologiyalar İnstitutu, Çunqnam Universiteti, Koreyanın digər aparıcı texniki universitetləri və 900-dən çox müxtəlif şirkətlərin birgə əməkdaşlığı çərçivəsində yaradılıb və ölkənin ən böyük elmi parklarından biridir. Dəceon şəhərindəki Koreya Qabaqcıl Elmlər və Texnologiyalar İnstitutunun kampusu 1432882 $m^2$ ərazini əhatə edir. İnstitutun Seul şəhərindəki kampusunda ali məktəbin Biznes Kolleci, İnformasiyaların və medianın idarə olunması bölmələri yerləşir. Seulda institutun şəhərciyi 413346 $m^2$ ərazini əhatə edir. Bu kampusda texniki və biznes tədqiqatlarının əlaqələndirilməsi nəticəsində daha səmərəli nailiyyətlər əldə olunur. İnstitut 7 kollec, 2 məktəb, 21 departament, 3 bölmə, 6 peşə məktəbi və 10 diplomdan sonrakı fənlərarası proqramını təklif edən mərkəzdən ibarətdir.

Təbiət Elmləri Kollecinə 3 departament - Fizika, Kimya, Riyaziyyat elmləri departamentləri, Nanoelmlər və Texnologiyalar, Ali Peşə Məktəbi daxildir. Kollec verdiyi təhsilin keyfiyyətində, sənayenin inkişafında, elmi-tədqiqatlarda əldə etdiyi yeniliklərə görə bir çox yerli və beynəlxalq mütəxəssislər tərəfindən etibar qazanıb. Təbiət Elmləri Kolleci ölkənin bir çox elmi tədqiqat institutu və şirkətləri ilə əməkdaşlıq edir, yeni-yeni layihələrə imza atır.

Həyat Elmləri və Biomühəndislik Kolleci 2008-ci ildə yaradılıb və biologiya elmləri, biotexnologiya, biomühəndislik və digər həyat elmləri üzrə tədqiqatlar həyata keçirir. Kollec Bio və beyin mühəndisliyi, Biologiya elmləri departamentlərindən, eləcə də Tibbi Elmlər və Texniki Ali Məktəbindən ibarətdir. Kollecdə biologiya elmləri, biotexnologiya sahələri üzrə orqanik birləşmələr və digər tədqiqatlar aparılır.

Mühəndislik Kollecinə Aerokosmik Mexanika və Mühəndislik Sistemləri Məktəbi, Vətəndaş və ekologiya mühəndisliyi, Kimya və biomolekulyar

mühəndislik, Material elmləri və texnika, Nüvə və Quanturn mühəndisliyi departamentləri, Maşınqayırma, Aerokosmik texnika, Okean sistemi texnikası bölmələri və EEWS, Ço Çun Şik ali məktəbləri aiddir. Bu müəssisələr bir-biri ilə sıx əməkdaşlıq edərək yüksək səviyyəli təhsil və geniş sistemli tədqiqatlar həyata keçirir.

İnformasiya elmləri və Texnologiya Kolleci Elektrotexnika, Kompyuter elmləri, Sənaye və sistem layihələşməsi, İnformasiya və kommunikasiya mühəndisliyi, Bilik mühəndisliyi xidməti, Sənaye dizaynı departamentlərindən ibarətdir. Kollec yeni texnologiyaların işlənməsi və informasiyaların birləşdirilməsi, fənlərarası tədqiqatlar üzrə yeni layihələr həyata keçirir, müasir intellektual xidmət vasitələri yaradır.

Kulturologiya Kollecinə Mədəniyyət və Texnologiya, Dəqiq Elmlər və Texnologiya Siyasəti ali məktəbləri, Humanitar və sosial elmlər departamenti aiddir. Həmin departament bu sahələr üzrə tələbələrə bir sıra kurslar təklif edir. Mədəniyyət və Texnologiya Ali Məktəbi Koreyanın Mədəniyyət və Turizm Nazirliyi ilə əməkdaşlıq edir, habelə ölkədə mədəniyyət işçilərinin yetişdirilməsində əhəmiyyətli rol oynayır.

Biznes Kolleci İdarəetmə mühəndisliyi departamenti, Menecment, Maliyyə, İnformasiya və Media İdarə olunması ali məktəblərindən ibarətdir. Kollec 2006-cı ildə adları sadalanan üç ali məktəbin birləşməsi nəticəsində yaradılıb. Bu məktəblər muxtariyyat əldə etsələr də, onların birgə əməkdaşlıq çərçivəsində həyata keçirdikləri tədqiqatlar daha böyük uğurlara səbəb olub. İnnovasiyalar Kollecinə İdarəolunma elmləri departamenti, İnnovasiya və Texnologiya Menecmenti Ali Məktəbi daxildir. Kollec yeni təhsil üsulları və tədqiqat istiqamətləri təklif edir, elmi və texnoloji innovasiyalara imza atır, beynəlxalq idarəetmə kompetensiyalarına malik dünya liderləri, qlobal idarəetmə bacarıqlarına malik sahibkarlar və s. yetişdirir. Koreya Qabaqcıl Elmlər və Texnologiyalar İnstitutunda 7 elmi-tədqiqat institutu: Bio Çentury, İnformasiya Texnologiyaları Konvergensiyası, Mürəkkəb Sistemlərin Dizaynı, Sənət Mühəndisliyi, Nano Çentury, Eko-Enerji, Şəhər Məkanı və Sistemlər institutları fəaliyyət göstərir. Hər bir institut Koreya Qabaqcıl Elmlər və Texnologiyalar İnstitutunun və kolleclərin nəzdində müstəqil tədqiqat mərkəzi kimi fəaliyyət göstərir. Hazırda institutlarda dövlət və özəl şirkətlərlə birgə planlaşdırılmış 100 milyard Koreya vonu dəyərində tədqiqatlar həyata keçirilir. İntellektual mülkiyyət hüquqlarına sahiblik baxımından bu günədək institutlar 1591 daxili, 500 beynəlxalq şirkətlə əməkdaşlıq edib. İnstitutun kitabxanası 1971-ci ildə yaradılıb. Müasir üslubda inşa edilmiş kitabxananın 5- mərtəbəli binasında istifadəçilərin rahatlığını təmin etmək məqsədi ilə ən müasir şərait mövcuddur. İnstitutun rəqəmsal kitabxanası 2001-ci ilin mayından istifadəyə verilib və hazırda burada 50000-dən çox tədqiqatçı çalışır. Universal xidmət təklif edən kitabxananın resurslarına 40000 elmi elektron jurnal, 3 milyona yaxın dissertasiya, məlumatlar bazası və digər materiallar

daxildir. Həmin materiallardan dünyanın istənilən nöqtəsində istifadə etmək mümkündür.

İnstitutda ümumilikdə 701 nəfər professor-müəllim heyəti çalışır. İnstitutda fəaliyyət göstərən müəllimlərin əksəriyyəti xaricdən, xüsusilə ABŞ-dan olan şəxslərdir. Belə ki, institutun prezidenti Nam Pio Suh Massaçusets Texnologiya İnstitutunun məzunu olub. Ondan əvvəlki prezident Robert Laflin Stenford Universitetinin professoru, eləcə də fizika üzrə Nobel mükafatı laureatı, Koreya universitetlərinə rəhbərlik edən ilk əcnəbi şəxs olub. Hazırda ali məktəbin müəllimləri arasında 100-dən çox əcnəbi şəxs var. İnstitutda təhsil alan tələbələrin ümumi sayı təxminən 8217 nəfərdir. Tələbələrin 3586 nəfərini bakalavr, qalanlarını isə doktorant və magistrantlar təşkil edir. İnstitutda 274 nəfər əcnəbi tələbə oxuyur. Əcnəbi tələbələrin çoxu Asiya ölkələrindən (228 nəfər), Avropadan (15 nəfər), Şimali Amerikadan (14 nəfər), qalanları isə digər qitələrdəndir. İnstitutun tələbələri oxuduqları müddətdə GPA proqramı üzrə 3 və daha çox bal toplayarlarsa, təhsil haqqı ödəməkdən azad olunur və təqaüd almaq şansı qazanır. Bakalavr, magistratura və doktorantura pillələrində təhsil alan tələbələrin təqaüdləri ayda 300000 von təşkil edir. 2-3 bal toplayan tələbələr təhsil haqqının yarısından azad edilir. 2-dən az bal toplayanlardan təhsil haqqının hamısını ödəmək tələb olunur. Təhsil haqqının məbləği tələbənin seçdiyi ixtisas, oxuduğu kollecdən asılı olaraq dəyişir.

İnstitutda semestrin əvvəlində hər bir tələbə mütləq tibbi müayinədən keçməli və sığortalanmalıdır. Müayinə ödənişsiz aparılır. Əgər tələbə vaxtında müayinədən keçməyibsə, şəxsi vəsaiti hesabına Sun xəstəxanasına getməli, orada 30000 von ödəyərək yoxlanılmalıdır. Əcnəbi tələbələr yataqxanada qalmaq üçün öz ölkələrində aldıqları sağlamlıq kağızını təqdim etməlidir. Müayinələrə, əsasən, qan analizi və rentgen baxışı daxildir. İnstitutda tələbələrin sağlam qidalanmasına xüsusi diqqət verilir, onların asudə vaxtlarının səmərəli keçirilməsi üçün lazımi şərait yaradılır. Yeməkxanalarda tələbələrə o qədər də baha olmayan müxtəlif çeşidli xörəklər təqdim olunur. Həmçinin ali məktəbin kampusunda çoxlu sayda kafe və restoranlar fəaliyyət göstərir. Burada qiymətlər çox münasib, qidalar isə təzə və rəngarəngdir. Kampusda müxtəlif böyük supermarketlər, banklar, bərbərxanalar, paltar mağazaları, əyləncə məkanları, bir sözlə, tələbə və müəllimlərin istifadə edə biləcəyi istənilən xidmət sahəsinə rast gəlmək olar. Kampusda yerləşən idman zallarında tələbələr idmanın istənilən növü ilə məşğul ola bilər. İdman komplekslərində məşq otaqları, basketbol, voleybol, badminton, futbol meydançaları, tennis kortları, hovuzlar, saunalar, fitnes zalları, açıq stadionlar və s. tələbələrin istifadəsindədir. Həftə sonları açıq havada və ya qapalı zallarda müxtəlif konsertlər, şoular, tədbirlər, canlı çıxışlar təşkil olunur. Gənclər təhsil aldıqları ali məktəbin onlara təqdim etdiyi belə tələbə həyatından xüsusi zövq alırlar. İnstitutun yataqxanaları Dəceon kampusunun şimal rayonunda yerləşir.

Kampusda ümumilikdə institutun 30-a qədər tələbə yataqxanası mövcuddur. Onların 23-ü oğlan, 4-ü qız, 2-si isə evli tələbələr üçün nəzərdə tutulub. İnstitut, deməк olar ki, bütün tələbələrini yataqxanalarda yerləşdirmək imkanına malikdir. Yataqxananın bütün otaqlarında tələbələrin valideynlərinə də qalmaq üçün yerlər ayrılıb. Otaqların ölçüsü 16,5-23 $m^2$-dir. Otağa mətbəx, vanna və əlavə istirahət otağı daxildir. Otaqlar həmçinin mebel və avadanlıqlarla təchiz olunur. Doktorantların qalması üçün kampusun Guseonq Donqsan şərqi rayonunda 7, Ureun Donqsan qərbi rayonunda isə 11 yataqxana vardır. Kampusun şərqindəki 2 yataqxana qızlar üçün nəzərdə tutulub. Ümumilikdə, bu yataqxanada 2225 tələbə yerləşdirilir. Burada nömrələrin ölçüsü 15,84-49,5 $m^2$-dir. Pureun Donqsan rayonunda 2006-cı ildə yeni yataqxana kompleksi istifadəyə verilib. Bu kompleksdə 1000 tələbə (684 oğlan, 316 qız) yerləşdirilib. Yataqxanalarda 4-7 ay müddətində qalmaq üçün otaqların qiyməti 344000-952000 von arasında dəyişir. Kampusdan kənarda da tələbələrin məskunlaşması üçün mənzillər mövcuddur. Gunq-don rayonundakı yaşayış kompleksi ailəli tələbələr üçün nəzərdə tutulub. Burada uşaqlar üçün oyun meydançası, yaxınlıqda uşaq baxçası və orta məktəb yerləşir. Ekspo Parkın yaxınlığındakı Nuri Holl yaşayış kompleksi 2007-ci ildə istifadəyə verilib və əcnəbi tələbələr üçün nəzərdə tutulub. Kompleksin hər otağına vanna və istirahət otaqları əlavə olunub. Binanın mağazaları, məşq və fitnes zalları, yeməkxana və kafeləri və s. mövcuddur. Koreya Qabaqcıl Elmlər və Texnologiyalar İnstitutu çox böyük tarixə malik olmamasına baxmayaraq, az bir müddətdə böyük nailiyyətlər əldə edib. Ali məktəbin bütün əməkdaşları və tələbələrinin səyi nəticəsində institut dünya təhsili və elminə mühüm nailiyyətlər bəxş edib. İnstitut xüsusi ilə hazırladığı müxtəlif robotları ilə dünyada məşhurdur. Ali məktəb iki şərəfli və cəsarətli layihə - On-Line Elektrik Vasitə və Mobil Harbor layihələrini həyata keçirib. Ali məktəb bu uğurlu layihələri təqdim edərək, 2011-ci ildə dünyaya zəngin təhsil, elmi, texnoloji və iqtisadi uğurlarını nümayiş etdirmişdir. İnstitutun dəqiq elmlər və texnologiyalar, ətraf mühit, energetika və digər sahələr üzrə apardığı tədqiqatlar sənayenin və cəmiyyətin sürətli inkişafına səbəb olub. İnstitutun professorları bir çox beynəlxalq mükafatların laureatlarıdır. Koreya Qabaqcıl Elmlər və Texnologiyalar İnstitutu nəhəng və dinamik elmi-tədqiqat müəssisəsi olaraq, dünya universitetləri reytinqlərinin ilk onluğunda yer tutmağı qarşısına məqsəd qoyub.

## ÇİN, TAYVAN VƏ SİNQAPURDA TƏHSİL

Çində təhsilin qədim tarixi var. İlk məktəblər b.e.ə. III əsrdə hökümət tərəfindən maliyyələşən məktəblərdən və xüsusi məktəblərdən ibarət idi. İkinci əsrdə isə ibtidai, orta və ali məktəbləri nəzərdə tutan çoxpilləli (üçpilləli) təhsil sistemi yaranmışdır. X əsrədək olan dövrdə isə universitet tipli ilk tədris ocaqları, orta əsrlərdə isə Pekində və Nankində ixtisaslaşdırılmış ali təhsil müəssisələri meydana çıxmışdır. İbtidai məktəbdə təhsil müddəti 5-6 il idi və şagirdlər növbəti pillədə təhsillərini davam etdirirdi. Bu məktəblərdə fənlərin tədrisinə ciddi fikir verilmir və tədris proqramı olmadığı üçün 1905-ci ilədək şagirdlərin yüksək səviyyədə bilik əldə etmədikləri özünü əks etdirirdi.

Şərqi Asiyada yerləşən Çin Xalq Respublikasında mövcud olan çoxşaxəli təhsil sistemi hökumətin nəzarəti altındadır. 1949-cu ildən etibarən Çin Kommunist Partiyası təhsilin idarə olunmasında mühüm rol oynayır. Çin Kommunist Partiyasının müəyyən etdiyi geniş təhsil strategiyasında təhsilin keyfiyyətinin yüksəldilməsi, müasirləşdirmə ilə əlaqələndirilib. Partiya təhsil strategiyasının icrasına nəzarət edir, təhsil müəssisələrində işin təşkilini istiqamətləndirir.

Çində uşaqlar 3 yaşdan 6 yaşa qədər məktəbəqədər təhsilə cəlb olunur. 6-illik ibtidai təhsilə bölgələrdən asılı olaraq 6 və ya 7 yaşlı uşaqlar qəbul edilir. Orta təhsil isə 12 yaşdan 18 yaşa qədərki dövrü əhatə etməklə 6 il davam edir. Orta təhsil pilləsinin ilk üç ili aralıq məktəblərdə, növbəti üç ili isə orta məktəblərdə həyata keçirilir. Bəzi əyalətlərdə ibtidai təhsil 5 il davam edir. Bu halda aralıq məktəblərdə təhsilin müddəti 4 il təşkil edir.

Ölkə üzrə ibtidai və orta təhsil pilləsində oxuyan şagirdlərin sayı 200 milyon nəfəri ötür. İbtidai və orta təhsilin keyfiyyətinin yüksəldilməsi üçün hökumətin ayırdığı xüsusi maliyyə vəsaiti yeni məktəblərin tikilməsi, təmiri, bərpası və lüzumsuz məktəblərin ixtisarı üçün nəzərdə tutulur. İbtidai və orta təhsil pilləsində adambaşına maliyyələşmə modelinin tətbiqi genişləndirilir, tədris və tədqiqat avadanlıqları, kitablar, dərsliklər, əyani vəsaitlər hər il yenilənir.

2006-cı ildən Çin 9 illik pulsuz icbari təhsil sistemini qəbul edib. İcbari təhsil ibtidai təhsil və əsas təhsil pilləsindən ibarətdir. Uşaqlar 6 yaşdan 15 yaşa qədər icbari təhsil almalıdır.

İcbari təhsil haqqında qanunda Çinin ərazisi 3 kateqoriyaya bölünmüşdür: Şəhərlər və iqtisadi cəhətdən inkişaf etmiş əyalətlər; rayonlar və orta səviyyədə inkişaf etmiş kəndlər; iqtisadi cəhətdən kasıb ərazilər.

Statistik göstəricilərə görə, 2007-ci ildə Çin Xalq Respublikasında 396567 ibtidai məktəb, 94116 orta məktəb və 2236 ali məktəb fəaliyyət göstərib. 2007-ci ilin statistik məlumatlarına əsasən ölkədə yaşı 15-dən yuxarı olan əhalinin 93,3 faizi savadlıdır.

2009-cu ildə Beynəlxalq Şagird Qiymətləndirmə Proqramı çərçivəsində 15 yaşlı məktəb şagirdləri arasında keçirilmiş tədqiqatlarda Çin riyaziyyat, təbiət elmləri və ədəbiyyat üzrə ən yaxşı nəticəyə nail olub. Müəyyən edilib ki, Çinin ən ucqar əyalətlərindəki şagirdlərin müvafiq göstəriciləri orta həddə yaxındır.

Ölkə üzrə sentyabrın 1-dən başlayan tədris ili 2 semestrdən ibarətdir. Hər bir semestr 19 həftə davam edir. Bundan əlavə, 1 həftə əlverişsiz hava şəraiti ehtimalına görə ehtiyatda saxlanılır. İyul və avqust ayları yay, yanvar və fevral ayları isə qış tətili hesab olunur. İbtidai və orta təhsil pilləsində tədris həftəsi 5 günlükdür.

İstedadlı və təlim çətinlikləri olan uşaqların təhsilinin xüsusi qaydalar əsasında təşkil edilməsinin vacibliyi ilə əlaqədar 1985-ci ildə müvafiq proqram təsdiq olunmuşdur. Proqramda istedadlı şagirdlər və təlim çətinlikləri olan uşaqlarla bağlı müddəalar əksini tapmışdır. Ciddi əqli və fiziki qüsuru olan uşaqların təhsili ilə bağlı dövlət müəyyən addımlar atsa da, onların təhsilinə valideynlər cavabdehlik daşıyırdı.

Hazırda Çində 1540 xüsusi təhsil məktəbi fəaliyyət göstərir. Həmin məktəblərdə təhsil alanların sayı 375000 nəfər təşkil edir. Bundan əlavə, Çində fiziki və əqli qüsuru olan uşaqlar üçün 100 peşə təlimi müəssisəsi, 3000 standart peşə məktəbi, eşitmə çətinlikləri olan uşaqların reabilitasiyası üçün 1700 təlim təşkilatı vardır. Hər il minlərlə fiziki qüsuru olan şagird ali təhsil müəssisələrinə daxil olur.

Çində yaşlıların təhsili müxtəlif formalarda həyata keçirilir. Yaşlıların təhsili vasitəsilə ölkə vətəndaşlarının siyasət, iqtisadiyyat, mədəniyyət, elm, texnologiya və digər sahələr üzrə hazırlığı təmin edilir. Yaşlıların təhsili ilə məşğul olan 528 müəssisənin 65 faizində magistratura, 30 faizində isə bakalavr təhsili verilir. Belə təhsil müəssisələrinə fəhlə, media, qiyabi və axşam universitetləri, idarəetmə və təhsil kollecləri daxildir. Yaşlıların orta təhsili müəssisələri isə peşə və media məktəbləri, bacarıq təlimi müəssisələrindən ibarətdir. Fəhlə ibtidai məktəbləri yaşlıların ibtidai təhsil müəssisələri hesab olunur. Onu da qeyd edək ki, yaşlıların təhsili əyani, qiyabi, özünütəhsil və distant təhsil formasında təşkil olunur.

Ölkədə mütəşəkkil müəllim hazırlığı sistemi mövcuddur. Çində müəllimlik peşəsi ən mötəbər peşələrdən biri kimi qəbul olunur. Gənc müəllimlər hər zaman təcrübəli pedaqoqların dərslərini müşahidə edir, özlərini daha yaxşı tərəfdən göstərmək üçün var qüvvələri ilə çalışırlar. Müəllimlər mütəmadi olaraq fasiləsiz peşə hazırlığına cəlb olunurlar.

Onu da qeyd edək ki, müəllimlərin təhsili iki istiqamətdə aparılır: ilkin müəllim hazırlığı və ixtisasartırma təhsili. İlkin müəllim hazırlığı 4-illik müəllim hazırlığı institutları, o cümlədən adi universitetlər və kolleclər, 3-illik müəllim hazırlığı kollecləri və orta məktəb müəllimlərinin hazırlığı müəssisələrində təşkil olunur. Müəllimlərin ixtisasartırma təhsili isə müvafiq institutlar və müəllimlərin ixtisasartırma təhsili məktəblərində həyata keçirilir.

1985-ci ildən hökumət vergi əsasında maliyyələşən ali təhsil sistemini ləğv edib. Bununla da abituriyentlərin akademik qabiliyyət əsasında təqaüdlər uğrunda rəqabət aparmasına şərait yaranıb. 1980-ci illərin əvvəllərində ilk özəl ali təhsil müəssisələrinin əsasının qoyulmasına icazə verilib.

Çində ali təhsilin səviyyəsi yüksək və əhatə dairəsi çox genişdir. Son 10 ildə bakalavr təhsil pilləsində təhsil alanların və doktorluq dərəcəsinə malik olanların sayı dəfələrlə artıb. Ölkədə 100-dən çox nüfuzlu ali təhsil müəssisəsi fəaliyyət göstərir. Onlardan ən tanınmışı Pekin və Sinxua universitetləridir.

Çində təhsil xərcləri ilbəil artaraq hazırda 100 milyard dolları ötüb. 1980-ci illərin əvvəllərindən başlayaraq elm və texnologiyanın inkişafı təhsil strategiyasının prioritetinə çevrilib.

Ali təhsil pilləsində ümumi xərclərin müəyyən faizi həcmində təhsil haqqı tələb olunur. Aztəminatlı ailələrdən olan tələbələrin ali təhsil almasını asanlaşdırmaq üçün hökumət səmərəli yardım metodlarından istifadə edir. Belə yardım paketinə təqaüdlər, "oxu və işlə" proqramları, aztəminatlı ailələrdən olan tələbələrə əlavə yardımların olunması, təhsil haqqının azaldılması və ya tam aradan qaldırılması, dövlət təqaüdlərinin verilməsi daxildir.

Qeyd etdiyimiz kimi, Çində uşaqlar 3 yaşdan 6 yaşa qədər məktəbəqədər təhsil müəssisələrinə cəlb olunur. Çin məktəbəqədər təhsilə olduqca ciddi diqqət yetirən azsaylı ölkələrdən biridir. Məktəbəqədər təhsil pilləsi bütün cəmiyyətin resurslarının səfərbərliyi sayəsində inkişaf etdirilir.

Bağçalar yerli hökumətlər tərəfindən idarə olunsa da, müxtəlif qurumlar, ictimai təşkilatlar və fərdlər də məktəbəqədər təhsil müəssisələri təsis edə bilər. Şəhərlərdə və regionlarda bağçalar təhsil şöbələri, hökumət qurumları, müəssisələr, əyalət idarələri və fərdlər tərəfindən idarə olunur. Ucqar əyalətlərdə məktəbəqədər təhsilə ictimaiyyət maddi yardım edir. İqtisadi cəhətdən kasıb ərazilərdə, etnik azlıqların yaşadıqları yerlərdə məktəbəqədər təhsil forması kimi uşaq fəaliyyət mərkəzləri, oyun qrupları, çevik yardım mərkəzləri fəaliyyət göstərir. Belə ərazilərdə 1 və ya 2-illik bağçalar mövsümdən asılı olaraq işləyir.

Son illərdə ucqar, iqtisadi cəhətdən kasıb və etnik azlıqların yaşadıqları ərazilərdə məktəbəqədər təhsilin səviyyəsi sürətlə inkişaf etməkdədir. Məktəbəqədər təhsil müəssisələrində uşaqlara qayğı tədrislə inteqrasiya edilir. Bu da uşaqların məktəb təhsilinə hazırlanması üçün fiziki, mənəvi, əqli və estetik tərbiyəsinin harmonik şəkildə təmin olunmasına imkan verir. Məktə-

bəqədər təhsil müəssisələrində tətbiq olunan təhsil proqramları sistemli, məqsədli və çoxtərəflidir.

Məktəbəqədər təhsilin idarə olunması işinin səmərəliliyini artırmaq üçün dövlət tərəfindən silsilə qanunlar qəbul edilir. Dövlət həmçinin məktəbəqədər təhsil müəssisələrində çalışan müəllimlərin və tərbiyəçilərin ixtisaslaşmasına dair yeni qayda və qanunların həyata keçirilməsinə başlayıb. Hazırda Çində məktəbəqədər təhsil müəssisələri üçün ixtisaslı müəllim hazırlayan 67 məktəb fəaliyyət göstərir.

Çində ibtidai təhsil pilləsi o qədər genişdir ki, çox böyük çətinliklər hesabına bu sahədə müəyyən nailiyyətlər əldə edilib. 1986-cı ildə qəbul edilmiş icbari təhsil haqqında qanunda ibtidai təhsilin milli səviyyədə genişləndirilməsi nəzərdə tutulur. Qeyd etdiyimiz kimi, ölkədə uşaqlar 6 yaşından başlayaraq ibtidai təhsilə cəlb olunur.

Əksər əyalətlərdə ibtidai təhsil pilləsi 5 il davam edir. Lakin Pekin, Şanxay və digər böyük şəhərlərdə ibtidai təhsil pilləsi 6-illikdir.

İbtidai təhsil kurikulumuna çin dili, riyaziyyat, fiziki təhsil, musiqi, təsviri sənət, həyat bilgisi, tarix və coğrafiya fənləri daxildir. Bundan əlavə, siyasi biliklər və etik davranışların tədrisi də kurikulumun bir hissəsini təşkil edir. İngilis dili III sinifdən başlayaraq tədris olunur. IV sinifdən hər semestrdə iki həftə texnologiya tədris olunur. Bunun nəticəsində şagirdlər yaradıcı əmək vasitəsilə müəyyən vərdişlər qazanır, nəzəri bilikləri istehsalatla əlaqələndirirlər.

Tədris qrup halında təşkil olunur ki, bu da şagirdlərin birgə əməkdaşlıq bacarıqlarına yiyələnmələrinə imkan verir. Şagirdlərin cavabdehliyini artırmaq üçün məktəblərə xadimələr təyin edilmir. Məktəbin təmizliyi məhz şagirdlər tərəfindən həyata keçirilir.

Çində orta təhsil aşağı və yuxarı pillədən ibarətdir. Orta təhsilin aşağı və yuxarı pilləsinin hər biri 3 il davam edir. İcbari təhsilin son 3 ili orta təhsilin aşağı pilləsi hesab olunur.

6-illik ibtidai təhsil pilləsini başa vurduqdan sonra şagirdlər öz təhsillərini orta təhsilin aşağı pilləsində davam etdirməlidir. Orta təhsilin aşağı pilləsini tamamladıqdan sonra isə şagirdlər müvafiq qəbul imtahanı verərək növbəti 3 ili akademik təmayüllü orta məktəblərdə oxuya bilər və ya peşə məktəblərinə daxil ola bilərlər.

Orta təhsilin yuxarı pilləsinə qəbul imtahanı ildə bir dəfə çin dili, riyaziyyat, ingilis dili, fizika, kimya, ictimayyət və fiziki təhsil fənlərindən təşkil olunur. Qəbul balı müxtəlif regionlardan asılı olaraq dəyişə bilər.

Orta təhsilin yuxarı pilləsi X-XII sinifləri əhatə edir. Təhsilin bu pilləsində tədris ili 2 semestrdən, 40 həftədən ibarətdir.

Yuxarı pillədə cari tədris olunan fənlər icbari və seçmə olmaqla iki qrupa bölünür. Akademik kurikuluma çin dili, riyaziyyat, ingilis dili, fizika, kimya, biologiya, coğrafiya, tarix, siyasət, musiqi, təsviri sənət, fiziki təhsil, tex-

nologiya, kompyuter kimi fənlər daxildir. Bəzi məktəblərdə peşəyönümlü fənlər də tədris edilir.

Son illər orta təhsilin yuxarı pilləsində oxuyan şagirdlərin sayı davamlı olaraq artmaqdadır. Məzunlar Ali Təhsilə Qəbul üzrə Milli İmtahanlarda əsasən çin dili, riyaziyyat və ingilis dili fənlərindən imtahan verirlər.

Orta təhsilin yuxarı pilləsini bitirənlərin çoxunun universitetlərə və peşə məktəblərinə daxil olmalarına baxmayaraq, Çində yuxarı pilləni bitirən hər kəs artıq təhsilli şəxs hesab edilir. Universitetlərin məhdud sayda elan etdiyi yerlərə qəbul olmaq üçün rəqabətin gərginliyini nəzərə alan valideynlər və şagirdlər orta məktəbləri dəqiqliklə seçirlər.

Çində peşə təhsili sistemi 130 illik inkişaf tarixinə malikdir. Həyata keçirilmiş köklü peşə təhsili islahatları nəticəsində bu sahədə ciddi inkişaf meyilləri müşahidə olunur. Tətbiq olunmuş yeniliklər sayəsində peşə təhsili müəssisələri təkmilləşib və inkişaf edib. Onu da qeyd edək ki, Çində peşə təhsili orta təhsilin aşağı və yuxarı pillələrində, eləcə də ali təhsil pilləsində həyata keçirilir.

Orta təhsilin aşağı pilləsində təşkil olunan peşə təhsilinin məqsədi müvafiq peşə biliklərinə və bacarıqlarına yiyələnmiş işçilər, fəhlələr hazırlamaqdır. Bu pillədə həyata keçirilən peşə təhsili 9-illik icbari təhsilin bir hissəsini təşkil edir.

Orta təhsilin yuxarı pilləsində təşkil olunan peşə təhsilinin məqsədi isə əməli bacarıqlara yiyələnmiş ikinci dərəcəli işçi qüvvəsi hazırlamaqdır. Orta təhsilin yuxarı pilləsində təşkil olunan peşə təhsili 2 ildən 4 ilə qədər davam edən proqramlara əsaslanır. Bu növ peşə təhsili ixtisaslaşmış orta məktəblərdə, bacarıqlı işçi məktəblərində və peşə təmayüllü orta məktəblərdə həyata keçirilir.

İxtisaslaşmış orta məktəblərdə 3 və ya 4-illik proqramlar, bacarıqlı işçi məktəblərində isə 3-illik proqramlar əsasında ikinci dərəcəli işçilər hazırlanır. 3-illik peşə təmayüllü orta məktəblərdə istehsalat, xidmət, texnologiya və idarəetmə sahəsi üzrə ikinci dərəcəli mütəxəssislər yetişdirilir.

Peşə təmayüllü və ixtisaslaşmış orta məktəbləri başa vuranlar öz təhsillərini ali peşə məktəblərində davam etdirə bilərlər. Ali peşə məktəblərinin məqsədi texniki və idarəetmə sahəsində yüksək ixtisaslı kadrlar hazırlamaqdır.

Ali peşə məktəbləri 4 yerə bölünür: ali peşə və texnologiya kollecləri; ixtisaslaşmış orta məktəblərdə təşkil olunan 5-illik ali peşə məktəbləri; ali təhsil və yaşlıların ali təhsili müəssisələrində təşkil olunan ali peşə təhsili; təcrübəyönümlü kadrların, yüksək səviyyəli peşəkar və texniki mütəxəssislərin hazırlanması ilə məşğul olan 2 və 3-illik ali təhsil müəssisələri.

Çinin ali təhsil sistemi Amerika Birləşmiş Ştatlarının (ABŞ) və Birləşmiş Krallığın ali təhsil sistemlərinin vəhdətindən ibarət olsa da, daha çox ABŞ təhsil sisteminə bənzəyir. Ölkədə ali təhsil pilləsi əsasən ödənişlidir. Ali təhsil üç mərhələli bakalavr, magistratura və doktorantura pillələrindən ibarətdir. Bundan əlavə, dərəcə verməyən proqramlar üzrə tədris aparılan universitetlər

də var. Magistratura və doktorantura dərəcəsi müvafiq Dövlət Şurası tərəfindən akkreditasiyadan keçmiş universitetlər və tədqiqat müəssisələrində verilir.

Ölkənin ali təhsil sistemində həm 3-illik, həm də 4-illik proqramlar tədris olunur. 3-illik proqramların tədrisi istənilən ali təhsil müəssisəsində aparılır. 4-illik proqramlar isə 4-illik kolleclərdə və ya universitetlərdə tədris olunur. 4-illik proqramlardan fərqli olaraq, 3-illik proqramların sonunda bakalavr dərəcəsi verilmir. Tələbə 3-illik proqramın davamı kimi əlavə olaraq 2-il təhsil aldıqda bakalavr dərəcəsinə sahib ola bilər.

Çində 1650 adi ali təhsil müəssisəsi, 528 yaşlıların ali təhsili müəssisəsi və 214 özəl ali təhsil müəssisəsi fəaliyyət göstərir. 2005-ci ilin statistikasına görə, Çinin ali təhsil müəssisələrində 23 milyon tələbə təhsil alıb. Bu isə əvvəlki illə müqayisədə 10 faiz çoxdur (2004-cü ildə təxminən 21 milyon nəfər olub).

Ölkənin ali təhsil müəssisələri adi universitetlər, texniki universitetlər, kənd təsərrüfatı, xarici dillər və tibb sahələri üzrə ixtisaslaşmış ali təhsil müəssisələri, peşə kollecləri, müəllim hazırlığı müəssisələri və ixtisaslaşmış kolleclər kimi qruplara bölünür.

Ali təhsil müəssisələrinin bəziləri əyalət hökumətləri (Şanxay Universiteti), bəziləri müxtəlif nazirliklər və dövlət idarələri (Pekin Aeronavtika Universiteti) tərəfindən idarə olunur. Bundan başqa, Təhsil Nazirliyi tərəfindən idarə olunan ali təhsil müəssisələri (Pekin Universiteti) də vardır. Bu tip universitetlər mərkəzi və yerli hökumət tərəfindən idarə olunur.

Statistik məlumatlara görə, Çində magistratura təhsili verən 770 ali təhsil müəssisəsi fəaliyyət göstərir ki, onlardan da 73-ü və ya 10 faizi Təhsil Nazirliyinə, 296-sı isə mərkəzi idarəetmə hökumətə tabedir. Bundan əlavə, 315 tədqiqat müəssisəsinin 272-si mərkəzi idarəetmə hökumətinin nəzarəti altındadır. Magistratura təhsili verən ali təhsil müəssisələrinin 48 faizi mərkəzi idarəetmə hökumətinin tabeliyindədir. Göründüyü kimi, mərkəzi hökuməti magistratura təhsili verən ali təhsil müəssisələrinə daha çox nəzarət edir. 1731 ali təhsil müəssisəsi isə bakalavr pilləsi üzrə təhsil verir.

Son zamanlar həyata keçirilən islahatlar nəticəsində ali təhsil sisteminin təkmilləşməsinə böyük diqqət verilir. Bir çox sənaye universitetləri və ixtisaslaşmış kolleclər təsis olunub. Yeni ixtisaslar, o cümlədən avtomatika, nüvə enerjisi, enerji resursları, okeanoqrafiya, nüvə fizikası, kompyuter elmləri, polimerlər kimyası, polimelər fizikası, radiokimya, fiziki kimya ixtisası üzrə mütəxəssis hazırlığı aparılır.

Çin bir çox texnologiyaların ixtira olunduğu, müasir sivilizasiyanın təməlinin qoyulduğu ölkələrdən biri kimi tanınır. İlk kağız istehsalı, ağac nəqqaşlığı, çevik makina çapı, maqnit, iynəli kompas, barıt, seysmoloji detektor, kibrit, iki funksiyalı porşenli nasos, domna peçi, çuqun istehsalı, asma körpülər, təbii qazın yanacaq kimi istifadəsi, hidravlik çəkic, mexaniki zəncir ötürücüsü, mexaniki kəmər ötürücüsü, pər, qundaqlı ox-yay, artilleriya topu, raket və digər çoxsaylı ixtiralar bunu təsdiq edir.

Ölkə astronomları səma cismlərinin ilkin və dəqiq müşahidələrini aparanlar sırasındadır. Çin riyaziyyatçıları yunan riyaziyyatçılarından bəhrələnərək riyaziyyat elminin inkişafına layiqli töhfələr veriblər.

Bütün bunlara baxmayaraq, XVII əsrə qədər Çində elm və texnologiyanın tətbiqi Avropadan geri qalırdı. Lakin indiki dövrdə həyata keçirilmiş islahatlara görə Çin qlobal iqtisadiyyata inteqrasiya olundu, hökumət elm və texnologiyanın inkişafına böyük diqqət göstərməyə başladı.

1960-1970-ci illərdə Çin - Sovet qarşıdurmasından sonra Çin nüvə silahı istehsal etməyə başladı və 1964-cü ildə ilk uğurlu sınaq həyata keçirildi. 1970-ci ildə Çin ilk süni peykini buraxdı. Bununla da Çin müstəqil peykə malik olan beşinci ölkə oldu.

Hazırda Çin elmi-tədqiqat və texnoloji inkişafa ayırdığı büdcənin həcminə görə dünyada ikinci yerdə qərarlaşır. 2006-cı ildə Çin hökuməti elm və texnologiya sahəsinə 136 milyard ABŞ dolları investisiya ayırıb ki, bu da 2005-ci illə müqayisədə 20 faiz çoxdur.

Qərbdə hələ də mübahisəli məsələ kimi nəzərdən keçirilən törəmə hüceyrələrin tədqiqatı və gen terapevtiyası Çində ən yüksək səviyyədə inkişaf edib. Ölkə üzrə 926000 tədqiqatçı fəaliyyət göstərir. Bu göstəriciyə görə Çin dünyada ikinci yeri tutur.

Kosmosun fəthi istiqamətində bir çox uğurlara imza atan ölkə kifayət qədər mürəkkəb layihələrə maliyyə vəsaiti ayırır. Ayın Tədqiqi Proqramının bir hissəsi kimi 2007-ci ildə Çin Çanqe kosmik gəmisini uğurla orbitə çıxarıb. 2011-ci ilin sentyabr ayında Çinin ilk kosmik stansiya modulu olan Tianqonq-1 uğurla fəaliyyətə başlayıb.

Ölkədə yarımkeçiricilər, o cümlədən bərpa edilən enerji, hidroelektrik enerji, külək və günəş enerjisi sahəsində funksional kompyuter proqramları hazırlanır. Yanacaq enerji stansiyalarında çirklənmənin qarşısını almaq üçün Çin girdə yanacaqlı nüvə reaktorlarından istifadə edən ilk ölkədir. Bu tip reaktorun istifadə edilməsi daha əlverişli və təhlükəsizdir.

2010-cu ildə Çinin Milli Super Kompyuter Mərkəzi hazırda dünyanın ən sürətli super kompyuterini hazırlamağa nail olub. 2010-cu ildən ölkədə dünyanın ən yaxşı 10 super kompyuterlərindən biri olan Nebula super kompyuterləri də istehsal edilməkdədir.

Təhsildə beynəlxalq əməkdaşlığa xüsusi diqqət yetirən Çin digər ölkələrlə müqayisədə xaricdə təhsil almağa daha çox tələbə göndərir. 1978-ci ildə aparılan islahatlardan sonra 700000-ə yaxın çinli 103 ölkədə təhsil alıb. Onlardan yalnız 185000-i təhsillərini başa vurduqdan sonra ölkələrinə qayıdıb.

Çində təhsil alan əcnəbi tələbələrin sayı ildə 20 faiz artır. Rəsmi statistikaya görə, 2007-ci ildə bu ölkədə təhsil alan əcnəbi tələbələrin sayı 195503 nəfər təşkil edib. Dünyanın 188 ölkəsini təmsil edən əcnəbi tələbələr ən çox Cənubi Koreyadan (57504), Yaponiyadan (18363), ABŞ-dan (11784), Vyetnamdan (7310) və İndoneziyadan (5652) gəlir.

Çində təhsilin inkişafına bir çox beynəlxalq təşkilatlar, o cümlədən YUNESKO, YUNİSEF, BMT-nin Əhali Fondu, BMT-nin İnkişaf Proqramı, Dünya Əmək Təşkilatı, Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq Təşkilatı, Dünya Bankı öz töhfələrini verməkdədir. Yalnız Dünya Bankı Çin təhsilinin inkişafına 1,5 milyard ABŞ dolları həcmində kredit ayırıb.

Böyük nüfuza malik Pekin və Sinxua universitetləri mükəmməl tədris və tədqiqat imkanlarına görə beynəlxalq miqyasda da tanınır. Çin diplomların qarşılıqlı tanınması sahəsində 40 ölkə ilə, o cümlədən Fransa, Böyük Britaniya, ABŞ, Rusiya və digər ölkələrlə müqavilələr imzalayıb.

Ümumiyyətlə, Çində ilk təhsil ocaqları şuyuanlar (akademiyalar) 1300 il öncə yaranmışdır. İlk ali məktəblər isə XX əsrin əvvəllərində meydana çıxmışdır. 1905-ci ildə Fudan Universiteti və Çin Universiteti, 1919-cu ildə isə Syamın Universiteti və Nankey Universiteti yaranmışdır. 1949-cu ildə ölkədə cəmi 205 dövlət ali məktəbi fəaliyyət göstərirdi və əsrin sonlarında onların sayı 1942 oldu. İmkanlı çinlilər xarici ölkələrdə təhsil alırdı və ABŞ ali məktəblərində 40 min, Rusiya ali məktəbələrində isə 8 min tələbə təhsil alırdı. Bu illərdə 223 universitetdən 93-ü özəl idi və bu özəl ali məktəblərin hamısı bağlanmış, bir çoxu isə dövlət ali məktəbləri ilə birləşdirilmişdir. ÇXR-də 1966-1968-ci illərdə 12-illik ümumtəhsil məktəbi 9-illik ilə əvəz olunmuşdur. Ali məktəblərdə təhsil müddəti 2-3 ilə (tibb institutlarında 3-4 ilə) endirilmişdir. 1978-ci ildən 10 illik ümumi təhsil 5+5 həyata keçirilmişdir. Ali məktəblərin bir çoxunda təhsil müddəti 4 il, tibb institutlarında isə 5 ilə qaldırılmışdır. Bu dövrlərdə Çin təhsilinin səviyyəsi aşağı olan ölkə kimi qalırdı və əhalinin 23,5% savadsız idi. Ölkə əhalisinin cəmi 3%-ni ziyalılar təşkil edirdi və 1983-cü ildə hər 10 min nəfərinə 11,6 nəfər ali məktəb tələbəsi düşürdü. 1984-cü ildə ölkədə 4,6 milyon ali təhsilli işçi olmuş və 1983/84-cü tədris ilində keçmiş SSRİ və ÇXR arasında tələbə və mütəxəssis qruplarının mübadiləsi olmuşdur. 1985-ci ildə ölkənin 830 min ibtidai və 93 min orta məktəbində 200 milyon uşaq oxumuş və 114 yeni ali məktəb açılmışdır. Ölkədə mindən çox ali məktəb (2 milyona yaxın tələbə), 2500 texnikum (2 milyondan çox şagird) var idi. 1985/86-cı illərdə texnki peşə məktəblərində 2 milyondan artıq gənc təhsil alırdı. Bu dövrlərdə Çində XXI əsrin əvvəllərinədək orta və ali təhsilli mütəxəssisələrin sayının 15-20 milyon nəfərə çatdırılacağı qarşıya qoyulmuşdur. 1986-cı ildə pullu ali təhsil müəssisələrinin yaradılmasına başlanmışdır. ÇXR-nın böyük universitetləri bunlardır: Pekin, Tyanszində Nankay, Şanxayda "Fudan" və "Tunsi", Nankin, Kantonda Çcunşan, Çanşada Uxan universitetləri və s.

1972-ci ildən şagird və tələbə kontingentinin sosial tərkibində dəyişiklik edilərək eksperimentlər aparılmağa başlandı. 1976-cı ildən indiki dövrə qədər Çinin sosialist modernləşdirilməsi dövründə təhsilin inkişafı üçün çoxlu sayda tədbirlər həyata keçirildi. 1985-ci ilin may ayında Çində "Xalq təhsili sistemində islahatların aparılması haqqında" qərar verilmişdir. 1992-ci ilin

fevralından isə ölkədə təhsil islahatları proqramında təhsilin bütün pillələrinin təşkili özünü əks etdirmişdir.

1982-ci ilə qədər özəl ali məktəblər olmamış, 1982-ci ildə Çində keçmiş lider Den Syao Pinin siyasi islahatlarının nəticəsi olaraq üzəl ali məktəblər yarandı. O, 1992-ci ildə çoxlu sayda özəl ali məktəbin təsis edilməsinin əsasını qoydu. Çində ali təhsilin genişləndirilməsi sürətlə inkişaf etdi və 2002-ci ildə özəl ali məktəblərdə 1 milyon 403 min 500 nəfər tələbə adını almışdır, ki, bu, 14 milyon 625 min 200 ümumi tələbə sayının 9,60%-ni təşkil edirdi. Məsələn, 2002-ci ildə Pekində 198 min tələbənin təhsil aldığı özəl ali məktəblərin sayı 91 idi, Şanxayda isə 173 703 tələbə, 177 özəl ali məktəbdə təhsil alırdı.

İcbari təhsil haqqında ÇXR qanunu 1983-cü ildə meydana çıxdı. 1980-ci illərdə ancaq ibtidai təhsil icbari idi. Hazırda əhalinin 99%-dən çoxu ibtidai təhsilə malikdir. 1990-cı ildə 9-illik təhsil icbari elan olundu və gənclərin 98%-ə qədəri bu təhsillə təmin olnub. XXI əsrin əvvəlində əhali arasında savadsızlıq əmsalı 50%-dən bir az aşağı idi.

Çində ali peşə təhsili və eksternat əsasında ali təhsil sürətlə inkişaf edirdi. Çin ali təhsil sferasına ümumi rəhbərliyi Dövlət Şurası və ona tabe olan nazirliklər, müəssisələr həyata keçirir. Hazırda 2200 ali məktəbdən 70%-i ÇXR Təhsil Nazirliyinin idarəçiliyindədir, qalanları isə müəssisə ali məktəbləridir. ÇXR-da özünü maliyyələşdirməyə keçid baş vermişdir. Ali məktəbdə təhsil pullu olmuşdur və qeyd edək ki, bazar iqtisadiyyatı şəraitində təhsil dövlətin qayğısından çıxaraq bütün cəmiyyətin işinə çevrilib, çünki sərmayə qoyanın məqsədi müəyyən gəlir və fayda əldə etməkdir.

Aparılan islahatlara görə tələbələr peşə seçimində sərbəstdirlər, universitetlər böyük müstəqillik əldə etmişdir. Tələbələrin işə düzəlməsi hökümətin və bütün Çin cəmiyyətinin diqqət mərkəzindədir, çünki ölkənin modernləşməsi və inkişafı kadrların keyfiyyətindən asılıdır. Müəllimlərin statusu yüksəkdir. 1993-cü ildən müəllimlərlə bağlı qanun qüvvəyə minib və islahatlar zamanı müəllimlərin əmək haqqı orta hesabla 15 dəfə artmış və 2003-cü ildə ali məktəb müəllimləri üçün ildə 23 min yuanı (2300 dollar), ibtidai və orta məktəb müəllimləri üçün 13 yuanı (1600 dollar) aşmışdır. Dünyada müəllim sayına görə ən böyük ölkə ÇXR-dır (12 milyondan çox). Göstərilən bu rəqəm ardıcıl olaraq artmaqdadır.

Çində təhsil həmişə elitar sayılmışdır. Sosial-iqtisadi sıçrayışlar üçün onun strateji önəmini etiraf etməklə hökumət son onillikdə bu sferanın inkişafına kurs götürmüşdür. İcbari təhsil haqqında ÇXR qanunu yalnız 1983-cü ildə meydana çıxdı. Birinci mərhələdə, 1980-ci illərdə təkcə ibtidai təhsil icbari idi (adətən, 6 il davam edir). Hökumətin siyasəti sayəsində XXI əsrin əvvəlində əhali arasında savadsızlıq əmsalı 50%-dən bir az aşağı idi. Yaxın illərdə təhsil sahəsində mütəxəssislərin başlıca diqqəti kənd orta məktəblərində təlimin təkmilləşdirilməsi, şagirdlərin təhsildən yayınmasının kifayət qədər yüksək olma probleminin həlli üzərində cəmləşmişdir.

ÇXR ali təhsil sistemindəki dəyişikliklər böyük təəssürat oyadır. 1949-cu ildə ölkədə cəmi 205 dövlət ali məktəbi fəaliyyət göstərirdi, əsrin sonlarında onların sayı artıq 1942 idi. Tələbələrin sayı 7 milyon 180 min nəfər təşkil edirdi. Təhsilini davam etdirmək arzusunda olan məktəb məzunlarının faizi 10,5%-ə qədər artmışdır. 2004-cü ildə Çin tələbələrinin sayı 20 milyon nəfərdən artıq idi, məzunların ali məktəblərə daxilolma əmsalı 19%-ə çatmışdır ki, bu da ali təhsilin nüfuzunun dönmədən artdığını sübut edirdi. Çində ali peşə təhsili və eksternat əsasında ali təhsil sürətlə inkişaf edir. Məlumat üçün: 2004-cü ildə 92 peşə-texniki institut fəaliyyət göstərirdi. Eksternat təhsil formasında qəbul edilən vətəndaşların sayı isə 13 milyona çatmışdı. Həm də imkanlı çinlilər oxumaq üçün xarici ölkələrə gedirlər. ÇXR-da ali məktəbdən sonrakı təhsilin tarixi 50 il olar. Əvvəllər Çin mütəxəssisləri yalnız xarici ölkələrdə, daha çox SSRİ-də doktoranturada oxuyurdular. İndi ölkənin öz doktorantura təhsili sistemi formalaşmışdır. Bu təhsil iki pillədən ibarətdir. Birinciyə, magistr elmi dərəcəsi ilə mütəxəssis hazırlığı (təhsil müddəti 2 il), ikinciyə elmlər doktoru dərəcəsi ilə mütəxəssis hazırlığı (təhsil müddəti 3 il) aiddir. Ali məktəblərin yaradılmasına və ya statusunun dəyişdirilməsinə Dövlət Şurasının, əyalətlərin, rayonların, mərkəzin tabeliyində olan şəhərlərin inzibati orqanları və ya onların tapşırığına əsasən başqa təşkilat verir.

Dövlət professional, sahibkarlıq, ictimai kollektivlərin və təşkilatların, ayrı-ayrı vətəndaşların qanun çərçivəsində ali məktəblər yaratmasını və maliyyələşdirməsini dəstəkləyir. Bu isə prinsip etibarilə özəl ali məktəblərin təsis edilməsi və leqallaşdırılması ideyasına yol açır. Bununla bərabər vurğulanır ki, ÇXR-da ali məktəbin yaradılmasında məqsəd gəlir əldə etmək deyil, dövlətin və cəmiyyətin maraqlarına xidmət etməkdir. İxtisasların strukturu tədricən rasionallaşdırılır. İndiki zamanda ÇXR ali məktəbi 820 istiqamət üzrə mütəxəssislər hazırlayır. Faiz etibarilə texniki ixtisasalar və fundamental elmlər daha üstünlük təşkil edirlər. İkinci yeri pedaqoji peşələr tutur ki, bu da əmək bazarında onlara olan tələbatla izah edilir.

Modernləşdirilən Çində ali məktəblərə elm və texnologiyaların inkişafı üçün əlavə vəsaitlərin cəlb edilməsində böyük sərbəstlik verilmişdir. Binaların icarəyə verilməsi, nəşriyyat və mətbəə xidmətləri kimi kommersiya fəaliyyəti növləri get-gedə geniş yayılmaqdadır. Həm də son on il ərzində bir sıra ali məktəblər tərəfindən elmi-tədqiqat laboratoriyaları və eksperimental layihələri inkişaf etdirmək məqsədilə yüksək texnoloji müəssisələrin yaradılması istiqamətində eksperiment aparılmışdır. Nəticədə bir sıra rəqabət qabiliyyətli, gəlirli şirkətlər formalaşdırılmışdır. Bu məqsədlər üçün hökumət tədris müəssisələrinin xarici avadanlıq və materiallar almasına müvafiq güzəştlər verir. Nəticədə 1999-cı ilin sonlarında həmin müəssisələrin ümumi məhsulu 100 milyard yuana çatmışdır (12 milyard dollara yaxın).

ÇXR-da yüksək texnoloji sənaye parklarının təsis edilməsində Qərb təcrübəsindən istifadə edilir. Hökumət onların yaradılmasında 4 mühüm elmi

istiqaməti müəyyən etmişdir: informasiya texnologyiaları, yeni materiallar texnologiyaları, elektronika, biotexnologiya. Bu gün ölkədə əhalinin sıx yaşadığı sənaye şəhərlərinin ətraflarında yerləşən elmi-tədqiqat konstruktor institutlarını, təcrübi istehsalatı, laboratoryaları, sınaq poliqonlarını özündə birləşdirən bu cür 20 park mövcuddur. ÇXR-da faktik olaraq özünü maliyyələşdirməyə keçid baş vermişdir, ali məktəbdə təhsil pullu olmuşdur. Ali məktəbə daxil olarkən imtahan vermirlər. Testləşdirmə şəklində ixtisas sınağını bir dəfə, məktəbi başa vurarkən keçirirlər. Ali məktəbə daxil olmaq üçün 500 bal toplamaq lazımdır. Çatışmayan hər bala görə ildə 1000 yuan (təqribən 3300 rubl) ödəmək lazımdır. Orta hesabla təhsil haqqı ildə 500-1500 dollar arasındadır və abiturentlər sərt sınaqdan keçirlər.

Yalnız ehtiyacı olan ailələrdən və ya ucqar kənd rayonlarından olan uşaqlar dövlət vəsaitləri hesabına və ya güzəştli ödənişlə oxuya bilər. Təhsildə müvəffəqiyyətlərinə görə də onların təqaüdə və birdəfəlik sosial ödənişlərə iddiaçı olmağa ixtiyarları var. İslahatlar nəticəsində tələbələr peşə seçimində sərbəstdirlər, universitetlər isə ixtisas istiqamətlərinin cəmiyyətin tələbatından asılılıqda müəyyənləşdirilməsi və tənzimlənməsində, eləcə də genişləndirilmiş qəbul üzrə böyük müstəqillik əldə etmişlər.

Tələbələrin sayının artırılmasına dair çevik siyasətdə daha bir müsbət cəhət var. Qəbulun tədricən genişləndirilməsi işədüzəlmə sahəsində gərginliyi yumşaltmalıdır. Hökumət belə bir müddəanı elan edir: ali məktəblərə nə qədər çox uşaq cəlb olunsa, təcili işədüzəlməyə ehtiyacı olanlar o qədər azalacaq. 3-4 ildən sonra isə, ölkə iqtisadiyyatı inkişaf etdikcə işsizlik problemini əsasən həll edəcəklərini planlaşdırırlar.

Tələbələrin işədüzəlməsi hökumətin və bütün Çin cəmiyyətinin diqqət mərkəzindədir, çünki ölkənin modernləşdirilməsi və inkişafı kadrların keyfiyyətindən asılıdır. Son bir neçə ildə bu məsələdə planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid başa çatdırılmışdır. Çin məzunların məcburi yerləşdirilməsindən imtina etmişdir. Bu gün hər kəs seçim edə bilər: ali təhsili özün üçün almaq istəyirsənsə, öz cibindən ödə, bunu özünə rəva görə bilmirsənsə, dövlətdən kredit götür, sonra isə bir neçə il cəmiyyətin və dövlətin ehtiyaclarına işləməklə bunun əvəzini ödə. Mütəxəssislərin dövlət sektoruna cəlb olunması ilə bağlı problem bu şəkildə ağrısız həllini tapır. İndi ixtisaslı kadrları təsərrüfatın daha çox tələb duyulan sferasına yönəltmək mümkündür.

Son illərdə işədüzəlmədə qərarlaşan əlverişli vəziyyət iqtisadiyyatın sürətlə və keyfiyyətlə inkişaf etməsi ilə bağlıdır.

ÇXR-da müəllimlərin statusu yüksəkdir. 1985-ci ildə hətta Müəllim Günü təsis edilib, bu ölkədə ilk peşə bayramı idi. 1993-cü ildən müəllimlər haqqında qanun qüvvəyə minib. Bu qanun müəllimlərin hüquq və vəzifələrini, işə qəbul zamanı onlara irəli sürülən tələbləri, sosial təminatları müəyyən edir.

Çində özəl təhsilin qədim tarixi var. İlk özəl ali təhsil ocaqları, Şuyuanlar (akademiyalar) 1300 il öncə yaranmışdır. Müasir özəl ali məktəblər XX

əsrin 90-cı illərinin başlanğıcında meydana çıxdı. Fadan Universiteti və Çin Universiteti 1905-ci ildə təsis edilmişdi, onların ardınca 1919-cu ildə Syamın Universiteti və Nankey Universiteti meydana gəldi. XX əsrin birinci yarısında özəl sektor ali təhsil sistemində layiqli amil idi. 1949-cu ildə kommunistlərin nəzarət altına aldıqları 223 universitetdən 93-ü özəl idi. 1950-ci illərin əvvəllərində milliləşdirmə nəticəsində bütün özəl ali məktəblər bağlanaraq ali dövlət məktəbləri ilə birləşdirildi. 1952-ci ildən 1982-ci ilə qədər olan dövrdə özəl ali təhsil tam yoxa çıxdı.

Özəl ali təhsil Çində 1982-ci ildə keçmiş lider Den Syao Pinin siyasi islahatlarının nəticəsi olaraq yenidən meydana çıxdı. Bu dövrdə özəl ali təhsilin inikişafını üç mərhələyə bölmək olar:

1. 1982-1986-cı illər: özəl ali təhsilin yüksəlişi 1982-ci ilin martında 30 illik fəaliyyəti olmadıqdan sonra Pekində ilk özəl ali məktəb, Çin Sosial Universititeti yenidən açıldı. 1982-ci ilin dəyişilmiş konstitusiyasında deyilirdi: "Dövlət kollektiv ictimai qurumları, dövlət və s. müəssisələrin qanunauyğun olaraq özlərinin müxtəlif tipli tədris ocaqlarını təsis etmələrini dəsdəkləyir". Bu özəl ali məktəblərin funksionallığının leqal əsası idi. Eyni siyasət Çin Kommunist Partiyası Mərkəzi Komitəsi tərəfindən 1985-ci ildə qəbul edilmiş "təhsil sisteminin islahatlarına dair qərarlar" adlı sənəddə müəyyən edilirdi.

2. 1987-1992-cı illər: özəl ali təhsilin tənzimlənməsi, sürətli inkişaf, aşağı idarəetmə səviyyəsi, xidməti mövqedən sui-istifadə kimi bəzi problemlər doğururdu. Nəticədə 1987-ci ildə ali təhsil ocaqlarının funksionallığı haqqında Müvəqqəti Qərar elan edildi. Bu qərara uyğun olaraq sosial qüvvələr bu problemləri həll etməlidi: yerli qanunvericilik, özəl ali məktəblərin açılması və funksionallığının tənzimlənməsi.

3. 1992-2002-ci illər: özəl ali təhsilin yeni inkişafı, 1992-ci ildə Den Sayo Pinin "cənuba müfəttiş turu" və bazar iqtisadiyyatının tətbiq edilməsi çoxlu sayda özəl ali məktəblərin təsis edilməsinin əsasını qoydu. 1993-cü ildə Təhsil İslahatları Proqramı və Çinin inkişafı özəl sektorunun inkişafına istiqamətlənmiş "güclü və fəal dəstək, lazımi rəhbər prinsiplərlərini və bacarıqlı rəhbərlik" kimi siyasəti ilk dəfə müəyyənləşdirdi. Bu ideya ali təhsil ocaqlarının funksionallığı haqqında 1997-ci il və özəl ali təhsilə yardım haqqında 2002-ci il qanununda da təsdiqlənirdi.

Son bir neçə ildə Çində mindən çox ali məktəb fəaliyyət göstərirdi. 2002-ci ildə özəl ali məktəblərə 1 milyon 403 min 500 tələbə yazılmışdı ki, bu da 14 milyon 625 min 200 tələbədən ibarət ümumi yazılan tələbə sayının 9,60%-ni təşkil edirdi. Özəl kolleclərin əksəriyyəti inkişaf etmiş iqtisadiyyatı olan iri şəhərlərdə yerləşir. Məsələn, 2002-ci ildə Pekində 198 min tələbənin cəmləşmiş olduğu 91 özəl ali məktəb, Şanxayda 173703 tələbənin cəmləşdiyi 177 özəl ali məktəb var.

**Təsisçilər**. Özəl ali təhsili təşkil edənlər son dərəcə müxtəlifdir. Onlar: 1) keçmiş müəllimlər, istefaya çıxmış məmurlar, biznesmenlər; 2) demokratik

partiyalar olaraq sosial təşkilatlar; 3) özəl ali məktəblərin təsis edilməsində ən fəal rol oynayan təhsil qrupları kimi müəssisələr; 4) tabeliyində kollecləri olan dövlət ali məktəbləri; 5) Çinin müxtəlif ölkələrlə əməkdaşlığı və başqaları ola bilər.

Özəl ali məktəb qanuna əsasən hüquqi şəxs olaraq muxtariyyətə malikdir. Dövlət onun fəaliyyəti haqqında əmr verir, akkreditasiya edir və onların keyfiyyəitini qiymətləndirir. Hamilər şurası ali məktəbin prezidentini təyin edir, ali məktəbin əsasnaməsini və nizamnaməsini təsdiqləyir, gəliri formalaşdırır və mühüm məsələləri həll edir. Prezidentlər ali məktəbdə təlimə görə və inzibati məsələlərə görə cavabdehlik daşıyırlar.

Özəl ali məktəblərdə müəllimlərin və tələbələrin dövlət ali məktəbləri ilə eyni hüquqi statusa malik olmalarına baxmayaraq, həqiqətdə bu heç də belə deyil. Tələbələri iki qrupa bölmək olar: dövlət kollecinə qəbul imtahanlarında keçid balından aşağı sayda bal toplamış tələbələr; işləyən tələbələr. Adətən, bu adamlar tələbə üçün ənənəvi yaşdan yuxarı yaş həddində olur, ona görə də özəl ali məktəblərdə tələbələr yaşlarına və hazırlıq dərəcələrinə görə fərqlənirlər. Tam dərs yükü ilə işləyən müəllimlərdən başqa, özəl ali məktəb dövlət ali məktəblərindən və ya kolleclərindən lektorlar dəvət edirlər. Bu kimi müəllimlərə tədris saatına uyğun əmək haqqı ödənilir və məzuniyyət, tibbi sığorta, pensiya və s. kimi güzəştlər edilmir.

Gələcək məzunlara tələbin olması üçün özəl kolleclərin əksəriyyəti bazarın tələblərinə cavab verən proqramlara: biznes-inzibatçılıq, marketinq, maliyyə, xarici dillər, hesablama texnikası, iqtisadiyyat və s. üstünlük verirlər. Bəzi özəl ali məktəblər peşə-texniki proqramlarla ixtisaslaşır, onların əsasında yerli müəssisələr üçün mühəndislər hazırlayırlar. Dövlət ali məktəbləri ilə müqayisədə özəl ali məktəblərdə proqramlar daha çevikdir və əmək bazarındakı dəyişikliklərə uyğunlaşdırılmışdır. Özəl kolleclərin əksəriyyəti 2-3 proqramlar təklif edir. Ümumiyyətlə, bütün özəl məktəblər tələbələrə milli imtahanlardan keçməkdə kömək edir. Özəl ali məktəblərdə xüsusi proqramlar mövcuddur. Özəl ali məktəblərə daxil olan tələbələrin hazırlıq dərəcəsinin fərqli olması və fakültələrin çatışmadığı səbəbindən özəl ali məktəblərin əksəriyyəti yüksək səviyyəli təlimə qarantiya verə bilmir. Çində özəl sektorun coşqun inkişafı olmasına baxmayaraq, özəl ali məktəblər mürəkkəb vəzifələr və həlli tələb olunan problemlərlə üzləşir.

Birincisi, bəzi maliyyə problemləri özəl ali təhsilin normal inkişafını məhdudlaşdırır.

Bəzi müəssisələr tərəfindən kifayət qədər sponsorluq edilənlərədən başqa bir zox özəl ali məktəblər məhdud maliyyə imkanlarına malikdir;

- yüksək təhsil haqqı ali təhsildə ədalətsizliyin müəyyən dərəcədə səbəbinə çevrilmişdir;
- özəl ali məktəblərdə tələbələrə maliyyə yardımı proqramı yoxdur. Dövlətin maliyyə yardımı proqramları özəl universitetlərin tələbələrinə şamil

edilmir. Tələbələrin təhsillərini davam etdirmələrinə hansı şəkildə maliyyə yardımı göstərmək məsələsi hələ də öz həllini tapa bilmir;

• bəzi ali məktəblərdə hərc-mərclik hökm sürür, belə ki, maliyyə menecmenti, büdcələşdirmə, audit sistemi məsələləri tənzimlənməyib;

• bir çox ali məktəblər təhsilin keyfiyyətini yaxşılaşdırmağa deyil, gəlirlərini artırmaq üçün daha çox sayda tələbə cəlb etməyə istiqamətlənib. Ona görə də bir çox özəl ali məktəbləri "diplom verən fabriklər" adlandırırlar. Xidməti mövqeyindən sui-istifadə bütün özəl sektorunu pis vəziyyətə gətirib çıxarır.

Qanuna görə ali məktəbin seçilmiş prezidenti onu idarə etməlidir, lakin faktik olaraq onun belə bir hüququ yoxdur. Eləcə də professor-müəllim heyətinin və tələbələrin ali məktəbin idarə edilməsində iştiraklarını müəyyənləşdirmək lazımdır. Həqiqətdə özəl ali məktəblər təsisçilər tərəfindən idarə edilir və nəzarətdə saxlanılır, halbuki çox halda onların nə ali məktəbi idarə etməyə təcrübəsi, nə də lazımi səriştəsi var. Belə bir fenomenin varlığı təsis edilmiş ali məktəbin özünü təsdiqləmədiyini göstərir.

Nəticədə özəl ali təhsilin inkişafında hökumət nə kimi rol oynamalıdır? Hökumətin rolu bunları əhatə edir:

1. Özəl ali məktəbdə təhsilin təsdiqlənməsi. Yuxarıda deyildiyi kimi müxtəlif dövlət strukturları müxtəlif tipli özəl ali məktəbləri yaradırlar. Özəl ali məktəblərin fəaliyyətini dövlət necə nəzarətində saxlamalıdır? Özəl ali təhsil ocağında təhsilə və onun fəaliyyətinə hansı dərəcədə müdaxilə etməlidir?

2. Xüsusi həvəsləndirici fondlar; torpağın icarəyə verilməsi və ya satışı; dövlət aktivləri; əlverişli vergiqoyma siyasəti; ianələrin həvəsləndirilməsi; hökumət banklarından sudalar kimi əlverişli maliyyə siyasətləri və lazımi şəkildə tətbiq edilməli olan digər siyasətlər.

3. Təhsilin keyfiyyətinin qiymətləndirilməsi, proqramların akkreditasiyası, dərəcələrin verilməsinin kimin tərəfindən icra edilməsi, hökumət təşkilatları tərəfindən yoxsa peşə assosiasiyaları kimi qeyri-dövlət idarələri.

Ali peşə-texniki təhsili çərçivəsində ilk tədris ocaqlarının meydana gəlməsi və onun Çin ali peşə təhsilinin tərkib hissəsi olaraq sonrakı fəaliyyət prosesi 1980-90-cı illərdə özünü əks etdirir. Çin Kommunist Partiyası və ölkə hökuməti bütövlükdə Çin cəmiyyətinin modernləşdirilməsinə, Çin xalq təsərrüfatının, iqtisadiyyatının intensifikasiyasına kurs götürdükdə ali ixtisaslı milli kadr qıtlığı probleminin təcili həll olunması meydana çıxır. Ali təhsilli mütəxəssislərin sayını sürətlə və zoxlu miqdarda artırmaqdan ötrü dar, tətbiqi ixtisaslar və ixtisaslaşmalar üzrə daha qısa müddətdə (xaricdə ənənəvi mövcud müddətlərlə müqayisədə): 4-5 il əvəzinə, 2-3 ilə kadrların peşə-texniki hazırlığı haqqında qərar qəbul edildi. Həm də hazırlanan mütəxəssislərin təhsili ali təhsilli müəyyən edilirdi.

Çin, ali təhsil sistemində radio və televiziyadan istifadə etməyə başlamış ilk ölkələrdən biridir. 1960-cı illərin əvvəllərində, Çində televiziyanın inkişaf

etməyə başlamasından az sonra paytaxt Pekində və digər əsas şəhərlərdə ilk regional televiziya universitetləri (RTVU) yaranmağa başladı, onlar yaşlıların təhsili sferasında tələbləri ödəməli idilər. Universitetlərin yeni tipləri yaxşı qarşılanmış və yaranmalarından dərhal sonra böyük potensiala malik olduqlarını əks etdirmişlər. 1960-cı ildən 1966-cı ilə qədərki dövrdə 8.000-dən çox tələbə Pekin Televiziya Universitetinin məzunları oldu və 50.000-dən çox tələbə universitetin tədris proqramları çərçivəsində birillik təlim kurslarını bitirdilər. Onların bir çoxu sənaye və kənd təsərrüfatı müəssisələrinə, yaxud mədəniyyət və təhsil ocaqlarının fəaliyyətinə xeyli töhfələr verdi. Digər şəhərlərin televiziya universitetlərinin fəaliyyəti də eyni dərəcədə uğurlu idi və radio və televiziya verlişinə 50 dəqiqəyə qədər vaxt ayrılırdı.

Radio və televiziya proqramlarının çap tədris materiallarının hazırlanmasına baxmayaraq, tələbələr əyani məsləhətlərə də gedə bilər. Məsləhətlər iki səbəbdən zəruridir: a) Radio və televiziya proqramlarının aparıcıları tələbələrin suallarına birbaşa cavab verə bilmir, aparıcıya təlim prosesini korrektə etməsinə imkan verən əks əlaqə yoxdur; b) qeydiyyatdan keçmiş tələbələr proqramları birgə dinləyən və baxan televiziya siniflərində birləşir.

Təəssüf ki, bu yeni təcrübə "mədəni inqilab" nəticəsində (1966-1976) inkişaf edə bilmədi.

1970-ci ildə Çin yeni tarixi dövrə ayaq basdı. Sosialist modernləşdirmə layihəsi (sənayenin, kənd təsərrüfatının, milli müdafiənin, elm və texnologiyanın modernləşdirilməsi) daha çox sayda təhsilli adamların meydana çıxmasını tələb edirdi. Çində ibtidai və orta təhsilli adamların ümumi faizi digər inkişaf etməkdə olan ölkələrlə müqayisədə yüksək olsa da, ali təhsil ocaqlarına tələbə qəbulu müəyyən dərəcədə məhdud idi. 1975-ci ildə Çinin ali təhsil ocaqlarına qəbul faizi 2%-dən çox deyildi, halbuki digər inkişaf etməkdə olan 92 ölkədə bu göstərici 4 faizdən artıq idi. Çinin 25 yaşdan yuxarı yaşlı əhalisi arasında kollec və universitet tələbələrinin faizi cəmi 0,7 % təşkil edirdi. Dövlət müəssisələri və təşkilatlarının işçiləri arasında ixtisaslı texniki mütəxəssislərin və mühəndislərin faizi 2,5 %-i aşmırdı. Belə fikrə gəlirdilər ki, 1990-cı ildə Çinin işçi qüvvəsinin ümumi sayı 105 milyon nəfərə çatacaq; onların 4,7 %-ni texniki mütəxəssislər və mühəndislər təmin etməli idi. Sənaye və nəqliyyat sferasında ən azı 2,9 milyon yeni texniki mütəxəssis və mühəndis yetişdirilməli idi. 1990-cı ildə 4,3 milyon nəfər kollec və universitet diplomu olan məktəb və texniki-peşə məktəblərinə müəllim tələb olundu. Bu isə o demək idi ki, 3,5 milyon yeni müəllim hazırlamaq lazım idi. Qısa müddətdə bu qədər çox sayda ixtisaslı mütəxəssis hazırlanmasına dair vəzifə yalnız adi kolleclər və universitetlər vasitəsilə həll edilə bilməzdi.

Təlim qrupunun rəhbərləri (tyutorlar) tam və qismən məşğulluq qaydasında işləyir. 1986-cı ildə tam məşğulluğa malik tyutorların sayı 13.144, qismən məşğulluğa malik tyutorların sayı - 21.618 nəfər idi, onların arasında adi universitetlərdən, elmi-tədqiqat institutlarından və iri müəssisələrdən dəvət

edilmiş müəllimlər, tədqiqatçılar və texniki əməkdaşlar var idi. Qruplara rəhbərliklə yanaşı, tyutorların vəzifəsi habelə tələbənin ev tapşırığının yoxlanışı və onların özünütəliminə rəhbərlikdir. Bəzi televiziya siniflərində tyutorlar yerli miqyasda tələbatın ödənilməsi üçün onların törəmə məktəbləri və ya fəhlə bölmələri tərəfindən təşkil edilmiş kurslar aparırlar. Elm və texnika kurslarında tyutorlar praktik laboratoriya işlərini və nəzəriyyəni praktikada tətbiq etmək üzün başqa tədbirlərin təşkilinidə əldə edir.

Praktik laboratoriya işləri universitetlərin və ya tədqiqat institutlarının bazasında ictimai bayramlar və ya tələbə tətilləri, yaxud laboratoriyalardan istifadə edilmədiyi digər bir vaxtda yerinə yetirilir. Öz RTVU laboratoriyalarının təşkili ilə yanaşı, nəzdində laboratoryaların, audio video laboratoriyaların və kiçik kitabxanaların olduğu RTVU tədris mərkəzlərində get-gedə daha çox laboratoriya işləri aparılır. Dünya Bankının layihəsi çərçivəsində səksən beş tədris mərkəzi təşkil edilmişdir. Ucqar bölgələrdə yaşayan tələbələrə eksperiment işlərini yerinə yetirmək imkanı yaratmaqdan ötrü fizika, kimya, mexanika və elektronika üzrə təcrübələr aparmaq üçün laboratoriya dərsləri yaradılıb və onlardan bəzilərindən artıq geniş şəkildə istifadə edilir.

Laboratoriya işlərinin aparılmasını tələb edən kurslarda məşğul olarkən, tələbələr tyutorun təsdiqlədiyi zəruri praktik təcrübələri yerinə yetirmədən zaçot ala bilmir. Tələbənin yerinə yetirməli olduğu praktik təcrübələrin sayı qeyd edilməyib, yəni şərtlərdə böyük fərq var. Yaxşı təchiz edilmiş laboratoriyalarda işləmək imkanı olan tələbələr belə bir laboratoriyaya malik olmayanlarla müqayisədə daha böyük təcrübə qazana bilir. Lakin onlar tələb edilən minimum təcrübələri etməlidir, əks halda onlar təlimi sona çatdıra bilmir və diplom ala bilmirlər.

Radio və televiziya universitetləri sisteminin inkişafı və iqtisadi effektivliyi hökumət rəhbərləri tərəfindən müsbət qiymətləndirilmişdir. 1982-ci il iyulun 29-da ilk məzun qrupu üçün CRTVU-də keçirilmiş məzun mərasimində Çinin təhsil naziri demişdir: "Təcrübə göstərib ki, böyük əraziləri, böyük əhali sayı və inkişaf səviyyəsi az olan bir ölkədə distansion təhsildə də radio və televiziya texnologiyasından istifadə etmək vacibdir, belə ki, bu qısa müddət ərzində kütləvi miqyasda çox sayda insana təhsil vermək imkanı yaranmışdır. Radio və televiziya texnologiyasından istifadə etməklə, az insan və maddi resurslar cəlb edilməsi ilə bütün millətin elmi və mədəni səviyyəsini qaldırmağa imkan yaranır".

Teleradio yayımları naziri bununla bağlı olaraq demişdir: "Radio və televiziya universitetləri ali təhsil almağın yeni üsuluna çevrilmişdir. Bu üsul ölkənin daha tez və effektli şəkildə modernləşdirilməsinə rəvac verəcək olan daha çox sayda adama təhsil verməyə imkan yaradır".

Çin radio və televiziya universitetləri ilk dəfə 1960-cı illərdə meydana çıxdı, on il müvəqqəti olaraq bağlandı və öz fəaliyyətini 1970-ci illərdə bərpa etdi. Çin RTVU sistemi 1980-ci illərin əvvəllərində formalaşdı və 1986-cı ildə

öz inkişafının yeni fazasına ayaq basdı. 1990-cı illərdə universitet tələbələrinin beşdə ikisi RTVU tələbəsi idi. Çin hökuməti radio və televiziya universitetlərini inkişaf etdirməyi vacib sayır. Dövlət Şurasının baş naziri Çao Ziyyanq 1983-cü ildə demişdi: "Televiziya universitetləri mühüm təlim formasıdır. Televiziya universitetlərinin inkişafı Çin şəraiti üçün xeyli münasibdir, çünki qısa müddətdə çoxlu sayda insanlara təhsil verməsinin effektiv üsuludur. Adi universitetin bir il ərzində tələbə yığımını on minlərə qaldırması çətin məsələdir. 1982-ci ildə isə 92 000 tələbə televiziya məzunları olmuşdur".

Çində modernləşdirmə, telekommunikasiya və kosmosun tədqiqi inkişaf etdikcə RTVU sistemi daha da genişlənəcəkdir. Qeyd edək ki, Çin radio və televiziya universitetləri ali təhsil, ölkə iqtisadiyyatı və sosial inkişaf sistemində get-gedə daha mühüm rol oynayacaqdır.

**Tayvanda ali təhsil.** Buraya ilk dəfə qədəm basan avropalılar Tayvanı "Gözəl ada" adlandırmışlar. Flora və faunasının zənginliyi, landşafının rəngarəngliyi, əla ekologiyası və iqlimi yaşamaq üçün adanı ideal yerə çevirir. Tayvanlılar qonaqpərvər və mehriban xalqdır. Tayvan iqtisadiyyat, texnika və kənd təsərrüfatının inkişafında böyük uğurlar əldə edib. Tayvanın yarımkeçirici naqillər, mayekristallik, ekranlar və başqa yüksək texnologiyalı məhsullar istehsal edən Sinçju texnoparkı bütün dünyada məşhurdur.

Tayvanlılar haqlı olaraq hesab edirlər ki, uğurun təməli təhsildədir. Ölkədə 143 ali məktəb var, onların 17-də xarici tələbələr üçün beynəlxalq mərkəzlər açılıb. İlk növbədə, onlar Çin dilinin öyrənilməsini təklif edir və haqlı olaraq proqramlarının yüksək səviyyəsi ilə fəxr edirlər. Hər bir mərkəzin öz inkişaf metodikası və tədris materialları vardır. Dərsliklər iki fonetik sistemlə buraxılır: ənənəvi Çin və beynəlxalq. Tayvandan olan Çin dili kursları bir xüsusiyyətinə görə yaxşıdır ki, burada ənənəvi olan çətin ieroqliflər öyrədilir. Buna görə də buraya dünyanın bütün ölkələrindən tələbələr gəlir. Ənənəvi ieroqliflər xüsusi olaraq Tayvanda qorunub saxlanıb. Beləliklə, burada xaricilər nəinki düzgün Çin dilini öyrənir, həmçinin Çinin adət-ənənələri, mədəniyyəti haqqında dolğun məlumat alırlar.

Çin dilini bilənlər üçün Tayvanın tədris ocaqları Çin dilindən test imtahanı təklif edir. İmtahan ildə iki dəfə keçirilir: iyunda və dekabrda. Dili mənimsəmənin iki aspekti yoxlanılır: oxu və danışıq. İmtahan sualları çətinliyinə görə üç mərhələyə bölünüb: əsas (baza), natamam orta və tam orta. İmtahanı uğurla sona çatdıranlar dərəcə sertifikatı alır.

Dil kurslarından başqa, xaricilər üçün baza universitet proqramları da açılıb. Bakalavr dərəcəsinin diplom kursu əsasən Çin dilində, doktorantlarda təhsil isə ingilis dilində mümkündür. Xüsusi olaraq Tayvan təhsilinin xaricdə inkişafı üçün Beynəlxalq Əməkdaşlıq və İnkişaf Fondu yaradılmışdır. Fond ali məktəblərlə birgə xaricilər üçün bir neçə təqaüd planı hazırlamışdır. Kənd təsərrüfatı sahəsində magistratura və doktorantura proqramı vardır, yəni: Tayvan tədqiqatları ixtisası üzrə beynəlxalq magistratura; kompyuter elmləri

sahəsi üzrə beynəlxalq magistratura; dəniz resurslarının idarə olunması sahəsi üzrə doktorantura; Beynəlxalq səviyyə ixtisası üzrə magistratura; Beynəlxalq əmək resurslarının inkişafı ixtisası üzrə doktorantura; ətraf mühitin sabit inkişafı sahəsi üzrə magistratura.

Təqaüd 2 il müddətində verilir. Bu vaxt çərçivəsində proqramı bilmək və magistr dərəcəsi almaq lazımdır. Təqaüdə aviabilet, yaşayış və təhsil üçün xərclər, sığorta, dərsliklər və aylıq 15000 yeni Tayvan dolları ilə şəxsi xərclər daxildir.

**Pekin Universiteti (Peking University).** Bu universitet Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində yerləşir və ölkənin ən aparıcı ali təhsil ocaqlarından biridir. Pekin Universiteti xalq arasında "Beyda" adlandırılır.

2009-cu ildə aparılan dünya universitetlərinin reytinqinə əsasən, Pekin Universiteti 100 ən yaxşı ali məktəb arasında 52-ci yerdə sıralanıb. 2010-cu ildə dünyanın ən nüfuzlu universitetləri arasında Pekin Universiteti 37-ci, 2004-ci ildə isə 47-ci yerdə qərarlaşıb. Çin Xalq Respublikasının özündə təşkil edilən reytinqlərə görə Pekin Universiteti ölkədə Tsinxua Universitetindən sonra ikinci yerdə durur.

Pekin Universiteti 1898-ci ilin dekabrında Yüz Gün İslahatları dövründə yaradılıb və ilkin olaraq İmperiya Paytaxt Universiteti adı ilə fəaliyyət göstərib. 1902-ci ildə universitetin Pekin Pedaqoji İnstitutu kimi tanınan pedaqogika fakültəsi açılıb.

1912-ci il Sinxay inqilabından sonra İmperiya Paytaxt Universiteti Pekin Milli Universiteti adlandırılır. 1917-ci ildə Pekin Milli Universiteti 14 departamenti və 2000-dən artıq tələbəsi ilə ölkənin ən böyük ali təhsil ocağına çevrilir. 1920-ci ildən başlayaraq Pekin Milli Universitetinə qızlar qəbul edilir. Pekin Milli Universiteti Nankin Universitetindən sonra Çində qızların qəbul edildiyi ikinci ali məktəb olur. 1937-ci il İkinci Çin-Yapon müharibəsi dövründə Pekin Universiteti Çanşa əyalətinə köçür və Tsinxua, Nankin universitetləri ilə birləşdirilərək Çanşa Müvəqqəti Universiteti adlandırılır. 1938-ci ildə isə ali məktəb Kunmin şəhərinə köçürülür və burada Milli Cənub-Qərb Birləşmiş Universiteti adı altında fəaliyyət göstərir. İkinci Dünya müharibəsi bitdikdən sonra Pekin Milli Universiteti Pekin şəhərinə köçürülür. Həmin dövrdə universitetin tərkibində İncəsənət, Elm, Tibb, Mühəndislik və Kənd Təsərrüfatı məktəbləri, Humanitar Elmlər İnstitutu fəaliyyət göstərirdi, tələbələrin sayı 3000-ə qədər artmışdı.

1952-ci ildə Çin Xalq Respublikası yaradıldıqdan sonra Yençinq Universiteti Pekin Milli Universiteti ilə birləşdirilir, Pekin Universitetinin adından "milli" sözü götürülür. Həmin il universitet Pekin şəhərinin mərkəzindən Yençinq kampusuna köçürülür.

2000-ci ildə Pekin Tibb Universiteti Pekin Universitetinə birləşdirilərək Pekin Universiteti Həyat Elmləri Kampusu adlandırılır. 2001-ci ildə Şençcendə universitetin peyk şəhərciyi açılır. 2004-cü ildə ali məktəbin ikinci Biznes

Məktəbi yaradılır və bir müddət sonra həmin məktəbə Beyda Biznes Məktəbi adı verilir.

Hazırda Pekin Universitetinin yerləşdiyi Yan Yuan və Yençinq kampusu Pekin şəhərinin Şimal-qərbində, bir çox kollec və universitetin cəmləşdiyi Haidian ərazisində fəaliyyət göstərir və 274 hektar sahəni əhatə edir. Kampusun yaxınlığında Pekinin tanınmış qədim bağları, sarayları (Yay Sarayı, Qədim Yay Sarayı) yerləşir.

Tsin sülaləsinə aid qədim, ənənəvi Çin üslubunda yaşıllaşdırılmış bağda yerləşən Pekin Universitetinin ərazisində qədim tikililər, paqodalar (Budda məbədi) vardır. Pekin Universitetinin kampusu qonşuluqda yerləşən Tsinxua Universitetinin kampusu ilə birlikdə dünyanın ən gözəl kampuslarından hesab olunur.

2001-ci ildə istifadəyə verilmiş Şençen kampusu Şençen şəhərinin şimal-qərb hissəsində yerləşir. Şençen Ali Məktəbi Pekin Universitetinin bu kampusda fəaliyyət göstərən əsas obyektlərindən biridir.

Pekin Universitetinin bakalavr pilləsində 95, magistratura pilləsində 199, doktorantura pilləsində isə 173 istiqamət üzrə ixtisaslaşmış 30 kollec və 12 milli laboratoriya fəaliyyət göstərir.

Pekin Universitetinin kitabxanası 4,5 milyon cild kitab və digər materiallara malikdir. Universitet kitabxanası Asiyanın ən zəngin kitabxanalarından hesab olunur. Universitetin ərazisində Universitet tarixi, Artur Sakler adına İncəsənət və Arxeologiya muzeyləri vardır.

Hazırda universitetdə 8000 nəfərdən çox işçi çalışır. İşçilərin 2900 nəfərini professor-müəllim heyəti, 5100 nəfərini isə inzibati heyət təşkil edir. Ali məktəbin əməkdaşları arasında 53 nəfər Çin Elmlər Akademiyasının, 7 nəfər Çin Mühəndislik Elmləri Akademiyasının və 14 nəfər Üçüncü Dünya Elmlər Akademiyasının üzvü var.

2009-2010-cu tədris ilində Pekin Universitetində 30167 nəfər tələbə var idi. Onların 15128 nəfərini bakalavr, qalanlarını isə magistr və doktorantlar təşkil edirdi. Hər il Pekin Universitetinə 2000-dən çox əcnəbi tələbə daxil olur. Onlar əsasın Qərbi Avropa, Avstraliya, Afrika, Şimali və Cənubi Amerika, Asiyanın bütün ərazilərindən olan gənclərdir. Əcnəbi tələbələrin məskunlaşdıqları yataqxanalar Şao Yuan ərazisində yerləşir.

Pekin Universitetində gənclərin həyatı rəngarəngliyi və zənginliyi ilə seçilir. Burada 200-dən çox tələbə təşkilatı, idman komandaları və başqa birliklər fəaliyyət göstərir.

Dünya üzrə tanınmış Pekin Universiteti müasir Çin ədəbiyyatı, poeziyası və incəsənətinə böyük töhfələr bəxş edib. Fəaliyyəti dövründə universitet özünü intellektual azadlıq məkanı kimi tanıdıb.

Pekin Universiteti bütün elm və tədris sahələrinin cəmləşdiyi tədqiqat və təhsil mərkəzidir. Universitetin məqsədi XXI əsrdə dünyanın bir nömrəli ali məktəbinə çevrilmək, Çinin müasirləşdirilməsinə, dünyanın iqtisadi, sosial və

texnoloji inkişafına öz töhfəsini vermək, yeni-yeni gənc istedadları aşkarlayıb dünyaya təqdim etməkdən ibarətdir.

**Honq Konq Universiteti (University of Honq Konq).** Bu universitet Asiyanın ən nüfuzlu universitetlərindən biridir. Universitet Çinin Honq Konq şəhərindəki Pokfulam ərazisində yerləşir. 2009-cu ildə aparılan dünya universitetlərinin reytinqinə əsasən Honq Konq Universiteti 100 ən yaxşı məktəb arasında 24-cü yerdədir.

Honq Konq Universitetinin təməli 16 mart 1910-cu ildə həmin dövrdə Honq Konq qubernatoru olan Frederik Luqard tərəfindən qoyulub. Universitetin yaradılmasında məqsəd çinli gənclərin istifadəsinə ən müasir ali təhsil müəssisəsini vermək olub. Universitetin rəsmi açılışı 11 mart 1911-ci ilə təsadüf edir, 1887-ci ildən fəaliyyət göstərən Tibb Kolleci də həmin il universitetə birləşdirilir. Bir il sonra universitetdə mühəndislik və incəsənət fakültələri açılır.

Yaradılmasından on il keçdikdən sonra, 1921-ci ildə universitetə ilk qız tələbələr qəbul edilir. 1927-ci ildə burada Çin Tədqiqatları Məktəbi yaradılır. 1937-ci ildə universitetin Kraliça Mariya xəstəxanası açılır və həmin vaxtdan bu günədək universitet xəstəxanası kimi fəaliyyət göstərir. İkinci Dünya müharibəsinədək təhsil ocağında dörd fakültə: - incəsənət, mühəndislik, tibb və elm fakültələri var idi. Həmin dövrdə universitet, kampusun və tədris proqramlarının təkmilləşdirilməsini planlaşdırsa da, müharibənin başlaması buna mane olur və yapon işğalı dövründə Honq Konq Universiteti fəaliyyəti dayandırmaq məcburiyyətində qalır.

1945-ci ildən başlayaraq təhsil ocağında ciddi struktur dəyişikliklərinə başlanılır. Universitetin sürətli inkişafı müxtəlif fənlərin tədrisi üçün ixtisaslaşmış mütəxəssislərə ehtiyac yaradır, yeni-yeni kadrlar qəbul edilir, tələbələrin sayı sürətlə artır. 1967-2000-ci illərdə daha altı fakültə açılır.

Honq Konq Universiteti bir çox Qərb universitetləri ilə müqayisədə dövlət tərəfindən yüksək səviyyədə maliyyələşməsi ilə seçilir. 1991-ci ildən başlayaraq Tədqiqat Qrantları Şurası bu ali təhsil müəssisəsinə 893 milyon Honq Konq dolları dəyərində vəsait ayırıb. Universitet müəllimlərin əmək haqqının çoxluğuna görə hətta ABŞ-ın özəl universitetlərini qabaqlayaraq dünyada ön sıralardan birini tutur. 2009-2010-cu tədris ilində Honq Konq Universitetində yerli tələbələr üçün təhsil haqqı 42100, əcnəbi tələbələr üçün isə 100 000 Honq Konq dolları (təxminən 12900 ABŞ dolları) idi. Yataqxanaların birillik qiyməti 1200 ABŞ dollar dəyərindədir. Universitetə yüksək balla qəbul olmuş tələbələrə, təxminən, 1500 ABŞ dolları məbləğində təqaüd verilir. Yaxşı oxuyan tələbələr də təqaüd və yardımlar alır.

Honq Konq Universitetinin əsas kampusu Honq Konqun mərkəzində 160000 $m^2$-lik ərazidə yerləşir. Honq Konqda Britaniyanın bu ərazidə müstəmləkəçilik etdiyi dövrlərə aid bir neçə memarlıq nümunəsi vardır.

Universitetin binaları da bu nümunələrdəndir. 1910-1912-ci illərdə renessans üslubunda inşa edilən həmin binalar qırmızı kərpic və qranitdəndir.

Tibb kampusu əsas kampusdan 4,5 km cənub-qərbdə Sendi-Bey ərazisi yaxınlığında yerləşir.

Magistrant və doktorantların təhsil aldıqları ali məktəb 1998-ci ildə yaradılıb. Məktəb diplomdan sonrakı Təhsil Şurası tərəfindən idarə olunur. Burada magistrant və doktorantlara qabaqcıl, eləcə də beynəlxalq təhsil təcrübəsi öyrədilir.

**Tsinxua Universiteti (Tsinghua University).** Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində yerləşir və ölkənin ən yaxşı ali təhsil ocaqlarından biridir.

2009-cu ildə aparılan dünya universitetlərinin reytinqinə əsasən, Tsinxua Universiteti 100 ən yaxşı ali məktəb arasında 49-cu yerdə olub. 2010-cu ildə dünyanın ən nüfuzlu universitetləri arasında Tsinxua Universiteti 54-cü yeri tutub.

1911-ci ildə Pekin şəhərində əvvəlcə Min, sonra isə Tsin kral sülaləsinə məxsus Tsinxua Kolleci yaradılır. Bu kollec dövlət tərəfindən ABŞ-a təhsil almağa göndərilən gənclərin oxumağı üçün ilkin mərhələ rolu oynayır. Kollecin professor-müəllim heyətini də ABŞ-dan dəvət olunmuş şəxslər təşkil edirdi. 1912-ci ildə kollec Tsinxua Məktəbi adlandırılır.

1928-ci ildə məktəbin adı hökumət tərəfindən rəsmi olaraq dəyişdirilərək Tsinxua Milli Universiteti olur. İkinci Dünya müharibəsi dövründə Çinin Pekin, Nankin, Tsinxua universitetləri, daha sonra isə Kunmin əyalətində yerləşən Birləşmiş Cənub-Qərbi Milli Universiteti, Çanqşa şəhərində Çanqşa Müvəqqəti Universiteti adı altında birləşdirilir. Müharibədən sonra Tsinxua Universiteti Pekinə qaytarılır və fəaliyyətini davam etdirməyə başlayır.

1949-cu ildə Çində vətəndaş müharibəsi zamanı kommunist çevrilişindən və Çin Xalq Respublikasının yaradılmasından sonra Tsinxua Universitetinin prezidenti Mey Yi-Qi və bir neçə professor Tayvana qaçır və orada 1955-ci ildə Tayvanın Milli Tsinxua Universitetini yaradırlar.

1952-ci ildə Çin Xalq Respublikası hökuməti sovet təhsil sisteminə uyğun olaraq ali məktəbləri xüsusi ixtisaslaşmış ayrıca institutlara bölür. Hüquq, kənd təsərrüfatı, dəqiq və humanitar elmlər Tsinxua Universitetindən alınır və ali məktəb politexnik yönümlü universitetə çevrilir. Universitet texniki elmlərin inkişafına görə çox uğurlar qazanır. Lakin 1980-ci ildən sonra burada fənlərarası proqramlar tətbiq olunmağa başlayır. Nəticədə bir neçə məktəb yenidən bərpa edilir, eləcə də yeniləri yaranır (Elmlər, Biznes və Menecment, Humanitar və Sosial Elmlər, Hüquq, Dövlət Siyasəti və İdarəetmə məktəbləri, Dizayn və İncəsənət Akademiyası).

Tsinxua Universitetində təhsil haqqı tələbənin seçdiyi ixtisasdan asılı olaraq dəyişir. Bakalavr pilləsində təhsil haqqı 20000-50000 yuan, magistratura pilləsində 30000-70000 yuan, doktorantura pilləsində isə 30000-60000 yuan arasında dəyişir.

Bu ali təhsil ocağında 1000-ə qədər əcnəbi tələbə yerləşən yataqxanalar vardır. Yataqxanalarda İnternet, telefon, kondisioner, televizor və s. avadanlıqlarla təchiz edilmiş bir, iki və daha çox nəfərlik otaqlar tələbələrin istifadəsinə verilib. Otaqların bir günlük qiyməti 40-100 yuan arasında dəyişir. Kampusda tələbələrə tibbi xidmət göstərilir. Tibbi sığortanın birillik qiyməti 600-1000 yuandır.

Tsinxua Universitetinin kampusu Pekin şəhərinin şimal-qərbində universitetlər və digər akademik müəssisələr üçün nəzərdə tutulmuş Haydyan rayonunda 395 hektar ərazidə yerləşir. Tsin kral sülaləsinə məxsus başqa tikilmiş kampusda Çin memarlıq nümunəsinə aid binalar, Çin üslubunda salınmış bağ və parklar vardır. Burada ilk vaxtlar Amerika məktəbi fəaliyyət göstərib, bu da kampusun binalarının rəngarəngliyinə təsir edib. Şəhərcikdə Qərb memarlıq üslubuna aid çoxlu sayda tikili var. Urban-Şampeyndəki İllinoys ştatı Universitetinin 1914-cü ildə məzunu olmuş T.Çuanq Tsinxua Universiteti şəhərciyinin tikintisində iştirak edib və işində Amerika memarlıq üslubuna müraciət edib. Tsinxua Universitetinin simvolu qədim darvazadır. "Forbes" jurnalı 2010-cu ildə Tsinxua Universitetinin kampusunu dünyanın ən gözəl universitet şəhərciklərindən biri kimi dəyərləndirib. Bu ali məktəb həmin siyahıda adı olan yeganə Asiya universitetidir.

Tsinxua Universitetinə aid bütün akademik, inzibati, yaşayış binalarının hamısı kampusda yerləşir. Yalnız universitetin Pekin şəhərinin şimalındakı Nüvə və Yeni Enerji Texnologiyaları İnstitutu istisna təşkil edir.

Tsinxua Universitetinin kitabxana sisteminə 3,5 milyon cilddən çox kitab, 300000 qədim kitab, qəzet, dissertasiya, 70000 mikroforma, 30000 dissertasiya, eləcə də 920000 elektron kitab, 42000 elektron jurnal və s. daxildir. Universitetin kitabxanası 1912-ci ildə yaradılıb, 1994-cü ildə isə kitabxananın yeni binası istifadəyə verilib. Hazırda kitabxana kampusda 28 min $m^2$ ərazini əhatə edir. 1990-cı illərdən başlayaraq kitabxana avtomatlaşdırma və şəbəkəyə çıxış üzrə böyük nailiyyətlər əldə edib.

Bu ali məktəbdə 7235 nəfər işçi çalışır. Onların 4868 nəfərini professor-müəllim heyəti, qalanlarını isə inzibati heyət təşkil edir. Akademik heyət arasında 1142 nəfər professor, 37 nəfər Çin Elmlər Akademiyasının, 37 nəfər Çin Mühəndislik Akademiyasının üzvü, 2 nəfər Nobel, 1 nəfər Türinq (Endryu Çi-Çin Yao) mükafatı laureatı var. Müəllimlərin əməkhaqqı ildə orta hesabla 40000-65000 yuan təşkil edir.

Bir sıra dünya liderləri Tsinxua Universitetinin fəxri doktorlarıdır və burada mühazirələrlə çıxış ediblər. Həmin şəxslərdən Bill Klintonu, Toni Bleyeri, Henri Kissinceri, Karlos Qosnu, Henri Polsonu qeyd etmək olar.

2009-2010-cu tədris ilində Tsinxua Universitetində 26746 nəfər tələbə təhsil alıb. Tələbələrin 13915 nəfərini bakalavr, 7515 nəfərini magistr, 5316 nəfərini isə doktorantlar təşkil edirdi. Xarici tələbələrin sayı həmin tədris ilində 2740 nəfər olub. Dünyanın 114 ölkəsindən gələn əcnəbi gənclər arasın-

da Koreya, ABŞ, Kanada, Almaniya, Yaponiyadan olanlar çoxluq təşkil edirlər. Xaricilər, əsasən, dəqiq elmlər və mühəndislik sahələri üzrə təhsil almaq məqsədi ilə bu ali məktəbi seçirlər.

Tsinxua Universiteti özünün yüksək elmi səviyyəsi və təhsil keyfiyyəti ilə dünyada xüsusi nüfuza malikdir. 2011-ci ildə 100 illik yubileyini qeyd etmiş universitet öz ölkəsində yüksək səviyyəli kadr hazırlayan dövlət ali təhsil ocağıdır. Mərkəzi hökumət və Maarif Nazirliyinin köməyi, onların tədqiqatlara ayırdığı qrantlar, "Layihə 211" və "985-ci Plan" Dövlət Proqramlarının dəstəyi nəticəsində universitet yeni inkişaf mərhələsinə qədəm qoyub. Tsinxua Universitetinin gələcək strateji məqsədi Çində kadr və sosial-iqtisadi problemləri aradan qaldırmaq üçün yeni çoxprofilli təhsil və elmi proqramlar həyata keçirmək, innovasiya tipli nəhəng elmi-tədqiqat mərkəzinə çevrilməkdir.

**Sinqapur Milli Universiteti (National University of Singapore).** Sinqapur Milli Universiteti Sinqapur Respublikasında yaranan ilk ali təhsil müəssisəsidir. Universitet tələbələrin çoxluğuna və tədris proqramının zənginliyinə görə də ölkənin ali məktəbləri arasında birinci yeri tutur 2009-cu ildə aparılan dünya universitetlərinin reytinqinə görə, Sinqapur Milli Universiteti 100 ən yaxşı ali məktəb arasında 30-cu yerdədir.

Zəngin Asiya təcrübəsini özündə birləşdirən universitet Sakit Okean regionu Universitetləri Assosiasiyasına və Beynəlxalq Tədqiqat Universitetləri Alyansına daxildir.

1904-cü ilin sentyabrında Tan Ciak Kim bir qrup Çin və digər icma nümayəndələrinə rəhbər təyin edilir. T.C.Kim Streyts Settlmentsin (Böyük Britaniyanın Cənub-Şərqi Asiyadakı müstəmləkəsi) qubernatoru Con Andersona müraciət edərək Sinqapurda tibb məktəbi yaratmaq istədiyini bildirir. 3 iyul 1905-ci ildə tibb məktəbi yaradılır və onun adı bütövlükdə Streyts və Malayziya Federativ Hökumətinin Tibb Məktəbi kimi qeyd olunur. Məktəbin binası ilə birgə tibb kitabxanasının binası da tikilir. 1912-ci ildə kral VII Edvard Tibb Məktəbinə 120000 dollar dəyərində yardım edir. 1913-cü ildə Tibb Məktəbi Kral VII Edvard adına Tibb Məktəbi, 1921-ci ildə isə təhsil müəssisəsinin akademik statusunu vurğulamaq üçün məktəb Kral VII Edvard adına Tibb Kolleci adlandırılır.

1929-cu ildə malayziyalı gənclərə incəsənət və ictimai elmlərin öyrədilməsi məqsədilə Raffles Kolleci yaradılır. 20 il sonra, 8 oktyabr 1949-cu ildə Raffles Kolleci və Kral VII Edvard adına Tibb Kolleci birləşdirilərək Malaya Universiteti açılır. Bu iki təhsil müəssisəsi Malayziya Federasiyası və Sinqapur sakinlərinə ali təhsil vermək məqsədi ilə birləşdirilir. Malaya Universiteti sürətlə inkişaf etməyə başlayır, lakin 1959-cu ildə Sinqapurda və Kuala-Lumpurda yerləşməklə iki hissəyə bölünür. 1960-cı ildə Malayziya Federasiyası və Sinqapur hökumətləri universitetin statusunu dəyişmək qərarına gəlir. 1962-ci ildə Sinqapurda yerləşən Malaya Universiteti Sinqapur Universiteti adlandırı-

lır, Kuala-Lumpurda yerləşən ali təhsil müəssisəsinin adı isə Malaya Universiteti olaraq qalır.

1980-ci ildə Sinqapurda yerləşən Sinqapur və Nanyanq universitetləri birləşdirilir və həmin ali təhsil ocağına Sinqapur Milli Universiteti adı verilir. Nanyanq Universiteti Çin və Tayvanın hüdudlarından kənarda yerləşən və Çin təhsili verən yeganə ali təhsil müəssisəsi idi.

Sinqapur Milli Universiteti Britaniya təhsil sisteminə uyğun yaradılıb. 2005-ci ildə 1,9 $km^2$ ərazidə "Şəhər Universiteti" adlı plana əsasən universitetin yeni kampusu tikilib. Buraya səkkiz kollec yataqxanası daxildir. 2007-ci ildə universitetdə avtomobil və piyadalar üçün nəzərdə tutulmuş, iki kampusu birləşdirən körpü və keçid tikilib. Hazırda Universitet şəhərciyinin inşası davam etdirilir və 2013-cü ildə də yeni qurğuların tikintisi planlaşdırılır.

Sinqapur Milli Universiteti hazırda Sinqapur hökuməti tərəfindən yüksək maliyyə yardımı alır. Universitetin əməliyyat və infrastruktur xərcləri dövlət tərəfindən ödənilir, toplanan yardımlar isə tələbələrin təhsilinin yüksəldilməsinə sərf olunur.

Sinqapur Milli Universitetində 2009-2010-cu tədris ilində tələbələrin təhsil haqqı bakalavr pilləsində təhsil alan tələbələr üçün oxuduqları məktəb və fakültədən asılı olaraq Sinqapur sakinləri üçün 25620 Sinqapur dollarından başlayaraq 69600 dollara qədər dəyişib. Əcnəbi tələbələrin təhsil haqqı isə 28930-73700 Sinqapur dolları idi. Universitetdə ən zox təhsil haqqı olan fakültələr Stomatologiya və Tibb məktəblərindədir. Burada təhsil haqqı yerli tələblər üçün 107160 Sinqapur dolları, əcnəbi tələbələr üçün isə 116640 Sinqapur dollarıdır.

Universitetin tələbə yataqxanalarında ödənişlər, şəraitdən asılı olaraq, biraylıq 325-605 Sinqapur dolları miqdarındadır. Tələbənin biraylıq xərci, orta hesabla, belədir: kitab və dəftərxana ləvazimatları üçün 100-200 Sinqapur dolları, nəqliyyat üçün (kampus daxilində) 52 Sinqapur dolları, ictimai nəqliyyat üçün (kampusdan kənar)-150-200 Sinqapur dolları, qidalanması üçün (kampus daxilində) 250-350 Sinqapur dolları, şəxsi xərcləri üçün (geyim, əyləncə və s.) 150-200 Sinqapur dolları.

Sinqapur Milli Universitetində təqaüd almaq istəyən tələbə universitetə yazılı ərizə ilə müraciət etməli, sonradan isə bu təhsil müəssisəsinin seçim meyarlarına cavab verməlidir. Tələbə bütün tələblərə cavab verərsə, tələbənin ailə vəziyyətinə, maliyyə durumuna uyğun olaraq ona təqaud və kredit ayrılır. Bununla yanaşı, tələbəyə tədqiqat işlərində kömək göstərilir. Sinqapur Milli Universitetində tələbəyə ayrılan kreditin məbləği, təxminən, ildə 3600 Sinqapur dolları təşkil edir. Ümumiyyətlə, dünyanın başqa universitetlərində olduğu kimi, burada da tələbələrə müxtəlif məbləğdə bir çox təqaüd və kreditlər təklif olunur.

Sinqapur Milli Universiteti Sinqapurun qərbində yerləşən Kent Ric rayonu ərazisindədir. Bu rayon dinc yaşayış mühitinə və bol bitki örtüyünə gö-

rə seçilir. Sinqapur Milli Universiteti Kent Ric rayonunda 1,5 km$^2$ ərazini əhatə edir. Bu təhsil ocağı üç kampusdan ibarətdir: Kent Ric, hüquq fakültəsinin yerləşdiyi Bukit Timah və tibb məktəbinin yerləşdiyi Outram kampusları.

Sinqapur Milli Universitetinin şəhərciklərində tələbələr üçün yüksək səviyyəli şərait yaradılıb. Burada 3000 yerlik yataqxanalar, kampus daxilində həftə boyu pulsuz hərəkət edən avtobuslar mövcuddur. Yataqxanalarda tələbələrə bir və ya iki otaq təklif edilir, hər bir otaq telefon, kabel televiziyası, internet, istilik sistemi, paltaryuyan, qurudan maşınlar və s. ilə təmin olunub.

Sinqapur Milli Universiteti, konservatoriya daxil olmaqla, aşağıdakı məktəblərdən ibarətdir:

İncəsənət və İctimai Elmlər Məktəbində Çin dili, Çin elmləri, media və kommunikasiya, iqtisadiyyat, ingilis dili, ingilis ədəbiyyatı, fəlsəfə, siyasi elmlər, ictimai fəaliyyət, psixologiya, sosiologiya, coğrafiya, tarix, Avropa, Yaponiya, Malayziya, Cənubi Asiya elmləri, teatr fakültələri daxildir.

Bütün sadalananlardan əlavə, Sinqapur Milli Universitetində 22 elmi-tədqiqat institutu mövcuddur.

Sinqapur Milli Universitetinin kitabxana sisteminə ümumilikdə 1,5 milyon cild kitab, 43000 elektron nəşr, 32000 informasiya proqramı, 26000 mikroforma və s. daxildir. Universitetin ayrılıqda 8 kitabxanası var: Mərkəzi, Çin, CC Koh Hüquq, Suy Sen Memorial, Tibb, Musiqi, Elmi, Yuxarı Məktəb. Hər bir kitabxanada öz sahəsinə uyğun minlərlə kitab var. Kitabxananın İnternet portalı fəaliyyət göstərir və gün ərzində 24 saat xidmət təklif edir. Universitetin zəngin kitabxanası müxtəlif istiqamətlər üzrə tədqiqatlar aparmağa geniş imkanlar yaradır.

Sinqapur Milli Universitetinin kansleri Sinqapurun hazırkı Prezidenti Sellapan Ramanathan, prezidenti isə professor Tan Çorh Kuandır. 2009-2010-cu tədris ilində Sinqapur Milli Universitetində ümumilikdə 8444 nəfər işçi heyət qeydə alınıb. Onlardan 2207 nəfəri professor-müəllim heyəti, 2098 nəfəri tədqiqatçı, qalanları isə inzibati işçilərdir.

Hazırda Sinqapur Milli Universitetində dünyanın 100 ölkəsindən 33741 nəfərdən çox tələbə təhsil alır. Onların 25391 nəfəri bakalavr, 8350 nəfəri isə magistr və doktorantlardır. Dünyanın bir çox ölkəsində universitetin 20000-dən artıq məzunu müxtəlif sahələr üzrə fəaliyyət göstərir.

Sinqapur Milli Universiteti tələbələrə bilik verməklə yanaşı, onlara həyat dərsi verir. Burada tələbə mübadiləsi, dünya ölkələrinin tanınmış universitetləri ilə sıx əməkdaşlıq, təcrübə toplamaq məqsədi ilə xarici səfərlər həyata keçirilir. Bu günədək topladığı zəngin təcrübəyə əsaslanan ali təhsil müəssisəsinin gələcək məqsədi geniş fənn spektri yaratmaq, qabaqcıl elmi nailiyyətlərə yiyələnmək, ali məktəbdən sonrakı təhsili, müdafiə tədqiqatlarını gücləndirmək, həyat haqqında elmlərə daha böyük diqqət ayırmaq və bəşəriyyətə yüksək zəkaya malik şəxsiyyətlər bəxş etməkdir.

## AVSTRALİYADA TƏHSİL

Avstraliya təhsil sistemini şərti olaraq beş əsas sektora bölmək olar:

1) İbtidai və orta məktəblər.

2) ELICOS (English Language Intensive Courses for Overseas Students) sisteminin dil tədris müəssisəsələri.

3) Hökumətin TAFE (Technical and Futher Education) sistemi institutları və özəl peşə təhsil müəssisələri tərəfindən həyata keçirilən peşə təhsili və hazırlığı.

4) Universitetlərin hazırlıq şöbələri.

5) Universitetlər (ali təhsil).

Xarici ölkələrdən Avstraliya məktəblərinə 1998-ci ildə 13878 nəfər qəbul olunmuşdur. Avstraliyada ibtidai və orta təhsil sistemi, dünyada ən yaxşı sistemlərdən biridir. Ölkə məktəblərində şagirdlərin fərdi xüsusiyyətlərinə, onların istedad və maraqlarına böyük diqqət yetirilir. Onlara göstərilən dəstək tədris prosesində şəxsi çatışmazlıqların mənfi təsirini azaltmağa imkan verir. Məktəb proqramı elə qurulub ki, hər şagirdin intellektual, ictimai, yaradıcı və karyera potensialı maksimum inkişaf etdirilə bilsin.

Ölkə məktəblərinin bir çoxu, avstraliyalıların və daimi sakinlərin nominal dəyərlə tədrisini həyata keçirən dövlət məktəbləridir. Orta təhsil müəssisələrinin təqribən dörddə biri özəldir, onlarda təhsil haqqı tam ödənilir. Özəl məktəblərin əksəriyyəti müxtəlif dini qurumlarla bağlıdır. Özəl fondlardan maliyyələşdirmələr də olur. Ölkədə Katolik Təhsil Komissiyası tərəfindən rəhbərlik edilən çoxlu sayda özəl katolik məktəbləri vardır.

Avstraliyada 6 yaşdan 15 yaşadək uşaqların məktəbə getməsi icbaridir. Lakin məktəb təhsilinə 6 yaşdan əvvəl başlamaq və 15 yaşdan sonra davam etmək olar. Avstraliyada və xarici ölkələrdə tədris arasında müəyyən analogiyalar vardır. Öz ölkəsində orta məktəbin dördüncü sinfini bitirən şagird, belə görünür ki, Avstraliyada 5-ci sinifdə oxumağa hazırdır. Lakin bir zox hallarda əlavə bir il lazım olur ki, məktəbli Avstraliya şərtlərinə və ingilis dilində təhsilə uyğunlaşa bilsin.

**Avstraliya təhsil sistemi aşağıdakı pillələrdən ibarətdir:**

İbtidai təhsil (1-ci sinifdən 6-cı və ya 7-ci sinfədək).

Orta təhsil (7-8-ci sinifdən 12-ci sinfədək).

Natamam kollec (7-8-ci sinifdən 10-cu sinfədək).

Tam orta məktəb və ali kollec (11-ci və ya 12-ci siniflər).

Avstraliyanın müxtəlif ştatlarında ibtidai siniflərin strukturları fərqlidir. Birində ibtidai sinifdə oxumaq 6 il, o birində 7 il davam edir. Bəzi ştatlarda

ibtidai təhsildən əvvəl uşaq bağçasına və hazırlıq kurslarına gedirlər. İbtidai məktəbdə bu fənlər öyrədilir: ingilis dili, riyaziyyat, ictimai və təbiət elmləri, incəsənət (musiqi, təsviri sənət, əl əməyi və səhnə sənəti), bədən tərbiyəsi və şəxsi inkişaf. Yeni Cənubi Uels, Viktoriya ştatlarında, Avstraliya Paytaxt Ərazisində və Tasmaniyada orta məktəb təhsili 7-10-cu siniflər, Qərbi və Cənubi Avstraliyada, Kvinslend və Şimal Ərazilərində - 8-10-cu siniflərə aiddir. Onuncu sinifdən sonra şagirdlər yuxarı sinif şagirdləri sayılır. Müxtəlif ştatlarda yekun qiymətlərinin çıxarılma prosedurları fərqlidir: ya bütün təhsil müddəti ərzində nümayiş olunan akademik nəticələrə əsaslanır, ya da cari məktəb qiymətləri və buraxılış imtahanlarının nəticələrinin kombinasiyasından ibarətdir. Dövlət və özəl ali təhsil müəssisələrinə daxilolma haqqında məsələ məktəbdəki müvəffəqiyyətin əsasında həyata keçirilir. Avstraliya məktəblərində tədris ili dörd yerə bölünür (hər biri 12 həftə), yanvarın sonunda başlanır və dekabrın əvvəlində bitir.

**İngilis dili kursları:** Xarici tələbələr üçün intensiv İngilis dili kursları ELICOS xaricdən çoxlu sayda tələbələr cəlb edir. Bunlardan bəziləri işgüzar ünsiyyət və ya təhsil məqsədləri üçün öz ingilis dilini təkmilləşdirmək istəyir, bəziləri isə Avstraliyada yaşadığı zamanı özü üçün öyrənmək istəyir.

Məşğələlərin başlanma günü və tədrisin davamiyyəti kursun xarakterindən və təyinatından asılıdır. Universitetləri kollec və orta məktəblərlə müqayisə etdikdə orada ingilis dili kursları tez-tez, adətən, ayda bir dəfə keçilir. Çoxlu sayda universitetlər, TAFE institutları və özəl professional kolleclər ingilis dilinin tədris edildiyi şöbələrə malikdir. Avstraliyada yüzdən çox dil tədrisi mərkəzi var, bunlar bütün mərkəzi şəhərlərdə, bir çox periferiyalarda və hətta kənd yerlərində də var. Universitetlər və TAFE institutlarından fərqli olaraq bir çox ingilis dili kursları qəbul zamanı abituriyentlərə heç bir spesifik tələb müəyyən etmir. Abituriyentlər testləşdirmədən keçir və o dil bilmə səviyyəsinə müvafiq olan qrupa daxil olunur. Avstraliyada tədrisin keyfiyyətinə və ingilis dilinin tədris mərkəzlərinin təchizat səviyyəsinə və əcnəbi tələbələr üçün intensiv ingilis dili kurslarının Milli Akkreditasiya Sistemi üzərində qurulmuş nəzarət sistemi vardır. Müəyyən edilmiş qaydaya görə ingilis dili kursları təqdim edən tədris müəssisələri dövlət qeydiyyatından keçməlidir. Beləliklə, xarici tələbələrə dilin tədrisinə görə məsul olan təhsil sektoru və Avstraliya hökuməti müştərək işləyir ki, təqdim olunan proqramlar beynəlxalq standartlara müvafiq olsun.

Dil tədrisi müəssisələri dörd başlıca kateqoriyaya bölünən kurslar təklif edir:

Əsas ingilis dili.

İxtisaslaşmış ingilis dili (akademik məqsədlər, işgüzar ünsiyyət və s.).

Tətil zamanı ingilis dilini öyrənmək (dil tədrisini turizmlə uzlaşdırmaq).

İmtahana hazırlıq (TOEFL və ya IELTS).

İngilis dili kurslarında tədris həftəsi bir qayda olaraq 25 saatlıq məşğələlərdən ibarətdir. Onların 20 saatında tələbələr siniflərdə məşğul olur, 5 saatı ilə müəllimlərin rəhbərliyi altında sərbəst çalışmalara həsr olunur. Kursların davamiyyəti akademik planlardan və tələbələrin qabiliyyətlərindən asılıdır və bir qayda olaraq 4 həftədən 10 həftəyədək davam edir.

Peşə təhsili, TAFE Dövlət Sistemi hazırlığı, Texniki və əlavə təhsil. Texniki və əlavə təhsilin Avstraliya Sistemi, milli peşə təhsili və hazırlıq sisteminin dövlət sektorudur. Dövlət sektoru ilə yanaşı bu istiqamətlərlə özəl tədris müəssisələri də vardır. TAFE, ölkədə məktəbdən sonra təhsil verən ən böyük təhsil birliyidir. 1998-ci ildə bütün ölkədə bir milyondan çox tələbə 250 TAFE institutuna qəbul olunmuşdur və onlardan 37328 tələbə xarici ölkələrdən gəlmişdi. TAFE proqramları müxtəlif səviyyələrdə peşə dərəcəsi almağa imkan verir. İnstitutların bir çoxu orta məktəblərin yuxarı sinif kurslarını da cəlb etməklə, Avstraliya təhsil sferasının bu sektorunu təklif edilən proqramların rəngarəngliyinə görə ən böyük sferaya çevirir.

TAFE proqramları sənaye və ictimai çevrələrlə əməkdaşlıqda işlənib hazırlanır və müasir tələblərə uyğundur. TAFE-nin verdiyi sertifikatlar və diplomlar bütün Avstraliya ərazisində tanınır, məzunları isə universitetə daxil ola bilər. Ali təhsil almağın belə bir yolu bakalavr dərəcəsi ilə yanaşı praktik sahədə də dərəcə almaq və ya praktik təlimdən sonra daha yuxarı pilləli proqramlara keçmək istəyənlər arasında geniş yayılır və məşhurlaşır. Bir çox TAFE institutları bu cür hallarda universitetlərlə müvafiq razılaşmalara malikdir. TAFE sistemində tədris ili fevralda başlanıb dekabrda qurtarır, ingilis dili kursları başqa vaxtlarda da başlana bilər. Tədris proqramları müxtəlif müddətlərə, bir neçə saatdan üç ilə qədər hesablana bilər. Siniflərdə oxuyanların sayı orta hesabla 15 nəfər olmalıdır və heç vaxt ondan yuxarı olmur. Tədris prosesində praktikaya və sinif məşğələlərinə çox böyük diqqət yetirilir, həm də mühazirə və praktik məşğələlərin uzlaşdırılmasına başqa universitet metodikası tətbiq edilə bilər. Müvəffəqiyyət dərəcəsi, bir qayda olaraq, yazılı yoxlama işlərin nəticələrinə, sinifdəki fəaliyyətinə, məşğələlərdəki nəticələrə və qısa testlərin yekunlarına görə qiymətləndirilir.

Avstraliya peşə təhsili və hazırlığı sistemində təlim nəticəsində alınan dərəcə sertifikatla, diplomla və ya elmi dərəcələrlə (müvafiq universitetlə əlaqə vasitəsilə) yoxlanılıb təsdiqlənir. Universitetlər və TAFE institutları tərəfindən verilən diplomlar arasında analogiyalar vardır.

Peşə təhsili sistemində bakalavr dərəcəsinin alınması bir qayda olaraq, minimum bir il TAFE-də və daha iki il müəyyən bir universitetdə oxumağı tələb edir. Belə bir proqramla təhsil almaq üçün onikiillik Avstraliya orta təhsilini almaq və ya xaricdə buna bənzər kurs bitirmək lazımdır.

Ali təhsil diplomu (Advanced Diploma) almaq üçün kurslar bir çox sahələrdə peşə istiqamətində işləmək üçün verilir. Qəbul olunmaq üçün tam orta (onikiillik) və ya ekvivalent təhsil tələb olunur. Təhsil müddəti, adətən, 3

ildir. TAFE diplomuna müvafiq olan diplomu elektronika, sənaye, tikinti və memarlıq, biznes kimi sahələrdə orta texniki və idarəetmə müəssisələrində işləmək üçün mütəxəssislərə verilir. Təhsil müddəti bir ildən iki ilə qədərdir. Müxtəlif dərəcəli (I-IV) TAFE sertifikatları alanlar müxtəlif sahələrdə peşə vəzifələrini yerinə yetirmək üçün lazım olan xüsusi biliklərə və səriştələrə malik olur. Bu kurslar altı aydan iki ilə qədər davam edə bilər və sonra daha yüksək təhsil pilləsini davam etdirə bilərlər.

Özəl peşə təhsili müəssisələri. Özəl peşə təhsili müəssisələri də diplom və sertifikatlar səviyyəsində tələbələrə müxtəlif sahələrdə işləmək üçün praktik səriştələr verən çoxlu sayda təhsil proqramları və kursları təklif edir. Özəl kolleclər Avstraliya hökuməti tərəfindən xarici tələbələrə tədris kursları və proqramları təklif edən tədris müəssisəsi kimi qeydə alınmışdır. Onlar öyrənmək üçün fənlərin geniş çevrəsini: kompyuter və informasiya texnologiyaları, dizayn, pilot hazırlığı, menecment, mehmanxana və restoran işi və turizm, marketinq və katiblik işi təklif edir. Bir çox böyük kolleclərdə ingilis dili bölməsi vardır.

Özəl peşə təhsili müəssisələri sahəsinə və tələbələrin sayına görə (50-dən 500 nəfərə qədər) xeyli fərqlənir. Siniflər, bir qayda olaraq, böyük deyil və bir müəllimə 20 tələbədən çox düşmür. Hər bir tədris müəssisəsi abituriyentlərə irəli sürülən tələbləri, kursların məzmun və davamiyyətini və məşğələlərin başlanma günlərini özü müəyyən edir. Peşə kolleclərində, TAFE sistemində olduğu kimi, diplom və sertifikat almağa imkan verən proqramlar təklif edirlər. Diplom almaq üçün tədrisin davamiyyəti, adətən, 40 həftədən çox (1 tədris ili), sertifikat almaq üçün isə 12 həftədən 30 həftəyədək ola bilər. Özəl kolleclər MBA (işgüzar inzibatçılıq magistri) proqramı üzrə təhsil almaq imkanı vermir, lakin bəzi kurslar bir sıra fənlərin və ya tədris ilinin zaçotu ilə ali təhsil müəssisəsinə daxilolma üçün aralıq vasitə ola bilər.

Universitetlərin hazırlıq proqramları. Universitetlərin hazırlıq proqramları xarici tədris müəssisələrində alınmış orta təhsillə, Avstraliyada universitet təhsili arasında aralıq pillədir. Bu proqram xarici abituriyentlərə tələbə həyatına asanlıqla keçid üçün zəruri olan bilik və vərdişlər verir. Universitetlərin hazırlıq şöbələrində təhsil, adətən, bir il davam edir. Bir sıra universitetlərdə bakalavr dərəcəsi və ya diplom almaq üçün kurslarda hazırlaşdırırlar. Proqramın yerinə yetirilmə müddətində və universiteti bitirdikdə tələbələr imtahanları testlə vermir. Tələbələrin bilikləri bilavasitə müəllim tərəfindən qiymətləndirilir.

Hazırlıq şöbəsinin tələbələrini onların universitetdə gələcək ixtisaslaşmalarına (biznes, humanitar elmlər və incəsənət, kompyuter və informasiya texnologiyaları, təbiət və mühəndislik elmləri), ümumi akademik hazırlığına və ingilis dilini bilməsinə müvafiq gələn qrup birləşmələrinə yazırlar. Tədris sistemi universitet tədrisinə bənzəyir. Universitetdə olduğu kimi, dinləyicilər bir sıra əsas (baza) fənləri keçir, bir hissəsi isə fənləri müstəqil olaraq seçir, mühazirələr tələbələrin böyük qrup birləşmələri üçün, praktik məşğələləri isə kiçik

yarımqruplar üçün keçilir. Hazırlıq şöbəsinin məqsədi ondan ibarətdir ki, universitet ilk andan tələbələr üçün əsas kursda yeni hazırlıq əldə etmiş olur.

Konstitusiyalı monarxiya olan Avstraliya İttifaqı altı ştatdan ibarət federativ dövlətdir. Təhsil və elmi-tədqiqat sahəsinə xüsusi diqqət ayıran Avstraliyada mövcud olan məktəblərin yarandığı tarix 200 il əvvələ təsadüf olunur. İlk məktəblər Yeni Cənubi Uelsdə təşəkkül tapıb. XIX əsrin ortalarından ilk universitetlər fəaliyyətə başlayıb. Erkən uşaqlıq təhsili və ilkin məktəbəqədər təhsil müəssisələri isə daha gec inkişaf edib.

XIX əsrin sonlarında Avropa səyyahlarının və ictimai siyasi baxımdan fəal şəxslərin təşəbbüsü ilə dünya təhsilində baş verən yeniliklər Avstraliyada tətbiq olunmağa başlandı. Bu məqsədlə müvafiq komissiya yaradıldı.

Müasir dövrdə ölkənin təhsil siyasəti daha güclü və ədalətli Avstraliyanın qurulmasına xidmət edir. Bu siyasət iqtisadi inkişafa, səmərəliliyə və yüksək səviyyəli cəmiyyət quruculuğuna təkan verir və regionda Avstraliyanın lider rolunu daha da artırır.

Məktəbəqədər təhsil müəssisələri, əsasən, dövlət və ərazi hökumətləri tərəfindən idarə olunur. Viktoriya, Cənubi Avstraliya və Yeni Cənubi Uelsdə isə yerli şuralar, özəl təşkilatların icma qrupları məktəbəqədər təhsil müəssisələrini idarə edirlər. Məktəbəqədər təhsil müəssisələrinə 3-5 yaşlı uşaqlar cəlb edilir. Ştatlardan asılı olaraq, məktəbəqədər təhsil müəssisələrinə uşaqların cəlb olunma faizi fərqli olsa da, bu göstərici təxminən 85,7 faizə bərabərdir.

2008-ci ilin statistik məlumatlarına görə, ölkə üzrə məktəbəqədər təhsil müəssisələrində, ibtidai və orta təhsil pillələrində təhsil alanların ümumi sayı 3,7 milyon nəfərdən çox olub.

Avstraliya hökuməti təhsil islahatlarını həyata keçirərkən insanların bilik və bacarıqlarının inkişafı, innovasiyalara əsaslanan iqtisadiyyatın tələblərinə cavab verən mütəxəssislərin yetişdirilməsi məsələlərini prioritet istiqamətlər kimi önə çəkir. Bu baxımdan xalqın müəyyən bir qismi üçün deyil, hamı üçün bərabər təhsil imkanlarının yaradılması təhsil sisteminin əsas hədəfidir.

Ölkədə ali təhsil, əsasən, Böyük Britaniya təhsil sisteminə əsaslanır. Ali məktəblər yüksək təhsil keyfiyyəti ilə seçilir, tələbələrin müstəqilliyi və elmi-tədqiqatlara istiqamətləndirilməsi ilə xarakterizə edilir.

Həm də inkişaf etmiş ölkələrdə olduğu kimi, Avstraliyada da yaşlıların təhsilinə xüsusi önəm verilir. Təhsil, Elm və Təlim Departamenti dövlət və özəl müəssisələr tərəfindən maliyyələşən təhsil kursları vasitəsilə yaşlıların bilik və bacarıqlarının inkişaf etdirməsinə şərait yaradır.

Avstraliyanın bir sıra ştatlarında məktəbəqədər təhsil icbari xarakter daşımır. Uşaqlar, əsasən, qayğı mərkəzləri və ya valideynlərin təşkil etdiyi oyun qruplarında təhsil alır. Bu, rəsmi məktəbəqədər təhsil hesab olunmur.

Ölkənin bəzi ərazilərində məktəbəqədər təhsil ibtidai təhsildən ayrıdır. Qərbi Avstraliya və Kvinslend ştatlarında isə məktəbəqədər təhsil ibtidai təhsilin bir hissəsidir.

Avstraliyada erkən uşaqlıq dövründə uşaqların hərtərəfli inkişafına xüsusi diqqət yetirilir. Odur ki, məktəbəqədər təhsilin icbari olmadığı ştatlarda da uşaqların qayğı mərkəzlərinə verilməsi geniş yayılıb. Bütün bunlar məktəbəqədər təhsil əsasnaməsi ilə tənzimlənir.

Məktəbəqədər təhsil kurikulumlarında uşaqların hərtərəfli formalaşması, onların düzgün inkişafı üçün müxtəlif oyunlar zəruri vasitə kimi istifadə edilir. Tədqiqat vasitəsilə öyrənmə, məşğuliyyət, sorğu-sual, araşdırma, praktik həyat təcrübələri və problemi həll etmə imkanlarının yaradılması kimi məsələlər də məktəbəqədər təhsilin əsas istiqamətlərindəndir.

Erkən uşaqlıq dövrünə dair kurikulumlarda uşaqların oxu və riyazi bacarıqlarının inkişafı xüsusi yer tutur. Bu, yalnız uşaqların məktəbə hazırlıq dövrü üçün çərçivə sənədi hesab olunur.

Avstraliyada ibtidai təhsil icbaridir. Ştatların və ərazinin qanunvericiliyinə uyğun olaraq ibtidai təhsil 5-6 yaşdan 15-17 yaşa qədər olan dövrü əhatə edir. Şagirdlərin təxminən 65 faizi dövlət məktəblərində, 34 faizi isə katolik və ya özəl məktəblərdə təhsil alır.

Ölkədə icbari təhsilin yaranması XIX əsrin ikinci yarısına təsadüf edir. Avstraliya vətəndaşları üçün dövlət məktəbləri pulsuzdur. Katolik və özəl məktəblərdə isə təhsil pulludur. Bu təhsil müəssisələrində dərs ləvazimatları, məktəbli formaları, məktəb düşərgələri üçün və digər xərclər valideynlərin üzərinə düşür. Katolik və özəl məktəblərdə birillik təhsil xərci təxminən 300-350 Avstraliya dolları arasında dəyişir.

Tipindən asılı olmayaraq, bütün məktəblərdə eyni kurikuluma əməl olunması tələb oluna bilər. Tədris proqramlarında dünyəvi fənlər əsas yer tutsa da, həm də dini fənlərin tədrisi mümkündür. Məktəblərin çoxunda vahid məktəbli formasından istifadə olunur.

Avstraliyada müxtəlif orta məktəblərdə müəyyən seçmə fənlər tədris edilir. İbtidai və orta təhsil dövrü birlikdə 12 il davam edir. Orta təhsil pilləsini başa vuran məzunlara dövlət tərəfindən attestat verilir. Bu sənəd Avstraliyanın bütün universitetləri və peşə məktəbləri tərəfindən tanınır, həm də xarici ölkələrin bir sıra universitetləri tərəfindən də qəbul olunur.

Orta təhsil müəssisəsinin 90 faizində standart orta məktəb kurikulumundan əlavə olaraq, peşə təhsili də verilir. Orta təhsil səviyyəsində tədris olunan əsas fənlərə ingilis dili, riyaziyyat, ictimaiyyət və ətraf mühit, təbiət elmləri, texnologiya, tibb və fiziki tərbiyə fənləri daxildir. Orta məktəblər beşgünlük dərs həftəsi ilə işləyir və birnövbəlidir.

Bir sıra orta məktəblər kollec adlandırılır. Belə kolleclərdə tədris olunan proqramlar vasitəsilə məzunlar universitetlərə daxil ola bilər və ixtisas üzrə dərəcə ala bilərlər.

Avstraliyada 40 universitet və 350 kollec fəaliyyət göstərir. Universitet və kolleclərdə verilmiş diplomlar bütün dünyada tanınır.

Qeyd etdiyimiz kimi, ölkənin ali təhsil sistemi Böyük Britaniyanın ali təhsil sistemi ilə oxşardır. Tələbələrə tədris prosesində tam müstəqillik verilir və onların elmi-tədqiqatlara qoşulması üçün hər cür şərait yaradılır. Avstraliyada elmi-tədqiqatlara hər il böyük həcmdə dövlət vəsaiti ayrılır.

Ali məktəblər Dövlətin Təhsil, Elm və Təhsil Departamentinin nəzarəti altında fəaliyyət göstərir. Tədris proqramlarının müddəti 3-4 il, tibb təhsili 6 ildir. Ölkədə məşhur universitetlərə daha çox tələbat duyulur. Ölkə vətəndaşları üçün birillik təhsil xərci 14-21 min Avstraliya dolları arasında dəyişir.

Avstraliya universitetlərinə qəbul zamanı son iki ili ingilisdilli ölkələrdə təhsil alanlara üstünlük verilir. Əks halda, universitetlərin nəzdindəki kollecdə müvafiq proqram üzrə xüsusi kurs keçmək lazımdır.

Öz ölkəsində universitetin birinci və ya ikinci kursunu bitirən, 18 yaşı tamamlanmış tələbələr də İELTS imtahanında 6,5 bal toplayaraq Avstraliya universitetlərinin müvafiq kursunda oxuya bilər. Başqa ölkələrdə ali məktəbi bitirən şəxslər Avstraliyada təhsil almaq üçün diplomunu təqdim etməli və İELTS imtahanında ən azı 6,5 bal toplamalıdır. Bir çox hallarda MBA proqramı üzrə daxil olmaq istəyənlərdən 3-illik iş təcrübəsi tələb edilir. Əcnəbilər üçün təhsil haqqı 9-36 min dollar miqdarındadır. Onu da qeyd edək ki, Avstraliya ali məktəblərində təhsil haqqı bir çox inkişaf etmiş ölkələrdən xeyli aşağıdır.

Tələbələr həftədə 20 saatdan çox olmayaraq işləyə bilər. Ölkədə iki il yaşayan tələbə ilyarımlıq iş vizası, 5 il yaşayan isə daimi yaşayış vizası almaq imkanı qazanır.

Ali təhsilə yanaşmada hamı üçün bərabər imkanların yaradılması, təhsil haqqını ödəmə qabiliyyətinə görə deyil, bacarıq və biliyə əsasən universitetə qəbul, akademik muxtariyyət, elmi-tədqiqat sahələrinin genişləndirilməsi kimi prinsiplərə üstünlük verilir. Ali təhsildə adambaşına maliyyələşdirmə sistemi tətbiq olunur. Hökumət dörd ildən bir ali təhsil və tədqiqat sektoruna 5,4 milyon dollar məbləğində əlavə maliyyə vəsaiti ayırır.

Ölkənin daha xoşbəxt gələcəyinin təmin oluması baxımından ali təhsilin qarşısında bir sıra mühüm məqsədlər durur. Yüksək ixtisaslı mütəxəssislərin hazırlanması, çoxsaylı iş yerləri, ümumi inkişaf səviyyəsinin yüksəldilməsi məqsədi qəbul olunmuş əsas prinsiplərdir.

Ali məktəblər geniş ixtisas seçimi təklif edir. Avstraliyada 38 dövlət və 2 özəl universitet fəaliyyət göstərir. Bütün ölkə üzrə 180-dən çox universitet kampusu var. 340000 xarici tələbə hər il təhsil almaq üçün Avstraliyaya gəlir.

Avstraliyada müvəffəqiyyət göstərmiş məzunlara fərqlənmə ilə bakalavr dərəcəsi verilir. Bunun üçün daha bir il əlavə təhsil almaq lazımdır. Bu dərəcəyə sahib olan məzunlar növbəti təhsil proqramına daxil olarkən və ya işə düzələrkən bir sıra üstünlüklərdən istifadə edə bilər.

Magistratura proqramı üzrə təhsilin müddəti bakalavrlar üçün iki il və bakalavr təhsil pilləsini fərqlənmə ilə bitirənlər üçün isə bir il nəzərdə tutulub. Avstraliyada peşəkar ixtisaslaşdırma, dissertasiya müdafiəsi və dissertasiya müdafiəsi ilə birgə tədqiqat işini əhatə edən magistratura proqramları təklif olunur.

Ali təhsil piramidasının zirvəsində doktorantura proqramları durur. Doktorantura proqramları tədqiqat və kurs işindən ibarətdir. Üç illik tədqiqat işini müdafiə edən şəxs fəlsəfə doktoru dərəcəsi alır. Kurs işi isə tətbiqi xarakter daşıyır və daha çox araşdırmanın nəticələrinin həyata keçirilməsi ilə əlaqəlidir.

Ali təhsilin keyfiyyətinə nəzarət edən Ali Təhsilin Keyfiyyəti və Standartlar Agentliyi 2010-cu ildə yaradılıb. Bu qurumun 2013-cü ildən etibarən texniki peşə təhsili və təhsil təşkilatlarının da fəaliyyətinə nəzarət etməsi planlaşdırılır. Ali Təhsilin Keyfiyyəti və Standartlar Agentliyinin dördillik büdcəsi 57 milyard dollardır.

Hökumətin ali təhsil üzrə perspektiv inkişaf strategiyasına əsasən, 2025-ci ilə qədər 25-40 yaşında olan bütün əhalinin 40 faizi bakalavr və daha yüksək dərəcəyə malik olacaq. Bir qayda olaraq, ali təhsil müəssisələri ödənişli əsaslarla fəaliyyət göstərir. Buna baxmayaraq, bir çox tələbələrin maliyyə xərcləri dövlət tərəfindən ödənilir. Ali Təhsil Kredit Proqramına Dövlətin Təhsil, Elm və Təhsil Departamenti, eləcə də Vergi İdarəsi rəhbərlik edir.

Bundan başqa, xüsusi istedadlı tələbələr Gənclərə Yardım və Avstraliya Təhsil Ödənişi Xidmətinin imkanlarından istifadə edə bilər. Tələbələrə köməklik məqsədi ilə müvafiq təqaüdlər də ayrılır.

Avstraliyanın kolleclərində, əsasən, əmək bazarında tələb olunan peşə təhsili ilə bağlı proqramlar tədris olunur. Avstraliya kolleclərinin bəzilərində müəyyən elmi dərəcələr verilir.

Kollec adı altında bir sıra ali təhsil müəssisələri də fəaliyyət göstərir. Belə kolleclərə tibb və incəsənət məktəblərini misal göstərmək olar.

Xarici tələbələr yalnız ödənişli təhsil ala bilər. Onlar dövlətdən təhsil üçün kredit götürə bilməzlər. Lakin xarici tələbələr üçün bir sıra beynəlxalq təqaüd proqramları nəzərdə tutulur.

Ölkənin texniki peşə təhsili zəngin və tarixi ənənələrə malikdir. Texniki peşə təhsilinin yaranma tarixi XIX əsrin sonlarına təsadüf edir.

Peşə təhsili və təlimi istənilən yaşda olan ölkə vətəndaşlarını iş həyatına hazırlamaq, çalışan insanların bilik və bacarıqlarının təkmilləşdirilməsi məqsədlərinə xidmət edir. Texniki peşə təhsili orta və ali məktəblərdə oxuyanlara, eləcə də istehsalat sahələrində çalışanlara əlavə imkanların yaradılması baxımından olduqca əhəmiyyətlidir.

Son 20 ildə ölkədə peşə təhsili və təlimi üzrə iki milli strategiya həyata keçirilib. Bu isə dünya əmək bazarında Avstraliyanın fəallığının artırılması, texniki peşə təhsili sahəsində uğurlu nəticələrin əldə edilməsi, təhsil sahəsində dövlət investisiya qoyuluşunun stimullaşdırılması üçün əlverişli zəmin yaradıb.

Texniki ali məktəblərdə biznes və idarəetmə, dizayn və qrafika, ünsiyyət, istirahət, icma xidmətləri, sağlamlıq, turizm və turizm xidmətləri, bağçılıq və torpaqların idarə edilməsi, kompyuter sahəsində müxtəlif peşələr verilir.

Texniki peşə məktəblərində təhsil 4 aydan 36 aya qədər davam edir. Məzunlar birinci dərəcəli sertifikatı 4-6 aya, ikinci dərəcəli sertifikatı 6-8 aya, üçüncü dərəcəli sertifikatı 12 aya, dördüncü dərəcəli sertifikatı isə 12-18 aya ala bilər. Xüsusi diplomun alınması üçün 24-36 ay müddətində peşə tədris kursunda hazırlıq keçmək tələb olunur.

Avstraliyanın bir çox orta məktəblərində (təxminən 90 faiz) standart məktəb kurikulumuna uyğun peşə təhsili proqramları təklif edilir. Bu proqramlar çərçivəsində şagirdlərə müvafiq bilik və bacarıqlar aşılanır.

Avstraliyada elmi-tədqiqat sahələrinin inkişafına xüsusi diqqət göstərilir. Universitetlərin və digər müvafiq müəssisələrin elmi-tədqiqat fəaliyyətinə investisiya qoyuluşu prioritet məsələlərdən biri kimi qəbul olunub.

Ölkənin təhsil konsepsiyasının əsas komponentindən biri olan Təhsil İnvestisiya Fondunun əsas vəzifəsi Avstraliya iqtisadiyyatının inkişaf etdirilməsi üçün ali təhsildə tədqiqatı dərinləşdirməkdən, strateji cəhətdən kapital infrastrukturuna dəstək olacaq müasir, məhsuldar, rəqabətədavamlı və elmi əsaslar üzərində qurulmuş iqtisadiyyatın yaradılmasından ibarətdir. Təhsil İnvestisiya Fondu məqsədyönlü investisiyalar vasitəsilə gənc nəslin bilik, bacarıq və vərdişləri artırmaq, ölkənin yüksək elmi potensialı olan mütəxəssislərə tələbatını ödəmək, həmçinin Avstraliyanın innovasiya imkanlarını gücləndirmək baxımından ciddi uğurlara imza atıb.

Təhsil İnvestisiya Fondunun fəaliyyətinin səmərəliliyini artırmaq üçün 650 milyard dollar Davamlı İnkişafla bağlı vəsaitin ayrılması nəzərdə tutulub. Bu, ali təhsil mühitinin əsaslı şəkildə canlanmasına və yeni texnologiyaların tətbiqinə imkan verir.

2009-cu ildə ölkə hökuməti Dördillik Milli Texnologiyaya imkan yaradan strategiyanı qəbul edib. Bu strategiya nanotexnologiya və yeni texnologiyaların Avstraliyada daha geniş tətbiqi məsələlərinə təkan verir.

Təsadüfi deyil ki, elm sahəsində Nobel mükafatçıları sırasında bir sıra avstraliyalı elm xadimlərinin də adlarını çəkmək olar. Fizika üzrə Vilyam Lorens Braq (1915), fiziologiya və tibb sahəsində Frank Makfarlan Burnet (1960), kimya üzrə Con Kornfors (1975), fiziologiya və tibb sahəsində Peter Doherti (1996), fiziologiya və tibb üzrə Beri Marşal və Robin Varren (2005) Nobel mükafatına layiq görülüblər.

Ölkənin təhsil üzrə xarici yardım proqramları Avstraliya Beynəlxalq İnkişaf Agentliyi tərəfindən idarə olunur. Beynəlxalq əməkdaşlıq sahəsinə xüsusi diqqət ayıran Avstraliya İttifaqı Dünya Bankı və Avstraliya Beynəlxalq İnkişaf Agentliyi ilə birgə müxtəlif tədqiqat layihələrini maliyyələşdirir.

Avstraliyanın səkkiz universiteti ilə Almaniya Akademik Mübadilə Xidməti arasında səmərəli əməkdaşlıq yaranıb. İmzalanmış müqaviləyə əsasən,

Avstraliyanın səkkiz universitetindən olan tədqiqatçılar Almaniyanın tərəfdaş institutlarında tədqiqat işləri aparırlar. Hər iki ölkə 2012-2013-cü illərdə reallaşdırılacaq elmi-tədqiqat layihələrini birgə maliyyələşdiriblər.

Avstraliya təhsil sisteminin dünya miqyasında nüfuzunun nəticəsidir ki, ilbəil bu ölkənin ali məktəblərini seçən xarici tələbələrin sayı artmaqdadır. Statistik məlumatlara əsasən, 2007-ci ildə Avstraliya İttifaqında təhsil alan əcnəbi tələbələrin böyük əksəriyyəti Çin (107071), Hindistan (63604), Koreya (34674), Tailand (19987), Malayziya (19874), Honq-Konq (19742), Yaponiya (16077), İndoneziya (14919), Braziliya (12545) və ABŞ (11822) vətəndaşlarından ibarət olub.

Son illər Avstraliya İttifaqı və Azərbaycan arasında da təhsil sahəsində əlaqələrin uğurlu inkişafı müşahidə olunmaqdadır. Azərbaycan gənclərinin xaricdə təhsil almaları məqsədi ilə seçilmiş ali təhsil müəssisələrinin siyahısına 21 qabaqcıl Avstraliya universiteti daxil edilib.

Bu gün Avstraliyada 10 minə yaxın məktəb, 300-dən çox dövlət kolleci və 40 universitet var, onlardan ikisi özəldir. Bütün tədris müəssisələri: həm dövlət, həm də özəllər nəzarət altındadır. Təhsil Nazirliyi dövlət standartlarına riayət edir və təhsilin yüksək keyfiyyətinə qarantiya verir. Avstraliya məktəblərində 3 milyondan çox şagird oxuyur. Təkcə Yeni Cənubi Uels ştatında 2200 məktəb var. Dövlət məktəbləri 71 faiz təşkil edir, qalanları isə özəldir. Tiplərinə görə məktəblər yalnız oğlanlar və qızlar üçün iki yerə ayrılır. Orta hesabla ölkədə müəllim və şagird nisbəti 1:15 təşkil edir. Ştatdan asılı olaraq təhsil sistemində bəzən müəyyən fərqlər olur. Orta hesabla Avstraliya uşaqları məktəbə altı yaşında gedir. Onlar 12 yaşadək orta təhsilin birinci, 16 yaşadək ikinci, 18 yaşadək üçüncü (11-12-ci siniflər) pilləsində oxuyur. Ümumi təhsil 12 illiyə hesablanmışdır, məhz buna görə də Rusiya orta təhsil attestatı Avstraliya attestatına ekvivalent sayılır.

Məktəbdə ingilis dili, riyaziyyat, ictimaiyyət və təbiət elmləri, incəsənət (musiqi və rəsm daxil olmaqla) öyrədilir. Buraxılış siniflərində öyrənilən fənlərin dairəsi bir neçə fənnə qədər daralır və istiqamət seçimi şagirddən asılıdır. Məktəblər idmana və şəxsiyyət tərbiyəsinə böyük diqqət yetirir.

Avstraliya məktəblərində xarici şagirdlər, demək olar ki, İngiltərə məktəblərindəki kimi o qədər də çox deyil - onlar 5 faizə yaxın təşkil edir (təqribən 15 min nəfər). Xaricdən Avstraliyaya gələn uşaqlara daha çox məktəb-pansionlar əlverişlidir. Xarici tələbələrin bir çoxu iki sonuncu buraxılış siniflərində cəmlənmişdir. Onların məqsədi orta təhsil haqqında Avstraliya attestatı almaq və universitetə daxil olmaqdır. Avstraliyada orta təhsil almaq arzusunda olan xarici şagirdə müstəqil şəkildə və ya vasitəçi təhsil agentliyinin köməyi ilə məktəblə razılığa gəlməli, göndərilmiş anketi doldurmalı və ölkəsinin məktəbində aldığı qiymətlər barədə arayışı yola salmalı, ingilis dilini bilmə testindən keçməlidir. Ən nüfuzlu məktəblər bəzən əsas fənlər üzrə testlərdən keçməyi də tələb edir.

Avstraliya kollecləri geniş spektr üzrə istiqamətlərini həyata keçirir. Kolleclər dövlət və özəl kolleclərə bölünür. TAFE-də birləşdirilən dövlət kollecləri daha nüfuzlu sayılır.

Kollecin eynitipli təklifləri özündə biznes, menecment, marketinq, mühasibat uçotu, informasiya texnologiyaları, kargüzarlıq, dizayn, turizm və mehmanxana menecmentini birləşdirir. Təhsil qabarıq praktik yönümə malikdir. Bir sıra ixtisaslar üzrə praktika keçmək olar (çox halda ödənişli). Qrup orta hesabla 15 şagirddən ibarət olur. Tədrisin davamiyyətindən asılı olaraq, sertifikat (I, II, III və ya IV dərəcəli) və ya adi yaxud yüksək səviyyəli diplom almaq olar. Sertifikat almaq üçün təhsil müddəti 15-52 həftədir. Bu müddət ərzində dinləyicilər aşağı vəzifələrdə (məsələn, restoranda və ya mehmanxana barında) peşə fəaliyyəti ilə məşğul olmağa imkan verən zəruri hazırlığa malik olur. Avstraliya kolleclərinin gözəlliyi ondan ibarətdir ki, onların tələbələri bir proqramdan digərinə imtahansız keçmək imkanına malikdir. Məsələn, kollecin dil kurslarına daxil olub, sonra II dərəcəli sertifikat almağa aparan peşə proqramına keçmək olar. Təhsilini davam etdirmək istəyənləri diplom almağa, daha sonra bakalavr dərəcəsi almağa aparan proqram gözləyir. Bununla yanaşı, tərəfdaş universitetin ikinci və hətta üçüncü kursuna keçmə imkanları da vardır. Beləliklə, kolleclərdə peşə proqramları universitetə gedən yollardan biridir.

Kollecin əlahiddə bir növü ixtisaslaşmış turizm və mehmanxana menecmenti məktəbləridir. Burada otellər, restoranlar, turizm firmaları üçün məqsədyönlü kadr hazırlığı həyata keçirilir. Məktəblər dəqiq şəkildə peşə səriştələrinə yiyələnməyə istiqamətlənmiş və praktik məşğələlərin böyük həcmini nəzərdə tutan tədris təklif edir. Tələbələr praktikanı oteldə işləməklə keçir və bir çox hallarda öz zəhmətlərinə görə pul mükafatları alırlar.

Daxilolma tələbləri bunlardır: orta təhsil attestatı; 18 yaşdan yuxarı olmaq; ingilis dilini TOEFL üzrə 500-550 bal səviyyəsində və İELTS üzrə 5,0-6,0 bal səviyyəsində bilmək.

İngilis dili bölməsinə malik olan kolleclər daha aşağı göstəriciləri (məsələn, TOEFL üzrə 530 və ya hətta 500 bal səviyyəsi) olan iddiaçıları da qəbul edə bilər, sonra isə əlavə ingilis dili məşğələlərində onların biliklərini tez bir zamanda tələb edilən səviyyəyə qaldırırlar.

Bu ölkənin ən cəlbedici xüsusiyyətlərindən biri onun ingilislərdən irsən qəbul edilmiş gözəl təhsil sistemidir. Avstraliya kollecləri və universitetləri yüksək akademik göstəricilərə malikdir, Amerika və Avropa göstəriciləri ilə yanaşı dayanır, təhsil haqqı isə xeyli az ödənilir.

Avstraliya, xəritədə bir çox baxımdan qeyri-adi bir yerdir. Bu, yeganə bir dövlətdir ki, bütöv bir qitənin ərazisini tutur. Burada başqa heç yerdə rast olmayan heyvanlar dolaşır, bitkilər və ağaclar bitir. İqlim şəraiti isə eyni bir gündə dağ xizəyində sürüşməyə və çimərlikdə üzməyə imkan verir. 1606-cı ildə hollandiyalı Villem Yanszon tərəfindən kəşf edilən bu torpaq 1770-ci ildə

Britaniyanın müstəmləkəsi elan edilmişdir. Ölkənin təhsil sistemi ingilis təhsil sistemi baxımında formalaşmış, onun ən yaxşı keyfiyyətlərini qəbul etmişdir. Ona ən ciddi diqqət yetirilmiş, nəticədə bu gün Avstraliya təhsilin səviyyəsinə görə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələri arasında üçüncü yeri və oxuyanların sayına görə ikinci yeri tutur. Onun yaşlı əhalisinin 31 faizinin ali təhsili vardır.

Cəmi 19 milyon insan yaşayan bir ölkə üçün Avstraliya təhsil sistemi son dərəcə inkişaf etmiş sayılır. Bu sistem 40 universitetdən, 287 dövlət kollecindən, həm də xeyli sayda dövlət və özəl məktəblərdən ibarətdir. Ölkənin ən qocaman universiteti olan Sidney Universiteti 1851-ci ildə təsis edilmişdir. Yeni Cənubi Uels Universiteti, Melburn Universiteti, Kvinslend Universiteti, Avstraliya Milli Universiteti, Adeliada Universiteti və Monaş Universiteti də ölkənin ən mötəbər universitetləri sırasına daxildir. Dövlət və özəl universitetlərinin ən böyük seçimini ölkənin iki ən böyük şəhəri olan Sidney və Melburn təşkil edir.

Avstraliya universitetləri Sakit Okean bölgəsində aparıcı mövqelər tutur və yüksək beynəlxalq mövqeyə malikdir. Onların diplomları bütün dünyada tanınır. Avstraliya alimləri rentgen kristalloqrafiyası, beynin immunologiya və fiziologiyası üzrə işlərə görə Nobel mükafatları almışdır. Onlar gen mühəndisliyi, biotexnologiyalar, farmatsevtika, telekommunikasiyalarda liderdir.Avstraliya Milli Universitetinin professoru Qrem Laver bu gün üçün qripə qarşı ən effektiv vaksin ixtira etmişdir. Yeni Cənubi Uels Universitetinin iki alimi: Martin Qrin və Stüart Uenam isə günəş batareyalarının texniki baxımdan ən mükəmməl konstruksiyalarını işləyib hazırlamışdır.

Avstraliya universitetlərinin tədris proqramlarının çox hissəsi öz keyfiyyətinə görə Amerika və Britaniya proqramlarından geri qalmır. Bütün tədris kurslarının praktik yönümü vardır. Tələbələrin öz maraqlarından asılı olaraq onları kombinasiya etmək imkanları vardır.

Hər il xaricdən 150 mindən çox tələbə Avstraliyaya oxumağa gəlir. Bir çoxları bu ölkəni həm də ona görə seçirlər ki, gözəl iqlimi ilə fərqlənir (orta temperatur Selsi ilə +21) və müxtəlif idman növləri ilə, o cümlədən vindserfinq və sualtı üzgüçülüklə məşğul olmaq üçün gözəl şərait var.

Avstraliya mühacirlər ölkəsidir, ona görə də burada əcnəbilərə xeyirxahlıqla yanaşılır. Bakalavr tədris proqramları təhsilin istiqamətindən asılı olaraq 3-4 illiyə hesablanmışdır. İkinci təhsil almağa aparan proqramlar get-gedə daha çox populyarlaşır, onlarda xeyli çox, 4-6 il oxumaq lazımdır. Magistr dərəcəsi almaq üçün 1-1,5 il tələb olunur. Nəhayət, elmlər doktoru dərəcəsi isə üç il tədris müddətindən ibarətdir.

Bakalavr pilləsində təhsilin ödənişi 11,5-26 min Avstraliya dolları təşkil edir. Bu, Böyük Britaniya ilə müqayisədə xeyli ucuzdur. Məsələn, Avstraliyada informasiya texnologiyalarının öyrənilməsi 5,5-8 min Amerika dollarına, Böyük Britaniyada isə 12500-13500 dollara başa gəlir.

Təhsil haqqı ilə yanaşı, yemək, yaşayış yeri, viza, sığorta, bilet və sair xərcləri əlavə olaraq ildə 8000 dollara yaxın olur. Avstraliya hökumət qaynaqlarının gətirdikləri rəqəmə görə, bu ölkədə tələbə ildə yemək və yaşayış yerinə görə Böyük Britaniyada olduğundan 23 faiz az pul sərf edir. Ölkədə əsas qida məhsullarının qiymətləri Avropa ilə müqayisədə ikiqat aşağıdır.

Yarım il və daha çox müddətə gələn xarici tələbələrə oxuduqları müddətdə həftədə 20 saata qədər, həm də ancaq kampus ərazisində olmamaqla, istədikləri yerdə işləyib əlavə pul qazanmalarına icazə verilir. Bir qayda olaraq tələbələr kafe, restoran və mağazalarda özlərinə iş tapırlar.

Təhsili başa vurduqdan sonra Avstraliyada stajirovka keçmək mümkündür. İnformasiya texnologiyalarını öyrənən tələbələr ixtisasları üzrə iki ilə qədər müddətdə praktika keçə bilər. Universitet diplomu almış xarici tələbələr bu ölkədə yaşamaq üçün icazə almaq hüququna malikdir.

Son zamanlar bəzi Avstraliya universitetləri məktəbi əla bitirmiş nüfuzlu ölkələrin məzunlarını dərhal birinci kursa qəbul edirlər. Lakin bəzən Avstraliya universitetlərinin qəbul komissiyaları bu ölkələrin attestatını bir çox Avstraliya attestatına ekvivalent saymır. Ona görə də universitetə daxil olmaqdan ötrü əlavə olaraq Avstraliya məktəbində (dəqiq deyilsə, onun buraxılış siniflərində) ya hazırlıq şöbəsində, yaxud TAFE sistemi kollecində professional diplom proqramlarında oxumaq lazım gəlir. Nəhayət, Rusiya ali məktəbində ingilis dili ilə gücləndirilmiş qaydada məşğul olmaqla, yarım il və ya bir il oxumaq, sonra isə Avstraliya ali məktəbinin birinci kursuna keçmək olar.

Avstraliya kollecləri və universitetləri arasında sıx əlaqələr qurulub və adətən, TAFE diplom proqramında oxumağı başa vurub hez bir çətinlik olmadan tərəfdaş-universitetin ikinci və hətta üçüncü kursuna daxil olmaq mümkündür. Həm də kolleclərin son kursuna ingilis dili kurslarından köçürülmək olar, onlarda ümumiyyətlə qəbul tələbləri mövcud deyil. Müvafiq olaraq hazırlıq şöbəsi proqramının uğurla başa vurulması birinci kursda oxumağa zəmanət verir.

Adətən, kolleclərə və universitetlərə daxil olmaq üçün attestatın olması və ingilis dilini yaxşı bilmək (IELTS üzrə 6,5 bal və ya TOEFL üzrə 580 bal səviyyəsində) tələb olunur. Tələbə vizası alınması üçün tam tədris kursunun haqqını ödəmək və icbari tibbi sığorta lazımdır.

**Avstraliya Milli Universiteti (Australian National University).** Avstraliya Milli Universiteti Avstraliyanın ən nüfuzlu və tanınmış dövlət ali məktəbidir. Universitet Avstraliyanın paytaxtı Kanberra şəhərində yerləşir. Avstraliya Milli Universiteti Avstraliyanın ən nüfuzlu səkkiz ali təhsil müəssisəsini cəmləşdirən "Səkkizlik qrupu"na, "Sakit Okean Regionu Universitetləri", "Astronomiya Tədqiqat Universitetləri" assosiasiyalarına və "Beynəlxalq Tədqiqat Universitetləri İttifaqı"na daxildir. 2009-cu ildə aparılan dünya universitetlərinin reytinqinə əsasən, Avstraliya Milli Universiteti 100 ən yaxşı ali

məktəb arasında 17-ci yerdə sıralanıb. Avstraliya universitetləri üzrə aparılan reytinqə görə, Avstraliya Milli Universiteti hər il birinci yerdə yerləşir.

II Dünya müharibəsindən sonra Avstraliya dövlətinin rəhbərliyi ölkənin həyatında əhəmiyyətli dəyişiklik etmək, dövlətin imicini formalaşdırmaq, qonşu dövlətlərlə əlaqələri və iqtisadi inkişafı gücləndirmək məqsədilə universitet yaratmaq qərarına gəlir. 1 avqust 1946-cı ildə Avstraliya Federal Parlamenti Avstraliya Milli Universitetinin yaradılması haqqında qərar qəbul edir və universitet Avstraliyada Federal Parlament tərəfindən yaradılan yeganə ali məktəb olur. Yarandığı gündən universitetdə Avstraliyanin dünyada tanınmış alimləri çalışmağa başlayır.

1949-cu ildə universitetin əsas binası, Con Kertin Tibb Məktəbi və Fizika Elmləri Tədqiqatlar Məktəbi tikilir. 1960-cı ildə Avstraliya Milli Universitetindən əvvəl fəaliyyət göstərən Kanberra Universitet Kolleci bu ali məktəblə birləşdirilir və həmin ildən universitetə tələbə qəbulu genişləndirilir. 1960-cı ildə universitetin Sosial Elmlər və Sakit Okean Elmi-Tədqiqat məktəbləri, incəsənət, iqtisadiyyat, hüquq və elmlər fakültəsi açılır. Bir il sonra universitetin kampusunda ilk Bryus Holl tələbə yataqxanası tikilir, Şərqşünaslıq fakültəsi (1970-ci ildən Asiya Elmləri Məktəbi adlanır), Yeni Qvineya Tədqiqat Bölməsi yaradılır. 1967-ci ildə Kimya və Biologiya Elmi-Tədqiqat məktəbləri, 1968-ci ildə Kompyuter Mərkəzi, 1972-ci ildə Yer Haqqında Elmlər Məktəbi, Resurs və Ekoloji Tədqiqatlar Mərkəzi, 1973-cü ildə Şimali Avstraliya Tədqiqat Bölməsi, 1974-cü ildə Bəşəriyyət Tədqiqatı Mərkəzi, 1979-cu ildə isə ümumi Tədqiqatlar Məktəbi açılır.

1984-cü ildə Saydinq Sprinq rəsədxanasında 2,3 metrlik teleskop hazırlanır. 1987-ci ildə isə Avstraliya Milli Universiteti superkompyuter yaradır. 1992-ci ildə Kanberra İncəsənət İnstitutu Avstraliya Milli Universiteti ilə birləşdirilir, 1993-cü ildə mühəndislik və informasiya texnologiyaları, 1998-ci ildə menecment, 1999-cu ildə ərəb və islam elmləri fakültələri açılır. 1996-cı ildə Avstraliya Milli Universiteti təntənəli surətdə 50 illik yubileyini qeyd edir.

2001-ci ilin iyununda Avstraliya hökuməti universitet rəhbərliyi ilə birlikdə 12 virtual milli institut və 7 kollec yaradır.

Avstraliya Milli Universitetinin əsas kampusu Kanberranın şəhərətrafı qəsəbəsi olan Ektonda 1,45 hektar ərazidə yerləşir. Universitetin kampusu Dikson, Linneus, Deyli, Kinqsli, Baldessin, Elleri, Liversic, Garran sahilləri daxil olmaqla səkkiz inzibati ərazidən ibarətdir. Kampusun ərazisində 200-dən çox bina, tədris müəssisələri, yataqxanalar, müxtəlif tələbə mərkəzləri yerləşir. Avstraliya Milli Universitetində təhsil alan tələbələr üçün məşhur yataqxanalardan Bryus, Ursula, Fenner, Toad, Barton və Garran rezidensiyalarını qeyd etmək olar. Hazırda universitetin şəhərciyində 3126 tələbə yaşayır. Universitet müəllimləri, tələbələri və buraya gələn hər bir insanı yüksək şəraitlə təmin edir. Kampusun ərazisində konsert zalları, teatrlar, mağazalar və bir sıra əyləncə mərkəzləri fəaliyyət göstərir. Universitetin İdman Assosia-

siyası idmanın bütün növləri üzrə xidmət göstərir. Kampusun daxilində hərəkət etmək üçün xüsusi avtobuslar vardır. Şəhərcikdə ağaclar çox olduğundan buranı "Yaşıl Kampus" da adlandırırlar.

Avstraliya Milli Universitetində 7 kollec fəaliyyət göstərir: İncəsənət və Sosial Elmlər Kolleci; Asiya və Sakit okean Kolleci; Biznes və İqtisadiyyat Kolleci; Mühəndislik və Kompyuter Elmləri Kolleci; Hüquq Kolleci; Tibb, Biologiya və Ətraf Mühitin Mühafizəsi Kolleci; Fizika Elmləri Kolleci.

Avstraliya Milli Universitetinin nəzdində müxtəlif institutlar və elmi-tədqiqat mərkəzləri (Milli Avropa Mərkəzi, Riyaziyyat Elmləri İnstitutu, Milli Ali Menecment Məktəbi, Milli Epidemiologiya və Əhalinin Sağlamlığı Mərkəzi, Ekles Nevrologiya İnstitutu, Enerji Sistemlərinin Sabitliyi Mərkəzi və s.) fəaliyyət göstərir. 2008-ci ildə Avstraliya Milli Universiteti xərclərinin 80%-ni elmi-tədqiqat işlərinə ayırıb. Hazırda Avstraliya Milli Universitetinin işçi heyəti 3874 nəfərdən ibarətdir. Onların 1578-ni professor-müəllim heyəti təşkil edir. Universitetin Milli Akademiyasına 320 nəfər qəbul edilib, onlara tədqiqat qrantları və məsləhət xidmətləri üçün bir milyon Avstraliya dolları vəsait verilib.

Avstraliya Milli Universiteti kitabxanası qitənin ən böyük və zəngin kitabxanasıdır. Kitabxana sisteminə iki milyon clddən çox kitab daxildir və bu say ildən-ilə artmaqdadır.

Avstraliya Milli Universitetinin kitabxanasında "Compendex" adlı biblioqrafik məlumat və resurs mərkəzi fəaliyyət göstərir. "Compendex" kompyuterləşmiş mühəndislik indeksi sözlərindən yaradılmış abbreviaturadır. "Compendex" 5000 mühəndislik sahəsinə aid jurnalları, konfranslara dair biblioqrafik məlumat və resursları özündə birləşdirir. Bu istinad xarakterli sənədlərə Skopus adlanan məlumat və resurs mərkəzində də rast gəlmək olar.

Mühəndislik sahəsinə dair 190 fənn və əsas ixtisaslar üzrə təxminən 5000 beynəlxalq mənbə və yeni elektron materiallar Skopusa əlavə edilib. 1969-cu ildən etibarən bu məlumat və resurs mərkəzinin əhatə dairəsi genişlənir və hər həftə yenilənir. Mühəndislik sahəsinə dair mövzular, əsasən, nüvə texnologiyası, biomühəndislik, transportasiya, kimyəvi və emal mühəndisliyi, yüngül və optik texnologiya, kənd təsərrüfatı mühəndisliyi və ərzaq texnologiyası, kompyuter və məlumat bazasının işlənilib hazırlanması, tətbiqi fizika, elektronika və kommunikasiya, nəzarət, mülki-mexaniki materiallar, neft, aviakosmik və avtomatikaya aiddir.

Avstraliya Milli Universitetinin çoxlu sayda məşhur məzunları var. Universiteti bitirən şəxslərin əksəriyyəti yüksək karyera əldə edib, onlar tanınmış elm və incəsənət xadimləridir. Universitetdə "Məzunlar cəmiyyəti" fəaliyyət göstərir. 65000 nəfərdən ibarət olan bu cəmiyyətin üzvlərinin sayı hər il 3000 nəfər artır.

Avstraliya Milli Universitetinə qəbul olmaq üçün ingilis dilini bilmək haqqında arayış, orta məktəbi və ya ali məktəbi bitirmək barədə sənədin

notarial qaydada təsdiq edilmiş surəti, tövsiyə məktubu, universitet tərəfindən verilmiş xüsusi formanın doldurulması, İELTS, TOEFL üzrə yüksək nəticə tələb olunur. Onlayn ərizələrinin dəyəri 75 Avstraliya dolları, kağız şəklində təqdim olunan ərizələrin qiyməti isə 100 Avstraliya dolları təşkil edir.

Avstraliya Milli Universitetində tədris ilinin birinci semestri fevral ayında, ikinci semestri isə iyul ayında başa çatır. Universitetə sənəd qəbulu yay aylarında aparılır və noyabrın ortalarına qədər davam edir.

2008-ci ildə Avstraliya Milli Universitetinin gəlirlərinin ümumi məbləği 760873000 Avstraliya dolları (Bir Avstraliya dolları, təxminən, 0,91 ABŞ dollarına bərabərdir) təşkil edib. Bu gəlirin 485924000 dollarını Avstraliya hökumətinin, 2284000 dollarını yerli ştat hökumətinin qrant, ödəniş və yardımları təşkil edir. Tələbə ödənişlərindən gələn gəlir isə 10115000 dollar olub.

Universitetin birillik təhsil haqqı 18000-51000 Avstraliya dolları arasında dəyişir. Ən bahalı fakültə tibb və cərrahlıq ixtisaslarıdır ki, onların birillik təhsil haqqı 51456 Avstraliya dollarıdır. Əksər ixtisaslar üzrə birillik orta təhsil haqqı 24768 Avstraliya dolları təşkil edir. Universitetdə təhsil xərcləri ildən-ilə dəyişir. Bütün ödənişlər yalnız Avstraliya dolları ilə qəbul olunur.

Avstraliya Milli Universitetində hazırda 16715 tələbə təhsil alır. Onların 9603-nü bakalavrlar, qalanlarını isə magistratura, doktorantura və ixtisasartırma üzrə təhsil alanlar təşkil edir. Avstraliya Milli Universitetinin tələbələrinin 37%-i diplomdansonrakı təhsil pilləsi siyahısına daxil edilir. Universitetdə təhsil alan tələbələrin 31%-ni Avstraliyanın müxtəlif bölgələrindən gəlmiş tələbələr təşkil edir.

**Monaş Universiteti (Monash University).** Monaş Universiteti Avstraliyanın Viktoriya ştatında Melburn şəhərinin Kemperdaun şəhərətrafı qəsəbəsində yerləşir. 2009-cu ildə aparılan dünya universitetlərinin reytinqinə əsasən, 100 ən yaxşı ali məktəb arasında Monaş Universiteti 45-ci sırada yerləşmişdir.

Monaş Universiteti Avstraliyanın "Səkkizlik Qrupu"nun, Cənub-Şərq Ölkələri Ali Məktəbləri Assosiasiyasının üzvüdür.

1957-ci ildə Baş nazir Robert Menzis məruzə edərək, Viktoriya ştatında ikinci universitetin yaradılmasını təklif edir. 1958-ci ildə Viktoriya ştatı parlamenti universitet yaradılması haqqında qərar qəbul edir və yeni yaradılmış ali məktəbə tanınmış Avstraliya generalı Con Monaşın şərəfinə Monaş Universiteti adı verilir. Bu, Avstraliyada birinci universitet idi ki, şəhərin və ya ştatın adı ilə deyil, insanın şərəfinə adlandırılırdı.

Kleyton ərazisində universitetə 100 hektar ərazi ayrılır. 1961-ci ildə Monaş Universitetinə 347 tələbə qəbul olduğu halda, 1967-ci ildə bu rəqəm 21000-dən çox təşkil edir.

1970-1980-ci illərdə Monaş Universiteti həyata keçirdiyi süni mayalanma proqramı ilə dünyaya səs salır. Professorlar Karl Vud və Alan Traunsonun rəhbərliyi ilə 1973-cü ildə universitetdə bu yol ilə ilk hamiləlik əldə

olunur, 1980-ci ildə isə Avstraliyada ilk uşaq dünyaya gəlir. Bu proqram nəticəsində universitet külli miqdarda gəlir əldə edir.

1988-ci ilədək Monaş Universitetinin yalnız bir kampusu – Kleyton var idi. On ildən çox keçmir ki, ali məktəbin 8 kampusu (2 kampus və 2 tədris mərkəzi xaricdə), beynəlxalq tədqiqat mərkəzləri tikilir, buraya başqa ölkələrdən çoxlu tələbə axını müşahidə edilir və bu ali məktəb Avstraliyanın ən beynəlmiləl universitetinə çevrilir. 1998-ci ildə Monaş Universiteti Malayziyada, 2001-ci ildə isə Cənubi Afrikada Yohannesburqda filiallarını açır. Monaş Universiteti bu ölkələrdə filialını yaradan ilk xarici universitet olur. Həmçinin 2001-ci ildə universitet İtaliyanın Prato şəhərində XVIII əsrə aid Toskan sarayında tədris mərkəzi yaradır.

Son illər Monaş Universiteti tibbi tədqiqatlar üzrə böyük nailiyyətlər əldə edib. 2000-ci ildə professor Alan Traunsonun rəhbərlik etdiyi bir qrup alim ilk dəfə olaraq dünyaya bəyan edir ki, sinir gövdə hüceyrələrini embrional gövdə hüceyrələrindən əldə etmək olar, bu da gövdə hüceyrələrinin potensialına olan marağı kəskin surətdə artırır. Monaş Universiteti biotibb üzrə dünyada 20 ən yaxşı universitetdən birinə çevrilir.

2008-ci il mayın 30-da Monaş Universiteti yaranmasının 50 illik yubileyini qeyd edib.

2009-2010-cu tədris ilində Monaş Universitetinin gəlirləri ümumilikdə 1439323000 Avstraliya dollarına bərabər olub. Bu məbləğin 604639000 Avstraliya dollarını Avstraliya hökumətinin universitetə etdiyi yardım, 128378000 Avstraliya dollarını Avstraliya hökumətinin universitetə ayırdığı qrantlar, 335900000 Avstraliya dollarını təhsil haqqı və digər ödənişlər, 33667000 Avstraliya dollarını ştat və yerli hakimiyyət orqanlarının yardımları, 35506000 Avstraliya dollarını investisiya qoyuluşu, qalanlarını isə digər gəlirlər təşkil edib.

Həmin tədris ilində bu ali təhsil ocağının xərcləri 1284495000 Avstraliya dolları olub. Xərclərin 709825000 Avstraliya dollarını işçilərin əməkhaqqı, 30980000 Avstraliya dollarını təmir və texniki xidmət, 19380000 Avstraliya dollarını təqaüd və təltiflər, 331000 dolları sığorta və müxtəlif xidmətlər, qalanlarını isə digər məsrəflər təmin olunur.

Monaş Universitetində tələbələrə təqaüdün verilməsi üç şərt əsasında həyata keçirilir: birinci şərtə uyğun gələn tələbələr yaxşı oxuyan, istedadlı, bacarıqlı tələbələri; ikinci şərtə uyğun gələn, çətin maliyyə durumu, ağır ailə vəziyyəti olan, yerli Avstraliya xalqlarını təmsil edən, qeyri-ingilisdilli, ölkənin uzaq rayonlarından gələn, sağlamlığı məhdud və əlil, kifayət qədər təmsil olunmamış məktəblərdən olan tələbələr; üçüncü şərtə uyğun gələnlər isə yaxşı göstəricilərə malik və maliyyə durumu çətin olan tələbələrdir.

Monaş Universitetində tələbələrə onların oxuduğu fakültə və məktəbdən asılı olaraq müxtəlif miqdarda təqaüdlər verilir. Məsələn: mühəndislik fakültəsində ildə 7000 dollar, incəsənət fakültəsində 6000 dollar, tibb, tibb

bacısı və sağlamlıq üzrə elmlər fakültəsində 5500 dollar, dəqiq elmlər fakültəsində 5000 Avstraliya dolları və s.

Monaş Universitetində, dünyanın başqa universitetlərində olduğu kimi, tələbələrin təhsil haqqı onların oxuduğu fakültə və məktəbdən asılı olaraq fərqlənir. 2010-2011-ci tədris ili üçün bu ali məktəbin bakalavr pilləsində yerli tələbələrin təhsil haqqı 5442, 7050, 8050, 9080 Avstraliya dolları, xarici tələbələrin isə təhsil haqqı 22800, 31130, 52300 Avstraliya dolları arasında dəyişir. Magistratura pilləsində yerlilərin təhsil haqqı 5442, 18100, 21400 Avstraliya dolları, xaricilərin təhsil haqqı isə 21000, 25900, 30700, 32500 Avstraliya dolları, doktorantura pilləsində isə xarici tədqiqatçıların təhsil haqqı 21000, 23300, 24990, 31140, 34500 Avstraliya dolları təşkil edir.

Monaş Universitetinin əsas Kleyton kampusu 1,1 $km^2$ ərazidə yerləşir və şəhərciklərin ən böyüyüdür. Kampusun şəxsi qəsəbələri, indeksi (3800) var. Şəhərcik zəngin Avstraliya flora və faunasına malikdir, burada 2000-dən çox müxtəlif bitki növlərinə rast gəlmək olar. 2001-ci ildə bu kampusda Avstraliyada ilk sinxrotron zavodu tikilib. Kampusda incəsənət, biznes və iqtisadiyyat, təhsil, mühəndislik, informasiya texnologiyaları, hüquq, tibb, tibb bacısı, tibb elmləri fakültələri yerləşir. Həmçinin şəhərcikdə tələbə yataqxanaları (12-mərtəbəli Hovit, iki binadan ibarət olan Farrer, 190 yerlik Riçardson, Dikin, Roberts, 130 yerlik Cənub-şərq mənzili və 240 yerlik Manniks) var və burada minlərlə tələbə qalır. Ümumilikdə, universitetin əsas obyektləri bu şəhərcikdə yerləşib.

Kolfrid universitetin ikinci ən böyük kampusudur və Melburn şəhərinin Kolfrid qəsəbəsində yerləşir. 1922-ci ildən Kolfrid Texniki Məktəbi kimi fəaliyyət göstərən kampus 1982-ci ildə Çisxolm Texnologiya İnstitutu adlandırılıb, 1990-cı ildə isə Monaş Universitetinə birləşdirilib. Bu şəhərcikdə hazırda universitetin incəsənət, incəsənət və dizayn, biznes və iqtisadiyyat, informasiya texnologiyaları, tibb, tibb bacısı və tibb elmləri fakültələri yerləşir. Tələbə təşkilatı da bu kampusdadır.

Bervik kampusu universitetin ən yeni kampuslarından biridir və Keysi şəhəri bölgəsində 55 hektarlıq ərazidə yerləşib. Bu kampusun tikintisinə 1994-cü ildən başlanılıb. Cisplend kampusu Melburn şəhərindən Şərqdə Latrob Vallidə 63 hektar ərazidə yerləşir. Bu şəhərcikdə əsasən bakalavrlar təhsil alır. Yalnız burada yerləşən tibb məktəbi digər dərəcələr verir. Parkvill kampusu Melburn şəhərindən 2 km şimalda Parkvill ərazisindədir. Burada əczaçılıq və farmaseptik elmlər, tibb, kommersiya və biznes fakültələri yerləşir. Yarımada (Peninsula) kampusu Melburn şəhərinin kənarında Frankston sahil qəsəbəsində salınıb və burada fiziologiya və psixologiya, tibb və s. fakültələr vardır.

Monaş Universitetinin Sanvey kampusu 1998-ci ildə Malayziyanın 13 dövlətindən biri olan Selanqorun Bandar Sanvey şəhərində yaradılıb. Burada universitetin bütün fakültələri üzrə bakalavr, magistr və doktorluq dərəcələri verilir, ən yeni texnologiyalarla təchiz edilmiş binalar, yataqxanalar

mövcuddur. Sanvey Monaş Universitetinin üçüncü ən böyük kampusudur. 2007-ci ilin sentyabrında burada yeni şəhərcik istifadəyə verilib. Monaş Universitetinin Cənubi Afrikada Yohannesburq şəhərində yerləşən kampusu 2001-ci ildən fəaliyyət göstərir. Kampusda biznes və iqtisadiyyat, incəsənət və informasiya texnologiyaları fakültələri vardır. Hazırda kampus sürətlə inkişaf edir. 2001-ci ildə İtaliyanın Prato şəhərində XVIII əsrə aid Toskan sarayında yaradılan tədris mərkəzində hüquq, incəsənət və dizayn, tarix, musiqi, biznes və iqtisadiyyat və başqa sahələr öyrənilir. Bu, Avstraliyanın Avropada ən böyük tədris mərkəzidir. Həm də 2008-ci ildə Hindistanın Mumbay şəhərində IITB-Monaş Tədqiqat Akademiyası açılıb. Akademiya ekoloji təmiz enerji, biotexnologiya və nanotexnologiya, elm və texnika üzrə tədqiqatlar aparmaq məqsədi ilə Monaş Universiteti və Hindistan Bombey Texnologiya İnstitutunun birgə əməkdaşlığı çərçivəsində yaradılıb. Akademiyanı bitirən tələbə hər iki qurum tərəfindən doktorluq dərəcəsi ilə təltif edilir.

Monaş Universitetinin aşağıdakı fakültələri vardır: İncəsənət və dizayn; İncəsənət; Biznes və İqtisadiyyat; Mühəndislik; İnformasiya Texnologiyaları; Hüquq; Tibb, tibb bacısı və sağlamlıq haqqında elmlər; Əczaçılıq və farmaseptik elmlər; Dəqiq elmlər; Təhsil (pedaqogika).

Monaş Universitetinin kitabxanası Avstraliyanın aparıcı kitabxanalarından biridir. Hazırda dünyanın üç qitəsində kitabxananın filialları fəaliyyət göstərir. Kitabxana kolleksiyasına 2,1 milyon kitab, 100000 çaplı və elektron jurnal, 341825 elektron kitab, 1118 şəbəkə elektron məlumat bazası daxildir. Burada milli və beynəlxalq əhəmiyyətli sənədlərin saxlandığı xüsusi fond yerləşir. Kleyton kampusundakı Lui Metson kitabxanasında qədimliyi və gözəl tərtibatı ilə oxucuları valeh edən 100000-dən çox nadir kitab, şəkillər, əlyazma və kitabçalar saxlanılır. Nadir kitablar kolleksiyasının yaradılmasına 1961-ci ildə Conatan Sviftin əsərlərinin toplanmasından sonra başlanılıb. Bu kitabxanada il ərzində müxtəlif sərgilər təşkil olunur.

Universitetdə 15262 nəfər işçi çalışır. Onların 8321 nəfəri professor-müəllim heyəti, 6941 nəfəri isə inzibati işçidir. Qadın işçilərin sayı burada 8748, kişi işçilərin sayı isə 6514 nəfərdir.

2009-2010-cu tədris ilində universitetdə ümumilikdə 59925 tələbə təhsil alıb. Tələbələrin 38811 nəfərini yerli, 21114 nəfərini isə xarici gənclər təşkil edib. Qız tələbələrin sayı universitetdə 33917, oğlan tələbələrin sayı isə 26008 nəfər olub. Monaş Universitetində Bervik, Kleyton, Kolfild, Cisplend, Parkvill, Yarımada, Cənubi Afrika, Malayziya kampuslarının tələbə təşkilatları və assosiasiyaları fəaliyyət göstərir.

Kainatın dörd qitəsində fəaliyyət göstərən Monaş Universiteti digər universitetlərin malik olmadığı perspektiv və resurslara söykənir. Dünyanın bir çox ölkələrini təmsil edən tələbələrin burada oxumaları ilə yanaşı, universitet istedadlı və savadlı müəllimləri də özünə cəlb edərək işlə təmin edir. Ali məktəb uğur əldə etməyin əsas səbəblərindən birini də beynəlxalq

təcrübəyə əsaslanmaqda görür. Yer kürəsinin bir sıra nüfuzlu ali məktəbləri ilə əməkdaşlıq çərçivəsində Monaş Universiteti həmin təhsil ocaqları ilə tələbə və işçi mübadiləsi edir. Universitetin bütün dünyada 235000-dən çox məzunu müxtəlif orqanlarda, rəhbər vəzifələrdə çalışır. Monaş Universitetinin məqsədi professional bacarıq və ictimai dəyərlərə malik gələcək liderlər nəsli yetişdirməkdir.

**Kvinslend Universiteti (The University of Queensland).** Kvinslend Universiteti Avstraliyanın Kvinslend ştatının ən böyük şəhəri olan Brisben şəhərində yerləşir. 2009-cu ildə aparılan dünya universitetlərinin reytinqinə əsasən, Kvinslend Universiteti 100 ən yaxşı ali məktəb arasında 41-ci sırada yerləşib.

Kvinslend Universiteti Avstraliyanın "Böyük Səkkizlik" qrupunun, "Universitetlər - 21" Beynəlxalq Elmi-Tədqiqat Assosiasiyasının üzvüdür.

Kvinslend Universiteti 1909-cu il dekabrın 10-da Kvinslend ştatının Yeni Cənubi Uels müstəmləkəsinin tərkibindən çıxmasının 50 illiyi münasibəti ilə ştat parlamentinin sərəncamına əsasən yaradılıb. Yaradıldıqdan 4 ay sonra universitet ştatın birinci, ölkənin isə beşinci ən yaxşı ali məktəbinə çevrilir. 1911-ci ildə Brisben şəhərindəki Corc küçəsində hökumət evində yerləşən Kvinslend Universitetinə 23 qız daxil olmaqla cəmi 83 tələbə qəbul edilir.

I Dünya müharibəsi dövründə ali təhsil ocağının inkişafı ləngisə də, müharibədən sonra universitet sürətlə irəliləməyə başlayır. Corc küçəsində Kvinslend Universitetinin binaları çoxaldığından universitetdə böyük kampusa ehtiyac duyulmağa başlayır. 1922-ci ildə Viktoriya parkı ərazisi (ərazinin yarısı hazırda Mayne Tibb Məktəbi tərəfindən tutulub) Kvinslend Universitetinin daimi yeri kimi müəyyən edilir.

1927-1929-cu illər ərzində doktor Ceyms Mayne və onun bacısı miss Meri Emelia Mayne universitetə Sent-Lüsia ərazisində 274 hektarlıq yer bağışlayırlar. Maliyyə çatışmazlığı ərazinin inkişafını dayandırır. 1938-ci ildə bu ərazidə Forqan Smit binasının tikintisi başlanır və 1939-cu ildə başa çatır. II Dünya müharibəsi dövründə Forqan Smit binası hərbi məqsədlər üçün istifadə olunur; Sakit okeanın cənub-qərb hissəsində müttəfiqlərin quru qoşunlarının qərargahına çevrilir.

1946-1972-ci illərdə Kvinslend Universiteti Corc küçəsində Sent Lüsiaya köçür. 1990-cı ildə universitet Kvinslend Kənd Təsərrüfatı Texnikumu ilə birləşdirilir. 1999-cu ildə Avstraliyada tamamilə veb-şəbəkəyə qoşulmuş ilk xüsusi kampuslardan birincisi olan Kvinslend Universitetinin İpsviç kampusu tikilir.

2009-cu ildə Kvinslend Universitetinin illik gəlirləri 125900000 Avstraliya dolları olub. Həmin məbləğin 53% Avstraliya hökumətinin qrantları, 5%-i Kvinslend ştatı və yerli hökumət yardımları, 18%-i təhsil haqqı (xüsusi ilə xarici tələbələrin) və vergilər (yığım), 3%-i investisiya, 5%-i məsləhət və sazişlər, qalanı isə digər vasitələr hesabına əldə olunan gəlirlərdir.

Həmin il universitetin illik xərcləri 1198000000 Avstraliya dolları təşkil edib. Xərclərin 56%-ni əməkhaqqı və əməkdaşların məzuniyyəti, 7%-ni amortizasiya, 3%-ni qrant və borcların ödənilməsi, 2%-ni təmir və texniki xidmət, qalanlarını isə müxtəlif xərclər təşkil edib.

2009-2010-cu tədris ilində Kvinslend Universitetində bakalavr pilləsində təhsil alan avstraliyalı tələbələrin təhsil haqqı fakültə və məktəbdən asılı olaraq 4343 (biotexnologiya), - 8859 (biznes, kommersiya) Avstraliya dolları, xarici tələbələrin təhsil haqqı isə 18300 (musiqi, təhsil, beynəlxalq tədqiqatlar və s.) - 48000 (tibb, cərrahlıq) Avstraliya dolları olub.

Kvinslend Universitetinin təqaüd proqramı Avstraliyada ən zəngin proqramdır. Universitetdə maliyyə durumundan, mənşəyindən asılı olmayaraq istənilən tələbə təqaüd ala bilər. Tələbələrə təqaüd verilməsinin əsas məqsədi tədqiqat aparmaqda onlara kömək etmək, təhsilə maraq oyatmaq, bütün sahələrdə gənclərə dəstək olmaqdır. Çoxlu sayda donorların, müəssisələrin səxavətli himayəsi hesabına burada tələbələrə geniş çeşiddə təqaüdlər təklif olunur. Bakalavr pilləsində təhsil alan avstraliyalı tələbələr aşağıdakı təqaüdləri alırlar: RD Arida təqaüdü - 6330 Avstraliya dolları (hər il məbləğ dəyişir), Doris Kemp təqaüdü – 1700 Avstraliya dolları və s. Magistratura pilləsində oxuyanların təqaüdü ildə 22500 Avstraliya dollarıdır. Universitetdə oxuyan xarici tələbələr də müxtəlif miqdarda təqaüdlər alır. 2010-cu ildə Kvinslend Universitetində tələbələrə 200-dən çox təqaüd təklif olunub. Xarici tələbələrə burada xüsusi şərait yaradılıb və təqaüdlər ayrılıb.

Brisben Avstraliyanın Kvinslend ştatının paytaxtıdır və yaşamaq üçün çox əlverişli şəhərdir. Avstraliyanın üçüncü ən böyük şəhəri olan Brisben subtropik iqlimə malikdir. Şəhərin əhalisinin sayı 1,8 milyondan çoxdur və burada yaşayan insanlar çox mehribandır. Dövlət dili ingilis dili olsa da, bir çox başqa dillər də işlədilir. Günəşli Sahil çimərliyi, milli park və zoopark şəhərin ən gəzməli yerləri hesab olunur.

Universitetin bütün Kvinslend ştatında elmi-tədqiqat mərkəzləri yerləşir. Buna baxmayaraq, Brisben şəhərində universitetin əsas 4 kampusu vardır: Sent-Lüsia, İpsviç, Qatton və Herston. Kvinslend Universitetinin ümumi ərazisi 1464 hektardır.

Sent-Lüsia kampusu 1937-ci ildə tikilməyə başlayıb. Bu kampusu Avstraliyanın ən gözəl universitet şəhərciyindən biri adlandırırlar. Brisben şəhərinin mərkəzindən 7 km aralıda Brisben çayının döngəsində 114 hektar ərazidə yerləşən Sent-Lüsia kampusunda geniş landşaft bağları, güllər, idman meydançaları və velosiped cığırı var. Yarımkürə şəklində tikilən binaların mərkəzində məşhur Böyük həyət yerləşir. Kampusda Kvinslend Bədii İncəsənət Muzeyi, Ceyms və Meri Emelia Mayne Mərkəzi, kilsə, klublar vardır.

Qatton kampusu Brisben şəhərindən 90 km qərbdə Uorreqo şosesində yerləşir. Bu kampusda təbii resurslar, kənd təsərrüfatı, baytarlıq fakültələri yerləşir. Kampusda kənd təsərrüfatı, heyvandarlıq, atçılıq, vəhşi heyvanların

öyrənilməsi üçün 1000 hektarlıq ərazi ayrılıb. Burada bu sahənin tədqiqatı üçün xüsusi müəssisələr, laboratoriyalar, kitabxanalar var. 2010-cu ildə universitetin bütün baytarlıq məktəblərinin Qatton kampusuna köçürülməsi başa çatıb.

Herston kampusu Kvinslend Universitetində tibbi elmi-tədqiqatların aparıldığı əsas məkandır. Kampusda Royal Brisben, Royal Uşaq, Royal Qadın xəstəxanaları, Mayne Tibb Mərkəzi, Kvinslend Tibbi Tədqiqatlar, Kvinslend Radium institutları, Tibb, Səhiyyə, Tibb Bacısı və Mamalıq məktəbləri, Kliniki Tədqiqatlar Mərkəzi, Sağlamlıq elmləri kitabxanası yerləşir. Şəhərciyin binaları müasir üslubda tikilib və əsasən, çoxmərtəbəli binalardan ibarətdir.

Kvinslend Universitetinin kitabxana sistemi müxtəlif kampuslarda yerləşən 14 kitabxanadan ibarətdir və Avstraliyanın ən zəngin akademik kolleksiyaya malik kitabxana sistemlərindən biridir. Ali məktəbin kitabxana sisteminə 2,5 milyon cild kitab, 75 mindən çox çaplı və elektron jurnal, 1000 şəbəkəyə qoşulmuş məlumat bazası, 500000-dən artıq elektron kitab, 38792 DVD disk və videokaset, zəngin əlyazma, mikroforma, rəsm kolleksiyası daxildir. Kitabxana sisteminin kolleksiyası İnternet şəbəkəsinə qoşulub və bütün dünya istifadəçilərinin xidmətindədir.

Eləcə də universitetin nəzdində bədii muzey və Meri Emelia Mayne Mərkəzi mövcuddur.

Kvinslend Universitetində 22 üzvdən və 3 rəsmi şəxsdən ibarət senat, qubernator tərəfindən təyin edilmiş 8 nəfər, müəllim və tələbələr tərəfindən seçilmiş 8 nəfər və Senat tərəfindən təyin edilmiş 3 nəfərdən ibarət şura fəaliyyət göstərir. Universitetdə fəaliyyət göstərən fakültələrə dekan, məktəblərə isə direktorlar rəhbərlik edir. Ali təhsil ocağında 6126 nəfər işçi çalışır, bunların da 2615 nəfərini professor-müəllim heyəti, 3511 nəfərini isə inzibati işçilər təşkil edir.

Kvinslend Universitetinin tələbələrinin ümumi sayı 2009-2010-cu tədris ilində 40583 nəfər olub. Tələbələrin 29856 nəfərini bakalavr, 10727 nəfərini isə magistr və doktorantlar təşkil edib. Universitetdə dünyanın 128 ölkəsindən 8824 nəfər xarici tələbə təhsil alıb. Ali məktəbdə 24000-dən çox üzvü olan 150 tələbə klubu və cəmiyyəti, eləcə də 33 idman klubu var.

Bu ali məktəbdə tələbələrə istənilən xidmətlər (işlə, nəqliyyatla təminolunma, təhlükəsizlik, sağlamlıq, bank və poçt, əlil tələbələrə qayğı və s.) təşkil olunur.

Kvinslend Universitetində 11 yataqxana-kollec var. Bunlar 190 yerlik Kromvel, 150 yerlik Daçens, 350 yerlik Emmanuel, 180 yerlik qızlar üçün Qreys, 260 yerlik Kral, Müqəddəs Con, Müqəddəs Leo, 440 yerlik Qatton Holl kollecləridir. Yataqxanalarda 36 həftə qalmaq üçün tələbə, otaqdan asılı olaraq, qidalanma, kommunal xərclər daxil olmaqla, 11100-16500 Avstraliya

dolları ödəyir, həm də tələbələr kampus xaricində evlərdə və mənzillərdə kirayədə qala bilər.

Kvinslend Universitetində yüksək səviyyəli idman kompleksləri və fitnes mərkəzləri fəaliyyət göstərir. Ali məktəbin üzgüçülük mərkəzi və tennis kortları Brisben şəhərində ən yaxşısıdır. Fitnes mərkəzində pilates, yoqa, çəki azaltmaq üçün məşq zalları və s. tələbələrin xidmətindədir. İdman növlərindən basketbol, futbol, xokkey, döyüş sənəti, tennis, yüngül atletika təklif olunur.

Kvinslend Universiteti təhsilinin, xüsusi ilə biologiya elmlər sahəsinin inkişafına görə beynəlxalq nüfuza malikdir. Universitetin son zamanlar sürətlə inkişafının əsas səbəbi burada bahalı fakültələrdə oxuyan xarici tələbələrin, magistr və doktorantların, tədqiqatçıların sayının çoxalmasıdır. Universitetin məzunları məşğulluq və gəlirlərinin səviyyəsinə görə dünyada ilkin yerləri tuturlar. Kvinslend Universitetinin diplomu bütün dünyada işəgötürənlər tərəfindən yüksək qiymətləndirilir. Bu ali məktəbi bitirmiş mütəxəssislər bütün Yer kürəsində güclü şəbəkə formalaşdırıblar.

**Sidney Universiteti (University of Sydney).** Sidney Universiteti Avstraliyanın Yeni Cənubi Uels ştatında Sidney şəhərinin Kemperdaun şəhərətrafı qəsəbəsində yerləşir. 2009-cu ildə aparılan dünya universitetlərinin reytinqinə əsasən, Sidney Universiteti 100 ən yaxşı ali məktəb arasında Fransa Politexnik Məktəbi və Melburn Universiteti ilə birgə 36-cı xanada yerləşib.

Sidney Universiteti Avstraliyanın "Səkkizlik qrupu"nun, "Universitetlər-21" beynəlxalq elmi-tədqiqat, Sakit Okean Regionu Universitetləri assosiasiyalarının və Beynəlxalq Universitetlər şəbəkəsinin üzvüdür.

1848-ci ildə Yeni Cənubi Uels ştatının Qanunvericilik şurasının üzvü Uilyam Uentvort Sidney Kollecinin böyük universitetə çevrilməsi haqqında plan hazırlayır və şuraya təqdim edir. Uentvort deyirdi ki, cəmiyyətin inkişafı üçün dövlət universiteti mütləq şərtdir. O deyirdi: "Dövlət universiteti hər təbəqədən olan uşağa ölkəsinin müqəddəratına fayda verməyə imkan yaradır". Uentvortun ikinci cəhdindən sonra onun planı Qanunvericilik şurası tərəfindən qəbul edilir.

Sidney Universiteti 1850-ci il oktyabrın 1-də Sidney Universiteti yaradılması haqqında qanun imzalandıqdan sonra fəaliyyətə başlayır. İki il sonra, 1852-ci il oktyabrın 11-də hazırda Sidney Gimnaziyası adlanan Böyük sinif otağı yaradılır. Universitetin ilk rektoru professor və keşiş Con Vulli təyin edilir. 1858-ci ilin fevralında universitet kraliça Viktoriyanın xartiyasını alır, bundan sonra burada, Böyük Britaniyanın universitetlərində olduğu kimi, elmi dərəcələr verilir. 1859-cu ildə ali təhsil müəssisəsi hazırkı kampusunun yerləşdiyi Kemperdaun şəhərətrafı qəsəbəsinə köçürülür. 1890-cı ildə universitetdə anatomiya, zoologiya, texnika, tarix, hüquq, məntiq, fəlsəfə və psixologiya kafedraları yaradılır.

1938-ci ildə Sidney Universitetinin nəzdində Yeni İngiltərə Universitet Kolleci açılır və 1954-cü ildə müstəqil universitet kimi fəaliyyət göstərməyə

başlayır. 1960-cı illərdə Sidney Universitetində marksizm və fetişizm ideyaları yayılır. Həmin dövrdə məşhur filosof Devid Armstronq fəlsəfə kafedrasına rəhbərlik edirdi. 1989-cu ildə "Ali təhsil haqqında qanun" qəbul edildikdən sonra Sidney Musiqi Konservatoriyasının Sidney şöbəsi, Kamberlend Tibb Kolleci, İncəsənət İnstitutunun Sidney İncəsənət Kolleci, Təhsilin Təkmilləşdirilməsi Kollecinin Sidney Təhsil İnstitutu, Tibb bacısı İnstitutu və Gildiya Mərkəzi Sidney Universitetinə birləşdirilir. 1981-ci ilədək Sidney Təhsil İnstitutu Sidney Müəllimlər Kolleci adlandırdı.

2007-ci ilin fevralında Sidney Universiteti tibbi tədqiqatların aparılması məqsədi ilə Müqəddəs Con Kollecinin ərazisini alır. Müqəddəs Con Kolleci Roma katolik kilsəsinin tabeliyində olduğu üçün bəzi şəxslər kollecin missiyasının mahiyyətini qorumaq üçün burada tibbi tədqiqatların aparılmasına qarşı çıxırlar. Universitet rəhbərliyi isə buna cavab olaraq bildirir ki, tədqiqatlar üçün kollecin binası deyil, ətraf ərazilər nəzərdə tutulub.

2010-cu ilin əvvəllərində universitet özünə yeni loqotip müəyyən edir, daha doğrusu, köhnəyə bir sıra yeniliklər gətirir: qalxanın forması, qırağındakı naxışlar, şirin dərisi, açıq kitab təsvirindəki sətirlərin sayı, rənglər və s. dəyişdirilir.

Sidney Universitetinin illik gəlirləri 2009-cu ildə 1290865000 Avstraliya dollarına bərabər olub. Göstərilən vəsaitin 564514000 Avstraliya dolları hökumət qrantları, 291480000 Avstraliya dolları təhsil haqqı, 77930000 Avstraliya dolları investisiya gəlirləri, 90608000 Avstraliya dolları tədqiqat sazişləri və xidmətlər, 1426000 Avstraliya dolları ticarət markaları və lisenziyalar, qalanları isə digər vəsaitlər hesabına əldə olunan gəlirlərdir.

Həmin il ali təhsil ocağının illik xərcləri isə 1240687000 Avstraliya dolları təşkil edib. Bu məbləğin 754530000 Avstraliya dollarını əməkhaqqı, 52465000 Avstraliya dollarını qiymətdən düşmə və amortizasiya, 50378000 Avstraliya dollarını təmir və texniki xidmətlər, 2715000 Avstraliya dollarını avadanlıqların qiymətdən düşməsi, qalanlarını isə digər xərclər təşkil edib. Ümumilikdə, 2009-cu ildə Sidney Universitetinin illik dövriyyəsi 1,3 milyard Avstraliya dollarına bərabər olub.

Sidney Universitetində təhsil haqqının məbləği fakültə və proqramdan asılı olaraq dəyişir. 2009-2010-cu tədris ilində bakalavr pilləsində oxuyan tələbələrin təhsil haqqı 4249, 5310, 7567, 8859 Avstraliya dolları arasında dəyişib. Avstraliyalılar magistratura və doktorantura pilləsində pulsuz oxuyur, xaricilərin bu pillələrdə təhsil haqqı isə 28505 Avstraliya dolları idi.

Sidney Universitetində dünyanın digər universitetlərində olduğu kimi müxtəlif adda və məbləğdə təqaüdlər verilir. Dünya ölkələrindən olan tələbələrə ölkələrinin səfirlikləri tərəfindən də təqaüdlər ayrılır. Universitetin tələbələrə verdiyi təqaüd təxminən 6000, 7000, 12500 Avstraliya dollarıdır.

Sidney Universitetində müəllimlərin illik əməkhaqqı onların tutduğu dərəcədən asılı olaraq fərqlənir: E və daha yüksək dərəcə-139245, D - 108098-

119087, C - 89777-103519, B - 73289-87030, A - 51302-69620 Avstraliya dollardır. İnzibati işçilərin əməkhaqqı isə 38515-89777 Avstraliya dolları arasında dəyişir.

Sidney Universitetinin Sidney şəhəri ərazisində 10 müxtəlif kampusu var. Kampuslarda qumdaşından tikilmiş tarixi binalar, kilsələr, bağ və fəvvarələrlə yanaşı, ən müasir texnologiyalara malik laboratoriyalara, institutlara, klinikalara, zavod və fermalara rast gəlmək olar.

Universitetin əsas kampusu Sidney şəhərinin Kemperdaun və Derlinqton qəsəbələrində yerləşir. Burada orijinal qumdaşından neoqotik üslubda inşa edilmiş Quadranql və Böyük Qala binaları memar Edmund Bleket tərəfindən tikilib. Bu kampusda akademik binalar, tibb korpusu, xəstəxana və apteklər, Tələbə Təşkilatı, klublar və s. yerləşir. Hazırda kampusda yeni tələbə şəhərciyi salınması istiqamətində əsaslı işlər aparılır. Kampus sakinləri ictimai nəqliyyata daha çox üstünlük verir. Sərnişin avtobusları, əsasən, Redfern dəmiryolu vağzalından Paramatta-Rod və Siti-Rod ərazisinə qədər işləyir.

Əsas kampusdan əlavə universitetin Kamberlend, Kemperdaun (Derlinqton), Müqəddəs Ceyms, Rozelli, Kamden, Malett küzəsi, Burren küzəsi şəhərcikləri vardır. Malett küzəsində Tibb bacısı və mamalıq, Kamberlenddə Sağlamlıq elmləri (fizioterapiya, əmək, şüa terapiyaları, nitqin patalogiyası, elmi-tibbi informasiyanın idarəolunması daxil olmaqla), Müqəddəs Ceymsdə Hüquq, Rozellidə İncəsənət, Kamdendə Kənd təsərrüfatı və Baytarlıq korpusları yerləşir. Həm də Uestmid xəstəxanasına birləşən Sarri-Hils və Uestmid Ağız Gigiyenası Mərkəzində universitetin Stomatologiya korpusu, Sidney Operasının yanında Sidney Musiqi Konservatoriyası, Yeni Cənubi Uels ştatının Narıncı kənd ərazilərində Narıncı Kənd təsərrüfatı Kolleci, Kvinslend ştatının yaxınlığında Narrabri Tədqiqat Mərkəzi, Yeni Cənubi Uels ştatının Vaterloo ərazisində Teylor Kolleci vardır.

Sidney Universitetində 16 fakültə vardır: kənd təsərrüfatı, qida və təbii resurslar; memarlıq, dizayn və planlaşdırma; incəsənət; stomatologiya; iqtisadiyyat və biznes; pedaqogika və ictimai fəaliyyət; mühəndislik və informasiya texnologiyaları; təsviri incəsənət; sağlamlıq elmləri; tibb; tibb bacısı və mamalıq;əczaçılıq; baytarlıq; elmlər; hüquq; musiqi.

Sidney Universitetinin kitabxana sistemi cənub yarımkürəsinin ən zəngin kitabxanasıdır və universitetin müxtəlif kampuslarında yerləşən ayrıca binalardan ibarətdir: Bedhem (baytarlıq, kənd təsərrüfatı, biologiya elmlərinə aid kitablar toplanıb), Kamden (baytarlıq, kənd təsərrüfatı, biologiya elmlərinə aid), tədris resursları kolleksiyaları (pedaqogikaya aid), stomatologiya, Şərqi Asiya Kolleksiyaları, Tibbi Elmlər, Frihils Hüquq, Tibb, Tibb bacısı, nadir kitablar, Şeffer təsviri incəsənət, SciTech (memarlıq, maşınqayırma, kimya, yer elmləri, biologiya, fizika və s.), Storage (qədim kitablar saxlanılan), Sidney İncəsənət Kolleci, Sidney Musiqi Konservatoriyası, Sidney escholarship

rəqəmsal kolleksiyalar kitabxanaları. Kitabxana sisteminə ümumilikdə 5 milyondan çox kitab, 300000-dən artıq elektron nəşr daxildir. Nadir kitablar kitabxanasında zəngin nümunələr, həmçinin İncilin Varnavadan qalan nüsxəsi, İsaak Nyutonun "Təbii fəlsəfə" kitabının ilk buraxılışı saxlanılır. Fişer kitabxanasının cənub-qərbində böyük Maklorena oxu zalı yerləşir.

Ali təhsil ocağında çalışan işçi heyətin ümumi sayı 3583 nəfərə bərabərdir. Onların 2980 nəfəri professor-müəllim heyəti, qalanları isə inzibati işçilərdir, 2264-ü qadın, 1319-u kişidir.

Sidney Universitetində ümumilikdə 47775-ə yaxın tələbə təhsil alır. Onların 31634 nəfəri bakalavr, 16141 nəfəri isə magistrant və doktorantlardır. Burada dünyanın bir çox ölkələrini təmsil edən 9554 xarici tələbə var. Müxtəlif ölkələrin 30 universiteti ilə tələbə mübadiləsi və razılaşması çərçivəsində ali məktəbdə 230 tələbə oxuyur.

Sidney Universitetində tələbələrin yataqxanalarla təmin olunması məsələsi ilə Yerləşmə xidməti məşğul olur. Tələbələrin yaşamaları üçün kampusun daxilində və xaricində binalar var. Yataqxanalara tələbat çox olduğundan yerlər tələbələri təmin etmir. Bunun üçün tələbələr ərizələrini nə qədər tez təqdim etsələr, o qədər tez burada yer tapmaq şansları olur.

Sidney Universitetində də, dünyanın hər bir yerində olduğu kimi, tələbə həyatı təkcə mühazirə və seminarlarla tamamlanmır. Boş vaxtlarda gənclər mədəni, siyasi, idman tədbirlərində, konsertlərdə, festivallarda iştirak edir, muzeylərə, rəsm qalereyalarına, sərgilərə, təbiət qoynuna ekskursiyalar təşkil edir, müxtəlif mövzuda söhbətlər aparırlar.

Sidney Universitetində idmanın, demək olar ki, bütün növləri ilə məşğul olmaq üçün şərait yaradılıb. Universitetin idmançıları ölkə və dünya üzrə təşkil olunan idman yarışlarında iştirak edir və uğurlu nailiyyətlər qazanırlar.

Sidney Universiteti tələbələrin potensialından maksimal istifadə edərək onların şəxsi keyfiyyətlərinin inkişafı üçün geniş imkanlar yaradır, Avstraliyanın və bütün dünyanın xoş gələcəyi yolunda səylə xidmət göstərir.

**Melburn Universiteti (University of Melbourne).** Bu universitet Avstraliyanın Viktoriya ştatında Melburn şəhərinin ətraf qəsəbəsi olan Parkvilldə yerləşir. Bu ali məktəb Avstraliyanın ikinci, Viktoriya ştatının isə birinci ən qədim universitetidir. 2009-cu ildə aparılan dünya universitetlərinin reytinqinə əsasən, Melburn Universiteti 100 ən yaxşı ali məktəb arasında Fransa Politexnik Məktəbi və Sidney Universiteti ilə birgə 36-cı yerə çıxmışdır.

Melburn Universiteti Avstraliyanın "Səkkizlik Qrupu"nun, "Universitetlər 21" beynəlxalq elmi-tədqiqat, Sakit okean regionu universitetləri assosiasiyalarının üzvüdür. Avstraliya ali məktəbləri arasında Melburn Universiteti biznes, pedaqogika, texnologiya, incəsənət, hüquq və tibb sahələri üzrə liderlik əldə edib. 1853-cü ildə dövlət xadimi Hyu Çaylders Viktoriya ştatının parlamentinə Melburn Universitetinin yaradılması haqqında sənəd təqdim edir və bu təklif qəbul edilir. Universitetdə ilk dərslər 3 professor və 16 tələbənin

iştirakı ilə 1855-ci ildə keçilir. Universitet binasının rəsmi açılışı 1855-ci il oktyabrın 3-də ştatın vitse-qubernatoru Çarlz Hothemin iştirakı ilə baş tutur.

Universitetdə ilk vaxtlar ancaq hüquq elmi tədris olunur, lakin şəhər sakinlərinin tələbi nəticəsində 1857-ci ildə burada tibb, 1860-cı ildə isə mühəndislik fakültələri açılır. 1881-ci ildə universitetə qızlar qəbul olunmağa başlayır. Sonrakı illər Melburn Universitetində gərginlik yaşanır, 1902-ci ildə isə ali məktəb faktiki olaraq müflis vəziyyətə düşür. 1886-cı ildən 1901-ci ilə qədər universitetin xəzinədarı vəzifəsində çalışmış Frederik Diksonun dələduzluq edərək külli miqdarda vəsaiti mənimsəməsi faktı aşkarlanır və o, yeddi il müddətinə azadlıqdan məhrum edilir. Universitetdə kral komissiyası təşkil olunur, nəticədə yeni maliyyə, tədris, təsərrüfat, təhsil strukturları yaradılır, önəmli islahatlar həyata keçirilir.

I Dünya müharibəsi zamanı universitetdə yenə idarəolunma ilə bağlı problemlər yaranmağa başlayır. 1923-cü ildə rəhbərlik Universitet Senatına həvalə olunur. Tələbələr iki Senat üzvü seçmək hüququna malik olur. Həmin dövrdə isə tələbələrin əksəriyyəti varlı ailələrin övladları idi, istedadlı və təqaüd alan tələbələr azlıq təşkil edirdi. Universitetin vitse-kansleri Reymond Pristli ilk dəfə əmək haqqı (maaş) tətbiq edir. 1922-ci ildə Melburn Universitetinin mətbuatı yaradılır ki, bu, Avstraliyada ilk ali məktəb mətbuatı olur.

II Dünya müharibəsindən sonra Avstraliya dövləti Melburn Universitetinə maliyyə yardımlarını artırır, tələbələrin sayı artır və bir sıra təhsil islahatları aparılır. Universitet sürətli inkişaf yoluna qədəm qoyur. 1955-ci ildə Avstraliyada ilk kompyuter hazırlanır və Melburn Universitetində quraşdırılır. 1989-cu ildə Melburn Universiteti İnternetə ilk qoşulan Avstraliya universiteti olur.

2003-cü ildə Melburn Universiteti təntənəli surətdə 150-illik yubileyini qeyd edib. 2008-ci ildə universitetdə yeni tədris proqramı qəbul olunub. Həmin proqram hazırda Melburn təhsil modeli kimi tanınır.

2009-2010-cu tədris ilində Melburn Universitetində təhsil alan avstraliyalı tələbələrin təhsil haqqı məktəb və fakültədən asılı olaraq bakalavr pilləsində 17600-47300 Avstraliya dolları, magistratura və doktorantura pillələrində isə 11300-30650 Avstraliya dolları arasında dəyişir. Xarici tələbələrin təhsil haqqı tələbənin oxuduğu fakültə və proqramdan asılı olaraq bakalavr pilləsində 16000-58700 Avstraliya dolları arasında dəyişir. Bir çox fakültələrin qiyməti 29500 Avstraliya dolları təşkil edir. Ən bahalı fakültə tibb elmləri fakültəsidir (58700 dollar). Magistratura və doktorantura pillələrində oxuyan xarici tələbələrin təhsil haqqı isə 21250-44650 Avstraliya dolları arasında dəyişir.

Melburn Universitetinin təqaüd proqramı Avstraliyanın ən böyük və dolğun proqramlarından biridir. 300-dən çox tələbə (yerli, xarici və s.) universitetin ayırdığı təqaüddən bəhrələnir. Təqaüd təhsil haqqını qismən və ya tam təmin edə bilər. Təqaüd almaq üçün tələbələrin qarşısında bir sıra şərtlər

qoyulur: ailə büdcəsi, bilikli, yaradıcı və istedadlı olmaq, davamiyyət. Tələbə bütün meyarlara cavab verdikdə təqaüd ala bilər. Burada tələbələrə verilən təqaüdün miqdarı təxminən ildə 5000-20000, 60000 Avstraliya dolları arasında dəyişir. Melburn Universitetində də, başqa dünya universitetlərində olduğu kimi, müxtəlif təqaüdlər verilir. Bundan başqa, Avstraliya hökuməti tələbələr üçün ayrıca təqaüd ayırıb.

2009-cu ildə Melburn Universitetinin illik gəlirləri cəmi 1530601000 Avstraliya dollarına bərabər olub. Həmin məbləğin 676565000 Avstraliya dollarını Avstraliya dövlətinin qrantları, 412354000 Avstraliya dollarını təhsil haqqı və rüsumlar, 83179000 Avstraliya dollarını investisiya gəlirləri, 23069 Avstraliya dollarını məsləhətləşmə və müqavilələr, 6516 Avstraliya dollarını ticarət nişanı və lisenziyalar, qalanlarını isə digər gəlirlər təşkil edib.

Həmin ildə universitetin illik xərcləri isə ümumilikdə 1525329000 Avstraliya dolları olub. Bu vəsaitin 765662000 Avstraliya dollarını işçi heyətinin əmək haqları, 87067000 Avstraliya dollarını qiymətdən düşmə və amortizasiya, 54663000 Avstraliya dollarını investisiya xərcləri, 51190000 Avstraliya dollarını təmir və xidmətlər, qalanlarını isə digər xərclər təşkil edib.

Melburn Avstraliyanın ikinci ən böyük və kosmopolit şəhəridir. 3,5 milyon əhalisi olan şəhəri, adətən, Avstraliyanın mədəniyyət və idman paytaxtı adlandırırlar. Ümumdünya Səhiyyə Təşkilatı Melburn şəhərini yaşamaq və oxumaq üçün ən təhlükəsiz və rahat yer kimi qiymətləndirib. YUNESKO isə Melburnu "Ədəbiyyat şəhəri" adlandırıb. Əgər siz dinamik şəhər axtarırsınızsa, Melburnda istədiyinizi tapa bilərsiniz.

Melburn Universitetinin əsas kampusu Melburn şəhərinin ətraf qəsəbəsi olan Parkvilldə yerləşir.

Melburn Universitetinin Viktoriya ştatında bir neçə kampusu var.

Melburn Universiteti tələbələrin burada qalmaları üçün çoxlu sayda variant təklif edir. Tələbələrin əksəriyyəti kampus daxilindəki yataqxanalarda, bir qismi kampusda onlar üçün ayrılmış xüsusi evlərdə, digər qismi isə şəhərdə universitetə yaxın yerləşən evlərdə kirayə və ya ailələrdə qalmağa üstünlük verir. Tələbə Yataqxana Xidmətinin köməyi ilə gənclər şəhərdə istədikləri şəraitə uyğun yaşayış yeri tapa bilər.

Kampus daxilindəki böyük yataqxanalardan Triniti, Ormond, Kuins, Nyumən, Müqəddəs Meri, Müqəddəs Hilda, Uitli kollecləri, Cenet Klark, Midli, Beynəlxalq və s. rezidensiyaları qeyd etmək olar. Yataqxanalarda 52 həftəlik qalmağın qiyməti otağın sayından və şəraitdən asılı olaraq 14700-35000 Avstraliya dolları arasında dəyişir. Ailələrdə 40 həftə qalmaq tələbəyə 14800-19200 Avstraliya dollarına başa gəlir. Birillik qidalanmaq, telefon, nəqliyyat, şəxsi xərcləri ödəmək üçün isə tələbəyə 500-750 Avstraliya dolları lazımdır.

Melburn Universitetinin nəzdində memarlıq, inşaat və planlaşdırma fakültəsi, Melburn Dizayn Məktəbi; incəsənət fakültəsi; Humanitar və Sosial Elmlər Ali Məktəbi (magistr və doktorantlar üçün); biznes və iqtisadiyyat

fakültəsi; Biznes və İqtisadiyyat Ali Məktəbi; Melburn Təhsil (pedaqogika) Ali Məktəbi; Ali Təhsil məktəbləri; Melburn Mühəndislik Məktəbi; Yer və Ətraf Mühit Elmləri Məktəbi, Yer və Ətraf Mühit Elmləri Ali Məktəbi, Ekoloji Proqramlar Ofisi; Hüquq Məktəbi, hüquq doktorluğu, magistrı fakültələri; tibb, stomatologiya və səhiyyə sahələri üzrə tədqiqatlar magistraturası; Melburn Tədqiqatlar Ali Məktəbi, Melburnda tədqiqatlar magistraturası; dəqiq elmlər fakültəsi, Melburn Elmlər Ali Məktəbi; baytarlıq elmləri fakültəsi, baytarlıq elmləri sahəsi üzrə tədqiqatlar magistraturası; musiqi fakültəsi, Tədqiqatlar Ali Məktəbi, Melburn Biznes Məktəbi, Mt Eliza İdarəedici Təhsil Məktəbi fəaliyyət göstərir. Burada fakültələrdə bakalavrlar, ali məktəblərdə isə magistr və doktorantlar təhsil alır. Universitet 340-dan çox magistr və doktorluq proqramı təklif edir.

Melburn Universitetinin təhsil modeli Avropanın, Asiyanın, Şimali Amerikanın təhsil sisteminin ən yaxşı xüsusiyyətlərini özündə cəmləşdirən tədris proqramıdır. Bu model üç nəticədən (əmək fəaliyyəti, ali ixtisas, yüksək tədqiqat dərəcələri) birinə malik olan 87 əsas sahə üzrə 6 yeni ixtisasdan ibarətdir: incəsənət, biotibb, kommersiya, ətraf mühit, musiqi, elmlər bakalavrı. Böyük təcrübə nəticəsində universitet elmi-tədqiqat layihələrini daha da genişləndirir, yeni-yeni tədris proqramları həyata kezirir, doktorluq tədqiqatlarını və akademik mobilliliyi gücləndirir. Melburn Modeli tələbənin şəxsi keyfiyyətlərinin inkişafı, onun magistratura və doktorantura pilləsinə daha da hazırlıqlı olması, gələcəkdə uğurlu karyera əldə etməsi məqsədi ilə işlənilib.

Melburn Universitetinin kitabxanası Avstraliyanın ən zəngin kitabxanalarından biridir. Hər gün kitabxanaya minlərlə oxucu gəlir. Kitabxanaya 3,5 milyon cild kitab, DVD və fotoslayd, not, xəritə, dövri və çaplı nəşr, eləcə də 32000 elektron kitab, yüzlərlə məlumat bazası, 63000 ümumi və xüsusi rəqəmsal jurnal və s. daxildir. Kitabxananın kataloqunda ingilis dilində kitabın 111000 disk yazısı vardır. Bunlar İngiltərə, İrlandiya, Şotlandiya, Uels, Şimali Amerikanın Britaniya müstəmləkəsi olduğu dövrdə çap edilmiş kitablardır. Kitabxana sistemində Memarlıq, Beylye İncəsənət, Braunless Biotibbi, Kimya, Yer Elmləri, Şərqi Resurs Mərkəzi, Giblin İqtisadiyyat və Ticarət, Torpaq və Qida Resursları, Hüquq, Lenton Parr Musiqi, Təsviri və İfaçılıq İncəsənəti, Luiza Hanson-Dayer Musiqi, Riyaziyyat, Fizika, Baytarlıq kitabxanaları fəaliyyət göstərir.

Universitetdə 6500-dən çox əməkdaş çalışır. Onların əksəriyyəti dünya üzrə tanınmış alimlər, Nobel mükafatı laureatları (Mikrobiologiya və immunologiya şöbəsinin əməkdaşı, professor Piter Doerti, iqtisadçılar Ceyms Mirrlis və Klayv Qrencer), Rods təqaüdçüləridir.

Melburn Universitetində ümumilikdə 45800 tələbə təhsil alır. Onların 11000-dən çoxu dünyanın 120-yə yaxın ölkəsindən olan xarici tələbələrdir. Xarici tələbələrin əksəriyyəti Asiyadan, xüsusilə Çin, Malayziya, Sinqapur və İndoneziyadan olan gənclərdir.

Melburn Universitetinin Tələbə Təşkilatı burada oxuyan gənclərə geniş xidmətlər təklif edir. Təşkilat hər tələbəyə görə universitet rəhbərliyi qarşısında cavabdehlik daşıyır.

Universitetdə tələbə həyatı çox maraqlı təşkil olunub. Tələbələr müxtəlif laboratoriyalara, institutlara, zavodlara, xəstəxanalara, fermalara və digər müəssisələrə ekskursiyalar təşkil edir, şəhərcikdə keçirilən tədbirlərdə, tamaşalarda, sərgilərdə, seminarlarda, kütləvi mühazirələrdə, idman yarışlarında iştirak edir, özlərinə yeni-yeni dostlar qazanırlar. Bir sözlə, Melburn Universiteti gənclərin arzuladıqları təhsili ala biləcəyi ən mükəmməl elm ocaqlarından biridir.

## YENİ ZELLANDİYADA TƏHSİL

Yeni Zellandiyada təhsilə böyük yer verilir. Dövlət büdcəsinin altıda biri onun ehtiyaclarına sərf olunur.

Yeni Zellandiya dünyanın ən rifahlı ölkələri sırasına daxildir. Məsələn, Amerika Coğrafiya Cəmiyyətinin məlumatına görə, XXI əsrdə yaşayış üçün ən əlverişli ölkələr reytinqinə məhz Yeni Zellandiya daxil olub. Onun eyni vaxtda iki şəhəri, Vellinqton və Oklend neçə illərdən sonra yaşayışın keyfiyyətinə görə on ən yaxşı şəhərlər sırasına daxildir.

Ali təhsil üç mərhələyə ayrılır: bakalavriat magistratura və doktorantura. Magistraturada tədrisin müddəti, adətən, 1-2 ildir. Ali təhsilin 3-cü pilləsi doktoranturadır. Biliklərin bu və digər sahəsində fəlsəfə doktoru dərəcəsinə malik olmaq üçün üç il müddətində tədqiqat aparmaq və dissertasiya müdafiə etmək lazımdır.

Əcnəbi tələbələr üçün Yeni Zellandiyada ali təhsil almaq bir çox səbəblərdən cəlbedici görünür. Təhsilin keyfiyyəti çox yüksək deyil (Böyük Britaniya və ABŞ-la müqayisədə biryarım-iki dəfə az), həm də tədrisin keyfiyyəti yüksəkdir və proqramların zəngin seçimi var. Yeni Zellandiya ali məktəblərində alınan diplomlar və dərəcələr bütün dünyada yüksək qiymətləndirilir. Məzunların 70 faizə qədəri ölkə hüdudlarından kənarda özlərinə iş tapırlar.

Yeni Zellandiya orta məktəblərində təhsilin müddəti 13 ildir. Ona görə də əcnəbi tələbələrin universitetə daxil olmaları üçün Foundation hazırlıq proqramından keçmələri tələb olunur. Bu cür illik proqramlarla təhsil almaq hər bir universitetdə var. Adətən, tələbələr hazırlıq kursunda təhsil alırlar.

Yeni Zellandiyada səkkiz universitet, təqribən Avropa kolleclərinə uyğun olan politexnik və texnoloji institutlar vardır (onların ümumi say 25-dir). Təhsil standartlarına nəzarəti Təhsil Nazirliyi və İxtisas Dərəcələrinin Tanınmasını isə Yeni Zellandiya Təşkilatı həyata keçirir.

Yeni Zellandiyanın səkkiz universitetində 110 minə yaxın tələbə oxuyur, onların araslnda əcnəbilərin sayı 3-10 faiz təşkil edir.

Ali məktəblərin tədris müddəti azı bir il olan bakalavriat proqramları üzrə əyani bölmələrində oxuyan əcnəbi tələbələrə həftədə 15 saat və tətil zamanı tam iş günündə işləməyə icazə verilir. Magistrə həftədə 8 saat işləmək üçün vaxt ayrılır. Bundan başqa, bir çox tədris müəssisələri tələbələr üçün iş yerləri təşkil edir. Bir sıra universitetlər iri firmalarla müqavilələr bağlayır və bu müqavilələrə uyğun olaraq stajirovka keçməyə dəvət alırlar.

Yeni Zellandiya ildə ölkəyə 10 min adam qəbul etməklə, açıq mühacirət siyasəti olan ölkələr sırasına daxildir. Ona görə də Yeni Zellandiyanın ali təhsil diplomlarına sahib olanlar buna tam ümid edə bilər ki, onlara ali məktəbi bitirdikdən sonra iş təklif olunacaq.

Yeni Zellandiya təhsil sistemi: məktəbəqədər təhsil müəssisələri, pulsuz ibtidai və orta təhsil müəssisəsi və ali təhsil sistemini özündə birləşdirir; bütün Yeni Zellandiya xalqı ondan bərabər hüquqla faydalana bilir.

Məktəbəqədər təhsil sistemi altı yaşadək dövrü əhatə edir. Yeni Zellandiyada məktəbəqədər müəssisələr dövlətə məxsus deyil və onlar özəl biznes sektoruna daxildir. Məktəb təhsili beş yaşdan yuxarı uşaqları əhatə edir və altı yaşdan on altı yaşadək uşaqlar üçün icbaridir. Bütün məktəblərdə təhsil ingilis dilindədir. Məktəb təhsili dünyada qəbul edilmiş təhsil standartlarına cavab verir və Yeni Zellandiyanın NCEA Level I məktəb sertifikatı tanınır. Bu sertifikat Ceneral Certificate of Secondary Education, Amerika və Kanadanın Grade 10 sertifikatlarına uyğundur.

Ali təhsil sistemi məktəbdən sonrakı peşə hazırlığı və tədrisin bütün spektrini əhatə edir. Hazırda 30 açıq ali təhsil mərkəzi fəaliyyət göstərir. Bundan başqa, 46 peşə hazırlığı mərkəzi və 895 özəl təhsil tədris müəssisəsi, xarici tələbələr üçün ingilis dilini öyrətmək üçün mərkəzləri vardır.

Ölkədə bütün pillələrdə qiyabi təhsil sistemi inkişaf edib və fəaliyyətdədir. Bir çox təhsil müəssisələrində hazırlıq kursları axşam saatlarında və tətil müddətində aparılır.

Yeni Zellandiya universitetlərinin ən böyük problemi, ölkədə aviabilet əldə etməkdir. Lakin təhsilə yiyələnmək və ixtisaslı mütəxəssislərin kəskin qıtlığı hiss olunan bir ölkədə başqa ölkələrlə müqayisədə iş tapmaq xeyli asandır.

Bu ölkədə təhsilin üstünlükləri çoxdur. Hazırda Yeni Zellandiya ali təhsili böyük maraq doğurur. Yeni Zellandiya ali məktəblərinin məzunlarının iş tapması çox asandır. Bütün yerli qəzetlər elanlarla doludur: proqramçılar, yeyinti sənayesi mühəndis-texnoloqları, maliyyə analitikləri, bank qulluqçuları və s. tələb olunur.

Yeni Zellandiyada oxumaq və karyera qurmaq hər şəxs üçün daha cəlbedicidir: Yeni Zellandiyada tələbə vizasına əsaslanaraq həftədə 15 saata qədər işlə məşğul olmağa icazə verilir. Tələbələrin əmək haqqı saat hesabı ilə 12-16 Yeni Zellandiya dolları (6-8 Amerika dolları) təşkil edir. Tələbə işləmək üçün icazəni yalnız o halda ala bilər ki, Yeni Zellandiyada azı bir il oxumuş olsun.

Yeni Zellandiyada yaşamaq baha deyil. Üç adamdan ibarət ailə yeməyə ayda 50-100 Yeni Zellandiya dolları (25-50 Amerika dolları) sərf edir. Kiçik biznesi (avtomobil emalatxanası, baqqal dükanı və ya kafesi) olan adam ildə azı 50 min Yeni Zellandiya dolları (25 min Amerika dolları) həcmində gəlir əldə edir.

Bir çox Rusiya tələbələri oraya təkcə oxumağa deyil, həm də pul qazanmaq üçün gedirlər.

**Massey Universiteti (Massey University).** Massey Universiteti Yeni Zellandiyanın ən gənc universitetidir (onun 35 yaşı var). Baş kampusu Oklendin yeni elitar rayonunda, şəhər mərkəzindən 15 km məsafədə olan Alnanydə yerləşir. İnzibati binanın qarşısındakı baxış meydançasından Oklend vulkanlarının romantik mənzərəsi açılır. Üç başqa kampusu-Hemilton, Şimali Palmstoun və Yeni Zellandiyanın paytaxtı Vellinqtonda yerləşir.

Ölkədə ən böyük olan biznes fakültəsi (aviauçuş kommersiyası, turist kommunikasiyası və mehmanxana menecmenti tədrisi ilə şöhrətlənib) bu ali məktəbdədir. Universitetdə ümumilikdə doqquz fakültə vardır: sosiologiya, mühəndislik, biznes, informasiya sistemi, elm fakültəsi, dizayn (musiqi, incəsənət), filologiya və hüquq (burada biomediklər və həkim assistentləri hazırlanır), baytarlıq.

Universitetin 35 min tələbəsi vardır. Bir qrup fənləri (informasiya texnologiyaları, dizayn, elektronika, qida texnologiyası) öyrənən tələbələr artıq ikinci kursda işə təyin olunurlar. Yeni Zellandiyada bu ixtisaslara ehtiyac vardır. Ona gürə Massey Universiteti işə düzəlmək üçün vəd verir. Belə bir hal, Avstraliya istisna olmaqla, dünyanın heç bir ölkəsində yoxdur.

Massey Universitetində bir fənnin öyrənilmə dəyəri semestrdə 350 Yeni Zellandiya dollarıdır (175 Amerika dolları). Yeni Zellandiya ali təhsil sistemində tam demokratiyadır, keçilən fənlərin sayını tələbələr müəyyənləşdirir.

**Aukland Universiteti (University of Auckland).** Bu universitet Yeni Zellandiyanın ən qocaman ali məktəbidir (1860-cı ildə təsis edilib). Ona görə də burada təhsil bahadır: bir fənnin öyrənilməsi semestrdə 500 Yeni Zellandiya dollarına (250 Amerika dolları) başa gəlir. Ali məktəbin inzibati binası şəhərin ən qiymətli tarixi abidələrindən biridir. Əvvəlki zamanlarda bu bina Roma Papasının Avstraliya və Yeni Zellandiyada baş katolik kilsəsinə məxsus idi. Yolu keçdikdən sonra, misilsiz Dovntovn parkı ilə rastlaşılır. Aukland Universitetinin tələbələri və müəllimləri yay vaxtı orada günəşdə qızınmağı xoşlayırlar. Bütün park ilboyu çiçək açan ağ, çəhrayı və məxməri Çin güllərindən ibarətdir.

Aukland Universiteti nəzəri ali məktəbdir. Onun məzunları üçün Massey Universitetin məzunları ilə müqayisədə tətbiqi istiqamətlərdə işlə təmin olunması asan deyil. Amma xaricdə onun diplomları, məsələn, Oksford və ya Kembric diplomları kimi yüksək qiymətləndirilir. Ona görə də yerli və xarici tələbələr nisbəti 2:3-dir. Ən çox xarici tələbə İsveçrədən gəlir. Yeni Zellandiyada onlar vətənlərinin həsrətini o qədər də çəkmirlər. Burada dağlar eynilə Alp dağlarını xatırladır.

Aukland Universiteti Yeni Zellandiyada təbabətin tədris edildiyi iki ali məktəbdən biridir (digəri Otago Universitetidir). On dörd fakültəsi arasında memarlıq, mühəndislik və təhsil fakültələri böyük şöhrət qazanmışdır.

Çikaqoda bir sıra məhəllələrin layihəsini vermiş Roy Lippinkott memarlıq işini burada öyrənib, Avstraliyanın paytaxtı Kanberranın dizayneri Uolter Berli Qriffin də bu universitetdə oxumuşdur. Oksfordun Crist Church kollecində məşhur Tom Toverin yenidən bərpasını da Qriffinə etibar etmişlər. Ali məktəbin ərazisində çoxlu sayda kiçik və ucuz restoranlar var, burada yapon delikatesləri, polineziya, italyan, meksika mətbəxlərinə aid yeməklər vardır. Lançının dəyəri iki Yeni Zellandiya dolları (bir amerika dolları) qədərdir. Lançın Aukland Universiteti və Massey Universiteti tələbələrinin mənəvi simalarını doğmalaşdırır. Şəhərin tələbə teatrında birgə səylərlə "Kommivoyacerin ölümü", "Venetsiyalı tacir" tamaşaları səhnəyə qoyulur. Hər iki ali məktəbin tələbələri Oklənd olimpiya stadionunda məşğul olurlar.

**Oklənd Universiteti (Oakland University).** Bu universitet Yeni Zellandiyanın Oklənd şəhərində yerləşir və ölkənin ən nüfuzlu ali təhsil ocaqlarından biridir.

2009-cu ildə aparılan dünya universitetlərinin reytinqinə əsasən Oklənd Universiteti 100 ən yaxşı ali məktəb arasında 61-ci yerdə olub. 2010-cu il üzrə dünyanın ən nüfuzlu universitetləri arasında Oklənd Universiteti 145-ci, 68-ci sırada yerləşib.

1883-cü il mayın 23-də Oklənd şəhərində Yeni Zellandiya Universitetinin bir hissəsi kimi Oklənd Universitet Kolleci yaradılır. Kollecin idarəolunması Yeni Zellandiya Universitetinin vitse-kansleri Con Çepmen Endryuya həvalə edilir. Oklənd Universitet Kolleci boşalmış məhkəmə və həbsxana binasında 95 tələbə və 4 müəllim ilə fəaliyyətə başlayır, lakin 1901-ci ildə tələbələrin sayı 156 nəfərə qədər artır. Burada 1905-ci ildən başlayaraq iqtisadiyyatı öyrənmək istəyən tələbələrin sayı artır.

1930-cu ildən sonra kollecdə tədqiqatlar aparılır. 1934-cü ildə ali məktəbə ingilis dili üzrə mütəxəssis Artur Sevel, riyaziyyatçı H.G. Forder, tarixçi Ceyms Rutherford, klassik C.G. Kuper və başqa professorlar işə götürülür. Yeni istedadların Oklənd Universitet Kollecinə cəlb edilməsi burada akademik müstəqilliyin yaranmasına və kollecin sürətli inkişafına təkan verir.

İkinci Dünya müharibəsindən sonra kollec ağır vəziyyətə düşür. 1962-ci ildə Yeni Zellandiya Universiteti ləğv edilir və Oklənd Universitet Kolleci müstəqillik əldə edir. Kollec universitet statusu qazanır və Oklənd Universiteti adlandırılır. Universitet sürətli inkişaf yoluna qədəm qoyur: coğrafiya, antropologiya, təsviri incəsənət, incəsənət tarixi, sosiologiya, siyasi tədqiqatlar və başqa yeni fənlər tədris edilir, yeni Tibb Məktəbi açılır, ali məktəbə yeni müəllimlər cəlb edilir, gənc müəllimlər fəal surətdə tədqiqatlar aparırlar, müəllimlərin əməkhaqqı artırılır. Eyni zamanda burada əyani tələbələrin sayının sürətlə artması nəticəsində ilk dəfə olaraq təqaüd verilir, geniş miqyaslı quruculuq proqramı həyata keçirilir, tələbələrin sayının artması ilə əlaqədar universitet teatrı, idman və istirahət mərkəzləri olan kampusların tikintisinə başlanır. Dövrün texnoloji nailiyyətləri ilə ayaqlaşaraq ali mək-

təbdə tədqiqatların idarəolunması və kompyuter elmləri fənləri öyrədilir. 1986-cı ildə universitetin musiqi məktəbinin binası və 1988-ci ildə Maro kompleksi istifadəyə verilir, 1992-ci ildə hüquq fakültəsi yeni əraziyə köçür. 2007-ci ildə universitetin Biznes Məktəbinin yeni binası istifadəyə verilir.

2009-2010-cu tədris ilində Oklənd Universitetinin illik gəliri 843120000 Yeni Zellandiya dolları olub. Universitetin xərcləi isə həmin ildə 814583000 Yeni Zellandiya dolları təşkil edib.

Oklənd Universitetində təhsil haqqı fakültə və proqrama görə dəyişir. Bakalavr pilləsində yerli tələbələrin təhsil haqqı ixtisasından asılı olaraq 4784-6983 Yeni Zellandiya dolları arasında dəyişir, tibb və cərrahiyyə üzrə təhsil haqqı isə 12274 Yeni Zellandiya dollarıdır. Magistratura pilləsində yerli tələbələr ildə 5899-14105, MBA və menecment üzrə isə 24227 Yeni Zellandiya dolları ödəyir. Doktorantura pilləsində təhsil haqqının məbləği yerli tələbələr üçün ildə 5560 Yeni Zellandiya dollarıdır. Əcnəbi tələbələrin təhsil haqqı bir çox proqramlar üzrə 26040 və 22200, texnika ixtisası üzrə 33600, tibb və cərrahiyyə üzrə 60720 Yeni Zellandiya dolları təşkil edir. Oklənd Universitetində əcnəbi doktorantlar üçün geniş imkanlar yaradılıb. Doktorantların təhsil haqqı ildə 30600, fəlsəfə üzrə 5560 Yeni Zellandiya dollarıdır.

Bu universitetdə təhsil alan tələbəyə təhsil haqqını çıxmaqla, əlavə xərclər üçün ildə 18000-24000 Yeni Zellandiya dolları lazım olur. Əlavə xərclərə yataqxana, qida, nəqliyyat, tibbi sığorta, kitab ləvazimatları, geyim və s. aiddir.

Oklənd Universitetində xarici tələbələrə müxtəlif konkret ölkələr üzrə təqaüdlər verilir. Ölkələr üzrə verilən təqaüdlər Artinqton Devi, İkiyüzillik Çili, Çin Təqaüd Şurası, Danimarka Xaricdə Təhsil, Alman Akademik Mübadilə NEC-Pakistan, ABŞ Federal İstiqraz təqaüdləridir. Ümumi universitet təqaüdlərinə bakalavrlar üçün Yeni Zellandiyada İnkişaf, magistr və doktorantlar üçün isə Yeni Zellandiyada İnkişaf, Birlik, Fulbrayt, Doktorantura, Asiya İnkişaf Bankı təqaüdləri aiddir. Tələbələr təqaüd almaq üçün ərizə ilə universitetə, xarici tələbələr isə ölkələrinin Təhsil nazirliklərinə müraciət etməlidir. Təqaüdlərin məbləği yerli tələbələr üçün orta hesabla 5000-15000 Yeni Zellandiya dolları arasında dəyişir.

Oklənd Universiteti Oklənd şəhərində və ölkənin şimalında yerləşən 7 kampusdan ibarətdir. Siti (şəhər) kampusu Oklənd şəhərinin mərkəzində 160000 m² ərazini əhatə edir. Kampusun limanın yaxınlığında yerləşməsi, park və yaşıllıqlarla əhatə olunması onu daha da cazibəli edir. Fakültələrin bir çoxu bu kampusda yerləşir. Həmçinin şəhərcikdə çoxlu sayda tibb, istirahət, idman mərkəzləri, kitabxana, kafe yerləşir. Kampusun tarixi abidələri universitetin simvolu hesab edilən Saat qülləsi, Qədim hökumət evi və Universitet binasıdır.

Tamaki kampusu Siti kampusundan 12 km aralıda Qlen İnnes şəhərətrafı qəsəbəsində 320000 m² ərazini tutur. İdman meydançaları ilə əhatə

olunan kampusda biomühafizə, əhalinin sağlamlığı, psixologiya, nitq terapiyası kursları, dövlət xəstəxanaları, kitabxanalar, fakültələrarası elmi-tədqiqat mərkəzləri yerləşir.

Epsom kampusu 74-cü Epsom Avenyuda yerləşir və Siti kampusundan buraya 10 dəqiqəlik piyada yol qət etmək lazım gəlir. Kampus 2004-cü ildə yaradılıb. Kampusda pedaqogika və sosial elmlər üzrə müəssisələr, Yeni Zellandiyada pedaqoji təhsilə aid ən böyük kitabxanalardan olan Silviya Eşton Uorner kitabxanası yerləşir. Şəhərcikdə geniş avtomobil dayanacaqları vardır.

Qrafton Tibb və Səhiyyə Xidmətləri kampusu Siti kampusunun yaxınlığında Qrafton şəhərətrafı qəsəbəsində, Oklənd şəhər xəstəxanasının qarşısında yerləşir. Kampus 1968-ci ildə Park Roudda Tibb Məktəbi kimi yaradılıb, 1995-ci ildə isə tələbə şəhərciyinə çevrilib. Burada Tibb və Sağlamlıq Elmləri, Əczaçılıq məktəbləri və Optometriya departamenti, Starşip, Nort-Şor, Midlmor və Vaykato xəstəxanaları, Filson kitabxanası, tibbi xidmət mərkəzləri və digər müəssisələr yerləşir.

Tay Tokero kampusu şəhər mərkəzinin yaxınlığında Vranqarey ərazisindədir. Kampusda təhsil kursları vardır.

Li dəniz laboratoriyası universitetin "Dəniz şəhərciyi" adlanır və Oklənd şəhərindən 100 km Şimalda, Yeni Zellandiyanın şimal-şərq sahil boyu ərazisində yerləşir. Li dəniz laboratoriyasına məxsus Dəniz qoruğunda diplomdan sonra tədqiqatlar aparılır, dəniz həyatının öyrənilməmiş sahələri tədqiq olunur.

Manukau Oklənd Universiteti Cənubi Oklənddə Otara ərazisində yerləşir. Burada yerləşən Manukau Texnologiya İnstitutunda bir çox kurslar təklif olunur. Kampusda tələbələr üçün geniş xidmət sahələri, kitabxana, kafelər və restoranlar vardır.

Oklənd Universitetində aşağıdakı fakültə, məktəb və institutlar fəaliyyət göstərir.

İncəsənət fakültəsi universitetin ən böyük fakültələrindən biridir. Fakültə Siti kampusunda yerləşsə də, onun bölmələri digər şəhərciklərdə də vardır. Fakültə 50-dən çox ixtisas təklif edir və Antropologiya, Maori (Yeni Zellandiyada xalq) tədqiqatları, İncəsənətin tarixi, Klassik və qədim tarix, İngilis dili, Dil və dilçiliyin tətbiqinin öyrənilməsi, Kino, televiziya və media tədqiqatları, Fəlsəfə, Sosiologiya, Tarix, Siyasi tədqiqatlar departamentlərindən, Asiya Tədqiqatları, Avropa Dilləri və ədəbiyyatları, İlahiyyət məktəblərindən, İnkişaf Problemlərinin Öyrənilməsi, Sakit okean Tədqiqatları mərkəzlərindən ibarətdir. Fakültə bakalavr, magistr, doktorluq dərəcələri, diplom və sertifikatlar verir.

Təhsil (pedaqogika) fakültəsi universitetin dördüncü ən böyük fakültəsidir. Təhsildə kritik tədqiqatlar, Te Puna Vananqa, Pedaqoji təhsil təcrübəsi, Məsləhətləşmə, sosial xidmət və fəaliyyət, Elm, riyaziyyat və texnologiya,

Tədris, təlim və ixtisasartırma departamentlərindən, eləcə də 6 elmi-tədqiqat mərkəzindən ibarətdir.

Mühəndislik fakültəsi Yeni Zellandiyanən mühəndislik üzrə ən keyfiyyətli təhsil verən müəssisəsindən biridir. Fakültə Kimya və konstruksiya materialları, Vətəndaş və ekologiya mühəndisliyi, Elektrotexnika və hesablama texnikası, Mühəndislik elmləri, Maşınqayırma departamentlərindən, Oklənd Biomühəndislik, Yer Elmləri və Texnika institutlarından ibarətdir.

Hüquq fakültəsində bu istiqamətdə tədqiqatlar aparılır və təcrübəli mütəxəssislər, məhkəmə hakimləri ilə sıx əlaqələr qurulur. Fakültəyə Yeni Zellandiya Ekologiya Hüququ, Biznes Hüququ elmi-tədqiqat mərkəzləri, Hüquq Tədqiqatları Fondu, Yeni Zellandiya Hüquqi və Sosial Fəlsəfə Cəmiyyəti, Hüquq Tələbə Cəmiyyəti, Sakit Okean Adaları Hüquqşünas Tələbələr Təşkilatı, Yeni Zellandiya Üçüncü Təhsil İttifaqı, "Avstraliya və Yeni Zellandiya Hüququ və Tarixi" jurnalı, Te Tai Haruru mərkəzləri aiddir.

Dəqiq elmlər fakültəsi Yeni Zellandiyanın bu sahə üzrə ən böyük fakültələrindən biridir. Fakültəyə Biologiya elmləri, ətraf Mühitin Mühafizəsi, Kimya, Fizika, Psixologiya, Statistika, Kompyuter elmləri, Riyaziyyat, Optometriya və görünmə elmləri, İdman və məşq departamentləri, Li dəniz laboratoriyası, 14 elmi-tədqiqat mərkəzi daxildir.

Tibb və sağlamlıq elmləri fakültəsi Qrafton kampusunda yerləşir. Fakültə daxilində Tibb, Tibb elmləri, Tibb bacısı, Əczaçılıq, əhalinin sağlamlığı məktəbləri, Oklənd, Saut Oklənd, Vaykato kliniki məktəbləri, Audiologiya, Anesteziologiya, Radiologiya ilə anatomiya, Kliniki Əczaçılıq, Onkologiya, Epidemiologiya və biostatistika, İlkin tibbi yardım, Səhiyyə sistemi, Tibbi idarəetmə proqramları, Molekulyar tibb və patologiya, Qidalanma, Ginekologiya və mamalıq, Oftolmologiya, Sakit okean səhiyyəsi, Pediatriya, Əczaçılıq, Fiziologiya, Psixoloji tibb, Cərrahiyyə, Te Kupenga Hauora Maori departamentləri, Biomühəndislik, Liqqins, Milli Səhiyyə İnnovasiyaları institutları, 13 elmi-tədqiqat mərkəzi fəaliyyət göstərir.

Universitetin ən böyük elmi-tədqiqat müəssisələri kimi Liqqins, Oklənd Biomühəndislik, Milli incəsənət və Sənaye institutlarını qeyd etmək olar. Liqqins İnstitutunda mühüm biotibbi və kliniki tədqiqatlar aparılır. İnstitut döş və uşaq, böyümə və inkişaf, xərçəng, epigenetika və tibbin tədqiqatları üzrə dünyada aparıcı yerləri tutur.

Oklənd Universitetinin kitabxana sistemi Yeni Zellandiyanın birinci, Avstraliyanın isə 5 ən yaxşı universitet kitabxanasıdır. Elektron resursların inkişafı üzrə kitabxana ölkədə liderdir. 5 kampus, 12 xüsusi kitabxana, 4 informasiya fondundan (Epsom, Qrafton, Keyt Edcer, Tamaki) ibarət kitabxana kolleksiyasına ümumilikdə 2203888 ədəd çap olunmuş nəşr, 6132686 elektron resurs daxildir. Universitetin Siti kampusunda Ümumi (İncəsənət, Biznes və iqtisadiyyat, Dəqiq elmlər), Memarlıq, Audiovizual, Biznes informasiya mərkəzi, Mühəndislik, Təsviri incəsənət, Devis hüquq, Musiqi

kitabxanaları, Epsom kampusunda Silviya Eşton Uorner (Təhsil), Qrafton kampusunda Filson (Tibb və sağlamlıq elmləri), Li dəniz laboratoriyasında Dəqiq elmlər, Tay Tokero kampusunda Silviya Eşton Uorner (Təhsil), Tamaki kampusunda Əhalinin sağlamlığı, Dəqiq elmlər kitabxanaları fəaliyyət göstərir.

Oklənd Universitetinin kansleri Rocer Fransdır. Ali məktəbin əsas rəhbəri vitse-kansler Styuart Makkatçeondur. Universitetdə hazırda 4608 nəfər işçi çalışır. İşçilərin 2104 nəfərini professor-müəllim heyəti, 2504 nəfərini isə inzibati heyət təşkil edir.

Universitetdə ümumilikdə 39940 nəfər təhsil alır. Onların 29383 nəfərini bakalavratlar, 10557 nəfərini isə magistrantlar və doktorantlar təşkil edir. Universitetdə dünyanın 93 ölkəsindən 4466 nəfər xarici tələbə təhsil alır.

Oklənd Universitetində tələbələr onları qida, sosial və digər xidmətlərlə təmin edən yataqxanalarda qalır. Ali məktəbin məşhur yataqxanalarından O.T. Rorke Hol, Qrafton Hol, Royal, Beynəlxalq Ev, Parnell Tələbə kəndi, 14 nömrəli Uitaker Pleys, Park-Roud tələbə mənzilləri, Hayya rezidensiyasını qeyd etmək olar. 2012-ci ildə universitetdə yeni Elam Hol yataqxanası istifadəyə verilib. Yataqxanaların otaqları mebel və digər avadanlıqlarla təmin olunub, İnternet şəbəkəsinə qoşulub. O.T. Rorke Hol yataqxanasında bir semestr qalmaq xərcləri 6160, 6346, bir il isə 12360, 12740, Beynəlxalq Ev yataqxanasında 5130-6160, 10300-12360, Qrafton Hol yataqxanasında 4995-5920, 9990-11840, Hayya rezidensiyasında 4080, 8190, Parnell Tələbə kəndində 4209, 8600, 14 nömrəli Uitaker Pleys yataqxanasında 4290, 8600, Royal yataqxanasında 6028-7395, 12056-14790, Park-Roud tələbə mənzillərində 4884-5830, 9768-11660 Yeni Zellandiya dolları tələb olunur.

Universitetin nəqliyyat sistemi çox rahat və əlverişlidir. Kampuslarda hərəkət etmək üçün, əsasən, avtobus, qatar, bərə və velosipedlərdən istifadə olunur. Avtobuslarda bir gedişin qiyməti 1,70 Yeni Zellandiya dollarından başlayır. Tələbələr üçün ictimai nəqliyyatda güzəşt və endirimlər vardır.

Tələbə həyatının maraqlı keçməsi üçün universitetdə müxtəlif konfranslar, festivallar, sərgilər, tamaşalar, yarışlar, oyunlar və s. mədəni tədbirlər təşkil olunur. Universitet ərazisində bu məqsədlər üçün Meydment teatrı, Qus Fişer, Corc Freyzer qalereyaları fəaliyyət göstərir. Universitetdə tələbə təşkilatları fəaliyyət göstərir, tələbə qəzet və jurnalları dərc edilir. Tələbələrə fitnes, aerobika, yoqa, rəqs və digər xidmətlər təklif edilir. Ali məktəb uğurlu idman tarixinə malikdir. Burada idmanın bütün növləri inkişaf etdirilib. Universitetin idmançıları Yeni Zellandiyanı müxtəlif beynəlxalq idman yarışlarında layiqincə təmsil edib.

Oklənd Universitetinin missiyası dünya arenasında yüksək nüfuz qazanmaq, fundamental tədqiqatlar həyata keçirmək, keyfiyyətli təhsil vermək, yerli, milli və beynəlxalq cəmiyyət ilə səmərəli əməkdaşlıq qurmaqdan ibarətdir. Bir əsrdən çoxdur ki, universitet cəmiyyətin inkişafına tövsiyə verən şəxslər

yetişdirir. Dünyanın bir çox ölkələrini təmsil edən tələbələrin burada oxumaları ilə yanaşı, universitet istedadlı və savadlı müəllimləri də cəlb edərək işlə təmin edir.

Universitetin vitse-kansleri Styuart Makkatçeon rəhbərlik etdiyi ali məktəb haqqında deyir: "Hər gün Oklənd Universitetində yeni kəşflər edilir. Müəllim və tədqiqatçılarımız xərçəngin tədqiqatı, biznes, mədəniyyət və digər sahələr üzrə dünyada aparıcı mövqeyə malikdir. Siz də bu fəaliyyətin bir hissəi ola bilərsiniz. Hər birinizi bizi daha yaxından tanımaq üçün Oklənd Universitetinə dəvət edirəm".

## DANİMARKADA TƏHSİL

Ölkənin 4 ən məhşur şəhəri Kopenhagen, Olborq, Orxus və Odensdə yerləşən ali təhsil müəssisələri haqqında aşağıdakıları deyə bilərik. Hər il Danimarkaya gələn tələbələrin, həmçinin tədqiqatçıların və müəllimlərin sayı artır, bu isə Skandinaviya ölkəsində təhsilin nə qədər cazibədar olduğunu bir daha sübut edir. Danimarkanın təhsil müəssisələri beynəlxalq tələblərə istiqamətlənmişdir və ən müasir ixtisaslar üzrə təhsil ingilis dilində tədris olunur. Danimarkada təhsil Sizin müvəffəqiyyətli karyeraya doğru yolunuzdur!

Danimarkada professional tədris prosesi dinamik və innovasiyalı mədəniyyətə uyğunlaşdırılaraq, öz qədim ənənələrini də saxlayır. Yüksək dövlət təhsil standartları, əldə olunan nəzəri biliklərin praktikada tətbiqi, fənlərarası tədqiqatlar və tələbələr tərəfindən tədqiqat xarakterli işlərin aparılması Danimarkada təhsilin əsas xüsusiyyətlərindən biridir .

Danimarka öz vətəndaşlarına və başqa ölkələrdən buraya təhsil almaq üçün gələn tələbələrə yüksək həyat tərzi, təmiz ətraf mühiti, təhsildə və tədqiqatlarda yüksək standartları olan cazibədar işgüzar iqlim təklif edən ölkədir. Tələbələr mühazirələrdə iştirak edir, elmi-tədqiqat işlərinin aktiv müzakirəsi prosesinin zənginləşməsində qruplarla əməkdaşlıq edir və bununla yanaşı hər biri həm də fərdi işləyə bilir. Bütün inkişaf etmiş ölkələrin işə götürənləri tərəfindən qəbul edilən ixtisaslaşma burada əldə edilir.

Danimarka təhsilə böyük miqdarda pul vəsaiti ayırır. Əhalinin adambaşına düşən Nobel mükafatlarının sayına görə ölkə dünyada üçüncü yerdədir. Danimarkalıların çox hissəsi ingilis dilində danışır, bu səbəbdən də Danimarkaya gələn tələbələr Danimarka dilini bilmədiklərinə baxmayaraq, bu ölkədə yaşadıqda çətinlik çəkmirlər. Əhalinin 80%-i ingilis dilini bilir, bir çoxu isə fransız, alman və ya ispan dillərində də danışır.

Təhsil müəssisələrində seçim etmək üçün 10 mühüm amil vardır:

- Yüksək təhsil keyfiyyəti. Danimarkanın təhsil sistemi dünyada ən yaxşı təhsil sistemlərindən biri kimi tanınmışdır.
- Proqramlar beynəlxalq səviyyədə tanınmışdır, ECTS sistemi üzrə təhsil (European Credit Transfer System) tətbiq edilir. İki illik proqramı bitirdikdən sonra tələbələr 120 ECTS points alırlar.
- Perspektiv ixtisasların geniş seçimi maliyyə menecmenti, mehmanxana və turizm menecmenti, marketinq menecmenti, kompyuter texnologiyaları, multimediya dizayn, dizayn və texnologiyalar (qrafika), məlumat texnolo-

giyaları və elektron mühəndislik, texniki tikinti, kənd təsərrüfatı üzrə mühəndislik, kimyəvi və biotexniki analizdən ibarətdir.

- İngilis dilində təhsil akademik mühazirələri, layihələr üzrə işləmək xüsusiyyətini həyata keçirir.
- Təhsilin və yaşayışın aşağı qiyməti.
- Professional ali təhsilin akademik dərəcəsinin əldə olunması üçün 10 müxtəlif proqram təklif edilir. Ali təhsil aldıqdan sonra məzunlar işə başlaya bilər və ya Danimarkada, Böyük Britaniyada, Niderlandda, Avstraliyada, ABŞ-da, Macarıstanda, Fransada, Norveçdə və başqa ölkələrdə, həm də öz universitetlərinin birində magistr dərəcəsinin əldə olunması üçün 1-1,5 il müddətində əlavə təhsil almaq mümkündür.
- Proqramların nəzəri və prakriki əsası (özəyi) bazarın müasir tələblərinə əsaslanmışdır. Akademiyalar təhsilin yüksək innovasiyalı, yaradıcılıq və professional səviyyəsini və ən yeni texnologiyaların istifadəsini təqdim edir. Bütün akademiyalar ən müasir kitabxanalarla, mühazirə auditoriyaları və laboratoriyalarla təchiz olunmuşdur. Kitabxanalarda, kompyuter otaqlarında və (bəzi təhsil müəssisələrində) hətta dəhlizlərdə belə kompyuterlər vardır. Bütün tələbələr onlardan azad, sərbəst şəkildə istifadə edə bilər.
- Ali məktəblər işgüzar və tədqiqat təşkilatları ilə əməkdaşlıq edir, öz tələbələri üçün müntəzəm şəkildə aparıcı kompaniyalarda görüşlər təşkil edirlər, tələbələrə professional təcrübə keçmək fürsəti verilir.
- Tədris müddətində və tətillər zamanı tələbələrə işləmək hüququ verilir. Tələbənin orta əmək haqqı saatda 13 evr. təşkil edir.
- Binar adlanan struktur üzrə ali təhsil müəssisələri iki bölməyə bölünür:
  universitet bölməsi;
  kollec bölməsi, yəni peşə üzrə istiqamətlənmiş ali təhsil bölməsi.

Danimarkada təhsil alan tələbələr müstəqil şəkildə işləyir və öz qabiliyyətlərini göstərirlər. Ənənəvi mühazirələrdə olduğu kimi, tələbələr həmçinin onların işləmək istədikləri yerdə nəzərdə tutulduğu kiçik qruplarda təhsil alırlar. Onların təhsilinin bir hissəsi müstəqil layihədən və tədqiqat işindən ibarətdir. Dərəcənin əldə olunması üzrə kursların bir çoxu müstəqil xarakter daşıyır və ixtisaslaşma sahəsini tələbələrin özləri seçir.

Universitet bölməsinə 12 bölmə daxildir, onlardan bəziləri bir neçə fakültələrdən ibarət bölmələr, digərləri isə tikinti, təhsil, baytarlıq, aqronomluq, farmakologiya və biznes kimi sahələr üzrə ixtisaslaşan bölmələrdir. Bundan əlavə, arxitektura, incəsənət, musiqi və s. üzrə mütəxəssislərə təhsil verən 13 institut vardır.

Bu cür institutlarda təhsil, aparılan tədqiqatlara əsaslanmalıdır. Bu, bütün proqramlar üzrə yüksək standartları əldə etmək məqsədi olan bütün universitetlər üçün fundamental prinsipdir.

Kollec bölməsi özündə professional istiqamətləndirilmiş proqramları təklif edən 100-ə yaxın ixtisaslaşdırılmış ali təhsil institutlarını ehtiva edir:

• Bakalavr dərəcəsini təklif edən kolleclər.

• İkiillik professional akademik dərəcələrini təklif edən professional kolleclər.

2000-ci ildə parlament tərəfindən imzalanmış normativ akta əsasən, professional bakalavr dərəcələrini təklif edən kolleclərin bir çoxu daha geniş profilli ali təhsil mərkəzləri şəklində birləşmişlər. Kolleclər professional istiqamətləndirilmiş ali təhsil növlərinin möhkəmləndirilməsi və gələcək təhsil üçün yeni imkanların yaradılması məqsədilə təşkil olunmuş, yaradılmış institutların yeni növüdür. Professional akademik dərəcələrini verən kolleclərin bir çoxu professional ali təhsil akademiyalarını təşkil etmişlər.

Danimarkada ali təhsil müəssisələrinə qəbulun əsas tələbləri 12-illik təhsil bazasında həyata keçirilir.

Professional akademik proqramlarına qəbul tam orta təhsilin adekvat kursları (riyaziyyat, fizika, ingilis dili) ilə tamamlanmış 3-4 illik ekvivalent professional təhsil proqramlarının bazası əsasında da mümkündür. Bakalavr dərəcəsini almaq üçün müəyyən proqramlar üzrə alternativ qəbul 2-3 il təcrübənin olması ilə bərabər ekvivalent təhsil ixtisaslaşması (bir qayda olaraq, professional bakalavr dərəcəsi) bazası əsasında mümkündür. Bir çox təhsil proqramlarına qəbul spesifik tələblərin yerinə yetirilməsindən asılıdır. Onlara fənlərin səviyyəsinə, əldə olunan nəticələrə, praktikaya və s. tələblər aid edilə bilər. Müəyyən sahələr üzrə, məsələn, incəsənət və musiqi sahələri üzrə proqramlara qəbul istedadı qiymətləndirən giriş imtahanını tələb edir.

Nazirlik elmin müəyyən sahələrinə və ali təhsil üzrə maksimal sayda tələbələrin təhsil ala biləcəyinə cavabdehlik daşıyır. Bəzi institutlar elmin müəyyən sahələri üzrə ixtisaslara qəbulu məhdudlaşdıra bilər. Tələbələr kvotalar sisteminə uyğun olaraq qəbul olunmaq üçün ərizə verirlər. Hər bir institut əsas tələblərə uyğun olaraq abituriyentlərin seçimini aparır. Sadə (əlçatan) yerlər iki kvota sisteminə bölünür. Birinci kvotada yerlər orta nəticələrin bazası əsasında Danimarka məktəb sertifikatlarına və ya ona ekvivalent olan məktəb sertifikatlarına malik olan namizədlər arasında bölüşdürülür. İkinci kvotada olan yerlər institutun fərdi qiymətləndirməsi üzrə verilir.

Tələbələr hər kursu bitirdikdən sonra imtahan verməlidirlər. Danimarkanın bütün ali təhsil institutlarında imtahanlar təkcə müəllimlər tərəfindən deyil, həmçinin müstəqil imtahan götürənlər (imtahan götürən) tərəfindən də aparılır. Müstəqil imtahan götürənlər şərtlərini bütün imtahan verənlərə qarşı eyni və bərabər standartların tətbiq olunması üçün cavabdehlik daşıyırlar. Tam proqram bitdikdən sonra tələbəyə diplom və s. verilir

2002-ci ilin 1 sentyabr tarixindən etibarən bütün ali təhsil institutları məzunlar üçün ingilis dilində diploma əlavəni çap etməlidirlər. Bu təmənnasız (pulsuz) edilir. ECTS kreditlərinin istifadəsi bütün ali təhsil məktəbləri üçün məcburi elan olunur.

Dərəcələr strukturu üç əsas dərəcəyə əsaslanmışdır: bakalavr, magistr və doktor. 1980-ci illərin sonlarında islahat nəticəsində Danimarkada ali təhsil birdərəcəli ixtisaslaşma strukturundan ikidərəcəli ixtisaslaşma strukturuna keçdi. 1993-cü ilin islahatı bakalavr dərəcəsinin ümumi strukturunu tətbiq etdi. Nəticədə, universitet proqramlarının, demək olar ki, hamısı bakalavr, magistr və doktorluq proqramından ibarətdir. Bakalavr proqramı tamamlanmış mükəmməl proqramdır və tələbələrin bir çoxu magistraturaya qəbul olunmağa səy göstərir.

Dərəcələrin bu yeni strukturu nəticəsində 1995-1996-ci illərdə fəlsəfə doktorunun dördillik dərəcəsindən imtina edildi

Danimarka ölkəsində savadsızlar azlıq təşkil edir. Yaşlıların arasında savadsızların sayı 1%-dən artıq deyildir. Danimarkada təhsil sistemi dövlətin nəzarəti altındadır. Ümumi təhsil prinsipləri dövlət orqanları tərəfindən təyin edilir. Bütün orta və ali təhsil müəssisələri, əsasən, Təhsil Nazirliyi və Mədəniyyət Nazirliyinin tabeçiliyində olan dövlət müəssisələridir.

Danimarkanın təhsil sistemi orta məktəbə, ali məktəbə, həmçinin ali təhsilin bir zox növlərinə qəbul imkanını təqdim edir. Təhsil eyni zamanda özəl məktəblərdə və ya evdə keçirilən təhsil nəticəsində də əldə oluna bilər. Şagirdlərin 99%-ə qədəri orta məktəbə, 86%-i tam orta məktəbə gedir, 41%-i isə öz təhsillərini ali təhsil müəssisələrində davam etdirirlər. Danimarkada bütün təhsil pulsuzdur, həmçinin qəbul zamanı heç bir ödəniş ödənilməməlidir. Tam orta məktəb şagirdləri tələbə təqaüdünün analoqu olan aylıq ödənilən müəyyən edilmiş maliyyə yardımını almaq iddiasında da olurlar. Danimarka təhsil sistemi 1894-cü ildən fəaliyyət göstərir. O, tam nəzarəti valideynlərə həvalə edir, onlar uşağın məktəbə gedib-getməməsi haqqında qərar qəbul edirlər. Qanun 7 yaşından 16 yaşına qədər icbari təhsili nəzərdə tutur. İcbari təhsil pulsuzdur.

Danimarkada ilkin təhsil Danimarkanın orta məktəbi adlanır. O, məktəbə qədər təhsildən başlayır və 10-cu sinifdə sona çatır, lakin 10-cu sinif məcburi deyil. Şagirdlər həm pulsuz dövlət məktəblərində, həm də özəl məktəblərində, yəni xristian məktəbləri kimi və ya Valfdorf məktəbləri kimi bələdiyyənin tabeçiliyi altında olmayan məktəblərdə təhsil ala bilərlər. İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatının idarə etdiyi təhsil alanların təhsil nailiyyətlərinin qiymətləndirilməsi üzrə beynəlxalq proqram üzrə Danimarka təhsili 2006-ci ildə 24-cü yerdə oldu, bu isə İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatının orta göstəricisinə görə kafi nəticədir.

Folkeskolen məktəbini bitirdikdən sonra, gimnaziyaya (akademik şəkildə istiqamətləndirilmiş sonrakı təhsil) daxil olmaqla, sonrakı təhsilin bir neçə yolu vardır: Ali məktəblərə hazırlıq imtahanı gimnaziyaya oxşardır, lakin müddəti bir il azdır. Riyaziyyat və mühəndislik fənlərinin Ali Texniki məktəblərdə İmtahan Proqramı ticarət və biznes fənlərindən xüsusi olaraq üstün tutulur. Ali Kommersiya məktəblərində İmtahan proqramına oxşardı. Bundan

başqa, nəzəriyyənin və praktikanın birləşdirilməsi vasitəsilə cavanlara müəyyən ixtisaslaşmanı öyrədən təhsil mövcuddur.

Gimnaziyalar, öz qarşılarına şagirdlərin universitet və kolleclərdə təhsil almaq üçün hazırlıq məqsədlərini qoyurlar.

7-14 yaşlı uşaqların icbari ibtidai təhsili haqqında ilk qanunu 1849-cu ildə qəbul edilmişdir. Danimarkada məktəb sisteminin əsasını qoyan 1903-cü il qanunu 1950-ci illərin axırlarına qədər qüvvədə olmuşdur. 1958-ci ildə yeni məktəb islahatı keçirilmişdir. Məktəblərə Maarif nazirliyi rəhbərlik edir. Bundan başqa, hər bələdiyyədə xüsusi məktəb idarəsi fəaliyyət göstərir. Təhsil pulsuzdur, lakin şagirdlərin təqribən 10 faizini əhatə edən qeyri-dövlət təhsil müəssisələri də var. Məktəbəqədər müəssisələr Əmək və ictimai təminat nazirliyinin sərancamındadır. Təhsil müddəti ibtidai məktəblərdə 7 il, natamam orta məktəbdə 3 il, tam orta məktəbdə də 3 ildir. 1974-1975 dərs ilində ibtidai məktəblərdə 224752 şagird oxuyurdu. Təhsil haqqında 1975-ci il qanununa müvafiq olaraq, 1976-cı ilin avqustundan 1-10-cu siniflər üçün bütün ölkədə vahid təhsil proqramı həyata keçirilmişdir. 12-illik ümumtəhsil məktəblərinin təsis edilməsi planlaşdırılmışdır. Texniki peşə hazırlığı natamam orta məktəb bazasında 1-3 il müddətində həyata keçirilir. 19731974-cü dərs ilində texniki peşə məktəblərində 131453 şagird oxuyurdu. Danimarkada 5 universitet, 3 texniki ali məktəb, 10 institut və 8 kollec var. Böyük kitabxanaları: Milli kitabxana (2 milyondan çox kitab), Bələdiyyə kitabxanası (1880 min kitab) və s. Əsas muzeyləri: Milli muzey, Dövlət rəssamlıq muzeyi, Kral dəniz muzeyi və s.

Danimarkada təhsil və elm müəssisələri 15-ci əsrin sonunda yaranmışdır. T.Brahe Uraniborq rəsədxanasının əsasını qoydu. 17-ci əsrdə Danimarkanın elmi mərkəzi Kopenhagen universiteti oldu. H.Erstedinin elektrik, optika və akustika sahəsində işləri onu məşhurlaşdırmışdır. O, cəryanın maqnit təsirini kəşf etdi. Onun təşəbbüsü ilə Danimarkada Ali Texniki Məktəb açıldı. 19-cu əsrin 2-ci yarısı və 20-ci əsrin əvvəllərində Meteorologiya İnstitutu, coğrafiya, kimya, elektrotexnika, astronomiya və s. cəmiyyətləri yarandı. 20-ci əsrdə N.Borun fəaliyyəti zamanı Danimarka atom fizikasının tədqiqat mərkəzlərindən biri oldu. Onun təşəbbüsü ilə Nəzəri Fizika İnistutu yaradıldı. X.Bor dövrü funksiyaların nəzəriyyəsini verdi. 1945-ci ildən sonra Danimarkada tətbiqi elektronika, izotoplar, zülallar kimyası və s. elmi-tədqiqat institutları təşkil olundu. 1957-ci ildə Nüvə Tədqiqatları Mərkəzi yaradıldı. 1975-ci ildə O.Bor və Mottelson nüvə fizikası sahəsndəki tədqiqatlarına görə Nobel mükafatı aldılar.

**Orhus Universiteti (Aarhus University).** Bu universitet Danimarkanın Orhus şəhərində yerləşir və Kopenhagen Universitetindən sonra ölkənin ikinci ən böyük və qədim ali məktəbidir.

Böyük Britaniyanın "Times Higher Education Supplement-QS World Universities Rankings" jurnalının 2009-cu ildə apardığı dünya universitetlərinin reytinqinə əsasən, Orhus Universiteti 100 ən yaxşı ali məktəb arasında

63-cü yerdə yerləşmişdir. 2010-cu il üzrə dünyanın ən nüfuzlu universitetləri arasında Orhus Universiteti "Times Higher Education World University Rankings"in apardığı araşdırmaya əsasən 167-ci, "QS World University Rankings"in açıqlamasına görə isə 84-cü yerdə yerləşibdir.

Orhus Universiteti 1928-ci il sentyabrın 11-də yaradılıb. Bu zamana qədər Danimarkada təkcə bir universitet, Kopenhagen Universiteti fəaliyyət göstərirdi. Ölkənin ikinci ən böyük şəhəri olan Orhusda universitet yaradılmasına ehtiyac duyulurdu. Bu zaman Orhus şəhərinin bələdiyyəsi yeni universitetin yaradılması üçün 33 min kron vəsait ayırır. 1928-ci ildən Orhus şəhərindəki Texniki Kollecin sinif otaqları icarəyə götürülmüş və Orhus Universitetinin Humanitar elmlər fakültəsi fəaliyyətə başlamışdır. Fakültənin müəllim heyəti fəlsəfə üzrə bir professor, Danimarka, ingilis, alman və fransız dilləri üzrə dörd dosentdən ibarət olur. 1933-cü ildən yeni yaradılmış ali məktəb yerləşdiyi şəhərin adına görə rəsmi olaraq Orhus Universiteti adını daşıyır, bir il sonra isə universitetin humanitar fakültəsi akkreditasiyadan keçir və imtahan keçirmək hüququ qazanır. Həmin vaxtadək tələbələr tədqiqatlarını Kopenhagen Universitetində aparırdılar. 1933-cü ildə Orhus Universitetinin tibb elmləri, 1936-cı ildə iqtisadiyyat və hüquq, 1942-ci ildə ilahiyyət fakültələri açılır. Ali məktəbin kampusu memar Kristian Frederik Müller tərəfindən inşa edilir və indiyədək kampusun binalarının tikintisi Müller arxitektorları firması tərəfindən həyata keçirilir.

II Dünya müharibəsində Danimarka almanlar tərəfindən işğal olunduğu dövrdə gestapo Orhus Universitetinin tələbə şəhərciyindəki iki yataqxananı öz qərargahlarına çevirir. 1944-cü il oktyabrın 31-də Danimarka müqavimət hərəkatının tələbinə görə Kral hava qüvvələri gestaponun yerləşdiyi universitet yataqxanalarına havadan zərbələr endirir və onları yerlə yeksan edir. Lakin təyyarələrin biri almanlar tərəfindən topla vurulduğuna görə universitetin əsas korpusuna da bombalar düşür. Bu hadisə zamanı əsas binada olan memar Müller xoşbəxtlikdən sağ qalır və bir müddət sonra onu dağıntıların altından qazıb çıxarırlar. Deyilənlərə görə, Müller özünə gələn kimi soruşur: "Arkalar dağılmayıb ki?". Müller əsas binanın bəzədilmiş hörgü arkalarını nəzərdə tuturdu və bilirdi ki, arkalar dağılsa, onların yenidən qurulması üçün vəsait toplamaq mümkün olmayacaq. Arkalar isə heç bir zədə almır və hazırda da vardır. Bombalanan zaman 10 fəhlə həlak olur. Danimarka müqavimət hərəkatı hava hücumu zamanı mülki əhali arasında tələfatın qarşısını almaq üçün kampusun modeli üzərində bir neçə ay gərgin iş aparıb. Buna səbəb Orhus Universitetinin kampusunun iki xəstəxanasının sıx məskunlaşmış rayonda yerləşməsi olub.

II Dünya müharibəsindən sonra Orhus Universiteti tədricən bərpa olunmağa başlayır, yeni tədris proqramları qəbul edilir, tələbə və müəllimlərin sayı artır, yeni fakültələr açılır. 1948-ci ildə Danimarkada aparılan orfoqrafiya islahatından sonra Orhus şəhərinin və universitetin adı köhnə

variantda olduğu kimi qalır. 1954-cü ildə universitetdə bir neçə fakültənin birləşməsi nəticəsində dəqiq elmlər fakültəsi yaradılır.

2007-ci ildə universitetin kənd təsərrüfatı elmləri fakültəsi açılır. 1939-cu ildən fəaliyyət göstərən Orhus Biznes Məktəbi, eləcə də Milli Ekologiya Tədqiqatları İnstitutu universitetə birləşdirilir.

2009-2010-cu tədris ilində Orhus Universitetinin illik gəlirləri 5270096000, illik xərcləri isə 5273853000 Danimarka kronu olub.

Orhus Universitetinə yerli abituriyentlər imtahansız, orta məktəbin buraxılış imtahanlarının nəticəsini təqdim edərək qəbul olunurlar. Universitetdə yerli və Avropa Birliyinə daxil olan ölkələri təmsil edən tələbələr ödənişsiz oxuyurlar. Orhus Universitetində xarici tələbələrin təhsil haqqı ictimai, humanitar elmlər, ilahiyyət fakültələrində, Təhsil Məktəbində ildə 9100 avro, Biznes Məktəbində 11500 avro, dəqiq elmlər və texnologiya, tibb elmləri fakültələrində ildə 15300 avro təşkil edir. Təhsil haqqı tələbənin fakültədə qeydiyyata düşməsindən bir ay əvvəl ödənilməlidir.

Dünyanın başqa universitetlərində olduğu kimi, Orhus Universiteti də tələbələrə müxtəlif təqaüd və kreditlər ayırır. Danimarka Dövlət təqaüdünün məbləği təhsil və yataqxana xərclərindən azad edilməklə, ayda orta hesabla 7500 Danimarka kronu təşkil edir. Təqaüd və kredit almaq üçün tələbə avqust və fevral ayında universitetə yazılı ərizə ilə müraciət etməlidir. Tələbə götürdüyü krediti oxuduğu müddətdə tədricən və ya universiteti bitirib işə düzəldikdən sonra geri qaytarır. Əgər tələbə ali məktəbi bitirdikdən sonra sağlamlığı ilə əlaqədar və digər səbəblərə görə işləmək imkanını itirirsə və ya iş tapa bilmirsə, götürdüyü kredit ona bağışlanır.

Orhus Kopenhagendən sonra Danimarkanın ikinci ən böyük şəhəridir və Yutlandiya yarımadasının şərqində yerləşir. Təpə və meşələrdən ibarət bu liman şəhəri çox əlverişli coğrafi mövqeyə malikdir. Ölkənin bütün hissələrinin dəmir yolları Orhus şəhərində kəsişir. 1,2 milyon əhalisi olan şəhərin insanları çox mehriban və qonaqpərvərdir.

Orhus Universiteti kampusunun planı 1931-ci ildə danimarkalı memarlar Kristian Frederik Müller, Key Fisker, Pol Steqmann və landşaft memarı Karl Teodor Sorensen tərəfindən hazırlanıb. Kampusun tikintisinə 1932-ci ildə başlanıb və XXI əsrədək davam edib. Plana əsasən, böyük sahədə tikilmiş binalar sarı kərpic və kirəmitdən ibarət olduğundan bütün kampusa eyni görünüş verir. Binalara sarmaşan bitkilər, parklar və güllər kampusa əvəzolunmaz gözəllik verir. Orhus Universitetinin binaları Danimarkanın Mədəniyyət Nazirliyi tərəfindən ölkənin memarlıq nümunələri kimi qorunur. 2011-ci il yanvarın 1-dən Orhus Universiteti 4 akademik sahəyə bölünüb.

Milli Ekoloji Tədqiqatlar İnstitutu, Kənd təsərrüfatı elmləri və dəqiq elmlər fakültələri birləşdirilərək Orhus dəqiq elmlər və texnologiya fakültəsi yaradılıb. Fakültəyə Biologiya, Kimya, Riyaziyyat, Kompyuter, Yer, İdman elmləri, Molekulyar Biologiya, Fizika və Astronomiya, Elmi tədqiqatlar

departamentləri, 30-dan çox elmi-tədqiqat mərkəzi, Təbiətşünaslıq tarixi, Steno elm və tibbin tarixi muzeyləri, Ole Remer rəsədxanası, Orion planetarisi, Orhus Botanika bağı aiddir.

Humanitar fakültələri, ilahiyyət fakültələri və Danimarka Təhsil Məktəbi birləşdirilərək Orhus incəsənət fakültəsi yaradılıb. Humanitar fakültəyə Antropologiya, Arxeologiya və linqvistika, Estetik tədqiqatlar, Tarix və regionşünaslıq, İnformasiya və media tədqiqatları, Dil, ədəbiyyat və mədəniyyət, Fəlsəfə və ideyaların tarixi, Skandinav tədqiqatları departamentləri, Humanitar Ali Məktəbi, Vizuallaşma və Qarşılıqlı Təsir, Təhsilin İnkişaf etdirilməsi və s. 20-dən çox elmi-tədqiqat mərkəzi, Qədim incəsənət, Qədim şəhər, Moesgaard muzeyləri aiddir.

İlahiyyət fakültəsi İncil tədqiqatları, Kilsə tarixi və praktik ilahiyyət, Sistematik ilahiyyət, Dini tədqiqatlar, ərəb və İslam tədqiqatları bölmələrindən, Dini Tədqiqatlar və İlahiyyət Ali Məktəbindən (magistrant və doktorantlar üçün), Bioetika və Nanoetika, Müasir Din, Antik və Xristian Tədqiqatları, Qrundtviq Təhsil elmi-tədqiqat mərkəzlərindən ibarətdir. Danimarka Təhsil Məktəbində Pedaqogika, Tədris, Kurikulum tədqiqatları, Mütləq orta təhsil departamentləri fəaliyyət göstərir.

İctimai elmlər fakültəsi və Biznes Məktəbi birləşdirilərək Orhus Biznes Məktəbi yaradılıb. Biznes Məktəbinin nəzdində Hüquq, İqtisadiyyat və Menecment məktəbləri, Siyasi elmlər, Psixologiya departamentləri, Danimarka Siyasi Tədqiqatlar, Milli Qeydiyyat Tədqiqatları əsasları, Alkoqol və Narkotik Tədqiqatları, Tədris və Təhsil elmi mərkəzləri vardır.

Sağlamlıq elmləri fakültəsində bir sıra dəyişikliklər edilərək yeni Orhus sağlamlıq elmləri fakültəsi yaradılıb. Sağlamlıq elmləri fakültəsinə İctimai Səhiyyə Məktəbi Ümumi müalicə təcrübəsi, Biostatistika, Sosial tibb və epidemiologiya, Ətraf mühit və əmək tibbi, Elm və tibb bacısı, tibb xidmətləri tədqiqatları departamentlərindən ibarətdir. Anatomiya departamenti, Fiziologiya və Biofizika İnstitutu Membran Reseptorlar və əsəb Xəstəlikləri Mərkəzi, Stomatoloq Köməkçiləri, Gigiyenaçı və Klinika Texnikləri Məktəbi, Orhus Universitet xəstəxanası daxildir.

Universitetin Nanoelmlər Fənlərarası Mərkəzi 2002-ci ildə professor Flemminq Besenbacher tərəfindən yaradılıb və nanoelmlər üzrə fənlərarası tədqiqatlar üçün geniş spektrdə proqramlar təklif edir. Burada təhsil, əsasən, fizika, kimya, biologiya, molekulyar biologiya, riyaziyyat, kompyuter elmlərini əhatə edir.

Orhus Universitetinin kitabxana sistemi çox zəngindir və Danimarka dövlətinə məxsus milli kütləvi kitabxanadır. Universitetin kitabxana sisteminə cəmi 2 əsas və 24 sahə kitabxanası daxildir. Əsas kitabxanalara Universitet və Danimarka Elektron Tədqiqatlar, sahə kitabxanalarına isə Humanitar fakültəyə məxsus Dil, ədəbiyyat və mədəniyyət, İT-Katrinebcerg, Moesqaard, Rinqqade, Estetika, Sağlamlıq elmləri fakültəsinə Stomatologiya, İctimai

elmlər fakültəsinə məxsus Hüquq, Siyasi elmlər, İqtisadiyyat, Psixologiya, İlahiyyət fakültəsinə məxsus İlahiyyət, Dəqiq elmlər fakültəsinə məxsus Biologiya, Kimya, Kompyuter elmləri və informasiya-media tədqiqatları, Yer elmləri, Elm və tibbin tarixi, Riyaziyyat, Fizika və Astronomiya, İdman elmləri, Kənd təsərrüfatı fakültəsi, Biznes Məktəbi, Danimarka Təhsil Məktəbi, Milli Ekologiya İnstitutunun kitabxanaları aiddir. Kitabxana sisteminə dünyanın bir çox dillərində milyonlarla kitab daxil olmaqla jurnallar, kitablar, musiqi avadanlıqları, filmlər, şəkillər, xəritələr və s. daxildir. Kitabxana sisteminin veb-saytına daxil olmaqla oxucular lazımi materialları əldə edə bilər.

Universitetdə ümumilikdə 11000 əməkdaş fəaliyyət göstərir. Onların 4000-ə yaxını professor-müəllim, qalanları isə inzibati və texniki heyətdir. Bu ali təhsil müəssisəsində 38000-dən çox tələbə təhsil alır.

Orhus Universitetinin 8000-nə yaxın yataqxana kompleksi vardır. Yataqxanalarda otaq tutmaq üçün universitetin Mənzil idarəsinə ərizə ilə müraciət etmək və növbəyə yazılmaq lazımdır. Universitetə əvvəldən müraciət edən tələbə otaqla daha tez təmin olunma şansı qazanır (ən yaxşı vaxt iyulun 1-dən avqustun 1-nə qədərdir). Kampusdan kənardakı yataqxanalar Orhus şəhərinin müxtəlif yerlərində yerləşir. Otaqların qiyməti yataqxanadan və otağın şəraitindən asılı olaraq 1500-5000 Danimarka kronu arasında dəyişir (əksər yataqxanalarda qiymətlər 2000-3000 kron arasındadır). Yataqxanaların hovuzu, idman kompleksləri, ticarət mərkəzləri, yeməkxana və kafeləri vardır, burada ictimai nəqliyyat çox rahat təşkil olunub. Tələbələr nəqliyyat vasitəsi kimi velosipedə daha çox üstünlük verirlər.

Orhus Universitetində iki böyük tələbə təşkilatı, Tələbə İttifaqı və Studenterlauget vardır. Tələbə İttifaqı bütün universitet, Studenterlauget isə Orhus Biznes Məktəbi üzrə fəaliyyət göstərir. Bu təşkilatlar müxtəlif konsert və tədbirlər, seminar və konfranslar təşkil edir, Tələbə İttifaqı "Delfinen" tələbə jurnalı çap edir. Universitetdə siyasi təşkilatlar da (sosial-demokratlar, mühafizəkarlar, liberallar və s.) yaradılıb. Mühafizəkarlar tələbə təşkilatı "Critique" jurnalı, Liberallar isə "Minerva" qəzeti nəşr edir.

Orhus Universitetinin missiyası elmi-tədqiqatlar aparmaq, yeni proqramlar qəbul edərək dünyada elmin, milli və qlobal rifahın inkişafını təmin etmək, dünyanın ən elit universitetləri arasında olmaqdan ibarətdir. Universitetin tələbə və müəllimləri ətraf mühitlə sıx və dinamik əlaqələr qurur, yeni-yeni elmi nailiyyətlərə imza atırlar. Bu ali məktəbdə beynəlxalq əməkdaşlığa xüsusi önəm verilir, xaricdən alim və tələbə cəlb etmək üçün məqsədyönlü işlər görülür.

Orhus Universitetinin şüarı belə səslənir: "Dərinliklərdə möhkəm bünövrə qurun".

**Kopenhagen Universiteti (University of Copenhagen).** Bu universitet Danimarkanın paytaxtı Kopenhagen şəhərində yerləşir və ölkənin ən böyük ali məktəbidir. Avropanın aparıcı elmi tədqiqat mərkəzlərindən biri olan Kopen-

hagen Universitetində dərslər Danimarka, ingilis və alman dillərində keçilir. Kopenhagen Universiteti Beynəlxalq Tədqiqat Universitetləri Alyansının üzvüdür.

Böyük Britaniyanın "Times Higher Education Supplement – QS World Universities Rankings" jurnalının 2009-cu ildə apardığı dünya universitetlərinin reytinqinə əsasən, Kopenhagen Universiteti 100 ən yaxşı ali məktəb arasında 51-ci yerdə sıralanıb. 2010-cu ildə dünyanın ən nüfuzlu universitetləri arasında "Times Higher Education World University Rankings"-in açıqlamasına əsasən, Kopenhagen Universiteti 177-ci yerdə, "QS World University Rankings"-in açıqlamasına əsasən isə 45-ci yerdə olub.

Kopenhagen Universiteti 1479-cu il iyunun 1-də Kral I Xristian Roma papası IV Sikstin razılığını aldıqdan sonra yaradılıb və Danimarkanın ən qədim ali təhsil ocağıdır. 1920-ci illərin sonunda, Lund şəhərində 1536-cı ildə yaradılan Aarhus Universitetinə qədər Kopenhagen Universiteti Danimarkada yeganə ali məktəb idi. Universitet Universal Roma katolik kilsəsinin bir hissəsi olaraq ilahiyyat, hüquq, tibb və fəlsəfə fənlərini tədris edir. Ali məktəb Lüteran Reformasiyasından sonra 1537-ci ildə bərpa edilir və Yevangelist-Lüteran seminariyasına çevrilir. 1675-1788-ci illər arasında universitetdə dərəcə imtahanı tətbiq edilir. 1788-ci ildə qəbul edilmiş nizamnamədən sonra bu ali məktəb tədricən klassik Avropa universitetindən müasir elmi-tədqiqat mərkəzinə çevrilməyə başlayır.

1801-ci ildə admiral Horatio Nelsonun komandanlığı altında Britaniya donanması Kopenhagen şəhərini bombardman edir, Kopenhagen Universitetinin binaları da dağıntıya məruz qalır. Buna baxmayaraq, 1836-cı ildə yeni quruculuq işləri getdiyi vaxtda universitetin yeni binası istifadəyə verilir. Bu dövrdə universitet kitabxanası, Zoologiya, Geologiya muzeyləri, botanika bağı yaradılır. İlk qız tələbə universitetə 1877-ci ildə qəbul olunur.

1993-cü ildə Kopenhagen Universitetinin hüquq fakültəsi sosial elmlər fakültəsindən ayrılır, 1994-cü ildə ekologiya, biotexnologiya fakültələri açılır, tələbə və müəllimlərin sayı sürətlə artır. 1979-cu ildən 2004-cü ilədək universitet rektor və Konsistoriya (kilsə şurası) tərəfindən idarə olunur. 2004-2005-ci illərdə Konsistoriya İdarəçilər şurası ilə əvəz olunur. 2005-ci ildə Kopenhagen Universitetinin Bədən tərbiyyəsi və Cəmiyyət Mərkəzi, Tibb İnstitutu açılır.

2006-cı ilin mayından universitet 500-dən artıq yaşı olan qədim binalarından uzaqlaşmaq qərarına gəlir. Məqsəd daha keyfiyyətli tədris şəraiti və müasir təhsil mühiti yaratmaq üçün universitetin departament və fakültələrinin əksəriyyətini üç böyük kampusda cəmləməkdən ibarət olur. Kampusdakı departamentlər fənlərdən asılı olaraq yerləşdirilir, məsələn, Siyasi elmlər və Sosiologiya departamentləri bir-birlərinə yaxın ərazidə salınıb.

2007-ci ildə Kral Baytarlıq və Kənd Təsərrüfatı Universiteti ilə Danimarka Əczaçılıq Elmləri Universiteti Kopenhagen Universitetinə birləşdirilir.

Həmin universitetlər hazırda Kopenhagen Universitetinin dəqiq elmlər və əczaçılıq fakültələri kimi fəaliyyət göstərir.

2009-2010-cu tədris ilində Kopenhagen Universitetinin illik büdcəsi 7033684000 Danimarka kronu təşkil edib.

Kopenhagen Universitetinə yerli abituriyentlər imtahansız qəbul olunurlar, yəni orta məktəbin buraxılış imtahanlarının nəticəsini təqdim edərək qəbul olunurlar. Universitetdə yerli və Avropa Birliyinə daxil olan ölkələri təmsil edən tələbələr ödənişsiz oxuyur. 2010-2011-ci tədris ilində Kopenhagen Universitetində xarici tələbələrin təhsil haqqı İctimai elmlər fakültəsində bakalavr, magistratura və doktorantura pillələrində təhsil almalarından asılı olmayaraq ildə 10000 avro, Əczaçılıq elmləri fakültəsində ildə 14400 avro, Həyat elmləri fakültəsində ildə 7000 avro, Dəqiq elmlər fakültəsində ildə 13000-15300 avro təşkil edir. Təhsil haqqı tələbənin fakültədə qeydiyyata düşməsindən bir ay əvvəl ödənilməlidir (əgər tələbə sentyabr ayının 1-dən qeydiyyata düşürsə, avqustun 1-dən və fevralın 1-dən qeydiyyata düşürsə, yanvarın 1-dən təhsil haqqını ödəməlidir).

Dünyanın başqa universitetlərində olduğu kimi, Kopenhagen Universiteti də tələbələrə müxtəlif təqaüd və kreditlər verir. Təqaüd və kredit almaq üçün tələbə avqust və fevral ayında universitetə yazılı ərizə ilə müraciət etməlidir. Götürdüyü krediti tələbə oxuduğu müddətdə tədricən və ya universiteti bitirib işə düzəldikdən sonra qaytarır. Əgər tələbə ali məktəbi bitirdikdən sonra sağlamlığı ilə əlaqədar və digər səbəblərə görə işləmək imkanını itirirsə, iş tapa bilmirsə, götürdüyü kredit ona bağışlanır.

Kopenhagen Universiteti yataqxanaları kifayət qədər tələbə yerləşdirməyə malikdir, lakin tələbə sayı çox olduğundan xarici tələbələr burada otaq tapmağa çətinlik çəkir. Yataqxanada otaq tutmaq üçün tələbə dərslər başlanmazdan 2-3 ay əvvəl universitetə müraciət etməlidir. Otaqların qiyməti şəraitindən asılı olaraq ayda 2500-4500 kron arasında dəyişir. Tələbələr şəxsi evlərdə ayda 2600-4000 kron ödəməklə kirayə otaq tuta bilər.

Kopenhagen, şəhərin sakinləri və qonaqları üçün yüksək həyat tərzi təklif edir. Şəhər rəngarəng memarlıq nümunələri, dizayn və delikatesləri ilə məşhurdur. Həmçinin burada çox rahat şəhər nəqliyyatı, velosiped mədəniyyəti (şəhər əhalisinin 36 faizi iş yerlərinə və təhsil aldıqları müəssisələrə bu nəqliyyat növü ilə gedir), limanları, yaşıllıqları, dəbli kafeləri yüksək həyat tərzinə öz töhfəsini verir. Sahil küçələrində, parklarda, şənbə-bazar günləri isə şəhərdən kənarda qəsrlərdə, kəndlərdə, meşə və dağlarda gəzinti insana əvəzolunmaz zövq bəxş edir.

Kopenhagen Universiteti Kopenhagen şəhərinin mərkəzi hissəsində yerləşir və 4 kampusdan ibarətdir: Şimal, Cənub, şəhər və Frederiksberq. Şimal kampusda Bədən tərbiyyəsi, Əczaçılıq elmləri, Dəqiq elmlər fakültələri, Biotexnologiya Tədqiqatları və İnnovasiyalar Mərkəzi, Cənub kampusda Humanitar elmlər fakültəsi, şəhər kampusunda Hüquq, İctimai elmlər, İlahiyyət

fakültələri, İnzibatçılıq Mərkəzi, Frederiksberq kampusunda isə Həyat elmləri fakültələri yerləşir.

Kopenhagen Universitetinin kampusları yaşıllığı və bitki örtüyünün rəngarəngliyi ilə seçilir. Universitetin məqsədi Avropanın ən yaşıl kampusu adına yiyələnməkdir. Bu təşəbbüsə tələbə və müəllimlər də cəlb olunur. Havaya zərərli qazların buraxılmasının aradan qaldırılması, enerji istifadəsinin azaldılması, ümumiyyətlə, təbiətin mühafizəsi ilə bağlı universitetdə xeyli işlər aparılır. Kopenhagenin mərkəzində universitetin Botanika bağı yerləşir. Bağ Danimarkanın bütün bitkilərinin kolleksiyasından ibarət canlı muzeydir. Həmçinin burada dünyanın ən böyük bitki və göbələk herbarisi toplanıb. Ali məktəbin kampusunda əvvəllər Kral Baytarlıq bağı adlandırılan, elmi tədqiqatlar üçün nəzərdə tutulmuş, əsrarəngiz gözəlliyə malik Həyat Elmləri bağı vardır. Bütün bunlarla yanaşı, meşə təsərrüfatı təhsilinin inkişafı məqsədi ilə 1936-cı ildə Botanika bağına əlavə olaraq, Kopenhagen şəhərindən kənarda park salınıb. Şəhərdən kənarda universitetə məxsus meyvə ağacları və kollarından ibarət Pometum, Eressunda dəniz suyu doldurulmuş və dəniz canlıları saxlanılan akvarium var.

Kopenhagen Universitetində 8 fakültə və 100-dən çox departament və tədqiqat mərkəzi var.

Bədən tərbiyyəsi elmləri fakültəsi – Tibbi-biologiya elmləri, Hüceyrə və molekulyar tibb, Nevrologiya və farmakologiya, Beynəlxalq səhiyyə, immunologiya və mikrobiologiya, Odontologiya, İctimai səhiyyə, Məhkəmə tibbi, Eksperimental tibb, ortopediya və daxili xəstəliklər, Daxili təbabət və cərrahiyyə, Nevrologiya, psixiatriya, Ginekologiya, mamalıq və pediatriya, Diaqnostika elmləri departamentləri, Novo Nordisk Metabolik Fundamental Tədqiqatlar, Novo Nordisk Protein Tədqiqatları, Vilhelm Yohansen Funksional Genom Tədqiqatları, Aritmiya Elmi Tədqiqat, Kopenhagen əzələ, Epidemiologiya və Skrininq, İltihab və Metabolizm, Beyinin Kompleks Molekulyar Vizuallaşması, Ümumi Təcrübə-Tədqiqat mərkəzlərindən ibarətdir.

Həyat elmləri fakültəsi nəzdində əsas heyvandarlıq və veterinar elmlər, ərzaq elmləri, fundamental elmlər, insan qidalanması, kənd təsərrüfatı və ekologiya, kiçik heyvanlar kliniki elmləri, biologiya və bitkilərin biotexnologiyası, böyük heyvanlar haqqında elmlər, Xəstəliklər biologiyası, Meşə və mənzərə departamentləri, Ərzaq və Resurs İqtisadiyyatı İnstitutu, Danimarka Heyvandarlıq, Perspektivli Ərzaq Tədqiqatları, Tətbiqi Bioinformatika, Kənd Təsərrüfatı Heyvanlarının Eksperimental Qidalanması və Fiziologiya, Bitkilərin Molekulyar Fiziologiyası, Dəqiq Kənd Təsərrüfatı, Sosial Təkamül, Bioetika və Riskin Qiymətləndirilməsi, İnformatika və Kənd Təsərrüfatı Elmləri, Biotex zavodu, Bağçılıq mərkəzlərindən göstərir.

Əczaçılıq elmləri fakültəsinə Əczaçılıq və analitik kimya, Farmakologiya və farmakoterapiya, Tibbi kimya departamentləri, Narkotik Tədqiqatları Akademiyası aiddir.

Dəqiq elmlər fakültəsi nəzdində Biologiya, Kimya, kompyuter elmləri, Bədən tərbiyəsi və idman, coğrafiya və geologiya, riyaziyyat elmləri departamentləri, Nils Bor İnstitutu, Danimarka Təbii Tarix Muzeyi, Yer Sistemi Elmi, Elm, Nano Chalk, Kosmik Elmlər fənlərarası tədqiqat mərkəzləri fəaliyyət göstərir.

İctimai elmlər fakültəsinə Antropologiya, İqtisadiyyat, Siyasi elmlər, Psixologiya, Sosiologiya departmentləri, Asiya Tədqiqatları Şimal İnstitutu, Tətbiqi Mikroekonometrika, İqtisadi Siyasi Tədqiqatı, Avropa Siyasəti elmi mərkəzlər daxildir.

Humanitar fakültə nəzdində İncəsənət və mədəniyyət elmləri, Millətlərarası əlaqələr və regional tədqiqatlar, İngilis, alman və roma tədqiqatları, Media, qavrama və kommunikasiya, Skandinav tədqiqatları, Skandinav tədqiqatları və linqvistikası departamentləri, SAXO institutu (Müasir Avropa Tədqiqatları, Aristotel ənənələri, Orta əsrlər Avropa Tədqiqatları, Mədəni Analiz, Sağlam Qocalma, Tekstil Tədqiqatları mərkəzləri), Dil Texnologiyaları Mərkəzi fəaliyyət göstərir.

Hüquq fakültəsi Müəssisə Məsuliyyəti, Avropa Konstitusiyalaşması, İnnovasiya və Hüquq İnformasiyası, Pensiya Qanunu, Hüquq Mədəniyyəti Elmləri, Hüquq Kompaniyası üçün Forum və Maliyyə Bazarı Hüququ, Avropa Birliyi Bazar İnteqrasiyasında Hüquq və Sosial Təminat, Dövlət Tənzimlənməsi və İdarəolunması mərkəzlərindən ibarətdir.

İlahiyyət fakültəsinə İncilin şərhi, Kilsə tarixi, Sistematik ilahiyyət departamentləri, Afrika Tədqiqatları, İncilin Öyrənilməsi, Orta əsrlər Mərasimləri, Avropa İslam Düşüncəsi, Naturalizm və Xristian Semantikası, Seren Kyerkeqor Elmi Tədqiqat mərkəzləri aiddir.

Kopenhagen Universitetində fakültələrdən kənar Biotek Tədqiqat və İnnovasiyalar, Epigenetika elmi mərkəzləri fəaliyyət göstərir. Kopenhagen Universitetinin əsas kitabxanası Kopenhagen Universiteti Kitabxanasıdır. Eyni zamanda, hər bir fakültə və departamentin ayrılıqda kitabxanası vardır. Kopenhagen Universiteti kitabxana kolleksiyası Avropanın ən zəngin kolleksiyalarından biri hesab olunur.

Kopenhagen Universiteti müstəqil idarəetmə sisteminə malik dövlət universitetidir. Universitetin ali orqanı Universitet Şurasıdır. Universitet Şurası ölkənin Elm, Təhsil, Texnologiya və İnnovasiyalar Nazirliyi ilə birgə Fəaliyyət Sazişi imzalayıb. Saziş müəyyən bir vaxtı və bu vaxt ərzində universitetin inkişaf proqramını əhatə edir. Şura ali məktəbin ümumi maraqları və təhsil, tədqiqat məsələlərinə nəzarət edir. Universitetin rektor və prorektorları şura, 8 fakültənin dekanları isə rektor və şura tərəfindən təyin olunur. Fakültə və departamentlərin şəxsi administrasiyası fəaliyyət göstərir, lakin onlar da şuraya tabedir.

2005-ci ildən Kopenhagen Universitetinin 258-ci rektoru 2005-ci ildən psixiatriya üzrə professor Ralf Hemminqsendir. Həmçinin o, tələbə və əmək-

daşlar tərəfindən seçilən universitetin ilk rektorudur. Universitetdə ümumilikdə 8600 işçi çalışır. Əməkdaşların 4406 nəfərini professor-müəllimlər, 4194 nəfərini isə inzibati heyət təşkil edir.

2009-2010-cu tədris ilində Kopenhagen Universitetində 38010 nəfər tələbə təhsil alıb. Tələbələrin 21489 nəfərini bakalavratlar, 16521 nəfərini magistrantlar və doktorantlar, 5484 nəfərini isə xarici tələbələr təşkil edib.

Kopenhagen Universiteti çoxlu sayda məşhur məzunları ilə tanınır. Universitetin 9 nəfər Nobel mükafatı laureatı var. Onların arasında tanınmış alim, fizika üzrə Nobel mükafatı laureatı Nils Boru qeyd etmək olar. Bir çox Danimarka alimləri kimi Nils Bor da ölkədən kənarda fəaliyyət göstərib. II Dünya müharibəsindən sonra Danimarkada güclü "beyin axını" prosesi müşahidə edilməyə başlanıb; ölkənin ən perspektiv şəxsləri işləmək üçün xarici ölkələrə, xüsusi ilə Amerikaya yollanıb. Danimarka hökuməti bu prosesin qarşısını almaq üçün bir çox tədbirlər həyata keçirir. Hər ixtisasa uyğun ölkəyə lazım olan qədər mütəxəssis hazırlanır və onlar yüksək maaşlı işlə təmin olunur. Orta və ali məktəblərdə tələbələrə Vətənə sadiqlik, sevgi hissləri aşılanır.

Kopenhagen Universiteti ilk anda Danimarkanın maraqlarını qoruyan və xalqının rifahına xidmət edən dövlət ali təhsil ocağıdır. Universitetin məqsədi bütün sahələr üzrə yüksək səviyyədə ixtisaslaşmış mütəxəssislər hazırlamaqdır, bunun üçün də tələbələrə dünyanın əsas dillərində müxtəlif fənlər üzrə təhsil almaq imkanı yaradılıb. Kopenhagen Universiteti Danimarka Krallığının fəxri hesab olunur.

# HİNDİSTANDA TƏHSİL

Minillik mədəniyyət ölkəsi olmaqla, Hindistan bəşər tarixində ən qədim təhsil sisteminə malikdir. "Quru" sözü dünyanın demək olar bütün dillərinə daxil olmuşdur. Hələ beş min il əvvəl gənclər həyati biliklərə, hərbi işə, siyasi, dinə, incəsənətə yiyələnməkdən ötrü quruya (hərfi tərcümədə "müəllimin evi") yollanırdılar. Onlar bir neçə il müəllimlə bir yerdə yaşayır və təlim müddətində tamamilə ona tabe olurdular. Təhsil haqqını müəllimə və digər mallarla ödəyirdilər ki, müəllim və onun ailəsi qurunu təmiz və səliqə-sahmanlı saxlaya bilsinlər. Quruya başlıca olaraq cəmiyyətin yuxarı təbəqələrindən olan adamlar gəlir və buna baxmayaraq şagirdin kasta mənşəyi böyük rol oynayırdı, həmişə istedadlı və müstəqil uşaqlar üçün istisnalar var idi.

Biliklərin atadan oğula, müəllimdən şagirdə ötürülməsinin belə bir varisliyi sayəsində hind məktəblərinin məzunları elmdə çox böyük kəşflər edir, riyaziyyat, fəlsəfə və söz sənəti sahələrində şah əsərlər yaradır, poeziya nəzəriyyəsini, hərb sənəti texnikasını yaradır, yolları, küçələri və kanalizasiyası olan böyük şəhərlər salırdılar. Hələ 2600 il əvvəl Hindistanda cərrahiyyə əməliyyatları aparılır, kitabxana, məktəb, ali təhsil ənənələri sürətlə inkişaf edirdi. Buddizmin ilk illərində (bizim eradan 500 il əvvəl) Nalanda, Taxşila universitetləri və minlərlə məşhur məktəb mövcud idi. Bizim eradan 150 il əvvəl Hindistanda iri evlər inşa edilmişdi, üstündən 50 il keçdikdən sonra hindlilər artıq onluq kəsrlərdən istifadə etməyə başlamışlar. Mürəkkəb və dəqiq riyazi hesablamalar tələb edən astrologiya və astronomiya da geniş yayılmışdı. Albert Eynşteyn bir dəfə demişdi ki, "bizə saymağı öyrətmiş olan hindlilərə biz olduqca minnətdarıq, bunsuz heç bir elmi kəşf mümkün olmazdı".

XIV əsrdən başlayaraq müsəlman dünyası tərəfindən edilən təcavüzlər ənənəvi hind təhsil sistemini məhv etdi. Məktəblər, universitetlər uçuruldu, kitabxanalar yandırıldı, islam dinini qəbul etməyən müəllimlər öldürüldü. Avropa sənaye inqilabı dövrünü yaşadığı və ilk buxar mühərrikini işə saldığı XVIII-XIX əsrlərdə Hindistan Böyük Britaniyaya tabe edildi. Mollaların əlindən nə alınırdısa, nə vardısa, hamısı maarifləndirmə bayrağı altında xərclənirdi.

1830-cu ildə şotland missioneri Aleksandr Daff, müdhiş gəmi qəzasından salamat çıxaraq, Kəlküttəyə gəlib çıxır. Bu vaxt onun cəmi 24 yaşı olubdur. O, induizmlə məsələni çürütməyə and içmişdi və bu niyyətlə ən yaxşı şəkildə onun beyin mərkəzinə, yəni təhsilinə zərbə endirilməsinə nail olmaq qərarını verdi. Daff iki il işlədi və 1832-ci ildə Lord Makaleyin Qərb nümunəsindəki müasir təhsil sistemi banisinin islahat Qanunu çıxdı və həmin təhsil

sistemi azacıq dəyişikliklərlə bu gün də varlığını davam edir. Öz əsərlərinin birində Makaley yazırdı: "Mən hesab edirəm ki, bizim üçün (yəni ingilislər üçün) bizim məhdud vasitələrimizlə bütün xalqa təhsil vermək mümkün deyil. İndiki zamanda biz bütün qüvvəmizi elə sərf etməliyik ki, tərcüməçilər sinfi yaradaq, bu sinif bizimlə idarə etdiyimiz milyonların arasında tərcüməçi ola bilsin, bu sinif qanına və dərisinin rənginə görə hindli, zövqünə, baxışlarına, əxlaqına və intellektinə görə ingilis olmalıdır. Ölkədəki yerli insanları canlandırmaq, onları Qərb leksikası ilə elmi terminlərlə yeniləşdirmək imkanı vermək və bilikləri çox böyük əhali kütləsinə vermək üçün tədricən kifayət qədər vəsait əldə etmək lazımdır.

İngiltərə Hindistanı tam müstəmləkəsinə çevirdikdən sonra (1746 - 1763) onlar Kəlküttədə mədrəsə (1781), Benoresdə isə sanskrit kolleci (1792) kimi məktəblər yaratdılar. Britaniya hökumətinin əsas məqsədlərindən biri Avropa təhsilini, elmini, mədəniyyətini və s. Hindistana yaymaq idi. Hindistanda Britaniya hökuməti Hind maarifçilərinin təşəbbüsü ilə Avropa tipli gimnaziyalar yaratdılar. 1836-cı ildə ingilis dili rəsmi dil elan olunduqdan sonra general-qubernator tərəfindən təhsil sahəsində çoxlu sayda yeniləşmə və dəyişikliklər baş verdi. 1847-ci ildə Hindistanda şimali-qərb əyalətinin qubernatoru Tomason mülki-mühəndislik kolleci yaratdı. 1849-cu ildə yüksək təbəqədə olan şəxslərin qızları üçün məktəblər yarandı.

Hindistanda 1882-ci ildə yaşlıların və qadınların peşə təhsili məsələlərini həll etmək üçün xüsusi komissiya yaradıldı. Bu komissiya ibtidai təhsil üçün məsuliyyəti yerli idarə orqanlarının üzərinə qoydu. 1904-cü ildə Hindistanın general-qubernatoru Kerzon universitetlərlə bağlı akt qəbul etdirərək, Kəlküttə, Bombey, Mənrəs, Laxor, Allahabadda olan universitetlərdə ciddi dəyişikliklər edərək hökumət nəzarətinə götürdü. Universitetlərin senatorlarının qərarlarını hökumət dəyişmək hüququna malik idi. Hindistanda təhsil sisteminin idarə olunması 1919-cu ildən Hindistan nazirliyinin tabeçiliyinə daxil oldu. 1947-ci ildən Hindistan məktəb və universitetləri demokratikləşmə və modernləşmə yolu ilə ümumdünya təhsil prosesinə daxil oldu. 1946-cı ildə 296,1 milyon nəfər əhalidən yalnız 18,24 milyonu təhsil alırdı. Hindistanın müasir xalq maarifi sisteminə 3-6 yaşlı uşaqlar üçün ibtidai və aşağı natamam "əsas" məktəblər, 11-14 yaşlılar üçün natamam orta və yuxarı "əsas" məktəblər, 11-17 yaşlılar üçün tam orta məktəblər daxildir. Məktəblərdə qızlar az idi və 700 min məktəbdə 120 min şagird oxuyurdu. 1986-cı ildə Hindistanda dərs deyən müəllimlərin sayı 3 milyondan artıq idi. İxtisaslı fəhlələr 2-3 illik texniki peşə məktəblərində hazırlanırdı. Ölkədə təqribən 200 min hind musiqisi və rəqsi, zərif sənətlər, ev təsərrüfatı məktəbləri var idi. Ali məktəblər, universitetlər, kolleclər (bir hissəsi universitetlərin tərkibinə daxildir) var idi. Ali məktəblərdə təhsil müddəti 5-6 ildir. 1986-cı ildə Hindistanda təqribən 4 milyon tələbə təhsil alırdı. Bu dövrlərdə keçmiş SSRİ-nin eyni zamanda Azərbaycan SSRİ-nin, ali məktəblərində Hindistandan çoxlu sayda gənc

oxuyurdu. Ali təhsillilərin sayına görə Hindistan dünyada 3-cü yeri tuturdu. Tibb kadrları 83 dövlət, 16 şəxsi tibb müəssisələrində, 480 tibb məktəblərində hazırlanırdı.

1937-ci illərdə Hindistanın 11 əyalətinin 7-də təhsil nazirliyi formalaşdı. Milli təhsil konsepsiyasına müəyyən dəyişikliklər edilərək 6-13 yaşlı uşaqların pulsuz təhsili həyata keçirildi. İkinci Dünya müharibəsi dövründə Hindistanda əhalinin cəmi 7% -ə qədəri savadlı idi.

R.Taqor 1905-ci ildə atasının adını daşıyan Şantineketon məktəbi açmış və 1921-ci ildə bu məktəbin nəzdində Kənd Təsərrüfatı İnstitutu yaratmışdır. O, bu məktəbi 1919-cu ildə milli universitetə çevirdi və 1951-ci ildə Mərkəzi Dövlət Universitetinə çevrildi. Hindistan 32 ştatdan ibarətdir və 1991-ci ildə ölkənin bütün əhalisinin cəmi 52,2%-i savadlı idi.

Hindistanın müasir təhsil sistemi bu şəkildədir. Hindistanda çox az sayda uşaq bağçaları var, ona görə də demək olar bütün məktəblər uşaqları üç yaşından qəbul edirlər. İlk üç sinif bu qaydada bölünür: aşağı orta və yuxarı uşaq bağçaları. Uşaq 6 yaşına çatanda 1-ci sinfə daxil olur. 1-ci sinifdən 8-ci sinfə qədər ibtidai məktəb, 9-cu sinfidən 12-ci sinfə qədər orta məktəb sayılır. Artıq 11-ci sinfidə uşaqlar seçimlərindən asılı olaraq, fənləri seçirlər. Məktəbi bitirdikdən sonra uşaqların bir çoxu yaxşı reputasiya ilə ali peşə məktəblərinə daxil olmaq üçün müxtəlif müsabiqələrdə iştirak edirlər; bunlar, əsasən, tibb, hərbi və texniki məktəblərdir. Digər istiqamətlər, məsələn, hüquq, jurnalistika, dəqiq elmlər üzrə hər bir şəxs sərbəst hərəkət edə bilər. Təhsil müddəti seçilmiş ixtisasdan asılıdır. Mühəndislik – 4-5 il, təbabət – 5-6 il, kommersiya və hüquq – 3 il, dəqiq elmlər və dillər – 2 ildir.

Təhsil sona çatdıqda bakalavr (dərəcəsi) diplomu verilir və tələbə daha iki il oxumalıdır ki, magistr (dərəcəsi) diplomu ala bilsin. Məktəblər dövlətdən çoxlu yardım alır. Şagird, tədris proqramı, forma, din və s. seçməkdə tam sərbəstdir.

Dövlət şagirdlərə yalnız 10-cu və 12-ci siniflərdə nəzarət edir. Bu siniflər üçün proqram müəyyən edilmişdir. İmtahanlar yalnız şifahidir, sualları dövlət komissiyası hazırlayır. Uşaqlar imtahanı öz məktəblərinə deyil, onlar üçün təyin edilmiş məktəblərdə verirlər. Orada imtahan vaxtı onlara tanış olmayan müfəttişlər nəzarət edir, imtahandan sonra cavablar toplanır, bir yeşiyə yığılır və yoxlanış üçün üçüncü bir məktəbə göndərilir. Nəticələrə təsir imkanları istisna edilsin deyə, həmin məktəbin ünvanı sirr olaraq saxlanır. Nəticələr bir ay keçmiş elan edilir. Belə bir sistem şagirdin hazırlığına obyektiv qiymət verməyə imkan yaradır. Eyni zamanda dövlət məktəblərində təhsil pulsuzdur, özəl məktəblərdə təhsil haqqı ayda təqribən 20-50 dollardır. Nüfuzlu internat məktəblərində təhsil haqqı ayda 200-400 dollardır. Bu məktəblərin bir çoxu yüz il əvvəl ingilislər tərəfindən öz uşaqları üçün mənzərəli yerlərdə təşkil olunmuşdur. Onlar Hindistanın elit məktəbləridir. Bu məktəblərə daxil olmaq son dərəcə çətindir. Onlardan bəziləri hind məktəbi standartlarına əməl

etməməyi hind dövlətindən icazə almışlar və ingilis nümunəli diplomlar verirlər. Bu məktəblərdə əsasən xarici diplomatların uşaqları, xaricdə yaşayan hindlilərin uşaqları və ya inkişaf etmiş ölkələrdən olan, yaxşı ingilis təhsili almaq istəyən uşaqlar oxuyur. İngilis təhsili Hindistanda digər ölkələrlə müqayisədə ucuz başa gəlir. Hindistanın ən bahalı məktəbi isə Dehlidə Amerika səfirliyi nəzdindəki məktəbdir; burada təhsil haqqı ayda 1000 dollardır.

Ali məktəblərə gəldikdə, Hindistanda 214 universitet vardır. Onlardan 16-sı federal hökumətin, qalanları ştatların nəzarəti altındadır. Daha 38 institut yaxın vaxtlarda universitet statusu almışdır. Universitetlərdə 6,8 milyon tələbə oxuyur və 330 min müəllim işləyir. Ali məktəblərdə koordinasiya və standartların müəyyənləşdirilməsi ilə Federal Hökumətin yaratdığı komitə məşğuldur. Valideynlər bu məktəblərdən fərqli olaraq, uşaqlarını dövlət ali məktəblərinə verməyi üstün tutur. Onların təhsil haqqı özəl institutlarda təxminən 7-8 min dollardır. Nüfuzlu universitetlərdə müxtəlif testlərlə və müsabiqələrdə yüksək nəticələr əldə etmiş istedadlı uşaqlar üçün qrantlar və dotasiyalar mövcuddur. Böyük pulları olmayan və dövlət dotasiyalı ali məktəbə daxil ola bilməyən şəxslər isə oxumağa MDB və Şərqi Avropa ölkələrinə gedirlər. SSRİ-nin dağılmasından sonra MDB məzunları, bəzi tanınmış ali məktəblər istisna olmaqla, vətənə qayıtdıqda imtahan verməlidir, çünki öz əmək fəaliyyətlərinə başlamağa lisenziya əldə edə bilsinlər. Eləcə də Hindistanda digər ölkələrdən, Afrikadan, İrandan, İraqdan çoxlu tələbə oxuyur. Səbəb bütün hallarda maliyyə planında əlverişli şərt olan ödənişli təhsildir.

Hindistanda təhsilin əlverişli aspekti dillərin öyrənilməsidir. Şimal ştatlarında yaşayanların 39 faizi üçün hind dili doğma dil sayılır, daha 20 faizi isə onu başa düşür. Ölkənin 29 ştatının 14-də başqa ləhcələrdə danışırlar. Müxtəlif ştatlar arasında kommunikasiya problemləri yaranmasın deyə, 1947-ci ildə müstəqillik əldə etdikdən sonra ingilis dili qorunub saxlandı. Sual yaranır, ingilis dilini harada öyrənmək olar? Bu dil hər hansı dövlət məktəbində 1-ci sinifdən və ya uşaq bağçasından öyrədilir. Uşağı ingilis dilinin öyrənilməsinə ayrıca bir fənn olaraq deyil, həm də bütün fənlərin ingiliscə tədris edildiyi pullu özəl məktəbə də vermək olar. Lakin bu özəl məktəblərdə də mütləq dövlət məktəbi səviyyəsində hind dilindən və ya hər hansı yerli dildən imtahan vermək lazımdır. Bir neçə il dövlət üçdillilik proqramı müzakirə edilmiş və bu proqram 2002-ci ildə qəbul olunmuşdur. Nəzərdə tutulur ki, məktəb öz ştatının dilini və daha bir milli dili tədris etməlidir. Cənub ştatları üçün seçim ancaq hind dilidir. Ona görə ki, bu dil ölkədə mühüm dillərdən biridir.

1996-cı ildə qəbul edilmiş təhsil qanununa əsasən, 14 yaşadək olan bütün uşaqlar pulsuz və icbari təhsil almalıdır. Məhz buna görə də bu gün 7 yaşından 45 yaşa qədər əhalidə savadlılıq 65 faizə qədər yüksəlib, Kerala cənub ştatında isə bu rəqəm 100 faiz təşkil edir (qeyd edək ki, bu ştatda artıq 16 ildir hakimiyyət Hindistan Kommunist Partiyasının əlindədir və onlar bu faktla qürur duyur).

Təhsil sisteminin inkişaf proqramına uyğun olaraq, 15 avqust 1995-ci il tarixdən etibarən dövlət uşaqları məktəbə cəlb etməkdən ötrü pulsuz yemək verməyə başlamışdır, həm də müəllimlərin 50 faizi qadın olmalıdır. 1997-ci ildə bu rəqəm 47 faiz idi. 1993-cü ildən sonra ibtidai sinif müəllimləri yenidən hazırlıq kursu keçir. Uşaqlar 9-cu sinifdən peşə təhsili almaq üçün 1998-ci ildən kənd təsərrüfatı, biznes, texnika, təbabət və s. kimi 150-yə yaxın yeni kurslar açılmışdır. Təhsildə mədəni dəyərlərə dəstək, kompyuter təhsili, əhalinin effektiv artımı, alkakollarla və narkotiklərlə mübarizə ilə bağlı proqramlar fəal surətdə inkişaf etdirilir.

İnikşaf etməkdə olan ölkələrin bir çoxunda olduğu kimi, Hindistanda məzunları aldıqları təhsilə uyğun işlə təmin etmək problemi vardır. Ona görə də bir çox gənclər işləmək üçün xarici ölkələrə yollanır. Lakin Moskvadan fərqli olaraq Dehlidə bunu faciə saymırlar. Birincisi, mənşəcə Hindistandan olanlar öz pullarını hind banklarında saxlamağa üstünlük verirlər, bu da dövlətin təhsilə sərf etdiyi xərcləri xeyli artırır. Bəzən Hindistanın dövlət bankları yalnız xaricdə yaşayan hindlilər üçün qiymətli istiqrazlar buraxırlar. Bu isə 4 milyard dollara hesablanmışdı, lakin sifarişlər 8 milyard dollardan çox miqdarda idi. Hindistan dinamik olaraq inkişaf edir və heç kəs, hətta beyin axınının əleyhdarları şübhə etmirlər ki, Hindistandan olanların çoxu tezliklə qayıdıb ölkəsində çalışacaq.

2001-ci ilin statiskasına görə ABŞ-da Hindistan mənşəli 320.000-nə yaxın adam işləyir. Onların orta illik gəliri 61.000 dollar miqdarındadır. “Washington Post” qəzetinin yazdığına görə, Birləşmiş Ştatlarda işləyənlərdən həkimlərin 38 faizi, alimlərin 12 faizi, NASA əməkdaşlarından 36 faizi, Mikrosoft əməkdaşlarından 34 faizi, IBM əməkdaşlarından 28 faizi, İntel əməkdaşlarından 17 faizi hind məktəblərini və universitetlərini bitirmiş hind mənşəli insanlardır. Göstərilənlərə görə qeyd edək ki, Hindistanda ənənə və müasir yanaşmaları aydın bir şəkildə sintezləşdirmək mümkün olmuşdur.

Hind təhsil sistemində ən maraqlı olan ingilislərin yaratmış olduqları struktur ilə yerli ənənələrin uyğunlaşmasıdır. Hind elm və təhsilinin dərin tarixi kökləri, keyfiyyəti və dərinliyi, hind təfəkkürü və mədəniyyətində biliklərin sürətliliyi, struktur təfəkkürünə meylliliyi təhsil sisteminin müvəffəqiyyətli işini təmin edir.

İndiki dövrdə Hindistanda məktəb sistemi bu mərhələləri əhatə edir: 1) beşillik ibtidai məktəb (6-11 yaşlılar üçün); 2) üçillik natamam məktəb; 3) ikiillik tam orta məktəb.

1991-ci ilin məlumatına görə Hindistanda 132 universitet, 24 institut fəaliyyət göstərir və ali məktəblərdə oxumaq pullu, ödənişlidir.

Ölkə istiqlaliyyət qazanan dövrə qədər Hindistanda vahid maarif sistemi yox idi. 1946-cı ildə 296,1 mln. nəfər əhalidən yalnız 18,24 milyolnu təhsil alırdı. Hindistanın müasir xalq maarifi sisteminə 3-6 yaşlılar üçün məktəbəqədər müəssisələr, 6-11 yaşlılar üçün ibtidai və aşağı “əsas” məktəblər, 11-14

yaşlılar üçün natamam orta və yuxarı "əsas" məktəblər, 11-17 yaşlılar üçün tam orta məktəblər daxildir. Məktəblərdə qızlar azdır. Hindistanda 700 min məktəbdə 120 min şagird oxuyur. 3 milyolndan artıq müəllim dərs deyir (1986). İxtisaslı fəhlələr 2-3 illik texniki peşə məktəblərində hazırlanır. Ölkədə təqribən 200 min hind musiqisi və rəqsi, zərif sənətlər, ev təsərrüfatı məktəbləri var. Ali təhsili universitetlər, kolleclər, inistutlar verir; ali məktəblərdə təhsil müddəti 5-6 ildir. Hindistanda təqribən 4 milyoln tələbə təhsil alırdı (1986). Ali təhsillilərin sayına görə Hindistan dünyada 3-cü yeri tutur. Qədim universitetləri: Kəlkətə, Bombey, Mədrəs universitetləridir. Böyük texniki inistitutları: Kharahpur, Bombey, Mədrəs, Qanpur inistitutlarıdır. Böyük kitabxanaları: Kəlkətədə Milli kitabxana, Dehlidə Kütləvi kitabxana, Mədrəsdə Mərkəzi kütləvi kitabxana, Patnada Şərq ədəbiyyatı kitabxanası. Əsas muzeyləri: Dehlidə Milli muzey, C.Nehrunun xatirə muzeyi və kitabxanası, M.Qandinin xatirə muzeyi, Kəlküttədə hind muzeyi, Mədrəsdə Milli rəssamlıq qalereiyası və s.

Təbiət və texnika elmləri. Hindistanda elm qədimdən inkişaf etmişdir. Harappa mədəniyyəti (e.ə. 3-2-ci minilliklər) Tunc dövrünün mədəniyyəti idi. Təsərrüfat və sənətkarlıqda mühüm rol oynayan tunc və misdən müxtəlif silah və istehsal alətləri hazırlanırdı. E.ə. 1-ci minillikdə riyaziyyat və astronomiya sahəsində bəzi məlumatlar əldə edilmişdi. Hindistanın qədim tibb elmini öyrənmək üçün "Ayurveda" əsəri (e.ə. 9-3-cü əsrlər) ən qiymətli mənbədir. Anatomiya, terapiya, cərrahiyyə yüksək səviyyədə inkişaf etmişdi. Hindistanın tibb elmi qədim yunan, Roma elminə də yaxşı məlum idi.

4-6-cı əsrlərdə Hindistanda elm və mədəniyyətin inkişafı yüksək səviyyəyə çatdı. Riyaziyyat və astronomiya ardıcıl inkişaf etdirildi. Onluq say sisteminin yaradılması elmin inkişafına böyük təsir göstərdi. Böyük Moğol imperiyası dövründə astronomiya xüsusilə inkişaf etdi: Dehlidə, Caypurda və s. şəhərlərdə rəsədxanalar yaradıldı.

İngiltərə hakimiyyəti dövründə Hindistanda yalnız müstəmləkə təsərrüfatına lazım olan elm sahələri inkişaf etdirilirdi. Benqaliyada (Kəlküttədə) Asiya Elmi Cəmiyyətinin (1784) yaradılması Hindistan elminin inkişafında mühüm rol oynadı. 1787-ci ildə Kəlküttədə botanika bağı, 1857-ci ildə isə Kəlkətədə, Bombeydə, Mədrəsdə ilk universitetlər yaradıldı. Bu dövrdə botanika və geologiya (1857), meteorologiya (1875) idarələri və b. elmi cəmiyyətlər də meydana gəldi. Rus həkimi B.Xavkinin epidemiyalara qarşı mübarizədə mühüm rolu oldu; o, bubon taunu xəstəliyini öyrənmək üçün 1896-cı ildə Bombeydə xüsusi institut yaratdı. Yalnız 19-cu əsrin sonunda ilk milli elmi kadrlar hazırlandı.

Hindistan istiqlaliyyət əldə etdikdən sonra elmi tədqiqatlar praktiki məsələlərin həlli ilə sıx əlaqələndirildi. Ali məktəb və elmi mərkəzlərdə tədqiqatlar Hindistanın təbii sərvətlərindən effetli istifadəyə, yerli ehtiyatlar əsasında yeni material və texnoloji proseslərin işlənib hazırlanmasına həsr edildi.

Təbiyyət elmləri sahəsində tədqiqatlar universitetlərdə, Tata adlanan Fundamental Tədqiqatlar İnstitutunda, Hindistan Baba adlanan Atom Tədqiqat Mərkəzində və s. elmi mərkəzlərində aparılır.

Böyük elmi mərkəzlərdən biri olan Statistika İnstitutunda riyazi statistika sahəsində aparılan tədqiqatlar mühüm yer tutur. İnstitut Hindistan dövlətinin tapşırığı ilə ölkənin iqtisadi inkişafının beşillik planlarının hazırlanmasında iş aparır.

Hindistanın müasir təhsil sistemi dövlət müstəqilliyi əldə etdikdən sonra qurulmuşdu. Burada 200-ə yaxın universitet fəaliyyət göstərir. Onların arasında 16-sı mərkəzi univeristet, qalanlar isə ştatların qanunlarına müvafiq fəaliyyət göstərir. Ölkədə kolleclərin ümumi sayı 10555-dir.

Universitetlər arasında kiçik (1-3 min tələbə) və çox böyük (100 mindən çox tələbə) olanları vardır. Onlara bir ixtisası və bir fakültəsi olan universitetlər, həmçinin çox fakültəli ali məktəblər də daxildir.

Hindistanın böyük universitetləri aşağıdakılardır:

- Bombey Universiteti
- Dehli Universiteti.

Son yarım əsrdə təhsilin texniki ixtisaslarla bağlı sahəsi xeyli inkişaf etmişdir. Hal-hazırda 185 institut mühəndislik və texniki ixtisaslar üzrə doktorantura təklif edir. Əsas institutlar arasında, texnoloq və menecer hazırlayan texniki institutlar, Dehlidə, Kanpurda, Kharaqpurda, Banqalorda və Çennayda, həmçinin idarəçilik üzrə Əhmədabadda, Banqalorda, Lakxnauda, İndore və Kalkütdə 6 institut vardır.

Hindistanın ali təhsil sistemində təhsilin üç pilləsi mövcuddur:

İncəsənətdə, ticarətdə və elmdə bakalavr dərəcəsini almaq üçün 3 il təhsil tələb olunur (12-illik orta məktəb təhsilindən sonra).

Kənd təsərrüfatı, stomatologiya, farmakologiya, baytarlıq sahəsində bakalavrın müddəti 4 ildir.

Jurnalistika, kitabxanaşünaslıq və hüquqşünaslıqda bakalavr dərəcəsi almaq üçün müddətlər tamamilə başqadır, yəni dərəcənin tipindən asılı olaraq 3 ildən 5 ilə kimidir.

Magistr dərəcəsini almaq üçün bir qayda olaraq ikiillik kurs keçilməlidir. Təhsil proqramı çərçivəsinə ya məşğələlərə gəlmək və ya bilavasitə tədqiqat işini yazmaq daxil edilə bilər.

Fəlsəfə doktoru pilləsinə daxil olmaq üçün hökmən magistraturanı qurtarmaq lazımdır. Hazırki proqrama əsasən doktoranturada təhsil ya dərslərə gəlmək və tədqiqat işini yazmaq, ya da yalnız tədqiqat işi yazmaqdan ibarətdir.

Bu dərəcəni aldıqdan iki il sonra və ya magistr dərəcəsi aldıqdan 3 il sonra doktor dərəcəsi verilir.

Doktorantura proqramı ciddi və rəsmi tədqiqat işi yazmağı tələb edir.

Bakalavr:

1. Tərkibində qiymətləri ilə yanaşı bütün keçirilən fənlər haqqında məlumat olan notarius tərəfindən təsdiq olunmuş ingilis dilində transkript;

2. 12 il orta təhsili bitirmək;

3. Yaş həddi ən azı 17 olmalıdır.

Magistrtura:

1. Orta təhsili bitirmiş və notarius tərəfindən təsdiq olunmuş azı 3 il təhsil müddəti olan bakalavr diplomunun surəti;

2. Yaş hədii ən azı 20 olmalıdır.

Doktorantura:

1.Notarius tərəfindən təsdiq olunmuş magistr diplomunun surəti.

Bundan başqa bütün namizədlər aşağıdakı sənədləri təqdim edirlər:

1. Alınmış ixtisasın ekvivalentliyini təsdiq edən sənədlər;

2. Son təhsil aldığı məktəbin rəhbərliyi tərəfindən verilmiş xasiyyətnamə.

Buna baxmayaraq, daxil olmaq üçün tələblər və sənədlər universitetdən asılı olaraq dəyişilir. Daha dəqiq məlumat almaq üçün universitetin veb-saytına müraciət etmək lazımdır.

**Bombey Universiteti (University of Mumbai).**(1996-cı ildən rəsmi adı Mumbay universitetidir).Mumbay universiteti əvvəllər Bombey Universiteti kimi tanınırdı. Universitet Hindistanın ən qədim və birinci universitetlərindən biridir və Bombeydə yerləşir. Mumbay Universiteti dövlət təhsil müəssisəsi olaraq, Hindistanın Maharastra ərazisində yerləşir. O, 1996-cı ilə qədər Bombey Universiteti kimi tanınmış, 1996-ci ildə Bombey şəhərinin adı dəyişilib Mumbay olduqdan sonra, Bombey Universiteti, Mumbay universiteti kimi tanınmağa başladı. Universitetin filialları olan kolleclər Mumbay şəhərinin və Thane, Raigad, Ratnagiri və Sindhudurg adlanan sahilyanı rayonlarının ərazisində yerləşmişdir. Universitet bir çox istiqamətlərdə diplom və sertifikatlar verməkdən əlavə, bakalavr, magistr və doktorantura dərəcələri üzrə diplom və sertifikatlar təqdim edir. Universitet 1857-ci ildə Dr Cohn Wilson tərəfindən təsis edilmiş və Britaniyanın ali təhsillərinin modelləri əsasında qurulmuşdur. Mumbay Universitetində tədris onun filialları olan kolleclərdə keçirilir. St. Xaviers Colleci 1868-ci ildə universitetə birləşdirilmişdir. Birinci vitse kansler Dr Con Vilsonun həyat yoldaşı Margaret Bayne Vilson qızlar üçün 16 məktəb təsis etmişdir, onların arasında ən məşhuru olan Sankt-Kolumbiya Ali məktəbini xüsusi qeyd etmək olar. İlk əvvəl Elphinstone Collecinin binası Mumbay Universiteti üçün istifadə edilmişdir. Universitetin akt zalında üzərində zodiak bürclərinin dairəvi şəkildə təsvir edildiyi vitrac pəncərəsi bütün dünyada məşhurdur. Hazırda universitet kampusları (şəhərcikləri) idarəetmə mərkəzləri və ali təhsil mərkəzləri kimi fəaliyyət göstərirlər. Mumbay Universitetinə birləşdirilmiş kolleclərin bir çoxu Mumbay şəhərində və digər rayonlarda yerləşmişdir. Universitetin kampusları Mumbay şəhərinin ətrafında Kalina, Santakruz

ərazilərində yerləşir. Kampusda universitetin akademik və inzibati şöbələri yerləşir. Fort ərazisində yerləşmiş digər kampusda yalnız inzibati işlər həyata keçirilir.

Mumbay Universiteti Milli Qiymətləndirilmə və Akkreditasiya şurası tərəfindən beş ulduz reytinqi olan universitet kimi qiymətləndirilmişdir. 2010-cu ildə, dünya ölkələrinin 500 universiteti arasında 451-500 yerdə göstərilmişdir. 2009-cu ildə o həmin siyahı çərçivəsində artıq 432-ci yerdə sıralanmışdır. Mumbay şəhərində yerləşən dünya şöhrətli institutların bir neçəsi bu universitetə birləşdirilmişdir. Onların bir çoxu hazırda müstəqil institut hesab olunurlar. Bura St.Xavyer (Müqəddəs Xavyer) kolleci, Narsee Moncee kolleci, Veermata Cicabai Texnoloji İnstitutu, Kimya Texnologiya İnstitutu, Mumbay Universitetinin institutu hesab olunan Tata Fundamental Tədqiqatlar İnstitutu və Tata Memorial Xəstəxanası daxildir.

Universitetdə 200 mindən artıq tələbə təhsil alır, orada 354 kollec, 36 idarə və təhsil elmi-tədqiqat və tibb mərkəzləri, o cümlədən aşağıdakı institutlar, mövcuddur: Tibb Elmləri İnstitutu, Kimya Texnologiyaları İnstitutu, Mühəndislik İnstitutu, iİdarəetmə İnstitutu, "Narsil Mondzhi" Menecmenti İnstitutu, "Tata" Fundamental Tədqiqatlar İnstitutu, Texnoloji "Ramrao Adik" və texnoloji "Vidyalankar" İnstitutu, Dzhamnalal Bacac Menecmenti İnstitutu və s.. Universitetin tərkibinə həmçinin Bombeydə mövcud olan Cavaharlal Nehru adına ən böyük kitabxana da daxildir. Kitabxanada qədim əlyazmaların geniş kolleksiyası vardır.

Bu universitet 1857-ci ildə təsis olunmuşdur. 1904-cü ilə qədər onun funksiyaları əlavə birləşdirilmiş kolleclərdə test və təlimlərin keçirilməsi ilə məhdud idi (təhsil sistemi Oksford sistemi üzrə qurulmuşdu). 1904-cu ildən sonra universitetə bilavasitə təhsil fəaliyyətinin təşkili hüququ (mühazirələrin oxunması və təhsil prosesi zamanı zəruri olan elmi işlərin nəşri) verildi. 1948-ci ilə qədər universitetdə orta məktəbdən imtahanlar keçirilirdi və bu da orta təhsilin səviyyəsinə böyük təsir göstərirdi. Bombey Universitetinin müasir strukturu Bombey Universitetinin 1953-ci il aktı əsasında təyin olunmuşdur, bu akta əsasən Bombey universitetinə birləşdirilmiş kolleclər universitetin tərkibinə daxil edildilər.

Bu universitetin fəaliyyətinin 150 illiyinə nəzər salsaq, onun cəmiyyətin mənəvi və intellektual nailiyyəti kimi müxtəlif çeşidliliyi açıq-aydın şəkildə görünür. Universitet ölkənin, xüsusilə də Mumbay şəhərinin getdikcə artan sosial dəyərlərinin və imkanlarının yükünün müəyyən hissəsini, ümumilikdə, öz üzərinə götürərək, hər zaman ölkənin inkişafına güclü təkanverici qüvvə kimi çıxış edir. Milli səviyyədə o, idman və mədəniyyət sahələrində böyük nailiyyətlər əldə etmişdir. Son 5 il ərzində doktorantların sayı 112%, distant təhsili əldə edən tələbələrin sayı 147%, beynəlxalq jurnallarda dərc olunmuş elmi məqalələrin sayı isə 156% artmışdır. Hazırda orada 80-dən çox fənn müəllimi fəaliyyət göstərir. Son 5 il ərzində universitetin müəllimləri 18 milli

və beynəlxalq mükafat əldə etmişlər. Hər il 20-yə yaxın müəllim xarici ölkələrdə beynəlxalq konfranslarda iştirak etmək və elmi işləri xarici əməkdaşlarla birlikdə həyata keçirmək üçün xarici ölkələrə səfər edir. Universitet, onun kolleclərində işləyən müəllimlərin minimal ixtisaslaşmalarını müəyyən etmək, kollecdə təlim-tərbiyə işləri üzrə nəzarətin aparılması hüququnu və s. əldə etdi. Bununla yanaşı, universitetin tərkibində olan kolleclərin müəyyən müstəqillik hüququ saxlanıldı. Bu səbəblərdən də Bombey Universiteti federal universitet kimi tanınır.

Hindistan müstəqillik əldə etdikdən sonra (1947) universitetdə sənaye və kənd təsərrüfatı üzrə kadrların hazırlıq bölməsi genişləndirildi, təbiət elmləri sahəsi üzrə tədqiqat işlərinə diqqət artırıldı. 1953-cü il aktına əsasən qiyabi təhsili təşkil etmək hüququnu əldə etdi. Universitetin nəzdində hindi və maratxi dillərində fəhlə sinfi üçün axşam kursları açıldı.

Yuxarıda göstərilən təhsil mərkəzlərindən, kolleclərdən və institutlardan başqa, Mumbayda və onun ətrafındakı rayonlarda yerləşən mühəndislik kollecləri də Mumbay Universitetinin tərkibinə daxildir.

Universitetin məzunlarının arasında çoxlu sayda tanınmış siyasi xadimlərə və məşhur aktiyorlara rast gəlmək olar. Universitetdə alınan təhsil öz fundamentallığı, keyfiyyəti, özünəməxsusluğu ilə seçilir.

**Dehli Universiteti (University of Delhi).** Dehli Universiteti Mərkəzi Qanunvericilik Assambleyasının aktı əsasənda 1922-ci ildə təsis olunmuşdur. İlk illərdə universitetdə incəsənət və elm fakültəsində 750 tələbə təhsil alırdı. Hazırda universitetdə 14 fakültə fəaliyyət göstərir. 86 professor-müəllim çalışır və 79 kollecdə 220 min tələbə təhsil alır. Dehli Univesiteti Hindistanın ən qədim təhsil mərkəzi olaraq, həm də onun ən yaxşı universitetlərindən biri hesab olunur.

Dehli Universiteti Hindistan Hökuməti tərəfindən maliyyələşdirilir. 1922-ci ildə yaradılmış bu təhsil ocağı magistr və doktorantura səviyyəsində proqramları təklif edir. Hindistanın vitse-prezidenti Dehli Universitetinin Kansleridir. O, dünya universitetlərinin THES - QS reytingi üzrə dünyada 371-ci yeri tutur. Universitetdə Şimali kampus və Cənubi kampus adlanan, müvafiq olaraq şəhərin şimalında və cənubunda yerləşən iki kampusu vardır. Şimali kampus Dehli metrosunun sarı xətti ilə bağlıdır. Stansiya Vishşavidyalaya stansiyası adlanır, bu sözün mənası Hind dilində universitet deməkdir .

Dehli Universiteti təhsil, əla tədris metodologiyası və elmi-tədqiqatların aparılmasının keyfiyyəti üzrə başqa Hindistan universitetləri üçün model və yol göstərən universitetdir. Dehli universitetində təhsilin keyfiyyətinə gəldikdə isə, Hindistanın bütün yerlərindən bu universitetdə təhsil almaq üçün bir çox tələbələr cəlb olunmuş və belə möhtəşəm təhsilin əldə olunmasının nəticəsində həmin tələbələrin əksəriyyəti cəmiyyətdə, elm aləmində məşhurlaşmış, böyük ad qazanmışlar.

Dehli Universiteti yarandığı zaman Dehlidı yalnız üç kollec - Müqəddəs Stefan kolleci, Hinduist kolleci və Ramcas kolleci mövcud idi. Müqəddəs Stefan kolleci 1881-ci ildə, Hinduist kolleci 1899-cu ildə və Ramcac kolleci 1917-ci ildə təsis olunmuşdur. Bu üç kollec dərhal Dehli universitetinə birləşdirildi. Dehli Universitetində təhsil bu üç kollecdən, iki incəsənət və elm fakültəsindən, orada təhsil alan 750 nəfər tələbədən başladı. Qısa müddət ərzində Dehli Universiteti ən böyük Hind Universiteti kimi tanındı. Universitet Hindistanda ən böyük universitetlərindən birinə çevrilmişdir. Hazırda hər il tələbələrin sayının artması bu universitetin təhsil səviyyəsinin nüfuzunun göstəricisidir.

Dehli Universiteti ölkənin birinci universiteti olub, təhsil və tədqiqat sferalarında yüksək standartları ilə tanınaraq öz fakültələrinə görkəmli alimləri cəlb edir. Təsis olunduğu gündən bu universitetin prinsiplərinin arasında müşahidə olunan təhsil və tədqiqat sferalarında mükəmməlliyə meyillilik prinsipi ölkənin bütün universitetlərini Dehli universitetinin modelini əsas götürməyə vadar etdi. Onun zəngin akademik ənənələri hər zaman ən istedadlı tələbələri cəlb etdir və bu tələbələr gələcəkdə cəmiyyətin və elmi zənginləşdirərək universitetin adını daha da ucaldır.

Universitetin beş departamenti: Kimya, Geologiya, Zoologiya, Sosiologiya və Tarix departamentləri yüksək səviyyəli təqdiqat mərkəzləri statusunu almışdır. Bu mərkəzlər müvafiq sahələr üzrə tədris və elmi tədqiqatların aparılmasının qabaqcıl təcrübəsinin daşıyıcıları kimi özünəməxsus zənginliyə malikdir. Bundan başqa, universitetin çoxlu sayda şöbələri xüsusi proqram çərçivəsində onların qabaqcıl, zəngin işlərinin tanınmasının nişanəsi (əlaməti) olaraq qrantlar əldə edirlər. Bunlara aşağıdakı departamentlər daxildir: Hindi, Roman, Fars, Coğrafiya, Musiqi, Antropologiya, Riyaziyyat, Buddizm, İngilis dili, Sosial və s.. Universitet bu gün ayrı-ayrı kolleclərdə yerləşən kitabxanalardan əlavə olaraq, 15 böyük kitabxanası ilə də fəxr edə bilər.

Fizika və kimya departamentlərinin yaxınlığında yerləşən universitetin elm mərkəzində bir sıra mürəkkəb və iri tədqiqat ləvazimatları (alətləri) yerləşmişdir. Bu alətlər tez-tez müəllimlər, diplomdan sonrakı fakültələrin elmi işçiləri tərəfindən, həm də Dehlidə və onun ətrafında çoxlu sayda başqa müəssisələr tərəfindən istifadə olunur.

Son illərdə universitetin, Şimal və Cənub kampuslarında bütün kollecləri və departamentləri birləşdirən lift-optik şəbəkə çəkilmişdir. Dehli Universiteti sürətlə artan şəhərlə ayaqlaşmaq üçün bir çox istiqamətlərdə inkişaf edir. Bu baxımdan Cənub kampusu cənubi Dehli sakinlərinin təhsilinin əldə etməsi prosesini asanlaşdırmaq üçün 1973-cü ildə yaradılmışdır. 69 hektar yaşıllığı olan bu kampus təbii ətraf ilə cəlbedici dağlıq boyunca yerləşir. Onun bir çox departamentləri incəsənət fakültəsinə daxildir, fənlərarası və tətbiqi elmlər fakültəsi, idarəetmə fakültəsi də Cənubi Kampusda yerləşir. Bundan başqa, Kampusda zəngin kitabxana, Sağlamlıq Mərkəzi, Bank, Poçt Offisi, inzibati bölmə və imtahan blokları vardır. Cənubi Kampus həmdə professor-müəllim

və qeyri-müəllim heyəti üçün müəyyən yaşayış məhəllələrinin təqdim edilməsini təmin edir. Əcnəbi və ya şəhər sakinləri olmayan tələbələr üçün öz yataqxanaları təklif olunur.

Dehli Universitetinə birinci çağırış zamanı 750 nəfər dəvət olmuşdur. Bu tədbir 26 mart 1923-cü ildə Dehli Qanunvericilik Assambleyasının nəzdində olan Katibliyin Binasının akt zalında keçirildi. Hörmət əlaməti olaraq Hindistanın vitse-kralına zati-aliləri Md.Cahana və universitetin vitse-kansleri Hari Sinqh Gaur cənablarına universitetin fəxri adı təltif olundu.

1947-cil ildə Universitetin gümüş yubiley ilində həmçinin Hindistanın müstəqillik günü qeyd olundu və universitetin əsas zalında ilk dəfə olaraq Hindistanın bayrağı ucaldı, lakin bəzi inzibati problemlər ucbatından əsas təntənəli mərasim 1948-ci ildə keçirildi və bu mərasimdə baş nazir Cavaharlal Nehru, Lord Maunbatten, Ledi Maunbatten, Abur Kalam Azad, Zakir Hüseyn kimi görkəmli dövlət xadimləri iştirak etmişlər. Iyirmi beş il sonra 1973-cü ildə universitetin qızıl yubiley mərasimində Hindistanın baş naziri İndira Qandi, Satyacit Ray, Amrita Pritam və MS Subbulakshmi iştirak etmişlər.

Son yeddi onilliklər ərzində Dehli Universiteti Hindistanın ən böyük universitetlərindən birinə çevrilmişdir. Hazırda orada 14 fakültə, 86 akademik departament və 220 000 tələbəsi olan bütün şəhər boyu yerləşdirilən 79 kollec mövcuddur. Universitetin fəxri dərəcələri Böyük Britaniyanın baş naziri Qordon Braun da daxil olmaqla bir çox dünya şöhrətli xadimlərə təltif edilmişdir.

Bu universitetin tarixinə nəzər salsaq, onun uzun inkişaf yolu keçdiyini görərik. Üç kollecin birləşməsindən əmələ gəlmiş, 750 tələbədən başlamış bu təhsil ocağı hazırda möhtəşəm təhsil ocağına çevrilmişdir. Bu fakt bizə universitetin inkişaf strategiyasının düzgün istiqamətlənməsini açıq-aydın şəkildə sübut edir. Bu yolda Hindistanın Hökümətinin də böyük rolunu xüsusilə qeyd etmək məqsədəuyğundur. Bu universitet hər zaman dövlət nəzarəti altında saxlanılmış və dövlət dəstəyi əsasnda inkişaf etmişdir.

Dehli Universitetinin tələbələri hazırda müxtəlif ölkələrin tələbələri ilə beynəlxalq yarışmalarda iştirak edir və bir çox hallarda qalib olaraq birinci yerləri tuturlar. Bundan başqa, həmin tələbələr təhsillərini bitirdikdən sonra müxtəlif ölkələrin ali təhsil müəssisələrinə müəllim kimi dəvət olunaraq, universitetin adını və zəngin ənənəlirini daha da ucaldırlar. Bu institutun qədim və zəngin ənənələri onun tələbələrini digər universitetin tələbələrindən fərqli cəhətdə göstərir. Dehli universitetində təhsil sistemi hər il təkmilləşir, universitetin işinə bütün dünyadan yeni-yeni istedadlı alimlər cəlb olunur, təhsil və tədqiqat sferaları inkişaf etdirilir. Orada alınan təhsil hər zaman keyfiyyət göstəricisinə görə tələbənin gələcək həyatı üçün möhkəm bünövrə rolunu oynayır. Dünyanın bir çox universitetlərinin bu möhtəşəm universitetin inkişaf strategiyası modelindən istifadə etməsi məqsədəuyğundur, çünki bu model bütün dünya elmi üçün əlverişli model olaraq uzun illər boyu özünü yalnız yaxşı tərəfdən tanıtmışdır.

## İRANDA TƏHSİL

Aparılan hesablamalara görə 1979-cu ildə İranda əhalinin təqribən 60%-i savadsız idi. 6-14 yaşlı uşaqların təhsili icbaridir. Bütün məktəblərdə tədris fars dilində idi, qeyri-fars dilində və Azərbaycan dilində məktəb yox idi.

Xarici ölkələrin, o cümlədən SSRİ-nin ali məktəblərində 30 min iranlı ali təhsil alırdı (1974). Böyük universitetləri bunlardır: Tehran universiteti (1934, 1976-77-ci dərs ilində – 8 mindən çox tələbə), Təbriz universiteti 1957, 7,2 min tələbə, 1974-1975-ci tədris ilində, İran Milli universiteti 1960, 6,9 min tələbə, 1974-1975-ci tədris ilində, Politexnik universiteti 1966, 2,9 min tələbə 1974-1975-ci tədris ilində.

XVIII əsrin sonlarından başlayaraq elm, təhsil v.s sahələrdə mütəxəssislərin hazırlanması üçün istedadlı gənclər Avropa ölkələrinə göndərilirdi. Ölkədə 1951-ci ildə "Bilik evi" adlandırılan darülfunun açıldı. Bunun açılmasında məqsəd dəqiq və humanitar elmlər üzrə kadrlar hazırlamaq idi. Təhsil orta məktəb səviyyəsində 5 il müddətində idi. 1859-cu ildə ilk dəfə olaraq tədris prosesləri dövlət tərəfindən nəzarətə götürüldü. Ali məktəblərin meydana gəlməsi darülfunun inkişafının ardıcıl olaraq itirilməsinə səbəb oldu.

1855-1856-cı illərdə İranda Elmlər Nazirliyi yarandı və 1872-1873-cü illərdə Tehranda xarici dildə dünyəvi məktəblər təşkil olundu. 1889-1890-cı illərdə diplomatlar hazırlayan Ali Siyasi Elmlər Məktəbi, 1900-1902-ci illərdə isə "Mədrəse ye Fəlahet" adlı əkinçilik məktəbi təsis edildi. Bu dövrdə İranın Cənubi Azərbaycan hissəsində 150 ümumi və xüsusi məktəb və 10 mədrəsə var idi. Urmiyada Ali Tibb Məktəbi açılmışdı. 1875-ci ildə Təbrizdə yeni tipli dövlət məktəbi – Təbriz darülfunu açıldı və burada hərbi və mülki məmurlar, həkimlər hazırlanırdı. Məktəb 2 il fəaliyyət göstərmiş və hər il 40-45 nəfər məzunu olmuşdur. 1888-ci ildə Mirzə Həsən Rüşdiyyə yeni tipli məktəb təşkil etmişdi. 1905-1911-ci illərdə Cənubi Azərbaycanda 37 milli məktəb (22-si Təbrizdə) fəaliyyət göstərirdi.

1910-cu ildə Maarif, Vəqflər və İncəsənət Nazirliyinin nizamnaməsi, 1911-ci ildə isə"Təhsilin əsas Qanunu" təsdiq olundu. Bu Qanuna görə, ibtidai təhsil icbari elan olundu. Qanunda məktəblər 4 növə ayrılırdı:

1) kənd ibtidai məktəbləri; 2) şəhər ibtidai məktəbləri; 3) orta məktəblər; 4) ali məktəblər. 1911-ci ildə yeni qanunlara görə, Avropaya tələbə göndərmək və Tehran, Təbriz, Məşhəd, Şiraz və Kirman şəhərlərində dövlət büdcəsi hesabına altı sinifli ibtidai məktəblər yaradılmalı idi. Bu qanunların qəbulundan sonra orta ümumtəhsilin müddəti 12 il müəyyənləşdirildi. 1918-ci

ildə pedaqoji kadr hazırlayan Mərkəzi Darülmüəllim təsis edildi. 1897-ci ildə Müzəffərəddin şahın xüsusi əmri ilə Tehranda M.H.Rüşdiyyə tərəfindən yeni tipli "Rüşdiyyə" adlı məktəb açıldı.

1921-ci ildə İranda Ali Maarif Şurası təsis olundu. Maariflə bağlı olan bütün işlər qanun əsasında həyata keçirilməyə başladı. 1928-ci ildə təşkil olunan Ali Darülmüəllim 1933-cü ildə Pedaqoji İnstitut adlandırıldı. Müəllim kadrları hazırlamaq məqsədilə pedaqoji texnikumlar yarandı. 1934-cü ildə Tehran Universitetinin təşkili haqqında qanun Milli Şura Məclisində təsdiq olundu. Universitetin 6 şöbəsi var idi: 1) fəlsəfə və ilahiyyət elmləri; 2) təbiyyət və riyaziyyat elmləri; 3) ədəbiyyat və pedaqoji elmlər; 4) tibb elmləri; 5) hüquq, siyasi və iqtisadi elmlər; 6) texniki elmlər.

1935-ci ildə İranda yaşlıların təhsilinə diqqət artırıldı. Orta məktəb dövrü Fransada olduğu kimi üç mərhələyə (üçillik, ikiillik, birillik) bölündü. 1943-cü ildə İranda icbari Təhsil Qanunu təsdiq olundu. 1966-1978-ci illərdə yeni maarif sistemi fəaliyyət göstərdi. Yeni sistemə görə ibtidai təhsil 5, orta təhsil 3 və 4-illik olaraq iki pilləyə ayrıldı. Orta məktəbin 4-illik dövrü nəzəri və texniki-peşə bölmələrinə ayrılmışdı. Bu qanunlar Cənubi Azərbaycanda təhsilin inkişafına müəyyən qədər təsir göstərdi. 1911-ci ildə Təbrizdə ibtidai dövlət məktəbi açmaq haqqında qanun qəbul olundu. 1917-ci ildə Təbrizdə ilk orta məktəb yarandı. 1933-1934-cü illərdə Cənubi Azərbaycanda 27 orta məktəb və 186 ibtidai məktəbdə 30 min şagird təhsil alırdı. 1934-1935-ci illərdə Təbrizdə və Urmiyada "Daneşsəra" (pedaqoji məktəb) açıldı. 1934-1941-ci illərdə Cənubi Azərbaycanda 105 məktəb (15-i Təbrizdə), 1938-1939-cu illərdə 27 ibtidai, 52 orta məktəb fəaliyyət göstərirdi. 1946-cı ildə Təbriz Universiteti yarandı və bu universitetin üç fakultəsi (pedaqoji, tibb və kənd təsərrüfatı) var idi. 1952-1953-cü ildə Cənubi Azərbaycanda 833 ibtidai və 64 orta məktəb fəaliyyət göstərirdi. Ali Maarif Şurasının təsdiq etdiyi əsasnaməyə görə, təhsil sistemi aşağıdakı mərhələləri əhatə edir: məktəbəqədər təlim və tərbiyə dövrü; ibtidai təhsil dövrü; istiqamətləndirici (yönəltmə) təhsil dövrü; texniki və peşə təhsili dövrü; əlahiddə məktəblər; universitet və başqa ali məktəblər. İranda ali təhsil şəbəkəsi aşağıdakı təhsil müəssisələrindən ibarətdir: universitetlər; institutlar; ali məktəblər; texniki institutlar; İranda qeyri-dövlət (özəl) ali tədris müəssisələri də fəaliyyət göstərir.

Təhsil alanların sayı 18,9 milyon nəfərdir. Ölkədə 1300000 min tələbə vardır, yəni hər 45 nəfərdən biri ali məktəbdə oxuyur. Hər il ali təhsil müəssisələrini 161 mindən çox tələbə bitirir. Hazırda ölkədə 440 ali məktəb, o cümlədən 87 universitet, 23 institut, 6 ali təhsil mərkəzi, 70 əyani institut, 120 "Pəyami-nur" universiteti və 115 islam universiteti fəaliyyət göstərir.

İranda ali məktəblər iki əsas qrupa bölünür: dövlət və özəl ali məktəblər. Ali təhsil prosesi və onun tənzimlənməsi ixtisaslaşmanı nəzərə almaqla, əsasən, iki müstəqil nazirlik: Mədəniyyət və Ali Təhsil Nazirliyi, Səhiyyə və Tibbi Təhsil Nazirliyi tərəfindən idarə edilir. Dövlət ali məktəblərin və eləcə də özəl

ali məktəblərin tələbələrinin bir hissəsi ölkənin Təhsil Təşkilatı tərəfindən keçirilən ümummilli müsabiqədə iştirak yolu ilə ekspert (bakalavr) dərəcəsi, (magistr) baş ekspert və doktor dərəcələri almaq üçün buraxılış əldə edir.

Hazırda ölkədə Mədəniyyət və Ali Təhsil Nazirliyinə tabe olan 50 universitet, Səhiyyə və Tibbi Təhsil Nazirliyinə tabe olan 33 universitet, başqa nazirliklərin səlahiyyətində olan 53 universitet və ali təhsil mərkəzi fəaliyyət göstərir. Həm də Mədəniyyət və Ali Təhsil Nazirliyinin tabeliyində 23, Səhiyyə və Tibbi Təhsil Nazirliyinin tabeliyində 6 tədqiqat mərkəzi mövcuddur.

İranda 6 yaşından yuxarı savadsız vətəndaşların sayı 20,49 faiz təşkil edir. Bu o deməkdir ki, 9,9 milyon adam oxumaq və yazmaq bacarmır. Təhsil müəssisələrinin hər birində orta hesabla 20 nəfər olmaqla 556 min sinif vardır. Savadlılığın artım tempi əhalinin artım tempini iki dəfə qabaqlayır.

Mədəniyyət və Ali Təhsil Nazirliyi, Səhiyyə və Tibbi Təhsil Nazirliyi nəzdində fəaliyyət göstərən Ali təhsilin genişlənməsi üzrə Şuranın vəzifəsi ali təhsil və tədqiqat fəaliyyətinin müvafiq şəbəkəsinin təsisi və inkişaf etdirlməsi üzrə işləri planlaşdırmaq və onlara nəzarət etməkdir.

Universitetlər və bütün başqa ali tədris müəssisələri, həm də tədqiqat müəssisələri Mədəniyət və Ali Təhsil Nazirliyininin, ali məktəb rektorlarının və tədqiqat müəssisələri rəhbərlərinin idarə etməsi ilə fəaliyyət göstərir. Universitet (və ya bütövlükdə ali məktəb) Şuraları tədris prosesinin və tədqiqat fəaliyyətinin planlaşdırılması məsələləri ilə məşğuldur.

Universitetlərin və digər ali məktəblərin elmi şuralarının üzvləri öz səlahiyyətləri çərçivəsində rəsmi və müqaviləli qaydada fəaliyyət göstərir. Onların vəzifəsi əsas etibarilə elmi layihələrin həyata keçirilməsindən, tədrisdən, tədris prosesinə elmi və praktiki xidmətdən, elmi ekspertiza və tövsiyələrin işlənib hazırlanması ilə bağlı tapşırıqların yerinə yetirilməsindən, elmi seminarlarda, konfranslarda və digər elmi və professional forumlarda iştirakdan, eləcə də öz iş yeri üzrə müvafiq şuraların fəaliyyətində iştirak etməkdən ibarətdir.

Dövlət sektorunda (vilayət mərkəzlərində və ölkənin iri şəhərlərində fəaliyyət göstərən universitetlərlə yanaşı) distant təhsil (məsafədən təhsil) prinsipi üzrə elmi biliklərin inkişaf etdirilməsi və yayılması məqsədi ilə 1988-ci ildə “Pəyami-nur” universiteti yaradılmışdır. “Pəyami-nur” universitetlər səviyyəsində qiyabi və əyani təhsil üzrə təhsil proqramlarının həyata keçirilməsini və öz bilik səviyyələrini artırmaq istəyən işlə məşğul olan adamların (hətta evdar qadınların) çox geniş çevrəsini təhsillə əhatə etmək imkanı yaratmışdır. Hazırda ölkədə “Pəyami-nur” universitetinin 130 bölməsi və filialı mövcuddur ki, onlarda 200 min adam təhsil alır.

Mövcud statistik məlumatlara əsasən 1996-1997-ci tədris ilində ölkənin dövlət universitetləri və ali məktəblərində 600 min nəfər təhsil alırdı, onlardan 14,71 faizi ibtidai universitet təhsili ilə əhatə olunmuşdu, 72,3 faizi – bakalavr dərəcəsi almağa, 4,63 faizi – magistr elməlri dərəcəsi almağa hazırlaşırdı, 8,36

faizi doktoranturada oxuyurdu. Göstərilən ildə dövlət ali məktblərində məzunların sayı (müxtəlif tədris pillələrində) 83385 nəfər təşkil edir, elmi şuraların üzvləri və müəllimlərin sayı 27650 nəfərə çatmışdı.

Ali təhsil sferasında vəzifələrin daha yaxşı reallaşdırılması üçün əhalinin ümumi elmi səviyyəsinin yüksəldilməsi üçün həm kommersiya, həm də qeyri-kommersiya əsasında fəaliyyət göstərən özəl ali təhsil müəssisələri də böyük önəm daşıyır.

Bu kimi ali məktəblərin fəaliyyəti üzərində nəzarət Mədəniyyət və Ali Təhsil Nazirliyi, Səhiyyə və Tibbi Təhsil Nazirliyinə həvalə edilmişdir. Bu ali məktəblərdə müxtəlif ixtisaslar üzrə 650 minə yaxın tələbə təhsil alır.

Ali məktəblərdə keyfiyyətli tədris üçün bütün zəruri şərait və müasir avadanlıq mövcuddur. İranlı tələbələrlə yanaşı, ölkə universitetlərinin müxtəlif bölmələrində və fakültələrində dünyanın 42 ölkəsindən xarici tələbələr də təhsil alır. Mədəniyyət və Ali Təhsil Nazirliyi həm natamam ali təhsil, həm də tam ali təhsil almaq üçün ali məktəb və universitetlərə daha çox sayda əcnəbi tələbə qəbul etmək imkanına malikdir.

Nazirlik dünyanın müxtəlif ölkələrinə fars dilli müəllimləri göndərməyə, orada ali məktəblərdə müvafiq kafedralar yaratmağa, İran universitetlərinin filiallarını təsis etməyə hazırdır.

İİR Mədəniyyət və Ali Təhsil Nazirliyinin nəzdində fars dilinin öyrənilməsi üçün mərkəz vardır. Bu dil Yaxın və Orta Şərq ölkələrində danışan əhalinin sayına görə ikinci dildir (ərəb dilindən sonra). Hazırda xarici ölkələrin ali məktəblərində 30 fars dilli kafedrası yaradılmışdır. İranda hazırlanmış proqrama əsasən xarici ölkələrin vətəndaşları İranda fars dili kurslarında təhsil dövründə qısamüddətli təqaüd alır, bundan başqa, Mədəniyyət və Ali Təhsil Nazirliyi fars dilini öyrənmək istəyənlərə dərs vəsaitləri və ədəbiyyat əldə etməkdə köməklik edir.

## *İİR-də TƏHSİLİN XÜSUSİYYƏTLƏRİ*

## ORTA TƏHSİL

İranda ibtidai və orta təhsil sistemi üç pillədən ibarətdir, yəni ibtidai təhsil, natamam orta və tam orta təhsil. İbtidai məktəb təhsili 5 il davam edir, sonra 3 ildən ibarət orta məktəb, daha sonra isə 3 il tam orta məktəb dövrüdür. Hamı üçün 11-illik təhsil icbaridir.

İranda oğlan və qızların bütün məktəb dövründə ayrılıqda təhsil almalarına baxmayaraq, proqramlarda fərqlər onların 14 yaşları tamam olduqda özünü əks etdirir. Bu fərqlər fənlərin tədrisinə aid deyil, ancaq qızlarda ailədə analarının öyrətdikləri vərdişləri inkişaf etdirməkdir, yəni: biçmək və tikmək, yemək hazırlamaq, uşaqlara və qocalara baxmaq və s. Oğlanlar isə texnikanın, elektronikanın əsaslarını və s. öyrənirlər. Orta məktəb dövründə oğlanlar həftədə bir gün istehsalatda çalışırlar. Məsələn, məktəbin rəhbərliyi onları müqavilə bağlanmış müəyyən bir zavoda göndərir və ilin sonunda

müəssisənin rəhbərliyi işə görə onları qiymətləndirir. Buna görə yeniyetmə pul almır, onların valideynləri bəzi hallarda pul ödəməli olur ki, onların oğlu işləmək arzusunda olduğu bir müəssisədə işləyir. Belə bir praktikada məqsəd ondan ibarətdir ki, məktəbli məktəbi bitirənə qədər heç olmasa bir ixtisasa yiyələnmiş olsun, praktik fəaliyyət səriştəsi əldə etsin və cəmiyyətdə müstəqil yaşamağa hazır olsun.

Məktəbli qızlar təqribən 12 yaşlarından hicab örtürlər. Lakin artıq birinci sinifdən onlar məktəbə müsəlman geyimi olan və hicaba bənzəyən məktəbli geyimində gəlirlər. Beləliklə, onları müsəlman cəmiyyətində qadın geyiminə öyrəşdirirlər. Məktəblilər ən erkən yaşlarından məktəbdə dinin əsaslarını öyrənir. Qızları psixoloji baxımdan buna hazırlaşdırırlar ki, müsəlman geyimi daha rahat və daha təbiidir. Məktəb səviyyəsində bu tədris göstərişi kimi başa düşülür.

Son on il ərzində ölkədə çoxlu sayda özəl məktəb açılmışdır. İranda pansion və yaşayış yeri olan məktəb yoxdur. Əgər uşaq bədbəxt hadisə nəticəsində və ya hər hansı digər səbəb üzündən valideyinlərini itirirsə, onu bir qayda olaraq, qohumları oğulluğa və ya qızlığa götürür, dövlətin onlarla məşğul olmasına ehtiyac qalmır. İran məktəblərində alman, ingilis, fransız, italyan, ispan və rus dilləri tədris olunur. Şagirdlər öz istəklərinə uyğun olaraq, öyrənilən bu altı dildən birini seçirlər. Bu yaxınlarda, İran İslam Respublikası tarixində ilk dəfə olaraq məktəblərdə cinsi tərbiyə dərsləri tətbiq edilməyə başlamışdır. Bu dərslərdə şagirdlərin qaldırdıqları bütün problemlər müzakirə edilir. Əvvəllər bu fənn islam dövlətinin məktəblərində yasaq sayılırdı.

İranın paytaxtı Tehran Orta Asiyada əsas elm-təhsil mərkəzi sayılır. Tehranda ilk ali təhsil müəssisəsi Darülfünun 1851-ci ildə yaranıb. Tehran universitetinin əsası isə 1933-cü ildə qoyulub. Bu, İranın ilk dövlət universiteti və ölkədə ən böyük universitetdir.

Şəhərdə 50-yə yaxın ali təhsil müəssisəsi var, onlar arasına bunlar daxildir: İmam Əli Ordu Zabit universiteti; Hərbi Tibbi Dövlət Universiteti; Ali distansiyalı təhsil institutu – Fərabi; Nəzəri Fizika və Riyaziyyat İnstitutu; Energetika İnstitutu; İran Polimerlər və Neft Məhsullarının Tədqiqatı İnstitutu; İran Telekommunikasiya Universiteti; Neft Tədqiqatı İnstitutu; Kərəc Müstəqil İslam Universiteti; Tibb Universiteti; Bəkiyətulla Tibb Universiteti; Polis Universiteti; Rey Müstəqil İslam Universiteti; Rudəhən Müstəqil İslam Universiteti; Tehran Beynəlxalq Universiteti; Tehran Müstəqil İslam Universiteti – Birinci Şöbə; Tehran Müstəqil İslam Universiteti – Mərkəzi Şöbə; Tehran Müstəqil İslam Universiteti – Şimal Şöbəsi; Tehran Müstəqil İslam Universiteti – Cənub Şöbəsi; Tehran Müstəqil İslam Universiteti – Tibb İnstitutu; Tehran Universiteti; Tehran Tibb Elmləri Universiteti; Tehran Tətbiqi Elm və Texnologiyalar Universiteti; Xədit Tehran Universiteti; Tehran Ekologiya Universiteti; Əmirkəbir Texnologiya Universiteti; Tusi Texnologiya Universiteti; Şərif texnologiya Universiteti; Əllamə Təbatəbai Universiteti; Əl-Zəhra Universiteti; Aerodi-

namika Universiteti; Bagir Əlolum Universiteti; Yüksək Texnologiyalar Universiteti; Təsviri İncəsənət Universiteti; İmam Hüseyn Universiteti; İmam Səccad Universiteti; İmam Rza Universiteti; Bəxəsti Tibb Elmləri Universiteti; Şaxəd Tibb Elmləri Universiteti; Elm və Texnologiyalar Universiteti; Sosial Müdafiə Universiteti; Təribat Müəllim Universiteti; Təribat Mədrəsə Universiteti; Məlik Əştər Texnologiyalar Universiteti; Şaxəd Universiteti; Şahid Bəxəsti Universiteti; Beynəlxalq Əlaqələr Məktəbi; İqtisadi Elmlər Məktəbi.

Bütün İranda olduğu kimi, Tehran universitetləri də dövlət nəzarəti altındadır. Buna baxmayaraq, məhz tələbələr müxalifətin əsas hərəkətverici qüvvəsidir. Belə ki, 1979-cu il inqilabının ən fəal iştirakçıları tələbələr idi. Həmçinin, 1999-cu ilin yayında Tehran universitetinin tələbələri digər universitetlərə qarşı iğtişaş törətmiş və altı gündən sonra bu qarışıqlıq yatırılmışdır.

Hazırda İranda tədris olunan təhsil yüksək səviyyəsi ilə ölkəyə hörmət qazandırır. Aşağıdakı statistika diqqəti cəlb edərək, təəccüb doğurur. Təhsil sistemində 556 min otaq (auditoriya), hər birində isə orta hesabla 20 tələbə təhsil alır. Deməli, savadlılıq artımının templəri əhalinin artım templərini iki dəfə qabaqlayır. Bu isə burada olan təhsil sisteminin düzgün qurulmasını bir daha sübüt edir.

Mədəniyyət, Səhiyyə və Ali Təhsil, Tibbi Təhsil Nazirliyinin nəzdində fəaliyyət göstərən ali təhsilin geniş yayılması üzrə yaradılmış Şuralar ali təhsilin müvafiq şəbəkəsinin və tədqiqat fəaliyyətinin təsisi və inkişafı üzrə işi planlaşdırmalı, onu nəzarət altında saxlamalı, bu haqda hər il müvafiq orqanlara qanunvericiliklə təyin olunmuş qaydada müvafiq hesabatları təqdim etməlidir.

Universitetlərin və başqa ali təhsil müəssisələrinin elmi şurasının üzvləri öz səlahiyyətləri çərçivəsində rəsmi və müqaviləli əsaslarda fəaliyyət göstərir. Onların vəzifəsi, əsasən, elmi layihələrin həyata keçirilməsindən, tədrisin aparılmasından, təhsil prosesinin elmi və praktiki şəkildə dəstəklənməsindən, elmi ekspertiza və tövsiyələrin işlənməsi ilə bağlı işlərin yerinə yetirilməsindən, elmi seminarlarda, konfranslarda və digər elmi və professional forumlarda, həm də iş yeri üzrə müvafiq şuraların fəaliyyətində iştirak etməkdən ibarətdir.

Hazırda Mədəniyyət və Ali Təhsil Nazirliyinə tabe olan 50 universitet, Səhiyyə və Tibbi Təhsil Nazirliyinə tabe olan 33 universitet və bundan başqa nazirliklərin səlahiyyətində olan 53 universitet və başqa ali təhsil mərkəzləri vardır.

Həm də Mədəniyyət və Təhsil Nazirliyinin tabeçiliyində 23, Səhiyyə və Tibbi Təhsil Nazirliyinin tabeçiliyində 6 tədqiqat mərkəzi və müəssisələri də fəaliyyət göstərir.

İranın ən nüfuzlu universitetlərindən ikisi daha məşhurdur: Tehran Universiteti, Azad İslam Universiteti.

Tehranda və ümumilkdə İranda verilən təhsilin nə dərəcədə əhəmiyyətli, keyfiyyətli olduğu haqda bəzi faktlar qeyd edək.

Tehran Universiteti İranda ən böyük və qədim universitetlərdən biridir. Universitetdə 1500 elmi işçi işləyir və 32 minə yaxın tələbə təhsil alır. Onun

rektoru dünya üzrə məşhur iqtisadçı, 2007-ci ilə qədər İranın vitse-prezidenti olan, doktor Fərhad Rahbardır. Onun İranın tarixində mühüm rol oynaması dünya liderləri tərəfindən tanınmışdır.

Universitet Rıza Şahın şəxsi sərəncamı əsasında 1934-cü ildə təsis olunmuşdur. Mahiyyətcə universitet o zaman bir neçə mövcud ali təhsil müəssisələrinin birləşməsindən əmələ gəlmişdir. Onlardan ən birinci Dar Ölfun 1851-ci ildə yaradılmışdır. 1937-ci ildə artıq qadınlara universitetdə təhsil almağa icazə verildi. Bu isə ümumilikdə ölkədə qadınların rolunu yüksəldərək, onların hüquqlarının tanınmasının ilk mərhələsi kimi qəbul olundu. 1945-ci ildə Amirabadda tələbələr üçün yataqxana tikildi. 1986-ci ildə Tehran Universitetinin tərkibindən tibbi fakültəsi ayrılaraq, Tehran Tibb Elmləri Universitetinə çevrildi. Bu andan da İranda tibbi təhsilin keyfiyyəti iri addımlarla yüksəlməyə başlıyaraq, qısa müddət ərzində İran təbabətini bütün dünyaya tanıtdı.

Hazırda universitetin tərkibində 40 fakültə, institutlar və elmi mərkəzlər fəaliyyət göstərir. Hər il məzunların peşə səviyyələrini daha da artırmaq üçün müxtəlif tədbirlər keçirilir, yüksək nəticələr əldə edilir.

Tehran Universiteti İranın ən yeni tarixində böyük rol oynamışdır. 1979-cu ildə Tehran Universitetinin tələbələri aktiv şəkildə şah rejiminə qarşı çıxış edərək, İslam inqilabına böyük dəstək göstərdilər. 1999-cu ildə burada "Salam" müxalifət qəzetinin bağlanmasına qarşı etiraz aksiyası keçirildi, lakin nəticədə tələbə ixtisaşları yarandı. 2005-2008-ci illərdə Tehran Universitetinin rektoru vəzifəsini ilahiyyət proefssoru, Xomeyninin yaxın dostu Ayətolla Abbas-Ali Amid Zəncani tutmuşdur.

Tehran Universiteti həmçinin İranın ilk və ən böyük ali təhsil müəssisəsi və elmi-tədqiqat mərkəzidir. 1934-cü ildə təsis olunmuş bu universitetin tərkibində aşağıdakı fakültələr vardır: ədəbiyyat və humanitar elmlər fakültəsi, stomatologiya, təsviri incəsənət, hüquqi, tibb, əczaçılıq, təbiət elmləri, texnologiya, ilahiyyət, baytarlıq, meşə təsərrüfatı, səhiyyə, idarəetmə, pedaqoji, iqtisad və s fakültələr; həmçinin burada 35 institut, onkologiya, geofiziki tibb, coğrafiya, iqtisadiyyat, psixologiya, sosiologiya, su resurslarının hidrologiya və texnologiyası, tibbi eksperimental, ensiklopediya, nüvə tədqiqatları, tibbi elmi-tədqiqat mərkəzləri yaranmışdır. 1974-1975-ci tədris ilində 20 minə yaxın tələbə oxuyurdu, 1.5 minə yaxın müəllim dərs deyirdi. Tehran Universitetinin kitabxanalarında 300 min cilddən artıq kitab vardır.

Hazırda xarici dillər kafedrası Tehran Universitetinin strukturunda formalaşan və inkişaf edən kafedradır. Müasir linqvistika tədrisinin əsas məqsədi xarici dilə müvəffəqiyyətlə yiyələnməyi təmin edən kommunikativ səlahiyyətin tələbələrdə formalaşmasıdır. Kommunikativ səlahiyyətlilik özünə həm nitqi, həm də mədəni səlahiyyətləri daxil edir. Praktika göstərir ki, Tehran Universitetinin tələbələri ilə tədris prosesində nitq davranışının təkcə milli-mədəni xüsusiyyətləri deyil, həmçinin kommunikativ davranışın xüsusiyyətləri ilə də rastlaşırlar. Bununla bağlı Tehran Universitetinin xarici dillər kafedrasında xarici dillərin dərindən

mənimsənilməsi tendensiyası daha ətraflı şəkildə özünü biruzə verir. Bu isə tələbələrin qısa müddət ərzində istənilən dilə asanlıqla yiyələnməsinə səbəb olur və bu, bir çox ölkələrin tələbələrini məhz bu universitetdə təhsil almağa vadar edir. Kafedralarda günü-gündən yeni layihələr hazırlanır, təhsil prosesinin daha səmərəli və keyfiyyətli olması üçün islahatlar aparılır.

Tədqiqatçıların fənlərarası əlaqələrə daim artan maraqlarını nəzərə alaraq, layihənin rəhbərliyi yeni elmlərə böyük diqqət yetirməyə başladı. Bu da Tehran Universitetinin ən yeni elmlər və texnologiyalar fakültəsinin yaradılmasına gətirib çıxartdı. Bu fakültə ən qısa müddət ərzində böyük müvəffəqiyyətlər əldə etdi, tələbələr çox böyük təcrübəyə yiyələnmək və ən yeni texnologiyaların mahiyyətini öyrənməklə, dünyanın qabaqcıl şirkətlərində işləmək şansını əldə etdilər.

Universitetdə artıq nanobiotexnologiyanın tədqiqatı kimi fənlər doktorantlar üçün, biomateriallar və mühəndislik daxil olmaqla tibbi mühəndislik, yeni davamlı enerjinin öyrənilməsi daxil olmaqla mikrobiotexnologiya, aviasiya, kosmos haqqında biliklərin daxil olduğu aerokosmik struktur və mexanika fənləri magistrlər üçün tətbiq olunur.

Yuxarıda göstərilmiş ixtisaslara görə magistr səviyyəsində olan tələbələr xüsusi açılmış mühəndislik və tibbi informasiya texnologiyaları fənnini də öyrənə bilərlər.

Qeyd etmək lazımdır ki, Tehran Universitetinin ən yeni elmlər və Texnologiyalar fakültəsi İran Prezidenti Dr.Mahmud Əhmədinecad, onun elmi-texnoloji işlər üzrə müavininin və Tədqiqatlar və Texnologiyalar nazirinin iştirakı ilə rəsmi olaraq 20 aprel 2011-ci ildə açıldı.

Tehran Univeristetində verilən təhsil, keyfiyyətinə görə bir çox xarici ölkələrin universitetlərindən nəinki geri qalmır, bəzi hallarda hətta onlardan üstündür. Tehran Universiteti yaranandan bu günə kimi böyük addımlarla inkişaf etmiş, orada ildən-ilə təqdim edilən proqramların səviyyəsi artmış, yeni layihələrin aparılmasına xüsusi diqqət yetirilmişdir.

Burada olan kitabxanaların, auditoriyaların, təhsil vəsaitlərinin bütün İran universitetləri arasında tayı-bərabəri yoxdur. Buna səbəb universitetin daxili sistemi peşəkarlıqla qurularaq, daim nəzarət altındadır. Universitetin təkrar olunmaz daxili ab-havası, tələbələrlə müəllimlər arasında səmimi, dost münasibətlər öyrənənlərdə motivasiyanı daha da gücləndirir. Tələbələr hər zaman, hətta dərs saatlarından əlavə vaxtlarda da müəllimlərlə əlaqə saxlayıb, onları narahat edən, qaranlıq qalan məsələləri aydınlaşdıra bilirlər. Belə yanaşma tələbələrin peşəkarlığı istiqamətində öz bəhrəsini verir və onların etimadlarını doğruldur.

Tehran Universitetində təhsil alanlar sırasında çoxlu sayda tanınmış siyasi xadimləri, tibb elmləri doktorları və s. göstərmək olar.

Azad İslam Universiteti İranda ən böyük, qeyri-dövlət ali təhsil müəssisələrindən biri olaraq, öz nailiyyətləri ilə artıq dərəcədə seçilir. Bu ali təhsil müəssisəsinin tərkibində 1,35 milyon tələbə təhsil alır. Universitet ölkə daxilində 350

bölməyə və xaricdə də (BƏƏ, Böyük Britaniya) bir çox sayda bölməyə malikdir, yalnız xaricdə olan bölmələrdə 31.000-ə yaxın işçi vardır.

Azad İslam Universiteti 1982-ci ildə təsis olunmuş İranın nəhəng universitetlərindən biridir. Universitetdə kiçik şəhərlər və məntəqələr daxil olmaqla 400 bölmə vardır. Onun həmçinin BƏƏ, Böyük Britaniyada, Tanzaniyada, Livanda da filialları mövcuddur. Malaziyada, Kanadada, Əfqanistanda və Tacikistanda da filialarının açılışı yaxın zamanlarda planlaşdırılır.

Azad İslam Universiteti qeyri-dövlət universitetidir. Burada tələbələr təhsil haqqını özləri ödəyir, lakin bu pulların hamısı universitetin inkişafına və yeni filialların açılışına sərf olunur. Universitet dövlət tərəfindən heç bir dəstək almır və dövlətdən asılı deyildir. Tələbələr tərəfindən bu universitetdə verilən ixtisasın seçilməsi, hər il tələbələrin sayının xeyli artması universitetin təhsil sisteminin son dərəcə keyfiyyətli səviyyədə qurulmasını sübut edir.

Azad İslam Universitetində dünyanın ən nüfuzlu ali təhsil müəssisələrində olduğu kimi, elmin bütün spektrləri tədris olunur. Burada 44 000 yaxın müəllim tələbələrin biliklərə lazımi səviyyədə yiyələnməsi üçün çalışırlar. Bu da nəticə etibarı ilə məzunların yüksək peşəkar mütəxəssislərə çevrilməsinin müəyyən mənada zəmanəti kimi qəbul oluna bilər. Tələbələr tədris prosesi zamanı sərbəst şəkildə tədqiqatlarda iştirak edir, yüksək keyfiyyətli nəticələrin əldə edilməsində elmi mərkəzlərin işçilərinə köməklik göstərirlər.

Təhsil pillələrindən asılı olaraq, tələbələr bakalavr, magistr və doktor dərəcələrini ala bilər. Universitetin iki müxtəlif sahə üzrə 28 sayda tədqiqat mərkəzləri vardır. Bu tədqiqat mərkəzlərinin hər birində müasir avadanlıqlardan istifadə olunaraq, dəqiq nəticələr əldə olunur. Universitet bir neçə qəzet və jurnal buraxır, müntəzəm şəkildə idman yarışlarını və robototexnika üzrə yarış daxil olmaqla, elmi olimpiadaları keçirir. Bu olimpiadalarda yüksək nəticə əldə edən tələbələr üçün müxtəlif sayda güzəştlər nəzərdə tutulmuşdur.

Azad İslam Universitetinin Qəzvin şəhərində (Tehrandan 150 km qərbdə) yerləşən filialını xüsusi olaraq qeyd etmək lazımdır. Bu filial 1992-ci ildə açılmışdır, hal-hazırda burada 28000 tələbə təhsil alır, onların imtahanlarının nəticələri son illər ərzində bütün filialların arasında ən yüksək göstəricilərə malikdir, həm də filialın tələbə yataqxanası Yaxın Şərqdə ən böyük tələbə yataqxanası sayılır və burada tələbə üçün son dərəcə rahat şərait yaradılmışdır. Bu filialda 81 ixtisasın tədris olunduğu 8 fakültə təqdim olunmuşdur.

Təbii ki, bu o demək deyil ki, o öz inkişafının müəyyən nailiyyətlərindən sonra dayanmışdır, ən yeni təchiz olunmuş avadanlıqların vasitəsilə orada yeni-yeni elmi kəşflər aparılır. Hətta İranda bu institut öz qeyri-adiliyi ilə seçilir.

İranda elmlərin inkişafına, tələbələrə və müəllimlərə qarşı olan hörmət çox yüksək səviyyədədir. İnsanlara qarşı məhz bu cür qayğının, hörmətin yüksək səviyyədə göstərilməsi cəmiyyətin tərəqqisinə təkan verə bilər. Bu universitetdə tələbələrin nəinki analitik inkişafına, həmçinin mənəvi inkişafına da diqqət

yetirilir və məhz bu da bütün dünya ölkələrinin tələbələrini Azad İslam Universitetində təhsil almağa cəlb edir.

Bu universitetdə tələbələrin mənəvi tərbiyəsinə çox böyük yer ayrılır, adi fənlərdən biliklərə yiyələnməklə həm də yanaşı, tələbələr mənəvi zənginlik qazanırlar.

Bu nüfuzlu unuversitetin məzunları üçün ümumdünya təşkilatlarında işləmək, orada dəyərli bir əməkdaş olmaq heç bir çətinlik törətmir, əksinə, burada təhsil almış tələbələr öz gələcyini əvvəldən təmin etmiş olurlar.

Spesifik strukturu, tayı-bərabəri olmayan rahat şəraiti, yerli əhalinin dostcasına yaxınlaşması, qiymətlərin səmərəliliyi universiteti məzunların gözlərində daha da cəlbedici edir.

## TÜRKİYƏDƏ TƏHSİL

Türkiyə təhsil sisteminin özünəməxsus xüsusiyyətləri olmuş və Konstantinopol təhsil mərkəzi kimi məşhurlaşmışdır. XI əsrdə Maqnavr ali məktəbi açılmışdır. Universitetin iki fakültəsi (hüquq və fəlsəfə) var idi. Burada eyni zamanda ali tibb məktəbi də yaradılmışdı. Ölkədə ibtidai, kilsə-monastr və özəl məktəblər açılmışdı. İri şəhərlərdə kitabxanalar və kitab üzü köçürülən emalatxanalar yaradılmışdı. Təhsil pullu olduğundan ibtidai məktəblər uşaqların bir çoxu üçün ilk və son pilləsi idi. Elə ibtidai məktəblər (kilsə-monastr) var idi ki, burada yalnız xristian dininin müqəddəs kitabları və xirstian alimlərinin əsərləri öyrədilirdi. Bizansda təhsilin ikinci yüksək pilləsi qrammatika məktəblərində həyata keçirilirdi. Bu cür məktəblər kilsə və dünyəvi, özəl və dövlət səviyyəli idi. Uşaqlar 10-12 yaşlarından 16-17 yaşa kimi oxuyur və təhsil müddəti 5-6 il davam edirdi.

Türkiyə təhsili türk dilini öyrənmək və Rusiyada çalışan türk şirkətlərində iş tapmaq istəyən rusiyalılar üçün get-gedə aktuallaşırdı.

Türkiyədə 90-a yaxın dövlət universiteti və 25 özəl kollec var.

Türkiyə təhsil sistemi Rusiya təhsil sisteminə demək olar ki, çox oxşardır.Türkiyədə ibtidai təhsil Rusiyada olduğu kimi 8 il, orta təhsil isə 10 ildir. Beləliklə, abituriyentlər çətinlik çəkmədən Türkiyədə ali təhsil ala bilər, çünki, məzunların attestatı onların ali məktəblərdəki tələbatına uyğundur.

Məktəbi və ya liseyi bitirdikdən sonra şagirdlər oxumaq istədikləri ali məktəbə qəbul imtahanı verirlər. Əgər onlar keçid balını toplaya bilsələr, təhsil haqqını dövlət ödəyir.

Türkiyədə ali təhsil üçpilləlidir: bakalavriat, magistratura, doktrantura. Ali məktəbi bitirdikdən sonra tələbə bakalavr sonra isə magistr dərəcəsi alır.

Təhsil pulludur və 4-6 il davam edir. Dövlət ali məktəblərində ödəniş fərqlidir, bu rəqəm 650 dollardan 1400 dollaradək, özəl ali məktəblərdə isə - 5000 -12000 dollar təşkil edir. Təhsil haqqından başqa, tələbələrin 400-500 dollar müxtəlif xərcləri çıxır.

Türk ali məktəblərinə daxil olmaq üçün abituriyentlər "türk TOEFL" testindən imtahan verməlidir, bu imtahan abituriyentlərin həm də türk dilini bilməsi səviyyəsini müəyyən edir.

Xarici abituriyentlərin məsələləri ilə OSYM (Ölçme, Seçme ve Yerleştirme Merkezi) təşkilatı məşğul olur, türk ali məktəblərinə daxil olmaq istəyən-

lər bu təşkilata müraciət etməlidir. Ərizələrin qəbulu və imtahan üçün 100 dollar ödəmək lazımdır.

Qəbul imtahanını ancaq Ankarada deyil, Bakı, Almata, Bişkek, Kazan, Simferopol, Daşkənddə də vermək olar, bu şəhərlərdə həmin qurumun filialları yerləşmişdir.

Türkiyədə alınan diplom Rusiyada, Türkiyədə, Avropada və ABŞ-da yüksək maaşlı iş tapmaqda kömək edə bilər. Belə ki, dünyanın hər yerində türk firmalarının filialları vardır. Xarici məzunların işə daxil olması üçün ancaq ingilis dilini deyil, həm də türk dilini də bilməsi və Türkiyənin mədəniyyəti və ənənələri ilə tanış olması vacibdir.

Yaxın Şərqdə qədim şərq ənənələrini və Avropa həyat tərzini özündə birləşdirən bir ölkə vardır. Təbii ki, bu Türkiyədir. Türkiyə çox gözəldir, öz müxtəlifliyi və zənginliyi ilə seçilir. Orta məktəb məzunlarının əksəriyyəti ali təhsil almaq fikrindədirlər. "Harada keyfiyyətli təhsil almaq olar?" sualına cavab olaraq son zamanlar Türkiyə nəzərdə tutulur. Son illərdə müxtəlif ali və əlavə təhsil proqramları üzrə təhsili seçən xarici tələbələrin sayı xeyli artmışdır. Müxtəlif proqramları üzrə Türkiyədə daha yüksək təhsili seçən xarici tələbələrin sayı ildən-ilə artır.

Türkiyə universitetlərində üç pilləli təhsil sistemi tətbiq olunur. Ali təhsilin birinci pilləsi bakalavriat proqramlarını təklif edir və tibb, baytarlıq elmləri istisna olmaqla, 4 il müddətində davam edir. İkinci pillə magistratura və üçüncü pillə doktorantura proqramlarını təklif edir. Türkiyə Bolonya prosesinə qoşulan ölkələr siyahısına daxildir. Türkiyə Avropanın ECTS kreditlərin toplanması və köçürülmə sistemindən istifadə edir.

Türkiyə əcnəbi tələbələri və təlim kurslarının iştirakçılarını təkcə öz gözəlliyi və iqlim şəraiti ilə deyil, həm də şərq ənənələri ilə Avropa sayağı həyat tərzini asanlıqla uzlaşdıra bildiyinə görə cəlb edir. Türkiyədə ali təhsil sektoru müxtəlif təhsil proqramlarını həyata keçirən həm dövlət, həm də özəl ali təhsil müəssisələri tərəfindən təmsil olunur.

Tədris proqramı mühazirələr, seminarlar, kurs işləri, imtahanlar və diplom işinin müdafiəsi ardıcıllığına uyğun olaraq qurulmuşdur. Türkiyə ali təhsil müəssisələrinin diplomları dünyanın bütün ölkələrində yüksək qiymətləndirilir, çünki Türkiyənin təhsil sistemi Avropa və Amerika təhsil sistemlərinin ən yaxşı nümunələri əsasında qurulmuşdur.

Türkiyənin ali təhsil sitemində akademik il, adətən, sentyabr ayının ortalarından başlayır və iyun ayının ortasına qədər davam edir. Bəzi universitetlər isə iyul və avqust ayında təşkil olunan yay proqramlarını da təklif edirlər.

Ümumiyyətlə, tələbələrə məzunların rəqabət qabiliyyətlərini təmin edən bilik və bacarıqlarını əldə etməyə imkan verən yüksək təhsil standartları, bütün dünyada tanınan diplomlar, əla təchiz olunmuş auditoriyaları, geniş kitabxana resursları olan müasir universitet şəhərcikləri, mədəni kolorit, təhlükəsiz və

əlverişli maliyyə şərtləri (Türkiyədə təhsil və yaşayış xərcləri başqa Avropa ölkələri ilə müqayisədə çox aşağıdır) Türkiyə təhsilinin nüfuzunu qaldırır.

**Mərmərə universiteti.** İstanbuldakı məhşur universitetlərdən biri Mərmərə universitetidir. Bilkent Amerika prinsipi ilə təşkil olunan ən tanınmış ali təhsil müəssisələrindən biri olaraq, böyük nüfuza malikdir. Bu universitetin müəllimlərinin əksəriyyəti avropalılar, amerikalılar, avstraliyalılar və digər Qərb ölkələrinin vətəndaşları, yaxud uzun illər boyu xaricdə yaşayıb təhsil alan Türkiyə vətəndaşlarıdır. 2800 müəllimi və 50000 tələbəsi olan Türkiyənin ən qədim Mərmərə Universitetində dərslər ingilis, alman, fransız və türk dillərində aparılır.

Universitet 15 yanvar 1883-cü ildə təsis olunmuş ticarət və kənd təsərrüfatı nazirliyinin nəzdində idi. Onun təsisçisi nazir Suphi Paşa idi. Əvvəlcə o Ali Ticarət Məktəbi olmuşdur. Sonrakı illərdə İqtisad və İdarəetmə Elmləri fakültəsinə çevrildi, 20 ildən sonra isə Mərmərə Universiteti adlandırıldı.

Son 20 ildə universitetdə böyük genişlənmə aparıldı, hal-hazırda 13 fakültə, 11 institut, 8 kollec və birbaşa rektorata aid olan 3 bölmə, həmçinin, 28 tədqiqat mərkəzi vardır. Ümumiyyətlə, ixtisaslar üzrə məktəblərdə 104 istiqamətdə, özəl məktəblərdə isə 44 istiqamətdə təhsil verilir. Tədris xidmətləri ilə yanaşı, universitet həmçinin nəşriyyat və konsaltinq fəaliyyəti sahəsində xidmətlər təklif edir.

Bu universitetdə müxtəlif istiqamətlər üzrə çoxlu sayda tədqiqat mərkəzləri, tələbə klubları və s. vardır. Universitetə daxil olmaq çox çətindir, Türkiyə vətəndaşları üçün vahid imtahan, xarici vətəndaşlar üçün isə xüsusi imtahanlar keçirilir, yalnız yüksək balları toplayan tələbələr təhsil almağa dəvət olunur.

Burada dünyanın bütün ölklələrindən, eyni zamanda MDB ölkələrindən gələn çoxlu sayda tələbələr təhsil alır, dərin biliklərə yiyələnir və bununla da öz gələcəyinin təməlini qoyurlar.

Mərmərə Universiteti 100 ildən artıqdır ki, təhsil sahəsində liderdir. O, 1883-cü ildə yaradılmış və bu dövr ərzində keyfiyyətli təhsilin ən yüksək standartlarını nümayiş etdirmişdir. Hazırda burada 60000 tələbə təhsil alır, professor-müəllim heyəti isə 3000 nəfərdən ibarətdir. Müəllimlər və tələbələr daim tədqiqat işləri və yeni layihələr üzrə çalışırlar. Mərmərə Universitetinin əsas missiyası təkcə bütün müasir dünya standartlarına uyğun olan yüksək səviyyəli təhsilin təqdim edilməsi deyil, həmçinin tələbələri gələcək həyata, fəaliyyətə, müvəffəqiyyətli karyeraya hazırlamaqdır. Universitet əmək bazarının son tendensiyalarını və tələbatlarını izləyir və bu səbəbdən də məzunları dünyanın tanınmış müəssisələrinə işə dəvət edirlər.

Universitetin çoxlu sayda olan tədqiqat mərkəzləri İstanbulun Anadolu hissəsində yerləşir.

Burada xaricdən gələn vətəndaşlar hər zaman xoş qarşılanır, çünki o, beynəlmiləl universitet sayılır. Burada əcnəbi tələbələr üçün xüsusi olaraq yeni proqramlar və layihələr hazırlanır, mədəni və elmi təcrübə mübadiləsi imkanı,

bütün tələbələr üçün beynəlxalq yarışlarda, festivallarda iştirak etmək imkanı vardır. Mərmərə Universiteti Avropa Universiteti Birliyi üzvü olan bir neçə Türkiyə universitetlərindən biridir. Universitetin bütün fakültələri beynəlxalq əməkdaşlıq proqramlarının iştirakçılarıdır və dünya üzrə bir çox peşələrin nümayəndələri ilə sıx əməkdaşlıq münasibətlərinə malikdir.

Mərmərə Universitetinin fakültələri: Atatürk pedaqoji; Stomatologiya; Əczaçılıq; Elmi; Təsviri İncəsənət; Hüquq; İqtisadiyyat və inzibati Bilimlər; İlahiyyət; Kommunikasiyalar; Mühəndislik; Texniki təhsil; Tibb; Səhiyyə fakültəsi.

Hansı səbəbdən bu universitetdə təhsil dünyanın bir çox ölkələrinin vətəndaşlarını cəlb edir? Mərmərə Universiteti professional təhsil, təhsilin tədqiqat və metodikalarını dinamik və innovasiyalı mədəniyyətə uyğunlaşdıraraq, qədim təhsil ənənələrinə malikdir. Yüksək təhsil standartları, əldə olunan nəzəri biliklərin praktikada tətbiqi, fənlərarası tədqiqat və tədqiqat xarakterli çalışmaların aktiv işlənməsi, bunların hamısı Mərmərə Universitet təhsilinin xüsusiyyətlərindən biridir.

Mərmərə universiteti öz vətəndaşlarına və başqa ölkələrdən təhsil almağa gələn tələbələrə yüksək həyat tərzini aşılayan, təmiz ətraf mühiti, təhsil və tədqiqatlarda yüksək standartlara uyğun olan ali təhsil müəssisəsidir. Mühazirələrə iştirakdan başqa, tələbələr, hər bir iştirakçının elmi-tədqiqat məsələlərinin aktiv müzakirəsi prosesinin zənginləşməsində öz payının olduğu qruplarda əməkdaşlıq edirlər və bununla yanaşı, hər biri həmçinin fərdi işləyə bilir. Mərmərə Universitetində bütün inkişaf etmiş ölkələrin işə götürənləri tərəfindən qəbul edilən ixtisaslaşma əldə olunur.

Universitet ən müasir kitabxana, mühazirə auditoriyaları və laboratoriyalarla təchiz olunmuşdur. Kitabxanalarda kompyuter otaqları və hətta dəhlizlərdə belə kompyuterlər vardır, bütün tələbələr onlardan azad, sərbəst şəkildə istifadə edə bilir.

Mərmərə universitetində təhsil alan tələbələr müstəqil şəkildə işləyir və öz təşəbbüslərini göstərirlər. Onların təhsilinin bir hissəsi müstəqil layihə və tədqiqat işindən ibarətdir. Dərəcənin əldə olunması üçün kursların çox hissəsi müstəqil xarakter daşıyır və ixtisaslaşma sahəsini özləri seçirlər. Bütün proqramlar özlüyündə böyük layihə üzrə məruzəni, dissertasiyanı əhatə edir.

**Atatürk Universiteti.** Türkiyənin ən nüfuzlu universitetlərindən biri də Atatürk Universitetidir. Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürk 1 noyabr 1937-ci ildə Türkiyə Böyük Millət Məclisindəki nitqində Şərqi Anadoluda böyük bir universitetin qurulmasının lazım olduğunu şərh etmiş, bu istiqamətdə işlərin başlanmasına tapşırıq vermişdir. Atatürkün ölümündən sonra bu işlər 12 il dayandırılmışdır. 1950-ci ildə yenidən gündəmə gətirilmişdir. 1951-ci ildə yaradılan komissiya Şərq Universitetinin Ərzurumda olmasına qərar vermişdir. 1954-cü ildə universitetin adı Atatürk qoyuldu. Həmin il Amerika Birləşmiş Ştatlarının USAİD təşkilatı vasitəsilə Atatürk

Universiteti ilə Nebraska Universiteti arasında işbirliyi qurulmuşdur. Beləliklə, Atatürk Universitetinin gənc müəllim heyəti Nebraska Universitetinin texniki və akademik araşdırmaları təcrübəsindən yararlanmışdır. İlk başlanğıcda universitetdə Əkinçilik, Dil-ədəbiyyat, Mühəndislik və Memarlıq fakültələri var idi, sonralar isə başqa fakültələrin açılması nəzərdə tutulmuşdur. Atatürk universitetində 17 fakültə, 5 ali məktəb, 15 peşə məktəbi, 6 institut və 16 araşdırma mərkəzi var. Bu mərkəzlərin işi xüsusilə əhəmiyyətlidir, çünki tələbələr gələcəkdə onların əsasında təhsil alır, daha dərin biliklərə yiyələnirlər.

Universitetdə 2007-2008-ci tədris ilində 41613 tələbə təhsil alırdı. Universitetdə yeni fakültələrin açılması ilə tələbələrin sayı getdikcə artmışdır. Bakalavr təhsili alan tələbə sayında olan artım magistraturda özünü əks etdirirdi. Daxilindəki institutlarda isə tələbələrin say artımı daha çox Sosial Elmlər İnstitutundadır.

1937-ci ildən etibarən Türkiyənin elm sahəsinə böyük töfhələr vermiş bu önəmli universitetin qurulması kimi şərəfli yola başlayanlar: Türkiyə Cümhuriyyətinin prezidenti Qazi Mustafa Kamal Atatürk, baş nazir Adnan Menderes, Milli Təhsil Nazirləri - Tövhiq İləri, prof. Rıfkı Səlim Burçaq, Cəlal Yardımcı, Nebraka Universitetinin rektoru prof. Cliffor M.Hardi. Cümhuriyyətin qurucusu Mustafa Kamal Atatürk bu möhtəşəm universitetin təməlini əvvəlcədən yüksək səviyyədə qoydular. 1951-ci ildə yaradılan komissiya Şərq Universitetinin Ərzurumda olmasına qərar verdi.

Qeyd etmək lazımdır ki, hazırda 18 fakültədə 43000 tələbə təhsil alır. Universitetdə həmçinin 23 000 tələbə distant təhsil alır. Distant təhsil universitetdə yaradılmış təhsil sisteminin professionallığından irəli gələrək, yüksək nəticələr verir. Hazırda dünya ölkələrinin vətəndaşları distant təhsil seçimini məhz Atatürk universitetinin naminə edir. Bu zəngin tarixi olan universitet hər bir məzunun həyatında silinməyən xoş bir iz qoyur.

Hər il Atatürk Universitetinə qəbul olunan tələbələrin, həmçinin tədqiqatçıların və müəllimlərin sayı artır, bu isə Türkiyədə və xüsusilə də Atatürk Universitetində təhsilin nə qədər nüfuzlu olduğunu bir daha sübut edir.

Ali təhsilin pilləsini yaratmaq Bizans sivilizasiyasının əsas xüsusiyyətlərindən biri olmuşdur. V əsrdə Makedoniya, Afina, Antioxiya, Beyrut və Dəməşqdə ali məktəblər fəaliyyətlərini davam etdirirdilər. Konstantinopolda ali məktəb 425-ci ildə təşkil edilmiş və auditorium (latınca "audire" eşitmək deməkdir) adlandırılmışdı. XI-XIII əsrlərdə Nizamiyyə məktəbləri bütün müsəlman dünyasını əhatə etmiş, sayı 238-ə çatmışdı. Osmanlı türkləri dövründə Nizamiyyə mədrəsələri ümumakademik hazırlığı həyata keçirirdi. Bu məktəblər orta əsrlərdə ilk tədris müəssisələri (universitetlər) idi. X-XIII əsrlərdə xeyriyəçi təhsil müəssisələri fəaliyyət göstərirdi. Belə məktəblərdə kimsəsiz uşaqlar təhsil alırdı. İlk müsəlman məktəbləri evlərdə, məscidlərdə və süffələrdə təşkil olunurdu. Süffə sonrakı dövrlərdə Avropa məktəblərində tətbiq olunan və bu gün Y.A.Komenskinin adı ilə bağlanan sinif-dərs sistemi

üçün model oldu. 1733-cü ildə İstanbulda tədris proqramında həndəsəyə xüsusi yer ayrılaraq ilk dəniz mühəndis məktəbi yarandı. Müasir Türkiyədə hələ də mühəndisləri həndəsə mütəxəssisləri adlandırırlar. İlk tibb və cərrahiyyə dövlət məktəbi 1827-ci ildə açıldı. Ölkədə ilk təhsil hərbi məktəblərlə başlanmışdır. XVIII əsrdə əsası qoyulmuş ilk dəniz və hərbi mühəndis məktəbləri özlərinin xüsusi ibtidai və orta təhsil sistemini yaradıb inkişaf etdirdilər. Həmin əsrdə yaranan bir sıra məktəblər: Artilleriya Mühəndis Məktəbi (1737), İstanbul Mühəndis Məktəbi (1761), Dəniz Mühəndis Məktəbi (indiki İstanbul Texniki universiteti) (1773), Mühəndisxanə (1795) öz fəaliyyətini sonrakı dövrlərdə davam etdirdi. 1834-cü ildə hərbi kollec (hərbi sənət məktəbi) fəaliyyətə başlamışdı. Ən rütbəli zabitlər Avropaya oxumağa göndərilirdi. Kollecdə dərs demək üçün Avropadan professorlar dəvət olunurdu. Avropa dilində olan dərsliklər türk dilinə tərcümə edilirdi. Təhsil iki pilləli idi. Səkkizillik hazırlıq mərhələsi şagirdlərin hərbi bacarıq və vərdişlərə yiyələndiyi yuxarı pillə idi. Hazırlıq mərhələsini müvəffəqiyyətlə bitirən şagirdlər yuxarı pilləyə keçirdilər. Türkiyədə hərbi təhsilin keyfiyyətli olması türk hərbi zabitlərinin dünya miqyasında özlərinə layiqli yer tutmalarına gətirib çıxarmışdır.

1812-ci ildə İstanbulda yunan diasporu tərəfindən tibb məktəbi, 1927-ci ildə ilk dövlət tibb və şəhər cərrahlıq məktəbi açılmışdır. 1864-cü ildə Türkiyənin məktəb və mədrəsələrində 11894 nəfər təhsil alırdı. Həmin dövrdə Osmanlı imperiyasında təhsilin quruluş və məzmununda əhəmiyyətli dəyişikliklər baş vermədi. Sonralar səlcuqların məktəb təcrübəsi əsas götürülmüşdür. Əvvəlki kimi ibtidai və orta məktəb, müsəlman hüququ, türk, ərəb, fars dili və ədəbiyyatı tədris edən ali məktəblər (mədrəsə) fəaliyyət göstərirdi. Mədrəsədə təhsil bir-iki il idi, lakin zəruri hallarda daha çox davam edirdi. Osmanlı imperiyası dövründə İstanbulda, daha sonra Qalatasaray və Daruşəfakda açılmış Sultaniyyə bakalavr təhsil pilləsinin milli standartı müəyyənləşdi və respublikaçılar dövründə daha da inkişaf etdirildi. Tənzimat dövründə islahatlar nəticəsində məhəllə məktəbləri, Rüşdiyyə, Sultaniyə, pedaqoji kollec və universitet kimi üçillik tədris müəssisələrindən ibarət məktəb sistemi yaradıldı. Bu müəssisələrin hamısı İstanbulda yerləşirdi. 1880-cı ildə ilk hüquq məktəbi açıldı. 1927-ci ildə xalq təhsili bütün səviyyələrdə pulsuz oldu. Mustafa Kamal Atatürkün Milli Məclis qarşısındakı çıxışında ilk dəfə olaraq dünyəviləşdirmə sözü işlədildi. 1933-cü ildə İstanbul Universiteti yenidən təşkil edildi.

1847-ci ilin direktivləri meydana gəldi. Bu fərmana müvafiq olaraq məhəllə məktəblərinin proqramı əsaslı şəkildə dəyişildi. Məktəbə qəbul 7 yaşından başlandı. Təhsil müddəti 4 il idi. Sinifdən-sinfə keçmə imtahanları yox idi, lakin təhsil başa çatanda yekun buraxılış imtahanları verilirdi. İmtahanları verə bilməyənlər 13 yaşa çatanadək sinifdə təkrar saxlanılırdı.

Beləliklə, XVIII əsrdə əsası qoyulmuş ilk dəniz və hərbi mühəndis məktəbləri inkişaf edərək özəl (xüsusi) və orta məktəblərə çevrilirdi. Bu dövrdə məktəblərin üç yeni tipi yaradılmışdır. Onlar: 1) Rüşdiyyə-4-illik ibtidai məktəblər; 2) Edadiyyə-orta və peşə təhsilini davam etdirmək üçün hazırlıq pilləsi olan 4-illik məktəblər; 3) Sultaniyə-6-illik məktəblər. Bu, mahiyyət etibarı ilə ilk osmanlı liseyi idi. 1869-cu ildə xalq təhsili haqqında qanun qəbul edildi. Bu qanunda 7-11 yaşlı oğlan və 5-10 yaşlı qızlar üçün ümumicbari və pulsuz ibtidai təhsil, orta məktəb, İstanbul Universiteti və s. dövlət hesabına yaradılması nəzərdə tutulurdu.

Qərb liseylərinə uyğun Sultaniyyə məktəblərinin bir neçə iri şəhərlərdə açılması rüşdiyyədən sonra 6-illik orta təhsil müəssisəsi kimi nəzərdə tutulmuşdu. İlk üç tədris ili Edadiyyənin proqramı üzrə aparılırdı. Son üç ildə (ikinci pillə) şagirdlərin seçə biləcəyi iki ixtisas tətbiq olunurdu: elm və ədəbiyyat.

"Sultan liseyi" İstanbulda açılan ilk belə lisey idi. Dövlət qulluqçuları 1854-cü ildə açılmış dördillik dövlət inzibatçılığı məktəblərində (Mülkiyyə) təhsil alırdı.

Türkiyədə təhsil sahəsində aparılan islahatlar nəticəsində məhəllə məktəbləri, Rüşdiyyə, Edadiyyə, Sultaniyə, müxtəlif məktəb və universitetlərdən ibarət olan müasir təhsil sistemi yaradılmışdır.

Türkiyənin milli təhsil sistemi iki formadadır: formal və qeyri-formal təhsil. Formal təhsil dedikdə məktəb təhsili nəzərdə tutulur və bu təhsilə məktəbəqədər təhsil müəssisələri, ibtidai təhsil, orta təhsil və ali təhsil daxildir. Qeyri-formal təhsilə məktəbdənkənar təşkil olunmuş bütün təhsil müəssisələri daxildir. Məktəbəqədər təhsil məcburi deyil, bu təhsil uşaqların fiziki, əqli və emosianal inkişafının yaranmasına kömək etməyə, düzgün vərdişlər götürməyə, ibtidai təhsilə hazırlıq istiqamətinə yönəlmişdir. Məktəbəqədərki təhsil uşaq bağçalarında, xüsusi evlərdə, ibtidai məktəblərdə, uşaq siniflərində, müxtəlif təşkilatlar və Təhsil Nazirliyi tərəfindən təşkil olunmuş hazırlıq dərslərində keçilir. İbtidai təhsil uşaqları əsas (baza) biliklə təmin edir və milli məqsədlərə müvafiq mənəvi, əqli, fiziki inkişafın yaranmasına kömək göstərir. Bu təhsil 6 yaşdan 14 yaşa qədər davam edir. 6 yaşına çatmış bütün Türkiyə vətəndaşları üçün ibtidai təhsil icbaridir. Dövlət məktəblərində bu təhsil pilləsi ödənişsizdir. Həmçinin dövlət nəzarəti altında özəl məktəblər də vardır. Seçilmiş ikinci xarici dil dərsləri ibtidai təhsilin 4-cü sinfindən keçilməyə başlayır.

Orta təhsil iki növ tədris müəssisələrində keçilir, yəni nüfuzlu ali məktəblərin nəzdində aparılır və onlar peşə məktəbləridir (liseylər). İbtidai təhsili bitirdikdən sonra orta məktəblərdə minimum təhsil müddəti üç ildir.

Nüfuzlu ali məktəblər şagirdləri ali məktəbə daxil olmaq üçün hazırlayır. Onlar ibtidai təhsildən sonra 3-illik proqram keçirlər və bu mərhələ 15-17 yaş arasında olur.

Peşə və ali texniki məktəblər ixtisaslaşmış kadr hazırlamaq məqsədi ilə xüsusi təhsil verir. Bu məktəblərin tədris müddəti və təşkilat quruluşu müxtəlifdir. Onlardan bəziləri 4-illik proqramla 15 yaşından 18 yaşa qədər olan müddətdə fəaliyyət göstərir.

Orta təhsilin məqsədi şagirdləri minimum səviyyədə nizam-intizama riayət etmək, demokratik cəmiyyətin qorunub saxlanması üçün məsuliyyətli olmağı öyrətmək, insan hüquqlarına hörmətlə yanaşmağa vadar etmək və onların maraqlarına, bacarıqlarına görə işgüzar həyata və ali təhsil almağa hazırlamaqdan ibarətdir.

Bəzi orta məktəblərin (xüsusilə özəl məktəblər) tədris proqramının məqsədlərinə müvafiq olaraq xarici dil üzrə hazırlıq kursları vardır. Xarici dil kurslarında bəzən humanitar, riyaziyyat və təbiət fənləri də tədris olunur.

Türkiyədə ali təhsilə orta təhsildən sonra olan bütün tədris müəssisələri daxildir; burada ən azı ikiillik təhsil verilir və tələbələri assosiativ bakalavr, magistr, doktorant dərəcələri vermək üçün hazırlayır. Bu ali təhsil müəssisələri universitetlərdən, institutlardan, ali məktəblərdən, konservatoriyalardan, hərbi akademiya, kollec, ali texniki məktəblərdən və elmi-tətqiqat mərkəzlərindən ibarətdir.

Türkiyədə ali təhsilin davam etdirilməsi ənənəvi xarakter daşıyır. Bu isə müəyyən proqram əsasında həyata keçirilir. Ali təhsilin məqsədi müasir təhsil sistemi çərçivəsində işçi qüvvəsi hazırlamaq, ölkənin ehtiyaclarını təmin edən prinsipləri yerinə yetirməkdən ibarətdir və orta təhsil almış şagirdləri müxtəlif sahələrdə ali təhsillə təmin etməkdir. Yeddi bölmədən ibarət olan universitetlər də qanuni dövlət müəssisələrində olduğu kimi dövlət tərəfindən idarə olunur və onlara ayrılıqda muxtariyyət verilir. Dövlətin nəzarəti altında olan ali təhsil ocaqları müəyyənləşmiş qayda və prinsiplərə müvafiq xüsusi fondlar tərəfindən də yaradılır amma bunlar nüfuzlu ali məktəblər sırasına daxil deyildir.

Universitet ali təhsil ocağıdır. Bu təhsil müəssisəsi akademik muxtariyyətə, dövlət qanunlarına riayət etmək, yüksək səviyyəli təhsil fəaliyyətləri, elmi-tədqiqat və nəşriyyatların əldə olunması hüququna malikdir. Bu universitetlər bakalavr proqramı ilə tədris edən fakültələrdən, dördillik məktəblərdən və bakalavratdan əvvəl assosiativ dərəcə verən ikiillik peşə məktəblərindən ibarətdir.

Türkiyədə magistr dərəcəsi almaq üçün magistr proqramları ilə tədris ili iki ildir. Bəzi şöbələr elmi iş olmadan axşam magistr proqramları təklif edir. Doktorantura proqramı fəlsəfə doktoru dərəcəsi elmi adı verir.

Proqramlara ali məktəblər tərəfindən rəhbərlik edildiyindən, bütün tələblər bu məktəblər tərəfindən hazırlanır. Tələbələr proqramlardan faydalanmaq üçün universitetlərdə olan ali təhsil məktəbləri ilə əlaqə saxlamalıdır.

Əgər bakalavr elmi dərəcəsi əldə olunubsa, onda magistr dərəcəsi almaq üçün müraciət etmək olar. Fəlsəfə doktoru dərəcəsi almaq istədikdə, onda

magistr dərəcəsini almaq lazımdır. Müraciət edən tələbədən imtahanlardan və yüksək səviyyəli ingilis dili sınağından keçmək tələb olunur.

Axşam magistr pilləsində təhsil haqqı qəbul olunmuş kredit əsasında müəyyən edilir və tədris proqramından asıldır. Aylıq yaşayış haqqı 400-500 dollardır (yaşayış tərzindən asılı olaraq).

Türk universitetləri dördillik təhsil, ikiillik peşə məktəbləri və axşam ali təhsil müəssisələrindən ibarətdir.

2004-cü ildə Türkiyədə təhsil alan universitet tələbələrinin sayı, axşam ali təhsili də daxil olmaqla təqribən 1,9 milyondur. Türkiyənin müxtəlif universitetlərində 114 ölkədən 16 min xarici tələbə oxuyur.

Türkiyədə universitetlərin xarici tələbələrə verdiyi imkanlar:

-Türkiyənin universitetlərində təhsilin keyfiyyəti və müəllim heyəti dünya standartlarına uyğundur.

-Türkiyə universitetləri tərəfindən verilmiş diplomlar bütün dünyada tanınır. Hər bir universitetdə kitabxanalar və yüksək səviyyədə laboratoriyalar vardır. Burada idman şəraiti olan tələbə klubları vardır və təhsil alanlar bundan razı qalır. Bu ölkədə keyfiyyətli təhsil verilir, təhsil haqqı və yaşayış xərci Avropa ölkələrindən və Amerika Birləşmiş Ştatlarından azdır.

Türkiyədə şərq və qərb mədəniyyətlərinin qovuşduğu görünür. Türkiyə mədəniyyətinə müxtəlif ölkə mədəniyyətlərinin mozaikası daxil edildiyindən bu ölkədə təhsil alanlar özlərini yad hiss etmir. Türkiyə gənc bir ölkə kimi (Türkiyə millətinin 31 %-i 12-24 yaş arasındadır) gəncləri qarşılayır. Türk xalqı çox qonaqpərvərdir.

Bütün universitetlərdə tələbələr üçün münasib qiymətlərlə müxtəlif cür yüksək keyfiyyətli yemək növləri mövcuddur. Universitetlərin ətrafında yemək üçün kafelər, restoranlar var və ya bunu istəməyənlər özləri yemək hazırlaya bilər.

Türkiyədə orta təhsil bazasında lisenziyalanmış ikiillik təhsildən başlayaraq bakalavr pilləsinə kimi təhsil müəssisələrində tələbələrin hazırlığı həyata keçirilir. Bu təhsil formasının məqsədi peşə texniki və digər peşə ixtisasları üzrə kadrlar hazırlamaqdır. Lisenziyalanmış müəssisələrdə orta təhsildən sonra dördillik kurs tədris olunur. Bakalavr dərəcəsini alan tələbələr peşəkar ixtisasçı və ya öz sahəsində tam ali təhsil dərəcəsini (magistr dərəcəsini) alırlar.

2005-2006-cı tədris ilinin strukturunda 94 universitet vardır, onlardan 68-i dövlət, 26-sı isə özəl fondlar tərəfindən fəaliyyət göstərir. Bunlarda 599 fakültə, 179 ali məktəb, 485 ali texniki məktəb və 249 institut vardır. Bu tədris ilində qiyabi təhsil alan tələbələr daxil olmaqla ümumi tələbələrin sayı 2074428 nəfərdən, müəllimlərin sayı isə 74907 nəfərdən ibarətdir.

Türkiyədə hər bir universitet fakültələrdən, institutlardan, peşə-texniki məktəblərdən, elmi-tətqiqat mərkəzlərindən ibarətdir. Bütün növ orta məktəblərin diplomlarını alan məzunlar Türkiyədə eyni proqramla istənilən ali məktəbə daxil ola bilər.

Fakültələr şöbələrdən və bölmələrdən ibarətdir. Fakültəyə rəhbərlik edən dekandır. Fakültə dekanının təklifindən sonra rektor şöbə rəhbərini təyin edir.

Bir çox məktəblərdə tədris müxtəlif peşələr istiqamətində aparılır. Peşə texniki məktəblər və bir çox məktəblər iki cür olur: dördillik kurs tədris edən məktəblərdən əlavə, köməkçi əmək resurslarının tədrisi üçün ikiillik kurslar da vardır.

İnstitutlarda oxuyanları yalnız diplom və tədqiqatçılıq işləri maraqlandırır. Bütün universitetlərdə diplom alan ixtisasçıların və ya tədqiqatçıların kursunu təşkil edənlər və əməkdaşlar birbaşa rektor tərəfindən təyin olunur.

Universitetlər abituriyentləri tələbələrin seçimi və yerləşmə mərkəzi vasitəsilə qəbul edir və ya bu işi birbaşa Təhsil Nazirliyi ilə əlaqədə olan universitetlərarası təşkilatlar həyata keçirir. Yəni universitetlər qəbul imtahanlarından müvəfəqiyyətlə çıxan orta məktəb abituriyentlərini qəbul edir.

İmtahanın əsas məqsədi imtahan verənlərin qabiliyyətini, onların ümumi və əsas kursun elementar biliklərini, türk və orta səviyyədə ingilis dilini bilmə qabiliyyətini qiymətləndirir.

Türkəyədə xarici tələbələrin seçimi və ali təhsil müəssisələrində yerləşməsi ÖSYM-nin nəticələri əsasında yerinə yetirilir.

Tələbələrin seçiminin ümumi ekspertizası, adətən, iyun ayında Türkiyənin müxtəlif müvafiq müəssisələrində və xaricdə keçirilir.

Pillələr və diplomlar aşağıdakı kimidir:

a) Bakalavr pilləsi: minimum dördillik kursu oxumalıdır, tibb fakültələrində isə təhsil altı ildir. Stomatologiya və virtologiya fakültələrində təhsilin müddəti beş ildir.

b) Magistr pilləsi: bakalavr magistr pilləsi üçün müəyyən edilmiş qabiliyyət imtahanından keçməlidir. Magistr kursunun orta təhsil müddəti iki ildir, gündəlik və ya saatla olan tədris kursları, əlavə olaraq qabilliyyət tələb edir.

c) Doktorluq dərəcəsi: doktorluq dərəcəsi ixtisas kursuna buraxılan magistr pilləsini keçməli və qabiliyyət imtahanı verməlidir. Təhsilin orta müddəti iki ildir, bu il ərzində namizəd öz sahəsi üzrə tələb edilən bilik alır. Elmi iş görən və uğur qazanan namizəddən tədqiqat əsasında tezis yazmaq tələb olunur. Doktorant göstərilən bu kursu bitirdikdən sonra fakültənin beş üzvündən seçilmiş jüri qarşısında doktorluq üzrə hazırlanmış tədqiqat işini müdafiə edir.

Türkiyə universitetlərinin əksəriyyətinin diplomlarının tanınması beynəlxalq miqyasda qəbul edilmişdir. Bu universitetlərin məzunları böyük imkanlara malikdir və onlar istədikdə öz təhsillərini xaricdə davam edə bilər.

Türkiyə universitetlərinin əksəriyyətində tədris türk dilindədir. Yaxın Şərq Texniki Universitetində, Bosfor, Bilkent və Koz universitetlərində ingilis dili, Qalatasaray Universitetində fransız dili öyrədilir. Digər universitetlərin

fakültə və bölmələrinin bəzilərində isə tədris ingilis, alman və ya fransız dilindədir.

Filadelfiyada institutların elmi məlumat statiskasına görə, Türkiyə 1995-ci ildə dünyada elmi-tədqiqat işlərinə görə 35% qiymətləndirilmişdir. Bu nailiyyətlərdə türk universitetlərinin rolu böyük əhəmiyyət kəsb edir. Həqiqətən də, Türkiyə dünyada on nüfuzlu ölkə arasında üçüncü yerdə olmuşdur. Bu ölkə elmi-texniki işlərinin nəşrini hər il 65%-dən çox artırır.

Türkiyədə oxuyan xarici tələbələrin təhsil haqqını Amerika, Kanada və digər qərb universitetləri ilə müqayisə etdikdə çox fərq vardır.

Türkiyədə bütün abituriyentlər universitetə qəbul olmaq üçün cəhd edir və işıqlı gələcəyə ilk addımlarını atırlar. Türkiyə orta məktəb məzunları və tələbələrin əksəriyyəti imtahanlara hazırlaşmaq üçün xüsusi kurslarda iştirak edirlər.

Türkiyədə oxumağa üstünlük verən tələbələr üçün nümunəvi hazırlıq kursları var və bu mərhələdən sonra universitetə qəbul daha da asanlaşır. Bu iki hissədən ibarətdir. Birinci hissə əsas öyrənmə vərdişlərinə, yəni abstrakt qavramaya üstünlük verir. Suallar ingilis və türk dillərində verilir. İkinci hissə isə türk dilinin yazılı qiymətləndirilməsindən ibarətdir.

METU-nu (Yaxın Şərq Texniki Universitetini) qurtaran müəllim qrupu, türk və xarici tələbələri əsas (özək) fənlərdən ibarət olan imtahanlara hazırlaşdırırlar. Əsas məqsəd tələbələrin öz cəhdləri ilə bilik qazanmaq, nailiyyətlər əldə etmək, beynəlxalq miqyasda onların üstünlük verdikləri imtahan proqramına qeydiyyata düşməkdən ibarətdir.

Müasir cəmiyyətdə baş verən sürətli dəyişikliklər bir daha sübut edir ki, təbii ehtiyatlara tələbat qeyri-stabil olsa da, insan kapitalına olan tələbat həmişə yüksək dəyərləndirilir. Son zamanlar qloballaşan dünyada baş verən böhran ölkələri təbii ehtiyatlardan daha səmərəli istifadə etməyə və daha çevik iqtisadi münasibətlərin formalaşmasına sövq edir. Bu proses bir daha bilik iqtisadiyyatının əhəmiyyətini artırır. Son illər Türkiyə Respublikasının sosial-iqtisadi həyatında baş verən yüksəlişlərin səbəbləri təhlil edilərkən təbii resurslara malik olmayan bir ölkənin ixracat potensialının artması iqtisadçıları çox maraqlandırır. Təhsilin nəticəsi kimi, bir faktor daha çox özünü büruzə verir ki, ölkə, bilik iqtisadiyyatının formalaşmasında böyük irəliləyişlər əldə etmişdir. Belə ki, ixracatın böyük hissəsini məhz yüksək bilik tələb edən texnologiya, maşınqayırma və cihazqayırma sahəsi təşkil edir. Şübhəsiz ki, bilik iqtisadiyyatının formalaşmasında təhsil sistemi aparıcı bir qüvvəyə çevrilir.

Türkiyə Respublikası Konstitusiyasının 42-ci maddəsinə əsasən, hamı təhsil almaq hüququna malikdir. Təhsil prosesi dövlətin nəzarəti və müşahidəsi altında həyata keçirilir və təhsil siyasətinin aparılmasına cavabdeh müəssisə Türkiyə Milli Təhsil Nazirliyidir.

Türkiyə Milli Təhsil Sistemi ümumi təhsil və məktəbdənkənar təhsil olmaqla iki əsas hissədən ibarətdir. Ümumi təhsil məktəbəqədər təhsil, ibtidai,

orta təhsil və ali təhsil pillələrini, məktəbdənkənar təhsil isə müxtəlif dərnəklər, peşə təhsili və xalq təhsili mərkəzlərini əhatə edir.

Bu mərkəzlərdə məktəbdənkənar və ya məktəb dövründən şagirdlər öz maraq dairələrinə əsasən müxtəlif peşə və sənət öyrənirlər.

Türkiyə Milli Təhsil Qanununa görə, təhsilin məqsədi vətəndaşların türk dövlətinin dəyərlərini mənimsəməsinə, ölkəsi qarşısında vəzifə və məsuliyyətini bilməsi və öz davranışlarında bunlara riayət etməsinə, müasir texnologiyadan istifadə bacarığının formalaşmasına, insan haqlarına hörmətlə yanaşmasına və demokratik vətəndaş kimi yetişməsinə yardım etməkdir. Vətəndaşları gələcəyə hazırlamaq, özlərinin və cəmiyyətin xoşbəxtliyinə səbəb ola biləcək bir peşəyə yiyələnmələrinə yardım etmək əsas məqsədlərdəndir.

Türkiyə təhsil sisteminin strukturu aşağıdakı kimidir:

- Məktəbəqədər təhsil;
- İbtidai təhsil (8 il);
- Orta təhsil (4 il);
- Ali təhsil (2, 4, 6 il);
- Diplomdansonrakı təhsil.

Türkiyədə ibtidai təhsilin müddəti 8 ildir, bu dövr 6-14 yaşlı uşaqların tədris və təlimini əhatə edir. Bu təhsil davamlı tədris prosesini təmin etməklə məzunlara ibtidai təhsil diplomu verir. Türkiyə Respublikasının Təhsil Qanununa əsasən ibtidai təhsil icbaridir və pulsuzdur.

Dövlət ibtidai məktəbləri ilə yanaşı, həmçinin özəl ibtidai məktəblər də fəaliyyət göstərir. İbtidai təhsilin məqsədi şagirdlərin vətənpərvər bir vətəndaş olmaları üçün vacib sayılan minimum bilik, bacarıq, davranış və vərdişlər qazanmalarına, maraq və bacarıqları əsasında daha yüksək təhsil əldə olunmasına kömək etməkdir. İbtidai məktəbin son dərs ilinin ikinci yarısından başlayaraq şagirdlərin orta məktəbdə oxuyacaqları proqram və peşə ixtisasları haqda təhsil müəssisələri tərəfindən məlumatlandırılma aparılır.

İbtidai təhsil pilləsini bitirən şəxslər təhsillərini orta təhsil pilləsində davam etmək imkanı qazanır. Orta təhsilin müddəti 4 il olmaqla ümumi, texniki və peşə təhsili müəssisələri şəbəkəsindən ibarətdir. Orta təhsilin məqsədi şagirdlərə minimum səviyyədə davranış qaydaları barədə məlumat verməyə, onların demokratik cəmiyyət üçün məsuliyyət daşımağa hazır olmalarına, insan hüquqlarına hörmətlə, ölkənin sosial-iqtisadi və mədəni inkişafına yardım edəcək səviyyədə bilikli, bacarıqlı və istedadlı şəxs kimi yetişməsinə yardım göstərməkdir. Orta təhsil zamanı şagirdlər bilik, bacarıq və qabiliyyətlərinə müvafiq tədris proqramı olan təhsil müəssisələrinə istiqamətləndirilərək təhsil alırlar. Orta təhsil yeddi müxtəlif istiqamətli olmaqla aşağıdakı məktəbləri əhatə edir:

1. Ümumi orta təhsil
2. Anadolu liseyləri
3. Fənn liseyləri

4. Anadolu gözəl sənətlər liseyləri
5. Müəllim liseyləri
6. Axşam liseyləri
7. Özəl liseylər

Liseylərin belə bölünməsinin bir sıra səbəbləri vardır. Yeni şagirdlərə öz bilik və maraq dairələrinə uyğun olaraq məktəb seçmək hüququ qazandırır və gələcəkdə işləmək istədiyi sahə üzrə əvvəlcədən müəyyən hazırlıq keçmək imkanı yaradır. Bunu ixisaslaşma kimi də qəbul etmək olar.

Bu proses peşə təhsili müəssisələrində də davam etdirilir. Belə ki, texniki və peşə məktəbləri, ticarət və turizm məktəbləri, dini məktəblər və tibb məktəbləri beş qrupa bölünür. Texniki və peşə orta təhsilin əsas məqsədi şagirdləri ali təhsilə hazırlamaqla bərabər, sərbəst həyata qədəm qoymaları üçün tələb olunan minimum bilik və bacarıqların aşılanması, həmçinin ali məktəbə qəbulun məhdudluğunu nəzərə alaraq iş və peşə sektorları üçün ixtisaslı kadrlar hazırlamaqdır.

Həm orta təhsildə, həm də texniki və peşə təhsilində ixtisaslaşmanın daha bir üstünlüyü ondan ibarətdir ki, bu məktəblərin məzunları ixtisaslaşdıqları sahələr üzrə ali məktəblərə qəbul zamanı bir sıra üstünlüklərə sahib olurlar. Misal üçün, texniki məktəblərin məzunları universitetlərin texniki və ya mühəndislik fakültələrinə qəbul zamanı hesablanan balların əmsalları humanitar təmayüllü liseylərdən gələn məzunların ballarından yüksək olur. Bu həm ali məktəblərə təsadüfən düşən tələbələrin sayının azalmasına yardım edir, həm də ali məktəbdə oxumaq şəraitini asanlaşdırır. Belə ki, orta, texniki və peşə məktəbində ixtisaslaşmış şagirdlər artıq bu sahə üzrə müəyyən bilik və bacarıqlara malik olurlar və bu da təhsillərini ali təhsil pilləsində davam etdirmələrinə yardım göstərir.

Ali təhsil (yüksəköyrətim) orta təhsildən sonra ən azı iki il ali təhsil verən yüksək peşə təhsili diplomu, diplom və diplomdansonrakı (bakalavriat, magistratura və doktorantura) pillələrini əhatə edir. Ali təhsil sahəsi universitet, institut, ali məktəb, konservatoriya, ali peşə məktəbləri və tətbiqi-elmi araşdırmalar mərkəzlərindən ibarətdir. Ali təhsilin ödənişli olmasına baxmayaraq, burada müvəffəqiyyət səviyyəsi və istedadlı tələbələr üçün dövlət, özəl sektor və fiziki şəxslər tərəfindən müəyyən edilmiş təqaüdlərin verilməsi təcrübəsi də geniş yayılmışdır.

Universitetlərə və ali məktəblərə qəbul ildə bir dəfə Ali Təhsil Qurumuna daxil olan Tələbələrin Seçilməsi və Yerləşdirilməsi Mərkəzi tərəfindən aparılan test imtahanı nəticəsində müəyyənləşdirilir. Xarici tələbələrin Türkiyədə oxuması da bu mərkəz tərəfindən ildə bir dəfə təşkil edilən imtahanların nəticələrinə uyğun aparılır. Xarici tələbələr üçün təşkil edilən imtahanlar türk və ingilis dillərində olduğundan onların türk dilini bilməsi vacib deyil.

Türkiyədə Texniki və peşə məktəblərinin məzunları ixtisaslaşdıqları sahələr üzrə ali məktəblərə daxil olan zaman imtahansız qəbul olunmaq

imkanı qazanırlar. Bu isə texniki və peşə təhsilini daha cəlbedici edir və təhsilin davamlılığına təminat verir.

Türkiyədə bütün universitetlər və ali məktəblər Yüksək Öyrətim Kurumuna (YÖK – Ali Təhsil İdarəsi) tabedir. YÖK Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən müstəqil idarə olmaqla ali məktəblərin fəaliyyətini, onların ehtiyaclarını, inkişaf etdirilməsi planını hazırlayır, müxtəlif ixtisaslar üzrə tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədi ilə tələbə və müəllimlərin ölkədaxili, eləcə də ölkə xaricində təlimini təşkil edir və tənzimləyir. Bundan əlavə, ali məktəblər arasında əlaqələri koordinasiya edir. YÖK-un tərkibinə ali təhsil müfəttişliyi, dəqiq planlaşdırma, araşdırma, inkişaf etdirmə, büdcə, investisiya və koordinasiya funksiyasını daşıyan şöbələr daxildir.

Savadsızlığın aradan qaldırılması və işsizlik probleminin həllində məktəbdənkənar müəssisələrin böyük rolu vardır. Ümumtəhsil məktəbləri ilə yanaşı, Türkiyədə çoxlu sayda peşə təhsili və xalq təhsili mərkəzləri fəaliyyət göstərir. Peşə təhsili mərkəzlərində ibtidai təhsili başa vuran, lakin sonradan təhsillərini davam etdirməyən şəxslər üçün peşə təlimi keçirilir. Bu mərkəzlərin peşə məktəblərindən əsas fərqi ondan ibarətdir ki, burada yalnız peşə öyrədilir və daha çox istehsalat təcrübəsinə vaxt ayrılır. Belə mərkəzlərin məzunlarına usta yardımçısı və usta diplomları təqdim olunur, onlara iş açmaq və işə düzəltmək imkanı yaradılır. Xalq sənət mərkəzlərinə isə daha çox incəsənət, xalq milli adət-ənənələrinə xas olan qədim peşələrin öyrədilməsi və müxtəlif dərnəklər aid edilir.

Türkiyə cəmiyyətinin inkişafında peşə təhsili sistemi çox böyük rol oynayır. Rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşması üçün lazım olan əsas faktorlardan biri də ölkənin ixtisaslı kadrlara malik olmasıdır. Türkiyə bu istiqamətdə xeyli nailiyyətlər əldə etmişdir. Bu ölkənin Avropaya inteqrasiyasını gücləndirmək baxımından da peşə təhsili sisteminin təkmilləşdirilməsi vacib amildir. Məhz bu baxımdan son illər Türkiyədə peşə təhsili sahəsinə ayrılan dövlət və qeyri-dövlət maliyyəsinin həcmi artmışdır.

2007-2008-ci ilin statistik göstəricilərinə əsasən, Türkiyədə fəaliyyət göstərən 4450 peşə təhsili müəssisələrində 1.264870 nəfər şagird təhsil almışdır. Onların təlim-tərbiyəsi 84771 nəfər pedaqoji heyət məşğul olmuşdur. Təsadüfi deyildir ki, son 6 ildə inşa edilən 4245 yeni məktəbdən 988-i peşə təhsili müəssisələri olmuşdur.

Avropa Birliyinə qəbul olunması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər bu ölkənin peşə təhsili sisteminin də rəqabət qabiliyyətliliyini artırmışdır. Belə ki, son illər bu sahədə aparılan məqsədyönlü islahatlar ölkə daxilində peşə təhsili müəssisələrində hazırlanan kadrların səviyyəsinin Avropa Birliyi ölkələrinin standartlarına uyğun olması, onların əldə etdikləri diplomların Avropada tanınmasına səbəb olmuşdur. Son 40 ildə ilk dəfə olaraq təhsil proqramları yeniləşmiş, peşə təlimində modul sisteminə keçirilmişdir. Bundan əlavə, digər nazirliklərin tabeliyində fəaliyyət göstərən peşə

təhsili müəssisələri Təhsil Nazirliyinin tabeliyinə verilmişdir. Bu qərar bütün təhsil müəssisələrinin vahid mərkəzdən idarəedilməsinə gətirib çıxarmış, həmçinin proqramların təkrarlanmamasına şərait yaratmışdır.

Türkiyə Təhsil Nazirliyinin bu sahədə apardığı siyasət, əsasən, aşağıdakı istiqamətlərə yönəlmişdir:

- müxtəlif inkişaf proqramlarının hazırlanması və həyata keçirilməsi;
- mühəndis-pedaqoji heyət üçün həm ölkə daxilində, həm də ölkə xaricində təlim kurslarının təşkil edilməsi;
- işçilərin peşə təliminə cəlb olunması mexanizminin yaradılması;
- məktəblərin emalatxana və laboratoriyalarının müasir avadanlıqlarla təchiz edilməsi;
- büdcədənkənar vəsaitlərin əldə edilməsi imkanlarının genişləndirilməsi.

Avropa Birliyinin standartarına uyğun səviyyədə peşə təhsili sisteminin yaradlması isiqamətində atılan addımlardan biri də 4 iyul 2000-ci ildə Türkiyə Respublikası hökuməti ilə Avropa Birliyi arasında "Peşə Təhsili və Təlimi sisteminin Təkmilləşdirilməsi Layihəsi haqqında" müqavilənin imzalanması olmuşdur.

Layihənin ümumi büdcəsi 58,2 milyon avro olan Peşə Təhsili və Təlimi sisteminin Təkmilləşdirilməsi Layihəsi Türkiyədə peşə təhsili sisteminin inkişaf etməsində böyük rol oynamışdır. Məhz layihənin həyata keçirilməsi nəticəsində ənənəvi peşə tədris proqramları modul proqramları ilə əvəz olundu, peşə və təhsil standartları işəgötürən təşkilatların prosesə fəal cəlb olunması nəticəsində yeniləşdirildi, yeni akkreditasiya və qiymətləndirmə mexanizmləri yaradıldı. Peşə təhsili müəssisələrinin təmiri, yenilərinin tikilməsi və müasir avadanlıqlarla təchizi ilə yanaşı, onların fəaliyyətinin inkişafı üçün qanunverici bazanın dəyişdirilməsi, maliyyələşdirmə mexanizminin təkmilləşdirilməsi, daha çox büdcədənkənar vəsaitlərin cəlb edilməsi imkanlarının yaradılması həyata keçirilmişdir. Bu gün Türkiyədə fəaliyyət göstərən peşə təhsili müəssisələrinin bir hissəsi büdcədənkənar vəsaitlərin cəlb edilməsində böyük təcrübə qazanmışdır və onların özünün maliyyələşdirilməsinə yardım etməkdədir.

Peşə təhsilinin keyfiyyət göstəricilərinin yüksəldilməsi məqsədilə işəgötürən sahibkarlarla sıx əlaqələr yaradılmışdır. Peşə və təhsil standartları sektor nümayəndələri ilə birlikdə yeniləşmişdir. Həmçinin, fasiləsiz peşə təhsili sistemi inkişaf etdirilmişdir.

Peşə təhsili müəssisələrinin fəaliyyətində daha bir cəlbedici amil onların maliyyələşdirilməsində büdcədənkənar gəlirlərin böyük pay almasıdır. Belə ki, bir çox peşə təhsili müəssisələrinin nəzdində istehsalat emalatxanaları, otellər, kafelər fəaliyyət göstərərək, əldə etdikləri gəlirləri məktəbin inkişafına yönəltməklə bir sıra problemlərin həll olunmasına nail olurlar. Qeyd etməliyik ki, bu müəssisələr heç də böyük güzəştlərlə işləmir və digər istehsalat və xidmət müəssisələri ilə eyni imtiyaz və hüquqlara malik olurlar. Lakin özəl müəssisələrdən fərqli olaraq, bu strukturlarda istehsal olunan məhsul və

təqdim edilən xidmət daha ucuz qiymətə başa gəlir və keyfiyyət göstəricilərinə görə də geri qalmır. Dövlət müəssisələrinin bir qismi bəzi sifarişləri məhz peşə təhsili müəssisələrində fəaliyyət göstərən istehsalat müəssisələrinə verirlər. Bu da peşə təhsili müəssisələrinin əlavə gəlir əldə etmək imkanını yüksəldir.

Türkiyədə fəaliyyət göstərən peşə təhsili müəssisələri büdcənin formalaşdırılmasında və xərclənməsində daha çox sərbəstliyə malik olurlar. Gəlirlərin formalaşması və xərclənməsi prosesində məktəbin himayəçilik şurasının üzvləri də fəal iştirak edir və onlar gəlirlərin səmərəli xərclənməsinə çox ciddi nəzarət edirlər.

Türkiyənin ali məktəblərində texniki və peşə məktəbləri üçün mühəndis-pedaqoji heyətin hazırlanması ilə əlaqədar xüsusi fakültələrin olması da bu istiqamətdə problemlərin aradan qaldırılmasına imkan yaradır. Bu gün respublikamızda da müxtəlif universitetlərin nəzdində belə fakültələrin yaradılması peşə təhsili müəssisələrimizdə mövcud olan ixtisaslı kadrlara tələbatın aradan qaldırılmasına köməklik göstərərdi.

Türkiyə peşə təhsili sisteminin bir başqa diqqət çəkən cəhəti peşə və texniki liseylərin məzunlarının imtahan vermədən növbəti təhsil pilləsində bilik almaq imkanlarının əldə etməsidir. Yəni bu məzunlar ixtisaslarına uyğun olaraq kollec və ali məktəblərdə təhsillərini imtahan vermədən davam etdirə bilər. Eyni zamanda peşə təhsili müəssisələrinin məzunlarına ustalıq sertifikatı təqdim edilərək, onlara yeni iş yerləri açmaq imkanlarının verilməsi, işə götürülərkən peşə təhsili sənədinə malik olması da müsbət faktordur. Bu isə peşə təhsili müəssisələrinin məzunlarına tələbat yaradır və onun ictimai statusunun yüksəlməsinə kömək edir. Son nəticədə əmək bazarında ixtisaslı kadrların çoxluğu işə götürənlərin fəaliyyətinə müsbət təsir etməklə bərabər, işçilər arasında rəqabətliyi də artırır.

Türkiyədə qeyri-formal peşə təhsili də sürətlə inkişaf etməkdədir. Bu gün "Avropa İxtisaslaşma Çərçivəsi" sənədinə qoşulan Türkiyədə peşə və təhsil standartları yeniləşmişdir, bunun əsasında yeni qiymətləndirmə mexanizmi yaradılmışdır. Qeyd etməliyik ki, peşə ixtisas səviyyəsinin qiymətləndirilməsi məqsədilə Türkiyədə müstəqil bir qurum yaradılmış və bu qurumun əsas məqsədi işəgötürənlərlə birlikdə peşə təhsili müəssisələrinin məzunlarının əmək bazarının tələblərinə uyğun olaraq bilik və bacarıq əldə etmələrini qiymətləndirməkdir. Məhz bu qiymətləndirmə prosesindən keçdikdən sonra əldə edilən diplom həm Türkiyədə, həm də Avropada tanınır. Bu isə vətəndaşlara sərbəst olaraq ölkə daxilində və ölkə xaricində iş axtarmaq imkanı verir.

Son illərdə isə Türkiyə Təhsil Nazirliyi ilə Avropa Birliyi üzvləri, eləcə də Yaponiya, Koreya və s. ölkələrlə geniş əlaqələr yaradılmışdır. Hazırda müxtəlif sahələrdə birgə layihələr həyata keçirilməkdədir. Qeyd etmək lazımdır ki, Türkiyə biznesinin nəhəngləri də peşə təhsilinin inkişafında fəal iştirak etməkdədir. Belə ki, "Koç", "Sabançı Holdinq", "Mersedes" və s. Şirkətlərin özlərinin tabeliyində fəaliyyət göstərən peşə mərkəzləri vardır. Bundan

əlavə, böyük şirkətlər peşə təhsili muəssisələrinin şagirdləri üçün təqaüdlər müəyyən edərək, onların arasından bacarıqlı və bilikli kadrları seçib öz müəssisələrinə cəlb edirlər. Bu, şirkətlərin ixtisaslı kadrlara olan tələbatını ödəyir, həmçinin peşə təhsili müəssisələrinə müraciət edənlərin sayını artırır. Peşə təhsili müəssisələri məzunlarının iş tapmaq imkanlarının geniş olması buraya müraciət edən şəxslər üçün bir stimul rolunu oynayır. Bu da peşə təhsilinin ictimai statusunun yüksəlməsinə köməklik göstərir.

Onu da qeyd etmək lazımdır ki, hər bir ölkənin inkişafında onun təhsil sistemi çox böyük rol oynayır. Peşə təhsili də bu sistemin bir tərkib hissəsidir və onun inkişafı da ümumilikdə təhsil sisteminin inkişafı ilə paralel getməlidir. Peşə təhsili həmçinin ölkənin sosial-iqtisadi təhlükəsizliyinin təmin edilməsində mühüm bir vasitədir və bu vasitədən səmərəli istifadə edən ölkələr sürətli inkişafa nail olurlar. Bununla əlaqədar 2007-ci ildə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanmış "Azərbaycan Respublikasında Texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər)" adlı sərəncam respublikamızda da bu sahənin sürətlə inkişaf etməsinə təkan verdi. Şübhəsiz, bu proqramın icrası zamanı Türkiyə təcrübəsindən istifadə böyük əhəmiyyət kəsb etdi.

## UKRAYNA VƏ RUSİYADA TƏHSİL

Rusiyada təhsil müəssisələri məktəb adlanırdı. Artıq XI əsrin ikinci yarısında Kiyevdə yerləşən knyaz Vladimirin saray məktəbi və Novqorod şəhərində 1030-cu ildə Yaroslav Mudrıy tərəfindən yaradılan məktəb fəaliyyətdə idi. Təhsilin məzmununu, Qərbin təhsil müəssisələrində olduğu kimi, yeddi antik incəsənət fənni: qrammatika, ritorika, dialektika, hesab, həndəsə, musiqi və astronomiya fənləri təşkil edirdi. Qrammatikanın və xarici dillərin öyrənilməsi istiqamətində xüsusi məktəblər mövcud idi. 1086-cı ildə Kiyevdə ilk qadın məktəbi açılır. Kiyev və Novqorod məktəblərinin modellərinə əsasən Rusiyada başqa məktəblər də açılmağa başlayır. Məsələn, Pereyaslavlda, Çerniqovda, Suzdalda məktəblər kilsələrin nəzdində yaradılırdı. Məktəblər təkcə təhsil müəssisələri deyil, həm də mədəniyyət mərkəzləri funksiyasını daşıyırdı, orada qədim və Bizans müəlliflərinin əsərləri tərcümə olunur, əlyazmalar köçürülürdü. Rusiya təhsilinin bəzi tarixçiləri, o cümlədən P.N.Milyukov kimi nüfuzlu tarixçi, (XV-XVI əsrlərə aid olan faktlara əsaslanaraq) qədim Rusiyada bütün əhalinin savadsız olduqları haqqında fikri irəli sürmüşdür. Lakin bu fikrə zidd olan müxtəlif sübutlar da mövcuddur. Məsələn, qraffiti adlanan yazılar o dövrə aid edilir (kilsələrin divarlarının üzərindəki yazılar). Xüsusən də Novqorod və Kiyev kilsələrinin divarlarında mövcud olan qraffiti yazılarını qeyd etmək olar, onlar təsadüfi adamlar tərəfindən çəkilməmişdir. XI-XIII əsrlərə aid külli miqdarda tozağacı qabığından hazırlanmış sənədlər vardır, özü də onlar təkcə Novqorodda deyil, həm də Rusiyanın başqa qədim şəhərlərində aşkar olunmuşdur; onların məzmununa nəzər saldıqda, müəlliflərin müxtəlif sosial təbəqələrə aid olan insanların olması aydın görünür, onların arasında tacirlərə, sənətkarlara və hətta kəndlilərə də rast gəlmək olar. Hətta üzərində qadınların yazısı olan sənədlər aşkar olunmuşdur və uşağın məktəb dəftəri olan sənəd də tapılmışdır. Qədim Rusiyada savadlılığın geniş yayılmasının digər sübutları da vardır. Tatar-monqol basqını nəticəsində Rusiyada mədəni həyat səviyyəsinin aşağı düşməsi (məlum olduğu kimi bu müddət ərzində qədim rus əlyazmalarının əksər hissəsi yoxa çıxmışdır) təhsildə də öz əksini tapmışdır. Yalnız ruhani xarakterli təhsil saxlanıldı. Məhz pravoslav kilsələri bu müddət ərzində (XIII–XV əsrlər) Rusiya təhsilinin qoruyucuları və yayıcıları rolunda çıxış etmişlər.

1632-ci ildə Kiyevdə Kiyev Qardaşlıq Məktəbinin və Lavr Məktəbinin birləşdirilməsi yolu ilə Kiev-Moqilya Akademiyası yaradıldı, orada slavyan, latın və yunan dilləri, ilahiyyət, və “yeddi azad incəsənət”: qrammatika,

ritorika, dialektika, hesab, həndəsə, astronomiya və musiqi fənləri tədris olunurdu.

Bu zaman ali təhsil pilləsi olan ardıcıl pilləli sistemin akademya tərəfindən dəstəyi öz əksini çex müəllimi, humanisti, ictimai xadimi, faktiki olaraq pedaqoji elmin banisi Yan Amos Komenskinin əsərlərində tapmışdır.

1687-ci ildə Moskvada slavyan, yunan, latın akademiyası təşkil olunmuşdur, oranı L.F.Maqnitskiy, V.K.Trediakovskiy və M.V.Lomonosov kimi görkəmli xadimlər bitirmişdir.

1724-cü ildə Peterburqda Elmlər Akademiyası yaradılmışdır, onun nəzdində Akademik universitet (indiki Sankt-Peterburq Dövlət Universiteti) və gimnaziya açılır. Rusiya ali təhslinin təşəkkülündə Mixail Lomonovun böyük rolu olmuş, ona 1758-ci ildə Elmlər Akademiyasına nəzarət etmək vəzifəsi həvalə edilmişdir. O, eksperimental tədris planını hazırlamış, bu planda təhsilin ilk ilində bütün elmlər haqqında anlayışlar nəzərdə tutulmuşdu. Hər bir tələbənin hansı elmə daha çox meylliliyini və qabiliyyətlərini aşkar etmək üçün bütün mühazirələrdə iştirakı məcburi idi, ikinci ildə yalnız xüsusi hallarda iştirak etməsi, üçüncü ildə isə bir elmi daha dərindən öyrənmək üçün tələbələrin ayrı-ayrı professorlara təhkim edilməsi nəzərdə tutulurdu.

Mixail Lomonosovun səyləri nəticəsində 1755-ci ildə Moskva Universiteti təsis olundu və professor N.N.Popovskiy, A.A.Barsov və başqalarının adlarınıda çəkmək olar.

Buxar maşınının ixtirası nəticəsində manufaktura istehsalatından fabrika istehsalatına keçid baş verdi. Bunun arxasınca da sənaye çevrilişi baş verdi. Bu isə XVIII əsrin ikinci yarısında İngiltərədə, sonra isə digər ölkələrdə sistemaik mühəndis təhsili tədris olunan ilk texniki təhsil müəssisələrinin yaranmasına təkan verdi. Rusiyada bu sahədə ilk təhsil müəssisəsi Pyotr tərəfindən təsis olunmuş Riyaziyyat və Naviqasiya elmləri məktəbu, sonra A.S.Puşkinin ulu babası Abram Petroviç Qannibalın rəhbərlik etdiyi Sankt-Peterburqdakı Mühəndislik məktəbi, 1733-cü ildə Rusiyada Dağ məktəbi (indiki Sank-Peterburq Dövlət Dağ Universiteti) yaradılmışdır. Oarada və başqa kadet korpuslarında ilk zamanlar riyaziyyat, cəbr, həndəsə, incəsənət, mineralogiya, rəsm, kimya, mexanika, fizika, fransız, alman və latın dilləri fənləri tədris olunurdu. Fənlərin tədricən genişlənən siyahısı XIX əsrin əvvəllərinə qədər çoxlu sayda fənlərlə tamamlandı, o cümlədən: paleontologiya, dağ incəsənəti, dağ statistikası, dağ hüququ, rəsmxət, ümumdünya və Rusiya tarixi, coğrafiya, məntiq, zoologiya, botanika, riyaziyyat, memarliq və s. fənləri əlavə olundu. Texniki məktəblərdəki dəyişikliklər mühəndislik inkişafının artmış tələbləri ilə birlikdə XIX əsrdə ali mühəndislik təhsli sisteminin yaradılması prosesinin başlanmasına gətirib çıxartdı.

İlk ali mühəndislik təhsil müəssisələri Rusiya imperiyasının baş mühəndislik məktəbində 1810-cu ildə baş verən innovasiya dönüşündən sonra, zabitlərin təhsilinin əlavə iki il müddətinə uzadılmasından sonra yaranmağa

başladı. Zabitlərin yuxarı siniflərinə əlavə edilməsindən sonra Rusiyanın ilk ali mühəndislik müəssisəsi digər kadet korpuslarından fərqli olaraq, 1810-cu ildə Baş mühəndislik müəssisəsi, indiki Hərbi Texniki Mühəndislik Universiteti oldu. Bu isə mühəndislərin təhsil proqramını beşillik etdi və bu səbəbdən mühəndislik təhsilinin yuxarı və aşağı kursları arasında ikipilləli sistem yaradıldı, bu sistem hazırda da fəaliyyət göstərir. Məşhur alim mexanik Stepan Timoşenko, Rusiyada mühəndislik təhsili kitabını yazdı. Baş mühəndislik məktəbinin məhz bu sistemi aşağı siniflərdə təhsil zamanı keyfiyyətli nəzəri hazırlığı təmin etməyə imkan verdi, bu isə gələcəkdə yuxarı kurslarda mühəndislik fənlərinin daha dərin öyrənilməsi prosesini asanlaşdırdı.

17 noyabr 1804-cü ildə Kazanda Kazan Universiteti təsis olunmuşdur. Yaranmasının ilk onilliyində o artıq böyük elm və təhsil mərkəzinə çevrildi. Orada bir sıra elmi istiqamət və məktəblər formalaşmışdır (riyaziyyat, kimya, tibb, linqvistika, geologiya, geobotanika və s.). Universitetin əsas nailiyyətləri, onun görkəmli elmi ixtiraları və müvəffəqiyyətləridir: Evklid həndəsəsnin yaradılması (N.İ.Lobaçevski), rutenium kimyəvi elementinin ixtirası (K.K.Klarus), orqanik birləşmələr nəzəriyyəsinin yaradılması (A.M.Butlerov), elektron paramaqnit rezonansının ixtirası (E.K.Zavoyskiy), akustik paramaqnit rezonansının ixtirası (S.A.Altşuler) və s.

1830-cu ildə Moskvada I Nikolayın fərmanı ilə 1 sentyabr 1763-cü ildə yaradılmış İmperator Tərbiyə Evinin bazası əsasında Sənət məktəbi (təshil müəssisəsi) (bundan sonra İmperator Ali Texniki Məktəbi, hazırda N.E.Bauman adına Moskva Dövlət Texniki Universiteti) yaradıldı. Onun alimləri və müəllimləri: A.V.Letnikov, N.A.Şapoşnikov, P.K. Xudyakov, A.P.Sidorov, A.P.Qavrilenko, V.İ. Qrinevetskliy və başqaları faktiki olaraq, emalatxanaların və laboratoriyaların bazaları əsasında nəzəri təhslin və praktiki məşğələlərin sıx əlaqəsinə əsaslanan ali texniki Rusiya təhsil sistemini yaratmışlar. Bu sistem xaricdə rus təhsil metodları adlandırılmış və beynəlxalq sərgilərdə yüksək mükafatlara layiq görülmüşdür.

1870-1880-ci illərdə Qərbi Avropanın bir zox ölkələrində və Amerikada qadınların ali təhsilinə qarşı ilk addımlarının atılmasına cəhd göstərilmişdir. Rusiyada bu Moskvada, Kazanda, Peterburqda və Kiyevdə ali qadın kurslarının açılması yolu ilə həyata keçirilirdi. Lakin yalnız Oktyabr inqilabından sonra Rusiyada qadınlar, ali təhsil daxil olmaqla kişilərlin təhsil hüqüqlarına bərabər olan təhsil hüququnu əldə etdilər.

1914-1915-ci tədris ilində Rusiyada 105 ali təhsil müəssisəsində 127.4 min nəfərdən artıq tələbə təhsil alırdı.

Rusiya dövlətinin möhkəmləndirilməsi təhsil səviyyəsinin yüksəlməsinə təkan oldu (Pyotrdan əvvəlki dövrdə təhsil). Təkcə ruhanilərin uşaqlarının deyil, həmçinin tacirlərin və sənətkarların da uşaqlarının təhsil alması çoxlu sayda fərdi məktəblərin yaranmasına səbəb oldu. Digər tərəfdən isə Yüzbaşlı kilsə (1551-ci il) qərarları ilə pravoslav təhsil sistemi yaradıldı və mök-

ləmləndirildi. XVI–XVII əsrlərdə Şərqi slavyan torpaqlarında təhsil mərkəzləri Ukrayna və Belarusiyada fəaliyyət göstərirdi. Polşanın siyasi və ideoloji (xüsusən dini) hücumuna qarşı mübarizədə Ukrayna və Belorusiya maarifçiləri "qardaşlıq məktəblərini" yaradırdılar, bu məktəblər milli - azadlıq hərəkatı ilə sıx bağlı idi. 1632-ci ildə iki məktəbin bazası əsasında Kiyev-Moqilya kolleci (1701-ci ildən akademiya oldu) yaradıldı və 1687-ci ildə onun modeli əsasında Moskvada Slavyan, yunan, latın akademiyası yaradıldı. Ukraynada və Belorusiyada mətbəələr yarandı (məhz ilk çapçı İvan Federov Moskvadan gəlmişdir), dərsliklər yaradılır və çap olunurdu.

XVII əsrin ortalarından başlayaraq Moskvada Avropa qrammatik məktəblərinin modellərinə əsasən məktəblər açılmağa başladı və ibtidai məktəblərdə mühüm dəyişikliklər baş verdi və mətbəədə rəqəmlərdən istifadə olunmağa başladı. Əlifbalara oxu üçün mətnlər, məsələn, "zəbur" surələri daxil edildi. Tələbələr üçün izahlı lüğətlər hazırlandı.

Pyotrdan qabaqkı dövrdə təhsilin demokratik xarakterini qeyd edək. Slavyan, yunan, latın akademiyasının yaradılması zamanı orada (hazırlıq sinfi nəzərə alınmadan) 76 şagird olubdur, onların arasında keşişlər, dyakonlar, rahiblər, spalniklər, stolniklər və hətta qulluqçular və mehtər uşaqları da var idi. Ruslar Pyotrdan əvvəlki dövrdə nəyi öyrənirdilər? Riyaziyyatın tədrisi olduqca zəif idi. Yalnız XVII əsrdə ərəb rəqəmlərinin olduğu dərsliklər yaranmışdır. Hesabın 4 əməlindən ancaq ikisi, toplama və çıxma qaydalarından istifadə olunurdu və kəsrlər də tətbiq olunurdu. Həndəsə nisbətən daha geniş inkişaf etmişdi, daha dəqiq desək praktiki geodeziya geniş inkişaf etmişdi. Astronomiya təkcə tətbiqi sahə kimi şərh olunurdu. Təbiətşünaslıq elmləri təsadüfi və qeyri-sistematik idi. Praktiki tibb (xüsusən də Şərqdən götürülmüş tibb) və əczaçılıq inkişaf edirdi. Tarixə olan maraq olduqca yüksək idi. P.N.Milyukovun yazdığına görə, Rusiyada savadlı adamın ən sevimli mütaliəsi tarix idi. Qədim Rusiyada tarix haqqında biliklərə ehtiyacı təmin etmək artıq dərəcədə çətin idi. Rusiyada tarixi hadisələr haqqında əlyazmaların və rəvayətlərin külli miqdarda mövcudluğuna baxmayaraq, tarixi hadisələri araşdırmaq çox çətin idi, çünki Rusiya tarixinin gedişatının ifadə edildiyi heç bir məlumat toplusu mövcud deyildi. Rusiyada hər gün 2,5 minə yaxın əlifba nüsxələri, bundan başqa, üç min dua kitabı və 1,5 min "zəbur" kitabları çap olunurdu. Təbii ki, Rusiyanın 16 milyonluq əhalisi üçün bu asan deyildi, lakin savadlılığın artıq kütləvi hala çevrilməsi faktı açıq-aydın şəkildə nəzərə çarpırdı. Meletiy Smotritskinin qrammatikası 1648-ci ildə (Qeyd etmək lazımdır ki, əlifbalar danışıq dilini deyil, köhnə slavyan dilini təsvir edirdi), XVII əsrdə ilk ritorika və loqika dərslikləri yarandı.

Pyotrun təhsil islahatı sayəsində Rusiyada professonal təhsil sistemi yarandı. 1701-ci ildə müvafiq dövlət orqanlarının nəzdində olan naviqasiya, topçu, qospital və s. məktəbləri yaradıldı. Bundan başqa, 1722-ci il üçün Rusiyanın ayrı-ayrı şəhərlərində elementar riyaziyyatı tədris edən 42 ibtidai

məktəb açıldı. Humanitar elmlər üzrə təhsil ruhani məktəbləri tərəfindən təmin olunurdu, bu məktəblərin müəllimlərini Slavyan, yunan, latın akademiyası hazırlayırdı. Rusiyada artıq 1725-ci ildə cəmi 50 eparxial məktəb var idi, sonradan ibtidai məktərblərdə şagirdlərin sayı eparxial məktəblərin yaranması ilə əlaqədar olaraq, kəskin surətdə azaldı. Eparxial məktəblərə dərhal keşişlərin və dyakonların uşaqları keçdi. Həmçinin ibtidai məktəblərində kübar fənləri deyil, yalnız peşə sənətlərinin və ticarətin öyrədilməsi səbəbindən şagirdlərin sayı get-gedə azalırdı. Bu səbəbdən də ibtidai məktəblərin əsas kontingenti hərbçilərin və bu təbəqəyə aid olan digər insanların uşaqları idi. 1732-ci ildə Pyotrun vəfatından sonra təkcə ibtidai hərbi təhsili deyil, həmçinin elementar riyaziyyat və mühəndislik təhsili verən qarnizon məktəbləri yarandı. Ruhani məktəblərin bir hissəsi natamam orta və tam orta məktəblərə çevirlərək, genişlənərək, seminariyalar adlanırdı və orada qrammatika, ritorika, fəlsəfə və ilahiyyət fənləri keçilirdi. Pyotr vahid təbəqədən kənar təhsil sisteminin yaradılmasını arzulayırdı. Amma onun yaratdığı sistem nə vahid, nə də təbəqədən kənar sistem idi. Rusiya təhsilinin Avropa təhsil sisteminə daxil olması Rusiya təhsilinin formalaşmasında mühüm rol oynadı. Pyotrun dövründə 1714-cü ildə təhsilin bütün təbəqələrinin (kəndlilərdən başqa) uşaqları üçün məcburi olması elan olundu. Hazırda istifadə etdiyimiz əlifbaya, həmçinin təbiyyət, riyaziyyat və texniki fənlər üzrə Qərbi Avropa dərsliklərinin ilk tərcümələrinə görə məhz Pyotra minnətdar olunmalıdır. Pyotrun ən uğurlu nailiyyəti Elmlər Akademiyası idi. Onun nəzdində Sankt-Peterburqda ilk Rysiya universiteti, universitetin nəzdində isə gimnaziya təsis olunmuşdur. Pyotrun yaratdığı bütün bu sistem artıq onun vəfatından sonra, 1726-cı ildə fəaliyyətə başladı. Mütəxəssislərin əksəriyəti Almaniyadan dəvət olunurdu, professorların arasında Avropa səviyyəsində məşhur professorlar var idi, məsələn, riyaziyyatçılardan Bernulli və Eyler iştirak ediridi. İlk anda universitetin tələbələrinin sayı çox az idi. Bu əsasən zadəganların və ya Rusiyada yaşayan əcnəbilərin uşaqları idi və tezliklə təqaüdlər və dövlət hesabına təhsil alan tələbərlər üçün yerlər ayrıldı. Dövlət hesabına təhsil alan tələbələrin arasında raznoçinlər (zadəgan sinfinə mənsub olmayan, ziyalı ailəsindən çıxanlar) və hətta kəndlilər (məsələn, M.V.Lomonosov) də var idi. Gimnaziyada həmçinin əsgərləin və kəndlilərin uşaqları oxuyurdu, lakin onlar, adətən, aşağı siniflərdə əldə olunan təhsillə kifayətlənirdilər. 1755-ci ildə Moskvada nəzdində iki gimnaziyası olan analoji universitet (zadəganlar və raznoçinlər üçün) açıldı. Zadəgan gimnaziyasında rus və latın dilləri, hesab, həndəsə, coğrafiya, qısa fəlsəfə və xarici dillər tədris olunurdu. Raznoçinlər üçün gimnaziyada, əsasən, incəsənət, musiqi, mahnı, rəsm fənləri və həmçinin texniki elmlər tədris olunurdu.

II Yekaterina dövründə Rus təhsili Yekaterina Qərbi Avropanın aparıcı ölkələrində təhsilin təşkilatı təcrübəsini və öz dövrünün ən mühüm pedaqoji ideyalarını diqqətlə öyrənirdi. Məsələn, Rusiyada XVIII əsrdə Yan Amos

Komenskinin, Fenelonun əsərləri, Lokkun "Tərbiyə haqqında düşüncələr"i elmi işləri yüksək səviyyədə qəbul olunurdu. Buna görə də məktəbin vəzifələrinin yeni forması meydana çıxdı: təkcə öyrətmək deyil, tərbiyə etmək də təhsil siyasətinin vacib amillərindən biri idi. Bu xülasənin əsasında İntibah dövründə yaranmış yeni ideya dururdu: o "Şəxsiyyətin hüquq və azadlığına" hörmətdən irəli gələrək, pedaqogikadan zorakılıq və ya məcburiyyət xarakteri daşıyan bütün amilləri kənarlaşdırırdı. Həm də Yekaterinanın tərbiyəvi konsepsiyası uşaqların ailədən maksimal dərəcədə təcrid edilməsini və müəllimin ixtiyarına verilməsini tələb edirdi. Lakin artıq 1980-ci illərdə tərbiyə amili bir qədər kənarlaşdırıldı, təhsil amili yenə diqqət mərkəzində oldu. Onun əsasında Prusiya və Avstriya təhsil sistemləri götürülmüşdür. Məktəblərinin üç növünü: ibtidai, orta və ali təhsil növlərinin təsis edilməsi nəzərdə tutulmuşdu. İbtidai məktəblərdə ümumi təhsil fənləri tədris olunurdu: oxu, yazı, rəqəmlərlə tanışlıq, katexiçis, tarix, rus qrammatikasının başlanğıcı və s. fənləri tədris olunurdu. Orta məktəbdə İncilin şərhi, orfoqrafik tapşırıqlar əlavə edildiyi rus qrammatikası, ümumdünya və Rusiya tarixi, Rusiyanın qısa coğrafiyası, ali məktəbdə isə coğrafiyanın və tarixin ətraflı tədrisi, riyazi coğrafiya, işgüzar məktub üzrə tapşırıqlar əlavə edilmiş qrammatika, həndəsənin, mexanikanın, fizikanın və memarlığın əsasları fənləri tədris olunurdu. Komenskinin sinif-dərs sistemi yeridilmişdir, əyanilikdən istifadə etmək cəhdləri həyata keçirilirdi, həmçinin yuxarı siniflərdə şagirdlərdə fikrin müstəqil şərhinin ifadəsi tövsiyə olunurdu. Lakin didaktika dərslikdəki mətnlərin əsasən oxunub əzbərlənməsi prosesini öyrənirdi. Müəllimlə şagirdlərin arasında münasibət Yekaterinanın baxışları əsasında qurulurdu: məsələn, istənilən müxtəlif cəzaların həyata keçirilməsi qəti qadağan olunmuşdu. Ümumi təhsil məktəblərinin həyata keçirilməsi üçün müəllimlərin hazırlıqdan keçməsi tələb olunurdu. Bu məqsədlə 1783-cü ildə Peterburqda Baş xalq məktəbi açıldı, üç ildən sonra isə müəllim seminariyası, pedaqoji institutda müstəqil fəaliyyət göstərmək üçün ayrıldı. Yekaterinanın islahatı axıra qədər icra olunmamışdır, lakin buna baxmayaraq, Rusiya təhsilinin inkişafında mühüm rol oynamışdır. 1782-1800-ci illər ərzində 180 min uşaq, onların arasında 7% qız uşaqları müxtəlif növ məktəbləri bitirmişdir. XIX əsrin əvvəllərində 200 min tələbə və 720 müəllimi olan 300-ə yaxın məktəb və pansionlar mövcud idi. Lakin onların arasında kənd məktəbləri yox idi.1770-ci ildə Yekaterinanın yaratdığı "Məktəblər haqqında komissiya" kənd məktəblərinin yaradılması layihəsini işləmişdir (bu layihədə Rusiyada təbəqədən asılı olmayaraq bütün oğlan şagirdləri üçün məcburi ibtidai təhsilin tətbiqi haqqında təklifi daxil idi). Lakin o layihə olaraq qaldı və həyata keçirilmədi.

Aleksandrın dövründə Rusiya təhsili. I Aleksadrın çarlığı zamanı gənc reformatorlar qrupu, başda M.M.Speranskiy olmaqla digər islahatlarla yanaşı, təhsil sisteminin islahatını da həyata keçirdi. İlk dəfə tədris dairələri üzrə bölüşdürülmüş məktəb sistemi yaradılmışdır. Bu sistem Xalq Maarif

Nazirliyinə tabe idi. Üç məktəb növü fəaliyyət göstərirdi: kilsə məktəbləri, qəza məktəbləri və gimnaziyalar (quberniya məktəbləri). Birinci ilk növə aid məktəblər pulsuz və sinfi mənsubiyyətindən asılı deyildi. Yekaterinanın məktəb sistemindən fərqli olaraq, məktəblərin bu üç növü ümumi təhsilin üç ardıcıl pilləsinə münasib idi (hər növbəti məktəb pilləsinin tədris planı əvvəlki tədris planını təkrarlamır, əksinə, onu davam etdirirdi). Kənd kilsə məktəbləri mülkədarlar tərəfindən, qəza məktəb və gimnaziyaları isə dövlət büdcəsindən maliyyələşdirilirdi. Həm də ruhani məktəb və seminariyaları var idi, onlar imperatorçu Mariyanın idarələrinə, Müqəddəs Birliyə və Hərbi nazirliyə tabe idilər. Seçmə təhsil müəssisələri, Tsarskoselskaya və başqa liseylər, pansionlar təşkil edirdi. Ruhani məktəbləri Allahın qanunlarını, oxunu, yazını, hesabın əsaslarını tədris edirdi. Qəza məktəblərində Allahın qanunları, hesabla həndəsənin tədrisi, qrammatika, coğrafiya, fizika, tarix və texnologiyanın əsasları tədris olunurdu. Qəza məktəblərində həm də İctimaiyyət adlanan fənn tədris olunurdu. Orada həmçinin aşağıdakı fənlər tədris olunurdu: məntiq, psixologiya, hüquq, siyasi iqtisadiyyat, fizika-riyaziyyat, ticarət (kommersiya) və texnologiya. Yeni universitetlər, Kazan və Xarkov universitetləri açıldı. 1804-cü ildə qəbul edilmiş və digər universitetlərin nizamnamələrinə nümunə olan Moskva Universitetinin nizamnaməsi muxtariyyəti, rektorun seçkisini, professorların müsabiqə əsasında seçilməsini, tədris planlarının tərtibatında fakültə şuralarının xüsusi hüquqlarını nəzərdə tuturdu. 1817-ci ildən başlayaraq bu sistemdən kənarlaşaraq, konservativ mövqeyə doğru irəliləyiş oldu. Liberal universitetlər darmadağın edildi, onları bir çox akademik azadlıqlardan məhrum etdilər. Gimnaziyalara Allahın qanunları və rus dili fənləri, həmçinin qədim dillərin (yunan və latın dilləri) tədrisi tədris planına daxil edilmiş, fəlsəfə və ictimai elmlər, ümumi qrammatika, iqtisadiyyat fənləri siyahıdan çıxarılmışdır.

I Nikolayın dövründə Rusiya təhsili. I Aleksandrın vəfatından və dekabristlərin üsyanından sonra Rusiya təhsil sisteminin irticaçı şəkildə kənarlaşması davam edirdi. 1826-ci ilin may ayında imperator repskripti ilə Təhsil müəssisələrinin yaradılmasının xüsusi Komissiyası təşkil edilmişdir və ona təhsil sisteminə müxtəlif baxışlar yeritmək həvalə edilmişdir. Bu tədbir ixtiyari fənlərin tədrisinə yol verilməməsi üçün həyata keçirilmişdi. I Nikolay çox gözəl başa düşürdü ki, inqilabi və liberal ideyalara qarşı mübarizəni məktəblərdən və universitetlərdən başlamaq lazımdır. Təhsil sisteminə silk bölgüsü xarakteri qaytarıldı: Nikolay dövrünün hakimiyyətinin mövqeyini P.N.Milyukov aşağıdakı kimi ifadə etmişdir; "Heç kəs öz rütbəsinə uyğun olan təhsil səviyyəsindən artıq təhsil almamalıdır". Ümumi təhsil sistemi eyni olaraq qaldı, dəyişilmədi, lakin bütün məktəblər universitetlərin tabeçiliyindən çıxarılaraq, tədris dairəsinin rəhbərliyinin (yəni Xalq Maarif Nazirliyinun) tabeçiliyinə verildi. Gimnaziyada tədris əhmiyyətli dərəcədə dəyişdirildi. Əsas fənlər yunan və latın dilləri oldu. Realnı məktəb fənlərinin tədrisinə yalnız

əlavə fənlərin tədrisi şəklində icazə verilirdi. Gimnaziyalar yalnız universitetə daxil olmaq üçün bir pillə kimi nəzərdən keçirilirdi, beləliklə, gimnaziyaların silk xarakteri nəzərə alınaraq, raznoçinlər, demək olat ki, ali təhsilə buraxılmırdılar. Buna baxmayaraq, 1853-cü ildə yalnız Peterburq Universitetində raznoçinlərin sayı tələbələrin ümumi sayının 30%-ni təşkil edirdi. Dövlət nəzarətinin zəif olduğu nəcib pansionlar və fərdi məktəblər bağlanmışdı, onların tədris planları dövlət məktəblərinin tədris planları ilə uyğunlaşmalı idi. Məhz Xalq Maarif Naziri S.S.Uvarov tərəfindən 21 mart 1833-ci il tarixində məşhur formula "pravoslavlıq, mütləqiyyət, xəlqilik irəli sürüldü". Rus professorları rus prinsiplərinə əsaslanmış rus elmini tədris etməli idi. 1850-ci ildə yeni nazir Şirinskiy-Şixmatov I Nikolaya aşağıdakı fikirləri məruzə edirdi: "Elmin bütün əsasnamələri mücərrəd mühakimələr üzərində deyil, dini həqiqətlərə və ilahiyyətə əsaslanmalıdır". O yazırdı: "Aşağı təbəqəyə aid şəxslər universitetlərin vasitəsilə öz təbii halından, şəraitindən kənarlaşdırıldıqda, narahat və narazı insanlara çevrilirlər". Universitetlərdə və digər ali təhsil müəssisələrində rektorların, prorektorların və professorların seçki yolu ilə təyin edilməsi prosesi ləğv olundu, onlar birbaşa Xalq Maarif Nazirliyi tərəfindən təyin olunurdu. Professorların xarici səfərlərinin sayı ixtisarlaşdı, tələbələrin qəbulu məhdudlaşdı, təhsil haqqı tətbiq olundu. Bütün fakültələr üçün ilahiyyət, kilsə tarixi fənlərinin tədrisi məcburi idi. Rektorlar və dekanlar məcburi qaydada professorların təqdim etdikləri proqramların məzmununda "pravoslav kilsəsinin məqsədini və ya dövlət müəssisələrinin idarə edilmə üzrə mənəviyyatına zidd olan heç bir məlumatın olmamasını" izləməli idi. Tədris planlarından alman alimləri tərəfindən bu elmin müasir inkişafı səbəbindən lazımsız qəbul edilmiş fəlsəfə fənni xaric edildi. Məntiq və psixologiya kurslarının tədrisi bütövlüklə ilahiyyət professorlarına həvalə edildi. Tələbələr arasında fənnin möhkəmləndirilməsi üçün, yəni onlar üzərində aşkar və gizli nəzarət tədbirləri həyata keçirilirdi. Moskva universitetinin inspektoruna müxtəlif saatlarda və hər zaman qəflətən dövlət hesabına təhsil alan tələbələrin otaqlarına gəlmək, onların tanışlıqlarına və müntəzəm kilsə ziyarətlərinə nəzarət etmək həvalə edilmişdir. Tələbələr müəyyən forma geyinirdi, hətta onların saç düzümü, davranışı, hərəkət tərzi və qidalar belə nizamnamədə qeyd edilirdi. 1839-cu ildə bəzi gimnaziyalarda və qəza məktəblərində (4-cü sinifdən başlayaraq) sənaye, təbiət tarixi, kimya, əmtəəşünaslıq, mühasibatlıq, mühasibat, ticarət qanunvericiliyi və mexanika fənlərinin tədris olunduğu real şöbələr açıldı. Oraya raznoçinlər qəbul edilirdi, onların əsas vəzifəsi nazirin yazdığı kimi, dövlətin aşağı təbəqələrini, onların mülki məişətini, həyat tərzinə uyğun olan mövqedə saxlamaq, onları qəza məktəbləri ilə kifayətlənməyə vadar etməkdir, bununla da əsas məqsəd, yəni onların gimnaziya və universitetlərdə təhsil almağa yol verilməməsi məqsədi müvəffəqiyyətlə icra olunmalı idi. Bu cür yanaşma klassik təhsildən cəmiyyətin real tələbatlarına tərəf addım kimi qiymətləndirilə bilər.

II Aleksandrın təhsil islahatı. II Aleksandr dövründə həyata keçirilmiş islahatların arasında Rusiya təhsilinin yenidən qurulması mühüm yer tutur. 1864-cü ildə "İbtidai məktəblər haqqında "Əsasnamə" qəbul edilmişdir və bu Əsasnamədə ibtidai təhsilin təbəqədən kənar olması təsdiq olunmuşdu. Dövlət məktəbləri ilə özəl məktəblərin açılması həyata keçirilirdi. Əsas məktəblər kimi gimnaziyalar və progimnaziyalar da fəaliyyət göstərirdi. Gimnaziyalar klassik və realnı (1782-ci ildə realnı məktəblərə çevrilmişdir) gimnaziyalara ayrıldı. Rəsmi olaraq gimnaziyaların qapıları qəbul imtahanlarından keçən bütün tələbələr üçün açıq idi. Universitetlərə isə yalnız klassik gimnaziyaların məzunları və ya gimnaziyada xüsusi imtahan verən tələbələr buraxılırdı. Realnı məktəblərin məzunları ancaq universitetlərə yox, başqa ali təhsil müəssisələrinə qəbul oluna bilərdi. Bu zaman Peterburq Texnoloji İnstitutu, Moskva Ali Texniki Məktəbi, Moskvadakı Petrov adına Təsərrüfat Akademiyası kimi ali təhsil müəssisələri təsis olunmuşdur. 1863-cü ildə universitetlərə muxtariyyətin verilməsi, universitet şuralarına böyük hüquqlar verən, elmi cəmiyyətlərin açılmasına icazə verən və hətta universitetlərə senzurasız elm və tədris nəşrlərinin buraxılmasına icazə verən yeni universitet nizamnaməsi qəbul olundu. Rektorlar və dekanlar yenidən seçki vasitəsilə təyin olunmağa başladı, professorlar yenidən xaricə göndərilir, fəlsəfə və dövlət hüququ kafedraları bərpa olundu, açıq mühazirələrin sayı artdı, tələbə qəbulu üzrə məhdudiyyətlər ləğv olundu. İctimaiyyətin, cəmiyyətin təhsil sistemində rolu artdı. Bu illərdə belə məktəblərin bütün dərslikləri mərkəzləşdirilmiş şəkildə Xalq Maarif Nazirliyində təsdiq olunurdu. 1970-ci illərin əvvəlindən başlayaraq, mərkəzləşdirilmə prosesi daha da gücləndi: bu həm tədris planlarına, həm də proqramlara (onlar unifikasiya edilmişdir) və tələbə seçiminə də aid idi.

XIX əsrin ikinci yarısında rus təhsil sisteminin rolu olduqca böyük idi. Pedaqoji cəmiyyətlər, savadlılıq komitələri yaranır, müəllimlər qurultayı keçirilirdi. Faktiki olaraq rus cəmiyyəti, əsasən, məktəbəqədər təhsilini, ibtidai xalq təhsilini, peşə məktəbini, qadın və məktəbdənkənar təhsili nəzarət altında saxlayırdı.

Rusiya ərazisində təhsilin tarixi qədim zamanlardandır. XIX əsrin sonlarına kimi Rusiya əhalisi təhsil səviyyəsinə görə Avropanın bir çox ölkələrindən geridə qalırdı. XVIII əsrdə Rusiya tədris müəssisələri dövlətin hərbi və iqtisadi qüdrətinin gücləndirilməsi məqsədlərinə xidmət edirdi. Çar I Pyotrun dövründə ali məktəblərdə oxumağın özünə qulluq kimi baxılırdı, tələbələr məvacib alır və öz vəzifələrini icra etmədikdə ciddi xidməti cəzalar alırdılar. Rusiyada 1724-cü ildə çar I Pyotrun fərmanı ilə ilk universitet Peterburq Elmlər Akademiyası yanında yaradılmışdır, ilk ali məktəblərdə peşə təhsil proqramlarının mahiyyəti tələbələri sırf peşə vərdişlərinə yiyələndirməkdən ibarət idi. 18-ci əsrin ikinci yarısında Moskva Universiteti, Peterburq Mədən Məktəbi, Tibb-Cərrahlıq Akademiyası, ilk Rus elmi cəmiyyəti, XIX əsrin

birinci yarısında isə Kazan, Peterburq və s. şəhərlərdə universitetlər yaranmışdır. Rusiyanın ərazisində 1897-ci ildə 9-49 yaşlı əhalinin ancaq 29,6%-i savadlı idi. Rusiyada ali təhsil mərkəzləşərək dövlət hakimiyyəti nəzarətində formalaşmışdır. Onun yaratdığı hər növ ali təhsil müəssisələri dövlətin idi, yəni dövlət vəsaitləri hesabına saxlanırdı və onların əmlakı hər hansı digər bir şəxsə mənsub deyildi.

1918-ci ildə xalq maarifi sistemi yaradıldı və kilsə dövlətdən, məktəb isə kilsədən ayrıldı. 1918-ci ilin oktyabrında "RSFSR-də vahid əmək məktəbi haqqında" Əsasnamə qəbul olundu. Əsasnamədə 8-17 yaşlı uşaqların icbari pulsuz təhsili nəzərdə tutulurdu. 1926-cı ildə RSFSR-də əhalinin 60,9%-i, 1939-cu ildə 89,7%-i savadlı idi. 1930/31-ci illərdə kənd yerlərində ümumi icbari ibtidai, şəhərlərdə və fəhlə qəsəbələrində ümumi icbari yeddiillik təhsilə keçildi. 1920-1930-cu illərdə ümumi təhsil səviyyəsinin artmasında fəhlə fakültələrinin rolu özünü əks etdirdi.

Sov. İKP 24-cü qurultayının (1971) qərarlarına müvafiq olaraq RSFSR Ali Sovetinin sessiyası (1974, avqust) "RSFSR-də hamılıqla orta Təhsilə keçidin" başa çatdırılması tədbirləri haqqında qərar qəbul etdi. 1981-1983 tədris ilində müxtəlif təhsil sahələrində 52 milyondan çox, o cümlədən ümumtəhsil məktəblərində 20,1 mil., orta ixtisas məktəblərində 2,6 mil., texniki peşə məktəblərində 2 mil. şagird, ali məktəblərdə 3 mil. tələbə oxuyurdu. Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin 1987-ci ilin martında "Ölkədə ali və orta ixtisas təhsilinin yenidən qurulmasının əsas istiqamətləri" bir konseptual sənəd kimi qəbul edilmişdir.

1991-ci ilə qədər Rusiya təhsil sisteminin inkişafının bir hissəsinə RSFSR-in təşkil etdiyi SSRİ-də təhsilin inkişafının vahid konsepsiyası kontekstində baxılırdı. O vaxtlar belə bir konseptual sənəd Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 1987-ci ilin martında qəbul edilmiş "Ölkədə ali və orta ixtisas təhsilinin yenidən qurulmasının əsas istiqamətləri" idi. Lakin SSRİ-nin dağılmasına gətirib çıxaran məlum siyasi hadisələr respublikada təhsilin inkişafının öz strategiyasının müəyyənləşdirilməsi problemini Rusiya Federasiyasının dövlət siyasətində ön plana çıxardı. Rusiyanın ilk prezidenti B.N.Yeltsinin "RSFSR-də təhsilin inkişafı üzrə birinci dərəcəli tədbirlər haqqında" 1991-ci ilin iyununda çıxmış ilk fərmanı onun preambulasından da göründüyü kimi "Rusiyanın intellektual, mədəni, və iqtisadi potensialının inkişafı, təhsil sferasının prioritetliyinin təmin edilməsi üçün təhsilin müstəsna önəm daşımasından" çıxış edirdi. Fərman ilk növbədə 1991-ci ilin sonlarına qədər Rusiyada təhsilin inkişafının Dövlət Proqramının yaradılma zərurətini müəyyənləşdirdi.

Rusiya təhsil sisteminin strukturu, onun funksionallığı və inkişafının ümumi prinsipi, eləcə də onun başlıca sosial xarakteristikaları Rusiya Federasiyasının təhsil sferasında federal qanunvericiliyi ilə müəyyən olunmuşdur. Hazırda buraya "Təhsil haqqında" Federal Qanun (1996-cı il) və "Ali və ali

təhsildən sonrakı peşə təhsili haqqında" Federal Qanun (1996-cı il), Təhsilin inkişafının Federal Proqramı, 10 aprel 2000-ci il tarixli Federal Qanun daxildir.

Onlardan birincisi baza qanunudur, çünki bütün təhsil sisteminə aiddir və ilk dəfə 1992-ci ildə qəbul edilmişdir, ikinci isə tamamlayıcı kimi baxıla bilər, yəni ali məktəb sferasında baza hüquqi münasibətləri açıqlayır. Rusiya təhsil sistemi nəyi təcəssüm etdirir? Əsas qanuna uyğun olaraq, onun başlıca elementləri aşağıdakılardan ibarətdir: təhsil proqramları və dövlət təhsil standartlarının varisliyi; təhsil proqramları və dövlət təhsil standartlarını gerçəkləşdirən təhsil müəssisələri; təhsili idarəetmə orqanları və onlara tabe idarələr və təşkilatlar vardır.

Rusiya Federasiyasının "Ali və ali təhsildən sonrakı peşə təhsili haqqında" Federal Qanunu ali məktəb qanunlarına, baza qanununa daha iki elementin əlavə olunmasına səbəb olmuşdur. Onlardan biri elmi tədqiqatlar aparan və ali təhsildən sonrakı peşə təhsilinin funksionallığını, inkişafını təmin edən idarələri və təşkilatları, digəri isə ictimai və dövlət-ictimai birlikləri özündə birləşdirir.

İlk iki pillə, ibtidai ümumi təhsil və əsas ümumi təhsil Rusiyanın bütün vətəndaşları üçün icbaridir. Növbəti təhsil pilləsi ali peşə təhsilidir. Ali təhsildə üç pillə var. Onlardan birincisi davamiyyət müddəti azı dörd il olan təhsil proqramı üzrə bakalavr ixtisası almaqla bağlıdır. Sonrakı iki pillə, müvafiq olaraq mütəxəssis və ya magistr ixtisaslarıdır (mütəxəssis və magistr pilləsi). "Ali və ali məktəbdən sonrakı peşə təhsili haqqında" federal qanuna uyğun olaraq "mütəxəssis" və "magistr" ixtisaslarının birincisinin mənimsənilməsinin minimal müddəti beş il, ikinci isə altı il təşkil edir. Hökumət qərarına uyğun olaraq, pillələr səviyyə kimi ifadə olunmuşdur, pilləli hazırlıq isə yalnız bakalavr və magistr sxemi üzrə nəzərdə tutulurdu. Mütəxəssisin hazırlanması müstəqil proqram kimi müəyyən edilirdi. Mütəxəssis və magistr hazırlığı proqramları iyerarxik münasibətlərə malik deyildir. Onların arasındakı fərq ondan ibarətdir ki, mütəxəssislərin hazırlıq proqramı daha praktik yönümlüdür, magistr hazırlığı proqramı isə məzunun fəaliyyətinin elmi-pedaqoji növünə meyillidir. Sonuncu pillə, dokturanturada gerçəkləşdirilən ali məktəbdən sonrakı peşə təhsilidir. Bu pillə proqramını mənimsəmək hüququ mütəxəssis və ya magistr ixtisasına malik şəxslərə verilir. Dissertasiya müdafiə edənlər ilk alimlik dərəcəsi – fəlsəfə doktoru adı alırlar.

Orta təhsildən sonrakı hər pillədə mütəxəssislərin hazırlığı üçün bir yox, bu və başqa peşəyə və ya ixtisasa yönümlülüyü ilə fərqlənən bir neçə təhsil proqramından istifadə edilir. Göstərilən bütün pillələr Təhsilin Beynəlxalq Standart Təsnifatına uyğun olaraq, (beynəlxalq standart təhsil dərəcəsi) ənənəvi və ya formal təhsilə aid edilir.

Şagirdlərin və ya tələbələrin təliminə başlamaqdan ötrü tədris müəssisəsi müvafiq səviyyəli tədris proqramını reallaşdırma hüququna lisenzisyası olma-

lıdır. Təhsil müəssisəsi attestasiyadan və onun ardınca dövlət akkreditasiyasından uğurla keçdikdən sonra təhsil haqqında nümunəvi dövlət sənədi verir. Ona əsaslanaraq təhsil müəssisəsi məzunlarının hazırlanma səviyyəsinin dövlət təhsil standartına uyğunluğu müəyyən edilir. Faktik olaraq, akkreditasiya haqqında sənədi təhsil müəssisəsi o halda alır ki, onun fəaliyyətinin nəticələri tamamilə tanınan keyfiyyət normasını təmin etsin.

Gerçəkləşdirilən proqramların səviyyəsinə və istiqamətinə uyğun olaraq təhsil müəssisələri tipinə və növünə görə xarakterizə edilə bilər. Təhsil müəssisələrinin tipi əsas etibarilə təhsil proqramlarının qəbul edilmiş əsas, əlavə, ümumtəhsil və peşə təsnifatı ilə bağlıdır. Formal təhsilə aid təhsil proqramlarını reallaşdıran təhsil müəssisələri aşağıdakı tiplərə aid edilə bilər:

* məktəbəqədər təhsil;
* ümumtəhsil (ibtidai ümumi, əsas ümumi, orta (tam) ümumi təhsil);
* peşə (ibtidai, orta, ali, ali məktəbdən sonrakı peşə təhsili) təhsili.

Ənənəvi olaraq Rusiyada təhsil müəssisələrinin bu tiplərinin adlarından istifadə edilir: uşaq bağçası, məktəb, texniki-peşə məktəbi, orta xüsusi təhsil müəssisəsi, ali təhsil müəssisəsidir.

Əlavə təhsil proqramlarını reallaşdıran təhsil müəssisələri bu tiplərə ayrılır:

* uşaqların əlavə təhsil müəssisəsi;
* yaşlıların əlavə təhsil müəssisəsi.

Rusiya Federasiyası Müstəqil Dövlətlər Birliyində (MDB) təmsil olunan ən böyük dövlətdir. Keçmiş SSRİ-nin varisi olan Rusiya Bolonya prosesinə ilk qoşulan ölkələrdən biridir. Son 10 ildə təhsil sisteminin yenidən qurulması üçün ölkədə ciddi təhsil islahatları aparılıb.

Rusiya Federasiyasında mövcud olan dövlət, özəl, bələdiyyə təhsil müəssisələri fəaliyyətlərini hökumət tərəfindən təsdiq olunmuş nümunəvi əsasnamələrə uyğun qururlar. Rusiyanın təhsil sistemi aşağıdakı təhsil pillələrinə bölünür:

* məktəbəqədər təhsil;
* ümumi təhsil;
- ibtidai ümumi təhsil;
- əsas ümumi təhsil;
- orta ümumi təhsil;
* orta peşə təhsili;
- ixtisaslı fəhlələrin hazırlığı;
- orta səviyyəli mütəxəssislərin hazırlığı;
* ali təhsil;
- bakalavriat;
- magistratura;
- elmi-pedaqoji kadrların hazırlığı.

Rusiyanın məktəbəqədər təhsilində uşaqların sağlamlığının qorunması kimi kifayət qədər geniş kompleks vəzifələr yerinə yetirilir və ailələrlə qarşılıqlı səylər əsasında uşaqlara mənəvi dəyərlər aşılanır, onların hərtərəfli və harmonik inkişafı üçün zəruri şərait yaradılır. Məktəbəqədər təhsil müəssisələrinə təlim-tərbiyə prosesinin prioritet istiqamətlərinin, təhsil proqramlarının seçimində sərbəstlik verilib. Bu da, öz növbəsində, məktəbəqədər təhsildə rəngarəngliyə səbəb olur.

Ölkədə fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələri bir sıra cəhətlərinə görə bir-birindən fərqlənir. Bu baxımdan uşaqların bir və ya bir neçə prioritet istiqamətdə (intellekt, bədii-estetik, fiziki və s.) inkişafını nəzərdə tutan uşaq bağçaları, əsasən fiziki və psixi cəhətdən qüsurlu uşaqların təlim-tərbiyəsi ilə məşğul olan uşaq bağçaları, sanitar-gigiyenik, profilaktik və digər sağlamlaşdırıcı prosedураların həyata keçirildiyi uşaq bağçaları, universal uşaq bağçaları (onların tərkibinə müxtəlif səviyyəli ümumi inkişaf, bərpa və sağlamlaşdırıcı qruplar daxildir) və uşaq inkişaf mərkəzlərinin, bütün uşaqların sağlamlığını, fiziki və psixoloji inkişafını nəzərdə tutan uşaq bağçalarını göstərə bilərik.

Rusiyada körpələr evləri də fəaliyyət göstərir. Lakin son 10 il ərzində körpələr evlərinin sayı nəzərəçarpacaq dərəcədə azalıb. Bu, müxtəlif iqtisadi və digər amillərlə əlaqədardır.Ölkədə məktəbəqədər təhsil müəssisələrinə 3-6, körpələr evlərinə isə 1-3 yaşlı uşaqlar qəbul olunur. Müstəsna hallarda isə 2 aydan 1 yaşa qədər olan uşaqlar da körpələr evlərinə verilə bilər. Məktəbəqədər təhsil müəssisələri dövlət, bələdiyyə və müxtəlif idarələr tərəfindən maliyyələşir. Son zamanlar özəl məktəbəqədər təhsil müəssisələri də fəaliyyətə başlayıb, hansı ki, onlar ölkə üzrə cəmi 8 faiz təşkil edir.

Rusiyada uşaqların yalnız 59 faizi uşaq bağçalarına gedir. 20 faiz uşaq isə bağçaya getmək üçün növbə gözləyir. Bir sıra valideynlər isə hələ də uşaqlarını bağçalara vermək barədə düşünmürlər. Bu baxımdan dövlət 3 yaşa qədər uşaqlar üçün keyfiyyətli təlim proqramları qəbul edilməsinin vacibliyini önə çəkir.

Ümumi orta təhsilin ilk pilləsi olan ibtidai təhsildə uşaqlar ətraf mühit, ünsiyyət vərdişləri, tətbiqi tapşırıqların həlli barədə ilkin biliklərə yiyələnir. Uşaqların şəxsiyyət kimi formalaşmasına və inkişafına göstərdiyi təsirə görə ibtidai təhsil dövlət və cəmiyyət üçün olduqca əhəmiyyətlidir.

Rusiyada icbari ibtidai ümumi təhsil hamı üçün əlçatan hesab olunur. İbtidai məktəblərdə uşaqların təlim-tərbiyəsinə 6 yaşdan (uşağın sağlamlığı ilə əlaqədar ciddi səbəb olarsa, 8 yaşdan gec olmayaraq) başlanır.

İbtidai məktəblərdə rus dili, oxu, xarici dil, riyaziyyat, ətraf mühit, təsviri incəsənət, musiqi, texnologiya, fiziki mədəniyyət fənlərinin tədrisi icbari xarakter daşıyır. Fənlərin tədrisi üçün ibtidai məktəbdə müvafiq şəraitin yaradılmasına xüsusi diqqət yetirilir. Proqram üzrə xarici dil ikinci sinifdən tədris olunur. Texnologiya fənninin "Kompyuterdə iş təcrübəsi" (informasiya

texnologiyalarından istifadə) bölməsinin tədrisinə üçüncü sinifdən başlanır. Rus dili və ədəbiyyat fənni isə federal təhsil proqramında iki variantda təqdim olunur: rus dilində tədris aparan məktəblər və qeyri-rusdilli təhsil müəssisələri (digər xalqların doğma dillərində tədris aparan məktəblər).

İbtidai məktəb federal təhsil sisteminin qarşısında duran aşağıdakı əsas məqsədlərə nail olunmasını təmin etməlidir:

- məktəblinin şəxsiyyətinin inkişafı, onun yaradıcılıq qabiliyyətinin, öyrənmək marağının, arzusunun və oxumaq bacarığının formalaşdırılması və inkişaf etdirilməsi;
- mənəvi və estetik hisslərin tərbiyə olunması, özünə və ətraf mühitə qarşı emosional müsbət münasibətin formalaşması;
- biliklər sisteminin, bacarıq və vərdişlərin, fəaliyyətin müxtəlif növlərinin həyata keçirilməsi təcrübəsinin mənimsənilməsi;
- uşaqların fiziki və psixi sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi;
- uşaqların fərdiliyinin qorunması və dəstəklənməsi.

Ümumi orta təhsil Rusiya təhsil sistemində əsas yerlərdən birini tutur. Orta təhsil müəssisələri sırasına aşağıdakılar aiddir:

- orta ümumtəhsil məktəbləri;
- ayrı-ayrı fənlərin dərindən öyrənilməsini həyata keçirən xüsusi məktəblər;
- gimnaziyalar;
- liseylər;
- axşam məktəbləri;
- internat tipli təhsil müəssisələri;
- fiziki və psixi qüsurlu uşaqlar üçün xüsusi məktəblər;
- məktəbdənkənar təhsil müəssisələri (uşaq musiqi məktəbləri, incəsənət məktəbləri, xor və xoreoqrafiya studiyaları, folklor ansamblları, uşaq-yeniyetmə idman məktəbləri, gənc texniklər stansiyaları, istirahət mərkəzləri və s.).

Adətən, ümumtəhsil müəssisələrinə uşaqlar 6 və ya 7 yaşında daxil olur, 17 və ya 18 yaşda orta məktəbi bitirirlər. Ümumi orta təhsilin standart məktəb proqramı IX və ya XI sinifə qədər nəzərdə tutulur. Dərslər sentyabrın 15-də başlayır və mayın sonunda başa çatır. Tədris ilinin bölünməsinin iki əsas üsulu var:

- tədris ili iki yarım ilə bölünür və hər yarım ilin sonunda tətillər verilir;
- tədris ili 3 rübə bölünür və rüblər birhəftəlik tətillə başa çatır. Bu zaman hər rüb 5 bloka bölünür.

Hər rübün sonunda bütün fənlər üzrə yekun qiymətləndirmə aparılır. Hər ilin sonunda isə şagirdlərin illik qiymətləri müəyyən olunur. Bəzən rübgüklərlə yanaşı, yarımilliyin nəticələri üzrə də qiymətləndirmə aparılır. Pis oxuyan, illik qeyri-kafi qiymətlər almış şagirdlər sinifdə saxlanıla bilər.

XI sinifdə, eləcə də IX sinfin sonunda şagirdlər bir sıra fənlər üzrə imtahanlar verir. Bu imtahanların və illik qiymətlərin əsasında attestat qiymətləri müəyyənləşdirilir. İmtahanlar keçirilməmiş fənlər üzrə isə rüblərə əsasən çıxarılmış illik qiymətlər attestata yazılır.

IX sinfə qədər oxumaq icbaridir, X və XI siniflər üzrə təhsil isə könüllüdür. XI sinfi bitirən şagird tam orta təhsil barədə attestat, IX sinfi uğurla başa vuran şagird isə əsas ümumi təhsil haqda şəhadətnamə alır.

IX sinfin məzunu təhsilini orta ixtisas (texnikum, kollec, bir sıra tibbi, pedaqoji və başqa orta ixtisas məktəbləri) və peşə təhsili müəssisələrində (orta peşə texniki, peşə texniki məktəblərində) davam etdirə bilər. Ali məktəbə daxil olmaq üçün tam orta təhsil üzrə attestat və ya peşə texniki məktəbin, texnikumun diplomu tələb olunur.

Məktəblərin bir çoxu 6-günlük iş həftəsi əsasında fəaliyyət göstərir. Hər gün 4-7 dərs keçilir. Dərslər 45 dəqiqə davam edir. Həmçinin dərslərin həftədə 5 gün keçilməsi də mümkündür. Bu zaman dərslərin sayı 9-a qədər, dərs saatı isə 45 dəqiqədən 35 dəqiqəyə qədər azaldıla bilər. Şagirdlər məktəbdə dərslərdən əlavə, ev tapşırıqlarını da yerinə yetirir. Müəllimlərin qərarına uyğun olaraq aşağı siniflərin şagirdləri üçün ev tapşırıqları verilməyə bilər.

Rusiyada ixtisaslaşmış orta məktəblərə və ya ayrı-ayrı ixtisaslaşmış siniflərə də təsadüf olunur. Bu halda bəzi fənlərin (xarici dil, fizika, riyaziyyat, kimya, biologiya və s.) daha dərindən tədrisi təşkil olunur. İxtisas fənləri üzrə dərslər ənənəvi məşğələlərdən əlavə dərs yükü ilə fərqlənir.

Rusiyada gün ərzində məktəb şəbəkəsi də inkişaf edir. Bu məktəblərdə uşaqlar nəinki ümumi təhsil alır, onlarla böyük həcmdə dərsdənxaric işlər aparılır, dərnəklər, bölmələr və uşaqların əlavə təhsili üzrə digər birliklər də fəaliyyət göstərir.

Uşaqların əlavə təhsilini təmin edən məktəbdənkənar müəssisələrdə musiqi, idman və başqa istiqamətlər üzrə məşğələlər keçirilir. Bu məktəblərin fəaliyyəti uşaqlarda yaradıcılıq potensialının inkişafına təkan verir, onların ixtisas və gələcək həyat yolunu müəyyənləşdirmələrinə kömək edir.

Rusiya Federasiyasında peşə təhsilinə xüsusi yer verilir. Ölkədə 280-dən artıq ixtisas üzrə peşə mütəxəssislərin hazırlanması həyata keçirilir.

Peşə təhsili iki əsas tədris proqramı üzrə aparılır: baza səviyyəsi və yuxarı səviyyə. Baza səviyyəsini mənimsəyən məzuna L-texnik dərəcəsi verilir. Təhsil müddəti bir ildən çox olan yuxarı səviyyəli peşə təhsili baza səviyyəsinə nisbətən daha dərin və geniş hazırlığı nəzərdə tutur. Peşə hazırlığını dərinləşdirən məzuna L-baş texnik dərəcəsi verilir.

Hazırda Rusiyada iqtisadiyyat və sosial sahələrdə 21,6 milyon peşə təhsilli mütəxəssis çalışır. Bu isə məşğul olan əhalinin ümumi sayının 34 faizinə bərabərdir.

Orta peşə təhsili müəssisələrində əyani, əyani-qiyabi (axşam), qiyabi oxumaq mümkündür. Peşə təhsili müəssisələrinə əsas ümum təhsil (ümumtəh-

sil məktəbinin IX sinfindən) və ya orta təhsil (ümumtəhsil məktəbinin XI sinfindən) məktəblərinin məzunları daxil ola bilər. Orta peşə təhsilinin müddəti əyani hazırlığın profilindən asılı olaraq 2-3 il arasında dəyişir. Əyani-qiyabi və qiyabi peşə təhsili isə bir il artıqdır. IX sinif məzunları orta peşə təhsilinə yiyələnmək üçün tam orta (XI sinif) təhsilli gənclərlə müqayisədə bir il artıq oxuyur.

Orta peşə təhsili müəssisələrinin 2 növü vardır:

- baza səviyyəsində orta peşə təhsilinin əsas peşə təhsili proqramlarını reallaşdıran texnikumlar;
- baza və yüksək baza səviyyəli orta peşə təhsili proqramlarını həyata keçirən kolleclər.

Bəzən orta peşə təhsili proqramları ali məktəblərdə də tədris olunur. Müvafiq profilli peşə təhsili almış şəxslər qısa gücləndirilmiş proqramlar üzrə ali peşə təhsilinə yiyələnə bilər.

Rusiyada 25-dən artıq federal nazirlik və idarənin nəzdində orta peşə məktəblərinin bölmələri də fəaliyyət göstərir.

Ənənəvi olaraq Rusiyada ali təhsil iki pilləyə bölünür: bakalavriat və magistratura. Ali təhsil proqramlarının normativ müddətləri aşağıdakı kimidir:

- bakalavr dərəcəsi almaq üçün təhsilin əyani forması üzrə bakalavriat proqramı - 4 il;
- mütəxəssis dərəcəsi almaq üçün əyani forma üzrə mütəxəssis hazırlığı proqramı - 5 ildən az olmamaqla;
- təhsilin əyani forması üzrə magistr dərəcəsi almaq üçün magistr proqramı - 2 il;
- elmi pedaqoji kadrların doktoranturaya (adyunktura) hazırlığı proqramı - 3 ildən artıq olmamaqla.

Ali təhsilin tədris proqramını uğurla mənimsəmiş və yekun attestasiyadan keçmiş şəxslərə müvafiq qaydada ali təhsil təsnifatları (akademik dərəcələr) verilir. Bakalavriat proqramını mənimsəyənlərə bakalavr, mütəxəssis hazırlığı proqramını başa vuranlara mütəxəssis, magistratura proqramını mənimsəyənlərə magistr, elmi pedaqoji kadrların doktorantura (adyunktura) hazırlıq proqramını keçənlərə ali məktəb müəllimi və ya tədqiqatçı, dissertasiya müdafiə etmiş şəxslərə isə fəlsəfə doktoru diplomu verilir.

Rusiya hökuməti son illər ali təhsilin inkişaf etdirilməsinə xidmət edən müvafiq dəstək proqramlarının maliyyələşdirilməsi üzrə bir sıra qərarlar qəbul edib. Bu proqramlar çərçivəsində ayrılmış vəsaitlər istedadlı uşaqların dəstəklənməsinə, elmi-tədqiqat institutları yanında distant məktəblərin və federal universitetlərdə istedadlı gənclərin inkişafı mərkəzlərinin yaradılmasına sərf olunur. Bundan başqa, federal universitetlərin maddi-texniki bazasının yaxşılaşdırılması məsələləri də diqqət mərkəzində saxlanılır.

2010-cu ildə ali təhsil müəssisələrində innovativ infrastrukturun dəstəklənməsi məqsədilə dövlət proqramı qəbul olunub. Bu proqram ali məktəblərdə innovativ mühitin formalaşmasını, təhsil ocaqları ilə sənaye müəssisələri arasında qarşılıqlı əlaqənin inkişaf etdirilməsini nəzərdə tutur.

Xarici ölkələrin tanınmış mütəxəssislərinin Rusiyaya dəvət olunması ali məktəblərə dövlət dəstəyinin bariz nümunəsidir. 2010-cu ildə Rusiya hökuməti "Aparıcı alimlərin Rusiya ali təhsilinə cəlb olunması tədbirləri barədə" qərar qəbul edib. Qərara müvafiq olaraq dövlət büdcəsindən bu tədbirlər üçün 2010-cu ildə 3 milyard rubl, 2011-ci ildə 5 milyard rubl, 2012-ci ildə isə 4 milyard rubl ayrılması nəzərdə tutulmuşdur. Ayrılmış qrantlar müsabiqə əsasında hər bir elmi-tədqiqat işinə görə 150 milyon rubl həcmində müəyyənləşdirilib. Rusiya hökuməti yanında fəaliyyət göstərən qrantlar üzrə şura bu vəsaitlərin ayrılması barədə yekun qərar verir və dövlət dəstəyi göstəriləcək elmi-tədqiqat sahələrinin adlarını da müəyyən edir. Dövlət dəstəyi göstərilən elmi-tədqiqat sahələri sırasına astronomiya və astrofizika, atom energetikası və nüvə texnologiyası, biologiya, biotexnologiya, hesablama maşınları və informasiya texnologiyaları, riyaziyyat, maşınqayırma, tibbi elmlər və texnologiya, kosmik tədqiqatlar və texnologiyalar, mexanika və idarəetmə prosesləri, nanotexnologiya, Yer haqqında elm, materiallar haqqında elm, psixologiya, koqnitiv araşdırmalar, radioelektronika, tikinti və arxitektura, fizika, kimya, ekologiya, iqtisadiyyat, beynəlxalq tədqiqatlar, sosiologiya, energetika və digər istiqamətlərə aid tədqiqatlar daxildir.

Keyfiyyətin aşağı olması Rusiya ali təhsilinin başlıca problemlərindəndir. Gənclərin 80 faizdən çoxunun ali təhsil almasına baxmayaraq, ölkədə mütəxəssis çatışmazlığı hiss edilir, savadlı hüquqşünaslar, iqtisadçılar və digər mütəxəssislər çatışmır.

Ali təhsildəki problemlər orta təhsildən irəli gəldiyinə dair fikirlər səsləndirilir. Artıq Rusiyada orta təhsil müddətinin 12 ilə qaldırılması barədə müzakirələr aparılır. Aydın olur ki, universitetlərin birinci kurs tələbələrinə hələ orta məktəblərdə öyrənməli olduqları biliklər tədris olunur.

Eləcə də məktəbəqədər təhsilə diqqətin artırılması, uşaqların bağçalara cəlb olunma faizinin yüksəldilməsi məsələləri ətrafında müzakirələr aparılır.

Rusiyada həm dövlət və həm də özəl ali təhsil müəssisələri vardır. Ali məktəblərin filialları və müxtəlif regionlarda nümayəndəlikləri də fəaliyyət göstərir. Hər bir ali təhsil müəssisəsi muxtariyyət hüququna malikdir.

Ali məktəblər müvafiq qaydalara uyğun olaraq akkreditasiyadan (akkreditasiya ali məktəbə bir qayda olaraq attestasiyadan sonra verilir) keçməlidirlər. Ali təhsil müddəti, bir qayda olaraq, 4 ildən 6 ilə kimi davam edir. Ali təhsil əyani, axşam və qiyabi formada həyata keçirilir.

Rusiya Federasiyasında ali təhsil müəssisələrinin aşağıdakı növləri vardır:

Federal universitetlər federal dairələrin ərazilərində fəaliyyət göstərən aparıcı ali təhsil müəssisələri, elm və təhsil mərkəzləridir. Artıq Rusiyada 14-ə qədər federal universitet fəaliyyət göstərir.

Universitetlər müxtəlif sahələri əhatə edən zəngin tədris proqramlarına malik çoxprofilli təhsil müəssisələridir. Universitetlər unikal elm-təhsil kompleksi kimi xüsusi hüquqi statusa malikdir.

Universitetlər arasında yüksək nüfuza malik, Rusiya cəmiyyətinin inkişafında xüsusi əhəmiyyət kəsb edən iki ali təhsil müəssisəsinin; Moskva Dövlət Universiteti və Sankt-Peterburq Dövlət Universitetinin adlarını xüsusi olaraq qeyd etmək lazımdır.

Vahid Avropa təhsil məkanına inteqrasiya Rusiyanın milli təhsil sistemi qarşısında bir sıra vacib vəzifələr qoyub. Rusiya təhsil sisteminin modernləşdirilməsi və onun rəqabət qabiliyyətinin gücləndirilməsinə nail olmaq üçün təhsil sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsinə xüsusi əhəmiyyət verir. 2003-cü ildə Boloniya prosesinə qoşulan Rusiya Avropa vahid təhsil məkanının bərabərhüquqlu üzvünə çevrilib.

Hazırda ölkənin təhsil müəssisələri beynəlxalq əməkdaşlıq çərçivəsində 70-dən artıq proqram və layihənin reallaşdırılmasında iştirak edir. Rusiya təhsil sisteminin modernləşdirilməsinə xidmət edən layihələr sırasında TASİS texniki dəstək proqramı və universitetlərarası TEMPUS-TASİS proqramları (Avropa Komissiyası), orta və peşə təhsili sahəsində Rusiya - Böyük Britaniya əməkdaşlıq proqramı (Britaniya Şurası), Rusiya - Niderland əməkdaşlıq proqramı (KROSS bürosu), Avropa Şurası ilə əməkdaşlıq üzrə işçi proqramını qeyd etmək olar. Rusiya həmçinin YUNESKO, YUNİSEF, Avropa Şurası, Baltik Dənizi Dövlətləri Şurası, Barents-Avroarktika Şurası, ATES Forumu, Niderland, Fransa, Avstriya, Finlandiya və başqa ölkələrlə təhsil sahəsində beynəlxalq əməkdaşlığının genişləndirilməsini nəzərdə tutur.

Son illər Rusiya universitetləri ABŞ, Avropa, Asiya, Latın Amerikası ölkələrinin aparıcı elm və təhsil mərkəzləri ilə fəal əməkdaşlıq əlaqələri qurur, birgə təhsil proqramları reallaşdırılır. İlbəil xarici ölkələrin ali məktəblərinə təhsil almağa gedən rusiyalı gənclərin sayında artım müşahidə olunur. Əsasən, Böyük Britaniya, Almaniya, Fransa, Kanada, Avstraliya, ABŞ universitetlərində təhsil almağa üstünlük verən rusiyalı gənclər bir sıra prioritet ixtisaslara yiyələnir, ölkənin ixtisaslı mütəxəssislərə olan ehtiyacını ödəyirlər.

Rusiya universitetlərində təhsil alan və ya öz təhsil səviyyələrini təkmilləşdirən əcnəbilərin sayı da durmadan artmaqdadır. Hazırda Rusiya ali məktəblərində 80 mindən artıq əcnəbi tələbə oxuyur ki, onların da 57,2 min nəfəri Müstəqil Dövlətlər Birliyi ölkələrindəndir.

Onu da qeyd edək ki, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində, eləcə də dövlət xətti ilə Rusiya universitetlərində 300-ə yaxın azərbaycanlı tələbə təhsil alır. Azər-

baycanın ali məktəblərində isə 220-dən artıq rusiyalı gənc təhsilini davam etdirir.

Təhsil müəssisəsinin ikinci xarakteristikası onun növüdür. O, bu təhsil müəssisəsinin gerçəkləşdirdiyi təhsil proqramının istiqamətindən asılıdır və bir qayda olaraq, hər növ öz fərqli adına malikdir. Məsələn, ənənəvi olaraq məktəb adlandırılan ümumtəhsil müəssisələri arasında gimnaziyalar meydana çıxmışdır: orta peşə təhsili verən təhsil müəssisələri arasında məktəblər, texnikumlar var, son vaxtlarda isə kolleclər yaradılmışdır. Ali məktəblər arasında universitetlər, konservatoriyalar, akademiyalar, institutlar və s. vardır.

Ekspertlərin qiymətləndirmələrinə görə, bütövlükdə perspektivdə postindustrial cəmiyyətə keçid tələb edilir ki, əhalinin azı 40-50 faizi ali təhsilli olsun. Ali məktəb əmək bazarının yüksək ixtisaslı mütəxəssislərə tələbatını və şəxsiyyətin təhsil tələbatını təmin edir. Rusiya təhsil sisteminə böhran vəziyyəti xasdır və səciyyəvi olan bəzi böhran əlamətlərini misal gətirək: son illər Rusiya ali məktəblərinə orta hesabla hər 100 qəbul yerinə 200-ə yaxın ərizə verilir. Təkcə Rusiyada yüksək müsabiqə nəticəsində 1,5 milyon abituriyent ali məktəblərdən kənarda qalır. Ali məktəblərin istiqamətləri üzrə yenidən hazırlığa 2 milyona qədər insanın, o cümlədən Silahlı Qüvvələrin sayının ixtisar edilməsi ilə bağlı olaraq ehtiyata buraxılmış 500 min hərbi qulluqçuya ehtiyac duyulur; hər 10-15 ildən bir informasiya həcminin ikiqat artdığı bir şəraitdə dərslik və müəllim qaçılmaz olaraq köhnəlmiş biliklərin təqdimatçısına çevrilir; ölkədə intellektual resurslara tələbat duyulmur. Ölkənin sosial-iqtisadi vəziyyəti bu sferanın dövlət tərəfindən maliyyələşdirilməsinin praktik olaraq yoxluğuna gətirib çıxarmışdır. Təkcə federal büdcədən maliyyələşdirmənin həcmi 1992-ci ildə Ümumi Daxili Məhsulun (ÜDM) 1,27 faizindən 1998-ci ildə 0,61 faizinə qədər ikiqat azaldılmışdır.

Müəllimlərin sayının, onların ixtisas dərəcələrinin, işinin nüfuzunun, və əmək haqlarının azalması müşahidə olunan professor-müəllim heyətinin orta yaşı 60-dır; elmi informasiyanın həcmi və surəti artmaqda davam edir, kitabxanalarda xarici və ölkə ədəbiyyatının ixtisarı baş verir; elmi tədqiqatlar və tələbələrin təlimi köhnəlmiş avadanlıqda (8-12 il geriqalma ilə) aparılır. Elmi mübadilələrin həcminin ixtisarı baş verir; ehtiyac içində olanların və zəiflərin əsas kütləsi fonunda rifah içərisində və çiçəklənən ali məktəblərin kiçik bir qrupu fərqlənir. Rusiya təhsil xidməti bazarına xarici təhsil müəssisələri gəlməkdədir. Vətəndaşların təhsilə bərabər çıxış hüquqlarını faktik olaraq itirməsi prosesi gedir. Təlim və tərbiyənin şərti çox vaxt valideynlərin və tələbələrin maddi imkanlarından asılıdır; təhsilli olmaq mənəvi-əxlaqi dəyər kimi, əsl ziyalılıq meyarı kimi lazımınca qiymətləndirilmir. Mənəviyyat sahəsində ifratçılıq baş alıb gedir.

Bu faktlara əsaslanaraq qeyd etmək olar ki, yaşlıların müasir ənənəvi təhsil sistemi güclü və yetərincə məhsuldar olsa da, dövlət, təhsil vəzifələrinin əsas hissəsinin,ələlxüsus da bütün ömür boyu daim yeniləşən peşə bilikləri

alınmasının öhdəsindən gələ bilmir. Bu sistem Konstitusiyada və "Təhsil haqqında" Qanunda göstərilən təhsil almaq hüququnu tam dərəcədə təmin etməli və humanizm prinsipinin bu hissəsini təmin etməlidir ki, heç kəs yoxsulluq, coğrafi və zaman təcridiliyi, sosial müdafiəsizlik və fiziki çatışmazlığı və ya istehsal və şəxsi işlərlə məşğulluğu üzündən təhsil müəssisələrinə getmək imkansızlığı səbəbincə oxumaq imkanından məhrum olmasın.

Təhsilin perspektiv sistemində XXI əsrin tələbləri üçün zəruri sayda ali təhsilli mütəxəssis ilə təmin olunan ali məktəbin xeyli genişləndirilməsinə xüsusi diqqət yetirilməlidir ki, ölkənin uğurlu texnoloji inkişafı üçün artıq müasir şəraitdə ali təhsilli mütəxəssislərin payı əhalinin ümumi sayının 20-25 faizini təşkil etsin. Bu tələb elmi-texniki tərəqqinin yeni nailiyyətlərini özündə cəmləşdirən çağdaş texnologiyaların yüksək səviyyəsi ilə bağlıdır. Yəni perspektiv təhsil sistemi öz prioritet hədəflərindən biri qismində adamlarda onların artıq başlanmış olan XXI əsr şəraitinə uğurla uyğunlaşmasına, yaşamasına və işləməsinə imkan verən keyfiyyətləri formalaşdırmağı nəzərdə tutmalıdır. XXI əsr insanının yiyələnməli olduğu bilik və bacarıqları müəyyən etmək deyil, həm də ilk növbədə bu adamların sürətlə dəyişən dünyaya uyğunlaşması, onun yeni imkanlarından istifadə etməsi və əvvəllər bəlli olmayan yeni problemləri həll edə bilmələrindən ötrü məhz hansı keyfiyyətlərə malik olduqlarını başa düşmək müstəsna dərəcədə mühümdür.

İstiqamətlərdən biri də distant təhsil metodlarından geniş istifadə və informasiya və telekommunikasiya texnologiyaları əsasında özünətəhsil hesabına təmin olunmadır.

Rusiya təhsil sisteminin inkişafının əsas rol oynayan təşkilati istiqaməti Avropa təhsil məkanının əldə rəhbər tutduğu Bolonya prosesinin müddəaları ilə sinxronlaşmasıdır.

Rusiya təhsili dünyada ən yaxşı təhsillərdən biri olub, lakin indiki dövrdə perspektivdə dünyanın qabaqcıl ölkələrindən geri qalmağa təminat verir. Təhsil sferasının resurs təminatını yaxşılaşdırmaqdan ötrü mümkün olan hər şey edilməlidir. Lakin resurslar hələ 300 il əvvəldən formalaşmış klassik sistemin konservasiyası üçün deyil, yeni informasiya sivilizasiyası şəraitində onun inkişafı və yeniləşməsi vəzifəsinin effektiv həlli üçün istifadə edilmiş olmalıdır.

İnformasiya proseslərinin intensivləşməsi şəraitində insanın və peşəkarın biliklərə əsaslanan, fasiləsiz təhsilə artan tələbatı yaradan, qlobal iqtisadiyyatda yeni bilik və səriştələri tez bir zamanda almasına ehtiyacın olduğu bir zaman başlanmışdır. Bütün ömür boyu təhsilin informasiyasını yaratmaq və yaymaq şəbəkədə kollektiv iş imkanları ilə, eləcə də ərazi baxımından pərakəndə olan kollektivlərdə (virtual təşkilatlarda) işləmək imkanları ilə təlimin mümkünlüyünü öyrətmək və təkmilləşdirməklə təmin edilir. Bütün bunlar birlikdə ömür boyu təhsilə yiyələnmək üçün şərait yaradır.

Rusiya təhsil sistemi, "Təhsil haqqında" Qanundan da göründüyü kimi, üç elementi özündə birləşdirir: təhsil proqramları və dövlət təhsil standart-

larının varisliyi; təhsil proqramları və dövlət təhsil standartlarını reallaşdıran təhsil müəssisələri; təhsili idarəetmə orqanları və onların tabeçiliyində olan idarələr və təşkilatları.

Rusiya təhsil sisteminin irəliyə doğru bundan sonrakı hərəkəti Bolonya prosesinin yerinə yetirilməsində altı prinsip ilə sinxronlaşacaqdır: iki pilləli təhsilin tətbiq edilməsi; kredit sisteminin tətbiqi; təhsilin keyfiyyətinə nəzarət; mobilliyin genişləndirilməsi; məzunların işə düzəlməsinin təmin edilməsi; Avropa təhsil sisteminin cəlbediciliyinin təmin edilməsi.

Əvvəlki sovet təhsil sistemi mərkəzləşdirilmiş qaydada tərtiblənən sərt tədris planları ilə fərqlənirdi. Bu planlar ona əsaslanırdı ki, şagirdlər dar ixtisaslaşdırılmış fənlərdə bilik əldə edirdilər. Elmə və mühəndislik işinə üstünlük verilirdi. Məktəbin və ya müəllimin pedaqoji təşəbbüslərinə, demək olar ki, yer ayrılmırdı. Bütün məktəblər üçün dövlətin rəhbərliyi altında işlənib hazırlanan ümumi tədris planı mövcud idi. Dərsliklər dövlətin nəzdində yaradılır və nəşr edilirdi, həm də pulsuz idi. Milli miqyasda təhsil standartlarının hər hansı strukturlaşdırılmış qiymətləndirmə sistemi yox idi. Təhsil tələbatları işçi qüvvəsinin paylanmasının mərkəzləşdirilmiş planlaşdırılması ilə müəyyən edilirdi.

Hazırda Rusiya cəmiyyəti yenidən qurulmaqdadır, öz dəyərlərinə və məqsədlərinə yeni gözlə baxır və bu dəyişikliklər təhsil sferasında da demokratikləşdirmə ilə nəticələnəcəkdir. Mülki təhsilin humanistləşdirilməsi, fərdiləşdirilməsi, yeni konsepsiyalar təhsil prosesində də öz yerini tapmışdır. Çox baxımdan bu, ümumtəhsil müəssisələri tiplərinin müxtəlifliyi və təhsil proqramlarının çoxvariantlılığı sayəsində baş verir ki, bu da Rusiyanın regional sistemlərində qeyri-dövlət ümumtəhsil müəssisələrinin inkişaf etmiş şəbəkəsi ilə birbaşa bağlıdır. Bütün bunlara baxmayaraq, Rusiyada bugünkü təhsil sistemi mərkəzləşdirilmişdir. İndiki zamanda Rusiya təhsil sistemi alman təhsil sisteminə çox oxşayır, lakin hər halda o daha sadələşdirilmiş şəkildə təqdim olunur:

1) Məktəbəqədər təhsil Almaniyada olduğu kimi, uşaqlara elementar (ibtidai) biliklər verir, lakin məktəb təhsilinin birinci pilləsinə bərabər tutulmur. Uşaqlar bağçaya 1/1,5 yaşlarından gedirlər və orada 6 yaşadək olurlar (eləcə də valideynlərin arzusu ilə könüllü olaraq).

2) İbtidai təhsil (ibtidai məktəb) tam 6 yaşdan başlayır və 4 il ərzində davam edir (təhsil sistemində son islahatların nəticələrinə görə). Almaniyadan fərqli olaraq ibtidai təhsili uşaqlar artıq gimnaziyalarda və liseylərdə ala bilər, belə ki Rusiyada bu tip tədris müəssisələri kompleks şəkildə 1-ci sinifdən 11-ci sinfə kimidir.

3) Natamam orta təhsil liseylərdə, gimnaziyalarda, ümumtəhsil məktəblərində 5 il ərzində davam edir. Bu tədris müəssisəsi tiplərindən hər birinin 9-cu sinfini bitirmək, ümumi orta təhsil haqqında attestat almaq hüququ verir.

4) Tam orta təhsil və ya istehsalat-texniki təhsil texnikumlara, kolleclərə və digər peşə təhsili müəssisələrinə qəbul olmaq hüququ verir. Məktəbin, liseyin və ya gimnaziyanın 10 və ya 11 sinfini bitirdikdən sonra məzunlar tam orta təhsil haqqında attestat alır və ali məktəbə qəbul olmaq haqqında tam hüquq əldə edir. Bu hüquq həm də hər hansı peşə müəssisəsini bitirmiş şəxslərə də şamil edilir ki, bu vəziyyət Almaniyada yetərli deyil.

5) Ali təhsil - mütəxəssis diplomu, bakalavr, magistr dərəcəsi və ya universitetdə, elmi-tədqiqat institutunda ixtisasını artırmaq, onu bitirdikdə elmlər namizədi (fəlsəfə doktoru), sonra isə - elmlər doktoru dərəcəsi almaq hüququ verir.

Təhsildə yeni islahatlara əsaslanaraq Rusiya məktəblərində təlim 6 yaşdan başlayır və 11 il davam edir. Bu tam təhsildir (11 sinif), əsas təhsil 9 il (9 sinif) təşkil edir. Rusiyada vahid təhsil sistemi mövcud olsa da, tədris planlarında məktəbdən məktəbə fərq var və ildən-ilə dəyişir, ona görə də əksəriyyəti dövlətin təhsil müəssisələrinin bir çoxu məktəbliləri lazımi ədəbiyyatla təmin edə bilmir.

İbtidai məktəbin birinci yarımilində qiymətləndirmə sistemi bildiyimiz qiymətləndirmə kimi mövcud olmur. Onun yerinə uşaqlara "ulduz" ("5"), kvadrat ("dörd"), üçbucaq ("3") işarəsi qoyulur, lakin çox vaxt şagirdlərin müvəffəqiyyət dərəcəsi yazılı şəkildə ("Yaxşı", "Afərin", "Ağıllısan" kimi tərifli sözlər formasında) göstərilir. İkinci yarımildən uşaqlar beşballıq şkala üzrə qiymət alırlar ("5" - ən yuxarı qiymət). Hər tədris ilinin sonunda şagirdlər müvəffəqiyyət dərəcələri barədə öz qiymət cədvəlini alır. Almaniyadan fərqli olaraq Rusiyada uşaqlar ibtidai məktəb təhsilləri sona çatdıqda sonrakı tədris müəssisəsinin tipini, ümumtəhsil məktəbi, gimnaziya və ya lisey olmaqla seçə bilir.

Rusiyada ümumi orta təhsil özündə ibtidai məktəbi, ümumi orta məktəbin 5 sinfini və orta məktəbin 2 yuxarı sinfini birləşdirir. Beləliklə, 10 yaşdan etibarən, yəni ibtidai məktəbdən sonra uşaqlar orta məktəbin aşağı pilləsinə keçir, burada tədris prosesi 5 il davam edir. Onlar bu pillləni təhsil haqqında qanuna uyğun olaraq 15 yaşında bitirir (yəni əsas məktəbin proqram kursunu başa vururlar) və natamam orta təhsil haqqında (ümumi təhsil haqqında) attestat alırlar. Sonra isə davam edərək onlar ya öz təhsillərini məktəbdə davam etdirir (yəni tam orta məktəb təhsili kursunu keçir) və onu bitirdikdə tam orta təhsil haqqında attestat alır, ya da ibtidai və ya orta peşə təhsili məktəbə daxil ola bilər.

Hazırda Moskvada icbari onbirillik təhsil tətbiq edilir, halbuki bu vaxta qədər RF-də 9-illik məktəb təhsili kursu icbari sayılırdı. 2009-2010-cu illərdən isə bütün Rusiya bütövlükdə 11-illik məktəb təhsilinə keçdilər.

Şagirdlər həftədə 6 gün birlikdə dərs keçir, diferensiallaşma yalnız əmək təlim dərslərində, eləcə də yuxarı siniflərdə bədən tərbiyəsi dərslərində aparılır. Həftədə dərs saatları 20-36 saat olur.

Son illərdə orta (təhsilin baza səviyyəsində) məktəblərin tipləri və növlərindəki müxtəliflik xeyli artmışdır. Bütün məktəblər baza proqramların mənimsənilməsinə görə cavabdehlik daşıyır, məzunun aldığı attestat Rusiyanın bütün regionlarında və MDB respublikalarında tanınır. Gimnaziyalara və liseylərə erkən ixtisaslaşma imkanı verilir. Qeyri-dövlət məktəb şagirdlərinin əksəriyyəti dövlət nümunəli attestat alır. Gimnaziyalar və liseylər də daxil olmaqla, hər növ ümumtəhsil tədris müəssisələrinə müsabiqəli daxilolma 1997-ci ildən sonra qüvvədədir.

Müasir tipli tədris müəssisələri arasında Rusiyada ən geniş yayılmış olanı ümumtəhsil məktəbləri, liseylər və gimnaziyalardır. Lisey, "Rusiya Federasiyasında 1990-cı illərdən başlayaraq orta tədris müəssisəsi tipindədir. "Lisey" adını müəyyən profil üzrə fənlərin dərindən öyrənildiyi bəzi orta tədris müəssisələri götürür".

Gimnaziya ilə ümumi cizgilərə malik olmasına baxmayaraq, liseylərə eyni zamanda ciddi yanaşdıqda onlardan ona görə fərqlənir ki, ali məktəblərlə qarşılıqlı əlaqədədir və hazırkı vaxtda şəxsiyyətin fərdi inkişafına yönəlmiş təlim əlamətləri kəsb edir. Məsələn, lisey təhsili ilk öncə fizika-riyaziyyat təmayüllü məktəblərdə inkişaf edir, onların fəaliyyətinə universitetlər və texniki ali məktəblər rəvac verir.

Rusiya liseylərində təhsil 1-ci sinifdən 11-ci sinfədək davam edir, yəni bütün 10 il ərzində şagirdlər bir təhsil müəssisəsi çərçivəsində təhsil ala bilir. Eynilə, bu tip alman məktəblərində liseylərin profilləri (humanitar, təbiət elmi, riyaziyyat) blok fənlərinə üstünlük verirlər.

1990-cı ilin əvvəllərindən Rusiyada ali təhsil sisteminin inkişafını nəzərdən keçirək. RF Dövlət Statistika Komitəsinin 2002-ci ildə keçirilmiş Ümumrüsiya əhali sayının nəticələrinə əsaslanan məlumatına görə, Rusiyada 15 və ondan yuxarı yaş həddində olan 109,4 milyona yaxın adam əsas ümumi və ali təhsilə malikdir ki, bu da həmin yaş qrupunda 90,2% təşkil edir. 1989-cu illə müqayisədə göstərilən təhsil səviyyəsinə malik şəxslərin sayı 18,3 milyon nəfər və ya 20% artmışdır. Eyni zamanda, 15 və ondan yuxarı yaşdakı əhali qrupundan 71,4 milyon nəfəri (59%) peşə təhsilinə (ali, orta və ibtidai) malikdir.

Ümumilikdə, 1989-cu ildən 2002-ci ilə qədər ali təhsilli mütəxəssislərin sayı 6,6 milyon nəfər (52%), orta peşə təhsilli - 11,2 milyon nəfər (52%), ibtidai peşə təhsilli - 0,7 milyon nəfər (5%) artmışdır. Ali məktəbdən sonrakı təhsilə malik şəxslərin (doktorantura, ordinaturanı bitirmiş olanların) sayı siyahıya almanın nəticələrinə görə 4000 nəfər təşkil etmişdir. Bundan başqa, orta təhsilə malik şəxslərin sayı 5% (1 milyon) artmışdır.

Bütün bunlardan başqa, kəmiyyət xarakteristikalarına görə gənclər arasında təhsil səviyyəsində artım müşahidə edilir. Məsələn, Dövlət Statistika Komitəsinin məlumatına görə 1989-2002-ci illər ərzində ali təhsilli 7,1 miyon mütəxəssis və orta peşə təhsilli 8,3 miyon mütəxəssis hazırlanmış və buraxılmışdır. Eyni zamanda, 16-29 yaşlı ali təhsilli gənclərin sayı 1989-cu illə

müqayisədə 42,5%, orta peşə təhsili gənclərin sayı 7,7% artmışdır. Bu yaş həddində hər 1000 nəfərə ali təhsilli 112 nəfər (1989-cu ildə - 84 nəfər) və orta peşə təhsilli 225 nəfər (1989-cü ildə - 223 nəfər) düşür. Eyni zamanda, yalnız ibtidai ümumi təhsilə malik 16-29 yaşlı oğlanların və qızların sayı yuxarıda göstərilən 4 il ərzində 2,1 dəfə artmış və 0,5 milyon nəfər təşkil etmişdir. 2002-ci tədris ilinin əvvəlində ölkədə tələbələrin sayı 1990-cı illə müqayisədə 2,1 dəfə artmış və 5,95 milyon nəfər təşkil etmişdir. Bununla bərabər, ali təhsil müəssisələrinin sayında bənzər artım tendensiyası (2 dəfə) müşahidə edilmişdir. 2003-cü ildə 1039 ali məktəb var idi, eyni zamanda ali məktəblərin say artımının daha yüksək tempi 1997-ci ilə qədər müşahidə edilirdisə (orta artım tempi - ildə 8,1%), tələbələrə münasibətdə mənzərə bunun əksini göstərir (12,3). Professor-müəllim heyətinin say artımı da müşahidə edilir. Onların sayı 1990-cı ildən 2002-ci ilə qədər 54,6%, yəni 339,6 min nəfərə qədər artmışdır. Eyni zamanda tələbə-müəllimlərin say nisbəti üzrə də davamlı artım müşahidə edilməkdə idi. Məsələn, 2002-2003-cü il tədris ilinin əvvəllində 1 müəllimə ölkə üzrə orta hesabla 18 tələbə düşürdü ki, bu da 90-cı illərin əvvəlləri ilə müqayisədə 36%-dan çoxdur.

Rusiyada orta təhsil ciddi maliyyə çatışmazlıqları ilə üzləşir. Məsələn, ekspertlərin qiymətləndirmələrinə görə Rusiyada təhsil sferasının maliyyələşdirilmə həcmi ÜDM-nin 4% qədər təşkil edir, bu halda orta məktəbin bir şagirdinə adambaşına ÜDM 9,3%-dir. Müqayisə edilə bilən inkişaf səviyyəsinə malik ölkələrdə bir şagirdə çəkilən xərclər adambaşına ÜDM-nin 20-25%-ni təşkil edir. Qeyd etmək lazımdır ki, kəmiyyət qiymətləndirmələri ilə yanaşı, təhsil sisteminin keyfiyyət qiymətləndirməsini də diqqətə almaq lazımdır. Məsələn, şagirdlərin aldıqları bilik və bacarıqların səviyyəsini və bu bilik və bacarıqlara hazırkı vaxtda iqtisadiyyatda nə dərəcədə tələbat duyulduğunu qiymətləndirmək lazımdır. Bununla bağlı olaraq, müxtəlif təhsilli şəxslərin hansı dərəcədə tezliklə işə düzəldikləri və səmərəli işlədikləri haqqındakı məsələ mühüm məsələlərdən biridir.

Təhsil islahatının keyfiyyətini köklü şəkildə yaxşılaşdırmaq aspektində, məhz Rusiya ali məktəblərində kimin necə tədris etdiyi, real həyatda bunun nə dərəcədə tətbiq edilən olduğu və müasir zamanın gerçəkliklərinə nə dərəcədə uyğun gəldiyi aspektində axtarmaq lazımdır. Yəni Rusiyada təhsilin keyfiyyəti yüksək səviyyədə tərifə layiqdirsə, onda nə üçün vətəndaşlar öz uşaqlarını oxumaq üçün xaricə göndərirlər? Rusiya təhsil sistemində islahatlar aşağıdakı tədbirlərin yerinə yetirilməsini qarşıya qoyur:

1. Maaşların kəskin artımı və müəllimlərə tələblərin sərtləşdirilməsi. Müəllim heyətinin ciddi şəkildə yenidən attestasiyadan keçirilməsi, nəticədə onların 10-20%-i müəllimlik hüququndan məhrum edilməsi. İqtisadiyyatın real sahələrindən tədris üçün mütəxəssislərin cəlb edilməsi;
2. Müəllim və professor-müəllim mühitində korrupsiya ilə mübarizə;

3. Təhsilin maddi bazasına investisiyalar (binalar, idman qurğuları, kompyuter avadanlığı və s.) qoymaq;

4. İxtisaslaşmanı, dərsliklərin peşəkar mütəxəssislər tərəfindən qiymətləndirilməsi, xarici dillərin tədris sistemində köklü islahatları;

5. Məktəb haqqında danışarkən heç kəsin ağlına gəlmir ki, xarici ölkələrin ən nüfuzlu məktəblərində nə üçün həmişə məktəbli forması mövcud olmuşdur?

A.A.Ovsyannikov demişdir: "Rusiya gənclərin hazırlanmasında uduzur və onun ən yaxşı şagirdlərinin geniş dünyagörüşü bunu kompensasiya etmir. Zəif məktəb zəif dövlət deməkdir".

**Moskva Universitetinin tarixi.** Moskva Universiteti haqlı olaraq Rusiyanın ən qocaman universiteti sayılır. Onun əsası 1755-ci ildə qoyulmuşdur. Moskvada universitet təsis edilməsi birinci rus akademiki Mixail Vasilyeviç Lomonosovun (1711-1765) fəaliyyəti sayəsində mümkün olmuşdur.

A.S.Puşkin XVIII yüzillikdə rus və dünya elminin titanı haqqında ədalətli olaraq yazmışdı: "Qeyri-adi iradə qüvvəsini qeyri-adi anlayış qüvvəsilə birləşdirməklə, Lomonosov maarifin bütün sahələrini ağuşuna almışdı. Elmlərə qızğın həvəs bütün ruhunun ən güclü ehtirası idi. Tarixçi, mexanik, kimyaçı, rəssam və şair bunların hamısını sınaqdan çıxarmış və hamısına nəsib olmuşdu...". M.V.Lomonosovun fəaliyyətində dünya elmi biliklərinin ön sıralarına çıxan rus elminin bütün qüdrəti, gözəlliyi və həyat qabiliyyəti I Pyotrun islahatlarından sonra dünyanın aparıcı ölkələrindən geriliyi xeyli azaltmış və onların sırasına daxil olmağı bacarmış olan bir ölkənin uğurları öz əksini tapmışdı. M.V.Lomonosov Rusiyada ali təhsil sisteminin yaradılmasına çox böyük diqqət verirdi. Hələ 1724-cü ildə I Pyotr tərəfindən əsası qoyulmuş Peterburq Elmlər Akademiyası yanında Rusiyada elmi kadrların hazırlanması üçün universitet və gimnaziya təsis edilmişdi. Lakin universitet və gimnaziya bu vəzifənin öhdəsindən gələ bilməmişdi. Ona görə də M.V.Lomonosov dəfələrlə Moskvada universitet açılması barədə məsələ qoymuşdu. Onun İ.İ.Şuvalova məktubunda ifadə etdiyi təklifləri Moskva Universiteti layihəsinin təməlində dayanırdı. İmperator Yelizaveta Petrovnanın favoriti olan İ.İ.Şuvalov rus elminin və mədəniyyətinin inkişafını himayə edir, M.V.Lomonosova bir çox təşəbbüslərində yardım göstərirdi.

İ.İ.Şuvalov tərəfindən təqdim olunmuş yeni təhsil müəssisəsi layihəsi ilə tanış olduqdan sonra Yelizaveta Petrovna 12 yanvar 1755-ci ildə (pravoslav kilsə təqvimi ilə Müqəddəs Tatyana günündə) Moskva Universitetinin əsasının qoyulması haqqında fərman verdi. O zamandan sonra həmin gün universitetdə ənənəvi tələbə bayramları ilə qeyd olunur, hər il həmin günlərdə "Lomonosov qiraətləri" elmi konfransları və tələbə elmi yaradıcılığı günləri keçirilir.

M.V.Lomonosovun planına uyğun olaraq, Moskva Universitetində 3 fakültə: fəlsəfə, hüquq və tibb fakültələri yaradılmışdı. Bütün tələbələr öz

təhsillərinə fəlsəfə fakültələrində başlayır, təbiət və humanitar elmləri üzrə fundamental hazırlıq keçirdilər. Hüquq, tibb və ya həmin fəlsəfə fakültəsində ixtisaslaşmaqla təhsili davam etdirmək olardı. Avropa universitetlərindən fərqli olaraq Moskva Universitetində ilahiyyət fakültəsi yox idi, bu da Rusiyada pravoslav kilsəsi xidmətçilərinin hazırlanması üçün xüsusi təhsil sisteminin mövcudluğu ilə izah edilirdi. Professorlar öz mühazirələrini təkcə o zaman qəbul edilmiş latın dilində və həm də rus dilində oxuyurdular.

Moskva Universiteti tələbələrin və professorların heyəti ilə fərqlənirdi. Bu bir çox baxımdan tələbə və müəllimlər arasında yüksək elmi və ictimai ideyaların geniş yayılmasını müəyyən edirdi. Moskvada universitet təsis olunması haqqında fərmanın preambulasında qeyd olunurdu ki, bu müəssisə raznoçinlərin hərtərəfli təhsil alması üçündür. Təhkimli kəndlilər istisna olmaqla, bütün təbəqələrdə olanlar universitetə daxil ola bilər. Universitetdə o tələbə hörmətli sayılırdı ki, o, böyük bilik əldə edirdi, kimin oğlu olduğu isə maraqlı deyildir. XVIII əsrin ikinci yarısında tədris işlərini aparan 26 rus professorundan yalnız üçü əsilzadə (dvoryan) mənşəli idi. Raznoçinlər XVIII əsrdə də tələbələrin çoxluğunu təşkil edirdi. Təhsilini davam etdirmək üçün daha qabiliyyətli tələbələri xarici universitetlərə göndərirdilər, bununla da dünya elmi ilə əlaqələri möhkəmləndirirdilər.

Dövlət, universitetlərin tələbatını yalnız qismən ödəyə bilirdi, üstəlik də başlanğıcda tələbələrdən təhsil haqqı götürülmürdü və imkansız tələbələr təhsil haqqından azad olunmuşdu. Universitet rəhbərliyi hətta kommersiya fəaliyyətini istisna etməyərək, əlavə gəlir mənbəyi axtarmalı olurdu. Mesenatlar (Demidovlar, Stroqanovlar, Y.R.Daşkova və başqaları) böyük maddi yardım göstərirdilər. Onlar cihazları, kolleksiyaları, elmi kitabları pulla əldə edir və universitetlərə verirdilər, tələbələr üçün təqaüdlər təsis edirdilər. Məzunlar da öz himayədarlarını yaddan çıxarmırdılar. Universitet üçün ağır vaxtlarda onlar dəfələrlə belə vəsait toplamışdılar. Qərarlaşmış ənənəyə uyğun olaraq professorlar öz şəxsi kitablarını universitet kitabxanasına bağışlayırdılar. Onların arasında, İ.M.Snegirev, P.Y.Petrov, Q.N.Qranovski, S.M.Solovyov, F.İ.Buslayev, N.K.Qudziy, İ.Q.Petrovskinin çox zəngin kolleksiyaları vardı.

Moskva Universiteti elmi biliklərin yayılmasında və məşhurlaşmasında çox böyük rol oynadı. 1756-cı ilin aprelində Moskva Universiteti nəzdində Moxovaya küçəsində mətbəə və kitab dükanı açılmışdı. Bununla da ölkədə kitab nəşrinin təməli qoyulmuşdu. Elə həmin vaxtlar üniversitet ölkədə ilk qeyri-hökumət "Moskovskiye vedomosti" qəzetinin, 1960-cı ilin yanvarından isə - Moskvada ilk "Poleznoye uveseleniye" ədəbi jurnalının nəşrinə başlamışdı. 1779-cu ildən 1789-cu ilə qədər on il müddətində mətbəəyə universitet gimnaziyasının yetirməsi, görkəmli rus maarifçisi N.İ.Novikov başçılıq etmişdi.

Universitetin yaradılmasından bir il sonra universitet kitabxanası ilk oxucularını qəbul etdi. Universitet 100 ildən çox Moskvada hamının üzünə açıq olan yeganə kitabxana funksiyasını yerinə yetirmişdi.

Moskva Universitetinin fəaliyyəti onun bazasında Kazan gimnaziyası (1804-cü ildən - Kazan Universiteti), Peterburq Rəssamlıq Akademiyası (1764-cü ilə qədər - Moskva Universitetinin idarəsində), Malı Teatrı və s. kimi ölkə mədəniyyətinin iri mərkəzlərinin yaradılmasına rəvac vermişdi.

1804-cü ildə Universitet Nizamnaməsi qəbul edildi. Universitetə bir zox muxtariyyət verilirdi, rektor və fakültə dekanları professorlar sırasından seçilirdi. İlk seçkili rektor tarix-filologiya üzrə professor X.A.Çebotaryov oldu. Professorlar şurası universitet həyatının bütün məsələlərini həll edir, elmi dərəcələr verirdi. Şuranın razılığı ilə universitet mətbəəsində çap edilən kitablar ümumi senzuradan azad idi. Tələbələr dörd fakültədə (o vaxtlar bölmələr adlanırdı): ictimai və siyasi elmlər, fizika və riyaziyyat elmləri, tibb elmləri, ədəbiyyat və dilçilik elmləri fakültələrində oxuyurdular. Təhsilin müddəti 3 il idi. Buraxılış imtahanlarından sonra universiteti bitirənlərdən ən yaxşılarına fəlsəfə doktoru dərəcəsi, qalanlarına həqiqi tələbə dərəcəsi verilirdi. Təhsilin müxtəlif pillələrinin varisliyi gücləndirilirdi. 1804-cü il nizamnaməsinə görə universitet Rusiya mərkəzi quberniyalarının orta və ibtidai tədris müəssisələrinə ümumi rəhbərliyi həyata keçirirdi.

Napoleon ordusunun 1812-ci ildə Rusiyaya müdaxiləsi universitet tələbələri arasında vətənsevərlik duyğularının yüksəlişinə səbəb oldu. Bir çoxları xalq qoşunu sıralarına daxil oldu, universitet həkimlərinin əməyi isə M.İ.Kutuzov tərəfindən xüsusi olaraq qeyd edilmişdi. Napoleon əsgərlərinin Moskvada olduqları müddətdə universitet binası tamamilə yanıb kül oldu. Kitabxana, arxiv, muzey, elmi avadanlıqlar məhv oldu. Universitetin bərpası bütün rus cəmiyyətinin işinə çevrildi. Elmi idarələr, alimlər, ayrı-ayrı şəxslər universitetə pul, kitab, qədim əlyazmalar, təbiətşünaslıq elminə dair kolleksiyalar, cihazlar verirdilər.

Təkcə universitet kitabxanası üçün 1815-ci ilə qədər 7,5 min kitab toplamaq mümkün olmuşdu. Universitetin düşdüyü ağır vəziyyətə baxmayaraq, professorlar və tələbələr artıq 1813-cü il sentyabrın 1-də məşğələlərə başlamışdılar. XIX əsrin 20-ci illərində tələbələrin sayı 500-ü keçmişdi.

XIX əsrin birinci yarısında Moskva Universiteti Rusiyanın ictimai həyatında aparıcı yer tuturdu. Dekabrist təşkilatlarının bir çox üzvləri onun yetirmələri idi. Fikir azadlığı ənənələrini Kritski qardaşlarının, N.P.Sunqurovun, V.Q.Belinskinin, A.İ.Gertsen və N.P.Oqaryovun, N.V.Stankeviçin tələbə dərnəkləri davam etdirilirdi. Universitet auditoriyalarında Rusiyanın inkişaf yolu haqqında qərbçilər və slavyanpərəstlər arasında qızğın mübahisələr gedirdi. Qərbçilərin başçısı, parlaq tarixçi alim T.N.Qranovskinin açıq mühazirə kursları və disputları 1840-cı illərin bütün Moskva ziyalılarını bir yerə cəm etmişdir.

Universitetin nəşriyyatı təkcə elmi əsərləri nəşr etməklə kifayətlənmirdi. A.Mitskeviçin "Sonetlər"i, İ.S.Turgenevin "Ovçunun qeydləri" ilk dəfə universitet mətbəəsində işıq üzü görmüşdü.

Universitetin həyatında yeni mərhələ 1861-ci ildə təhkimçilik hüququnun süqutu və Rusiyanın kapitalizm yoluna ayaq basması ilə başlandı. 1863-cü ilin universitet nizamnaməsi ölkənin inkişafı üçün islahatların aparılması kursunu əks etdirirdi. Sənayenin, ticarətin, kənd təsərrüfatının yüksəlişi, idarəetmə, məhkəmə, ordu sferasındakı dəyişikliklər universitet təhsilinin səviyyəsini yüksəltməyi və genişləndirməyi tələb edirdi. 1863-cü il nizamnaməsinə əsasən, tədris fənlərinin və müəllimlərin sayı artırıldı. Praktik və laboratoriya məşğələlərinin, seminarların təşkilinə böyük diqqət yetirilirdi. Rektorların və dekanların seçkili olması (Nikolayın çarlığı dövründə faktik olaraq məhv edilmişdir) qaydası bərpa edildi. Universitetin dörd fakültəsində: tarix-filologiya, fizika-riyaziyyat, hüquq və tibb fakültələrində 1500-ə yaxın tələbə oxuyurdu. Onların əksəriyyəti raznoçinlərdən idi.

İnqilaba qədərki Rusiyada Moskva Universitetinin professorları nəzəriyyə və praktikanın əlaqəsini möhkəmlətmək üçün çox iş görmüşdülər. Universitet alimləri məktəblər üçün dərsliklər yazırdılar. Universitet tələbələrinin bir çoxu müəllim işləyir, bununla əslində rus müəllimlər ordusunun ən ixtisaslı qismini təmsil edirdilər.

Universitetin təşəbbüsü və yardımı ilə XIX əsrin ikinci yarısı, XX əsrin başlanğıcında məşhur Moskva muzeyləri: Politexnik, Tarix, Zoologiya, Antropologiya, İncəsənət (indiki A.S.Puşkin ad. Təsviri İncəsənət Muzeyi) muzeyləri yarandı; Botanika bağı və Zoologiya bağı (Moskva zooparkı) açıldı.

Ölkənin təhsil və elminin inkişafı üçün böyük imkanlar açan 1863-cü il nizamnaməsi yalnız 1884-cü ilə qədər varlığını qoruyub saxladı. Çar II Aleksandrın 1880-ci ildə "Xalqın iradəsi" ("Narodnaya volya") təşkilatının üzvüləri tərəfindən öldürülməsindən sonra uniersitetin muxtariyyətinə qarşı hücumlar başladı, tədris üzərində nəzarət gücləndi. Bununla belə, universitet özünün qabaqcıl elmi işlərini mənəvi həyatının mərkəzlərindən biri kimi qoruyub saxlaya bildi. XIX əsrin sonları, XX əsrin başlanğıcının görkəmli rus mütəfəkkirlərinin: V.S.Solovyovun, V.V.Rozanovun, S.N.Trubetskoylun, S.N.Bulqakovun, P.A.Florenskinin adları universitet ilə bağlıdır. Tələbələr və professorlar Rusiya gerçəkliyinin ən ağrılı problemlərinə dair öz sözlərini deyirdilər. Rusiyanın aparıcı siyasi partiyalarının tanınmış xadimləri universitetdə oxuyur və ya dərs deyirdilər.

Moskva Universitetinin tələbələri 1905-1907-ci illərdəki inqilabda azadlıq uğrunda çarpışanların ilk sıralarında idilər. 1905-ci ilin 9 sentyabr toplantısında qəbul edilmiş qətnamədə mütləqiyyətin devrilməsi və Rusiyanın demokratik respublikaya çevrilməsi tələb olunurdu.

Birinci Dünya müharibəsi dövründə inqilabi hərəkatın yüksəlişi Moskva Universitetindən də yan keçmədi. 1911-ci ildə bir sıra professorların işdən

qanunsuz olaraq azad edildiklərinə və universitet muxtariyyətinin pozulmasına etiraz əlaməti olaraq 150-dən çox professor və müəllim onun divarlarını tərk etdilər. Onların arasında dünya şöhrətli alimlər: K.A.Timiryazev, N.N.Lebedev, N.D.Zelinski, N.A.Umov, S.A.Çaplıgin, V.İ.Vernadski, V.İ.Piçet və başqaları vardı. Hökumət mindən çox tələbənin universitetdən xaric edilməsi, inqilabda iştirak edən tələbələrin həbs olunmaları və Moskvadan sürgün edilmələri ilə cavab verdi. 1914-cü ildə Birinci Dünya müharibəsinin başlanması tələbələrin sayını kəskin surətdə azaltdı.

Rusiya üzərində asılıb qalmış olan 1917-ci il inqilab fırtınası ali məktəblərin həyatında müxtəlif izlər buraxdı. Onun demokratikləşməsi baş verdi, təhsil haqqı ləğv edildi və tələbələr dövlət təqaüdləri ilə təmin edildilər. 1919-cu ildə Universitet tamamilə dövlət maliyyələşdirməsinə keçirildi. Fəhlə və kəndli ailələrindən olan, ali məktəbə daxil olmaq istəyənlər üçün universitet nəzdində 1919-cu ildən etibarən hazırlıq fakültəsi fəaliyyətə başladı (MDU-nun tərkibində 1936-cı ilə qədər qalırdı). Müharibədən sonrakı ilk onillikdə universitetdə bütün dünyada tanınan alimlər: D.N.Anuçin, N.Y.Jukovski, N.D.Zelinski, A.N.Severtsov, K.A.Timiryazev, S.A.Çaplıgin və başqaları fəaliyyətlərini davam etdirirdilər.

İnqilab zamanı cəmiyyətdəki parçalanma universitet həyatına ağır iz buraxdı. Yeni siyasi qayda və qanunları qəbul etməyən tələbələrin və tanınmış alimlərin bir qismi Moskva Universitetini tərk etməyə məcbur oldu. Mütəxəssis hazırlığını kəmiyyət etibarilə artırmaq üçün 1920-1930-cu illərdə başlanan yenidən təşkilatlandırma da müəyyən zərər vurdu. Tibb, sovet hüququ və kimya fakültələri universitetdən çıxarıldı və onların bazasında müstəqil ali məktəblər yaradıldı. Təbiət elmləri fakültəsindəki geologiya, mineralogiya və coğrafiya bölmələri də ali məktəblərə çevrildilər. Humanitar fakültələrin əsasında 1931-ci ildə Fəlsəfə, Ədəbiyyat və Tarix İnstitutu açıldı, lakin 10 il keçəndən sonra yenidən MDU-ya birləşdirildi. Tədris prosesinin təşkilində də əyintilərə yol verilmişdi: təlimdə mühazirələri ləğv edən, materialın işlənməsini 3-5 nəfərlik tələbə briqadalarının öz ixtiyarına verən "briqada-laboratoriya metodu" tətbiq olunmuş, fərdi imtahanlar briqadaların kollektiv hesabatları ilə əvəz olunmuşdu, lakin universitetin həyatında bu dövr çox davam etmədi. 1932-ci ildə "briqada-laboratoriya metodu" ləğv edildi, yeni tədris proqramları tətbiq olundu, ali məktəbdə iş rejimi dəyişdirildi. 1934-cü ildə universitetdə sovet hakimiyyəti illərində ilk dəfə elmlər namizədi (fəlsəfə doktoru) dissertasiyası müdafiə olundu.

İctimai həyatda 1930-1950-ci illərdə baş vermiş faciəli hadisələr də universitetdən yan keçmədi. Hakimiyyət tərəfindən ideoloji və inzibati diktatura yaradıcılıq azadlığına maneçilik törədirdi. Xarici elmi mərkəzlərlə təmaslar məhdudlaşdırıldı. Bir çox müəllimlər əsaslandırılmamış repressiyalara məruz qaldı və ictimai elmlərdə, filologiyada, kibernetikada, biologiyada elmi istiqamətlərdən imtina olundu.

Bu ağır itkilərə baxmayaraq, universitet elmi bütövlükdə 1920-1930-cu illərdə xeyli nəticələr əldə etmişdi. 1941-ci ildə təkcə əyani bölmədə 5 minə yaxın tələbə oxuyurdu. 30-dan çox professor və elmi əməkdaş SSRİ EA həqiqi üzvləri olmuşdur. Universitet alimləri ali və orta məktəblər üçün dərsliklər işləyib hazırlayırdılar. 1940-cı ildə özünün 185 illik yubileyini bayram edərkən universitetə M.V.Lomonosovun adı verildi.

1941-1945-ci illər Böyük Vətən müharibəsi ölkə üçün ağır sınaq oldu. 25 iyun 1941-ci ildə MDU tələbələri və əməkdaşlarının ilk qrupu Qızıl Ordunun komandir və siyasi rəhbər heyətini tamamlamaq üçün cəbhəyə getmişdir. MDU könüllülərindən 8-ci (Qırmızı bayraqlı) xalq qoşunu diviziyası təşkil olundu. Bu diviziya Moskvanın müdafiəsində qəhrəmancasına vuruşdu.

1941-ci ilin oktyabrından universitet əvvəlcə Aşqabadda, 1942-ci ilin yayından isə Sverdlovskda fəaliyyətdə idi. 1942-ci ilin fevralında alman-faşist qoşunlarının Moskva altında darmadağın edilməsindən sonra universitet bərpa olunmuşdu.

Müharibə illərində universitet 5 mindən çox məzun buraxdı. MDU alimləri öz elmi nailiyyətləri ilə ölkənin müdafiəsi işinə, onun iqtisadiyyatının inkişafına böyük töhfə verdilər. Dörd il çəkən müharibə dövründə MDU-da 3 mindən çox elmi layihə icra olundu. Onların sırasında təyyarəqayırma, dəniz gəmilərinin idarə olunmasının təkmilləşdirilməsi, top atəşlərinin dəqiqliyi nəzəriyyəsinin əsaslandırılması, bütün ölkə üçün dəqiq vaxt siqnallarının təmin edilməsi, partlayıcı maddələrin ixtirasını göstərmək olar. Tibbi praktikaya trombin, qan dövranını sürətləndirən preparat daxil edildi, uranın tədqiqi üzrə işlərə başlanıldı; geoloqlar Orta Asiyada iri volfram yataqları aşkar etdilər, coğrafiyaşünaslar Qızıl Ordunu kartoqrafik materiallarla təmin edirdilər və s.. Ordunun və xalqın mənəvi ruhunun möhkəmləndirilməsinə, faşizmin cinayətkar mahiyyətinin ifşasına, vətənpərvərlik ideyallarının təbliğinə humanitar fakültələrin alimləri böyük töhfələr vermişdilər. Faşist cinayətkarlarını mühakimə etmiş Nürnberq və Tokio hərbi tribunallarının sənədlərində MDU hüquqşünaslarının elmi nəticələri, məsələn, sabiq faşist başçılarının fərdi cinayət məsuliyyəti haqqında elmi nəticələr öz əksini tapmışdı.

Ümumilikdə, müharibə cəbhələrində universitet yetirmələrindən 5 min nəfərdən çoxu iştirak etmişdir, mindən çox adam SSRİ və antihitler koalisiyası ölkələrinin orden və medalları ilə təltif olunmuşdu, 7 nəfəri isə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü.

Üç mindən çox tələbə, aspirant (doktorant), professor, müəllim və MDU əməkdaşı müharibədən qayıtmadı. Onların şərəfinə 1975-ci ildə I tədris korpusunun yanında xatirə memorialı açılmış və Əbədi Şöhrət alovu yandırılmışdır.

Ölkənin müharibədən sonrakı bərpası və inkişafını davam etdirməsi universitet təhsilinin yeni yüksəlişi olmadan mümkün deyildi. 1940-cı illərin sonları, 1950-ci illərin əvvəllərində Moskva Universitetinin maddi vəziyyəti

xeyli yaxşılaşdırıldı. Lenin dağlarında (Vorobyov təpələri) yeni universitet binalarının nəhəng kompleksi ucaldıldı. 1 sentyabr 1953-cü ildə onlarda tədris məşğələlərinə başlanıldı.

Maddi texniki bazanın möhkəmləndirilməsi, ölkədə demokratik siyasi şəraitin demokratikləşdirilməsinə dair 1950-ci illərin ortalarında görülmüş tədbirlər, xarici dövlətlərlə əlaqələrin genişləndirilməsi universitetdə aparılan elmi tədqiqatların spektrini xeyli genişləndirməyə imkan vermişdi. Çoxsaylı ixtisaslaşdırılmış laboratoriyalar, o cümlədən fakültələrarası laboratoriyalar yaradılır, güclü Elmi-Tədqiqat Hesablama Mərkəzi təşkil edilmişdir. MDU-nun tərkibində yeni institut və fakültələr: Şərq Dilləri İnstitutu (1972-ci ildən MDU yanında Asiya və Afrika Ölkələri İnstitutu), psixologiya fakültəsi, hesablama riyaziyyatı və kibernetika fakültəsi, ölkədə ilk olaraq torpaqşünaslıq fakültəsi yarandı. Əyani şöbə tələbələrinin ümumi sayı 1953-cü ildə 13 mindən 2001-ci ildə 31 minə çatdı.

Moskva Universiteti tələbə və aspirant (doktorant) hazırlığının iri beynəlxalq mərkəzinə çevrilmişdir. Əcnəbi vətəndaşların rus dilini öyrənmələri üçün 1959-cu ildə universitetdə ilk olaraq belə bir profilli hazırlıq fakültəsi (hazırda Beynəlxalq Təhsil Mərkəzi) yaradılmışdır.

1917-ci ildən bu günə qədər Moskva Universiteti xalq təsərüfatı, mədəniyyət və maarif üçün ümumilikdə 200 minə yaxın mütəxəssis və 35 mindən çox elmlər namizədi (fəlsəfə doktoru) hazırlamışdır.

Hazırda Moskva Universiteti ölkədə maarif, elm və mədəniyyətin iri mərkəzlərindən biridir. Ali təhsilli mütəxəssislərin biliklərinin yüksəldilməsi, elmi tədqiqatları, ədalət və azadlıq idealları, ən yaxşı universitet ənənələri bu gün Moskva Universitetində davam etdirilir.

2008-ci ilin sentyabrında Rusiya Federasiyası prezidentinin universitetin akademik müstəqilliyini, təhsil standartları və proqramlarını özlərinin müəyyən etməsi hüququnu təsbit edən fərmanı çıxdı.

19 mart 2007-ci ildə elmi-pedaqoji işçilərin, MDU işçilərinin digər kateqoriyalarının və tələbələrin təmsilçilərinin Konfransı tərəfindən M.İ.Lomonosov adına Moskva Dövlət Universitetinin 28 mart 2008-ci il tarixli 223 saylı qərarı ilə təsdiqlənmiş nizamnaməsi qəbul olunmuşdur. MDU-nun yeni nizamnaməsi Rusiya Federasiyasının qüvvədə olan qanunvericiliyinin, eləcə də son illərdə qəbul edilmiş normativ-hüquqi aktların tələblərinə uyğunlaşdırılmışdır. Nizamnamə RF-in Mülki, Büdcə, Vergi məcəllələrinin, "Ali və ali məktəbdən sonrakı professional təhsil haqqında" RF Federal Qanununun, "Federal dövlət idarələrinin yaradılması, yenidən təşkili və ləğvi haqqında" RF Hökumətinin Qərarının, Rusiya Federasiyası ali peşə təhsili (ali təhsil müəssisəsi) müəssisəsi haqqında birtipli Əsasnamənin tələblərinə tamamilə uyğundur.

MDU-nun yeni Nizamnaməsi 2 noyabr 1998-ci il tarixdə işlənib hazırlanmış və Moskva Universiteti üçün həmin Nizamnamə ilə nəzərdə tutulmuş

bütün hüquq və azadlıqlar təsbit olunur. Buraya yeni bir müddəa daxil edilmişdir ki, Rusiya Federasiyası adından universitet təsisçisi səlahiyyəti Rusiya Federasiyası Hökuməti tərəfindən həyata keçirilir

Nizamnamədə göstərilmişdir ki, "Rusiya Federasiyası Prezidentinin "M.İ.Lomonosov adına Moskva Dövlət Universiteti haqqında" 24 yanvar 1992-ci il tarixli 48 saylı Fərmanına uyğun olaraq "Universitet öz fəaliyyətini Rusiya Federasiyasının qanunvericiliyi və özünün Nizamnaməsi əsasında həyata keçirən, özünütənzimləyən Rusiya dövlət ali təhsil müəssisəsi statusuna malikdir".

MDU-nun yeni Nizamnaməsi universitetin sərbəst olaraq federal büdcədən maliyyə almaq hüququnu əks etdirir.Nizamnamə sahibkarlıq və digər gəlir gətirən fəaliyyət növlərinin maksimum geniş siyahısını nəzərdə tutur və onları həyata keçirmək hüququ MDU-ya məxsusdur. Universitetin fəaliyyətinin innovasiya tərkib hissəsinin intensiv inkişaf zərurəti ilə bağlı olaraq göstərilən məsələ xüsusilə mühüm önəm daşıyır.

Nizamnamə ilə MDU-nun sahibkarlığı və gəlir gətirən digər fəaliyyətinin həyata keçirilməsi üçün onun digər əlavə əmlakdan istifadə etmək hüququ, universitetə əmlak verilməsinə yönəlmiş tərəf qismində müstəqil olaraq çıxış etmək hüququ təsbit olunmuşdur. MDU rektoru akademik V.A.Sadovniçiy qeyd etdiyi kimi, "MDU nizamnaməsinin RF Hökumətinin Qərarı ilə təsdiqlənməsi bütün MDU kollektivi tərəfindən Moskva Universitetinin nüfuzunun tanınmasıdır".

MDU Elmi Şurası Nizamnaməyə uyğun olaraq universitetin fəaliyyətinin strateji məsələlərini həll edir, rektoru seçir. Universitetə ümumi rəhbərliyi MDU Elmi Şurası həyata keçirir, onun tərkibinə rektor və prorektorlar, fakültə dekanları və institut direktorları, fakültə və institut elmi-pedaqoji işçilərinin seçkili təmsilçiləri, hər fakültə tələbələri və aspirantlarından (doktorantlardan) bir təmsilçi olmaqla daxildir; Elmi Şuranın 5 üzvü universitetin mühəndis və yardımçı xidmətlərindən seçilir.

MDU Elmi Şurası elmi və tədris fəaliyyətinin, beynəlxalq fəaliyyətin ən mühüm məsələlərini həll edir, struktur və büdcəni təsdiqləyir, professor adını verir, kafedra müdirlərini təsdiqləyir, universitetin sosial və iqtisadi inkişaf planlarını gözdən keçirir. MDU Elmi Şuralarının iclasları ayda bir dəfədən az olmayaraq keçirilir.

Rusiya Federasiyasının ən böyük klassik universiteti Moskva Dövlət Universitetidir. Bu universitet 39 fakültədə 128 istiqamət və ixtisas üzrə tələbələr, 28 fakültədə elmin 18 sahəsi üzrə aspirantlar (doktorantlar) və elmlər doktorları, müasir universitet təhsilinin praktik olaraq bütün sahələrini əhatə edən 168 ixtisas üzrə mütəxəssislər hazırlayır. Hazırda MDU-da 40 mindən çox tələbə və doktorant, eləcə də ixtisasartırma sistemində mütəxəssislər təhsil alır. Bundan başqa, MDU-da 10 mindən çox məktəbli məşğələ

keçir. Elmi və tədris işləri muzeylərdə, tədris-elm bazalarında, ekspedisiyalarda, elmi-tədqiqat gəmilərində, ixtisasartırma mərkəzlərində aparılır.

MDU-nun tərkibində ölkənin aparıcı elm mərkəzi olan iri elmi məktəblər formalaşmış, onlarda Nobel laureatları, Lenin mükafatı laureatları, SSRİ və Rusiya Dövlət Mükafatları laureatları işləmiş və işləyirlər. Rusiyada Nobel mükafatı almış 18 laureatdan 11-i Moskva Universitetinin məzunu və ya professorudur. SSRİ-də qeydiyyata alınmış bütün kəşflərin 12 faizi MDU alimlərinə məxsusdur. Onlar 60 Lenin mükafatı və 120 SSRİ Dövlət Mükafatı ilə qiymətləndirilmişdir. Son 10 ildə MDU alimlərinin 40-dan çox işi Dövlət Mükafatına layiq görülmüşdür.

MDU-nun tədris və elmi işləri təşkil edən müəllim və alimlərin heyyəti, yəni 2,5 min elmlər doktoru və 6 minə qədər elmlər namizədi (fəlsəfə doktoru), 5 minə yaxın professor-müəllim heyətidir. Moskva Dövlət Universitetində 300 akademik və REA sahə akademiyalarının müxbir üzvləri çalışır. Fundamental və tətbiqi elmlər üzrə universitetdə hazırda 350-dən çox prioritet elmi istiqamət və proqramlarda tədqiqatlar aparan 4,5 min elmi işçi çalışır.

Moskva Universiteti strukturunda bu gün üçün 39 fakültə, 15 elmi-tədqiqat institutu, 4 muzey, 6 filial, 380-ə yaxın kafedra, Elm parkı, Botanika bağı, 9 milyon cildlik fonda malik Elmi kitabxana, nəşriyyat, mətbəə, Mədəniyyət Mərkəzi, bütün Rusiyadan 300-ə yaxın istedadlı yeniyetmənin təhsil aldığı məktəb və internat məktəbi var.

Son illər universitet bir sıra yeni proqramları həyata keçirmişdir. Yeni fakültələr açılır, yeni kafedralar, laboratoriyalar, mərkəzlər yaradılır, yeni tədris planları və proqramları tətbiq edilir, 30 yeni fənlərarası proqramlar üzrə elmi araşdırmalara başlanılmışdır. Universitetin 26 bölməsində 140-dan çox distansion təhsil proqramı işləyir.

Universitet ən iri innovasiya mərkəzi olaraq qalır. Ölkədə ilk olan Elm parkı elmi nailiyyətləri yüksək texnologiyalara transformasiya edir. Son üç ildə MDU Elm parkında əsas etibarilə kimya və yeni materiallar, biotexnologiya, farmasevtika, ekologiya və təbiətdən rasional istifadə, elmi avadanlıqlardan istehsal sahələrində istifadə ilə bağlı 70-ə yaxın kiçik şirkət yaradılmışdır. MDU-nun 2000-dən çox alimi innovasiya fəaliyyətinə cəlb edilmişdir. MDU alimləri yeni innovasiya texnologiyalarının inkişafına yönəlmiş araşdırmaları icra etməklə, bir çox şirkətlərlə əməkdaşlıq edir. İnnovasiya fəaliyyətində universitetin işəgötürənlərlə əlaqəsi də get-gedə bariz şəkil alır. Bu sahədə də az işlər görülmür: ölkənin aparıcı qurumları ilə əməkdaşlıq haqqında müqavilələr bağlanır. Təhsil prosesində innovasiyalara parlaq misal olaraq uğurla inkişaf edən özəl universitetləri qeyd etmək olar. 2006-2007-ci illərdə "Təhsil" milli layihəsi çərçivəsində MDU-da innovasiya təhsilini formalaşdırma proqramı gerçəkləşdirmişdir. İnnovasiya təhsili prinsipləri bazasında 67 magistr proqramının tədris-metodiki kompleksi işlənib hazırlanmışdır.

2006-cı ildə Moskva Universiteti yenə də asan olmayan bir vəzifəni, Rusiyada birinci Elm Festivalı keçirməyi üzərinə götürdü. İnkişaf etmiş ölkələrdə bu cür festivallar keçirmə ənənəsi çoxdan möhkəm bir surətdə qərarlaşıb. İkinci Elm Festivalı artıq bütün paytaxtın bayramına çevrildi və 100 minə yaxın iştirakçı və qonaq toplanmışdı, 2008-ci ildə isə ümumrusiya səviyyəsinə qalxdı. Ənənəvi olaraq Festival oktyabrın birinci yarısında keçirilir.

MDU-nun 250 illiyində "Tatyana" universitet peyki buraxıldı, onun sayəsində yerətrafı kosmik məkanda yeni fiziki təzahürlər kəşf olundu. 17 oktyabr 2009-cu ildə Baykonur kosmodromundan "Universitet - Tatyana-2" eksperimental elmi-tədqiqat kiçik kosmik aparatının buraxılışı həyata keçirildi. "Universitet - Tatyana-2" eksperimental elmi-tədqiqat kiçik kosmik aparatının başlıca vəzifəsi tranzit təzahürləri öyrənməkdən ibarətdir. Bu məqsədlə yeni peykdə Yerin yuxarı atmosferində bu təzahürlərin təbiətini başa düşməyə kömək edən bir neçə cihaz qurulmuşdur. 2011-ci ildə isə Moskva Universitetinin əsasını qoymuş olan Mixail Lomonosovun ad gününə "Lomonosov" iri kosmik aparatının buraxılışı oldu. 2008-ci ildə "Çebışev" super hesablama kompleksi işə salınmışdır.

Moskva Universiteti mühəndis-istismar üzrə mürəkkəb bir təsərrüfatdır. MDU-da ümumi sahəsi bir milyon kvadrat metrə yaxın olan 1000-ə yaxın ayrıca bina və tikinti, o cümlədən 12 mindən çox adamın yaşadığı 8 yataqxana, 300 km-ə yaxın müxtəlif kommunikasiyalar vardır.

Lakin bir çox məsələlər zamanın tələblərinə, elm və təhsilin müasir inkişaf tendensiyalarına cavab vermir. Fundamental və tətbiqi tədqiqatların müasir inkişaf səviyyəsi, onların fənlərarası bağlılığı, eləcə də geniş profilli mütəxəssislər hazırlığı məsələsi və elmi-texniki bazanın modernləşdirilməsini tələb edir. 1987-ci ilin oktyabrında hökumət Moskva Universiteti üçün elm və texnikanın son nailiyyətləri ilə təchiz olunmuş yeni binalar kompleksinin tikintisi haqqında qərar qəbul etdi. Layihə yeni tədris və elm korpuslarının, kitabxananın, üzgüçülük hovuzunun, stadionun, mədəniyyət sarayının, digər istirahət və məişət xidməti obyektlərinin ucaldılmasını nəzərdə tutur. Yeni universitet şəhərciyinin tikintisi Lomonosov prospektində Vernadski və Miçurin prospektləri arasında artıq tikilmiş olan binalar kompleksini davam etdirməklə aparılır. 2005-ci ilin yanvarında İntellektual Mərkəzin, MDU-nun Əsaslı Kitabxanasının tikintisi başa çatdırıldı. 1 sentyabr 2007-ci ildə yeni ərazidə humanitar fakültələrin Birinci Tədris Korpusunun açılışı oldu, bura tarix, fəlsəfə fakültələri, dövlət idarəetmə və politologiya fakültələri daxil idi. Müasir Tibb Mərkəzi inşa edilmişdir. Lenin dağlarındakı "köhnə" ərazi də mənimsənilməkdə davam edir. Məsələn, 2009-cu ildə burada iqtisad fakültəsi üçün yeni korpusun açılışı oldu.

Nəhəng elmi potensial, fənlərarası aradırmalar üçün nadir imkanlar universitetin alimlərinə diqqətlərini elmin ilkin istiqamətləri üzərində cəmləşdirməyə imkan verir. Son illərdə yüksək enerjilər fizikasının, yüksək tempe-

raturlu ifratkeçiriciliyin, lazer sistemlərinin, riyaziyyat və mexanikanın, bərpa olunan enerji mənbələrinin, biokimya və biotexnologiyaların öyrənilməsi böyük nailiyyətlərlə qeyd olunmuşdur. Humanitar elmlər sahəsində yeni istiqamətlər sosiologiya, siyasi iqtisad, tarix, psixologiya, fəlsəfə, mədəniyyət tarixinin aktual məsələləri işlənilməklə formalaşır. Hər il Moskva Universitetində biliklərin müxtəlif sahələri üzrə 800-ə qədər namizədlik (fəlsəfə doktoru) və 200 elmlər doktorluğu dissertasiyası müdafiə olunur.

Universitetin fakültə və kafedraları həmişə mütəxəssis hazırlığının keyfiyyətinin artırılmasına böyük diqqət yetirmişdir. Tələbələrin və alimlərin təlim prosesinin yeniləşdirilməsi və təkmilləşdirilməsi üzrə bu gün də çox işlər görülməkdədir. Yeni tədris planlarında müstəqil işin rolu, praktika ilə məzunun gələcək işi arasındakı əlaqə gücləndirilmişdir. Ən mühüm məsələlərdən biri təhsilin humanitarlaşdırılmasıdır. Yeni yaradılmış olan fakültələrarası mərkəzin müəllimləri təbiətşünaslıq və humantar fakültələrində ölkə və dünya tarixi, mədəniyyət, filologiya, iqtisad və hüquq, incəsənət üzrə məşğələlər aparır. Universitet tələbələri fərdi planlar üzrə məşğul olur, müxtəlif fakültələrdə bir neçə ixtisas üzrə mühazirələri dinləyə bilirlər. Tələbələrin sağlamlığına böyük diqqət yetirilir.

İlk iki kursda həftədə iki dəfə bədən tərbiyəsi və idmanla icbari məşğələ nəzərdə tutulur. Yuxarı kurslarda bu məşğələlər idman bölmələrində, eləcə də pullu sağlamlaşdırıcı qruplarda fakultətiv davam etdirilə bilər.

MDU-da oxumaq üçün tədris və elmi işləri, elmin seçilmiş sahəsində fundamental hazırlığı dar ixtisaslaşma ilə uzlaşdırmaq xarakterikdir. Adətən, fundamental təməl birinci iki-üçüncü kursda qoyulur. Dar ixtisalaşma bundan sonra başlanır. Universitetdə tədris prosesinin mühüm özəlliklərindən biri təlimin müstəqil elmi iş aparmaqla birləşdirilməsidir, bunun istiqamətini tələbə özü seçir.Elmi dərnəklərdə, tələbə elmi cəmiyyətlərində işlər, seminarlarda, xüsusi seminarlarda məşğələlərlə yanaşı, tələbə konfranslarında iştirak etmək tələbələrə düzgün seçim etməyə imkan verir. Bir çox tələbə elmi işləri elmi jurnallarda və toplularda dərc edilir.

MDU-da təhsil müddəti fakültədən və tədris formasından asılı olaraq 4-6 ildir. Universiteti bitirdikdə tələbə diplom işi hazırlayır və müdafiə edir. Universitetdə oxumaq bir qayda olaraq pulsuzdur. Lakin bazar münasibətlərinin inkişaf etməsi ilə bağlı olaraq 1992-ci ildən sonra plandan əlavə pullu təhsil üçün 15 faizədək abituriyent qəbul etmək qərara alınmışdır. Yaxşı oxuyan hər bir tələbə dövlət təqaüdü alır. Başqa şəhərlərdən gəlmiş tələbələrə yataqxanada yer verilir. Universitet məzunları ali məktəblərdə, elmi-tədqiqat institutlarında, məktəblərdə, istehsalat və mədəniyyət sahələrində, dövlət aparatında, ictimai və özəl təşkilatlarda çalışırlar. Bu gün universitetdə Tələbə İttifaqı, Gənclər Şurası və digər ictimai təşkilatlar vardır.

Moskva Universitetində həm də kadrların ixtisas artırmaq üzrə məktəbi fəaliyyət göstərir. Hər il MDU-da 5 minə qədər müəllim və müəssisə, idarə və ali məktəb əməkdaşı yenidənhazırlanma kursu keçir.

Universitetin elmi və mədəni-maarifçilik ənənələrinin reallaşması üçün MDU Nəşriyyatının mühüm rolu vardır. MDU Nəşriyyatı uzun əsrlik tarixə malikdir. Nəşriyyat universitetin özündən cəmi bir yaş kiçikdir. 1756-cı ildən bəri burada 50 mindən çox elmi və bədii, tərcümə və orjinal əsər nəşr olunmuşdur. XVIII əsrdə Didro, Russo, Volter və başqalarının əsərləri çap olunmuşdur. XIX əsrdə universitetin kitab nəşriyyatı bir çox görkəmli rus alimlərinin elmi axtarışlarına və əsərlərinin populyarlaşmasına rəvac vermişdir. XX əsr rus klassiklərinin və hamı üçün əlyetər dərsliklər nəşrinin həcminə görə heç bir nəşriyyat MDU nəşriyyatı ilə müqayisə oluna bilməz.

Hazırda MDU-nun aparıcı professorları, müəllimləri, elmi əməkdaşları nəşriyyatın müəlliflər kollektivini təşkil edir. Hər il elmin bütün müasir bilik sahələri üzrə 150 minə yaxın adda kitab tələbələr, aspirantlar, (doktorantlar), müəllimlər və mütəxəssislər üçün, tədris və elmi ədəbiyyat, ali məktəblərə daxil olmaq üçün vəsaitlər, həm də geniş oxucu dairəsi üçün elmi-populyar, elmi-bədii və soraq ədəbiyyatı buraxılır. Nəşriyyat həm də hər il "Vestnik Moskovskoro Universiteta" (22 seriya) və "Bulleten moskovskoro obşestva ispıtateley prirodı" elmi jurnallarının 118 sayını buraxır. "Vestnik Moskovskoro Universiteta" jurnalının seriyaları: Riyaziyyat, Mexanika, Kimya, Fizika, Astronomiya, Geologiya, Hesablama riyaziyyatı və kibernetika, Biologiya, Torpaqşünaslıq ingiliscəyə tərcümə edilir və Allerton Press,Inc. Nəşriyyatında (ABŞ) çap olunur.

MDU Nəşriyyatı müxtəlif müsabiqələrin: "Rusiyanın işgüzar kitabı", Rusiya Kitab Naşirləri Assosiasiyasının keçirdiyi "İlin ən yaxşı kitabı" müsabiqəsinin və digərlərinin qalibi olmuşdur. İndiyə qədər Nəşriyyat elmi kitab nəşri sahəsində öz yüksək nüfuzunu qoruyub saxlamışdır.MDU Kitabxanası ildə 55 min oxucuya xidmət edir və onlara 5,5 milyon kitab verir.

Moskva Universitetinin beynəlxalq əlaqələri çox genişdir. MDU Avrasiya Universitetlər Assosiasiyasına daxildir, 60-dan çox xarici mərkəz və Avropa, ABŞ, Yaponiya, Çin, digər Asiya ölkələri, Avstraliya, Latın Amrikası, ərəb dövlətləri universitetləri ilə əməkdaşlıq haqqında birbaşa müqavilələrə malikdir. Artıq yaxın xarici ölkələrdə beş filialı fəaliyyət göstərir.

Universitetdə ilk əcnəbi tələbələr 1946-cı ildən sonra 150 xarici ölkə üçün 11 mindən çox yüksək ixtisaslı mütəxəssis hazırlanmışdır. Hər il MDU-da dünyanın bir çox ölkələrindən 2 mindən çox tələbə oxuyur. 400-dən çox adam əcnəbi vətəndaşlar üçün universitetin hazırlıq kurslarında məşğul olur.

Elmi-texniki əməkdaşlığın ən mühüm sahələri bunlardır: elmi problemlərin birgə işlənilməsi, pedaqoji və elmi iş aparılması üçün professor və müəllim, eləcə də müxtəlif formalı stajkeçmələr üçün tələbə və aspirantların (doktorantların) mübadiləsi. Hər il universitet müxtəlif qısamüddətli tədris

formalarına 2 mindən çox əcnəbi qəbul edir və özünün təqribən bu qədər təmsilçisini müxtəlif xarici ölkələrə göndərir. MDU-da YUNESKO-nun himayəsi altında Beynəlxalq Ali Hidroloji Kurslar, Beynəlxalq tədris-elm lazer mərkəzi, Beynəlxalq tədris-elm biotexnoloji mərkəz, Beynəlxalq Təhsil Mərkəzi, əcnəbi müəllimlər üçün rus dili üzrə kurslar və seminarlar sistemi fəaliyyət göstərir.

Universitetdə 1991-ci ildə Fransız Universitet Kolleci, Rus-Amerika Universiteti, Alman Elm və Mədəniyyət İnstitutu açılmışdır. Xarici ölkələrdən olan 60-dan çox alim, dövlət və siyasi xadim Moskva Universitetinin fəxri doktorları və professorları seçilmişdir. Öz növbəsində, MDU-nun bir çox böyük alimləri xarici akademiya və universitetlərin fəxri üzvləridir.

**Sankt-Peterburq Dövlət Universiteti (SPDU).** Universitetin əsasının qoyulması haqqında məsələ 1990-cı illərdə yubileyinin keçirildiyi zaman və 1999-cu ildə bayram edilməsi müddətində canlı diskussiyalar doğurmuşdu.

Deyilənlərə görə SPDU I Pyotrun 28 yanvar 1724-cü il tarixli fərmanı ilə yaradılan Elmlər Akademiyası ilə eyni vaxtda təsis olunmuş universitetin varisidir (məsələn, 1758-1765-ci illərdə Universitetin rektoru M.V.Lomonosov idi). Hazırda bu guman Universitet rəhbərliyi və dövlət tərəfindən qəbul edilmişdir.

Başqa bir gumana görə, müasir SPDU - 1819-cu ildə Ali Pedaqoji İnstitutun adının dəyişdirilməsi və yenidən təşkili nəticəsində yaradılmış Sankt-Peterburq Universitetinin varisidir (bu halda nəzərə almaq lazımdır ki, Ali Pedaqoji İnstitut hələ 1828-ci ildə Universitet olaraq müstəqil olaraq bərpa olunmuşdur). Bu halda SPDU-nun əsasının qoyulma tarixi 8 (20) fevral 1819-cu ildən qəbul edilir. Bu tarix dini işlər və xalq maarifi naziri, knyaz Aleksandr Nikolayeviç Qolitsının "Sankt-Peterburqda Universitet təsis edilməsi haqqında" başlıqlı məruzəsində və Sankt-Peterburq Təhsil Dairəsinin hamisi, həqiqi dövlət müşaviri S.S.Uvarov tərəfindən tərtib edilmiş "Sankt-Peterburq Universitetində başlanğıc təhsil"i layihəsində yer alır. İlk vaxtlar Universitet Ali Pedaqoji İnstitutun 4 (16) yanvar 1824-cü il tarixli nizamnaməsi əsasında fəaliyyət göstərir, Moskva Universitetinin vəziyyətə görə dəyişdirilən qüvvəsi onda tətbiq olunmurdu. 31 oktyabr (12 noyabr) 1821-ci ildə Sankt-Peterburq Universitetinə İmperator sözü əlavə olundu. Bundan sonra Universitet özünün bütün fəaliyyəti dövründə dəfələrlə adını dəyişdirdi.

* 1821-ci ildən 1914-cü ilə qədər - İmperator Sankt-Peterburq Universiteti;
* 1914-cü il - fevral 1917-ci il - İmperator Petroqrad Universiteti;
* fevral 1917-ci il - iyun 1918-ci il Petroqrad Universiteti;
* iyun 1918-ci il - oktyabr 1919-cu il - Birinci Petroqrad Universiteti;
* oktyabr 1919-cu il - yanvar 1921-ci il - Petroqrad Universiteti;
* yanvar 1921-ci il - yanvar 1924-cü il - Petroqrad Dövlət Universiteti;
* yanvar 1924-cü il - aprel 1933-cü il - Leninqrad Dövlət Universiteti;
* aprel 1933-cü il - oktyabr 1937-ci il - A.S.Bubnov adına Leninqrad

Dövlət Universiteti;

* oktyabr 1937-ci il - fevral 1944-cü il - Leninqrad Dövlət Universiteti;

* fevral 1944-cü il - oktyabr 1944-cü il - Lenin ordenli Leninrad Dövlət Universiteti;

* oktyabr 1948-ci il - 1969-cu il - A.A.Jdanov adına Lenin ordenli Leninqrad Dövlət Universiteti;

* 1969-cu il - yanvar 1989-cu il - A.A.Jdanov adına Lenin ordenli və Qırmızı Əmək Bayrağı ordenli Leninqrad Dövlət Universiteti;

* yanvar 1989-cu il - 1991-ci il - Lenin ordenli və Qırmızı Əmək Bayrağı ordenli Leninqrad Dövlət Universiteti;

* 1991-ci ildən - Sankt-Peterburq Dövlət Universiteti.

Hazırda Sankt-Peterburq Universitetində 32 mindən çox tələbə oxuyur, onlar 22 fakültədə 223 ixtisas üzrə təhsil alırlar, burada 14 minə yaxın əməkdaş, 289 kafedranın təmsilçisi olan 6 minə yaxın professor-müəllim (1000 elmlər doktoru, 2000-dən çox elmlər namizədi (fəlsəfə doktoru), dövlət akademiyalarının 42 akademiki) çalışır.

2007-ci ildə 11773 qəbul ərizəsi verilmiş, müsabiqədə 1 yerə 2,3 nəfər iştirak etmişdir. Birinci kursa 6013 tələbə qəbul edilmiş, onlardan 1063-ü-medalçılar idi. Birinci kurs tələbələrinin 2666 nəfəri MDB ölkələrinin vətəndaşlarıdır.

Universitet ilk dəfə təşkil olunarkən üç şöbədən və ya fakültədən ibarət olmuşdur: Fəlsəfə və hüquq elmləri şöbəsi; Fizika və riyaziyyat elmləri şöbəsi; Tarix və ədəbiyyat elmləri şöbəsi.

Universitetin nəzdində bir sıra nüfuzlu nəşrləri, o cümlədən "Vestnik Sankt-Peterburqskoqo Universiteta" jurnalının, "Pravovedenie" jurnalının və "Rossiyskie ejeqodniki prava" seriyasını həyata keçirən Sankt-Peterburq Universiteti Nəşriyyat Evi fəaliyyət göstərir.

* 30 iyul 2007-ci ildə Xibin dağlarında tapılan yeni minerala Sankt-Peterburq Dövlət Universitetinin professorunun adı verildi. Tapılmış mineralın adı SPDU geologiya fakültəsinin kristalloqrafiya kafedrasının müdiri Sergey Krivoviçevin şərəfinə - krivoviçevit oldu.

* 11 noyabr 2009-cu ildə Rusiya Prezidenti Dmitri Medvedyev Rusiyanın iki aparıcı ali məktəbi - MDU və SPDU-nun fəaliyyətini tənzimləyən qanun imzalamışdır. Qanuna əsasən, SPDU öz məzunlarına öz xüsusi nümunəsi əsasında RF-in gerbli möhürü ilə diplomlar vermək və öz diplomlarını RF-in rəsmi rəmzləri ilə təsdiqləmək hüququ əldə edirdi.

Bundan başqa, qanun SPDU rektorunun seçkili olmasını ləğv edir və rektoru RF Prezidenti təyin edir. Ali məktəbin rəhbərinin səlahiyyət müddəti beş illə məhdudlaşdırılır. Həm də Rusiya Prezidenti rektoru yeni müddətə təyin edir və ya rektoru tutduğu vəzifəsindən vaxtından əvvəl azad edə bilər. RF Prezidenti həm də rektorun səlahiyyətini universitet rəhbərinin bu vəzifə

üçün müəyyən edilmiş son yaş həddinə çatanadək yeni müddətə iki dəfə uzada bilir. SPDU Nizamnaməsi Hökumət tərəfindən təsdiqlənmişdir.

Hazırda Rusiyada geniş mənada ümumi təhsilə aşağıdakı tərkib hissələri aid etmək olar: məktəbəqədər təhsil, ibtidai təhsil, natamam orta təhsil, tam orta təhsil və əlavə təhsil. Bəzən, məktəbəqədər təhsil və ya ibtidai təhsil ümumi təhsil anlayışının tərkibinə daxil edilmir və onlar ayrı-ayrı nəzərdən keçirilir. Rusiyada və bəzi digər ölkələrdə üç pilləli - ümumi ibtidai, əsas ümumi və ümumi orta (tam) təhsili, onlar məktəb tədris proqramının siyahısına daxil olduqları və orta məktəblərdə tədris olunduqları səbəbindən bəzən orta təhsil adlanırlar.

Məktəbəqədər təhsil uşağın 2 yaşından 8 yaşına qədər intellektual, şəxsi və fiziki inkişafının təminatıdır. Qanunvericilik, ənənə və mədəniyyətdən asılı olaraq, məktəbəqədər təhsilə yanaşma tərzləri müxtəlifdir, onun qarşısına müxtəlif əsas və fərdi tapşırıqlar qoyula bilər, o məcburi ola bilər və ya olmaya bilər, o müxtəlif ənənəvi institutlar vasitəsilə reallaşdırıla bilər. Rusiyada məktəbəqədər təhsil, təhsil müəssisələrində, ümumi təhsil müəssisələrində, uşaqların əlavə təhsil müəssisələrində (uşağın vaxtından əvvəl inkişafı mərkəzləri və qurumları) və həmçinin evdə, ailədə də həyata keçirilir. Rusiyada uşaqları olan cavan ailələrin yüzdə bir hissəsinin məktəbəqədər uşaq müəssisələri ilə təmin olmaması faktını nəzərə alaraq deyə bilərik ki, məktəbəqədər tərbiyənin ilkin əsaslarına hazırlığı gənc ailə siyasətinin ən mühüm vəzifələrindən biridir.

İbtidai təhsil Rusiyada və başqa ölkələrdə ümumi təhsilin birinci pilləsidir. İbtidai təhsilə yiyələnərək uşaqlar ətraf mühit haqqında ilk bilikləri, ilk ünsiyyət bacarıqlarını və tətbiqi məsələlərin həll edilməsi yollarını öyrənirlər. Bu mərhələdə uşağın şəxsiyyəti formalaşır və inkişaf etməyə başlayır.

Rusiyada və başqa ölkələrdə əsas ümumtəhsil, ümumi təhsilin ikinci pilləsidir, onun məqsədi təhsil alanın şəxsiyyətinin təşəkkülü və formalaşması üçün müvafiq şəraitin yaradılması, onun qabiliyyətinin və maraqlarının inkişaf etdirilməsidir. Əsas ümumi təhsil ümumi orta (tam) təhsilin və ibtidai təhsilin zəruri mərhələsidir. İnkişaf etmiş ölkələrdə əsas ümumi təhsil hamı üçün məcburidir və inkişaf etmiş ölkələrin əksəriyyətində isə o, pulsuzdur. Bunların hər ikisi konstitusiyalarda açıq aydın şəkildə ifadə olunmuşdur. İnkişaf etmiş ölkələrin əksəriyyətində əsas ümumi təhsil kimi orta məktəbdə 9-illik təhsil nəzərdə tutulur. Yekun 9-cu ilin sonunda məktəblilər test imtahanlarını verirlər, bu imtahanların nəticələri əsasında hər uşağın tam orta təhsil və ya orta təhsil almaq imkanı müəyyən olunur.

Rusiyada və başqa ölkələrdə ümumi təhsilin son, yekun pilləsi orta (tam) ümumi təhsildir. Onun məqsədi təhsil alanın yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi və müstəqil şəkildə həyata keçirilən təhsilin formalaşmasıdır. Rusiya Federasiyasının "Təhsil haqqında" qanununa müvafiq olaraq, orta (tam) ümumi təhsil məcburidir. Orta tam ümumi təhsil ali

təhsilin əldə edilməsi üçün zəruri mərhələdir. Yuxarı siniflərin əsas təyinatı, ali təhsil müəssisəsinə daxil olmaq üçün hazırlıqdır. Şagirdlər əsas ümumi təhsilin yekunu olan seçmə imtahanlarını verdikdən sonra yuxarı siniflərə keçir. Rusiyada orta tam ümumi təhsil kimi ibtidai, əsas ümumi təhsil və yuxarı siniflərdə (10 və 11-ci siniflərdə) 2-illik təhsil nəzərdə tutulur. İnkişaf etmiş ölkələrin bir çoxunda yuxarı siniflərdə 2-illik deyil, 3-illik (məsələn, Almaniyada) təhsil nəzərdə tutulur. Bu səbəbdən Rusiya attestatları Qərb ölkələrində yalnız qismən tanınır, Rusiya abituriyentləri isə xarici ölkələrin ali təhsil müəssisələrinin bir çoxunda birbaşa daxil olmaq imkanından məhrum olur. Orta tam ümumi təhsil Vahid Dövlət İmtahanları adlanan dövlət imtahanlarının verilməsi ilə nəticələnir, onların nəticələri əsasında ali təhsil müəssisəsinə daxil olmaq imkanları müəyyən edilir.

Uşaqların əlavə təhsili, ümumi təhsilin tərkib hissəsi olaraq, təhsil alana bilikdə və yaradıcılıqda davamlı ehtiyac duymağa, özünü maksimal dərəcədə reallaşdımağa, peşə və şəxsi cəhətdən öz müqəddəratını təyin etməyə imkan verən əsaslandırılmış təhsildir.

Bir çox tədqiqatçılar tərəfindən uşaqların əlavə təhsili, əlavə təhsil proqramlarının reallaşdırılması vasitəsilə məqsədyönlü tərbiyə və tədris prosesi kimi nəzərdə tutulur. “Uşaqların əlavə təhsili” termininin özü 1990-ci illərin əvvəllərində RF “Təhsil haqqında” qanununun qəbul edilməsi ilə bağlı yaranmışdır.

10 dekabr 1948-ci ildən insan hüquqları haqqında olan ümumi bəyannamədə ümumi təhsilin əlverişli və pulsuz olması haqda göstərilir: “ən aşağısı ibtidai və ümumi təhsilə aid edilən təhsil pulsuz olmalıdır”. Rusiya daxil olmaqla bəzi ölkələrdə bu əsasnamə Konstitusiyada möhkəmləndirilmişdir.

Hazırda bəzi ölkələrdə (məsələn Rusiyada) ümumi təhsil vətəndaşların təkcə hüququ deyil, həmçinin onların vəzifəsi kimi qiymətləndirilir.

Ümumi təhsil dövlət, bələdiyyə və həmçinin fərdi təşkilatların çərçivəsində həyata keçirilir. Bəzi ölkələrdə ümumi təhsil sferasında fərdi təşkilatların yaradılması qadağandır, bəzilərində Rusiyada olduğu kimi pillələrin əksəriyyəti lisenziyalaşdırılmalıdır.

Ümumi təhsili bütün ölkələrdə əsas pillə daxil olmaqla pulsuz əldə etmək olar. Adətən, dövlətlərin sosial siyasəti çərçivəsində ümumi təhsilin bütün strukturunun dəstəyi həyata keçirilir.

PISA (Programme for International Student Assessment) reytinqinə görə ən yaxşı təhsil Koreyada, Çində və Sinqapurda mövcuddur. Avropa ölkələrində isə Finlandiya və Niderlandlar qabaqda gedirlər. 2009-cu ildə orta təhsilin keyfiyyətinin reytinqində iştirak edən 65 ölkənin arasında Rusiya 51-ci yeri tutaraq, Türkiyədən və Birləşmiş Ərəb Əmirliklərindən geridə qalmışdır.

Ali təhsili ali təhsil müəssisələrində, universitetlərdə, akademiyalarda, institutlarda və kolleclərdə almaq olur. Bəzi ölkələrdə onların xüsusi ənənəvi adları mövcuddur.

Ayrı-ayrı ölkələrdə ali təhsil sistemi bir, iki, üç və ya dörd pilləli struktura əsaslanır. Dörd pilləli təhsil sistemində məzunlar kiçik mütəxəssislərə (natamam ali təhsil), bakalavrlara (baza ali təhsil), magistrlərə (tam ali təhsil) və elmlər doktorlarına (elmi dərəcə) bölünür. Rusiyada qəbul olunmuş üç pilləli təhsil sistemində isə məzunlar bakalavr, magistr və elmi dərəcəyə malik şəxslərə bölünür.

Ali təhsili əyani, qiyabi, axşam və ya azad təhsil formaları, həm də eksternat forması vasitəsilə əldə etmək olar. Bəzi ölkələrdə təhsilin forma və məqsədlərindən, öyrənilən fənlərin sayından, tələbələrin hazırlıq səviyyəsindən asılı olaraq bölünməsi "müntəzəm", "şərti", "xüsusi", "təsadüfi", "azad (könüllü)" və s. şəkildə baş verir. Təhsil formasından, ölkədən, sistemdən və ixtisasından asılı olaraq ali təhsilin əldə olunma müddəti 4-9 ildir.

1950-ci ildə İnsan hüquqları üzrə Avropa Konvensiyasının Birinci Protokolunun 2 maddəsi bütün imzalanmış tərəfləri təhsil hüququnun həyata keçirilməsinə zamanət verməyi məcbur etdi.

1966-cı ildə Birləşmiş Millətlər Təşkilatı iqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq aktda təhsil hüququnun mövcudluğuna zəmanət vermişdir, orada aşağıdakılar qeyd edilmişdir: "ali təhsil bütün lazımi tədbirlərin həyata keçirilməsi yolu ilə, xüsusən də pulsuz təhsilin tədricən tətbiqi ilə hamı üçün əlverişli olmalı və hər bir tələbənin qabiliyyətlərinin əsasında əks olunmalıdır".

1970-1971-ci tədris ilində Sofet İttifaqında 805 ali təhsil müəssisələrində 4.6 milyon tələbə təhsil alırdı. Onlardan 43.6%-i texniki-mühəndislik və iqtisadiyyat ixtisaslar üzrə, 25.6%-i kənd təsərrüfatı ixtisasları üzrə, 7,1%-i isə tibb ixtisasları üzrə təhsil alırdılar. Onların təhsilində 327,2 min elmi-pedaqoji işçisi, o cümlədən 10.4 min elmlər doktorları və 95,3 min elmlər namizədləri iştirak etmişdir.

Avropada ali təhsilin inkişafına, harmonikləşməsinə böyük təkan Bolonya prosesi olmuşdur. Bu prosesin başlanma müdddətini 1970-ci illərin ortalarına aid etmək olar, o zaman Avropa Birliyinin Nazirlər Şurası tərəfindən təhsil sferasında ilk əməkdaşlıq proqramı haqqında qətnamə qəbul edilmişdir. Prosesin başlanmasının rəsmi tarixi kimi 19 iyun 1999-cu il tarixi qəbul olunmuşdur, o zaman Bolonya şəhərində xüsusi konfransda 29 Avropa dövlətlərinin təhsil nazirlərinin "Avropa ali təhsili zonası" bəyannaməsini, yaxud "Bolonya bəyannaməsini" qəbul etmişlər. Rusiya Bolonya prosesinə 2003-cü ilin sentyabr ayında, Avropa ölkələrinin təhsil nazirlərinin Berlində keçirilən görüşü zamanı qoşuldu. Ukrayna təhsil naziri 2005-ci ildə Bergendə Bolonya bəyannaməsini imzaladı. Bolonya prosesinin əsas istiqamətlərinin reallaşdırılmasında Rusiyanın, Ukraynanın, Kazaxstanın və digər MDB və Avropa ölkələrinin ali təhsil müəssisələri iştirak etmişlər.

## AZƏRBAYCANDA TƏHSİL

Professor M.Mərdanovun "Azərbaycanın təhsil tarixi" kitabında bir sıra mühüm məsələlər öyrənilərək tam şəkildə verilmişdir. Bu kitaba və bir sıra tarixi mənbələrə istinad etdikdə göstərə bilərik ki, Azərbaycanda ibtidai savad təlimi verən ilk məktəblərin yaranması yeni eranın başlanğıclarına təsadüf edilir. Tarixi mənbələrdən aydın olur ki, Azərbaycanda təhsil sistemi VII əsrdə artıq formalaşmaqda idi.

İstər 1958 və 1964-cü ildə nəşr edilmiş "Azərbaycan tarixi"nin üç cilddən ibarət nəşri və istərsə də 1994-cü ildəki nəşri ictimaiyyət tərəfindən müsbət qiymətləndirilməsinə baxmayaraq, ölkəmizin təhsil tarixi məsələlərinin işıqlandırılması geniş şəkildə öz əksini tapmamışdır.

XVIII əsrə qədər və bu əsrdə məktəblər məscidlərdə, xüsusi dükanlarda, şəxsi evlərdə yerləşirdi. Məktəbə qəbul ancaq altı yaşına çatmış uşaqlar edilir və dərs məşğələlərinin müddəti 7-8 saat olurdu. Dərsliklər yox idi və şagirdlər əlifbanı öyrəndikdən sonra Quranın "Güzəmmə" adlı kiçik bir hissəsini oxuyur və sonra isə Quranı oxuyub başa çatdırırdılar. Bu dövrdə orta və ali tədris müəssisələrinin rolunu oynayan mədrəsələrdə var idi. Bu mədrəsələrdə ruhani kadrlar yetişdirilirdi. Mədrəsələrdə dini elmlərlə yanaşı, qismən dünyəvi elmlər: ədəbiyyat, riyaziyyat, astronomiya və s. tədris edilirdi. Bu məktəblərdə təhsil müddəti dəqiq deyildi, təhsilin başa vurulması haqda onlara müəllimlər (müdərris) tərəfindən vəsiqə verilirdi. 1813-cü ildə Azərbaycan Rusiyaya ilhaq edildikdən sonra rus dilində tədris olunan bəzi ibtidai tipli məktəblər təşkil olunmuşdur. "Qəza məktəbləri" (uezdnıe uçilişa) adlanan həmin məktəblər gələcəkdə əhalidən yerli rus idarələrində xırda qulluqçu və ya tərcüməçilər hazırlamalı idi. Həm də milli maarifçilərin səyi ilə tatar (Azərbaycan)-rus məktəbləri yaradıldı. Bu tipli ilk məktəblər 1830-cu illərdə Şuşuda, Nuxada, Bakıda, Gəncədə, Şamaxıda və Naxçıvanda açılmışdı. Əsasən varlıların uşaqlarının təhsil aldığı həmin ibtidai təhsil məktəblərində rus və türk (Azərbaycan) dilləri, coğrafiya və şəriət tədris olunurdu. Sonrakı illərdə bu məktəblərdən əvvəl, dörd sinifli məktəblər də açıldı. Bakıda ilk rus-tatar (Azərbaycan) məktəbi 1887-ci ildə açılmış və ibtidai tipdə olan bu məktəblərin artmasına 1879-cu ildə Zaqafqaziya da Qori seminariyası yanında təşkil olunan türk şöbəsi kömək etmişdir.

1848-ci ildə Şamaxıda müqəddəs Nina məktəbi açılmış və sonra Bakıya köçürülmüşdür. 1874-cü ildə Bakıda realnı məktəbi və Mariya ünas gimnaziyası açılmışdır. 1914-cü ilə qədər orta məktəblərin sayı 15-ə çatmışdı və

müəllimlər isə qeyri-azərbaycanlılar idi. Ümumtəhsil məktəblərin sayı Azərbaycanda 1914-cü ildə 240-a çatmışdı.

1906-cı ildə N.Nərimanov və H.B.Zərdabinin rəhbərliyi ilə Bakıda keçirilən müəllimlər qurultayı da xalq maarifi sahəsində demokratik qərarlar qəbul edir. Bu zaman rus-türk (Azərbaycan) məktəblərinin sayı bir qədər artmış, xeyriyyə cəmiyyətlərinin xətti ilə yeni ibtidai məktəblər açılmışdı. Bu yeni məktəblərin təşkilatçıları, müəllmləri və kitab müəlliflərinin çoxu Zaqafqaziya (Qori) seminariyasının Azərbaycan şöbəsini qurtaranlar idi və bu qüvvənin Azərbaycanda maarifin inkişafında böyük rolu olmuşdur.

1914-cü ildə Qafqaz Maarif nahiyyəsinin məlumatına görə, 1871-1914-cü il tarixində 249 nəfər türk (azərbaycanlı) Qori, Yerevan və Vladiqafqaz darülmüəlliminddə (pedaqoji məktəb) orta pedaqoji təhsil almışdır və bu zaman 13 türk (azərbaycanlı) Tiflis Müəllimlər institutunu bitirmişdir. Bu dövrlərdə müəllimə olan ehtiyac nəticəsində ibtidai təhsilli və ya ancaq ev təhsili görmüş şəxslərin də müəllimliyə cəlb olunması məcburiyyəti var idi və müəllimlərin tərkibini göstərən aşağıdakı rəqəmlər maraqlıdır: Bu dövrdə Azərbaycanda mövcud 1100 məktəbdə 1450 türk (azərbaycanlı) müəllimi vardır, onların təhsil dərəcələri aşağıdakı vəziyyətdədir: 73 nəfər ev təhsilinə, 1000 nəfər ibtidai təhsilə, qalanları isə orta və ali təhsilli idi. 350 rus müəllimindən 60 nəfəri ibtidai təhsilli, qalanları isə orta və ali təhsilli idi. Qısa müddətdə müəllim qüvvəsi hazırlamaq prinsiplərini həyata keçirmək lazım idi.

1919-cu ilin avqustunda Azərbaycan Xalq Cümhuriyyəti öz hakimiyyətini Respublikanın bütün ərazisində bərqərar etdi. Bu dövrdə bir çox tədbirlərlə yanaşı, xalqın maariflənməsinə diqqət verərək Xalq Maarif Nazirliyi təsis olunmuşdu.

1918-ci il iyunun 30-da Xalq Maarifi Nazirliyi yaradılır və hökumətin, Maarif Nazirliyinin 1918-ci il avqustun 28-i tarixli qərarı ilə bütün ibtidai məktəblərdə təhsilin türk dilində aparılmasına keçirilmişdir. Türk dilinin bütün məktəblərdə tədrisi məcburi hesab edilmiş və bu zaman məktəblərdə oxuyan azərbaycanlıların sayı təqribən üç dəfə artmışdır.

Bu dövrdə 637 ibtidai, 23 orta ixtisas məktəbi, 6 kişi, 4 qadın gimnaziyası, 5 realni məktəb, 3 müəllimlər seminariyası, 3 müqəddəs Nina məktəbi, politexnik və ticarət məktəbləri fəaliyyət göstərirdi.

Azərbaycanın bütün qəzalarında 1919-cu ilin payızından türk (Azərbaycan) dilində axşam kursları təşkil olunmuşdur. 1918-ci il avqustun 28-də təhsilli milli kadrlara ehtiyac olduğu üçün məktəblərin milliləşdirilməsi haqqında qərar qəbul olunmuşdu. İbtidai təhsil müəssisələrinin hamısında təhsilin türk (Azərbaycan) dilində aparılması məcburi idi.

1918–1920-ci illərdə Azərbaycanda cəmi 389 nəfər ali təhsilli müəllim var idi və bunların ancaq 60 nəfəri azərbaycanlı idi. Buna görə də 1918-ci ilin iyulunda Türkiyədən 50 nəfər müəllim dəvət olunmuşdur.

Qori müəllimlər seminariyasının müsəlman şöbəsi Qazax şəhərinə köçürülərək, müstəqil seminariyaya çevrildi. 1919-cu ilin sentyabrında Bakıda kişi seminariyası açıldı. Şuşada hərbi feldşer məktəbi yaradıldı. 1919-cu ilin yayında Bakıda, Gəncədə və Şəkidə kişi və qadın, Şuşada, Qazaxda, Qusarda, Salyanda və Zaqatalada iki aylıq kişi pedaqoji kursları açılmış və dərsliklərin hazırlanması üçün tədbirlər görülmüşdür.

Azərbaycan parlamenti fəaliyyət göstərdiyi 7 ay ərzində 134 iclas keçirmişdi. Parlamentə 270-dən çox qanun layihəsi təqdim olunmuşdu. Onlardan 230-a yaxını müzakirə edilib təsdiq olunmuşdu. Onlardan biri də Bakı Dövlət Universitetinin yaradılması haqqında idi.

1919-cu ilin sentyabrında BDU-nun açılışı oldu və 1919-cu il noyabrın 15-də fəaliyyətə başladı. Birinci dərs ilində BDU-nun iki fakültəsinə (tarix-filologiya və tibb) 1094, (tarix-filologiya fakültəsinə 604, tibb fakültəsinə 490 nəfər) tələbə və azad dinləyici qəbul olunmuşdu. Onlardan ancaq 297 nəfəri azərbaycanlı idi (360 nəfər yəhudi, 209 nəfər rus, 181 nəfər erməni, 41 nəfər digər millətlərdən ibarət idi).

1919-cu ilin sentyabrında 100 nəfər gənc təhsil almaq üçün xaricə göndərildi. Bunlardan 45 nəfəri Fransaya, 23 nəfəri İtaliyaya, 10 nəfəri İngiltərəyə, 9 nəfəri Türkiyəyə və 13 nəfəri Rusiyaya göndərilməli idi. Rusiya istisna olmaqla qalanları sözügedən ölkələrə göndərildi.

Sovet Azərbaycanında yeni məktəb yaratmaq, müəllim qüvvəsi hazırlamaq olduqca çətin məsələ idi və vahid zəhmət məktəblərinə müəllim cəlb oluna biləcək şəxslərin sayı yox dərəcəsində idi. Müraciət edən müəllimlərin çoxu isə Azərbaycanda və ya başqa şərq ölkələrində təhsil alanlar idi ki, bunlarda keçmiş mollaxanalara yarayır və ya rus dilində az sayda təhsil alan şəxslər idi.

Cənubi Qafqaz (Qori) Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi 1918-ci ildə Qazaxa köçürülmüşdü. Bakı, Gəncə və Şəkidə fəaliyyət göstərən "Nina" qızlar məktəblərinin adı dəyişilərək qız gimnaziyaları adlandırıldı. Bu dövrdə yeddi kişi gimnaziyası açılmışdı.

1920-ci il tarixindən başlayaraq Azərbaycan Xalq Maarif Komissarlığı aşağıdakı yollarla müəllim kadrları hazırlayırdı: yay pedaqoji kursları vasitəsi ilə birinci dərəcəli məktəblər üçün yeni müəllimlər hazırlamaq, inqilabdan əvvəlki məktəb müəllimlərini vahid zəhmət məktəbinin məqsədi, quruluşu və təlim-tərbiyə üsulları ilə tanış etmək, birinci dərəcəli vahid zəhmət məktəbi üçün müəllimlər hazırlayan darülmüəllimləri təşkil etmək, ikinci dərəcəli vahid zəhmət məktəbində və orta ixtisas məktəblərində əsas ümumtəhsil fənləri üçün yüksək ixtisaslı fənn müəllimləri hazırlamaq.

Müəllim hazırlamaq məqsədi ilə Bakı, Naxçıvan, Gəncə, Nuxa, Lənkəran və s. 1920-ci ilin yayında yay pedaqoji kursları təşkil olunur. Qısamüddətli pedaqoji kurslar sürətlə artan məktəbləri müəllim kadrları ilə təmin

olunmasına səbəb olurdu. Müəllimləri bu dövrün tələblərinə uyğun ancaq pedaqoji tədris müəssisələri hazırlayırdı.

1920-ci ilin payızında Bakı, Gəncə, Qazaxda darülmüəllimlər (müəllim seminariyaları) yenidən qurulur. Nuxa və Şuşada isə yeni darülmüəllimlər təşkil olunur və bu tipdə orta pedaqoji məktəblərin sayı sürətlə artır.

Azərbaycan Xalq Maarif Komissarlığı kollegiyasının 1920-ci il 17 noyabr tarixli qərarına əsasən ikinci dərəcəli və orta ixtisas məktəbləri üçün müəllim hazırlamaq məqsədi ilə Bakıda birillik pedaqoji kurs təşkil olunur. Azərbaycan Xalq Komissarları Şurasının 1921-ci il 1 iyul 66№-li Dekreti və birillik pedaqoji kursun əsasında Ali Pedaqoji İnstitutun təşkilinə başlanır. 1921-ci il noyabr ayında institut fizika-riyaziyyat, təbiyyət-coğrafiya, tarix-ədəbiyyat fakültələri az sayda tələbələrlə fəaliyyətə başlayır.

1920-1930-cu illərdə Azərbaycanda da yeni sovet təhsil sistemi yaradılmışdı. Bu proses ilk növbədə maarif orqanlarının yaradılması ilə başlandı. 1920-ci ilin may ayında Azərbaycan SSR Xalq Maarif Komissarlığı və onun yerli (qəza) şöbələri yaradıldı. 1920-ci ilin mayın 26-da verilən dekret əsasında Azərbaycanda ikipilləli məktəb sistemi yaradılır və birinci pillə beşillik, ikinci pillə isə dörd illik idi. ikinci pillə orta təhsil verirdi. 1924-cü ildə bir və ikipilləli məktəblərlə yanaşı, 7-illik fabrik - zavod, 1926-cı ildə isə kəndli gənclər məktəbləri yaradılmışdır.

1920-1922-ci illərdə müəllim kadrları hazırlamaq üçün Bakıda, Şəkidə, Şuşada, Gəncədə, Qazaxda və Naxçıvanda müəllim seminariyaları açılmışdır və 1925-1926-cı illərdə 16 texnikum fəaliyyət göstərirdi. 1930-cu ildə onların sayı 85-ə çatmışdı. 1936-1937-ci tədris ilində Azərbaycanda 15 mindən çox müəllim var idi. 1939-cu ildə onların sayı 19 minə çatmışdı. 1921-1932-ci illərdə 185 yeni məktəb binası tikilib istifadəyə verilir və 1937-ci ilin axırı üçün respublikada 108 mindən çox şagird yeri olan 336 yeni məktəb tikilmişdi. Onlardan 260-ı kənd yerlərində idi. 1920-1921-ci tədris ilində birinci pillə məktəblərdə cəmi 6148 nəfər qız təhsil alırdı. 1926-1927-ci tədris ilində onların sayı iki dəfədən çox artmışdı.

1924-cü ildə respublikada 8 darülmüəllim var idi və burada 1774 nəfər pedaqoji təhsil alırdı. Bu dövrdə nümunə üçün belə bir faktı qeyd edək. İnqlabdan əvvəl ancaq üç nəfər türk (azərbaycanlı) fizika-riyaziyyat ixtisası üzrə ali təhsil almışdır (BDU-nun professorları olmuşlar). 1924-1941-ci illərdə Azərbaycan Pedaqoji İnstitutu respublikamız üçün 529 riyaziyyat müəllimi hazırlamışdır. Bunlardan 69 nəfəri 1924-1927-ci illərdə, 460 nəfəri isə 1931-1941-ci illərdə təhsil almışdır. Yeddiillik məktəblərin bir neçə əsas fəndən müəllim kadrlarına böyük ehtiyacını nəzərə alaraq Sovet hökuməti 1935-ci ildə Bakıda (əvvəl V.İ.Lenin adına APİ-nin nəzdində, 1938-ci ildə isə müstəqil) ikiillik Müəllimlər İnstitutu təşkil olunur.

1923-cü ildə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin III sessiyasında respublikada xalq maarifinin vəziyyəti haqqında məruzə edən, o zamankı

Maarif Komissarı M.Quliyev məktəblərin müəllimlərə böyük ehtiyacını qeyd edərək demişdir: "Darülfünunun fizika-matematik fakültəsində 326 tələbə vardır. 326-nın içində türklər (azərbaycanlılar) çox azdır. Azərbaycanda matematik çox azdır. Bu 326 nəfərin 10-u türk (azərbaycanlı), 110-u rus, 89-u erməni, 197-si yahudi, 20-si qeyri-millətlərdir". Həmin məruzədə məhz müqayisə məqsədi ilə göstərilir ki, Darülfünunun tibb fakültəsində isə 1044 tələbədən 266 nəfəri azərbaycanlıdır. Bu dövrdə məktəblərin maddi-texniki bazasını yaxşılaşdırmaq, xalqın uşaqlarına hələlik sadəcə ilk təhsili, yəni oxumuq, yazmaq və hesablamaq bacarığı vermək tələb olunurdu.

O zaman "Maarif işçisi" jurnalı yazırdı: "Gəncə qəzası Dəliməmmədli dairəsində 56 kənd var idi. Bunların yalnız 14-də məktəb müəllimləri var idi. Göstərdiyimiz 14 kənddə məktəb binaları uçurulmuş məscidlərdən, xərabə qalmış damlardan və mal tövləsinə bənzəyən binalardan ibarət idi. Bunların içərisində yalnız Səfikürd kənd məktəbini müstəsna kimi göstərmək olar. Binaların təmiri, qapı və pəncərələri yox idi, oxumağa gedən uşaqlar məktəblərdə soyuğa dözə bilmirdilər. Ona görə də kənd müəllimləri vaxtlı-vaxtında proqramı həyata keçirə bilmirlər, həm də kəndli cocuqlarını lazımi qədər hazırlaya bilmirlər". Dəliməmmədli dairəsi istisna təşkil etmirdi, eyni vəziyyəti respublikanın başqa qəzalarına da aid etmək olar.

1926-1927-ci illər üçün Azərbaycanda 1420 birinci pilləli məktəb fəaliyyət göstərirdi. Onlarda 150 mindən çox şagird təhsil alırdı. 1926-1927-ci tədris ilində respublikanın bütün məktəblərində 167 minə yaxın şagird təhsil alırdı. 1930-cu illərdə artıq təhsil kütləvi xarakter almışdı. 1927-1928-ci tədris ilindən başlayaraq ümumi icbari təhsilə keçilməsinə başlanıldı. 1930-cu il avqustun 29-da ümumi icbari ibtidai təhsil tətbiq edilməsi barədə qərar verildi və bu on il müddətində başa çatmalı idi.

Sov.İKP-nin proqramında müəyyən edildiyi kimi, sovet məktəbi politexnik məktəbi idi və Sovet məktəbinin inkişaf tarixində əsas məsələlərdən biri məktəbin politexnikləşmə yolunda irəliyə doğru hərəkəti məsələsi idi. 1930-cu ilin iyul ayında Moskvada keçirilən xalq maarifi üzrə ikinci Ümumittifaq partiya müşafirəsi "Xalq maarifi sistemi haqqında" qəbul etdiyi qərarda politexnizmin inkişafını xalq maarifinin əsas məsələsi hesab edirdi. Sənaye və kənd təsərrüfatı texnikasının artması və məktəblərin maddi texniki bazasının nisbətən yaxşılaşması (bir çox məktəblərdə emalatxanaların təşkili, kənd məktəblərinin məktəbyanı sahə ilə təmin edilməsi və s.) artıq politexnizmi gücləndirmək üçün şərait yaratmışdı.

1931-ci ilin yanvar ayında Azərbaycan müəllimlərinin ikinci qurultayında politexnik təhsil məsələlərinin geniş müzakirəsi oldu.

Azərbaycanda sovet məktəbi tarixinin ilk dövrünün (1920-1923) ən əsas yekunu ana dilində məktəbin yaranması olmuşdur.

Birinci beşillik plan üzrə ölkədə sənaye, kənd təsərrüfatının və s. inkişafı yeni mütəxəssislərin hazırlanması və ümumiyyətlə, sovet cəmiyyətinin mədəni

səviyyəsini yüksəltmək tədbirləri məktəb qarşısında yeni vəzifələr irəliyə sürmüşdü. 1928-ci il iyul MK Plenumunda yeni mütəxəssislərin hazırlanmasının yaxşılaşdırması haqda məsələ müzakirə olunmuşdu. Plenumun qərarında deyilirdi: "Elə edilsin ki, ikinci dərəcəli məktəbi qurtaranlar ali məktəblərə daxil olmağa hazırlanmış olsunlar".

ÜİK(b)P-nin MK-nın XVI qurultayı o dövrdə mədəni inqilabın əsas məsələsi olaraq ümumi icbari ibtidai təhsilin həyata keçirilməsini lazım bilmişdi. Buna əsasən ÜİK(b)P Mərkəzi Komitəsi "Ümumi icbari ibtidai təhsil haqqında" 1930-cu il 25 iyul tarixli qərarında 1930-1931-ci ildən etibarən hər yerdə 8-10 yaşlı uşaqlar üçün ümumicbari ibtidai təhsilin, sənaye şəhərlərində, fabrik-zavod olan rayonlarında və fəhlə qəsəbələrində ümumi icbari 7-illik təhsilin həyata keçilməsini lazım bilmiş, əlaqədar təşkilatladan tələb etmişdi.

1932-1937-ci illərdə ÜİK(b)P MK-nın bir neçə məlum qərar və göstərişləri də yuxarıdakı məsələlər sahəsində sovet məktəbində təlim və tərbiyə işlərinin məzmun və üsullarını müəyyən edir, həmin tələblərin, qərarların həyata keçirilməsi prosesində təhsil qarşısında yeni vəzifələr meydana çıxır və müəyyən dəyişikliklər edilməsi lazım gəlirdi.

"İbtidai, natamam orta və orta məktəbdə tədris işinin təşkili və daxili qayda haqqında" SSRİ XKS və ÜİK(b)P MK-nın 3 sentyabr 1935-ci il qərarında məktəbdə təlim və tərbiyə işlərinin təşkilində o zaman bir sıra mövcud nöqsanların aradan qaldırılması üçün təkliflər var idi və orada şagirdlərin müvəffəqiyyətini qiymətləndirməkdə beş bal sisteminə keçmək təklif olunurdu. İbtidai məktəb müəllimləri hazırlamaq üçün pedaqoji texnikumların sayı 18-ə çatırdı və orada 4 mindən artıq tələbə təhsil alırdı.

Partiyanın XVIII qurultayı məktəbə dair qərarlarında şagirdləri məktəbdə gələcək təcrübi işə hazırlamaq tələbini əsas bir vəzifə olaraq maarif orqanları qarşısında qoydu. Sovet hökuməti kommunist ideologiyasının bütün ictimai şüur formaları üzərində hakim mövqe tutması siyasətini davam etdirirdi. Bu idealların həyata keçirilməsində əsas rolu ümumtəhsil məktəbləri oynayırdı.

1932-1933-cü tədris ilində ibtidai məktəblərə 370 min nəfərə yaxın uşaq cəlb olunmuşdu. Onlardan 89 min nəfəri azərbaycanlılar idi.

1935-ci ildə məktəb sistemində dəyişikliklər edildi. İkinci pilləli təhsil sistemi ləğv olundu. Ümumtəhsil təlim sistemi ibtidai, natamam orta (7-illik) və orta məktəblər şəklində quruldu. 1940-1941-ci tədris ilində respublikada 3575 məktəb fəaliyyət göstərirdi və bu məktəblərdə 653 mindən çox şagird təhsil alırdı. Bakı, Şəki, Gəncə, Naxçıvan, Xankəndi şəhərlərində ümumi icbari yeddiillik təhsilə keçilmişdi.

1921-ci ilin yanvarında Bakı texniki məktəbi və Bakıya köçürülmüş Petroqrad politexnikumu əsasında Azərbaycan Politexnik İnstitutu açılır. 1930-cu ildə o, Azərbaycan Neft İnstitutuna çevrildi. 1930-cu ildə Azərbaycan

Dövlət Pedaqoji İnsitutu yenidən müstəqil instituta çevrildi. O, 1927-ci ildə BDU-nun pedaqoji fakültəsi ilə birləşdirilmişdi.

1921-ci ildə ilk qadın ali məktəbi – Azərbaycan məktəbəqədər tərbiyə institutu açılmışdır. 1922-ci ildə o, Qadın Pedaqoji İnstitutuna çevrildi. 1921-ci ildə şərqdə ilk ali musiqi məktəbi olan Azərbaycan Dövlət Konservatoriyası yaradıldı. 1929-cu ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutu, 1930-cu ildə Azərbaycan Dövlət Tibb İnstitutu, Sənaye Akademiyası, Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu, 1934-cü ildə Xalq Təsərrüfatı İnstitutu, 1936-cu ildə Qiyabi Pedaqoji, 1939-1940-cı illərdə Şəkidə, Gəncədə və Naxçıvanda ikiillik Müəllimlər İnstitutları yaradıldı. Artıq 1940-cı ildə Azərbaycanda 16 ali məktəb fəaliyyət göstərirdi. Onlarda da 15 min tələbə təhsil alırdı.

1917-ci ildə Azərbaycanda əhalinin cəmi 9,3 faizi savadlı idi. SSRİ XKS 1921-ci ilin 14 iyulunda savadsızlığın ləğvi barədə qərar verdi. Savad məktəblərinin şəbəkəsi genişləndi. 1922-1923-cü tədris ilində Azərbaycanda 446 savad məktəbi fəaliyyət göstərirdi. Onlarda da 14336 nəfər adam oxuyurdu. 1923-cü ilin dekabrında Q.Musabəyovun başçılığı ilə "Savadsızlıqla mübarizə Komitəsi" yaradıldı. 1924-1925-ci tədris ilində respublikada 1233 savadsızlığı ləğvetmə məktəbi var idi. Onlarda 31755 nəfər təhsil alırdı. 1926-1927-ci tədris ilində 102870 nəfər, 1928-1930-cu illərdə isə təqribən 213 min adam savadsızlığını ləğv etmişdi. 1937-ci il üçün respublikada bir milyondan çox adam savad kurslarında oxuyurdu. 1940-cı ildə müəllimlərin köməyi ilə yaylaqlarda 23 min nəfərdən çox adam savadsızlığını ləğv etmişdi. 1940-cı il üçün respublika əhalisinin 73,5 faizi savadsızlığını ləğv etmişdi.

Azərbaycanda əlifba problemi hələ XIX əsrdə M.F. Axundov tərəfindən qaldırılmışdı. 1922-ci ilin mayında isə Yeni Türk əlifbası daimi Komitəsi yaradıldı. 1923-cü il oktyabrın 20-də Azərbaycan SSR MİK-sı "Yeni Azərbaycan əlifbasının dövlət əlifbası kimi tanınması haqqında" qərar qəbul olunmuşdur.

1925-ci ildən etibarən bütün birinci pillə məktəblərində latın qrafikasına keçilməyə başlandı. 1932-1933-cü tədris ilindən birinci və ikinci pillə məktəblərində latın qrafikasına keçilməsinin başa çatdırılması irəli sürülmüş və həmin ildə yeni əlifba kursları açılmışdır.

Azərbaycan MİK və Azərbaycan SSR XKS 1928-ci il iyulun 21-də "Azərbaycanda yeni türk əlifbasının icbari və qəti olaraq tətbiq olunması haqqında" qərar verilmişdir. 1929-cu il yanvarın 1-dən Azərbaycanda yeni əlifbaya keçilməsi rəsmən elan olundu.

1930-cu illərin ortalarından Azərbaycanda kiril qrafikasına keçmək hərəkatı başlanır. 1939-cu ilin iyulunda latın əlifbasının kirillə əvəz edilməsi barədə qanun qəbul edilmişdir. 1940-cı ilin yanvarın 1-dən kiril qrafikinə keçilmişdir. Bununla da Azərbaycan dünya ədəbiyyatı və mədəniyyəti ilə Rusiya vasitəsilə tanış olmağa başladı, Azərbaycanda savadsızlığın yeni mərhələsi başlandı və əhali savad əldə etmək üçün kiril əlifbasını öyrənməyə məcbur oldu.

Böyük Vətən Müharibəsi məktəblərin həyatına da təsir etdi, təlim-tərbiyə sahəsində qarşıya yeni vəzifələr qoydu. 1940-1941-ci tədris ilində respublika məktəblərində müəllimlərin sayı 1945-1946-cı dərs ilindəkindən iki dəfə çox idi. Böyük Vətən müharibəsi illərində və müharibədən sonrakı dövrdə sovet məktəbinin yeni vəzifələri ilə əlaqədar olaraq, Sovet hökuməti və Kommunist partiyası təlim-tərbiyə işlərini yaxşılaşdırmaq məqsədi ilə bir sıra tədbir həyata keçirmişdir.

1. SSRİ XKS-nin 1943-cü il 8 sentyabr tarixli qərarı üzrə 1944-1945-ci tədris ilindən yeddiyaşlı uşaqlar birinci sinifə qəbul olunurlar.

2. SSRİ XKS-nin 1944-cü il iyun ayının 21-də "Məktəbdə tədrisin keyfiyyətini yaxşılaşdırmaq tədbirləri haqqında"kı qərarına əsasən ibtidai və yeddiillik məktəbi bitirən şagirdlərin məcburi buraxılış imtahanları, orta məktəbi bitirənlərin isə kamal attestatı imtahanları verməleri müəyyən edilir. Həmin qərarda kamal attestatı imtahanlarında əla müvəffəqiyyət əldə edən, nümunəvi əxlaqı olan şagirdlərin qızıl və gümüş medallar ilə mükafatlandırılması göstərilir.

Böyük Vətən Müharibəsi vəziyyəti tamamilə dəyişdi. Bir tərəfdən müəllimlərin müəyyən hissəsinin Sovet Ordusu sıralarına çağrılması, digər tərəfdən isə 1942-ci ildə V.İ.Lenin adına APİ-nin və Qiyabi Pedaqoji İnstitut kimi əsas müəllim ocaqlarının S.M. Kirov adına ADU ilə birləşməsi hazırlanmaqda olan müəllim kadrlarının sayını azaltdı, o zaman yüzlərlə məktəblərdə (xüsusən kənd rayonlarında) ixtisaslı müəllimlər yox idi. Vəziyyət çox ağır olduğu üçün Azərb. XMK-nin qərarı əsasında 1943-cü ildə əvvəlkilərə əlavə olaraq Ağdamda, Qazaxda və Qubada İkiillik Müəllimlər İnstitutları təşkil edilir. Bundan başqa, yenə həmin il Kirovabad ikiillik Müəllimlər İnstitutu orta məktəblər üçün müəllim hazırlayan Pedaqoji İnstituta çevrilir (H.B.Zərdabi adına KPİ). 1943-1944-cü dərs ilinin ortasında V.İ.lenin adına APİ və 1945-ci ildə isə Qiyabi Pedaqoji İnstitut bərpa edildi. Müharibədən sonrakı bərpa illərində müəllimlərin hazırlanması sahəsində əldə edilmiş müvəffəqiyyətlərdə V.İ.Lenin adına APİ-ni ayrılıqda qeyd etmək olar. 1946-cı ilin avqust ayında Azərbaycan müəllimlərinin üçüncü qurultayı çağırılır bu tarixi hadisənin də bütün məktəb işlərinə və o cümlədən müəllimlərin işlərinə müsbət təsiri olmuşdur.

İkinci Dünya Müharibəsi dövründə Azərbaycanda yüzlərlə təhsil və mədəniyyət ocaqları bağlanmış, bir çox orta ixtisas və ali təhsil müəssisələri hərbi xəstəxanaya çevrilmişdi.

Müharibədən sonra dövlətin və xalqın səyləri sayəsində 1946-1970-ci illərdə respublikada 169 ümumtəhsil məktəb binası, 74 min yerlik məktəbəqədər uşaq müəssisəsi tikilib istifadəyə verilmişdir. 1970-1971-ci dərs ilində respublikada 5115 ümumtəhsil məktəbi, 1600-ə qədər məktəbəqədər uşaq müəssisəsi fəaliyyət göstərirdi. Ümumtəhsil məktəblərində 1,4 milyondan çox şagird təhsil alır, məktəbəqədər uşaq müəssisələrində 110 mindən çox uşaq

tərbiyə olunurdu. 1970-1980-ci illərdə Azərbaycan xalq maarifinin inkişafı sahəsində də ciddi irəliləyişlər olmuşdur. Bu illərdə respublikada 703 min yerlik 1058 ümumtəhsil məktəb binası və 101 məktəbəqədər uşaq müəssisəsi tikilib istifadəyə verilmişdi.

1949-cu ildə ümum icbari yeddiillik, 1959-cu ildə icbari səkkizillik təhsilə, 1966-cı ildə isə icbari orta təhsilə keçilmişdi. Həm də ümumtəhsil məktəblərinin yeni forması, "internat məktəbləri" meydana çıxmışdır. Ümumtəhsil məktəblərində politexnik təlimə diqqət artırılmışdır. Ulu öndərimiz Heydər Əliyevin təşəbbüsü ilə 1971-ci ildə azərbaycanlı gənclərdən hərbi kadrlar hazırlayan C.Naxçıvanski adına orta ixtisaslaşdırılmış internat məktəbi təşkil olundu. 1970-1980-ci illərdə respublikada 100-dən çox yeni texniki peşə məktəbi yaradılmış, 1990-cı ildə respublikada 182 belə təhsil ocağı fəaliyyət göstərirdi. Bu məktəblərdə 86 min gənc təhsil alırdı. Müharibədən sonra respublikada 70 mindən çox tələbəsi olan 79 orta ixtisas məktəbi fəaliyyət göstərirdi və ali təhsilin inkişafında da ciddi irəliləyişlər olmuşdu. 1950-ci ildə Teatr İnstitutu (Mədəniyyət və İncəsənət Universiteti), 1946-cı ildə ikiillik Rus dili Müəllimlər İnstitutu, 1946-cı ildə rəhbər partiya və sovet kadrları hazırlamaq məqsədi ilə Azərbaycan K(b)P MK yanında ikiillik partiya məktəbi açıldı. Sonradan dördillik ali partiya məktəbinə (indi Prezident yanında İdarəçilik Akademiyası) çevrildi. 1948-ci ildə Pedaqoji Xarici Dillər İnstitutu, 1950-ci ildə Politexnik İnstitutu (indi Texniki Universitet) yenidən açıldı. 1952-ci ildə ikiillik Rus dili Müəllimləri İnstitutu zəminində Rus dili və ədəbiyyatı İnstitutu (indi Slavyan Universiteti) təşkil olundu. 1954-cü ildə bu institut Pedaqoji Xarici Dillər İnstitutu ilə birləşdirildi. 1971-ci ildən onlar yenidən müstəqil ali təhsil müəssisəsi kimi fəaliyyət göstərməyə başladılar.

Müharibədən sonra Bakıda Qiyabi Pedaqoji İnstitut, Naxçıvanda, Ağdamda, Qazaxda, Şəkidə, Qubada ikiillik Müəllimlər İnstitutları da fəaliyyət göstərmişdi. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filialları əsasında 1972-ci ildə Naxçıvan, 1973-cü ildə Xankəndi Pedaqoji İnstitutları (indi Naxçıvan Dövlət Universiteti və ADPU-nun Ağcabədi filialı), 1976-cı ildə İnşaat Mühəndisləri İnstitutu (indi Azərbaycan Dövlət Memarlıq və İnşaat Universiteti), 1981-ci ildə Gəncə Texnologiya İnstitutu yaradılmışdır.

1980-ci illərin sonu üçün Azərbaycanda 17 ali məktəb fəaliyyət göstərirdi və bu məktəblərdə 105 min gənc təhsil alırdı.

1945-ci ilin yanvarında Azərbaycan Elmlər Akademiyasının (indi Azərbaycan MEA) yaradılması respublika elminin inkişafında çox mühüm hadisə oldu. Onun ilk prezidenti məşhur tibb alimi akademik Mirəsədulla Mirqasımov olmuşdu. 1990-cı ildə Akademiyada 20 elmi–tədqiqat institutu, onlarla elmi idarə və mərkəz fəaliyyət göstərirdi. Respublikada fəaliyyət göstərən 125 elmi müəssisə və mərkəzdə 23 min nəfərdən çox elmi işçi, o cümlədən 10 mindən çox elmlər doktoru və elmlər namizədi çalışırdı.

1952-1956-cı illərdə politexniki təlimin həyata keçirilməsi istiqamətində məktəblərin bir hissəsində bəzi təcrübə əldə edilmişdi, lakin həyata keçirmək üçün məktəbdə təlim-tərbiyə işlərini yenidən qurmağı tələb edən əsaslı dəyişikliklər lazım gəlirdi ki, bu işə 1958-ci ildən başlandı.

Sov.İKP XX qurultayının xalq maarifi haqqında qəbul etdiyi qərarların həyata keçirilməsi ilə sovet məktəbinin inkişayında yeni bir dövr başlandı. 1959-cu ilin mart ayında Azərb. SSR Ali Sovetinin beşinci çığırışının birinci sessiyası məktəb haqqında uyğun qanun qəbul etdi. Sovet məktəbi haqqında qəbul edilmiş "Qanun" əsasında tədris fənlərində ciddi dəyişikliklər edilməsi lazım gəldi. Nəhayət, 1960-cı ilin sonunda RSFSR MN-liyi, layihələrin materiallarının müzakirəsinə əsaslanaraq yeni proqramlar təsdiq etdi. Universitetdə və Pedaqoji İnstitutlarda gənclərin təhsil sahəsində nailiyyətləri həm kəmiyyətcə həm də keyfiyyətcə yaxşılaşırdı. 1959-cu ildən icbari səkkizillik təhsil müəyyən edildi. Yuxarı sinif şagirdlərinə peşə öyrətmək üçün əmək təliminə geniş yol verildi. 1966-cı ildə məcburi onillik təhsilə keçildi. Texniki peşə məktəbələrinin şəbəkəsi genişləndirildi.

Azərbaycanda elm ocaqları yaranmış və alimlər dəstəsi yetişmişdir. 1945-ci ildə Azərbaycanda yaranmış Elmlər Akademiyası və onun yanında Elmi-tədqiqat İnstitutlarının təşkili Respublikada elmi yüksəlişin əlaməti idi və bu hadisə sonrakı nailiyyətlərin əsası oldu. Azərbaycan alimlərinin elmi zənginləşdirən əsərləri 1960-cı illərdə xarici ölkələrdə də məlum idi. Bu sahədə də əlamətdar cəhət yüzlərlə gəncin elmi yaradıcılıq işinə qoşulması idi. SSRİ-nin, demək olar ki, bütün elmi mərkəzlərində respublikamızın gənc alimlərinə və elmi yaradıcılığa hazırlaşan gənclərinə rast gəlmək olurdu.

1990-cı illərin əvvəllərində Azərbaycan SSR-də 17 ali, 77 orta ixtisas məktəbi var idi. SSRİ-nin digər ali məktəblərində Azərbaycan üçün ən zəruri ixtisas sahələri üzrə on minlərlə kadrlar hazırlanırdı. Ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi dövründə bu iş daha da genişləndi. SSRİ-nin ən mühüm ali məktəblərində Azərbaycan üçün 17 mindən çox yüksək ixtisalı mütəxəssis hazırlanmışdı. 1990-cı ildə Respublikada 182 texniki-peşə məktəbi vardı.

Bu dövrlərdə Azərbaycan təhsil sistemi daim inkişaf etməkdə idi. Ölkənin ümumtəhsil məktəblərində 1,5 milyona yaxın şagird və ali təhsil ocaqlarında 100 mindən çox tələbə təhsil alırdı.

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan məktəbi keçid dövrünü yaşayırdı. İqtisadi, siyasi və mənəvi həyatdakı ziddiyyətlər respublikada təhsili ciddi problemlər qarşısında qoydu. Təhsilə kifayət qədər vəsait ayırmaq mümkün deyildi. Məktəblərin maddi-texniki bazası zəifləyirdi. Nəzarətsizlik ucundan bir çox təhsil müəssisələri başqa məqsədlər üçün istifadə olunurdu. Son illərdə təhsilin inkişafı sahəsində müəyyən irəliləyişlər baş vermiş, məktəb kommunist ideologiyası təsirindən xilas olmuşdur. Yeni proqramlar və dərsliklər yaradılmışdır. Azərbaycanda 4,5 mindən çox ümumtəhsil

məktəbi fəaliyyət göstərir, onlarda bir milyon 500 mindən çox şagird təhsil alırdı. Onlarla lisey və gimnaziya yaradılmışdır.

Bu illərdə Respublikada özəl ali məktəblərin geniş şəbəkəsi meydana gəldi. Ali məktəblərdə 120 mindən çox tələbə təhsil alırdı. Onların arasında 30-dan çox xarici ölkənin 2 mindən çox vətəndaşı vardır. Hazırda bu rəqəm üç min nəfərdən çoxdur.

Gənclərin xarici ölkələrin ali məktəblərində təhsil almasına şərait yaradılmışdır. 1992-ci il aprel ayında Azərbaycanın Ali Attestasiya Komissiyası təşkil olundu və "Ali məktəblərə test üsulu ilə qəbul haqqında" qərar verildi.

1984-1990-cı illərdə fəaliyyət göstərmiş "Bakı Mədrəsəsi" 1991-ci ildə "Bakı İslam İnstitutu"na, 1994-cü ildə bu institut "Qafqaz İslam Universiteti"nə, 1997-ci ildə isə "Bakı İslam Universiteti"nə çevrilmişdir.

Ulu öndərimiz Heydər Əliyevin 1999-cu il 20 fevral tarixli fərmanı ilə Hərbi Akademiya yaradılmışdı. Azərbaycan Respublikasının silahlı qüvvələrinin hazırlığını təkmilləşdirmək məqsədi ilə Prezidentin 2001-ci il 20 avqust tarixli fərmanı əsasında Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər müvafiq olaraq, Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırılmışdı. 1997-2001-ci illərdə Zabit Heyyətini Təkmilləşdirmə kurslarının, Gizir Hazırlığı Məktəbinin, Cəmşid Naxçıvaniski adına Hərbi Liseyin Naxçıvan filialının, Ehtiyat Zabitlərinin Hazırlığı kursu və Azərbaycan Tibb Universitetində Hərbi Tibb fakültəsi yaradılmışdır.

1998-cu il martın 30-da Prezidentin sərəncamı ilə Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyası yaradıldı. Dövlət Komissiyası tərəfindən çox qısa müddətdə "Azərbaycan Respublikasının Təhsil Sahəsində İslahat Proqramı" hazırlanmış və 1999-cu il iyunun 15-də Prezident tərəfindən təsdiq olunmuşdu. Proqramda Azərbaycan milli təhsil sisteminin konsepsiyası və strategiyası müəyyənləşdirilmişdi. İslahat Proqramı üç mərhələdə (1999-cu il, 2000-2003-cü illər və 2004-cü ildən sonrakı dövr) həyata keçirilməli idi. Onun həyata keçirilməsi üçün 100-ə qədər hüquqi–normativ sənəd təsdiq edilib istifadəyə verilmişdi.

Azərbaycan təhsil tarixində ilk dəfə 1999-cu ildə ümumtəhsil məktəbləri üçün dövlət standartları və bazis tədris planları təsdiq olunmuşdu.

Latın qrafikalı əlifbanın keçilməsinə hələ 1992-ci ildən başlanmasına baxmayaraq, o çox ləng getmişdi. Ulu öndərimiz Prezident Heydər Əliyevin 2001-ci il 18 iyun tarixli fərmanı ilə həmin il avqustun 1-dən etibarən o, tamamilə və qəti olaraq tətbiq olunmağa başladı.

Bu dövrdə mühüm yeniliklərdən biri də ümumtəhsil sistemində müxtəlif tipli təhsil müəssisələrinin: liseylərin, gimnaziyaların, kolleclərin, pilot məktəblərinin meydana çıxması idi. 2002-ci ildə respublikada 74 belə ümumtəhsil məktəbi fəaliyyət göstərirdi. 2001-ci ildə respublikada ilk Bakı Özəl təhsil kompleksi yaradılmışdı. Bu illərdə respublikada 38 umumtipli internat

məktəbləri də mövcud idi. Onlarda 18 minə yaxın uşaq təhsil alırdı. Mühüm uğurlardan biri də milli təhsilmizin vacib sahəsi olan peşə məktəblərinin qorunub saxlanması idi. Bu sahədə respublika hökumətinin 1996-cı ildə qəbul etdiyi "Azərbaycan Respublikasında peşə təhsilinin təkmilləşdirilməsi haqqında" qərarının mühüm rolu olmuşdu. 2001-ci ildə Azərbaycanda 108 ibtidai peşə təhsil müəssisəsi, o cümlədən 47 peşə liseyi, 61 peşə məktəbi fəaliyyət göstərirdi.

2000-2001-ci illərdə 1990-cı illərin birinci yarısında tənəzzülə uğrayan orta ixtisas məktəblərinin fəaliyyəti canlanmışdı. Respublikada 41,2 min tələbəsi olan (4-ü özəl idi) orta ixtisas məktəbi fəaliyyət göstərirdi. Respublikada texnikumlar şəbəkəsi də yenidən qurulur, orta ixtisas verən kolleclər yaradılırdı. Təhsilin təşkilində ən mühüm yenilik ali və orta ixtisas məktəblərinə qəbulun test üsulu ilə aparılmasıdır.

Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 13 iyun fərmanı ilə 4 aparıcı ali məktəbə: BDU, ADNA, ATU və AKTA-na maliyyə müstəqilliyi, bir çox ali məktəbə isə "Universitet" statusu verilmişdi. 2002-ci ildə NDU-i də maliyyə müstəqilliyi aldı. Prezidentin fərmanı ilə bir sıra universitetlər və institutlar "Akademiya" statusu almışdı.

Ali təhsil sistemində özəl ali məktəblər şəbəkəsi meydana gəlmişdi və respublikanın şəhərlərində, hətta qəsəbələrində 121 özəl ali məktəb təşkil olunmuşdu. Onlardan ancaq 18-nin dövlət lisenziyası olmuşdur. Ali təhsilin məzmununda da dəyişikliklər olmuşdu. 1993-cü ildən etibarən, ali incəsənət, mədəniyyət, tibb və idman ixtisasları istisna olmaqla, ali məktəblərdə çoxpilləli ali təhsil: dördillik bakalavr və ikiillik magistratura sistemi tətbiq olunmağa başlamışdı. Magistraturaya ilk qəbul 1997-ci ildə keçirilmişdi. Ali təhsil sistemində mühüm yeniliklərdən biri də 1993-1994-cü dərs ilindən başlayaraq, respublikanın dövlət ali məktəblərində başlanan ödənişli təhsil formasının genişlənməsi idi.

2000-2001-ci dərs ilində respublikada 43 ali məktəb fəaliyyət göstərirdi. Onlarda 119,7 mindən çox tələbə təhsil alırdı. 25 dövlət ali təhsil müəssisələrində 91 mindən çox (ondan 38,1 mini ödənişli), 18 özəl ali məktəbdə 29 minə yaxın tələbə oxuyurdu. Dövlət ali məktəblərində 22 mindən çox, özəl ali məktəblərində isə 5 mindən çox professor-müəllim heyəti çalışırdı. Bu illərdə dövlət büdcəsindən təhsilə ayrılan vəsait xeyli artmışdı. O, 1998-ci ilədək 581,3 milyard manatdan 2002-ci ildə 1,8 trilyon manata yüksəlmişdi.

Elmin inkişafı sahəsində də müəyyən irəliləyişlər olmuşdu. Ulu öndərimiz Prezident Heydər Əliyevin 1997-ci ilin fevralında alimlərin nümayəndələri ilə görüşü zamanı respublika elminin strateji istiqamətləri barədə proqram xarakterli çıxışı Elmlər Akademiyasının öz işlərini yeni tələblərə uyğun şəkildə qurmasında və əvvəlki mövqeyini bərpa etməsində mühüm rol oynamışdı. Prezident Heydər Əliyevin 2001-ci il 15 may tarixli fərmanı ilə Elmlər Akademiyasına Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) adı

verildi. 1990-cı illərin ortalarında Elmlər Akademiyası sistemində 35 elmi-tədqiqat institutu fəaliyyət göstərirdi. 2002-ci ilin əvvəllərində Azərbaycan MEA-da 60 akademik, 175 müxbir üzvü, 3899 elmi işçi, 451 elmlər doktoru və 1924 elmlər namizədi çalışırdı.

Naxçıvan MR-də elmi-tədqiqat qurumlarının fəaliyyətini gücləndirmək, mövcud elmi potensialdan səmərəli istifadə məqsədi ilə Prezident Heydər Əliyevin 2002-ci il 7 avqust sərəncamı əsasında AMEA-nın Naxçıvan bölməsi yaradılmışdı. Prezidentin "Azərbaycan Milli Elmlər Akademiyasının statusu haqqında" 2003-cü il 4 yanvar tarixli fərmanı ilə AMEA-nın statusu müəyyən olundu.

Prezident H.Əliyevin "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 13 iyun 2000-ci il tarixli fərmanı ölkədə ali təhsilin təşkili və inkişafında keyfiyyətcə yeni mərhələnin başlanğıcını qoydu. Respublika Prezidenti tərəfindən Azərbaycan Respublikasında Təhsil İslahatı Proqramının təsdiq edilməsi təhsilin beynəlxalq standartlara uyğunlaşdırılması baxımından çox əhəmiyyətli idi. Xüsusən milli tariximizin yenidən, obyektiv yazılması və tədrisi diqqət mərkəzində idi. Yeni tədris proqramlarının və dərsliklərin hazırlanması, orta məktəblərdə buraxılış imtahanlarının test üsulu ilə aparılması, tələbə qəbulu üzrə dövlət komissiyasının işinin daha da təkmilləşdirilməsi və s. tədbirlər təhsil islahatı proqramının tərkib hissələri idi.

Müstəqil dövlətimizin tarixində ilk dəfə olaraq, 2001-2002-ci illərdə Azərbaycanın tarixçi-alimləri, metodistləri və ümumtəhsil məktəblərinin qabaqcıl müəllimləri tərəfindən yazılmış VI-XI siniflər üçün "Ümumdünya tarixi" dərslikləri yüksək keyfiyyətlə çap edilərək şagirdlərin istifadəsinə verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yeni əsrin ilk illərində də dövlət dili olan Azərbaycan dilinin inkişaf etdirilməsinə və tətbiq edilməsinin genişləndirilməsinə xüsusi diqqət yetirmişdir. 2001-ci il 18 iyul tarixli fərmanla avqustun 1-dən etibarən Azərbaycanda latın əlifbasına keçilməsi, mətbuatın, təhsilin, rəsmi yazışmaların və çıxışların ana dilində olması barədə təbdirlər həyata keçirilməsinə başlamışdır. Prezident 2001-ci il avqustun 9-da "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" fərman imzalamışdır. Həmin fərmanla avqustun 1-i Azərbaycan Respublikasında Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd olunur.

Bütün bunlara baxmayaraq, bu dövrdə Azərbaycan mədəniyyəti mübarizliyi, mənəvi qüvvələrin öz kökünə və ümumbəşəri dəyərlərə daha möhkəm bağlanması ilə səciyyələnirdi. 1991-ci ilin dekabrnda latın qrafikalı Azərbaycan əlifbasının bərpa olunması haqqında qanun qəbul edildi. 1996-cı ilin payızında YUNESKO ilə əməkdaşlıq haqqında memorandum imzalandı. 1997-ci ilin yazında isə Azərbaycan Avropa Mədəniyyət Konvensiyasına qoşuldu. 1992-ci ilin ortalarında "Türkdilli ölkələrin Mədəniyyət Nazirliklərinin daimi Konseyni", 1993-cü ildə isə onun icra qurumu-TÜRKSOY yarandı.

Ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni tədris planları, proqramları və dərsliklərinin hazırlanması sahəsində ötən əsrdən başlanmış işlər müvəffəqiyyətlə davam etdirilir. Azərbaycan Respublikası Prezidentinin "Ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" fərmanına uyğun olaraq 2003-2007-ci illər üçün həmin məsələyə dair məqsədli Proqramın həyata keçirilməsinə başlanılmışdır. 2001-ci il sentyabr 1-də Respublikada dünya standartlarına cavab verə biləcək səviyyəli ilk özəl orta ümumtəhsil məktəbi olan, 2004-cü ilin sentyabr ayından ümummilli lider Heydər Əliyevin adını daşıyan Müasir Təhsil Kompleksi fəaliyyətə başlamışdır.

Dünya təhsil sisteminə inteqrasiya olunması sahəsində atılan addımlar daha da möhkəmləndirilmişdir. Prezident İlham Əliyev "Bilik gününün təsis edilməsi və təhsil müəssisələrində iş rejiminin tənzimlənməsi haqqında" və "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqramı"na (2005-2007) dair fərmanlar imzaamışdır (21 avqust 2004).

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasının milli Ensiklopediyasının nəşri haqqında" və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli sərəncamlarına əsasən çoxlu bədii nəşrlər oxucuların istifadəsinə verilmişdir.

Azərbaycanda təhsilin dünya təhsil sisteminə, xüsusən ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası prosesini, Bolonya Bəyannaməsinin tələblərinin yerinə yetirilməsi sahəsində işləri sürətləndirmək məqsədilə "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 31 yanvar 2008-ci il tarixli sərəncam imzalanmışdır. Prezident İlham Əliyev demişdir: "Biz iqtisadi potensialımızı intellekt kapitalına çevirməliyik. Hər bir ölkənin intellektual potensialı isə təhsil ocaqlarında yaradılır".

XX əsrin son on illiyində dünyanın inkişaf etmiş ölkələrində, o cümlədən keçid iqtisadiyyatı olan ölkələrdə hər sahədə olduğu kimi, elm və təhsil sahəsində də ciddi dəyişikliklər olmuşdur. Bu illərdə Azərbaycanda ali təhsil sahəsinin idarəetmə proseslərində və dövlət ali təhsil müəssisələrində əhəmiyyətli addımlar atılmışdır. Azərbaycanın rəqabət qabiliyyətinin üstünlüyü bir çox cəhətdən təhsillə müəyyənləşən insan potensialının inkişafı ilə də bağlıdır. Ulu öndərimiz Heydər Əliyev demişdir: "Həyat böyük bir prosesdir. Bu prosesdə uğurla iştirak etmək üçün insan müasir tələblərə uyğun elmə malik olmalıdır. Təhsil də daim təkmilləşdirilməlidir". Hazırda bir çox ölkələrin təhsil sistemlərində müxtəlif istiqamətlərdə inteqrasiya prosesləri özünü əks etdirir. Buna ən parlaq misal Bolonya prosesidir.

Azərbaycan Bolonya deklarasiyasına rəsmən qoşulmamışdan əvvəl ölkənin ali məktəblərində təhsilin beynəlxalq standartlara istiqamətlənməsi hərəkəti başlanmışdır. Ölkəmiz 1996-cı ildə qəbul etdiyi "Ali və ali məktəblərdən sonrakı peşə təhsili haqqında"kı Qanunda ali təhsilin çoxpilləli sistemi nəzərdə tutulmuşdur. Məhz bu səbəbdən əksər ali məktəblər, bir sıra istiqamətlər üzrə bakalavrların və magistrlərin hazırlanmasında mühüm təcrübə toplamışdır.

19 may 2005-ci il tarixində Norveçin Bergen şəhərində keçirilən konfransda Azərbaycan Bolonya prosesinə qoşulmuş və bu prosesin həqiqi üzvü seçilmişdir. Bolonya Bəyannaməsini imzalamaqla Azərbaycan Respublikası Təhsil Nazirliyinin təhsil islahatının Bolonya istiqamətini və konturlarını xeyli dərəcədə müəyyənləşdirmişdir.

Dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da ali təhsilə münasibətdə dövlətin təsirinin və rolunun güclənməsi sayəsində son illərdə böyük nailiyyətlər əldə edilmişdir. Bunu büdcədən təhsil sahəsinə ayrılan vəsaitin ildən-ilə artması da göstərir. Ölkə Prezidenti İlham Əliyev demişdir: "Azərbaycanın hərtərəfli inkişafı üçün iqtisadi amil əsas rol oynayır, maddi imkanlarımız artdıqca, bizim müstəqil siyasət aparmağımız da güclənir".

Dəyişikliklərə təkan verən daxili faktorlar sahəsində ən mühümü "Azərbaycan Respublikası ali təhsil sistemində 2006-2010-cu illərdə Bolonya Deklarasiyasının müddəalarının həyata keçirilməsi üçün tədbirlər planı"nın təsdiqi olmuşdur. Dövlət büdcəsindən ali peşə təhsilli mütəxəssis hazırlığına ayrılan xərclərin də ildən-ilə artması buraya daxildir. Prezident İlham Əliyev demişdir: "Azərbaycanın dövlət büdcəsinin xərclərindən təhsil məqsədlərinə çox böyük vəsait ayrılır. Ordu xərclərindən sonra təhsil xərcləri ikinci yerdədir".

Təhsil Nazirliyi tərəfindən "Ali təhsil müəssisələrində kredit sistemi ilə tədrisin təşkili barədə nümunəvi əsasnamə" hazırlanmışdır. Kredit sisteminin tətbiqi Azərbaycan təhsilinin Ümumavropa təhsil sisteminə inteqrasiyasını təmin edir, təhsilmizin cəlbediciliyini və rəqabət qabiliyyətini artırır.

Texniki profilli ali məktəblərimizdə TEMPUS proqramı üzrə müəyyən işlər aparılır. Proqramın əsas məqsədi texniki ixtisaslar üzrə mütəxəssis hazırlığını Avropa təhsil standarlarına uyğun olaraq təkmilləşdirməkdir. Respublika sənayesinin informasiya texnologiyalarını dərindən bilən və onları istehsalatda tətbiq etməyi bacaran yüksək ixtisaslı mühəndis kadrlara böyük ehtiyacı vardır. Texniki profilli ali məktəblərdə informasiya texnologiyalarını tətbiq etməklə ixtisas fənlərinin tədrisində ciddi dəyişikliklər aparılır. Respublikanın 5 ali məktəbində texniki profilli ixtisaslar üzrə ("Elektroenergetika", "Nəqliyyat vasitələrinin elektronikası və elektrik avadanlığı", "Avtomatlaşdırma və informasiya texnikası") TEMPUS proqramı çərçivəsində "Azərbaycanda ali məktəblərdə müasir mühəndis təhsili" adlı layihə həyata keçirilir və bu məqsədlə Köln Tətbiqi Elmlər Akademiyası ilə müqavilə də bağlanmışdır.

Azərbaycan Respublikasının sabiq təhsil naziri Misir Mərdanovun Azərbaycan müəllimlərinin XIII qurultayında demişdir: "Hesabat dövründə Azərbaycan təhsili dinamik inkişaf baxımından bir sıra yaddaqalan hadisə və göstəricilərlə əlamətdar olmuşdur. Belə ki, başlanmış təhsil islahatları geniş vüsət almış, təhsilə ayrılan büdcə 5 dəfədən çox artaraq 2008-ci ildə 1,1 milyard manat təşkil etmiş, investisiya qoyuluşları isə 5,8 milyondan 220 milyon manata çatmış, təhsil işçilərinin əməkhaqqı 6, tələbələrin təqaüdü 10, aspirantların (doktorantların) təqaüdü 4,5 dəfə armışdır. Təhsil tariximizdə ilk dəfə olaraq 14 inkişafyönümlü dövlət proqramı təsdiq olunub və uğurla həyata keçirilməkdədir".

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın təşəbbüsü ilə "Dünyada savadlılığın dəstəklənməsi" mövzusunda Bakı şəhərində keçirilmiş YUNESKO-nun regional konfransı təhsil tariximizdə mühüm hadisə olmaqla bərabər, Azərbaycanın dünyada qabaqcıl təhsil tendensiyalarını dəstəkləyən ölkə imicini daha da yüksəltmişdir.

Təhsilin inkişafı ilə bağlı dövlət proqramlarının yerinə yetirilməsi, təhsil infrastrukturunun müasir tələblərə uyğun təkmilləşdirilməsi, təhsilin məzmununun yeniləşdirilməsi, yeni dərslik siyasətinin reallaşdırılması istiqamətində islahatların həyata keçirilməsi, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni model və mexanizmlərin tətbiqi, əmək bazarının tələbatına uyğun kadr hazırlığının və pedaqoji kadrlarla təminatın yaxşılaşdırılması, təhsil müəssisələrinin İKT ilə təminatı və təhsil sisteminin informasiyalaşdırılması, beynəlxalq əlaqələrin genişləndirilməsi və digər bu kimi aktual məsələlər öz həllini tapmaqdadır.

Dövlət başçısının diqqət və qayğısı nəticəsində son beş ildə 300 min şagird üçün 1360 yeni məktəb binasının tikilməsi çağdaş təhsil tariximizin ən parlaq səhifələrindəndir. Məktəb tikintisi ilə yanaşı, həmin dövrdə 300-dək məktəb əsaslı təmir edilmiş, yeni tikilən və əsaslı təmir edilən məktəblərlə bərabər, daha 500 məktəb də müasir avadanlıqlarla təmin olunmuşdur.

Məktəblərin infrastrukturunun yeniləşdirilməsi sahəsində Heydər Əliyev Fondunun təşəbbüsü ilə reallaşdırılan "Yeniləşən Azərbaycana yeni məktəb" və "Uşaq evləri və internat məktəbləri" proqramları çərçivəsində 43770 şagird yerlik 226 yeni məktəb tikilmişdir.

Ölkə Prezidentinin sərancamı ilə təsdiq edilmiş 2005-2007-ci illəri əhatə edən "Ümumtəhsil məktəblərinin İKT ilə təminatı Proqramı" ümumi təhsilin inkişafında tarixi nailiyyət kimi qiymətləndirilməlidir.

Azərbaycanda 2004-cü ildən başlanan məzmun dəyişiklikləri təlim-tədris posesinin sistemli planlaşdırılmasını özündə əks etdirən kurrikulum islahatları adı altında aparılır. Azərbaycan hökuməti tərəfindən 30 oktyabr 2006-cı ildə təsdiq olunmuş "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurrikulumu)" sənədinin və bu sənədin tələblərinə uyğun

hazırlanıb təsdiq edilmiş fənn kurrikulumlarının didaktik əsasını nəticəyönümlülük, tələbyönümlülük və şəxsiyyətyönümlülük prinsipləri təşkil edir.

Dövlət başçısının müvafiq sərəncamına əsasən "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı" layihəsini, eyni zamanda YUNESKO və digər beynəlxalq qurumların qəbul etdiyi sənədlərə uyğun hazırlanmışdır.

24 oktyabr 2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Azərbaycan Təhsilinin İnkişafı üzrə Dövlət Strategiyasının təsdiq olunması haqqında" sərəncam imzalamışdır.

"Azərbaycan Təhsilinin İnkişafı üzrə Dövlət Strategiyasının təsdiq olunması haqqında" təhsil islahatlarının daha sistemli aparılması və ölkənin inkişafına daha yüksək töhfələr vermək istiqamətində düşünülmüş konseptual bir sənəddir. Ölkə Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə qəbul olunmuş Dövlət Strategiyası Azərbaycanda təhsil islahatlarının keyfiyyətcə yeni mərhələyə keçidinə zəmin yaradacaqdır.

**BAKI DÖVLƏT UNİVERSİTETİ.** Azərbaycan Demokratik Cümhuriyyətin Parlamentinin 01 sentyabr 1919-cu il tarixli iclasında Bakıda universitetin təsis edilməsi qərarı qəbul edildi və onun nizamnaməsi təsdiq olundu, Avropa və Asiyanın qovşağında yeni bir ali təhsil ocağı yaradıldı. Universitet ilk tədris ilini 2 fakültə ilə, tarix-filologiya, tibb fakültələri və 1094 tələbə ilə başladı. Universitetin ilk rektoru Qazan Universitetinin professoru, məşhur cərrah V.İ.Razumovski olmuşdur.

Universitetin 1920-1930-cu illərdə aparıcı müəllimləri dahi Azərbaycan yazıçısı Əbdürrəhim bəy Haqverdiyev, tanınmış Şərqşünaslar: professor P.K.Jüze, professor A.O.Makovelski, professor A.O.Mişel və digər tanınmış alimlər olmuşlar. Həmin dövrlərdə universitet rəhbərliyinin dəvəti ilə Bakıya öz ixtisasları üzrə mühazirələr oxumaq üçün N.Y.Marr, V.V.Bartold, Şərq Elmlər Akademiyasının akademiki Fuad bəy Küprüllüzadə universiteti ziyarət etmişlər. Məşhur həmyerlimiz, Nobel mükafatı laureatı L.D.Landau 1922-1924-cü illərdə BDU-da təhsil almışdır.

1930-cu ildə Xalq Komissarlar Sovetinin qərarı ilə yenidən qurulma (reorqanizasiya) adı ilə universitet ləğv edilir və onun bazasında Ali Pedaqoji İnstitut yaradılır. Ancaq 1934-cü ildə Dövlət Universiteti yenidən işə başlayır və o, yenə də respublikada elmi-pedaqoji fikrin mərkəzinə çevrilir. İkinci Dünya müharibəsi illərində professor-müəllimlərin müharibəyə getmələri ilə bağlı kəskin çatışmazlıqlara baxmayaraq, universitet ölkədə öz öncül mövqeyini qoruyub saxlaya bilir. Universitet alimlərinin 1945-ci ildə Azərbaycan Elmlər Akademiyasının təşkil edilməsində xüsusi xidmətləri olmuşdur. Respublikada fəaliyyət göstərən ali təhsil ocaqlarının bir çoxu, o cümlədən Azərbaycan Tibb Universiteti, Azərbaycan İqtisad Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti və başqaları Bakı Dövlət Universitetinin bazasında yaradılmışdır. 1969-cu ildən sonrakı zaman universitet həyatında

bilik və elmin yüksək zirvələrinə doğru yüksəliş illəri sayıla bilər. Bu Universitetin dünya şöhrətli məzunu Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlməsi böyük yüksəlişə səbəb olmuşdur. Geniş bir tarixi dövrü əhatə edən həmin illərdə yeni müasir ixtisaslar üzrə fakültələr, kafedralar, 30-a qədər elmi-tədqiqat laboratoriyaları fəaliyyətə başladı. Beləliklə, universitetin gələcək inkişafı üçün möhkəm zəmin yaradıldı.

**Bakı Dövlət Universitetinin dünya şöhrətli məzunları.** Heydər Əliyev, Yusif Məmmədəliyev, Həsən Əliyev, Zahid Xəlilov, Bəxtiyar Vahabzadə, Azad Mirzəcanzadə, Qasım Gül, Nəsir İmanquliyev, Məcid Rəsulov, Feyzulla Qasımzadə, Tofiq Köçərli, Mir Cəlal Paşayev, Məmməd Cəfər Cəfərov, Fərəməz Maqsudov, Abdulla Qarayev, Ziya Bünyadov, Aida İmanquliyeva, Həsən Abdullayev, Xudu Məmmədov, Şərəf Hüseynov, Musa Əliyev, Rəhim Sultanov, Soltan Mehdiyev, Əli Quliyev, Vahid Qəhrəmanov, Heydər Hüseynov, Murtuza Nağıyev, Məmməd Arif Dadaşzadə, Şəfayət Mehdiyev, Ələsgər Məmmədov, Həmid Araslı, Məmməd Xələfov, İbrahim İbrahimov, İqrar Əliyev, Mirəli Qaşqay.

Universitet ölkədə birincilər sırasında 1993-cü ildən Avropa təhsil sisteminə inteqrasiya məqsədilə ikipilləli (bakalavriat, magistratura) təhsil sisteminə keçmişdir.

Universitetə tələbə qəbulu (Azərbaycan vətəndaşları üçün) ölkənin bütün ali məktəblərinə (bakalavriata və magistraturaya) tələbə qəbulunu keçirən Respublika üzrə vahid bir qurum, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) tərəfindən aparılır.

İkinci ali təhsil ödənişli formada müəssisə, təşkilat, idarə və ayrı-ayrı vətəndaşlarla Bakı Dövlət Universiteti arasında bağlanmış fərdi müqavilələr əsasında həyata keçirilir. Əvvəlki ali təhsili və ya hazırda (bir ildən az olmayaraq) işlədiyi vəzifəsi seçdiyi ixtisasa uyğun gələn şəxslər Universitetin müəyyənləşdirdiyi qaydaya əsasən müsabiqədə iştirak edə bilərlər. İkinci ali təhsil almaq üçün Universitetə sənəd vermiş şəxslərlə müsahibə aparılır. Müsahibədən uğurla keçənlər müsabiqə yolu ilə ikinci ali təhsil ixtisası üzrə tələbələr sırasına qəbul edilirlər. Birinci ali təhsil aldığı ixtisas və seçdiyi ikinci təhsil ixtisaslarının uyğunluğundan asılı olaraq müvafiq kurslara qəbul olunur və təhsil müddəti müəyyənləşdirilir. Təhsil ödənişlidir. Təhsil haqqı müqavilə əsasında ayrı-ayrı ixtisaslara uyğun olaraq ödənilir.

**Fakültələr:**

1. Mexanika-riyaziyyat fakültəsi
2. Tətbiqi riyaziyyat və kibernetika fakültəsi
3. Fizika fakültəsi
4. Kimya fakültəsi
5. Biologiya fakültəsi
6. Ekologiya və torpaqşünaslıq fakültəsi
7. Coğrafiya fakültəsi
8. Geologiya fakültəsi

9. Filologiya fakültəsi
10. Tarix fakültəsi
11. Beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültəsi
12. Hüquq fakültəsi
13. Jurnalistika fakültəsi
14. Kitabxanaçılıq-informasiya fakültəsi
15. Şərqşünaslıq fakültəsi
16. Sosial elmlər və psixologiya fakültəsi
17. İlahiyyət fakültəsi

**Tədris hissəsinin fəaliyyətinin əsas istiqamətləri aşağıdakılardır.**

1. Tədris ilinin əvvəlində bütün istiqamətlər üzrə universitetə qəbul olmuş abituriyentlər haqqında müvafiq fakültə dekanlıqlarından təqdimatların alınması və TQDK-ın protokolları ilə tutuşdurulduqdan sonra onların I kursa qəbul olunmaları barədə əmrin hazırlanması;

2. Qış və yay imtahan sessiyalarının keçirilməsi, ümumiyyətlə, tədris işləri ilə bağlı rəhbər əmrlərin, sərəncamların hazırlanması; imtahan biletlərinin, vərəqələrinin möhürlənməsi, 16 fakültə üzrə imtahan cədvəllərinin yığılması, gündəlik keçirilən yazılı imtahanların cavab vərəqələrinin hazırlanması və prorektorluğa təqdim olunması. İl ərzində təxminən 11000 göndərişin möhürlənməsi və verilməsi, onların qeydiyyatının aparılması;

3. Yeni tədris ilinə hazırlıq məqsədi ilə dərs yükünün planlaşdırılması, bölgüsünə nəzarət və onun təsdiq olunduqdan sonra əmrləşdirilməsi. Ştatda olan 1340 müəllim və kənardan dəvət olunan saat hesabı 570 müəllimlərin şəxsi işlərinin yığılması;

4. Seçki müddəti başa çatmış professor-müəllim heyətinin seçkisi, vakant vəzifələri tutmaq üçün elanların hazırlanması və ərizələrin qəbulu. Fakültə Elmi Şurasında müzakirə olunduqdan sonra bu qurumların çıxarışlarına əsasən əmrləşdirilmənin həyata keçirilməsi;

5. Tələbələrin xaric olunma, akademik məzuniyyət, kursda qalma, soyadın dəyişilməsi, töhmət verilmə, dublikat tələbə bileti və qiymət kitabçası verilmə, tələbələrin diplom müdafiəsinə buraxılması, kursdan-kursa keçmə, təqaüd verilməsi, yay və qış tətilləri müddətində xaric olmuş tələbələrin yenidən bərpası, eləcə də köçürülməsinə dair təqdim olunmuş sənədlərin müvafiq komissiya üçün hazırlanması;

6. Dəftərxana və fakültələrdən daxil olan icra üçün qeydiyyat işinin aparılması və nəzarəti, icra olunmuş əmrləşdirilmiş sənədlərin yerləşdirilməsi, tədris hissəsindən kənara göndərilən məktubların qeydiyyatı;

7. İllik stasistik hesabatın və hər üç aydan bir rüblük hesabatların hazırlanması. Tələbələrin hərəkətlərinin əmr kitabında qeyd olunması;

8. Telefonoqramların verilməsi, sessiyanın nəticələrinin və akademik borcların ləğv olunması barədə hecabatların toplanılıb qrafikə uyğun hazırlanması;

9. BDU-nu bitirən məzunların təyinat bölgüsü üçün siyahılarının Təhsil Nazirliyinə (TN) göndərilməsi, TN-dən gələn təyinat yerlərinin müvafiq fakültələrə paylanması, tələbələrə iş yerlərinə təyinat verilməsi və TN-ə hesabat hazırlanması. TN-dən diplomların alınması və fakültələrə paylanılması, verilən diplomların hesabatının hazırlanması. Dublikat diplomların verilməsi üçün müvafiq sənədlərin yığılması, komissiyada baxılaraq arayış verdikdən sonra əmrləşdirilməsi;

10. Professor-müəllim heyətinin təsdiq olunmuş qrafikə əsasən ixtisasartırmaya göndərilməsi. Digər ali məktəblərdən professor-müəllim heyətinin BDU-da ixtisasartırmaya qəbul olunması;

11. Bakalavr pilləsi üzrə tədris, istehsalat, pedaqoji təcrübələrinin keçirilməsinin sənədləşdirilməsi və nəzarət olunması;

12. Fakültələrin təqdimatları əsasında DAK sənədlərinin siyahısının Təhsil Nazirliyinə təsdiq üçün göndərilməsi;

13. Birinci kursa qəbul olunmuş tələbələrin şəxsi işlərinin fakültələrdən qəbul olunması, təhsil aldıqları müddətdə onlara aid verilmiş əmrlərin işlənib şəxsi işlərinə qeyd olunması;

14. Tədris hissəsi üzrə əmrlərin, sərəncamların və sorğu məktublarının və başqa sənədlərin hazırlanması;

15. Birinci və ikinci növbələr üzrə tədris hissəsi tərəfindən fakültələrə təhkim olunmuş əməkdaşların dərslərə nəzarəti haqqında rektorluğa məlumatın hazırlanması;

16. Saathesabı müəllimlərə zəhmət haqqının ödənilməsi sənədlərinin hazırlanması.

Ümumiyyətlə, Tədris hissəsinin fəaliyyəti çoxistiqamətli olmaqla 14593 tələbə və 1340 professor- müəllim heyətini əhatə edir.

Bakı Dövlət Universiteti beynəlxalq əlaqələrinə əsasən aşağıdakı istiqamətlər üzrə inkişaf etdirir.

1. Xarici ölkə universitetləri ilə ikitərəfli əməkdaşlıq;
2. Beynəlxalq təhsil proqramlarında BDU-nun iştirakı;
3. Beynəlxalq elm-təhsil qurumları ilə əməkdaşlıq;
4. Universitetlərin Beynəlxalq Assosiasiyalarında BDU-nun iştirakı;
5. Xarici ölkələrin Azərbaycandakı səfirlik və nümayəndəlikləri ilə əməkdaşlıq;
6. Nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlıq;
7. Azərbaycan dili və ədəbiyyatının xarici ölkələrdə təbliği və yayılması;
8. BDU-nun professor-müəllim heyətinin xarici elmi tədris ocaqlarında fəaliyyəti, tələbə magistrant və doktorantların xarici ölkə universitetlərində təhsil alması;
9. Əcnəbi vətəndaşların BDU-da təhsili.

**Bakı Dövlət Universitetinin fəxri doktorları (1990-2011):**

Heydər Əliyev – Azərbaycan xalqının ümummilli lideri
İlham Əliyev – Azərbaycan Respublikasının prezidenti
Turqut Ozal – Türkiyə Cümhuriyyətinin sabiq prezidenti
Süleyman Dəmirəl– Türkiyə Cümhuriyyətinin sabiq prezidenti
Eduard Şevarnadze– Gürcüstan Respublikasının sabiq prezidenti
Vaira Vike Freyberqa – Latviyanın sabiq prezidenti
Valdas Adamkus – Litvanın sabiq prezidenti
Əskər Akayev – Qırğızıstan Respublikasının sabiq prezidenti
Luzinski Petru Kirill – Moldova Respublikasının sabiq prezidenti
Saparmurad Niyazov – Türkmənistan Respublikasının sabiq prezidenti
Abdullah Gül – Türkiyə Cümhuriyyətinin prezidenti
Qurbanqulu Berdimuxammedov – Türkmənistan Respublikasının prezidenti
İslam Kərimov – Özbəkistan Respublikasının prezidenti
Trayan Basesku – Rumıniya prezidenti
Dmitri Anatolyeviç Medvedev – Rusiya Federasiyasının sabiq prezidenti
Əliyev Muxu Qumbatoviç – Dağıstan Respublikasının sabiq prezidenti
Coze Manuel Barosso – Avropa Komissiyasının prezidenti
Tansu Çillər – Türkiyə Cümhuriyyətinin sabiq Baş naziri
Məsut Yılmaz – Türkiyə Cümhuriyyətinin sabiq Baş naziri
Dövlət Baxçalı – Türkiyə Cümhuriyyətinin sabiq Baş naziri
Zbiqnev Bzecinski – ABŞ-ın sabiq dövlət katibi
Butros Butros Qali – BMT-nin sabiq Baş katibi
Corc Robertson – NATO-nun sabiq Baş katibi
Federiko Mayf Saraqosa – YUNESKO-nun sabiq Baş katibi
Koişiro Matsuura – YUNESKO-nun sabiq Baş katibi
Hüsaməddin Cindoruk – Türkiyə Böyük Millət Məclisinin sabiq başqanı
Ömər İzgi – Türkiyə Cümhuriyyətinin Böyük Millət Məclisinin sabiq başqanı
İsmayıl Cem – Türkiyə Cümhuriyyətinin sabiq xarici işlər naziri
Litvin Vladimir Mixayloviç – Ukrayna Ali Radasının sabiq sədri
Qulaməli Həddad-Adel – İran İslam Respublikası İslam Şura Məclisinin sabiq sədri
Baqlay Marat Viktoroviç – Rusiya Konstitusiya Məhkəməsinin sabiq sədri
Ağayi Cavad Heyət – Məşhur kardioloq alim
Lütfüzadə – "Qeyri-səlis" nəzəriyyənin banisi
Oljas Omaroviç Süleymanov – Məşhur qazax şairi
Viktor Antonoviç Sadovniçiy – M.V.Lomonosov adına MDU-nun rektoru

İhsan Doğramacı – Türkiyə, Bilkənd Universitetinin təsisçisi
Halil Cin – Türkiyə, Səlcuq Universitetinin rektoru
Fikrət Tükmən – Türkiyə, İzmir Universitetinin professoru
Turan Yazqan – Türkiyə, İzmir Universitetinin professoru
Aydın Doğan – Türkiyə, Doğan Şirkətlər Qrupunun prezidenti
İren Melikoff –Tanınmış fransız türkoloqu
Yavuz Akpinar – Türkiyə, Ege Universitetinin professoru
Məhəmməd Təqi Cəfəri – İran İslam Respublikası, filosof-alim
Yıldırım Akbulut – Türkiyə Böyük Millət Məclisinin Sədri
Tadeuş Svetoxovski – ABŞ-ın Monmouz Kollecinin professoru
Məhərrəm Erkin – Türkiyə, İstanbul Universitetinin professoru
Urfan Ənvər Nəsrəddin – Türkiyə, məşhur alim
Əbdüllətif Bəndəroğlu – İraq, şair və tədqiqatçı
Marvin Ştarçik – ABŞ, Şimali İllinoys Universitetinin professoru
Sarmet Akkun – Türkiyə, İzmir Universitetinin professoru.

Azərbaycanda tədris müəssisələrinin flaqmanı olan, zəngin tarixi keçmişə malik universitet hazırda tanınmış elm və təhsil mərkəzidir.

Universitet hər zaman Azərbaycanda mütərəqqi fikrin, milli düşüncənin mərkəzi olmuşdur. Burada Azərbaycanın yüzlərlə tanınmış alimləri, ziyalıları, görkəmli diplomatları təhsil almışlar.

Prezident Heydər Əliyevin 13 iyun 2000-ci il tarixli fərmanı ilə universitetə özünüidarə (muxtariyyət) statusu verilmiş və həmin vaxtdan universitet fəaliyyətini öz nizamnaməsinə əsasən həyata keçirir.

Hazırda Bakı Dövlət Universitetinin 16 fakültəsində müxtəlif elmi istiqamətlərdə bakalavr pilləsində 55 ixtisas, magistratura pilləsində isə 153 ixtisaslaşma üzrə 18000-ə yaxın tələbə təhsil alır.

Universitetin elmi kitabxanası 2,5 milyondan artıq ədəbiyyatı olan fonda malik olmaqla, onun 12 qiraət zalı, 5 abonement şöbəsi müntəzəm olaraq universitetin 15 mindən çox müəllim və tələbəsinin hər gün istifadəsindədir.

Universitet yüksək ixtisaslı kadrlar hazırlamaqla bərabər, həm təbiət, həm də humanitar elm sahələri olmaqla 123 kafedranı, 200-dən çox elmi əməkdaşı olan 37 elmi-tədqiqat və tədris laboratoriyasını, Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunu və Fizika Problemləri Elmi-Tədqiqat İnstitutunu özündə birləşdirən, Azərbaycan dili, ədəbiyyatı və tarixinin klassik məsələlərindən tutmuş genetika, nanotexnologiya, nanomaterialların alınmasınadək çox geniş spektrdə mövzuları əhatə edən, elmi araşdırmalar həyata keçirən böyük elmi mərkəzdir.

Universitetin beynəlxalq əlaqələri gündən-günə genişlənir. Hazırda universitet keçmiş SSRİ-nin bir çox universitetlərini özündə birləşdirən Avrasiya Universitetlər Assosiasiyasının, Xəzəryanı Ölkələr Universitetləri Assosiasiyasının, Qara Dəniz Universitetləri (QDU)Assosiasiyasının, Avropa Universitetləri Assosiasiyasının üzvüdür. Universitet 2002–2004-ci illərdə QDU

Assosiasiyasına çox uğurla rəhbərlik etmişdir. Bundan əlavə, universitet M.V.Lomonosov adına Moskva Dövlət Universiteti, Orta Doğu Teknik Universiteti, Nitsa-Sofiya Antipolis Universiteti, İndiana Universiteti, Kiyev Milli Universiteti, Vyana Universiteti və digər universitetlərlə ikitərəfli müqavilələr əsasında hərtərəfli elmi-texniki, müəllim-tələbə mübadiləsi sahəsində əməkdaşlıq edir.

Bakı Dövlət Universitetində 12 ölkədən 400-dən artıq xarici tələbə, magistrant, doktorant, stajor təhsil alır.

Universitetdə bakalavr hazırlığı üçün 4 il, magistr hazırlığı üçün 2 il, fəlsəfə doktoru və elmlər doktoru hazırlığı üçün 3-4 il vaxt norması nəzərdə tutulmuşdur. Təhsil ödənişli və ödənişsiz əsaslardadır. Burada əyani və qiyabi şöbələr fəaliyyət göstərir.

Universitetin tərkibində çap avadanlıqları olan nəşriyyat, 6 muzey, 80 elmi-tədqiqat və tədris laboratoriyası, informasiya və tərcümə mərkəzi, idman –sağlamlıq kompleksi, poliklinika fəaliyyət göstərir. Burada həmçinin yataqxana və tələbə şəhərciyi var.

**BDU-nun adının tarixi:**

- 1919-1920 – Bakı Dövlət Universiteti
- 1920-1991 – Kirov adına Azərbaycan Dövlət Universiteti
- 1991-1994 – M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universiteti
- 1994-indiyədək – Bakı Dövlət Universiteti

**Rektorları:**

- Vasili Razumovski (ilk rektor – 1919-1920)
- Sergey Nikolayeviç Davidenkov (1920-1923)
- Aleksandr Dmitriyeviç Qulyayev (1923-1926)
- Tağı Şahbazi Simurğ (1926-1929)
- Vladimir Yelpatyevski (1929)
- Maqsud Məmmədov (1929-1930)
- Məmmədqasım Ələkbərli (1934-1935)
- Bala bəy Həsənbəyov (1935-1937)
- Əziz Məmmədkərim oğlu Əliyev (1937)
- Cəbrayıl Ələsgərov (1937-1941)
- Şamil Əliyev (akademik) (1941-1944)
- Abdulla Qarayev (1944-1950)
- Cəfər Hacıyev (1950-1954)
- Yusif Məmmədəliyev (1954-1958)
- Şəfayət Mehdiyev (1958-1965)
- Mehdi Əliyev (1965-1970)
- Faiq Bağırov (1970-1987)
- Yəhya Məmmədov (1987-1989)
- Cəmil Quliyev (akademik) (1989-1990)
- Mirabbas Qasımov (1990-1992)

- Firudin Səməndərov (1992-1993)
- Murtuz Ələsgərov (1993-1996)
- Misir Mərdanov (1997-1998)
- Abel Məhərrəmov (1999-cu ildən bu günə qədər)

**Azərbaycan Dövlət Neft Akademiyası.** 10 noyabr 1887-ci ildə Bakı şəhər duması tərəfindən Bakıda texniki məktəbin yaradılması haqqında qərar çıxarılmışdır.

1896-cı ildə texniki məktəb "Bakı natamam ali texniki məktəbə" çevrilmişdir. 1896-1905-ci illər ərzində bu məktəbin mexanika şöbəsi üzrə 50 nəfər, inşaat şöbəsi üzrə isə 55 nəfər buraxılışı olmuşdur. 1910-cu ildə mexanika şöbəsinə neft-texniki və elektromexanika istiqamətləri daxil idi.

1916-cı ildə məktəbdə 494 tələbə təhsil alırdı ki, onlardan da 20 nəfər azərbaycanlı idi.

1918-ci ildə məktəb politexnikum adlandırılmışdır. Politexnikumda neft sənayesi, elektromexanika və inşaat-memarlıq şöbələri fəaliyyət göstərmiş, tələbələrin sayı 188 nəfər olmuşdur. Qeyd etmək lazımdır ki, bu dövrdə Azərbaycanda, aralarında 12 mühəndis olan cəmi 62 nəfər azərbaycanlının ali təhsili olmuşdur.

16 noyabr 1920-ci ildə Azərbaycan İnqilab Komitəsinin "Bakıda politexnik institutunun yaradılması haqqında" dekreti elan edildi.

Dekretdə aşağıdakılar qeyd olunmuşdur:

- Neft-mədən, elektromexanika, mühəndis-inşaat, kənd təsərrüfatı və iqtisadiyyat fakültələri əsasında Bakı Politexnikumu bazasında M.Əzizbəyov adına Bakı Politexnik İnstitutu yaradılsın.
- Bakı Politexnikumunun binaları, avadanlıqları, həmçinin Rus Texniki Cəmiyyətinin kimya laboratoriyası Bakı Politexnik İnstitutunun sərəncamına verilsin.
- Politexnik İnstitutunun tələbə kontingentinin tərkibinə politexnikumun tələbələrinin daxil edilməsi, ilk növbədə, aşağıdakı əsaslarla nəzərdə tutulsun: kafi dərəcədə ümumi təhsil hazırlığına malik tələbələrin birinci semestr dərslərinə buraxılması, belə hazırlığa malik olmayanlara isə əlavə ümumi təhsil fənnlərinin keçilməsi və ən nəhayət, texnikumun yuxarı kurs tələbələrinə xüsusi dərslər təşkil etməklə tələbələr sırasına daxil olunması.
- Dövlət Universitetinin tələbələri üçün mövcud olan sosial təminat hüquqları Bakı Politexnik İnstitutunun tələbələrinə də şamil edilsin.
- Universitetlərdən və digər müəssisələrdən Politexnik İnstitutuna tədris prossesinə cəlb olunacaq professor-müəllimlərin əvəzçiliklə işləmələrinə baxmayaraq, Politexnik İnstitutunda tutduğu vəzifəyə uyğun onlara əmək haqqı verilsin.
- Professor-müəllim heyətinin əmək haqqı Dövlət Universitetində uyğun vəzifədə çalışan əməkdaşın əmək haqqı kimi ödənilsin.

12 dekabr 1920-ci ildə Xalq Maarif Komissarlığı tərəfindən institutun açılması barədə dekreti verilir. Dekretdə Bakı Politexnik İnstitunun yaradılması ilə bağlı Bakı Politexnikumun bağlanması və müəllimlərin öz vəzifələrindən azad edilməsi qeyd olunur, hazırlıq işlərinin başa çatması və institutda tədris ilinin 1 yanvar 1921-ci ildə başlanması göstərilirdi.

Dekretə əsasən mühəndis A.İ.Kozlovun sədrliyi ilə institutda qəbul komissiyasının yaradılması və aşağıdakı normaları rəhbər tutaraq, qəbulun 1 yanvar 1921-ci ilədək başa çatdırılması nəzərdə tutulurdu. Namizədlərdən, ilk növbədə, Bakı Politexnikumunun tələbələrinin, xüsusi ali məktəblərin tələbələrinin, ikinci, türk dili bilənlərin, üçüncü, fəhlələrin, dördüncü - AKBP MK və BK-dən göndərilən, beşinci, qızıl ordu nümayəndələrinin, altıncı, şura qulluqçularının, yeddinci, qalan vətəndaşların instituta qəbulu nəzərdə tutulmuşdur.

Dekretə uyğun professorlar N.A.Dubrovski, P.K.Juze, L.Q.Qurviç, Petroqrad Universitetinin dosenti A.S.Şepotev və mühəndis D.D.Qadaskin institutun professorları: aqronom N.A.Lebedev, mühəndislər S.Vəkilov, A.İ.Kozlov, A.N.Şuşerov və M.V.Abramoviç isə ixtisaslarına uyğun kafedra ştatlarına müəllim kimi daxil edilmişlər.

Professor N.A.Dubrovski 1 sentyabr 1921-ci ilədək ilk rektor təyin olunmuşdur.

Dekretdə Elmi şuranın tərkibinin, adları yuxarıda çəkilənlərdən təşkil olunması da qeyd olunmuşdur.

İnstitutun Elmi şurasının birinci iclası 15 dekabr 1920-ci ildə ilk rektor professor N.A.Dubrovskinin sədrliyi altında aparılmışdır. İclasda S.Vəkilov Elmi şuranın katibi seçilmişdir. Az sonra, 18 dekabrda Elmi şuranın ikinci iclası keçirilmiş və ilk dəfə olaraq fakültələrə: Neft-mədən daş mühəndisi B.Dombrovski, Elektromexanika mühəndis-elektrik A.Sizov, Mühəndis-inşaat - mülki inşaaat mühəndisi A. Şuşerov, İqtisadiyyat - professor N.A.Dubrovski və Kənd təsərrüfatı - aqronom N.Lebedov dekan seçilmişdir.

Fəaliyyətə başlanmasını bəyan edən ilk zəng 2 yanvar 1921-ci ildə saat 9.30-da vurulmuş və mühəndis S.Vəkilov institutun tarixində ilk dəfə olaraq ali riyaziyyatdan mühazirə oxumuşdur.

1920-1921-ci tədris ilində institutun Elmi şurasının 66 nəfərdən ibarət olan tərkibinə aşağıdakı professorlar və müəllimlər daxil olmuşdur: N.A.Dubrovski, P.K.Juze, L.Q.Qurviç, A.S.Şepotev, D.D.Qadaskin, A.M.Şuşerov, L.S.Leybenzon, İ.V.Kurçatov, K.A.Krasusski, A.A.Axundov, Q.N.Qaziyev, İ.Q.Yesman, S.A.Kovalevski, P.İ.Kuznesov, T.Q.Kuliyev, P.P.Lukin, M.M.Skvorsov, S.N.Usatı, V.İ.Tixomirov, B.P.Albiski, N.L.Vannikov və başqaları.

1920-1921-ci tədris ilində institutda 1135 tələbə oxuyurdu.

1922-ci ildə Kənd təsərrüfatı, İqtisadiyyat, Texnoloji (elektrotexnika, daş-neft və nefttexnoloji şöbələri) və Mühəndis-inşaat (quru yol, hidrotexniki

və mülki inşaat ixtisasları üzrə) fakültələrin fəaliyyəti üzrə institutun strukturu müəyyənləşdi.

1922-ci ildə institutun maddi-texniki bazasının və professor-müəllim heyətinin gücləndirilməsinə Azneft (təmir və lazımı avadanlığın təmini və 150 tələbəyə təqaüdün verilməsi), Xalq Komissarlar Şurası, Maarif, Torpaq, Yeyinti Ticarəti Xalq Komissarlıqları tərəfindən lazımı köməklik göstərilirdi.

Bu illərdə institutda işləmək üçün professorlar: S.N.Usatı, S.M.Romanov, B.P.Albiski, M.M.Əliyev və İ.Q.Yesman (1922-1928-ci illərdə rektor vəzifəsini icra etmişdir) dəvət olunmuşdur.

1923-cu ildə 3 nəfərdən ibarət birinci buraxılış, 1924-1925-ci tədris ilində – 13, 1925-1926-ci ildə – 46, 1926-1927-ci ildə isə 289 nəfər mühəndis buraxılışı olmuşdur.

1923-cü ildən institut M.Əzizbəyov adına Azərbaycan Politexnik İnstitutu adlandırılmışdır.

1929-cu ildə rektor vəzifəsini onun məzunu M.V. Barinov icra etmişdir.

1929-1932-ci illərdə institutda, onun fakültələrində yenidənqurma işlərini aparan və həmin illərdə rektor vəzifəsini icra edən, institutun məzunu A.A.Nikişin olmuşdur.

12 may 1929-cu ildə institutdan Kənd Təsərrüfatı fakültəsi ayrılmış və sərbəst fəaliyyət göstərən Kənd Təsərrüfatı İnstitutu yaranmışdır.

29 may 1930-cu ildə Azərbaycan Politexnik İnstitutunun adı dəyişdirilmiş və Azərbaycan Neft İnstitutu (ANİ) adlandırılmışdır.

1931-ci ildə institutun şöbəsi Azərbaycan Qiyabi Sənaye İnstitutu yaradılmışdır.

Azərbaycan Neft İnstitutu bazasında Gəncə, Qroznı, Ufa və İşimbayda şöbələri olan Azərbaycan Qiyabi Neft İnstitutu yaradıldı.

19 iyun 1930-cu ildə "İnşaat" fakültəsi bazasında Azərbaycan İnşaat İnstitutu yaradılmışdır (1 sentyabr 1934-cü ildə yenidən memarlıq – inşaat fakültəsi adı ilə Azərbaycan Neft İnstitutuna verilmişdir).

Politexnik İnstitutun 10 illiyinə təsadüf edən otuzuncu illərdə 3267 tələbəsi, qiyabi təhsil üzrə fəhlə fakültəsində 3000-dən çox dinləyicisi olan Azərbaycan Neft İnstitutu keçmiş ittifaqda görkəmli ali təhsil müəssisələrindən birinə çevrilərək miqyas və əhəmiyyətinə görə Zaqafqaziyada birinci ali texniki məktəb kimi qalmışdı.

Əgər 1921-1929-cu illər ərzində 422 nəfər mühəndis buraxılışı olmuşdursa, təkcə 1929–1930-cu tədris ilində institutu 559 mütəxəssis bitirmişdir.

Neft sənayesi üçün mütəxəssis hazırlığında əldə etdiyi nailiyyətlərə görə institut 1931-ci ildə Azərbaycan Respublikası hökümətinin "Qırmızı Əmək Bayrağı Ordeni" ilə mükafatlandırılmışdır.

Ölkənin sənayeləşdirilməsi ilə bağlı sənayenin Azərbaycanda da sürətli inkişafı təkcə neft deyil, digər sahələr üçün də mühəndis kadrlarının

hazırlanmasını tələb edirdi. Beləliklə, respublikada geniş profilli sənaye institutunun yaradılması günün vacib məsələsi kimi qarşıda dururdu.

1934-cü il oktyabrın 10-da Neft institutu maşınqayırma, energetika və s. sahələr üçün də mühəndis kadrları hazırlığına görə Azərbaycan Sənaye İnstitutuna çevrildi.

1932-1933-cü illərdə A.M.Çeqodayev, 1933-1934-cü illərdə S.P.Kiselyev, 1934-1938-ci illərdə İ.S.Axundzadə institutun rektoru olmuşdur.

Fəaliyyətinin 15 ili ərzində 2614, sonrakı beş ilində isə 2696 nəfər mühəndis kadrlarının hazırlanması, institutun sürətlə inkişaf etməsini sübut edir.

Fəaliyyətinin 20 illiyi ərzində əldə etdiyi nailiyyətlərə görə 25 dekabr 1940-cı ildə institut ittifaq hökumətinin ali mükafatlarından olan Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunur.

Hazırda respublikada fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti və Azərbaycan Texniki Universiteti ADNA-nın ayrı-ayrı fakültələri əsasında yaradılmışdır. Respublika prezidenti H.Əliyevin vaxtilə dediyi "İnstitut öz varlığı ərzində bütün ölkədə ali təhsilin, xüsusən ali neft təhsilinin inkişafına sanballı kömək göstərmişdir, institutun respublikamız qarşısında xidmətləri böyükdür, institutu bitirən kadrlar Azərbaycanın mühəndis – texniki və elmi işçilərinin özəyi olmuşdur" sözləri Azərbaycan Dövlət Neft Akademiyasının fəaliyyətinə verilən ən layiqli qiymətdir.

ADNA-da doktorantura şöbəsi fəaliyyət göstərir. Ötən 79 il ərzində akademiya 70000-dən çox mühəndis, 2000-dən çox elmlər namizədi və 250-dən çox elmlər doktoru hazırlamışdır. Akademiyada yüksək ixtisaslı mühəndis və elmi kadrların hazırlanmasında iki elmi-tədqiqat institutu, 32 elmi-tədqiqat problem laboratoriyası, "Sənaye müəssisələri işçilərinin ixtisasartırma və yenidən hazırlanma institutu" fəaliyyət göstərir.

ADNA-da 60-dan çox ölkə üçün 300 nəfər mühəndis, bakalavr və magistr dərəcəli texniki kadr və 270 nəfər elmlər namizədi (fəlsəfə doktoru) və elmlər doktoru hazırlanmışdır. Xəzərin akvatoriyasında və quruda yeni yataqların işlənməsi, neft konsorsiumlarının fəaliyyətə başlaması, xarici ölkə şirkətləri ilə əməkdaşlıq və onun gələcək perspektivləri ADNA qarşısında bazar iqtisadiyyatı şəraitində işləyə bilən, müasir texnika və texnologiyanı mənimsəyən və tətbiq etməyi bacaran mütəxəssislərin hazırlanmasını tələb edir. Qarşıya çıxan bu vacib məsələlərin həlli ilə əlaqədar "ADNA-nın inkişaf proqramı" hazırlanıb.

ADNA-nın 1 milyona yaxın kitab fondu olan kitabxanası, informasiya hesablama mərkəzi, tədris vəsaitləri çap edən nəşriyyatı, 7 korpuslu tələbə şəhərciyi, 3 tədris korpusu, tələbə poliklinikası və xəstəxanası, idman kompleksi, Nabranda istirahət zonası vardır.

Akademiyada "Elmi əsərlər", "Azərbaycan ali texniki məktəblərinin xəbərləri" adlı məcmuələr, "Neft kadrları uğrunda" adlı çoxtirajlı qəzet nəşr

həqiqi və müxbir üzvü, 150 nəfədən çox Sovet İttifaqı Qəhrəmanı və Sosialist Əməyi Qəhrəmanı, 70 nəfərə yaxın Dövlət mükafatı laureatı fəxri adlarına layiq görülmüşdür. Respublikamızda və xarici ölkələrdə fəaliyyət göstərən müvafiq şirkət, təşkilat, təhsil və elmi-tədqiqat müəssisələri ilə əməkdaşlıq tədbirləri məzunların gələcəkdə işlə təmin olunmasına böyük imkanlar yaradır. Respublika ali təhsil müəssisələri içərisində ADNA yeganə təhsil ocağıdır ki, Avropa Universitetləri Assosiasiyasına qəbul edilmişdir. ADNA həmçinin Avropanın "TEMPUS" proqramının iştirakçısıdır. 1999-cu ildən başlayaraq bu kompakt-layihə proqramı əsasında "Ətraf mühit və neft sənayesi" ixtisaslaşması üzrə magistr hazırlığına başlamışdır. 1999-cu ildən başlayaraq ADNA Amerika proqramları əsasında ABŞ-ın Corciya Dövlət Universiteti ilə birlikdə iki ixtisas üzrə magistrlər hazırlamağa başlamışdır. İlk dəfə məzunlara Amerika nümunəli diplomlar verilmişdir.

**Fakültələr:**

- Geoloji Kəşfiyyat
- Qaz Neft Mədən
- Kimya Texnologiya
- Neft Mexanika Fakültəsi
- Energetika
- İstehsalat Proseslərinin Avtomatlaşdırılması
- Mühəndis İqtisadiyyatı, Beynəlxalq İqtisadi Əlaqələr və Menecment
- Sənaye Müəssisələri İşçilərinin İxtisasartırma və Yenidənhazırlama İnstitutu

**İxtisaslar:** Hazırda ADNA-nın Geologiya mühəndisliyi, Kompyuter elmləri, Materialşünaslıq mühəndisliyi, Hidrogeologiya mühəndisliyi, Geofizika mühəndisliyi, Dağ-mədən mühəndisliyi, Neft-qaz qurğuları mühəndisliyi, İstilik energetikası mühəndisliyi, Cihazqayırma mühəndisliyi, Texnoloji maşın və avadanlıqlar mühəndisliyi, Elektrik mühəndisliyi, Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi, Mexatronika və robototexnika mühəndisliyi, Mexanika mühəndisliyi, Kompyuter mühəndisliyi, İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi, Təkrar emal və bərpa texnologiyaları mühəndisliyi, Metrologiya, standartlaşdırma və sertifikasiya mühəndisliyi, Biotibbi texnologiya mühəndisliyi, Fövqaladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi, Kimya mühəndisliyi, Neft-qaz mühəndisliyi, Elektroenergetika mühəndisliyi, Proseslərin avtomatlaşdırılması mühəndisliyi, Dünya iqtisadiyyatı, İqtisadiyyat, Menecment, Biznesin idarə edilməsi, Sənayenin təşkili və idarə olunması, Marketinq ixtisası istiqaməti üzrə bakalavr və 50 ixtisaslaşma üzrə magistr pillələrində birlikdə 6000-dən çox tələbə təhsil alır.

**Beynəlxalq əlaqələr.** ADNA-nın beynəlxalq əlaqələri aşağıdakı istiqamətlər üzrə inkişaf etdirilir:

- Xarici ölkələr üçün mütəxəssis və elmi kadrların hazırlanması;

- Professor-müəllim heyətinin xarici elm və tədris ocaqlarında fəaliyyəti, tələbə, magistrant və doktorantların təhsil alması;
- Beynəlxalq təhsil proqramlarında iştirak;
- Xarici ölkələrin ali təhsil ocaqları ilə ikitərəfli əməkdaşlıq;
- Xarici ölkələrin Bakıdakı nümayəndəlikləri ilə əməkdaşlıq;
- Beynəlxalq şirkətlərlə əməkdaşlıq;
- Universitetlərin Beynəxalq Assosiasiyaları ilə əməkdaşlıq.

Xarici ölkələr üçün mütəxəssis hazırlığında 1961-ci ildə yaradılan xarici vətəndaşlar üçün hazırlıq fakültəsi xüsusi rol oynayır.

Bu fakültədə Dillər, Ümumtəhsil fənlər, Humanitar fənlər kafedraları fəaliyyət göstərir və Mühəndis-texniki və mühəndis-iqtisad, Tibb, bədən tərbiyəsi, biologiya və kənd təsərüfatı, Ümumi iqtisad və coğrafiya, Humanitar, İdarəetmə, sosiologiya, politologiya və pedaqoji ixtisasları üzrə Respublika Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş tədris planları əsasında ali təhsil almaq üçün hazırlıq işləri aparılır. İndiyədək fakültəni 11000-ə yaxın xarici ölkə vətəndaşları bitirmişdir.

Xarici ölkələr üçün ali təhsilli mütəxəssis hazırlığına isə ADNA-da 1964-cü ildən başlanmışdır. Bununla əlaqədar olaraq Əcnəbi Tələbələrlə İş üzrə dekanlıq yaradılmışdır. Əcnəbi tələbələrlə iş üzrə dekanlığı tərəfindən bütün ixtisas fakültələrində müxtəlif pillələr üzrə təhsil alan əcnəbi vətəndaşların tədris prosesinə nəzarət həyata keçirilir. Qısa müddət ərzində ADNA keçmiş İttifaqda xarici ölkələr üçün yüksək ixtisaslı mütəxəssis kadrları hazırlayan əsas mərkəzlərdən birinə çevrilmişdir. ADNA-da dünyanın 70-ə yaxın ölkəsi üçün 3000-dən çox bakalavr, mühəndis, magistr dərəcəli texniki kadrlar, 300-ə qədər elmlər namizədi və elmlər doktoru hazırlanmışdır. ADNA-da təhsil alan əcnəbi vətəndaşlar elmi konfrans, sağlamlıq, idman yarışları, səhiyyə, bədii və s. tədbirlərdə yerli tələbələr bərabər hüquqlu vətəndaş kimi iştirak edirlər.

1970-ci illərdən başlayaraq ADNA-nın professor-müəllim heyəti Əlcəzair, Əfqanistan, Liviya, Qvineya-Bisau, Kamerun və digər ölkələrdə ali təhsil sisteminin təşkili və inkişafında fəal iştirak etmişlər. Əlcəzair və Əfqanıstanda tədris mərkəzləri yaradılmış, institutlar açılmış və uzun illər professsor-müəllim heyəti həmin institutlarda fəaliyyət göstərmiş və indi də göstərirlər. Hazırda ADNA-nın 30 əməkdaşı Türkiyə, Əlcəzair, Kipr və İranın aparıcı ali məktəblərində çalışır.

1993-cü ildən başlayaraq 20-dən çox tələbə, magistrant və aspirant (doktorant) ABŞ, Fransa, Türkiyə, İngiltərə, İtaliya, Almaniya və Rusiya ali məktəblərində təhsil almışdır. Təkcə 1998-2000-ci illərdə ADNA-nın 10 tələbə və magistrantı təhsillərini davam etdirmək üçün ABŞ, Almaniya, Fransa və Norveçin ali məktəblərinə göndərilmişdir.

1999-cu ildən etibarən ADNA-da "TASİS-TEMPUS" proqramı çərçivəsində SR 20029-98 saylı Avropa kompakt layihəsinə uyğun "Ətraf mühit və neft sənayesi" ixtisası üzrə magistr hazırlığına başlanmışdır. Bu layihə çərçivəsində ADNA Fransanın Nitsa Universiteti, Parisin Neft və Mühərriklər İnstitutu,

İtaliyanın Genuya Universiteti ilə birgə əməkdaşlıq edir. Adı çəkilən proqram çərçivəsində magistr hazırlığının yüksək səviyyədə həyata keçirilməsi üçün müasir texnika ilə təchiz olmuş ixtisaslaşdırılmış kabinet-ofis yaradılmış, əsaslı kitabxana müasir elmi ədəbiyyatlarla təchiz olunmuşdur. Magistrantların istifadəsinə verilən müasir fərdi kompyuterlər "İNTERNET" sisteminə qoşulmuşdur. İngilis və fransız dillərində də mühazirələr oxunur. ADNA-da ABŞ-ın Corciya Dövlət Universitetinin tərəfmüqabilliyi ilə 1999-cu ildən "Biznesin idarə olunması üzrə magistrantların hazırlanması və professor-müəllim heyətinin təkmilləşdirilməsi" birgə proqramı çərçivəsində də magistr hazırlanır.

Proqram çərçivəsində artıq ADNA-nın əməkdaşlarının Corciya Dövlət Universitetində staj keçmələri və həmin universitetdən və ABŞ-ın digər universitetlərindən professor ADNA-da mühazirə oxuyurlar.

"İNTERNET-ə" çıxışı olmaqla yaradılan 15 ədəd müasir fərdi kompyuterlə təchiz olunmuş kabinet yaradılmışdır. Hazırda bu proqram çərçivəsində 50-yə yaxın magistrant təhsil alır. Dərslər Azərbaycan və ingilis dillərində Amerikadan dəvət olunmuş professorlar və ADNA-nın ABŞ-da staj keçmiş professor-müəllim heyəti tərəfindən aparılır.

Xarici ölkə ali məktəbləri ilə ikitərəfli əməkdaşlıq ADNA-nın beynəlxalq əlaqələrində xüsusi yer tutur.

Hazırda aşağıda adı çəkilən xarici ölkə ali məktəbləri ilə əlaqələr yaradılmışdır:

- Corciya Dövlət Universiteti (ABŞ),
- Çigen Universiteti (Almaniya),
- Vilhemfagen Xüsusi Ali Məktəbi (Almaniya),
- Tronheym Şəhər Elm və texnologiya Universiteti (Norveç krallığı),
- Ployeştin Neft və Qaz Universiteti (Rumıniya),
- İ.M.Qubkin adına Rusiya Dövlət Neft və Qaz Universiteti (Rusiya Federasiyası),
- Neft və Kömür Universiteti (Əlcəzair),
- Təbriz Universiteti (İran),
- Karaçi Universiteti (Pakistan),
- Orta Doğu və Xocayənə Universitetləri (Türkiyə),
- Paris Neft və Mühərriklər İnstitutu (Fransa),
- Nitsa Sofiya Antipolis Universiteti (Fransa),
- Genuya Universiteti (İtaliya).

EKSON, MOBİL, ŞLÜMBERJE, ŞEVRON, Bİ-Pİ-AMOKA, Türk Petrolları və başqa şirkətlərlə elmi və maddi-texniki bazanın inkişaf etdirilməsinə, məzunların işlə təmin edilməsinə yönəldilən səmərəli əlaqələr qurmuşdur.

"Şlümberce" şirkətinin köməyi ilə ADNA müasir hesablama texnikası və təşkilatı texnika ilə təchiz olunmuş ixtisaslaşdırılmış mərkəz yaradılmış, tələbə, magistrant və doktorantların istifadəsinə verilmişdir.

"Türk petrolları" şirkəti hər il ADNA-nın yaxşı oxuyan tələbələrinin müəyyən hissəsinə təqaüd verməklə gələcəkdə əlaqəni inkişaf etdirməyi qarşıya qoymuşdur.

ADNA-nın Universitetlərin beynəlxalq assosiasiyalarına və digər təşkilatlarına üzv olması onun beynəlxalq əlaqələrini daha da zənginləşdirir. ADNA Avropa Universitetləri Assosasiyasının və "YUNESKO" statuslu "İNKORVUZ" təşkilatının üzvüdür.

**AZƏRBAYCAN TİBB UNIVERSİTETİ.** Azərbaycanda yüksək ixtisaslı tibb kadrlarının hazırlanması 1919-cu ilin noyabrında ilk Azərbaycan Demokratik Respublikası parlamentinin qərarına əsasən, tibb fakültəsi də daxil olmaqla dörd fakültədən ibarət Bakı Dövlət Universitetinin yaradıldığı vaxtdan başlamışdır. 1919-cu ilin may ayında tanınmış cərrah professor İ.Razumovskinin rəhbərliyi altında xüsusi hazırlıq komissiyası təşkil edilmiş, üç ay sonra isə universitet ilk tələbələrini qəbul etmişdir.

Tibb fakültəsinin yaradılmasında tanınmış alimlərdən professorlar İ.Şirokoqorov, S.Davidenkov, F.İlyin, L.Levin, N.Uşinski, K.Malinovski, P.Rostovsev, M.Çlenov və başqalarının böyük rolu olmuşdur. Universitetin tibb fakültəsinin açılması təkcə həkimlərin işinə deyil, həm də şəhərin tibb müəssisələrinin fəaliyyətinə mühüm təsir göstərdi.

Bakı Dövlət Universitetinin ilk buraxılışı 1922-ci ildə 30 məzuna şərəfli həkim adı verildi. Onların arasında iki azərbaycanlı qız da var idi: sonralar elmlər doktoru, professor adı alan Adilə xanım Şaxtaxtinskaya və məşhur həkim Ceyran xanım Sultanova.

Bu illərdə sonralar Azərbaycan tibb elmini dünyaya tanıtmış ilk milli elmi-pedaqoji kadrlar: M.Mirqasımov, M.Topçubaşov, M.Əfəndiyev, K.Balakişiyev, Ə.Əliyev, İ.İsmayılzadə, M.Kaclayev, A.Atayev, H.Tahirbəyov, D.Nuriyev, Z.Məmmədov və başqaları elmdə ilk addımlarını atırdılar. 1930-cu ilə kimi tibb fakültəsi 1407 həkim hazırladı. Onların arasında 292 azərbaycanlı oğlan və 56 qız var idi.

Azərbaycan SSR Xalq Komissarları Sovetinin 1930-cu il iyun ayının 19-da Bakı Dövlət Universiteti tibb fakültəsinin müstəqil, iki fakültəsindən ibarət (müalicə-profilaktika və sanitariya-gigiyena) tibb institutuna çevrilməsi haqqında verdiyi 287\99 saylı qərarı bu sahədə ən mühüm addım oldu.

Tanınmış ictimai xadim və xalq səhiyyə komissarı M.Qədirli tibb institutunun ilk rektoru olmuşdur (1930). Sonralar instituta ardıcıl olaraq N.Məmmədli (1931-1932), Ə.Əliyev (1932-1934), M.Hüseynov (1934-1935), Ə.Əliyev (1935-1938), M.Əliyev (1938-1942), Z.Məmmədov (1943-1946), B.Eyvazov (1946-1964), X.Həsənov (1964-1968), B.Məcidov (1968-1972), Z.Quliyeva (1972-1983), Y.Məmmədov (1983-1992) rəhbərlik etmişlər. 1992-ci ildən etibarən Azərbaycan Tibb Universitetinə SSRİ Dövlət Mükafatı Laureatı, Polşa elmlər akademiyasının həqiqi üzvi, Ümumdünya Onkoloqlar

və Avropa Bərpa Cərrahlığı Assosiasiyalarının üzvü, əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Ə.T.Əmiraslanov rəhbərlik edir.

1930-cu illərdə Azərbaycan alimlərinin yeni nəsli yarandı: Ə.Əliyev, H.Ağabəyov, Ə.Əlibəyov, M.Əfəndizadə, C.Abdullayev, R.Hüseynov, S.Hacıqasımov, Z.Hüseynbəyov, Ə.Həsənov, C.Hüseynov, G.Qurbanov, A.Qarayev və b. 1940-cı ilin əvvəllərində 3 fakültədə 45 kafedra fəaliyyət göstərirdi. İllik tələbə qəbulu 500 nəfər idi. 1940-cı il iyulun 1-də institutda 40 professor, 45 dosent, 137 assistent, 16 baş müəllim, 45 müəllim çalışırdı.

İkinci Dünya Müharibəsi illərində institut cəbhə üçün həkim hazırlanmasına böyük yardım göstərirdi. Cəbhənin yaxın olmasına baxmayaraq, 1941-1944-cü illər ərzində institutda bir gün də olsa dərslər dayandırılmadı, 2082 həkim hazırlandı.

Həmin illərdə ATİ-nin müharibə dövründəki fəaliyyəti yüksək qiymətləndirildi, institut 1943-cü ildə Keçici Qırmızı Bayraqla təltif edildi.

1957-ci il aprelin 29-u institut üçün tarixi gün oldu. Azərbaycan Respublikası Ali Sovetinin fərmanına əsasən, instituta tanınmış ictimai xadim, həkim, yazıçı N.Nərimanovun adı verildi və institutun bütün sonrakı fəaliyyəti onun adı ilə bağlı oldu.

Azərbaycan Tibb İnstitutu təşkil edilməsinin 50-illik yubileyi ərəfəsində səhiyyənin, tibb elminin inkişafında və tibb kadrlarının hazırlanmasında xidmətlərinə görə, "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edildi.

1991-ci il fevralın 4-də Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə ATİ-yə universitet statusu verilmişdir, o vaxtdan etibarən institut N.Nərimanov adına Azərbaycan Tibb Universiteti adlanır.

Son illərdə qabiliyyətli gənc alimlər öz elmi-tədqiqatlarını doktoranturada davam etdirirlər. Hazırda universitetdə 142 elmlər doktoru və 692 elmlər namizədi çalışır.

N.Nərimanov adına ATU ölkənin böyük və aparıcı tədris müəssisəsinə çevrilmişdir. Universitetin müalicə, pediatriya, tibbi profilaktika, tibbi biologiya, stomatologiya və əczaçılıq fakültələrində 7658 tələbə və hazırlıq şöbəsinin 68 dinləyicisi təhsil alır. Burada təhsil alan tələbələrdən 472 nəfəri Türkiyə, İran, Asiya, Afrika və Latın Amerikası ölkələrindən gələn gənclərdir.

Universitetdə 75 kafedranın əməkdaşları, o cümlədən, Azərbaycan Respublikası Elmlər Akademiyasının 2 akademiki, 1 müxbir üzvü, 15 əməkdar elm xadimi, 21 əməkdar həkim, 118 professor, 284 dosent, 513 assistent və 212 müəllim müxtəlif ixtisaslı kadrların hazırlanmasına xidmət edir.

Universitetin Həmkarlar İttifaqı Təşkilatı 2250 əməkdaşı öz ətrafında birləşdirir. Klinik kafedraların professor və müəllimləri xəstəxana bazalarında, poliklinikalarda fəal çalışırlar. Əhaliyə tibbi xidməti yaxşılaşdırmaq üçün yüksək ixtisaslı mütəxəssis briqadaları zona və zonalararası elmi praktik konfranslar, seminarlar keçirir, rayon tibbi müəssisələrinə himayədarlıq edirlər.

Universitetdə hazırlanmış kompleks proqrama əsasən uşaq ölümünü azaltmaq, doğumun sayını artırmaq üçün bir sıra tədbirlər həyata keçirilmişdir.

**Kafedralar:**

1. Tibbi-biologiya və genetika
2. Fəlsəfə
3. Mamalıq-ginekologiya
4. Oftamologiya
5. Dermatovenerologiya
6. Nevrologiya və Tibbi genetika
7. Daxili xəstəliklər
8. Cərrahi xəstəliklər
9. İnsan anatomiyası
10. Onkologiya
11. Klinik farmakologiya
12. Məhkəmə təbabəti
13. Daxili xəstəliklər propedevtikası
14. Neyrocərrahlıq kursu
15. Normal fiziologiya
16. Tibbi və bioloji fizika (informatika və hesablama texnikası kursu ilə birlikdə)
17. Ftiziopulmonologiya
18. Urologiya
19. Travmatologiya və ortopediya,
20. Ümumi cərrahlıq və anesteziologiya
21. Şüa diaqnostikası və terapiyası
22. Psixiatriya
23. Yoluxucu xəstəliklər
24. Poliklinika terapiyası
25. Hərbi hazırlıq
26. Fizioterapiya kursu
27. Patoloji fiziologiya
28. Uşaq xəstəlikləri
29. Uşaq cərrahlığı
30. Uşaq xəstəlikləri propedevtikası
31. Patoloji anatomiya
32. Histologiya, embriologiya və sitologiya
33. Farmakologiya
34. Əczaçılıq kimyası
35. Əczaçılıq texnologiyası
36. Neonatologiya
37. Uşaq və yeniyetmələr gigiyenası
38. Kommunal və qidalanma gigiyenası

39. Sosial gigiyena və səhiyyənin təşkili
40. Mikrobiologiya, virusologiya, immunologiya
41. Epidemiologiya
42. Ümumi gigiyena və ekologiya
43. Rus dili
44. Bioloji kimya
45. Azərbaycan dili
46. Operativ cərrahlıq və topoqrafik anatomiya
47. Xarici dillər
48. Bədən tərbiyəsi
49. Ortopedik stomatologiya
50. Terapevtik stomatologiya
51. Ağız və üz-çənə cərrahiyyəsi
52. Uşaq stomatologiyası
53. Otorinolorinqologiya
54. Ümumi tarix
55. İqtisadiyyat
56. Biofiziki və bioüzvi kimya
57. Ümumi və toksikoloji kimya
58. Latın dili
59. Əczaçılığın təşkili və iqtisadiyyatı
60. Farmakoqnoziya və botanika.

**İxtisaslar:** Müalicə işi, Pediatriya, Tibbi-profilaktika, Stomatologiya, Əczaçılıq, Terapevt, Cərrah, Pediatr, Uşaq cərrahı, Epidemioloq, Bakterioloq, Əmək gigiyenası, Stomatoloq.

Xarici ölkələrlə elmi əlaqələr möhkəmləndirilir. Universitet alimlərinin elmi işləri ABŞ, Avstraliya, Fransa, İsveçrə və digər ölkələrdə böyük maraq doğurmuşdur.

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ (NDU).**



Naxçıvan Dövlət Universiteti Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhərində yerləşir. Azərbaycanın qədim şəhərlərindən biri olan Naxçıvan şəhəri-

nin əhalisi 87 mindən çoxdur. Naxçıvan Dövlət Universiteti Naxçıvan şəhərində qədim diyarın indiki dövrdə əsas elm, təhsil və mədəniyyət mərkəzidir. Bu təhsil ocağının elmi-pedaqoji fəaliyyətlə məşğul olan 356 müəllimindən 2 nəfəri akademik, 5 nəfəri AMEA-nın müxbir üzvü, 32 nəfər professor və elmlər doktoru, 192 nəfəri fəlsəfə doktorudur.

Naxçıvan Dövlət Universiteti bu gün Yaxın Şərqin və Avropanın ən nüfuzlu universitetlərindən biri hesab olunur. Naxçıvan Dövlət Universitetinin Strasburq Universiteti (Fransa), İstanbul, Ankara, Ərzurum, Van universitetləri (Türkiyə), Təbriz Universiteti (İran), Qırğızıstan Beynəlxalq Universiteti (Bişkek) və s. əlaqələri vardır. Naxçıvan Dövlət Universiteti Azərbaycanın ən nüfuzlu və tanınmış dövlət ali məktəblərindən biridir.

Naxçıvan Dövlət Universiteti 1967-ci ildə yaradılmış Azərbaycan Dövlət Pedaqoji Universitetinin Naxçıvan filialının, beş il sonra isə müstəqil ali məktəbə çevrilmiş Naxçıvan Dövlət Pedaqoji İnstitutunun varisidir. 1990-cı ildə Naxçıvan Dövlət Pedaqoji İnstitutu Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə Naxçıvan Dövlət Universitetinə çevrilmişdir.





Xarici tələbələrin artımına görə Naxçıvan Dövlət Universitetinin nüfuzu ildən-ilə artır və əcnəbi tələbələr Türkiyə, İran, Rusiya, Nigeriya, Banqladeş, Cənubi Koreya, Türkmənistan və s. ölkələrdəndir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 12 iyun 2002-ci il tarixli sərəncamı ilə Naxçıvan Dövlət Universitetinə yüksək özünüidarə statusu, muxtariyyət hüququ verilmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev müxtəlif vaxtlarda (1974, 1992, 1999 və 2002-ci illərdə) dörd dəfə Naxçıvan Dövlət Universitetində olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvan Dövlət Universitetinin Elektron kitabxanasının və konservatoriyasının açılışında iştirak etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov universitetin inkişafına daim böyük qayğı göstərir və onun göstərişi ilə Naxçıvan Dövlət Universitetinin kitabxanası üçün yeni Avropa standartlarına uyğun beşmərtəbəli bina inşa edilmişdir.




Universitetin sahəsi 108 hektardır. Bura 18 tədris binası, kitabxana, universitet xəstəxanası, tələbə yataqxanaları, yeməkxanalar, konservatoriya, qapalı olimpiya tipli idman zalı, futbol meydançası, nəbatat bağı, müxtəlif muzeylər daxildir. Hazırda yeni komplekslərin tikilməsi nəzərdə tutulmuşdur.

Naxçıvan Dövlət Universitetinin fakültə ixtisaslarına uyğun auditoriyaları kitablar, xəritələr, musiqi əsərləri, elektron lövhələr, kompyuterlər, memarlıq və arxeologiya materialları, eləcə də digər avadanlıqlarla təchiz olunmuşdur.






Naxçıvan Dövlət Universitetinin kitabxana sisteminə 200000-dən çox artıq kitab daxildir. Bir çox görkəmli şəxslər kitabxanaya böyük miqdarda kitab hədiyyə etmişdir. 1996-2013-cü il tarixində Naxçıvan Dövlət Universitetinin rektoru

olmuş, hazırda AMEA-nın həqiqi üzvü, vitse-prezidenti akademik İsa Həbibbəyli şəxsi kitabxanasından 5000 ədəd kitab universitetin kitabxanasına hədiyyə etmişdir. İsa Həbibbəyli rəhbərlik etdiyi dövrdə özünün böyük təşkilatçılıq qabiliyyətini göstərmiş və idarəetmədə böyük xidmətləri olmuşdur. Akademik Budaq Budaqov, akademik Məmməd Cəfər Cəfərov, professor Zöhrab Vəliyev, professor Gültac Əliyeva və başqaları öz şəxsi kitab fondlarından universitetin kitabxanasına çoxlu sayda kitab hədiyyə etmişlər. Kitabxanadakı materiallar internet vasitəsilə geniş spektrdə oxucuların istifadəsinə verilib.

Əlavə ali təhsilin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 06 sentyabr 2010-cu il tarixli 163 saylı qərarı ilə təsdiq olunmuş "Əlavə təhsilin məzmunu, təşkili və əlavə ali təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydaları"na müvafiq olaraq aparılır. Naxçıvan Dövlət Universitetinin doktorantları və dissertantları üçün 2011-ci ildən etibarən Azərbaycan Milli Elmlər Akademiyası İnformasiya Texnologiyaları İnstitutu ilə universitet arasında distant təhsil həyata keçirilir.

Filial kimi fəaliyyət göstərdiyi illərdə ali məktəbdə üç ixtisas, Azərbaycan dili və ədəbiyyatı, tarix və riyaziyyat ixtisasları üzrə mütəxəssislər hazırlanırdı. 1972-c ildə Naxçıvan filialının bazası əsasında Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutu təşkil olunmuşdur. İnstitutda Azərbaycan dili və ədəbiyyatı, tarix, fizika, riyaziyyat, kimya, biologiya, əmək ixtisasları üzrə mütəxəssislər hazırlanırdı. 1990-cı ildən Dövlət Universitetinə çevrildi. Universitetdə pedaqoji istiqamətli mütəxəssislərdən başqa, hüquqşünaslar, avtomobil və rabitə mühəndisləri, iqtisadçılar və mühasiblər, bələdiyyə və gömrük işçiləri də hazırlanmağa başlandı. Müasir mərhələdə Naxçıvan Dövlət Universiteti mühüm elmi mərkəzlərdən biridir. 1992-ci ildən universitetdə aspirantura (doktorantura) şöbəsi və "Regionun inkişafı problemləri" adlı problem laboratoriya fəaliyyət göstərir.

Regionun İnkişafı Problemləri Laboratoriyası Naxçıvan regionunun zəngin maddi və mənəvi sərvətlərini, tarixi keçmişini, sosial-iqtisadi və mədəni inkişafı ilə bağlı məsələləri hərtərəfli şəkildə öyrənməklə məşğuldur.

Azərbaycan ikinci dəfə müstəqillik qazandıqdan sonra Naxçıvan Dövlət Universitetinin də həyatında yeni bir inkişaf yolu başlandı. Bu inkişafın əsas aparıcı xətlərindən biri də xarici tələbələrin universitetə cəlb edilməsi ilə bağlıdır. 1992-cı ilin noyabrında universitetə xarici tələbələrin ilk qəbulu qonşu Türkiyə Respublikasının vətəndaşlarından ibarət oldu. 12 nəfərlik kontingentin qəbulu o vaxt Naxçıvan MR Ali Məclisinin Sədri vəzifəsində işləyən, ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə Türkiyənin əlaqədar qurumları ilə Naxçıvan MR Təhsil Nazirliyi arasında bağlanmış müqaviləyə əsaslanırdı.

Azərbaycançünaslıq ideologiyasının təbliği, ölkəmizin və xalqımızın daha geniş və sistemli şəkildə tanıdılması istiqamətində aparılan mühüm tədbirlərdən biri də Naxçıvan Dövlət Universitetinin Magistratura pilləsində "Azərbaycanşünaslıq" seçmə fənninin tədris olunması və ayrıca olaraq bu sahənin əhatəli araşdırılması və öyrənilməsi üçün "Azərbaycanşünaslıq Mərkəzi"nin istifadəyə

verilməsidir. 2011-ci il sentyabr ayının 23-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri cənab Vasif Talıbov Magistratura üzrə dekanlığın nəzdində "Azərbaycanşünaslıq Mərkəzi"nin açılış mərasimində iştirak etmişdir.





Naxçıvan Dövlət Universitetində aspirantura (doktorantura) şöbəsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 avqust 1991-cu il tarixli 25 saylı qərarı ilə yaradılmışdır. 2010-cu ildən etibarən həmin qurum Azərbaycan Respublikasında yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanması ali təhsilin ən yüksək səviyyəsi olan doktorantura yolu ilə həyata keçirilir və müvafiq elmi dərəcələrin (elm sahələri göstərilməklə, fəlsəfə doktoru və elmlər doktoru) verilməsi ilə başa çatır.

Doktoranturada təhsil fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə aparılır.

Doktoranturada təhsilalma əyani təhsil (istehsalatdan ayrılmaqla) və qiyabi təhsil (istehsalatdan ayrılmamaqla) formaları üzrə həyata keçirilir.

Doktoranturada təhsilini həyata keçirən ali təhsil müəssisələri və elmi təşkilatlar elmi və elmi-pedaqoji kadr hazırlığını dissertantlıq (dissertantura) yolu ilə də reallaşdırır.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin doktoranturada və dissertantlıq yolu ilə təhsili Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq hüquqi və fiziki şəxslərin birbaşa bağladıqları müqavilələr əsasında həyata keçirilir. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin doktoranturada və dissertantlıq yolu ilə təhsili ödənişli əsaslarla aparılır. İllik təhsil haqqı təhsilin xüsusiyyətlərinə uyğun olaraq ali təhsil müəssisələrinin və elmi təşkilatların tabe olduqları qurumlar tərəfindən müəyyən edilir. Müstəsna hallarda ali təhsil müəssisələri və elmi təşkilatlar tabe olduqları qurumların razılığı əsasında ödənişsiz qəbul həyata keçirə bilərlər.

Xarici dövlətlərdə təhsil almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün ali təhsil haqqında diplomun notarial qaydada təsdiq edilmiş surəti və diplomun tanınması haqqında şəhadətnamə təqdim edilməlidir.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər fəlsəfə doktoru üzrə doktoranturada və dissertantlıq yolu ilə təhsil müddətində "Azərbaycan dili" fənnindən əlavə doktorluq imtahanı verirlər.




Əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin ali təhsil müəssisələrində və elmi təşkilatlarda doktoranturaya qəbulu və dissertant təhkim olunması, eyni zamanda təhsili mövcud Qaydalara və qüvvədə olan qanunvericiliyə uyğun həyata keçirilir.

NDU-nun adının tarixi:

-Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan fililalı (1967-1972)

-Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Universiteti (1972-1990)

- Naxçıvan Dövlət Universiteti (1990)

Rektorları:

-Əli Əliyev (1967-1970)

-Səfərəlı Babayev (1970-1972)

-İsrafil Məmmədov (1972-1977)

-İsak Məmmədov (1978-1984)

-İsgəndər Cəfərov (1985-1989)

-Qasım Hüseynov (1989-1996)

-İsa Həbibbəyli (1996-2013)



Hazırda Saleh Məhərrəmov (2013) Naxçıvan Dövlət Universitetinin rektorudur.

Naxçıvan Dövlət Universitetində 11 fakültədə 47 ixtisas üzrə 5 min nəfərə yaxın tələbə təhsil alır. Universitetdə ali təhsil bakalavr, magistratura və doktorantura pillələri üzrə yüksək ixtisaslı mütəxəssislər hazırlanır. Bu ali təhsil ocağında 10 ölkədən 200 nəfərdən çox xarici tələbə təhsil alır.

Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi və mədəni həyatında gedən dəyişikliklər, yeniliklər təhsil sahəsində özünü daha geniş əks etdirir. Keçirilən islahatlardan irəli gələn vəzifələrin həyata keçməsi Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri Vasif Talıbov tərəfindən mütəmadi olaraq diqqət mərkəzində saxlanılır.

**Naxçıvan Müəllimlər İnstitutu (NMİ).** Naxçıvan Müəllimlər İnstitutu 13 iyun 2000-ci ildə Naxçıvan Politexnik Texnikumunun bazasında yaradılmışdır. 2000-2003-cü illərdə Azərbaycan Müəllimlər İnstitutunun filialı olmuş, 2003-cü ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə müstəqil instituta çevrilmişdir.

2013-cü ildə Naxçıvan Müəllimlər İnstitutunun professor -müəllim heyəti 82 nəfərdən ibarət olmuşdur. Naxçıvan Müəllimlər İnstitutunun professor-müəllim heyətinin tərkibi belə olmuşdur: 9 elmlər doktoru, 40 fəlsəfə doktoru, 33 elmi dərəcəsi olmayan müəllim. Professor-müəllim heyətinin tərkibində 5 professor və 26 dosent olmuşdur. Kabinet müdirləri və metodistlərin ümumi sayı 20 nəfərdən ibarət olmuşdur. 2012-ci illə müqayisədə 2013-cü ildə institutdakı elmlər dokrorlarının sayı 2 vahid, fəlsəfə doktorlarının sayı 5 vahid, dosentlərin sayı 3 vahid artmışdır.

Naxçıvan Müəllimlər İnstitutunda 5 ixtisas üzrə bakalavr hazırlanır. Bu ixtisaslar aşağıdakılardır:

- İbtidai sinif müəllimliyi (əyani, qiyabi)
- Riyaziyyat və informatika müəllimliyi (əyani, qiyabi)
- Təsviri incəsənət müəllimliyi (əyani, qiyabi)
- Məktəbəqədər təlim və tərbiyə (əyani)
- Təhsildə sosial-psixoloji xidmət (əyani)

Magistraturada iki ixtisas üzrə magistr hazırlanır:

- İbtidai sinifdə tədrisin metodika və metodologiyası(əyani, qiyabi);
- Təhsildə sosial-psixoloji xidmət(əyani, qiyabi);

Naxçıvan Müəllimlər İnstitutu AMEA-nın Naxçıvan Bölməsi, AMEA-nın Riyaziyyat və Mexanika İnstitutu, Şamaxı Astrofikiza Rəsədxanası ilə sıx elmi əlaqələr saxlayır, birlikdə elmi-praktik konfranslar keçirir, görkəmli alimlərlə tələbələrin görüşlərini təşkil edir, onların potensialından tədris prosesində istifadə edir. AMEA Naxçıvan Bölməsi və AMEA Riyaziyyat və Mexanika İnstitutunda NMİ-nin əməkdaşlarından müqavilə əsasında doktorantlar və dissertantlar fəaliyyətlərini davam etdirirlər.

Naxçıvan Müəllimlər İnstitutu Xarici Ölkələrlə elm və təhsil sahəsində əməkdaşlıq məqsədilə 2013-cü ilin I kvartalında KKTC-nin Doğu Akdeniz Universiteti ilə, 26 noyabr 2013-cü il tarixdə isə Ərzurum Atatürk Universiteti ilə əməkdaşlıq müqaviləsi bağlamış və niyyət protokolu imzalamışlar.

Naxçıvan Müəllimlər İnstitutunda Xarici ölkələrlə elmi əməkdaşlıq daim diqqət mərkəzindədir. Bu məqsədlə ABŞ Riyaziyyatçılar Birliyi, Ukrayna Milli Elmlər Akademiyasının Riyaziyyat İnstitutu, Xarkov Universiteti, Ruminiyanın Konstansa Universiteti, Türkiyə Respublikasının Nigde Universiteti, Kocaeli Universiteti, Kars Kafkas Universiteti, Kırşehir Ahi Evren Universiteti, Ankara Universiteti, Kuzey Kıbrız Türk Cumhuriyyətinin Doğu Akdeniz Universiteti, İngiltərənin London Riyaziyyatçılar Birliyi, İran İR Marağa Astronomiya və Astrofizika Elmi-tədqiqat İnstitutu, Qazaxıstan Respublikasının Almaatı Milli Universiteti ilə əməkdaşlarımız sıx əlaqə saxlayır, beynəlxalq konfranslarda iştirak edir, onların elmi jurnallarında məqalələr çap etdirir, internet vasitəsilə əlaqə yaradılır.

Naxçıvan Müəllimlər İnstitutunda Əlavə təhsilin nəzdində kurikulum mərkəzi yaradılmışdır. Mərkəzin əsas məqsədi müxtəlif fənnlər üzrə fənn kurikulumların öyrədilməsi və tətbiq edilməsidir. Kurikulum mərkəzində kurikulum üzrə bank yaradılmış, informasiya mənbələri əldə edilmişdir. Mərkəz kurikulumun öyrədilməsi üçün müasir təlim texnologiyaları ilə zənginləşdirilmişdir. Mərkəzin əməkdaşları Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən orta məktəb müəllimləri üçün seminarlar təşkil etmiş, kurikulumun məzmunu, strukturu və tələblərinin öyrrədilməsi məsələləri ilə əlaqədar onlara köməklik göstərmişlər. Mərkəz öz işini daha da təkmilləşdirməkdədir.

Naxçıvan Müəllimlər İnstitutunda tələbələr və əmakdaşlara xidmət edən kitabxana fəaliyyət göstərir. 40000 kitab fonduna malik olan bu kitabxana son illərdə çıxan tədris-metodiki, elmi, monoqrafik xarakterli ədəbiyyatlarla zəngin-

ləşmiş və kitabxananın kataloq sistemi avtomatalaşdırılmışdır. 1300 adda dərslik, dərs vəsaiti və mühazirə materiallarının və "Xəbərlər" elmi jurnalının 35 nömrəsinin və institutda keçirilmiş elmi- praktik konfransların 9-nun elektron versiyaları hazırlanmışdır. 2013-cü ildə NMİ-nin kitabxanasına 215 adda 7000 nüsxə yeni ədəbiyyat daxil olmuşdur. 2013-cü ildə kitabxanaya 1200 nəfər müraciət etmiş və 120-dən artıq kənar oxucu kitabxanadan istifadə etmişdir.

İnstitutda 2004-cü ildən ali təhsilin magistratura pilləsinin pedaqogika nəzəriyyəsi və tarixi, 2006-cı ildən isə ibtidai təhsilin pedaqogikası və metodikası ixtisasları üzrə kadr hazırlığı aparılır. 2001-ci ildən institutun nəzdində ictimai əsaslarla "Heydər Əliyev lektoriyası" fəaliyyət göstərir.



Azərbaycan Müəllimlər İnstitutunun Naxçıvan filialının direktoru:
-Sadıx Vəliyev (2000-2003)
Rektorları:
-Sadıx Vəliyev (2003-2010)
Hazırda Ocur Həsənli (2010) Naxçıvan Müəllimlər İnstitutunun rektorudur.





# ƏDƏBİYYAT


1. Azərbaycan Milli Ensiklopediyası. Baku-2007.
2. Azərbaycan Sovet Ensiklopediyası. I-X cild. Bakı, 1976-1987.
3. Hüseyn Əhmədov. XIX əsr Azərbaycan məktəbi. "Maarif", Bakı-1985
4. Müdafiə Mahmudov. Dünyada və Azərbaycanda təhsil sistemi. Bakı: AzTU-nun nəşri, 2005, 52 s.
5. Misir Mərdanov. Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı: Çaşıoğlu, 2009
6. Misir Mərdanov. Azərbaycan təhsili dünən, bugün, sabah. Bakı, Təhsil, 2006
7. Müdafiə Mahmudov. Bolonya prosesi və Azərbaycan. ADPU-nun nəşri, Bakı-2008, 340 səh.
8. Müdafiə Mahmudov. Azərbaycanın Bolonya prosesinə daxil olmasının reallığa çevrilməsi. Bakı-2009, 247 səh.
9. Mahmudov M. Bolonya prosesi: problemlər, perspektivlər, reallıqlar. Bakı: Elm və təhsil, 2010 www.bologna.mgimo.ru.
10. Qısa siyasi lüğət. Azərbaycan Dövlət nəşriyyatı. Bakı -1966.
11. Səlahəddin Xəlilov. Təhsil, təlim, tərbiyyə. "Azərbaycan Unversiteti" nəşriyyatı. Bakı-2005.
12. Zahid Qaralov. Elm, saf əxlaq dünyasına açılan qapı. "Hüquq ədəbiyyat" nəşriyyatı Bakı-2010
13. İsaq Məmmədov, Çingiz Məmmədov. Azərbaycan tarixi. UniPrint Bakı-2009
14. İsaq Məmmədov, Çingiz Məmmədov. Siyasi tarix. "Adiloğlu" nəşriyyatı Bakı-2004
15. XX əsr Azərbaycan tarixi.Çaşıoğlu – 2004
16. Azərbaycan tarixi. Azərbaycan dövlət nəşriyyatı Bakı-1994
17. Azərbaycan tarixi. Azərbaycan SSR elmlər Akademiyası nəşriyyatı Bakı-1958
18. Болонский процесс в России.
19. Болонский процесс. http://showwoman.ru/balonskii protsess.php
20. Ирхин Ю.В. Политическая наука в образовательной системе Канады //Соц. – гуманит. знания. – 2004. -№ 1. – с. 234.
21. Ziya Bünyadov. Azərbaycan VII-IX əsrlərdə. "Elmi", Bakı-2005.
22. Касевич В.Б., Светлов Р.В., Петров А.В., Цыб А.А. Болонский процесс в вопросах и ответах- СПБ.: Издательство СПБГУ-2004.
23. Кобзев А.В. «Оксфордская» модель развития учебно-научноинновационного комплекса университета / А.В.Кобзев, А.Ф.Уваров // Инж. Образование. – 2004. - № 2. – с.
24. Коробов А.И. Наука и образование в университете Кембриджа / А.И. Коробов, Ю.В.Холин // Университеты. – 2005. -№1.–с.4-13.
25. Лукичёв Г.А. Решение вопросов признания высшего образования в Европейском пространстве высшего образования. www.russianenic.ru/publications/12html

26. Mahmudov M. Система образования в Азербайджане и во всем мире. АзТУ, Баку, 2006
27. Педагогическая энциклопедия. Т. 1-IV, Москва-1964.
28. Пока ещё не слишком поздно. Доклад Национальной комиссии Соединённых Штатов Америки по преподаванию математики и естественных наук в XX веке. 27
29. Пока ещё не слишком поздно. Доклад Национальной комиссии Соединённых Штатов Америки по преподаванию математики и естественных наук в XX веке. 27 сентября 2000 г. Министерство Образования США Вашингтон, 51с.
30. Проблемы перехода на многоуровневую систему педагогического образования: Материалы Всероссийского совещания. Калуга: КГПИ, 1992, 81 с.
31. Россия в Болонском процессе. Материалы международной рабочей встречи М: МАЭП-2004.
32. Ростовцев Д.М. Пути развития высшего образования в условиях рынка /Тезисы докладов международной научно-практической конференции. Высшая школа в нових социально – экономических условиях. С.Петербург: СПбГМТУ, 1994, 3 с.
33. Сахарчук Е.И. Проблемы магистерской подготовки в педагогическом ВУЗе. vspu@vspu.ru 2004, 13 с.
34. Селезнева Н.А., Суббето А.И., Алешин Н.В., Козлов В.Н. Новое качество высшего образования в современной России. Концептуально–программный поход / Под ред. Слезневой Н.А. и Суббето А.И. Москва: Исследовательский центр проблем качества подготовки специалистов, 1995, 199 с.
35. Системный анализ проблемы информатизации вуза. Пути решения проблем перехода к многоуровневому высшему образованию. Государственная научная программа Университеты России. Научный руководитель Вяткин Г.П.
36. Садовничий В. А. Слово об университетском образовании // Университеты и общество. Сотрудничество университетов в XXЫ века: Материалы Второй междунар. науч.–практ. конф. ун-тов: МГУ им. М.В.Ломоносова, 27-28 нояб. 2003 г. /Ред.кол.: В. А. Садовничий н др. – М., 2004. – с. 18-33.
37. Сенашенко В. Интеграционные процессы в сфере образования //Алма Матер. – 2006. -№3. –с.13-19.
38. EUA Graz Declaration 2003-Forward from Berlin: The Role of the Universities. İnternet məlumatı.
39. Mudafia Mahmudov. The education system in Azerbaijan and in the world. Publishing house – "AzTU" Baku -2006
40. Miçiqan Universiteti – **www.umijh.edu.**
41. Massaчusets Texnologiya Иnstitutu – **www.web.mit.edu**
42. Çikaqo Universiteti –**www.uchicago.edu**
43. Prinston Universiteti – **www.princeton.edu**
44. Stenford Universiteti – **www.stanford.edu**
45. Pensilvaniya Universiteti – **www.upenn.edu**

46. Kornell Universiteti – **www.cornell.edu**
47. Dyuk Universiteti – **www.duke.edu**
48. Con Hopkins Universiteti – **www.hu.edu**
49. Edinburq Universiteti –**www.ed.aj.uk**
50. Oksford Universiteti – **www.ox.ac.uk**
51. Münhen Texniki Universiteti – **www.tum.de**
52. Ruprext Karl Heydelberq Universiteti – **www.uni-heidelberg.de**
53. Leyden Universiteti – **www.leiden.edu**
54. İsveçrə Federal Texnologiya İnstitutu – **www.ethz.ch**
55. İsveç İnistutunun - **www.si.se**
56. Lozanna Federal Politexnik Məktəbi – **www.epfl.ch**
57. Tokio Universiteti – **u-tokyo.aj.cp**
58. Kyoto Universiteti – **www.kyoto-u.aj.cp**
59. Tokio Texnologiya İnstitutu – **www.titech.ac.cp.**
60. Osaka Universiteti – **www.osaka-u.ac.cp**
61. Seul Milli Universiteti – **www.snu.ac.kr**
62. Koreya Qabaqcıl Elmlər və Texnologiyalar İnstitutu – **www.kaist.edu**
63. Pekin Universiteti – **www.pku.edu.cn**
64. Honq Konq Universiteti – **www.hku.hk**
65. Tsinxua Universiteti – **www.tsinghua.edu.cn**
66. Honq Konq Elm və Texnologiya Universiteti – **www.ust.hk**
67. Sinqapur Milli Universiteti – **www.nus.edu.sg**
68. Avstraliya Milli Universiteti – **www.anu.edu.au**
69. Yeni Cənubi Uels Universiteti – **www.unsw.edu.au**
70. Monaş Universiteti - **www.monash.edu.au**
71. Kvinslend Universiteti - **www.uq.edu.au**
72. Sidney Universiteti - **www.sydney.edu.au**
73. Melburn Universiteti – **www.unimelb.edu.au**
74. Okland Universiteti – **www.auckland.ac.nz**
75. Orhus Universiteti - **www.au.dk**
76. Kopenhagen Universiteti - **www.ku.dk**

**Müdafiə Cəmil oğlu Mahmudov,**
*pedaqogika üzrə elmlər doktoru, professor*

Dünyada təhsil sistemləri

*Monoqrafiya*

Bakı – Mütərcim – 2014

Redaktoru
**Asif Xatabala oğlu Hacıyev,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

Texniki redaktor və kompyuter dizayneri **Quluzadə Günel Rüstəm qızı** və **Abdullayeva Şəbnəm Qəzənfər qızına** minnətdarlığımı bildirirəm.

***Kitab "Mütərcim" Nəşriyyat-Poliqrafiya Mərkəzində səhifələnmiş və çap edilmişdir.***

*Nəşriyyat redaktoru* – Əliş AĞAMİRZƏYEV

*Kompyuter səhifələnməsi* – Gövhər ALLAZOVA

*Üz qabığının dizaynı* – Cavid KİŞİYEV

Çapa imzalanıb: 08.04.2014.
Format: 70x100 1/16. Qarnitur: Times. Ofset çap.
Ofset kağızı. Həcmi: 30 ç.v. Tiraj: 500. Sifariş № 69.
Qiyməti müqavilə ilə.

**TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA
MƏRKƏZİ**

**Az 1014, Bakı, Rəsul Rza küç., 125
596 21 44; 497 06 25; (055) 715 63 99
e-mail: mutarjim@mail.ru**

www.mutercim.az